Fikir antologiyası

U-TSZİN



HƏRB SƏNƏTİ

2009
BAKI

İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI

FİKİR antologiyası



ONUNCU KİTAB

100 cildlik "Fikir antologiyası" seriyasından

dünya fəlsəfəsi korifeylərinin nəşri

Layihənin baş redaktoru
Qardaşxan Əzizxanlı



Az 2009
2168

U-TSZİN

HƏRB SƏNƏTİ

QƏDİM ÇİNİN YEDDİ HƏRB QANUNU



14568

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ARXİV

«Zəkioğlu» nəşriyyatı
Bakı – 2009

88068

Ц3(54Ин)

Tərcümə «Zəkioğlu» nəşriyyatı tərəfindən sifariş edilmişdir

Tərcüməçilər qrupu

U-TSZİN. HƏRB SƏNƏTİ (*Qədim Çinin yeddi hərb qanunu*), Bakı, *«Zəkioğlu», 2009*

«U-tszin» minillər boyu davam edən iğtişaşlar və müharibələrdən, dövlətlərin yaranmasından və süqutundan keçərək bizə gəlib çatan nadir, bəlkə də yeganə strateji düşüncəyə aid dərslikdir. Mübariz döyüşlərin və müharibələrin dərsləri, taktika və strategiya məsələləri, ordunun və dövlətin idarə olunması və misilsiz insan təcrübələri öyrənilmiş və nəsildən-nəslə ötürülmüşdür. Bütün bunlar yalnız Sun sülaləsi zamanı bir yerə toplanmış, korrektə edilmiş, nəhayət, təkcə hərbi düşüncənin əlifbasına çevrilməmiş, həm də həmin vaxtadək artıq iyirmi əsr mövcud olan böyük hərbi vəzifələrə keçmək üçün imperator imtahanlarının materialı olmuşdur.

Nüfuzlu şərqşünas və hərb. tarixçisi Ralf D. Soyerin qələmində orijinaldan ingilis dilinə çevrilmiş geniş tədqiqat və ətraflı şərhlərlə müşayiət olunan U-tszinin «Qədim Çinin yeddi hərb qanunu» kitabının ruscaya tərcümə edilmiş (tərcüməçi: R.V.Kotenko) və düzəlişlər olunan ikinci nəşrinin (AVROASİYA, Sankt-Peterburq, 2001) azərbaycan dilinə tərcüməsini oxucularımıza təqdim edirik.

Toplumuzun «Sun-tszı» və «U-tszı» bölmələri,– onlara N. Konradın verdiyi geniş şərhlərlə birgə «Sun-tszı. Hərb sənəti» (Moskva. EKSMO, Sankt-Peterburq.TERRA FANTASTİCA, 2003) kitabından (tərtibçi: K.Korolev) götürülərək tərcümə edilmişdir.

ISBN 978-9952-8137-0-8

© "Zəkioğlu" nəşriyyatı

KİTABIN İÇİNDƏKİLƏR

Müqəddimə 6
Ümumi giriş 10
Q eydlər26

Tay-qunun yeddi məxfi təlimi 27
Tədqiqat 30
Tərcümə 47
Qeydlər 113

Sımın metodları 115
Tədqiqat 117
Tərcümə 131
Qeydlər 148

Sun-Tszı. Hərb sənəti haqqında traktat 149
Nikolay Konradın şərhi 173

U-tszı. Hərb sənəti haqqında traktat 411
Nikolay Konradın şərhi 435

Vey-Lyao-tszı 493
Tədqiqat 495
Tərcümə 506
Qeydlər 540

Xuan Şi-Qunun üç strategiyası 541
Tədqiqat 543
Tərcümə 553
Qeydlər 566

Tan hökmdarı -Tay-Tszunun sualları və Li Vey-qunun cavabları 567
Tədqiqat 569
Tərcümə 578

Qeydlər 617

MÜQƏDDİMƏ

XX əsrin 70-ci illərindən başlayaraq Çin haqqında yazılan kitablar və məqalələr daha çox məşhurluq qazanmağa başlamışdır. Yaponiyanın iqtisadi uğurları, 80-ci illərdə bu ölkəyə aid olan hər şey və xüsusən, Yaponiyanın menecment təcrübəsi Qərbdə böyük müzakirələrə və mübahisələrə gətirib çıxardı. Şərq fəlsəfəsi və yaşamaq strategiyası korporativ müharibələrə davam gətirməyə və öz kapitalını artırmağa həddindən çox imkan yaratdı.

Məşhur yapon qılıncbazı Musasinin və Qədim Çin hərb nəzəriyyəçisi Sun-tszının əsərləri dəfələrlə xarici dillərə tərcümə olunmuş, tədqiq və müzakirə edilmişdir. Bununla belə, hərb sənətinə dair bu və başqa kitablar, Çin hərb klassikasının iri həcmli məcmuələri müasir dövr üçün zəruriliyinə və öz tarixi əhəmiyyətinə baxmayaraq, dünyada hələ ki, tanınmır.

Tamamilə mümkündür ki, Çin hərb düşüncəsi dörd və ya beş əsr əvvəl neolit kəndləri arasında baş vermiş ixtilaflar zamanı meydana gəlmişdir. Əgər ənənələrə inansaq, bu ixtilaflarda əfsanəvi qəhrəmanlar və olduqca müdrik imperatorlar iştirak edirdilər. Döyüş əməliyyatlarının keçirilməsi strategiyası silahların və taktika sənətinin təkmilləşdirilməsini tələb edirdi.

Çoxlu sayda əsgərə malik olan qəbilə və nəsillərin başçıları tədricən başqa qruplarda və torpaqlarda öz təsirini genişləndirir və az vaxtda böyük siyasi qüvvəyə çevrilirdilər. İlkin yazılı mənbələr və arxeoloji tapıntılar göstərir ki, tarixi dövrün ilk çağlarında onların arasında daim gərgin ixtilaflar baş vermiş, dövlətlər yaradılmış və hakimiyyəti ələ keçirənlər vahid idarəçilik yaratmağa və sülalənin əsasını qoymağa səy göstərmişlər.

Döyüşlərin miqyası genişlənir, qüvvələr və silahların səmərəliliyi artır, hərbi strategiya, taktika və texnologiya inkişaf edirdi.

Nəhayət, mübariz döyüşlərin dərsləri və komandanlığın təcrübəsi şüurlu şəkildə mənimsənilməyə başlayır; adamlar nail olunanları əldə saxlamağa və keçmişin səhvlərindən yaxa qurtarmağa cəhd göstərirdilər. Hərbi taktika və strategiya elmi beləcə yaranır.

Miladdan əvvəl II əsrə qədər Çin min illər boyu aramsız ixtilaflardan keçmiş, hər cür qəddarlıqla geniş və qüdrətli imperiyada birləşmişdir. Bir çox məşhur sərkərdələr meydana çıxmış, mühüm döyüşlər baş vermişdir. Həmin vaxtdan müharibələr, praktiki olaraq ara verməmişdir. Bu müharibələr böyük dağıntılara səbəb olmuş, saysız insanlar həlak olmuşlar. Və ən vacib döyüşlər qələmə alınmışdır. Hərbi mövzuda yazılan və ölkənin birləşməsinədək qorunub saxlanan az sayda əsərlər arasında, Sun-tszının «Hərb sənəti» əsəri də daxil olmaqla, altı başlıca əsər vardır. Bu əsərlər Sun sülaləsi zamanında bir yerə toplanıb korrektə edilərək on iki əsr öyrənilmiş və nəsildən- nəslə ötürülmüşdür.

Onlar Tan sülaləsi dövründəki əsərlərlə bərabər hərbi fikrin əlifbasına və hərbi vəzifəyə imperator imtahanının materialına çevrilən «Yeddi hərb qanunu»nun əsasını təşkil edir. Arxeoloqlar 70-ci illərin əvvəllərində Xan (miladdan öncə 206-cı– miladın 220-ci illəri) sülaləsi dövründə yaşayan yüksək rütbəli məmurun məzarının qazıntısı zamanı əla qorunmuş bambuk taxtaları üzərində yazılan külli miqdarda əhəmiyyətli mətnlər aşkar etmişlər. Tapılan hərbi əsərlərdə «Yeddi hərb qanunu»nun bəzi əsas hissələri və Sun Binin «Hərbi metodlar»ının geniş fraqmentləri aşkarlanmışdır. Bu kitabın Sun-tszının kökündən olmasına və Xan sülaləsi zamanı tərtib olunan biblioqrafik siyahılara daxil edilməsinə baxmayaraq, çox güman ki, o artıq həmin sülalənin vaxtında yoxa çıxmış və iki min ilədək itmiş hesab olunmuşdur. Bu maraqlı tapıntı bizə məlum olan qədim əsərlərin sayını səkkizə çatdırmışdır. Yüzlərlə digər hərbi traktatlar isə daha sonralar yazılmışdır.

Taktikaya dair əsərlərin bütün Çin tarixi ərzində yaradılmasına baxmayaraq bir çox geniş toplular ötən əsrlər boyunca səliqəsizlik, təbii dağıntılar və müharibələr üzündən məhv olmuşlar. Bununla belə, qədim epiqrafik materiallar və «Tszo çjuan» və «Şi tszi» kimi tarixi əsərlər də sərkərdələrin və hökmdarların döyüş rəşadətləri barədə məlumatları özündə əks etdirir və onların amalları barədə geniş söhbət açır. «Döyüşən çarlıqlar» dövrünə aid fəlsəfi əsərlərə isə hərbi mövzuda müzakirələr daxildir. Mənbələr çoxdur, lakin «Tszo çjuan» və «Yeddi hərb qanunu»ndan ikisi (Qriffitin tərcüməsinə əlavə edilən Sun-tszının «Hərb sənəti»nin üç əsas variantı və U-tszının bir neçə ikinci dərəcəli variantı) Avropa dillərində çap olunmuşdur.

Qədim Çinin hərbi əsərləri heç də itməmiş və unudulmamışdır. Onlar iyirminci əsrin təfəkküründə ortaya çıxmışdır və indi Asiyada ikinci həyatına qədəm qoymuşdur. 80-ci illərdə meydana gələn menecmentliyə dair kitab Sun-Tszının fikirlərinə yeni həyat bəxş etdi, şirkətin işçilərinin biznesin və marketinqin əsaslarını öyrənməsi üçün bəzi əfsanəvi qədim qəhrəmanların obrazlarını yenidən canlandırdı. O, əjdaha-kommunist Çinində və kapitalist Honkonqunda bestsellərə çevrildi. Yaponiya şirkətləri dövri olaraq korporativ strategiya qismində istifadə oluna bilinəcək qədim taktiki ideyaların aşkarlanması üçün təhqiqat qrupları təşkil edirlər. Şəxsi valyutasına yeni qiymət qoyulması, daxili bazarını açmaq və ticarətin məhdudlaşdırılması qaydalarına riayət etmək tələbi üzrə beynəlxalq təzyiqlərə məruz qalan koreyalılar bu kitablardan beynəlxalq biznesə tab gətirməyə kömək edən ideyalar əxz edirlər.

Koreyadakı vəziyyətə oxşar situasiyada olan Tayvandakı şirkətlərdə on illər ərzində ehtiyat etdikləri,– biznesdə, idmanda, fond bazarında və həyatda qədimliyin strategiya metodlarının tətbiqi ilə əlaqədar kitablar birdən-birə populyarlaşdı. Hər il Yaponiyada bir elmi tərcüməyə,– elmi əsər barədə bir neçə sadələşdirilmiş və

populyar dildə yazılmış əlavələr işıq üzü görür. Şəhər ətrafından işə gedən hər şeyə hazır klerklərin (orta kontor işçilərinin) belə nəşrləri oxuması heç də təsadüfi deyil; komiks həvəskarları üçün də xüsusi kitablar nəşr edilir. Təbii ki, bütün Asiyada hərbi qanunların bu və ya digər ideyalarına romanlarda, kinoda, televiziyada və kütləvi informasiya vasitələrində də rast gəlinir.

Müxtəlif mənbələrdən ortaya çıxan materialların təsiri altında Qədim Çində bütün hərbi məsələlərə dərin və hərtərəfli girişlərdə yanıltmalar olduqca böyükdür. Hərbi düşüncə mövzusunda strategiyanı, taktikanı və təkamülü anlamaq üçün çoxlu xüsusi tədqiqat və təhlillər lazımdır.

Bununla belə, biz şüurlu şəkildə tarixi kontekstə, sursatın və silahın təkmilləşməsi prosesinin şərhinə daha çox diqqət ayırmışıq və səmərəsiz intellektualizmləşdirmədən uzaq olmağa çalışmışıq. Biz sonuncu məsələyə heç də tam laqeyd baxmamış, sadəcə, daosizm və hərbi düşüncə arasındakı qarşılıqlı münasibət kimi mövzulara səthi yanaşmışıq. Bununla belə, prinsipcə bu cür məsələlər xüsusi monoqrafiyalarda üstünlük təşkil edir. Eyni zamanda, müxtəlif anlayışların mövcud qeyri-adi xüsusiyyətlərini qeyd etsək də, biz dərin təhlilə varmamış və texniki detalları müzakirə etməmişik; ordunun cəbhə boyu düzülməsinin konkret taktikası, strategiyanın ümumi tətbiqi kimi problemlər «Yeddi hərbi qanun»dan kənarda qalmışdır. Bundan başqa, biz yalnız «Quan-tszı», «Şan vilayəti hökmdarının kitabı» kimi hərbi traktatların və «Döyüşən Çarlıqlar» dövrünün digər fəlsəfi mətnlərini xatırlatdıq ki, onlarda da hərbi siyasət, inzibati tədbirlər və strateji konsepsiyalar müzakirə olunur. Bu və çoxlu digər mövzular, o cümlədən hər bir qanundakı ideyaların və metodların oxşarlığının sistematik təhlili öz-özlüyündə ciddi öyrənilmə tələb edir. Belə ki, onların «Yeddi hərb qanunu»na daxil edilməsi tələskənlik olardı və onsuz da bu iri həcmli kitabı daha da iriləşdirərdi. Biz onlara gələcək işlərimizdə diqqət ayıracağıq. Həmin işlərdə hərbi texnologiya və taktiki düşüncənin qarşılıqlı təsirindən söhbət açılacaqdır.

Sülalələr dövrünün təxmini xronologiyası

Sülalələr	illər
Qədimdəki əfsanəvi imperatorlar	*miladdan öncə (m.ö.) 2852-2255-ci illər*
Sya	*2205-1766*
Şan	*1766- 1045*
Çjou	*1045-256*
Qərbi Çjou	*1045-770*
Şərqi Çjou	*770-256*
«Baharlar və Payızlar»	*722-481*
«Döyüşən Çarlıqlar»	*403-221*
Tsın	*221-207*
Erkən Xan	*m.ö. 2006-cı il– miladın 8-ci ili*
Gecikmiş Xan	*23-220*
Altı sülalə	*222-589*
Suy	*589-618*
Tan	*618-907*
Beş sülalə	*907-959*
Sun	*960-1126*
Cənubi Sun	*1127-1279*
Yuan (Monqol)	*1279-1368*
Min	*1368-1644*
Tsin (Mancuriya)	*1644-1911*

ÜMUMİ GİRİŞ

TARİXİ KONTEKST VƏ HƏRBİ QANUNUN FORMALAŞMASI

İmperator Çininin mövcud olduğu iki min illik dövr ərzində baş verən amansız müharibələrin təhlili zamanı hərbi fikirlər yaxşı şöhrət qazanmamışdı və etinasız münasibətlə qarşılanmışdı. Fırıldaqçı konfusianlar Konfusianın və ya Konfusinin təliminə əhəmiyyət verməyərək, Xan dövründən başlamaqla hərbi peşələri və hərbi fəaliyyətin istənilən aspektlərini səmimi və ya yalandan müzakirə edir və əsrlər keçdikcə onları daha gur səslə məzəmmətləyirdilər. Lakin onların özünə vurğunluqları olsa belə, «vəhşilərin» törətdikləri təhlükələr və köçəri tayfalarla ara verməyən daimi toqquşmalar zamanı millət ordusuz və sərkərdəsiz keçinə bilməzdi.

Çoxsaylı hərbi traktatları qiymətləndirmək və öyrənmək baxımından deməliyik ki, dəfedilməz fələk peşəkar sərkərdələr nəslini və daha sonra strategiyaya dair əsərləri daim izləmişdir. Həmin əsərlər konfusian hərbi qanun və digər klassik əsərlərlə müqayisədə olduqca xırda görünür və maksimum bir neçə yüz mətndən ibarətdir.

«Döyüşən Çarlıqlar» (m.ö. 403-221 illər) dövründəki məşhur filosofların, o cümlədən Şan Yanın[1] əsərlərinin ayrı-ayrı fəsillərində hərbi məsələlər, olduqca hərtərəfli, müzakirə olunurdu.

Syun-tszı və Xan Tey-tszı[2] da daxil olmaqla bir çox alimlər dövlətin idarə olunması və hərbi təşkilatlanmanın, dövlətin rifahı naminə əsgərlərin təlimi, igidliyin xüsusiyyətləri və siyasi fəaliyyətin mühüm problemləri üzərində düşünürdülər. «Tszo-çjuan»[3] və digər tarixi əsərlər, sadəcə, müxtəlif nazirliklərin sözlərini qeyd edir və döyüşləri hərtərəfli şərh etməkdən uzaq olmaqla ən məşhur strategiyalar barədə ümumi təəssürat yaradırdılar.

Strategiya və taktikaya dair bəzi qədim əsərlər xüsusi məşhurluq qazanmışdı və Sun dövrünün (təxminən1078-ci il) alimləri saxlanan əsərlərin altı vacib mətnini toplamış, bu mətnlərdə düzəlişlər aparmış, onları korrektə etmiş, Tan sülaləsinin əsəri kimi ona əlavələr etmişlər. «Yeddi hərb qanunu» belə yaranmışdır. Tərtib olunan xülasə dövlətin hərbi imtahanları üçün əsas mətnə və eyni zamanda bütün mümkün olan taktiki və strateji konsepsiyanın əsasına çevrilmişdir.

Barbarların fasiləsiz qəfil hücumlarına və digər xarici təhlükələrə baxmayaraq, imperator Çinində təcavüzə qarşı çıxmaq hərbi metodlarına az əhəmiyyət verilmişdir. Burada Erkən Xan dövründən xəstəlik halı alan eksponsionist siyasət və sülalənin ilk illərində hakimiyyətə gələn Tan imperatoru Tay-tszun kimi gənc enerjili imperatorların hökmranlığı istisna təşkil edir. Hökmdarlar və nazirlər mədəni cazibədarlıq haqqında əfsanəyə inanmağa üstünlük verirdilər. Onun vasitəsilə, səxavətliliyə[4] əsaslanan və maddi

həyatda açıq-aşkar üstünlüyə malik olan, qeyri-sivil xalqların düşmənçilik əhval-ruhiyyəsini hesaba almayan Çin sivilizasiyasını geridə qoyurdular. Peşəkar ustaların musiqi və qadınlarla zəngin olan əsərlərinin hamısı inanırdılar ki, ən cəsurları çaş-baş sala və zəiflədə bilər. Əgər onları tabe etmək və yumşaltmaq olmazsa, onlara qarşı digər köçəri tayfalardan istifadə etmək, əsrlər boyu əziz tutulan «barbarları barbarların əli ilə əzməli» [5] ənənəsindən istifadə etmək olar.

Xan sülaləsi dövründə ortodoksal fəlsəfəyə və dövlət ideologiyasına çevrilən konfusian doktrinasına əsasən hökmdar yalnız öz xeyir toxumunu əkməli, ilin fəsilləri ilə harmoniyada və rəhmdil olmalıdır ki, Səmanın bərəkətli köməyini və qaydalara riayət olunmasını əldə etməyə nail olsun. Təbii ki, digər baxışlar da mövcud idi. Hətta Konfusidən sonra ən böyük konfusiançı olan Mentszı (m.ö. 371-289-cu illər) da ən pis hökmləri cəzalandırmaq və insanları iztirablardan xilas etmək üçün cəza tədbirlərinə tərəfdar idi.

Bununla belə, bəzi imperatorlar istisna olmaqla, böyük ərazi üzərində Çin ittifaqı yaratmaq istəyən Suy sülaləsindən (605-617) olan Yan-di kimiləri nəticədə ölkəni xarabaya, xalqı isə dilənçiliyə sürükləmiş, hərbi işlərlə həvəssiz məşğul olmuşlar. Məmur bürokratların çox hissəsi hər şeyə,- əsgəri işlərə və müharibəyə barmaqarası baxırdılar.

ÇİNDƏ HƏRBİ İĞTİŞAŞLARIN TƏKAMÜLÜ VƏ SİLAH

Şan

Çin hərbi fikri əsrlər boyu strategiyanın formalaşdırılması və döyüş aparılması qaydalarını cilalayaraq silahın təkamülünü, iqtisadi şəraitləri və siyasi hakimiyyəti əks etdirmişdir. Şan zamanındakı tarixi dövrün əvvəllərində tətbiq olunan taktika ordunun sayının artması sayəsində tikanlı və atıcı silahların yeni növlərinin meydana gəlməsi nəticəsində böyük sürətlə və ardıcıllıqla dəyişmişdi. Bununla yanaşı, təşkilatlanmaya, intizama, məqsədlərə və köklü prinsiplərə aid olan nəzəri cəhətlər öz əhəmiyyətini saxlayan və Tszin sülaləsinin «Döyüşən Çarlıqlar» dövrünə son qoyaraq imperiyanı birləşdirən vaxtlaradək tətbiq edilmişdir.

Şan sülaləsi teokratik (siyasi hakimiyyətin ruhanilər əlində olan idarə üsulu) dövləti idarə edirdi, onun hakimiyyəti hərbi ustalıqda nəsilliklə aristokratlığa, həmçinin dini etiqadlara və müvafiq institutlara arxalanırdı. Əhali dörd sinfə bölünmüşdü: hakim ailələr; məmur vəzifələrini və digər aristokratiyanı yerinə yetirən nəslin qəbilə üzvləri; sadə adamlar, yəni asılı kəndlilər və qullar. Hökmdar domeni (şəxsi mülkü) ərazisində böyük ixtiyar sahibi olub, əyalət torpaqlarındakı knyazlardan sədaqətli olmağı tələb edirdi. Təhsil görən və müəyyən səviyyədə mədəniyyətə yiyələnən aristokratlar sarayları və məbədləri olan böyük şəhərlərdə yaşayırdılar. Sadə

xalq qazmalarda məskunlaşaraq ilin çox hissəsini kənd təsərrüfatı və ya müxtəlif sənətkarlıqla məşğul olurdu, bundan başqa isə o, hərbi mükəlləfiyyət daşımalı və hərbi kampaniyalarda iştirak etməli idi.

Bürünctökmə texnologiyası Şanın hökmranlığının rəsmi başlanğıcı anından bütün dövr ərzində (ənənəvi olaraq bu tarix m.ö.1766-cı il, yəni onun Tan İ Sya üzərində qələbə çaldığı vaxtdan m.ö. 1045-ci ildə Çjounun zərbəsi altında məğlub olduğu vaxtadək hesablanır) sürətlə inkişaf etdi. Ustalıqla seçilən ağır qabları hökmdarın hakimiyyətinin əsaslandığı əcdadlara pərəstişin böyük əhəmiyyət kəsb etdiyinə sübut olmaqla texniki nailiyyətlərin səviyyəsini, eyni zamanda Şanın dövləti səmərəli idarə etdiyini və təbii sərvətlər üzərində inhisarlığa malik olduğunu göstərir. Əgər silah əsl bürüncdən hazırlanırdısa, sadə adamların kənd təsərrüfatı alətlərinin və sursatlarının materialı üçün isə ağac və heyvan sümüklərindən istifadə olunurdu. Darı və gec yetişən taxıl əsas məhsullar idi, məhsul yığıldıqdan sonra onu mərkəzi anbarlarda saxlayırdılar. Düyü barədə məlumatları vardı, lakin o, əsasən, cənubda yetişdirildiyindən hökmdarlar üçün əziz nemət olaraq qalırdı. Kənd təsərrüfatında və ovda əsası qoyulan maddi məhsulun səviyyəsi iri şəhərləri təchiz etməyə imkan verirdi. Bəzi heyvanlar– qoyunlar, buynuzlu mal-qara və itlər artıq əhliləşdirilmişdi, həmçinin ipək və kətan istehsal olunurdu. Ev əşyalarını azacıq ustalıqla gildən hazırlayırdılar.

Şan sülaləsinədək hərbi qarşıdurmalar məskunlar arasında hücumlar və toqquşmalar şəklində baş verirdi. Baxmayaraq ki, ayrı-ayrı rəhbərlər, görünür, hansısa höküмət orqanın əsaslarını müəyyən etdilər və Sya sülaləsinin baniləri kimi yerli qohumluq ittifaqlarının yerli liderləri də peyda oldu.

Şanın hakimiyyətə gəlməsi və mərkəzi hakimiyyətin (administrasiyanın yox) təsdiq olunması ilə sayı min nəfərə qədər olan daimi qvardiya yaradıldı. Zəruri hallarda əsgərlərin sayı artırıla da bilərdi: bu zaman nəsillərin başçıları və sahibkar knyazlar əlavə ordunu təchiz etməyə borclu idilər. Adi orduya hökmdarın özünün komandanlıq etməsinə baxmayaraq, artıq hərbi bürokratiyanın əlamətləri mövcud idi. Hərbi kampaniya sərhədyanı düşmənlərə qarşı 3-5 minədək, hədə-qorxu gələn dövlətə qarşı hücum üçünsə, 13 minədək adam tələb edə bilərdi. Döyüşün taleyi, əsasən, bir toqquşmada həll olunurdu. Lakin o da məlumdur ki, bəzən döyüşlər bir neçə gün davam edirdi. Ordu üç hissəyə bölünürdü: sol cinah, sağ cinah və mərkəz[6] və iki bölmədən ibarət olurdu: yardımçı funksiyaları yerinə yetirən pis təşkil olunmuş piyada və nəhayət, hərbi xidmət keçən və dövlətin dayağı sayılan məharətli əsgərlərlə idarə olunan cəng arabaları.

Şan sülaləsinin apardığı müharibələr aşağıdakı məqsədləri güdürdü: İttifaqın yaradılması və ya möhkəmləndirilməsi, kütləvi şəkildə əsirlər və sərvət ələ keçirmək. Baş mülkün hüdudlarından

kənarda olan ərazilərə nəzarət, hər şeydən əvvəl, mərkəzi idarə vasitəsilə deyil, vassallar sistemi vasitəsilə həyata keçirilirdi. Qarət olunan sərvət hakim evin var-dövlətini artırırdı və xidmətə görə mükafatlandırmaya imkan verirdi. Bəzi əsirləri qula çevirir və tarla işlərində və evdə istifadə edirdilər. Lakin onların əksəriyyətini qurban kəsirdilər ki, bu da Şan dini ayinlərinin bir hissəsi idi.

Şan sülaləsinin bir neçə yüz illik hökmranlığı zamanı hər bir əsgərə bürüncdən silah verirdilər.

Ən sevimli silah «qe», alebard, sonralar isə nizə və kaman idi ki, onların sıxılma qüvvəsi 160 funta çata bilərdi və xeyli məsafəyə vurmağa imkan verirdi. Xəncərlər və kiçik baltalardan yaxın döyüşlərdə istifadə edirdilər; dəri yaraqlar və qalxanlar ən çoxu kollektiv vuruşlarda tətbiq edilir, tikanlı və metal silahlardan adamı heç də pis qorumurdular. Bürünc dəbilqələr oxları və sürüşkən silahları dəf etməli idi, nizə və qalxanlar isə əlavə olaraq nazik bürünc lövhələrə bərkidilirdi.

«Döyüşən Çarlıqlar» dövründəki təsəvvürlərə uyğun olaraq silahların qarışıq tipli olmasının üstünlüyü həm yaxın, həm də uzaq vuruşmalarda istər hücuma keçməyə, istər müdafiə olunmağa imkan verməli idi. Bundan başqa, qılınc xəncərdən, bəlkə də təbərzindən «boy atmaqla» yavaş-yavaş təkamül tapırdı və əsl qılınclar yalnız «Döyüşən Çarlıqlar» dövrünün ortalarında geniş yayılmağa başladı.

Şan dövrünün sonlarında, Qərbi Çjou və «Baharlar və Payızlar» (m.ö. 722-481-ci illər) dövrlərində cəng arabalarının mühüm döyüşlərdə tətbiqi (m.ö. 403-221-ci illərdə «Döyüşən Çarlıqlar» dövründə) də tükənməmişdi və onu tədricən çoxsaylı piyadalar, m.ö. III əsrdə isə süvarilər sıxışdırıb aradan çıxarmışdı.

Çin ənənəsi təsdiq edir ki, Şan səxavətini itirən Sya sülaləsi ilə mübarizədə 70 cəng arabasından istifadə etmişdir. Bununla belə, iyirminci əsrin tekstoloji tədqiqatlarla sübuta yetirilən arxeoloji tapıntıları göstərir ki, cəng arabaları, Çində yaradılmamışdır və Şan sülaləsinin hökmranlığı dövrünün ortalarında, təxminən m.ö. 1300 və 1200-cü illər arasında Mərkəzi Asiyadan Çinə keçə bilməzdi.

Cəng arabalarından ilk əvvəl mərasimlərdə və yük daşımalarında istifadə olunmuş və sonralar onları ovlarda və döyüş əməliyyatlarında tətbiq etməyə başlamışlar.

Epiqrafik materiallar təsdiq edir ki, şanlılar cəng arabalarını artıq döyüş vasitəsinə çevrildikdən sonra piyadaların birləşməsinə arxalanmaqda vuruşmalara davam etmişlər. Həqiqətən, Şanın hökmranlığı dövrü ərzində cəng arabaları nüfuzunu itirməmişdir. Vuruşmalar zamanı onlar ən çoxu irəliləməkdə sürəti təmin etmiş və döyüşdə iştirak etməyərək, komanda qərargahı rolunu oynamışlar.

Son Şan və Çjou dövlətlərində cəng arabalarının heyətləri üç nəfərdən ibarət idi: arabaçı, kamançı- solda və alebardalı əsgər-sağda. Beş cəng arabası bölməni, beş bölmə isə dəstəni təşkil edirdi. Hər cəng arabasına 10-25 süvarini, sonralar isə 125

əsgərədək olan avanqardı müdafiə etmək həvalə olunurdu. Şanın cəng arabaları düzbücaq formada idi. Bu arabalar çoxlu millərdən, iki bərk təkərdən ibarət olurdu. Arabaya iki at qoşulurdu. Spesifik təlimlərdə cəng arabalarından istifadə olunmaqla böyük miqyaslı ovlar edilirdi ki, bu da onu idarə etmək sənətini, atıcılığı və hərəkətdə olan platformalarda vuruşmağı təkmilləşdirməyə imkan verirdi. Araba olduqca bahalı döyüş vahidi idi,- axı onun detallarını xüsusi ustalar təmir edirdilər. Buna görə də, cəng arabalarında yalnız adlı-sanlı nəsillərdən olan əsgərlər vuruşurdular və hərdənbir onlara sadə əsgərlər əlavə olunurdu. Döyüşlər müvafiq ayinlərindən sonra (lakin bu halda sonrakı romantikləşdirmə ilə əlaqədar olaraq) müəyyən sayda fərdi toqquşmalar zəminində cərəyan edirdi. Bəzi alimlər mənbələrdə at üstə ov barədə xatırlatmalar axtarırdılar. Lakin onların mülahizələri bəzi şübhələr doğurur: çox güman ki, atları yalnız cəng arabalarına qoşurdular. İstənilən halda yəhərsiz və yüyənsiz atlıya, əlavə olaraq, uzun paltarlar da maneçilik törədirdi və buna görə, araba m.ö. III əsrədək səmərəli döyüş vahidi ola bilməzdi.

Çjou

Çjou sülaləsi bir çox illər boyu gizli hazırlıq və hiyləgər ittifaqlar bağlamaq, bir sıra kiçik dövlətləri özünə tabe etdirmək, müxtəlif tayfaları və xalqları ələ almaq kimi tədrici ekspansiyasından sonra Muzeydəki həlledici döyüşlərdə qələbə çalaraq hakimiyyətə gəlmişdi. Gələcəkdə, çox güman, Syanın varisi olacaq çjouçular əvvəlcə şimalda yaşayırdı, lakin döyüşkən nəsillərin daimi basqınları üzündən cənuba, Vey çayı vadilərinə doğru irəliləməyə məcbur oldular. Zahirən Şan mədəniyyətinin təsiri altında olan çjouçular, bununla belə, Şan sülaləsinin bir çox maddi nailiyyətlərini sərbəst surətdə əxz edə və bununla öz kənd təsərrüfatını, texnologiyalarını və mədəni ənənələrini inkişaf etdirə bildilər. Barbarların daimi təzyiqləri onları hərbi ustalığı, təşkilatçılığı və taktiki düşüncələri təkmilləşdirməyə məcbur etdi və şanlılar, hətta onlara qərb tayfalarının üsyanlarını yatırmağı etibar edirdilər ki, bu da çjoulların döyüş ruhunu möhkəmlədirdi. Zəifləmiş Şana qarşı sonuncu hərbi kampaniyalarına başlayarkən çjolların silah-sursatları şanlılarınkına bənzəyirdi. Çox güman, onların tətbiq etdikləri yenilik təkcə cəng arabalarından istifadə etmələri idi ki, bu da daha sürətli irəliləməni təmin etdi və çoxlu sayda silah-sursatı ələ keçirməyə imkan verdi. Ola bilsin, çjoulular həlledici qələbəni təkcə şanlıların qeyri-mütəşəkkilliyi sayəsində deyil, həm də onların şimalda və şərqdə köçəri tayfalarla vuruşmalarda gücünün tükənməsi və hücum vaxtı cənuba iri hərbi ekspedisiya göndərmələri üzündən qazanmışdılar. Çjoulların hərbi taktikası (əlbəttə, əgər «Sənədlər kitabı» və «Altı məxfi təlim»dəki məlumatlar doğrudursa) döyüşlərə tamam başqa mövqedən yanaşma keyfiyyətləri üzərində qurulmuşdu. O vaxtadək mövcud olan stereotiplərdən məqsədə çatmaq naminə imtina

edilmişdi. Çjou hökmdarları həmin saatlarda aşağıdakı problemlə üz-üzə qalmışdılar: çjoulular özləri az olduğu halda geniş bir ölkəni, müxtəlif xalqlardan ibarət əhalini necə idarə etsinlər? Baxmayaraq ki, şanlılarla sonuncu müharibə vaxtı qaliblərə müqavimət göstərsələr də, Çjou səkkiz yüzədək tayfanı öz tərəfinə çəkdi. Düşmənçilik edən tayfalar, Şanın on minlərlə əyanı və hətta ən yaxın müttəfiqlər üsyan alovunu xatırladırdı ki, istənilən an alışa bilərdilər.

Onların hamısını idarə etmək və közərən üsyanı əzmək zəruri idi.

U-van Muye yaxınlığındakı məşhur döyüşlərdən dərhal sonra Tay-quna kənar əraziləri qorumağı tapşırdı. Sonra çjoulular paytaxta gedərkən yolüstü bir neçə ələkeçməz çarlıqları ələ keçirdi. Nəhayət, Qərbi Çjou bəzi siyasi və hərbi aksiyalarla öz hakimiyyətini möhkəmlətdi ki, onlardan da ən vacibi istər müttəfiq, istərsə də düşmən tayfalar arasında təsir dairəsi geniş olan klanların başqa-başqa yerlərə yerləşdirilməsi idi.

Əyanların nümayəndələri ailələri, qulluqçuları və əsgərləri ilə başqa yerə köçərkən parallel soyad xətləri müəyyənləşdirirdilər. Onlar yerli əhali arasında «çjou anklavı» yaradır və bunu şəhərciklərin ətrafına divardan hasar çəkməklə başlayırdılar ki, bu da çjoulular üçün hərbi, siyasi, iqtisadi, inzibati və mədəni mərkəzə çevrilirdi.

Minlərlə tanınmış Şan ailəsi şərqdəki paytaxtın rayonuna sürgün edildi. Orada onları izləmək və nəzarətdə saxlamaq olurdu. Bununla belə, onlara öz qanunlarını, habelə əyanlarını, qulluqçularını saxlamağa icazə verilmişdi. Sonra ilk Çjou hökmdarları öz hakimiyyətlərini və müti vassallıq sistemini saxlamaqla dövləti möhkəmlətdilər. Şan dövründəki teokratik hakimiyyət daha çox sülhsevər idi. Çjou hökmdarları əcdadlarına və Səmaya qurbanlar kəsmək hüquqlarını özlərində saxlayırdılar.

Hökmdarın daima fəaliyyətdə olan altı ordusundan və bütün ölkədə yerləşdirilən qarnizonlarından əlavə olaraq, məğlub çjoulular səkkiz ordu təşkil etmişdilər və zəruri hallarda öz vassallarının ordusunu da çağıra bilərdilər. Hakim evin kiçik üzvləri və vassalların kiçik oğulları «şi»ləri, həmçinin «ikinci dərəcəli» məharətliləri – əsgərləri və piyadaları da orduya qoyurdular. Qərbi Çjounun bütün dövrü ərzində düşmənə qarşı döyüşlərdə skripkanı bacarıqlı əsgərlər çalır, onların cəng arabaları isə sıx birləşmiş qüvvə halında qalırdı.

Qərbi Çjou

Qərbi Çjounun ilk bir neçə yüzillik dövrü ərzində əyalətlərin tam ələ keçirilməsi və feodal sistemi vasitəsilə onların mərkəzə tabe etdirilməsindən sonra hərbi texnologiyada və strategiyada böyük dəyişikliklər baş vermədi. Dərinin aşılanması və emalının ardınca döyüşlərdə rolu getdikcə artan piyadaların da yaraq-əsləhləri meydana gəldi. Alınan metal möhkəm oldu, silahların forması xeyli

dəyişdi, o artıq əvvəllkilərdən uzun, güclü və universal oldu və Qərbi Çjou qürub edərkən, m.ö. 771-ci illərdə, artıq əsl qılınc meydana gəldi. Lakin həm cəng arabalarında, həm də piyadalarda nizə əsas silah sayılırdı.

Cəmi dörd nəsil keçdikdən sonra Qərbi Çjounun mərkəzi hakimiyyəti dağılmağa başladı. Buna başlıca səbəb cənubdakı çökmə kampaniyaları oldu. Qərbi Çjou şimal-qərbdəki barbarların hücumlarına məruz qaldı. İtaətkar vassallara mükafatlar paylamaqda davam edən hökmdarlar dövləti zəiflətdilər. Nəticədə həmin vassalların gücü artdı. Onlar həvəssiz də olsa, mərkəzə tabe olurdular. Vassallar daha çox ev işlərinin qayğıları, yerli əhali ilə münasibətlər və alətlərlə məşğul idilər. İstedadsız və tənbəl çarların əvəzlənməsi hakimiyyət evini zəiflədirdi. Onlardan bəziləri, çox güman ki, Çjou sülaləsinin hökmranlığı zamanı, xüsusən sonuncu Şan hökmdarının içki düşkünlüyünü və U-vanın «səma mandatını»[7] almaq barədə bəyanatını unutmuşdular. Nəhayət, m.ö. 771-ci ildə tabeçilikdə olan dövlətlərin səyi nəticəsində yenidən taxta çıxan Çjou hökmdarı barbarların hücumundan gizlənmək və «sülalə əsatiri»ni uzatmaqdan ötrü paytaxtı cənuba köçürməyə məcbur oldu. Taleyin hökmü ilə o, müdafiə tədbirlərindən biri kimi ordu üçün atlar yetişdirməyə görə əcdadlarının yarısı barbar olan Tszın dövlətini köçərilərə [8] sədd olacaqlarına ümid bəsləyərək qərbdə saxladı.

«Baharlar və Payızlar»

Konfutsinin yazdığı eyni adlı xronikaya görə «Baharlar və Payızlar» adlanan dövr ərzində çarlıqların yüksəlişi, daxili müharibələr və bir çox siyasi təşkilatların yoxla çıxması baş verdi. Bu dövrün əvvəlində Çjou vassallarının varisləri qabaqkı kimi bir çox halda öz ailələri və yerli əyanlarla birgə əksər çarlıqlarda hakim mövqedə idilər. Əslində əyanların qol-budaq atmış klan olmalarına, əllərində böyük hakimiyyət olmasına baxmayaraq, onların mövqeyi qohumluq və dövlət sistemindən çox asılı idi. Çjounun süqutunun davam etməsi ilə udellər (mülklər) tabeçilik statusundan xilas olurdular və daha çox öz müstəqilliklərini nümayiş etdirə bilirdilər. Onların yeni statusu təkcə hakimiyyətin mərkəzdən əyalətə köçürülməsində deyil, həm də udel (mülkiyyət) sisteminin yaranmasının əsasını qoyan qohumluq tellərinin zəifləməsi faktında da öz əksini tapırdı. Artıq nəsillər dəyişir və mərkəzi hakimiyyətdə iştirak etmək üçün paytaxta aparan yolda da bir çox çətinliklər yaranırdı. Bunların da hamısı əyalətin mərkəzlə əlaqəsinin kəsilməsində öz rolunu oynayırdı. Mülk sahiblərinin Çjou sülaləsindən sanksiya almağa davam etmələrinə baxmayaraq bir qədər sonra bəziləri, hətta hegemonluq huququ aldılar. Mühakimə olunmalı olan Çjou hökmdarının özü isə onlardan siyasi və hərbi rejiminə qarşı loyallıq tələb edirdi. Əvvəlki məcburiyyətdən xilas olan

mülk knyazları vassal vəzifələrini yerinə yetirmək əvəzinə yerli işlərə və bir-biriləri ilə mübarizəyə daha çox diqqət yetirirdilər.

Dövlətlərdə hakimiyyət də tədricən udel hökmdar evindən bir-biri ilə rəqabət aparan partiyalara keçirdi. Onlar «Nazir ailələri» dövrünün ortalarına doğru birinci udel knyazlarının üstün varislərindən daha nüfuzlu olurdular. Bir çox çarlıqlarda onlar, hətta idarəçiliyi legitim xətlərin əlindən alırdılar. Dövrün sonuna yaxın bütövləşən çarlıqların hamısı vahid hökmdara və ya əsas klan üzvlərinə malik idilər. «Baharlar və Payızlar» dövründə yüzlərlə çarlıqlar ələ keçirildi və ya məhv edildi, əvvəlki hakım klanlar və güclü ailələr sadə adamlar oldular, qula çevrildilər və ya öldürüldülər. Buna görə də, əvvəlki feodal aristokratiyası, sadəcə, yox oldu. Güclü çarlıqların sakitləşməyən tamahkarlığının nəticəsi olaraq «Baharlar və Payızlar» dövründə hərbi əməliyyatların miqyası kəskin surətdə artdı. Müharibədə iştirak üçün mahir əsgərlərin çatışmaması üzündən bu işə çoxlu sayda kəndlilərin cəlb edilməsi zəruriyyəti yarandı. Açıq ərazilərdəki vuruşmalar, əvvəlki kimi, cəng arabaları ətrafında, özü də getdikcə çoxalan piyadaların köməyi ilə gedirdi. Əvvəlcə cəngavərlər başlayırdı. Döyüş etikası «li»yə (mərasimə) sədaqət tələb edilsə də, təsadüfi adamardan təşkil edilən piyadaların bu qaydalarla heç bir əlaqəsi yox idi. Lakin əsrlər keçdikcə yalnız qanmazlar və məğlubiyyətə düçar olanlar köhnə etik normalar və qədim fərdi döyüş alətləri ilə özlərinə zəhmət verirdilər. Bu da döyüşün proloqu kimi qorunub saxlanmışdı və sonralar dəbdən düşdü.

Dövrün əvvəllərindəki yürüşlərdə ordunun sayı 10 min əsgər idisə, orada 700-dən 1000-ə qədər cəng arabası olurdu. Lakin «Baharlar və Payızlar» dövrünün sonuna doğru, yəni m.ö. 481-ci ildə Tsin və Tsi kimi güclü çarlıqlar döyüşə 40 min piyadanın yardımı ilə 4000 cəng arabası çıxarırdılar. Süvarilər hələ yaranmamışdı, lakin m.ö. 541-ci ildə Tszi hərbi rəisi özünün həvəssiz vuruşan əsgərlərinə cəng arabalarından düşməyi və barbarlara qarşı piyadalarla birgə vuruşmağı əmr etdi.

Döyüş silahları Qərbi Çjou dövründə istifadə olunanlara bənzəyirdi. Eyni zamanda, piyadalarda nizə və gödək qılınc olurdu. təbərzin isə cəng arabalarındakı əsgərlərdə qalırdı. Dəmirçi sənətinin təkmilləşməsi ilə silahlar da dəyişir, getdikcə böyük, etibarlı və öldürücü olurdu. Bürünc istehsalı geniş yayılmışdı. Dəmir və polad tökmə kəşf edilsə də («Baharlar və Payızlar» dövrünün sonlarında), bundan, əsasən, kənd təsərrüfatı alətləri hazırlayırdılar.

Müharibələr tez-tez baş verirdi, hətta ən güclü çarlıqlara həmin müharibələrə hazırlaşmaq və əsgərləri hazırlamaq nəsib olmadıqda məğlub olurdular. Zaman-zaman hərb sənətinə yiyələnə bilənlərə hamı ehtiram bəsləyirdi, onları vəzifə, rütbə ilə təltif edirdilər. Onlar şan-şöhrət qazanır, güclənirdilər.

8974

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Döyüşən ordunun əsgərləri və ali hərbi hissələrdə xidmətə çağrılanlar üçün fiziki normativlər müəyyən edilmişdi. İstedadı qiymətləndirməyə başladılar və bu, hakim ləyaqətlilərin sayını artırdı, sosial irəliləyişə, sonralar isə yerli hakimiyyəti dəyişməyə başlayan yerli bürokratiyanın meydana gəlməsinə səbəb oldu. Yeni hakimiyyət formaları yarandı: udellərin əvəzinə «vilayətlər» əmələ gəldi və o mərkəzi hakimiyyətin dövlətdə vəziyyətə daha yaxşı nəzarət etməsinə imkan verdi. İcarə münasibətləri təşəkkül tapdı, kəndlilər «azad edildilər» və onların maddi rifahı yaxşılaşdı. Ancaq torpaq yalnız hökmdara məxsus olub, əldən- ələ keçən «mala» çevrildi.

«Döyüşən Çarlıqlar» dövrü

«Döyüşən Çarlıqlar» dövrünün başlaması ilə m.ö. 403-cü ildə hadisələr bir-birini kaleydoskopik sürətlə dəyişdi. «Baharlar və Payızlar» dövründəki müharibələr nəticəsində Çin yeddi çarlığa–hegemonlara[9] parçalandı. Hegemonların da hər biri xeyli əraziyə və daxili müharibələrin və talanların qurbanına çevrilən on beşdən çox gücsüz çarlığa nəzarət edirdi. Udellərin keçmiş sahibləri yaşamaqdan ötrü siyasi və təsərrüfat bürokratiyasının yerini dolduran qaniçən monarxlara çevrilməyə məcbur olurdular. Hər bir hökmdar öz çarlığında xaricdən gözlənilən təhlükəyə davam gətirmək üçün kənd təsərrüfatının yaxşılaşması qayğısına qalmalı idi. Onların apardığı torpaq siyasəti digər çarlıqlardan olan narazı insanların axını, fərdi torpaq mülklərinin və icarədarlığın inkişafı ilə dəyərlənmişdi. M.ö. 500-cü ildə kənd təsərrüfatı ləvazimatlarına dəmirdən hazırlanan alətlər də əlavə olundu.

Topaqların qurudulması və süni suvarma əkin sahələrini, eyni zamanda, bəzi çarlıqların gücünü artırdı.

Ticarət və kommersiya çiçəkləndi, əvvəlki kimi tacirlik peşəsinə rəsmən nifrət olsa da, yeni nüfuzlu tacirlər yetişdi. «Döyüşən Çarlıqlar» dövründə kənd təsərrüfatının yüksək məhsuldarlığı, nəticəsində əhalinin maddi-rifah halının yaxşılaşması ona gətirib çıxardı ki, hərbi əməliyyatların miqyası fantastik dərəcədə genişləndi. Şan dövründə bir yürüşdə bir neçə min adam ordu demək idisə, artıq indi zəif çarlıqlar asanlıqla qabağa yüz min nəfər çıxarırdı. M.ö. III əsrdə bir milyon nəfərlik daimi ordular olurdu və mənbələrə əsasən bir kampaniya üçün daha 600 min nəfər də toplayırdılar. Tsin və Çu arasında döyüşlərdə, hələ əgər artırılmış da olsa, hər tərəfdən qabağa çıxarılan əsgərlərin sayı bir milyon nəfərdən çoxmuş. Ordudakı əsgərlərin sayı həlledici olmuşdu, axı əvvəlki kampaniyada Tsin 200 000 əsgərlə məğlub edilmişdi.

Təbii ki, itkilər də artmışdı: m.ö. 341-ci ildə Vey çarlığının 100 000 əsgəri Maline yaxınlığındakı döyüşlərdə; m.ö. 295-ci ildə Xan və Veyin ordusundan 240 000 əsgər İtszyne yaxınlığındakı döyüşlərdə həlak olmuş və nəhayət, m.ö. 260-cı ildə Çu çarlığının 450 000 əsgəri Çanpin yaxınlığındakı döyüşlərdə qanına qəltan

edilmişdi. Belə əhəmiyyətli kampaniyalar uzun hazırlıq, toplaşma və müvafiq təchizat tələb edirdi. Şan dövründə olduğu kimi aylar, illər tələb olunurdu. Belə döyüşlər 10 günədək çəkir, müharibələr isə bir il və daha çox davam edirdi.

Belə çoxlu ehtiyatı və bu qədər çoxsaylı əsgərləri idarə etmək böyük məharət tələb etdiyindən sərkərdələrə və komandirlərə yüksək qiymət verilirdi. Bütün ölkədə kəndlilər orduya çağrılsalar da, onları zəruri hallarda yürüşlər üçün səfərbər edirdilər. Ordunun özəyini təcrübəli və intizamlı əsgərlər təşkil etməli idi. Hərbi təlim dövründə və cəbhədə hücum metodikasını tətbiq etmək, həmçinin əsgərlərin riayət etməli olduqları taktikaya rəhbərlik etmək olduqca vacibdi. Şəxsi heyətin hazırlanması, vuruşların irəli sürdüyü tələblər barədə, həmçinin siyasi və fəlsəfi nəzəriyyələrin təsiri altında külliyyatlar meydana gəldi. Hərb sənətinə dair çoxsaylı əsərlərdən bizə gəlib çatan cüzi bir hissə, şübhəsiz, «Döyüşən Çarlıqlar» dövrünün əvvəllərində tərtib edilmişdir. Çin tarixinin bütün sonrakı dövrlərində onlara büsbütün, dönmədən əməl olunmuşdur.

Sərkərdəlik sənəti və onun vəzifə borcları sərkərdənin dəyişməsinin ordunun məğlubiyyətinə və bütün dövlətin təhlükəyə sürüklənməsinə gətirib çıxara bildiyi bir vaxtda dəyişmişdi. Hökmdarların ordunun işinə qarışması (tez-tez asılı nazirlərin və ya rüşvətlə aldadılaraq digər dövlətlərin iradəsi ilə hərəkət edən məmurların satqınlığı zamanı) o saat faciəvi nəticələrə gətirib çıxarırdı. Bununla belə, rəşadətli işlərlə məşğul olan peşəkar hərbiçilər meydana gəlmişdi.

Əgər «Döyüşən çarlıqlar» dövrünün əvvəllərində U Tszi kimi mülki inzibatçı komandan laraq fəal və nümunəvi ideal hesab olunurdusa, dövrün sonlarında mülki şəxslər hərbi işlərdən tam uzaqlaşdırıldılar. Şanın və Erkən Çjounun dövrlərində döyüşlər açıq, qorunmayan düzənliklərdə baş verirdi, orduları isə yalnız marşlar zamanı öz şəhərlərinə gedən yolda qarşılayırdılar. Məsələn, Şan və neolit dövrlərindəki məşhur torpaq divarlar kimi,- onları qazıntılar zamanı tapmaqda davam edirlər,- istehkamlar mövcud idi və ordu onunla qarşılaşmayanadək uzun müddət və maneəsiz irəliləyə bilərdi. «Döyüşən Çarlıqlar» dövründə hökmdarlar öz mülkiyyətlərini düşməndən qorumaq üçün tədbirlər görürdülər. Sərhədlərdə və bütün ərazidə «böyük divarlar», bəndlər, istehkamlar və qarovolçu qüllələri tikilirdi. Torpaqları daha çox müdafiə edirdilər, nəinki insanları. Axı müharibələrin məqsədi dəyişmişdi. Hər bir çarlıq əsirlər və sərvət ələ keçirməyi deyil, düşməni onun torpağını işğal etmək yolu ilə məhv etməyi, ordusunu darmadağın etməyi və ələ keçirilmiş ərazidəki əhali üzərində nəzarət etməyi arzulayırdı.

Möhkəmləndirilmiş şəhərlər, əzəli hərbi və inzibati mərkəzlər istehsalatda və ticarətdə böyük rol oynamağa başladı, onların əhalisi tərəqqi edir, onların özləri isə nəqliyyat qovşaqlarına çevrilirdi. Buna görə də, əgər Qərbi Çjou və «Baharlar və Payızlar» dövrlərində

ehtiyatları və adamları itirməkdənsə, şəhərdən yan keçmək, müxtəlif vasitələrlə onları çökdürmək ağıllı hərəkət idisə, indi şəhərləri ələ keçirir və hər yerdə dağıdırdılar. Hücumlar və şəhərlərin müdafiəsi üçün texniki ixtiralar: müdafiə silahları, səyyar lövhələr, qoçbaşı, katapultlar və «yeriyən qüllələr» icad olundu. Qala divarlarının ələ keçirilməsi və müdafiəsi üçün mühəndislər və mütəxəssislər tələb olunurdu. Müdafiə tədbirlərinin texnologiyasını yaradan moistlər məhz çökdürülmüş şəhərlərə köməkliklərinə görə məşhur oldular. Buna görə də özünün «Hərbi metodlar»ında zəif nöqtələri və əlçatmaz məqsədləri öyrənən Sun-tszının şəhərlərə danışıqsız mühasirələr və hücumlar taktikası Sun Binin vaxtınadək tamam köhnəlmişdi.

M.ö. IV əsr ərzində piyadaların sayının kütləvi surətdə artması arbaletdən geniş istifadə edilməsi, cəbhə boyu hücumlar və manevrlər, hətta lap ən həvəssiz döyüşçülərin ustalığının artırılması, barbarların təcrübələrinin tətbiq edilməsi ilə müşayiət olunurdu. Çöllərdəki süvarilərin daimi təzyiqi altında həssas və görüb-götürən komandirlər və hökmdarlar özlərinin xüsusi kaveleriya hissələrinin yaradılması zəruriyyətini anladılar. Çində atların nə vaxt peyda olmasını tarix axıradək aydınlaşdırmasa da, məlumdur ki, m.ö. 307-ci ildə Çjounun şimal çarlığından olan U-lin çoxlu sayda etirazlara baxmayaraq, öz əsgərlərini adi və sayılıb-seçilən Çin xalatları əvəzinə «barbar paltarı» (qısa gödəkçə və tuman) geyməyə məcbur etdi ki, atlı (süvari) hissələrinin yaradılmasını sürətləndirsin. M.ö. V əsrdən başlayaraq Çin çarlıqlarında az da olsa atlılar meydana gəlir. At sürmə sənəti, güman ki, İrandan və Mərkəzi Asiya çöllərindən keçmişdi və digər regionlardan olan atlar Çində sürətliliyi və dözümlülüyü ilə şöhrət qazanmışdı. U-lin bizə ilk atlı ordu yaradan adam kimi məlumdur. Bu isə o vaxt Çjaonun hücum potensialını artırmışdı.

Yəhər olduqca primitiv idi, yəni yalnız burulmuş odeyaldandı, yüyən isə yalnız Xan dövrünün axırlarında meydana gəldi. Beləliklə, atlı çətin tapşırıq yerinə yetirməli idi: atı idarə etmək və eyni vaxtda kamandan ox atmaq və ya qılıncla vuruşmaq. Belə əsgərlərin faydası məlumdu, onların sürəti və mobilliyi daha çox idi. Eyni zamanda, atlıların meydana gəlməsi Tay hökmdarı Tay-tszuna qədər olan kitablarda qısaca xatırlanır və o, ordunu açıq, cəng arabaları üçün əlverişli məsafələrdə vuruşmaq zərurətindən azad edirdi. Habelə orduunun dərələrdə, vadilərdə, meşələrdə, təpəli çöllərdə və dağlarda səfərbər olunmasına, yəni ərazidən tam istifadə etməsinə imkan verirdi. M.ö. III əsrdə, Tsin çarlığının yüksəlişinin və həlledici qələbəsinin şahidi olan sonuncu əsrin belə müharibələrində, ölkə əhalisini biçib-tökən döyüşlərdə «partlayanı» və «dözümlü» strategiyaya itaət edən yüz minlərlə adam iştirak etmişdi. Həmin günlərdə öz əvəzsiz dəyərini sübut edən strateqlər və məşhur taktiklərin metodları daim yoxlanmış və tətbiq edilmişdi.

VEY ÇARLIĞI

Əsrin ən fəal şəxslərindən olan Veyin tarixi «Döyüşən Çarlıqlar» dövründə hərb işinin inkişafını əks etdirir. Vey çarlığında U-Tsi məşhur sərkərdə və hərbi xadim olmuşdur.

Əsl konfusiançı Men-tszı və eyni adlı hərbi qanunun müəllifi hesab olunan Vey-Lyao-tszı Vey hökmdarı Xuey-vana təlim keçmişlər. «Döyüşən Çarlıqlar» dövründə yeddi hegemon çarlıqdan biri olan Vey m.ö. 434-cü ildə müstəqil qüvvəyə çevrildi. Bu vaxt üç güclü klan qüdrətli Tszin dövlətini Vey, Çjao və Xana böldülər.

M.ö. 403-cü ildə Çjou hökmdarı çarlıq edənləri vassal qsimində tanımağa məcbur oldu. Onlar isə m.ö. 376-cı ildə Tszin hakim evinin nəslini tam məhv etdilər. Çinin mərkəzində iki rəqib çarlıq-qərbdən Tsin və şərqdən Tsi arasında yerləşən Vey «üç Tszi dövləti» arasında ən qüdrətlisi idi. Onun paytaxtı əvvəlcə Anidə yerləşirdi, lakin onun yerləşdiyi məhsuldar düzənlikdə dağlar və dərələr kimi sədd yox idi və dövlət düşmən qonşularının daimi təzyiqindən əziyyət çəkirdi. O nə qədər ki, güclü və inkişafdaydı,- Qərb çayına nəzarət edə bilirdi və düşmən Tsi tərəfindən mövcud olan təhlükələri dəf etmək iqtidarında idi. Əgər o zəifləsəydi, bivec və fasiləsiz müharibələrdə məğlub ola bilərdi. Bundan əlavə, əgər Tszin güclü Tsin çarlığının öhdəsindən gəlməyə qadir deyildisə, onda üç yeni yaranan çarlıqdan heç biri sonuncunu bölüşdürdükdən sonra müstəqil yaşamaq üçün potensial imkana malik deyildı və onların birləşmək arzusu da yox idi.

Yarandığı vaxtdan m.ö. 387-ci ilədək Veyə hökmranlıq edən Ven-vanın yaxşı məsləhətçilərə ehtiyacı vardı və əslən hansı çarlıqdan olqduqlarını soruşmadan adamları saraya dəvət edirdi. Onun dəvətinə səs verənlərdən biri– Li Ke yüksək adlı və nüfuzlu adam oldu. O, qanunlara düzəlişlər edir, kənd təsərrüfatı istehsalını artırmaq üzrə tədbirlər görür, torpağın şəxsi mülkiyyətə verilməsi siyasətini həyata keçirirdi.

Si-men Bao torpaqların süni suvarılması ilə məşğul olurdu ki, bu da insanların maddi-rifahını yaxşılaşdırırdı.

Ali baş komandan təyin olunan U Tsi Tsinə qarşı çoxlu uğurlu kampaniya keçirir və Qərb çayının müdafiəsini təmin elir. Ven-vanın oğlu U-van U Tsinin siyasətini davam etdirir. O, Xan və Çjou kimi iki «Tszi» çarlığını Veyin qüdrətinə və sərvətinə hörmət etməyə məcbur edir, bununla belə, U-Tsinin özü çoxsaylı saray fitnə-fəsadları üzündən qaçaraq canını qurtarmalı olur.

Təəssüflər olsun ki, m.ö. 370-ci ildə hakimiyyətə gələn Xuey-van bir çox istedadlı məmurları, məsələn, Şan Yan (o, sonralar öz islahatları ilə Tsini möhkəmlətmişdi) kimilərinin xidmətindən istifadə etmək əvəzinə onları vəzifədən uzaqlaşdırmış, bununla da adamlar arasında düşmənçilik yaratmışdı. Xuey-van qonşularla dostluq münasibətləri yaratmaq əvəzinə hər yerdə iğtişaşları qızışdırmaqla onları hiddətləndirirdi. Nəticədə o, Qərb çayı rayonunu itirməklə

dövlətin qapılarını Tsinin hücumu üçün açmışdı. O, paytaxtı Dalyana köçürməyə məcbur olmuş və sonradan öz çarlığına Lyan adı vermişdi.

İki məşhur döyüş bu dövrdəki vuruşmaların xarakterini parlaq şəkildə əks etdirir. Birinci döyüş Quylinin zamanında Xuey-vanın qərbdə Tsindən aldığı itkiləri kompensasiya etmək arzusundan irəli gəlmişdi. Vey ordusu Pan Tszyanın komandanlığı altında şimaldan Çjouya hücuma keçdi. Çətin vəziyyətə düşən Çjou kömək üçün şərqdə Tsiyə müraciət etdi, ona görə ki, bura Veydən müdafiə üçün təbii səddi və Tsi Çjounu müdafiə məsələsində strateji cəhətdən sərfəli idi. Tsi hökmdarı razılaşsa da, məşhur strateq, kitabı bu yaxınlarda tapılan Sun Bin məsləhət gördü ki, hələlik gözləsinlər, iki rəqib bir-birinin qüvvəsini əldən saldıqdan sonra azacıq risk və qüvvə ilə daha çox fayda əldə etmək olar. Tsi m.ö. 352-ci ildə Tyan Tszinin komandanlığı altında ordu topladı. Məqsəd isə Veyin paytaxtı Dalyana «ilk növbədə ən qiymətliləri ələ keçirmək», «boşluqlara hücuma keçmək» və «müdafiə olunmayan yerlərə zərbələr endirmək» qaydalarına uyğun olaraq diqqəti yayındıran zərbələr endirməkdən ibarət idi. Çjoudakı qələbəsindən məst olan Pan Tszyuan, gözlənildiyi kimi, geriyə qayıtmağa tələsdi. Bu zaman Tsi Sun-tszının və Sun Binin «düşmənin yorulmasını rahatlıqla gözləmək» taktiki prinsipinə əməl edib, hiyləgər qayğıkeşlik göstərərək Vey ordusunu gözləmək üçün əvvəlcədən seçilmiş yerə çəkildi. Özünün möhkəmləndirilmiş mövqeyindən və yüksək ərazisindən əldən-ayaqdan düşmüş Vey ordusunu az qüvvə ilə böyük itkilərə düçar etmək Tsi üçün heç bir çətinlik yaratmadı.

Bir neçə il keçdikdən sonra Vey hər tərəfdən sıxılmışdı: onu qüvvətlənən Xan cənubdan, Tsin qərbdən,Tsi şərqdən və Çjao şimaldan sıxmışdı. Xuey-van Şen Buxay güclü islahatlardan və Xan Çjaonun əvvəllər əlindən alınmış şəhərini qaytardıqdan sonra Çjao ilə ittifaq bağlayaraq Xana qarşı kampaniyaya başladı. Yenidən komandan olan Pan Tszyun ordunu birbaşa Xanın paytaxtına yönəltdi. Birgə müdafiədən xeyir götürüləcəyinə işarə edən Xan Çjao kimi Tsidən kömək umurdu. Sun Bin yenə hər iki tərəfin qüvvəsi bir-birini əldən salanadək gözləməyi məsləhət gördü. Belə ki, Vey daha da zəifləyəcəkdi. Xan müdafiə tədbirləri qəbul etdi, lakin beş mühüm döyüşü bir-birinin ardınca uduzdu və yaşamaq üçün qaçqın halda Tsiyə tabe olmaq məcburiyyətində qaldı. Bu zaman Tsi baş komandan Tyan-Tszi və strateq Sun Binlə dördüncü qüvvə kimi çıxış etdi. Pan Tszyun dərhal Xanla hərbi əməliyyatları dayandırdı və geriyə döndü.

Bu vaxt Xuey-van bütün qüvvələri toplayaraq Tsi ilə həlledici toqquşmaya hazırlaşdı və öz oğlunu çarlığı müdafiə edən orduya komandir təyin etdi. Veyə tərəf irəliləyən Tsi ordusu Sun Binin göstərişi ilə «aldadıcı ol» strategiyası ilə hərəkət etdi. Tezliklə qüdrətli Veylə döyüşə atılmaq əvəzinə qaçmağa başlayan bütün Tsi

adamlarını Pan Tszyun qorxaq adlandırdı. Sun Bin elliklə fərarilik görünuşu yaratmaq üçün hər gün düşərgədə tonqalların sayını azaldırdı. O, həmçinin Tsi komandanının təpələr arasında on min arbaletçi gizlətdiyi Malinə yaxınlığındakı əlverişli yeri əldə etmək üçün yayındırıcı geriçəkilmə etdi. Pan Tszyuan, görünür, geri çəkilən Tsi ordusuna həlledici zərbə endirmək imkanını əldən verməməkdən ötrü arxasındakı ağır hissələri irəliyə doğru hərəkət etdirdi. Veyin gecə gəlib çatan birləşmiş qüvvələri pusquya düşdü. Onlar arbaletlərdən açılan öldürcü ataşlərlə məhv edildilər və Veyin 100 000 əsgəri özünə güvənən on komandanın dar düşüncəliliyi üzündən əbəs yerə həlak oldu.

Bundan sonra Vey gücü sonsuz dərəcədə artan və bir qədər sonralar bütün Çini özünə tabe edən Tsinin daimi hücumlarına məruz qalaraq heç vaxt öz əvvəlki qüdrətinə yüksələ bilmədi. Vey bir sıra məğlubiyyətlərdən sonra m.ö. 340-cı ildə Tsinə 700 li torpaq verməyə və aramsız hücumlardan gizlənmək üçün paytaxtı Dalyana köçürməyə məcbur oldu. Vey çarlığının qüvvəsini bir müddət bərpa edə bilən şəxsiyyətlər ortaya çıxsa da, onun ərazisi azalmaqda davam edirdi. Bu, o vaxtadək davm etdi ki, nəhayət, m.ö. 225-ci ildə o, hakim evlə birlikdə tərtəmiz məhv edildi.

Hərbi traktatlar

Çin hərbi klassikasının böyük dəyərinin başa düşülməsində oxuculara kömək üçün bir neçə tarixi və siyasi məqamları qısaca qeyd etmək olduqca vacibdir. Birincisi, hərbi əsərləri şəxsi mülkiyyətdə saxlamağa icazə vermirdilər, onları hakimiyyət gizli saxlayırdı (Tay-qunun hakim sülaləni devirmək yönündə özünü doğruldan «Altı məxfi təlim» kitabı elə onun sahibləri üçün olduqca təhlükəli idi). İkincisi, demək olar, bu təlimlər nəsildən-nəslə şifahi formada, özü də ciddi surətdə gizli ötürülürdü. Nəhayət, onlar bambuk taxtalarına yazıldı və çap olundu. Hökumətin mirzələri və məmurlar bu lövhəcikləri şəxsi istifadə üçün toplayırdılar: onlar imperator kitabxanalarında saxlanılırdı və yüksək qiymətləndirilirdi. Tsinin 11 sülaləsi dövründə kitabların bir qisminin yandırılması böyük təəssüflə qarşılanmışdı. Az sayda ali məmurlar və bir də imperatorun özü arxivlərdə yerləşdirilən bu əsərlərə yaxın düşə bilərdi. Lakin, hətta imtiyazlı şəxslərə, özü də imperator soyadına yaxın olanların özlərinə də bu əsərlərlə tanışlığa qadağa vardı. Artıq bu əsərlər bambuka, ipəyə, kağıza (Xan sülaləsindən sonra) köçürüldükdən sonra bəzi «vətənpərvərlər» onları aradan götürməyə çalışırdılar.

Zalım Tsin sülaləsinin devrilməsində və Xan sülaləsinin yaradılmasında həlledici rol oynayan sərkərdə Çjan «Xuan Şi-qunun üç strategiyası» əsərinin yeganə nüsxəsini ələ keçirmiş, öyrənmişdi. Vəfat etdikdə isə onunla birgə torpağa basdırılmasını əmr etmişdi. Bir ənənəvi versiyaya görə, həmin mətn IV əsrdə onun qəbri qarət

edilərkən yenidən üzə çıxmışdır. Başqa bir nümunə kimi məşhur strateq, bacarıqlı sərkərdə Li Vey-qunun «müdafiə anlayışının və taktiki təlimin hüdudlarından kənar çıxmaq» ilə Tan imperatorunu tanış etməkdən məşhur imtinasını (bəlkə də, apokrifik) misal göstərmək olar. Li Bey-qunun fikrincə hücum strategiyasını geniş yaymaq olmaz. Axı, nə qədər ki, imperiya rahatlıqdadır, onlar yalnız müharibəyə can atanlara və qiyamçıları qızışdıranlara kömək ola bilərlər.

Sun sülaləsi vaxtı «Yeddi hərb qanunu»na daxil olan ənənəvi yeddi kitab aşağıdakılardır :

Sun-tszının «Hərb sənət»i;
«U-tszı»;
«Sımın metodları» («Sıma fa»);
«Tanlı Tan-tszunun sualları və Li Vey-qunun cavabları»;
«Vey Lyao-tszı»;
«Xuan Şi-qunun üç strategiyası»;
«Tay-qunun altı məxfi təlimi».

«Altı məxfi təlim»in müəllifi hesab edilən Tay-qunun Sun-tszıdan bir neçə yüz il əvvəl yaşadığı zənn edildiyinə baxmayaraq Sun-tszının «Hərb sənəti» Çin hərbi düşüncəsinin ən qədim və ən yüksək nailiyyəti hesab olunur. «Sımın metodları»nda təqdim olunan materiallar oxucunu İlkin Çjou dövrünə qaytarır; sonralar dəyişən «U-tszı», bəlkə də U Tsinin şagirdləri tərəfindən yazılmışdır. «Üç strategiya»nın «Vey-Lyao-tszı»dan sonra yazıldığı mümkün hesab olunsa da, ənənəçilər əvvəlki kimi onu Tay-qunla bağlayırlar. Beləliklə, həmin əsərlərin yazılmasının ardıcıllığı (bir çox mülahizələr və təsdiqini tapmayan nəticələrə əsasən) aşağıdakı kimi ola bilər:

Başlanğıc dövr	**«Sımın metodları» (Sıma fa),**
Sun-tszının	**«Hərb sənəti»;**
İkinci dövr:	**«U-Tszı»**
Üçüncü dövr:	**«Vey-Lyao-tszı»**
	«Tay-qunun altı məxfi təlimi»
	«Xuan-Şi-qunun üç strategiyası
Tan Sun	**«Tanlı Tay-tszunun sualları və Li Vey-qunun cavabları»**

Təsəvvür edilən müəlliflərin bioqrafiyaları, cavabları, eyni zamanda, mətnlərin yaranma vaxtı haqqındakı məlumatlar müvafiq tərcümələrin müqəddimələrində yerləşdirilmişdir. Qədim dəlillər şərti və çox vaxtı dövri xarakter daşıdığından strateji düşüncənin və hərbi konsepsiyaların təkamülünün sistemli şəkildə öyrənilməsi gələcəyin işi olaraq qalır; bununla belə, yuxarıda təqdim olunan baxış bucağı Sun-tszı pərəstişkarlarını qıcıqlandırsa da, ənənəvi tekstoloji tədqiqatlar və qəbirlərdə aparılan bu yaxınlardakı qazıntılar

zamanı tapılan əşyalar bunu tam əsaslandırmağa imkan verir. Üçüncü dövrdəki kitabların təxmini düzülüşünü (bəlkə də m.ö. III əsrin ikinci yarısı ilə uyğun gələ bilər) hələ aydınlaşdırmaq lazım gəlir. Belə xronologiyanı etiraf etməklə, biz tarixi ardıcıllıq xətrinə öz kitabımızda, əslində, birinci yerdə «Altı məxfi təlimi» görürük. Tay-qun məşhur Çjou dramının əsas iştirakçısı olmuşdur. Bu əsərin ardınca Çjou zamanı baş verən hadisələrə istinad edən hissələrə rast gəlinən «Sımın metodları», sonra «Hərb sənəti» kitabları gəlir. Çox güman ki, haradasa «Hərb sənəti»nin yazıldığı tarixə yaxın olan «U-tszı»nı «Döyüşən çarlıqlar» dövrünün əvvəllərinə aid mətnlər tamamlayır. Daha sonra əsərlərin xronoloji ardıcıllığı belədir: «Vey Lyao-tszı», «Xuan Şi-qunun üç strategiyası» və nəhayət, orta əsrlərə aid «Tanlı Tay-tszyunun sualları və Li Vey-qunun cavabları».

Q eydlər

1. Şan Yan (m.ö. 338-ci ildə vəfat etmişdir)– legistlər məktəbinin əsasını qoyanlardan biri, həmçinin Tsin çarlığında qanunların və islahatların yaradıcılarından biri kimi məşhurdur.

2. Xan Fey-tszı (m.ö. 233-cü ildə vəfat etmişdir)– tanınmış legist və Syun-tszının (m.ö. 298-238-ci illər) şagirdi və eyniadlı əsərin müəllifidir.

3. «Tszo çjuan» (Tsonun şərhi) Çində m.ö. 722-468-ci illər baş verən hadisələrin salnaməsini əks etdirən ilk tarixi abidələrdən biri.

4. «Xeyirxah» («de»)– təkcə Çin mənəviyyatının deyil, həm də bütövlükdə mədəniyyət və düşüncə spektrinin baza anlayışlarından biri, «De» ieroqlifi çoxmənalı olub müxtəlif cür tərcümə edilir. Orada əks olunan konnotasiyalar əsasında tərəfimizdən «xeyirxah» tərcüməsi seçilmişdir.

5. Bu konsepsiyanın müəllifi Xan sülaləsinin görkəmli dövlət və siyasi xadimi Çao Tsodur.

6. Sonralar meydana gələn «üç ordu» (san tszyun) termini,-daim istifadə olunan bu termin,-yürüşdə olan ordunu bildirmək üçün, güman ki, öz mənşəyini bu bölgüdən götürmüşdür.

7. «Səma mandatı» (tyan min). Səmaaltında Səmanın xeyirxah sülaləyə çarlıq etmək hüququnu bəxş etməsidir.

8. Yüz il keçdikdən sonra Tsin sülaləsi Çjounu əvəz etməyə gəlmişdir.

9. «Döyüşən Çarlıqlar» dövrünün əvvəllərində «Yeddi hegemon» bunlar olmuşlar: Tsi, Yan, Üç Tszin (Xan, Çjao və Vey) və yeni güclü əyalət dövlətlləri Çu və Tsin.

10. Maline döyüşləri zamanı, görünür, arbaletin birinci dəfə tətbiqi olduqca həlledici rol oynamışdır. Başqa bir versiyaya əsasən Vey əsgərləri ilə bu vuruşmalara varis şahzadə komandirlik etmişdir, yaxud Pan Tszyun bundan əvvəlki vuruşlarda öldürülmüşdür.

11. Tsin Şi-xuan bütün imperiyada kitabları yığmağı və məhv etməyi əmr etmişdi. Bəzi xüsusi sahələrə dair əsərlər istisna təşkil etmişdir.

TAY-QUNUN ALTI MƏXFİ TƏLİMİ



Tədqiqat 30
Tərcümə 47

I. Mülki məxfi təlim47
1.Ven-vanın müəllimi47
2.Doluluq və boşluq49
3.Dövlət işləri50
4. Əxlaqın ulu qaydaları51
5. Aydın təlimatlar52
6. Altı keşikçi 52
7. Dövlət mülkiyyətinin saxlanılması 54
8. Dövlətin qorunması 54
9. Ləyaqətliyə ehtiram 55
10. Ləyaqətlilərin yaxınlaşdırılması 57
11. Mükafatlar və cəzalandırma 58
12. Müharibə Daosu 58

II. Hərbi məxfi təlim 60
13. Giriş təlimatları 60
14. Mülki təlimatlar 61
15. Vətəndaş hücumu 63
16. İnsanlarla rəftar barədə təlimat 64
17. Üç şübhə 65

III. Əjdahanın məxfi təlimi 67
18. Hökmdarın qanadları 67
19. Sərkərdələrin müzakirəsi 69
20. Əsgərlərin seçilməsi 70
21. Sərkərdənin təyinatı 71
22. Sərkərdənin zəhmi 72
23. Ordunun ruhlandırılması 73
24. Məxfi birkalar 74
25. Məxfi məktublar 74
26. Ordunun strateji gücü 75
27. Qeyri-adi ordu 76
28. Beş ahəng 78
29. Ordunun fərqləndirici əlamətləri 79
30. Əlaltı vasitələr 81

IV. Pələngin məxfi təlimi 82
31. Ordunun hazırlanması 82
32. Üç cəbhə boyu üç cür düzülmə 86
33. Təxirəsalınmaz döyüş 86
34. Həlledici geriçəkilmə 86
35. Ordu üçün planlaşdırma 88

36. Sərhədə yaxınlaşma 89
37. Hərəkətlər və dayanmalar 89
38. Qonqlar və təbillər 91
39. Kəsilmiş yollar 91
40. Düşmən mülklərinin işğalı 92
41. Odlu müharibə 94
42. Boş istehkamlar 94

V. Bəbirin məxfi təlimi 96
43. Meşədə müharibə 96
44. Partladıcı müharibə 96
45. Güclü düşmən 97
46. Döyüşkən düşmən 98
47. Dağlarda «alaqarğa və buludlar» 99
48. Bataqlıqlarda «alaqarğa və buludlar» 99
49. Kiçik və böyük qüvvələr 101
50. Bölünmüş vadilər 101

VI. İtin məxfi təlimi 103
51. Qoşunu yaymaq və birləşdirmək 103
52. Döyüş hücumu 103
53. Əsgərlərin seçilməsi 104
54. Döyüş təlimi 105
55. Bərabər qüvvələr 105
56. Cəng arabalarının əsgərləri 107
57. Süvari qoşunların əsgərləri 107
58. Cəng arabaları döyüşdə 108
59. Süvarilər döyüşdə 109
60. Piyadalar döyüşdə 111

61. Qeydlər 113

Ənənəyə əsasən, «Altı məxfi təlim» özlüyündə miladan öncə XI əsrdə Çjou Ven-vanu və U-vanu hökmdarları sülaləsi barədə Tay-qunun verdiyi məlumatlar, siyasi məsləhətlər və taktiki təlimatlar toplusudur. Göründüyü kimi, bu mətn «Döyüşən Çarlıqlar» dövrünə aid edilsə də, bəziləri orada Tsi çarlığı zamanı hərb sənətinin ənənələrinin əks olunduğunu, beləliklə, Çində hərbi düşüncənin qədim qatının xarakterik əlamətlərinin mövcudluğunu zənn edirlər. «Altı məxfi təlim»in aid edildiyi tarixi Tay-qun Çinin bütün tarixi boyu ilk sərkərdə və strategiya elminin banisi sayılır. Tan sülaləsi zamanı onun,- hərbi himayədarın şərəfinə dövlət məbədi ucaldılmış və beləliklə, o, vətəndaş himayədarı Konfusinin statusu bərabərində müqəddəs status almışdır.

«Altı məxfi təlim» geniş əhatəli əsərdir. Bu əsər təkcə strategiya və taktikanı müzakirə etmir, həm də səmərəli dövlət nəzarətinin təmin olunmasını və milli tərəqqiyə, inkişafa nail olmaq üçün həyata keçirilməsini zəruri sayan bir sıra tədbirləri təklif edir. Çox güman ki, Çjounun hökmdarları təcrübədə bu məsləhətlərin çoxuna riayət etmiş və kənd təsərrüfatını möhkəmlədə, insan ehtiyatlarını artıra, özlərinin ilkin kiçik mülkiyyətlərinin sərhədlərini xeyli genişləndirə və güclü Şan sülaləsinə qalib gələnə kimi, müttəfiqləri ilə sədaqəti qoruyub saxlaya bilmiş və nəhayətdə isə, onun altı yüzillik hökmdarlığına son qoymuşlar.

«Altı məxfi təlim» hakim sülaləyə qarşı mübarizə baxımından yazılan yeganə hərbi qanundur və Çjounun da məqsədi nə az, nə çox onun devrilməsi idi.

Bu məqsədə çatmaq üçün Çjou hökmdarlarından texnologiyanın və ideologiyanın inkişafı, həmçinin siyasi və strateji taktikanın,-hətta Çin tarixində əvvəllər müşahidə olunmayan döyüş taktikasının tətbiq olunması tələb edilirdi. Onlar güclü və yaxşı möhkəmlənmiş düşmənə qarşı hücum üçün kiçik ehtiyatları və məhdud qüvvələri hərtərəfli götür-qoy etməli idilər. Çünki düşmənin ordusu sayca, bəlkə də Çjounun bütün əhalisindən qat-qat çox idi. «Altı məxfi təlim»dən fərqli olaraq strategiyaya dair digər əsərlərdə dövlətlərarası hərbi qarşıdurmada müqayisə olunan qüvvəyə xüsusi fikir verilir və bu zaman hər iki tərəf təxminən eyni hərbi və təşkilati struktura arxalanır. Bundan başqa, demək olar ki, hərbi mətnlərin hamısı «dövlətin zənginləşməsi» (kənd təsərrüfatı vasitəsilə) və ordunun möhkəmlənməsi» barədə əsas müddəaya istinad edir, bir çoxları diqqəti strateji təhlilə və döyüş meydanında taktikaya yönəltməyə çalışır, qarşıdurmanın öz imkanlarının yaranması üçün vacib olan fundamental tədbirlərə əhəmiyyət vermirlər.

Çjou və Şan sülaləri arasında əsrlər boyu davam edən toqquşmalar, ilkin öncəgörmə və idealistcəsinə təsvirlər sonrakı tarixi əsərlərdə təsvir edilərək Çin mənəvi tarixinin əsasını yaratmış və sülalə mərhələsinin parametrlərini müəyyən etmişdir. Xeyrin şərlə

döyüş arxetiplərinin-bütün xalq adından zülmkarlarla və onun əlaltı həşəratlarına qarşı xeyirxah və ədalətli mübarizəsi öz başlanğıcını bu qarşıdurmadan götürmüşdür. Syanın Şan sülaləsi tərəfindən ələ keçirilməsinin eynilə şərh edilməsi yazı meydana gələnədək baş vermişdir və hələ qədimdən əfsanəyə çevrilmişdir. Beləliklə, Çjounun xalqı zülmdən xilas etmək, xeyirxahlığa və insanlığa əsaslanan hakimiyyət qurmaq uğrunda məqsədyönlü səyləri Çində mənəvi özünüdərkin ayrılmaz tərkib hissəsinə çevrildi. Sülalələr zəifləyən və hökmdarlar abırlarını və dövləti idarə etmək bacarıqlarını itirən zaman zülmkarlara qarşı çağırışa səsləyən, insanları həlak olmaqdan xilas etmək və humanist idarəetməni bərpa etmək iqtidarında olan yeni ədalət tərəfdarları meydana gəldi. Bundan başqa, bəzi tarixçilərin fikrincə Şan və Çjou arasındakı ixtilaf müxtəlif xalqlar arasında son döyüş kimi bayram edildi. Ona görə ki, Çjou sülaləsindən başlayaraq Çindəki bütün döyüş mənzərələri siyasətdaxili toqquşmalar idi. Bununla belə, mərkəzi aqrar dövlətlər və düzənlik köçəriləri arasındakı qarşıdurma həmin dövlətlərin xalqlarının «qonşulara-barbarlara» kimi zidd bir düşüncə tərzində öz ifadəsini taparaq Çinin bütün tarixi boyu davam etmişdir.

Ənənəvi salnamələrə, məsələn, «Şi tszi»[1] salnaməsinə əsasən lazımi mənəvi ənənələrə müvafiq olaraq və xalqın vəziyyətinin ağırlığı üzündən Şan sülaləsi sonuncu əxlaqsız Sya sülaləsini devirərək hakimiyyətə gəldi.

Nəsillər dəyişdi və Şan imperatorları cah-cəlala susadılar və «min həzzə» mübtəla olub, daha az xeyirxah və daha az səxavətli oldular. Onların günahları qar topası kimi o qədər böyükdü ki, nəhayət, növbə tarixdə şər qüvvəsinin ən böyük təcəssümü olan sonuncu hökmdara çatdı. O, ən ağlagələn və ağlagəlməz cinayətlər törətdi: ölçüyəgəlməz vergilərin təyin edilməsi; dəbdəbəli sarayların və əyləncə yerlərinin tikilməsi üçün ağır əmək cəzalarının tətbiqi; aclığa və səfalətə, pozğunluğa, sərxoşluğa və azğıncasına kefə gətirib çıxaran kənd təsərrüfatı işlərinə qarışmaq; çoxlu adamların, xüsusən öz xeyirxahlığı ilə məşhur olan adamların, loyal, qanunla hərəkət edən məmurların vəhşicəsinə qətlə yetirilməsi, həmçinin öz qəddarlığına görə qeyri-insani qətllər onun adı ilə bağlıdır. Buna baxmayaraq, «Şan salnamələri»nin «Şi tszi» bölməsində göstərilənlərdən məlum olur ki, bu hökmdar istedadlı, güclü və zəhmli idi.

Öz fitri qabiliyyətinə və öz fərasətinə görə imperator Çjou[2] dəqiq və çevik adam idi. Təbii qabiliyyəti və nüfuzu vardı. Onun eşitmə və görmə qabiliyyəti olduqca incə və zərif idi. Fiziki gücü ilə isə o, hamıdan üstündü». O, yalın əllə ən vəhşi heyvanı məhv edə bilərdi; onun biliyi o qədər idi ki, tənqidi susdurmağa, danışığı isə səhvləri ört-basdır etməyə kifayət edirdi. O, məmurlar qarşısında öz qabiliyyəti ilə öyünür, hamıya qarşı təkəbbürlü davranır və inanırdı ki, hamı ondan aşağı səviyyədədir. O, şərabı sevirdi, musiqiyə,

arvadlarına həddən artıq vurğun idi. O, Da Tsziyə heyran olub, onun məsləhətlərini eşidirdi. Belə ki, o, Şi Tszyanı yeni ədəbsiz, «beyli» (zövqsüz qadınlar) rəqsi və ədəbsiz «titrətmə» musiqisi yazmağa məcbur edir. O, Maral Qülləsini dəmir pullarla doldurmaq üçün vergiləri artırır və Tszyuy-tsyao anbarlarını ağzınadək taxılla doldurur. O, sarayları ağzınadək doldurmaq üçün itlərin, atların və qeyri-adi əşyaların sayını artırır. O, Şa-tsyu bağındakı güllənin üstünü tikib artırmış və oraya çoxlu vəhşi heyvan və quş yerləşdirmişdi. O, şeytanlara və ruhlara qarşı hörmətsiz idi. Şa-tsyu bağında o, çoxlu musiqiçi və aktyor toplamışdı, orada şərab gölü və asılmış ət tikələrindən meşə vardı, lüt kişilər və qadınlar onların arasında bir-birinin dalınca qaçırdı və sərxoşluq eyş-işrəti gecələrlə davam edirdi. Yüz nəsil hiddətlə ona tamaşa edir, vassalların bəziləri hətta üsyan edirdi.

Ənənəvi mənbələrə görə Çjou dövləti dramatik şəraitdə ikən, çjouluların rəhbəri Dan Fu öz tayfası ilə xilas olmaq üçün dağlardan aşaraq cənuba, Vey çayı vadisinə gəlib çıxır, tədricən «vəhşi adətlər»dən əl çəkir və əcdadlarının işini davam etdirərək, oturaq əkinçiliklə məşğul olmağa başlayır. Bu o saat onun xeyirxahlıq əlamətlərini büruzə verir və Çjouda, daha sonra bütövlükdə Çin sivilizasiyasında– kənd təsərrüfatı xarakteri üstünlük təşkil edir.

«Şi tszi»də hadisələr belə şərh olunur:

Qocaman rəhbər Dan Fu Xou Tsi[2] və ulu babası Lyu kimi yenidən kənd təsərrüfatı ilə məşğul olmağa başlayır, xeyirxah və ədalətli olur və dövlətdəki bütün adamlar ona tabe olurlar. Yunlar və digərləri Syun-yuyun var-dövlətini və əşyalarını əlindən almaq üçün onların üstünə hücuma keçirlər və o, bunları onlara verir. Sonra onlar torpağı və adamları almaq istəyi ilə yenidən hücuma keçirlər. Xalq hiddətlənir və vuruşmaq istəyir. Lakin qocaman rəhbər deyir: «Adamlar hökmdarı seçərkən bu, onların xeyrinə olmalıdır. İndi vəhşilər (barbarlar) hücuma keçir, müharibə aparır və mənim torpağımı və adamlarımı tələb edirlər. Nə fərqi var ki, adamlar onlarla birlikdədir, yaxud mənimlə? Adamlar mənə görə vuruşmaq istəyirlər. Lakin ataların və oğulların hökmranlıqdan ötrü həlak olmasına mən dözə bilmərəm».

O, öz qohumları ilə Binə yola düşərkən Tsi və Tszyuy çaylarından keçir, Lyan dağını aşır və Tsi dağlarının ətəklərində dayanır.

Qocalara arxa duran və xəstələri əllərində daşıyan Binin xalqı yenidən qoca rəhbərin arxasınca Tsi dağlarına gəlir. Qonşu dövlətlərdə Dan Funun insanpərvərliyini eşidən adamlar ona itaət etməyə hazır olduqlarını bəyan edirlər. Bundan sonra o, vəhşi adətlərə son qoyaraq divarlar və evlər tikir və onların ayrı yaşaması üçün şəhərlər salır.

O, beş idarəyə məmurlar təyin edir. Bütün xalq onun xeyirxahlığını vəsf edən məhnılar oxuyaraq sevinclərini bölüşürlər.

XX əsr Çin hərbi tarixçisi, general Syuy Bey-qen belə hesab edir ki, çjoulular kənd təsərrüfatını idarəetmə vərdişlərinə yiyələnən Şanlar tərəfindən fəth edilmiş, ümidləri puça çıxan əcdadları Sya da daxil olmaqla müxtəlif xalqlarla asanlıqla ittifaq yarada bilirdilər. Sya aqrar institutlarını əbədiləşdirməklə çjoulular bir çox illər ərzində qonşu xalqlara və dövlətlərə onları kənd təsərrüfatını və mövsümi işləri öyrətmək üçün məsləhətçilər kimi göndərirdilər. Bu qonşular tərəfindən çjouçulara qarşı təkcə hörmətin və xoş münasibətin artmasını təmin etmirdi, həm də Vey çayı vadisinin hüdudlarından kənarlardakı torpaqlarla, xalqlarla və adət-ənənələrlə tanış olmağa imkan verirdi.

Eyni zamanda, Dan Funun iki böyük oğlundan xeyirxahlıqda üstünlüyü sayəsində varis olan Tszi Li qonşulara qarşı bir neçə uğurlu yürüş aparır və tezliklə Çjounun təsir dairəsini genişləndirir.

Əvvəlcə Şan bu qələbələri etiraf edir və onun hərəkətlərini dəstəkləyərək ona müvafiq qaydada «bo» titulu verir, lakin o, hakim evin qohumu olub şahzadə xanımlardan biri ilə evlənməsinə baxmayaraq sonradan həbsxanaya salınır və Şan paytaxtında vəfat edir. Şan və Çjou arasındakı qarşılıqlı münasibətlər aydın olmasa da və onların tarixi gələcək arxeoloji tədqiqatlarını gözləsə də, görünür, hakim Çjou evinin digər üzvləri, Vyen-van da daxil olmaqla, Şan şahzadə xanımları ilə evlənmişdilər. Çjoulular Van çayı vadilərinə gələnədək U-Dinin hakimiyyəti vaxtlarından başlayaraq, onların nəsli törəyənə qədər şanlılar Çjouyaya qarşı bir neçə hərbi yürüş keçirdilər. Şan hökmdarları tez-tez onların mülklərini ələ keçirməyə çalışırdılar, lakin Çjounun gücü əhəmiyyətli dərəcədə artdığından vəziyyəti başa düşür və bu işdən əl çəkirlər.

Ven-van ahıl çağlarında, qəddar Şan hökmdarının əmrinə əsasən, ona boyun əymədiyinə görə həbsxanaya salınır, lakin onun ailəsinin və dostlarının səxavətlə payladıqları rüşvət sayəsində həbsdən çıxır. Hədiyyələr o qədər zəngin və heyrətamiz idi ki, yenidən Şana itaətkarlıq və sədaqət göstərdiyi üçün Ven-vana «Qərbin hökmdarı» titulu verilir. Bu hadisədən sonra ona kaman, ox və döyüş baltaları təqdim olunur. Bunlar hərbi vəzifələrin rəmzi idi. O, bunlardan istifadə edərkən taleyin hökmü ilə xaricdən imperiyaya yönələn təhlükələrə qarşı çıxmalı idi. O, təcili surətdə Şanın qərb əyalətindəki dövlətə qayıdır, çünki Vey çayı vadisinin uzaqlığı böyük üstünlüyə malik idi. Əslində barbarların torpaqlarında yaşamaqla çjoulular fəal hərbi fəaliyyət üçün böyük stimula-üstünlüklərə malik idilər, bərəkətli tarlalar xarici aləmdən nisbətən təcrid olunmuşdu. Ven-van artıq diqqət cəlb etmədən hərbi və maddi qüdrəti artırmaq siyasəti yürütməyə qadirdi və Çjounun həlledici döyüşə hazırlaşması üçün hələ düz on yeddi il vardı.

TAY-QUN

Hələ də üç mindən çox kiçik dövlətə və mülkə nəzarət edən Şanla müqayisədə geniş və güclü çjoulular dövlətinə Tszyan Şan adı daşıyan qeyri-adi adam- Tay-qun gəlir. Sirli keçmişə malik olan bu qoca adam dözülməz Şan hökmdarını tapır və saray həyatından dəlicəsinə uzaqlaşmaq arzusunu bəhanə edir. O, yalnız ona görə it-bat olur ki, apokrifik 72 yaşında birdən Çjouda peyda olub və orada məsləhətçi olsun. Ven-vanla görüşdən təxminən iyirmi il ərzində Çjou sarayına sədaqətlə xidmət etdiyinə görə, Tay-qun Tszinin şərq bölgəsi Şanın süqutundan dərhal sonra, nəinki xidmətlərinə görə mükafat almaqdan ötrü, əslində şərqdə vəziyyəti düzəltmək üçün (bəlkə də onun özündən yaxa qurtarmağa görə), ora təşrif buyurur.

Tay-qunun göstərilən uzunömürlülüyü barədə söhbət açmazdan əvvəl onu deyək ki, onun Ven-vanla ilk görüşü də mistik əfsanəyə bənzəyən iki böyük qəhrəmanın ənənəvi simvolik görüşüdür.

«Altı məxfi təlim»də deyildiyi kimi, saray tarixçisi dahi insanın peyda olmasının xarakterik nişanələrini qeyd edərək, bu barədə Ven-vana məlumat verir. Ven-van üç gün oruc tutaraq paklanır və ruhunu lazımi səviyyəyə çatdırır. Nəhayət, görüş baş tutur və Tay-qun dərhal başlıca məqsəd– Şanın devrilməsi barədə söhbət açır və Ven-vanın suallarını balıq ovu haqqında alleqorik üsulla cavablandırır. Sonra təşbehləri bir yana qoyaraq o, Ven-vana məsələnin məğzini-bütün aləmə sahib olmaq məqsədini, buna əsl humanist metodlarla və səmərəli idarəetmə ilə nail olmağı açıq-aşkar bəyan edir. Onun açıq-aşkar danışığından təəccüblənən və görünür, bunda Göyün iradəsini anlayan hökmdar o saat Tay-qunun Çjounun arzularını reallaşdırmağa qadir olan əsl mütəfəkkir olduğunu etiraf edir və Şan sülaləsini devirməyi qərara alır.

Beləliklə, Tay-qun məsləhətçi, hami-tərbiyəçi, etibarlı şəxs, hərbi strateq, çox güman ki, Ven-vanın və onun oğlu U-vanın yanında tam qələbəyə nail olunanadək hərbi qüvvələrin ali baş komandanı olmuş və bir çox illər onlara xidmət etmişdir.

«Si-tszi»nin Tszi dövlətinə həsr olunmuş fəslində verilən Tay-qun çarlığının banisinin bioqrafiyasındakı əlavə məlumatlarda məşhur görüşdən əvvəlki hadisələr şərh olünmuşdur.

Əsl adı Lyuy Şan olan Tay-qun əslən şərq dənizi ətrafındakı torpaqlarda anadan olmuşdu. Onun ulu babası bir vaxtlar işlər idarəsinə rəhbərlik etmiş və çayların sularını sakitləşdirməkdə Lyuya kömək etməklə məşhurlaşmışdı. Şunun və Sya sülaləsinin hökmranlığı dövrləri arasında Lyuyda, həm də, ola bilsin, Şendə udel alır və Tszyan soyadını qəbul edir. Sya və Şanın hökmranlığı zamanı bəzi oğullarının və nəvələrnin paralel olaraq Lyuyda və Şanda torpaqları vardı, digərləri, sadəcə, rəiyyət idilər və Şan onların davamçısı idi. Onun soyadı əvvəlcə Tszyan idi, lakin sonralar onu udelin adı ilə çağırdıqlarından Lyuy Şan olur.

Kasıblayan və ehtiyac içərisində olan Lyuy Şan balıq ovu zamanı Qərb hökmdarı ilə (Ven-vanla) görüşdükdə artıq qocalmışdı. O, ova hazırlaşırdı və falçıdan (qazancı barədə) soruşur. Görücü ona belə cavab verir: «Sizin tapdığınız adam nə əjdaha, nə cəsus, nə pələng, nə ayıdır. Sizin əldə edəcəyiniz hegemonun və ya hökmdarın köməkçisi olacaq». Bundan sonra Qərb hökmdarı ova gedir və həqiqətən də Vey çayının günəşli sahillərində Tay-qunla görüşür. O, onunla söhbət edərkən həddən çox xoşhallıqla təəccüblənir və soruşur: «Mənim əvvəlki köməkçim Tay-qun deyirdi: «Çjouya bir müdrik insan gələcək və Çjou çiçəklənəcəkdir». Siz həqiqətən həmin adamsınız yoxsa, yox? Mənim Tay-qunum (birinci nazir) uzun müddət sizi axtarmışdı». Buna görə o, onu Tay-qun-van adlandırmış və onunla birlikdə bir arabada geri qayıdaraq, strateq təyin etmişdi.

Deyirlər ki, Tay-qun çox oxumuşdu və bir vaxtlar Çou adlı Şan hökmdarına xidmət etmişdi. Buna baxmayaraq, həmin hökmdar Yolunu (Daonu) itirir və buna görə Tay-qun onu tərk edir. O, müxtəlif knyazlara hamilik etmək üçün səyahətə çıxır, lakin heç kimə (ona əl verən adama) rast gəlmir və nəhayət, Qərbin hökmdarı ilə birgə Qərbə gəlir.

Bir də deyirlər ki, Lyuy Şan işlərdən uzaqlaşmış və dəniz sahilində məskən salmış alim imiş. Qərbin hökmdarı onu Yuy-lidəki həbsxanaya salarkən onu tanıyan San-i Şen və Xun Yao Lyuy Şanı çağırırlar. Lyuy Şan deyir: «Eşitmişəm ki, Qərb hökmdarı böyük adamdır və qocaları müdafiə etməsi ilə məşhurdur. Buna görə mən onun yanına gedəcəyəm». Onlar üçlükdə gözəl qadınlar, çoxlu nadir əşyalar axtarıb tapır və Qərb hökmdarı adından Ven-vanı satın almaq üçün Şan hökmdarı Çjouya aparırlar. Beləliklə, Ven-van həbsdən azad olub Vətənə qayıda bilir.

Lyuy Şanın Qərb hökmdarının yanında xidmət etməsi barədə müxtəlif cür söhbətlər getməsinə baxmayaraq, ən əsası odur ki, o,Ven-vanın və U-vanın yanında strateq olmuşdur.

Qərb hökmdarı Yuy-lidən azad olub Çjouya qayıtdıqdan sonra Lyuy Şanla birgə gizli plan hazırlayır və Şan hökmranlığına son qoymaq üçün səxavətini daha da artırır. Tay-qun, əsasən, hərbi işlərlə və qeyri-adi strateqlərlə məşğul olur. Buna görə də sonrakı nəsillər ordu və Çjounun gizli qüvvəsinin mütənasibliyi barədə danışır, böyük planların tərtib olunmasında Tay-quna üstünlük verirdilər.

Qərb hökmdarı ədalətlə fəaliyyət göstərirdi, o, hətta Yuy və Tszyui sülalələrindən olan barbarları barışdırmışdı. Şair («Nəğmələr kitabı»nda) deyir ki, Qərb hökmdarı Mandat (Səma) aldıqdan sonra Ven-van adı ilə çağrılır o, Çuna, Mi-syuya və Tszyunan-iyə hücum edir və böyük Fen şəhərini salır. Kainatı üç hissəyə bölmək mümkün olsaydı, onda onun üçdə ikisi (artıq) Çjouya sədaqətli olduğunu bildirərdi. Bunun əsas səbəbi Tay-qunun hesablamaları və strategiyası idi.

Ven-van vəfat etdikdə taxta U-van çıxır.

Hakimiyyətinin doqquzuncu ilində Ven-vanın işlərini davam etdirmək arzusu ilə U-van şərqə yürüş edir. Başqa əyalətlərin knyazlarının onu müdafiə edib-etmədiyini bilmək istəyir. Ordu hücuma keçərkən Tay-qun and içmək üçün sol əlinə sarı döyüş baltası, sağ əlinə isə ağ bayraq götürür.

Tsan-sı! Tsan-sı! [14]

Sənin çoxlu adamlarını sənin qayıqların və avarlarında birləşdirək.

Kimlər gec gələrsə, boynu vurulacaq.

Sonra o, Mentszinə yola düşür. Öz arzusu ilə birləşən knyazların sayı səkkiz yüz nəfər təşkil edirdi. Onların hamısı deyir: «Çjou hökmdarına hücuma keçmək olar». U-van cavab verdi: «Hələlik olmaz», o, qoşunu geri qaytarır və Tay-qunla birlikdə Böyük And içir.

U-van Çjouya qayıtdıqdan iki il sonra Şan hökmdarı şahzadə Bi-qanı öldürür və Tszi-tsını həbsxanaya salır. U-van Şana hücum etmək arzusu ilə əlamətləri öyrənmək üçün tısbağa qınında fala baxır. Həmin əlamətlər xeyirli olmur, güclü külək qalxır və yağış yağır. Bütün birləşən knyazlar qorxuya düşürlər. Lakin Tay-qun onları dilə tutur ki, U-vanı müdafiə etsinlər və U-van qabağa çıxır.

U-van hökmdarlığının on birinci ilində, birinci ayın tzya-tszı günündə, o, Muyl zamanı and içir və Şan-Çjou hökmdarına hücuma keçir. Şan ordusu tamamilə əzilir. Çjounun özü qaçır və Maral Qalasında gizlənir. Onlar onu ələ keçirir və boynunu vururlar. Ertəsi gün U-van kilsənin (səcdəgahın) qarşısına gəlir: knyazlar təmiz su gətirirlər; veysli Kan-Şu-fon alabəzək həsir döşəyir; Şi Şan-fu (Tay-qun) qurban kəsmək üçün heyvanlar gətirir və Çjou hökmdarının cinayətlərinə görə cəzalanması barədə ruhlara məlumat vermək üçün dualar oxuyur.

Onlar məzlumların tələbatını ödəməkdən ötrü Maral Qalasındakı dəmir pulları bölüşdürürlər və Tszyuy-tszya ambarlarından taxıllı çıxarırlar. Onlar Bi-qanın dəfn olunduğu yerdə malikanə yaradır və Tszi-tszını həbsxanadan buraxırlar. Onlar doqquz qazan[5] qoyurlar, idarəetmədə qayda yaradırlar və Aləmdə hər şeyi təzələyirlər. Bunlar, əsasən, Şi-Şan-funun (Tay-qunun) planına əsasən edilirdi.

Şanı məğlub edən və Kainatın hökmdarı olan U-van Tszini Tay-quna verir və onu İn-tsyuda oturdur. Tay-qun şərqdəki mülkünə yola düşür, yolda gecələmək üçün dayanır və asta-asta yoluna davam edir. Karvansara sarayının sahibi demişdi: «Eşitmişəm ki, vaxta qənaət etmək də və onu əldən vermək də çətindir. Bizim qonaq olduqca rahat yatır. Bəlkə o öz mülkünə qayıtmağa tələsmir». Tay-qun bu sözləri eşidir, elə həmin gecə əynini geyib yola düşür və dan yeri sökülənədək öz dövlətinin sərhədinə yetişir. Lay hökmdarı ona hücum etmək və İn-tsyu uğrunda döyüşmək üçün

qabağa çıxır. İn-tsyu Layla həmsərhəd idi. Layda i- barbarları yaşayırdı, onlar Şanın sonuncu hökmdarının və Çjounun ilk illərində mövcud olan qarma-qarışıqlıqdan faydalanırdılar və güman edirdilər ki, Çjou uzaq torpaqları, əlayətləri özünə tabe edə bilməyəcək. Buna görə də Tay-qunla vuruşurdular.

Tay-qun öz dövlətinə çatarkən idarəçiliyi yerli ənənələrə müvafiq olaraq dəyişdi, mərasimlərin Çjou formalarını sadələşdirdi, ticarət və sənətkarlıqla məşğuliyyət məsələlərini həll etdi, balıq tutmaq və duz çıxartmaqdan əldə edilən gəlirin artırılmasına şərait yaratdı. Adamların əksəriyyəti Tsziyə sədaqətlərini bəyan etdilər və o, böyük çarlığa çevrildi.

Sonralar Çjou hökmdarı Çen-van nə qədər gənc idi Quan Şu və Tsay Şu üsyan etdilər və Xua çayı vadisindəki i- barbarları Çjoyuya qarşı çıxdılar. Bu vaxt Çen-van Çjao Kan-quna Tay-quna belə bir məzmunda məktub göndərməyi əmr edir: «Şərqdə dənizin özünə qədər, qərbdə Sarı çayadək, cənubda Mulinədək və şimalda Udiyə qədər hamını barışdırmalı və beş xouya və doqquz boya tabe olmağa məcbur etməli». Həmin vaxtdan Tsi barışdıra və hücuma keçə (üsyançılara) bildi və böyük çarlığa çevrildi. Onun paytaxtı İnstsyu oldu. Tay-qun vəfat etdi və bu vaxtı ornun yaşı yüzdən çox idi.

* * *

Saray tarixçisi deyir: «Mən Tay dağlarının ətəyindəki Lan-yedən şimaldakı dənizə qədər iki min li sahəsi olan məhsuldar torpaqlı Tsiyə yola düşdüm. Oradakı adamlar qeyzlidirlər və çoxu öz anlayışlarını gizlədirlər. Onların Səma tərəfindən müəyyən edilən təbiətləri belədir. Dövlət yaradarkən Tay-qun müdrikliyindən istifadə etmək təbii deyilmi ki, Xuan-qun hökmdarı çiçəklənmiş və yaxşı siyasət yürütmüşdür və bununla nüfuzlu knyazları cəmləşdirə bilmişdir. Böyük dövlətin böyük yolu, həqiqətən, böyükdür».

Sım Tsyanın etibarlı «Tarixi qeydlər»ində Tay-qunun bu qədər əhatəli bioqrafiyasına min illər boyu etimad etməyin mümkünlüyünə baxmayaraq, tək konfusian şübhəlilər onun mövcud olması faktının özünü inkar edir, başqaları, onun mənşəyi barədə versiyalar arasında çaş-baş qalanlar isə onun xidmətlərini kiçildirlər. Onlar öz fikirlərində tarixi hadisələr barədə müfəssəl məlumatlar verən «Şan-Şu»[6] və «Baharlar və Payızlar» kimi əsərlərdəki arxaik mətnlərə əsaslanırdılar. Tay-qun xatırlanmır. Beləliklə, şübhəlilər ikinci böyük konfusianın versiyasına istinad edirlər. Men-tszı Çin üçün müharibələrin və qaçılmaz qan tökülməsinin nə olduğu barədə klassik fikir söyləmişdir. U-vanın uzun illər boyu torpaqlar ələ keçirməsi və Şan dövlətinin nəhəng ərazisi üzərində nəzarət müəyyən etməsi kimi qəhrəmanlıq səyləri barədə də söhbət açılmır. Beləliklə, müdriklik, səxavət və vətəndaş işləri kimi əməllərin mücəssəməsi olan iki adam– Ven-van və Çjou-qun ənənələri həddən artıq şişirdir, strateq və sərkərdəni isə inkar edirlər.

Bununla belə, çoxlu sayda müxtəlif təsdiqedici mətnləri öyrənməklə və əfsanə və mifləri bir kənara qoymaqla, tarixiçilər belə nəticəyə gəldilər ki, Tay-qun, sadəcə, yaşamamış, həm də Çjounun tarixində «Şi və tszi»də göstərilənlərdən də çox böyük rol oynamışdır.

Ven-vanla ilk görüşün təəssüratının naməlum qalmasına baxmayaraq, çox güman, Tay-qun, həqiqətən, Tszyanlar qəbiləsinə məxsusmuş, çjoulların onlarla hərbi ittifaqı olub və onların nəsilləri arasında uzun müddət kəbin kəsiblər. Şübhəsiz, əvvəllər zənn edildiyi kimi mifik varlıq sayılan Sya sülaləsi hazırda arxeoloji axtarışlar sayəsində konkret çizgilər qazanır, Tay-qunun şəxsiyyəti bir vaxt gələcək tarixi dəlillərlə sübuta yetiriləcəkdir.

TAY-QUNUN SİYASƏTİ VƏ STRATEGİYASI

Qarşıya qoyulan məqsədə–sağ qalmaq və Şanı devirmək məqsədinə çatmaq üçün Çjou sülaləsinə maddi bazanı möhkəmləndirməyə, düşmənin qüvvəsini yarmağa, istər müharibə, istərsə də dinc dövrdə səmərəli idarəçilik sistemi yaratmağa imkan verən hərtərəfli əhatəli strategiya lazım idi. «Altı məxfi təlim» əsərində Tay-qun məqsədi xalqın rifah halının yüksəldilməsi olan humanist hökmdarlıq konsepsiyanın yeganə qısqanc tərəfdarı kimi çıxış edir. O, bu əsas qaydanı var gücü ilə müdafiə edir, həm də inanır ki, həyatda yaxşı idarə olunan, tərəqqi edən və razı qalan xalq öz hökmdarını həm maddi, həm də mənəvi cəhətdən müdafiə edəcək. Yalnız kifayət qədər maddi ehtiyatlara malik olan cəmiyyət adamları öyrətməyə və nəsihətə qulaq asmağa, onları ruhlandırmağa, müharibə kampaniyaları zamanı əlavə pul gəlirlərinin toplanmasını təmin etməyə, həmçinin mətin ruhlu əsgərlər tərbiyə etmək üçün əlverişli şəraitin yaradılmasına imkan verir. Bundan başqa, insani idarəçilik o saat bütün əzabkeş və incik adamlarda, digər ölkələrdən qaçqın düşənlərə, zülmkarın hakimiyyəti altında olanlar üçün cəlbedici olur. Bu, ona inam yaradır ki, yeni rejim bərqərar olduqdan sonra onun hökmdarı devrilən zalım hökmdarların səhvlərini təkrar etməyəcəkdir.

Tay-qunun «Altı məxfi təlim» əsərində əks olunan ümumi siyasət və strategiya konsepsiyalarının əsas prinsipləri qısaca olaraq aşağıdakı kimi təqdim edilə bilər.

Mülki işlər

Xalqın varlanması. Tay-qun Men-tszının xalqın rifahı və həyatı haqqında tarixi əhəmiyyət kəsb edən ideyalarla çulğalaşan siyasətini cani-dildən müdafiə edir. Kənd təsərrüfatının yaxşılaşdırılmasının birinci dərəcəli məsələ olduğunu və buraya onun məhsuldarlığının artırılması, həmçinin kənd təsərrüfatı mövsümünə müdaxilə olunmamasını və bu zaman hakimiyyətin fəaliyyətinin neqativ nəticələrinin azalacağı imkanlarını əsas tədbirlər hesab edirdi. Əgər

yalnız müvafiq maddi şərait yaradılmışsa, səxavəti çoxaltmaq və icrasına əmin olunan əmrlər vermək mümkündür. Çiçəklənən, yaxşı idarə olunan dövlətdən xalqın razı qalması qonşularda da hörməti artıra bilər.

Güclü məmurlar aparatı yaradılması və nəzarətin müəyyən edilməsi.

Təbii ki, idarəçilik əxlaqi qanunlara əsaslanmalı və səxavətliliyi yaymamalıdır. Lakin bu, yalnız mükafatlandırma və cəzalandırma ədalətli olduqda və buna nəzarət edildikdə səmərəli ola bilər. Bu tədbirlər güclü, hökmlü, fəal, seçilmiş adamlar tərəfindən həyata keçirilməlidir. Dövlətə yad olan «dəyərlər»dən məsələn, fərdi igidlik haqqında təqdimatdan imtina etmək lazımdır. Bununla belə, öz müttəfiqlərinə qarşı dözümlülük göstərmək və hər şeyi yerli adətləri pozmadan etmək lazımdır.

Mükafat və cəza hər kəs üçün aydın, təxirəsalınmaz, milli özünüdərkin ayrılmaz hissəsi olmalıdır. Qanun və cəzaların miqdarı məhdud və çox da böyük olmamalı, dövlətin yaşaması üçün vacib olanlar isə dönmədən yerinə yetirilməlidir. *Cəzalar ən yuxarıları da, mükafatlar isə ən aşağıları da əhatə etməlidir.*

Yalnız bu halda onlar təsirli olur və adamlar üzərində isə tutduğu mövqedən asılı olmayaraq, törədilən cinayətlərin üstünün açılıb- açılmamasından asılı olaraq nəzarət mümkün olacaq. *Hökmdarın şəxsi nümunəsi və rəğbəti.*

Hökmdar və dövlət məmurları öz təyinatları üzrə hamı tərəfindən qəbul olunmuş səxavətlikdə, humanistlikdə, ədalətlilikdə, ləyaqətlilikdə, etibarda, səmimiyyətdə və müdriklilikdə fəal surətdə təkmilləşməlidir.

Bütün adamlar mənfəəti, zövq almağı və səxavətliliyi sevir və ölümə, iztiraba və şərə nifrət edirlər, hökmdar bu dəyərləri öz xalqı ilə bölüşməyə borcludur. İdealda o, adamların ehtiyaclarını və arzularını hiss etməyə və xalqın həyatını daha yaxşı başa düşmək üçün istənilən informasiya mənbələrindən istifadə etməyə borcludur.

Şəxsi hisslər qərəzsiz fəaliyyətlə bir araya sığa bilməz, hökmdarın və onun əhatəsinin aldığı zövq həddini aşmamalı, xalqı kasıblaşdırmamalı və öz məşğuliyyətindən yayındırmamalıdır. Hökmdar ən kiçik şəri aradan qaldırmağa borclu olub düşmənin pozğunluğunu kökündən dərk etmək nümunəsi göstərməlidir ki, xalq onların arasındakı uçurumu görə bilsin. Ədalət həmişə xalqın hiss və arzularından yüksəkdə olmalı, hökmdar isə sevinci və kədəri xalqla bölüşməlidir. Bütün bunlar adamları ona yaxınlaşdıracaq və onların dövlətə sədaqətli olmasını təmin edəcəkdir.

Total müharibə. «Altı məxfi təlim»in əsrlər boyu tənqidə məruz qalmasının əsas səbəblərindən biri odur ki, Tay-qun qələbəyə nail olmaq üçün istənilən vasitələrdən istifadə olunmasında israrlıdır. Onun Şanın devrilməsi naminə Çjouda həyata keçirən prototipi də

belə etmişdi. Onlardan: hərbi fəaliyyətin mümkünlüyünü əvvəlcədən hiss etmək və ağıllı planlaşdırma vasitəsilə müharibə aparmaq üçün zəruri olan sərvət toplamaq; düşməni aldatmağa və şübhələri aradan qaldırmağa yönələn uydurma və hiyləgərlik; düşmənin məmurlarını satqınlığa öyrətmək və onun dövlətində anlaşılmazlıq və xaos toxumu əkmək üçün rüşvət və hədiyyələr; düşməni pozğunluğa və zəifliyə (musiqi, şərab, qadın və bəzək-düzək) sürükləmək. Tay-qun tam məxfiliyə, müharibəyə başladıqdan sonra isə istənilən şərtin irəli sürülməsini yaddan çıxarmağa çağırır.

Hərbi işlər

Tay-qun kampaniyanın strategiyası, sərkərdənin və komandirin seçilməsi, əsgərin təlimi və hazırlanması, silahların növü, yeni silahın icad olunması, kommunikasiya, döyüş taktikası, təşkil etmək kimi bir çox məsələləri müzakirə etsə də, kitabın böyük bir hissəsi hərtərəfli işlənib hazırlanmış konkret vəziyyətlərdə əxlaq taktikasına həsr olunmuşdur. Qüvvələrin birləşdirilməsi, onların səfərbər edilməsi və onlar üzərində nəzarət, hissələrin müstəqil fəaliyyəti, həmçinin «xüsusi» silahlar və onlarla silahlanmalar barədə geniş mülahizilər verilmişdir. Növbəti mövzular qısaca baxışdan ibarətdir.

Sərkərdə. Onu dəqiq seçmək lazımdır ki, o,. ali Sərkərdə vəzifəsini dövlət səcdəgahı qarşısında müvafiq təntənədə ucaltmalıdır və bundan sonra hərbi işlərdə mütləq hakimiyyətə malik olur. Gələcəkdə hökmdar artıq onun qərarlarına və hərəkətlərinə müdaxilə etməməlidir, ilk növbədə, ona görə ki, elə səhvlərə yol verilə bilər ki, ordunu zərbə altında qoyar və ya imkanları əldən verər, həmçinin hökmdarın şəxsi tanışlığına görə bəzi tabe olan işçilərlə sərkərdənin nüfuzunu müzakirə edə bilməz.

Sərkərdə və onun tabeçiliyində olanlar lazımi keyfiyyətlərin cəminə malik olmalı, səhvlərə gətirib çıxaran və ordunu asılı vəziyyətə salan xüsusiyyətlərə malik olmamalıdır.

Kitabın bəzi fəsillərində sərkərdənin ləyaqəti və çatışmayan səhvləri sadalanır və hərbi rəhbərə qiymət verilməsi və onların seçilməsi vasitələri təklif olunur.

Təşkilat və ittifaq. İstər hərbi, istər mülki sahədə keçirilən dövlət tədbirləri böyük səmərə verməsi üçün razılaşdırılmalıdır. Ayrı-ayrı qruplar konkret tapşırıqları yerinə yetirməlidirlər, həm də vahid hesabatlıq və məsuliyyət sistemi də müəyyənləşdirilməlidir. Tabeçilikdə olan işçilərin tam heyəti ilə komandanlıq iyerarxiyasının *(aşağı rütbəlilərin yuxarı rütbəlilərə tabe olma qaydası)* yaradılması, həmçinin texniki mütəxəssislərin və işlər müdirinin təyin olunması da lazımdır.

Vuruş taktikası. Tay-qun müxtəlif situasiyaları araşdırır və komandanın yerli şəraiti, düşmənin xarakterini və toqquşan tərəflərin

qüvvələr nisbətini öyrənməyə yönəldilən taktikasının işlənib hazırlanması qaydalarını müəyyən edən bəzi ümumi prinsipləri formalaşdırır.

İki əsas situasiya var: ordu düşmənlə döyüşə başlamaq istəyir və o birdən özünün əlverişsiz şəraitdə olduğunu aşkar edir və düşmən onu vuruşmağa məcbur edir.

Müzakirə olunan mövzular: qoşunun üstünlüyə malik olduğu yeri seçməli; mövqeni möhkəmlətmə hücumu; gecə hücumları; meşədə döyüş əməliyyatları, suda toqquşma; tələdən çıxma; düzənlikdə müdafiə; odlu hücum zamanı müdafiə; yaxa qurtarmaq lazım olan situasiyalar və yerlər; psixoloji müharibənin metodları; düşmənin qabaqcadan öyrənilməsi və onun idarə edilməsi; düşməni qorxuya salma üsulları və aldadıcı yollar.

Min illər keçməsinə baxmayaraq, «Altı məxfi təlim»in daha məşhur prinsipləri və praktiki göstərişləri əvvəlki kimi öz dəyərini saxlayır və əvvəlki kimi hərbi sahədə və biznesdə istifadə olunur. Aydındır ki, onların ən başlıca müddəaları yalançı və gözlənilməyən prinsiplərdir. Həmçinin səmərəliliyini artırmaq üçün qeyri-adi hərəkətlər, həm də düşməni fiziki və psixoloji cəhətdən idarə etmək lazımdır.

Bir neçə mümkün variant vardır, lakin onların ən təsirlisi düşmənin qüvvəsini çaş-baş salmaq üçün yalançı hücumdur.

Bunun ardınca düşmənin özünü itirdiyindən və onun növbəti hiylə olduğunu düşünməsindən istifadə etməklə əsas hücuma keçilməlidir.

Əlavə üsullara aşağıdakılar daxildir: düşmənin arasına yalançı informasiya yolu ilə çaşqınlıq salınması və aranın qarışmasından istifadə edilməsi; düşmən arasına qüvvənin çoxluğu barədə titrəyiş qorxusu salmalı; təcavüzkarlıq və təşəbbüskarlıq; sürət və tezlik; düşməni həyəcanlandıran və narahat edən yağış və külək kimi iqlim şəraitindən istifadə; günəş tərəfdən və ya gün batarkən hücuma keçmək; intensiv məlumat toplamaq. Hücum və ya müdafiə barədə qərar qəbul etməzdən öncə düşməni qiymətləndirmək və düzgün nəticə çıxarmaq olduqca vacibdir. Düşmən sərkərdəsinin zəifliyindən dolğunluğu ilə istifadə edilməli, hücum qorunmayan istiqamətlərə yönəldilməlidir. Ordunun ən yaxşısı bir yerə cəmlənəndir, bu onu dağınıq saxlamaqdan və bununla da, onu zəiflətməkdən yaxşıdır. Ordu səfərbər olmalı, onun güclü tərəflərindən isə tam istifadə edilməlidir. Sərkərdənin ordusunun zəifliyi üzündən məğlubiyyətə dözmək haqqı yoxdur.

MÜƏLLİFLİK VƏ MƏTNİN YARADILMA VAXTI

Tarixin Tay-qunun «Altı məxfi təlim»inə münasibəti qaranlıq olaraq qalır və bu baxımdan olduqca müxtəlif fikirlər söylənmişdir. Hazırda mövcud olan Çin adı «Tay-qun lyu tao» ilk dəfə Tan sülaləsi zamanı yazılan, az müddət hökmranlıq edən Suy sülaləsi ilə tarixə

daxil olan «Suy şi» əsərinin «Ədəbi traktatlar» bölməsində rast gəlinir. Bundan çox əvvəl «San qo çji» şərhçiləri tərəfindən Lyu Beyin və böyük sərkərdə Çjuqe Lyanın «Lyu tao»[7] adlı kitabda yüksək qiymətləndirildiyi xatırlanır. Məşhur şərhçi Yan Şi-qu bu kitabı Xan dövründə mövcud Çjou zamanı yazılan və tarixi əsər sayılan analoji adda olan mətnlə eyniləşdirir (bəlkə də , səhvən).

Adın mənası heç də tamam aydın deyil; bununla belə, birinci ieroqlif «lyu», şübhəsiz, «altı» deməkdir. İkinci ieroqlif «tao» əvvəlcə «üzlük», «örtük» mənasını daşımışdır, əgər bunu hərbi kontekstdə izah etsək kamanın və ya onun qoyulduğu çantanın büküldüyü parça belə adlanırdı. Bu söz daha geniş mənada «gizlədilmə», «məxfiləşdirmə» mənasını kəsb edir və nəticədə, kamandan oxatma və bütövlükdə hərb sənəti üçün lazım olan bacarığı ifadə edir. Beləliklə, «Lyu tao» müharibə aparmağın xüsusiyyətləri və taktikası barədə altı mülahizəni özündə cəmləşdirən mətn kimi başa düşülməlidir. Onun adını bəzən «Altı vəziyyət» kimi də tərcümə edirlər. Bununla belə, biz «tao»nun mənasını belə aspektlərdən qeyd etməyə ümidliyik ki, bu, «əşyaları bükmək» və bununla ört-basdır etmək, gizlətmək mənasını daşıyır, buna görə də biz «Altı məxfi təlim» adını seçmişik.

Konfusianlar, o cümlədən məşhur Sun sülaləsinin alimləri mətn barədə belə fikir yürüdürlər ki, «Döyüşən Çarlıqlar» dövründə hərbi mövzuda olan əsərlər populyar olduğu üçün bu saxtadır. Sonralar digər ənənənəçilər onun qədimliklə hər hansı əlaqəsi olmadığını gurultulu surətdə bəyan edərək, onu Tan sülaləsi dövrünə aid etdilər.

Onların tənqidinin səbəbi mətnin realistliyi və Tay-qunu müdafiə edən «şübhəli metodlardır». Artıq deyildiyi kimi, Tay-qunun şəxsiyyət olması barədə məsələnin müzakirəsi zamanı onlar heç bir etiraza məhəl qoymadan öz fikirlərinin üstə dururdular ki, Çjou sülaləsinin baniləri kimi əsl müdrik adamlar və ya Tay-qun heç vaxt öz məqsədinə çatmaq üçün hiyləgərlikdən, yalandan, qadından və rüşvətdən istifadə etmək həddinə qədər alçala bilməzlər. Buna görə də, onların fikrincə, Çjounun Şan üzərində qələbələrini mədəniyyətin və səxavətin barbarlıq və əxlaqsızlıq üzərində qələbəsi kimi başa düşmək lazımdır.

Təəssüflər olsun ki, onlar müntəzəm olaraq o fakta əhəmiyyət vermirlər ki, mülki və hərbi sənətlər eyni qiymətləndirilirdi. Onlar nəzərdən qaçırırlar ki, Çjou ordusu qoşununun sayına görə ondan qat-qat üstün olan Şan ordusuna həlledici final döyüşlərində uzunmüddətli hazırlıq sayəsində qalib gəlmişdir.

(Bəzi peşəkar hərbiçilər Çjounun apardığı hərbi əməliyyatların reallığını qeyd edərək, öz etirazlarını bildirirlər ki, onların arzusu şəri məhv etmək və adamları qorumaq üçün mümkün vasitələrdən istifadə etmək olmuşdur, buna görə də mətnin dəyərini aydın və dəlillə izah etmək lazımdır).

Bəzi ənənəçilər, xüsusən, keçmiş hərbiçilər kitabın doğruluğunu həvəslə müdafiə edir və onun Çjou sülaləsinin əvvəllərində yazıldığını düşünürlər.

Digərləri daha sadə düşünür və hesab edirlər ki, təlimin əsası qısa formada lövhəciklərdə yazılmış və şifahi surətdə Tsi çarlığında Tay-qunun gələcək nəslinə ötürülmüş və bu dövlətdə hərb elminin özəyini təşkil etmişdir.

Onlar etiraf edirlər ki, əsrlər boyu müzakirələr, görünür, «Çju-an-tszı»[8] və «Xan Fey-tszı» kimi çoxlu əlavələrə və dəyişikliklərə məruz qalmış və nəticədə «Döyüşən Çarlıqlar» dövrünün sonlarında tutuşdurulmuş və redaktə olunmuşdur.

1970-ci illərin əvvəllərində Xan məzarlığında qazma işləri aparılan zaman təxminən oxşar və qismən ona bənzər, Xan sülaləsinin dövrünə aid bambuk taxtalar üzərindəki nəşrinin aşkar edilməsi onun saxta tan əsəri olması fikrini tamamilə alt-üst etdi.

Tarixi Xan dəlilləri ilə birgə bu tapıntı onu göstərir ki, mətnin bir hissəsi indiki formaya Xan dövrünün əvvəllərindən gec olmayaraq düşmüşdür. Onun barəsində Tay-qunun özünün mətninə yaxın münasibətdə olanlar sevgi ilə söhbət açırlar.

Bununla belə, «Altı məxfi təlim»in əsasında başqa mətn itkisi olduğuna möhkəm əmin olanlar bu cür neçə tarixi anaxronizmi etiraf etməyə məcburdurlar.

Əsərin dili və stili mətnin yenidən xeyli işləndiyini göstərir və onun sonuncu qeydi, görünür, m.ö. IV əsrdən əvvəl aparıla bilməzdi. Tez-tez yeni süvarilik taktikasına həsr olunması və s. bunların hamısı sübut edir ki, təsəvvür edilən müəllif Tay-qundan yeddi və ya səkkiz əsr sonra yaşamışdır.

Məsələn, «Bərabər qüvvələr» adlı 55-ci fəsildə cəng arabalarının, süvarilərin və piyadaların vuruşdakı rolu müzakirə edilir, baxmayaraq ki, piyadalar Tay-qundan sonra yüz illər boyu mühüm döyüş vahidi hesab olunmamışlar, süvarilər isə yalnız m.ö. III əsrdə meydana gəlmişlər.

Bəzi alimlər təsdiq edirdilər ki, «Altı məxfi təlim»də digər başqa traktatlardan, məsələn, Sun-tszının «Hərb sənəti» əsərindən gen-bol sitatlar verilmişdir. Lakin birincilik məsələsi diskussiya mövzusu olaraq qalır. «Müharibə sənəti», bəlkə də, doğrudan qısaldılmış və fikir yayındırıcı fəlsəfi əsərdir.

Məhz ona görə ki, Sun-tszı mövcud hərbi düşüncəni mənimsəmişdir. «Vey-Lyo-tszı»nın müəllifi də «Altı məxfi təlim»in ilkin mətnindən konsepsiyaları və anlayışları götürə və dağınıq fikirləri səliqə ilə uzlaşdıra bilərdi. «Döyüşən Çarlıqlar» dövründə, əgər dövlət və sərkərdələr yaşamaq istəyirdilərsə, hərbi fikirlə dərindən tanışlıq, sadəcə, vacib idi. Buna görə də, konseptual və tekstual iqtibasın olmaması daha təəccüblü olardı, nəinki onun mövcudluğu, axı bu yüksək dərəcədə qapalı taktika və strategiya məktəblərinin mövcud olduğunu bildirərdi.

Həmçinin belə fikir səslənirdi ki, qarışıq vaxtda, Xan sülaləsi yaranan ərəfədə, Çjan Lyana verilən hərbi traktat «Xuan Şi-qunun üç strategiyası» yox, məhz «Altı məxfi təlim» olmuşdur. Bu kitab verilməsi nəzərdə tutulanlar üçün daha «rahat» idi. O qəddar və despot Tsinin sülaləsini devirmək hissi oyadardı. Güman edilir ki, əslində kitab, doğrudan da, Tsin çarlığı düşmənə qarşı qəddarcasına işgəncə verdiyi və daha güclü olduğu bir vaxtda, m.ö. III əsrdə tərtib edilmişdir. Bu anlayışların və strategiyaların işlənib hazırlanması müəllifin silahlardan və mühafizə qurğularından yaxşı başı çıxdığı, həmçinin xalqı hümanist idarə etmənin və kitabı hər vəchlə yad nəzərlərdən qorumağın vacibliyinin qeyd olunması ilə izah edilir.

ALTI TAO

Əksər şərhçilər güman edirlər ki, ilk iki məxfi təlim ümumi strategiyaya və planlaşdırmaya həsr olunmuşdur, eyni zamanda digər dördü taktikanı tədqiq edir. Ən azı ona görə ki, «Altı məxfi təlim»in yaradıcılarının özləri mətnin tematik bölgüsünü izah etməmişlər, yaxud da bu giriş materialı itmişdir. İndi onların arasındakı hər hansı daxili əlaqəni, məsələn, «əjdaha» sərlövhəsilə müvafiq məzmun arasında müəyyənləşdirmək çətindir.

Yalnız ilk iki təlim– mülki və hərbi müharibə aparmaq üçün iqtisadi cəhətdən güclü, yaxşı idarə olunan dövlətin itaətkar xalqı və güclü ordusu olmalıdır,- sərlövhələri özünü doğruldur.

Müzakirə mövzuları və altı təsnifat arasındakı uyğunluğu müəyyən etmək cəhdlərinin olmasına baxmayaraq, alınan nəticələr, bütövlükdə, işi bilməmək üzündən hissələrin və sərlövhələrin yerini dəyişməyə haqq vermir. Yuxarıda artıq hər bir təlimin məzmununun ümumi xarakteristikası verilmiş və bəzi əsas süjetlər müzakirə olunmuşdur. Bundan başqa, «Altı Tao»nun hər birinin qısa şərhi oxucular üçün faydalı olardı.

Mülki Tao

Mənəvi və səmərəli idarəetmə- bu, yaşamaq və müharibə aparmağın əsasları üçün yeni şərtdir. Əgər xərclər azalarsa, lazımi dəyərlər və əxlaq təsdiq olunarsa, mükafat və cəza sistemi müəyyən edilərsə, xidmətə layiqli insanlar qəbul edilərsə, xalqa maneçilik törədilməzsə, dövlət çəçiklənər.

Hərbi Tao

«Məxfi hərbi təlim» «Mülki təlim» kimi hərbi təlimdən daha çox siyasi təlimdən bəhs edir. O Tay-qun tərəfindən siyasi vəziyyətin təhlilindən və qarşısına adamları zülmdən və iztirablardan xilas etmək məqsədi qoyan Çjounun Şanla hərbi qarşıdurmasın qiymətləndirilməsindən başlayır. Narazı adamları öz ətrafına cəlb etmək düşməni zəiflədir və dövləti gücləndirir, hiyləgər əməllər və psixoloji üsullar düşməni təslim edir və onun məğlubiyyətini

yaxınlaşdırır. Hökmdar açıq şəkildə səxavətlilik göstərməli və məmurların fəaliyyətinə rəhbərlik etməlidir ki, bu da dövlətə insanların ürəklə və ağılla vurulmasına imkan verər və bu zaman o, döyüşə girmədən qələbə çalır.

Əjdaha Taosu

«Məxfi əjdaha təlimi» komanda heyətinin əsas vəzifələri də daxil olmaqla hərbi təşkilatlanmanın aşağıdakı məsələlərinə əsas fikir verir:

sərkərdələrin xarakteristikasına və sənətinə, onların seçilməsi və qiymətləndirilməsi qaydalarına; sərkərdənin hakimiyyətinin bütün dolğunluğunu müəyyən edən vəzifəyə başlama mərasimini; komandanın etibarlılığa və sədaqətə riayət edilməsi üçün mükafat və cəza verməsinin vacibliyi; sərkərdənin qoşuna komandanlıq etməsi və ona etibar edilən qüvvələrdə qayda və birlik yaradılmasına xidmət edən intizam normaları. İkinci dəfəki qeyd hərbi kommunikasiyalara və birinci dərəcəli ciddi məxfiliyin vacibliyi, vəziyyətin qiymətləndirilməsi və həlledici fəaliyyətin vaxtında icrası, çevik və «qeyri-adi» prinsiplər də daxil olmaqla əsas taktiki prinsiplərin başa düşülməsi və komandanlıqda ümumi səhvlərdən yaxa qurtarılması kimi məsələlərə aiddir. Düşmənin qarşısında vəziyyəti daha yaxşı başa düşmək üçün müxtəlif fikirlər yürüdülür, bundan başqa döyüş vərdişlərini və hərbi təchizatı gündəlik təkmilləşdirmənin vacibliyi də qeyd olunur.

Pələng Taosu

«Məxfi əjdaha təlimi» hərbi təchizat və silahlanmanın əsas elementlərinin müzakirəsi ilə açılır,sonra müxtəlif siyasi üsullar və adamlara komandirlik etməyin vacib tərkib hissələri nəzərdən keçirilir. Qoşunun cəbhə boyu genişlənməsi növləri qısa şəhr olunsa da, quruda və suda vuruşmaq üçün lazımi silahlanma qaydaları yada salınır, fəsillərin əksəriyyətində döyüş gedişində pis vəziyyətdən necə çıxmaq barədə müfəssəl məlumat verilir. Optimal qərar hər şeydən əvvəl sürət, manevrlilik, fəaliyyətin razılaşdırılması, özünü tam qurban vermək, hər cür mümkün olan aldadıcı manevrlər, pusqular qurmaq və müxtəlif növ birləşmələri döyüşə düzgün tətbiq etmək nəzərdə tutulur.

Bəbir Taosu

«Məxfi bəbir təlimi» meşə, dağ, dərə və çuxur, göl və çay, dərin dərələr və i.a. qeyri-münasib yerlərdə döyüş zamanı ortaya çıxan məsələlərin taktiki həllini təklif edir. Orada, həmçinin qızğın hücumlarda dözümlülük, həddən çox olan qüvvələrə qarşı durmaq, cəbhə boyu səmərəli geniş həmlə və ildırım sürətli hücum metodları barədə müzakirələr əks olunmuşdur.

İt Taosu

«Məxfi it taosu» üç növ ordudan– cəng arabası, piyadalar və süvarilərdən konkret taktiki vəziyyətlərdə düzgün istifadə prinsiplərini izah edir və onların döyüşdə müqayisəli səmərəliliyi hərtərəfli müzakirə olunur. Digər hissələrdə bacarıqla istiqamətləndirilmiş hücumlarda istifadə edilməsi lazım və vacib olan düşmənin nöqsanları və zəif cəhətləri göstərilir. Nəhayət, bir neçə fəsildə «Məxfi əjdaha təlimi»nə daha yaxın olan yüksək təbəqəli piyada birləşmələri, süvarilər və cəng arabaları üçün yüksək dərəcəli, fiziki cəhətdən güclü əsgərlərin seçilməsi, həmçinin əsgərlərin təlimi metodlarına aid olan ümumi göstərişlər verilmişdir.

I
MÜLKİ MƏXFİ TƏLİM

1. VEN-VANIN MÜƏLLİMİ

Ven-van ova hazırlaşırdı.

Buna görə mirzə Tyan ovda əldə olunacaqlar barədə fala baxırdı.

O, dedi:

Siz Vey çayının şimal sahilində ov etdikdə böyük uğurla qarşılaşacaqsınız.

Bu özünün əlamətlərinə görə nə əjdaha, nə pələng, nə də nəhəng ayı olacaq.

Görüntülərə əsasən Siz orada Səmanın Sizə göndərdiyi qunu və ya xounu tapacaqsınız.

Əgər o, sizin məsləhətçiniz olsa, onda çiçəklənmə başlayacaq və Çjou hökmdarının rifah halının yaxşılaşması onun üç nəslinə sirayət edəcək.

-Ven-van soruşdu:

-Doğrudanmı əlamətlər belə deyir?

Tyan cavab verdi:

-Mənim ulu əcdadım, mirzə Çou olduqca ağıllı imperator Şun üçün fala baxanda eyni nəticələri almışdı. Onda imperator Şun Qao-yaonu köməkçi almışdı.

Ven-van paklanmaq üçün üç gün oruc tutdu, sonra cəng arabasını ova hazırladı. O, yüyəni əlində tutaraq Vey çayının sağ sahilinə yola düşür. Nəhayət, otun üstə oturub balıq tutan Tay-qunu görür. Ven-van ona ədəblə salam verir və soruşur:

– Siz balıq ovundan zövq alırsınız?

Tay-qun cavab verir:

- Alicənab kişi [9] öz məqsədinə çatdıqda zövq alır; adi adam işlərində uğur qazandıqda zövq alır. Balıq tutmaq da buna bənzəyir.

- «Buna bənzəyir» deməklə nəyi nəzərdə tutursunuz?,- deyə Ven-van soruşur.

Tay-qun cavab verir:

- Balıq ovunda üç hakimiyyət forması var: mükafat, ölüm və vəzifə. Balıq ovu axtardığını tapmaq vasitəsidir. Onun təbiəti qəlizdir və ondan böyük prinsiplər əxz etmək olar.

Ven-van dedi:

- Mən onun təbiəti barədə eşitmək istərdim.

Tay-qun izah etdi:

- Əgər mənbə dərindirsə, su sürətlə hərəkət edir, Şu tez hərəkət etdikdə, balıqlar artır. Təbiət beladir. Kök dərindirsə, ağac ucadır. Ağac uca olduqda bar verəndir. Təbiət beladir. Alicənab

kişilər eyni hissə və baxışa malik olduqda birləşirlər. Onlar birləşdiyi zaman işləri dağdan aşırmaq olur. Bu da sənə təbiət.

Suallar və cavablar daxili hisslərin bəzəyidir. Əsl təbiət haqqında mülahizələr isə işlərin zirvəsidir. Əgər mən hər hansı bir mövzunu buraxmadan əsl təbiət barədə danışası olsam, bunu yersiz saymazsınız ki?

Ven-van dedi:

- Yalnız humanist olan adam etiraz və tənəni qəbul edə bilər. Mən əsl təbiətdən gizlənməyəcəyəm.

Buna görə də Siz onun barəsində nə düşünürsünüz?

Tay-qun dedi:

- Tilov ipi nazik, tələ yemi parlaq olduqda ona yalnız kiçik balıqlar gələr. Tilov ipi yoğun, tələ yemi ətirli olduqda iri ana balıqlar gələr. Tilov ipi möhkəm, tələ yemi kiçik olduqda böyük balıq gələr. Balıq yemi yedikdə onu tilovdan çıxarmaq olar. Adamlar mükafat aldıqda hökmdara tabe olurlar. Balığı tələ yeminin köməyi ilə tutduqda, onu öldürmək olar. Adamları mükafatların köməyi ilə tutduqda onları öz istedadlarını xidmətə sərf etməyə məcbur etmək olar. Əgər öz ailəni dövləti ələ almağa istifadə etsən o, qarət oluna bilər. Əgər öz dövlətindən istifadə etsən, bütün Kainatı almaq olar.

Qaldı ki, çiçəklənənlərlə hay-küy salanlar bir yerdə birləşsələr də, pərən-pərən olacaqlar. Vüqarlı və sakit, ağıllı hökmdarın şöhrətinin uzaqlara yayılması qaçılmazdır!

Ağıllı hökmdarın ələkeçməz və müəmmalı xeyirxahlığı adamları cəlb edəcək! Görürsünüz, o, birdir.

Ağıllı hökmdarın möcüzəli və fərəhləndirici düşüncələrini adamların hamısı axtarır və onların qəlbində cəmləşən tədbirlər müəyyənləşənədək adamlar öz yerlərinə qayıdırlar.

Ven-van soruşdu:

- Biz necə hərəkət etməliyik ki, Kainat öz sədaqətini göstərsin?

- Kainat bir adamın mülkü deyil.

«Kainat»– səmanın altında olan hər şeyə işarədir.

Kim ki, Səma altındakı gəlirləri adamlarla bölüşür, dünyalar qazanır. Kim ki, hər şeyi özünə götürür, dünyanı itirir.

Səmada ilin fəsilləri var, Yerdə onun sərvətləri.

Onları insanlarla bölüşmək bacarığı əsl hümanistlikdir. Harada əsil humanistlər varsa, Kainat sədaqətlilik göstərəcəkdir. Adamları ölümdən qurtarmaq, ehtiyacları yüngülləşdirmək, insanları bədbəxtlikdən xilas etmək, bəlada yardım göstərmək xeyirxahlıqdır. Xeyirxahlıq harada olursa, Kainat sədaqətlilik göstərəcəkdir.

Bəlaları və nəşəni, məhəbbəti və nifrəti insanlarla bölüşmək ədalətlilik deməkdir. Harada ki, ədalət var, insanlar ora gedəcəklər.

Bütövlükdə, adamların özünü görməyə gözü yoxdur və həyatdan zövq alırlar. Onlar xeyirxahlığı sevirlər və mənfəətə can atırlar.

Mənfəət əldə etmək qabiliyyəti Dao ilə razılaşdırılır. Dao olan yerdə Kainat sədaqət göstərəcəkdir.

Ven-van iki dəfə itaət edərək soruşdu:

- Əsl müdriklik! Heç mən Səmanın fərmanını və mandatını qəbul etməməyə cəsarət edə bilərəmmi?

O, Tay-qunu cəng arabasına dəvət etdi, onunla birgə geri qayıtdı və özünə müəllim etdi.

2. DOLULUQ VƏ BOŞLUQ

Ven-van Tay-qundan soruşdu:

- Dünya dövlətlərlə doludur. Bəziləri doludur, digərləri boş, bəziləri yaxşı idarə edilir, başqaları qayda–qanunsuz. Niyə belə olur? Bu onunlamı əlaqədardır ki, hökmdarların ləyaqəti eyni deyil? Yaxud bunları cisimlərin təbii hərəkəti və səmavi mövsümlərin dəyişməsi doğrur?

Tay-qun dedi:

- Əgər hökmdarın ləyaqəti kifayət qədər deyilsə, dövlət təhlükədə, xalq təlatümdə olacaqdır.

Əgər hökmdar ləyaqətli və kamil dərəcədə müdrikdirsə, dövlət dinc, adamlar itaətkar olacaqlar. Xoşbəxtlik və bədbəxtlik səmavi mövsümlərdən deyil, hökmdardan asılıdır.

Ven-van:

- Mən qədim kamil müdriklər barədə eşidə bilərəmmi?

Tay-qun:

- Qabaqkı nəsillər qədimdə çarlıq edən imperator Yaonu layiqli hökmdar hesab edirlər.

- O, necə hökmranlıq edirdi?

Tay-qun:

- Yao dünyanın hökmdarı olarkən özünü nə qızıldan, nə gümüşdən, nə mirvaridən, nə də yaşma ilə bəzəməmişdi. O, zərxara, naxışlı və ya bahalı bəzəkli paltar geyməmişdir. O, qəribə, təəccüblü, qeyri-adi və ya nadir əşyalara baxmamışdır. O, əyləncələrə qiymət verməmiş və pozğun mahnılara qulaq asmamışdır.O, sarayın və digər binaların divarlarını ağartmamış, həm də dirəklərlə bəzəməmişdi. O, hətta heç vaxt həyətində bitən çubuğu kəsməmişdir. O, soyuqdan qorunmaq üçün maral dərisi geyər, bədənini isə sadə paltarla örtərmiş. O, kobud darı, emal olunmamış buğda və tərəvəzdən hazırlanmış qatı şorba yeyərmiş. O, heç vaxt kənd təsərrüfatı mövsümünə və ipəkçiliyə (bivaxt), əmək mülkiyyətinə maneçilik törətməmişdir. O, işləri idarə etməklə öz arzularını məhdudlaşdırır və iradəsini saxlayırdı. O, sədaqətli, sözü üzə deyən və qanuna əməl edən məmurları qiymətləndirirdi və namuslu vicdanlıları mükafatlandırır və insanları sevirdi. O, başqalarına ehtiram göstərənlərə və onların dərdinə qalanlara hörmət edir, kənd təsərrüfatı və ipəkçiliyə qüvvə sərf edənləri

müdafiə edir və köməklik göstərirdi. Kənd evlərinin darvazalarına bərkidilən bayraqlar xeyirxahları qəddarlardan fəqləndirirdi. O, öz qəlbini təmizləyir və məcburiyyəti azaldırdı. O, qanunlar və göstərişlərlə qəddarlığı və hiyləgərliyi qadağan etmişdi.

O, nifrət etdiyi adamları o saat mükafatlandırırdı. O, sevdiyi adamlardan cinayətlərdə günahı olanları sözsüz cəzalandırırdı. O, dul kişiləri və dul qadınları, yetimləri və tənha qocaları saxlayır və yedizdirir, bədbəxt hadisələrdən zərər çəkən və itki verən ailələrə yardım edirdi. Onun öz özünə təyin etdiyi adamlar olduqca az, vergilər və töycülər isə cüzi idi. Buna görə də adamların çoxu yaxşılaşmış və xoşbəxt olmuşdu, heç kim aclıqdan və soyuqdan əziyyət çəkmirdi. Yüz nəsil hökmdarın xatirəsini yad etmişdi. Sanki o, günəş və ay olmuş və onların bütün hissləri ona bağlanmışdı, elə bil o, onlar üçün həm ata, həm ana olmuşdu.

Ven-van:

- həqiqətən, ləyaqətli və xeyirxah hökmdar, dahi olmuşdur.

3. DÖVLƏT İŞLƏRİ

Ven-van Tay-quna dedi: Mən dövləti idarə etmək sənəti barədə bilmək istəyirəm. Əgər hökmdara hörmət göstərilməsini, xalqın rahat olmasını istəsəm, necə hərəkət etməliyəm?

Tay-qun:

- Sadəcə, adamları sevmək lazımdır.

Ven-van:

- Adamları sevmək nə deməkdir?

Tay-qun:

_ Xeyir gətirmək, onlara zərər vurmamaq. Onların xoşbəxtliyinə yardımçı olmaq, ümidlərini qırmamaq. Onlara həyat bəxş etmək, məhv etməmək. Mükafatlandırdıqda onu geri almamaq. Onlara sevinc bəxş etmək, iztirab çəkməyə qoymamaq. Onları xoşbəxt etmək, qəddar olmağa məcbur etməmək.

Ven-van:

- Bunun səbəbini izah etməyi xahiş edə bilərəmmi?

Tay-qun:

- Nə vaxt xalq öz əsas məşğuliyyətini itirmir, siz ona xeyir verirsiniz.

Nə vaxt kəndli kənd təsərrüfatı mövsümünü əldən vermir, Siz ona bolluq, firavanlıq bəxş edirsiniz. Nə vaxt cərimələri ixtisar edir və cəzanı azaldırsınızsa, onlara həyat verirsiniz.

Nə vaxt yüngül vergi təyin edirsinizsə, onu onlara qaytarırsınız. Sizin saraylarınız, evləriniz, terraslarınız (meydançalarınız) və pavilyonlarınız nə qədər azdırsa, Siz bununla onları sevindirirsiniz. Məmur təmiz olduqda, adamları incitmədikdə və onlara zərər yetirmədikdə xalq xoşbəxt olur.

Haçan ki, adamlar öz əsas məşğuliyyətindən ayrıldı, o zaman Siz onlara ziyan vurursunuz.

Haçan kəndli kənd təsərrüfatı mövsümünü əldən buraxırsa, Siz onların ümidlərini puça çıxarırsınız. Əgər onlar müqəssir deyillərsə və Siz onları cəzalandırırsınızsa, onları məhv edirsiniz. Haçan yüksək vergi təyin edirsinizsə, Siz onları soyursunuz. Haçan çoxlu saray, ev, terras və pavilyonlar tikir və bununla adamları gücdən salırsınızsa, Siz onlara dərd verirsiniz. Əgər məmurlar satqındırlarsa, adamları qıcıqlandırır və onlara zərər vurursa, bu, onların hiddətlənməsinə səbəb olur.

Buna görə kim ki, dövləti idarə etməyi, adamlarla valideynlərin öz sevimli övladları ilə dil tapmağı və ya böyük qardaş kiçik qardaşla rəftar etdiyi kimi rəftar etməyi bacarırsa, o, udur. Onlar görəndə ki, bunlar soyuqdan və aclıqdan əziyyət çəkirlər və onlara görə narahat olurlar. Onların ağır zəhmətini və iztirabını gördükdə onlara görə kədərlənirlər.

Mükafat və cəza elə müəyyən edilməlidir ki, sanki özün üçün nəzərdə tutulub. Vergilər elə müəyyən edilməlidir ki, elə bil özün öz əlindən alırsan. Bax, adamların məhəbbətini qazanmağın yolu budur.

4. ƏXLAQIN ULU QAYDALARI

Ven-van Tay-qundan soruşur:

- Hökmdarla nazir arasında əxlaq (li)[11] qaydaları hansılardır?

Tay-qun dedi:

- Hökmdar hər şeydən əvvəl, adamlarla olmalıdır, tabeçiliyindəkilər, yalnız itaətkar olmalıdırlar. O, heç kəsdən uzaq düşmədən onların yanında olmalıdır. Onlar heç nəyi gizlətmədən itaətkar olmalıdırlar. Hökmdardan yalnız hamını dinləmək tələb olunur; tabeçiliyindəkilər öz yerlərinə otuzdurulmalıdırlar. Əgər onlar düzgün yerləşdirilsələr, Yerə bərabər tutulurlar. Səma, Yer olduqda Böyük Li tamamlanır.

Ven-van :

- Hökmdar necə hərəkət etməlidir?

Tay-qun:

- O, təmkinli, böyük və rahat olmalıdır.

Onun həlimliyi və ciddiliyi açıq-aşkar olmalıdır. O, səxavətli olmalı və deyingən olmamalıdır.

O, hadisələrə birbaşa hazır olmaqla öz düşüncələrini təmizləməli və iradəsini sakitləşdirməlidir.

Ven-van soruşdu:

- Hökmdar işlərə necə öyrəşməlidir?

Tay-qun cavab verdi:

- O, onları köməksiz buraxmamalı, həm də fikirlərin əleyhinə getməməli və onlara qarşı çıxmamalıdır.

Əgər o, onların öz axarı ilə getməsinə imkan versə, hakimiyyəti itirər; əgər öz fikrinə görə onların əleyhinə çıxarsa, o, özünün işlərə yaxın düşmə imkanlarını yox edər. O, aşağıdan

yuxarıya baxdıqda zirvəsi görünməyən hündür dağa və ya ölçülərcə dərinliyini müəyyən etmək mümkün olmayan dərin dibli dərəyə bənzəməlidir. Belə mənəvi və savadlı, xeyirxah hökmdar düzgünlüyün və rahatlığın zirvəsidir.

Ven-van soruşdu:

- Hökmdarın müdrikliyi necə olmalıdır?

Tay-qun:

- Gözlər aydınlığı, qulaqlar incəlikləri, ağıl müdrikliyi qiymətləndirir.

Ərş-ələnın gözləri ilə baxsaq, görünməyən heç nə yoxdur. Ərş-ələnın qulaqları ilə dinləsək, eşidilməyən heç nə yoxdur. Ərş-ələnın ağlı ilə düşünsək, öyrənilməyən heç nə yoxdur. O zaman (bütün mənbələrdən məlumat alacaqsan) bu təkər çarxına millərin hamısının necə keçməsi aydın olacaq.

5. AYDIN TƏLİMATLAR

Ağır xəstə olan və yataqda uzanan Ven-van Tay-qun vanı və şahzadə varis Fanı (U-vanı) yanına çağırır.

- Bəli, Səma, görünür, məni tərk edir. Tezliklə Çjounun dövlət səcdəgahı sizə tapşırılacaq. Bu gün, mənim müəllimim, öz oğluma və nəvələrimə açıq-aydın çatdırmaq üçün Daonun böyük prinsipləri barədə söhbətləşmək istəyirəm.

Tay-qun dedi:

- Nə barədə soruşmaq istəyirsiniz?

Ven-van:

- Daodan əvvəlki müdriklər barədə eşitmək istəyirəm. Onlar nə vaxt yox olur, nə vaxt gəlirlər?

Tay-qun:

- Əgər kimsə yaxşı şeyi görür, lakin onu (işlərin təkmilləşməsini) ləngidir; əgər iş görmək vaxtı yetişir, lakin kimsə tərəddüd edir; əgər bilirsən ki, səhv edirsən və ona yol verirsən,– məhz bu üç halda Dao yox olur. Əgər kimsə mülayim və rahatdırsa, ləyaqət və ehtiram sahibidirsə, güclü və üstəlik sevincəkdirsə, dözümlü və üstəlik möhkəmdirsə, bu dörd halda Dao meydana gəlir. Buna görə, ədalət arzunu üstələdikdə, çiçək açacaqsan; arzu ədaləti üstələdikdə isə məhv olacaqsan. Nə vaxt ehtiram astagəlliyi üstələyirsə bu, olduqca xoşdur; astagəllik ehtiramı üstələdiyi halda məhv ediləcəksən.

6. ALTI KEŞİKÇİ

Ven-van Tay-qundan soruşur:

- Dövlətin hökmdarı və xalqın rəhbəri öz mövqeyini necə itirir?

Tay-qun dedi:

- O, öz köməkçilərini seçməkdə ehtiyatsızlıq etdikdə. Hökmdarın «altı keşikçisi» və «üç xəzinəsi» var.

Ven-van soruşdu:

- «Altı keşikçi» nədir?

Tay-qun:

- Birincisi– humanistlik, ikincisi– ədalətlilik, üçüncüsü– sədaqətlilik, dördüncüsü– etibarlılıq, beşincisi– mərdlik, altıncısı– qənaətcillik adlanır. Onlar birlikdə «altı keşikçi» adlanır.

Ven-van soruşdu:

- «Altı keşikçi»nin köməyi ilə adamları necə seçmək olar?

Tay-qun :

- Onları mükafatlandırmaq və cinayət törətməmələri üçün izləmək lazımdır. Onlara rütbə vermək və özlərindən razı olmamalarını izləmək lazımdır. Boyunlarına məsuliyyət qoymaq və dəyişib– dəyişmədiklərinə tamaşa etmək lazımdır. Onlardan xidmətdə istifadə etmək və hər hansı bir şeyi ört-basdır edib etməklərini izləmək. Təhlükə yaratmaq və onların qorxub-qorxmadıqlarını izləmək. Onlara işləri idarə etməyi tapşırmaq və çaş-baş qalıb-qalmadıqlarına tamaşa etmək.

Əgər onları varlandırsan və onlar cinayət törətməsələr, deməli, hümanistdirlər. Əgər onlara vəzifə versən və onlar özlərindən müştəbeh olmasalar, deməli, ədalətlidirlər. Əgər boyunlarına məsuliyyət qoysan və onlar dəyişməsələr, deməli, sədaqətlidirlər. Əgər onlardan istifadə etsən və heç nə onları yormasa, deməli, mərddirlər, cəsurdurlar. Əgər onlara işləri idarə etmək tapşırığı versən və onlar çaş-baş qalmasalar, deməli, qənaətcildirlər.

Hökmdar «üç xəzinə»ni heç kimə verməməlidir. Əgər o, onları başqa adamlara versə o, öz zəhmli qüvvəsini itirər.

Ven-van:

- «Üç xəzinə» barədə soruşa bilərəmmi?

Tay-qun:

- Yaxşı kənd təsərrüfatı, yaxşı sənətkarlıq və yaxşı ticarət, bax, üç xəzinə bunlardır. Əgər kəndli kənddə yaşayırsa, beş taxıl ziyanda olacaq. Əgər sənətkar yalnız sənətkarlar yaşayan yerdə yaşayırsa, alətlər eyni olacaq. Əgər tacirlər ticarət yerlərində yaşayırsa, mallar kifayət qədər olacaq. Əgər «üç xəzinə» öz yerlərində yerləşdirilsə, adamlar nifaq salmayacaq.

Onların yerləşməsində onların klanlarında qarışıqlığa yol verməyin. Nazirlər hökmdardan çox varlı olmamalıdır. Heç bir şəhər hökmdarın paytaxtından böyük olmamalıdır. Nə vaxt altı keşikçidən tam istifadə olunursa, hökmdar çiçəklənir. Nə vaxt üç xəzinə, bütövlükdə, müəyyən edilərsə, dövlət təhlikəsizlikdə olacaqdır.

7. DÖVLƏT MÜLKİYYƏTİNİN SAXLANILMASI

Ven-van Tay-qundan soruşdu:

- Dövlətin mülkiyyətini necə saxlamaq olar?

Tay-qun:

- Qohumları ayırma. Xalqa xor baxma. Qonşularla dost və diqqətli ol və dörd tərəfini idarə et.

Hökuməti başqa adamların idarə etməsinə yol vermə, onda öz hakimiyyətini itirərsən. Təpələri çoxaltmaqdan ötrü dərələri dərinləşdirmə. Hissələri idarə etmək xatirinə kökü atma. Günəş yüksəklikdə olduqda işlər başa çatmalıdır. Əgər bıçağı ələ götürürsənsə, kəsməlisən. Əgər baltanı ələ alırsansa, hücuma keçməlisən.

Əgər gün ərzində işini tamamlamamısansa, vaxtını itirmisən. Əgər bıçağı ələ götürür, lakin kəsmirsənsə, xeyrini əldən verirsən. Əgər baltanı ələ alır və hücum etmirsənsə, quldurları gözlə.

Əgər şırıldayan kiçik çayların qabağı alınmayıbsa, onlar böyük çaylara çevriləcəklər. Əgər alovun dili söndürülməsə, böyük yanğınla nə edəcəksən? Əgər iki yarpaqlı kiçik ağacı kəsməsən, sonra (ağac böyüdükdə) balta ilə nə edə bilərsən?

Buna görə hökmdar dövlətin çiçəklənməsinə nail olmağa diqqət yetirməlidir. Bolluq olmadan o, heç kimə qarşı humanist ola bilməz. Əgər o, xeyirxah əməllər toxumu əkməsə, heç kimlə qohumlar toplaya bilməz. Əgər o, qohumlara qarşı ayrı-seçkilik etsə, ziyan görər. Əgər sadə xalqı itirərsə, uduzar.

Tiyəni başqa adamların[12] əlinə vermə. Əgər tiyəni başqasına versən, sənə xətər gələr və sən əldən verdiyinə dözə bilməyəcəksən.

Ven-van dedi:

- Siz humanistlik və ədalətlilik nəyə deyirsiniz?

Tay-qun:

- Sadə adamlara hörmət et, qohumlarını başına yığ. Sadə adamlara hörmət edirsənsə, onlar sülh şəraitində yaşayacaqlar. Qohumlarını başına yığsan onlar xoşbəxt olacaqlar. Bax, humanistlik və ədalətlilik budur.

Heç kəsə sənin zəhmli qüvvəni əlindən almağa imkan vermə. Öz müdrikliyinə arxalan, daimiliyə riayət et. Kim sənə tabe olur və yolunu tutursa, onlara qarşı xeyirxah ol. Kim əksinə gedirsə və höcət edirsə, gücünlə çökdür. Əgər sən əzmkarsan və adamlara hörmət edirsənsə, Kainat sülh və itaətkarlıqda olacaqdır.

8. DÖVLƏTİN QORUNMASI

Ven-van Tay-qundan soruşur:

- Dövləti necə saxlamalı?

Tay-qun :

-Siz oruc tutmalısınız, çünki mən Səmanın və Yerin mühüm prinsipləri, o cümlədən, ilin dörd fəslinin meydana gəlməsindən, Dao

humanistliyi və müdrikliyi, həmçinin insan təbiətinin coşqunluğu barədə danışmaq istəyirəm.

Ven-van yeddi gün oruc tutdu, sonra üzünü şimala tərəf çevirərək iki dəfə ehtiram etdi və təlimatlandırılmasını xahiş etdi.

Tay-qun dedi:

-Səma ilin dörd fəslini yaradır. Yer saysız-hesabsız şeylər, əşyalar yaradır. Səma altında adamlar və müdriklər yaşayır- onlar çobandırlar. Belə ki, yazın Daosu-artımdır, saysız-hesabsız şeylər yetişir. Qışın Daosu-ehtiyat yığmaqdır, saysız-hesabsız şeylər rahatlıqdadır. Onlar bol olduqda ehtiyatda saxlanır, ehtiyat yarandıqdan sonra onlar yenidən cana gəlir. Heç kim onun harada qurtardığını və haradan başlandığını bilmir. Müdrik bununla harmoniyadadır və özünü Səma və Yerə uyğun olaraq formalaşdırır. Buna görə də Kainatda hər şey qaydasında olduqda onun humanistliyi və cəlbediciliyi meydana çıxır. Əsl Dao bundan ibarətdir.

Müdrikin Səma və Yer arasında saxladığı hər şey davamlı və genişdir. Adamlar daimiliyə söykənməklə və bunu izləməklə yaşayırlar. Lakin adamları narahat edən zaman bu, uçurumu yaradır. Uçurumlar artıdqda düşmənçilik və itkilər baş verir. Bunların hamısı «eybi yoxdur»dan başlayır, lakin pis qurtarır. Əgər kimsə başda durmağa cürət edərsə, Kainat onunla həmfikir olur. Şeylər öz adi vəziyyətinə qayıdan müddət ərzində hücum etməkdə və rəqabət aparmaqda davam etmə, özündən ayrılma və geri çəkilmə. Əgər dövləti bu vəziyyətdə saxlamağı bacarsan, Səmanın və Yerin böyüklüyünü qazanacaqsan.

9. LƏYAQƏTLİYƏ EHTİRAM

Ven-van Tay-qundan soruşdu:

- Mənim idarə etdiyim, yəni tabeçiliyimdə olanlardan kimin vəzifəsini yüksəltmək, kiminkini endirmək lazımdır? Kimin xidmətindən istifadə etmək, kiminkindən imtina etmək olar? Onları necə qorumalı, necə dayandırmalı?

Tay-qun dedi:

- Layiqliləri yüksəlt, layiq olmayanları endir. Vicdanlıları və etibar qazananları seç, yaltaq və hiyləgərlərdən yaxanı qurtar. Zorakılığı və özbaşınalığı aradan qaldır. Buna görə də adamları idarə edən hər kəs «altı oğru» və «yeddi qəddarlıq» tanıyır.

Ven-van dedi:

- Mən onların Daosunu öyrənə bilərəmmi?

Tay-qun :

- «Altı oğru»ya bunlar aiddir:

Birincisi, əgər tabeçilikdə olanlar böyük saraylar və evlər, hovuzlar və terraslar tikirsə, bər-bəzəkdən və musiqiçi qadınlardan zövq alırlarsa, bu hökmdarın xeyrixah əməllərinə zərər gətirir.

İkincisi, əgər xalq kənd təsərrüfatı və ipəkçiliklə məşğul olmursa, bunun əvəzinə öz maraqlarını güdürlərsə və buna oxşar qəribə işlərə rəvac verirlərsə, məmurların göstərişlərinə əməl etmədən qanunu pozur və qadağalara riayət etmirlərsə, bu, hökmdarın hakimiyyətinə zərbə vurur.

Üçüncüsü, məmurlar aranı qızışdırır və dedi-qodu yaradır, ləyaqətlilərə və müdriklərə şər atmaqla hökmdarın aydın düşüncələrinə kölgə salır və bu, onun ehtiramına zərər yetirir.

Dördüncüsü, əsgərlər yüksək rütbəlilərə cavab qaytardıqda və utanmadan, çəkinmədən özbaşınalıq etdikdə və bunu «tsi»nin aydın ifadəsi saydıqda, öz hökmdarına sayğısızlıq göstərərək başqa əyalət knyazları ilə əlbir olduqda bu, hökmdarın zəhmlilik gücünə zərər gətirir.

Beşincisi, tabeçilikdə olanlar titullara və vəzifələrə nifrət etdikdə, idarəçilərdən çəkdikdə və öz hökmdarlarının xətrinə işləmək istəmədikdə bu, tabeçilikdə olanların layiqli mükafat almasını əngəlləyir.

Altıncısı, güclü klanlar kasıbları və zəifləri təhqir edib başqalarına güldükdə, özgə malına göz dikib arzuladıqlarını ələ keçirdikdə, bu, sadə adamların əməyini puça çıxarır.

Yeddi qəddarlıq bunlardır:

Birincisi, biliksiz, strategiyanı tərtib etməyi və hesabalamağı bacarmayan adamlar mükafatlandırılır və vəzifəyə layiq görülür. Asanlıqla hərbi işə cəlb olunan güclülər və igidlər döyüşlərdə iştirak edirlər. Hökmdar onlarla ehtiyatlı olmalı və onları sərkərdə təyin etməməlidir. İkincisi, zahiri görkəmləri olub düşüncələri dar olanlar dedikləri sözün üstə dura bilmirlər. Onlar yaxşı şeyləri gizlədir və nöqsanları ört-basdır edirlər. Onlar irəli çəkiləcəklərini və qabiliyyət məsələlərinə fikir verilməyəcəyini zənn edirlər.

Hökmdar ehtiyatlı olmalı və onlarla haqq-hesab qurmamalıdır.

Üçüncüsü, görkəmcə sadədirlər, pis geyinirlər, hadisələri yozurlar, sanki şöhrətlənmək və varlanmaq istəkləri yoxdur. Onlar səmimi deyillər, hökmdar ehtiyatlı olmalı və onları yaxına buraxmamalıdır.

Dördüncüsü, qəribə baş geyimi və kəmərlər gəzdirirlər, paltarları isə həddən çox uzun olur.

Onlar özgələrinin mühakimələrinə qulaq asır, mümkün olmayan şeylər barədə həqiqətə oxşar sözlər söyləyərək, sanki öz bəzək-düzəklərindən zövq alarlar. Onlar kasıbçılıqla yaşayır və Kainatın adətlərini müzakirə edərək təhlükəsizlikdə qalırlar. Onlar adamları aldadırlar, hökmdar ehtiyatlı olmalı və onlara üz göstərməməlidir.

Beşincisi, şərləməklə, ləkələməklə və bəhanələr gətirməklə vəzifə və rütbələr axtarırlar. Onlar qoçaq və cəsarətlidirlər, pula və vəzifəyə tamah üzündən ölümə adi şey kimi baxırlar. Mühüm işlər onları maraqlandırmır, yalnız xəsisliklə hərəkət edirlər. Yumşaq

danışıq və xeyirxah görkəmli mühakimələrlə hökmdara yaltaqlıq edirlər. Hökmdar ehtiyatlı olmalı və onların xidmətlərindən istifadə etməməlidir.

Altıncısı, onların mənzilləri barelyeflərlə və inkrustasiyalarla ayırmışdır. Onlar kənd təsərrüfatının ziyanına əlvanlığı, təmtərağı qiymətləndirirlər. Bunu qadağan etmək lazımdır.

Yeddincisi, əsatir formulası yaradır və möcüzəli işləri, gözbağlayıcılığı və falçılığı təcrübədən keçirir, qəribə üsulları təlqin edir və eybəcər danışıqları yayır və bununla yaxşı adamları heyrətləndirir və dəli edirlər. Hökmdar onları dayandırmalıdır.

Buna görə də, əgər adamlar qüvvə sərf etmək istəmirlərsə, onlar bizim adamlar deyillər.

Əgər məmurlar səmimi deyillərsə və etibar qazanmırlarsa, onlar bizim məmurlar deyillər. Əgər nazirlər sədaqətlilik və düzgünlük nümayiş etdirmirlərsə, onlar bizim nazirlər deyillər. Əgər əməkdaşlar qərəzsiz və təmiz deyillərsə və xalqı sevmirlərsə, onlar bizim əməkdaşlar deyillər. Əgər birinci nazir ölkəni zənginləşdirə və ordunu möhkəmlədə bilmirsə, «eybi yox»la «bəlkə»ni harmonlaşdırmağı, dövlətin hökmdarının təhlükəsizliyini təmin etməyi bacarmırsa, 10000 qüdrətli cəng arabası hazırlaya bilmirsə və bundan əlavə nazirləri idarə etmək, adamlara və şeylərə müvafiq ad qoymaq, mükafatları və cəzaları aydınlaşdırmaq və adamların həyatdan zövq almasına imkan yaratmaq iqtidarında deyilsə, o, bizim birinci nazirimiz deyildir.

Hökmdarın Daosu əjdahanın başına oxşayır. O, yüksəklikdə buxarlandırır və uzaqlara baxır. Onun baxışları dərin, eşitməsi incədir. O, Səmanın yüksəkliklərinə bənzəyir ki, onu təsvir etmək çətindir. O, dibi görünməyən dərinliklərə bənzəyir ki, ölçülməsi mümkün deyil. Buna görə də o, qəzəblənmək həddinə gəlir, lakin qəzəblənmir, onda qəddar tabeçilik əmələ gəlir. Əgər o, edam etməlidirsə və edam etmirsə, onda böyük oğrular meydana çıxırlar. Əgər hərbi güc artırılmırsa, düşmənlər artırlar.

Ven-van dedi: - Gözəldir.

10. LƏYAQƏTLİLƏRİN YAXINLAŞDIRILMASI

Ven-van Tay-qundan soruşur:

- Necə olur ki, hökmdar ləyaqətliləri yaxınlaşdırmağa çalışır, lakin əbəs, əslində isə Kainatda narahatlıqlar artır və o həddə çatır ki, hökmdarın özünü təhlükələrlə və ölümlə hədələyirlər?

Tay-qun:

- Əgər kimsə ləyaqətliləri yaxınlaşdırır, lakin onların xidmətindən istifadə etmirsə, bu, «ləyaqətlilərin yaxınlaşması» adlanır, amma «ləyaqətlilərdən istifadə» məğzini itirir.

Ven-van soruşdu:

- Səhv haradan başlayır?

Tay-qun dedi:

- Səhv oradan başlayır ki, əsl layiqlilər deyil, xalq içində tərifl ənən adamlar xidmətə qəbul olunurlar.

Ven-van :

- Bu necə olur?

Tay- qun dedi:

- Əgər hökmdar hər yerdə ləyaqətli hesab olunanları və heç bir dəyəri olmayan kimi mühakimə edilənləri dəvət edərsə, onda çoxluqlar qabağa çəkiləcək, azlıqlar isə geriyə. Onda pis adamlar ləyaqətliləri ləkələmək üçün birləşəcəklər. Sədaqətli adamlar günahkar olmasalar da, öləcəklər.

Ləkəli tabe adamlar isə layiq olmadıqları şöhrət müqabilində rütbə və vəzifə sahibi olacaqlar. Bu halda narahatlıqlar artacaq, dövlət təhlükədən və dağılmaqdan xilas ola bilməyəcəkdir.

Ven-van soruşdu:

- Ləyaqətliləri necə yaxınlaşdırmaq olar?

Tay–qun cavab verdi:

- Sərkərdə və birinci nazir məsuliyyəti bölüşdürməlidir. Onların hər biri adamları vəzifələrin adına görə seçirlər. Onlar vəzifələrin adına görə lazımi tələbləri müəyyənləşdirirlər. Onlar adamları seçərkən onların qabiliyyətlərini qiymətləndirirlər. Bu qiymət elə olmalıdır ki, onların əsl istedadı müvafiq vəzifələrin adına uyğun gəlsin. Şeylər öz adına uyğun gəldikdə ləyaqətlilərin yaxınlaşması Daosu öz təcəssümünü tapır.

11. MÜKAFATLAR VƏ CƏZALANDIRMA

Ven-van Tay-qundan soruşdu:

- Mükafatlar təltifi (xeyir işi) saxlamaq üçün, cəza qəzəbi söndürmək üçün vasitədir. Bir nəfəri mükafatlandırmaqla yüzünü təltif etmək istəyirəm. Bir nəfəri cəzalandırmaqla çoxlu adamı düz yola gətirmək istəyirəm. Bunu necə edə bilərəm?

Tay-qun dedi:

- Bütövlükdə mükafatlarda ədalət qiymətləndirilir, cəzalarda-aydınlıq. Mükafatlar özünü doğruldanda, cəzalar isə qaçılmaz olduqda harada gözlər görür, qulaqlar eşidir, hətta o vaxt ki, görmürlər və eşitmirlər, dəyişməyən bir kəs ola bilməz. Əgər hökmdarın səmimiyyəti Səmaya və Yerə yayılır və ruhlara hopursa, onda yüksək dərəcədə insanlara da keçmirmi?

12. MÜHARİBƏ DAOSU

U-van Tay-qundan soruşdu:

- Müharibə Daosu nədən ibarətdir?

Tay-qun dedi:

- Bütövlükdə, müharibə Daosuna aid olan heç nə birlikdən yüksəkdə deyil. Birlikdə olanların özü gəlib özü gedə bilərlər. Sarı İmperator demişdi: «Birləşmə Daoya yaxınlaşır və ruhlarla

çulğalaşır». Ondan istifadə olunması ələ keçməzdir; onun görünən tərəfinin ortaya çıxması strateji gücə əsaslanır; onun tamamlanması hökmdardan asılıdır. Belə ki, müdrik imperatorlar silahı şərin aləti adlandırırdılar, çıxış yolu olmadıqda isə ondan istifadə edirdilər.

Bu gün Şan hökmdarı mövcudluqdan xəbərdardır, ölümdən yox. O, həzz almağı bilir, bədbəxtlikdən xəbəri yoxdur. Bu gün mövcud olmaq əsl mövcudluqla bağlı deyil, həm də ölüm barədə düşüncələrlə bağlıdır. Həzz almaq həzzlə bağlı deyil, həm də bədbəxtlik barədə düşüncələrlə bağlıdır. İndi, Siz artıq belə dəyişikliklərdən xəbərdar olduqdan sonra, hadisələrin gələcək axarından niyə narahat olursunuz?

U-van dedi:

- Tutaq ki, iki ordu toqquşdu. Düşmən irəliləyə bilmir, biz də irəliləyə bilmirik. Hər iki tərəf möhkəmlənir, müdafiə təşkil edir və hücuma birinci keçməyə cəsarət etmir. Əgər mən birinci hücum etmək istəyirəmsə, lakin mənim heç bir strateji xeyrim yoxdursa, mən nə etməliyəm?

Tay-qun dedi:

- Çaşqınlıq və qarmaqarışıqlıq görüntüsü yarat, əslində isə komandanlığı əldən buraxma. Əslində bol ehtiyat olsa da, aclıq görüntüsü yarat. Əldə iti silah saxla, düşmənə isə küt və pis silahlar göstər. Qoy qoşunun biri cəmləşsin, digəri dağılsın, onda biri birləşəcək, digəri isə qaçmağa üz tutacaq. İstehkamları uca qur və ən yaxşı ordunu orada gizlət. Əgər əsgərlər sakitlikdə susursa, düşmən bizim fikirlərimizdən xəbərsiz olacaq. Sonra, əgər qərb cinahı darmadağın etmək istəyirsənsə, şərq cinaha hücuma keç.

U-van soruşdu:

- Əgər düşmən həqiqətdən xəbər tutsa və fikirlərimi anlasa, mən nə etməliyəm?

Tay-qun dedi:

- Müharibədə qələbə qazanmaq sənəti ondan ibarətdir ki, düşmənin diqqətini hərtərəfli alt-üst etmək, düşmənin gözləmədiyi tərəfdən qəflətən hücuma keçməklə faydalanmaq lazımdır.

axtarmaqla tapır və özündə saxlaya bilmir. O, onları saxlamaqla istifadə etməyə bilmir. O, onlardan istifadə etməklə geri dönür və onları göstərmir. İndi, Səma və Yer bir-birini işıqlandırmadığı bir vaxtda, həmişə bir-biriləri üçün (saysız-hesabsız şeyləri) əmələ gətirməyə hazırdırlar. Ən kamil müdrik işığı özünə cəlb etmir, buna görə də o, şöhrətli ad qazanmaq bacarığına malikdir.

Ən kamil müdriklər qədimdə adamları ailələrə toplayırdılar. Ailələri toplayırdılar ki, dövlət yaratsınlar və dövləti toplayırdılar ki, Kainat yaratsınlar. Onlar Kainatın fəzalarını bölüşdürdülər və udelləri layiqlilərə verdilər ki, onlar dövləti idarə etsinlər. Onlar bu qaydanı «Böyük bünövrə» kimi müəyyənləşdirdilər.

Onlar bir çox namussuz hərəkətləri düzəltdilər, adamların daxilini və xaricini dəyişərək onları düz yola gətirdilər. Müxtəlif dövlətlərdə adətlərin eyni olmamasına baxmayaraq, onlar öz dövlətlərində sevincə nail oldular.

Adamlar öz hökmdarlarını sevirdilər, buna görə də bunları (həmin dəyişiklikləri) «Böyük quruluş» kimi mənalandırırdılar.

Müdriklər fikirlərini onların rahatlığına, ləyaqətli olmalarının düzəldilməsinə səfərbər edirlər. Qanmaz adam ədalətli ola bilməz, buna görə də başqa adamlarla rəqabət aparır. Hökmdar narahat olduqda cəzalar həddən çox olur.

Cəzaların həddən çox olması adamları həyacanlandırır. Adamları narahat etməkdə onlar öz yerlərini tərk edib gedirlər. Vəziyyətdən asılı olmayaraq heç kəs öz həyatını istədiyi kimi qura bilmir və nəsildən-nəslə rahatlıq tapmır. Onlar bunu «Böyük itki» adlandırırdılar.

Kainatdakı adamlar hərəkətdə olan suya bənzəyirlər. Onun yolunu kəssən, dayanar. Əgər yolunu açsan qabağa axar. Onu sakit saxlasan, təmiz olar. Necə ruhlandırıcıdır! Kamil müdrik əvvəli gördükdə axırın necə olacağını bilir.

Ven-van dedi:

- Onları necə sakit etməli?

-Tay-qun:

- Səma daimi keyfiyyətə malikdir, adamlar adi həyatlarını yaşayırlar. Həyatı bütün Kainatla bölüşdükdə o, dinc olur. Yüksək zirvə onlarla harmoniya təşkil edir, lakin hər şeyin alisi onları dəyişir. İnsanlar dəyişdikdə və hökmdarın arxası ilə getdikdə, Səma hərəkət etmir, amma işlər artıq başa çatır. Adamlar (hökmdara) heç nə vermirlər, (buna görə) özləri varlanırlar. Ən müdrikin xeyirxahlığı bundan ibarətdir.

Ven-van:

- Sizin söylədiklərinizin hamısı mənim düşüncələrimə oxşayır. Heç nəyi unutmadan daim bu prinsipə riayət etməklə gün çıxandan gün batanadək bu barədə düşünəcəyəm.

15. VƏTƏNDAŞ HÜCUMU

Ven-van Tay-qundan soruşdu:

- Vətəndaş [14] hücumunun metodları hansılardır?

Tay-qun cavab verdi:

- Vətəndaş hücumunun on iki qaydası var.

Birinci, öz arzularını xeyirxahlıq göstərmək üzərində quran kəslərlə razılıq əldə et. Vaxt keçəcək o, özündən müştəbeh olacaq və mütləq pis iş tutacaq. Əgər ondan istifadə etmək mümkün olsa, onu müəyyən qaydada aradan götürə bilərsən.

İkinci, qorxunc qüvvəsini sındırmaqdan ötrü onun sevdiyi kəslərlə tanış ol. Əgər adamlar iki müxtəlif xasiyyətə malikdirlərsə, onların sədaqətliliyi alt-üst olur. Ətrafda daha sədaqətli nazirlər olmadıqda dövlətin səcdəgahının təhlükədə olması qaçılmazdır.

Üçüncü, onlarla yaxınlaşmaqla yaxın köməkçilərini gizlincə satın al. Onlar cismən sarayda olsalar da, onların düşüncələri saraydan uzaqlaşacaq. Dövlət müəyyən qədər zərər çəkəcək.

Dördüncü, onun iradəsini zəiflətmək üçün əxlaqsızlığına və musiqiyə əhəmiyyət verməməsinə kömək et ki, onun iradəsini zəiflədəsən. Ona mirvaridən və yaşmadan zəngin ənamlar ver, yanına yaxşı qadınlar apar. Hörmətlə danış, ehtiramla dinlə, əmrlərinə qulaq as və hər şeydə onun fikirləri ilə razılaş. O, heç vaxt onun əleyhinə olduğunu başa düşməyəcək. Bu zaman bizim hiyləmiz baş tutacaqdır.

Beşinci, onun məmurları ilə olduqca ürəyiaçıq davran, lakin ənamları (onların hökmdarına) azalt. Onun elçilərini yubandır, onlara qulaq asma. Nəhayət, o, başqa adamlar göndərərkən onlarla səmimi, sadə və etibarlı davran. Hökmdar fikirləşəcək ki, sən onunla barışmısan. Əgər (əvvəlki sadiq məmurlarla) açıq qəlblə davransan, onun dövlətinə qarşı ittihamlar söyləmək olar.

Altıncı, onun sevimli nazirləri ilə diblir ol, lakin gözdən pərdə asmaq üçün az sevilən məmurlardan uzaq gəz. İstedadlı adamlar xarici təsir altında olacaqlar. Belə hallarda az-az dövlətlər sağ qalmışlar.

Yeddinci, əgər onu özünə bağlamaq, yəni ona sevdirmək istəyirsənsə, çoxlu ənamlar təklif etmək lazımdır. Əgər onun sadiq, sevimli adamlarını ələ almaq istəyirsənsə, gizli surətdə onlara, əgər sövdəyə qol qoysalar, xeyir verməyə çalış. Elə et ki, onlar öz vəzifələrinə etinasız yanaşsınlar, belədə onların hazırlanması təşkinləyici olacaq.

Səkkizinci, ona zəngin hədiyyələr ver və onunla birgə fikirləş. Əgər fikirlər uğurlu olsa və o xeyir götürsə, onda bunun sayəsində o, sənə inanacaqdır. Bu, «Sıx qarşılıqlı anlaşmada olmaq» adlanır. Nəticədə biz, mütləq, ondan istifadə edəcəyik. Əgər kim ki, dövləti idarə edir, lakin onun özünü idarə edirlərsə, onun dövlətinin məğlub olması qaçılmazdır.

Doqquzuncu, ona heyranlıq göstər. Onu narahat edən heç nə etmə. Özünü üzdə böyük hakimiyyətə müvafiq hörmət bəsləyən kimi göstər. Bu halda sənin hörmətinə etibar edəcəklər. Onun ləyaqətini həddən çox şişirt; ona ehtiram bəsləyənlərdən, onu hər yerdə kamil müdrik adlandıranlardan birincisi ol. Bu zaman onun dövlətində böyük itkilər baş verəcək.

Onuncu, barışdırıcı ol. Bu zaman o sənə etibar edəcək və sən bununla hər şeyin əsl vəziyyətindən xəbərdar olacaqsan. Onun düşüncələrini qəbul et və onun əməllərini dəstəklə, sanki siz əkizlərsiniz. Nə vaxt ki, hər şeyi öyrəndin, hiss olunmadan (onun hakimiyyətini) ələ al. Vaxt çatanda elə biləcəklər ki, onu Səmanın özü məhv edib.

On birinci, gizli vasitələrlə onun Daoya yoluna sədd çək. Tabeçilikdə olanlar arasında adlı-sanlı olmağı və maddi-rifah halının yaxşı olmasını qiymətləndirməyən, təhlükəni və bədbəxtliyi görməyə gözü olmayan elə bir kəs yoxdur.

Gizlin surətlə onlara hörmət göstər və yavaş-yavaş qiymətli hədiyyələr ver ki, nəticədə ətrafına görkəmli adamlar toplaya biləsən. Özün üçün o qədər ehtiyat yığ ki, aşıb daşsın, lakin özünü elə göstər ki, həmin ehtiyat kifayət deyil.

Gizli surətdə ətrafına ağıllı əsgərlər topla və böyük strategiyanın tərtib olunmasını onlara etibar et. İgid adamları cəlb et və onların mənəvi gücünü artır. Hətta onlar varlı və hörmətli olsalar belə, onların var-dövlətini artır.

Sənin ittifaqın tam yarandıqda (sən məqsədinə çatdın) bu, «girişin qabağının kəsilməsi» adlanır. Əgər dövlət əlində olan, lakin girişinin qabağı alınan bir kəs dövlətin sahibi sayıla bilərmi? On ikinci, onun yolu bəlli olmayan məmurlarını müdafiə et ki, onu çaşbaş salasan. Onu dəli etmək üçün gözəl qadınlar gətir və musiqi ilə feyziyab et. Onu yorub əldən salmaq üçün böyük itlər və gözəl atlar göndər. Arabir ona öz böyük hökmünü göstərməyə imkan ver ki, onun müştəbehliyi daha da artsın. Sonra Səmanın göstəricilərinə bax və bütün Kainatı ona qarşı sıx birləşdir.

Bu on iki qaydadan nə vaxt dolğun istifadə olunursa, onlar döyüş silahına çevrilir. İndi yuxarıda Səmaya baxdıqda və aşağıda Yeri öyrəndikdə, əlamətlər olduqca yaxşıdır, ona hücuma keç.

16. İNSANLARLA RƏFTAR BARƏDƏ TƏLİMAT

Ven-van Tay-qundan soruşdu:

- Kainatı (oxu: Çini *(Səmaaltını)*) idarə etmək üçün ən başlıcası nə etmək lazımdır?

Tay-qun dedi:

- Yalnız Sənin böyüklüyün bütün Kainata yayıldıqdan sonra onu idarə edə bilərsən. Yalnız Sənə olan etibar bütün Kainatda yayıldıqdan sonra onunla razılaşa bilərsən. Yalnız Sənin humanistliyin bütün Kainata yayıldıqdan sonra sən onu saxlaya

bilərsən. Yalnız Sənin hakimiyyətin bütün Kainatda bərqərar olduqdan sonra onu itirməməyə qadir ola biləcəksən. Əgər tərəddüd etmədən idarə etsən, onda (sənin hakimiyyətini) nə Səmanın əlamətləri silkələməyəcək, nə də fəsillərin dəyişməsi ona təsir edə bilməyəcək. Yalnız bu altı əlaməti bütöv tamamlasan, Kainatda hökmranlıq yarada bilərsən.

Buna görə də Kainata fayda gətirən hər kəs Kainatın ona açıq olduğunu tapacaq. Kainata zərər vuran hər kəs Kainatın onun üzünə bağlı olduğunu tapacaq. Kainatda hər şeyə həyat verən hər kəsi Kainat xeyirxah hesab edəcək. Kainatda hər şeyi məhv edən hər kəsi Kainat quldur hesab edəcək. Kim ki, Kainata nüfuz edir, Kainat onun üzünə açıq olacaq. Kainatı xaraba qoyanları Kainat öz düşməni hesab edəcək. Kainat ona sülh gətirənlərə arxalanır, Kainata hədə-qorxu gələnlər bədbəxtlik hesab olunur. Kainat bir adamın mülkiyyəti deyil. Yalnız Daoya malik olanlar (hökmdar qismində) öz təsdiqini tapırlar.

17. ÜÇ ŞÜBHƏ

U-van Tay-qundan soruşdu:

- Mən bir şeyə (Şanın devrilməsinə) nail olmaq istəyirəm. Lakin üç şübhəm var. Güclü düşmənə hücum etmək, onun yaxın silahdaşlarını qorxuya salmaq və adamlarını pərən-pərən etmək üçün qüvvəmizin kifayət etməyəcəyindən qorxuram. Mən nə etməliyəm?

Tay-qun cavab verdi:

- Vəziyyətdən asılı olaraq hərəkət et, düşüncələrində olduqca ehtiyatlı ol və zənginliyinin bütün mənbələrindən istifadə et. Güclüyə hücuma keçməkdən ötrü onu daha güclü və böyük etməyi, onu necə artırmağı düşünmək lazımdır. Kim ki, həddindən artıq güclüdür, mütləq əziləcək, kim həddən çox böyükdür çatışmazlığı[15] hiss edəcək. Gücündən istifadə etməklə güclüyə hücum et. İltifatlı məmurların iltifatından istifadə etməklə onların ondan uzaqlaşma hissini oyat, adamların özü vasitəsilə adamları çaş-baş sal.

Dao planlaşdırması üçün dəqiqlik və məxfilik lazımdır. Onlarla müxtəlif münasibətlərdən çıxış etmək və onu xeyir tapacağı ilə aldatmaq lazımdır. Onda ikitirəliyin baş qaldırması qaçılmazdır. Əgər onun yaxın silahdaşlarının ondan uzaqlaşmasını istəyirsənsə, onda onların sevdiyi, xoşladığı şeylərdən istifadə et, onun etibar etdiyi kəslərə ənam ver. Onları cəzbedici şeylərlə şirnikləndir və bununla onların hərisliyini artır. Kimlər zənginləşmişsə, bol hədiyyədən sevinəcək və son şübhələri yoxa çıxacaq.

Aydındır ki, hücum Daosuna görə əvvəlcə hökmdarın aydınlığına kölgə salmaq, sonra onun qüvvəsinə hücuma keçmək, onun böyüklüyünü məhv etməklə adamları bədbəxtlikdən xilas etmək lazımdır. Onu gözəl qadınlarla yoldan çıxart, xeyirlə başını qat. Xoşətirli nemətə qonaq et və xanım müğənniləri bağışla. Bundan

başqa, tabeçiliyindəkilərin ondan üz döndərmələrinə nail olduqdan sonra elə et ki, adamlar öz fikrini bildirmədən ondan uzaqlaşsınlar. Ona yardım etmək görkəmi göstər və onu tələyə sal. Baş verənləri başa düşməsinə imkan verməsən, fikirlərin öz uğurlu həllini tapmış olur.

Xeyirxahlığını adamlar arasında yaymaqla heç nəyə heyfin gəlməsin. Adamlar inəklər və atlar kimidir. Onları yedirt və geydir və buna öz məhəbbətini əlavə et.

Ağıl biliyə yol açmaq yoludur, bilik maddi rifaha yol açmaq üsuludur, maddi rifah adamlara doğru yol açmaq üsuludur. Adamların itaətkarlığına nail olmaq layiqliləri cəlb etməkdir. Müdriklərin məsləhətləri ilə maariflənənlər dünyanın hökmdarı ola bilər.

III

ƏJDAHANIN MƏXFİ TƏLİMİ

18. HÖKMDARIN QANADLARI

U-van Tay-qundan soruşdu:

- Hökmdar orduya komandanlıq etdikdə onun «əlləri və ayaqları» (əsas köməkçiləri) və «lələkləri və qanadları» (ikinci köməkçiləri) olmalıdırmı, bunun üçün o, qorxunc gücünü və ruhunu göstərə bilər. Bu necə edilməlidir?

Tay-qun dedi:

- Ordu nə vaxt toplansa da sərkərdəlik onun taleyidir. Onun taleyi təkcə bir şeyə deyil, hər şeyə nüfuz etməkdən ibarətdir. Qabiliyyətə əsasən vəzifələri müəyyən et, hər kəs yerinə yetirəcəyi işə görə məsuliyyət daşıyır. Qayda-qanun və dayaq tələb olunduqda onları əvəzlə və yerlərini dəyiş.

Belə ki, sərkərdə Səma Daosuna cavab vermək üçün yetmiş iki «ayağa və ələ» və «lələyə və qanada» malikdir. Qaydalara əsasən onları topla və onların qaydaları, prinsipləri bilmələrinə diqqət yetir. Əgər bütün qabiliyyətlərə və müxtəlif bacarıqlara maliksənsə, saysız-hesabsız işlər tamamlanacaqdır.

U-van :

- Müxtəlif kateqoriyalar barədə soruşa bilərəmmi?

Tay-qun:

- Fu-sin (baş strateq) təkdir:

O, məxfi planlara aid məsləhətlər və gözlənilməz hadisələrə lazımi cavablar verməyə; qəfil dəyişikliklərdən yaxa qurtarmaqdan ötrü Səmanı öyrənməyə; hesablaşmalar üzərində ümumi nəzarətin həyata keçirilməsinə; adamların müdafiəsinə və qorunmasına görə məsuliyyət daşıyır.

Strategiya üzrə məmurlar beşdir: təhlükənin və təhlükəsizliyin planlaşdırılmasına; gözlənilməyənlərin qabaqcadan duyulmasına; lazım olanın və mümkün olanın müzakirəsinə; mükafat və cəzaların izah edilməsinə; məmurların təyin edilməsinə; şübhələrin həll edilməsinə; nəyin məqsədəuyğun olduğunun, nəyin məqsədəuyğun olmadığının müəyyən edilməsinə görə məsuliyyət daşıyanlar.

Astroloqlar üçdür: ulduzlara və təqvimlərə; külək və tsi üzərində nəzarətə; əlverişli günlərin və vaxtların təyin edilməsinə; əlamətləri və hadisələri öyrənməyə; pis əlamətləri və bədbəxtlikləri başa düşməyə; işlərin başa çatmasına və ya onlardan imtina etməyə dair Səmanın iradəsini bilməyə görə məsuliyyət daşıyanlar.

Topoqraflar üçdür: yürüş və dincəlmək vaxtı ordunun yerləşdirilməsinə və onun strateji gücünə; (həmçinin) strateji üstünlüklər və nöqsanlar barədə məlumatlar əldə olunmasına; istər yaxın, istərsə də uzaq keçidlərdə ağır və yüngül vəziyyətlərə; ərazinin üstünlüklərini əldən verməmək üçün su hövzələri və qurğular; dağlar və dayaz dərələr barədə biliyə görə məsuliyyət daşıyanlar.

Strateqlər doqquzdur: müxtəlif mövqeləri müzakirə etməyə; bu və ya başqa döyüşlərdə mümkün ola biləcək uğurların və ya məğlubiyyətlərin öyrənilməsinə; silahların seçilməsi və adamlara ondan istifadənin öyrənilməsinə; əmri pozanların aşkar olunmasına görə məsuliyyət daşıyanlar.

İntendantlar dörddür: suya və ərzağa tələbatın hesablanmasına; azuqə anbarlarının və yığın yerlərinin hazırlanması və yol boyu ərzağın çatdırılmasına; ordunun çətinlik və heç nədə çatışmazlıq hiss etməməsi üçün beş taxıllıq miqdarında ehtiyatla təchizatına görə məsuliyyət daşıyanlar.

«Qorxunc qüvvənin çiçəklənməsi» məmurları dörddür: istedadlı və qüvvətli adamların seçilməsinə; silahların və sursatların müzakirəsinə; düşmənin bizim haradan peyda olduğumuzu başa düşməsinə imkan verməyən külək və ildırım zərbəsi kimi partlayan hücumun başlanmasına görə məsuliyyət daşıyanlar.

Məxfi işarə məmurları üçdür: bayrağa və təbillərə; göz və qulaq üçün (işarələrin) aydınlığına; aldadıcı işarələrdən və susqunluqdan, yalançı göstərişlərdən və əmrlərdən istifadəyə; qabağa və arxaya gizli və sürətli hərəkət etməyə; ruh kimi peyda olmağa və yoxa çıxmağa görə məsuliyyət daşıyanlar.

«Ayaqlar və əllər» dörddür: ağır vəzifələri və çətin tapşırıqları yerinə yetirməyə; kanalların və novların qazılmasına və təmizlənməsinə; qarşı durmaq və (düşməni) dəf etmək üçün divar və sədd kimi müdafiə etməyə görə məsuliyyət daşıyanlar.

Əlaqə məmurları ikidir: itənlərin toplanmasına və azanlara kömək göstərilməsinə; əziz qonaqların qəbul edilməsinə; söhbətləri və danışıqları müdafiə etməyə; bədbəxtliklərin azaldılmasına və çətinliklərin həllinə görə məsuliyyət daşıyanlar.

«Nüfuz məmurları» üçdür: qeyri-adi və aldadıcı strategiyanın tətbiqinə; adamların başa düşmədiyi təəccüblü və qeyri-adi hallar yaradılmasına; daimi dəyişiklik və yerləşdirməyə görə məsuliyyət daşıyanlar.

«Qulaqlar və gözlər» yeddi cürdür: hər yerdə olmağa, gizli qulaq asmağa və xəlvəti izləməyə, məmurların hər dörd istiqamətdə hərəkətlərinin və ordudakı həqiqi vəziyyətin qiymətləndirilməsinə görə məsuliyyət daşıyanlar.

«Caynaqlar və dişlər» beşdir: «qorxunc qüvvənin» və cəngavərlik ruhunun yüksəldilməsinə; heç bir şübhə və «ikili fikir»

olmadan ordunu düşmən üstə səpələyən və aparan üç ordunun ilhamlanması və ruhlanmasına görə məsuliyyət daşıyanlar.

«Lələklər və qanadlar» dörddür: (ordunun) adının və fərəhinin şöhrətlənməsinə; uzaq torpaqları (onun icmalarını) qorxuya salmağa; düşmənin ruhunu zəiflətmək üçün hər dörd sərhəd hüdudunda hərəkət etməyə görə məsuliyyət daşıyanlar.

Çaş-baş salıcı məmurlar səkkizdir: düşmənin başıpozuqluğunu aşkar etməyə və dəyişikliyi izləməyə; düşmənin hisslərini idarə etməyə; tələb olunduğu hallarda casusluq üçün onun düşüncələri üzərində nəzarət etməyə görə məsuliyyət daşıyanlar.

«Metodlar» məmurları: əhalinin düşüncələrini dolaşdırmaq üçün şayiələr və yalanlar yaymağa; iblisləri və ruhları çağırmağa görə məsuliyyət daşıyırlar.

«Resept» məmurları ikidir: yüz dərmana; bıçaq yaralarını sağaltmağa və müxtəlif xəstəlikləri müalicə etməyə görə məsuliyyət daşıyanlar.

Hesabdarlar ikidir: düşərgə dayanacaqları və müdafiə zamanı lazımi azuqə və ehtiyatların hesablanmasına; dövlət vəsaitlərindən istifadəyə: mədaxil və məxaricə görə məsuliyyət daşıyanlar.

19. SƏRKƏRDƏLƏRİN MÜZAKİRƏSİ

U-van Tay-qundan soruşdu:

- Sərkərdə necə olmalıdır?

Tay-qun cavab verdi:

- Sərkərdələrdə beş mühüm ləyaqət və on nöqsan olur.

U-van dedi:

- Onları sadalamağı xahiş edə bilərəmmi?

Tay-qun cavab verdi:

- Beş ləyaqət dedikdə onlar mərdlik, müdriklik, etibarlılıq, humanistlik və sadiqlikdir.

Əgər o, mərddirsə, onu keçmək olmaz. Əgər o, humanistdirsə, o öz adamlarını sevəcək. Əgər ona etibar etmək olarsa, o, yalan danışmayacaq. Əgər o, sədaqətlidirsə, o, «ikibaşlı oyun» oynamayacaq.

On nöqsan adlananlar isə bunlardır: mərd olmaq, lakin ölümə asanlıqla yanaşmaq; tələskən və hövsələsiz olmaq; xəsis olmaq və xeyiri sevmək; insanpərvər olmaq, lakin dağıdıcılıq qabiliyyətinə malik olmamaq; müdrik, lakin qorxunc olmaq; etibarlı olmaq, lakin başqalarına güvənmək; xırdaçı və satılmaz olmaq, lakin adamları sevməmək; müdrik, lakin tərəddüd edən olmaq; yenilməz, lakin özünə güvənən olmaq; ehtiyatlı olmaq, lakin başqalarının məsuliyyətini üzərinə götürməmək.

Mərd olub ölümün gözünə dik baxan kəsləri güc vasitəsilə məhv etmək olar. Tələskənləri və hövsələsizləri əzmkarlıqla məhv etmək olar. Xəsis və xeyir güdənləri satın almaq olar. Dağıtmağı

bacarmayan humanistləri əldən salmaq, üzmək olar. Başqalarına ümid edən etibarlıları aldatmaq olar. Adamları sevməyən xırdaçıları və satın alınmayanları təhqir etmək olar. Tərəddüd edən müdriklərə gözlənilmədən hücum etmək olar. Özünə güvənən yenilməzləri hadisələrlə yolundan çıxarmaq olar. Başqalarının məsuliyyətini üzərinə götürməyən ehtiyatlıları aldatmaq olar.

Buna görə də, müharibə dövlətin böyük işidir. Həyat və ölüm Daosudur. Dövlətin taleyi sərkərdələrin əlindədir. «Sərkərdə dövlətin dayağıdır», bütün əvvəlki hökmdarların qiymətləndirdiyi adamdır. Buna görə də, sərkərdəni təyin edərkən onun xarakterini hərtərəfli qiymətldəndirmək və öyrənmək lazımdır.

Buna görə deyilib ki, hər iki ordu eyni vaxtda nə qələbə qazana və nə məğlub ola bilməz. Hələ on gün yerində olmayanadək, ordu dövləti buraxdıqda, hətta dövlət məhv olmadıqda belə, ordunun birinin darmadağın edilməsi, onun sərkərdəsinin öldürülməsi qaçılmazdır.

U-van: - Çox gözəl!

20. ƏSGƏRLƏRİN SEÇİLMƏSİ

U-van Tay-qundan soruşdu:

- Əgər hökmdar ordunu gücləndirmək istəyirsə, o, cəsur komandirləri necə seçməli, təlimləndirməli və onların ləyaqətini necə müəyyənləşdirməlidir?

Tay-qun dedi:

- Əsgərin zahiri görkəmi və daxili xarakterinin uyğun gəlmədiyi on beş hal var. Onlar aşağıdakılardır:

O, xeyirxah görünür, lakin (həqiqətdə) mənəviyyatsızdır.

O, yumşaq və məsləhətcil görünür, həqiqətdə oğrudur.

Onun sifətinin ifadəsi pərəstiş edilən və ehtiram göstəriləndir, ürəyi isə özündən müştəbehdir.

Zahirən satınalınmaz və ehtiyatlı görünür, lakin adamsaymayandır.

O, dərdanlayan və həssas görünsə də, bu keyfiyyətlərdən məhrumdur.

O, müdrik görünür, lakin onun səmimiyyəti yoxdur.

O, hesablarda əməli-saleh görünür, amma qətiyyətsizdir.

O, qətiyyətli və qorxmaz görünür, lakin bu qabiliyyətlərdən məhrumdlur.

O, sadə qəlbli görünür, lakin etibarlı deyildir.

O, tərəddüd edən və çaşqın görünür, əslində isə sədaqətli və möhkəmdir.

O, mülahizələrində usta və faydalıdır, lakin əslində başqalarını eşidəndir.

O, igid görünür, lakin qorxur.

O, ciddi və adamlara yovuşmaz görünür, əslində isə adamlarla tez dil tapır.

O, nifrət bəslənməli adam kimi görünür, əslində isə sakit və səmimidir.

O, zərif və dözümsüz görünür, lakin dövlətin hüdudlarından kənarda onun başa çatdıra bilmədiyi elə bir iş, uğurla yerinə yetirə bilmədiyi bir tapşırıq yoxdur.

Dünyanın nifrət etdiyi kəsləri kamil müdriklər qiymətləndirir. Adi adamlar belə şeyləri dərk edə bilmirlər, yalnız böyük müdriklik ona qiymət verə bilər. Məhz bütün bunlara görə əsgərin zahiri görkəmi və daxili xarakteri uyğun gəlmir.

U-van soruşdu:

- Bunlar barədə necə bilmək olar?

Tay-qun cavab verdi:

- Bu əlamətləri öyrənməyin səkkiz üsulu mövcuddur. Birinci, onlara sual ver və cavablarını ölç-biç. İkinci, onları sözlərlə küncə qıs və ya özündən çıxart və onlarda hansı dəyişikliklər baş verdiyinə bax. Üçüncü, onların səmimiyyətini yoxlamaq üçün, gizlincə öyrəndiyin şeylər barədə sual et. Dördüncü, xeyirxahlıqlarını yoxlamaq üçün onlarla aydınca və hərtərəfli sual-cavab et. Beşinci, onların düzgünlüyünü yoxlamaq üçün maliyyəçi vəzifəsinə təyin et. Yeddinci, onların qorxmazlığını yoxlamaq üçün çətin vəzifəyə təyin et. Səkkizinci, onların əxlaqını yoxlamaq üçün sərxoş et. Səkkiz üsuldan tam istifadə edildikdən sonra layiqlilərlə layiq olmayanları bir-birindən seçmək olar.

21. SƏRKƏRDƏNİN TƏYİNATI

U-van tay-qundan soruşdu:

- Sərkərdənin təyin edilməsi Daosu nədən ibarətdir?

Tay-qun dedi:

- Dövlət təhlükədə olanda hökmdar Baş Zalı boşaltmalı, sərkərdəni çağırmalı və ona belə deməlidir:

«Dövlətin səcdəgahının təhlükəsizliyi və ona edilən hədə-qorxu sərkərdənin əlindədir. Hazırda hansısa dövlət itaətsizlik göstərir. Arzu edirəm ki, siz orduya başçılıq edib buna cavab verəsiniz».

Sərkərdə mandatı aldıqdan sonra hökmdar Baş Salnaməçiyə müqəddəs tısbağanın qınında ən xeyirli gün barədə fal açmağı əmr edir. Sonra seçilən günə hazırlaşmaq üçün o, üç gün oruc tutur, sonra isə fu və yuc[16] baltasını vermək üçün əcdadların Məbədinə yola düşür.

Hökmdar məbədin darvazasından keçdikdən sonra üzünü qərbə tərəf çevirir. Sərkərdə məbədin darvazasından keçib üzünü şimala tərəf çevirir. Hökmdarın özü yue baltasını götürüb başı üzərinə qaldırıb: «Buradan yuxarıda Səmayadək hər şey ordunun sərkərdəsinə tabedir»,– deyərək baltanın dəstəyini sərkərdəyə verir. Sonra fu baltasının dəstəyindən tutub: «Buradan dibsiz dərinlərədək hər şey sərkərdəyə tabedir. Düşməndə boşluq

gördükdə hücuma keçmək lazımdır; onun doluluğunu gördükdə dayanmaq lazımdır. Üç ordunu nəhəng saymayın və düşmənə etinasızlıq göstərməyin. Ölümünüzə imkan verməyin, çünki üzərinizə böyük məsuliyyət düşür. Əgər sizə böyük ehtiram bəslənirsə, başqalarını özünüzdən aşağı saymayın. Yalnız özünüzə güvənməyin və əksəriyyətlə kəllə-kəlləyə gəlməyin. Sərbəst danışığı düzlük əlaməti hesab etməyin.

Əgər komandirlər oturmayıbsa, oturmayın. Əgər komandirlər hələ yeməyiblərsə, yeməyin. Siz istini və soyuğu onlarla bölüşməlisiniz. Əgər siz özünüzü bu cür aparsanız komandirlər və əsgərlər bütün mübarizə güclərini həyata deyil, ölümə verəcəklər» deyərək baltanın iti tərəfini sərkərdəyə verməlidir.

Sərkərdə mandatı aldıqdan sonra, and içərək hökmdara belə cavab verir: «Eşitmişəm ki, ölkə başqa dövlətin əmri ilə hərəkət edə bilməz, ordu isə (çöldə) mərkəzi hakimiyyətə tabe ola bilməz. «İkili düşüncə»yə malik olanlar öz hökmdarına lazımi qaydada xidmət edə bilməzlər; tərəddüd edən hər kəs isə düşmənin həmləsinə cavab verə bilməz. Mən mandatı aldım və fu və yue baltalarının qorxunc gücü qarşısında vahid komandanlığı qəbul etdim. Mən sağ qayıtmağa cəsarət edə bilmərəm. Soruşmaq istərdim ki, siz məni tam və təkbaşına komandanlığa layiq bilirsinizmi. Əgər siz icazə verməsiniz mən sərkərdəlik postunu qəbul etməyə cəsarət etmirəm». Hökmdar layiq görür, sərkərdə gedir və yürüşə başlayır.

Hərbi işlər hökmdarın əmri ilə müəyyən edilmir, onların hamısı sərkərdədən keçir. O, düşmənə yaxınlaşdıqda və döyüşə başlamağı qərara aldıqda ikili fikirdən uzaqdır. Bu halda nə yuxarıda Səma, nə aşağıda Yer, nə qarşıda düşmən, nə arxada hökmdar var. Buna görə də, müdriklər onun üçün hesablama tərtib edir, igidlər onun uğrunda vuruşur.

Onların ruhu göylərdədir; onlar çapan at kimi sürətlidirlər. Hələ silah səsi şaqqıldayanadək düşmən itaətlə tabe olur.

Müharibə dövlətin hüdudlarından kənarda udulur, sərkərdənin xidmətləri isə dövlətin özündə yad edilir. Məmurlar vəzifədə yüksəldilir və ali mükafatlar alırlar; yüzlərlə nəsil şənlənir, sərkərdə isə qürursuzdur. Buna görə də küləklər və yağışlar mövsümə uyğun gələcək; beş dənli bitki bolluqla yetişəcək dövlətin səcdəgahı isə təhlükəsiz və sülh şəraitində olacaq.

U-van: - Gözəldir!

22. SƏRKƏRDƏNİN ZƏHMİ

U-van soruşdu:

- Sərkərdənin zəhmi necə ortaya çıxır? O, necə xəbərdar edilə bilər? O, öz qadağalarını necə pozulmaz, öz əmrlərini isə icra olunan edə bilər?

Tay-qun dedi:

- Sərkərdə öz zəhmliliyini böyükləri edam etməklə təsdiqləyir və kiçikləri mükafatlandırmaqla hər şeydən xəbərdar olur. Cəzaları qüsursuz dəqiqliklə icra etdikdə qadağaları pozulmur, əmrləri isə icra olunan olur. Əgər bir edamla ordu qorxudan titrəyəcəksə, onu öldür.

Əgər bir nəfəri mükafatlandırmaqla kütlələr razı qalacaqsa, onu mükafatlandır. Edam etməklə böyükləri qiymətləndir, mükafatlandırmaqla kiçikləri qiymətləndir. Qüdrətli və hörmətli birini öldürdükdə bu, yuxarılara çatan cəzadır. Mükafat çobanlara və ilxıçılara çatdıqda bu, aşağıdakıları kövrəldir. Cəza yuxarılara çatdıqda, mükafat isə aşağı təbəqə arasında yayıldıqda zəhmlilik öz təsdiqini tapır.

23. ORDUNUN RUHLANDIRILMASI

U-van Tay-qundan soruşur:

- Biz hücuma keçərkən divara birinci çıxmaq üçün üç ordunun bir-biri ilə rəqabət aparmalarını, biz çöldə vuruşarkən qabaqda olmaq üçün bir-biri ilə yarışmalarını arzulayıram. Onların qonq səsini (geri çəkilmək) eşidərkən narazı, təbil səsini (hücuma keçmək) eşidərkən xoşbəxt olmasına necə nail ola bilərik?

Tay-qun dedi:

- Sərkərdənin qələbə qazanmasının üç üsulu var.

U-van soruşdu:

- Onlar hansılardır?

Tay-qun:

- Əgər sərkərdə qışda dəri paltar geyinirsə, yayda özünü yelpikləmirsə, yağışda bəzəkli talvar qurmursa, onu «əsl sərkərdə» adlandırırlar. Sərkərdə özü bunlara riayət etməyincə, onun komandirlərin və əsgərlərin daim altında olduğu soyuğun və istinin nə olduğunu bilmək imkanı olmayacaq.

Əgər sərkərdə yalnız adamlar düşərgədə yerləşdikdən sonra yatmağa uzanarsa; əgər o, yalnız aşpazlar xörəyi bişirdikdən sonra yeməyə otursa; əgər əsgərlər qızınmaq üçün tonqal qalamırsa və sərkərdə də bunu etmirsə, o, «arzuları başa düşən sərkərdə» adlanır. O, arzuları başa düşməyənədək, onun komandirlərin və əsgərlərin aclığını və toxluğunu anlamaq imkanı olmayacaqdır.

Sərkərdə istini və soyuğu, zəhməti və məhrumiyyətləri, aclığı və toxluğu komandirlər və əsgərlərlə bölüşür. Üç ordunun əsgərləri təbil səsləri eşidərkən xoşbəxt olur, qonq səsi eşitdikdə isə narazı qalırlar. Onlar yüksək divarlara hücuma keçərkən və ya daş və kaman dolusu altından dərin gölləri keçən vaxt komandirlər divarlara birinci çıxmaq üçün rəqabət aparacaqlar. Çılpaq tiyələrə zərbələr endirərkən onlar birinci getmək uğrunda rəqabət aparacaqlar. Bu, ona görə olmayacaq ki, onlar özlərini sevirlər və ya yaralı olmaqdan zövq alırlar, ona görə ki, sərkərdələr onların isti və soyuğundan,

aclığından və toxluğundan. zəhmətlərindən və məhrumiyyətlərindən xəbərdardır.

24. MƏXFİ BİRKALAR

U-van Tay-qundan soruşdu:

- Əgər biz ordunu udel knyazlarının torpaqlarının içərisinə yeridiriksə və burada üç ordu birdən- birə əngəllərlə qarşılaşırsa və təcili tədbirlər görmək tələb olunursa, vəziyyət yaxşı olacaq, ya pis? Həm də mən yaxında və uzaqda olanlarla əlaqə saxlamaq istəyirəm. Bütün qüvvədən istifadənin təmin olunması üçün kənardan olduğu kimi içəridən də səsimizə səs vermələrindən ötrü nə etmək olar?

Tay-qun dedi:

- Hökmdar və onun komandirləri səkkiz növdə məxfi birkaya malikdirlər.

Düşmən üzərində böyük qələbəni bildirən birka bir fut uzunluğunda olur. Düşmən ordusunun məhv edilməsini və onun komandanının ölümünü bildirən birka doqquz düym uzunluğunda olur.

Divarın ələ keçirilməsini və şəhərin təslim olduğunu bildirən birka səkkiz düym uzunluğunda olur.

Düşmənin geri çəkildiyini və onun torpaqlarının içərisinə soxulmağı bildirən birka yeddi düym uzunluğunda olur.

Əsgərləri dözümlü müdafiəyə çağıran birka altı düym uzunluğunda olur. Ərzağın və möhkəmlənməyin zəruriliyini bildirən birka beş düym uzunluğunda olur.

Ordunun məğlub olduğunu və komandanın ölümünü bildirən birka dörd düym uzunluğunda olur.

Bütün üstünlüklərin əldən verildiyini və ordunun təslim olduğunu bildirən birka üç düym uzunluğunda olur.

Birkanı gətirən və təqdim edən hər kəsin üstə keşikçi qoy, təlimatın vaxtı gecikibsə, bu barədə eşidənlərin və danışanların hamısını öldür. Yalnız hökmdarın və komandanın bilməli olduğu bu səkkiz birka kimsənin işlərin vəziyyətindən xəbəri olmasın deyə, məlumatların gizlədilməsinə kömək edir. Hətta düşmən kamil müdriklərin ağlına malik olduqda belə, heç kəs onların mənasını başa düşməyəcək.

U-van:- Gözəldir!

25. MƏXFİ MƏKTUBLAR

U-van Tay-qundan soruşdu:

- Ordu udel knyazlarının torpaqlarının içərisinə soxulur və sərkərdə qoşunu bir yerə yığmaq, daimi yerdəyişməsini keçirmək və əlçatmaz üstünlük planı tərtib etmək istəyir. Bu hərəkətlər çoxsaylıdır; mənalarını çatdırmaq üçün adi birkalar kifayət deyildir. Məsafənin uzaqlığı üzündən şifahi əmrlər vermək faydasızdır. Nə etmək lazımdır?

Tay-qun dedi:

- Gizli işlərin və mühüm qərarların olmasından asılı olmayaraq məktublardan daha çox istifadə etmək lazımdır, nəinki birkalardan. Hökmdar sərkərdəyə məktub göndərir, sərkərdə məktubların köməyi ilə onu təlimatlandırır. Məktub bütöv tərtib edilir və sonradan bölünür. Məktublar üç hissədə göndərilir və onun məzmununu yalnız bir nəfər bilir. «Bölünmüş», yəni üç ayrı-ayrı hissədən ibarət deməkdir. Üç hissədə göndər ki, üç göndəriş barədə yalnız hər hissəni aparan bir nəfər bilsin; üç hissə bir yerə yığıldıqda onu yalnız bir nəfər oxuyacaq. Bu, «məxfi məktub» adlanır. Hətta əgər düşmən kamil müdrik ağıla malik olsa belə, məktubun məzmunundan xəbərsiz olacaq.

U-van:- Gözəldir!

26. ORDUNUN STRATEJİ GÜCÜ

U-van Tay-qundan soruşdu:

- Hücum müharibəsinin Daosu nədən ibarətdir?

Tay-qun cavab verdi:

- Strateji qüvvədən düşmənin irəliləməsinə uyğun olaraq istifadə olunur. Dəyişiklik iki ordunun toqquşması ilə başlanır. Qeyri-adi (tsi) və ümumi qəbul olunmuş (çjen) taktikası daimi mühakimələrin nəticəsidir. Buna görə də, böyük işlər müzakirə olunmur, müharibə aparmaq barədə isə danışmırlar. Bundan əlavə, böyük şeylər barədə sözlərə qulaq asmağa dəyməz. Bəziləri gözlənilmədən gedir, gözlənilmədən gəlirlər. Yalnız başqalarına tabe olmadan, özü tabe edən, həqiqi hərbi düşüncə sahibidir.

Əgər (sənin fikirlərin barədə) eşitsələr, düşmən hazırlaşacaq. Əgər səni başa düşsələr, o, sənin əleyhinə düşünəcək. Əgər səni tanısalar, çətin vəziyyətə salacaqlar. Əgər sənin düşüncələrinə nüfuz etsələr, sənə qarşı təhlükə qorxusu var.

Buna görə də, müharibədə kim qabaqlasa, ordunun cəbhə boyu hücumunu gözləmir. Adamları bədbəxtlikdən xilas edənlər bunu bədbəxtlik baş verənədək edirlər. Düşmənin qüvvəsi formalaşanadək onu məhv etmək qələbə çalmaq deməkdir. Üstün qüvvəyə malik olan döyüşə başlamır. Çılpaq tiyələrin köməyi ilə vuruşan və qələbə çalan kəslər yaxşı sərkərdə hesab olunmurlar. Döyüşü uduzduqdan sonra hazırlıq görən kəslər kamil müdrik hesab olunmurlar! Sənəti başqalarının bacarığından fərqlənməyənlər «dövlət fəhləsi» hesab olunmurlar.

Hərbi işlərdə, sözsüz qələbədən əhəmiyyətli heç nə yoxdur. Müharibə aparmaqda qeyri-müəyyənlikdən və susmaqdan daha vacib heç nə yoxdur. Hərəkətdə qəfillikdən daha vacib heç nə yoxdur. Düşüncələrdə məxfilikdən daha vacib heç nə yoxdur.

Qələbə çalmaqdan ötrü, ilk növbədə, özünü zəif göstər və yalnız bundan sonra döyüşə başla. Onda yarı cəhdlə ikiqat uğur qazanacaqsan.

Kamil müdrik Səmanın və Yerin hərəkəti ilə yaranır. Onun prinsiplərini kim bilir? O, in və yan Daosu ilə yaranır və onların mövsümi qaydalarına riayət edir. O, Səmanın və Yerin dairəvi fırlanmasını bilərək onların doluluq və boşluq prinsipinə riayət edir. Bütün şeylər Səmanın və Yerin formasına müvafiq olaraq doğulur və ölürlər. Buna görə deyilib ki, kim vəziyyəti qiymətləndirmədən vuruşursa, onun qüvvəsi həddən çox olsa belə məğlubiyyəti qaçılmazdır.

Kim hərb sənətinə müvəffəq olubsa, o, heç bir irəliləyiş etmədən hadisələri gözləyəcək. O, görəndə ki, qələbə çala bilər hücum edəcək; əgər o, görsə ki, qələbə çala bilməyəcək (irəliləməyi) dayandıracaq. Buna görə deyirlər ki, o, qorxubilməzdir, qətiyyətsizlik göstərməyəcəkdir. Ordunu yaxalaya biləcək bəlalardan ən təhlükəlisi qətiyyətsizlikdir. Ordunu məhv edə biləcək bədbəxtliklərin heç biri şübhə ilə müqayisə oluna bilməz.

Kim hərb sənətinə müvəffəq olubsa, o, gördüyü xeyiri əldən verməyəcək və əlverişli an yetişdikdə ona şübhə etməyəcəkdir. Kim xeyiri əldən verir və ya zəmanədən geri qalırsa, bədbəxt olacaqdır. Buna görə aqillər vaxta və xeyirə qiymət verirlər; bacarıqlılar əzmkardırlar və şübhə nə olduğunu bilmirlər. Buna görə də qəfil ildırım çaxanda gözü yummağa vaxt qalmır. Elə irəlilə ki, sanki yenicə qorxudan qurtulmusan; müharibəni elə apar ki, sanki bu işə təhrik edilmisən. Müqavimət göstərənlər məhv ediləcəklər; yaxınlaşanlar əziləcəklər. Belə hücuma kim müqavimət göstərə bilər?

İşlər hamıya bəlli olmadıqda və sərkərdə onu gizli saxladıqda, bu, ruha bənzəyir. Şeylər ortada olmadıqda və o, onları qiymətləndirdikdə, deməli, xəbərdardır.

Əgər kimsə ruhlar Daosunu və xəbərdarlığı bilirsə, heç bir düşmən çöldə onunla vuruşmayacaq, heç bir dövlət ona qarşı çıxmayacaqdır.

U-van: - Gözəldir!

27. QEYRİ-ADİ ORDU

U-van Tay-qundan soruşdu:

- Müharibə aparmağın böyük qaydaları hansılardır?

Tay-qun cavab verdi:

- Qədim, hərb işinə müvəffəq olanlar Yerin altında olduğu kimi Səmanın üstündə də müharibə apara bilməmişlər. Onların uğurları və uğursuzluqları həmişə strateji qüvvənin (şi) mənəvi tətbiqindən irəli gəlmişdir. Onu tətbiq edənlər çiçəklənmişlər; onu itirənlər həlak olmuşlar.

İki qarşı-qarşıya duran ordu yaraq-əsləhə ilə qandallanmış əsgərləri kiçik hissələrlə yerləşdirərkən və döyüş qaydasında düzərkən, öz sıralarında xaos yaratmaq üçün qoşun hissələrini azad etməklə çaxnaşma görkəmi yaratmağa kömək edər.

Hündür və sıx ot-gizli geri çəkilmənin köməkçisidir.

Kiçik çaylar axan yarğanlar və təhlükəli dərələr cəng arabalarını dayandırmağa və süvarilərə müqavimət göstərməyə kömək edəcək.

Dar keçidlər və dağ meşələri üstün gələn düşmənə kiçik qüvvə ilə hücuma kömək edər.

Bataqlıq çalalar və zil qaranlıq qəfil hücumu gizlədə bilər.

(Qoşunun cəbhə boyu düzülməsi) açıq ərazidə heç bir sığınacaq olmadan mərdliklə və rəşadətlə vuruşmağa kömək edər.

Uçan ox kimi sürətli, arbaletin tetivi kimi xilas olan qəfil hücum parlaq hesabları pozmağa kömək edir.

Gözlənilməz pusquların və qeyri-adi qoşunun hazırlanması, düşməni aldatmaq və diqqətini yayındırmaq üçün dəstələrin uzaq məsafələrə yola salınması düşmənin ordusunu məhv etməyə və sərkərdəsini ələ keçirməyə kömək edir.

Qoşunun dörd və beş hissəyə bölünməsi düşmənin dairəvi tikililərinə hücuma keçməyə və kvadrat tikililəri məhv etməyə kömək edir.

Əgər düşmənin hürkməsindən və qorxmasından istifadə edilsə, bir nəfər on nəfərə hücum edə bilər.

Əgər düşmənin yorğunluğundan və hücuma keçməklə düşərgədə yerləşməsindən istifadə edilsə, on nəfərlə yüz nəfərə hücuma keçmək olar.

Qeyri-adi texniki bacarıq vuruşa-vuruşa dərin şəlalələri aşmağa və çaylar keçməyə kömək edər.

Uzaq məsafələrə vuran kamanlar və uzun silahlar suda vuruşmağa kömək edər.

Uzaqdakı müşahidə postları və dərin kəşfiyyat, «partlayıcı» marşlar və yalançı geri çəkilmələr istehkamların ələ keçirilməsinə və şəhərlərin alınmasına kömək edər.

Hücuma təbil döyüşü və böyük çaxnaşma qeyri-adi planların tətbiq edilməsinə kömək edər.

Güclü külək və selləmə yağış alından vurmağa və arxa cəbhəni ələ keçirməyə kömək edər.

Düşmənin casusunun aşkar edilməsi rəqibin təchizat xəttinin kəsilməsinə kömək edər.

(Düşmənin) komanda və əmrlərinin saxtalaşdırılması və düşmənin paltarlarını geyinmək onun geri çəkilməyə hazarlınmasına kömək edər.

Ədalətli müharibə adamları cəlb etməyə və qələbə çalmağa kömək edər.

Rütbə və bol mükafatlar əmrin icrasına kömək edər.

Ağır cəzalar və böyük cərimələr tənbəlləri və yorulanları qabağa getməyə məcbur edər.

Sevinc və qəzəb, mükafatlar və cəzalar, mülki və hərbi tədbirlər bəzən ləng, bəzən sürətlə üç ordunun harmoniyasına və tabeçiliklərindəkiləri idarə etməyə və birləşdirməyə kömək edə bilər.

Yüksəkliklərin ələ keçirilməsi sayıq olmağa və müdafiəyə hazırlaşmağa kömək edər.

Çalalara və dərələrə yiyələnmə əsaslı surətdə möhkəmlənməyə kömək edər.

Dağ meşələri və sıx otlar yaxınlaşmağa və səs-küysüz getməyə kömək edər.

Dərin xəndəklər, yüksək bəndlər və böyük ərzaq ehtiyatı mövqeni uzun müddət əldə saxlamağa kömək edər.

Buna görə deyiblər: «Hücuma necə güvəndiyini bilməyənlərlə düşmən barədə danışmağa dəyməz. (Öz ordusunu) bölüşməyən və irəli aparmayanlarla qeyri-adi strategiya barədə danışmağa dəyməz».

Bir də deyiblər: «Əgər sərkərdə humanist deyilsə, üç ordu ona yaxın olmayacaq.

Əgər sərkərdə mərd deyilsə, üç ordu rəhmsiz olmayacaq.

Əgər sərkərdə müdrik deyilsə, üç ordu çaşbaş qalacaq.

Əgər sərkərdə aydın nitqə malik deyilsə, üç ordu özünü itirmiş halda olacaq. Əgər sərkərdə diribaş və nüfuz etmək bacarığına malik deyilsə, üç ordu vaxtı itirəcək.

Əgər sərkərdə sayıq deyilsə, üç ordu öz qüvvəsini boş yerə sərf edəcək.

Əgər sərkərdə güclü və inandırıcı deyilsə, üç ordu öz vəzifələrini yerinə yetirməyəck».

Buna görə də, sərkərdə Talelərin sahibidir. Üç ordu ona tabe olur və ona tabe olmur. Əgər layiqli sərkərdə olsa, ordu güclü, dövlət isə çiçəklənən olacaq. Əgər sərkərdə layiqli olmasa, ordu zəif olacaq, dövlətsə məhv olacaq.

- Gözəldir, - dedi U-van.

28. BEŞ AHƏNG

U-van Tay-qundan soruşdu:

- Biz üç ordudakı dəyişikliklər barədə fitlərin səsindən öyrənə, qələbəni və məğlubiyyəti əvvəlcədən söyləyə bilərikmi?

Tay-qun cavab verdi:

- Sizin sualınız, həqiqətən, dərin məna kəsb edir. Qun, şan, tszyao, çjen və yuy kimi beş başlıca ahəngli on iki fit var. Bunlar əsl və hamının qəbul etdiyi, hər biri on min nəslin ahəngidir.

Beş dövrənin ruhu Daonun əbədiliyidir. Rəqibə hücuma keçməkdən ötrü çovğun, ağac, alov, su və torpağın dövrə müvafiq olaraq üstünlük təşkil etməsində (istifadə etmək olar). Qədimdə üç kamil müdrik imperator dözümlüləri və güclüləri idarə etmək üçün boşluq və əməlsizlikdən istifadə etmişlər. Onların yazı üçün ieroqlifləri yox idi, hər şey beş dövrəyə əsaslanırdı. Beş dövrənin

Daosu Səmanın və Yerin təbiiliyi deməkdir. Onu altı «tszya» ya bölmək yüksək və ələkeçməz ruhun təcəssümüdür.

Onların üsulları bunlardır: aydın və buludsuz, küləksiz və yağışsız isti gündən sonra onlar gecənin ortasında düşmənin istehkamına yaxınlaşmaq üçün yüngül süvari göndərirlər. Əsgərlər doqquz yüz addımlıqda dayanıb, fitləri öz qulaqlarına qoyduqdan sonra bağırtı ilə düşməni qorxudurlar. İncə, ələkeçməz səs fitlərlə cavab verdi.

Əgər «tszyao» ahəngi cavab verərdisə, bu, ağ pələngi bildirirdi.

Əgər «çjen» ahəngi cavab verərdisə, bu, Sirli Əsgəri bildirirdi.

Əgər «şan» ahəngi cavab verərdisə, bu, parlaq– qırmızı quşu bildirir.

Əgər «yuy» ahəngi cavab verərdisə, bu, «qarmağabənzər» tikilini bildirirdi.

Əgər ahənglərdən heç biri cavab verməzdisə, bu, Yaşıl Əjdahanı bildirən «qun» idi.

Beş dövrənin bu işarələri qələbədə kömək, uğurda və məğlubiyyətdə əlaqeçməzlik deməkdir.

- Gözəldir,– dedi U-van.

Tay-qun davam etdi:

- Bu əlaqeçməz, sirli ahəngləri başa düşmək olar.

U-van soruşdu:

- Biz onları necə tanıyarıq?

Tay-qun cavab verdi:

- Düşmən qorxudulduqda və hərəkət etdikdə onu dinlə. Əgər təbilin «bao» səsini eşitsən, onda bu» «tszyao»dur. Əgər odun parlayan alovunu görsən bu, «çjen»dir. Əgər bürünc və dəmir, nizə və alebarda səsi eşitsən, bu, «şan»dır. Əgər adamların içini çəkdiyini eşitsən, bu, «yuy»dur. Əgər sakitlikdirsə, heç bir səs yoxdursa, bu, «qun»deməkdir. Beş fərqləndirici əlamətlər bunlardır.

29. ORDUNUN FƏRQLƏNDİRİCİ ƏLAMƏTLƏRİ

U-van Tay-qundan soruşdu:

- Döyüşə başlamazdan əvvəl mən, ilk növbədə, düşmənin güclü və zəif tərəflərini, qələbə və məğbuliyyət işarələrini bilmək istəyirəm. Bunu necə etmək olar?

Tay-qun cavab verdi:

- Qələbə və məğlubiyyət işarələri özünü, ilk növbədə, düşmənin ruhunda göstərir. Savadlı sərkərdə onları adamları izləməklə öyrənir.

Düşmənin gəlməsini və getməsini, onun irəliləməsini və geri çəkilməsini diqqətlə izlə. Onun manevrlərini və istirahətini öyrən, komandirlərin və qoşunun məruzə etdikləri əlamətlər barədə deyilənlərdən xəbər tut. Əgər üç ordu şəndirsə, komandirlər və əsgərlər isə qanundan qorxursa, sərkərdənin əmrlərinə hörmət

edirlərsə, düşməni əzməkdən sevinirlərsə, öz igidliklərini və qəddarlıqlarını bir-birinin qarşısında tərifləyirlərsə və bir-birlərinin zəhmini və cəngavərliyini tərif edirlərsə, bu, güclü düşmənin əlamətləridir.

Əgər üç ordu bir neçə dəfə qorxudulubsa, əsgərlər və komandirlər daha əmrlərə tabe olmurlarsa; əgər onlar biri-birlərini düşmənin gücü ilə (söhbətləri ilə) qorxudurlarsa və öz aralarında əlverişsiz vəziyyət barədə danışırlarsa; əgər bir-birlərini həvəsdən salıb pis əlamətləri təsdiq edirlərsə; əgər onlar qanunlardan, əmrlərdən, nə də sərkərdələrdən qorxmurlarsa, bunların hamısı zəif ordunun əlamətləridir.

Nə vaxt üç ordu itaət edirsə; nə vaxt ordu yenilməz dururşa, nə vaxt dərin çalalar və yüksək sədlərlə əhatə olunubsa; nə vaxt onlar küləkdən və yağışdan istifadə edirsə; nə vaxt hər şey sakitdirsə; nə vaxt işarə bayraqları və bayraqlar qabağa taxılıbsa; nə vaxt qonqların və zənglərin səsi eşidilirsə və bu səslər təmizdirsə; nə vaxt böyük və kiçik təbillərin səsi gur gəlirsə, bütün bunlar yüksək və böyük ruh yüksəkliyinin əldə olunmasının, böyük qələbənin əlamətləridir.

Əgər onların düzülüşü möhkəm deyilsə, bayraqlar aşağı endirilibsə və dolaşıb qırılsa; əgər onlar güclü küləyin və yağışın faydasından istifadə etmirlərsə; əgər komandirlər və əsgərlər qorxuya düşüblərsə; əgər birliyin olmaması üzündən onların «tsi»si sındırılıbsa; əgər onların döyüş atları qorxudulub və hürküdülübsə və cəng arabalarının təkərlərinin oxu sınıbsa; əgər onların qonqlarının zənglərinin səsi qaydasında deyilsə və zəifləyirsə; təbillərin quruluşu zəif və əzikdirsə, bütün bunlar böyük məğlubiyyətdən xəbər verən əlamətlərdir.

Şəhər divarlarına hücum edərkən və şəhəri mühasirəyə alarkən düşmənin «tsi» rəngi ölü külə bənzəyirsə, şəhərdə qan tökmək mümkündür. Əgər şəhərin «tsi»si şimala gedirsə, onda şəhəri tutmaq olar. Əgər şəhərin «tsi»si çıxıb qərbə tərəf əyilirsə, şəhəri güclə tabe etmək olar. Əgər şəhərin «tsi»si çıxır və cənuba əyilirsə, onu tutmaq olmaz. Əgər şəhərin «tsi»si çıxır və şərqə əyilirsə, ona hücuma keçmək olmaz. Əgər şəhərin «tsi»si çıxır və geri qayıdırsa, deməli, artıq hökmdar qaçıb. Əgər şəhərin «tsi»si çıxır və bizim ordu arasında yayılırsa, əsgərlərin xəstələnməsi qaçılmazdır. Əgər şəhərin «tsi»si yuxarı qalxırsa, ordu uzun müddət istifadə olunmağa məhkumdur. Əgər şəhər mühasirəyə alınıb və ona on gündən çox hücum edilibsə və bu zaman nə külək əsib, nə şimşək çaxıbsa, onu tələsik buraxmaq lazımdır, çünki şəhərin xeyli kömək mənbəyi vardır.

Bu üsulların köməyi ilə hücuma keçməyin və hücumu genişləndirməyin lazım olub- olmadığını öyrənmək və ya hücuma keçməyin lazım olmadığını və dayanmaq lazım gəldiyini anlamaq olar.

- Gözəldir,- dedi U-van.

30. ƏLALTI VASİTƏLƏR

U-van Tay-qundan soruşdu:

- Əgər Kainat sülh və əmin-amanlıq şəraitindədir və dövlət hər hansı bir münaqişəyə cəlb olunmayıbsa, biz müharibə üçün vəsait olmadan keçinə bilərikmi? Müdafiə üçün silah-sursat hazırlamaqdan imtina etmək olarmı?

Tay-qun dedi:

- Hücum və müdafiə üçün vəsaiti adi həyatda bolluca tapmaq olar. Yeri qazmaq üçün çubuqdan ov nizəsi və «körpü» kimi istifadə oluna bilər. Buynuzlu heyvanları və atları çidarlamaq üçün olan dolaqlardan düşərgənin salınması zamanı daldalanacaq sipər kimi istifadə etmək olar. Müxtəlif toxalar- nizə və şiş uclu alebardlar kimi. Küləş bürüncəklər və böyük çətirlər yaraq-əsləhə və qalxan xidməti göstərə bilər.

Böyük kərkilər, bellər, baltalar, mişarlar, həvəngdəstələr divarlara hücum üçün alətlərdir. Buynuzlu mal-qara və atlar azuqə daşımaq üçün vasitədir. Toyuqlar və atlar keşikçi sayılır. Qadınların tikdikləri paltarlardan bayraq kimi istifadə etmək olar.

Kəndlilərin tarlada məhsul yetişdirmək üçün istifadə etdikləri metodlar divarlara hücum zamanı istifadə olunan metodların eynidir. Otları və alaqları yolmaq üçün lazım olan bacarıq süvarilər və cəng arabalarına qarşı mübarizə ilə eynidir. Yığılmış məhsul və qış üçün hazırlanmış odun ordunun azuqəsi olacaq. Doldurulmuş anbarlar qışda etibarlı müdafiəni təmin edəcək.

Çöllərdəki və kəndlərdəki «beşlik» sistemi ən kiçik döyüş vahidini və insanları birləşdirən inamı müəyyənləşdirir. Kəndlərdə məmurlar, idarələrdə rəislər var ki, ordunu arxaları ilə apara bilərlər. Kəndlər divarla əhatə olunmuşdur ki, onlar keçilməzdir və bu dəstələri bölmək üçün əsasdır. Taxılın daşınması və otun tədarükü dövlət anbarlarını dolduracaqdır. Daxili və xarici divarların yazda və payızda təmiri, çalaların və kanalların tikintisi zamanı vacib olan ustalıq aşırımların və istehkamların ucaldılması zamanı kara gələcəkdir.

Beləliklə, hərbi iş üçün vəsaiti adi həyatda tapmaq olar. Ölkəni yaxşı idarə edən hər kəs onu adi günlərdə əldə edə bilər. Sonra onlar altı heyvanın[17] yetişdirilməsi, yeni torpaqların mənimsənilməsi və oraya adamların köçürülməsi kimi qaydalarda tətbiq edilməlidir. Əldə müəyyən miqdarda *mu* torpağı var ki, o, onu becərir, arvadda material var ki, o, onu tikir. Dövlətin varlanmasının və ordunun möhkəmlənməsinin yolu budur.

- Gözəldir, - dedi U-van.

IV

PƏLƏNGİN MƏXFİ TƏLİMİ

31. ORDUNUN HAZIRLANMASI

U-van Tay-qundan soruşdu:

- Hökmdar üç ordunu topladıqda, ordunun hazırlanması üçün hücum və müdafiə vasitələrini, silahların növlərini və miqdarını təyin etməyin hər hansı qaydası mövcuddurmu?

Tay-qun dedi:

- Böyük sualdır, mənim hökmdarım! Hücum və müdafiə vasitələri kateqoriyalara bölünür. Ordunun böyük qorxunc gücü bunun nəticəsidir.

U-van dedi:

- Onların barəsində eşitmək istərdim.

Tay-qun cavab verdi:

- Miqdara gəlincə, on min silahlı əsgərə komandanlıq edərkən istifadə (onların silahlandırılması da) qaydaları aşağıdakılardan ibarətdir:

Otuz altı böyük müdafiə olunmuş «fu syuy» cəng arabası. Hər cinaha cəmi iyirmi dörd bacarıqlı komandir, güclü arbaletçilər, nizəçilər və alebardalı hərbçilər yerləşdirilir. Cəng arabalarında səkkiz futluq təkərlər olamlıdır. Eyni zamanda, cəng arabalarında bayraqlar və təbillər də olur ki, onlar hər şəraitə müvafiq olaraq «qorxu bələdçiləri»dir. Onlardan əsas qoruyucu sıraların dərinliyinə girmək və güclü düşməni darmadağın etməkdən ötrü istifadə olunur.

Sürətli atıcılıq üçün mexanizmlərlə təchiz olunmuş yüz qırx kiçik «fu syuy» cəng arabası. Onlardan əsas qoruyucu sıraların dərinliyinə girmək və güclü düşməni darmadağın etməkdən ötrü istifadə olunur.

Gövdələrindən nizələrin və alebardaların iti ücları kənara çıxan yetmiş iki böyük «fu syuy» cəng arabası. Peşəkar komandirlər və güclü oxatanlar, nizəçilər və alebardalı hərbçilər yanlardan. Onlardakı beşfutluq təkərlər üzərinə arbaletlər bərkidilir ki, onlar da bucurqad mexanizmlərinin köməyi ilə sürətli atışma üçün oxları ötürür. Onlardan əsas qoruyucu sıraların dərinliyinə girmək və güclü düşməni darmadağın etməkdən ötrü istifadə olunur.

Sürətli atıcılıq üçün mexanizmlərlə təchiz olunmuş yüz qırx kiçik «fu syuy» cəng arabası. Onlardan əsas qoruyucu sıraların dərinliyinə girmək və güclü düşməni darmadağın etməkdən ötrü istifadə olunur.

Üstündə üç arbaletdə araları bərkidilən otuz atlı böyük sarı «fu syuy» cəng arabaları. Bacarıqlı komandirlər, güclü oxatanlar, nizəçilər və alebardalı hərbçilər «uçan ördək» və «ildırım kölgəsi» kamanları ilə silahlananlar cinahı təşkil edirlər. «Uçan ördək» kamanları qırmızı ağaclı, ağ lələkli və bürünc ucluqludur. «İldırım kölgəsi» kamanları yaşıl ağaclı, qırmızı lələkli və dəmir uclu olur. Gündüzlər cəng arabalarına altı fut uzunluğu və altı dyüm eni olan qırmızı ipəkdən bayraqlar bərkidir ki, o da günəşli vaxtda parlayır. Gecələr yenə uzunluğu altı fut və eni altı dyüm olan ağ ipəkdən bayraqlar bərkidilir. Onlardan düşmənin qoruyucu sıralarının dərinliyinə girmək, piyadaları və süvariləri məhv etmək üçün istifadə olunur.

Otuz altı böyük «fu syuy» hücum cəng arabaları.

Hərbçiləri– «abidləri» apararkən onlar düşmənin sıralarına həm üfiqi, həm də şaquli hücuma keçə və onları məhv edə bilərlər.

Düşmənin hücumunu (dəf etmək üçün) nəqliyyat cəng arabalarını «ildırımsürətli cəng arabaları» da adlandırırlar. Hərb sənəti onlardan «ildırımsürətli hücumlar» üçün istifadə edir. Onlar düşmənin əsas qoruyucu qüvvələrinin dərinliyinə girməli, piyada və süvari qoşunlarını məhv etməlidir.

Qarşı-qarşıya gecə hücumlarını (dəf etmək üçün) nizəçilər və əsgərlərlə dolu yüz altmış yüngül «fu syuy» cəng arabaları. Hər üç əsgərə bir– «abid» lazımdır. Hərb sənəti onlardan süvari «şimşək hücumlarında» istifadə olunmasını tələb edir. Onlar düşmənin əsas müdafiə sıralarına daxil olmalı, süvariləri və piyadaları məhv etməlidirlər.

Cəmi min iki yüz ədəd böyük kvadrat uclu çəkisi iyirmi katti[18] və dəstəyinin uzunluğu beş futdan çox olan dəmir dəyənək. Onlara həm də «səma dəyənəyi» deyirlər.

Böyük, səkkiz dyümlü ülgücü, səkkiz katti ağırlığı və uzunluğu beş futdan çox olan əl baltaları, cəmi min iki yüz ədəd. Onlara həm də «yue səma baltaları» deyirlər.

Bir də çəkisi səkkiz katti və dəstəyinin uzunluğu beş futdan çox olan dəmir ucluqlu dəmir dəstələr,– cəmi min iki yüz ədəd. Onlara həm də «səma dəstələri» deyirlər. Bunlar piyadaları və süvariləri məhv etmək üçün lazımdır.

Uzunluğu səkkiz dyüm olan «Uçan qarmaqlar». Əyrisinin diametri beş dyüm, dəstəyinin uzunluğu altı futdan çox. Onu əsgərlərin topalaşdığı yerə atırlar. Üç ordunu müdafiə etmək üçün ağac «abidlərdən» hazırlanmış «fu syuy»dan (cəng arabalarından) və cəmi yüz iyirmi ədəd olmaqla hər biri diametri iyirmi fut olan qılınc formalı tirlərdən istifadə etmək lazımdır. Onlara həm də «sapand» deyirlər. Açıq və düzənlik yerlərdə piyada qoşunları onlardan cəng arabalarına və süvarilərə qarşı istifadə edə bilərlər.

Səthin üzərində iki fut beş dyüm qalxa bilən ağac «kirpilər», cəmi yüz iyirmi ədəd. Onlardan süvarilərə və cəng arabalarına qarşı

mübarizədə, düşmənin hücumlarının dəf edilməsində, həmçinin onun geriyə çəkilmək yollarının qarşısının kəsilməsində istifadə edirlər.

Qısa oxlu, səyyar, nizəli və alebardalı döyüşçüləri daşıyan «fu syuy» cəng arabaları,–cəmi yüz iyirmi ədəd. Onları Çi-yunu fəth edən Sarı imperator istifadə etmişdir. Onlar piyada və süvari qoşunlarını məhv etməli, dərhal hücuma keçilməsinə və düşmənin irəliləməsinin qarşısının alınmasına kömək etməlidir.

Ensiz keçidlərdə və kiçik yollarda eni səkkiz dyüm olub dörd dyümlük qarmaqlar və uzunluğu altı futdan çox olan dəstəklərlə təchiz edilmiş dəmir «kirpilər» quraşdırırlar. Cəmi on iki min ədəd. Onlar geri çəkilən süvari qoşunlarını məhv etmək üçün lazımdır.

Əgər birdən gecə vaxtı düşmən hücum edir və çılpaq qılıncları cingildədirsə, yerə tor sər və oxlara bürünmüş iki «kirpi» quraşdır və onları «hörücü qadın» tipli «kirpilərlə» birləşdir. Tiyələrin ucları iki fut çıxıntılı olmalıdır. Cəmi on iki min ədəd.

Cır cəngəlliklər və hündür otlar arasında vuruşmaq üçün oxu xatırladan kvadrat ağac nizələr lazımdır, cəmi on iki min ədəd. Onlardan istifadə qaydaları belədir: onlar torpaqdan bir fut və beş dyüm çıxıntılı olmalıdır. Onlardan piyada və kavaleriya qoşunlarını məğlub etmək, düşmənə qəfil hücuma keçmək və geri çəkilmə yolunu bağlamaq üçün istifadə olunur.

Ensiz keçidlərdə, kiçik yollarda və məhdud ərazilərdə piyada və süvariləri məğlub etmək, düşmənə qəfil hücuma keçmək və onun hərəkətinin qarşısını almaq üçün dəmir zəncirlər qoy,– cəmi yüz iyirmi ədəd.

İstehkamlarda keçidləri qorumaq və müdafiə üçün nizə və alebardalı kiçik səyyar lövhəciklər, cəmi on iki ədəd və çoxlu oxlarla vuran bucurqadlı arbaletlər mövcuddur.

Üç ordunu qorumaq üçün zəncirlərlə birləşdirilmiş «səma toru» və «pələngin caynağı» lazımdır, cəmi yüz iyirmi ədəd. Bağlamanın birinin eni on beş fut, hündürlüyü isə səkkiz futdur. Cəng arabaları üzərində bərkidilən «pələng caynağı» və qılınc tiyələrindən ibarət bağlamanın da eni on beş fut və hündürlüyü səkkiz futdur. Onlar cəmi beş yüz on ədəddir.

Dərələrin və çuxurların üstündən keçmək üçün «uçan körpü» mövcuddur. Onun bir bölməsinin eni on beş fut və uzunluğu iyirmi futdan çoxdur, cəmi səkkiz ədəd. Onların uclarına zəncirlər bərkidilmişdir ki, bununla da onları bir-birləri ilə birləşdirirlər.

Böyük su hövzələrindən keçmək üçün «uçan körpülər» mövcuddur, cəmi səkkiz ədəd. Onların eni on beş fut və uzunluğu iyirmi futdan çoxdur, zəncirlərlə birləşdirilirlər.

Həmçinin içəridən düzbucaqlı, bayır tərəfdən yumru, diametri dörd fut və ondan bir qədər çox olan çıxıntılı dişlərə malik «səma salı» da var. Cəmi otuz iki. Böyük göllərdən keçmək üçün «səma

sallar»dan «uçan çaylarla» birgə istifadə etdikdə onlara «səma qayığı» deyirlər.

«Pələng caynaqları»ndan dağ meşələrində və cır cəngəlliklərdə hasarla dövrələnmiş düşərgə salmaq üçün istifadə edirlər. Uzunluğu iyirmi futdan çox olan cəmi on iki min dəmir zəncirdən istifadə et. Həmçinin tutumu dörd dyüm və uzunluğu qırx futdan çox olan altı yüz halqalı yoğun kəndirlərdən; tutumu iki dyüm, uzunluğu qırx futdan çox olan iki yüz halqalı orta ölçülü kəndirdən; həmçinin uzunluğu iyirmi fut və ondan çox olan cəmi iyirmi min toxunma halqalı kəndirdən istifadə et.

Cəng arabalarının «Səma yağışı» adlandırılan taxta çardaqları dişli aralıqlarla bir-birinə otuzdurulur. Hər cəng arabası üçün nəzərdə tutulan bu taxta çardaqların hər birinin eni dörd fut, uzunluğu dörd futdan çoxdur. Onları kiçik dəmir payacıqlarla quraşdırırlar.

Ağacları kəsmək üçün çəkisi səkkiz katti olan «səma baltaları» var. Onun dəstəyinin uzunluğu üç futdan çoxdur. Cəmi üç yüz ədəd. Həmçinin eni altı dyüm, dəstəyinin uzunluğu beş futdan çox olan tiyəli külünglər var, cəmi üç yüz ədəd.

Uzunluğu beş futdan çox olan mis qoçbaşı, üç yüz ədəd. Uzunluğu yeddi futdan çox olan kvadrat ucluqlu, dəmir dəstəkli «qartal caynaqları», üç yüz ədəd.

Uzunluğu yeddi futdan çox olan kvadrat bünövrəli və dəstəkli şanalar,– üç yüz ədəd.

Uzunluğu yeddi futdan çox olan, kvadrat bünövrəli və dəstəkli ikili dişə malik dəmir çəngəllər, üç yüz ədəd.

Uzunluğu altı futdan çox olan, otları və kolluqları kəsmək üçün böyük oraqlar,– üç yüz ədəd.

Çəkisi səkkiz katti, dəstəyinin uzunluğu altı futdan çox olan avar şəkilli böyük tiyələr, üç yüz ədəd. Uzunluğu üç futdan çox olan, zirvədə bərkidilən halqalı dəmir pazlar,– üç yüz ədəd.

Çəkisi beş katti, dəstəyinin uzunluğu iki futdan çox olan, pazları çalmaq üçün böyük çəkiclər,– yüz iyirmi ədəd.

Yaraqlı-sursatlı əsgərlər, on min nəfər. Güclü arbaletçilər,– altı min nəfər. Alebardalı və qalxanlı əsgərlər,– iki min nəfər. Qalxanlı nizəlilər,– iki min nəfər.

Hücum silahlarını təmir etmək və onları itiləmək üçün ustalar, – üç min nəfər.

Ordunun toplanması zamanı hər bir kateqoriya üçün lazım olan vasitələrin ümumi miqdarı belədir.

U-van dedi:

- Mən sizin məsləhətlərinizi qəbul edirəm.

32. CƏBHƏ BOYU ÜÇ CÜR DÜZÜLMƏ

U-van Tay-qundan soruşdu:

- Ordudan istifadə zamanı qoşunların cəbhə boyu düzülməsinin üç növü mövcuddur: «səma», «yer» və «insan». Onlar necədir?

Tay-qun cavab verdi:

- Ayla və günəşlə, ulduzlarla, planetlərlə və Böyük Ayı bürcü ilə soldan, sağdan, qabaqdan və arxadan uyğunlaşma olduqda bunu, cəbhə boyu «səma düzülüşü» adlandırırlar.

Yüksəkliklər, çaylar və kiçik çaylar qabaqda, arxada, solda və sağda uyğunluq olduqda bunu cəbhə boyu «yer düzülüşü» adlandırırlar.

Cəng arabalarından və piyada qoşunlarından, həm də mülki və hərbi qüvvələrdən istifadə olunduqda, bunu cəbhə boyu «insan düzülüşü» adlandırırlar.

- Gözəldir, - dedi U-van.

33. TƏXİRƏSALINMAZ DÖYÜŞ

U-van Tay-qundan soruşdu:

- Əgər düşmən hücum, geri çəkilmə və təchizat yollarını bağlayaraq bizi mühasirəyə alarsa, biz nə etməliyik?

Tay-qun dedi:

- Bu az rast gəlinən ən yorucu qüvvədir. Əgər ildırım kimi olsan, qələbə çalacaqsan, əgər ləng tərpənsən, məğlub olacaqsan. Bu halda əgər düşməni qorxutmaq və çaş-baş salmaq üçün qoşunlarını hər dörd istiqamət boyu hücum qaydasında düzsən, döyüş cəng arabalarından və seçmə süvari qoşunundan istifadə etsən və vaxt itirmədən ona hücuma keçsən, onun sıralarını yarıb keçə bilərsən.

U-van soruşdu:

- Biz mühasirəni yardıqdan sonra bundan yararlanmaq və qələbə çalmaq üçün nə etməliyik?

Tay-qun dedi:

- Soldakı ordu vaxt itirmədən sağa, sağdakı ordu isə sola zərbələr endirməlidir. Lakin hər hansı bir istiqamətdə uzanan döyüşlərdə pusquya düşməməyə çalış. Ortadakı ordu gah irəli, gah geri hərəkət etməlidir. Əgər hətta düşmən sayca səndən üstün olsa da, onun sərkərdələrini əsir götürmək olar.

34. HƏLLEDİCİ GERİÇƏKİLMƏ

U-van Tay-qundan soruşdu:

-Tutaq ki, biz qoşunu udel knyazlarının mülkiyyətinin dərinliklərinə apardıq. Düşmən hər tərəfdən üstümüzə yeriyərək bizi mühasirəyə alır, geriyə çəkilmək yolumuzu kəsir və təchizat

xətlərini bağlamaq təhlükəsi yaradır. Dərələr və çalalar da onların əlindədir. Biz geri çəkilməliyik, bunu necə edə bilərik?

Tay-qun dedi:

- İnamlı geri çəkilməyə gəlincə, silah sənin sərvətin, qəhrəmancasına müqavimət göstərməyinsə, ən başlıca şərtdir. Ərazinin harasının düşmən əlində olmadığını və boşluğunu öyrənib bilməklə inamla geri çəkilmək olar.

Öz komandirlərinə və rəislərinə bayraqları «sirli qaranlıqla» aparmaq və silahları hazırlamaq əmri ver. Tələb et ki, əsgərlər ağızlarına ağac tıxac qoysunlar. Hərəkətə gecə başla. Təhlükəni sevən igid, güclü və çevik əsgərlər üfüqi sədd yaratmalı və ordu üçün çıxış açmalıdırlar. Seçmə əsgərlər və güclü arbaletçilər geridə qalmaqla pusqu qurmalıdırlar. Zəif əsgərlər, cəng arabaları və süvarilər orta mövqeyi tutmalıdır. Düzülüş başa çatdığı zaman düşməni qorxuya salmamaq və narahat etməmək üçün diqqətli olmalı və yavaş-yavaş irəliləməli. Qoy, «fu syuy» hücum cəng arabaları cəbhəni və arxanı, nizə və arbaletli cəng arabaları isə sol və sağ cinahları qorusunlar.

Əgər düşmən həyəcanlıdırsa, qoy igid və təhlükəni sevən əsgərlər cəsarətlə hücuma keçib irəli atılsınlar. Seçmə əsgərlər və arbaletçilər pusquda gizlənməlidirlər. Əgər düşməni səni izləməyə məcbur etsən, onda pusquda gizlənən əsgərlər tezcə düşməni arxadan vurmalıdırlar. Atəş və təbillər çox olsa da, sanki yerin altından və səmadan hücum başlanmalıdır. Əgər üç ordu igidliklə vuruşsa, heç kəs bizə qarşı duruş gətirə bilməz!

U-van soruşdu:

- Bizim qarşımızda keçmək istədiyimiz böyük göl və ya geniş çala, yaxud da maneə var. Lakin bizim nə qayığımız, nə də avarımız var. Düşmənin istehkamı və torpaq sədləri var ki, bu da bizim irəliləmək imkanlarımızı məhudlaşdırır və geri çəkilmək yolumuzun qabağını kəsir. Keşikçilər sayıqdırlar, keçidlər isə etibarlı qorunur. Düşmənin cəng arabaları və süvari qoşunu bizi qabaqdan sıxışdırır, cəsur əsgərlər arxadan hücuma keçir. Biz nə etməliyik?

Tay-qun dedi:

- Böyük çaylar, geniş dərələr və su sədləri, adətən, düşmən tərəfindən qorunmur. Əgər o, buna qadir olsa, onun qüvvəsi az qalar. Belə hallarda bucurqadlı «uçan çaylardan, həmçinin «səma qayıqları»ndan istifadə etmək lazımdır ki, bu da ordunun maneəsiz keçməsinə imkan verir. Bizim güclü, igid və seçmə əsgərlərimiz göstərdiyimiz yerə yola düşməli, düşmənin üzərinə atılmalı və onu məhv edərək həyat uğrunda deyil, ölüm uğrunda vuruşmalıdır.

Əvvəlcə ərzaqla dolu arabaları yandır və adamlara açıq-aşkar de ki, kim cəsarətlə vuruşsa, yaşayacaq, qorxaqlar isə həlak olacaqlar. Elə ki, onlar ruhlandılar (və körpünü keçdilər) arxada qalanlara uzaqdan görünə bilən böyük yanğın törətməyi əmr elə. (Qabaqda gedən qoşunlar) ərazinin əlverişli mövqeyindən: otdan,

ağaclardan, təpələrdən və dərələrdən istifadə etməyi bacarmalıdırlar. Düşmənin cəng arabaları və süvari qoşunları onları uzun müddət təqib etməyə cəsarət etməzlər. Birinci odu görənlər qabağa yalnız alov aydın görünən yerədək irəliləyəcək və kareyə (düşmənin hücumunu dörd tərəfdən dəf etmək üçün piyada qoşunun dördbucaq düzülməsi) düzülməklə dayanacaq.

Beləliklə, üç ordu döyüşdə hiddətli, qəddar və coşqun olacaq ki, heç kəs onun qarşısında dayanmağa cəsarət etməyəcək.

U-van dedi: - Gözəldir.

35. ORDU ÜÇÜN PLANLAŞDIRMA

U-van Tay-qundan soruşdu:

-Tutaq ki, biz ordunu udel knyazlarının mülkiyyətinin dərinlərinə yeritdik və orada dərin çaylar və ya su ilə dolu dərələr, çalalar, yaxud dayaz dərə ilə qarşılaşdıq. Bizim üç ordu Səma güclü yağışlar göndərdiyi üçün və coşan suların böyük axını səbəbindən onları tam keçə bilməmişdir. Arxadakıların qabaqdakıların- əlaqəsi yoxdur. Bizim nə ponton körpü kimi qurğularımız, nə suyun qabağını kəsmək üçün materialımız var. Mən üç ordunun keçməsini başa çatdırmaq və bataqlıqda batmaqdan çıxarmaq istəyirəm. Mən nə etməliyəm?

Tay-qun dedi:

- Əgər sərkərdə əvvəlcədən ordunu bütün lazım olanlarla təmin etməzsə, təchizat hazırlanmayacaq. Əgər onun əmrləri dəqiq deyilsə və ona inam yoxdursa, komandirlər və əsgərlər heç nə öyrənə bilməzlər. Belə bir şəraitdə onlar hökmdar ordusunu təşkil edə bilməzlər.

Bütövlükdə, ordu böyük kampaniyaya cəlb olunduqda hər bir kəsə silahdan istifadə etməyin öyrədilməsi (lazımdır). Qala divarlarına hücum etmək və ya şəhəri mühasirəyə almaq üçün hücum cəng arabaları, hündür arabalar və zərbə topları mövcuddur ki, onda şəhərin divarları arxasında nə baş verdiyini, «səma nərdivanları»nın və «uçan güllələr»in olub-olmadığını öyrənmək mümkündür. Əgər üç ordunun, yəni böyük «fu syuy» cəng arabalarının hərəkəti dayanarsa, qabaqdan və arxadan müdafiə olunmaq, yolları bağlamaq və keçidlərə sədd çəkmək üçün təcrübəli əsgərlər və arbaletçilər var ki, hər iki cəbhəni də onlar qoruyurlar. Əgər düşərgəni bölsən və ya istehkamı qabağa çəksən, bunun üçün «səma torları», «hərbi damcı», sapand və «kirpilər» mövcuddur.

Gündüz səma nərdivanına dırmaş və uzaqlara bax, beşrəngli bayraqlarını tax. Gecə on min məşəl yandır, gur səsli təbilləri döy, hərbi təbilləri və zınqırovları səsləndir, cır səsli fitlərlə fit çal.

Dərələrdən və çalalardan keçmək üçün bucurqadlı və çıxıntılı «uçan körpülər» mövcuddur. Böyük su hövzələrini keçmək üçün «səma xuanı» və «uçan çaylar» (adlı qayıqlar) var. Dalğalara və suyun axınına qarşı getmək üçün «aparıcı okean» (salı) və (iplə

dartılan) «çay yarığı» var. Üç ordunun istifadə etdiyi qurğuların hamısı hazır olduqda sərkərdənin heç bir narahatlığı ola bilməz.

36. SƏRHƏDƏ YAXINLAŞMA

U-van Tay-qundan soruşdu:

- Düşmən və bizim ordu bir-birindən aralı halda sərhədin yaxınlığındadır. Onlar bizə yaxınlaşa bilər, biz də irəliləyə bilərik. Hər iki tərəf ləng hərəkət edir, onlardan heç biri birinci zərbəni endirməyə cürət etmir. Biz onlara tərəf hərəkət etmək və hücuma keçmək istəyirik, lakin onlar da qabağa gedə bilərlər. Biz nə etməliyik?

Tay-qun dedi:

- Ordunu üç hissəyə böl. Qoy bizim qabaqkı qoşun dərələri dərinləşdirsin və təpələrin hündürlüyünü artırsın, lakin əsgərlərdən heç kim qabağa getməməlidir. Bayraqları qaldır, dəridən hazırlanan döyüş təbillərini guruldat və hazırlığı başa çatdır. Arxadakı hissələrə düşmənin bizim planlardan xəbərdar olmasına imkan vermədən döyüş sursatı və ərzaq ehtiyatı toplamağı əmr et. Sonra bizim seçmə əsgərləri gizlincə qabağa göndər ki, qəfil mərkəzə hücuma keçib orada onun gözləmədiyi yerə zərbə endirəsən və o, hazırlaşmağa macal tapmasın. Düşmən bizim əsl niyyətimizdən xəbərdar olmadığı üçün dayanacaq və hücum edə bilməyəcək.

U-van soruşdu:

- Tutaq ki, düşmən əsl vəziyyətdən xəbərdardır və planlarımızdan duyuq düşübdür. Əgər biz irəliləsək, o, bizim barəmizdə hər şeyi öyrənə bilər. Onun seçmə əsgərləri hündür otlar arasında gizlənmişlər. Onlar bizi darısqal yollarda sıxışdırır və ona əlverişli olan yerdə hücuma keçir. Biz nə etməliyik?

Tay-qun dedi:

- Hər gün qabağa avanqard göndər və düşməni çaşdırmaq üçün süni surətdə toqquşma törət.

Qoy bizim qoca və zəif əsgərlərimiz toz qaldırmaq üçün kollar dartsınlar, təbilləri döyəcləsinlər və qışqırsınlar, həmçinin ora-bura, bəziləri sağa, bəziləri sola hərəkət etsinlər, lakin düşmənə yüz metrdən çox yaxınlaşmasınlar. Onların sərkərdəsi yorulacaq, qoşun isə qorxuya düşəcək. Sonra bizim irəliləyən hissələr (birdən) dayanmayacaq, bəziləri (irəliləməkdə davam edərək) onun içərilərinə, bəziləri cinahlardan zərbələr endirəcəklər. Əgər bizim üç ordu bir dəfəyə coşqunluqla döyüşə atılsalar, düşmənin əzilməsi qaçılmazdır.

37. HƏRƏKƏTLƏR VƏ DAYANMALAR

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz qoşunumuzu udel knyazlarının torpaqlarının içərilərinə yeritdik və düşmənlə toqquşduq.

Hər iki ordu bərabər miqdarda əsgər və qüvvə ilə qarşı-qarşıya dayanıb və heç kəs birinci hücuma keçməyə cəsarət etmir. Mən elə etmək istəyirəm ki, düşmənin sərkərdəsi qorxsun, komandirlər və əsgərlər isə pərt olsun; onların döyüş nizamı pozulsun; onların ehtiyat qüvvələri qaçmaq istəyir; qabağa yeridilən hissələr bir-birilərinin üzlərinə tamaşa etsinlər.

Mən təbilləri gumbuldatmaq, hay-küy salmaq və düşmənin qaçması üçün üstünlüklərdən istifadə etmək istəyirəm. Bunu necə etmək olar?

Tay-qun:

- Bu halda öz qüvvələrini düşməndən on li[19] məsafəyə çək, qoy onlar hər iki cinahda gizlənsinlər. Çəng arabalarını və süvari qoşunu yüz li[20] məsafə qabağa göndər (və qoy onlar hiss olunmadan qayıtsınlar) ki, düşmənin qabaq və arxa tərəflərində mövqe tutsunlar. Bayraqların, təbillərin və qonqların sayını artır. Döyüşə girərkən daha çox səs-küy yaratmaq üçün təbilləri guruldat və qoy əsgərlərin hamısı birdən ayağa qalxsınlar. Düşmənin sərkərdəsi mütləq qorxuya düşəcək, ordusu isə tələş keçirəcək. Böyük və kiçik birləşmələr bir-birinə köməyə gəlməyəcək; yuxarılar və aşağılar bir-birini gözləməyəcək; düşmənin əzilməsi qaçılmaz olacaq.

U-van soruşdu:

- Tutaq ki, düşmənin qüvvələrinin strateji düzülüşü üzündən biz qoşunu yanlarda gizlədə bilmirik və bundan başqa cəng arabalarının və süvari qoşunun onun cərgələrindən keçmək, qabaqda və arxada mövqe tutmaq imkanı yoxdur. Düşmən mənim fikirlərimi bilir və həmişə hazır vəziyyətdədir. Bizim komandirlər və əsgərlər tərəddüd içərisindədir və sərkərdələr tələş keçirirlər. Əgər biz döyüşə başlasaq və qələbə qazanmasaq nə olacaq?

Tay-qun dedi:

- Həqiqətən ciddi sualdır! Bu halda döyüşə girişməzdən beş gün əvvəl uzağa patrullar göndər və düşmənin əhval-ruhiyyəsini izlə, pusqu qurmaq və onu gözləmək üçün onun necə irəliləməsini öyrən. Biz düşmənlə həyat uğrunda deyil, ölüm uğrunda vuruşmalıyıq. Biz düşməni qarşılamaq üçün tələsməliyik. Döyüşə başladıqdan sonra birdən fasiləsiz olaraq qonqları guruldatmaqla geri çəkilmək barədə əmr ver. Üç li geri (pusqunun arxasına) çəkil, sonra cəbhə boyu düzül və hücuma keç. Eyni zamanda, pusquda gizlənən əsgərləri də vurarlar. Qoşunun bir hissəsi cinahdan daxil olacaq, o biri qabaqdan və arxadan hücuma keçəcək. Əgər üç ordu qorxmadan vuruşmağa başlasa, düşmən qaçacaq.

Gözəldir, dedi U-van.

38. QONQLAR VƏ TƏBİLLƏR

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz ordunu udel knyazlarının mülkiyyətlərinin dərinliklərinə yeritdik və burada düşmənlə toqquşduq. Hava ya həddən çox isti, yaxud artıq soyuqdur və on gecə və gündüz fasiləsiz yağış yağır. Dərələri və təpələri su yuyub; çuxurlar və hasarlar qorunmur; bizim patrullar qayğıdan uzaq olmuşlar; komandirlər və əsgərlər sayıqlığı itirmişlər. Tutaq ki, düşmən gecə yaxınlaşır. Bizim üç ordu hazırlıqsızdır, yuxarılar və aşağılar vəlvələdə və pozulmuş haldadır. Biz nə etməliyik?

Tay-qun dedi:

- Üç orduya gəlincə sayıqlıq möhkəmliyə qarışır, başı pozuqluq isə məğlubiyyətə gətirib çıxarır. Təpələrə keşik çəkən keşikçilərin hər birinə hay verməyi əmr et. Qoy, kimdə işarə bayraqcıqları varsa, həm düşərgədəki kimi, həm də onun hüdudlarından kənardakı kimi bir- birlərinə baxsınlar, bir-birlərinə parolla (şərti işarə ilə) cavab versinlər. Lakin onlara səs-küy qaldırmağa imkan vermə. Bütün səylər zahiri qaydada müəyyən edilməlidir.

Qoy üç min adam dəstə təşkil etsin. Onlara hər şeyi başa sal və hər birini öz postunda sayıq olacağına and içməyə məcbur et. Əgər düşmən yaxınlaşırsa, bizim sayıqlığımızı və hazırlığımızı görüb geri dönəcək. (Nəticədə) onun qüvvələri yorulub əldən düşəcək, ruhları isə sındırılacaq. (Bu anda) bizim seçmə hissələr düşməni təqib edəcək və hücuma keçəcək.

U-van soruşdu:

- Düşmən biləndə ki, biz onu təqib edirik, özünün ən yaxşı hissələrini pusquda qoyaraq elə bir görkəm yaradacaq ki, geri çəkilməkdə davam edir. Biz pusquya yetişdikdə onun hissələri geri dönəcək, bir hissə bizə qabaqdan, o biri arxadan hücum edəcək, üçüncüsü istehkamlara zərbələr endirəcək. Bizim üç ordu qorxuya düşüb, çaşqınlıqla sıranı pozur və tutulan mövqeləri əldən verir. Biz nə etməliyik?

Tay-qun dedi:

- Qoşunu üç hissəyə böl, sonra onu təqib et, lakin pusqu xəttindən arxaya keçmə. Elə ki, üç birləşmə gəlib çatdı, qoy biri qabaqdan və digəri arxadan hücuma keçsin, o birilərsə cinahlardan zərbələr endirsin. Komandalar aydın olmalıdır, hansı əmrləri verməyi dəqiqliklə seç. Qabağa irəliləməklə qeyzlə hücum et və düşmən mütləq əziləcək.

39. KƏSİLMİŞ YOLLAR

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz ordunu udel knyazlarının mülklərinin dərinliklərinə yeritdik, düşmənlə toqquşduq, müdafiə mövqelərini ələ keçirdik. Düşmən bizi təchizat xəttindən ayırdı, irəliyə və geriyə

yolları kəsən mövqeləri ələ keçirdi. Əgər mən döyüşə başlamaq istəsəm, lakin biz qələbə çalmağa qadir olmasaq, əgər mövqeni əldə saxlamaq istəsək, lakin həmlələrə tab gətirə bilməsək, onda nə etməliyik?

Tay-qun dedi:

- Düşmən torpaqlarının içərisinə irəliləyərkən öncə ərazinin həm strateji xarakterini, həm də faydalılığını öyrənmək, qüvvələri həmin faydaları axtarıb tapmalı və orada səfərbər olmalıdır. Dağlardan, meşələrdən, dərələrdən, çaylardan, xırda çaylardan, kollardan və ağaclardan istifadə etməklə etibarlı müdafiə yarat. Keçidləri və nöqtələri diqqətlə qoru, bundan başqa ələ keçirilmiş şəhərlərin, yaşayış məskənlərinin, evlərin və qəbirlər üzərindəki təpələrin ərazilərindəki faydalı yerlərin olduğuna əmin ol. Bu zaman ordunun mövqeləri yaxşıca möhkəmlənəcək. Belə olduqda düşmən nə qabağa və arxaya aparan yolları tutmağı, nə təchizat xətlərini kəsməyi, nə də mövqeləri ələ keçirməyi bacaracaq.

U-van dedi:

- Tutaq ki, üç ordu böyük meşəni və enli bataqlığı keçdi və düzənlik, açıq ərazidədir, bizim kəşfiyyatçıların həlak olması və ya səhvi üzündən düşmən qəflətən üzərimizə hücuma keçdi. Əgər biz hücuma keçsək, qalib gələ bilməyəcək, müdafiə olunacağıq və bu da davamlı olmayacaq. Düşmən cinahlardan bizi keçərək birinciləri və sonuncuları daldalayan mövqeləri ələ keçirsə, üç ordu qorxuya düşsə, nə etmək lazımdır?

Tay-qun dedi:

- Orduya komandanlıq etmək, ilk növbədə, olduqca uzaq, elə kəşfiyyat göndərməyi tələb edir ki, o düşməndən iki yüz li məsafədə onun yerini öyrənməyə imkan versin. Əgər yerin strateji xarakteri namünasibdirsə, onda mütəhərrik torpaq sədd yaratmaq üçün döyüş cəng arabalarını işə sal və irəliyə hərəkət et. Həmçinin iki keşikçi hissəni arxada– uzağı yüz li, yaxını əlli li məsafədə saxla. Bu zaman qəfil təşviş və gözlənilməz vəziyyət yarandığı hallarda həm arxadakı, həm də qabaqdakı birləşmələr bu barədə xəbər tutacaq və itkiyə məruz qalmadan vahid döyüş cərgəsi yaratmağa müvəffəq olacaqdır.

-Gözəldir,- dedi U-van.

40. DÜŞMƏN MÜLKLƏRİNİN İŞĞALI

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz döyüşdə qələbə çalıb düşmən ərazisinin dərinliklərinə soxulduq və onun mülkiyyətini ələ keçirdik. Lakin böyük şəhərləri tutmaq olmur, düşmənin ikinci ordusu isə bizə müqavimət göstərərək dərələri və çalaları əlində saxlayır. Biz şəhərlərə hücuma keçib onları tutmaq istəyirik. Lakin mən ikinci ordunun qəflətən bizə hucum edəcəyindən ehtiyat edirəm. Əgər,

beləliklə, onların daxili və xarici qüvvələri birləşsə, bizə xaricdən və daxildən müqavimət göstərəcəklər. Bizim üç ordunun başı pozulacaq, yuxarılar və aşağılar təşvişə düşəcəklər. Nə etmək lazımdır?

Tay-qun dedi:

- Şəhərə hücum edib onu ələ keçirərkən süvari qoşunları və cəng arabaları sizdən aralı olmalıdır. Düşərgədə dayanan birləşmələr və müdafiə qüvvələri düşmənə daxildən və xaricdən müqavimət göstərmək üçün daim ehtiyatlı olmalıdırlar. Şəhərlərin sakinləri ərzaqdan məhrum edildikdə, eyni zamanda daxildən bir şey çatdırmaq mümkün olmadıqda şəhər divarlarının arxasında olanlar qorxuya düşəcəklər, onların sərkərdəsi isə mütləq təslim olacaq.

U-van soruşdu:

- Tutaq ki, təchizat kəsildi, düşmən kənardan heç nə gətirə bilmir, bu və başqaları şərtləşib and içirlər, hamısı bütün qüvvələrini ölüm-dirim savaşına ataraq gecə hücuma keçirlər. Süvari qoşunlarının, cəng arabalarının və piyadaların bir hissəsi bizə içəridən, digəri kənardan hücuma keçir. Komandirlər və əsgərlər təlaş keçirirlər, üç ordu məğlub olub. Nə etmək lazımdır?

Tay-qun dedi:

- Bu halda öz qoşunlarını üç hissəyə böl. Ərazinin şəraitini diqqətlə qiymətləndir və sonra onları (strateji cəhətdən) yerləşdir. Ən əsası ikinci ordunun, həmçinin baş və köməkçi istehkamların yerni incəliklərinə qədər bilmək lazımdır. Düşməndə cəbhəni yarıb keçmək ümidini oyatmaq üçün onlara keçid saxla. Düşmənlər qorxuya düşəcəklər, dağlara və meşələrə getməsələr, onda şəhərə qayıdacaqlar və ya ikinci ordu ilə birləşməyə tələsəcəklər. Nə qədər ki, piyada qoşunları uzaqdadır, onların getməsinə aman vermədən birbaşa hücuma keç. Beləliklə, şəhərdə qalanlar düşünəcəklər ki, kim birinci irəliləyibsə, geri çəkilmək üçün etibarlı yol vardır, onların yaxşı təşkil olunmuş hissələri və güclü komandirləri yalnız zəifləri və qocaları şəhərdə saxlamaqla onların ardınca gedəcəklər. Bu halda bizim cəng arabaları və süvari qoşunları düşmənin mülkiyyətinin içərisinə daxil olaraq uzaqdan irəlilədikdə, düşmən ordusundan heç kəs onlara yaxınlaşmağa cəsarət etməyəcəkdir. Onların döyüşə başlamasına imkan vermə; qoy təchizatı və yolları kəssinlər və bu zaman qalib gələcəksən.

Adamların topladıqları heç nəyi yandırma; onlarıvn saraylarını və evlərini uçurma; ağacları kəsmə, məbədləri və məzarlıqları məhv etmə. Təslim olanları öldürmə, əsirləri məhv etmə. Onlara öz humanistliyini və ədalətini göstər; öz xeyirxahlığını onların arasında yay. Qoy adamlar desinlər: «Tək özüm günahkaram»[21]. Bu zaman bütün dünya sənə tabe olacaqdır.

- Gözəldir, - dedi U-van.

41. ODLU MÜHARİBƏ

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz udel knyazlarının mülkiyyətlərinin içərilərinə daxil olduq və bizi hər tərəfdən əhatə edən hündür otların və kol-kosların əhatəsinə düşdük. Üç ordu bir neçə yüz il məsafə keçdi; adamlar və atlar yoruldu və biz düşərgə salıb dayandıq. Düşmən qeyri-adi quru havadan və küləkdən istiifadə edərək küləyin səmti ilə bizə qarşı alov buraxdı. Cəng arabaları, süvari qoşunları və seçmə hissələr bizim arxa cəbhədə pusquda gizləndi. Üç ordu təlaş keçirir və çaşqınlıqla qaçır. Nə etmək olar?

Tay-qun dedi:

- Belə hallarda sağa və sola baxmaq üçün «səma nərdivanlarından» və «uçan qüllələrdən» istifadə edirlər. Qabaqdakı və arxadakı vəziyyəti diqqətlə öyrən. Nə vaxt məşəl gördün özünün qabaqkı cərgələrindən alov burax və onu qabağa qov. Eyni zamanda, arxada alov burax və onu özündən uzaqlaşdır. Əgər düşmən gözlənilmədən hücum etsə, ordunu köçür və yandırılmış torpaqda mövqe tut və hücumu gözlə. Beləliklə, arxada məşəl görsən, irəli getmək lazımdır. Əgər yanmış torpaq tutulubsa, bizim arbaletçilər və təcrübəli əsgərlər sağ və sol cinahları qoruyurlarsa, biz də qabağa və arxaya alov buraxa bilərik. Belə olduqda bizə xətər yetirə bilməz.

U-van soruşdu:

- Tutaq ki, düşmən qabaqdan və arxadan, həmçinin sağdan və soldan alov buraxdı. Tüstü ordunu bürüdü, onun başlıca qüvvələri isə yandırılmış torpaq tərəfdən peyda olur. Biz nə etməliyik?

Tay-qun dedi:

- Bu halda (yanmış torpaq sahələrinə sahib olunması nəzərdə tutulur) sədd yaratmaq üçün hər dörd tərəfə hücum cəng arabalarını yerləşdir, arbaletçiləri isə cinahlarda cəmləşdir. Bu, qələbə gətirməyəcək, amma məğlubiyyətlə də bitməyəcək.

42. BOŞ İSTEHKAMLAR

U-van Tay-qundan soruşdu:

- Mən düşmənin istehkamlarının boş və ya tutulu olduğunu, onun hücuma keçdiyini və ya geri çəkildiyini necə öyrənə bilərəm?

Tay-qun dedi:

- Sərkərdə yuxarıda Səma Daosunu, aşağıda Yerin üstünlüklərini və ortada insanların işini bilməlidir.

Yüksəkliklərə qalxmaq və düşmən düşərgəsindəki dəyişikliklərə və yerdəyişmələrə baxmaq lazımdır. Onun istehkamlarına nəzarət et və onda onların boş və ya tutulu olduğunu bilərsən. Onun komandirlərinə və əsgərlərinə nəzarət et və onda onların gəldiyini və ya getdiyini bilərsən.

U-van soruşdu:

- Bunu necə öyrənə bilərəm?

Tay-qun dedi:

-Onun təbillərinin susub-susmamasını, zınqırovlarının çalınıb-çalınmamasını dinlə. Onun istehkamları üzərində hürküdülmüş quşların uçub-uçmamasına nəzər sal. Əgər havaya buxarlanma qalxmırsa, deməli, düşmən səni müqəvvalarla aldadaraq səfeh yerinə qoyub.

Əgər düşmən birdən-birə getdisə, lakin uzağa yox, sonra döyüş qaydasında durmağa macal tapmadan qayıtdısa, onda o öz komandirlərindən və əsgərlərindən olduqca tələskənliklə istifadə edir. Nə vaxt o tələskənliklə hərəkət edirsə, onun qabaq və arxa cərgələri qaydalara düzgün riayət edə bilməzlər. Nə vaxt onlar qaydalara düzgün riayət edə bilmirlərsə, döyüş düzülüşündə xaos yaranır. Belə olan hallarda qoşunu tez irəli ver və hücuma keç. Əgər onların kiçik dəstəsi böyük zərbələr endirirsə, düşmənin əzilməsi qaçılmazdır.

V
BƏBİRİN MƏXFİ TƏLİMİ

43. MEŞƏDƏ MÜHARİBƏ

U-van Tay- qundan soruşdu:

- Tutaq ki, biz qoşunu udel knyazlarının mülkiyyətlərinin içərisinə yeritdik və düşmənin bizlə üzbəüz oyandığı meşədə bulunduq. Əgər müdafiə mövqeyi tutsaq, mən istərdim ki, o etibarlı olsun, əgər döyüşsək, qələbə çalmaq istəyirəm. Biz neçə hərəkət etməliyik?

Tay-qun dedi:

- Üç ordunu döyüş qaydasında qoy. Qoşunun tutacağı mövqeləri yaxşılaşdır, arbaletçiləri və oxatanları qabağa qoy, alebardalı və qalxanlı əsgərləri isə arxaya yerləşdir. Qüvvənin döyüş üçün cəbhə boyu yerləşməsini yüngülləşdirməkdən ötrü ağacları kəs, otu biç və keçidi genişləndir. Bayraqları yüksəklərdə dalğalandır və üç ordunu ruhlandır və düşmənin əsl vəziyyətdən xəbərdar olmasına imkan vermə. Bu, «meşədə müharibə» adlanır.

«Meşədə müharibə»nin qaydası nizəçilərdən və alebardaçılardan «beşlik» yaratmaqdan ibarətdir. Əgər meşə sıx deyilsə, onda kömək üçün süvari qoşunlarından istifadə etmək olar. Döyüş cəng arabaları qabaqda olacaqdır. Bu zaman onlar döyüşə başlayacaqlar: əlverişsiz şəraitdə vuruşu dayandıracaqlar. Meşənin çoxlu çala və dərə olan yerlərində (qüvvələrin) hücum qaydasında yerləşdirilməsi lazımdır ki, həm qabaqda, həm də arxada vuruşmağa hazır olasan. Əgər üç ordu gözlənilmədən hücuma keçirsə, hətta düşmən sayca bizdən üstün olsa belə, onun qüvvəsini dağıtmaq mümkündür. Əsgərlərin hər biri öz bölmələri ilə birgə növbə ilə vuruşmalı və dincəlməlidirlər. Bu, «meşədə müharibə»nin əsas xüsusiyyətləridir.

44. PARTLADICI MÜHARİBƏ

U-van Tay-qun-dan soruşdu:

- Tutaq ki, düşmənin (qabaqcıl dəstələri) bizim torpaqların içərisinə soxulmuş, torpaqlarımızı ələ keçirmiş, atlarımızı və mal-qaramızı apararaq cəbhə boyu hücumu genişləndirmişlər. Sonra düşmənin üç ordusunun əsas qüvvələri yaxınlaşır və şəhər divarlarının hüdudlarından kənarda bizi sıxışdırırlar. Bizim komandirlər və əsgərlər təşviş içərisindədirlər; düşmən əlinə keçən adamlarımızın əli-ayağı zəncirlənib. Əgər müdafiə olunsaq, istəyirəm ki, o etibarlı olsun; əgər vuruşası olsaq, istəyirəm qələbə çalaq. Biz nə etməliyik?

Tay-qun dedi:

- Belə bir vəziyyətdə düşmən «partladıcı qüvvə» hesab olunur. Onun atları və buynuzlu mal-qarası yemlənməyəcək, onun əsgərləri və komandirləri «partladıcı hücum» edib irəliləsə, təchizatdan məhrum olacaq. Bizim şəhərlərə və orduya ən yaxşı əsgərləri seçməyi və arxadan zərbə endirməyi əmr et. Təqvimə diqqətlə nəzər sal ki, biz aysız gecədə birləşək. Üç ordu coşqunluqla vuruşacaq və bu zaman düşmən çoxsaylı olsa belə, onun sərkərdəsi əsir düşəcək.

U-van soruşdu:

- Tutaq ki, düşmən öz qüvvəsini üç və ya dörd dəstəyə böldü, onda onun biri bizimlə vuruşacaq və bizim torpağı tutacaq, başqaları bizim atları və mal-qaranı aparmaqda davam edəcəkdir. Onların əsas qüvvələri hələ yaxınlaşmamışdır, lakin onların birinci seçmə əsgərləri bizi şəhərin divarlarına sıxmışdır. Bu zaman bizim üç ordu güclü təlaş keçirəcək. Biz nə etməliyik?

Tay-qun dedi:

- Düşməni diqqətlə izlə. Lazımi hazırlığını gör və onun əsas qüvvələrinin hamısı gələnədək gözlə. Divarlardan dörd li aralıda istehkam qur, təbilləri və qonqları, bayraqları düzgün qaydada yerləşdir. Bizim başqa hissələrimiz isə, qoy, pusqu qursunlar. Çoxlu sayda arbaletçiyə istehkamın yüksəkliyində yerləşməyi əmr et. Hər yüz metrdən bir «partladıcı darvazalar» qur və onların arxasına sapandçılar düz. Bizim cəng arabaları və süvari qoşunumuz çöldə olmalıdır ki, bu zaman cəsur və qorxmaz əsgərlərimiz istehkamların arxasında gizlədilməlidirlər. Əgər düşmən yaxınlaşsa, onda qoy yüngül silahlanmış əsgərlər döyüşə başlasınlar, sonra isə guya geri çəkilmələrini nümayiş etdirsinlər. Qoy, şəhər divarlarının zirvələrində bayraqlar qaldırsınlar, döyüş təbillərini guruldatsınlar və şəhərin müdafiəsinə hazırlıq işlərini başa çatdırsınlar. Düşmən bizim divarları müdafiə edəcəyimizi düşünəcək və onun altından bizə hücuma keçəcək. Onda pusquda gizlədilmiş qüvvələri işə sal. Qoy biri onların alınlarından vursun, digərləri cinahlardan zərbələr endirsin. Bu zaman üç ordu ildırımsürətli hücuma keçməli cəbhəyə və arxaya zərbələr endirməlidirlər. Bu zaman hətta düşmənin cəsur əsgərləri macal tapmayacaqdır. Bu, «partladıcı müharibə» adlanır. Düşmənin sayca bizdən üstün olmasına baxmayaraq, o qaçmağa məcbur ediləcəkdir.

- Gözəldir, - dedi U-van.

45. GÜCLÜ DÜŞMƏN

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz ordunu udel knyazlarının torpaqlarının içərisinə yeritdik və bizə hücum edən düşmənlə toqquşduq. Düşmən çox, biz isə azıq. Düşmən güclüdür, biz isə zəif. Düşmən gecənin qaranlığında yaxınlaşır, biri soldan, o biri sağdan hücum edir. Üç ordu əsir. Əgər hücuma keçsək, qalib gəlmək istəyirik, əgər

müdafiəni seçsək, yenilməzlik göstərməliyik. Biz necə hərəkət etməliyik?

Tay-qun dedi:

- Bu halda düşmən barədə o, «lərzəyə salır», deyirlər. Ən yaxşısı qabağa yeriyib vuruşmaqdır, müdafiə olunmaq olmaz. Təcrübəli əsgərləri və arbaletçiləri seç, cəng arabaları və süvarilərlə birlikdə cinahlarda yerləşdir. Onlar qəflətən düşmənin öz hissələrinə zərbələr endirəcək, həmçinin ona arxadan tez hücuma keçəcək. Biri yanlara, o biriləri isə içərilərə zərbələr endirməlidirlər. Düşmənin qoşunu mütləq çaşdırılacaq, sərkərdələri isə təşvişə düşəcəklər.

U-van soruşdu:

- Tutaq ki, düşmən müəyyən məsafədə bizim birinciləri ayırır və sonuncuları sıxışdıraraq azğınlıqla hücuma keçir. O bizim seçmə hissələri əzmişdir və seçmə əsgərləri ayırmışdır. Bizim daxili və xarici qüvvələrimiz bir-biriləri ilə əlaqə saxlaya bilmirlər, komandirlər və əsgərlər döyüş əzmini, sərkərdələr və rəislərsə, özlərini müdafiə etmək istəyini itirmişdir. Biz nə etməliyik?

Tay-qun dedi:

- Sizin sualınızın mənası dərindir, mənim hökmdarım!

Siz öz komandalarınızı başa düşülən etməli və əmrlərinizə qarşı diqqətli olmalısınız. Siz cəsur, birinci dərəcəli, təhlükəni sevən əsgərləri qabağa göndərməlisiniz, qoy onların hər biri əlində məşəl aparsın, iki nəfər isə təbillərin yanında qalsın. Siz düşmənin yerini bilməli, daxili və xarici hissələrinə zərbə endirməlisiniz. Bizim gizli işarələrimiz faş olduqda məşəllərin söndürülməsini və təbillərin guruldadılmasını dayandırmağı əmr edin. Yan və orta cinahdakılar qoy, cınqırlarını çıxarmadan gözləsinlər, lakin gözləyərkən bir-birlərinin nəfəsini eşitsinlər. Bizim üç ordu qəflətən hücuma başladıqda, düşmən mütləq məğlub olacaq və məhv ediləcəkdir.

- Gözəldir, - dedi U-van.

46. DÖYÜŞKƏN DÜŞMƏN

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz ordunu udel knyazlarının torpaqlarının içərisinə yeritdik və burada qəflətən döyüşkən, bizdən sayca qat-qat üstün düşmənlə üz-üzə gəldik. Əgər onun döyüş cəng arabaları və qorxmaz süvari qoşunu bizə sağdan və soldan hücum edərsə, bizim üç ordu o qədər təlaş keçirər ki, onların qaçmasının qarşısını almaq mümkün olmaz. Mən nə etməliyəm?

Tay-qun dedi:

- Bu vəziyyətdə biz «əzilmiş ordu» ilə iş aparırıq. Kim ki, müharibə aparmaq sənətinə yiyələnib, o, qalib gələcək. Kim ki, onu bacarmır, məhv olacaq.

U-van soruşdu:

- Nə etmək lazımdır?

Tay-qun cavab verdi:

- Qoy, bizim ən yaxşı əsgərlərimiz və arbaletçilərimiz cəng arabaları və qorxu bilməyən süvarilərlə birlikdə əsas qüvvələrdən üç li qabaqda və arxada, geri çəkilmə yolunun hər iki tərəfində, gizlənsinlər. Düşmən bizi təqib edərkən cəng arabalarının və süvarilərin eyni vaxtda hər iki tərəfdən hücumuna başla. Bu vaxt düşmən çaş-baş qalacaq və bizim qaçan əsgərlər dayanacaqlar.

U-van davam etdi:

- Tutaq ki, düşmənin cəng arabaları və süvariləri bizimkilərə qarşı çıxıb, lakin düşmən çox, biz isə azıq, onlar güclü, biz isə zəifik. Onların hücumu mütəşəkkildir və onlar ruhən dözümlüdürlər, bizim ordu isə müqavimət göstərə bilmir. Biz nə etməliyik?

Tay-qun cavab verdi:

- Ən yaxşı əsgərləri və güclü arbaletçiləri seç, qoy onlar cəng arabaları və süvarilər bir cərgədə cəbhə boyu geniş hücuma keçənə və mövqe tutana qədər hər iki tərəfdə pusquda gizlənsinlər. Düşmən bizim pusquda gizlənən hissələrin yanından keçərkən arbaletçilər onun cinahlarına fasiləsiz atəş açmalıdırlar. Bundan sonra cəng arabaları, süvarilər və ən yaxşı əsgərlər düşmən ordusuna qəfil hücuma keçməlidir. Biri qabaq tərəfə, digərləri arxa tərəfə zərbə endirməlidirlər. Hətta əgər düşmən çox da olsa, qaçacaqlar.

- Gözəldir, - dedi U-van.

47. DAĞLARDA «ALAQARĞA VƏ BULUDLAR»

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz qoşunlarla udel knyazlarının mülkiyyətinin içərilərinə daxil olduq və burada hündür dağlar və sıldırım, şiş uclu zirvələri olan və heç bir ağacı və otu olmayan qayalar var. Biz hər tərəfdən düşmənin mühasirəsindəyik. Bizim üç ordu qorxu içərisindədir, komandirlər və əsgərlər çaş-baş qalmışlar. Mən istəyirəm ki, əgər müdafiəni seçsək, davamlı olaq, əgər vuruşu seçsək, qabiliyyət qazanaq. Biz nə etməliyik?

Tay-qun dedi:

Bütün xətlər müəyyən edildikdə, komandirlər və qoşun işə başladıqda, qaydalar və əmrlər verildikdə bunun taktikası düzgün və qeyri-adi hesablanmışdır, müdafiənin xarici perimetrlərinə əsasən hücum qüvvələrini işə sal, qoy onlar əldə olan mövqeyi yaxşılaşdırsınlar. Sonra cəng arabalarından və süvarilərdən «alaqarğalar və buludlar» birləşməsi təşkil et. Üç ordu qəfil hücum etdikdə, düşmən sayca çox olsa belə, onun sərkərdəsini ələ keçirmək olar.

48. BATAQLIQLARDA «ALAQARĞA VƏ BULUDLAR»

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz udel knyazlarının mülkiyyətlərinin içərilərinə daxil olduq, bizi düşməndən çay ayırır. Düşmən yaxşı silahlanmışdır

və sayca çoxluq təşkil edir; biz azıq və qüvvələrimiz yorulub əldən düşüb. Əgər onlar hücuma keçmək üçün çayı keçsələr, biz irəliləyə bilməyəcəyik; lakin biz düşməni gözləmək istəsək, ehtiyatımız olduqca azdır. Biz şoran torpaqda düşərgə salmışıq. Heç yanda nə şəhər, nə ağac, nə ot var. Üç ordu ilə heç nə qarət etmək mümkün deyil, atlar və mal-qara üçün nə yem, nə də otlaq var. Biz nə etməliyik?

Tay-qun dedi:

- Üç ordu hazırlanmayıb; atların və mal-qaranın yemi yoxdur; komandirlərin və əsgərlərin ərzağı yoxdur. Belə bir vəziyyətdə tez getmək üçün arxada pusqu saxlamaqla düşməni aldatmağa fürsət axtar.

U-van soruşdu:

- Düşməni aldatmaq olmur. Mənim əsgərlərim və komandirlər inamı itirmişlər. Düşmən qabağa və geriyə gedən yolları kəsən mövqeyi ələ keçirmişdir. Bizim üç ordu məğlub olub və qaçır. Bəs bu vaxt nə etməli?

Tay-qun dedi:

- Geri çəkilməyə yol axtararkən qızıl və yəşəm daşı lazımdır. Düşmənin elçilərinin vəziyyətini öyrənmək lazımdır. Bu halda sənin ən böyük sərvətin ağıl və məxfilikdir.

U-van soruşdu:

- Tutaq ki, düşmənin pusqudan xəbəri var və onun əsas qüvvələri çaydan keçməyəcəklər. İkinci ordunun sərkərdəsi xüsusi dəstələr ayıracaq və onları çayın dayaz yerindən keçməyə göndərəcək. Mənim üç ordum olduqca çaş-baş qalıb. Mən nə etməliyəm?

Tay-qun dedi:

- Bu vəziyyətdə qoşunu döyüş qaydasında düz və qoy, onlar öz mövqelərini yaxşılaşdırsınlar. Düşmən gələnədək gözlə, sonra gizlədilmiş qoşunu qaldırıb ona tez zərbə endir. Qoy, arbaletçilər hər iki tərəfdən onu atəşə tutsun. Cəng arabalarından və süvarilərdən «alaqarğalar və buludlar» birləşməsi yarat və onları qabaq və arxa yanlara qarşı düz. Sonra bizim üç ordu sürətlə hücum etməlidir. Düşmən görəndə ki, biz döyüşə başladıq, onun əsas qüvvələri mütləq çaydan keçəcək və irəliləyəcəkdir. Bu zaman pusquda gizlədilən hissələri döyüşə at ki, təcili arxaya zərbə endirsinlər. Cəng arabaları və süvarilər sağdan və soldan hücuma keçməlidir. Hətta düşmən sayca çox olsa da, onun qüvvələrini pərən-pərən salmaq olar.

Beləliklə, qoşunun hərəkətə gətirilməsində aşağıdakılar əsasdır.

Düşmən hücuma keçmək üçün yaxınlaşarkən qoşunu döyüş qaydasında düz, qoy,onlar öz mövqelərini yaxşılaşdırsınlar. Sonra cəng arabalarından və süvarilərdən «alaqarğalar və buludlar» təşkil et. Bu qoşundan istifadə etməyin qeyri-adi üsuludur. «Alaqarğalar

və buludlar» birləşmələri qarğalar kimi kənara uçuşur və bulud kimi bir yerə toplanırlar deməkdir. Onların dəyişməsi və başqa şəklə düşməsi sonsuz olaraq davam edir.

- Gözəldir, - dedi U-van.

49. KİÇİK VƏ BÖYÜK QÜVVƏLƏR

U-van Tay-qundan soruşdu;

- Əgər mən az qüvvə ilə çoxsaylı düşmən üzərinə getmək, güclüyə zəiflə hücum etmək istəiyrsənsə, nə etməliyəm?

Tay-qun dedi:

- Əgər az qüvvə ilə çoxsaylı düşmənə hücum etmək istəyirsənsə, bunu hündür otlar arasında pusqu qurmaq və düşməni ensiz yolda sıxışdırmaqla, gün batan vaxtı etmək lazımdır. Zəifin güclüyə hücum etməsi üçün böyük dövlətin yardımını və qonşu dövlətin köməyini əldə etmək lazımdır.

U-van soruşdu:

- Bizim nə hündür otlu ərazimiz, bundan başqa, nə də ensiz yolumuz var. Düşmən artıq yaxınlaşıb, biz günün batmasını gözləyə bilmərik. Mənə nə böyük dövlət tərəfdən yardım, nə də qonşu dövlət tərəfdən kömək yoxdur. Bəs bu vaxt nə etməli?

Tay-qun dedi:

- Düşmənin sərkərdəsini aldatmaq və çaş-baş salmaqdan, həm də onu hündür otlardan keçən yolla getməyə məcbur etməklə, kələkdən və tələ qurmaqdan istifadə etmək lazımdır. Qoy, onun yolu uzağa düşsün və bu zaman, gün batanadək bütün hazırlığını görə bilərsən. Onun birinciləri su səddini hələ keçməmişdən, sonuncular isə hələ düşərgəyə yetişməmişdən cəng arabaları və süvarilər onun qabaq və arxa dəstələrində pozuqluq yaradanadək, pusqudan qoşunu qaldır, sürətlə cinahlara zərbələr endir. Bu halda düşmən çoxsaylı olsa belə, qaçmağa üz tutacaq.

Böyük dövlətin hökmdarına xidmət etmək, qonşu dövlətin məmurlarının itaətkarlığına nail olmaq istəyirsənsə, səxavətini bol, səsini həlim et. Beləliklə, böyük dövlətin yardımına və qonşuların köməyinə nail ola bilərsən.

- Gözəldir, - dedi U-van

50. BÖLÜNMÜŞ VADİLƏR

U-van Tay-qundan soruşdu:

- Tutaq ki, biz ordunu udel knyazlarının mülkiyyətlərinin içərisinə yeritdik və burada düzənlik vadinin ortasında düşmənlə toqquşduq. Solumuz dağlar, sağımız sudur. Düşmən üçün dağlar sağda, sular soldadır. O, vadidə bizimlə birgə dayanıb. Əgər müdafiə olunsaq, onun davamlı olmasını istəyirəm, əgər döyüşsək, onun qalibiyyətlə bitməsini istəyirəm. Biz necə hərəkət etməliyik?

Tay-qun dedi:

- Əgər dağın sol yamacını tutursansa, təcili surətdə sağ yamacdan (hücumu dəf etməyə) hazırlaşırsan. Əgər sağ yamacı tutursansa, onda sol yamacdan (hücumu dəf etməyə) hazırlaşmaq lazımdır. Əgər vadidən böyük çay axırsa və sənin qayığın və avarın yoxdursa, onda üç ordunu keçirmək üçün «səma qayıqlarından» istifadə etmək lazımdır. Kimlər ki, artıq çayı keçiblər vuruşmaq üçün mövqeyi yaxşılaşdırmaqdan ötrü yolu genişləndirməlidir.

Qabaq kənarda və arxada hücum cəng arabalarından istifadə et, arbaletçiləri cinahlar üzrə yerləşdir, bütün xətləri və döyüş qayda-qanunlarını möhkəmlət, hücum cəng arabalaranın köməyi ilə vadiyə girişi bağla. Yüksəkliklərə bayraq tax. Bu vəziyyət «əlçatmaz ordu» adlanır.

Beləliklə, vadidə döyüş əməliyyatlarının qaydası ondan ibarətdir ki, hücum cəng arabaları ön sırada olsun, nizəli və alberadalı böyük cəng arabaları müdafiə işinə xidmət etsin. Seçmə əsgərlər və arbaletçilər yanlarda durmalıdır. Üç min adamdan təşkil edilmiş dəstə hücum üçün düzülməlidir. Qoy, əsgərlər mövqeni yaxşılaşdırsınlar. Sonra Sol ordu sağdan, Sağ ordu soldan , Orta ordu ortadan hücum etməli və birgə irəliləməlidir. Kimlər ki, artıq döyüşüb, onlar çıxış mövqeyinə qayıtmalıdırlar, dəstələr qələbə çalınanadək növbə ilə vuruşur və dincəlirlər.

- Gözəldir, - dedi U-van.

VI

İTİN MƏXFİ TƏLİMİ

51. QOŞUNU YAYMAQ VƏ BİRLƏŞDİRMƏK

U-van Tay-qundan soruşdu:

- Əgər hökmdar orduya rəhbərlik edərək üç ordunu bir neçə istiqamət üzrə yerləşdirmişdir və onların döyüşdə iştirakı üçün müəyyən vaxtda yenidən birləşməsini istəyir. O, bunun üçün hansı mükafatları və cəzaları müəyyən etməli və hansı andları içməyə məcbur etməlidir?

Tay-qun dedi:

- Üç ordu qoşunlarından istifadə Daosu qoşunu yaymaq və birləşdirməkdə dəyişikliklər təklif edir. Komandan ilk növbədə vuruşun yerini və vaxtını müəyyən etməli, sonra isə sərkərdələr və komandirlər üçün vaxt barədə tam və ətraflı əmr dərc etməlidir ki, burada hücuma keçməyin və şəhəri tutmağın lazım olub-olmaması və hamının harada birləşməsi əks olunmalıdır. O, onları vuruşun günü və su saatı üzrə saatın dörddə birinədək məlumatlandırmağa (borcludur). Komandan düşərgəni bölməyə, döyüş qaydalarını müəyyən etməyə, su saatlarını və baş darvazaları qoymağa, yolları təmizləməyə və gözləməyə borcludur. Tabeçilikdə olanlar və komandirlər gələn vaxt onların (təyin olunmuş vaxtla) gəlmələrini müqayisə etməlidir. Təyin olunmuş vaxtdan əvvəl gələnləri mükafatlandırmalı, gecikənləri isə edam etməlidir. Bu zaman yaxınlar da uzaqlar da birləşməyə tələsəcək və üç ordu vuruşmada iştirak etmək üçün qüvvələri birləşdirərək bir yerdə olacaqdır.

52. DÖYÜŞ HÜCUMU

U-van Tay-qundan soruşdu:

- Müharibə aparmaq üçün döyüş cəng arabalarına, cəsur süvarilərə, seçmə əsgərlərin ilk hücum dalğalarına malik olmaq, həmçinin düşmənə vaxtında hücuma keçmək lazımdır. Biz hansı vəziyyətdə zərbə endirə bilərik?

Tay-qun dedi:

- Birinci hücum etmək istəyən düşmənin on dörd dəyişikliyini diqqətlə öyrənməli və anlamalıdır. Bu zaman on dörddən (hər hansı) aydın olursa, hücuma keç, məhz onda düşmən mütləq məğlub olacaq.

-U-van soruşdu:

- Bu on dörd dəyişiklik barədə eşidə bilərəmmi?

Tay-qun dedi:

Nə vaxt düşmən birləşməyə başlasa, ona hücum etmək olar.

Nə vaxt adamlar və atlar yemlənməyibsə, ona hücum etmək olar.

Nə vaxt ilin fəsli və ya hava onun üçün əlverişsizdirsə, ona hücum etmək olar.

Nə vaxt ərazi pis qorunursa, ona hücum etmək olar.

Nə vaxt düşmən sayıqlığı itirbsə, ona hücum etmək olar.

Nə vaxt o, yorulubsa və qüvvəsi tükənibsə, ona hücum etmək olar.

Nə vaxt sərkərdə komandirlərdən və qoşundan uzaqdırsa, ona hücum etmək olar.

Nə vaxt düşmən uzaq yol gedirsə, ona hücum etmək olar.

Nə vaxt düşmən çaydan keçirsə, ona hücum etmək olar.

Nə vaxt düşmən dincəlməyibsə, ona hücum etmək olar.

Nə vaxt düşmən dərin dərələrlə üzləşibsə və ya ensiz yoldadırsa, ona hücum etmək olar.

Nə vaxt onun döyüş cərgəsi qaydasında deyilsə, ona hücum etmək olar.

Nə vaxt düşmən tələşdadırsa, ona hücum etmək olar.

53. ƏSGƏRLƏRİN SEÇİLMƏSİ

U-van Tay-qundan soruşdu:

- Əsgərlərin seçilməsi Daosu nədən ibarətdir?

Tay-qun cavab verdi:

- Orduda ölümə hazır olan və yaraya gülümsəyən böyük hünər sahibləri olan adamlar olmalıdır. Onlar bir yerə toplanmalı və «silahla risk edən əsgərlər» adlandırılmalıdırlar.

O kəslərdə ki, «tsi» güclüdür, kim möhkəm və hünərlidir, kim güclüdür və «partlayıcı keyfiyyətlərə» malikdirsə, bir yerə cəm edilməli və «müdafiə cərgələrini yaran əsgərlər» adlandırılmalıdırlar.

Kimin gözəgəlimli zahiri görkəmi varsa, kimlər qaydanı saxlamaqla uzun qılınc gəzdirirsə və səlis addımlarla hücuma keçirsə, bir yerə cəm edilməli və «igid əsgərlər» adlandırılmalıdırlar.

Kimlər yaxşı tullanırsa, dəmir qarmaqlar atırsa, güclü və ölçüyəgəlməz dərəcədə qüvvətlidirsə, qonqları və təbilləri dağıdır və məhv edirsə (və) bayraqları məhv edirsə, bir yerə cəm edilməli və «hünər və qüvvət əsgərləri» adlandırılmalıdırlar.

Kimlər yüksəkliklərə qalxmağı və böyük məsafələri dəf etməyi bacarırsa, kimin iti ayaqları varsa və yaxşı qaçırsa, bir yerə cəm edilməli və «dəfedilməz əsgərlər» adlandırılmalıdırlar.

Hökmdara xidmət etməklə ləyaqətlərini itirən və buna baxmayaraq, yenidən xeyirxahlıq qazanan kəslər bir yerə cəm edilməli və «ölənədək vuruşan əsgərlər» adlandırılmalıdırlar.

Öldürülən hərbi rəislərin qohumları, komandirlərin oğulları və qardaşları, onların ölümünə görə intiqam arzusu ilə alışanlar, bir yerə cəm edilməli və «dişləri qıcanmış əsgərlər» adlandırılmalıdırlar.

Aşağı təbəqədən olan adamlar, kasıblar və təhkim olunmuşlar bir yerə cəm edilməli və «ölümə məhkum olunmuş əsgərlər» adlandırılmalıdırlar.

«Götürülmüş oğullar»[23] və kənizlər, öz keçmişini unutmaq və şöhrət qazanmaq istəyənlər, bir yerə cəm edilməli və «məyus əsgərlər» adlandırılmalıdırlar.

Məhbusluqda olan və bədən cəzasına məruz qalan və bu biabırçılığı üzərindən götürmək istəyənlər bir yerə cəm edilməli və «rəhmə görə minnətdar əsgərlər» adlandırılmalıdırlar.

Bacarığını və qabiliyyətini uyğunlaşdırmağı bacaranlar, ağır yüklərin uzaq məsafələrə daşınmasının öhdəsindən gələnlər, bir yerə cəm edilməli və «əmrlər gözləyən əsgərlər» adlandırılmalıdırlar.

Bunlar ordunun seçmə əsgərləridirlər. Onlardan istifadə etməmək olmaz.

54. DÖYÜŞ TƏLİMİ

U-van Tay-qundan soruşdu:

- Əgər biz üç ordunun əsgərlərini toplayır və komandirlərin və əsgərlərin döyüş Daosunu mənimsəməsini istəyiriksə, necə hərəkət etməliyik?

Tay-qun dedi:

- Üç ordunu birləşdirmək üçün komandirləri və əsgərləri qonqların və barabanların köməyi ilə itaətə və birləşməyə öyrətmək lazımdır. Sərkərdələr komandirləri və rəisləri əmrləri üç dəfə izah etməklə düzgün məlumatlandırmalı və bununla belə onlara silahların tətbiq edilməsini, birləşmə və dayanacaqları təlim etməlidirlər ki, bütün bunlar işarə bayraqlarının dəyişilməsi qaydaları ilə razılaşdırılmaqla edilməlidir.

Belə ki, komandirlərin və rəislərin təlimindən sonra döyüş təlimini tam keçən adamlardan biri öz biliyini on adama öyrətməlidir. Döyüş təlimini tam keçən on adam öz biliklərini yüz nəfərə öyrətməlidir. Döyüş təlimini tam keçən yüz adam öz biliyini min adama öyrətməlidir. Döyüş təlimini tam keçən min adam öz biliyini on min adama öyrətməlidir. Döyüş təlimini tam keçən on min adam öz biliyini üç orduya öyrətməlidir.

Böyük müharibənin aparılması qaydası uğurla təlim edildikdə, onlar milyon adam arasında yayılır. Bu yolla Böyük ordunu yarada və bununla bütün Kainatda öz qorxunc qüvvəni təsdiq edə bilərsən.

- Gözəldir, - dedi U-van.

55. BƏRABƏR QÜVVƏLƏR

U-van Tay-qundan soruşdu:

- Cəng arabaları ilə piyadalar döyüşə başlayarkən neçə piyadanın gücü bir cəng arabasının gücünə bərabərdir? Süvarilər və piyadalar döyüşə başlayarkən bir süvari neçə piyadaya bərabərdir? Neçə piyadanın gücü bir süvarininkinə bərabərdir? Cəng arabaları

ilə süvarilər döyüşə başladıqda bir cəng arabası öz gücünə görə neçə süvariyə bərabərdir? Neçə süvarinin gücü bir cəng arabasının gücünə bərabərdir?

Tay-qun dedi:

- Cəng arabaları ordunun lələyi və qanadları, hücum vasitəsi, yolların əzilməsi və keçilməsidir. Cəng arabaları ordunun gözü, qaçış vasitəsi, hissələrin əzilməsi və keçilməsi vasitəsidir.

Buna görə də cəng arabaları və süvarilər düşmənlə döyüşə daxil edilmədikdə bir süvari bir piyadaya bərabər ola bilməz. Lakin üç ordu döyüş qaydasını tutduqda, açıq ərazidə döyüş zamanı ümumi qayda belədir ki, bir cəng arabası öz gücünə görə səksən süvariyə bərabərdir, səksən piyada isə bir cəng arabasına bərabərdir. Lakin bir süvari öz gücünə görə səkkiz piyadaya bərabərdir, səkkiz piyada isə öz gücünə görə bir piyadaya bərabərdir. Bir cəng arabası öz gücünə görə on süvariyə, on süvari isə öz gücünə görə bir cəng arabasına bərabərdir.

Çətin ərazidə döyüş zamanı qayda belədir: bir cəng arabası öz gücünə görə qırx piyadaya bərabərdir, qırx piyada isə öz gücünə görə bir cəng arbasına bərabərdir. Bir süvari öz gücünə görə dörd piyadaya bərabərdir, dörd piyada isə öz gücünə görə bir süvariyə bərabərdir. Bir cəng arabası öz gücünə görə altı süvariyə bərabərdir, altı süvari isə öz gücünə görə bir cəng arabasına bərabərdir.

Cəng arabaları və süvarilər ordunun döyüş qüdrətidir. On cəng arabası min adamı məhv edə bilər; yüz cəng arabası on min adamı məhv edə bilər. On süvari yüz adamı pərən-pərən sala bilər, yüz süvari isə min adamı qaçmağa məcbur edə bilər. Təxmini hesablamalar belədir.

U-van soruşdu:

- Cəng arabalarında və süvari qoşunlarında neçə komandir və onların bölməsində neçə adam olmalıdır?

Tay-qun dedi:

- Cəng arabaları üçün beş cəng arabası üçün başçı, on beşi üçün rəis, əllisi üçün komandir və yüzü üçün sərkərdə.

Düzənlik ərazidə döyüş zamanı beş cəng arabası cərgə təşkil edir. Cərgələr arasındakı məsafə qırx addım, cəng arabaları arasında soldan sağa on addım, müşayiət dəstələri arasında isə altmış addım olur.

Keçilən ərazilərdə cəng arabaları yollarda hərəkət etməlidir; on cəng arabası qrup, iyirmisi isə birləşmə təşkil edir. Cəng arabalarının cərgələri arasındakı məsafə iyirmi addım, cəng arabaları arasında altı addım təşkil edir, müşayiət dəstələri ilə isə arxada otuz altı addım təşkil edir. Beş cəng arabası üçün bir başçıdır. Əgər onlar yoldan bir lidən artıq uzaqlaşsalar, onda yola qayıtmalıdırlar.

Süvari hissələrindəki əsgərlərin sayına gəlincə, o belə olmalıdır: beş adam üçün başçı;on adama rəis, yüz adama komandir və iki yüz adama sərkərdə lazımdır.

Düzənlik ərazi üçün qayda beladir: beş süvari cərgə təşkil edir, cərgələr arasındakı məsafə iyirmi addım, soldan sağa dörd addım, dəstələr arasındakı məsafə isə əlli addım.

Keçilən ərazilər üçün qayda belədir: cərgələr arasında məsafə on addım, soldan sağa iki addım, dəstələr arasındakı məsafə iyirmi beş addım. Otuz süvari qrup, altmış süvari birləşmə təşkil edir. On süvariyə rəis başçılıq edir (hərəkət zamanı), onlar bir-birlərindən yüz metrdən çox ayrılmamalı, sonra isə geri dönməli və çıxış mövqeyinə qayıtmalıdırlar.

- Gözəldir, - dedi U-van.

56. CƏNG ARABALARININ ƏSGƏRLƏRİ

U-van Tay-qundan soruşdu:

- Cəng arabaları üçün əsgərləri necə seçməli?

Tay-qun dedi:

- Cəng arabaları üçün əsgərlərin seçilməsi qaydası aşağıdakılardır: yaşı qırxadək, boyu beş fut yeddi düym olan, həm də qaçan atı təqib etmək, onun üzərinə atılmaq həddində qaçışı bacaran, atları yəhərləməyi, qabağa və arxaya, sola və sağa çapmaq bacarığına malik olmalıdırlar. Onlar bayrağı tez açmağı bacarmalı, arbaleti tarım çəkmək bacarığına malik olmalıdırlar. Onlar qabağa və arxaya, sola və sağa atmaq bacarıqlarını yüksək ustalığa nail olanadək təkmilləşdirilməlidirlər. Onlara «döyüş cəng arabalarının əsgərləri» deyirlər. Onlara qarşı etinasız olmaq olmaz.

57. SÜVARİ QOŞUNLARIN ƏSGƏRLƏRİ

U-van Tay-qundan soruşdu :

- Cəng süvari qoşunları üçün əsgərləri Siz necə seçirsiniz?

Tay-qun cavab verdi:

- Süvarilərin seçilməsi qaydaları aşağıdakılardır: yaşı qırxadək, boyu beş fut yeddi düym, güclü və cəld, adi adamlardan üstün olanlar. Atla çaparkən onlar kamanı axıradək çəkməyi və atmağı bacarmalıdırlar. Onlar qabağa və arxaya, sola və sağa dördayaq çapmağı, hücuma keçməyi və geri çəkilməyi bacarmalıdırlar. Çuxurların və qazmaların üstündən atlana bilən, təpələrə və yüksəkliklərə dırmaşmağı bacaran, dar sədlərdən, böyük bataqlıqlardan keçməyi və güclü düşmən üstə atılmağı, onun sıralarına pozğunluq salmağı bacaran adamları «böyük süvari qoşunun əsgərləri» adlandırırlar. Onlara qarşı etinasızlıq göstərmək olmaz.

58. CƏNG ARABALARI DÖYÜŞDƏ

U-van Tay-qundan soruşdu:

- Cəng arabalarının döyüşdə olması barədə nə deyərsiniz?

Tay-qun cavab verdi:

- Süvarilər üçün dəyişiklikləri və hərəkəti bilmək vacibdir; cəng arabaları üçün ərazinin şəraitini bilmək vacibdir; süvarilər üçün yan yolları və çevik yolları bilmək vacibdir. Belə ki, üç ordu eyni adlanır, lakin istifadə olunmaları müxtəlifdir.

Əgər döyüşdə cəng arabaları iştirak edirsə, on «öldürücü» ərazi və səkkiz qələbə (şəraitləri) mövcuddur.

U-van soruşdu:

- On «öldürücü» ərazi hansılardır?

Tay-qun cavab verdi:

- Əgər qabağa irəliləyərkən geriyə yol yoxdursa, bu cəng arabaları üçün öldürücü ərazidir. Düşməni xeyli təqib etməklə dar dərələrdən keçib getdikdə belə ərazilərdə cəng arabaları qüvvələrini itirirlər.

Əgər ərazinin şəraiti asanlıqla qabağa getməyə imkan verirsə, lakin arxada vəziyyət xoşagəlməzdirsə, bu, cəng arabalarına çətinliklər gətirəcək.

Çıxılması çətin olan dar və qapalı aralığa düşmək o deməkdir ki, bu ərazidə cəng arabaları aralı düşə (kəsilə) bilərlər.

Əgər torpaq bataqlıqdırsa, ayaq altında tərpənirsə və çökürsə, qara palçıq təkərlərə yapışırsa, bu ərazi cəng arabalarına əlavə əziyyət verəcəkdir.

Əgər solda sıldırım qayalar, sağda isə hündürlüklər və şiş təpələr varsa, bu ərazidə cəng arabalarından (istifadə etmək) olmaz.

Əgər çöllərdə sıx otlar və su ilə dolu dərin kanallar varsa, bu ərazi cəng arabalarından (istifadə etməyə) əngəl törədir.

Əgər cəng arabaları az, ərazi əlverişlidirsə, düşmənin piyada qoşunu yoxdursa, bu ərazidə cəng arabaları məhv edilə bilər.

Əgər arxada su ilə dolu dərə və çala, solda dərin su hövzəsi, sağda isə çöllük təpələr varsa, bu ərazidə cəng arabaları məhv edilir.

Əgər on gecə və gündüz yağış yağmışsa və nə qabağa getmək, nə də arxaya qayıtmaq mümkün deyilsə, bu ərazi cəng arabalarının batıb qaldığı yerdir.

Cəng arabaları üçün on öldürücü ərazilər belədir. Belə döyüşlərdə dar düşüncəli sərkərdə əsir düşür, ağıllılar isə yaxa qurtara bilirlər.

U-van soruşdu:

- Bəs səkkiz qələbəli şəraitləri hansılardır?

Tay-qun cavab verdi:

Nə vaxt düşmənin qabaq və arxa cərgələri hələ qurulmayıbsa, ona zərbə endir. Nə vaxt bayraqlar dolaşıbsa,

adamlar və atlar onların ətrafında ora-bura qaçışırsa, ona zərbə endir.

Nə vaxt bəzi hissələr və komandirlər hücum edir, başqaları isə geri çəkilirsə; biri sağa, o biri sola hərəkət edirsə, ona zərbə endir. Nə vaxt döyüş qaydası möhkəm deyilsə, komandirlər və qoşunlar bir-birinə tamaşa edirsə, ona zərbə endir.

Nə vaxt onlar hücumda tam tərəddüd edir, geri çəkildikdə isə tam qorxu içərisindədirlərsə, ona zərbə endir.

Nə vaxt düşmənin üç ordusu heyrət içindədir və özünü itirməkdədirsə, ona zərbə endir.

Nə vaxt siz əlverişli ərazidə vuruşursunuzsa və qaranlığın düşməsi döyüşü dayandırmırsa, ona zərbə endir.

Uzun keçiddən sonra, gün çıxarkən, düşmən düşərgəni bölərkən və onun ordusu qorxu içərisində olarkən ona zərbə endir.

Cəng arabalarının qələbə çala bildiyi səkkiz şərait bunlardır.

Əgər sərkərdə on öldürücü şəraiti və səkkiz qələbə vəziyyətini düzgün təsəvvür edirsə, bu zaman, hətta düşmən onu hər tərəfdən mühasirəyə alsa da, min cəng arabası və on min süvari ilə hücum etsə də, o, qabağa və cinahlara zərbə endirməyə və on min vuruşmada belə mütləq qələbə çalacaqdır.

- Gözəldir, - dedi U-van.

59. SÜVARİLƏR DÖYÜŞDƏ

U-van Tay-qundan soruşdu:

- Döyüşdə süvarilərdən necə istifadə etməli?

Tay-qun dedi:

- Süvarilər üçün on qələbə şəraiti və doqquz öldürücü şərait var.

U-van soruşdu:

- On qələbə şəraiti hansılardır?

Tay-qun cavab verdi:

- Düşmən hücuma birinci keçdikdə və onun cərgələri hələ düzülmədikdə, qabaq və arxa tərəflər hələ birləşmədikdə, qabaqda gedən süvarilərə zərbə endər, sağdan və soldan hücuma keç. Düşmən mütləq qaçacaq.

Düşmənin xətləri və düzülüşü yaxşı idarə olunan və birləşən zaman və onun komandirləri və qoşunu döyüşə can atarkən bizim süvarilər yan tərəfdən içəri daxil olmalı, lakin çox da dərinliklərə getməməlidir. Bəziləri geri çəkilməli, bəziləri isə qabağa getməlidirlər. Onların sürəti küləyin sürəti kimi olmalı, «partlayıcı gücü» ildırım kimi olmalıdır ki, gündüzlər alaqaranlıqdakı kimi qaranlıq olsun. Bayraqları bir neçə dəfə dəyişdir; forma da dəyişdirilməlidir. Belə olduqda düşmənin ordusu sındırılacaqdır.

Düşmənin xətləri və cərgəsi möhkəm olmadıqda, onun komandirləri və qoşunu vuruşmaq istəmədikdə onları arxadan və

yandan sıx, soldan və sağdan qəfil basqı et. Cinahları dolan və ona zərbə endir, düşmən qorxuya düşəcəkdir.

Düşmən gün batanda düşərgəyə qayıtmaq istədikdə və onun üç ordusu təşvişdə olduqda, biz onu yandan keçə bilsək, giriş darvazalarından düşərgəyə hücum edərək dərhal cinahlara zərbələr endir və bununla belə, düşmənin daxil olmasına imkan verma. Düşmən mütləq əziləcəkdir.

Əgər düşmən bizim ərazinin dərinliklərinə soxulub və qüvvələrini geniş yerləşdirməklə müdafiə üçün ərazinin üstünlüklərindən istifadə edə bilmirsə, onun təchizatının qarşısını kəs, onda düşmən aclıq keçirəcək.

Ərazi düz və rahat olan zaman və biz düşmənin süvari qoşunlarına dörd bir tərəfdən yaxınlaşdığını görürük. Əgər biz öz cəng arabalarımız və süvari qoşunlarımız tərəfindən ona zərbə endirsək, düşmən çaş-baş qalacaqdır.

Düşmən qaçmaqla canını qurtarmaq istəyən zaman, komandirlər və qoşun isə vahimə içərisində olduqda, əgər bizim süvarilər soldan və sağdan daxil olsa, o birilər isə onların arxadan və qabaqdan yolunu kəssələr, onların sərkərdəsini əsir götürmək olar.

Düşmən alaqaranlıqda geri dönərkən, əgər onun ordusu çoxsaylıdırsa, xətlərində qaydasızlıq əmələ gələcək. Biz öz süvarilərimizi on-on nəfərlik qruplara və yüz-yüz nəfərlik birləşmələrə bölməli, cəng arabalarını beş-beş və on-on toplamalı və arbaletçilərlə birgə çoxlu bayraqlar düzməliyik. Bəziləri cinahlardan zərbələr endirməli, digərləri cəbhəni və arxanı kəsməlidir. Bu zaman düşmənin sərkərdəsini əsir götürmək olar.

Süvarilər üçün on qələbə şəraiti bunlardır.

U-van soruşdu:

- Doqquz öldürücü şərait hansılardır?

Tay-qun dedi:

- Bizim süvarilər düşmənin cərgələri arasına girir, lakin onun döyüş nizamını pozmadıqda düşmən özünü yalnız ona görə qaçan kimi göstərir ki, cəng arabalarını və süvariləri geri döndərib bizə arxadan zərbə endirsin. Bax, süvarilərin əziləcəyi vəziyyət budur.

Biz düşməni azacıq məsafədə təqib edib ona daha çox yaxınlaşdıqda, pusqu bizi cinahdan vuranadək və arxadan yolumuzu kəsənədək yaranan bu vəziyyətdə süvarilər mühasirəyə alınacaq.

Biz qabağa irəliləyərkən arxaya yol olmadıqda, elə yerə çıxırıq ki, oradan çıxış yoxdur. Bu, «Səma həlqəsində dustaqlıq», «torpaq mağarada basdırılma» adlanır. Bu, süvarilər üçün öldürücü ərazidir.

Bizim çıxdığımız yol hər tərəfdən sıxıldıqda, çıxış isə uzaqda olduqda; düşmənin zəif qüvvələri bizim ən yaxşılara hücum etdikdə,

az adamla çoxa hücum etmək mümkün olduqda, bu ərazi elə yerdir ki, süvarilər orada məhv ediləcəkdir.

Yüksək dağlar, dərin dərələr, hündür sıx ot, meşə və ağaclar olan ərazi elə yerdir ki, orada süvarilərin qüvvələri tükənir.

Solda və sağda su sədləri, qabaqda böyük təpələr, arxada isə hündür dağlar olduqda və üç ordu su hövzələri arasında vuruşduqda, həm də düşmən qabaq və arxa tərəfdən mövqe tutduğu zaman bu ərazi elə yerdir ki, ora süvariləri böyük çətinliklər qarşısında qoyur.

Düşmən təchizat yolunu kəsdikdə və bizim geriyə qayıtmağa yolumuz olmadıqda, bu ərazi süvarilərə narahatlıq gətirir.

Biz bataqlıq torpağa sürüklәndikdə, qabağa getmək və geri çəkilmək yalnız bataqlıqdan mümkün olduqda, bura süvarilər üçün təhlükəli ərazidir.

Solda dərin kanallar, sağda təpələr və çalalar olduqda, lakin onların arasındakı səth düzənlik olduqda düşmənin hücumu, geri çəkilməsi və aldadıb tora salması üçün əla ərazidir, bu, süvarilər üçün tələdir.

Doqquz öldürücü şərait bunlardır. Məlumatlı sərkərdə bunları bilməklə (düşməni) özündən aralı saxlayacaq və aradan çıxmağı bacaracaq, məlumatsız sərkərdə isə aldanacaq və məğlub olacaqdır.

60. PİYADALAR DÖYÜŞDƏ

U-van Tay-qundan soruşdu:

- Döyüşdə cəng arabaları və süvarilərlə birlikdə piyadalardan necə istifadə etmək olar?

Tay-qun dedi:

- Piyadalar cəng arabaları və süvarilərlə birlikdə döyüşə başladıqda onlar təpələrdə və kurqanlarda, dərələrdə və təpələrdə yerləşməlidirlər. Uzun silahlı və kip arbaletli əsgərlik qabaq tərəfi tutmalı; gödək silahlı və zəif arbaletli əsgərlər arxada qalmalıdırlar; onlar növbə ilə vuruşmalı və dincəlməlidirlər. Hətta əgər düşmənin çox sayda süvarisi və cəng arabası hücum etsə də, onlar cərgələrin davamlılığını saxlamalı və coşqunluqla o vaxtadək vuruşmalıdırlar ki, təcrübəli əsgərlər və arbaletçilər arxadan hücumu dəf etməyə hazırlaşa bilsinlər.

U-van soruşdu:

- Tutaq ki, nə təpələr, nə kurqanlar, nə dərələr, nə çalalar vardır. Düşmən çoxsaylı və döyüşkən hücuma keçir. Onun cəng arabaları və süvariləri bizi yanlardan keçərək qabaq və arxa cinahlarımıza zərbələr endirir. Bizim təşvişə düşən və əzilən üç ordumuz çaşqınlıqla qaçır. Biz nə etməliyik?

Tay-qun dedi:

- Öz komandirlərinə sapandlar və ağac «kirpilər» düzməyi, onların arasına hər cərgədə beş at və mal-qara düz, qoy qoşun

dördtərəfli hücum qaydası tutsun. Görsən ki, düşmənin cəng arabaları və süvariləri hücum etməyə hazırlaşır, bizim əsgərlər arxada bir səviyyədə «kirpiləri» düzməli, dərinliyi və diametri beş fut olan quyular qazmalıdırlar. Bu qurğu «əjdaha otu» adlanır.

Bizim əsgərlər sapand götürüb irəliləməlidirlər. Cəng arabalarından val qismində istifadə edilməlidir və irəli və geri hərəkət etməlidir. Onların harada durmasından asılı olmayaraq qoruyucu istehkam kimi istifadə et. Bizim seçmə əsgərlər və arbaletçilər soldan və sağdan edilən hücumları dəf etməyə hazır olmalıdırlar. Nəhayət, bizim üç orduya nəfəs dərmədən coşqu ilə vuruşmağı əmr et.

- Gözəldir, - dedi U-van.

Qeydlər

1. Şi tszi («Tarixi qeydlər») tarixçi və istorioqraf Sım Tszyanın (m.ö. II-I əsrlər) əsəri qədim mifik dövrdən Xan imperatoru U-dinin hakitmiyyətinədək olan dövrü (m.ö. 140-87-ci illər) əhatə edir.

2. Şan sülaləsinin sonuncu hökmdarını Çjou adlandırırdılar, lakin onun adını bildirən ieroqlif Çjou sülaləsini bildirən ieroqlif başqa cür yazılır.

3. Xou Tszi-mifik qədimliyin əfsanəvi qəhrəmanlarından biridir. Kənd təsərrüfatındakı yeni islahatlar onun adı ilə bağlıdır. Ənənəyə görə Şun imperatorunun kənd təsərrüfatı naziri olmuşdur.

4. Tsan-sı,-güman edilir ki, çayda yaşayan doqquzbaşlı mifik divdir, onun ruhu andı möhkəmlətmək üçün çağrılır.

5. Doqquz böyük bürünc qazan imperator hakimiyyətinin rəmzi idi və ona sahib olmaq sülalənin bərqərar olması və onun legitimliyi hesab olunurdu.

6. «Şan şu», digər adı «Şu tszin» («Sənədlər kitabı») qədim Çinin Konfusiya «Beşkitablıq»ına daxil olan qədim yazılı abidələrindən biridir. O qədim dövrün müxtəlif tarixi əsərlər toplusudur.

7. Xan sülaləsi devrildikdən sonra tarixdə «Üççarlıq» adlandırılan dövrdə (220-280-ci illər) Xan hakimiyyət evinin varisi Lyu Bey özünü imperator elan edərək Şu çarlığının əsasını qoymuşdur. Lyu Beyin məsləhətçisi Çjun-qe Lyan sərkərdə və strateq idi. Vey, Şu və U kimi üç çarlıq arasında mübarizə Çen Şounun «San qo çji» adlı xronikasında və Lo Quan-Çjunun «San qo yani» tarixi romanında əks olunmuşdur.

8. Çjuan-tszi- Dao məktəbinin banilərindən biri olan Çjuan Çjounun adı ilə adlandırılan traktatdır.

9. «Alicənab ər» (tszun-tszı)–mənəvi cəhətdən mükəmməl insanın Konfusian idealıdır.

10.«İşsizliyin» idarə olunması– Daonun «U vey» konsepsiyasına məşhurluq gətirən dövlətdə yarımçıq işləri başa çatdırmağın ideal üsuludur.

11. «Li»-«əxlaq normaları», «ləyaqət normaları», «mərasim» konfusianlığın əsas anlayışlarından biridir.

12. «Hakimiyyətin idarə olunmasını başqalarına vermə» ilə müqayisələr hərb sənətində tətbiq olunur.

13. «Çjen min»-«adların dəyişdirilməsi» məşhur Konfusianlıq konsepsiyasıdır. Bir dəfə Konfusiyadan soruşurlar ki, müdrik hökmranlığın sirri nədədir, o, cavab verir: «Ən əsası sözün əməllə düz gəlməsidir».

14.«Mülki» hərbidən fərqli olaraq siyasi tədbirlər, diplomatik addımlar, kəşfiyyati fəaliyyət və b. anlayışları bildirir.

15.Şərhçilər bu ideyaların «Dao de tszin»lə oxşarlığını qeyd edirlər.

16.«Fu» və «yue» baltaları-komandanın hakimiyyət rəmzidir, ən azı Şan sülaləsindən başlayaraq tanınır.

17.Altı ev heyvanı– atlar, camışlar, qoyunlar, toyuqlar, itlər və donuzlar.

18.Katti– çəki vahididir (604, 8 qrama bərabərdir).

19.Li-uzunluq ölçüsüdür,-təxminən 0,6 km-ə bərabərdir.

20.Təbii ki, yüz li– olduqca şişirdilmişdir, xüsusən nəzərə alsaq ki, onlar hiss edilmədən düşmənə daha sıx yaxınlaşmalı idilər.

21.Yəni hərəkətləri insanlarda nifrət oyadan qəddar, ədalətsiz hökmdar.

22.49-cu fəslə bax.

23.Arvadın ailəsinə qəbul olunmuş oğullar onun (arvadın) soyadını daşıyır, eyni zamanda öz ailələri ilə əlaqələri kəsirlər və əcdadları qarşısında borclarını yerinə yetirmək hüququna malik deyillər. Bu Konfusiyan normalarının kökündən pozulması idi. Dilənçilik və ya aşağı təbəqədən olmaq üzündən belə hərəkətə məhkum edilən adamlar döyüşdə başqalarından qat-qat üstün olmağa çalışmalı idilər.

2

SIMIN METODLARI

司馬法

Tədqiqat 117
Tərcümə131

1. Humanizmin özülü 131
2. Səma Oğlunun vəzifələri 133
3. Sıraların müəyyən edilməsi 137
4. Dəqiq mövqelər 141
5. Qoşundan istifadə 145

Qeydlər 148

TƏDQİQAT

«Sımın metodları» çox da böyük olmayan və eyni zamanda bir qədər müəmmalı, m.ö. IV əsrdə yazılan mətn olub, çox güman ki, daha qədim materiallar əsasında tərtib edilmişdir. Praktik olaraq onun yaranması barədə sübutlar onun Tsinin birinci hökmdarı olan və ölümünə bir neçə il qalanadək ona hökmdarlıq edən Tay-qunun şəxsiyyətinin təsiri altında Tsi çarlığına aid traktat olduğunu göstərir. Buna görə də ənənəçilər təsdiq edirlər ki, traktatın əsasını Tay-qunun ideyaları təşkil edir və ya onun tərtibatçılarına müəyyən mənada Tay-qunun təsiri olmuşdur. «Baharlar və Payızlar» və «Döyüşən Çarlıqlar» dövrlərində Tsidə hərb sənəti dərindən öyrənilirdi. Sun-tszı, Sun Bin və Vey Lyao-tszı məhz burada yazıb yaratmışlar; bəzi ailələr (məsələn, Sun, Tyan, Çen) xüsusi nüfuz sahibləri idilər. Strateq Sun Ben, görünür, məhz «Sıma fa»nın tərtib edildiyi dövrdə şöhrət zirvəsində olmuşdur və buna görə də kompilyatorlardan (müstəqil tədqiqat aparmadan, başqalarının əsərlərindən istifadə yolu ilə əsərlər düzəldən adam) biri olmuşdur; axı o, Sım Jan-tszyuyanın[1] uzaq qohumlarından idi. Bundan başqa mətnin üslubu və xarakteri bu əsərin həmin dövrə, yəni m.ö. IV əsrə aid olduğunu göstərir. Sun-tszı və Sun Binin kitabları istisna olmaqla, bu mətnin tərtib edildiyi vaxtı, digər hərbi traktatlarla müqayisədə, daha dəqiq təyin etmək olar.

«Sıma fa» adını ən yaxşı halda «Sımın metodları» kimi tərcümə etmək olar. Çünki «fa» ieroqlifinin əsas mənası olan «qanun» da «metod», «standart», «texnika» və ya məsələn, Sun-tszının «Hərb sənəti» kimi, həm də «sənət» anlayışını bildirir. Lakin heç bir termin bütün məzmunu adekvat olaraq ifadə edə bilməz. Axı, «Sıma fa»da qanunlar, təlimatlar, hökmdarın siyasəti, hərbi təşkilat, hərbi administrasiya, nizam-intizam, əsas dəyərlər, ümumi strategiya və taktiki gedişlər müzakirə edilir.

«Sıma» hərbi rütbəsinin mənşəyi hərfi mənada «atlara sahib olan» deməkdir və əsrlərin dərinliklərində ortadan çıxarılmışdır. O, çox güman ki, rəsmi titul kimi ilkin «kamil müdrik imperatorlar» sülaləsinə qədər meydana gəlmiş, Çjou sülaləsi dövrünədək «Da sıma»ya, yəni «böyük sıma»ya, çevrilərək «hərbi işlər üzrə nazir» mənası kəsb etmişdir. Lyu İnya «Sıma fa»ya müqəddiməsində Çjou sülaləsi dövründə nazirin rolunu və vəzifələrini belə şərh etmişdir:

«Hərbi işlər üzrə nazir asılı dövlətlərin hökmdarlarına nəzarət edir, altı ordunun işlərini aparır və əyalət torpaqlarını sakitləşdirirdi. O, dövlətdə altı əsas nazirlərdən biri idi. Saray daxilində o, «Səma oğluna» idarəçilik işlərində kömək edirdi; yürüşlərdə cəza ordularına başçılıq edir, qiyamçıları ram edirdi».

Lyu İnya kimi alimlərin ənənəvi dünyagörüşünə əsasən, «Metodları»ın məzmunu öz tarixi rolunu oynamışdır. Onlar düşünürlər ki, traktatdakı ideyalar Tsi çarlığının hökmdarı Xuan-qunun (m.ö. VII əsrin ortalarında hökmdarlıq etmişdir).

Çjou dövlətinin hakimiyyəti əldən verən qanuni hökmdarına kömək bəhanəsilə öz çarlığını tək idarə edən cənaba–«hegemona» (baya) çevrilməsinə kömək etmişdir. Buna görə də mətn Xuan-qunun məşhur məsləhətçisi çox əhatəli «Quan Çjonun[2] adı ilə əlaqələndirilir ki, burada da əsrin idarəçilik, hərbi işlər və fəlsəfi təsəvvürlər kimi məsələlər işıqlandırılmışdır. Sonralar həmin çarlıqdan olan Tszin-van (m.ö. 378-342-ci illərdə hökmdarlıq etmişdir) əvvəllər Tsinə verilən torpaqları qaytarmaq və bir neçə udel knyazlığını tabe etməkdən ötrü Sımın təlimlərini ələ keçirərək ondan istifadə etmişdir. Həmin vaxt mətnin adı olmamışdır, lakin Vey-van dövründə (m.ö. 378-342-ci illər) hərbi sənətinə dair mühüm sənədləri toplamaq və üzünü köçürmək üçün saray şurası çağrılmış və nəticədə həmin mətn «Müharibə nazirinin metodları» adlandırılmışdır.

Başqa, özü də mübahisəli, nöqteyi-nəzərə görə, məhz Tszin-van dövründəki böyük sərkərdə Tyan Jan-tszyuyunun sayəsində böyük qələbələr qazanılmışdır. O, «sıma» postunu tutduğuna görə ona öz şəxsi soyadına uyğun titul yaratmaq hüququ verilmişdir. Vey-van dövründə tərtib edilən kitaba onun konsepsiyaları daxil edilmişdir və buna görə də ona «Sıma Jan-tszyuy bin fa» («Sıma Jan-tszyuyun hərbi metodları») adı verilmişdir. Onun qısa bioqrafiyası olan «Şi tszi» də təkcə həmin hadisələr şərh edilməmiş, həm də onun ordunun sədaqətliliyini və itaətkarlığını qazanmaq üçün lazım olan üsullara üstünlük verməsindən də söhbət açılır:

«Sıma Jan-tszyuy Tyan Vanın varisi idi. Tsi Tszin-qunun hökmranlığı dövründə Tszin (baş şəhərlərə) A və Pinə hücum etdi, Yan isə (çay rayonu) Xe-şana soxuldu. Tsi ordusu tam məğlubiyyətə uğradı və Tszin-qun olduqca narahat oldu. Bu zaman Yan İn Jan-tszyuya məsləhət verərək dedi: «Jan-tszyuy kəniz mənsubiyyətindən olsa da, hərbi işlərdə düşməni ən məşəqqətli qorxuya salmağı bacarır. Mən öz hökmdarıma onu yoxlamağı məsləhət görərdim» Tszin-qun Jan-tszyuyu çağıraraq onunla hərbi işlər barədə söhbət edir. O, Jan-tszyuya heyran olur, Yan və Tszinin ordularına müqavimət göstərmək üçün onu baş komandan təyin edir.

Jan–tszyuy deyir : «Əvvəllər mən aşağı təbəqəli kölə idim. Əgər mənim hökmdarım məni kəndimdən gətirib yüksək əyanlara başçı təyin etsə, komandirlər və əsgərlər mənə tabe olmayacaq, yüz nəsillər isə mənə inanmayacaq. Mən məşhur olmadığıma və nüfuzumun azlığına görə istərdim ki, mənim hökmdarın özünün yaxını, dövlətin hörmət etdiyi nazirlərdən biri orduda İnspektor[3] olsun. Məhz onda bu mümkündür». Tszin-qun razılaşır və Çjyan Qunu inspektor təyin edir.

Jan-tszyuy Çjyan Quya deyir: «Sabah günorta ordunun darvazası yanında görüşərik». Jan-tszyuy orduya tərəf yola düşdü, su saatını qurdu və Qunu gözləməyə başladı. Təkəbbürlü və

qürurlu Qu belə hesab etdi ki, bir halda ki, sərkərdə ordudadır, o isə (yalnız və yalnız) İnspektordur, işlər heç də qaydasında deyil. Onun yolasalma mərasimini keçirən çoxlu qohumları onu şərab içməkdən ötrü yubatdılar. Belə olduqda Jan-tszyuy saatın suyunu dayandırdı və düşərgəyə getdi. O, ordunun yerləşdiyi yerə gəldi, qadağaları və cəzaları dəqiq səsləndirərək qaydaları müəyyən etdi. Qadağalar verilərkən axşam oldu və burada Çjuan Qu da gəldi.

Jan-tszyuy dedi: «Nəyə görə təyin olunmuş vaxtdan sonra gəlirsiniz?» Qu öz günahını etiraf etdi və dedi: «Yüksək rütbəlilər və qohumlar məni yola salırdılar, ona görə yubandım». Jan-tszyuy dedi: «Haçan ki, sərkərdə (komandanlıq) mandat alır, o, öz evini unudur; haçan o, orduya gəlib təbil çubuqlarını əlinə alır və təbili necə gəldi çalır, deməli, özünü unudur. Bu gün düşmən çarlıqlar artıq (bizim torpaqların) içəriyə soxulublar; dövlətdə narahatçılıq və həyəcan var. Öldürülmüş komandirlər və əsgərlər sərhəddə dəfn olunmamış qalmışdır. Bizim hökmdar nə rahat yata, nə də yeməklərin dadından ləzzət ala bilir. Yüz nəsillərin taleyi sizə etibar olunub, bəs siz «məni yola salırdılar» dedikdə nəyi nəzərdə tutursunuz?

O, intizama görə məsuliyyət daşıyanı çağırıb soruşdu: «Təyin olunmuş vaxtdan gec gələnə qarşı ordu qanunu nə nəzərdə tutur?» Cavab: «Onun başı kəsilməlidir». Çjuan Qu qorxuya düşdü və Tszin-qundan günahını bağışlamağı xahiş etmək üçün onun yanına adam göndərdi. O, artıq getmişdi və hələ geri qayıtmamış artıq (Jan-tszyuy) üç orduda intizamı təsdiq etməkdən ötrü Qunun başını kəsmişdi. Üç ordunun komandirlərinin hamısı qorxudan əsirdi.

Bir müddət keçdikdən sonra ordunun yerləşdiyi yerə Tszin-qunun yanından əlində Qunu əfv etmək birkası olan elçi gəldi. Jan-tszyuy dedi: «Sərkərdə orduda olan vaxt hökmdarın bəzi əmrləri yerinə yetirilməyə bilər»[4]. O, intizama görə məsuliyyət daşıyandan soruşdu: «Orduya müdaxilə etməyə görə qanunda nələr nəzərdə tutulur?» O, cavab verdi: «Onun başı kəsilməlidir». Elçi qorxuya düşdü. Jan– tszyuy dedi: «Biz hökmdarın elçisini edam edə bilmərik». Bu zaman o, onun köləsinin başını kəsdi, ekipajın (heyətin) sol dirəyini kəsdi, və soldakı yüyənli atın başını kəsdi ki, üç orduya nümunə olsun. O, elçini geri saraya göndərdi, özü isə (ordunu) yürüşə apardı.

Komandirlər və əsgərlər düşərgə saldılar, tonqal yandırdılar, yemək və içmək hazırladılar. O, xəstələr barədə soruşdu, təbibləri dərmanlar təyin etməyə məcbur etdi və şəxsən onlara nəzarət etdi. Bütün hallarda o, mükafat və ya komandanın yemək payını aldıqda onu komandirlər və əsgərlər arasında bölüşürdü; o yemək paylarını şəxsən hamı arasında bərabər bölürdü. O, kimin güclü, kimin zəif olduğunu izah etdi və üç gündən sonra adamların ürəyini fəth etdi. Xəstələrin hamısı marşla getmək arzusu ilə alışıb yanır və onun uğrunda vuruşmaq üçün döyüşə can atırdılar. Tsin ordusu bu

barədə eşidib mövqeyini buraxaraq getdi. Yan ordusu bu barədə eşidib çayı keçdi və dağılışdı (pərən-pərən oldu). Sonra o, onları təqib edərək hücuma keçdi, çarlıq hüdudundakı torpaqları bir-birinin ardınca geri qaytararaq əsgərlərlə birgə geri döndü. Onlar dövlətin sərhədinə yetişməzdən əvvəl birlikləri ləğv etdi, əsgərləri müqaviləyə əsasən əsgəri qadağalardan azad etdi və sonra şəhərə daxil oldu.

Tszin-qun və ali rütbəlilər onu körpünün qabağında salamladılar, qoşunu mükafatlandırdılar və şənlik mərasimi keçirdilər və yalnız bundan sonra istirahət etməyə qayıtdılar. Bundan sonra hökmdar Jan-tszyuyu sorğu-suala tutdu və onu «böyük mehtərbaşı» (da sıma) titulu ilə təltif etdi. Tyan klanı günbəgün Tsidə daha böyük nüfuz sahibinə çevrilirdi.

* * *

Bundan sonra yüksək rütbəli əyanların Bao Qao və Qo kimi nökərləri onu Tszin-qunun qarşısında şərləyərək gözdən saldılar. O, Jan-tszyuyu istefa verməyə məcbur etdi. Tszyuy ağır xəstəliyə düşdü və vəfat etdi. Bundan sonra Tyan Tsinin və Tyan Baonun varisləri Qaodan, Qodan və başqalarından intiqam aldılar.

Bir qədər sonra Tyan Çanla (birlikdə) Tsyan-qunu öldürdülər və Qao və Qo kimi klanları məhv etdilər. Nəhayət, Çanın nəticəsi Tyan Xenin özü Tsi hökmdarı Vey-van oldu. O, müharibə apararaq dəhşətli qüvvəsini göstərmək istəyir və əksər halda Jan-tszyuyun metodlarını olduğu kimi tətbiq edirdi və bütün udel knyazları Tsidə özlərinə yer axtarırdılar.

Tsili Vey-van ali rütbəli əyanlara Sıma nəslindən olan əcdadların strategityalarını axtarıb tapmağı, Jan-tszyuyu (onun metodlarını) da ora birləşdirməyi əmr etdi. Buna görə də (kitab) «Sım Jan-tszyuyun hərbi metodları» adlanır.

* * *

Saray tarixçisi deyir: «Mən «Sıma bin fa»nı oxumuşam. Bu geniş, dərin, hərtərəfli əsərdir. Hətta üç sülalə, onların sakitləşdirici yürüşləri onun mənalarını əxz edə bilməz. Əsərin dili də tərifə layiqdir. (Lakin) Jan-tszyuy kimi bir adam kiçik bir dövlətin ordusuna komandanlıq edərkən «Sımın hərbi metodları» kimi əsəri necə yarada bilərdi? Kainatda (Çində) «Sıma bin fa»nın çoxlu sayda surəti vardır. Buna görə də, mən bunu müzakirə etmədim, lakin Jan-tszyuyun bioqrafiyasını yazdım».

Sıma Tsyanın şərhi Jan-tszyuyun kitabla əlaqəsi olduğuna şübhə oyatmasına baxmayaraq, bioqrafiya onun konsepsiyalarının, sadəcə, Sıma nəslinin əcdadlarının ənənələrinə əlavə olunduğunu göstərir. Lakin tarixi əsərlərdə rast gəlinən başqa şərhə əsasən, bu sərkərdə qəddar və əxlaqsız imiş və onun hər hansı xidmətləri ola bilməzdi. Əgər o, hər hansı bir kitab yazsa belə, o itmişdir. Bu

ziddiyyətlərə baxmayaraq, görünür, kitab m.ö. IV əsrin ortalarında– Men-tszının gənclik çağlarında və Konfusinin (m.ö. 551-479-cu illər) ölümündən yüz ildən çox vaxt keçdikdən sonra da eyni görkəmdə mövcud olmuşdur və çox güman ki, «Hərb sənəti» və ya Sun Binin əsərləri ilə eyni vaxtda tərtib edilmişdir.

Mətnin vəziyyəti və əslinə oxşarlığı bir neçə yüz il ərzində elmi mübahisə predmeti olmuşdur. Təəssüflər olsun ki, bu gün əldə olan əsərlər, o cümlədən «Yeddi hərb qanunlar»ından edilən tərcümələr də daxil olmaqla, yalnız həmin əsərlərin ilk variantlarından parçalar olduğu təəssüratlarını yaradır. Xan dövründə mövcud olduğu zənn edilən yüz əlli beş fəsildən yalnız beşi saxlanmışdır və görünür, onlar bizə Tan sülaləsi dövründən vicdanla gəlib çatmışdır. Tsin sülaləsinin (1644-1911-ci illər) tekstoloqları fəsillərin sayının uyğun gəlməməsinə və digər əsərlərdə və müxtəlif şərhlərdə göstərilən fraqmentlərin olmadığına istinad edərək, bu mətni saxta hesab edirdilər. Lakin sonuncu təhqiqatlar sübut etdi ki, bir çox şeylərin itməsinə və ona Çjouya qədərki dövrə aid paraqraflar əlavə olunmasına baxmayaraq mətn orijinaldır. Əgər «Şi tszi» həqiqətə uyğun gəlirsə, onda hər bir paraqrafın müstəqil xarakteri belə bir kitaba tam uyğun gələ bilərdi. Hərbi işə aid olan çoxsaylı konkret məsləhətləri və ideyaları mətnin tərtibatçıları ən müxtəlif mənbələrdən götürmüşlər və buna görə də əsər yalnız cüzi olaraq sistemli ola bilər, bu, yalnız o zaman mümkündür ki, əsər bir nəfər tərəfindən yaradılsın.

«METODLAR»IN MİQYASI VƏ MAHİYYƏTİ

Gecikən Xan dövründə «Erkən Xanın tarixi» əsərinin müəllifi Ban Qu bioqrafik materiallar tərtib etməklə, oraya «li»- «mərasim» bölməsinə «Sıma fa»nı da daxil etmişdir. Çox güman o, ona görə belə etmişdir ki, bu traktat strategiya və taktikaya dair deyil, idarəçilik sənəti, təşkilatçılıq və intizam kimi məsələlərə həsr olunmuşdur. Gecikən Xan zamanı konfusianlığın təsirinin artması və ortodoksal düşüncə tərzinin artdığı kontekstlə, həmçinin «Li tszi»[6] və «Çjou li» («Çjou mərasimləri»nin «Sıma fa» ilə bir çox oxşarlıqları vardır) kimi ən gərəkli traktatlara xüsusi əhəmiyyət verilirdi. Bu kitabda Qərbi Çjou da daxil olmaqla qədim sülalələrin hərbi fəaliyyət formalarının şərhini olduqca təbii hesab etmək olar.

Hətta «Sıma fa»nın bütün əldə olan fraqmentləri də daxil olmaqla, onu bütöv əsər hesab etmək olmaz.

Çünki orada döyüş zamanı komandanlığın taktika və ya hər hansı başqa konkret məsələləri az-az müzakirə olunur. Hər şeydən əvvəl, o hərbi əməliyyatların başlanmasına, hərbi administrasiyanın yaradılması və hərbi kampaniyalara rəhbərlik məsələlərinə dair fikirləri çətin və ötəri dillə azacıq və müxtəlif kontekstlərlə ifadə edir. Strategiya və taktikanın bu qədər qısa müzakirəsi «Altı məxfi təlim»ə o qədər oxşardır ki, o yalnız son üç fəsildə nəzərə çarpır.

Bu fəsillər «Altı məxfi təlim»dən və Sun-tszının «Hərb sənəti»ndən məlum olan bir çox mətləblərdən bəhs edir. Bunların hər ikisinin əhəmiyyəti birinci iki bölmədə idarəçilik və mənəvi nüfuzun roluna aid detalların olmamasına baxmayaraq (bu, belə bir variant yaratdı ki, birinci iki bölmə özündə qədim, ilkin mətnin «müdrik»– qatını, digər üçü isə yalnız Sıma Jan-tszyuyun özünün lazımınca düşünülməyən ideyalarını əks etdirir), onların hər ikisi müzakirə obyektinə çevrilir.

Müharibə və fundamental dəyərlər

Hərbi idarəçiliyə aid kitablardan olan «Sıma fa»da müharibənin dövlətə itaətsizlik edənlərin susdurulması üçün həyati vacib məsələ olduğunu təsdiq edirlər. O vaxtlar mövcud olan ədalətlilik haqqında təsəvvürlərə əsasən müharibə şərin cəzalandırılması və məhkumların azad edilməsi üçün lazımlı vasitədir. Bundan başqa, ədaləti və humanist hakimiyyəti həddən artıq tərifləməyə baxmayaraq, etiraf edirlər ki, «Sıma fa» qüvvədən düşüncəli tərzdə istifadə edilməsində siyasi hakimiyyətin əsası sayılır. Faciəvi qürubun fonunda comərdlərin arqumentləri beladir:

Qədimdə humanistlik bünövrə idi, ədalət isə «səmimiliyi» idarə edirdi. Lakin «səmimiliyin» köməyi ilə arzu olunan məqsədə (mənəvi və siyasi) çatmayanda (hakimiyyətə) əl atırdılar. Hakimiyyət adamların sülhündən yox, müharibədən yaranır. Buna görə də xalqın varlığını saxlamaq üçün azca adam öldürmək lazımdırsa, bunu müharibə həll edir. Öz xalqına nifrət edən dövləti məhv etmək lazımdırsa, bunu müharibə həll edir. Əgər müharibəni müharibə ilə dayandırmaq lazımdırsa, bunu müharibə həll edir (I fəsil).

Qeyd edək ki, mətn müharibəyə susamağa qarşı ciddi xəbərdarlıq edir: «Hətta dövlət geniş də olsa, müharibəni sevənlər ölümə məhkumdurlar. Hətta Kainatda (Səmaaltında-Çində) rahatlıq hökm sürəndə belə, müharibəni unudanlar təhlükədə olacaqlar».

Hərbi və mülki sahələrin bölünməsi

«Sıma fa»nın realist ənənələr axınında olmasına baxmayaraq, hərbi və mülki sahələr arasında sərhəd qoyulduqda o, «Döyüşən Çarlıqlar» dövründə dəyişən şəraiti əks etdirmişdir.

Sonrakı Çin tarixində daha çox aşkar olan bu bölmənin dərk edilməsi, çox güman, Konfusinin şagirdləri və bilavasitə onların ardıcılları tərəfindən konfusianlığın təsirinin daim artmasında daha çox vüsət almışdır. Əgər Şan və Çjou dövründə hakimiyyətin siyasi və hərbi funksiyaları, praktik olaraq ayrılmaz idisə, «Sıma fa»nın yaradıcıları qeyd edirlər ki, mülki və hərbi sahələr hərtərəfli ayrı olmalıdır, yoxsa əks dəyərlər ortaya çıxara bilərlər. İki reallığın fərqləri ləyaqət və lazımi idarəçilik formaları haqqında ideyaların təsirinin artması ilə dəqiqliklə qəbul edilməyə başladı ki, bunlar da Çjou sivilizasiyasının təsiri altında geniş yayıldı. Xan sülaləsinin

banisi Lyu Bin Kainatı atdan düşmədən fəth etməyi, lakin onu «li»siz (səmimilik qaydaları), hökmdar obrazı və qayda yaratmadan idarə etməyin mümkün olmadığını gec anladı. Axı, ona lazım olanları, özünü keçmiş kobud əlaltıları üzərində hökmranlığı artırması mərasimlərdə yaranır, müdafiə olunur.

Çjou sülaləsi sülh və tərəqqinin ilkin dövrlərində intellektual səylərin yetişməsinə imkan yaratdığı bir vaxtda müharibə ikinci plana keçirilmişdi. Dinc yaşayış mənəvi nailiyyətlərə səbəb olsa da, əsas hərbi dəyərlərdən heç vaxt tam imtina edilmirdi. Çində mülki və hərbi yolların başlanğıcı ayrıldı.

Qədimdə mülki işlərin düzgün və dini idarə edilməsi hərbi sahədən ayrı idi; hərbi sahəyə lazım olanların heç biri mülki sahədə yox idi. Əgər qayda və ruh (hərbi sahədə) mülki işlərə qarışsa, xalqın xeyirxahı süquta başlayacaq. Mülki sahədə qayda və ruh hərbi işlərə qarışsa, xalqın xeyirxahı zəifləyəcək.

Xalq arasında mülki sözü təmtəraqlı, danışıqda isə həziniklə səslənir. Sarayda hamı mehriban və ədəblidir və özünü başqalarına xidmət üçün tərbiyə edir. Çağırmasan, bir addım atmaz, dindirməsən, bir kəlmə dinməz. İrəliləmək çətin, kənara çəkilmək asandır.

Hərbçilər arasında hamı sözü düzünə deyir və möhkəm dayanır. Döyüş cərgəsində hər kəs borcunu ödəyir və əzmlə hərəkət edir. Döyüş sürsatı gəzdirənlər təzim etmirlər; cəng arabalarının əsgərləri (li) mərasimləri keçirmirlər; istehkamlarda dayananlar vurnuxmurlar. Təhlükə zamanı heç kim rütbəyə fikir vermir.

Beləliklə, mülki əxlaq normaları (li) və hərbi qanunlar (fa) sağdakı və soldakı kimidir (II fəsil). Sarayda qəddarlıq, yaltaqlıq və nifaq hökm sürür; orduda ab-hava ciddi, kəskin və işgüzardır. Mülki həyat hərbi ruhu tamamilə məhv edir, müharibədə isə təhlükə əzmkar və igid olmağa məcbur edir və hər cür naqis keyfiyyətləri düzəldir.

İdarəçiliyin əsaslandığı başlıca ləyaqətlərin siyahısı, bütövlükdə dəyişməmişdir: hümanistlik, ədalətlilik, vicdanlılıq, etibarlılıq, sədaqətlilik, xeyirxahlıq, igidlik və aqillik. Lakin Erkən Çjou dövründəki «mərasim» müharibələrindəki döyüşlər və «Döyüşən Çarlıqlar» dövründəki vuruşmalar qismən qəddarlığa və sözsüz itaətkarlığa məcbur edirdi.

Qədim ideyalar, düşmən düzülməyi başa çatdırmamış ona hücum etməməyi və əgər o, evə qayıdırsa, onu təqib etməməyi tələb edirdi. O, vaxtlar müdafiədən və öz tələbatını məhdudlaşdırmaqdan söhbət gedirdi. İstənilən müharibə səbəbsiz olmamalı idi. Belə «mərifət» bəzən strateji üstünlüklə əsaslandırılırdı, lakin belə izahat o qədər də inandırıcı deyildi. Başqalarından fərqli olaraq «Yeddi hərb qanunu», «Sıma fa» tamamilə başqa ruhdadır: bu, hətta məhz hərbi xidmətləri

sayəsində hakimiyyət və təsir zirvəsinə nail olmağı bacaran tərtibçilərə də təsir etmişdir.Qaçan düşməni təqib etmək qaydalarında öz tələbatını məhdudlaşdırmağın ən yaxşı nümunəsi kimi qədimdən daha çox inandırıcı hal beladir:

Qədimdə adamlar qaçan düşməni yüz addımdan çox təqib etməzdilər və geri çəkilən düşmənin arxası ilə üç gündən çox getməzdilər: bununla da, ədəblilik normalarına riayət edilməsini göstərirdilər. Onlar bacarıqsızların qüvvəsini tükətməzdilər, yaralılara və zəiflərə rəhm edərdilər, bununla da, öz humanistliklərini göstərərdilər. Onlar düşmən sıraya düzülməsini başa çatdıranadək gözləyərdilər və yalnız bundan sonra hücuma keçərdilər, bununla da, xoş məqsədliliklərini göstərərdilər. Onlar xeyirləri uğrunda yox, ədalət uğrunda mübarizə aparardılar, bununla da, öz ədalətliliklərini göstərərdilər. Bundan başqa onlar itaət edənləri bağışlamağı bacarardılar, bununla da, öz mərdliklərini göstərərdilər. Onlar sonu, başlanğıcı bilirdilər, bununla da, öz aqilliklərini göstərirdilər. Altı xeyirxaha, eyni zamanda, təlim keçir və onları adamlar üçün əxlaqın əsası olan Dao hesab edirdilər. Qədimdəki qaydalar belə idi (I fəsil).

Lakin yeni döyüşlərin reallığının təsiri «qaçan düşməni təqib edərkən hücum etmə; əgər düşmənin bir hissəsi dayanmışsa, digər hissəsi kənara qaçırsa, sayıq ol» və i.a. belə təlimatlarda öz əksini tapır.

İnsanlara sevgi

«Yeddi hərbi qanun»un müəllifləri kimi «Sıma fa»nın yaradıcıları da qeyd edirlər ki, adamlara yardım göstərmək qoşunun səfərbərliyi üçün yeganə haqq qazandıran amildir. Bundan başqa, şərin və iztirabların məhv edilməsindən əldə olunan ictimai fayda hakimiyyətin başlıca məqsədi olmalıdır. Əgər hökmdar xalqın ona itaət və etibar etməyini istəyirsə, onun bütün səyləri kənd təsərrüfatı mövsümlərinin pozulmasına yol verməməyə yönəldilməlidir. Daha sonra düşmən əhalisinin bədbəxtliklərinin artmasına səbəb olan hərbi əməliyyatlardan da çəkinmək lazımdır.

Nə kənd təsərrüfatı mövsümlərinə zidd hərəkətlər, nə adamların əldən salınması öz xalqını sevmək vasitəsi ola bilməz. Nə matəm içərisində olan dövlətə hücum etmək, nə təbii fəlakətlərin üstünlüyündən istifadə etmək heç cür düşmənin xalqına məhəbbətin ifadəsi ola bilməz. Ordunu nə qışda, nə yayda toplamamalı, bu, həm öz xalqına, həm də düşmənin xalqına məhəbbət əlamətidir.

Ordunun qışda toplanmasının qadağan edilməsi səbəbi heç də tam aydın deyil, çünki payız, adətən, hərbi hazırlıq vaxtıdır və yürüşlər isə həmişə qış dövrünə təsadüf etmişdir.

Düşmənin ərazisini ələ keçirərkən adamları ayağa qaldırmağa və ya onlara bədbəxtlik gətirən məhrumiyyətlərə

sürükləyən, bununla da yeni hakimiyyətə qarşı çıxmağa köklәyən bütün hərəkətlər qəti qadağan edilməlidir.

Qanunu tapdalayan dövlətin torpağına ayaq basarkən onu allahların qəzəbinə tuş etməyin: vəhşi heyvanları ovlamayın; torpaq istehkamları uçurmayın, meşələri doğramayın; altı ev heyvanını, taxıllarını və ya alətlərini əllərindən almayın.

Qocalar və uşaqlarla qarşılaşarkən onlara xələl yetirmədən evlərinə qaytarın. Hətta əgər hələ döyüşə başlamayan böyüklərlə qarşılaşsanız, onlarla düşmən kimi rəftar etməyin. Əgər düşmən yaralıdırsa, ona kömək göstərin və evinə qaytarın (I fəsil). İcazəli hücumların başlanmasına haqq qazandıran yeganə amil qeyri-humanist hökmranlığın kökünün kəsilməsi olsa da, günahkarların cəzalandırılması üçün başlanan istənilən yürüş müəyyən olunmuş dəyərlərə uyğun gəlməlidir. Buna görə də «Sıma fa»da qabaqcadan keçiriləcək mərasimlərin təntənəli ifşaedici xarakteri, həm də əsgərlərin hərəkətlərinin humanistliyinin həyati əhəmiyyət kəsb etməsi qeyd olunur.

O vaxtın digər hərbi traktatlarında öz əksini tapan siyasət düşmənin müqavimətinin zəiflədilməsinə yönəldilmişdi. Lakin humanistlik və ədalət ruhu «Döyüşən Çarlıqlar» dövrünün şahidi olduğu, əvvəllər qəddarlıqda bərabəri olmayan, o vaxt qaçılmaz səhv buraxaraq döyüşməyərək əsir düşənlərin, ölümə nifrət edərək yüz minlərlə adamın məhvinə səbəb olanların, az qala, dövlətin zənginləşməsində yeganə çıxış yolunu müharibədə görüb onu bilərəkdən qızışdıranların avtoritar siyasətinə parlaq şəkildə nəzarət edir.

MÜHARİBƏ: ÜMUMİ PRİNSİPLƏR VƏ TƏRKİB HİSSƏLƏRİ

Məşq və təlim

Əsgərlərin təlimi olduqca çətin işdir.

Müharibədə döyüş qaydası yaratmaq çətin deyil: çətinlik əsgərlərin döyüş qaydasında durması üçün əmr etməyə nail olmaqdadır. Onları hazırlaşmağa məcbur etmək deyil, çətinlik onlardan istifadə etməyi bacarmaqdadır. Nə etməyi təsəvvür etmək çətin deyil, ən ağırı onu necə həyata keçirməkdir.

Əsgərlər dünyanın hər tərəfində (dörd tərəfdə) öz şəxsi təbiətinə malikdirlər. Vilayətlərdə də xarakterlər müxtəlifdir.Təlim nəticəsində onlarda yerli vərdişlər yaranır, buna görə də bütün dövlətlərin adətləri bir-birindən fərqlənir. Onların adətlərini (yalnız) Dao vasitəsilə dəyişmək olar (IV fəsil).

Burada iki məqamı qeyd etmək lazımdır. Birincisi, əsgərlərin təlimi onlardan döyüşdə potensial istifadə edilməsinin əsasıdır. İkincisi, onların xasiyyətləri və davamlılıqları kampaniyanın nəticələrinə təsir göstərir (məhz buna görə Tay-qun yerli adətlərin

qorunub-saxlanmasına tərəfdar çıxırdı). Regional xüsusiyyətlərə həssas və diqqətli münasibət Çin psixologiyasının məhək daşı sayılır və zaman-zaman onlar daha çox yayılmışdır.

Döyüşdəki uğur hazırlıq səviyyəsindən asılıdır. Əgər ordu yaxşı təlim keçmişsə, döyüşün nəticəsinə təsir edən strategiya barədə söhbət açmaq olar. Komandan seçdiyi taktikanı ordunun imkanları ilə müqayisə etməyi bacarmalıdır; yalnız onun əsgərlərinin arzuladıqları qərarlar qəbul etməli və düşməni var gücü ilə yaxa qurtarmaq istəməyə məcbur etməlidir.

Əsgərlərin sürsatları davamlı, silahları isə yaxşı, müxtəlif və kifayət qədərolmalıdır. Əsgərlər istənilən silahlar və qurğularla rəftar etməyi bacarmalıdırlar.

Sərkərdə ordunun bütün yerləşmələrini nəzarətdə saxlamalı və xaosa yol verməməlidir. Müvafiq balansı saxlamalıdır, əks təqdirdə olduqca uzun istirahətdən sonra qeyri-mütəşəkkillik və vuruşmaq istəməməyə bərabər olan təhlükə, həm də həddən artıq yorğunluq üzündən bacarıqsızlıq kimi hallar özünü büruzə verəcəkdir. Hətta ən bədbəxt hallarda belə vəziyyətə görə rahatlıq və nəzarət qələbənin açarıdır. Əsl sərkərdə tərəddüd və qorxunun nə olduğunu bilmir.

«Sıma fa»nın bəzi taktiki konsepsiyaları həmin dövrün digər traktatlarını xatırladır. Məsələn, müdrik komandan həmişə düşməni hərtərəfli qiymətləndirir, sonra isə zəif yerinə hücuma keçir. O, təpələrdə mövqe tutmaq və bərkiməklə, su hövzələrindən və bataqlıqlardan yan keçməklə, məhdud yerlərdə pusqular haqqında fikirləşməklə ərazinin üstünlüklərindən istifadə edir. O, öz fəaliyyətini Səma ilə müqayisə etməlidir, çünki Səma təkcə ilin fəsillərini və hava şəraitini müəyyən etmir, həm də döyüşdən əvvəlki əlamətləri də bildirir.

Şan və Qərbi Çjounun sitayiş və ayinlərinin təsirləri özünü bunda büruzə verir.

Ruh və igidlik

«Sıma fa»da əsgərlərin sübutlarına, onların ruhi əhvalına və igidliyi möhkəmlətmələrinə daha çox diqqət ayrıldığı üçün bu səbəbdən həmin məsələyə irad tutmağımıza lüzum qalmır. Qədim Çində praktik olaraq hər bir hərbi düha əsgərlərin lazımi döyüş əhvalına nail olunması və igidlik tərbiyəsi alması kimi mövcud məsələyə bir neçə dəyərli əsərlər həsr etmişdir. Bu məsələyə ən geniş yayılmış münasibət mükafatların qənaətbəxş, cəzanın isə əks təsiridir. Lakin əsgərlərin ruhlandırılmasında başqa yolların mövcud olduğu da dərin düha sahiblərinin diqqətindən kənarda qalmamışdır. Axı cəzalandırma və ölüm qorxusu yeganə amillərdən deyildir. Ədalətlilik, insanpərvərlik, maddi mükafatlandırma və hörmət təlimat və təlimlərin səlistləşdirilmiş özək stimullarıdır.

«Sıma fa» üçün «tsi» anlayışı kifayət qədər labüddür, axı, qorxu və igidlik psixologiyası məhz onun köməyi ilə izah olunur. Məsələn, uzun sürən qarşıdurmada igidlik həlledici rol oynayır:

Bütövlükdə döyüşə gücün sayəsində davam gətirilir, qələbəyə isə ruhun köməyi ilə nail olunur. Müdafiəyə davam gətirmək olar, qələbə isə təhlükəyə məruz qalır. Ürək öz kökündə möhkəm olduqda «tsi»nin yeni dalğası qələbə gətirir (IV fəsil).

Buna görə də tərəddüd edənlər, narahatlıq keçirən, qorxudulan və ya qorxuya düşən kəslər ordunu parçalayırlar. «Nə vaxt əsgərlərin ürəyi, qələbə hissi ilə doludursa, onların gördükləri nə varsa- bu, düşməndir.

Nə vaxt onların ürəyi qorxu hissi ilə doludursa, onların gördükləri nə varsa,- bu, qorxudur». (IV fəsil). Fərasətli komandan o yerdən hücuma keçir ki, orada düşmən arasında tərəddüd var və o, orada daha zəifdir. Bu vəziyyətdə ordu üzərində tam nəzarətin müəyyən edilməsi birinci dərəcəli əhəmiyyət kəsb edir.

Mövqelər ciddi surətdə müəyyən edilməlidir; inzibati tədbirlər sərt olmalıdır; qüvvə mütəhərrik olmalıdır; əsgərlərin «tsi»si gərgin olmalı, ürəkləri (komandirlərin və adamların) isə birləşməlidir. (IV fəsil).

«Tsini qaldırmağın» üsulları arasında mərasim andları və sonuncu ehtiyatlılıq vacib amillərdəndir.

And dövləti allahlı olmağa, işləri şöhrətləndirməyə, məqsədləri anlatmağa, düşməni damğalamağa və ədalətli olmağa çağıracaqdır:

And aydın və oyadıcı olduqda adamlar güclü olacaqlar və ölümə məhkum olmağı və xoş əlamətləri seçməyi bacaracaqlar... adamların əhvalını ədalətlilik ruhu ilə qaldır; hərəkətlərini lazımi məqamlarda etməyə qərar ver (III fəsil).

Keçmişin əfsanəvi hökmdarları bilirdilər ki, and xüsusi məqamlarda ifadə olunduqda daha çox səmərəli olur, lakin onlar müvafiq vaxtı başqa cür müəyyən edirdilərsə, məqsəd dəyişməz olaraq qalırdı– daha çox psixoloji təsirə nail olmaq.

Şun dövlətin paytaxtında öz missiyasını elan edir, o, istəyir ki, adamlar, ilk növbədə, onun əmrlərinə riayət etsinlər. Sya hökmdarları ordu arasında and içirdilər, istəyirdilər ki, adamlar əvvəlcə onların fikirlərini tamamlasınlar.

Şan hökmdarları düşərgənin darvazaları dalında and içirdilər, istəyirdilər ki, adamlar ilk növbədə öz hisslərini möhkəmlətsinlər və döyüşü gözləsinlər. Çjou hökmdarı (U-van) silahların bir azdan çarpazlanacağını gözləyirdi və sonra adamların (döyüşə) iradəsini möhkəmlətmək üçün and içirdi. (II fəsil).

Yürüşdə, həlledici döyüşdən və ya ölüm təhlükəsi qorxusu yarandığı vaxt hər cür ümid kəsildikdə evə qayıtmaq və ehtiyatları məhv etmək adamları ruhlandırmağın sonuncu vasitəsidir. «Sıma fa» (Sun-tszı kimi) buna bir də vida məktubu əlavə edir:

Vida məktubunun yazılması «həyat haqqında düşüncələrlə əlaqəni kəsmək» adlanır. Ən yaxşı əsgərlərin seçilməsi və silahların hazırlanması «adamların gücünün artması» adlanır. Dəftərxananı arxada qoymaq və minimum sürsat götürmək «ürəyini adamlara açmaq» adlanır (V fəsil).

«Sıma fa»nın konsepsiyasına əsasən mükafatlar və cəzalar ordunu möhkəmlətməyin əsas üsullarıdır. Traktatın yaradıcıları həm mükafatları, həm də cəza tədbirlərini etiraf edən xeyirxahları itirmək nəzəriyyəsini qəbul edirlər:

Qədimdə tam aqil hökmdarlar üzdə olan xeyirxahlara hörmət edir və onların xeyirxahlıqlarını (axtarırdılar). Buna görə də onlar xeyirxaha xor baxmırdılar və adamları alçaltmırdılar. Mükafatlar paylanmırdı, cəzanı tətbiq etməyi isə heç yoxlamamışdılar.

Şun nə mükafatlandırırdı, nə də cəzalandırırdı, adamlardan isə istifadə etmək olardı. Bu xeyirxahlığın zirvəsi idi. Sya mükafatları paylayırdı, lakin cəza müəyyən etməmişdi. Bu, təlimatın zirvəsi idi.

Çjou həm mükafatdan, həm də cəzadan istifadə edirdi və xeyirxahlığı məhv edilmişdi. ..

Sya xeyiri yüksəltmək üçün sarayda mükafatlandırırdı. Şan şəri qorxunc etmək üçün meydanda cəzalandırırdı. Çjou xeyirxahları ruhlandırmaq və sadə adamları qorxutmaq üçün sarayda mükafatlandırır, meydanda edam edirdi. Buna görə də hər üç sülalənin hökmdarları eyni oxşar yolla xeyirxahlıq göstərirdilər (II fəsil).

Sya hakimiyyəti öz ləyaqətini qoruyurdu və heç vaxt silahını sıyırmırdı, buna görə də, silahı qarışıq salmadı. Şan hakimiyyəti ədalətə söykənirdi, buna görə də, onlar silahın itiliyindən birinci istifadə etdilər. Çjou hakimiyyəti gücə söykənirdi, buna görə də onlar büsbütün silahın itiliyi ilə hərəkət edirdilər.

Mətnə cəzaların və mükafatların vaxtında tətbiq edilməsi barədə ümumi təlimatlar da daxil edilmişdir. Yenidən döyüşə başlamaq lazım gəldikdə onları həlledici tədbirlərlə gücləndirmək barədə gözlənilməz hadisələrdən istifadə edilməsi maraqlıdır:

Əgər müharibədə qələbə çalmısansa, nailiyyəti və tərifi qoşunla bölüş. Əgər yenidən döyüşə başlamaq lazımdırsa, mükafatları olduqca bol, cəzaları isə daha ağır et. Əgər onları qələbəyə istiqamətləndirmək mümkün olmasa, təqsiri öz üzərinə götür. Əgər yenidən döyüşmək lazımdırsa, and iç və qoşunun qabağında dur. Əvvəlki taktikanı tətbiq etmə. Qələbə çalsan da, çalmasan da, bu metoddan geri çəkilmə, çünki bu «həqiqi prinsip» adlanır (IV fəsil).

Bu əsgərlər döyüşə hazırlaşdıqdan sonra mükafatın və cəzanın ümumi tətbiq edilməsi siyasəti ilə razılaşdırılır:

Tsini (ruhu) qaldıran və idarə etməni (mükafatlandırma və cəzalandırma) müəyyənləşdirən zaman onları qayğı ilə əhatə et və

nitq söyləyərək arxanca apar. Onları öz qorxuları ilə məzəmmət et, öz istədikləri tapşırıqları ver (III fəsil).

Digər məşhur strateqlər də mükafatlar və cəzalar barədə təxminən eyni fikri söyləyirlər, lakin «Metodlar»da iki xüsusi məqam vardır.

Birincisi, onlar ordunun qələbə çalmasından və ya məğlub olmasından asılıdır.*Böyük qələbələrə görə mükafatlandırma, çünki onda nə yüksək rütbəlilər, nə aşağıdakılar öz nailiyyətləri ilə öyünməyəcəklər. Əgər yüksək rütbəlilər öyünə bilmirlərsə, onlar təkəbbürlü olmayacaqlar, əgər aşağıdakılar öyünə bilmirlərsə, adamlar arasında fərq olmayacaq. Haçan ki, heç kim öyünmür, hörmət əlamətinin məğzi bundadır.*

Tam məğlub olduğun halda heç kimi cəzalandırma, çünki bu zaman həm yüksək, həm də aşağı rütbəlilər öz biabırçılıqlarını etiraf edəcəklər. Əgər yüksək rütbəlilər özlərini qınayacaq, səhvlərinə peşiman olacaqlar, əgər aşağı rütbəlilər özlərini qınayacaqlarsa, onda onlar mütləq özlərini şərəfsizlikdən qurtarmağa çalışacaqlar. Bütün rütbəlilər öz aralarında şərəfsizliyə görə (məsuliyyəti) bölüşərkən güzəştə getməyin məğzini anlayırlar (II fəsil).

İkinci hal: əsgərlər düşməndən o qədər qorxmuşdur ki, nə mükafat almaq perspektivi, nə ən ağır cəza onlara heç cür təsir göstərə bilməz. Bu zaman prinsipcə başqa bir yanaşma mövqeyi ortaya çıxır ki, onun da əsas məqsədi qoşunun əhval-ruhiyyəsini idarə etməyi nəzarətə götürməyə cəhd göstərməkdir.

Əgər onlar qorxuya düşmüşlərsə, edam etmə və ya ağır cəzalarla hədələmə, geniş qəlblə aramlıq göstər. Onlarla nəyə görə yaşadıqları barədə söhbət et və öz vəzifələrini necə yerinə yetirmələrini izlə (IV fəsil).

Fərdi təcridliliyi bununla aradan götürmək və qorxu hissinə son qoymaq olar ki, bu da sərkərdəyə öz hərarətli nitqində əsgərlərin ədalətli əməli, alacaqları mükafat və həyatlarının məqsədi barədə söhbəti ilə onların diqqətini başqa səmtə yönəltməyə imkan verər. «Sıma fa»da əsgərlərin yalnız təhlükə hallarında öz ruhlarını və güclərini göstərə bilməsi öz təsdiqini tapmışdır. Şübhə (tərəddüd) və qorxu ən böyük düşməndir. Lakin əgər plan yaxşıdırsa, ədalət göz qabağındadır, adamlar təlim keçmişsə, ordu qalib gələcək.

Döyüşü idarə etmə konsepsiyası

Mətn də, haqqında bəhs olunan bir sıra süjetlər də diqqətəlayiqdir,

öz-özlüyündə onlar əlavə izah tələb etmir. Lakin sonuncu üç fəsildə döyüşün idarə olunması barədə texniki ideyalar xüsusi maraq kəsb edir. Əsas prinsiplər arasında aşağıdakılar var: düşməni dərindən təhlil etmək, qüvvələr balansını hesablamaq və bu qüvvələrdən düzgün istifadə etmək; nəzərə çarpan cüzi üstünlüyün yalanından yaxa qurtarmaq; mütəşəkkil qaydada hərəkətdən

sonrakı həlledici anda qüvvələri vahid yumruq halında cəmləşdirmək; adamlar arasında qarşılıqlı anlaşma yaratmaq. Ərazinin üstünlüklərindən tam istifadə edilməlidir, qüvvələrin cəbhə boyu hücum taktikası onların xarakter və təlimlərlə, silahlanma və ruhi keyfiyyətlərlə müəyyən edilən nisbi qüvvədən asılıdır. Hətta düşmən sayca xeyli az olduqda belə onu saxlamağa və qələbə çalmağa imkan verən taktika hazırlanmalıdır. «Sıma fa»da bu prinsiplər mühakimə kimi əsas götürülür və ətraflı müzakirə edilmir; bu barədə digər hərbi traktatlarda daha çox söhbət açılır. Psixoloji metodların əhəmiyyəti də qeyd olunur; buraya düşməni qaçış üçün keçid saxlamaqla vuruşmaq ümidindən məhrum etmək, düşmənin çıxılmaz vəziyyətdə qaldığı və həyat uğrunda deyil, ölüm uğrunda vuruşmağa məcbur olduğu vəziyyətdən uzaqlaşmaq; düşmənin beyninə şübhə toxumu əkmək kimi amillər daxildir.

1.HUMANİZMİN ÖZÜLÜ

Qədimdə humanizm özül idi. Ədalətlilik isə «düzlüyü» idarə edirdi. Lakin «düzlüklə» arzu olunan (mənəvi və siyasi) məqsədlərə nail olunmadıqda, gücə (əl atırdılar). Güc adamlar arasındakı harmoniyada deyil, müharibədə ortaya çıxır. Buna görə də, müharibə insanlara sülh bəxş etmək üçün nə qədər adamı məhv etmək lazımdırsa, bunu qətl həll edir. Əgər öz adamlarını sevməyən dövlətə hücuma keçmək lazımdırsa, hücum baş tutur. Əgər müharibəni müharibə ilə dayandırmaq lazımdırsa, o, öz həllini tapır. Buna görə də humanistliyi sevir, ədalətliliyə həvəslə tabe olur, müdrikliyə güvənir, etibara isə inanırlar. Bununla bərabər (hökmranlıq) onu qoruyan adamların məhəbbətini qazanır. O kənarda onu möhkəmlədən[7] qorxunc qüvvəyə çevrilir.

* * *

Müharibə Daosu: nə kənd təsərrüfatı mövsümünə zidd çıxmaq, nə adamları əldən düşmək həddinə çatdırmaq öz xalqını sevmək vasitəsi ola bilməz. Nə hələlik matəm içərisində olan dövlətə hücum etmək, nə təbii fəlakətin üstünlüklərindən istifadlə etmək, heç bir halda, öz xalqını sevmək vasitəsi ola bilməz. Ordunu nə qışda, nə də yayda yığmamalı, öz xalqını sevmək vasitəsi məhz budur. Buna görə də, dövlət nə qədər geniş olsa belə, kim ki, müharibəni sevir, onun məhvi qaçılmazdır. Hətta Kainat sakit olsa da, müharibəni unudan hər kəsin təhlükədə olması qaçılmazdır.

Kainat sülhə qədəm qoyduqda, Səma oğlu (bunun şərəfinə) «Da kay» (Böyük dünya) musiqisini ifa edir. Sonra o yazda «tszou» ovu, payızda isə «syan» ovu təşkil etdi. Udel knyazları yazda öz dəstələrinin yaxşı hazırlanması tədbirini keçirir, payızda isə öz əsgərlərini öyrədirdi. Beləcə, onlar müharibəni yaddan çıxarmırdılar.

* * *

Qədimdə adamlar qaçan düşməni yüz addımdan çox təqib etməmiş və geri çəkilən düşmənin arxasınca üç gündən çox getməmiş, bununla da ədəb qaydalarına (li) riayət etmişlər. Onlar bacarıqsızları əl-ayaqdan salmaz, yaralılara və zəiflərə rəhm edər və bununla da öz humanistliklərini göstərərdilər. Onlar düşmənin cərgəyə düzülməsini başa çatdıranadək gözləyər və yalnız bundan sonra «hücum» edər, bununla da, öz xoş məqsədlərini bildirərdilər. Onlar mənfəət uğrunda ədalətliliklərini nümayiş etdirirdilər. Bundan başqa onlar itaət edənləri bağışlamağa qadir idilər və bununla da, mərdliklərini göstərirdilər. Onlar əvvəli də bilirdilər, sonu da və bununla öz müdrikliklərini göstəriirdilər. Altı xeyirxaha eyni vaxtda təlim keçir və onları adamların əxlaqı üçün Daonun əsası hesab edirdilər.

* * *

Keçmişdəki hökmdarların dövlət işləri. Onlar Səma Daosuna riayət edir və Yerə uyğun gələnləri müəyyənləşdirirdilər.

Onlar məmurları xeyirxahlardan təyin edir, adları düzəldir və əşyaları idarə edirdilər. Onlar dövlət yaradır, fərdləri müəyyənləşdirir və onları buna əsasən mükafatlandırırdılar. Udel knyazları razı və itaətkar idilər. Dənizlərin arxasından onlara baş əyməyə gəlirdilər. Aqil xeyirxahların qəhrəmanlıqları belə idi.

* * *

Sonra ləyaqətli hökmdarlar var idi. Onlar mərasimlər, musiqi, qanunlar və ölçülər düzəldirdilər; sonra ədalətsizlərə divan tutmaq üçün ordudan istifadə etməklə beş cəza növü təsis etdilər. Onlar (udellər üzrə) müfəttiş səfərləri etdilər, dünyanın dörd bir yanının (adətlərini) mənimsədilər, udel knyazlarını bir yerə yığdılar və fərqlərini müzakirə etdilər (Udel knyazlarından) əmrə tabe olmayanlar, qaydaları pozanlar, xeyirxahlığa dönük çıxanlar və ya Səmanın mövsümlərinin gedişini pozanlar, bununla da, hökmdarın ləyaqətinə xələl gətirənlər barədə müqəssirlərin adlarını çəkməklə, udel knyazları ilə söhbət edirdilər. Sonra bunu müqəddəs Səmaya, günəşə, aya, dörd mövsümün ruhlarına, çaylara və dağlara, həmçinin (dövlətin) yüksək səcdəcahında elan edirdilər. Onlar sonra keçmişdəki hökmdara qurbanlıq gətirirdilər. Yalnız bundan sonra birinci nazir udel knyazlarının gözü qarşısında belə deyirdi: «Hansısa, dövlət Daonu pozub. Hansısa ildə, ayda və gündə siz barışdırıcı yürüşdə iştirak edəcəksiniz. Hansısa, gündə ordu (müqəssir) dövləti ələ keçirəcək və «səhvi düzəltmək cəzasını» tətbiq etmək üçün Səma oğlu ilə birləşəcəkdir».

Birinci nazir və başqa yüksək rütbəlilər orduya aşağıdakı əmrləri verir:

«Qanunu pozan dövlətin torpağına ayaq basarkən onu allahın lənətinə gətirməyin; vəhşi heyvanları ovlamayın; torpaq istehkamları uçurmayın; evləri yandırmayın, meşələri doğramayın; altı ev heyvanını, taxılı və ya alətləri götürüb aparmayın. Qocalarla və azyaşlılarla qarşılaşdıqda onlara zərər yetirmədən evlərinə qaytarın. Hətta bu vaxtadək döyüşə girişməyən böyüklərlə qarşılaşdıqda belə onlarla düşmən kimi davranmayın. Əgər düşmən yaralıdırsa, ona kömək edin və evinə qaytarın».

Hökmdar müqəssirləri edam etdikdən sonra udel knyazları ilə birlikdə dövlətdə (idarəçiliyi və adətləri) tənzimləyir və düzəldirdi. Onlar layiqliləri qabağa çəkir, elmli hökmdarı taxt-taca qaldırır, həmçinin rütbələri, eləcə də, vəzifələri tənzimləyir və bərpa edirdilər.

* * *

Hökmdarların və hegemonların udel knyazlarını idarə etmələrinin altı üsulu vardı: Onlar torpağı verərkən udel knyazları üçün sərhədlər müəyyənləşdirirdilər.

Udel knyazlarını fərmanla barışdırırdılar. Udel knyazlarını mərasimlər və xoş məqamlarla bir-birlərinə yaxınlaşdırırdılar. Onlar udel knyazlarını müdriklərin köməyi ilə sevindirirdilər. Onlar silah və sürsatların köməyi ilə udel knyazlarının itaət etməsinə nail olurdular. Onlar udel knyazlarını dərdlərinə və gəlirlərini bölüşməklə birləşdirirdilər. Onlar udel knyazlarında harmoniya yaratmaq üçün kiçik dövlətləri böyüklərə xidmət etməyə məcbur edirdilər.

* * *

Onlar doqquz qadağanı elan etmək üçün bir yerə toplaşırdılar:

Kim (başqa dövlətin) zəifliyindən və ya dövlətin kiçikliyindən istifadə etsə, hər tərəfdən mühasirəyə alınacaq. Kim ləyaqətliləri öldürür və adamlara zərər gətirirsə, devriləcək. Kim öz dövlətində qəddarlıq edirsə və digər dövlətlərə hücum edirsə, kənarlaşdırılacaq. Kimin torpağında ot bitirsə və adamları səfillik edirsə, onun sərhədləri götürüləcək.

Ərazinin mənfəətindən istifadə edərək əmrlərə tabe olmayanlar əziləcək. Öz qohumlarını xoşlamayanların dərsi veriləcək. Kim öz hökmdarını öldürsə, edam olunacaq. Kim inadçı və cəfəngdirsə, kim tez özündən çıxan və söz anlayan deyilsə, məhv ediləcək.

2.SƏMA OĞLUNUN VƏZİFƏLƏRİ

Səma oğlunun borcu hər işi Səmaya, Yerə və keçmişin kamil müdrikinə riayət etməklə görməkdən ibarətdir. Məmurların və sadə adamların borcu öz valideynlərinə itaətlə qulluq etməkdən və hökmdarı və yüksək vəzifəlilər qarşısında səmimi olmaqdan ibarətdir.

Hökmdar ziyalı, məmurlar isə bisavad olsalar, onlardan heç bir fayda yoxdur. Qədimdə insanları təlimatlandırdıqda, onlar mütləq münasibətləri müəyyənləşdirir və sadələrlə tanınmışlar arasında olan fərqi möhkəmləndirdilər.

O vaxt tanınmışlar bir-birinə sui-qəsd etmirdilər; xeyirxahlar və ədalətlilər bir-birlərini üstələmirdilər, istedadlılar və qabiliyyətlilər bir- birlərinin yolunu kəsmirdilər, igidlər və güclülər isə bir-birləri ilə toqquşmurdular. Buna görə onların gücü bir idi, düşüncələri isə harmoniyada birləşirdi.

* * *

Qədimdə mülki işlərin idarə olunmasının forması və ruhunun hərbi sahədə tətbiqi mümkün deyildi, hərbi işlərdə tətbiq olunanların

isə mülki işlərdə tətbiqi qeyri-mümkün idi. Buna görə də, xeyirxahlıq və ədalətlilik öz yerində idi.

Yüksək vəzifəlilər özünü öyməyən məmurlara qiymət verirdilər. Əgər onlar öyünən deyillərsə, deməli, tamahkar deyillər, əgər tamahkar deyillərsə, deməli, dalaşqan deyillər. Yüksək vəzifəlilər dövlət işlərinə nüfuz etməklə onların əsl simasını açmaq istəyirlər, hərbi işlərə nüfuz etməklə onlar müvafiq cismi müzakirə etməlidirlər. Buna görə də istedadlılar və qabiliyyətlilər bir-birlərinə üstün gələ bilmirlər. Məmurlar əmrlərə riayət etdikdə ən yüksək mükafatlar alır, əmrləri pozduqda isə ən ağır cəzaya məhkum olunurlar. Bu zaman igidlər və güclülər bir-biri ilə rəqaəbt aparmayacaqlar. Nə vaxt adamlar təlimlənibsə, onları seçmək və istifadə etmək olar. İdarəçilik qaydaya düşdükdə yüz idarə tam təmin edilə bilər. Təlimatlar müzakirə olunan zaman adamlar xeyirxahlıq göstərirlər. Adətlər adi olduqda adamlar ona riayət edəcəklər. Dəyişikliklərin maarifdən keçməsinin məğzi bundadır...

* * *

Qədimdə adamlar qaçan düşməni təqib etmir və geri çəkilən ordunun dalınca addımbaaddım getmirdi. Uzağa getməməklə hiyləyə tuş gəlmək çətindir; olduqca yaxına yaxınlaşmadan pusqunun olduğunu anlamaq çətindir. Onlar xoş niyyəti əsas qüvvə, humanistliyi isə öz qələbələrinin (rəhni) hesab edirdilər. Onlar qələbə çaldıqdan sonra onların təlimindən yenə istifadə etmək olar. Buna görə də, ürəyi açıq olan ər onları qiymətləndirir.

* * *

Şun dövlətin (paytaxtında) öz missiyasını elan etdi, istəyirdi ki, adamlar, ilk növbədə, onun əmrlərini dinləsinlər. Sya sülaləsinin hökmdarları ordu arasında and içirdilər, istəyirdilər ki, adamlar onun düşündüklərini tamamlasınlar. Şan sülaləsinin hökmdarları düşərgənin darvazası arxasında and içirdilər, istəyirdilər ki, adamlar, ilk növbədə, öz arzularını möhkəmlətsinlər və döyüşü gözləsinlər. Çjou hökmdarı (U-van) silahların çarpazlaşmasını gözləyir və sonra adamların (döyüşə) iradəsini möhkəmlətməsi üçün and içirdi. Sya hökmdarları öz xeyirxahlıqlarını «düzəldirdilər», heç vaxt silahı gözləmirdilər və buna görə də, heç vaxt silahlar qarışıq olmurdu. Şan hökmdarları ədalətliliyə güvənirdilər, buna görə də silahın itiliyini birinci hiss edirdilər. Çjou hökmdarları silaha arxalanırdılar, buna görə də onlar silahın itiliyini, birinci işə çalırdılar.

Sya xeyirxahlığı yüksəklərə qaldırmaq üçün sarayda mükafatlandırırdı. Şan şəri qorxunc etmək üçün meydanlarda edam edirdi. Çjou xeyirxahları ruhlandırmaq və sadə adamları qorxutmaq üçün sarayda mükafatlandırır və meydanda edam edirdi. Buna görə də, hər üç sülalənin hökmdarları eyni yolla xeyirxahlıq göstərirdilər.

* * *

Silahların (beş növü) qarışmayanda faydasız olur. Əgər silah olduqca uzundursa, o rahatsız olacaq; əgər olduqca qısadırsa, o düşmənə çatmayacaq. Əgər olduqca yüngüldürsə, onunla tez silahlanmaq olar, lakin belə bir yüngüllük qaydasızlığa gətirib çıxara bilər. Əgər olduqca ağırdırsa, onda narahat olacaq və öz təyinatını yerinə yetirə bilməyəcək.

* * *

Döyüş cəng arabalarına gəlincə Sya hökmdarlarının cəng arabaları «qarmağın cəng arabaları» adlanırdı, çünki onun düzgünlüyünə birinci yeri verirdilər. Şan hökmdarlarının cəng arabaları «təzə ay cəng arabaları» adlanırdı, onlar onun sürətinə birinci yeri verirdilər. Çjou hökmdarlarının cəng arabaları isə «güc cəng arabaları» adlanırdı, çünki güc birinci yerdə sayılırdı.

Bayraqlara gəlincə Syaların bayrağı qara rəngdə olub adamlar üzərində hakimiyyət mənasını bildirirdi. Şanlıların bayrağı ağ rəngdə olub, Səmanın ədalətini bildirirdi. Çjouda bayraq sarı rəngdə olub. Yer Daosunu bildirirdi.

Fərqlənmə nişanlarına gəlincə Syada günəş və aydan istifadə edib, onu işıqlı hesab edirdilər. Şanda pələngdən istifadə edib, onu vahiməli hesab edirdilər. Çjouda əjdahadan istifadə edib, onu mədəniyyət hesab edirdilər.

* * *

Ordunun qorxunc gücü tükənmək üzrə olduqda, adamlar qorxudan əsəcəklər, lakin əgər o qorxuncluq gücünü itirərsə, adamlar qələbə qazana bilməyəcəklər. Əgər ali rütbəlilər adamların ədalətli olmalarına imkan vermirlərsə, yüz nəsil öz işlərini düzgün təşkil etmək iqtidarında olmayacaq, sənətkarlar (işdən) çörək pulu qazana bilməyəcək, atlar və heyvanlar tarlada işləyə bilməyəcək, məmurlar isə (adamları) incidərlərsə, bu, «həddən artıq qorxunc qüvvə» adlanır və adamlar qorxudan əsəcəklər. Əgər yuxarı rütbəlilər xeyirxahları adam saymır, hiyləgərlərdən və qəddarlardan istifadə edirlərsə; əgər onlar Daonu saymırlarsa, cəsurlardan və cəngavərlərdən istifadə edirlərsə; əgər onlar itaət edənləri saymırlarsa, cəfənglərdən və deyingənlərdən istifadə edirlərsə; əgər onlar rəhmliləri saymırlarsa, lovğalardan və sırtıqlardan istifadə edirlərsə, bu, «zəifləyən qorxunc qüvvə» adlanır. Əgər o üstünlük təşkil edərsə, adamlar qələbəyə nail olmayacaqlar.

* * *

Ordu yürüşdə, ilk növbədə, «tədbirləri» elə görməlidirlər ki, adamların gücü müqabilində olsun. Bu zaman silah vursa belə, piyada qoşunu qaçmayacaq, cəng arabaları baş aparmayacaq. Qaçan düşməni təqib etməklə qoşun cərgəni parçalamayacaq və bununla başıpozuqluqdan uzaqlaşacaq. Yürüş zamanı ordunun birliyi hərbi intizamdan doğur ki, bu da döyüş cərgəsində qayda-qanunu qoruyur, adamların və atların qüvvəsini tükətmir.

* * *

Qədimdə mülki işlərin düzgün və ruhi idarə olunması hərbi sahədən uzaq idi; hərbi sahəyə gərəkli olan nə vardısa, mülki sahədə yox idi. Əgər (hərbi sahədəki) qaydalar və rüh mülki sahəyə nüfuz edərsə, xalqın xeyirxahlığı qüruba doğru əyiləcəkdir. Əgər mülki sahədəki qayda və ruh hərbi sahəyə nüfuz edərsə, xalqın xeyirxahlığı zəifləyəcəkdir.

Mülki aləmdə söz təmtəraqlı, nitq isə cansızdır. Sarayda hər kəs mülayim və hörmətlidir və özünü başqalarına xidmət ruhunda tərbiyə edir. Çağrılmayanda, bir addım da atmamalı; söz soruşmayanda, dinməməli. İrəliləmək çətin olsa da, kənara çəkilmək asandır.

Hərbiçilik arasında hər kəs sözünü düz deyir və möhkəm dayanır. Döyüş cərgəsində hər kəs öz borcunu yerinə yetirir və əzmkarlıqla hərəkət edir. Döyüş sürsatını daşıyanlar boyun əymirlər ; cəng arabalarının əsgərləri ayinlərə (li) riayət etmirlər; istehkamlarda dayananlar boş-boşuna vurnuxmurlar. Təhlükə zamanı heç kim rütbələrə fikir vermir. Beləliklə, mülki əxlaq normaları (li) və hərbi qanunlar (fa) həm daxili və xarici, mülki və hərbi normalar ; sol və sağ deməkdir.

* * *

Qədimdə tam kamil hökmdarlar xeyirxah adamlara hörmət edir və onlarda xeyirxahlıq (axtarırdılar). Buna görə də onlar xeyirxahlıqdan ehtiyat etmir və adamları alçaltmırdılar. Mükafatlar paylanmır, cəzaları isə heç tətbiq etməmişdilər.

Şun hökmdarı nə mükafatlandırır, nə cəzalandırırdı, adamlardan isə hər vəchlə istifadə etmək olurdu. Bu, xeyirxahlığın zirvəsi idi. Sya hökmdarı mükafatları paylayırdı, cəzaları isə müəyyən etmirdi. Bu, öyüd vermənin zirvəsi idi. Şan hökmdarı cəzanı tətbiq edirdi, mükafatları isə paylamırdı. Bu,qorxutmanın zirvəsi idi. Çjou hökmdarı həm mükafatlardan, həm də cəzalardan istifadə edirdi və xeyirxahlıq tükənməyə başladı. Əgər istəyirsən ki, fərqlənənin əməyi qeyd olunsun, mükafatı çox (yubatmaq) olmaz.

Adamlar pis əmələ görə cəzanın təsirini tez görsün deyə, kimisə cəzalandırdıqda, onu başqa posta keçirmə.

Böyük qələbəyə görə mükafatlandırma, onda nə yüksək rütbəlilər, nə aşağı rütbəlilər öyünməyəcəklər. Əgər yüksək rütbəlilər öyünə bilməsələr, təkəbbürlü görünməyəcəklər, əgər aşağı rütbəlilər öyünə bilməsələr, adamlar arasında fərq qalmayacaq.

Heç kəs öyünmədikdə bu, hörmət əlamətinin məğzidir.

Tam məğlub olma hallarında heç kəsi cəzalandırma, bu zaman yuxarı rütbəlilər də, aşağı rütbəlilər də öz biabırçılığını etiraf edəcək. Əgər yüksək rütbəlilər özlərinə irad tutsalar, öz səhvlərinə görə peşimançılıq çəkəcəklər, əgər aşağı rütbəlilər özlərinə irad tutsalar, mütləq şərəfsizliyin təkrar olunmasından yaxa qurtarmağa çalışacaqlar. Bütün rütbəlilər şərəfsizliyə görə (məsuliyyəti) öz aralarında bölüşdükdə bu, güzəştə getməyin məğzidir.

* * *

Qədimdə sərhəddə xidmət edənlər bundan üç il sonra (əmək mükəlləfiyyətindən) azad edilirdilər, adamların əməyini hökmdarın özü istəyirdi. Yüksək və aşağı rütbəlilər bir-birlərinə belə kömək edirdilər və harmoniyanın məğzi bunda idi. Onlar öz məqsədlərinə (torpaqların barışığına) nail olan zaman sevinclərini büruzə vermək üçün şadlıq mahnıları oxuyardılar. Onlar döyüş silahlarını yığışdırır, Ruhlar Qalası tikir və istirahət vaxtının yetişdiyini göstərmək üçün adamların əməyinə münasibət bildirirdilər.

3.SIRALARIN MÜƏYYƏN EDİLMƏSİ

Bütövlükdə müharibə aparmaq üçün: cərgəni və mövqeyi müəyyən et; nailiyyətləri və səhvləri hərtərəfli nəzərə al; xəyanət edən əsgərləri saxla; təlimləri və fərmanları elan et; əhalini sorğu-sual et; sənətkarları axtar, tap; fikirləş və hesabını götür; əşyalardan tam istifadə et; (adamlara) nifrəti dəyiş; şübhələri qov; gücü yetişdir; ləzzətli şeyləri axtar və istifadə et; adamların ürəyi ilə razılaşaraq hərəkət et.

* * *

Bütövlükdə, müharibə aparmaq üçün: adamları birləşdir; xeyiri (ərazini) öyrən, itaət etməyənləri barışdır; irəliləmələri və dayanacaqları (tənzimlə); birbaşa (etirazları) qəbul et; həyalılıq tərbiyə et; qanunlara riayət et; cinayətləri təhqiq et; kiçik qanun pozucularını cəzalandır. Əgər kiçik qanun pozucularını edam etsən, onda (daha ağır) cinayətlər baş verə bilər.

* * *

Səma ilə razılaş; sərvəti bol et; adamlara sevinc bəxş et; Yerin üstünlüklərindən istifadə et və döyüş silahlarına layiqincə qiymət ver. Bu, «beş plan» adlanır. Səma ilə razılıqla olmaq üçün

mövsümlərə riayət et; sərvəti artırmaq üçün düşməni qarət et; adamlara sevinc bəxş etmək üçün onları ruhlandır və onları (öz rəisləri ilə) harmoniyaya gətir. Ərazinin üstünlüklərindən istifadə etmək üçün strateji yerləri qoru. Silaha gəlincə, hücuma qarşı çıxmaq üçün kamanlar və oxlar, müdafiə üçün toppuz və nizə, kömək üçün təbərzin və şiş uclu təbərzin var.

Beş növ silahın hər biri öz yerində yaxşıdır: uzun silah gödəyi qoruyur, gödək silah uzunu xilas edir. Onlardan növbə ilə istifadə etməklə döyüşdə tab gətirmək mümkündür. Onlardan birgə istifadə etdikdə ordu güclü olur. (Düşmənin) vəziyyətini gördüyün zaman gücdə ona bərabər ola bilərsən. Bu, «ölçüb-biçmək» adlanır.

* * *

Müdafiə olunan ordu geniş dayanmalı, adamları rühlandırmalı və onları (öz rəisləri ilə) harmoniyaya gətirməlidir. O yalnız hücuma keçən düşməni gördükdən sonra irəliləməlidir. Sərkərdə səfərbərdir, adamların ürəyi onunla birlikdə vurur.

At, heyvan, cəng arabaları, silah, istirahət və lazımi ərzaq ordunun gücüdür. Təlimat ordunun məsləhətçisidir; müharibə ordunun ağasıdır. Sərkərdə-ordunun canı, dəstə onun ayaqları, «beşliklər» isə barmaqlarıdır.

Bütövlükdə, müharibə qüvvələrin ölçülüb-biçilməsi, döyüş isə mərdlik işidir. Döyüş qaydalarının cəbhə boyu geniş yayılması sənət işidir (Adamların) istəyindən istifadə et və onların qadir olduğu işləri həyata keçir; onların arzulamadıqları və qadir olmadıqları şeyləri qaydaya sal.

* * *

Bütövlükdə, müharibə Səmaya, sərvətə və üstünlüklərə nail olmaq deməkdir. Döyüşün günü və vaxtı düzgün deyildikdə onu dəyişməyə ehtiyac yoxdur; tısbağa qınında fala baxmaq qələbəni əvvəlcədən xəbər verdikdə; hadisələr sürətlə və sirli tərzdə keçdikdə bu, «Səmaya yiyələnmək» adlanır. İnsanlarda sərvət (var-dövlət) varsa, o (dövlətdə də) var. Adamlar onun naminə çalışdıqda, bu, «sərvətə yiyələnmək» adlanır.

İnsanlara (nisbi) sənət forması öyrədildikdə və (döyüşə) hazırlaşarkən şeylərin (qüvvəsindən) tam istifadə etdikdə bu, «üstünlüyə nail olmaq» adlanır. İnsanlar ruhlandırıldıqda, onları «çöhrələrində təbəssümlə vuruşan adamlar» adlandırırlar.

* * *

Ordunun artırılması və (birləşmələrin) möhkəmləndirilməsi; onun gücünün artırılması və (qoşunların) daimi təlimi; əşyaların (qüvvələrindən istifadə olunması) üçün dayaq və gözlənilməz (hadisələrə) hay vermək «savadlı hazırlaşma» adlanır.

Sürətli cəng arabaları və yüngül piyada qoşunları, kamanlar və oxlar, həmçinin güclü müdafiə «ordunun artırılması» adlanır. Sirr, susmaq və nəhəng daxili güc «ordunun möhkəmləndirilməsi» adlanır. Qabağa hərəkət etmək bacarığı, geriyə hərəkət etmək bacarığı «ordunun canlanması» adlanır. Yeni əsgərləri hər bir imkan daxilində təlimləndirmək «ordunun təlimi» adlanır. Bütün idarələrin qarşılıqlı bərabər işi «şeylərdən (istifadə etmək) üçün dayaq» adlanır. Bunun başa düşülməsi və buna riayət edilməsi «ordunun idarə olunması» adlanır.

* * *

Öz qoşunlarının (sayını) əraziyə uyğun olaraq müəyyənləşdirərkən, öz qoşununu düşmənlə müvafiq qaydada yerləşdir. Əgər həmlədə, döyüşdə, müdafiədə, hücumda, geri çəkilmədə və dayanmada qabaq və arxa tərəf əmrlərə tabe olursa, cəng arabaları və piyadalar razılıqla hərəkət edirsə, bu, yaxşı planlaşdırılmış kampaniya adlanır. Əgər onlar əmrə riayət etmirlərsə; (komandirlərə) etibar etmirlərsə, razılıqla hərəkət etmirlərsə; nizamsızdırlarsa, tərəddüd edirlərsə, yorulmuşlarsa, qorxu keçirirlərsə; məsuliyyətdən boyun qaçırırlarsa, dözümsüzdürlərsə, məhzundurlarsa və astagəllik edirlərsə, bu, «məhvə məhkum olma kampaniyası» adlanır. Əgər onlar özlərinə inamı itirməkdən əziyyət çəkirlərsə, əgər onlar qorxurlarsa, inildəyirlərsə, deyinirlərsə və qarşıdakı hərəkətlərinə hər vaxt tərəddüd keçirirlərsə, onları «məhv edilmişlər və əzilmişlər» adlandırırlar. Böyük və ya kiçik, möhkəm və ya zəif olmaq qoşunları dəyişmək, çoxlu sayda kiçik birləşmələrdən istifadə etmək bacarığına malik olmaq və bütün hallarda (düşmənə) münasib olmaq «müharibədə qüvvələrin bərabərliyindən (istifadə etmək)» adlanır.

* * *

Bütövlükdə, müharibə aparmaq üçün: uzaqdakılara qarşı casuslardan istifadə et: yaxındakılar üzərində nəzarət et; mövsümlərə uyğun hərəkət et; (düşməni) qarət et; namuslulara hörmət et, tərəddüd edənlərə nifrət et, ədalətliliklə ilhamlandır, vaxtında hərəkət et, xeyirxahlığı idarə et. Düşməni görsən, sakıt dayan; həyəcan görsən, tələsmə. Əgər təhlükə və çətinliklə üzləşsən, adamları yaddan çıxartma (unutma). Dövlətdə xeyirxah və ədalətli ol. Orduda genişqəlbli və döyüşkən ol. Əgər qılınclar toqquşsa, əzmkar və bacarıqlı ol. Dövlətdə harmoniya, orduda qayda olmalıdır. Əgər qılınclar toqquşsa, (döyüşdəki vəziyyəti) öyrən. Dövlətdə rəhmdillik göstər; orduda düzlük (səmimilik) göstər; döyüşdə vicdanlılıq göstər.

* * *

Döyüş qaydalarına gəlincə: hücumda sıralar üçün ən başlıcası dağınıq olmaq; döyüşün əvvəlində isə sıx olmalı; silahlar müxtəlif olmalıdır. Əmrlər aydın olmalıdır: rahatlıq– qaydanın əsasıdır; qorxunc qüvvə özünü göstərdikdə qüdrətli olur. İnsanlar ədalətliliyə müvafiq olaraq bir-birini qoruduqda hərəkət etmək (iş görmək) istəyirlər. Hesablar uğurlu olduqda adamlar ona tabe olurlar. Əgər onlar lazımi vaxtda səmimiyyətlə tabe olurlarsa, gələcəkdə də itaətkar olacaqlar. Əşyalar təqdim olunduqda göz onlara dəqiq qiymət verir. Hesablar hazır olduqda ağıl möhkəmlənir. Hücum və geri çəkilmə həlledici olduqda bu, fəlakət əlamətidir. (İşləri) dinlədikdə və (müqəssirləri) cəzalandırdıqda onların vəzifəsini səbəbsiz dəyişmə və onların bayrağını dəyişdirmə.

İşlər nə vaxt tamam olsa da, davam edəcəkdir: nə vaxt onlar qədimdəki işlərə uyğun gəlirsə, həyata keçəcəkdir. Əgər and adamlara əzizdirsə, onlar güclü olacaq, sən özün isə məhz əlamətləri və xoş nişanələri bir-birindən ayırmağı bacaracaqsan.

Nəhs əlamətləri aradan qaldırmaq Daosu aşağıdakılardan ibarətdir:

Biri «ədalətlilik» adlanır, (adamların) namusluluğuna etibar et, onları güc zoruna özünə yaxınlaşdır, (əzəmətli hökmranlığın) əsasını (bünövrəsini) müəyyənləşdir, Kainatın gücünü birləşdir. Bu zaman narazı qalmayan olmayacaq, ona görə bu, «adamlardan ikinci dəfə istifadə etmək» adlanır.

Başqası (üstünlük, bağışlanma) «qüvvələrin strateji tarazlığı adlanır. (Düşmənin yanında) kənarları gücləndir, onun sevdiklərini ələ keçir. Bu zaman, qıraqdan hərəkət etməklə, biz daxildən səsimizə-səs verilməsinə nail ola bilərik.

* * *

Birinci– qiymət; ikinci- düzlük; üçüncü– dil; dördüncü– sənət; beşinci– atəş; altıncı– su; yeddinci– silah. İdarəçiliyin yeddi işi bunlardır.

Şöhrət, fayda, biabırçılıq və ölüm-dörd keşikçi budur. Qorxunc qüvvəni toplamaqla dözümlü və rahat olmaq– nöqsanların qarşısını almağın və arzuları dəyişməyin (yolu budur). Hər bir halda bu, Dao deməkdir.

Yalnız humanistlik insanları cəlb edə bilər; lakin kimsə humanistdirsə, lakin etibarlı deyilsə, o, əksinə özünü məhv edəcək. Adamlarla adam kimi rəftar et, düzlərlə düz ol, sözdən o vaxt istifadə et ki, o sözdür, oddan o vaxt istifadə et ki, o oddur.

* * *

Müharibə Daosuna gəlincə: tsini (adamları) ayağa qaldırdıqdan və idarəçilik (mükafatlar və cəzalar) üsulunu müəyyən etdikdən sonra onları qayğı ilə əhatə et və öz nitqinlə arxanca apar.

Onları qorxduqları şeylərlə müvafiq olaraq məzəmmətlə, onlara öz arzularına müvafiq tapşırıqlar ver. Düşmənə hücum etdikdə və torpağını ələ keçirdikdə idarəçilik orqanlarına adamlar təyin et. Bu, «müharibə metodlarına» aiddir.

* * *

Bütün insani keyfiyyətləri adamlar arasında axtar. (Onların uyğun gəldiyini bilmək üçün) yoxla və vəzifələrinə qiymət ver, çünki onlar öz hərəkətləri ilə işləri həyata keçirməyə macal tapmağa borcludurlar. Əgər onlar bir şey etmək istəyirlərsə, onların bunları unutmadıqlarına əmin ol. Əgər onları üç dəfə uğurla yoxlasan, (onların istedadlarını) qiymətləndir. İnsan həyatına uyğun gələn hər nə varsa, qanun adlanır.

* * *

Bütövlükdə, qanunsuzluq arasında qayda Daosunu yaratmaq ibarətdir: birinci– humanistlikdən, ikinci– etibardan, üçüncü– düzlükdən, dördüncü– birlikdən, beşinci- ədalətlilikdən, altıncı– dəyişiklikdən (hakimiyyətin köməyi ilə), yeddinci- hakimiyyətin səfərbərliyindən.

Qanunu müəyyənləşdirmək ibarətdir: birinci– (məhdudiyyəti) qəbul etməkdən, ikinci– qanunlardan, üçüncü- (istedadlıları və namusluları) irəli çəkməkdən, dördüncü– (idarəçilikdə) əzmkarlıqdan, beşinci– rütbələrin müəyyən edilməsi qaydasından, altıncı– məmurların sərəncamlarının dəqiqliyindən.

Orduya gəlincə, qanunun (gücü) bir nəfərin əlində olan zaman bu, «qanunun gücü» adlanır. Tabeçilikdə olan qanundan qorxan zaman o «qanun» adlanır. Nə vaxt ordu xırda işlərlə məşğul olmur, nə vaxt o döyüşdə kiçik üstünlüyə fikir vermir, nə vaxt o toqquşma günü öz düşündüklərini əlçatmaz dərəcədə yerinə yetirirsə, bu, «Dao» adlanır.

* * *

Müharibədə əgər «düzlük» faydasız görünürsə, onda «qanunun gücünü» (ələ almaq) lazımdır. (Əgər adamlar) (xeyirxahlara) tabe olmurlarsa, onda qanunu işə salmaq lazımdır. Əgər onlar bir-birlərinə etibar etmirlərsə, onları birləşdir. Əgər onları ləngdirlərsə, onları hərəkətə gətir; əgər onlar tərəddüd edirlərsə, (onların şübhələrini) dağıt. Əgər adamlar hökmdara etibar etmirlərsə, onda elan olunanları dəyişmə. Qədimdən başlayaraq idarəçilik belə olmuşdur.

4.DƏQİQ MÖVQELƏR

Müharibə Daosu: mövqelər ciddi surətdə müəyyən edilməlidir; inzibati tədbirlər ağır olmalıdır; qüvvələr mütəhərrik

olmalıdır; əsgərlərin «tsisi» gərgin olmalı, (komandirlərin və əsgərlərin) ürəyi isə birgə vurmalıdır.

* * *

Müharibə Daosu: rütbə ver və vəzifəyə o şəxsləri təyin et ki, Daonu anlayır və ədalətlilik göstərir. Bölmələri və birləşmələri müəyyənləşdir. Cərgələrdə və bölmələrdə qayda yarat. Üfüqililər və maillilər arasında (məsafənin) düzgün olmasına nail ol. Adların və əşyaların (uyğun gəlməsini) izlə.

(Öz döyüş qaydasında) duran əsgərlər qabağa çəkilməli və torpağa sığınmalıdırlar, oturaraq (atəş açanlar) qabağa çəkilməli və dizə çökməlidirlər. Əgər onlar qorxuya düşmüşlərsə, cərgələri sıxlaşdır, əgər onlar təhlükədədirsə, qoy, otursunlar. Əgər (düşmən) aralıdırsa, əsgərlər onlardan qorxmayacaqlar; əgər düşmən yaxındadırsa, əsgərlər onlara baxmırsa, onda dağınıq düşməyəcəklər.

* * *

Sərkərdə cəng arabasından düşərkən komandirlər sağ və sol cinahlardan çıxırlar; sürsat daşıyanların hamısı oturur; and içilir, bundan sonra ordu yavaş-yavaş irəliləyir. Bütün rəislər– sərkərdədən tutmuş komandirlərədək olan «beşlik» sursat daşıyır. Yüngül və ağır qoşunları yerləşdir.

Cəng arabalarını burax, qoy piyadalar və sürsatlı əsgərlər səs-küy qaldırsınlar. Əgər onlar qorxuya düşüblərsə, qoşunun cərgələrini sıxlaşdır. Dizi üstə duranlar çömbəlib oturmalı, çömbəlib oturanlar uzanmalıdırlar. Qoy, onlar dördayaq qabağa sürünsünlər, sonra onlara istirahət ver. Qoy, onlar ayağa dursunlar, qışqırsınlar və təbillərə yaxıanlışsınlar. Sonra zənglərlə «dayan!» işarəsi ver. Sonra qoy ordu sürünərək geri qayıtsın. İstənilən fərarini tut və ləngimədən edam et ki, başqaları qaçmaq fikrindən daşınsın. Onları qabağa aparmaq üçün qışqır. Əgər onlar qorxuya düşüblərsə, onları edam etməklə və ya ağır cəzalar verməklə hədələmə, genişqəlbliliklə arxayınçılıq nümayiş etdir. Onlarla nəyə görə yaşadıqları barədə söhbət et və onların öz vəzifələrini necə yerinə yetirmələrinə nəzarət et.

* * *

Hər üç orduda kim olursa olsun, günortadan gec olmayaraq intizam tədbiri qəbul olunmur. Keşik altda olanlar istirahət vaxtını ötmür, onların ərzaq payı isə yarıdan çox olmayaraq kəsilir. Əgər onları şübhəyə və dolaşığa salsan, əmrlərə boyun əyməyə məcbur edə bilərsən.

* * *

Bütövlükdə, döyüşə qüvvənin köməyi ilə tab gətirmək, qələbəyə isəilhamın köməyi ilə nail olmaq mümkündür.

Müdafiəyə tab gətirmək olar, qələbə isə təhlükəyə düşə bilər. Ürəyin özünün bünövrəsi möhkəm olduqda tsinin yeni dalğası qələbə gətirər. Sursatla təhlükəsizlikdə olursan, silahla qələbəyə nail olursan.

* * *

Bütövlükdə, cəng arabaları o vaxt etibarlıdır ki, bir-birinə yaxındır; piyada o vaxt möhkəmdir ki, əsgərlər torpağın üstə oturmuşlar; sürsatlar o vaxt davamlıdır ki, onlar ağırdır; qələbə isə yüngül silahla qazanılır.

* * *

Əsgərlərin ürəyi qələbə hissi ilə coşduqda, onların gördükləri hər nə varsa– düşməndir. Onların ürəyi qorxu hissi ilə dolu olduqda, onların gördüyü hər nə varsa, qorxudur. (Komandanın) vəzifəsi birliyi təmin etməkdir. Bunu yalnız hakimiyyətin (yüksəkliyindən) görmək olar.

* * *

Müharibədə: əgər yüngül qoşunlarla düşmən ərazisinin dərinliklərinə girsən, bu, təhlükəlidir. Əgər düşmən torpağının dərinliklərinə ağır qoşunlarla girirsənsə, bu, faydasızdır. Əgər yüngül qoşunlarla daha dərinliklərə getsən, əziləcəksən. Əgər ağır qoşunalarla daha dərinliklərə girsən, qələbə çala bilərsən. Müharibədə yüngül və ağır qüvvələr belə qonşuluq edirlər.

* * *

Düşərgədə silahlara və sürsatlara qarşı diqqətli ol. Yürüşdə cərgələrə və bölümlərə qarşı diqqətli ol. Döyüşdə hücuma və dayanacağa qarşı diqqətli ol.

* * *

Müharibədə: əgər hörmətlisənsə, (qoşun) sözə baxan olacaq. Əgər onları özün aparırsansa, arxanca gedəcəklər.

Əgər əmrlər hissiyyatlarına toxunursa, onları yerinə yetirməkdən yayınacaqlar. Əgər əmrlər zəhlətökən deyilsə, onlara ciddi yanaşacaqlar. Əgər təbillərin səsi itidirsə, onlar sürətlə irəliləyirlər, əgər təbillərin səsi tənbəl çıxırsa, onlar güc-bəla ilə gedirlər. Əgər onlar yüngül geyinmişlərsə, yüngül olacaq, əgər parlaq geyinmişlərsə tez gözə görünəcəklər.

* * *

Əgər süvarilər və cəng arabaları möhkəm, silahlar və sursatlar üstündürsə, onda hətta yüngül qüvvələr də dərinə gedə bilərlər. Əgər cinahları qarışdırsan heç kim yüksəlmək istəməyəcək. Əgər cəsurluq göstərsən, çoxları öləcək. Əgər həyatı qiymətləndirsən, çoxlu şübhələr olacaq, əgər ölümü yad etsən, onlar qələbə çalmayacaqlar. Adamlar nifrətsiz, (həyəcansız), məhəbbət uğrunda qorxunc qüvvə qarşısında ədalət və mənfəət uğrunda öləcəklər. Bütövlükdə, müharibədə adamları yaxşı təlimatlandırsan, onlar ölümə adi gözlə baxacaqlar. Əgər onlar inansalar, səmimiyyətlə öləcəklər.

* * *

Bütövlükdə, müharibədə: qoşunda qələbəyə inam ruhunun olub-olmamasına əsasən hərəkət et. Səma ilə razılaş, adamlarla razılaş.

Bütövlükdə, müharibədə : üç ordu üç gündən çox keşikdə olmamalıdır; bir bölmə postda yarım gündən çox olmamalıdır; bir əsgər qarovulda istirahət vaxtından çox dayanmamalıdır.

* * *

Kimlər hərb işində parlaq bilik qazanıbsa özüldən istifadə edib; kim daha çox qazanıbsa, ədalətdən istifadə edib. Hərb işi-ələkeçməzliyi saxlamaqla strategiyanı idarə etmək deməkdir. Bünövrə və ədalət– bu, əsasən tarazlıq məsələsidir.

* * *

Bütövlükdə, müharibədə: üç ordu birləşən zaman onlar qələbə çalacaqlar.

Təbillərə gəlincə: bayraqların (cəbhə boyu hücumu istiqamətləndirən) təbillər; cəng arabalarının (hücumu), süvari qoşunları üçün təbillər; piyadaları (idarəetmə) təbilləri; müxtəlif qoşun növləri üçün təbillər; başlar üçün təbillər və ayaqlar üçün təbillər mövcuddur. Hər yeddi təbil düzgün hazırlanmalı və idarə edilməlidir.

Bütövlükdə, müharibədə: nə vaxt döyüş qaydyası artıq kifayət qədər möhkəmdirsə, onu ağırlaşdırma. Nə vaxt baş qüvvələr hücuma keçirsə, onun hamısını döyüşə buraxma, çünki belə etsən, təhlükədə ola bilərsən.

* * *

Bütövlükdə, müharibədə döyüş qaydası yaratmaq çətin deyil; başlıca çətinlik əsgərlərə döyüş qaydasında durmağı əmr etməyə nail olmaqdır. Onları hazırlaşmağa məcbur etmək çətin deyil, çətini onlardan istifadə etməkdir. Nə etmək barədə öyrənmək çətin deyil, onu həyata keçirmək çətindir. Dünyanın bütün (dörd tərəfindəki)

əsgərlərin öz təbiəti var. Xarakterlər sahələr üzrə müxtəlif olur. Təlim nəticəsində onlarda yerli vərdişlər yaranır, buna görə də bütün dövlətlərdəki adətlər fərqlənir. Onların adətlərini (yalnız) Dao vasitəsilə dəyişmək olar.

* * *

Bütövlükdə, müharibədə qoşunların sayından asılı olmayaraq, hətta onlar artıq qələbə çalsalar da, özlərini elə aparmalıdırlar ki, sanki qalib deyillər. Qoşun öz silahının kəsərliliyi ilə öyünməməli və ya öz sursatlarının möhkəmliyi, yaxud öz cəng arabalarının davamlılığı və ya öz süvarilərinin sürətliliyi barədə söhbət açmamalıdırlar; onlar hələ Daonu[11] mənimsədikləri üçün özlərini üstün yox, bərabər hesab etməlidirlər.

* * *

Əgər müharibədə qələbə çalmısansa, nailiyyətləri və tərifləri qoşunlarla bölüş. Əgər qarşıda yenidən döyüşə başlamaq varsa, mükafatları həddən artıq bol, cəzaları isə ağır et. Əgər onları qələbəyə istiqamtələndirmək mümkün olmayıbsa, günahı öz üzərinə götür. Əgər yenidən döyüşməli olsan, and iç və qoşunun qabağında dayan. Əvvəlki taktikanı tətbiq etmə. Qələbə çalsan da, çalmasan da, bu metoddan geri çəkilmə, çünki bu, «haqiqi» prinsip adlanır.

Bütövlükdə, müharibədə: humanistliklə xilas ol; ədalətlə vuruş; qərarları ağılla qəbul et; mərdliklə vuruş: etibarla idarə et; mənfəətlə ruhlandır; igidliklə qələbə çal. Ağıl humanistliklə çulğalaşmalıdır, hərəkətlərin isə əsası ədalətlilik olmalıdır. Əşyaların (təbiətinə) inanmaq, bu, mərdlikdir; böyük şeyə inanmaq mərdlikdir; keçmişə (münasibətlərə) inanmaq, bu, səmimiyyətə aparan yoldur. Məqsədlərinə harmoniya ilə nail ol və adamlar öz özlüyündə hörmətli olacaqlar. Əgər adamlar səhvlərindən utansalar, onlar bunları düzəltməyə çalışacaqlar. Adamların ürəyi razı olduqda onlar öz qüvvələrini axıradək əsirgəməyəcəklər.

* * *

Bütövlükdə, müharibədə: zəifi və səkiti götür, güclüdən və rahatdan uzaq ol. Yorulmuşu götür, yaxşı təlim keçmişdən və ehtiyatlı olandan uzaq ol. Qorxmuşu götür, özünü qorxmuş (göstərəndən) uzaq ol. Ta qədimdən başlayaraq (ordunun) idarə edilmə qaydası belədir.

5.QOŞUNDAN İSTİFADƏ

Müharibə Daosu: az qüvvə ilə vuruşduqda, onlar həmrəy olmalıdırlar. Çoxsaylı qüvvə ilə vuruşduqda, onları yaxşı idarə etmək lazımdır. Az qüvvə ilə düşməni narahat etmək üstün tutulur, böyük qüvvə ilə düzgün (taktikadan) istifadə etmək üstün tutulur. Böyük qüvvə ilə irəlilə və dayan, az qüvvə ilə irəliyə get və sonra kənara

çəkil. Əgər xeyli qüvvə ilə çoxsaylı düşmənlə toqquşsan, onu xeyli məsafədən mühasirəyə al və keçid saxla. (Əks təqdirdə) əgər (öz qüvvələrini) bölsən və onlarlda növbə ilə hücuma keçsən, az sayda qoşun qalsa, bundan istifadə et. Əgər siz strateji mövqe uğrunda vuruşursunuzsa, öz bayraqlarını at (qaçışda olduğu kimi, düşmən hücum edərkən), qayıt və əks hücum təşkil et. Əgər düşmənin qüvvəsi böyükdürsə, qüvvələrini topla və onun özünü mühasirə etməsinə imkan ver. Əgər düşmən azsaylıdırsa və qorxuya düşübsə, ondan uzaqlaş və açıq keçid saxla.

* * *

Bütövlükdə, müharibədə: külək kürəyinə vurmalıdır, dağlar arxada, yüksəkliklər sağda, dərələr solda olmalıdır. Nəm torpaqda irəlilə, dağılmış yolları keç. Düşərgə salmazdan əvvəl adi hallarda olduğundan iki dəfə çox marşla keç; (düşərgə üçün) tısbağa çanağına oxşar ərazi seç.

Bütövlükdə, müharibədə: yerini tutarkən düşmənin hərəkətlərinə nəzarət et. Düşmənə bax, sonra isə hərəkətə başla. Əgər o, (hücum) gözləyirsə, müvafiq qaydada hərəkət et. «Hücumda» vurma, lakin qoşun qalxanadək gözlə. Əgər o hücum edirsə, öz qüvvələrini möhkəmlət və onlara nəzarət et.

* * *

Bütövlükdə, müharibədə: onların taktikasını yoxlamaqdan ötrü çox və az saydan istifadə et, onların cərgələrinin davamlılığını yoxlamaqdan ötrü irəli hərəkət et və geriyə çəkil. Onların qorxusunu yoxlamaqdan ötrü arxayın ol. Onlarda şübhənin olub-olmamasını yoxlamaqdan ötrü irəliyə hərəkət et. Onların intizamını yoxlamaqdan ötru qəfil hücum təşkil et.

Onun şübhələrinə gözlənilməz zərbələr endir. Onun cəsarətsizliyinə zərbə endir. Onu qoşununu sıxlaşdırmağa məcbur et. Onun qaydalarına qəfil zərbə endir. Zərərdən yaxa qurtarmaq üçün (onun) səhvlərindən istifadə et. Onun strategiyasını yerinə yetirməsini çətinləşdir. Onun düşüncələrinə nüfuz et. Onun qorxusundan faydalan.

* * *

Bütövlükdə, qaçan düşməni təqib edərkən dincəlmə. Əgər bəziləri yolda dayansa, sayıq ol.

* * *

Düşmənin paytaxtına yaxınlaşarkən irəliləmək üçün yola malik olmaq lazımdır, geri çəkilmək fikrin olduqda, geriyə getmək yolunu düşünmək lazımdır.

Bütövlükdə, müharibədə: əgər birinci irəliləsən, onda qüvvələri tükətmək (asandır). Əgər (düşməndən) sonra irəliləsən (onda

adamlar) qorxuya düşə bilərlər. Əgər istirahət etsən, (adamlar) intizamsız (ola) bilərlər; əgər istirahət etməsən, onların qüvvəsi tükənər. Bununla belə, əgər çoxlu istirahət etsən, onda onlar yenə qorxa bilərlər.

* * *

Yazılan vida məktubu «həyat haqqında düşüncələrlə üzülüşmək» adlanır. Ən yaxşı əsgərlərin seçilməsi və silahların hazırlanması «adamların gücünün artırılması» adlanır. Dəftərxananı özündən arxada qoymaq və minimum ehtiyat götürmək «adamların ürəyini açmaq» adlanır. Ta qədimdən başlayaraq qayda belə olmuşdur.

QEYDLƏR

1. Tyan Şu, Tyan Vanın nəslindəndir, xidmətlərinə görə Tszin-van tərəfindən Sun soyadı ilə təltif edilmişidir. Sun U (məşhur Sun-tszı) və Sun Bin də həmin nəsildəndir, deməli, Sıma Jan-stzyuy kimi eyni qəbilənin üzvü idilər.

2. Quan Çjou (m.ö. 645-ci illərdə vəfat etmişdir) dövləti «qanun» (fa) əsasında idarəetmə konsepsiyasını inkişaf etdirənlərin birincilərindən olmuşdur.

3. O vaxtlar İnspektor vəzifəcə komandandan aşağı, yerdə qalan sərkərdələrdən yuxarı olmuşdur.

4. Bir neçə hərbi qanunda olan bu vəziyyət sərkərdənin hökmranlığının artmasını və asılı olmadığını göstərir. Hərbi kampaniya o qədər mürəkkəb iş olmuşdur ki, artıq hökmdar onun gedişinə qarışa bilmirdi (Şan və erkən Çjou dövründə qoşuna hökmdarın özü komandirlik edirdi).

5. Bununla o, qeyd edirdi ki, ordu dövlətin hökmdarına heç bir təhlükə yaratmır.

6. «Li tszi» («Mərasimlər kitabı»)– Konfusionistlərin «Beşkitab»ına daxil olan mühüm qanunluq mətnlərindən biridir.

7. Bu, hökmdarın öz xeyirxahlığına pərəstişinə kifayət edən klassik ideala açıq- aşkar ziddir.

8. Hökmdar özü onları xidmətə cəlb etməkdən ötrü keçmiş kamil müdrikləri tanımalıdır. Bu, klassik konfusianist konsepsiya sonralar qanunvericilər tərəfindən inkar edilmişdir.

9. Şərhçilər qeyd edirlər ki, bu və ya başqa tədbirlərin m ənimsənilməsi halları olmuşdur. Əlbəttə, qədim sülalər də silahın gücünə güvənmişlər.

10 Əsas (özül)– humanistlik, mülki idarəetmədir. Son– ədalətliliyin, döyüşkənliyin və qüvvənin özünü göstərməsidir.

11. Burada Dao dedikdə ali məqsəd kimi Kainatın sakitləşməsi və həlledici qələbəyə nail olunması başa düşülür.

SUN-TSZININ «HƏRB SƏNƏTİ»

Qalibin strategiyası və taktikası

孫子兵法

1. İlkin mülahizələr 151
2. Müharibənin aparılması 152
3. Strateji hücum 153
4. Forma 155
5. Qüdrət 156
6. Doluluq və boşluq 157
7. Müharibədə mübarizə 159
8. Doqquz dəyişiklik 161
9. Yürüş 162
10. Ərazinin formaları 164
11. Doquz şərait 166
12. Odla hücum 170
13.Casuslardan istifadə 171

N.Konradın şərhi 173

I FƏSİL
İLKİN MÜLAHİZƏLƏR

Sun Tszı deyib: Müharibə böyük dövlət işidir, – bu, həyat və ölümün əsasıdır, bu, yaşam və məhvolma yoludur. Bunu anlamaq lazımdır.

* * *

Buna görə o beş formada üzə çıxır.

(Onu yeddi cəhətlə ölçür və bu yolla vəziyyətini müəyyən edirlər). Birincisi- Yol, ikincisi- Səma, üçüncüsü- Torpaq, dördüncüsü- Sərkərdə, beşincisi- Qanun.

Xalqın düşüncəsi ilə hökmdarın düşüncəsi eyniləşəndə, xalq hökmdarla birlikdə ölməyə və yaşamağa hazır olanda, xalq qorxu və şübhə nə olduğunu bilməyəndə Yol əldə olunur.

Səma-işıq və zülmət, soyuq və isti, zamanın nizamı deməkdir.

Torpaq-uzaq və yaxın, kələ-kötür və hamar, enli və dar, ölüm və həyat deməkdir.

Sərkərdə- bu ağıl, soyuqqanlılıq, humanizm, mərdlik və ciddilikdir.

Qanun- döyüş nizamı, komandanlıq və təchizat deməkdir.

Elə bir sərkərdə yoxdur ki, bu beş forma haqqında bilməsin, lakin o kəs qalib gəlir ki, onları əxz etsin. Kim ki, onları əxz etməyib qalib gəlmir.

Ona görə müharibəni yeddi mülahizə ilə ölçürlər. Və bu yolla aşağıdakı vəziyyət müəyyən edilir:

Hökmdarlardan kim Yola malikdir? Sərkərdələrdən hansının istedadı var? Kim Səma və Torpaqdan istifadə edib? Kimdə qayda və əmrlərə əməl olunur? Kimin ordusu güclüdür? Kimin zabit və əsgərləri daha yaxşı təlim keçib? Kimdə düzgün mükafatlanma və cəzalanma var?

Bütün bunlara əsasən mən kimin qalib gələcəyini və kimin məğlubiyyətə uğrayacağını bilirəm.

Əgər sərkərdə mənim mülahizələrimi əxz edib həyata keçirməyə başlayarsa, o mütləq qələbə qazanacaq; mən onun yanında qalacağam. Əgər sərkərdə mənim mülahizələrimi əxz etmədən tətbiq edərsə, o mütləq məğlubiyyətə uğrayacaq; mən onun yanından gedəcəyəm. Əgər o qazanc hesabı ilə onları əxz edərsə, onlar qüdrətə çevrilib hüdudlardan kənarda da köməyə gələcək.

Qüdrət mənafeyə uyğun olaraq taktikanı həyata keçirmək deməkdir.

Müharibə aldatma yoludur. Buna görə əgər sən bir şey bacarırsansa, düşmənə göstər ki, guya bacarmırsan; əgər sən nəyə isə maliksənsə ona göstər ki, guya bundan istifadə etmirsən; hərçənd ona yaxınsansa göstər ki, guya uzaqdasan; əgər doğrudan

da, uzaqdasansa, göstər ki, guya yaxınsan; onu qazancla aldadıb tələyə sal; onu dağınıq halına gətir və ələ keçir; Əgər onda hər şey boldursa, hazır ol; əgər o güclüsə, ondan yayın; onu qəzəbləndirib dəli halına sal; özünü fağır göstərib onda lovğalıq hisslərini oyat; onun qüvvələri yenisə,əldən sal; onda onun qüvvələrində dostluq hakimsə, parçala, təfriqə sal; o hazır olmayanda hücuma keç; gözləməyəndə üstünə get.

Bütün bunlar ordu başçısına qələbə gətirəcək; lakin əvvəlcədən heç nə demək olmaz.

Kim ki, hələ döyüşdən qabaqkı mülahizələrlə qalib gəlirsə, onun qələbəyə şansı daha çox olur; kim ki hələ döyüşə qədər mülahizələrlə qalib gəlmirsə, onun şansı az olur. Kimin şansı çoxdursa qalib gəlir; kimin şansı azdırsa məğlub olur; şansı heç olmayandan isə, ümumiyyətlə, danışmağa dəyməz. Buna görə təkcə bunu bir dəfə görməklə mənə artıq qələbə və ya məğlubiyyət aydın olur.

II FƏSİL

MÜHARİBƏNİN APARILMASI

Sun Tszı deyib: Müharibənin aparılması qaydası belədir:

Əgər sənin qırx yüngül və qırx ağır döyüş araban, yüz min əsgərin var, əgər sən ərzaq ehtiyatını 1000 mil* məsafəyə göndərməlisən, amma daxili və xarici xərclərin, qonaq qəbul edilməsində çətinliklərin var, lak və yapışqan üçün material, döyüş arabalarının silahlandırılması tələb olunursa,– bütün bunlar üçün hər gün 1000 qızıl lazımdır. Yalnız bu halda 100 minlik ordunu döyüşə aparmaq olar.

Əgər müharibə gedir və qələbə uzanırsa,- silahlar kütləşir, qılınclar sınırsa; əgər qala uzun zaman mühasirə olunur və güc tükənirsə; əgər ordu uzun müddət çöldə qalırsa,- dövlətin vəsaitləri çatmır.

Haçan ki, silahlar küt oldu, qılınclar sındı,- güc qırılır və vəsaitlər tükənir, knyazlar sənin zəifliyindən istifadə edərək üstünə gəlir. Qoy o zaman sənin yanında ağıllı xidmətçilərin olsun, bundan başqa heç nə edə bilməzsən.

Buna görə müharibədə sürət hesabına müvəffəqiyyət barədə eşidiblər, hətta döyüşün ustalıqla aparılmadığı halda belə hələ heç kim onun uzanması ilə əldə olunan qələbəni görməyib, hətta döyüş ustalıqla aparılmadığı halda belə.

Hələ heç vaxt olmayıb ki, müharibə uzun çəksin və bu dövlətin xeyrinə olsun. Ona görə də kim ki, müharibələrin vurduğu zərəri axıra kimi dərk etmir müharibələrdən gələn bütün qazancı da axırına kimi anlaya bilməyəcək.

Kim ki, müharibə aparmağı bacarır iki dəfə çağırış aparmır, üç dəfə ərzaq ehtiyatı götürmür, təchizatı öz dövlətindən götürür. Ərzağı

isə düşməndən alır. Buna görə onun əsgərlər üçün qidası da kifayət edir.

Müharibə zamanı dövlət təchizatı uzağa apardığı üçün yoxsullaşır. Təchizatı uzağa aparmaq lazım gələndə xalq kasıblaşır.

Kim ki ordunun yaxınlığındadır, baha satır; o, baha qiymətə satanda isə xalqın vəsaitləri tükənir; vəsait tükənəndə isə mükəlləfiyyəti yerinə yetirmək çətin olur.

Güc qırılır, vəsait tükənir, ölkəndə evlər boşalır; xalqın var–yoxu onda– yeddisinəcən azalır; hökmdarın əmlakı– döyüş arabaları

sınıb–dağılır, atlar əldən düşür, dəbilqələr, zirehlər, ox-yay, sapand və kiçik qalxanlar, böyük və kiçik nizələr, kəllər və arabalar– bütün bunlar onda-altıya kimi azalır.

Buna görə ağıllı sərkərdə düşmənin hesabına qidalanmağa çalışır. Bununla bir funt dəyərində qidası özünün iyirmi funtluq qidasına bərabər olur; düşmənin bir pud kəpək və samanı özünün iyirmi puduna bərabər olur.

Düşməni qəzəb öldürür, onun sərvətini acgözlük qəsb edir.

Əgər döyüş arabaları ilə vuruş zamanı on və daha artıq döyüş arabası ələ keçirilibsə, kimlər tutubsa, qəniməti mükafat kimi onların arasında böl və bayrağı onlara ver. Öz döyüş arabalarını qənimət arabalarla əvəzlə və onlara minib hərəkət et. Əsgərlərlə isə yaxşı rəftar et və onların qayğısına qal. Bütün bunlar belə adlanır: Düşmənə qalib gəlmək və öz gücünü artırmaq.

Müharibə qələbəni sevir və uzanmağı xoşlamır.

Buna görə də müharibəni başa düşən sərkərdə xalqların taleyinin hökmdarı və dövlətin təhlükəsizliyinin ağasıdır.

Sun Tszı deyib: Müharibə

III FƏSİL
STRATEJİ HÜCUM

aparılması qaydalarına görə ən yaxşısı düşmən dövləti bütöv saxlamaq, ikincisi, bu dövləti sarsıtmaqdır. Yaxşı olar ki, düşmənin ordusunu dağıtmağa qoymayasan. İkincisi, onu əzəsən. Ən yaxşısı düşmənin briqadasını bütöv saxlamaqdır, ikincisi onları əzməkdir. Yaxşısı düşmənin batalyonunu bütöv saxlamaqdır. İkinci yerdə onu əzməkdir. Düşmənin bölüyünü bütövlükdə saxlamaq, ikincisi onu əzməkdir. Ona görə yüz dəfə döyüşə girib, yüz dəfə qalib gəlmək-bu ən yaxşısı deyil; yaxşıların yaxşısı düşmən ordusunu vuruşmadan əsir almaqdır.

Ona görə ən yaxşı müharibə ilk növbədə düşmənin niyyətini məhv etməkdir, ikincisi onun müttəfiqlərini sıradan çıxarmaqdır; sonra isə yerdə onun ordusunu əzməkdir. Ən pis- qalanı mühasirə etməkdir. Mühasirə qaydalarına görə qalanın bu cür mühasirəsi bunun qaçılmaz olduğu zaman edilir. Böyük qalxanların, mühasirə arabalarının, xəndəklərin qazılması, döyüşə hazırlıq üç ay vaxt tələb edir; fəqət öz səbirsizliyinə üstün gəlməyi bacarmayan sərkərdə öz

əsgərlərini qarışqa kimi həmləyə göndərir; nəticədə zabit və əsgərlərin üçdə-biri öldürülür, qala isə alınmamış qalır. Mühasirənin fəlakətli nəticəsi belədir.

O kəs ki, müharibə aparmağı bacarır özgə ordusunu döyüşə girmədən əsir alır; özgə qalalarını mühasrə etmədən ələ keçirir; özgə dövlətin ordusunu uzun zaman saxlamadan sarsıdır. O, hər şeyi mütləq bütövlükdə saxlayır və Səmaaltı ölkədə* (yaxud Kainatda-Çində) öz hakimiyyətini qorumuş olur. Ona görə silahı küt olmağa qoymadan da qazanc əldə etmək mümkündür; strateji hücum da bax elə budur.

Döyüş aparılması qaydaları belə öyrədir: Əgər sənin gücün düşmənin gücünə nisbətən on qat çoxdursa, onu dörd tərəfdən mühasirəyə al; əgər sənin gücün beş dəfə artıqdırsa, ona hücum et; əgər sənin gücün iki dəfə artıqdırsa onu iki hissəyə böl; əgər qüvvələr bərabərdirsə, onunla döyüşə girməyi bacar; əgər qüvvə azdırsa, ondan müdafiə olunmağı bacar; əgər səndə, ümumiyyətlə, nə isə pisdirsə ondan yayınmağı bacar. Az qüvvə ilə inadkarlıq etmək səni güclü düşmənin əsirinə çevirir.

Dövlət üçün sərkərdə- bu elə bil arabaya bağlanmış yedəkdir: əgər bu yedək möhkəm bağlanıbsa, dövlət şübhəsiz güclü olur; əgər yedək ayrılırsa dövlət heç şübhəsiz ki, zəif olur.

Ordu öz hökmdarından üç məqamda ziyan görür:

Ordunun hücum etməməli olduğunu bilməyərək, ona döyüşə başlamaq əmrini verdikdə; O zaman ki, ordunun geri çəkilməli olmadığını bilməyərək, ona geri çəkilmək əmrini verdikdə; bu o deməkdir ki, hökmdar ordunun əl-ayağını bağlayır. Bu cür ordu dövlətin idarə etdiyi əsaslarla da öz hakimiyyətini yaymış olduğunu bilməyərək, ordu komandirlərini çaşbaş qoyduqda.

Ordunun bu cür taktikasını ona rəhbərlik edən sərkərdəni də dövlətin başqa orqanlarına təyin olunma əsasları ilə təyin etdikdə; o zaman ordu komandirləri çaxnaşmaya düşür.

Ordu çaşıb qalaraq həyəcana gələndə knyazlar tərəfindən bəla gəlib haqlayır. Bu artıq o deməkdir ki, özün öz ordunu dağıdıb, qələbəni düşmənə verirsən.

Ona görə bilirlər ki, beş halda qalib gəlirlər: Haçan vuruşmaq lazım olduğunu və haçan lazım olmadığını bildikdə; Haçan böyük qüvvələrdən və haçan da kiçik qüvvələrdən istifadə etməyi bacardıqda; yuxarıdakılarla aşağıdakılar eyni bir arzu ilə yaşadıqda; Haçan ki, özləri ehtiyatlı olub, düşmənin ehtiyatsızlığını gözlədikdə; Sərkərdəsi istedadlı olduqda, hökmdar isə ağalıq etmədikdə; Bu beş vəziyyət qələbənin dərk edilməsi yoludur.

Buna görə də belə deyilir: əgər onu və özünü də tanıyırsansa yüz dəfə də istəsən döyüşə gir, təhlükə olmayacaq; əgər özünü tanıyır, onu isə tanımırsansa, bir dəfə qalib gəlib ikinci dəfə məğlubiyyətə uğrayacaqsan; əgər nə özünü, nə də onu tanıyırsansa, hər dəfə döyüşə girsən məğlubiyyətə uğrayacaqsan.

IV FƏSİL

FORMA

Sun Tszı deyib: qədimlərdə kim yaxşı döyüşürdüsə məğlubedilməz adını alırdı, hər vaxt da düşmənə qalib gəlmək eşqi ilə alışıb-yanırdı.

Məğlubedilməzlik– özündə özü tamamlanır, qalib gəlmək imkanı düşməndən asılıdır.

Ona görə də, kim ki, yaxşı döyüşür, özünü məğlubedilməz edə bilər, amma düşməni məğlubiyyətə məcbur edə bilməz.

Buna görə də, belə deyilib: «Qələbənin nədə olduğunu bilmək olar, amma onu həyata keçirməyə də bilərsən».

Məğlubedilməzlik– müdafiə, qələbə imkanı isə hücum deməkdir.

Müdafiə olunursa, deməli, nə isə çatmır; hücum edilirsə, deməli, hər şey gen-boldur.

Kim yaxşı müdafiə olunursa, cəhənnəmin dibində gizlənir; kim ki, yaxşı hücum edir, səmaların yüksəkliyində hərəkət edir. Ona görə özünü qorumağı bacarır, eyni zamanda, tam qələbə qazanır.

Kim ki, başqa adamların gördüyündən artıq qələbə görmür, heç də yaxşıların yaxşısı deyil. Haçansa döyüşərək kimsə qalib gəlirsə, Səmaaltı ölkədə deyəcəklər: «yaxşıdır», lakin bu, yaxşıların yaxşısı olmayacaq.

Yüngül pərquları qaldırmaq bacarığını heç də böyük qüvvə hesab etmək olmaz; günəşi və ayı görmək iti görmə hesab olunmur; göy gurultusunun səsinə qulaq asmaq həssas eşitmə hesab oluna bilməz.

Ona görə o nə vaxt ki, döyüşür və qalib gəlirdisə, bu heç də onun ehtimallarına zidd olmurdu. Ehtimalları ilə zidd olmamaq– bu o deməkdir ki, onun başladığı hər şey mütləq qələbə bəxş edirdi, o artıq məğlubedilmişə qalib gəlirdi.

Ona görə kim ki yaxşı döyüşür, öz məğlubiyyətinin mümkünsüzlüyü üzərində dayanır və düşmənin məğlubedilmə imkanını əldən vermir. Bu səbəbdən də qalib gəlməli olan ordu əvvəlcədən qalib gəlir, sonra isə döyüşə hazırlaşır, məğlubiyyətə məhkum olan ordu isə əvvəlcə döyüşür, sonra isə qələbə axtarır.

Kim ki müharibəni yaxşı aparır, Yolu həyata keçirir və Qanuna riayət edir.

«Müharibə qanunu»na uyğun olaraq birincisi– məsafə,

ikincisi– həcm, üçüncüsü– say, dördüncüsü– çəki,

beşincisi– qələbədir. Ərazi məsafəni, məsafə həcmi, həcm sayı, say çəkini, çəki isə qələbəni doğurur.

Ona görə qalib gəlməli ordu elə bil olan qəpikləri manatla, məğlubiyyətə məhkum ordu isə sanki manatı qəpiklərlə ödəyir.

Qalib gələn döyüşərkən bu min sajin yüksəklikdən dərəyə axan qarşısı alınmış suya bənzəyir. Bax elə bu da forma adlanır.

V FƏSİL

QÜDRƏT

Sun Tszı deyib: Kütləni idarə etmək azlığı idarə etmək kimidir: Əsas məsələ hissələrdə və rəqəmlərdədir.

Kütləni döyüşə aparmaq azlığı döyüşə aparmaq kimidir, əsas məsələ formasında və adındadır.

O şey ki, düşmənlə üz-üzə gələndə ordunu məğlubedilməz edir,– bu, düzgün döyüş və manevrdir.

Ordunun zərbəsi daşla yumurtaya zərbə vurmaq kimidir: Doluluq və boşluq da bax elə budur.

Müharibədə düşmən ilə düzgün döyüş vasitəsilə çarpışılır, qələbə isə manevr ilə qazanılır. Ona görə də kim ki, manevri yaxşı tətbiq edir o, səma və yer kimi sonsuz, Xuanxe və Yantszı kimi tükənməzdir.

Batır və yenidən doğur– günəş və ay belədir;
ölür və yenidən dirilir- ilin fəsilləri belədir.

Səsin tonu beşdən artıq deyil, lakin bu beş tonun hamısının dəyişmələrini eşitmək qeyri-mümkündür; rənglər beşdən artıq deyil, lakin bu bütün beş rəngin dəyişmələrini görmək mümkün deyil; beşdən artıq dad yoxdur, lakin bu beş dadın dəyişmələrini duymaq qeyri-mümkündür. Döyüşdə hərəkət cəmi iki cürdür- düzgün döyüş və manevr, lakin düzgün döyüşdəki və manevrdə olan bütün dəyişiklikləri sayıb qurtarmaq mümkün deyil. Düzgün döyüş və manevr bir- birlərindən doğur və bu sonu olmayan dairəvi fırlanmaya bənzəyir. Kim onların axırına çata bilər?

Nəyinsə sürətlə axan gur selin özündə daşları aparmasına imkan verməsi, eləcə də onun qüdrəti adlanır. Nə ki, sürətlə uçan vəhşi quşların öz qurbanlarını caynağına keçirməsinə imkan verir, düşünülmüş zərbənin əvvəlcədən hesablanması deməkdir. Ona görə kim ki, yaxşı döyüşür qüdrəti bir göz qırpımlığında, əvvəlcədən hesaba alınması isə qısalığındadır.

Ordunun qüdrəti tətiyin dartılması kimi bir şeydir, zərbənin hesablanması isə elə bil oxun atılmasıdır.

Qoy hər şey qarışsın və təkrarən qarışsın və nizamsız çarpışma getsin, fərqi yoxdur, qoşunun dağılması mümkün olmur; qoy hər şey coşub-daşsın, forma itib getsin fərqi yoxdur məğlub olmaq mümkün olmur.

Qarışıqlıq nizam-intizamın olmamasından doğur, qorxaqlıq cəsurluqdan, gücsüzlük də gücdən doğur.

Qarışıqlıq və nizam-intizam– bu,– say deməkdir, cəsurluq və qorxaqlıq- ordunun qüdrəti deməkdir. Güc və zəiflik isə forma deməkdir.

Ona görə də kim ki, düşməni hərəkət etməyə məcbur etməyi bacarır, deməli, ona forma göstərir, düşmən mütləq onun dalınca

gəlir; düşmənə nə isə verəndə o mütləq götürür, qazanc verməklə onu hərəkət etməyə məcbur edirlər, sonra isə gözlənilmədən qarşılayırlar.

Ona görə də kim ki, yaxşı vuruşur hər şeyi qüdrətdə axtarır, adamlardan isə hər şeyi tələb etmir. Ona görə o adamları seçməyi və onları qüdrətlərinə uyğun yerdə qoymağı bacarır.

Kim ki, adamları qüdrətinə görə lazım olan yerə qoymağı bacarır onları, eləcə də ağacları və daşları itələyib apardığı kimi vuruşmağa aparmağı bacarır. Ağacların və daşların təbiəti elədir ki, yer hamar olanda onlar tərpənmədən qalır; eyni olanda isə onlar hərəkətə gəlir; onlar dördkünc olanda yerlərində düşüb qalır; girdə olanda isə fırlanıb gedirlər.

Ona görə də başqalarını döyüşə getməyə məcbur edənin qüdrəti girdə daşları dağlardan min sajin aşağı yuvarladan insanın qüdrəti deməkdir.

VI FƏSİL

DOLULUQ VƏ BOŞLUQ

Sun Tszı deyib: kim ki, döyüş meydanına birinci gəlir və düşməni gözləyir, o güclə doludur; kim ki, gecikərək ondan sonra meydana gəlib döyüşə atılır, o artıq yorulub. Ona görə kim ki, yaxşı döyüşür, düşməni idarə edir və ona özünü idarə etməyə imkan vermir.

Düşməni özü gəlməyə məcbur etmək o deməkdir ki, onu qazancla tələyə salır; düşmənə getməyə imkan verməmək o deməkdir ki, onu zərərinə tutub saxlayırsan. Ona görə, hətta güclü olan düşməni əldən salmaq olar. Hətta tox olanı ac qalmağa məcbur etmək olar, hətta möhkəm oturanı da yerindən tərpətmək mümkündür.

O hara üz tutacaq, ora getmək lazımdır. Özün o səni gözlədiyi yerə get. Kim ki, insan gözə dəymədiyi yerlərdən min li yol keçib gedir və bu zaman yorulmur, elə yerlərdən keçir ki, oralarda insan gözə dəymir.

Həmlə edib, ələ keçirmək o deməkdir ki, onun müdafiə olunmadığı yerə hücum edirsən; müdafiə olunmaq, eyni zamanda, mütləq əldə saxlamaq o deməkdir ki, onun həmlə edə bilməyəcəyi yeri qoruyursan. Ona görə kim ki, hücum etməyi bacarır, düşmən harada özünü müdafiə edəcəyini bilmir. Kim ki, müdafiə olunmağı bacarır, düşmən haradan hücum edəcəyini bilmir.

Əsl ustalıq!

Əsl ustalıq! Hətta onu təsvir etmək üçün forma belə yoxdur. İlahi ustalıq! İlahi ustalıq!– onu ifadə etmək üçün, hətta söz belə yoxdur. Buna görə o düşmən taleyinin hakimi ola bilir.

Haçan ki, irəli gedilir və düşmən də mane olmaq gücündə

olmur– o deməkdir ki, onun boşluğuna zərbə endirilir; haçan ki, geriyə gedilir və düşmən də təqib etmək gücündə olmur– o deməkdir ki,düşmən səni haqlamaq iqtidarında deyil.

Ona görə əgər mən döyüşə girirəmsə, qoy düşmən hündür qalalar yüksəldib, dərin xəndəklər qazsın, fərqi yoxdur, o mənim qabağımda dayana bilməz. Bu ona görədir ki, mən onun elə yerinə hücum edərəm ki, o mütləq qorunmalıdır. Əgər mən döyüşə girmək istəmirəmsə qoy yer seçim və mövqeyimi müdafiə edim, mən getməli olduğu yerdə düşmənin qarşısını aldığım üçün o mənimlə vuruşa başlaya bilməz.

Ona görə mən düşmənə hər hansı bir forma göstərirəmsə, özüm o formada olmayacağam, mən bütövlüyümü saxlayacağam, düşmən isə hissələrə bölünəcək. Bütövlüyümü saxlayıb mən birliyi təmin edəcəyəm, düşmən isə hissələrə bölünərək oniuqlar təşkil edəcək. Onda mən onun hissələrinə hücum edəcəyəm. O zaman biz çox olacağıq, düşmən isə az. Kim ki, çoxluqla azlığa zərbə endirməyi bacarır, onunla döyüşənlər az olduğundan, qalib gəlmək asandır.

Düşmən bilmir ki, harada döyüşməli olacaq. Əgər o bunu bilmirsə, onda o çox yerdə döyüşə girməli olacaq. Əgər belə yerlər– o yerlər ki, onun döyüşməyə hazır olduğu yerlər– çox, deməli, onun mənimlə vuruşacağı yerlər az olacaq. Buna görə əgər o ön hissələrdə döyüşə hazırdırsa, onun arxada qüvvələri az olacaq. Əgər o arxada döyüşə hazırdırsa, öndə qüvvələri az olacaq. Əgər o sol cinahda döyüşə hazırdırsa, sağ cinahda qüvvəsi az olacaq. Kimin ki, döyüşə hazır olmamalı yerləri çoxdur, onun qüvvəsi az olmayacaq. Hər yerdə döyüşə hazır olan kəsin qüvvəsi azdır. O kəsin qüvvəsi çoxdur ki, özgəsini hər yerdə döyüşə hazır olmağa məcbur edir.

Ona görə də əgər döyüşün yerini və gününü bilirsənsə, min li məsafədən də hücum edə bilərsən. Əgər ki, nə döyüş yerini, nə də döyüş gününü bilirsən, sol cinahla sağ cinahı qoruya bilməzsən, sağ cinahla solu qoruya bilməzsən, ön hissə ilə arxa hissəni, arxa hissə ilə isə ön hissəni müdafiə edə bilməzsən. Bu həm uzaq– on li məsafədən, həm də yaxın bir neçə li məsafədən belədir.

Əgər bu cür– mənim düşündüyüm kimi düşünsən qoy Yue qoşunu çox olsun, bu onlara qələbə üçün nə verəcək? Məhz ona görə də belə deyilir: «Qələbəni düzəltmək olar». Qoy düşmənin ordusu lap çox olsun, ona döyüşə girmək imkanı verməmək olar.

Ona görə də düşməni qiymətləndirib, onun planlarını ləyaqət və səhvləri ilə öyrənirlər, düşmənə təzyiq edib onun hərəkətinin və dincliyinin qanunlarını öyrənirlər, ona bu və ya digər formanı göstərib onun ölüm və həyat yerlərini, toqquşaraq onun gücünün harda çox və harda az olduğunu öyrənirlər.

Qoy ordunun forması onun formasızlığı olsun. Əgər forma yoxdursa, hətta ən içərilərə soxulmuş casus belə heç nədən baş çıxara bilməz. Hətta müdrik belə hansı bir nəticəyə gələ bilməz. Bu

formuldan istifadə edərək o qələbə qazanmaq işini kütlənin üzərinə qoyur, lakin kütlə bunu başa düşə bilməz. Bütün insanlar mənim necə qalib gəldiyimi bilirlər. Lakin vasitəsilə qələbə qazanılmasını təşkil etdiyim formanı heç vaxt bilməyəcəklər. Ona görə döyüşdə qələbə heç vaxt əvvəlki şəkildə təkrar olunmur. O öz formasının saysız-hesabsızlığına uyğundur.

Ordudakı forma suya bənzəyir: suda olan forma– yüksəklikdən qaçmaq və alçaqlığa can atmaqdır; orduda olan forma dolu ilə üz-üzə gəlməkdən qaçmaq və boşluğa zərbə endirməkdir. Su ərazidən asılı olaraq öz axarını müəyyən edir; ordu düşməndən asılı olaraq qələbəsini təşkil edir.

Ona görə ordudakı qüdrət dəyişəndir, suda dəyişməz forma yoxdur. Kim ki, düşmənə baxaraq dəyişikliklərə və çevrilmələrə malik olur, o qələbə qazanır və bu da ilahilik adlanır.

Ona görə də, təbiətin beş elementi arasında dəyişilməz qalib yoxdur; ilin dörd fəsli arasında vəziyyətini dəyişməz saxlayan yoxdur. Günəş daha çox davamlı və daha çox qısa bir vaxtda işıq saçır, ayda isə həyat və ölüm var.

VII FƏSİL

MÜHARİBƏDƏ MÜBARİZƏ

Sun Tszı deyib: Müharibə aparmağın qaydası belədir: sərkərdə hökmdardan göstəriş alıb, ordunu formalaşdırır, qoşunu yığır və düşmən ilə təmasa girib mövqe seçir. Döyüşdə mübarizədən çətin heç nə yoxdur.

Döyüşdəki mübarizədə ən çətini dolayı yolu düz yola, fəlakəti qazanca çevirməkdir. Ona görə də kim ki, bu cür dolayı yolla hərəkətə başlayaraq qazancla düşmənin başını qatır və ondan sonra döyüşə yollanıb, ondan tez gəlir, o, dolayı hərəkətin taktikasını başa düşür.

Ona görə döyüşdə mübarizə qazanca aparır, döyüşdə mübarizə həm də təhlükələrə aparır. Əgər bütün ordunu qaldırıb, qazanc dalınca aparılırsa, məqsədə nail olmaq mümkün deyil; əgər qazanc üçün mübarizə aparıb ordu atılırsa, nəqliyyat və təchizat itiriləcək.

Əgər uçaraq qazanc üçün yüz li məsafə qət edilib mübarizə aparılırsa, bundan ötrü nə gündüz nə gecə dincəlib, marşrutlar iki dəfə uzanır və keçidlər birləşdirilirsə, o zaman bütün üç ordunun komandanlığı əsir kimi itirilir; dözümlülər irəlidə gedir, zəiflər geri qalır və bütün ordunun onda biri gəlib çatır. Haçan ki, qazanc üçün əlli li məsafədə mübarizə getdi, ön ordunun komandanlığı ağır vəziyyətə düşür və bütün ordunun yarısı gəlib çatır. Haçan ki, qazanc naminə otuz li məsafə qət edilir, üçdə-ikisi gəlib çatır.

Əgər ordunun nəqliyyatı yoxsa, o məhv olur; ərzağı yoxsa, o məhv olur; əgər ehtiyatı yoxsa, o məhv olur.

Kim ki, əgər knyazların niyyətini bilmir, o əvvəlcədən onlarla müqavilə bağlaya bilməz; şəraiti-dağları, meşələri, uçurumları, yarğanları, gölməçələri və bataqlıqları tanımırsa o müharibəni apara bilməz; kim yerli bələdçilərə müraciət etmir o şəraitin üstünlüklərindən istifadə edə bilməz.

Ona görə müharibə aldatma üzərində qurulur, sərfəli variant üzrə hərəkət edilir, bölünmə və birləşmələr vasitəsilə dəyişikliklər aparılır.

Buna görə o külək kimi sürətlidir; o meşə kimi sakit və ləngdir; alov kimi soxulur və viran qoyur; o dağ kimi tərpənməzdir, zülmət kimi keçilməzdir; onun hərəkəti ildırım zərbəsidir.

9.Kəndlər qarət edilərkən qoşunu hissələrə bölürlər. İstila zamanı öz hissələri ilə ərazilərin tutulması vaxtı öz hissələri ilə sərfəli mövqelər tutulur.

Hərəkət edərkən hər şey ölçüb-biçilir. Kim əvvəlcədən düz və dolama yolu bilirsə, o qalib gəlir. Bu da elə döyüşdə mübarizənin qanunları deməkdir.

«Ordunun idarə olunması»nda deyilir: «Haçan ki, danışırlar bir-birini eşitmirlər; ona görə də qonq və təbillər düzəldilir. Haçan ki, baxırlar, bir-birlərini görmürlər, onunçun də bayraqlar və nişanlar hazırlayırlar». Qonqlar, təbillər, bayraqlar və nişanlar öz əsgərlərinin gözlərini və qulaqlarını bir-birləriylə bağlayır. Əgər hər şey birində cəmləşibsə, cəsur öndə təkbaşına vuruşa bilməz, qorxaq təklikdə geri çəkilə bilməz. Elə bu da kütləyə rəhbərlik etmək qanunu deməkdir.

Bunun üçün də gecə döyüşündə çoxluca məşəllərdən və təbillərdən, gündüz döyüşlərində çoxluca bayraq və nişanlardan istifadə olunur; bununla da düşmənin gözlərini və qulaqlarını çaşdırırlar. Ona görə ordunun ruhunu əlindən almaq olar, sərkərdənin isə ürəyini.

Bu səbəbdən də səhərlər ruhən gümrah olurlar. Gündüzlər ölüvay, axşamlar isə evə qayıtmaq barədə düşünürlər. Ona görə də kim ki, döyüşü aparmağı bacarır düşmənin ruhu gümrah olanda ondan yayınır və onun ruhu ölüvay olanda və ya o geri qayıtmaq barədə düşünəndə ona zərbə vururlar; bu da ruhun idarə olunmasıdır.

Nizam-intizamlı olanda başıpozuqluq gözləyirlər; sakitlikdə olanda həyəcan gözləyirlər; bu da elə qəlbin idarə olunması deməkdir.

Yaxınlıqda olanda uzaqdakıları gözləyirlər; hər cəhətdən güclü olanda yorulub əldən düşənləri gözləyirlər; elə bu da gücün idarə olunmasıdır.

Tam qaydasındadırsa, düşmənin bayraqlarına qarşı getmə. Alınmaz olduğu vaxtı düşmən cərgələrinə hücum etmə. Bax bu dəyişikliklərlə idarə etməkdir.

Ona görə də döyüş aparılması qaydası belədir: Əgər düşmən yüksəklikdədirsə, birbaşa ona doğru getmə; əgər onun arxasında hündürlük varsa, onunla üz-üzə düşərgə salma; əgər o yalandan qaçırsa, onu təqib eləmə; əgər o ən güclü vəziyyətdədirsə, ona həmlə etmə; əgər o sənə tələ hazırlayırsa, onun üstünə getmə; əgər düşmənin ordusu evə gedirsə, onu saxlama; əgər düşmənin ordusunu mühasirəyə alırsansa, bir tərəfi açıq qoy; əgər o çıxılmaz vəziyyətdədirsə, onu sıxma; bu da elə döyüşün aparılması qaydasıdır.

VIII FƏSİL
DOQQUZ DƏYİŞİKLİK

Sun Tszı deyib: Müharibənin aparılması qaydası bu cürdür (sərkərdə öz hökmdarından fərman alıb ordunu formalaşdırır və qoşun yığır).

Yolsuz yerlərdə düşərgə salma; kəsişən ərazilərdə qonşu knyazlarla saziş imzala; çılpaq və susuz yerlərdə yubanma; mühasirə yerində ölçüb- biç; ölüm yerində vuruş.

Elə yollar olur ki, o yollarla getmirlər; elə ordular olur ki, o ordulara hücum etmirlər; elə qalalar olur ki, o qalalardan ötrü mübarizə aparmırlar; elə ərazilər olur ki, o ərazilər uğrunda vuruşmurlar; hökmdarın elə fərmanları olur ki, onlara əməl etmirlər.

«Doqquz dəyişmə»də sərfəli şeyə nail olan sərkərdə döyüşü necə aparacağını bilir. «Doqquz dəyişmə»də sərfəli olanı əxz etməyən sərkərdə, hətta yerin şəraitinə bələd olsa da ərazinin sərfəli cəhətlərinə sahib ola bilmir. Əgər ordunu idarə edərkən o, «Doqquz dəyişmə»nin ustalıqlarını bilmirsə, sərkərdə, hətta «Beş xeyir»i bilsə belə o, insanları idarə etməyi bacarmayacaq.

Bu səbəbdən də ağıllı adamın düşünülmüş hərəkətləri ondan ibarət olacaq ki, o mütləq gəlirlə zərəri birləşdirəcək. Haçan ki, gəlirlə zərər birləşdi, səylər nəticə verəcək; haçan ki, zərərlə gəlir birləşdirildi, bədbəxtlik kənarlaşdırıla bilər. Ona görə udel knyazlarını özünə hədə ilə tabe et, onların çoxsaylı işləri ilə məşğul ol və qoy udel knyazları xeyir naminə tələssinlər.

Müharibə aparılması qaydaları ondadır ki, düşmənin gəlməyəcəyinə ümid etməyəsən, nə ilə onu qarşılayacaqsan,– ona arxayın olasan; onun həmlə etməyəcəyinə ümid olmayasan; hücum etməyi onun üçün qeyri-mümkün edəcəyinə arxayın olasan.

Ona görə sərkərdə üçün beş təhlükə var: Əgər o nə olursa-olsun ölməyə can atırsa, o ola bilsin ki, öldürülə bilər; əgər o nə olursa-olsun sağ qalmağa can atırsa, o əsir düşə bilər; əgər o daha çox hirslənsə, ikrah doğuracaq; əgər o özünə qarşı hədsiz şübhəli olarsa onu təhqir edə bilərlər; əgər o insanları sevərsə onu gücdən sala bilərlər.

Bu beş təhlükə sərkərdənin çatışmazlığı, müharibə aparmağın bədbəxtliyidir. Heç şübhəsiz ki, bu beş təhlükə ilə ordunu əzir, sərkərdəni öldürürlər. Bunu dərk etmək gərəkdir.

IX FƏSİL
YÜRÜŞ

Sun Tszı deyib: Ordunun yerləşdirilməsi və düşmənin anlaşılması aşağıdakı şəkildədir.

Dağları aşarkən dərəyə söykən; yüksəklikdə qərar tutub, bax gör gün hansı tərəfə düşür. Döyüş zamanı yüksəklikdə olan düşmən üzərinə birbaşa üzüyuxarı getmə. Ordunun dağlardakı mövqeyi bu cürdür.

Çayı keçməli olarkən mütləq çaydan kənarda mövqe qur. Əgər düşmən çayı keçməyə başlayarsa, onu suda qarşılama. Ümumiyyətlə, yaxşı olar ki, onun ordusunun yarısı keçəndən sonra zərbə endirəsən; yox əgər düşmənlə sən də döyüşə girmək istəyirsən, onu çayın lap yaxınlığında qarşılama; yüksəklikdə günəşli tərəfin hayanda olduğunu öyrənib qərar tut; axına qarşı dayanma, ordunun çayda mövqeyi belədir.

Bataqlıqdan keçərkən ləngimədən tez uzaqlaşmağa tələs.Yox, əgər bataqlığın ortasında döyüşə girməli olsan, elə mövqe tut ki, sulu və otlu yerdə olasan, arxanda isə qoy meşə olsun. Ordunun bataqlıqdakı mövqeyi belədir.

Düzənlik yerdə hamar sahədə mövqe tut, bununla bərabər qoy sağında və arxanda yüksəklik olsun; səndən qabaqda qoy alçaq sahə olsun, arxanda isə hündürlük. Qoşunun düzənlikdəki mövqeyi belədir.

Ordunun bu cür dörd sərfəli mövqe tutması da Xuan-Diyə dörd imperatora qalib gəlməsini təmin etdi.

Ümumiyyətlə, əgər ordu hündürlüyü sevərsə və alçaqlığı xoşlamırsa günəşli tərəfi üstün tutub kölgəli tərəfdən çəkinəcək; əgər o həyatilik üçün qayğılanıb möhkəm torpaq üzərində qərar tutarsa, qoşunun içində xəstəliklər də olmaz. Bunun özü də mütləq qalib gəlmək deməkdir.

Əgər təpələr və yüksəkliklər arasındasansa, mütləq onların günəşli tərəfində mövqe tut və onları sağında və arxanda saxla. Bu qoşun üçün sərfəlidir; çünki şəraitin köməyi deməkdir.

Əgər çayın üstündə yağış yağıb, suyun üzü də köpüklə örtülübsə, kimsə çayı keçmək istəyirsə, qoy o çay dincəlib sakit olana kimi gözləsin.

Ümumiyyətlə, əgər müəyyən bir yerdə sıldırım dərələr, təbii su quyuları, təbii mağarakimilər, təbii torlar, təbii maneələr, təbii çatlar varsa – mütləq uzaqlaşmağa tələs və onlara yaxın gəlmə. Özün onlardan uzaqlaşmağa çalışıb, düşməni onlara yaxınlaşmağa məcbur elə. Onlarla rastlaşan zaman elə et ki, həmin yerlər düşmənin arxasında qalsın.

Əgər hərəkət rayonunda ordu yarğanlar, bataqlıqlar, cəngəlliklər, meşələr və kolluqlara rast gələrsə, diqqətlə onları tədqiq elə. Bu elə yerdir ki, düşmənin gözətçiləri və mühasirəsi ola bilər.

Əgər düşmən yaxındır və sakitcə dayanıbsa, bu o deməkdir ki, o, təbii maneələrə arxalanır. Əgər düşmən məndən uzaqdadırsa və bununla bərabər məni döyüşə çağırırsa, bu o deməkdir ki, o mənim irəli getməyimi istəyir. Əgər düşmən hamar yerdə mövqe seçibsə, onun öz üstünlükləri var.

Əgər ağaclar hərəkətə gəlirsə, deməli o yaxınlaşır. Əgər otlardan maneə düzəldilibsə, deməli, o çaşdırmağa çalışır. Əgər quşlar uçursa, deməli, orda tələ qurulub. Əgər heyvanlar qorxub qaçırsa, deməli, orda kimsə gizlənib. Əgər toz divar kimi qalxırsa, deməli, döyüş arabaları gəlir; əgər bu arabaların tozu geniş çöldə çox da yüksəyə qalxmırsa, deməli, piyadalar gəlir; əgər bu toz müxtəlif yerlərdən qalxırsa, deməli, yanacaq yığılır. Əgər toz gah burda, gah da orda qalxırsa, özü də çox olmursa, deməli, düşərgə qurulur.

Əgər düşmənin nitqi mülayimdir, amma döyüşə hazırlığı artırırsa, deməli, o yürüşə başlayır. Əgər onun nitqi məğrur səslənir və onun özü irəliyə tələsirsə, deməli, o, geri çəkilir. Əgər yüngül döyüş arabaları qabaqda gedir, qoşun isə onun hər iki tərəfində mövqe tutubsa, deməli, düşmən döyüşə hazırlaşır. Əgər o zəifləməyib, sülh istəyirsə, deməli, onun gizli planları var. Əgər onun əsgərləri qaçıb döyüş arabalarını cərgəyə düzürlərsə, deməli, vaxtı gəlib çatıb. Əgər o gah hücuma keçir, gah da geri çəkilirsə, deməli, o tələyə salmaq istəyir. Əgər əsgərlər silahlarına söykənib dururlarsa, deməli, onlar acdırlar. Əgər onlar suyu çalxalandırıb içirlərsə, deməli, onlar susuzluqdan yanırlar. Əgər düşmən öz imkanlarını görür, amma hücuma keçmirsə, deməli, o yorulub.

Əgər quşlar dəstə ilə yığışırlarsa, deməli, orada heç kim yoxdur. Əgər gecə düşmən içində bir-birlərini səsləyirlərsə, deməli, orda qorxurlar. Əgər düşmən ordusu başıpozuqdursa, deməli, sərkərdələrinin nüfuzu yoxdur. Əgər bayraqlar bir yerdən başqa yerə keçirilirsə, deməli, onlarda nizam-intizam yoxdur. Əgər onun komandirləri qışqırıb töhmətləndirirsə, deməli, əsgərləri yorulub. Əgər atları darı ilə yemləyir, özləri isə ət yeyirlərsə, əgər kuzələri ağacdan asmayıb özləri də təkrarən düşərgəyə qayıtmırlarsa, deməli, onlar son həddə çatdırılan quldurlardır.

Əgər sərkərdə əsgərlərlə mehribanlıq və nəzakətlə danışırsa, deməli o, qoşununu itirib. Əgər o haqq-hesabsız mükafat paylayırsa, deməli, qoşun çətin vəziyyətdədir. Əgər o aramsız cəzalandırırsa, deməli, qoşun ağır vəziyyətdədir. Əgər o əvvəlcə qəddar olub, sonra isə qoşunundan qorxursa, bu o deməkdir ki, hərb sənətindən qətiyyən xəbəri yoxdur.

17.Əgər düşmən gəlib girov təklif edir və bağışlanmaq üçün yalvarırsa, deməli, o dincəlib qüvvə toplamaq istəyir. Əgər onun

qoşunu qəzəblə coşaraq qarşına çıxır, lakin uzun zaman döyüşə girmir və eyni zamanda, geri çəkilmirsə, mütləq diqqətlə onu izlə.

İş onda deyil ki, əsgərlərin sayını dönə-dönə artırasan. Yalnız qoşunun gücü ilə irəli getmək olmaz. Qoşunun o qədər olması yetər ki, öz qüvvələrini cəmləşdirib düşməni düzgün qiymətləndirərək onun öhdəsindən gəlməyə kifayət etsin. Kim ki, yaxşı ölçüb-biçmir və düşmənə etinasızcasına yanaşır, mütləq onun əsiri olacaq.

Əgər əsgərlər hələ sənə öyrəşməyiblər və sən onları cəzalandırırsan, onlar sənə tabe olmayacaqlar, əgər tabe olmayacaqlarsa, onlardan istifadə etmək çətin olacaq. Əgər əsgərlər sənə öyrəşiblərsə, amma heç kimə cəza verilmirsə, onlardan istifadə etmək heç mümkün olmayacaq.

Ona görə vətəndaş qaydaları ilə hərəkət edərək onlara əmr ver; hərbi qaydaların köməyi ilə hərəkət edərək onları bir nəfər kimi sənə itaət etməyə məcbur et.

Haçan ki, qanunlara əməl olunur, bu halda xalqa nəyi isə təlim etsən, o sənə itaət edəcək. Haçan ki, qanunlar, ümumiyyətlə, yerinə yetirilmir, bu halda xalqa nəyi isə təlim etsən də o sənə itaət etməyəcək. Haçan ki, qanunlar, ümumiyyətlə, etimadla qəbul edilir və aydındır, deməli, sən və kütlə qarşılıqlı şəkildə bir-birinizi tamamlayırsınız.

X FƏSİL
ƏRAZİNİN FORMALARI

Sun Tszı deyib: Ərazi öz formasına görə açıq olur, maili olur, kəsilən olur, dərəli olur, dağlıq olur, uzaqda olur.

Haçan ki, mən də gedə bilərəm və o da gələ bilər, belə yer açıq yer adlanır. Belə yerdə hər şeydən əvvəl yüksəklikdə, onun günəşli tərəfində düşərgə sal və ərzaq ehtiyatının gətirilməsi yollarını təmin et. Əgər belə bir şəraitdə döyüşə girsən, sərfəli olar.

Haçan ki, getmək asan, qayıtmaqsa çətin oldu, belə yer maili yer adlanır. Maili yerdə əgər düşmən döyüşə hazır deyilsə, başlasan ona qalib gələrsən; yox əgər düşmən döyüşə hazırdırsa, döyüşə girsən qalib gələ bilməzsən. Geriyə qayıtmaq isə çətin olacaq: qazanmayacaqsan.

Haçan ki, döyüşə girmək nə mənə, nə də ona sərf edir, belə yer bölünən yer adlanır. Kəsilən yerdə, hətta əgər düşmən sənə sərfəli şərait yaratsa da, döyüşə girmə. Ordunu geri çəkib, uzaqlaş. Düşməni məhv et ki, ordusunun yarısını bura gətirsin; və əgər bu vaxt ona zərbə vursan, bu sənin üçün sərfəli olar.

Əgər dərəli yerə birinci gəlib mövqe tutsan, mütləq bütün əraziyə yayıl və beləcə düşməni gözlə; əgər o birinci gəlib orada mövqe seçsə, onun ardınca getmə. O zaman gedə bilərsən ki, o bütün sahəni tutmamış olsun.

Əgər dağlıq yerdə birinci gəlib mövqe seçsən mütləq yüksəklikdə qərar tut, onun günəşli tərəfində və beləcə düşməni

gözlə: əgər birinci o gəlib səni qabaqlasa, qoşunu geri çəkib oradan uzaqlaş; onun ardınca getmə.

Uzaq ərazidə əgər qüvvələr bərabərsə, düşməni döyüşə çağırmaq çətindir, yox əgər döyüşə başlasan, üstüniük gözləmə.

Bu altı bənd ərazi haqqında təlim deməkdir. Sərkərdənin ali vəzifəsi ondan ibarətdir ki, bütün bunları dərk etsin.

Bu ona görə belə olur ki, qoşun tələsik geri çəkilir, başsız qalır, düşmənin əlinə keçir, dağılır, yerdə qalan hissələri başıpozuq halda qaçır. Bu altı fəlakət təbiətdən deyil, sərkərdənin səhvi ucbatındandır.

Şəraitin bərabər olduğu vaxt biri ilə onun üzərinə hücuma keçir, bu o deməkdir ki, qoşun geri çəkilir. Əsgərlər güclu, komandir zəifsə, bu o deməkdir ki, qoşunda başıpozuqluq var. Haçan ki, komandirlər güclü, əsgərlərsə zəif oldu, bu o deməkdir ki, qoşun düşmənin əlinə keçəcək. Haçan ki, ali komandirlər öz rəislərinə qarşı hirslidirlər və ona tabe olmadan düşmənlə qarşı-qarşıya gələrlərsə, acıqlarından özbaşına döyüşə girəcəklər, bu onunla izah olunur ki, sərkərdə onların qabiliyyətlərinə bələd deyil.

Bu isə qoşunda pərakəndəlik deməkdir. Nə vaxt ki, sərkərdə zəif və sərt deyil o zaman əsgərlərin təlimi qeyri-müəyyənliklə fərqlənəcək, haçan ki, komandirlər və əsgərlər arasında sabit heç nə yoxdur, nə vaxt ki qoşunun düzülüşü və döyüş qaydaları tərs-məzhəbdir, bu o deməkdir ki, qoşunun içində heç bir nizam-intizam yoxdur. Haçan ki, sərkərdə düşməni qiymətləndirə bilmir, haçan ki, o öz kiçik qüvvələrini düşmənin böyük qüvvələri ilə vuruşa aparır, haçan ki, o zəif ola-ola güclünün üzərinə hücuma keçir, haçan ki, onun qoşununda seçmə hissələr yoxdur, bu o deməkdir ki, qoşun qaçmağa başlayacaq.

Bu beş bənd düşməni məğlub etməyin təlimini təşkil edir. Sərkərdənin ali vəzifəsi ondan ibarətdir ki, bütün bunları dərk etsin.

Ərazinin şəraiti yalnız qoşuna kömək üçündür. Ali komandan üçün elm ondan ibarətdir ki, düşməni qiymətləndirməyi bacarsın, qələbəni təşkil etsin, ərazinin xarakter və məsafəsini nəzərə alsın. Kim ki, bunları bilərək döyüşə başlayır, o mütləq qalib gəlir; kim ki, bunları bilmədən döyüşə girir, o mütləq məğlubiyyətə uğrayır.

Ona görə hərb elminə əsasən belə çıxır ki, mütləq qalib gələcəksən. Onda hökmdar sənə, hətta «vuruşma» desə də, mütləq vuruş. Hökmdar sənə «mütləq vuruş» demiş olsa da, hərb elminə görə əgər belə görünsə ki, qalib gəlməyəcəksən, onda vuruşma.

Ona görə də o sərkərdə ki, döyüşə başlayanda şöhrət axtarmır, geri çəkiləndə isə cəzadan yayınmır və daim xalqın rifahı və hökmdarın xeyri üçün düşünür, belə sərkərdə dövlət üçün əsl xəzinədir.

13.Əgər əsgərlərinə öz uşaqların kimi baxsan, onlarla lap dərin dərəyə də gedə bilərsən; əgər əsgərlərinə öz sevimli oğlanların kimi baxsan, onlarla ölümə də gedə bilərsən. Lakin əgər

onlara xeyirxah olsan, onlarla nə istəsən edə bilməyəcəksən: əgər onları sevsən, onlara hökm edə bilməyəcəksən; əgər onların arasında hərc-mərclik başlayarsa, sən isə nizam-intizam yarada bilmirsən, bu o deməkdir ki onlar sənin sözə baxmayan uşaqlarındır və onlardan istifadə etmək qeyri-mümkündür.

Əgər görsən ki, sənin əsgərlərinlə düşmənə hücum etmək olar, amma düşmən üzərinə hücum etməyin qeyri-mümkünlüyünü görə bilməsən, qələbənin yalnız yarısını qazana bilərsən. Əgər görsən ki düşmən üzərinə hücum etmək olar, amma belə əsgərlərlə düşmən üzərinə hücum etməyin qeyri-mümkünlüyünü görməsən, qələbənin yalnız yarısını qazana bilərsən. Əgər görsən ki, düşmən üzərinə hücum etmək olar, görsən ki, sənin əsgərlərinlə hücum etmək də mümkündür, amma yerli şəraitin hücum üçün qeyri-münasib olduğunu görməsən, qələbənin yalnız yarısını qazana bilərsən.

Ona görə də kim müharibənin nə olduğunu bilib hərəkətə gəlirsə, səhv etmir, bu vaxt ayağa qalxan bəlaya düçar olmaz.

Buna görə də belə deyilib: Əgər onu da tanıyırsan və özünü də tanıyırsan, qələbə uzaqda deyil; əgər bununla belə, göyü və yeri də tanıyırsan, qələbə bütünlüklə təmin olunub.

XI FƏSİL
DOQQUZ ŞƏRAİT

Sun Tszı deyib: .

Müharibə qaydası belədir; var dağınıq ərazi, qeyri-sabit ərazi, iddia edilən ərazi, qarışıq ərazi, kəsişən ərazi, ciddi durumlu ərazi, yolsuz ərazi, mühasirəli ərazi, ölüm ərazisi.

Haçan ki, knyazlar öz ərazilərində vuruşur,- bu dağınıq ərazi olacaq; haçan ki, özgə torpağında olub,lakin onun dərinliklərinə gedilmir,- bu qeyri-sabit ərazi olacaq; haçan ki, mən onu tuturam və bu sərfəlidir; haçan ki, o tutub alır, ondan ötrü də bu sərfəlidir,- bu iddia edilən ərazi olacaq; haçan ki, mən də oranı keçə bilərəm və o da keçə bilər,- bu qarışıq ərazi olacaq; haçan ki, knyazın torpağı hər üçünə aiddir və kim ki, ora birinci gəlir, Kainatda (oxu: Çində-Səmaaltında) ölkədə hər şeyə sahib olur,- bu kəsişən ərazi olacaq; haçan ki, özgə torpağının içərilərinə gedilir və arxada çoxlu möhkəmləndirilmiş şəhərlər qalır,- bu, ciddi durumlu ərazidir; haçan ki, dağlar və meşələr, uçurumlar və yarğanlar, gölməçə və bataqlıqlar, ümumiyyətlə, çətin keçilən yerlərdən keçir,- bu yolsuz ərazidir; haçan ki, daxil olunan yol dardır, keçib gedilən yol isə dolayıdır, haçan ki, o öz kiçik qüvvələri ilə mənim böyük qüvvələrimə həmlə edə bilər,- bu mühasirəli ərazidir; haçan ki, sürətlə döyüşə atılıb xilas olunur, amma sürətlə döyüşə atılmayıb məhv edilir,- bu, ölüm ərazisidir.

Ona görə də, dağınıq ərazidə vuruşma; qeyri-sabit ərazidə dayanma; iddia edilən əraziyə daxil olma; qarışıq ərazidə əlaqələri

itirmə; kəsişən ərazilərdə müqavilələr bağla; ciddi durumlu ərazidə qarətlə məşğul ol; yolsuz ərazilərdən keç, get; mühasirəli ərazilərdə baş çıxar; ölüm ərazisində isə vuruş.

Kim ki, qədimlərdə döyüşləri yaxşı aparıb, elə bacarıq göstərib ki, düşmənin ön və arxa hissələri bir-birindən xəbər tuta bilməyiblər, böyük və kiçik qoşun birləşmələri bir-birlərinin köməyinə gəlməyiblər, alicənablar və alçaqlar bir-birlərinin dadına çatmayıblar, alilər və aşağılar bir-birləriylə birləşməyiblər; qədimlərdə elə edirdilər ki, düşmənlərinin əsgərləri bir-birlərindən ayrı düşürdülər və bir yerə cəm olmurdular, amma əgər qoşun birləşdirilib cəmləşirdisə də o vahid olmurdu (Haçan ki sərfəli olurdu hərəkət edirdilər; əgər sərfəli olmurdusa yerlərində qalırdılar).

Cəsarət edib soruşuruq: əgər düşmən böyük sayda və nizam-intizamla gəlirsə, onu necə qarşılamalı? Cavab verirəm: ona nə əzizdirsə, ondan qabaq ələ keçir. Əgər ələ keçirsən, o sənin sözünə baxacaq.

Müharibələrdə ən əsas şey sürətdir: o haraya qədər çatmağa nail olubsa, onu əldə et; onun ağlına gəlmədiyi yolla get; onun ehtiyat etmədiyi yerdə həmlə et.

Ümumiyyətlə, qonaq qismində müharibə etməyin qaydası ondadır ki, düşmən ərazilərinin dərinliklərinə gedərkən bütün fikir və qüvvələrini bir yerə cəmləyəsən. Bu təqdirdə ölkə sahibi sənin öhdəndən gələ bilməyəcək.

Dolu zəmiləri qarət edərkən öz ordun üçün kifayət qədər ərzaq təmin et; səylə öz əsgərlərinin qayğısına qal və onları yorma; onların ruhunu möhkəmlədib, qüvvələrini birləşdir. Qoşunu irəli apararkən öz hesablarına və planlarına uyğun hərəkət et və elə et ki, heç kim sənin planlarından xəbər tutmasın.

Öz əsgərlərini elə yerə at ki, orda çıxış yolu olmasın və bu zaman onlar ölər, amma qaçmazlar. Əgər onlar ölümə getməyə hazır olacaqlarsa qələbəni necə əldə etməmək olar? Və döyüşçülər də, başqa adamlar da bu vəziyyətdə öz bütün qüvvələrini səfərbər etmiş olacaqlar. Haçan ki əsgərlər ölüm təhlükələrinə məruz qalır, onlar heç nədən qorxmurlar; onların çıxış yolu olmayanda möhkəm dururlar; haçan ki onlar düşmən torpaqlarının dərinliklərinə getdilər, onları heç nə saxlamır; artıq heç bir çıxış yolu olmayanda onlar vuruşurlar.

Bu səbəbdən də əsgərlər heç bir təlqin olmadan ayıq olurlar, hər hansı bir təsir olmadan güc əldə edirlər, hər hansı xahişsiz bir-birləri ilə mehriban olurlar, heç bir əmr olmadan öz rəislərinə etibar edirlər.

Əgər hər hansı bir öncəgörməni qadağan etsən və hər hansı şübhəni kənara atsan, əsgərin beyni ölənə kimi kənar şeylərlə məşğul olmaz.

Haçan ki, əsgərlər deyirlər: «Bizə artıq sərvət lazım deyil»- bu o demək deyil ki, onlar sərvəti sevmirlər. Haçan ki, onlar deyirlər:

«Bizə artıq həyat lazım deyil!»- bu o demək deyil ki, onlar həyatı sevmirlər. Döyüş əmri eşidiləndə oturan zabitlərin və əsgərlərin göz yaşları yaxalığına axır, kimlər ki, uzanıb göz yaşları yanağı ilə süzülür. Lakin adamlar heç bir çıxış yolu olmayan vəziyyətə salınanda onlar Çjuan Çju və Tsao Kuy kimi cəsur olurlar.

Ona görə də kim ki, döyüşü yaxşı aparır, Şuayjana bənzəyir. Şuayjan Çanşan ilanıdır. Onun başından vuranda, o quyruğu ilə vurur, onun quyruğundan vuranda, o başı ilə vurur; əgər onun ortasından vursan, o həm başı, həm də quyruğuyla vurur.

Cəsarət edib soruşuram: «Qoşunu Çanşan ilanı kimi etmək mümkündürmü?» Cavab verirəm: «Mümkündür». Axı U və Yue çarlıqlarının əhalisi bir-birlərini sevmirlər. Lakin əgər onlar bir qayıqda çayı keçmiş olsalar və tufana düşsələr, onlar sağ əl sol ələ kömək etdiyi kimi bir-birlərini xilas edəcəklər.

Bu səbəbdən də əgər, hətta atları bağlasan və arabaların çarxını yerə basdırsan belə fərqi yoxdur, buna hələ bel bağlamaq olmaz. Bax onda ki, əsgərlər bir nəfər kimi cəsur oldular, qoşunun idarə edilməsinin ən böyük ustalığı da budur.

Haçan ki güclülər və zəiflər eyni dərəcədə mərdlik nümayiş etdirdi, bu ərazinin qanunlarının təsiridir. Ona görə də mahir sərkərdə elə bil ordusunun əlindən tutub aparır və sanki ordu deyil bir nəfərdir, bu o deməkdir ki, çıxış yolu olmayan vəziyyət yaranıb.

Sərkərdənin işi bax budur: o həmişə sakit və bu cəhətdən başqaları üçün əlçatmaz olmalıdır; o özü nizam-intizamlı olub, başqalarını da bu cür saxlamalıdır. O öz zabitlərinin və əsgərlərinin gözlərini və qulaqlarını çaşdırmalı, onların nəyi isə başa düşməsinə imkan verməməlidir. O öz niyyətlərini və planlarını dəyişməli və başqalarının bunlardan xəbər tutmasına yol verməməlidir. O olduğu yeri dəyişməli, öz-özünə dairəvi yol seçməli və qoymamalıdır ki, başqaları bundan xəbər tutsun.

Ordunu irəli apararkən onu elə bir şəraitdə qoymalıdır ki, elə bil göyə dırmaşanlar pilləkənsiz qalır. Qoşunu irəli aparıb, knyazın torpaqlarının içərilərinə girərək və həlledici döyüşlərə başlayaraq gəmiləri yandırmaq, ocaqları söndürmək lazımdır; əsgərləri elə aparmaq lazımdır ki, elə bil qoyun sürüsünü qovursan: onları ora qovursan, onlar da ora gedir; onları bura qovursan, onlar da gedir bura. Bütün ordunu toplayıb onu təhlükəyə məruz qoymaq lazımdır; bax əsl sərkərdəlik işi budur.

Doqquz ərazinin dəyişilməsi, sənə sərfəli olan sıxılma və açılma insan hisslərinin qanunlarıdır. Bütün bunları dərk etmək lazımdır.

Ümumiyyətlə, hücum xarakterli müharibə belədir: əgər düşmən torpağının içərilərinə girsə, onda onlar birləşəcəklər, əgər uzağa getməsələr, pərən-pərən düşəcəklər.

Haçan ki, öz ölkəndən çıxıb sərhədi keçərək müharibəyə başlayırsan, bu ayrılma ərazisi olacaq; haçan ki, yollar hər tərəfə

açıq oldu, bu kəsişən ərazi olacaq; haçan ki, dərinliklərə gedirsən bu vəziyyətin ciddi olduğu yer olacaq; haçan ki, dərinliklərə getmirsən, bu qeyri-sabit yer olacaq; haçan ki, arxada alınmaz yer, öndə isə dar yerlər oldu, bu mühasirə ərazisi olacaq; haçan ki, getməli yer yoxdur, bu ölüm zonası olacaq.

Bu səbəbdən də dağınıq ərazidə mən bütün istəkləri bir yerə cəmləyəcəyəm; qeyri-sabit ərazilərdə hissələr arasında əlaqələri saxlayacağam; iddialı əraziyə düşməndən sonra üz tutacağam; qarışıq ərazidə müdafiəyə diqqət verəcəyəm; kəsişən ərazidə əlaqələri gücləndirəcəyəm; ciddi vəziyyət yerində ərzağın aramsız gətirilməsinə nail olacağam; çətin keçilən ərazidə yolumla irəli gedəcəyəm; mühasirə yerində özüm yol açacağam; ölüm zonasında əsgərlərə təlqin edəcəyəm ki, onlar sağ qalmayacaqlar. Əsgərin hissləri elədir ki, mühasirəyə düşəndə onlar müdafiə olunurlar; heç bir çıxış yolu olmayanda onlar vururlar; vəziyyət çox ciddi olanda, onlar itaət edirlər.

Ona görə də kim ki, knyazların niyyətlərini bilmir, əvvəlcədən onlarla saziş bağlaya bilməz; kim ki, şəraiti– dağları, meşələri, uçurumları, yarğanları, bataqlıqları və gölməçələri tanımadı, o qoşunu irəli apara bilməz; kim ki, yerli bələdçilərə müraciət etməsə, o ərazinin xeyrindən bəhrələnə bilməz.

Kim ki, bu doqquz maddədən heç olmasa birini bilməsə, qoşunu hegemon ordu ola bilməz.

Əgər hegemon ordu böyük dövlətə qarşı çıxarsa o öz qüvvələrini bir yerə yığa bilməz. Əgər hegemonun qüdrəti düşmənə qarşı çevrilərsə, o sazişlər bağlaya bilməz.

Bu səbəbdən də Kainatda (*hegemon* Səmaaltı ölkədə-Çində) müttəfiqlər dalınca qaçmaz və Kainatda hakimiyyəti cəmləşdirə bilməz. O yalnız öz şəxsi iradəsini yayıb düşmənə öz qüdrətilə təsir edir. Buna görə də o düşmən qalalarını alıb onların dövlətlərini yıxa bilər.

Hegemon mükafatlandırarkən ümumi qanunlara əməl etməyib sərəncamları adi idarəetmə qaydasında imzalamır. O öz ordusu ilə elə rəftar edir ki, sanki bir adamı idarə edir. Orduya hökm edərkən işlər barədə danış. Onların izahına isə varma. Orduya sərəncam verərkən gəlir barədə danış, zərər barədə yox.

Əsgərlər yalnız ölüm yerinə atılandan sonra mövcud ola bilərlər; onları yalnız ölüm yerinə doldurandan sonra onlar yaşaya bilər; onlar yalnız bəlaya düçar olandan sonra döyüşün taleyini həll edə bilərlər.

Ona görə də döyüşün aparılması qaydası düşmənin planlarını səylə öyrənib, ona öz niyyətinə uyğun hərəkət etmək imkanı verməkdən ibarətdir; bundan sonra onun bütün diqqətini nəsə bir şeyin üzərində cəmləyib sərkərdəsini lap min li uzaqda olsa belə öldürməli. Bu da işi ustalıqla görmək deməkdir.

Ona görə də hücum günü bütün zastavaları bağla, daxildən bir nəfər xəbərçinin də keçib getməməyi üçün nəzarət-buraxılış məntəqələrini məhv elə. Hökmdar öz şurası ilə hərəkət edir və işlərə əncam verir, müharibəyə aid məsələlərdə isə öz sərkərdəsi ilə məsləhətləşir.

Nə vaxt ki, düşmən açılmağa və bağlanmağa başladı, mütləq sürətlə onun daxilinə gir. Ona nə əzizdirsə, onu ələ keçirməyə çalış və sakitcə oturub onu gözlə. Müəyyən olunmuş xətlə get, lakin düşməni gözdən qaçırma. Bu minvalla da döyüşü həll edə bilərsən.

Ona görə əvvəlcə özünü məsum bir qız kimi göstər, düşmən o dəqiqə qapını açacaq. Sonra isə tələdən qurtaran dovşan kimi aradan çıx və düşmən müdafiə olunmağa imkan tapmayacaq.

XII FƏSİL

ODLA HÜCUM

Sun Tszı deyib: Odla hücum beş cür olur: birincisi, adamları yandıranda; ikincisi, ehtiyatları yandıranda; üçüncüsü, ərzaq arabalarını yandıranda; dördüncüsü, anbarları yandıranda; beşincisi, döyüşçü dəstələrini yandıranda.

Odla hərəkət edəndə onların tətbiqi üçün əsas olmağını bilmək zəruridir. Odlu vasitələrinin əvvəlcədən ehtiyatlarını mütləq hazırlanması zəruridir. Odu işə salmaq üçün müvafiq şərait lazımdır; oddan istifadə etmək üçün müvafiq gün lazımdır. Həmin müvafiq gün havanın quru olmasıdır; gün isə ayın Tszi, Bi, İ, Çjen bürclərində olması deməkdir. Ay bu bürclərdə olanda günlər küləkli keçir.

Odla hücum edəndə ona uyğun olan beş növ həmləni tətbiq etmək zəruridir: əgər od daxildən əmələ gəlibsə, onu cəld xaricdən dəstəkləmək lazımdır; əgər od əmələ gəlibsə, lakin düşmən tərəfində hər şey sakitdirsə, hücuma keçmə və gözlə. Haçan ki, od ən yüksək həddinə çatır, onun dalınca get, əlbəttə, əgər bu mümkünsə; əgər mümkün deyilsə, öz yerində dur. Əgər odu xaricdən işə salmaq mümkünsə, daxildə kimi isə gözləmə, münasib vaxt seçib, işə ver. Əgər od küləyin təsirilə alışıbsa, külək altından hücum təşkil etmə. Əgər külək gündüz uzun çəkirsə, gecə sakitləşir.

Ümumiyyətlə, müharibədə odla hücumun beş növünü bil və bütün vasitələrlə ondan qorun. Ona görə də, odla əldə olunan hücumun köməyi aydındır. Su ilə əldə olunan hücumun köməyi güclü olur. Lakin su ilə qarşısını kəsmək olar, almaq isə mümkün deyil.

Əgər döyüşmək və qalib gəlmək, həmlə etmək və ələ keçirmək istəyirsənsə, eyni zamanda, adlarını çəkdiyim vasitələrə əl atmırsansa fəlakət alınar; o şey ki, «uzanan ilişmələr» adlanır,– o alınacaq. Buna görə də belə deyilir: savadlı hökmdar bu vasitələrə ümid edir, yaxşı sərkərdə isə onları həyata keçirir.

Əgər sərfəli deyilsə, yerindən tərpənmə; əgər qazanc əldə edə bilmirsənsə, qoşunu işə salma; əgər təhlükə yoxsa, vuruşma.

Hökmdar öz qəzəbinə görə silaha əl atmamalıdır; sərkərdə öz hirsinə görə döyüşə başlamamalıdır. Sərfəli olduqda hərəkət edilir; əgər bu hücum sərf etmirsə, yerində qal. Qəzəb yenə sevincə dönə bilər, hirs yenə şənliyə çevrilə bilər, lakin məhv olan dövlət yenidən dirçələ bilməz, ölülər bir daha dirilə bilməz. Ona görə ağıllı hökmdar müharibəyə çox ehtiyatla yanaşır, yaxşı sərkərdə isə ondan çox çəkinir. Bu da dövlətdə sülhü qorumağın və ordunu salamat saxlamağın yoludur.

XIII FƏSİL
CASUSLARDAN İSTİFADƏ

Sun Tszı deyib: «Ümumiyyətlə, yüz minlik ordunu ayağa qaldırıb, min li məsafəyə yürüşə göndərəndə kəndlilərin itkisi, hökmdarın xərcləri gündə min qızıla çatır. Daxildəki və xaricdəki həyəcanlar; ordunun yollarda əldən düşməsi və yeddi yüz min ailənin işə başlaya bilməməsi...»

Bir-birlərindən illərlə müdafiə olunurlar, qələbə isə bir gündə əldə olunur. Və belə bir şəraitdə titulları, mükafatları və pulu əsirgəmək, üstəlik düşmənin vəziyyətini öyrənməmək– bu antihumanizmin ən yüksək dərəcəsidir. Kim ki, bunları əsirgədi, insanlar üçün sərkərdə deyil, öz dövlətinin köməkçisi və qələbənin sahibi deyil.

Ona görə kamil hökmdarlar və müdrik sərkərdələr hərəkət edir, qalib gəlir, hünər göstərir, hamıdan üstün olurdular, ona görə ki hər şeyi əvvəlcədən bilirdilər.

Əvvəlcədən biliyi Allahlardan və şeytanlardan almaq və oturub oxşar quramalarla və hər cür hesablamalarla da bu biliyi əldə etmək olmaz. Düşmənin vəziyyətini yalnız adamlar vasitəsilə öyrənmək olar.

Ona görə casuslardan istifadənin beş növü var: yerli casuslar, daxili casuslar, əks casuslar, ölüm casusları və nəhayət, həyat casusları olur.

Bütün bu beş növ casuslar işləyir və onların yolunu öyrənmək mümkün deyil. Bu da əldə olunmaz sirlər adlanır. Onlar dövlət üçün xəzinə deməkdir.

Yerli casuslar düşmən ölkəsinin əhalisindən ələ alınır və onlardan istifadə olunur; daxili casuslar düşmənin məmurlarından ələ keçirilir və onlardan istifadə olunur; əks casuslar düşmənin casuslarından ələ alınır və onlardan istifadə olunur. Mən haçansa nəsə aldadıcı bir şeyi işə salıram, bu barədə casuslarıma xəbər verirəm və onlar da bunu düşmənə çatdırır. Bu cür casuslar ölüm casusları adlanır. Həyat casusları isə düşmənin niyyətlərindən xəbər gətirən casuslardır.

Ona görə ordu üçün casuslardan əziz heç nə yoxdur. Casuslar üçün verilən mükafatdan böyük mükafat yoxdur; casusların

sirlərindən vacib sirr yoxdur. Kamil biliklərə sahib olmadan casuslardan istifadə edə bilməzsən; ədalətə və humanizmə sahib olmadan casusları işlədə bilməzsən; incəliklərə və dərinliklərə sahib olmadan casuslardan həqiqi nəticələr əldə edə bilməzsən: İncəlik! İncəlik! Casuslardan istifadə etmək üçün bundan vacib heç nə yoxdur.

Əgər casusun xəbəri hələ gəlməyibsə, amma xəbər artıq hamıya məlumdursa, o zaman həm casusun özü, həm onun xəbər verdiyi adam edam olunur.

Ümumiyyətlə, əgər düşmən ordusuna zərbə vurmaq, onun qalasına həmlə etmək, adamlarını qırmaq istəyirsənsə, mütləq əvvəlcədən ordu başçısının işində necə çağırıldığını, onun köməkçilərinin, mühafizə rəislərinin və mühafizə döyüşçülərinin necə adlandığını öyrən. Öz casuslarına tapşır ki, bütün bunları mütləq öyrənsinlər.

Əgər bilsən ki, sənin içində düşmənin casusu var və o səni izləyir, mütləq qazanc yolu ilə ona təsir et; onu yanına çağır və öz yanında yerləşdir. Çünki bu yolla sən əks-kəşfiyyatçı əldə edib, ondan istifadə edə bilərsən. Onun vasitəsilə hər şeyi öyrənə biləcəksən. Buna görə də sən yerli casusları da, daxili casusları da ələ ala və onlardan istifadə edə biləcəksən. Onların vasitəsilə sən hər şeyi öyrənəcəksən. Və buna görə də hər hansı bir yalan fikirləşib öz ölüm casusuna xəbər verərək düşməni çaşdıracaqsan. Onun vasitəsilə sən hər şeyi biləcəksən. Buna görə öz həyat casusunu öz ehtimallarına uyğun olaraq hərəkət etməyə məcbur edə biləcəksən.

Bütün bu beş kateqoriyalı casuslara mütləq hökmdarın özü bələd olmalıdır. Lakin düşmən barədə məlumatlar mütləq əks casus vasitəsilə öyrənilir. Buna görə əks casuslarla xüsusilə diqqətli olmaq lazımdır.

Qədimlərdə İn çarlığı ayağa qalxanda Sya çarlığında İ Çji idi; Çjou çarlığı ayağa qalxanda İn çarlığında Lyuy Yai idi. Yalnız aqil hökmdarlar və onların müdrik sərkərdələri öz casuslarını yüksək peşəkar etməyi bacarır və bunun vasitəsilə mütləq böyük əməllər həyata keçirirlər. Casuslardan istifadə etmək müharibədə ən əsas şeydir; bu ordunun söykənib hərəkət etdiyi əsas dayaqdır.

Nikolay Konradın şərhi

I Fəsil
İlkin mülahizələr

Sun-tszının traktatı müharibəni öyrənməyin, ümumiyyətlə, hərb elminin nəyə lazım olduğunun izahı ilə başlanır. Onun hərb elminin zəruriliyi lehinə arqumenti yığcamdır: «Müharibə dövlət üçün böyük işdir, bu ölüm və həyata zəmindir, mövcudluq və məhvolma yoludur».

Müharibənin öyrənilməsi nədən ibarətdir? Sun-tszı dərhal öz elminin proqramına keçir. Onun fikrincə, müharibə kimi bütöv mürəkkəb kompleksə malik hadisə, hər şeydən əvvəl müharibədə iştirak edən əsas ünsürlərin müəyyənləşdirilməsi yolu ilə öyrənilməlidir. Onun fikrincə, beş belə ünsür var. Sun-tszı onları o dövrün oxucusu üçün sadə və anlaşıqlı olan adlarla adlandırır. Birinci ünsür mənəvidir. Sun-tszı onu «Yol» adlandırır. «Yol» anlayışı qədim dövrlərdə Çində yalnız sözün həqiqi mənasında «yol» kimi deyil, habelə məcazi mənada da işlənmiş və sonuncu çox geniş məna tutumuna malik olmuşdur.

Sun-tszıda bu termin dar ixtisas mənası kəsb edir və müharibənin birinci şərtinin ifadə olunması üçün işlənir. «Yol– buna o zaman nail olmaq olar ki, xalq ilə hökmdarın fikirləri eyni olsun, xalq onunla birgə ölməyə və yaşamağa hazır olsun, şübhə və qorxunun nə olduğunu bilməsin».

Sun-tszının fikrincə, məhz bu birlik müharibənin qanunlarını öyrənən hər kəsin vacibliyini dərk etməli olduğu birinci şərtdir. Qeyd etmək lazımdır ki, bu tələbin mütləq olduğunu təkcə Sun-tszı irəli sürmürdü. Çinin ikinci tanınmış strateji, dövrünün məşhur sərkərdəsi olan U-tszı öz traktatının başlanğıcında hər hansı müharibənin ilkin şərti kimi daxili həmrəyliyi önə çəkir, eyni zamanda, bu söz altında o, hakimiyyət və əhali, hökmdar və xalq arasında həmrəyliyi nəzərdə tutur: «Əgər Yolu bilən hökmdar öz xalqını müharibəyə göndərmək istəyirsə, o, hər şeydən əvvəl həmrəyliyə nail olur və yalnız bundan sonra böyük təşəbbüsə rəvac verir» («U-tszı», I fəsil, 1).[1]

Bu sözlərdən göründüyü kimi, U-tszı da «Yol» anlayışı ilə bu həmrəyliyin əldə edilməsini– dövlətin onun anlamında düzgün, lazımi şəkildə idarə olunması ilə əlaqələndirir.

Müharibədə qələbə üçün dövlət daxilində birliyin zəruriliyindən qədim Çinin üçüncü məşhur hərbi yazıçısı Vey Lyao-tszı da bəhs edir.

---

[1] *U-tszının, habelə, «Yeddi kitab»ın bu şərhdə xatırlanan digər traktatları barədə məlumatlar «Sun-tszının traktatı və «Yeddi kitab» fəslində özünə yer tapmışdır.*

«Qoşun öz təmkini, dövlət bütövlüyü ilə qələbə çalır: kimin qüvvələri pərakəndədirsə, o zəifdir», - deyə, o, söyləyir (V fəsil). Və ya digər yerdə: «Birlik olan yerdə qələbə çalırlar, harada ki, həmrəylik yoxdur– məğlubiyyətə uğrayırlar» (XXIII fəsil).

Bununla yanaşı, Sun-tszı kimi, o da göstərir ki, birlik xalqda, birinci növbədə, öz hökmdarının haqq yolunda olduğuna şübhələrin olmaması ilə səciyyələnir. Vey Lyao-tszı Sun-tszıdan fərqli olaraq, şübhələrin olmasına nəyə görə yol verilmədiyini izah edir: «Ürəklər şübhələrlə dolu olan zaman, insanlar müqavimət göstərir»

(Vey Lyao-tszı, V fəsil).

«San lyue» traktatı bu barədə belə deyir: «Əgər sənin (hökmdar və ya sərkərdə nəzərdə tutulur– N.K) və kütlənin məhəbbəti eyni cür olarsa, onda heç zaman uğursuzluğa düçar olmazlar. Əgər sənlə kütlənin nifrəti eyni cür olarsa, hər şey sənə ram olar. Öz evini ona görə sülh içində saxlayır, dövləti ona görə idarə edirlər ki, insanları qazanırlar; dövləti ona görə məhv edir, öz evlərini ona görə dağıdırlar ki, insanları itirirlər («San lyue», səh 2).

Sun-tszını şərh edən hərbi yazıçılar da fikirlərini bu səpkidə bildirirlər. Məsələn, Men-şi «aşağılar və yuxarılar» arasında birlikdən bəhs edərək məsələyə bir qədər fərqli yanaşır, idarə edənlər və idarə olunanlar arasında birlik tələb edir. O, «səylərin, məhəbbətlə nifrətin, fayda və ziyanın birliyindən», insanlarda şəxsi məqsədlərin yoxluğundan söhbət açır. Bu şəraitdə «bütün milyonluq kütlədə sanki bir ürək olur».

Bəzi şərhçilər, məsələn, Tszya Lin, bu tələbi orduya şamil edir. Bu halda hökmdarın yerini sərkərdə tutur və ordunun daxili birliyi sərkərdənin öz əsgərləri ilə birliyini təcəssüm etdirir. «Əgər sərkərdə Yolu öz ürəyi edirsə (yəni, qoşunu düzgün idarə edir, əsgərlərə düzgün yanaşırsa,– N.K.), əgər onun digər insanlarla da faydaları üst-üstə düşürsə, onda əsgər və zabitlər ona tabe olur, təbii olaraq onların ürəyi rəislərinin ürəyi ilə bir döyünür. Tszya Linin təfsiri, şübhəsiz, Sun-tszının bəhs etdiyi birlik anlayışını daraldır. Görünür, birliyin təkcə ordu çərçivələrilə məhdudlaşdırılması Tszya Linin zamanının tarixi şəraitini əks etdirir, əgər qədimdə Çuntsyunun dövründə hökmdarlarla və azad əkinçi əhali (əlbəttə ki, qullarla deyil) arasında kökləri tayfa quruluşuna gedib çıxan hər hansı yaxınlıq mövcud idisə, Tan imperiyası feodal Çini dövründə feodal kəndlilər ilə onların istismarçıları– feodallar arasında ziddiyyətlər o qədər böyük idi ki, hansısa xüsusi şərtlər olmadan onların birliyini qeyri-mümkün edirdi. Ona görə də, Tszya Lin, yalnız o mühitdən (ordudan) bəhs edirdi ki, orada hökmdarlar üçün bu cür birlik zəruri və məlum hədlərdə mümkün idi.

Sun-tszının terminologiyasına görə, müharibənin ikinci ümumi ünsürü «Səma» adını daşıyır. O, bu ad altında nəyin başa düşülməsi olduğunu müəyyənləşdirir: «Səma– işıq və zülmət, isti və soyuqdur; bu zamanın qaydasıdır». Qısası, bu– müharibənin baş verdiyi

vaxtdır: fəsil, gün və sairə. Bu amilin əhəmiyyətini anlamaq, yəni, müharibədə amil, vaxt şərtlərinin əhəmiyyətini nəzərə almaq,– müharibə qanunlarını öyrənənin ikinci vəzifəsidir.

Öz traktatının bu yerində Sun-tszı «Yol» və «In», yəni «işıq» və «zülmət» sözlərini işlədir. Bu anlayışlar qədim çinlilərin təbiətə baxışlarında mühüm rol oynamış və hələ erkən dövrlərdən işıqla zülmət kimi real təzahürlərin ifadəsindən kosmik qüvvələrin rəmzlərinə çevrilmişdir. Sonralar onlar, ümumiyyətlə, həyata, ilk növbədə cəmiyyət həyatına sirayət etmişdir. Bununla əlaqədar, onlar o dərəcədə qəlizləşlmişdir ki, işıq və zülmət kimi ilkin mənaları arxa plana keçmiş; bu sonuncu anlayışlar üçün yeni şifahi ifadələr meydana çıxmış, qədim İn (zülmət) və Yan (işıq) isə artıq kosmoloji başlanğıclara çevrilmişdir.

Təbii olaraq, onlar o zaman əsasən, astrologiya formasında olan qədim Çin astronomiyasının tərkibinə məhək daşı kimi daxil olmuşlar. Beləliklə, geniş «in-yan» məktəbi təşəkkül tapmışdır.

Bu astrologiyanın əsas zəmini,– ilk növbədə insan cəmiyyətini, başlıca olaraq, hökmranlıq və tabeçilik münasibətlərini səciyyələndirən «Səma» hadisəsinin astronomik hadisələrə sirayət etməsi idi. Buna görə də səma hadisələrini, səyyarələri bu nöqteyi-nəzərdən «səma məmurları», yəni yerdəki məmurlar kimi öz iyerarxiyasına və dəqiq müəyyənləşdirilmiş funksiyalara malik olan tale rəhbərləri adlandırmağa başladılar. Bu zəmin ilə astrologiyanın əsas müddəası olan səma cisimlərinin insan talelərinə təsiri birləşirdi.

Təbii ki, müharibənin aparılması gedişində, çinlilər bu «ölüm və həyat», mövcudluq və məhvolma yolundan, bir sözlə, astrologiyadan yan keçə bilməzdilər. Nəinki, yunanlarda, romalılarda, qədim germanlarda, qallarda, habelə, bütün digər qədim xalqlarda olduğu kimi, çinlilər müharibədən, döyüşdən əvvəl vəziyyəti «ulduzlardan xəbər alırdılar». Xoşbəxt və bədbəxt günlərin, bir hərəkət üçün əlverişli, digəri üçün əlverişsiz günlərin bütöv mürəkkəb sistemi mövcud idi.

Qədim dövrün sərkərdələrini döyüşdən çox vaxt məhz «bədbəxt gün» saxlayırdı. Beləliklə, «Sun-tszı» da bu yerdə müharibə və döyüş üçün «xoşbəxt gün» seçməyin zəruriliyinə işarə kimi anlaşıla bilər.

Şərhçilərdən bəziləri, məsələn, Tszya Lin bunu belə də qəbul edir: digərləri; məsələn, Du Mu bu yeri izah edərək insan taleləri ilə, xüsusilə müharibə taleləri ilə səma hadisələrinin güman olunan əlaqələri barədə bu təsəvvürlərin mənzərəsini genişləndirməyi zəruri sayır. Buna qədim Çinin artıq xatırlanan üçüncü tanınmış strateqi– Vey Lyao-tszı da toxunur. Onun traktatı birbaşa «Səma məmurları» fəslindən başlayır. Burada o, qədim astrologiyanın bəzi müddəalarını izah edir. Bu fəsil üçün, eləcə də Vey Lyao-tszınını baxışları üçün bu deyil, fəslin yekun yeri səciyyəvidir.

«Çus sərkərdəsi Qun Tszı-sin tsislərlə müharibə aparırdı». Elə bu vaxt tutacağı (kometa öz formasına görə tsinlilər tərəfindən süpürgəyə bənzədilirdi– N.K.) Tsiyə yönəlmiş kometa əmələ gəldi. Sərkərdənin yaxın ətrafı ona dedilər: «Tutacağın yönəldiyi tərəf qələbə çalır. Tsiyə hücum etmək olmaz». Qun Tszı–sin cavab verdi: Kometa.., o nə anlayır? Kim süpürgə ilə dalaşırsa, aydındır ki, tutacağı döndərir və qələbə çalır.

Növbəti gün o, tsislərlə döyüşə girdi və onları darmadağın etdi. Xuan-dı demişdir: «Allahlara və iblisə müraciət etməzdən öncə, öz ağlına müraciət et». Bu sözlərlə o, bütün səma əlamətlərinin insanlardan və onların əməllərindən ibarət olduğunu deyirdi. («Vey Lyao-tszı», I fəsil).

Bu epizodun göstərilməsi, strategiya elminin atası hesab olunan əfsanəvi Xuan-dinin dilindən işlədilmiş yekun kəlam Vey Lyao-tszının özünün astrologiyaya münasibətini təsvir edir. Və bu təsadüfi hal deyil, bu, bu ən azı qədim Çinin böyük sərkərdə və hərbi yazıçıları üçün qaydadır.

Sonrakı dövrün hərb sənəti üzrə ən maraqlı əsərlərindən biri olan Li Vey-qunun «Dialoq»larında belə bir yer var:

«Tay-tszun demişdir: Siz haçansa səma qüvvələrindən-vaxtdan və günlərdən danışırdınız, arif sərkərdə onlarla hesablaşmır, cahil isə özünü onlarla əlaqələndirir. Deməli, onları kənara qoymaq olar?

Li Vey-qun cavab verir: Çjou Sin «tzyatszı» günündə həlak olmuşdur, amma U-van həmin gün çarılq əldə etmişdir. Səma qüvvələri-vaxt və gün nöqteyi-nəzərindən bu, eyni «tzyatszı» günü idi. Amma müxtəlif cür alındı: İn çarlığı süquta uğradı, Çjou çarlığı isə bərqərar oldu, biri məhv oldu, biri ayağa qalxdı.

Eynilə bu cür Sun imperatoru U-di «hücum çəkən tərəfin həlak olacağı» gün müharibəyə başladı. Qoşun başçıları ona bunu etməməyi deyir, imperator isə cavab verirdi: «Mən gedəcəyəm və düşmən həlak olacaq». Və sonda o, qələbə çaldı. Bundan çıxış edərək onları kənara qoymaq olar (Li Vey-qun venduy, III fəsil, səh.64).

Beləliklə, Li Vey-quna görə, astrologiya cahil adamlar üçün mövcuddur, arif sərkərdə isə onunla hesablaşmır. Səciyyəvidir ki, U-tszı da baxıcılığı özünəməxsus təbliğat vasitəsi qismində mümkün sayır, lakin onları sərkərdələr üçün göstəriş kimi rədd edir. O, öz traktatında düşmən üzərinə hücum zərurəti ilə bağlı vəziyyəti qətiyyətlə qeyd edir: «Heç bir fal açmadan hücum etmək lazımdır» (fəsil II, 2). Əks təqdirdə də o, eyni məsləhəti verir: Şərait göstərirsə ki, hücum etmək olmaz, onda hər hansı falçılıqdan asılı olmayaraq hücumdan vaz keçmək lazımdır (II fəsil, 2).

Sonrakı əsrlərin nüfuz sahibi kimi tanıdığı Sun-tszının öz ardıcılları üçün Li Vey-qunun söylədiyi kimi, maarifpərvər sərkərdəyə nümunəvi olduğunu demək artıqdır. Onun hər cür falçılığa

münasibətini traktatından da asanlıqla sezmək olar. Bu barədə müvafiq yerlərdə söhbət açılır, burada isə qoşunda hər hansı falçılığın qəti qadağan olunması barədə Allah və İblisdən qabaqcadan bilik (rəqib haqqında-N.K.) əldə etmək mümkün olmadığına dair sözlərinə istinad edək (XIII fəsil, 4).

Mistikaya və mövhumatçılığa mənfi münasibəti onda da özünü büruzə verir ki, o, işarələr, əlamətlər, falçılıq barədə danışmır, yalnız iki yerdə ötəri olaraq, özü də bunu qəti surətdə rədd etmək üçün xatırlayır. Ona görə də Sun-tszı tərəfindən işlədilən İn və Yan sözlərində işıq və zülmət, gündüz və gecə-sözün geniş mənasında isə ümumiyyətlə, təbiət hadisələrini görən şərhçilər tamamilə haqlıdırlar. Belə ki, Van Çje yazır: «İn-Yan, bu Səma Yolunun-təbiətin beş ünsürünün, dörd fəslin, küləyin, buludların, metereoloji hadisələrin ümumi adıdır». Mey Yao-çen yazır: «Ordu hökmən Səma Yolunun (yəni təbiət qanunlarının– N.K.) ardınca getməli, iqlim şəraiti ilə uyğunlaşmalıdır və onlardan vaxtında istifadə etməyi bacarmalıdır». Beləliklə, söhbət tamamilə real şeylərdən-iqlim və havadan, metereoloji şəraitdən, ilin fəslindən gedir.

Təsadüfi deyil ki, Sun-tszı soyuq və istini yanaşı xatırlayır. Bunun arxasında qədim hərbi traktatlardan biri olan- «Sıma fa»da aydın şəkildə ifadə olunmuş tamamilə sadə fikir gizlənir: Qışda və yayda (yəni amansız sazaqda və güclü bürküdə-Red) ordunu ona görə qaldırmırlar ki, öz xalqlarına rəhmləri gəlir («Sıma fa», I fəsil, səh. 3).

«Sıma fa» nın bu kəlamından az qala «Sun-tszının» bütün şərhçiləri sitat gətirirlər, bu isə onun fikrini əks etdirdiyni sübut edir. Təsadüfi deyil ki, şərhçilər digər yozumları yaxına buraxmayan tarixi nümunələrə istinad edirlər. Belə ki, Xan imperatoru Qao-tszu (206-195) qışda şimala hunlara qarşı yürüşə çıxarkən qoşunun 20-dən 30 faizinədək donmasına və tam məğlubiyyətə uğramasına gətirib çıxarmış şaxtaları hesaba almır. Sonrakı Xan dövrü sərkərdəsi Ma Yuan (m. ə 14-cü il– miladın 49-cu ili) yayın qızmar çağında isti və rütubətli iqlimə malik Linnana ekspedisiya təklif edir. Müxtəlif xəstəliklərin tüğyan etdiyi bu yerdə ordunun 90 faizi həlak olur.

Yuxarıda ifadə olunanlardan Sun-tszının «Səma– işıq və zülmət, isti və soyuq, bu vaxtın qaydalarıdır» sözləri altında ilin fəsillərinin, havanın əhəmiyyətini nəzərə aldığı, şübhəsiz, bunların hamısından öz maraqları naminə istifadə etməyi bacarmağı nəzərdə tutduğunu hesab etmək olar.

Müharibənin üçüncü ümumi ünsürü– «Torpaq»dır. «Torpaq– bu yaxın və uzaq, hamar və nahamar, geniş və dar, ölüm və həyatdır. Söhbət yerdən, onun əlamətlərindən, döyüşən tərəfin nöqteyi-nəzərindən, müharibəinin şəraitinə və vəzifələrinə münasibətindən gedir.

«Ölümcül» anlayışı yerə o mənada aid edilir ki, müharibə şəraitində bəzi vəziyyətlər orada döyüş aparanlar üçün faciəvi ola

bilər: digər– «həyati» yerlər isə ən əlverişli nəticələr vəd edir. Başqa sözlə desək, «Torpaq» sözü altında Sun-tszı müharibə qanunlarını öyrənən hər bir kəsin əhəmiyyətini dərk etməli olduğu mümkün hərbi əməliyyatlar teatrının coğrafi şəraitini başa düşür.

Traktatın bu yerini şərhçi Mey Yao-çen çox yaxşı izah edir: «Müharibədə əvvəl yerin vəziyyətini bilmək vacibdir». «Yaxın» ı və «uzağ» ı (yəni, məsafəni– N.K.) biləndə, birbaşa və dolayı hərəkətə keçmək olar; «hamar və kələ-kötür (yəni, yerin relyefi– N.K.) biləndə, öz piyada və atlılarından tam istifadə edə bilərsən; «geniş» və «dar»ı biləndə (yəni, döyüşün güman olunan yerinin ölçülərini– N.K.), döyüşə nə miqdarda qoşun çıxarmağı müəyyən etmək olar; «ölümcül» və «həyati»ni biləndə (yəni, yerin strateji faydalarını və nöqsanlarını–N.K.), qələbə və məğlubiyyətin şərtlərini müəyyənləşdirmək olar». Sun-tszı vəziyyət məsələsinə böyük əhəmiyyət verir və bu mövzuda çoxsaylı fikirlərini nəzərə almasaq, xüsusi olaraq buna II, X və XI fəsilləri həsr edir.

Strategiyanın dördüncü ümumi ünsürü– bu, «sərkərdə», dəqiq desək, sərkərdənin keyfiyyətidir. Müharibənin gedişi və onun sonucu bundan çox asılıdır. Ona görə də müharibəni öyrənən bu amili də dərk etməlidir.

Sun-tszı dərhal sərkərdənin malik olmalı olduğu beş keyfiyyəti sadalayır: o, ağıla malik olmalı, qərəzsiz (və ya ədalətli), humanist, cəsarətli, ciddi olmalıdır.

Sun-tszının şərhçilərindən biri olan Xe Yan-si bu keyfiyyətlərin zəruriliyini belə izah edir: «Əgər sərkərdənin ağlı yoxdursa, o, rəqibi qiymətləndirə və lazımi taktikanı işləyib hazırlaya bilmir; əgər onun qərəzsizliyi (ədaləti) yoxdursa, o, digərlərinə əmr verə və tabeçiliyində olanları arxasınca apara bilmir; onun humanistliyi yoxdursa, o, kütlələri özünə cəlb edə və əsgərləri özünə bağlaya bilmir; onun cəsarəti yoxdursa, onda hər hansı hərəkətə keçmək və döyüşə girmək üçün qərara gələ bilmir; əgər o ciddi deyildirsə, onda güclünü özünə tabe etdirə və kütləni idarə edə bilmir. Bu beş keyfiyyətə tam malik olan–sərkərdənin təcəssümüdür.

Xenin bu sözlərindən aydın olur ki, ağıl hər şeydən əvvəl düşmənin qiymətləndirilməsi və onunla mübarizənin lazımi taktikasının işlənib hazırlanması üçün gərəkdir.

Bu, Çin strateqləri tərəfindən birinci dərəcəli əhəmiyyətə malik iş hesab olunurdu. Sun-tszının müharibəni aparmaq barədə bütün göstərişləri iki müddəaya əsaslanır: rəqibi və özünü tanımaq. Bu bilik onun üçün qəti və dəyişilməz tələb olaraq qalır. «Əgər onu və özünü tanıyırsansa, lap yüz dəfə döyüş, təhlükə olmayacaq»,– öz traktatının III fəslini o, bu sözlərlə bitirir. U-tszı habelə qeyd edir: «Müharibəni apararaq, rəqibin güclü və zəif tərəflərini dəqiq bilmək, zərbəni onun təhlükəli yerinə yönəltmək zəruridir və rəqibin qiymətləndirilməsinə öz traktatının bütöv II fəslini ayırır.

Xenin təbirincə, ağıl həm də mübarizə taktikasının işlənib hazırlanması üçün lazımdır. Anlaşılandır ki, bu düşməni tanımaqla sıx əlaqədədir: bu bilik elə ona görə lazımdır ki, onun əsasında mübarizə taktikasını işləyib hazırlayasan. Bu U-tszının yuxarıda göstərilən sözlərindən də görünür. Eyni zamanda, hərb sənəti üzrə qədim traktatlarda mübarizənin strategiya və taktikasına dar mənada müharibənin aparılması sənəti olduğuna görə deyil, eləcə də, xüsusi müharibədən irəli gələrək mərkəzi yer ayrılır.

Köhnə Çinin bütün hərbi yazıçıları, əlbəttə, Sun-tszıdan başlayaraq, belə bir nöqteyi-nəzərin üzərində dayanırlar ki, hər cür qaydalar yalnız ümumi göstərişlər olaraq qalır; bütövlükdə isə işi konkret vəziyyət həll edir: yalnız o bu qaydanın necə tətbiq edilməli olduğunu göstərir. Vəziyyət isə bitib-tükənən və fasiləsiz dəyişikliklərə məruz qalır ki, bunun nəticəsində ona bələd olmaq, müvafiq yer və an üçün həmişə lazımi qərar tapmaq çətindir. Beləliklə, ağıla, zəkaya xüsusilə böyük tələblər qoyulur.

Bu barədə aşağıda ətraflı məlumat veriləcək, burada isə onu qeyd etmək lazımdır ki, bu maddəyə Sun-tszının şərhçilərindən bəziləri xüsusi əhəmiyyət verirdilər. Belə ki, məsələn Mey Yao-çen belə söyləyir: «Ağıl olarsa, strategiya və taktikanı işləyib hazırlamağı bacarırlar». Van Çje bu bacarığı şəraitin daimi dəyişməsi ilə əlaqədə nəzərdən keçirir: «Ağıl hər şeyi öncədən görür; onu səhv yola yönəltmək mümkün olmur, o düşünməyi və bütün dəyişikliklərə nüfuz etməyi bacarır», yəni bəsirətə malikdir. (sonrakı dövr) Sun-tszı traktatının sonrakı dövr yapon şərhçilərindən biri olan Oqyu Soray (1666-1728) sərkərdənin ağlının geniş xasiyyətnaməsini verir: «Sərkərdənin ağlı bir işə başlamamışdan öncə onun necə bitəcəyini görə bilməli, heç bir yalana, böhtana uymamalı, iş mənfi məcraya yönəlməmişdən öncə ona qarşı vasitə tapmalı, həmişəlik müəyyənləşdirilmiş qaydalardan imtina etməsi, indiki an üçün lazım olanı seçməyi bacarmalı, uğursuzluğu uğura çevirməyi bacarmalıdır». (Soray, «Sun-tszının şərhi», «Kanseki kokudzikay dzense». X cild, Vaseda dayqaku syuppanbu nəşr., Tokio.). Başqa sözlə desək, sərkərdədən insan psixologiyasını dərindən bilmək, bəsirət, tədbirli, zirək olmaq tələb olunur.

Sərkərdənin növbəti məziyyəti-tərəfsizliyidir. Burada çox mürəkkəb mənaya malik «sin» sözü belə tərcümə olunmuşdur. Bununla insanın «düzgünlüyünü» şərtləndirən daxili keyfiyyəti ifadə olunur, özü də bu nəinki sözlərə, eləcə də əməllərə aid olunur. Bununla əlaqədar, buraya özünə, öz prinsiplərinə, öhdəliklərinə, borcuna «sədaqət», habelə «ədalət» anlayışları daxildir. Eyni zamanda, «sin» sözü ədalətin nəticəsi olaraq digərləri tərəfindən «etimad» anlayışını ifadə edir.

U-tszı həmsöhbəti olan, Vey knyazının «Orduya rəhbərlikdə ən başlıcası nədir?: sualına– ən əsası-dörd asanı, iki çətini və bir tərəfsizliyi (III fəsil, 1) aydınlaşdırmaqdır». Burada «dörd asanın»

nəyi ehtiva etdiyini izah etməyə lüzum yoxdur, yalnız onu qeyd etmək lazımdır ki, «tərəfsizlik» cəza və mükafatların ədalətli olması üçün lazımdır. Məhz buna görə də Mey Yao-çen sərkərdədən tələb olunan «tərəfsizliyin» həqiqi mənasına daha konkret yanaşaraq söyləyir: «Ədalət olan yerdə cəzalandırmağı və mükafatlandırmağı bacanrlar». Van Çje təxminən eyni fikir söyləyir: «Tərəfsizlik– əmr və sərəncamların eyniliyidir».

Sərkərdənin növbəti keyfiyyəti– humanizmdir. Li Tsuan bu keyfiyyəti belə müəyyənləşdirir: «Humanizm– insanları sevmək, əşyaların qədrini bilmək, səy və əməyi anlamaq deməkdir». İnsanlara məhəbbət, diqqət, onlann qayğısını çəkmək barədə Xe ilə Van Çjenin fikirləri üst-üstə düşür.

Görünür, bu sərkərdə üçün əsas hesab olunmurdu: humanizm məqsəd deyil, vasitədir. Xeyə görə, humanizm «kütlələri cəlb edir». Mey Yao-çen də bu fikrə qoşularaq humanizmlə insanları cəlb etməkdən söhbət açır. Qısası, Van Çjenin təbirincə desək, humanizm «insan qəlblərinə, sərkərdə üçün isə, birinci növbədə, öz əsgərlərinin qəlbinə hakim olmaq vasitəsidir». Sun-tszının sərkərdədən tələb etdiyi növbəti keyfiyyət– igidlikdir.

Maraqlıdır ki, şərhçilər bu anlayışı sadəcə rəşadət kimi deyil, iradə gücü və qətiyyət anlamında təfsir edirlər. İgidlik qərar qəbul etmək və onları əzmlə yerinə yetirməkdən ibarətdir. Bu anlayışı Xe Yan-si məhz belə şərh edir. Lakin Soray bu keyfiyyətin daha geniş izahını verir.

«Sərkərdənin igidliyi– rəqibin böyük ordusundan çəkinməmək, qorxunc qüvvədən qorxmamaq, az qüvvə ilə belə döyüşmək niyyətindən əl çəkməmək, məğlubiyyətdən sonra da igidliyi itirməməkdir: İgidlik-düşmənlə rastlaşdıqda heç nəyə baxmadan onunla döyüşə girmək, təqib zamanı güclü düşmənin sıralarına müdaxilə etmək, rəqib tərəfindən mühasibədə olan zaman onu yarmaq və ən çətin vəziyyətlərdən çıxmaqdır. Sərkərdənin igidliyi bundadır» (səh 12).

Beləliklə, Soray sərkərdənin igidliyi altında dörd keyfiyyəti– rəşadəti, cəsurluğu, cəsarəti, hər zaman ruh yüksəkliyini saxlamaq qabiliyyətini başa düşür.

Sərkərdənin sonuncu keyfiyyəti– ciddilikdir. «Ciddiyyət olmadan güclünü özünə tabe etmək və kütləni idarə etmək mümkün deyil»- deyə, Xe Yan-si söyləyir. Soray da bu fikri təsdiqləyir. «Sərkərdənin ciddiliyi– əmr və qaydaların yüzləri və minləri bir nəfəri idarə etdiyi kimi idarə etməsi; yalnız insanların və atların ayaq səsələrinin eşidildiyi, düzülüşün, mühafizənin (sıraların), təbil döyüşünün, bayraqların hərəkətinin, hissələrin birləşməsinin və bölünməsinin ləngimə olmadan asanlıqla həyata keçirildiyi; qoşunun öz sərkərdəsindən qorxaraq rəqibdən qorxmaması; onun yalnız öz sərkərdəsinin göstərişini yerinə yetirməsi və hətta hökmdarın göstərişinə tabe olmaması, sərkərdəni gizli olaraq öldürməyin

mümkün olduğu, lakin mühafizə vasitəsilə ona yol tapmaq mümkün olmadığı, hər şeyin sərkərdənin döyüş ruhundan irəli gəldiyi və onun qorxusunun hər tərəfə yayıldığı deməkdir. Sərkərdənin ciddiliyi budur» (səh. 12). Başqa sözlə desək, sərkərdənin ciddiliyi-orduda ciddi intizamın və onun öz sərkərdəsinin iradəsinə sözsüz tabe olmasının şərtidir.

Lakin Mey Yao-çen məsələni başqa cür qoyur. Onun fikrincə, kütləni, yəni qoşunu özü-özlüyündə ciddilik deyil, sərkərdənin bu ciddilikdən doğan nüfuzu idarə edir.

«Ciddiyyət olarsa, nüfuzu bərqərar etmək olar»,- deyə o, söyləyir. Van Çje də məsələni belə qoyur: «Ciddiyyət– bu ciddiliyin köməyi, öz nüfuzu sayəsində kütlənin ürəyini tabe etmək deməkdir».

Sun Tszı sərkərdənin keyfiyyətlərini sadalayarkən, humanizmi üçüncü yerdə, ağlı birinci, tərəfsizliyi ondan sonra qoyduğu diqqət doğurur. Qədim konfusilikdə humanizm insanın təbiətinə xas ən yaxşı məziyyətlərin birincisidir. Bu fikri bəzi hərbi yazıçılar, o cümlədən, «Sıma fa» nın müəllifi dəstəkləyirdi: «Qədimdə humanizmi hər şeyin əsası kimi irəli sürürdülər, və ya Lyu İnin təbirincə desək, «qədimdə dövləti və ordunu idarə edənlər humanizmi hər şeyin əsası hesab edirdilər». Onlar üçün hər şeydən birinci-xalqa münasibətdə humanizm, əşyalara məhəbbət idi. Onlar xalqla rəftarda humanist olduqlarından və əşyaları sevdiklərindən dövlətin və ordunun idarə olunmasında çətinliklərlə rastlaşmırdılar. Men-Tszı ədaləti humanizmlə yanaşı qoysa da, yenə də humanizm onda birinci yerdədir. Yalnız «Çjunyuna» nın müəllifi bu qaydaları pozaraq, ağlı humanizmdən öncə qoyur («ağıl-insansevrəlik-igidlik» triadasında). Beləliklə, Sun Tszının xasiyyətnaməsinə gəldikdə, demək olar ki, o, özünü basmaqəlib sxemlə əlaqələndirməyərək öz sahəsinin özünəməxsusluğuna müvafiq olaraq anlayışlarla sərbəst davranır.

Bu özünəməxsusluğa uyğun olaraq, sərkərdə üçün hər şeydən əvvəl ağıl tələb olunur. İnsanların əksəriyyətində hərb işinin özünəməxsusluğu hər şeydən başqa məqamı tələb edir. Bu barədə U-Tszı belə deyir: «Ümumiyyətlə desək, sərkərdə haqqında mühakimə yürüdən insanlar, onda ancaq cəsurluğu görürlər (IV fəsil, 1). Sun-Tszının ağlı birinci yerə qoymaqla, ona digər dörd keyfiyyət qarşısında mütləq üstünlük verdiyini söyləmək səhv olardı. U-Tszı cəsurluq haqqında fikrini davam etdirərək deyir: «Cəsurluq sərkərdənin xarakterinin yalnız bir cəhətidir, sadəcə, cəsur adam mütləq sadəlövhcəsinə mübarizəyə atılır, kim ki, sadəlövhlüklə mübarizəyə atılır, o, faydanı ayırd edə bilmir, yəni, yararsızdır («U-Tszı», IV fəsil, 1). Məsələnin mahiyyəti ondan ibarətdir ki, hər iki keyfiyyət öz-özlüyündə yaxşı olsa da, onlar birlikdə bir-birini tamamlayır və bir-birinə nəzarət edirlər. Tszya Lin məsələni məhz bu səpkidə nəzərdən keçirir: «Əgər yalnız ağıla malik olsan, quldur ola bilərsən, təkcə humanizmi rəhbər tutsan, ətalətə düşərsən, ancaq

düzgünlüyə riayət etsən, axmaqlıq edərsən, təkcə igidlik və gücə söykənsən, zorakılıq alınar, həddən artıq ciddi olsan, qəddarlıq alınar. Bütün bu beş keyfiyyətə malik olmaq lazımdır. Əgər onların hər birindən bacarıqla istifadə etməyi bacarsan, sərkərdə ola bilərsən». «Bu beş cəhətin beşi də verilibsə, onda böyük sərkərdə adlandırıla bilərsən»,- deyə Çjan Yuy deyirdi.

Strategiyanın beşinci ümumi ünsürü– bu «Qanun» dur. Digər hallarda, «Yol», «Səma», «Torpaq» terminləri münasibətdə olduğu kimi, Sun Tszı burada da olduqca konkretdir; O, hansısa mücərrəd «qanun» anlayışından bəhs etmir. Yalnız üç şeyə: hərbi düzülüş, ordu komandanlığı və onun təchizatına aid olan qaydaların məcmusundan söhbət açır. Müharibə qanunlarını öyrənən müharibənin yekununun əhəmiyyətli dərəcədə asılı olduğu bu şeylərin vacibliyini dərk etməlidir.

Strategiyanın beş ümumi elementi bunlardır: birlik, zaman, məkan, sərkərdənin keyfiyyəti, ordunun təşkili. Bu ünsürlər Sun-tszıya görə, ümumi xarakterli müddəalar olmaqla, eyni zamanda, fəaliyyət zamanı rəhbər tutulan qaydalardır. Bu beş müddəa müharibənin amilləri və tələbləridir: müharibə birlik, zamanın və məkanın düzgün nəzərə alınması, sıra hissələrini, komandanlığı və təchizatı lazımi qaydada təşkil edə bilən sərkərdə tələb edir. Sun Tszı öz ikili xarakterə malik müddəalarını bu sözlərlə ifadə edir: «Bu beş hal barədə eşitməyən sərkərdə yoxdur, yalnız bunları nəzərə alan qalib gəlir. Yuxarıda sadalanan bütün müddəalar öz orduna, öz dövlətinə aiddir».

Sun-tszının fikrincə, əvvəlcə özünü öyrənmək və dərk etmək lazımdır. Bu isə güman olunan rəqibin öyrənilməsi ilə birləşdirilməsidir. Sun-tszı bu məsələdə birtərəfli olmaqdan çəkinməyi qəti sürətdə xəbərdarlıq edir: «Əgər özünü və onu tanıyırsansa, yüz dəfə döyüşsən də təhlükə yoxdur, əgər özünü tanıyır, onu tanımırsansa, onda bir dəfə qalib gəlib, bir dəfə məğlub olacaqsan, əgər nə özünü, nə də onu tanıyırsansa, onda hər dəfə məğlubiyyətə uğrayacaqsan» (III,9).

Sun Tszı rəqibin öyrənilməsini özünün öyrənilməsindən ayırmır. O, məsələni müqayisə müstəvisinə gətirərək, tutuşduraraq öyrənməyin tərəfdarıdır: rəqibdə və özündə işlərin vəziyyəti necədir. Sun-tszı müharibəni, «yeddi müharibəyə görə, götür-qoy etməyi tələb edir, yəni, qələbə şanslarını yeddi müxtəlif cəhətdən qiymətləndirməyi təklif edir:

1.«Hökmdarlardan kim– özün və ya rəqib «Yol» a malikdir? Başqa sözlə desək, harada daxili birlik əldə oluna bilər? 2. «Sərkərdələrdən hansında yuxarıda sadalanan keyfiyyətlər vardır? 3. «Kim Səma və Yeri, yəni, zaman və məkan amillərini düzgün nəzərə ala və istifadə edə bilmişdir? 4. «Kimdə əmr və qaydalara riayət olunur?». 5. «Kimin qoşunu güclüdür?». 6. «Kimin əsgər və zabitləri yaxşı təlim keçmişdir?». 7. «Kimdə düzgün cəzalandırır və

mükafatlandırırlar?». Bu müqayisəli öyrənilmənin nə verdiyi sualına Sun Tszı «Buna əsasən mən bilirəm ki, kim qələbə qazanacaq, kim isə məğlub olacaq» cavabını verirdi.

Qeyd etmək lazımdır ki, bu «mülahizələr» əvvəlki əsas müddəaları əhatə edir və daha dar mənaya malik anlayışlar əlavə edir: Orduda intizam, ordunun gücü və sayı, onun təlim görmüş olması, həvəsləndirmələr və cəzalandırmalar amili. Ordunun intizamı dedikdə, Sun Tszı əmr və qaydaların yerinə yetrilməsindən bəhs edir.

Hərb sənəti üzrə bütün əsərlər, bütün mənbələr, həmçinin, müharibələrin tarixi Çində intizamın saxlanılmasına nə qədər önəm verildiyini təsdiqləyir. Sun-tszının traktatının çox köhnə şərhçilərindən olan Vey hökmdarı və sərkərdə Tsao-qun (Tsao Tsao, 155-220) III əsrdə intizamın saxlanılmasının ümumi qaydasını qısaca olaraq belə ifadə edir: «Qaydaları müəyyən et ki, onları pozmasınlar, əgər kimsə pozsa, onları edam et». Bu ifadə hakim sinfi tam qane etdiyindən IX əsrdə Di Yu onu hərfi mənada təkrar edir. XVIII əsrdə Yaponiyada Soray buna əlavə olaraq bildirir: «Bu həqiqətən çox gözəl sözlərdir» (Soray, bax. əsər., səh 17). Çin strateqlərinin intizamı qoruyub saxlamaq üçün hansı ciddi tədbirləri təklif etdiklərini Vey Lyao-tszının traktatı təsdiqləyir. Buradan bəlli olur ki, Çin ordusunda intizamın saxlanılması üçün dairəvi sistem mövcud idi. Ordunun formalaşmasının ilkin özəyini-beş əsgərdən ibarət «beşlik» təşkil edirdi, sonra isə «onluq», «əllilik», «yüzlük» gəlirdi.

Hər bir bölmədə bir əsgərin əməlinə görə bütün hissə cavab verirdi.

«Beşlik»də kim isə əmri və qadağanı pozarsa, onu təhvil versələr, digərləri cəzadan azad olunur, əgər onlar bilir və təhvil vermirlərsə, bütün beşlik ölüm cəzasına məhkum olunur...» (XIV fəsil). Bu traktatdan bəlli olur ki, intizamın azacıq pozulması amansız cəzalandırılırdı. Məsələn, əsgərlər təbilin taktından kənara çıxırlarsa, cəzalanırdılar. Sırada hay-küy, əmrə itaətsizlik edama gətirib çıxarırdı (XVIII fəsil).

Ümumiyyətlə, qədim strateqlər, xüsusilə, Vey Lyao-tszı «daxildə qorxurlarsa, xaricdə möhkəmlik olacaqdır», nöqteyi-nəzərinə tərəfdar çıxırdılar.

Sərkərdənin hərəkətləri də intizamın hər hansı pozuntusunu dəf etmək cəhdlərindən xəbər verir. U-tszı Tsin çarlığı ilə müharibə apararkən, onun seçilmək arzusu ilə alışıb-yanan döyüşçülərindən biri öz yerini tərk edərək düşmən tərəfə keçir və öldürülmüş iki düşmən əsgərinin başını qənimət kimi gətirir. Lakin U-tszı bu hərəkəti rəşadət bilməyərək, cəsur döyüşçünü edam etdirir (Vey Lyao-tszı, VIII fəsil). Bu cür hekayətlərə bütün Çin sərkərdələrində rast gəlmək olar.

Müharibənin ikinci amili olan-ordu gücünü şərhçi Çjan Yuy belə səciyyələndirir: «Əgər cəng arabaları möhkəm, atlar xeyirxah,

silahlar iti, döyüşçülər rəşadətlidirsə, onlar təbili eşidəndə (yəni, hücuma keçmək üçün siqnal– N.K) sevinir, lingi eşidəndə (yəni, geriyə çəkilmək üçün siqnal– N.K.) qəzəblənirlərsə...»

Əsgərlərin təlim görməsi Çin hərb nəzəriyyəçilərinin diqqət mərkəzində olan üçüncü yeni amildir. Belə ki, U-tszı deyir: «İnsanlar adətən, bacarıqsız olduqları sahədə ölümlə üzləşir, fayda ilə istifadə edə bilmədikləri şeydə məğlubiyyyətə uğrayırlar. Ona görə də müharibənin aparılmasında ən əsası təlimdir». Təlimin mahiyyətinə keçən U-tszı deyir: «Dairə və kvadrat şəklində düzülməyi, oturmağı və durmağı, nizamla yürüş etməyi və yerində durmağı, sağa və sola dönməyi, irəliyə və geriyə getməyi, ayrılmağı və birləşməyi, toplaşmağı və dağılışmağı öyrənin». Qədim Çin ordusunda sıra təliminin proqramı belədir («U-tszı», III fəsil, 5).

Dördüncü yeni amil– mükafatlar və cəzalardır. Hərb işində onların vacibliyi barədə Çin hərb nəzəriyyəçilərinin heç biri mübahisə etmir.

U-tszı müharibənin aparılması zamanı «mükafat və cəzalara» birinci yer ayırır (II fəsil,1). Vey Lyao-tszı deyir: «Məhz bunun sayəsində hər hansı işə başlayanda fayda əldə edirlər, fəaliyyət göstərərək uğur qazanırlar (III fəsil)». Söhbət təkcə cəza və mükafatların mövcudluğundan getmir; Sun-tszı mükafat və cəzalardan ilk növbədə, aydınlıq gözləyir.

Aydınlıq hər bir ayrılıqda götürülmüş halda cəza və mükafatın ədalətli olmasının, şübhəsizliyi deməkdirsə, digər tərəfdən onun zəruriliyi, dərəcəsi deməkdir.

Cəza və mükafatların bu xarakterinin sərkərdənin tərəfsizliyi keyfiyyəti ilə sıx əlaqədə olduğunu görmək çətin deyil.

U-tszı da məhz bu cür mühakimə yürüdərək deyir: «Onun və ya bunun həyata keçirilməsi tərəfsizliyə əsaslanmalıdır» (III fəsil,1).

Cəza və mükafatın verilməsində bu aydınlıq mühüm əhəmiyyətə malikdir: bu sərkərdənin qoşunun etimadını qazanması və onun nüfuzunu qaldırmasında ən yaxşı vasitə hesab olunur. «San lyue»nin traktatında belə deyilir: «Orduda mükafatlar zahiri, cəzalar batini tərəfi təşkil edir» və əlavə edir ki, «cəzalar və mükafatlar aydın olanda sərkərdənin hakimiyyəti həyata keçirilir» («San lyue», fəsil 1, səh.10).

Lakin cəza və mükafatlardan çox danışan Çin strateqləri onların əhəmiyyətini həddindən artıq qiymətləndirmirlər. U-tszının traktatında belə bir yer var:

«U-xou soruşur: «Cəzalar ciddi, mükafatlar isə ədalətlidirsə, bu qələbə üçün yetərlidirmi?». U-tszı cavab verir: «Bu barədə, ciddilik və ədalət barəsində mən mühakimə yürüdə bilmərəm. Yalnız onu deyə bilərəm ki, təkcə buna arxalanmaq olmaz. Göstəriş verilirsə və insanlar buna sevinclə tabe olurlarsa, ordunu ayağa qaldırıb, kütlələri hərəkətə gətirirsənsə və insanlar sevinclə

ölürlərsə... bütün bu şeylər hökmdarın dayağıdır» («U-tszı», III fəsil,1).

Beləliklə. «yeddi mülahizə» sistemi strategiyanın ünsürlərinin bütün məcmusunu əhatə edir: mənəvi. coğrafi və təşkilati ünsürlər. Aşağıdakılar öyrənilməlidir:

1) bütövlükdə xalqın ruhu;
2) sərkərdənin istedadı;
3) zaman;
4) məkan;
5) ordunun təşkili;
6) ordunun gücü;
7) intizam;
8) təlim görmüş olması;
9) cəza və mükafatlar sistemi;

Bu ünsürlər, eyni zamanda, sərkərdəyə ünvanlanmış konkret tələblərdir. Hərb elmi üçün bunlar– proqramın maddələri, strategiya üçün ünsürlər, sərkərdə üçün isə fəndlərdir.

Sun-tszının bunlara verdiyi əhəmiyyət onun sözlərindən bəlli olur: «Əgər sərkərdə mənim mülahizələrimi qavrayıb tətbiq etsə, şəksiz qələbə çalacaqdır; mən onunla qalacağam. Əgər sərkərdə mənim mülahizələrimi qavramayıb tətbiq etsə, hökmən məğlub olacaqdır; mən onun yanından gedəcəyəm». Sun-tszı elə burada doktrinanın olduqca vacib ünsürünə toxunur. O, ilk dəfə olaraq «fayda» sözünü işlədir. O, deyir: «Əgər o, bunları faydanı nəzərə almaqla qavrayarsa, bunlar qüdrətə çevriləcək, onların hüdudlarından kənarda da kömək edə bilər».

«Fayda» anlayışı, göründüyü kimi, eramızdan əvvəl VI-III əsrlər Çin xadimlərinin düşüncələrində mühüm yer tutur. «Fayda» o dövr hökmdarlarının əsas məqsədi idi. Men-tszının kitabında belə bir xarakterik dialoq göstərilir: «Men-tszı Lyan knyazının qarşısında durur. Knyaz ona deyir: «Siz uzaqdan gəlmisiniz. Güman ki, siz elə bir şey söyləyə bilərsiniz ki, mənim dövlətimin faydasına xidmət etsin? Men-tszı cavab verir: «Knyaz, niyə faydadan danışaq? Yaxşısı budur, humanizm və ədalətdən danışaq» («Men-tszı», I fəsil). Bu dialoqda o dövr ictimai fikrinin iki müxtəlif istiqamətinin ziddiyəti əksini tapmışdır. Bu istiqamətlər eyni bir məsələyə aid idi: «İnsan cəmiyyəti və dövləti hansı əsasda qurulur? Yaddan çıxarmaq olmaz ki, bu məsələlər o zaman ona görə xüsusi əhəmiyyət kəsb etmişdi ki, həmin əsrlərdə yekunda Tsin, sonra isə Xan imperiyasının meydana gəlməsinə gətirib çıxarmış xırda mülklərin süqutu və onlann hesabına iri mülklərin təşəkkülü prosesi geniş vüsət almışdı. Bu proses tərəfindən irəli sürülmüş prinsiplərdən biri də dövlətin idarə olunmasının əsas müddəasının «fayda» prinsipinə əsaslanması idi. Bu anlayışın əsasında maddi fayda: əmlak– torpaq, qullar və sairə təsvirinin durduğunu söyləmək artıq olardı. Bu əmlakın qəsbi bilavasitə bu «fayda»nı təşkil edirdi. Amma «fayda» anlayışı sürətlə

geniş anlamda ən müxtəlif mənalar qazandı. Bu Sun-tszının traktatından da görünür.

Sun-tszı, Men-tszıdan fərqli dünyagörüşünə məxsus insandır. O, hərbi mütəxəssis, strateq olduğundan-qalibiyyətli müharibənin zəruri zəminləri olan strateji və taktiki faydadan bəhs edir. Onun traktatında bu və ya digər strategiya və taktikanın seçilməsinə göstərişlər, yalnız onların faydalılığı prinsipinə tabe olur. Şərhçi Du Mu onun fikrini ifadə edir: «Hərb işinin əsası faydalı və faydalı olmayanın nəzərə alınmasıdır». Yuxarıda qeyd olunan fikirlə Sun-tszı faydaya müvafiq surətdə qavranılmış mülahizələrin nəticəsində ümumi müddəaların hüdudlarından kənara çıxmağa imkan verən qüdrətin yaranacağını demək istəyir. Başqa sözlə desək, bu mülahizələr hərbi şəraitin bütün dəyişikliklərində, hərbi vəziyyətin bütün sonsuz növlərində lazımi yolları tapmağa imkan verəcək.

Burada biz bu fəslin, bütövlükdə Sun-tszı təliminin mərkəzi müddəalarına; yəni taktiki manevr prinsipinə yaxınlaşırıq.

Qədim Çin hərbi yazıçılarının dilində «taktika» kimi mənalandırılan «tsuan» sözü mürəkkəb mənaya malikdir. Onun məzmunu «Sıma fa» traktatında yaxşı aşkara çıxarılır. «Sıma fa»da deyilir: «Qədimdə humanizmi əsas hesab edir, dövləti ədalət əsasında idarə edirdilər və bu birbaşa yol adlanırdı. Birbaşa yol ilə məqsədə çatmayanda, taktiki manevrə əl atırdılar. Taktiki manevr orta zümrədən deyil, müharibədən irəli gəlir.

İnsanları öldürməklə, onların firavanlığını yaradırsansa, bunu etmək olar» (Sıma fa, I fəsil, səh 2).

Bu yer taktiki manevrin mahiyyətini o zaman necə anladıqlarını tamamilə açıqlayır. Birinci növbədə, o, birbaşa yola, yəni, məsələnin bilavasitə, ümumi prinsip, ümumi qayda ilə həllinə qarşı qoyulurdu. İkincisi, o öz mənşəyi ilə müharibəyə, yəni fövqəladə vəziyyətə borclu olduğundan, məsələnin ümumi qaydası, standartın köməyi ilə həllini yolverilməz hesab edirdi. Üçüncüsü, o, «orta zümrə-orta keyfiyyətli adamlar təcrübəsindən, yəni Lyu İnin təbirincə desək, bütün hərəkətlərində şablona, basmaqəlibə, ümumi qəbul olunmuş qaydalara əməl edən insanlardan irəli gəlmir. Ona görə də «orta adamların» dərketməsi üçün əlçatmaz olan paradoksal vəziyyət alınırdı, yəni ki, insanları öldürməklə onların firavanlığına nail olunurdu. Taktiki manevrin təbiəti belədir.

Lyu İn onu «dəyişikliklərlə», yəni bütün təzahürlərin məzmununun daim dəyişilməsi ilə əlaqədə görür. O, «Sıma fa»nın sözlərinə yekun vuraraq, deyir: «Onlar məqsədə birbaşa yol ilə nail olmayanda, dəyişikliklərə uyğunlaşaraq taktiki manevrə əl atırdılar».

Bu anlayışın çıxış əhəmiyyəti budur. Hər bir qayda daimiyə və ya daimi hesab olunana əsaslanır. Daimi isə bu və digər modifikasiyada, bu və ya digər dəyişiklikdə mövcuddur.

Ona görə də qaydanı həmin qaydanın yaradılmış olduğu təzahürün ümumi məzmunundakı dəyişikliklərə uyğun olaraq tətbiq

etmək məharəti mövcud olmalıdır. Bu məharət taktika adlanır. Lyu İn qeyd edir: «Taktika (tsuan) - bu müvəqqəti tədbirdir». Tsao-qun, Sun-tszını şərh edərək deyir: «Taktika- şəraitə uyğun olaraq tədbirlərin görülməsidir». Ona görə də Sun-tszı mülahizələrin faydaya müvafiq qavranılmasının ümumi müddəaların hüdudlarından kənara çıxmağa imkan verən qüdrət yaratdığını ifadə etməklə deyir: «Qüdrət-faydaya uyğun olaraq taktikanı tətbiq etmək bacarığıdır». Şərhçi Du Mu bunu sırf hərbi nöqteyi-nəzərdən izah edir: «Qüdrət-rəqib üçün faydalı olmayanı nəzərə almaqla, özü üçün faydanı görmək və bundan sonra ona uyğun olan taktikanı işləyib hazırlamaqla zəfər çalmaqdır». Beləliklə, Sun-tszı öz sərkərdəsindən müəyyən taktiki bacarıq və çeviklik, daim dəyişən vəziyyətə uyğunlaşmaq qabiliyyəti tələb edir. Onun hərbi doktrinası bunun üzərində qurulmuşdur.

Yuxarıda sadalanan sözlərdən göründüyü kimi «Sıma fa» taktiki manevrin əhəmiyyətini yüksək qiymətləndirir. Onun təsəvvürünə görə, insanların firavanlığını təmin etmək üçün ideal hökmdarlar və rəhbərlər onları öldürməyə əl atırlar.

Beləliklə, bu taktikanın özündə bir qəbahət yoxdur, bu yalnız «orta keyfiyyətli olmayan» insanlara məxsus yüksək idarəetmə məharətidir.

Lakin taktiki manevrin birbaşa yola qarşı qoyulmasında artıq taktiki manevri mənəvi cəhətdən mühakimə olunan şey kimi qiymətləndirməyin əsası qoyulmuşdur. Ona görə də bu anlayışın ilkin mənasını saxlamağa can atsalar da, bir çox müəlliflərdə qeyri-ixtiyari olaraq buna digər münasibət sezilir.

Li Vey-qunun yuxarıda sadalanan «Dialoq»larında belə bir yer var: «Xuan- dinin dövründən əvvəlcə düzgün döyüşə, sonra manevrə, əvvəlcə humanizm və ədalətə, sonra isə taktiki fənd və hiyləyə əl atırdılar» («Dialoqlar», I hissə, səh 3). Lyu İn bu sözlərlə bağlı qeydlərində hiddətlə bəyan edir: «Li Vey-qun taktiki fəndi və hiyləni yanaşı qoyur. Bu ona görədir ki, hərbi xadimlərin strategiya və taktika, hiylə və yalan məharəti Üç Mükəmməlin (Yao, Şun, Yuy. - N.K.)» taktiki məharəti deyildir». Bununla belə, taktiki fəndin hiylə ilə yaxınlaşdırılması adi hal almışdır. Bunu Sun-tszı da edir. Birinci fəslin ikinci hissəsini Sun-tszı «Müharibə-hiylə yoludur» fikri ilə başlayır. Bu müddəa onun üçün təsadüfi deyil. Belə ki, öz traktatının VII fəslində o, bu fikri təkrar edir: «Müharibə hiylə üzərində bərqərar olur, faydanı rəhbər tutaraq hərəkət edirlər».

Bu ifadənin mənasını düzgün qiymətləndirmək üçün Sun-tszını onun oxucuları və ardıcılları kimi tanımaq lazımdır.

Tsao-qun deyir: «Müharibədə daimi forma yoxdur, müharibə məharəti hiylə və yalandan ibarətdir. Di Lyu da bunu təkrar edir. Li Tsuan qeyd edir: «Müharibədə yalandan çəkinmirlər». Mey Yao-çen iddia edir: «Hiylə olmadan taktiki manevri tətbiq etmək olmaz, taktiki manevrsiz isə düşmənlə bacarmaq olmaz». Beləliklə, məsələ

aydındır: taktiki fənd lazımdır, onsuz düşməni dəf etmək olmaz, o isə öz-özlüyündə-hiylə və yalandır.

Bu məsələyə digər şərhçilər başqa cür yanaşırlar. Van Çje bəyan edir: «Hiylə - düşmən üzərində qələbə çalmaq vasitəsidir, ancaq kütlələrə rəhbərlikdə (ordu nəzərdə tutulur - N.K.) hökmən düzgünlüyə əməl etmək lazımdır. Çjan Yuy deyir: «Humanizmi və ədaləti müharibənin əsası güman etsələr də, qələbə qazanmaq üçün hiylə və yalan hökmən lazımdır». Qısaca desək, bu, şərhçilərin fikrincə, hiylə müharibədə taktiki fənddir, onun məzmunu deyil, vasitədir, məqsəd deyil, metoddur, prinsip deyil.

Məhz bu cür qiymətləndirilmə ilə Sun-tszının «Müharibə-hiylə yoludur» fikrinə yanaşılır, onun tərəfindən təklif olunan hərb hiyləgərliyinin 13 vasitəsi, daha doğrusu, 13 əsas taktiki fəndi bu səpkidə nəzərdən keçirilir.

Birinci fənd: «Əgər sən nəyisə bacarırsansa, rəqibə bunu bacarmadığını göstər». Bu, öz imkanlarını, hərbi hazırlıqları, silahlanmanın vəziyyətini gizli saxlamaq, yəni düşməni tez və tam darmadağın etmək üçün guya öz zəifliyinin əlamətlərini göstərməkdir.

Sun-tszının hərbi hiyləgərliyinin ikinci fəndi belə ifadə olunur: «Əgər sən nədənsə istifadə edirsənsə, düşmənə bundan istifadə etmədiyini göstər». Birinci fənddən fərqli olaraq, bu fənd öz konkret tədbirlərini pərdələməyi təklif edir. Belə ki, məsələn, cəng arabaları ilə hərəkət etmək istəyirsənsə, düşmənə piyadanı işə salacağını və ya əksini göstərmək lazımdır. Özü də bu tövsiyə digər mənaya da malikdir: hər hansı vasitəyə əl atarkən belə, düşməni azdırmaq üçün öz əməlini başqa cür qələmə vermək lazımdır.

Düşməni aldatmağın üçüncü vasitəsini Sun Tszı belə ifadə edir: «Yaxında olsan belə, uzaqda olduğunu, uzaqda olsan belə, yaxında olduğunu göstər».

Du Mu bir qədər üstüörtülü şəkildə ifadə olunmuş bu fikri belə açıqlayır: «Əgər düşmənə yaxın yerdə hücum etmək istəyirsənsə, ona uzağa geri çəkildiyini, ona uzaq yerdə hücum etmək istəyirsənsə, yaxınlaşdığını göstər». Çjan Yuy və ümumiyyətlə, əksər şərhçilər də bu fikri belə anlayır. Soray isə bu sözləri başqa cür təfsir edir: «Özünə yaxın dövlətə hücum etmək istəyirsənsə, özündən uzaq dövlətə hücum edəcəyini, uzaq dövlətdə hərəkət etmək istəyirsənsə, yaxın dövlətdə hərəkət edəcəyini göstər».

Sun-tszının bu sözlərini təxminən belə də anlamaq olar: yaxında yerləşirsənsə, düşmənə uzaqda yerləşdiyini, uzaqda yerləşirsənsə, yaxında yerləşdiyni göstər. Çox güman ki, daha hansısa təfsir düşünmək olar. Lakin onların hamısı müxtəlif hallarda, müxtəlif şəraitdə traktatın göstərişinin həyata keçirilməsinin nümunələri kimi düzgün olacaqdır, göstərişin özü isə ümumi mənaya malikdir və düşmənin məsafədən aldanmasından bəhs edir.

«Onu fayda adı altında tələyə sal»– Sun-tszı tərəfindən tövsiyə olunan hərbi hiyləgərliyin dördüncü fəndi belədir. Bu o deməkdir ki, rəqibi cüzi strateji və ya taktiki fayda ilə tələyə sal və bununla da özün üçün daha çox fayda əldə et.

«Onu pozğunluq halına gətir və qələbə çal»-Sun-tszı tərəfindən tövsiyə olunan beşinci fənd belədir.

Bu fənd düşmən düşərgəsinə pozğunluq salınması üçün geniş tədbirlərdən: müttəfiqlər arasına təfriqə salmaqla onları taqətdən salmaq və ya hətta bir-birindən ayırmaq: rəqib ölkədə daxili çaxnaşma salmaqdan ibarətdir. Bu sözləri dar mənada-döyüşün gedişində düşmən sıralarına rəxnə salınması mənasında da anlamaq olar.

Bu fəndə nümunə kimi Çin sərkərdəsi Se Syuanın hərəkətlərini misal gətirmək olar. Hadisə 383-cü ildə, parçalanmış Çinin birliyi uğrunda mübarizə aparan Erkən Sin və Şərqi Tszin imperiyaları arasında müharibə zamanı baş vermişdi. Hər iki ordu-Fu Tszyanın komandanlığı altında Sin və Se Syuanın komandanlığı altında Tszin ordusu Fey çayının əks sahillərində qərar tutmuşdular. O vaxtlar düşmənə döyüş təklif etmək adət idi. Se Syuan bu adət ruhunda hərəkət edərək Fu Tszyana ordunu çaydan kənara çəkməyi, bununla da çayı keçməklə maneəsiz döyüşə girməyi təklif etmişdi. Tsin hökmdarı buna razılıq vermiş və çaydan kənara çəkilmişdi. Gizlində o, bu hərəkətini rəqibi çayı keçərkən darmadağın etməyə hesablanmışdı. Rəqibə çayı keçid zamanı hücum onun məhv olunmasının ən düzgün yolu hesab edilirdi. Bu baxışı o dövrün iki ən nüfuzlu strateqlərindən olan Sun-tszı və U-tszı da öz traktatlarındakı göstərişlərdə əks etdirmişdilər.

Tsin hökmdarı ordusunu mövqedən çəkərkən, təbii olaraq, qarışıqlıq düşmüş və ümumi hərbi nizam pozulmuşdu. Se Syuan da məhz bunu güman edirdi. O, əmin idi ki, rəqib geri çəkilməyə, ona düşməni asanlıqla əzməyə imkan verəcəyi üçün razılıq verəcək və bu zaman öz sıralarındakı qaçılmaz qarışıqlıq haqqında fikirləşməyəcəkdir. Bu pozğunluğun lazımi miqyaslar almasını gözləyən Se Syuan çayı keçərək tam döyüş nizamı ilə düzülməyə macal tapmayan düşməni darmadağın etdi.

Sun-tszının altıncı qaydasında deyilir: «Onda hər şey tamdırsa, hazır ol», yəni, rəiqibin hərbi hazırlığı bitkin vəziyyətdədirsə, onun hücumuna hazır ol, başqa sözlə desək, öz hərbi qüdrətini artır.

Unutmaq lazım deyil ki, burada gətirilmiş müddəalardan hər biri düşməni aldatmağa hesablanmış hər hansı fəndə işarədir. Bütün kontekst bu cür təfsir tələb edir. Ona görə bu müddəanı da eyni mənada anlamaq gərəkdir. Burada hansı hiylə, fənd təklif olunur?

Çox güman ki, Sun-tszının fikri aşağıdakıları ifadə edir: əgər sən rəqibin ordusunun çoxsaylı, silah-sursatının üstün, təliminin yaxşı olduğunu, bir sözlə, onda hər şeyin tam olduğunu görürsənsə, Sun-tszının təbirincə desək, ona birbaşa hücum etmək və hətta

hücum etmək niyyətlərini göstərmək olmaz. Əksinə, ona hücum etməyin əbəs olduğunu anladığını göstərməklə yalandan müdafiə mövqeyi tutmalısan. Bununla düşməni qəflətdə saxlamaqla onun şübhələrini dağıtmaq olar. Eyni zamanda, sırf müdafiə vəziyyəti örtüyü altında, qəfil hücum üçün hər şeyi hazırlamaq lazımdır.

Sun-tszının yeddinci müddəasında deyilir: «Əgər o, güclüdürsə, ondan yayın». Strategiya dilinə tərcümədə bu müddəa «Əgər rəqib səndən güclüdürsə, onunla həlledici toqquşmadan çəkin» mənasını verir. Taktika dilinə isə onu «Əgər rəqibin mövqeyi güclü möhkəmləndirilibsə, birbaşa hücum etmə, ondan yan keç» kimi tərcümə etmək olar. «Onda qəzəb doğurmaqla, dağınıqlıq vəziyyətinə gətir»– Sun-tszının səkkizinci qaydası qısaca olaraq belə ifadə olunur. Daha geniş formada onu belə ifadə etmək olar: düşməni qəzəbləndirərək onu özündən çıxar, soyuqqanlılığını itirməyə və düşünülməmiş təhlükəli əməllərə vadar etməklə ram et, yəni, lazımsız itkilərə getməklə, onun qüvvələrini, ruhunu sarsıt, enerjisini və döyüş qabiliyyətini zəiflət.

Bir dəfə Üç Çarlıq dövrünün sərkərdəsi (miladın III əsrinin 2-ci və 3-cü rübləri) Çjuqe Lyan (181-234) bu fəndi işlətməyə cəhd göstərmişdir. Ona qarşı duran rəqib ordusuna tədbirli Sıma İ (179-251) başçılıq edirdi. Sıma İ yaxşı anlayırdı ki, Çjuqe Lyan qüvvə və sursatda onu üstələdiyindən onunla açıq döyüşə girmək çətindir. Ona görə də o, Uçjanyundakı mövqeyində möhkəmlənərək müdafiə taktikası tutdu. İstehkamlar o qədər güclü idi ki, Çjuqe Lyan heç nə edə bilmirdi. Buna görə o, düşməni istehkamlardan kənara çağırmağa və döyüşü açıq sahədə qəbul etməyə sövq etmək istəyirdi. Lakin heç bir səylə məqsədinə çatmırdı. Sun-tszının təbirincə, onda Çjuqe Lyan «düşməni qəzəbləndirmək və sındırmaq» qərarına gəldi. Bunun üçün o, hədiyyə kimi Sıma İyə qadın paltarları və əşyaları göndərdi. O zamanlar belə bir hədiyyə göndərmək onu «qorxaq qadın» adlandırmağa bərabər idi. Çjuqe Lyan bu təhqirlə düşməni qəzəbləndirəcəyini və təhqir edən tərəfə qarşı hərəkətə keçəcəyinə ümid edirdi.

Sıma İnin ətrafı belə etməyə hazır idi. Lakin Syuqa Lyan öz mülahizələrində yanıldı. Sıma İ bu fəndə uymadı və öz istehkamlarını tərk etmədi.

Sun-tszının doqquzuncu qaydasında deyilir: «Sakit halda onda bədgümanlıq doğur». Bu o deməkdir: sakit sözlərin və əməllərinlə ona nail ol ki, düşmən özündən müştəbeh olmaqla, öz gücünə həddindən artıq inansın və səhlənkar olsun, onda bundan istifadə etməklə hücum etmək olar.

«Sun-tszının onuncu qaydasında deyilir: «Onun qüvvələri təzədirsə, onu yor».

Bu aşağıdakı mənanı verir: rəqibin qüvvələri təzə olanda, onu yor, hər cür manevrlərlə təngə gətir, zəif düşdüyünü görəndə darmadağın et, yəni ayrılıqda götürülmüş döyüşə tətbiq et. Bu

məsləhəti daha geniş anlamaq olar: əgər düşmən ümumən güclüdürsə, onu strateji və taktiki cəhətdən zəiflətdikdən sonra hücuma keç».

«Əgər onlar mehribandırlarsa, parçala»– Sun-tszının on birinci qaydası belədir. Bu düşmən düşərgələrində təfriqə salmaq, onu müttəfiqlərindən ayırmaq, hərbi rəislərini bir-birinin üstünə salışdırmaq mənasını verir.

Sun-tszının on ikinci qaydasında deyilir: «O, hazır olmayanda hücum et». Öz traktatının VI fəslində o, həmçinin, bu barədə söhbət açır, öz sözlərini başqa mənada işlədir. Burada o, düşmənin maddi cəhətdən, orada isə mənəvi cəhətdən hazırlıqsız olduğunu nəzərdə tutur.

Sun-tszının sonuncu qaydasında deyilir: «O gözləmədiyi halda irəlilə».

Sun-tszı tərəfindən tövsiyə olunan «talama» və ya hərbi hiyləgərliyin 13 fəndi bundan ibarətdir. Bu fəndləri müəyyən edərkən müəllifin düşmənlə mübarizənin bütün tərəflərini əhatə etməyə çalışdığını görmək çətin deyil. Bu nöqteyi- nəzərdən onun fəndləri beş müxtəlif qrupa bölünür:

I. Taktiki pərdələnmə fəndləri

1.Yalançı zəifliklə pərdələnmə;
2.Yanlış hərəkətlərlə pərdələnmə;
3.Məsafə ilə pərdələnmə;
4.Aldadıcı müdafiə ilə pərdələnmə.

II. Ehtiyat fəndləri

1.Üstün düşməndən yayınma;
2.Üstün düşmənin taqətdən salınması.

III. Rəqibin nöqsanlarından və səhvlərindən istifadə

1. Onun ümumi hazırlıqsızlığının istifadə olunması;
2.Onun sayıqlığının zəifləməsindən istifadə olunması;
3.Onun ehtiyatsızlığından istifadə olunması.

IV. Düşmənə daxildən təsir

1.Onun sıralarına pərakəndəlik salınması;
2. Onun düşərgəsində təfriqə salınması.

V. Rəqibin psixologiyasına təsir

1.Onun düşünülməmiş və dağıdıcı əməllərə sürüklənməsi;
2.Onun sayıqlığının zəiflədilməsi.

Unutmaq lazım deyil ki, hələ Sun-tszı ən ümumi müddəaların hududlarında qalır. Müharibənin konkret strategiya və taktikası traktatın sonrakı hissələrində işlənib hazırlanır. Burada isə ancaq fəslin adlandırıldığı kimi, «İlkin mülahizələr»dir. Bundan savayı, göstərilən 13 fəndin sadalanmasından sonra gələn işarə onun nəzəriyyəsinin anlaşılması üçün müstəsna əhəmiyyətə malikdir.

Sun-tszı deyir: «Bütün bunlar (yəni, ifadə olunmuş taktiki fəndlər–N.K.) döyüşçü üçün qələbəni təmin edir, lakin öncədən heç nəyi təlqin etmək olmaz».

Bu ibarənin tam mənasını dərk etmək üçün şərhçilərə müraciət etmək zəruridir.

Tsao-qun deyir: «Suyun dəyişilməyən forması olmadığı kimi, müharibədə də dəyişilməz şərait yoxdur, hər şey rəqibdən asılı olaraq dəyişir. Ona görə də heç nəyi öncədən məsləhət vermək olmaz».

Li Tsuan deyir: «Müharibənin aparılması və qələbənin qazanılması fəndləri, təbii ki, bir müəyyən formaya malik ola bilməz, onları yalnız düşmənin durumunu görüb bərqərar etmək və tətbiq etmək olar. Öncədən nə isə demək və etmək olmaz».

Mey Yao-çen yazır: «Hər şey dəyişikliklərə uyğun, lazım olanın mənimsənilməsi yolu ilə, rəqibdən asılı olaraq həll olunur. Ona görə də öncədən nəyi isə necə demək olar?».

Digər şərhçilər də bu mənada fikirlərini bildirirlər, ona görə də şəksizdir ki, Sun-tszının bu ibarəsi arxasında sərkərdənin ona göstərilən fəndlərlə qələbə çala biləcəyi, lakin hansı fəndi nə zaman tətbiq etməyi qabaqcadan deməyin mümkün olmadığı fikri gizlənir. Başqa sözlə, o, doktrinasının mərkəzi fikri olan müddəaya yenidən eyham vurur: «Müharibə şəraiti o qədər müxtəlif və dəyişkəndir ki, müəyyən sxem şablon ola bilməz, bütün hərbi məharət şəraitə uyğun hərəkət etmək bacarığından, məqama və yerə, ümumiyyətlə, bütün şəraitə müvafiq vasitə tapmaqdan ibarətdir. Başqa sözlə, traktatın bu yeri taktika, taktiki manevretmə anlayışının açıqlanmasını ehtiva edir.

Lakin ağırlıq mərkəzi bunda deyil. Bu ibarə arxasında uzaqgörən əhəmiyyətə malik yeni fikir gizlənir.

Taktiki ixtiraçılıq qabiliyyəti və çeviklik müstəqil və özlüyündə əhəmiyyətlidən başqa bir şey deyil. O, ümumi səbəbin nəticəsidir: «Suyun dəyişilməz forması olmadığı kimi, müharibədə dəyişilməz şərait yoxdur», - deyə Tsao-qun söyləyir. Yaponiyada və Çində məhşur olan ifadə ilə deyilsə: «Müharibə– bu minlərlə dəyişikliklər və on minlərlə çevrilmələrdir».

II Fəsil
Müharibənin aparılması

Öz traktatının II fəslində Sun-tszı müharibəni iqtisadi nöqteyi-nəzərdən həyata keçirir. O, müharibə ilə əlaqədar iqtisadi gərginliyi və məlum şərtlərlə müharibənin xalq təsərrüfatı üçün doğuracağı sonucları göstərir. Bununla yanaşı, ölkənin iqtisadi cəhətdən zəifləməsinin nəticəsi kimi müharibənin daxili siyasi, xarici beynəlxalq nəticələri barədə xəbərdarlıq edir.

Bütün bunlar iki şərt daxilində: müharibənin böyük miqyasları, böyük ordunun səfərbər olunması, hərbi əməliyyatlarda meydanın uzaqlığı və genişliyi, müharibənin uzun çəkməsi, yəni, sürəkli olması zamanı baş verə bilər.

Sun-tszı onun dövrü üçün iri və güclü mülklər üçün adi sayılan müharibənin miqyasını nümunə kimi götürür. O, U çarlığı ölçüsündə, yəni, traktatı yazdığı ölkəni götürür. Bu miqyasdan irəli gələrək bu və ya digər tərəfə hesablamalar aparmaq olar.

Bu nümunəvi miqyas aşağıdakı kimidir: Ordunun sayı– 100.00 nəfər, iri silahlar– 1000 yüngül, 1000 ağır cəng arabası, hərbi əməliyyatlar meydanının uzaqlığı– 100 Çin mili, bütün bunlar üçün məsrəflər və digər xərclər–gündə 100 qızıl.

Aydındır ki, Sun-tszının bu rəqəmləri arxasında hər hansı dəqiq hesablamalar görmək düzgün olmazdı.

Bunlar yalnız yuvarlaq rəqəmlər, iri müharibənin nümunəvi miqyasıdır. Bunu «Sun-tszı»nın şərhçiləri də həmişə belə anlayıblar. Sun-tszı məlumatlarla kifayətlənir və rəvayətə görə, ordunun tərkibi və təşkili barədə təfərrüatlarını məlum olduğu knyaz Xolyuya müraciət edir. Bizə qədər gəlib çatmış Çin ədəbiyyatı Sun-tszı dövrünün Çin ordusunun bu işlə tanış olmayan oxucu üçün yetərli təsvirini verməyə imkan yaradır.

«Çjou-li», «Li-tszi» və hərb sənəti üzrə yuxarıda sadalanan bütün əsərlər qədim Çin ordusu barədə məlumatları ehtiva edir. Əgər birincilərdən-başlıca olaraq qanunverici qərarları əks etdirənlərdən fərqli olaraq başlıcası, müharibə təcrübəsini verən sonunculara əsaslansaq, qədim Çin ordusunda üç qoşun növü olmuşdur: piyada, atlı və cəng arabaları. Piyadalar daha çoxsaylı olsalar da, döyüş gücünə görə, atlılar və cəng arabaları birinci yerdə dururdular.

«Lyu tao»nun traktatında belə deyilir:

«Cəng arabaları və atlılar- ordunun hərbi qüdrətidirlər. On cəng arabası min nəfəri, yüz cəng arabası on min nəfəri, on atlı yüz nəfəri, yüz atlı min nəfəri qaçmağa vadar edir («düzənlikdə döyüş şəraitində»)– deyə, haqlı olaraq Lyu İn əlavə edir» («Lyu tao», «Tszyun bin» fəslinin «Tsuan tao» bölməsi).

Həmin mənbə qoşunun bu növünün funksiyalarının xüsusiyyətlərini verir: «Cəng arabaları– ordunun qanadlarıdır, onlar möhkəm mövqeləri alt-üst edir, güclü rəqibi dəf edir, qaçanların yolunu kəsir. Atlılar– ordunun kəşfiyyatıdır; o darmadağın edilmiş rəqibi təqib edir, ona azuqə gətirilməsinin qarşısını kəsir, onun sürətli dəstələrini pərən-pərən salır» (elə orada).

Li Vey-qunun «Dialoq»larında (miladın VII əsri) bu üç qoşun növünün funksiyalarının xüsusiyyətləri belə verilir: «Cəng arabaları və piyadalarla güzgün döyüş, atlılarla isə manevrli əməliyyatlar üçün təlim keçilir» («Dialoqlar», II hissə, səh. 39).

Sun-tszı erkən müəllif kimi bu fəslin əvvəlində yalnız cəng arabaları və piyadaları xatırladır.

Hərbi birləşmənin əsas döyüş vahidi cəng arabası idi. Sun-tszı iki növ cəng arabasını fərqləndirir: hərbi əməliyyatlar üçün nəzərdə tutulan dörd ata qoşulmuş yüngül, bütün təchizatın daşınması.

habelə müdafiə şəraitində daldalanacaq üçün nəzərdə tutulan 12 öküzə qoşulmuş ağır cəng arabaları. Hər bir yüngül cəng arabasına 75, ağır cəng arabasına isə 25 nəfər xidmət personalı təhkim olunmuşdur.

«Li Vey-qunun «Dialoq»larında bir qismi Çjou, bir qismi bizə gəlib çatmış Tsao-qunun (Tsao-qun Şinşu) traktatından əxz olunmuş məlumatlar misal gətirilir.

Lyu İn tərəfindən əlavə olunmuş bu məlumatlardan bəlli olur ki, yüngül cəng arabalarına təhkim olunmuş 75 nəfərdən (Tsao-qun onları «hücumçu» adlandırır) üçü ağır silahlanmışları bilavasitə cəng arabasının özündə, 72 nəfəri isə biri arabanın önündə, digər ikisi onun tərəflərində yerləşməklə üç qrupa bölünürdü.

Hər bir ağır cəng arabasının (Tsao-qun onları «müdafiəçi» adlandırır) xidmətçiləri 10 aşpazdan, 5 kaptenarmusdan (hərbi hissədə ərzaq və hərbi sursata baxan hərbi xidmətçi), 5 mehtərdən, 5 su və yanacaq daşıyandan ibarət idi (Li Vey-qun venduy, I hissə, səh 21; bax: II hissə, səh 33). Hər bir yüngül cəng arabasına ağır təhkim edilirdi ki, beləliklə, qədim Çin ordusunun əsas birləşməsi iki cəng arabalarından-ağır və yüngül və 100 nəfər olmaqla sıravi və qeyri-sıravi heyətdən təşkil olunmuşdu. Bütün ordunun formalaşması bu prinsiplə baş verirdi.

Beləliklə, Sun-tszının bəhs etdiyi 100 minlik ordunun tərkibinə 2000 cəng arabası-1000 yüngül, 1000 isə ağır olmaqla daxil idi.

Ordunun texniki ölçülərindən Sun-tszı hərbi məsrəflər məsələsinə keçir. Bununla belə, o, anlayır ki, məsrəflərin həcmi iki amillə: ordunun sayı və hərbi əməliyyatlar meydanına qədər olan məsafə ilə şərtlənir. Say üçün o, nümunə kimi 100.000 nəfəri, məsafə kimi– 1000 Çin milini götürür. Öz bazalarından məsafənin uzaqlığı zamanı təchizatın tərkibi-ərzaq və hərbi sursatın daşınması zəruridir.

Sun-tszı bir neçə sətir aşağıda deyir: «Ağıllı sərkərdə rəqibin hesabına dolanmağa səy göstərir». Lakin, buna baxmayaraq, o, öz ölkəsindən ərzaq gətirilməsinin zəruriliyini nəzərdə tutur. Təkcə, rəqibin resurslarına xüsusi və kampaniyanın birinci dövründə arxayın olmaq qeyri-mümkündür.

Bunun ardınca Sun-tszı hərbi məsrəflərin maddələrini və həcmini sadalayır:

1. Ordunun təchizatı və ölkə daxilində müharibə ilə bağlı daxili xərclər.

2. Ordunun yürüş zamanı saxlanılması üçün xarici xərclər.

3. Xaricdən qəbul əsasında gələnlər üçün xərclər.

4. Hərbi ləvazimatın hazırlanması və təmiri üçün xərclər.

Bu maddələrdən yalnız üç ünsürü-xaricdən gələnlərin qəbulu üzrə xərclər maddəsi aydınlaşdırmia tələb edir. Şərhçilər (Du Mu, Tszya Lin, Van Çje, Çjan Yuy və b.) bunu belə anlayır: müharibə zamanı hər cür diplomatik danışıqlar aparılır, ittifaqlar bağlanır, digər

dövlətlərdən səfirlər gəlir; müharibə təqdirində «hərbi müşahidəçilərin», qonşu dövlətlərdən qonaqların gəlməsi qaçılmazdır; hərbçi, strateq qismində öz xidmətlərini təklif edən hərb sənəti üzrə mütəxəssislər də meydana çıxır. Dövlət çoxsaylı qonaqlarla üzləşir və təbii ki, onlara vəsait xərcləyir.

Sun-tszı bütün xərcləri gündə 1000 qızıl məbləğində hesablayır. Bizim eradan əvvəl VI əsrin dəyərləri ilə hesabladıqda, bunun real dəyərini ağıla gətirmək əbəsdir, şübhəsizdir ki, bu çox böyük hərbi xərclərdən xəbər verməklə o dövr üçün böyük rəqəmdir.

Böyük müharibənin dövlətə neçəyə başa gəldiyinə göstərişlər-giriş qeydləri olmaqla sonrakı müddəanın çıxış məntəqəsi rolunu oynayır: müharibə-bahalı iş olduğundan, onun uzanması dövlətin iflasa uğraması və məhvi təhlükəsini doğurur.

Sun-tszı-qısa müharibənin, sürətli qələbənin tərəfdarıdır. Qədim Çin zərb-məsəlini xatırlayan Çen Xaonun təbirincə desək, o, istəyir ki, «ildırımın zərbəsi insanların qulağına, parıltısı gözlərinə gedib çatmamış düşmənə zərbə endirilsin. Sun-tszı ildırım sürətli müharibə prinsipini belə ifadə edir: «Müharibə qələbəni sevir, davamiyyəti sevmir». Digər yerdə o, deyir: «Müharibə hətta səriştəsiz aparıldığı halda, onun sürətli olması zamanı uğurlu və hətta səriştəli aparıldığı halda belə, uzun müddətli olarsa, uğursuz olduğunu eşidiblər». Beləliklə, o dövrün təcrübəsini rəhbər tutan Sun-tszı belə güman edir. Uzunmüddətli müharibənin təhlükəsi barədə bütün II fəslin məzmunu, xüsusilə, bu sözlər bəhs edir: «Heç vaxt elə ola bilməz ki, müharibə uzun sürsün və bu dövlətə faydalı olsun». Özü də təcrübəli sərkərdə olan Tsao-qun Sun-tszını şərh edərək deyir: «Müharibə uzanırsa, bu, əlverişli deyil. Müharibə alova bənzəyir, vaxtında üfürməsən, özün onda yana bilərsən».

Müharibə fayda naminə aparılır. Bunu Sun-tszı öz traktanını I fəslində artıq bəyan etmişdi. Onun fikrincə, sürəkli müharibədə hətta qələbədə belə ölkə üçün fayda alına bilməz. Sun-tszı bunun nə üçün belə olduğunu izah edir. Müharibənin uzanması sırf hərbi, maliyyə, ümumiqtisadi mənalarda, beynəlxalq münasibətlərdən öldürücü nəticələr vəd edir. Sırf hərbi mənada müharibənin uzanması «silahın kütləşməsinə və tiyəsinin sınmasına», yəni, hərbi ləvazimatın tükənməsinə gətirib çıxarır. Bundan əlavə, Sun-tszı deyir ki, ordunun qüvvələri də sarsılır. Şərhçilər onun sözlərini müxtəlif cür anlayırlar. Tszya Lin belə deyir: «Müharibə uzun çəkirsə, qələbə çalmasa da, heç bir fayda yoxdur, müharibə tam qələbəni sevir. Silah kütləşibsə, tiyələr sınıbsa, döyüşçülər yaralar içindədirsə, atlar taqətdən düşmüşsə, demək qüvvələr sarsılıb». Çjan Yuy bunu başqa cür təfsir edir: «Əgər müharibəni uzun müddət aparıb bundan sonra qələbə çalırlarsa, əsgərlər yorulur, ruh yüksəkliyi aşağı düşür». Başqa sözlə, ordunun maddi cəhətdən zəifləməsi-insan və silah itkiləri, həm də onun döyüş ruhunun zəifləməsi nəzərdə tutulur.

Uzunmüddətli müharibənin dövlətin maliyyəsi üçün fəsadları aydındır: gündə 1000 qızıl xərcləmək lazım olur ki, bu da xəzinənin olduqca gərginləşməsini tələb edir və elə bir an gələ bilər ki, Sun-tszının sözlərinə görə, «sənin ölkəndə-evlərdə hər şey boşalıb», başqa sözlə, ölkənin tam müflisləşməsi baş verər.

«Qoşunu meydanda çox saxlayanda,– dövlətin vasitələri çatmır».

Uzun sürən müharibə ölkənin ümumi iqtisadi durumuna da öldürücü təsir göstərə bilər. Sun-tszı hökumət resurslarının tükənməsinə və xalq kütlələrinin müflisləşməsinə işarə vurur. Onun fikrincə, hökmdar müharibəyə verilmiş maddi resurslarının 60 faizini itirir.

«Cəng arabaları sındırılmış, atlar taqətdən düşmüş, dəbilqələr, zirehlər, oxlar, yaylar, nizələr, kiçik və böyük qalxanlar, öküzlər və arabalar-bütün bunlar 60 dəfə azdır». Başqa sözlə, təchizatda itkilər təkcə ordunun deyil, habelə dövlətin itkiləridir.

Ancaq bütün bu resurslar əhali tərəfindən çatdırıldığından, Sun-tszı dövlətin itkilərinə deyil, daha çox xalq kütlələrinin müflisləşməsinə diqqət ayırır. Onun hesablamalarına görə, kəndlilər (bu adla burada çox güman ki, o dövr üçün azad icma quruluşunu saxlamış Çuntsyunun sonu- Çjanqonun əvvəlindəki azad əkinçi əhali mənalandırılır) sayca əhalinin ən böyük hissəsi olmaqla müharibədən öz vasitələrinin 70 faizini itirirlər. Sun-tszının fikrincə, xalqın gəlirlərinin bu cür azalması müharibənin iki şərtindən irəli gəlir: «Müharibənin gedişində dövlət azuqəni uzaq daşımalı olduğu üçün kasıblaşır. Azuqəni uzağa daşımaq lazım gəldikdə, xalq kasıblaşır» - bu birinci şərtdir, «ordunun yaxınlığında olanlar baha satırlar, onlar baha satanda, xalqın vəsaitləri tükənir, vəsait tükənəndə isə mükəlləfiyyətləri yerinə yetirmək çətindir.*

Sun-tszının bu sözlərində mahiyyət etibarilə, fövqəladə vacib olanı budur ki, o, kəndlilərin müflisləşməsindən danışaraq («xalq» sözü altında bu halda məhz kəndliləri başa düşmək lazımdır), hesab edir ki, kəndlilərin müflisləşməsi dövlətin müflisləşməsinə bərabərdir. Aydındır ki, hələ e.ə. VI əsrdə Çində kəndlilərin iqtisadiyyatın, hakim sinfin və onlar tərəfindən idarə olunan dövlətin mövcudluğu üçün əhəmiyyətini dərk edirdilər. Bu barədə Vey Lyao-tszı çox təsirli deyir: «Vana»– çarın (yəni, Konfusi tarixşünaslığına görə, qanuni hökmdarın– N.K.) dövlətində bütün xalq; «ba»– hegemon (fateh, knyazlar ittifaqının başçısı-N.K.) təkcə döyüşçülər; öz mövcudluğunu güclə qoruyub saxlayan dövlətdə ancaq əsilzadələr; məhv olan dövlətdə isə hökmdarın xəzinəsi zəngindir. Bunun haqqında deyirlər: yuxarıda hər şey dolu, aşağıda boşdur; bu nicatı olmayan fəlakətdir» (Vey Lyao-tszı. IV fəsil, səh 15).

Bütün traktatdan bəlli olur ki, o zamanlar hakim sinfin vacib gəlir mənbəyi kəndlilərin istismarı idi. Ona görə də Sun-tszı dövlətin

maddi resurslarının tükəndiyini xatırladaraq, uzun müharibəyə qarşı bütün arqumentlərini kəndlilərin vəziyyətində qurur.

Sun-tszı azuqənin və hər cür ləvazimatın uzağa daşınmasını kəndlilərin müflisləşməsinin səbəbi hesab edir. Lakin təəssüratda bu o qədər də aydın deyil: bizim sualtı və ya araba mükəlləfiyyəti adlandırdığımız məsələyə Sun-tszı niyə belə əhəmiyyət verir? Əlbəttə, bu, əhəmiyyətli və müflisedicidir, lakin bu müflisləşmənin şərti deyil. İş burasındadır ki, m.ö. VI əsr Çin şəraitində daşınmalar təkcə sualtı mükəlləfiyyət deyildi.

Hər şeydən əvvəl, yadda saxlamaq lazımdır ki, kəndlilər ərzaq və azuqə daşımır, eləcə də onu çatdırırdılar. Ordu kəndlilərin hesabına dolanırdı. Qanuna görə, müharibə zamanı kəndlilər 2 dəfə ərzaq və azuqə çatdırmalı idilər: ordu yürüşə yollanarkən onu yadelli ərazidə müharibə üçün lazım olan hər şeylə təchiz etməli və ordunun yürüşdən qayıdarkən öz dövlətlərinin hüdudlarına daxil olarkən təchiz etməli idilər. Lakin bu ümumi qaydaya görə belə idi. Şübhəsiz ki, uzunmüddətli müharibə zamanı kampaniyanın əvvəli və sonu arasında olan vaxtda da kəndlilərdən nə isə götürməyə ehtiyac yaranırdı. Belə ki, Sun-tszı bu fəsildə «müharibəni aparmağı bacaran azuqəni üç dəfə yükləmir» sözlərini işlətməzdi. Aydındır ki, «müharibəni pis aparan» üç və ya daha çox dəfə götürür. Beləliklə, ordunun azuqə ilə təchizatı əsasən kəndlilərin üzərinə düşürdü.

Təkcə bu təchizat deyil. Kəndlilər, ümumiyyətlə, ordunu saxlayırdılar. Bunu təkcə birbaşa, geniş mənada-hökmdar tərəfindən müharibə üçün ödənilən xərclərin sonda kəndlilər tərəfindən verildiyi kimi deyil, tamamilə dar, konkret mənada anlamaq lazımdır. Mey Yao-çen bunu təsdiqləyir: «Kəndlilər ordunu əmlak, azuqə, qüvvə və əsgərlərlə saxlayırdılar». Başqa sözlə, ordunun canlı qüvvəsi də, maddi hissəsi də kəndlilər tərəfindən yaradılır. Bu o qədər ağır idi ki, uzunmüddətli müharibə zamanı müflisləşməyə gətirib çıxara bilərdi.

Bu da Sun-tszı üçün həlledici səbəb deyil. O, bu fəsildə müharibə iqtisadiyyatının ümumi təhlili hüdudlarında qalaraq bu barədə xatırlamır; o, bilir ki, onsuz da o dövrün oxucusu onu sözsüz də anlayacaqdır. Traktatının digər yerində o, deyir: «Yüzminlik ordu ilə min millik yürüşə çıxanda kəndlilərin məsrəfləri, hökmdarın xərcləri gündə 1000 qızıl təşkil edir».

Daxildə və xaricdə - çaxnaşmalar; yoldan taqətdən düşür və 700 min ailə işə başlaya bilmirlər» (XIII fəsil, I). Əsas səbəb budur: kəndlilərin böyük kütləsinin işdən ayrı düşməsi «başqa sözlə desək, əkin işləri ilə heç kim məşğul ola bilmədiyindən kənd təsərrüfatı, tənəzzülə uğrayır, yəni, dövlətin müflisləşməsi baş verir.

Sun Tszı 700.000 ailə rəqəmini haradan götürür? Və niyə onlar kəndli olmalıdır? «Araba mükəlləfiyyəti ilə kənd təsərrüfatının süquta uğraması arasında hansı əlaqə var? Çin tarixşünaslığı bu suallara cavab verir. Əvvəlki dövrlər Çin tarixşünaslarının və tarixçilərinin çoxu güman edirdi ki, Çində quyu sistemi, yəni, əkinçi

icmasının xüsusi forması mövcuddur. Onların məlumatlarına görə, dövlət üçün əsas inzibati-təsərrüfat vahidi o zaman «qonşu icması» adlandırılan (Tsao-qun) səkkiz həyətdən ibarət icma idi. Onun üçün 400, bəzən 720-900 mu həcmində torpaq payı ayrılırdı. Bu torpaq payı 9 bərabər hissəyə bölünürdü. Səkkiz həyətdən hər biri belə bir sahə olaraq onu öz ehtiyacları üçün əkib-becərirdi; doqquzuncu sahəni isə bütün səkkiz həyət birlikdə əkib-becərir və onun məhsulunu xəzinəyə təhvil verirdilər.

Bu cür icma bir çox vergi ödəyir, çoxlu mükəlləfiyytlər yerinə yetirirdi.

Müharibə dövründə bu mükəlləfiyyətlərə əsgərlərin, atların və öküzlərin daşınması, habelə ərzaq və azuqənin daşınması və çatdırılması aid idi: İcma daxilində bu iki mükəlləfiyyət belə ayırd edilmişdi: səkkiz həyətdən biri muzdlular verir, digər yeddi həyət isə azuqə daşıyır və çatdırırdılar. Əgər 100 minlik ordu formalaşdırılırdısa, 100 minlik icmadan, yəni, 800 min həyətdən bir muzdlu götürürdülər. Bu, o demək idi ki, 800 min həyətdən 100 mini əsgər verir, digər 700 mini isə azuqə verir və onu daşıyırdı. Tsao-qunun təbirincə desmək, «bir həyət əsgər verir, digər yeddisi isə onu saxlayırdı». Du Mu da bunu belə anlayır: «700 min həyət 100 minlik ordunu saxlayırdı». Şübhəsiz ki, ordunu kəndlilər səxlayırdı. Beləliklə, əkinçiliklə əsasən, muzdlunun ailəsi məşğul ola bilərdi: o azuqə və araba mükəlləfiyyətindən azad olunurdu, digər 700 min ailə isə «işin qulpundan yapışa bilməzdilər».

Bu güman olunan tarixi şərtlər müqabilində Sun-tszının sözləri aydındır: «Müharibə vaxtı dövlət ona görə kasıblaşır ki, azuqəni uzağa aparırlar». Sun-tszı heç də fəlakətin miqyaslarını şişirtməzdi; o, bu ilk baxışdan «azuqəni uzağa daşımaq» sözləri arxasında nə gizləndiyini bilirdi.

Kəndlilərin müflisləşməsinin səbəblərindən biri kimi Sun-tszı qiymətlərin bahalaşmasını göstərir. «Ordudan yaxınlıqda yerləşənlər baha satır, onlar baha satanda isə xalqın vəsaitləri tükənir. Ordunun yerləşməsi bölgəsində peyda olan ticarətçilərdən söhbət gedir. Beləliklə, müharibə dövründə möhtəkirlik və qiymətlərin bahalaşması hələ e. ə. Çin hərbi yazıçısı tərəfindən qeyd olunurdu». Xalqın vəsaitləri tükənir» ibarəsini şərhçilər çox maraqlı izah edirlər. Tszya Lin deyir: «Orada ki, çoxlu qoşun cəmləşir, bütün əşyaların qiyməti olduqca artır, insanlar fövqəladə gəlirlər dalınca qaçaraq bütün əmlaklarını satırlar, əvvəlcə onlar bu vasitə ilə çoxlu gəlir əldə etsələr də, sonunda bu onların qüvvələrinin sarsılmasına və əmlaklarının tükənməsinə gətirib çıxarır». Başqa sözlə desək, Tszya Lin möhtəkirlik ilə müvəqqəti varlanmanın dayanıqsız və davamsız olduğuna diqqəti çəkməklə möhtəkirliyinin məhz möhtəkirlərin özü üçün məhvedici nəticəsini görür. Elə onun özü digər məsələni də göstərir: «Qazanc üçün elə həris insanlar var ki, onlar nəyi isə satanda vicdan əzabı çəkmədən qiymət qoyurlar. Əhali isə öz

qüvvələri tükənsə də, almağa məcbur olur. Təbii olaraq, dövlətdə hər şey boşalır». Beləliklə, Tszya Linin fikrincə, möhtəkirlikdən bütün əhali əziyyət çəkir.

Beləliklə, Sun-tszının fikrincə, uzunmüddətli müharibə kəndlilərin müflisləşməsinə və kənd təsərrüfatının tənəzzülünə, deməli, bütün dövlətin müflisləşməsinə gətirib çıxarır. Təbii olaraq, gəlirlərin daxil olması dayanır. «Vəsaitlər tükənəndə isə (kəndlilərdə- N.K.) mükəlləfiyyətləri yerinə yetirmək çətinləşir» -, deyə Sun-tszı söyləyir.

Sun-tszı burada hansı mükəlləfiyyətlərdən söhbət açıldığını deməsə də, digər mənbələr və şərhçilər bunu açıqlayırlar. Söhbət yuxarıda qeyd olunan quyu sistemi şəraitində kəndlilərin üzərinə düşən mükəlləfiyyətlərdən gedir. Qeyd olunduğu kimi, bu sistemə görə, səkkiz həyətin birliyi olan «qonşu icması» əsas inzibati-təsərrüfat vahidi hesab olunur; inzibati-ərazi nöqteyi-nəzərindən «quyu» adlanırdı. «Dörd quyu» yeni inzibati təsərrüfat vahidini - kəndi, dörd kənd iri kəndi, dörd iri kənd vilayəti təşkil edirdi. Hər bir kənd dairəsi müharibə dövründə 1 at, 4 öküz, vilayət isə 4 at, 16 öküz çatdırmalı, bundan əlavə, 1 cəng arabasını təchiz etməli və 75 muzdlu verməli idi. Bununla qısa müharibə dövründə iş bitirdi. Sürəkli müharibədə, Sun-tszının eyham vurduğu kimi, muzdluların ikincili yığımına və azuqənin üçüncülü toplanışına əl atmaq lazım gəlirdi. Şübhəsiz ki, bu qayda təkcə bu iki kateqoriyadan olan mükəlləfiyyətə şamil edilmirdi. Sun-tszı ümumiyyətlə, «kənd mükəlləfiyyətlərinin güclənməsindən bəhs edir. Beləliklə, yeni atlar və öküzlər götürülür, yeni cəng arabalarının təchizatı tələb olunurdu. Kəndlilər tərəfindən gəlirlərinin, mal-mülklərinin 70 faizinin itirilməsi bunlarla şərtlənirdi.

Əlbəttə, bu rəqəmi sürəkli müharibədə xalqın gəlirlərinin itkisinin dəqiq hesabı kimi qəbul etmək gərək deyil, traktatın müvafiq fəslinin digər rəqəmləri kimi bunlar kəndlilərin tam müflisləşməsi isə hüdudlanan böyük miqdarda itkiləri göstərir.

«Azuqə daşıyanda qüvvələr sarsılır; təchizatı çatdıranda, vəsaitlər tükənir; savaş meydanlarında döyüşən əhalinin əmlakı yox olur, ölkə daxilində hər şey boşalır», - bunu Çjan Yuy deyir. Sun-tszı deyir: «Silah kütləşəndə, tiyələr sınanda, qüvvələr sarsılanda və vəsaitlər tükənəndə, sənin zəifliyindən istifadə edən knyazlar üzərinə qalxacaq». Zəifləmiş və var-yoxdan çıxmış ölkəyə yırtıcı qonşular hücum çəkirlər.

Lakin Sun-tszı iqtisadi səbəblərə görə də pasifist, müharibə əleyhdarı deyil, əksinə o, sərkərdə üçün dərslik, yəni müharibənin aparılması üçün vəsait yazır. O, ümumiyyətlə, müharibənin, sürəkli müharibənin əleyhinədir. Onun bütün dedikləri bu fəslin əsas müddəalarına – bu zərərli iqtisadi və qismən siyasi nəticələrdən qaçmaq üçün müharibəni necə aparmalı sualına müqəddimədir.

Əlbəttə, bunun üçün ən yaxşı vasitə-qısa qalibiyyətli müharibədir. Lakin hərdən uzunmüddətli müharibənin olması ilə hesablaşan Sun-tszı onun ağırlığını yüngülləşdirmək üçün yol göstərir. Onun göstərdiyi yol sadədir: müharibənin bütün ağırlığını düşmənin üzərinə keçirmək lazımdır.

Sun-tszı şərt qoyur-öz xalqını nə muzdlu, nə də maddi mükəlləfiyyətlə yükləməmək. «Müharibəni aparmağı bacaran iki dəfə yığım keçirmir, üç dəfə azuqə daşımır. Bununla belə, o düşməndən ələ keçirmək mümkün olandan istifadə etməyi tövsiyə edir. Bu ilk növbədə silahlara aiddir. Fəth olunmuşlar hesabına güclənmə daha artıq dərəcədə qənimətlərin istifadəsinə tətbiq olunur. Sun-tszı təklif edir: «Döyüş zamanı on və daha çox cəng arabası ələ keçirilsə, onu mükafat kimi qəniməti birinci ələ keçirənə payla, bayraqları dəyiş (yəni, düşmən bayrağının yerinə özününkünü ucalt, rəsmi olaraq öz qüvvələrinin tərkibinə daxil et - N.K.). Onu özgə arabaları ilə qarışdıraraq onlarda hərəkət et (yəni döyüş-N.K)».

Bu sözlər o deməkdir ki, düşməndən ələ keçirilmiş silah öz cəbbəxananın artırılmasına xidmət edir. Bu təlimat da çox xarakterikdir: «Əsgərlərlə (əsirlərlə-N.K.) yaxşı rəftar et və onların qayğısına qal». Sun-tszı bunun nə məqsədlə edilməli olduğunu izah etmir, lakin bizim Çin ordusu haqqında bildiklərinizdən bəlli olur ki, düşmənin əsir əsgərləri orduda işçi qüvvəsi- hər şeydən əvvəl yükdaşıyan qullar kimi istifadə olunurdu.

Ərzaq və azuqəyə olan ehtiyacı ödəmək qalır. Burada, yuxarıda deyildiyi kimi, Sun-tszı qəti surətdə söyləyir: «Müharibəni aparmağı bacaran azuqəni düşməndən götürür». «Ağıllı sərkərdə rəqibin hesabına dolanmağa çalışır. Bunu nə cür etmək lazımdır? Burada Sun-tszı bundan bəhs etməsə də, digər yerdə fikrini qısa və aydın ifadə edir: «Çətin vəziyyətli yerdə (yəni, düşmən ərazisinin dərinliklərinə müdaxilə edəndə və öz ölkəndən daşıma mümkün olmadıqda-N.K.) talançılıqla məşğul ol» (XI,3).

Sun-tszı iqtisadçı fəhmindən xali deyil; o anlayır ki, yerindəcə düşməndən alınmış eyni miqdarda ərzaq və azuqə, öz ölkəndən «min mil məsafədən» gətirilmiş eyni miqdarda ərzağa bərabər deyil». «Rəqibin bir funt qidası özünün 20 funt qidana uyğundur; düşmənin 1 pud paxlalı bitkisi və küləşi özünün 20 puduna uyğun gəlir». Lakin Sun-tszı anlayır ki, bütün bunlar özünə məxsus deyil, onları əldə etmək lazımdır. Ona görə də o, bunun soyğunçuluqla əldə olunduğunu göstərir.

Öz əsgərlərini bu cür soyğunçuluqla məşğul olmağa necə vadar etmək olar? Sadə hərəkət etmək əmri ilə; əlbəttə, sərkərdə ciddiyyətə malik olmalıdır ki, bunun nəticəsi olaraq onun əmrləri qeyd-şərtsiz icra olunsun. Du Munun sözlərinə görə, «əsgərlər sçərkərdələrindən qorxur, düşməndən isə çəkinmir». Lakin Sun-tszı hər zaman sərkərdədən ağıl tələb edir ki, bunun üçün də başqa vasitələrə əl atmaq lazımdır.

Bu vasitələr hansılardır? Sun-tszının fikrincə, bu tamahkarlıq və amansızlıq instinktləridir. Sərkərdə bu instinktlərlə oynamağı bacarmalıdır: öz əsgərlərində tamahkarlıq və amansızlıq ruhu oyatmalıdır. Onda onlar vuruşacaq və soyğunçuluq edəcəklər. Sun-tszının: «Rəqibi qəzəb öldürür, tamahkarlıq isə onun sərvətlərini ələ keçirir» ibarəsi də məhz bu mənanı daşıyır.

Sun-tszının şərhçiləri bunu yekdilliklə təsdiqləyirlər. Li Tsuan deyir: «Qəzəb-ordunun gücüdür». Van Çje bəyan edir: «Müharibədə güc və qəzəb əsasdır». Tszya Lin məsələni başqa cür qoyur: «İnsanlarda qəzəb olmasa, onlar öldürə bilməzlər». Qədim Çinin digər hərbi yazıçıları da belə hesab edirlər. Vey Lyao-tszı misal üçün deyir: «Xalq ruh ilə döyüşür. Ruh qəzəb ilə alovlanıbsa, onda insanlar özləri döyüşə atılır».

Sun-tszı tamahkarlığı qəzəb ilə yanaşı qoyur-bu əsgərlər üçün asan qazancın yeganə mümkün stimula çevrildiyi müharibələrin qəsbkar mahiyyətini xarkterizə edir. Öz təcrübəsində müharibəni yaxşı öyrənmiş Tsao-qun tamahın rolu barədə bunları deyir: «Əgər orduda sərvət olmasa, döyüşçülər orduya getməz, orduda mükafatlar paylamasalar, döyüşçülər döyüşə getməz».

Du Yu deyir: «İnsanlar biləndə ki, düşmənə qələbə çalıb səxavətlə mükafatlandırılacaqlar, onlar ox və daşlara qarşı gedir, sevinclə döyüşə atılırlar». Onların hamısını fərqlənmə və əmək üçün mükafatlandırıldıqları sərvət cəlb edir». Çjan Yuy bu mükafatları rəşadətlə əlaqədə görür: «əgər tabeçiliyində olanları səxavətlə mükafatlandırırsan, onlarda sözsüz ki, rəşadət meydana çıxacaqdır».

Lakin bu tamahkarlıq özünə, öz sərkərdənə, öz ölkəndən alınan mükafatlara yönəlib. Əsas isə bu deyil. Sun-tszı deyir ki, «tamahkarlıq düşmənin sərvətlərini qəsb edir. Sərkərdə öz əsgərlərinin tamahkarlığını məhz bu tərəfə yönəltməyi bacarmalıdır. Bu barədə Du Mu da danışır: «Öz əsgərlərini düşməndən ələ keçirməyin mümkün olduğu sərvətləri görməyə vadar etməlisən. Düşmənin sərvətlərini ələ keçirsən, onları mütləq payla. Öz əsgərlərində elə arzular oyat ki, onlann hər biri özü döyüşə getsin».

İnsanları döyüşməyə və ümumiyyətlə, müharibəyə getməyə sövq edən vəhşi «stimullar» Sun-tszının və onun ardıcıllarının fikrincə, bunlardan ibarətdir. Bu cür vəziyyətin ümumi mənzərəni tamamladığını söyləmək artıq olardı, Sun-tszı dövründə Çində hökmdarlar müharibələrə yalnız qəsb və talançılığa görə başlayır və öz məqsədlərinə görə əsgərlərdə bu instinktləri alovlandırırdılar. Bu nəinki, qədim Çində müşahidə olunurdu, bu cür «stimullar» Sun-tszıdan sonrakı istənilən təcavüzkar müharibədə dövriyyəyə buraxılırdı.

III fəsil
Strateji hücum

«Ən yaxşısı– rəqibin dövlətini qoruyub saxlamaq, ikinci yerdə- onu məhv etməkdir. Ən yaxşısı– düşmən ordusunun bütövlüyünü saxlamaq, ikinci yerdə isə onu darmadağın etmsəkdir.

Ən yaxşısı - düşmən batalyonunun bütövlyünü saxlamaq, ikinci yerdə onu darmadağın etməkdir. Ən yaxşısı– düşmənin bölüyünün bütövlüyünü saxlamaq, ikinci yerdə isə onu darmadağın etməkdir. Ən yaxşısı - düşmən taqımının bütövlüyünü saxlamaq, ikinci yerdə isə onu darmadağın etməkdir. Ona görə də yüz dəfə yaxşısı deyil, yaxşıların yaxşısı-özgə ordunu döyüşmədən ram etməkdir»,– bu fəsli Sun-tszı paradoksal səslənən bu sözlərlə başlayır.

Bu arada Sun-tszı heç də filantrop deyildir. Öz traktatının VII fəslində o, deyir: «O, müdaxilə (rəqib ərazisinə– N.K.) edir və alov kimi tar-mar edir» (VII, 8). «Atəş hücumuna» dair XII fəsildə isə əhalinin, ehtiyatların, anbarların, arabaların, rəqibin hərbi hissələrinin yandırılmasından bəhs edir.

Nəticə etibarilə, o, məhvetməyə əsaslanan müharibə prinsipinin tərəfdarıdır, lakin güman edir ki, bu «ikinci yerdədir», birinci yerdə, «yaxşıların yaxşısı»,– bu, zorakılığa məruz qoymamaq, «müdaxilə edib tar-mar etməmək», rəqibin ölkəsini tam olaraq saxlayıb, «onu döyüşmədən özünə tabe etdirməkdir». Sun-tszı hesab edir ki, «silahı kütləşdirmədən (yəni, silahı işə salmadan - N.K.) fayda əldə etmək olar». Buna necə nail olmaq olar?». Strateji hücumla.

Sun-tszının bütün məsləhətlərində və göstərişlərində çıxış məntəqəsi o fikirdir ki, ən yaxşı müharibə-az ziyan müqabilində çox fayda verən müharibədir.

Bu fikir onun bütün traktatında səslənir və XIII fəsildə öz bariz ifadəsini tapır.

O, hərbi kəşfiyyatın təşkilinə vəsait xərcləməyi əsirgəməyi və ya başqa sözlə, kortəbii müharibəyə girərək özünü təhlükəyə və lazımsız itkilərə məruz qoymağı «qeyri-humanizmin ən yüksək nöqtəsi» adlandırır. Öz dövlətini müflisləşmədən qorumağı və düşmənin canlı qüvvəsini və maddi resurslarını tamlığı ilə əldə etməklə fayda götürmək-köhnə Çinin hərbi və siyasi filosoflarına xas niyyətdir. Müharibə– «ikinci yerdədir», ona başqa çıxış yolu olmayanda əl atırlar. «Ona görə də müharibəni aparmağı bacaran özgə ordusunu döyüşmədən fəth edir, özgə qalalarını mühasirəyə almadan ələ keçirir, öz ordusunu çox saxlamadan özgə dövləti məğlubiyyətə uğradır». Sun-tszının sözlərinə görə, bunu etməyi bacaran– qəsb obyektinin- düşmən ölkəsinin bütövlüyünü qoruyub saxlayan «səma altında hakimiyyətə», «yəni ali hökmdar mövqeyinə iddia edə bilər. Döyüşsüz fəth– ən yaxşı fəth, hərbi əməliyyatlarsız

müharibə– ən yaxşı müharibədir. Sun-tszı və qədim Çinin bütün digər görkəmli hərbi yazıçıları belə güman edirlər.

Vey Lyao-tszı öz traktatının III fəslini aşağıdakı sözlərlə başlayır:

«Müharibədə yol, qüdrət və güc vasitəsilə qazanılmış qələbələr olur. Öz hərbi işini yüksək səviyyədə qurub düşməni qiymətləndirərkən o, ruhdan düşürsə, qoşunu pərən-pərən olursa, cəzalandırmalar saxlanılsa da tətbiq olunmursa, bu Yolun qələbəsidir. Özündə lazımi qanun və qərarları, ədalətli mükafat və cəzaları tətbiq edib, əlverişli vasitələr (hücum və müdafiə– N.K.), öz xalqına qələbəyə əminliyi təlqin edirsənsə, bu qüdrətin qələbəsidir. Düşmən ordusunu məhv edib, onun sərkərdəsini öldürüb; rəqibin ön istehkamlarına çatıb, hərb sənətini işə salıb, onu kütləvi şəkildə darmadağın etmək və torpağını ələ keçirib və bu rəşadətləri göstərib evinə qayıdırsansa, bu gücün qələbəsidir».

Beləliklə, Sun-tszı kimi Vey Lyao-tszı da hesab edir ki, ən yaxşı qələbə– döyüşsüz qələbədir. Döyüşə digər yollar olmayanda, əl atmaq lazımdır. «Silah– fəlakət alətidir,- deyə, o, xəbərdarlıq edir,- mübarizə fəzilətə qarşıdır, sərkərdə-ölüm agentidir. Ona görə də müharibəyə qaçılmaz olanda əl atırlar» (Vey Lyao-tszı, VIII fəsil, səh 28).

Li Vey-qunun «Dialoq»larında onun həmsöhbətlərindən birinin-Tan imperatoru Tay-tszunun dili ilə bu sözlər işlənir: «Özgə ordunu döyüşmədən fəth etmək - bu ən yaxşıdır, yüz dəfə döyüşüb yüz dəfə qələbə çalmaq - bu ortadır: dərin çalalar qazaraq, uca istehkamlar qurmaq və onların arxasında müdafiə olunmaq - bu ən pisidir» (Li Vey-qun venduy, III hissə, səh 69).

Bu cür baxış, görünür, Çin hərbi doktrinasında əsas idi. Artıq qeyd olunduğu kimi, Sun-tszıdan sonra əksər görkəmli müəlliflər bu fikri ifadə edirlər. Tarixi salnamələr Çin müharibələrinin təcrübəsinin də bunu təsdiq etdiyini önə çəkirlər.

Bəzi hallarda əldə olunmuş qələbələr döyüşsüz qazanılmış zəfərlərə aid edilirsə, məhz belə qələbələr yüksək qiymətləndirilir.

Köhnə Çin ədəbiyyatında bərqərar olduğu kimi, bu taktikanı ali dövlət müdrikliyinin örnəyi qəbul edilən-qədim əfsanəvi hökmdarlar Yao, Şun, Yuy öz şəxsi nümunələri ilə təsbit etməlidirlər. Belə ki, nəql olunduğuna görə, Şunun zamanında (ənənəvi xronologiyaya görə, m.ö. 2255-2205-ci illər) Sanmyao ölkəsi, yəni, myao tayfası üsyan etmişdi. Yuy qiyamçıların yatırılmasına əl atsa da, öz ərazisiinin xarakterinə görə, müdafiə üçün yaxşı uyğunlaşdığını görüb, onları silahla ram etməyin lüzumsuzluğunu dərk etdi, salnaməyə görə, ordusu ilə yurduna dönərək öz ölkəsində mədəniyyətin bəhrələrinin aşılanması, əhalisinin rifah halının yüksəldilməsi ilə məşğul oldu ki, sonda Sanmyao özü tabe olmaq istəyini izhar etdi.

Üç Çarlıq dövründə (III əsr) Vey hökmdarı Tsao Tsao (Tsao-qun, yəni imperator U-di, 155-220-ci illər) yaxşı möhkəmləndirilmiş Xandan şəhərini müharibə ilə ələ keçirdi, lakin cəsur Xan Fanın başçılıq etdiyi qarnizon ilə müdafiə olunan kiçik qalalardan biri olan İyanı heç cürə zəbt edə bilmədi. Onda Tsao Tsao bu qalaya qarşı öz hərbi rəisi Syuy Xuanı göndərməyi qərara aldı.

O, başqa cür hərəkət etmək niyyətində idi. Həmlə etmək əvəzinə o, düşmən tərəfə oxun üzərində Xan Fana ünvanlanmış müraciət göndərərək müqavimət göstərməyin lüzumsuzluğunu inandırıcı surətdə izah edir və təslim olmağı təklif edirdi. O, elə əsaslı dəlillər gətirə bilmişdi ki, öz məqsədinə çatmışdı. Onun dəlillərinə inanmış Xan Fan müqaviməti dayandırdı.

Xronikaların dediyinə görə, bu cür taktika daxili müharibələrdə, həm də üsyanların gedişində, məsələn, Suy dövrünün sonunda Yan-dinin hakimiyyəti dövründə (605-616) üsyanlardan biri geniş miqyas aldığı zaman tətbiq olunurdu. Üsyançılara qarşı göndərilmiş sərkərdə amansız yatırılma metodları ilə hərəkət etməyə cəhd göstərdi, lakin bununla üsyanın geniş vüsət almasına nail oldu. Onda Yan-di, Tan sülaləsinin gələcək banisi, digər sərkərdəsi Li Yuanyuya üsyanı yatırtmağı həvalə etdi. Li Yuan tamamilə başqa taktika seçdi. Salnaməçilərin bildirdiyinə görə, o, üsyanın Yan-dinin qəddarlığından və istibdad üsul-idarəsindən qaynaqlandığını anlayırdı.

Buna görə o, döyüş əvəzinə üsyançılara verilən hər bir nemətlərlə onları qiyamı dayandırmağa sövq etmək üçün bütün tədbirləri gördü və buna nail oldu. Beləliklə, təhlükəli üsyana döyüş olmadan son qoyulması təsvir olunur. Bunun Yuan tərəfindən öz şəxsi məqsədləri üçün edilmiş məharətli manevr olduğunu görmək çətin deyil: Suy sülaləsini devirməyə və hakimiyyəti qəsb etməyə çalışaraq, o, təbii olaraq hər cür vasitələrlə əhalinin rəğbətini qazanmağa cəhd göstərirdi, üsyanın qan içində boğulması Yan-didən daha çox üsyanı yatırdanın ünvanına qəzəb doğura bilərdi. Li Yuanın hərəkətləri bununla izah olunur.

Veydə Üç Çarılq dövründə Koreyanın Koqure çarlığını darmadağın etmiş (244-cü il) Vey sərkərdəsi Mu Tsyutszyanın üsyanı yatırılmışdı. Üsyançılara qarşı göndərilmiş digər sərkərdə Sıma Çjun-da (Sıma İ, 179-251) əsas strateji mövqeləri tutaraq bütün rayon üzərində nəzarəti təmin etmişdi. Öz ordusunun üçüncü hissəsini üsyançıların arxa cəbhəsinə göndərən Çjun-da onlara azuqə və təchizat gətirilməsinin qarşısını almışdı. Mu Tsyutszyan yaranmış vəziyyəti görərək müqavimətin əbəs olduğunu anlamış və mübarizəni dayandırmışdı.

Traktatın şərhçiləri çoxlu sayda, belə nümunələr gətirir ki, burada onu qeyd etmək yerinə düşər ki, onların konsepsiyasına görə, qədim hökmdarlar və sərkərdələr, başlıca olaraq döyüşsüz düşməni üç vasitə ilə ram etməyə səy göstərirdilər: birincisi; maarifpərvər və müdrik idarəçilik, dövlətin rifahı, xalqın xoşbəxt

yaşayış mənzərəsi düşməndə güclü təəssürat doğurmalıdır; ikincisi, rəqibə münasibətdə müdrik siyasət, onun arzu və ehtiyaclarına diqqət və sayğı ilə yanaşmaq, onun maraqları ilə hesablaşmaq yolu ilə hərəkət etmək; üçüncüsü, eyni məqsədə düşməni müqavimət göstərməyin lüzumsuzluğuna inandıran hərbi-strateji tədbirlərlə də çatmaq olardı. Beləliklə, qansız müharibənin alətləri ölkənin siyasi və mədəni nüfuzu, düşmənə qarşı ağıllı və xeyirxah münasibət, onun strateji cəhətdən zəiflədilməsidir.

Hərbi yazıçılar məsələni daha dar çərçivədə nəzərdən keçirirlər. Onlar qanlı müharibəni təmin edəcək sırf hərbi tədbirlərdən bəhs edirlər. Belə ki, yuxarıda xatırlanan Vey Lyao-tszı bu cür qələbəni əldə edəcək, iki vasitə: yol və qüdrəti göstərir.

Onun təbirincə, «Yol»– yüksək döyüş qabiliyyəti vəziyyəti və rəqibi tam tanımaqdır. «Qüdrət»– bu yüksək təşkilatçılıq və intizam, mükəmməl hərb sənətidir. Vey Lyao-tszı bu ünsürlərdən irəli gələn, lakin həlledici məqamlara toxunur: öz ölkəndə «yolun» mövcudluğu düşmənə mənəvi cəhətdən pis təsir göstərir, onu müqavimət fikrindən çəkindirir, özündə «qüdrətin» mövcudluğu xalqına və qoşununa qələbəyə tam inam təlqin edir. Beləliklə, Vey Lyao-tszı daxili birlik amilini önə çəkir.

Bu, ümüumiyyətlə onun üçün səciyyəvidir. Öz traktatının IV fəslində o, deyir: «Sərkərdə xalqı ilə, xalq isə ruh yüksəkliyi ilə döyüşür. Bu ruh varsa döyüşür, yoxdursa, qaçırlar». Lakin müvafiq halda bizim üçün yalnız o vacibdir ki, Vey Lyao-tszı, Li Vey-qun kimi hərbi yazıçılar və tarixçilər Sun-tszıda olduğu kimi döyüşü rəqiblə mübarizədə ikinci yerə qoyurlar. Qələbənin əldə olunmasının digər yolları onlarda birinci yerdədir.

Bu cür baxış müqabilində müharibəni aparan sərkərdə qarşısında xüsusi tələblər qoyulur.

Öz traktatının I fəslində Sun-tszı sərkərdəyə gərək olan keyfiyyətləri sadalayaraq ağılı birinci yerə qoyur. Ağıla olan tələb III fəsildə izahını tapır. Sərkərdə «döyüşməyəcək» qələbə çalmağı bacarmalıdır. Bu o deməkdir ki, o, «düşünməyi», «plan işləyib hazırlamağı», «niyyət və planla hücum etməyi» bacarmalı, yəni, Sun-tszının fikrinin tərcümədə alınan ifadəsi kimi strateji hücum sənətinə malik olmalıdır.[2]

Şərhçilər Mey Yao-çen və Van Çje dediyi kimi, «düşməni ağılla sarsıtmağı bacarmaq lazımdır».

Sun-tszının sözlərinə görə, «ən yaxşı müharibə-düşmənin niyyətlərini puça çıxarmaq, növbəti yerdə-onun ittifaqlarını dağıtmaqdır. Bu o deməkdir: iki strateji hücum vasitəsi var - rəqibin planlarını pozmaq və onu təcrid etmək.

---

[2] *«Strategiya» sözünün tərcüməsi barədə– bu anlayışın geniş anlamında., bax. qeyd 9, I fəsil.*

Şərhçilər Sun-tszının bu kiçik ifadəsini müxtəlif cür anlayırlar. Du Yu, Li Tsyuan və Tsao-qun onun fikrinə daha çox yaxınlaşırlar. Onlar hesab edirlər ki, düşmənin niyyət və planlarını beşiyindəcə pozmaq lazımdır. Du Yu məsələn, Tay-qunun sözlərindən sitat gətirərək deyir: «Kim fəlakəti aradan qaldıra bilir, onun öhdəsindən o törəməmiş gəlir. Kim ki, rəqibə qalib gəlməyi bacarır, o bunu rəqib formaya (biçimə) malik olmayanda edir».

Li Tsuan deyir: «Onun keyfiyyətlərini əvvəldən pozmaq lazımdır.

Xe Yan-si və Çjan Yuy Sun-tszının ifadəsinə digər məzmun verirlər: onlar hesab edirlər ki, Sun-tszı düşmənin gözlənilən hücumunu önləmək üçün hücuma keçməyi və bununla da onu öz niyyətlərindən daşındırmağı təklif edir. «Düşmən mənə qarşı hücuma keçmək niyyətində olanda, ona qarşı birinci hücuma keçmək asandır. «Düşmənin niyyətlərinin kəşfiyyatını aparmaq və bundan çıxış edərək silaha sarılmaq, onun ürəyinin ilkin hərəkətinə hücum etmək», yəni Xenin təbirincə desək, onun niyyətlərini beşiyindəcə boğmaq lazımdır. Çjan Yuy düşmənin niyyətlərindən xəbərdar olmağın nəyə gətirib çıxaracağını izah edir: «Düşmən nə isə niyyətlər quranda, mən ona hücum edirəm, onun bütün mülahizələri puça çıxır, özü də ram olur». Etiraf etmək lazımdır ki, bu cür təfsir Sun-tszının fikrinin izahı olmayaraq, Sun imperiyası dövrü strateqlərinin (960-1280) nəzər nöqtəsinin ifadəsidir.

O dövrdə Çin xalqı Şimali Çinə soxularaq əraziləri qəsb edən və bu ərazilərdə öz çarlıqlarını– əvvəlcə Kidan, Lyao, sonra isə Çjurçjen, Tszin barbar tayfaları ilə amansız mübarizə aparmalı olmuşdu. Sonralar sunlar, zərbələri altında məhv olduqları monqollar ilə üz-üzə gəldilər.

Bu fasiləsiz və amansız müharibə şəraiti Sun dövründə yaşayan göstərilən hərbi yazıçıların hücumun hücumla önlənməsi fəndinə həyata vəsiqə verdiyindən bəhs etməsi üçün əsas verir.

Şərhçilər məhz bu cür hərəkətlərin nümunələri olan tarixi faktlara diqqəti cəlb edirlər. Belə ki, Du Mu xatırladır ki, m.ö. VI əsrin ortalarında tis Tszin-qunun müşaviri və sərkərdəsi Yan-tszı tszin Pin-qunu Tsiyə hücum etmək niyyətindən daşındırır. Sıma Tsyanın hekayətinə görə, iş bu cür baş vermişdir. Pin-qun Tis çarlığına hücum etmək niyyətindəykən, işə başlamamış, öz niyyətini məxfi saxlayaraq, müşaviri Fan Çjaonu bu çarlıqda vəziyyətin kəşfiyyatını aparmaq üçün rəsmi səfir qismində Tsiyə göndərir. Fan Çjao Tsiyə gəlir və əlbəttə ki, çar tərəfindən qəbul olunur.

Dövrün böyük və qüdrətli dövlətinin səfirinin şərəfinə ziyafət təşkil olunmuşdu. Bu ziyafətə Tis çarlığının bütün əsas müşavirləri və hərbi sərkərdələri dəvət olunmuşdu. Fan Çjao Tis hökmdarının köməkçiləri ilə tanış olmaq və gələcək rəqibin nə dərəcədə təhlükəli olduğunu müəyyənləşdirmək üçün əlverişli fürsətin ələ keçdiyini gördü. Buna görə də o, onları bəzi sınaqlardan keçirmək fikrinə gəldi:

O, çarın və əyanların şərabı xüsusi badələrə süzdüyünü sezmişdi. Bu zaman o, onun üçün nəzərdə tutulmuş şərabı çarın badəsinə süzməyi tələb etdi. Fan Çjao şərabı içib badəni çara qaytarmaq istəyəndə Yan-tszının müşaviri onu dayandıraraq nökərə çara digər badəni verməyi əmr etdi. Məsələ burasındadır ki, o, Fan Çjaonun gizli niyyətlərindən şübhələnərək gəlişinin məqsədini anlamışdı. Belə olan təqdirdə Fan Çjao daha bir sınaq keçirməyi qərara aldı. O, ziyafətdə iştirak edən müsiqiçilərin Çen-çjounun pyesini ifa etməsini rica etdi; bu musiqi nömrəsi Çjo çarlığı sarayında xüsusi təntənəli mərasimlər zamanı ifa olunurdu və onu digər saraylarda ifa etmək nəzərdə tutulmamışdı. Yan-tszının işarəsi ilə musiqiçilərin rəhbəri onların bu musiqini öyrənmədiyini ehtiramla bildirir. Öz çarının yanına qayıdan Fan Sjao yad niyyətləri gözəl başa düşən, ağıllı və uzaqgörən müşavirləri olduğundan Tis çarlığına hücum etməyin lazım olmadığını məruzə etdi: Pin-qun bununla razılaşaraq niyyətlərindən daşındı. Bununla da, Yan-tszı öz hərəkətləri ilə düşmənin niyyətlərini rüşeym halındaca məhv etdi.

Digər hallarda rəqibi düşməncəsinə niyyətlərindən başqa vasitələrlə imtina etməyə məcbur edirlər. Belə ki, son Xan sülaləsindən olan Quan-unun (25-57) hakimiyyəti dövründə Qao Tsyun tərəfindən başlanan vətəndaş müharibəsi alovlandı. Onunla mübarizəyə imperatorun sərkərdəsi Kou Syun göndərildi. Qao Tsyun onunla danışıqlara girməyə cəhd göstərərək bu məqsədlə öz səfiri Xuanfu Venyanı göndərdi. Bu, səriştəli siyasətçi və sərkərdə idi.

Səfiri qəbul edən Kou Syun onun davranış və nitqindən kiminlə üz-üzə dayandığını və qarşı tərəfin əsl rəhbərinin Xuanfu Ven olduğunu dərk etdi. Buna görə də, o, düşünmədən Xuanfu Veni öldürməyi və bunu Qao Tsyuna xəbər verməyi əmr etdi. Onun mülahizələri özünü doğrultdu. Qao Tsyun dərhal itaətkarlığını izhar etdi.

Üç Çarlıq (III əsr) dövründə çarlığın sərkərdəsi U Lu-Kan başqa cür hərəkət etməyə üstünlük verirdi. Yan Xunun mülklərinə hücum edəcəyindən, onun hərbi hazırlıqlara başlayaraq çayda bənd inşa etdirdiyindən, azuqənin və təchizatın say ilə daşınma vasitələri hazırladığından xəbər tutan U bu yerlərə qəfil səfər edərək bəndi dağıdır və daşınma vasitələrini məhv edir. Bununla o, Yan Xunu niyyətlərindən daşınmağa sövq edir. Sun-tszının ikinci düsturunda deyilir: «Onun ittifaqlarını darmadağın et».

Demək olar ki, əksər şərhçilər bunu eyni cür dərk edirlər. Onların fikirləri çalarlara görə fərqlənir. Belə ki, məsələn, Du Yu rəqibə ümumiyyətlə, ittifaqlar bağlamaq imkanının verilməməsindən söhbət getdiyini hesab edir.

Van Çjie ilə artıq yaradılmış ittifaqın pozulmasından bəhs edir: «Düşmənin niyyətlərini pozmağa tam gücün yetməyən təqdirdə, onun ittifaqlarına müdaxilə etmək və onları parçalanma həddinə gətirib çıxarmaq gərəkdir». Bütün bunlar ittifaqın mövcudluğunun

sözügedən ölkəni əsaslı şəkildə möhkəmləndirdiyi fikrinə söykənir. Men-şu deyir ki, güclü dövlət ilə ittifaq bağlandığı təqdirdə, rəqib niyyətini gerçəkləşdirməyə cəsarət etmir. Van Çje mövqeyini belə izah edir: «Düşmən ittifaqlara malik olarsa, demək vəziyyət çətindir, düşmən güclüdür, ittifaqlar olmayanda isə, iş asandır, düşmən zəifdir. Qədim Çində hücum və müdafiə ittifaqlarının əhəmiyyətinin qiymətləndirilməsi bunu ehtiva edir».

Du Mu rəqibin ittifaqlarının pozulması taktikasına e.ə. IV əsrin əvvəlində baş vermiş məşhur hadisəni nümunə gətirir.

O zaman Sin hökmdarı Tsi və Çu çarlıqlarının ona qarşı bağlanmış ittifaqını pozmağa səy göstərərək Çus çarını Tsi ilə ittifaqdan ayırmağa müvəffəq olmuş mahir diplomat Çjan İni Çuya göndərir. Bu Çunu o qədər zəiflədir ki, sonucda Xuan-van özü əsir düşür. Vey hökmdarı Tsao-qun həmin fəndlə Xan Luyun və Ma Çjaonun özünə qarşı yönəlmiş ittifaqını pozmağa nail olmuşdu: iki ordu qarşı-qarşıya duranda Tsao-qun atın tərkində irəli keçərək Xan Luyun ordu başçılarından biri ilə danışıqlara girmək istəmiş və hamının gözü qarşısında onunla uzun-uzadı söhbət etmişdir; bu Ma Çjaonun müttəfiqinə etimadsızlıq bəsləməsi üçün kifayət etmişdir; onlar arasında nifaq başlanmış, ittifaq süquta uğramış və mübarizə kəsilmişdir.

VI əsrin birinci yarısında-Çinin iki hissəyə-cənub və şimal hissələrinə parçalanması, Cənub hökmdarı İ-dinin şimallılarla mübarizəsi dövründə şimallıların qoşun başçılarından olan Xou Tszin İ-dinin tərəfinə keçməklə, əlbəttə, sonuncunu fövqəladə surətdə gücləndirdi. Belə olan təqdirdə şimal ordusunun digər qoşun başçısı Qao Yan Xou Tszini Lyan imperatorundan ayırmaq qəranna gəlir. Bu məqsədlə o, sülh danışıqları təklif edir. U-di bu təkliflə razılaşır və bununla da, öz müttəfiqi olan Xou Tszində etimadsızlıq və şübhə doğurur. Nəticədə Xou Tszin U-diyə qarşı silah qaldıraraq onu qətlə yetirir. Beləliklə, Qal Yanın rəqibi hər hansı döyüşsüz məhv edildi.

«Strateji hücum»un və ya dəqiq desək, «niyyətli hücum»un müxtəlif fəndləri bunlardır. Sun-tszı ilk növbədə onlara əl atmağı, bilavasitə silaha sarılmamışdan öncə onları sınaqdan keçirməyi məsləhət görür.

Lakin işlər belə cərəyan edər ki, (əslində əksər hallarda bu cür də olur), bir strateji hücum hədəfinə çatmaya bilər. «Ən yaxşı müharibə-düşmənin niyyətlərini darmadağın etməkdir; növbəti yerdə onun ittifaqlarını, daha sonra isə qoşununu darmadağın etmək gəlir». Deməli, üçüncüsü-ordunu darmadağın etmək qalır.

Burada da Sun-tszı öz müddəalarına sadiqdir: qələbəyə böyük, ola bilsin ki, lüzumsuz itkilərə getməyərək, mümkün uğursuzluqla risq etmədən nail olmaq gərəkdir. Uğur təmin olunduğu təqdirdə, döyüşmək gərəkdir. Həqiqi müharibə şəraitində uğuru onun fikrincə ən yaxşı nə təmin edir? Traktatın sonrakı hissələrində o bu cür uğurun çoxlu şərtlərini-coğrafi, maddi və mənəvi şərtlərini

sadalayır. Bu məqamda o, sonrakı izahda yenidən qayıtdığı və böyük əhəmiyyət verdiyi şərti-kəmiyyət üstünlüyünü önə çəkir.

IV fəsildə Sun-tszı kəmiyyət üstünlüyünü digər amillər sırasında onlarla sıx qarşılıqlı təsirdə nəzərdə keçirir. O, hansısa qədim Çin əsərindən sitat gətirir: «Müharibə qanunları»na görə- birinci yerdə uzunluq, ikinci yerdə-həcm, üçüncü yerdə say, dördüncü yerdə-çəki, beşinci yerdə qələbə dayanır. Məkan uzunluğu, uzunluq həcmi, həcm sayı, say çəkini, çəki qələbəni doğurur. Bu orijinal düsturun ətrafli izahı müvafiq məqamda veriləcəkdir, burada onu qeyd etmək kifayətdir ki, həmin qədim Çin əsərində ifadə olunduğu kimi miqdar, «say» digər ünsürlərlə yanaşı dayanır və onlarla bağlıdır. Hər halda, say üstünlüyü Sun-tszı üçün qələbənin başlıca amillərindən biridir.

Heç də bütün köhnə Çin hərbi nəzəriyyələri bu müddəanı bölüşmürlər. Vey Lyao-tszı deyir: «10 min döyüşən 1 milyon əmri yerinə yetirəndən; 100 rəşadətlə döyüşən isə 10 min sadəcə vuruşandan yaxşıdır» (XXIV fəsil, səh.62).

Başqa sözlə desək, o, kəmiyyət yox, keyfiyyət tərəfini ön plana çəkir. U-tszı da bu nöqteyi-nəzəri tamamilə bölüşür. U-tszı seçmə qoşunun qatı tərəfdarıdır.

O, orduya ilk növbədə, fiziki keyfiyyətlərə– güclü, dözümlü, uzaq yürüşləri asanlıqla keçirməyə qabil olan; ikincisi– mənəvi keyfiyyətlərə –cəsur və döyüşkənliyə malik olan; üçüncüsü– döyüşə xüsusi mülahizələrlə– günahlarını yumaq və yenidən fərqlənmək üçün can atan insanları toplamağı təklif edir. «Üç min belə adamda daxildən hərəkət edərək rəqibin mühasirəsini yarmaq, xaricdən isə onun qalasını təslim olmağa məcbur etmək olar» («U-tszı», I, 5).

Bundan savayı, U-tszı ordunun mütəşəkkilliyinə xüsusi önəm verir. Onun traktatında maraqlı bir dialoqa rast gəlmək olar:

U-xou soruşur: «Ordu nə ilə qələbə qazanır?».

U-tszı cavab verir: «O öz mütəşəkkilliyi ilə qələbə qazanır».

U-xou yenidən soruşur: «Məgər sayı ilə deyil?».

U-tszı buna, belə cavab verir: «Əmr və göstərişlər aydın, cəza və mükafatlar ədalətli olmayanda, linc çalınanda (yəni, geri çəkilmək üçün siqnal-N.K.), insanlar dayanmayanda, təbil çalınanda (yəni, hücuma siqnal) irəli gətməyəndə, belə insanlardan milyon da olsa, nə faydası?» («U-tszı», III, 2).

Daha sonra U-tszı əsgərlərin təlim görməsini yüksək dəyərləndirir: «İnsanlar, adətən, səriştəsiz olduqları nəsnələrdə ölümə tuş gəlir, səmərə ilə istifadə edə bilmədikləri nəsnələrdə məğlubiyyətə uğrayırlar. Buna görə də müharibənin aparılmasında əsas məqam-təlimdir» («U-tszı», III, 5).

Beləliklə, U-tszı kiçik, lakin seçmə, yaxşı təşkil olunmuş və təlim görmüş orduların sözsüz tərəfdarıdır. Eradan əvvəl IV əsrin iki Çin strateqi-U-tszı və yuxarıda adı çəkilən Vey Lyao-tszı nöqteyi-nəzərləri Sun-tszıdan sonra keçən təxminən iki yüzillikdə tarixi

şəraitdə baş vermiş dəyişiklikləri sübut edir. Belə bir qənaətə gəlmək olar ki, Sun-tszının epoxasında ordunun yaradılmasında dayaq qismində çıxış edən azad icma üzvlərinin əsarətə alınması prosesi U-tszının dövründə o qədər geniş vüsət almış və əkinçi əhali ilə hökmdarlar arasında ziddiyyətlər o qədər kəskin səciyyə kəsb etmişdi ki; onlar artıq belə dayaq qismində çıxış edə bilməzdilər. Bundan irəli gələrək U-tszının ətraflı bəhs etdiyi kimi ordunu digər əsaslarda yaratmaq lazım gəlirdi.

Sun-tszının mövqeyi genişliyi ilə fərqlənirdi. Yuxarıda xatırladıldığı kimi qələbə əldə olunmasında bir çox amillərin-coğrafi, maddi və mənəvi amillərin təsirini görür.

Məhz buna görə də aşağıda görəcəyimiz kimi o, seçmə qoşunların əhəmiyyətini bütünlüklə etiraf edərək onlarda müharibədə qələbə qazanılmasının əsas vasitələrini görməyə meylli deyil. Bunun nəticəsi olaraq, o, say prinsipinə etinasız yanaşılmalı deyil, ilk növbədə istifadə olunmalı olan qələbə amili kimi irəli sürür. Yaddan çıxarmaq gərək deyil ki, Sun-tszı hər zaman bu fəsildə şərhinə başladığı öz başlıca fikrini nəzərdə tutur: «Ən yaxşısı döyüşmədən yad ordunu özünə ram etməkdir». Onun beynində tutduğu başlıca qayə bu cür nəticələrin əldə olunması vasitəsi kimi «Strateji hücum» xətti boyunca inkişaf edir. Buna görə də say üstünlüyünün əhəmiyyəti önə çəkilir.

Qüvvələrdə kifayət qədər sanballı üstünlüyə malik olmaqla düşmənə müqavimət göstərməyin əbəs olduğunu anlatmaq və silahı yerə qoymağa məcbur etməkdir. Bu da «strateji hücum» un başqa bir növüdür.

Sun-tszı özü də say üstünlüyünün nisbiliyini gözəl dərk edir, bunu onun IX fəsildə işlətdiyi sözlər də təsdiq edir: «İş heç də əsgərlərin sayını artırmaqda deyil. Yalnız hərb gücünə irəli getmək olmaz. Rəqibin öhdəsindən gəlməyə kifayət edəcək qədər qüvvə səfərbər etmək və rəqibi düzgün qiymətləndirmək yetərlidir» (IX, 18).

Qeyd etmək lazımdır ki, düşmən üzərində say üstünlüyünə malik olmaqla döyüşə və ümumiyyətlə, müharibəyə girmək qədim və orta əsrlər Çin və Yaponiya strategiyasının səciyyəvi cəhətidir. Salnamələrdə tərifə layiq görülmüş, istisnasız olaraq bütün sərkərdələr məhz belə hərəkət edirdi. Elə həmin salnamələrdə şücaət, rəşadət, igidlik, diribaşlıq, hiyləgərlik barədə qələbəni təmin edən amillər kimi az danışılmır. Salnamələrdə borca sədaqət, öz rəisinə sadiqlik kimi amillərdən də kifayət qədər bəhs olunur. Lakin qoşun başçıları rəşadəti, sadiqliyi lazımınca dəyərləndirmək, daha dayanıqlı zəmanətə-say üstünlüyünə malik olmağı lazım bilirdilər.

Ancaq say üstünlüyü anlayışı Sun-tszı üçün yeganə deyil. O, öz qüvvələrinin rəqibin qüvvələrini neçə dəfə üstələdiyinə laqeyd deyil. Hücum vəzifəsi, konkret taktika bu üstünlüyün ölçülərindən asılıdır.

Sun-tszı ikiqat, beş qat, onqat üstünlüyü ayırd edir. Aydındır ki, onqat üstünlük ən arzuolunan nəticəyə-rəqibin döyüşsüz tam təslim olmağına ümid etməyə imkan verir. Bununla əlaqədar, taktika müəyyənləşdirilir: bu cür qüvvə üstünlüyü şəraitində hücum etmək gərək deyil, düşməni onqat üstün qüvvələrin mühasirə həlqəsinə alaraq onu çıxılmaz vəziyyətdə qoymaq gərəkdir.

Qüvvələrin beşqat üstünlüyü şəraitində rəqibin güclə darmadağın olunması barədə düşünmək lazımdır və bu təqdirdə düşmənin üzərinə birbaşa hücum taktikası tətbiq olunmalıdır. Lakin üstünlük ikiqatdırsa, birbaşa həmləyə qərar vermək olmaz: manevrə əl atmaq-öz qoşunlarının bir qismini ayıraraq arxa cəbhədən zərbə endirmək lazımdır.

Bir maraqlı məqamı da qeyd etmək lazımdır ki, Sun-tszı tərəfindən irəli sürülən say üstünlüyü məsələsi-müəllifə qarşı sayğıya baxmayaraq, onun şərhçiləri tərəfindən müntəzəm qeyd-şərtlərlə qəbul olunur. Belə ki, məsələn, Tsao-qun onqat üstünlük ibarəsinə qeydində yazır: «Düşmənin mühasirəyə alınması üçün onqat üstünlük bu və digər tərəfin sərkərdələri ağıl və rəşadətə görə bir-birinə bərabər olanda, hər iki tərəfin silahı eyni olan zaman tələb olunur, əgər düşmən zəif, mən isə güclüyəmsə, onqat üstünlük tələb olunmur». Burada tarixi örnəyə istinad olunur. Tsao-qunun özü Syaopey qalasında sığınacaq tapmış rəqibi Lyu Veyi qüvvələrdə ikiqat üstünlüyə malik olmaqla mühasirəyə almışdır. O, bənd çəkilmiş suyu ilə istehkamı batırmaqla çayın Lyu Veyi təslim olmağa məcbur etmişdir.

Çjan Yuy da eyni cür mühakimə yürüdür. Du Mu digər vəziyyət üçün qeyd-şərt ifadə edir: «Onqat üstünlük düşmən güclü, onun müdafiə qurğuları davamlı olduğu təqdirdə, o, möhkəm nahamar dağlıq əraziyə arxalanarsa, tələb olunur. O, arxalanmaq üçün heç nəyi yoxdursa, güclü olsa da belə qüvvələrdə onqat üstünlüyə malik olmadan da mühasirəyə almaq olar».

Lakin azsaylı, amma yaxşı vuruşan əsgərlərin əhəmiyyətindən bəlağətlə danışan Vey Lyao-tszı mühasirə əməliyyatı məsələsində Sun-tszının nöqteyi-nəzərini bölüşür. Ona görə ki, adətən, qalada sığınacaq tapmış və ya yaxşı möhkəmləndirilmiş mövqedə dayanan rəqibin mühasirəsini həyata keçirirlər. Vey Lyao-tszı onunla hesablaşır ki, müdafiə qurğuları sayəsində müdafiə zamanı mühasirədə olanlar rəqibin qat-qat üstün qüvvələrinə uğurla müqavimət göstərə bilər. O, deyir: «Müdafiədə 1 nəfər on nəfərə, on nəfər yüzə, yüz nəfər minə, min nəfər on minə müqavimət göstərə bilər». Bu sözləri xatırlayan Çjan Yuy əlavə edir: «O, demək istəyir ki, 10 müdafiədə olan mühasirəyə alan 100 nəfərə müqavimət göstərə bilər».

Beləliklə, onqat üstünlük Sun-tszı tərəfindən təsadüfi götürülməyib. Bu müəyyən strateji şəraitin-yaxşı möhkəmləndirilmiş

mövqedə yerləşən rəqiblə mübarizənin tələb etdiyi qüvvələr üstünlüyüdür.

Onun beşqat üstünlük barədə düsturu da eynilə həmin müəyyən strateji situasiyanı nəzərdə tutur. O, həmçinin, qala divarları arxasında yerləşən və güclü istehkamlar ilə müdafiə olunan rəqibi nəzərdə tutur. Lakin mühasirədən ibarət və rəqibin tezliklə təslim olmasına hesablanmış birinci əməliyyatın əksinə olaraq, bu məsuliyyət onu təslim olmağa məcbur etmək üçün möhkəmləndirilmiş mövqelərinə təhlükə yaratmağı ehtiva edir. Onqat üstünlükdə birinci taktika mümkündür, belə üstünlük olmadığı təqdirdə ikinciyə əl atmaq zəruridir.

Tsao-qun məhz bu cür təhlükənin yaradılmasını bu cür təsvir edir: ordu beş hissəyə bölünür; onlardan üçünə düzgün döyüşü aparmaq, yəni, rəqibin əsas qüvvələrinin zərbələrini öz üzərinə götürmək həvalə olunur, digər ikisi isə manevr üçün-rəqibin zəif məntəqələrinə zərbə üçün ilk növbədə onu öz istehkamlarının müdafiəsi altından çıxmaq və açıq ərazidə döyüşü aparmağa vadar etməyə görə təyin olunur.

Bu zaman rəqibə onun üçün iki vacib məntəqədə yaranmış təhlükəni nəzərə alaraq meydana çıxaraq öz istehkamlarından kənarda döyüşü qəbul etməkdən və qarşı tərəfin ordusunun gücünə görə ona bərabər hissələrinin cinahlara labüd zərbələri və üçqat üstünlük şəraitində açıq döyüşün heç nəyə gətirməyəcəyini anlamaq və təslim olmaqdan başqa heç nə qalmır.

Yalnız ikiqat üstünlük özünə yer tapırsa, Tsao-qunun təfsirinə görə, Sun-tszı bənzər səciyyəli strategiyanı tövsiyə edir. Tsao-qunun zənnincə, bu cür üstünlük şəraitində düşməni təslim olmağa məcbur etmək üçün öz ordunu hər biri müvafiq olaraq sayca rəqibin bütün qüvvələrinə bərabər iki hissəyə bölmək lazımdır. Bu hissələrdən birini düşmənin arxa cəbhəsinə və cinahına zərbə endirmək üçün göndərmək, digərini isə onun daldanacaqdan məcburi çıxışını öz üzərinə götürmək üçün ön cəbhədə saxlamaq gərəkdir. Başqa sözlə desək, vəziyyət rəqibi açıq döyüşü qəbul edəcək və bu cür qüvvələr nisbətində onun məğlubiyyətini demək olar ki, qaçılmaz edəcək strateji təhlükənin yaranması şəklini alır.

Strateji hücumun «düşmənin bütün ordusunu qoruyub saxlayaraq» onun üzərində zəfər çalmağa ümid verən üç bəndi bunlardır. Sun-tszı məhz buna səy göstərir. Hər iki tərəfin qüvvələri bərabər olanda, vuruşma labüd olur.

Onda Sun-tszı digər göstəriş verir: «Əgər qüvvələr bərabərdirsə, onda onunla (rəqiblə– N.K.) döyüşməyi bacar».

Başqa sözlə desək, bu şəraitdə bütün digər bərabər şərtlər daxilində qələbə sərkərdənin hərb məharətindən, əsgərlərin ruh yüksəkliyi və rəşadətindən asılıdır.

Sun-tszının sonuncu iki– düşmənin sayca üstünlüyündə geri çəkilmək və onun hər hansı məsələdə üstünlüyü zamanı,

ümumiyyətlə, onunla görüşdən yayınmaq barədə göstərişləri Sun-tszının elə həmin fikrindən qaynaqlanır: bu onun ən yaxşı qələbənin qansız olması barədə ilkin şərtidir. Ona görə də məğlubiyyət risqinə getməkdənsə, döyüşdən çəkilib yayınmaq, əsl qələbəni təmin edən şərtləri yaratmaq və vaxt qazanmaq, yəni, ya düşmənin niyyətlərini strateji cəhətdən darmadağın etmək, ya onu strateji cəhətdən taqətdən salmaq, ya da say üstünlüyünün mövcudluğu şəraitində strateji təhlükə yaratmaq, yəni, strateji hücumun bu və ya digər fəndini tətbiq etmək yaxşıdır.

Sun-tszı heç də sayca üstün rəqiblə döyüşü inkar etmir. Çin müharibələri tarixində məhz rəqib üzərində bu cür gurultulu qələbələrə xeyli nümunə vardır. Məsələn, əgər rəvayətə inansaq, Sixe yaxınlığındakı döyüşdə U-tszı 50 minlik ordusu ilə Sin çarlığının onqat üstün ordusunu tamamilə darmadağın etmişdi. Tsao-qun Çin tarixinin şəhadətinə görə, 20 minlik dəstə ilə Yuan Şaonun 400 minlik ordusunu darmadağın etmişdir. Bu xüsusi şərait və xüsusi hallardır. Bu artıq normal, adi, heç nə ilə ağırlaşmamış şərait deyil, onun «dəyişikliyi» dir. Həmin an hər bir qayda öz təsirini itirir.

Sun-tszı bütün bunlar barədə müvafiq məqamda söhbət açır. Burada isə, yenidən təkrar edirik, onun bütün göstərişləri ümumi müddəadan irəli gəlir: döyüşsüz qələbəyə nail olmaq üçün hərəkətlər, yəni, strateji hücumun fəndləri necə olmalıdır.

Bütün bu ümumi müddəalarla yanaşı, Sun-tszı şübhəsizdir ki, say üstünlüyünü istənilən şəraitdə döyüşün ən həlledici amillərindən biri hesab edir. Bunu inkar etmək olmaz.

Bütün yuxarıda qeyd olunanlar Sun-tszının üçüncü müddəasına aiddir: birincisi- «ən yaxşı müharibə-rəqibin niyyətlərini darmadağın etmək», ikincisi-«onun ittifaqlarını dağıtmaq»; üçüncüsü-«onun qoşunlarını dağıtmaqdır». Dördüncüsü də var: «Ən pis-qalaları mühasirəyə almaqdır».

Beləliklə, «strateji hücum» arzuolunan nəticələrə gətirib çıxarmayanda, həqiqətən döyüşmək lazım gələndə, yuxarıda sadalanan qaydalara əsasən döyüşmək gərəkdir. Hər cür şəraitdə qalaların mühasirədə saxlanmasından çəkinmək lazımdır. Bu ən «pis məqamdır», çünki ordunu ləngidir və çoxlu itkilər doğurur. (Sun-tszının təbirincə «öz səbrini basa bilməyib amansız həmlələrə müraciət edən») sərkərdənin «zabitlərinin və əsgərlərinin üçdə biri həlak olar, qala isə alınmaz qalır». Bundan irəli gələrək Sun-tszı xəbərdarlıq edir-«qalanı mühasirə ilə götürmək lazımdır, amma...qalanı bunun qaçılmaz olduğu zaman mühasirəyə almaq gərəkdir».

Sun-tszının ümumi strategiyası bundan ibarətdir. Ümumiyyətlə, hərbi əməliyyatlar barədə ümumi müddəaları təsbit edərək o, qələbəni təmin edəcək əsas şərtlərin aydınlaşdırılmasına keçir.

O, beş belə şərtə diqqəti çəkir: 1) «nə zaman döyüşmək gərək olub-olmadığını biləndə qələbə çalırlar»; 2) «böyük və kiçik qüvvələrdən istifadə etməyi bacaranda qələbə çalırlar»; 3) «yuxarılar və aşağılar eyni arzulara malik olanda qələbə çalırlar»; 4) «Ehtiyatı əldən verməyəndə və rəqibin ehtiyatsızlığını gözləyib bundan faydalananda qələbə çalırlar»; 5) Sərkərdəsi istedadlı və hökmdar tərəfindən idarə olunmayanlar qələbə çalırlar.

Bu beş şərt Sun-tszının bütün doktrinasının aşkarlanması yolunda yeni addımı təzahür etdirir.

Qələbənin birinci şərti– rəqiblə döyüşüb-döyüşməməyin məqamını bilməkdir. Şərhçilər bu düsturun anlamını müxtəlif cür açıqlayırlar. Çjan Yuy hesab edir ki, bunda Sun-tszı hücum və müdafiəni nəzərdə tutur: «Döyüşməli olanda irəli get və hücum et, döyüşmək olmayanda geri çəkil və müdafiə olun. Əgər hücum və müdafiə qaydalarından baş çıxarsan, həmişə qələbə sənlə olacaq». Van Çje bənzər təfsir verir: «İmkan olanda irəli get, əgər yoxsa, dayan. Bu qələbənin əldə saxlanılması yoludur».

Du Mu və Xe güman edirlər ki, söhbət Sun-tszının bu fəslin sonunda bəhs etdiyi özünün və rəqibin tanınmasından gedir. Men-şi məsələni başqa cür qoyur: «Rəqibin vəziyyətini qiymətləndirməyi bacaran və özü üçün onda nəyin yerində olub, nəyin yerində olmadığını aydınlaşdıra bilən qələbə çalır». Başqa sözlə desək, Men-şi Sun-tszının bu sözlərini sonradan onun tərəfindən inkişaf etdiriləcək (V və VI fəsillər) «boşluq və tamlıq» barədə, yəni, rəqibin güclü və zəif yerləri haqqında təlimlə bağlayır. Nəticə etibarilə söhbət rəqibin müdafiə olunmadığı məntəqələrə hücum etmək, onun güclü olduğu məntəqələrə düşünülməmiş zərbələr vurmaqdan çəkinmək məharətindən gedir.

Sun-tszı sonradan bunda bütün strategiya və taktikanın həqiqətən əsasını gördüyü üçün, Men-şi yəqin ki, digər şərhçilərdən daha çox onun fikrinə yaxınlaşır. Lakin zənnimizcə, Soray Sun-tszı təliminin ruhuna ən çox yaxın olan təfsir verir. O, ümumiyyətlə, Men-şinin təfsirinə qoşulur, amma aşağıdakıları qeyd edir: «Tamamilə doğrudur ki, yekunda döyüşün məğzi ondan ibarətdir ki, tam olan yerə zərbədən yayınıb, boş yerə zərbə endirəsən; lakin tamın və boşun dəyişikliklərini ayıran aralıq bir tel qədər nazikdir». İndiyə qədər tam olan nəsnə qəflətən boşa və yaxud boş olan nəsnə tama çevrilə bilər. Nə daimi boşluq, nə də daimi tamlıq var. Buna görə də Şi Tszı-mey bununla bağlı qeyd edir: müharibədə anla qələbə qazanırlar: döyüşə girib-girməməyin mümkünlüyünü an müəyyənləşdirir.

Sorayın təfsirinin Sun-tszının bütün təliminin təməlinə yaxınlığı onunla təsdiq olunur ki, Sun-tszıya ruhən ən çox yaxın olan digər hərbi yazıçılar onun tamlıq və boşluq haqqında təlimini bütün doktrinasının mərkəzi yeri hesab edirlər. Belə ki, məsələn, Li Vey-qunun «Dialoqlar»ında Tay-tszının dilindən bu cür sözlər işlənir:

«Mən hərb sənəti barədə müxtəlif əsərlər oxumuşam, onların hamısı Sun-tszının təliminin sərhədlərini aşır. Sun-tszının bütün 13 fəsli isə tamlıq və boşluq haqqında təlimin hüdudlarından kənara çıxmır. Müharibənin aparılması zamanı tamın və boşun əhəmiyyətini dərk edərək qələbə çalmamaq olmaz» («Li Vey-qun venduy», II h, səh 28), «tamlıq elə boşluqdur»,-deyə, Li Vey qun söyləyir (elə orada, səh.29).

Odur ki, Soray Mən-şinin təfsirini çox düzgün olaraq dərinləşdirərək sərkərdənin məharətinin rəqibin güclü və zəif tərəflərini formal bilməklə məhdudlaşmadığına diqqəti çəkir; həmin təzahürlərin bağlılığının dərk olunması və öz strategiya və taktikanı onlara uyğunlaşdırmaq bacarığı tələb olunur. Zənnimizcə, traktatın bu yerinin daha dərin anlaşılması Şi Tszı-meydə özünü büruzə verir: müharibədə anın və şəraitin şərtlərini nəzərə almaq və onlardan istifadə etmək bacarığı ilə qələbə qazanırlar.

Sun-tszı indicə say üstünlüyündə geri çəkilməyi tələb edirdi. Hələ onda deyilmişdi ki, bu tələb «qansız strategiya», yəni, düşməni imkan daxilində döyüşsüz itaətkarlığa gətirmək şəraitində qüvvəyə malikdir. Bu cür istiqamətdə rəqib üzərində say üstünlüyü qansız müharibənin belə şərtlərindən biri ola bilər, əgər bu üstünlük rəqib tərəfdədirsə, geri çəkilmək lazımdır. O zaman qeyd olunmuşdu ki, Sun-tszının bu göstərişi onun tərəfindən rəqiblə müqayisədə az qüvvələrlə yalnız strateji deyil, qanlı-qadalı əsl müharibə təqdirində döyüş aparılması imkanının etirafını istisna etmir.

Burada sadalanan qələbənin beş şərtindən ikisi bunu ən yaxşı şəkildə təsdiqləyir. Sun-tszı deyir: «Həm kiçik, həm də böyük qüvvələrdən istifadə etməyi bacaranda qələbə qazanırlar». Deməli, Sun-tszı rəqiblə müqayisədə az qüvvələrlə döyüşü qəbul etməyin mümkünlüyünü nəinki etiraf edir, habelə bu şərtlər daxilində qələbəni tamamilə mümkün sayır.

Traktatın bu yerinə şərhçilərin qeydlərinin diqqətlə nəzərdən keçirilməsi bu qənaətə gəlməyə əsas verir ki, Sun-tszının bu qısa sözlərində ikili məna var-kiçik və böyük qüvvələrdən harada, yəni, hansı şəraitdə, eləcə də nə cür istifadə etməyi bacaranlar qələbə qazanırlar. Du Yu deyir:

«Müharibədə elə vəziyyət yaranır ki, böyük qüvvələrlə kiçik qüvvələrin üzərinə hücuma keçmək mümkün olmur, zəif qüvvələrlə güclü rəqibin öhdəsindən gəlmək də olur».

Şərhçilərin fikrincə, məhz iri və azsaylı qüvvələri nə zaman hərəkətə gətirmək biliyi bütün yaxşı sərkərdələri fərqləndirir. Onlar adətən, özlərinə nə qədər qoşun gərək olacağını əvvəlcədən bilirdilər. Belə ki, məsələn, Tan dövründə Li Şen (727-793) sərhəd ərazilərinə dəfələrlə basqınlar etmiş tibetlilərə qarşı göndərilmişdi. İmperatorun ona qədər qoşun gərək olacaq sualını Li «1000 nəfər» cavablandırdı və aydınlaşdırdı: «Əgər sayla qələbə qazanmağı

düşünsən, onda əlbəttə ki, 1000 nəfər azdır, strategiya ilə hərəkət etsək, 1000 nəfər artıqlaması ilə bəsdir».

Çjan Yuy deyir: «Elə hallar olur ki, kiçik qüvvələrlə rəqibin böyük qüvvələri üzərində qələbə qazanırlar, elə də olur ki, böyük qüvvələrlə kiçik qüvvələr üzərində qələbə çalırsan. Bütün məsələ ondan ibarətdir ki, onlardan necə istifadə etməyi anlayasan və onların düzgün tətbiqində yanılmayasan».

Qələbənin üçüncü şərti-«aşağıların və yuxarıların eyni istəklərə malik olmasıdır». Bu səpkidə Sun-tszı müəyyən qədər traktatın əvvəlində ifadə olunmuş fikrini təkrarlayır: «Yol– xalqın hökmdarla fikirlərinin eyni olması, onunla birlikdə yaşamağa və ölməyə hazır olması, şübhə və qorxunun nə olduğunu bilməməsi halının əldə olunmasıdır» (I, 3). Lakin burada Sun-tszı məsələni digər müstəviyə keçirir: o, ordunun döyüş ruhu durumuna toxunur və əsgər və zabitlərin istəklərinin vahidliyini tələb edir, özü də burada söhbət məhz istəklərdən, yəni hiss və ovqatın ümumi düzümündən gedir.

Qələbənin dördüncü şərti-ehtiyat və tədbirlilikdir. Sərkərdə daim ayıq-sayıq olmalı və rəqibin kiçicik ehtiyatsızlığından istifadə etməlidir. Erkən Xan sülaləsi dövrünün adlı-sanlı qoşun başçısı Çjao Çun-qo (m.ö.137-52-ci illər) bu cür tədbirli sərkərdəyə örnək hesab olunur. Onun haqqında nəql edirlər ki, o, yürüşdə olarkən, kəşfiyyatı çox uzaqlara göndərər, qoşununu istənilən anda döyüşə girməyə hazır vəziyyətdə saxlayar; dayandığı yerdə müharibəyə dözəcək kimi düşərgəni möhkəmləndirər, hər tərəfə böyük məsafələrə gözətçi dəstələri yollayardı və s. Şərhçi Van Çje Çjou dövrünün sonunda Çu və Çen çarlıqları arasındakı müharibədən bir epizodu xatırlayır. Çen çarlığı U çarlığı ilə ittifaqda olduğundan, onun qoşunları köməyə gəlmişdilər. Öz müttəfiqlərindən 30 mil məsafədə yerləşərək onlar arxa cəbhənin mühafizəsini öz üzərlərinə götürmüşdülər. Elə bu zaman on gün aramsız yağan yağışlar başlamışdı. Aysız gecələrdə göz-gözü görmürdü. Həmin məqamda Gus sərkərdəsi Tszı Linin müşaviri İ Lyan gözlənilməz gecə hücumu üçün bu şəraitdən U-nun qoşunlarının hökmən istifadə edəcəyi fərziyyəsini öz rəisinə bildirmişdi. Tszı Li onunla razılaşdı və bütün ehtiyat tədbirlərini gördü.

İ Lyanın gözlədiyi kimi oldu. Həqiqətən də, qaranlıqdan istifadə edən U qoşunları iki əsas rəqibin ordugahını ayıran 30 millik məsafəni nəzərə çarpmadan keçərək Gus çarlığının düşərgəsinə zərbə endirdilər.

Lakin orada məsələdən agah olduqlarından hücum edən tərəf elə bir müqavimətlə üz-üzə gəldi ki, ağır itkilər verdi və qarmaqarışıqlıq içində geri çəkildi. Onda İ Lyan öz rəisinə müraciət edərək vurğuladı ki, irəli və geri qət etdiyi 60 mil heç də bir tərəfə gedilmiş 30 mil deyil...Tszı Li öz müşavirinin fikrini anladı və öz hissələrini geri çəkilən rəqibi qarabaqara izləməyə göndərdi.

Yenidən İ Lyan gözlədiyi kimi oldu: 60 millik keçişdən yorulmuş, səfi pozulmuş və ruh düşkünlüyünə uğramış rəqibin qoşunları zəruri ehtiyat tədbirləri görə bilmədilər. Bundan da təqib edənlər yararlandılar. Beləliklə, Gus qoşunları U çarlığının ordusunu qəti şəkildə darmadağın etdi.

Sun-tszı tərəfindən təsbit olunan qələbənin beşinci şərti xüsusilə diqqəti cəlb edir: «Sərkərdəsi istedadlı olan və hökmdar tərəfindən idarə edilməyənlər qələbə çalır». Bu o deməkdir ki, Sun-tszı sərkərdə üçün tam əməliyyat sərbəstliyi tələb edir, onun orduya rəhbərliyinə hər hansı hətta onu bu vəzifəyə təyin etmiş hökmdar tərəfindən müdaxiləni inkar edir.

Qeyd etmək lazımdır ki, «Vey Lyao-tszı», yəni, bir qədər gec (m.ö. IV əsrədək) meydana çıxmış, ümumiyyətlə, Çjanqo dövrünə aid hərb sənəti üzrə traktat sərkərdənin tam sərbəstliyi fikrinə tərəfdar çıxır. Orada belə sözlər var: «Sərkərdə göydə səmadan, yerdə torpaqdan, ortada isə insandan asılı deyil» («Vey Lyao-tszı», VIII fəsil, səh.28).

Vey Lyao-tszı üçün bu o deməkdir ki, sərkərdə qədim Konfutsi konsepsiyasına görə, dünyada fəaliyyət göstərən üç qüvvədən asılı olmamalıdır.

Qədim dövrlər üçün bundan dəyərli fikir söyləmək mümkün deyil. Göründüyü kimi, bu müddəa daha geniş prinsip-hər biri spesifik funksiyaları olan iki başlanğıc kimi ordunun və dövlətin bölünməsi ilə bağlılıqda yerləşir. Bu fikrin necə anlaşıldığına dair elə həmin e. ə IV əsrə mənsub olan «Sıma fa» traktatının aşağıdakı sözlərinə əsasən mühakimə yürütmək olar: «Qədimdə dövlət ordunun, ordu dövlətin işlərinə qarışmırdı. Ordu dövlətin işlərinə müdaxilə edəndə xalqın adətləri pozulur, dövlət ordunun işlərinə müdaxilə edəndə, xalqın adətləri zəifləyir».

Lyu İn bu sözlərin izahını verir: «Əgər ordu dövlətin işlərinə müdaxilə edirsə, bu o deməkdir ki, ordu xalqdan üstündür, hərbi başlanğıc mülki başlanğıcdan üstündür».

Əgər dövlət ordunun işlərinə müdaxilə edirsə, bu o deməkdir ki, xalq ordudan, mülki başlanğıc hərbi başlanğıcdan üstündür («Sıma fa», II fəsil, səh.13). Beləliklə, burada biz Çində sonrakı dövrlərdə böyük inkişaf əldə etmiş konsepsiyanın birinci bitkin forması ilə rastlaşırıq; dövlətin mövcudluğu və xalqın rifahı iki başlanğıcın-mülki və hərbi başlanğıcın qarşılıqlı tarazlığından bütünlüklə asılıdır; onlardan birinin üstünlüyü təhlükələr doğura bilər.

Bu prinsipin daha dar tətbiqi ordudakı hakimiyyətin dövlətdəki hakimiyyətdən ciddi şəkildə ayrılmasında təzahür edir. «Lyu taonun» traktatında bu belə ifadə olunur:

***«Dövləti xaricdən idarə etmək, orduya mərkəzdən komandanlıq etmək olmaz»** («Lyu tao», «Lun tao» bölməsi, fəsil 21, səh. 9-11). Hakimiyyətlərin bu sayaq bölünməsini sərkərdəyə təyinat zamanı verilən səlahiyyətlərdən görmək olar. Məlum olduğu*

kimi, sərkərdənin təyinatı üçün sarayda xüsusi mərasim düzənlənirdi və onun gedişində hökmdar sərkərdəyə hakimiyyətinin, xüsusilə qeyri-məhdud cəzalandırma hüququnun rəmzi kimi təbərzin emblemini təqdim edirdi. Bu zaman hökmdar sözləri belə tələffüz edirdi: «Astana hüdudlarında olan hər şey hökmdara, onun hüdudlarından kənarda olan hər şey sərkərdəyə təhkim olunur». Başqa sözlə desək, ölkə daxilində bütün hakimiyyət hökmdarın əlində qalır, döyüş meydanında bütün hakimiyyət isə sərkərdəyə keçir.

Beləliklə, Sun-tszı sərkərdə üçün tam əməliyyat sərbəstliyi tələb edərək mülki və hərbi hakimiyyətin bölünməsinin zəruriliyini sübut edir, bundan savayı, həmin tələbin nəyə əsaslandığına ətraflı izah verir. O, hökmdarın ordunun əməliyyat rəhbərliyi məsələlərinə müdaxiləsinin onun üçün doğura biləcəyi fəlakətlərdən açıq danışır. O, üç belə fəlakət sadalayır: «O, (hökmdar-N.K.) ordunun irəli deməli olmadığını bilməyib, ona irəli getməyi, ordunun geri çəkilməli olmadığını bilməyib ona geri çəkilməyi əmr edirsə, bu o deməkdir ki, ordunun əl-qolunu bağlayır. O, ordunun nə olduğunu bilməyərək dövlətin idarə olunduğu başlanğıcları ordunun idarə olunmasına sirayət etdirirsə, onda orduda komandirlər çaşqınlıq içində olurlar. O, ordunun taktikasının nə olduğunu bilməyərək, sərkərdənin təyinatı zamanı, dövlətdə mövcud olan başlanğıcları rəhbər tutursa, onda komandirlər çaxnaşma içində olur».

Tay-qun «Lyu tao» da deyir: ***«Dövləti xaricdən idarə etmək, orduya isə mərkəzdən, yəni saraydan komandanlıq etmək olmaz».*** *Üç fəlakətdən birinə dair qeydlərində Du Yu bu sözləri xatırlayır və əlavə edir: «Hökmdar ordunun durumunu və vəziyyətini bilmir, amma öz sarayından ona rəhbərlik etmək istəyir».*

Çjan Yuy qeyd edir: «Hücum və geri çəkilməyə saraydan rəhbərlik edərkən, uğur əldə etmək çətindir».

Aydındır ki, o zamanlar hesab edirdilər ki, döyüş şəraitindən, ordudan kənarda qərar tutan hökmdar nə vaxt hücum etmək, nə vaxt isə geri çəkilmək lazım olub-olmadığını bilməyir və bilə də bilməz. Odur ki, onun əmrləri əsaslandırılmış və düzgün ola bilməz.

Sun-tszı deyir ki, ordunun bütün əməliyyatlarının saraydan gələn əmrdən asılılığı sərkərdəni onun üçün zəruri olan əməliyyat azadlığından məhrum edərək «ordunun əl-qolunu bağlayır».

Çin feodal tarixçiləri bu fikri bölüşərək olduqca kinayəli və xoşagəlməyən ifadələrdə xatırlayırdılar ki, Nanbey-çao dövrünün hökmdarları olan Sun hakimi Ven-di və Lyan hakimi U-di şimallılarla müharibə vaxtı nəinki ordunun bütün hərəkətlərinə öz saraylarından rəhbərlik edir, hətta döyüşün gününü və saatını təyin edirdilər.

Hökmdarın ordu üçün ikinci fəlakət doğuran hərəkətlərini Sun-tszı belə müəyyənləşdirir: «Hökmdar ordunun nə olduğunu bilməyərək dövlətin idarə olunduğu başlanğıcları ordunun idarə olunmasına sirayət etdirirsə, ordunun əsgərləri çaşqınlıq içində olur».

Sun-tszının sözlərinin bu cür tərcüməsi ona daha yaxın olan şərhçilərin təfsirinin ruhunu ehtiva edir. Tsao-qun «Sıma fa»nın yuxarıda qeyd olunan sözlərindən sitat gətirir: «Ordu dövlətin, dövlət isə ordunun çərçivələrinə sığmır». Və əlavə edir: «Ordunu mülki qanunlarla idarə etmək olmaz». Nəticə etibarilə, Tsao-qun dövlətin idarəçiliyinə tətbiq olunan metodların ordu idarəçiliyinə sirayət etdirilməsinin düzgün olmaması barədə nöqteyi-nəzərini göstərir.

Xe bu barədə deyir: «Dövlət və ordu xarakter etibarilə müxtəlifdir və onların idarə olunması xüsusi keyfiyyətləri ehtiva edir. Odur ki, dövlətin idarə olunduğu qanunları ordunun idarəçiliyinə tətbiq etmək istəsələr, ordu dağılma halına gələr».

Du Mu bu müddəanı tamlığı ilə açıqlayır: «Dövlət idarəçiliyində ən əsası-qanun və ədalət; orduda ən vacibi-taktiki fənd və hərbi hiyləgərlikdir».

Onların vəziyyəti (dövlətin və ordunun– N.K.) müxtəlifdir, təlim və tərbiyəsi eyni deyil və əgər hökmdar bu xüsusiyətləri dərk etməyərək dövlətlə ordunun idarəçiliyini birləşdirməklə xalqı da həmin cür idarə edərsə, ordunun əsgərləri arasına çaxnaşma düşər, onlar necə hərəkət etməyi bilməzlər. Ona görə də «Müharibə kitabı» nda deyilir: «Dövlətdə həqiqəti, orduda aldatma (yalan) ilə hərəkət edirlər».

Çjan Yuy da həmin səpkidə fikrini bildirir: «Humanizm və ədalət əsasında dövləti idarə etmək olar, ordunu isə idarə etmək olmaz. Taktiki fəndlər və dəyişikliklər əsasında ordunu idarə etmək olar, dövləti idarə etmək olmaz. Qanun belədir».

Zənnimizcə, Sun-tszının fikrinin düzgün təfsirini verən şərhçilərin bu qeydləri o dövrün siyasi fəlsəfəsinin yeni və vacib tərəfini aşkara çıxarır. Onlardan o dövrdə biz dövlət və ordu təsisatlarının ayrılması barədə bilgilər əldə edirik. Göründüyü kimi, bu nöqteyi-nəzərin Çin ictimai fikri üçün səciyyəvi olan insan cəmiyyətinin həyatında iki başlanğıcın-mülki və hərbi başlanğıcın sonrakı qarşılaşdırılması ilə əlaqədə özünə yer tapması gərəkdir.

Hesab olunurdu ki, onların uyğunlaşdırılması və qarşılıqlı təsiri bu cəmiyyətin tam dəyərliliyini təşkil edir. Məhz bu tamdəyərliliyin alınması üçün bu iki başlanğıcın bir - birinə nə tamamilə, nə də qismən qovuşması deyil, həmişə əksliklər kimi qalması zəruridir. Başqa sözlə desək, burada qədim çinlilərin bütün dünyagörüşü üçün səciyyəvi olan hər yerdə, bir-birinə zidd başlanğıcları tapmaq və onların qarşılıqlı təsirində fiziki və ictimai həyat təzahürlərinin əsas məzmununu görmək meyli özünü büruzə verir. Ordu və dövlət insan cəmiyyəti həyatında bu iki bir-birinə zidd başlanğıcın təcəssümü və timsalıdır, nəticə etibarilə, hər ikisi özünə məxsusdur. Odur ki, onların qarışdırılması təbiətlərinə və funksiyalarına ziddir.

Sun-tszının ifadə etdiyi kimi, onları qarışdırmaq ordunun nə olduğunu bilməməkdir. Odur ki, bu cür qarışdırmanın sonucu həm hərbi, həm də mülki başlanğıcın düzgün və təbii inkişafının, həm

ordunun, həm də dövlətin düzgün fəaliyyət göstərməsinin pozulması olacaq. Çox güman ki, Sun-tszının qısa sözləri də məhz bundan bəhs edir.

Sun-tszı hökmdarın hərəkətləri ilə şərtlənən ordu üçün üçüncü fəlakəti belə müəyyənləşdirir: «O, ordu taktikasının nə olduğunu bilməyərək dövlətdə olduğu kimi sərkərdənin təyinatında da eyni cür başlanğıcları rəhbər tutursa, orduda komandirlər çaşqınlıq içində qalır».

Bu cür tərcümə «Sun-tszı» nın daha çox nüfuzlu Çin şərhçilərinin fikirlərini ehtiva edir. Du Yu Tsao qunun dəst-xəttinə uyğun olaraq Sun-tszının fikrini bu cür izah edir: «Söhbət lazımlı adamın tapılmamasından gedir. Hökmdar sərkərdəni təyin edəndə yüz ölçüb bir biçməlidir. Sərkərdə taktiki fəndləri və dəyişiklikləri dərk etmirsə, o, tutduğu mövqeyə uyğun ola bilməz». Xe də bu cür yozum verir: «Əgər müharibənin taktika və strategiyasını bilməyən adamı sərkərdə təyin etsən, ordu intizamsızlıq, komandirlər isə çaxnaşma içində olacaq».

Sun-tszının konsepsiyasına görə, orduya rəhbərliyə hökmdarın müdaxiləsi nəticəsində orada təlaş və çaşqınlıq meydana çıxır. Elə ki, orduda çaşqınlıq və təlaş meydana çıxır, «qonşu knyazlardan «bəlalar» gəlir»- deyə, Sun-tszı söyləyir. Başqa sözlə, zəifləmiş ordusu olan ölkəyə qonşu dövlətlər hücum çəkirlər.

Sun-tszı fikrini belə yekunlaşdırır: «Bu o deməkdir ki, «özün öz ordunu dağılma həddinə gətirib qələbəni düşmənə verəsən».

Çin ədəbiyyatında ilk dəfə olaraq Sun-tszı tərəfindən irəli sürülmüş, sonra isə bütün nüfuzlu hərbi yazıçılar tərəfindən inkişaf etdirilmiş bu baxışa baxmayaraq, Çinin, Yaponiyanın hərb təcrübəsi hökmdarların tez-tez bu qayda ilə hesablaşmadıqlarını göstərir.

Hətta hökmdar tərəfindən sərkərdənin hərəkətlərinə hər hansı müdaxiləni belə qətiyyətlə inkar edən Sun-tszı nə etməyi təklif edir? Bu fəsildə o, bu barədə heç bir göstəriş vermir, lakin VIII fəsildə əmrə tabe olmamağı tövsiyə edir: «Hökmdarın elə hökmləri olur ki, icra olunmur». Orada hansı hallarda, hansı hökmlərin icra olunmadığını izah etməsə də, burada o, elə bu barədə danışır. Beləliklə, traktatın hər iki yeri bir-birini tamamlayır.

Sərkərdəyə özü üçün belə mütləq sərbəstlik tələb etmək hüququnu nə verir? Sun-tszının bütün bu fəsli həmin suala aydın cavab verir: «istedad və bilik». Ordu bu iki keyfiyyətə malik şəxsin ixtiyarında olur.

Sun-tszı yuxarıda qələbənin öüzünün beş şərtini sadalayaraq demişdir: «Sərkərdəsi istedadlı və hökmdar tərəfindən idarə olunmayanlar qələbə çalırlar. Sərkərdə bacarıqlı olmalıdır. Bu nə deməkdir?».

Sun-tszının bütün əvvəlki mühakimələrinə cavab daha çox traktatın iki yerində verilir: I fəsildə sərkərdənin keyfiyyətlərinin, hazırki III fəsildə qələbə şərtlərinə dair göstərişlərin sadalanması.

Sərkərdə ağıla, qərəzsizliyə , humanizmə, igidliyə, ciddiyyətə malik olmalıdır; bu onun şəxsiyyətinə verilən tələblərdir. Sərkərdə nə zaman döyüşüb-döyüşməmək lazım olduğunu, orduda əhval-ruhiyyə ümumiliyinə necə nail olmağı, necə ehtiyatla hərəkət etməyi bilməlidir; bu onun biliyinə və sənətinə verilən tələblərdir.

Sun-tszı hesab edir ki, əgər o bu iki növ tələblər üzrə qənaətbəxş fəaliyyət göstərirsə, onda orduya rəhbərlikdə və müharibənin aparılmasında sərbəstliyə iddia etmək hüququna malikdir.

Sun-tszıya görə, sərkərdəyə onun biliyinin belə mövqe qazanmaq hüququ verdiyinin əsas olduğunu görmək çətin deyildir. Təkcə bu III fəsli oxumaq kifayət edər ki, «kim bilirsə» və bənzər ifadələrə daim rast gələsən. Qələbənin beş şərtini sadalayaraq, o həmişə təkrar edir: «Kim bilirsə, qələbə çalır». Sərkərdə biliyə malik olmaqla «qələbə çalacağını bilir».

Lakin Sun-tszı hər biliyi müdafiə etmir. Onun biliyi mükəmməl olmalıdır, o, yarımçıq bilikləri yolverilməz sayır; belə yarımçıqlıq yalnız bəlalar vəd edir. Bu fikir hərb işinə əlavədə aşağıdakı kimi ifadə olunub.

«Əgər onu (rəqibi-N.K.) və özünü tanıyırsansa, lap 100 dəfə döyüş, qorxusu yoxdur; əgər özünü tanıyır, onu tanımırsansa, bir dəfə qələbə qazanıb, o biri dəfə məğlubiyyətə uğrayacaqsan; əgər nə onu, nə də özünü tanımırsansa, hər dəfə döyüşdə məğlub olacaqsan».

Beləliklə, tam bilik-şəksiz qələbə; yarımçıq bilik-səbatsızlıq, qələbənin, həm də məğlubiyyətin mümkünlüyü; biliksizlik-şəksiz məğlubiyyətdir. Sun-tszının doktrinası bundan ibarətdir.

Sərkərdə biliyə malik olmalıdır. Bu Sun-tszının I fəsildə sərkərdə üçün zəruri olan keyfiyyətlər sırasında birinci yerə çıxardığı-ağıllı ehtiva edir. Odur ki, «dövlət üçün sərkərdə-elə bil ki, araba üçün dayaq deməkdir: əgər bu dayaq sıx bərkidilibsə, sözsüz ki, dövlət güclü olacaq, dayaq aralanıbsa, dövlət şəksiz ki, zəif olacaq» - dövlət üçün ağıllı sərkərdənin əhəmiyyəti bundan ibarətdir.

Sun-tszı kimi sərkərdə üçün tam əməliyyat sərbəstliyi tələb edən Vey Lyao-tszı fikrini Sun-tszıdan daha az dəqiq və konkret şəkildə, lakin daha obrazlı ifadə edir.

«Sərkərdə səmadan, aşağıda torpaqdan, ortada insandan asılı deyil. Müharibə-bədbəxtlik adətidir, mübarizə-xeyirxahlığa ziddir, sərkərdə– ölümün baiskarıdır. Ona görə də, əgər o, müharibə aparırsa, bu labüddürsə, başının üstündə səma, ondan aşağıda torpaq, arxasında hakim, önündə rəqib yoxdur. Bu insanın qoşunu canavara, pələngə, küləyə, yağışa, ildırıma, şimşəyə bənzəyir. O sarsıdır, anlaşılmazdır...və aləmi təlatümə gətirir» («Vey Lyao-tszı», VIII fəsil, səh.28).

IV fəsil

Forma

Sun-tszı iki vəziyyəti ayırd edir. Biri– düşmənin mənə qələbə çalmağı bacarmadığı, o biri mənim düşməni məğlub edə bilmədiyim məqamdır. Bu iki vəziyyət onun tərəfindən qələbənin və məğlubiyyətin, daha sonra isə hücum və müdafiənin mahiyyətini müəyyənləşdirmək üçün əsas çıxış nöqtəsi kimi qəbul olunur.

Sun-tszı bu iki vəziyyəti sıx qarşılıqlı əlaqədə nəzərdən keçirir: onlar bir-birindən ayrılmazdırlar, onlar eyni təzahürün iki cəhəti, iki nöqteyi-nəzərdən müzakirə olunan eyni vəziyyətidir.

«Qədimdə yaxşı döyüşən şəxs hər şeydən əvvəl özünü məğlubedilməz edir və həmin vəziyyətdə nə zaman qalib gələ biləcəyini gözləyirdi». Həmin sözlərin konkret mənasını şərhçi Du Yu belə açıqlayır:

«Əvvəlcə hərbi şurada məşvərət keçirir, kampaniyanın çətinliklərini və təhlükələrini müzakirə edir və bundan sonra hündür istehkamlar inşa olunur, dərin qazmalar qazılır, əsgərlərə təlim keçirdilər». Beləliklə, döyüşən tərəfin vəziyyəti özünü rəqib üçün tam əlçatmaz etməklə bağlı sayğılar və eyni zamanda, ilk dəfə rəqibdə hər hansı nöqsan və zəiflik əlamətini aşkara çıxararkən öz zəifliyini, məğlubedilməzliyini rəqib üzərində qələbəyə çevirməyə imkan verən ayıq-sayıq müşahidə ilə səciyyələnir. Bununla əlaqədar, Sun-tszı deyir: «Məğlubedilməzlik sənin özündə, qələbə imkanı isə rəqibdə olur». Du Yu bu sözləri belə izah edir:

«Yalnız rəqibin zəif yerlərini görərək ona qalib gəlmək olar». Başqa sözlə desək, öz əlçatmazlığın sənin özündən, rəqib üzərində qələbən isə ondan asılıdır.

Sun-tszı sözlərinə davam edərək deyir ki, ona görə də yaxşı döyüşən özünü məğlubedilməz edə bilər, lakin düşməni onun üzərində qələbə çalmağa imkan verməyə məcbur edə bilməz».

«Əgər düşməndə nəyi isə sezmək mümkün deyilsə, onun zəif məntəqələrindən istifadə etmək olmursa, mənim əlimdə, hətta qələbə üçün hər şey olsa belə, mən düşmən üzərində necə qələbə çala bilərəm?»- deyə, Du Mu şərh verir. Tsza Lin fikrini daha dəqiq ifadə edir: «Əgər düşmənin ağıllı strategiyası varsa, o tam hazırlıq vəziyyətindədirsə, onu zorla bu cür hazırlıq görməməyə vadar etmək olmaz».

Deməli, rəqib üzərində qələbə üçün bütün əlamətlər ola bilər, lakin bu xidmətlərin gerçəkləşdirilməsi rəqibin vəziyyətindən və davranışından, onda hər hansı zəif yerlərin aşkara çıxarılmasından asılıdır.

Sun-tszı bizə məlum olmayan mənbədən sitat gətirir: «qələbəni bilmək olar, onu təmin etmək olmaz». Çjan Yuy bu cür şərh verir: «Özün tam hazırlıq vəziyyətindəsənsə, qələbəni bilmək olar, əgər düşmən də bu cür hazır vəziyyətdədirsə, onu əldə etmək olmaz».

Beləliklə, Sun-tszının fikri belə bir qənaətə gəlməyə əsas verir ki, potensial qələbə sənin əlindədi, rəqib üzərində real qələbə isə onun vəziyyətindən asılıdır. Rəqib tam silahlanmış vəziyyətdə ola bilər, qələbə üçün lazım olan hər bir nəsnəyə malik ola bilər və onda qələbənin kimin tərəfində olacağı naməlum qalır. Lakin səndə qələbə üçün lazım olan hər şey varsa, düşməndə isə yoxdursa, onda həqiqətən qələbə çalmaq olar. Odur ki, mənim qələbə imkanım özümdən, qələbənin özü isə rəqibdən asılıdır.

Bu cür dəst-xətt, ümumiyyətlə, Sun-tszının baxışları üçün olduqca əhəmiyyətlidir. O, daim hər hansı təzahürü təcrid olunmuş halda deyil, onunla uzlaşan digər təzahürlə əlaqədə nəzərdən keçirir. Elə buradaca qələbədən danışarkən, o, qələbə anlayışının özünü düşmənin məğlubiyyəti ilə əlaqədə götürür, gücdən danışarkən, o, bu qüvvəni rəqibin zəifliyi ilə tənasübdə: bu iki təzahürü uzlaşdırılmış şəkildə nəzərdən keçirir. Qələbə imkanı yalnız rəqibin özü mənim qələbə şanslarım üçün imkan yaradarsa, real qələbəyə çevrilə bilər.

Qələbənin və məğlubiyyətin təbiəti barədə qeydlərdən sonra Sun-tszı strategiyanın növbəti ünsürlərinin-hücum və müdafiənin izahına keçir.

Həmin iki ünsürü o, qələbə və məğlubiyyət anlayışlarında olduğu kimi elə o müddəalardan irəli gələrək izah edir. Ən əvvəldə o, iki başlanğıc vəziyyəti təsbit edir: düşmənin mənə qələbə çala bilmədiyi, yəni tərcümədə «məğlubedilməzlik» sözü ilə ifadə olunmuş vəziyyət, mənim rəqibə qalib gələ biləcəyim, tərcümədə «qələbə imkanı» kimi mənalandırılan vəziyyət.

Sun-tszının fikrincə, birinci vəziyyət-müdafiə, ikinci-hücum vəziyyətidir.

Bu formada ən vacib məqam ondan ibarətdir ki, Sun-tszı müdafiə vəziyyətini mənim düşmən üzərində qələbə çalmaq imkanımın olmaması ilə deyil, əksinə-düşmənin mənə qələbə çalmağının qeyri-mümkün olması ilə izah edir. Nəticə etibarilə müdafiə vəziyyəti bir tərəfdən məlum zəifliyin sübutudursa, digər tərəfdən müəyyən gücün təzahürüdür. Müdafiə anlayışının özünün mahiyyəti həmin gücdən xəbər verir: müdafiə olunmaq-uğurla qorunmaq deməkdir: səmərəsiz müdafiə deyil.

Hücum da eynilədir. Sun-tszı onu mənim rəqib üzərində qələbə qazana biləcəyim vəziyyət ilə izah edir. Bu gücün sübutudur, eyni zamanda, Sun-tszının yuxarıda göstərdiyi kimi, real «qələbə rəqiblə bağlıdır», nəticə etibarilə, qələbə imkanı həm də rəqibdən məlum asılılıq, yəni hər hansı zəiflik ünsüründən xəbər verir.

Beləliklə, Sun-tszının nöqteyi-nəzərinə görə, müdafiəni təkcə zəiflik, hücumu isə güc əlaməti hesab etmək tamamilə yanlışdır.

Mahiyyət etibarilə, onda da, digərlərində də həm güc, həm də zəiflik vardır.

Hücum və müdafiənin daxili təbiətinin bu cür anlaşılması «nədəsə çatışmazlıq varsa, onda müdafiə olunurlar: bolluq varsa, onda hücum edirsən» sözlərində sonrakı inkişafını tapır.

Şübhəsiz ki, müdafiə müəyyən qədər zəifliyin nəticəsidir. Məhz bu barədə Sun-tszı «nə isə çatmır» sözlərini söyləyir. Lakin bu zəiflik-sadəcə öz zəifliyimiz deyil. Düşməndə mənim üçün müdafiədən hücuma keçməyi mümkün edən nə isə çatmır. Rəqibdə zəiflik yetərincə deyil. Və ya əksinə, hücum gücün nəticəsidir. Məhz bu Sun-tszının «hər şeydən boldur» sözlərində ifadəsini tapır. Lakin bu güc yalnız öz gücümüz deyil. Rəqib mənim üçün bolluca qələbə imkanları açmışdır, yəni mənim üçün müdafiədən hücuma keçməyi mümkün edən vəziyyət əmələ gəlmişdir. Düşmənin yetərincə zəif məntəqələri vardır.

Beləliklə, Sun-tszının fikrini anlamaq üçün onun «çatışmazlıq» ifadəsini yalnız öz zəifliynin anlamı, «bolluq» ifadəsini yalnız öz gücünün anlamı kimi dərk etməkdən çəkinmək gərəkdir.

Sun-tszının həmin sözlərinin düzgün anlaşılması Çjan Yuyun qeydlərində əksini tapmışdır. O, yazır: «Məni müdafiə vəziyyəti tutmağa sövq edən qələbə yolunda nə isə çatışmazlığın mövcudluğudur. Odur ki, mən rəqibi izləyərək gözləyirəm. Məni hücuma əl atmağa sövq edən rəqib üzərində qələbə üçün hər şeyin yetərincə olmasıdır. Ona görə də mən irəli və ona hücum edirəm. Sun-tszı labüd qələbə olmadan savaşmamaqdan, hər şeydə tamlıq olmadan döyüşə girməməkdən bəhs edir. Sonrakı dövrün insanları isə «çatışmazlığı zəiflik, «bolluğu» isə güc kimi anlamışlar. Bu yanlışdır».

Çjan Yuy deyir: «Odur ki, mən rəqibi izləyərək gözləyirəm». Bu o deməkdir ki, mənə aid heç nə qalmayıb; mənim hər bir şeyim var; məndə çatışmayan cəhət özümdə deyil, rəqibdədir.

Odur ki, onu izləyərək gözləmək qalır. O, mənə qələbə üçün yetərincə hər bir şansı verdiyi üçün «mən irəli çıxır və hücuma keçirəm».

Müdafiə və hücum kimi hərəktlərdə gücün və zəifliyin doğru tənasübü bundan ibarətdir.

Hərb sənəti üzrə bütün sonrakı ədəbiyyatlardan məzmun etibarilə və mənəvi cəhətdən Sun-tszıya ən yaxını Li Vey-qunun «Dialoq»larıdır. Orada gətirilmiş əksər mühakimələr Sun-tszının hər hansı müddəalarından irəli gəlir və onların məzmununu açır. Bu «Dialoq»larda Sun-tszının hücum və müdafiə barədə fikirlərinə diqqət göstərilir.

«Tay-tszun demişdir: hücum və müdafiə mahiyyət etibarilə eynidir, elə deyilmi? Sun-tszı (VI fəsildə, N.K.) deyir: «Hücum etməyi bacarırsansa, rəqib harada müdafiə olunmağı, müdafiə olunmağı bacarırsansa rəqib harada hücum edəcəyini bilmir. Lakin o, düşmənin mənə və mənim onun üzərinə hücuma keçməyim və mənim də, rəqibin də müdafiə olunduğum haldan bəhs etmir. Başqa

sözlə desək, Sun-tszı hər iki tərəfin eynilə hücum və müdafiə olunduğu hala toxunmur. Bu cür şəraitdə necə hücuma keçmək olar?». Li Vey-qun cavab verir: əvvəlki dövrlərdə həm bir, həm də digər tərəfin eynilə hücum etdiyi və müdafiə olunduğu hallar az olmayıb. Adətən, deyirlər: «Nədə isə çatışmazlıq varsa, deməli müdafiə olunurlar, bolluq varsa onda hücum edirlər. İndi isə «nədə isə çatışmazlıq» var deyəndə bunu zəiflik, bolluğun mövcudluğunu isə güc kimi dərk edirlər. Bu ondan irəli gəlir ki, hücum və müdafiə qanununu dərk etmirlər».

Li Vey-qunun bu sözlərinin mənasını Lyu İn açıqlayır. «Əvvəlki dövrlərdə hər iki tərəfin eynilə hücum və müdafiə apardığı hallar az olmayıb». O zaman deyirdilər: əgər müdafiə olunurlarsa, deməli nədə isə çatışmazlıq var, bu hələ «gücün zəif olduğu» demək deyil. Bu o deməkdir ki, rəqibdə ona qələbə çalmağa lazım olan yoxdur. O zaman deyirdilər: «Əgər hücum edirlərsə, deməli hər şey boldur, bu hələ «gücün çox» olduğu demək deyil. Bu o deməkdir ki, rəqibdə ona qələbə çalmaq üçün istifadə oluna biləcək nöqsan vardır».

Li Vey-qun sözlərinə davam edərək deyir: «Mən güman edirəm ki, Sun-tszı «məğlubedilməzlik qələbə; qələbə imkanı hücum deməkdir» söyləyəndə aşağıdakılardan söhbət açır: hələ rəqibə qalib gəlmək mümkün olmayanda, mən müəyyən vaxt üçün müdafiəyə keçirəm; ona qələbə çalmaq mümkün olacağı məqamı gözləyib hücuma keçirəm. Sun-tszı «güc» və «zəiflik» sözlərini işlətmir. Sonralar insanlar bu sözlərin mənasını anlamır, müdafiə olunmaq lazım olanda hücuma keçir, hücuma keçmək lazım olanda müdafiə olunurdular. Həmin iki hərəkət onlar üçün müxtəliflik kəsb etmişdi. Odur ki, onlar ondakı eyni qanunu görə bilmirlər.

Tay-tszun deyir: tamamilə doğrudur «çatışmazlıq» və «bolluq» sözləri sonrakı dövr insanlarında söhbətin zəiflik və güc barədə getdiyi şəklində yanlış təsəvvür doğururdu. Xüsusilə, onu anlamırdılar ki, müdafiə qanunu mahiyyət etibarilə, düşmənə çatışmazlığın mövcudluğunu, hücum qanunu isə mahiyyət etibarilə, rəqibə nəyin isə bolluğunu nəzərə çarpdırmaqdan ibarətdir. Rəqibə nəyin isə çatışmazlığını göstərsən, o hökmən hücuma keçəcəkdir. Bu isə o deməkdir ki, «rəqib harada hücum etmək lazım olduğunu bilmir». Rəqibə nəyin isə bolluğunu göstərsən o hökmən müdafiəyə keçəcəkdir. Bu elə o deməkdir ki, «rəqib nə zaman müdafiə olunacağını bilmir». Hücum və müdafiə-bu eyni qanundur. Rəqib və mən «ayrılıqda biz iki ünsürü təşkil edirik. Əgər mən uğur əldə etmişəmsə o uğursuzluğa düçar olub, o uğur əldə edibsə. mən uğursuzluğa düçar olmuşam. Uğur və uğursuzluq, müvəffəqiyyət və müvəffəqiyyətsizlik-bunda biz bir-birimizdən fərqlənirik. Hücum və müdafiədə isə biz birik. Bu birliyi anlayan yüz dəfə döyüşüb qələbə çala bilər». Odur ki, Sun-tszı deyir: «Özünü və onu tanıyırsansa «yüz dəfə döyüşsən də qorxusu yoxdur». Həmin sözlərlə o məhz bu birlikdən bəhs etmirmi?

Li Vey-qun ehtiramla təzim edərək bu sualı cavablandırır: «Mükəmməlin qanunu dərindir. Hücum müdafiə mexanizmi, müdafiə hücum taktikasıdır. Onlar eynilə qələbəyə gətirib çıxarır. Əgər hücum edərkən müdafiə olunmağı və müdafiə olunarkən hücuma keçməyi bilmirsənsə, bu hücum və müdafiəni nəinki iki müxtəlif nəsnə hesab etmək deməkdir, həm də onları iki müxtəlif hərəkət kimi görməkdir. Belə insanlar sözdə Sun-tszı və U-tszıdan nə qədər danışsalar da, onların dərinliyini ağılla dərk etmirlər. Hücum və müdafiənin vahidliyi barədə təlim... Kim onlaya bilər ki, o məhz elə bundan ibarətdir?» («Li Vey-qun venduy», səh. 54-56).

Beləliklə, Li Vey-qunun «Dialoq» larında hücum və müdafiə təzahürlərinin özünəməxsus dialektik nisbəti açıqlanır. Hücum müdafiədən, müdafiə isə hücumdan qaynaqlanır. «Tay-tszun deyir ki, qanun birdir. Li Vey-qunun düsturu bu nisbətin tam xarakteristikasını verir. Sun-tszının xüsusilə bu yerdə öz fikirlərini ümumi düsturla ifadə etməsi onun şərhçilərinə müdafiə və hücumu geniş anlamda dərk etməyə imkan verir. Li Vey-qun yuxarıda xatırlanan «Dialoq»larda məsələni bu cür qoyur.

Tay-tszun demişdir: «Sıma fa» da (traktatdan-N.K.) deyilib:

«Dövlət böyük olsa da belə, müharibəni sevirsə o hökmən məhv olacaqdır». Əgər Kainatda rifah olsa da, müharibə haqqında unudurlarsa, hökmən təhlükə baş verəcəkdir. «Axı hücum və müdafiənin birliyi haqqında da belə deyilir?».

Li Vey-qun cavab verir: «Dövlət və öz evin mövcuddursa, hücum və müdafiə haqqında necə düşünməmək olar? Lakin hücum təkcə rəqibin qalalarının mühasirəsi, onun mövqelərinə hücum ilə məhdudlaşmır, onun ürəyinə də hücum etmək gərəkdir. Müdafiə yalnız divarların inşası və öz mövqelərinin möhkəmləndirilməsi ilə məhdudlaşmır; öz mənəviyyatını, (ruhunu) müdafiə etməli və lazımı anı gözləməlisən. Geniş anlamda bu, hökmdarın Yolu, dar anlamda isə sərkərdənin Qanunudur. Onun ürəyinə hücum etmək - «onu tanımaq» deməkdir; öz mənəviyyatını müdafiə etmək -bu «özünü tanımaq» deməkdir» (Li Vey-qun venduy, səh.56).

Beləliklə, Li Vey-quna görə, hücum və müdafiə anlayışları müharibənin təkcə maddi tərəfini deyil, həm də mənəvi tərəfini əhatə edir.

Hücum rəqibin «ürəyinə», yəni psixikasına qarşı həyata keçirilsə, öz «ruh»unu, yəni, mənəvi-siyasi vəziyyətini də qorumaq gərəkdir.

Bunun sayəsində həmin strategiya müharibə alətindən siyasət alətinə çevrilir, ordu sahəsindən dövlət sahəsinə, sərkərdənin əlindən hökmdarın əlinə keçir. Və bu strategiya Sun-tszının «onun», yəni rəqibin tanınması və «özünün tanınması adlandırdığı məqamdan qaynaqlanır.

«Yaxşı müdafiə olunan «cəhənnəmin dəriliklərində» gizlənir; yaxşı hücum edən səmanın ənginliklərindən hərəkət edir-deyə,

davam edən Sun-tszı bu dəfə obrazlara əl ataraq özünün hücum və müdafiə xarakteristikasını verir. «Cəhənnəmdə gizlənmək» -rəqibdən öz müdafiənin vəziyyətini gizlətmək; səmanın enginliklərindən hərəkət etmək-rəqibə qəflətən və ildırım sürəti ilə hücuma keçmək deməkdir. Müdafiə üzrə bütün tədbirlər rəqibdən gizlədildiyi halda, müdafiə səmərəlidir; rəqibin üzərinə engin səmadan ildırım çaxan kimi qəflətən və tez atıldıqda hücum öz səmərəsini verir.

Göründüyü kimi, bu ideya, ümumiyyətlə, qədim Çin strateqləri arasında dövriyyədə olmuşdur. Belə ki, məsələn, Vey Lyao-tszının traktatında tamamilə eyni səpkili yer var: «Orduya rəhbərlik edən kəs sanki torpaq altında gizlənir, göyün yeddinci qatına çıxır»

(II fəsil, səh 3).

Sun-tszının bu sözlərinin əvvəlkilərlə əlaqəsini sezməmək çətin deyil. Müdafiə vəziyyəti nədir? Bu rəqibin mənim üzərində qələbə qazana bilmədiyim vəziyyətdir. Bu fəslin lap əvvəlində Sun-tszı belə şərh verir. Rəqib üçün mənə qalib gələ bilməyin qeyri-mümkün olması nə ilə əlaqədardır? Mən «cəhənnəmin dərinliklərində» ola biləcəyim halda barəmdə nə isə öyrənməyin tam qeyri-mümkün olması isə-«Cəhənnəmin dərinliyi» metaforası öz müdafiənin, yəni öz məğlubedilməzliyinin gücünün və tamlığının izahıdır. Hücum nə deməkdir? Bu, mənim rəqibə qalib gələ biləcəyim vəziyyətdir. Sun-tszı həmin durumu belə izah edir.

Qələbə imkanı nə ilə əlaqədardır? Düşməndə gözlənilən nöqsanın üzə çıxması ilə. Bu nöqsanın meydana çıxmasını gözləyib engin səmadan hərəkət edirmiş kimi gözlənilməz və dəfolunmaz zərbə vurular. Bu metafora zərbənin gözlənilməzliyinin, sürətliliyinin və dəfolunmazlığının izahıdır.

Bu bölmə hücum və müdafiənin nisbətinin dəqiq düstur şəklində ifadə olunduğu sözlərlə bitir: «Özünü qoruyub saxlamağı bacarır və eyni zamanda, tam qələbə qazanırlar». «Özünün qorunub saxlanması-müdafiənin səmərəliliyinin nəticəsidir, yəni sözün həqiqi mənasında müdafiədir».

«Tam qələbə» qalibiyyətli hücumun nəticəsidir, yəni sözün həqiqi mənasında hücumdur. Və Sun-tszı bəyan edir: səmərəli müdafiə ilə qalibiyyətli hücumun nəticəsi eynidir.

Sun-tszı deyir:

«Qələbəni digərlərindən artıq görə bilməyən kəs yaxşıların yaxşısı deyil. Onun bu sözləri ilk növbədə, ondan xəbər verir ki, sərkərdə qələbəni başqa insanlardan artıq görməli, yəni başqalarının görə bilmədikləri halda qələbəni sezməyi bacarmalıdır. Yalnız o halda, o, «yaxşıların yaxşısı» adlandırıla bilər». Çox güman ki, Sun-tszı məhz Kutuzovu belə sərkərdə adlandırardı. Çünki o, Borodino döyüşünü digərləri üçün açıq-aşkar olmadığı və bunun faktlarla uzlaşmadığı halda, döyüş ardınca geri çəkilmək, hətta ölkənin qədim paytaxtının təslim olunması qarşısında dayanmayaraq qələbə

olduğunu bəyan etmişdir. Təkcə Kutuzov bunun qələbə olacağında təkid edir və haqlı çıxır.

Lakin bu hələ Sun-tszının sözügedən ibarəsinin tam mənasını ehtiva etmir. Traktatın ruhunu (məğzini) yaxşı dərk edən şərhçilər yazırlar: «Nə ki, artıq mövcuddur, nə ki, aşkara çıxıb, bunu hamı bilir; mən isə hələ formaya malik olmayan, hələ əmələ gəlməməiş nəsnəni görürəm»- deyə, Sjan Yuy yazır. Tsao-qun bunu təkrar edir: «Hələ əmələ gəlməmiş şeyi görmək gərəkdir».

Bu şərhlər baxımından Sun-tszının fikri bir qədər başqa məzmun kəsb edir: sərkərdə qələbəni o mövcud olmadan öncə, o qazanılmamış sezməlidir. Məhz bu onu qələbəni ancaq o əldə olunmuşkən görən digər insanlardan fərqləndirir.

Sun-tszı bu fikri belə inkişaf etdirir: «Kimsə döyüşərək qələbə qazanacaq və aləmdə bunun «yaxşı» olduğunu deyəcəklərsə, yaxşıların yaxşısı olmayacaq».

Tsao-qun Tay-qun Vanın sözlərindən sitat gətirərək deyir: «Kim ki, silaha sarılaraq qələbəyə iddia edirsə hələ yaxşı sərkərdə deyil». Sjan Yuy isə bu fikrə əlavə edir: «Kim isə döyüşərək qələbə çalırsa, insanlar adətən buna «yaxşı» deyirlər. Bu-ağlın şöhrəti, igidliyin rəşadətidir. Odur ki, elə bu yaxşı deyil. Lakin görünməyəni görəndə, gizli qalana nüfuz edəndə, hər hansı formaya malik olmayan nəsnə üzərində qələbə çalanda, bax bu həqiqətən yaxşı olacaq!».

Beləliklə, qələbə heç kəs onun qazanıldığını düşünməyəndə qazanılır; əsl qələbə heç kəsin görmədiyi yerdədir; - o başqaları üçün hələ olmayan yerdədir; o mövcud olmaya-olmaya öz doğumu ilə dünyaya gəlir. Bu minvalla öz əvvəlki mülahizələrində ip ucu verən Sun-tszının həmin fikirlərinin yeni mənası açıqlanır: gerçəkləşən artıq gerçəkləşməyənin təməlinə qoyulub.

Əgər belədirsə, onda belə qənaətə gəlmək olar ki, sərkərdə qələbəni hələ onun olmadığı zaman görməyi bacarırsa və onu hamı üçün əyani formada, yəni döyüşdə qazanırsa, mahiyyət etibarilə bu o deməkdir ki, o, artıq örtülü mövcud olanı aşkara çıxarır. Bu mənada Sun-tszı deyir: «Qədimdə kimin isə yaxşı döyüşdüyünü deyirdilərsə, o, qalib gəlmək asan olduğu təqdirdə qalib gəlirdi».

Məsələn, Xan hökmdarı Lyu Ban hakimiyyət uğrunda mübarizədə qüdrətli rəqibi Syan Yuemə necə qalib gəlmişdi? Həqiqətən də, məşhur sərkərdə Xan Sin bu qələbəni asanlaşdırdıqdan sonra onu darmadağın etmişdi: o, bilirdi ki, Syan Yuy müxtəlif knyazlıqlar tərəfindən göstərilən dəstək ilə güclənib; odur ki, o, hər şeydən öncə Lyan Yuyun əlaltıları olan «üç Sin knyazını» itaətə gətirdi, Vey və Çjao knyazlıqlarını darmadağın etdi, Yan və Tsini məğlubiyyətə uğratdı. Bundan sonra ona Qaysya yaxınlığındakı döyüşdə (e.ə.202-ci ildə) Lyan Yuy ilə haqq-hesab çəkmək o qədər də çətin görünmürdü.

Belə olan təqdirdə kütlə və Sun-tszı kimi mütəfəkkir tərəfindən verilən qiymətdə tam fikir ayrılığı meydana çıxır: bu cür qələbə ən düzgün qələbə, məhz bu cür qələbələr qazanan sərkərdə «yaxşılardan yaxşısı olur».

Lakin «Kainat», yəni hamı başqa cür deyəcək: «Yüngül lələyi qaldırarkən bu böyük güc, Ayı və Günəşi görərkən bu iti görmə; göy gurultusunu eşidərkən bu həssas eşitmə hesab olunmur». Asan qələbəni qazanmağın nəyi çətindir? Odur ki, həmin sərkərdə nə ağlına, nə də ki, qəhrəmanlıqlarına görə məşhurlaşır. Sun-tszı bəyan edir ki, yaxşı döyüşən qələbə qazanırsa, o nə ağlın şöhrətinə, nə də ki, igidliyin rəşadətinə malik olur. «Düşmənə onun formaları hələ təşəkkül tapmamış qələbə çalanda parlaq qələbə olmur»-deyə Tsao-qun qeyd edir. Du Mu bu müddəanı bir qədər ətraflı inkişaf etdirir: «Sən rəqibə o hələ peyda olmamış qələbə çaldın. Kainatda (aləmdə) bunu bilmirlər, odur ki, səndə ağlın şöhrəti yoxdur. Sən öz qılıncını qana boyamamış düşmən dövlət artıq ram olunmuşdur. Ona görə də sənin igidliyin, rəşadətin yoxdur». «Yaxşılardan yaxşıların» ümumi qiyməti belədir.

Özünün bir qədər ziddiyyətli ifadə olunmuş fikirlərində Sun-tszı deyir ki, belə mahir sərkərdə qalib gələndə «o artıq məğlub olmuşa qalib gəlir». Və bunun nə üçün belə olduğunu izah edir: «O, döyüşəndə və qələbə qazananda (söhbət qədim dövrün ideal sərkərdəsindən gedir-N.K.) bu onun mülahizələrinə zidd deyildi. Onun mülahizələri ilə ziddiyyət təşkil etməmək-onun tərəfindən həyata keçirilən hər şeyi hökmən qələbə ilə sonuclandığı deməkdir». Çjan Yuy bu cür izah verir: «Onun döyüşərək öz mülahizələrində yanılmayacağının səbəbi ondan ibarətdir ki, o, rəqibdə hökmən məğlub olmağa əsas verən formanı görür və yalnız bundan sonra hərbi tədbirlər görərək qələbə qazanır».

Beləliklə, Sun-tszının qənaəti tamamilə aydındır. O, deyir: «Kim ki, yaxşı döyüşür, məğlubedilməzlik zəminində dayanır və rəqibin məğlubiyyətini nəzərdən qaçırmır».

Çjan Yuy aydınlaşdırır: «Öz qayda və əmrlərini əsaslı surətdə tərtib edib, ədalət ilə cəzalandırır və mükafalandırırsansa, öz qabiliyyətlərinə meydan verirsənsə, özündə döyüş ruhu və igidlik tərbiyə edirsənsə, bu o deməkdir ki, özün üçün məğlubedilməzlik zəminində dayanırsan. Əgər səndə hər şey qaydasındadırsa, rəqib özü məğlub olmağa hazır olacaq. Bu rəqibin məğlubiyyətini nəzərdən qaçırmamaq deməkdir.

Və nəhayət, bütün bu mühakimələrdən hasil olan forma etibarilə ziddiyyətli, tamamilə məntiqi qənaət: Bu səbəbdən qələbə çalmalı olan qoşun əvvəlcə qələbə çalır, sonra döyüş axtarır; məğlubiyyətə məhkum olunmuş qoşun əvvəlcə döyüşür, sonra isə qələbəni axtarır». Çjan Yuy həmin sözləri bu şəkildə ifadə edir: «İlk öncə müharibə planı ilə qələbə çalır və yalnız bundan sonra ordunu ayağa qaldırırlar». Odur ki, döyüşəndə qələbə qazanırlar. Xe qeyd

edir ki, başqa cür qələbə təmin olunmuş hesab edilə bilməz: «Müharibə apararkən əvvəlcə labüd qələbənin planını təsbit edir və yalnız sonra qoşun göndərirlər. Əgər bir gücə ümidvar olaraq planı əvvəlcədən tərtib etməyib qələbə barədə fikirləşirsənsə qələbə mütləq deyil». Beləliklə, ağıllı sərkərdə ilk öncə nəticəni qabaqcadan həll edərək döyüşə yalnız faktiki qələbəni əldə etdiyi təqdirdə girir. Sun-tszı burada da öz fikrinin adi axarından dönmür: Şərait, yəni hazırlıq və mülahizə, artıq sonuc, yəni qələbə deməkdir. O, bunu aşağıdakı sözlərlə bitirir: «Kim ki, müharibəni yaxşı aparır «Yolu» həyata keçirir və Qanuna riayət edir. Odur ki, o qələbə və məğlubiyyəti idarə edə bilər».

Şübhəsiz ki, özündən əvvəlki bütün mühakimələri ehtiva edən bu ibarə şərhçilər onu açıqlamayacağı təqdirdə anlaşılmaz qalardı. Tsao-qun bu yeri belə izah edir: «Müharibəni yaxşı aparan şəxs əvvəlcə özündə zəruri idarəetməni həyata keçirir, qanun və qaydalara əməl etməklə özünün məğlubedilməzlik yolunu icra edir, düşməni məğlub etmək fürsətini qaçırmır». Beləliklə, «Yolu həyata keçirmək» sözləri rəqibi mənə qalib gəlməyə imkan verməyən vəziyyətə nail olmaq üçün tədbirlərdən, «qanuna riayət etmək» rəqibə qələbə çalmağa imkan verən şərtlərin əldə olunması üçün tədbirlərdən xəbər verir.

Məğlubedilməzlik vəziyyətinə, yəni Sun-tszının təbirincə desək, «yolun» əldə olunması üçün hansı tədbirləri görmək lazımdır?

Təbiidir ki, ağıla gələn ilk şey traktatın I fəslində verilən «yol» sözünün anlamıdır. «Yol» sözü altında ordu və xalqı məğlubedilməz edən birliyi anlamaq gərək olduğunu hesab edən Soray elə bu cür hərəkət edir. Du Mu isə bu cür təfsir etmir. O, hesab edir ki, «yol-bu humanizm və ədalətdir»; humanizmi və ədaləti həyata keçirərkən özünü məğlubedilməz edirsən. Tsza Lin bunun «müharibədə qələbə yolu» olduğunu güman edir.

Çjan Yuy da bu cür düşünür. Digər məsələ üzrə də böyük fikir ayrılığı müşahidə olunur. Rəqib üzərində qələbə qazanmağa imkan verən vəziyyətə hansı tədbirlərlə nail olmaq olar, yəni Sun-tszı tərəfindən xatırlanan «qanun» konkret olaraq nədir? Soray burada «qanun» sözünü Sun-tszının I fəsildə izah etdiyi kimi anlamağı təklif edir: bu– hərbi düzülüş, komandanlıq, təchizatdır. Bütün bunların zəruri şəkildə təşkili rəqibə qalib gəlməyə imkan verir. Du Mu güman edir ki, «qanun» sözü altında, ümumiyyətlə, düzgün müharibənin qanunları nəzərdə tutulur. Onlara yiyələnməklə rəqib üzərində qələbə imkanı açan nöqsanı nəzərdən qaçırmamaq olar. Tsza-Lin hesab edir ki, «qanun-cəza və mükafatlara aid olan sərəncamlardır».

Çjan Yuy «qanun»un rəqibi dəf etmək vasitəsi olduğunu düşünür. Zənnimizcə, «yol» anlayışını hər şeydən düzgün Mey Yao-çen, «qanun» anlayışını isə Van Çje müəyyənləşdirir. Mey Yao-çen güman edir ki, «yol»- bu hücum və müdafiənin təbiətinin düzgün anlaşılması və müharibənin bu ikilikdə vəhdət təşkil edən vasitəsinin

düzgün tətbiqidir. Van Çje «qanun» altında Sun-tszının dərhal keçid aldığı «müharibə qanunları» nı başa düşür.

Beləliklə, bu ibarə əvvəlki bölümü başa çatdırır və yenisini açır. Bizə naməlum olan mənbə Sun-tszıdan sitat gətirərək «müharibə qanunları» na istinadən birinci vacib məqamın-uzunluq, ikincinin-həcm, üçüncünün say, dördüncünün çəki, beşincinin qələbə olduğundan bəhs edir. Məkan uzunluğu, uzunluq həcmi, həcm sayı, say çəkini, çəki qələbəni doğurur.

Bu qəribə kəlamı, zənnimizcə, aşağıdakı qaydada təfsir etmək lazımdır. Burada sadalanan ölçülər onların ölçüldüyü vahidlərin müqabilində işlədilmişdir. «Uzunluq»- bu uzunluq ölçüləri ilə ölçülür, yəni məsafədir. «Həcm» termini az anlaşılandır, burada onu daha geniş, həmin ieoroqlifə mənsub ölçü mənasında anlamaq lazımdır. Şərhçi Van Çje deyir: «Ölçü– bu kiçik və ya böyük ola bilər».

Uzaqlığı və yaxınlığı (yəni məsafəni) bilirsənsə, məkanın kiçik və ya böyük olduğunu (yəni ölçüsünü) ölçmək zəruridir. «Say» termini ilə say ilə ölçülən, yəni miqdar, sözü gedən halda-qoşunun sayı mənalandırılır. «Çəki» termini ilə yüngül və ağır anlayışı, yəni rəqibin və öz qüvvələrinin nisbəti mənalandırılır. Van Çje deyir: «Çəki-bu ağırlığın və yüngüllüyün müəyyənləşdirildiyi haldır; bu vəziyyətin güclü və ya zəif olduğuna şamil edilir». Göründüyü kimi, bu qədim kəlam şərhçilər üçün az anlaşılan olduğundan, onlar bunu öz təbirincə ifadə edirlər. Tsao-qun onun bir hissəsini öz təbirincə belə ifadə edir: «Uzaqlığı və yaxınlığı (yəni düşmən tərəfindən tutulan məkanın məsafəsini), genişliyi və sıxlığı (yəni məkanın ölçülərini) bilirsənsə, onda insanların sayını da bilirsən». Van Çje deyir: Əgər uzağı və yaxını (məsafəni) hesablaya bilir, kiçik və böyüyü (məkanın ölçülərini) müəyyənləşdirirsənsə, qüvvələrin sayını (miqdarını) təyin edib bunu rəqibdə olanla tutuşdura bilirsənsə, ağırın və yüngülün, yəni qüvvələr nisbətinin necə olacağını bilə bilərsən.

Du Mu deyir: «Əgər qüvvələr nisbəti mənim xeyrimə müəyyənləşdirilibsə, aydın görünür ki, mən qələbə çalacam, rəqib isə darmadağın olunacaq».

Beləliklə, bu kəlamın mənası aydın olur. Qələbə hazırlığına ardıcıl olaraq daxildir: 1) rəqibin harada, özündən hansı məsafədə yerləşdiyinin müəyyənləşdirilməsi; 2) məkanın, onun ölçü və konfiqurasiya anlamında tutduğu mövqenin müəyyənləşdirilməsi; 3) onun qüvvələri necədir; 4) hər iki tərəfin, yəni özünün və rəqibin qüvvələr nisbətinin nə cür olduğu; 5) Bütün bunların nəzərə alınması əsasında qələbəni necə təşkil etməli.

Beləliklə, bu kəlam qələbənin əsas amillərini sadalayır: coğrafi-ərazinin ölçüləri və məsafə, fiziki– silahlı qüvvələrin kəmiyyəti, özü də bu amillər mütləq məlumatlar əsasında deyil, tənasüblər, yəni özündə və rəqibdə olanın tutuşdurulması şəklində götürülür.

Bu nisbət sənin üçün əlverişli olanda, nəticədə qələbə alınır.

Lakin bu kəlamın mənası bununla məhdudlaşmır. Onun ikinci yarısı bu amillərin daxili asılılığını təsbit edir: «Məkan uzunluğu, uzunluq həcmi, həcm sayı, say çəkini, çəki qələbəni doğurur».

Başqa sözlə desək, məkanın ümumi xarakteri döyüş meydanındakı bütün məsafələri müəyyənləşdirir; məsafə amili artıq ərazinin ölçüsü amilini ehtiva edir.

Say ölçü ilə şərtlənir, qüvvələr nisbəti say, qələbə isə qüvvələr nisbəti ilə müəyyənləşir. Beləliklə, kəlamın birinci hissəsində sıra xətti ilə verilmiş ünsürlər ikinci hissədə inkişafını tapır.

Əgər Van Çjeyə əsaslanaraq Sun-tszı tərəfindən xatırlanan «qanun» un məhz burada təqdim edilmiş şəkildə strategiyanın beş ünsürü hesab etsək, bitkin konsepsiya alınır. Sun-tszı əvvəlcə öz mühakimələrini qələbə və məğlubiyyətin, hücum və müdafiənin təbiətinin aydınlaşdırılmasına həsr edir; bundan irəli gələrək o, sonra nəyi həqiqi qələbə hesab etmək gərək olduğunu təsbit edir; sərkərdənin özlüyündə qələbəni həmişə əlində tutması olduğu qeydi isə fikirlərinə yekun vurur. Təkcə onun buna necə nail olduğu izah olunmamış qalır. Və Sun-tszı cavab verir: hücum və müdafiə, strategiyanın beş başlıca ünsürü arasında qarşılıqlı münasibətlərin təbiətinin dərk olunması ilə.

Bu fəslin axırıncı kəlamlarında Sun-tszı öz əvvəlki mühakimələrinə yekun vurur. «Yaxşı döyüşən kimsə», yəni mahir sərkərdə özündən başqa heç kəsin görə bilməyəcəyi nəsnəni görür, zahirən heç bir qələbənin mövcud olmadığı qələbəni qazanmağı bacarır, özü də böyük rəşadət və şan-şöhrətsiz, az səy göstərməklə labüd qələbə qazanır, yəni qələbədən bütün faydaları əldə edir və müharibənin ziyanını azaldır. Bütün bunları o, ona görə edə bilir ki, müharibənin, onun beş ünsürünün həqiqi dərketməsinə yiyələnib, qısaca desək, müharibənin bütün mürəkkəbliyini anlayır. Əgər o, bunları bilmir və müvafiq hərəkət etmirsə, ümumiyyətlə, hər iki tərəfin şanslarını götür-qoy etmək və tutuşdurmaq mənasızdır. Bu rəqibin «qəpiklərinə» öz «manatlarını», rəqibdə «qəpiklər», özündə isə «manatlar» və rəqibin «manatları» əslində «qəpik» olacağı təqdirdə olduğu kimi cəfəngdir. «Odur ki, qələbə çalmalı olan qoşun manatları qəpiklərlə, məğlubiyyətə məhkum olunmuş qoşun isə sanki qəpikləri manatlarla hesablayır». Sonuncu ibarə yekun vurur: «Qələbə çalanın döyüşməsi üç min arşın hündürlükdən dərəyə tökülən suyun toplanmasına bənzəyir».

Bu kəlamın ən axırıncı sözündə və bununla birlikdə bütün fəsildə Sun-tszının traktatın həmin hissəsində həsr etdiyi mühakimələrin mövzusu ehtiva olunur. Və o onun doktrinasının xüsusi və özünəməxsus terminini əks etdirir. Bu söz– «forma»dır.

Əvvəlcə deyilmiş hər şey bu anlayışa gətirib çıxarır. Sonuncu ibarə bütöv tamın ümumi xülasəsidir: «Qələbə çalanın döyüşməsi üç min arşın hündürlükdən dərəyə tökülən suyun toplanmasına bənzəyir. Forma elə bundan ibarətdir». Müzəffər qoşunun sürətli və

sarsıdıcı gücünü şərtləndirən elə onun «forma» sıdır. Yuxarıda qeyd olunanlardan biz «forma» nın nə olduğunu görürük: bu-ordunun müharibə şəraitinə uyğun gələn vəziyyətidir.

«Forma» nın bu cür anlaşılmasına şərhçilər yaxşı açıqlayır.

Tsao-qun «forma» nı özünün və rəqibin əməl və hərəkətlərinin nisbəti, bir-birinin vəziyyətinə qarşılıqlı nüfuzetmə kimi nəzərdən keçirir. Çjan Yuy müdafiə və hücumun nisbəti kimi. Li Tsuan «forma» altında hücum və müdafiənin, mövqe, zaman və məkanın nisbətini başa düşür. Van Çje hesab edir ki, «forma»– hər iki tərəfin güc və zəifliyinin nisbətidir. Beləliklə, «forma»– bu döyüşən tərəflərdə əks olunan, onların vəziyyətində özünü büruzə verən müharibənin bütün ünsürlərinin nisbətidir.

Belə olan halda yeni müddəa meydana çıxır. Sun-tszı onu birbaşa deyil, obrazlarla ifadə edir. O, deyir: «Kim ki yaxşı müdafiə olunur, o, cəhənnəmin dərinliklərində gizlənir; kim ki yaxşı hücum edir, o, əngin səmalardan hərəkətə keçir».

Hələ bu məqamın izahı zamanı bizim tərəfimizdən qeyd olunmuşdu ki, bu sözlərdə sirr tələbi ehtiva olunub. Rəqibə heç nə, hər halda həqiqi heç nə göstərilməməlidir. Mənim müdafiəm «cəhənnəmin dərinliyindəyəm» kimi, hücumum «əngin səmalardayam» kimi gizli saxlanılmalıdır.

Kəsəsi, mənim durumum, mənim «formam» həmişə rəqibdən gizlədilməlidir və əksinə mən həmişə rəqibin durumunu, «forma»sını görməyə, bilməyə cəhd göstərməliyəm. Deməli, ideal vəziyyət o zaman alınır ki, rəqib üçün mənim «formam» yoxdur, mənim üçün isə həmişə rəqibin «forma» sı aydındır.

Şərhçilər də məsələni bu cür qoyurlar. Məsələn, Çjan Yuy deyir: «Forma» daxildən örtülü olanda, insanlar onu açа və öyrənə bilmir, o zahirdə təcəssüm edəndə, rəqib bu nöqsandan istifadə edir və irəli keçir».

Du Mu deyir: «Forma» ya görə vəziyyəti bilirlər. Kimin ki, «forma» sı yoxdur, o gizlənib; kimin ki, «forma» sı var, o açıqlanıb. Kim ki, gizlənib o qələbə çalır, açıqlanan məğlubiyyətə uğrayır.

Nəyə görə bütün fəsil «Forma» adlandırılıb? Ona görə ki, o məhz «forma» dan, ordunun vəziyyətindən bəhs edir. Sun-tszının təbirincə desək, bütün sonrakı qənaətlər üçün çıxış məntəqəsi qismində olan məğlubedilməzlik və qələbə çalmaq imkanları ilə «forma» nın, ordunun durumunun özüdür.

Lakin bu «forma», ordunun durumu müharibənin bütün ünsürlərinin mürəkkəb nisbətini əks etdirdiyindən, həmin «forma» nın özü «minlərlə və on minlərlə çevrilmələrə» məruz qalmalıdır. Daha sonra biz görürük ki, Sun-tszının fikrincə, bu mürəkkəb nisbəti dərk etmiş sərkərdə «qələbə və məğlubiyyəti» idarə edə bilər

Nəticə etibarilə, «forma» da onun əlindədir. Odur ki, Van Çje deyir: «Müharibəni yaxşı aparan kəs rəqibdən irəli gələrək bu

formanı dəyişikliklərə və çevrilmələrə məruz qoya və qələbəni təmin edə bilər».

V Fəsil
Qüdrət

Qələbə və məğlubiyyət, hücum və müdafiə kimi müharibə ünsürlərinin anlayışlarını təsbit edən Sun-tszı orduya, onun qüdrəti anlayışına keçir.

Onun müraciət etdiyi birinci müddəa təşkilatlanmış tam kimi orduya aiddir. Ordu məhz bu cür təşkilatlanmış tamı təcəssüm etdirəndə ordu olur. Lakin mütəşəkkilliyin özü ona rəhbərliyi nəzərdə tutur. Mütəşəkkillik olmadan rəhbərlik, rəhbərlik olmadan mütəşəkkillik mümkün deyil. Sun-tszı bu barədə belə deyir: «Kütlələri idarə etmək (yəni böyük ordunu– N.K.)-eynilə azlıqda olanları (yəni kiçik ordunu– N.K.), idarə etmək deməkdir; məsələ hissələrdə və saydadır» (yəni bölmələrdədir– N.K.).

Bölmə– hər hansı ordunun labüd ünsürüdür, onsuz o ordu deyil, adi amorf kütlə şəklində olardı. Lakin kütlə öz-özlüyündə iki əlamətin birləşməsidir: hər hansı tamın hissəsinin əlaməti və bu hissənin sayının əlaməti. Bu iki ünsür - hissə və say-bir-birindən ayrılmazdır.

Hərbi hissə müəyyən miqdar əlaməti olmadan hissə, eynilə də miqdar özünün daşıyıcısı-hissə olmadan mövcud deyil. Odur ki, Sun-tszı iki ünsürü-hissə və sayın mənasını bizim ümumi terminimiz «bölmə» adlandırır.

Lakin təzahürlər qrupunun eyniliyi onların hər birini öz funksiyasından məhrum etmir. Ona görə də həmin iki ünsürün ümumi birliyi planında hər biri barədə xüsusi danışmaq olar.

Çox güman ki, Sun-tszı dövrü Çin ordusunda Çjou çarlığının qüdrətinin çiçəkləndiyi zaman müəyyənləşdirilmiş az və ya çox dərəcədə sabit bölmələr sistemi qərarlaşmışdı. Birina (hissələr), ən kiçik vahid «beşlik»– taqım idi; beş taqım, yəni 25 nəfər bölüyü; dörd bölük, yəni 100 nəfər-batalyonu; beş batalyon, yəni 600 nəfər-briqadanı; beş briqada, yəni 2500 nəfər-diviziyanı; beş diviziya, yəni 12500 nəfər ordunu (bax: 11 fəsil 1-ci qeyd, habelə Li Vey-qunun «Dialoq» ları, I hissə, səh.17, şərh) təşkil edirdi.

Bu hissələr piyada qoşunlarına, yəni ən çoxsaylı qoşun növünə aid idi. Kavaleriyada digər hissələr sistemi mövcud idi. Onda ən kiçik vahid dəstə-beş atlıdan ibarət qrup idi; iki dəstə, yəni 10 atlı bölməni; 10 bölmə, yəni 100 atlı-eskadronu; iki eskadron, yəni 200 atlı– kavaleriya alayını təşkil edirdi. Piyadalar cəng arabaları ilə birləşdirildiyindən, piyada hissələr cəng arabaları və onların komandası ilə birlikdə yeni hissələr sistemini təşkil edirdi: 5 cəng arabası onlara qoşulmuş piyadalarla dəstəni, iki belə dəstə, yəni 10

cəng arabası və 750 əsgər bölməni; beş bölmə, yəni 50 cəng arabası və 3750 əsgər diviziyanı; iki diviziya, yəni 100 cəng arabası və 7500 əsgər briqadanı təşkil edirdi.[3]

Bu cür hissələr sistemini tərtib edərkən qədim Çin strateqlərinin hansı əsaslardan çıxış etdiyini söyləmək çətindir. Düşünmək olar ki, burada sırf əməli mülahizə əsas rol oynamışdır: bir nəfər bilavasitə neçə nəfəri idarə edə bilər.

Buna cavab yəqin ki, belə olardı: dörd və ya beş. Demək olar ki, bütün hissələrin əsas prinsipi buradan irəli gəlir: hər bir pillədə komandir əmr verərkən bilavasitə dörd nəfərlə təmasda olurdu; bölük istisna təşkil edirdi, burada komandir üç nəfərlə təmasda olurdu. Əslində, taqım beş nəfərdən-dörd əsgər və komandirdən ibarət idi; nəticə etibarilə komandir bilavasitə dörd nəfərə rəhbərlik edirdi; bölük dörd taqımdan təşkil olunmuşdu, ona bölüyün tərkibinə daxil olan dörd taqımın komandirlərindən biri komandanlıq edirdi.

Nəticə etibarilə, onun üç nəfərə aiddiyyəti olurdu. Batalyon komandiri dörd alay komandiri vasitəsilə əmrlər verirdi. Briqada rəisi bilavasitə dörd batalyon komandirinə göstəriş verirdi. Diviziya rəisi-dörd briqada rəisinə göstəriş verirdi. Və nəhayət, dörd diviziyaya komandanlıq edən ali baş komandan. Beləliklə, Sun-tszının sözləri hərfi əhəmiyyət kəsb edir: ən iri qoşun birləşməsinin-ordunun idarə olunması ən xırda hissə-taqımın idarə olunmasına tamamilə uyğundur; ali baş komandan üçün ordunu idarə etmək eynilə taqımı idarə etmək kimidir. Onun tabeçiliyində bilavasitə bir neçə nəfər var.

Əgər Sorayın etdiyi kimi, hər bir hissənin komandirinin öz hissəsinin say tərkibinə daxil olduğunu, yəni, məsələn, taqımda altıncı deyil, beşinci, bölükdə də 26-cı deyil, 25-ci olduğunu hesab etsək, vəziyyət təsəvvür etdiyimiz kimi olar. Əgər komandirin öz hissəsinin təsbit olunmuş say tərkibinə daxil olmadığını, ondan yuxarıda olduğunu fərz etsək, onda hər komandirin öhdəsinə dörd deyil, beş nəfəri idarə etmək düşür. Lakin bu vəziyyəti dəyişmir. Hər halda, reallıqda belə alınırdı ki, bir nəfər bilavasitə dörd nəfəri idarə etmirdisə, beş nəfərdən artıq insanı da idarə etmirdi.

Beləliklə, ali baş komandanın əmrləri iyerarxik instansiyalar üzrə onun ən yaxın köməkçilərindən ən aşağı həlqəyədək ötürülürdü.

Odur ki, Li Tsuanın dediyi kimi alınırdı: «Sərkərdə lingi vurur, bayrağı qaldırır və bütün ordu buna hay verir». Xan sülaləsinin banisi Lyu Van məşhur sərkərdəsi Xan Lindən soruşur: «Sizin fikrinizcə, mən hansı ordunu idarə edə bilərəm?» «– Zati-aliləri yüz minlik ordunun öhdəsindən gələrsiz. Ondan böyüyünün yəqin ki, yox»,- deyə, Xan Lin cavab verir. «Bəs siz?»- deyə, imperator soruşur. Du

---

[3] *Əlbəttə, hissələrin azərbaycan dilində işlənmiş mənaları şərtidir.*

Mu traktatın bu yerinin izahında verilən cavabı qeyd edir: «Nə qədər böyük olsa, bir o qədər yaxşıdır».

Başqa sözlə desək, Çin strateqlərinin fikrincə, hissələr sistemi mahir sərkərdəyə sayından asılı olmayaraq istənilən orduya rəhbərlik etmək üçün yüngül imkanlar verirdi.

Orduda hissələr prinsipini təsbit edən Sun-tszı onu ümumiyyətlə, təşkilatlanmış tamın mövcudluq ünsürü, onun fəaliyyət qabiliyyətlərinin əsası, ona rəhbərliyin zəruri şərti kimi nəzərdən keçirir. Lakin bu prinsip ordunun daimi təşkilinə aiddir. Hərbi nizam isə ordunun kütlənin döyüşməsi üçün qaydaya salınmış şəkildə düzülüşündən ibarətdir. Odur ki, Sun-tszı «hissə» anlayışının təsbit olunmasından dərhal sonra «düzülüş» anlayışına keçir: «Döyüşə çoxsaylı qoşun aparmaq (hərfi: kütlələr) - döyüşə azsaylı qoşun (hərfi: az adamı) aparmaqla eynidir: məsələ düzülüşdədir (hərfi: forma və adda)».

Hissə anlayışı onda iki söz-hissə və say sözləri ilə ifadə olunduğu kimi, düzülüş anlayışı da iki söz - ad və forma şəklində ifadə olunub. Düzülüş anlayışı «forma» anlayışının uzlaşdırılması şəklində, yəni həmin düzülüşün bütün ünsürlərinin birinci növbədə - yerləşmənin və bu yerləşmənin təyinatını müəyyən etdirən «ad» anlayışını açıqlayır.

Belə ki, məsələn, «avanqard» anlayışı, eyni zamanda, hissənin yerləşməsinə və onun təyinatına işarə edir.

Qədim Çin ordusunun hərbi düzülüşü barədə məlumatlar hərb sənəti üzrə «Yeddi kitab» ın tərkibinə daxil olan müxtəlif əsərlərdə səpələnib. Bu məlumatlara görə, güman etmək olar ki, düzülüşün əsasında yerləşmənin dərinliyində daha vacib hissələrin cəmləşdirilməsi və onların müvafiq mühafizə ilə əhatə olunması dayanır. Göründüyü kimi, daha vacib hissə sözügedən hissənin və bütövlükdə ordunun əsas hərbi gücü idi; komandanlıq, qərargah da bu cür vacib ola bilərdi. Odur ki, belə hissədə, gördüyümüz kimi cəng arabası kimi arabanın özü-başlıca hərbi gücdür və eyni zamanda komandirin yeri mərkəzdə yerləşdirilir, ona verilmiş piyadalar isə üç qrup-öndən və cinahlardan, hər qrupda 24 nəfər olmaqla cəng arabalarını üç tərəfdən pərdələyərək qərar tuturdu, öz yanında sıradankənar komandaya malik ağır cəng arabaları arxa cəbhədə saxlanılırdı (bax. səh 65).

Nəticə etibarilə, hərbi cəng arabaları birinci növbədə arxa cəbhədən həmin ağır cəng arabaları ilə ilə qorunurdu, çünki yuxarıda izah olunduğu kimi o örtük qismində çıxış etmək üçün xüsusi inşa olunurdu, ikincisi ümumi sırada arxada yerləşdirilmiş növbəti hissə ilə pərdələnirdi.

Bu cür düzülüş qaydası ordu miqyasında da təkrar olunurdu. Mərkəzdə ali baş komandan başda olmaqla ordunun qərargahı yerləşirdi; həmin qərargah hər tərəfdən onu pərdələyən hissələr ilə əhatə olunmuşdu: öndə avanqard, arxada-aryeqard, cinahlarda - sol

cinah və sağ cinah birləşmələri yerləşirdi. Beləliklə, istər ən kiçik birləşmənin-cəng arabalarının, istərsə də ən böyük birləşmənin-ordunun düzülüşü düz xaça bənzəyirdi.

Beş hissəli düzülüş prinsipi Li Vey-qunun nə az, nə çox quyu sistemindən çıxarılır. Hesab olunurdu ki, bu sistemə görə təxminən kvadrat formalı torpaq sahəsi götürülür və onun üzərində iki cüt paralel yollar-bu cütü uzununa, digər cütü eninə olmaqla, yəni bir-birinə perpendikulyar şəkildə çəkilirdi.

Bu cür sahə ieroqlif fiqurunu-düz bucaq altında kəsişən iki cüt paralel xətlərdən ibarət «quyu» dan ibarət idi. Sonucda hər tərəfində kvadratlar düzülmüş kvadratdan, yəni mərkəzdə bir, onun tərəflərinə həmhüdud olan dörd, yəni cəmi beş kvadratdan ibarət həndəsi fiqur alınırdı. Torpaq sahəsinin əsas forması belə, idi. Li Vey-qunun fikrincə, ordunun hər birləşmənin daxilində, eləcə də bütövlükdə düzülüşündə o forma nümunə kimi götürülmüşdü.

«Xuan-di (adı əkinçilik və ordunun təşkilinin başlanğıcı ilə bağlanan əfsanəvi imperator– N.K.) quyu sisteminin başlanğıcını qoymuş, onun əsasında o, ordunu təşkil etmişdir». Li Vey-qun iddia edir: «Beş hərbi düzülüşün qaydasına dönmüşdür» («Dialoq» lar, I hissə, səh.14).

Mümkündür ki, beş sahə-biri mərkəzdə, dördü tərəflərdə olmaqla-quyu sisteminin, yəni erkən torpaq icmasının ilkin formasıdır. Çox güman ki, bu zaman ordu da həmin plan üzrə qurulurdu.

Lakin həm onda, həm də digərində, yəni beşhissəlik prinsipində, ümumiyyətlə, öyrənən subyektə uyğun ümumi məkan konsepsiyasının təzahürünü görmək doğru olardı. Təbii olaraq məkan deyiləndə öndə, arxada, solda, sağda-mərkəz ətrafında olan hər şey, yəni subyektin özü tərəfindən tutulan məkan anlaşılır. Orduya əlavədə həmin məkan konsepsiyası hissələrin bütün yerləşmələrində, yəni mərkəz ətrafındakı dörd istiqamətdə-komandirin, qərargahın, başlıca hərbi gücün olduğu yerdə özünü büruzə verir. Bu isə öz növbəsində, bu mərkəzi bütün tərəflərdən müdafiə etmək niyyəti ilə birləşirdi. Bununla yanaşı, təbii ki, mərkəz ətrafında yerləşmiş hissələr onların mərkəzə və rəqibə nisbətdə yerləşmələri ilə şərtlənən öz xüsusi funksiyalarını kəsb etdilər.

Bu yolla avanqard, aryeqard, sağ və sol cinah və mərkəz anlayışları əmələ gəlmişdir. Bu Sun-tszının bəhs etdiyi «forma və adlar»dır.

Sıma Jan-tszyuy digər düzülüş sistemini xatırladır. O, qeyd edir ki, bütün ordu, yəni 12 min 500 nəfər hər birində 50 nəfər olmaqla 250 dəstəyə bölünürdü; bu saydan 75 dəstə, yəni 3750 nəfər manevretmə əməliyyatları üçün nəzərdə tutulan xüsusi qrupa ayrılırdı; digər kütlə-175 dəstə, yəni 8750 nəfər düzgün döyüş üçün nəzərdə tutulurdu və səkkiz hissəli düzülüşə malik idi.

Maraqlıdır ki, Li Vey-qun da bu cür düzülüşü nəzərdə tutur. Onun nöqteyi-nəzərincə, bu beşhissəli sistemin inkişafıdır və

həmçinin «quyu» prinsipinə əsaslanır. Məsələ burasındadır ki, beşhissəli düzülüş yalnız onun əsas cizgilərində-hər tərəfdən yan kvadratlarla hüdudlanan mərkəzi kvadratla ieroqlif şəklinə malik torpaq sahəsini xəyalda canlandırır. Küncler boyunca daha dörd kvadrat-ikisi yuxarıda, ikisi aşağıda qalır. Beləliklə, mərkəz ətrafında səkkiz sahə meydana çıxır, mərkəzi sahə isə doqquzuncu olur.

Bir sıra tarixi mənbələrin[4] şəhadətinə görə, quyu sisteminin çiçəkləndiyi dövrdə məhz bu forma əsas oldu. Məhz mərkəzi kvadratın kənarları boyunca səkkiz sahə səkkiz həyət arasında bölünürdü.

Bütün icma səkkiz həyətdən təşkil olunmuşdu. Mərkəzi sahə heç kim tərəfindən tutulmamışdı, o dövlətə məxsus hesab olunurdu və bütün digər səkkiz həyət onu birlikdə əkib-becərməli idi.

Bütün bunlar ordunun düzülüşündə canlandırılırdı: Li Vey-qunun təbirincə, mərkəzi məkan boşaldılaraq «boş» qalır, yəni əsas qüvvələrin yerləşməsi üçün ayrılmır, təkcə komandan və onun qərargahı üçün nəzərdə tutulurdu; bu qərargahın yeri idi.

Elə həmin qərargahın ətrafında dörd əsas hissə-avanqard, aryeqard, sağ və sol cinah hissələr, habelə həmin başlıca hissələr tərəfindən yaradılaraq künclərdə yerləşdirilmiş dörd köməkçi hissə qərar tutmuşdu. Beləliklə, «quyu» həndəsi fiquru tam tərkibində dəqiqliklə təkrar olunurdu. Hətta mərkəzi sahənin xüsusi vəziyyəti saxlanılmışdı:– torpaq icmasında hökumət, orduda– qərargah vəziyyəti...

Öz-özlüyündə aydındır ki, həm beşhissəli, həm də səkkizhissəli düzülüş yalnız düzülüşün ən ümumi formasını ifadə edir. Döyüş şəraiti düzülüşün tamamilə digər növlərini də doğura bilər. Həm Sun-tszı, həm də digər hərbi müəlliflər bunu nəzərdə tutmaqla hamılıqla etiraf edirlər ki, müharibə-bu «yüzlərlə dəyişiklik və on minlərlə çevrilmədir». Ən vacibi budur ki, sonrakı dövr hərb sənətinin ən dərin nəzəriyyəçilərindən olan Li Vey-qun yuxarıda təsvir olunmuş sxemlərə nə isə tərpənməz deyil, hərəkət edən, inkişafda olan nəsnə kimi yanaşır. Artıq qeyd olunduğu kimi, beşhissəli və səkkizhissəli sxemlərdə o, iki ayrı, bir-birindən asılı olmayan düzülüş tipini deyil, eyni cür sxemin inkişafını görür.

O, deyir: «Beş rəqəmi düzülüşün təməlinə qoyulmuşdur, dörd künc sahə boş qalmışdır. «Say beşdən başlayır» deyəndə məhz bunu nəzərdə tuturlar-deyə, o birinci sxemə aydınlıq gətirir».

«Mərkəzi boş saxlayırlar və orada li– baş komandan yerləşir. O, hər tərəfdən özünü hissələrlə əhatə edir, özü də bütün hissələr öz aralarında birləşirlər». (Lyu İn izah edir: «Sol, sağ, ön və arxa tərəflər və bu məkanları birləşdirən dörd məkan alınır ki, o da 8 hissəni təşkil

---

[4] *Burada, bu şəhadətnamələrin tarixi həqiqətə uyğunluğunu həll ediləcək vəzifələr sırasına daxil olmayan xüsusi məsələ kimi kənara qoyur.*

edir»). «Səkkizdə qurtarır» sözünü deyəndə, məhz bunu nəzərdə tuturlar».

Beləliklə, səkkizhissəli düzülüş zamanı yuxarıda izah olunduğu kimi, köməkçi hissələrin dörd künc istiqamətlər üzrə irəliyə (irəliləyişi) çıxması baş verir. Bu o deməkdir ki, səkkizhissəli düzülüş beşhissəli düzülüşün hər hansı şəkildə təkamülüdür. Lakin Vey-qun bununla kifayətlənmir. O, nəzərdən qaçırmır ki, bütün bu düzülüşlər vahid tam şəklində olan ordunun daxilində baş verir. Odur ki, əgər «beş» «səkkizə» doğru inkişaf edirsə, onda son nəticədə beş və səkkiz vahidə gətirib çıxarır. Bu onunla şərtlənir ki, düzülüş ordu kütləsinin sadəcə deyil, məhz döyüş üçün qaydaya salınmasıdır: döyüşdə isə məlum olduğu kimi, «min dəyişiklik və on min çevrilmə» ola bilər. «Dəyişmələr və çevrilmələr prosesində rəqiblə qarşı-qarşıya dayananda hər şey qarışır, nizamsız döyüş gedir, lakin sıra qanunları pozulmur; hər şey aşıb-daşır, həyəcana gəlir, forma məhv olur, lakin qüdrət itib-batmır». Dağılışıb «səkkiz» i qayıdaraq «bir» təşkil edirlər deyəndə məhz bunu nəzərdə tuturlar. Beləliklə, beşhisseli düzülüş forması orduya hərbi güc kimi pərən-pərən düşməyə və qeyri-mütəşəkkil, nəticə etibarilə köməksiz kütləyə çevrilməyə imkan verməyən zəruri əsasdır. Lakin bu forma hərəkətsiz deyil, o özü «dəyişərək və çevrilərək» beşhissəlidən səkkizhissəli olur və son nəticədə mahiyyət etibarilə ordunu təzahür etdirən vahidə gətirib çıxarır (bax-Li Vey-qunun «Dialoq» ları, I hissə, səh.14).

Sun-tszının fikrincə, ordunun idarə olunmasının əsasları olan «bölmə» və ordunun hərbi əməliyyatlarının əsasını təşkil edən «düzülüş» anlayışlarının təsbitindən sonra Sun-tszı döyüşə keçir və həmin metoda əməl edərək döyüşün iki başlıca növünü təsbit edir: düzgün döyüş və manevr. «Düşmənlə rastlaşarkən ordunu məğlubedilməz edən şey– bu düzgün döyüş və manevrdir».- deyə Sun-tszı fikrini bildirir.

Döyüşün bu iki növü haqqında təlim bütün bu fəslin mərkəzi məntəqəsini təşkil edir.

Bu terminlər altında nəyi başa düşmək lazımdır? Çox güman ki, «düzgün döyüş» altında rəqiblərin girişdiyi o döyüş nəzərdə tutulur ki, onlar bir-birinə qarşı müəyyən döyüş qaydasında düzülmüş şəkildə bütün qaydalara uyğun çıxırlar və ya Sorayın təbirincə desək, «müəyyən yer və gün seçib qaydalara müvafiq sayda əsgər çıxarırdılar». «Manevr» altında Soray «yandan və arxadan zərbə vurmağı», yer sıx olduğu təqdirdə düzgün döyüş aparan ordunun daxilindən irəliləməyi, ya rəqibi döyüşə çağıran, ya da ki, mühasirəyə salan hərbi əməliyyatları başa düşürlər. Soray «hər cür dəyişərək və çevrilərək qəflətən rəqibə hücum edən» həmin hissələri manevretmə qabiliyyətinə malik hissələr adlandırır (bax: Soray, sit., əsər., səh. 83-90).

Tsza Lin deyir: «Rəqibə düzgün sıranı qarşı qoyur, qələbəni manevretmə qabiliyyətinə malik hissələrlə qazanırlar. Öndən və arxadan, sağdan və soldan qarşılıqlı əlaqədə birgə hərəkət edərlərsə, daim qələbə qazanır və heç vaxt məğlub olmurlar».

Beləliklə, Tsza Linin şəhadətinə görə, vuruşma hər iki fəndin- düzgün döyüşün və manevrin uzlaşdırılmasını təzahür etdirir; o bu və ya digər əməliyyat üçün nəzərdə tutulmuş hissələrin səriştəli qarşılıqlı fəaliyyətini tələb edir.

Düzgün döyüşün və manevrin funksiyaları hansılardır? Buna Sun-tszı tam müəyyənliklə cavab verir: «Döyüşdə rəqib ilə düzgün döyüşlə toqquşur, manevrlə qələbə qazanırlar».

Çjan Yuy bu fikri aydınlaşdırır: «İki qoşun qarşılaşarkən onlar hər şeydən öncə düzgün döyüş üçün nəzərdə tutulmuş hissələri işə salır, sonra isə tədriclə manevretmə hissələrini döyüşə buraxır, ya cinaha, ya da ki, arxa cəbhəyə zərbə endirir və beləliklə qələbə qazanırlar». Du Yu oxşar izah verir: «Rəqibə düzgün sıranı qarşı qoyur, manevrlə isə yan tərəfdən onun müdafiəsiz yerinə zərbə endirirlər. Döyüşü bütün qaydalar ilə aparır, qələbəni isə manevrin müxtəlif fəndləri ilə həll edirlər». Beləliklə, düzgün döyüş hissələrinin vəzifəsi-döyüşün bütün ağırlığını öz üzərinə götürmək, manevretmə hissələrinin vəzifəsi isə qələbəni həll etməkdir.

Lakin Sun-tszı döyüşün bu iki fəndini vaxt baxımından ardıcıllıqla nəzərdən keçirmir. Özünün «rəqiblə birbaşa döyüşlə toqquşur, manevr ilə isə qələbə qazanırlar» sözlərini o, «əvvəlcə birbaşa döyüş aparır, sonra isə manevrlərə əl atırlar» anlamında başa düşməməyi təklif edir. Bu iki fənd onda həmişə bir-birini əvəz edir: sərkərdə ya birinə, ya da o birisinə xitab edir.

«Bitir və yenidən başlanır– Günəş və Ay belədir; ölür və sonra doğulurlar– ilin fəsilləri belədir»,- deyə o, söyləyir. «Günəş və Ay öz dövranını edir, qürub edir, sonra yenidən doğur, ilin dörd fəsli bir-birini əvəzləyir– ya çiçəklənir, ya da xəzan olurlar. Eyni zamanda, bu cür birbaşa döyüş və manevr qarşılıqlı surətdə bir-birini əvəzləyir, eynilə bu cür onlar qaynayıb-qarışır, coşub-daşır, həyəcana gəlir, qurtarır və bşlayırlar və onların sonu yoxdur», - deyə Çjan Yuy Sun-tszının obrazlı ifadəsini obrazlı şəkildə bu cür aydınlaşdırır.

Beləliklə, birbaşa döyüş və manevr daim növbələşir, bir-birini əvəzləyir. Lakin Sun-tszı bununla kifayətlənmir. Öz fikirlərinin, xüsusilə qələbə və məğlubiyyət, hücum və müdafiə (IV fəsil) barədə mühakimələrində aydın surətdə açıqlanmış ümumi istiqamətinə uyğun olaraq o, birbaşa döyüş və manevrin qarşılıqlı münasibətlərinin yalnız bu cür müəyyənləşdirilməsi ilə qanə olmur. O, bu iki fəndi qarşılıqlı surətdə əlaqəli bir-birindən doğan ünsürlər kimi nəzərdən keçirmək istəyir. O, deyir: «Birbaşa döyüş və manevr qarşılıqlı surətdə bir-birini doğurur və bu sonu olmayan dövri hərəkətə bənzəyir. Onları kim tükəndirə bilər?».

Çjan Yuy həmin fikri bu cür ifadələrlə aydınlaşdırır: «Manevr birbaşa döyüşə, birbaşa döyüş manevrə çevrilir: dəyişərək və çevrilərək onlar bir-birini doğurur. Onları nə əvvəli, nə də sonu olan dairə ilə müqayisə etmək olar. Onları kim tükəndirə bilər?».

Döyüşün həmin iki fəndinin qarşılıqlı münasibətlərinin bu cür qavranılmasında Soray Li Vey-qunun «Dialoq» larında imperator Tay-tszunun qeyd etdiyi bir cəhəti xüsusilə vurğulayır. Sorayın parafrazında (kəlamında) Tay-tszunun fikri belə səslənir: «Rəqiblə birbaşa döyüşdə qarşı-qarşıya çıxır, manevrlə qələbə qazanırlar» sözləri bu cür mənalandırılır: «Əgər rəqib mənim tərəfimdən həyata keçirilən birbaşa döyüşü manevr, manevri manevr kimi qəbul edirsə, mən öz manevrimi düzgün döyüşə, birbaşa döyüşü manevrə çevirməklə ona qalib gəlirəm».

Tay-tszun demişdir: «Beləliklə, bəlli olur ki, ordu geri çəkiləndə bu manevr adlanır?»

Li Vey-qun bu cür cavablandırır: «Xeyr, geri çəkilmə zamanı bayraqlar nizamsız, hərəkət edərkən, təbillər ya gur, ya da ki, sakit, ahəngsiz çalır, əmrlər hay-küylü və ziddiyyətli olur, onlarda vahidlik olmur, bu artıq məğlubiyyətdir, manevr deyil. Bayraqlar nizamlı şəkildə hərəkət edir, təbillər uzlaşdırılmış çalır, hərçənd ki, hər şey bir-birinə qarışıb əmrlər tam bir vahid şəklindədir, geri çəkilmələrinə və qaçmalarına rəğmən hər şey qaynayır və aşıb-daşırsa, istənilən halda bu məğlubiyyət deyil, bu, çox güman ki, manevr olacaqdır. Sun-tszıda deyilir: «Rəqib hiyləgərcəsinə qaçırsa, onu təqib etmə». Və əlavə olaraq deyilib: «Bacarırsansa, bacarmadığını göstər». Bütün bunlar manevr haqqında deyilir.

Tay-tszun soruşur: «Birbaşa döyüş və manevr üçün nəzərdə tutulmuş hissələr... əvvəlcədən bölünürmü və ya onları manevrdən asılı olaraq formalaşdırırlar?»

Li Vey-qun cavab verir: «Tsao-qunun «Sin-şu» sunda deyilir: «Əgər mənim iki ordum, rəqibin isə bir ordusu varsa, onda mən özümün bir ordumu düzgün döyüş, digərini manevr üçün nəzərdə tuturam. Əgər mənim beş ordum, rəqibin bir ordusu varsa, öz üç ordumu birbaşa döyüş, ikincini manevr üçün nəzərdə tuturam. Lakin bu sözlər yalnız ən ümumi şeylərdən bəhs edir və yalnız Sun-tszı vuruşmada hərəkət edən qüvvələrin ikidən - birbaşa döyüş və manevrdən ibarət olduğunu, onların dəyişikliklərini isə saya-hesaba gəlmədiyini bildirir. «Birbaşa döyüş və manevr qarşılıqlı surətdə bir-birini doğurur və bu sonu olmayan dövrü hərəkətə bənzəyir. Onları kim tükəndirə bilər?» bax bu doğru deyilib. Öncədən onları kim bölməyi bacara bilər?»

Li Vey-qun demişdir: «Sun-tszı digərlərinə müəyyən formanı göstərməyi, özünün isə belə formaya malik olmadığının gərəkliyindən bəhs edir. Məhz bu birbaşa döyüşün və manevrin ali incəsənətidir. Odur ki, ilk əvvəldən onları yalnız təlimlərə bölürlər.

Məqamdan asılı olaraq, bütün dəyişikliklərin öhdəsindən gəlməyi tükəndirmək mümkünsüzdür.

Tay-tszun demişdir: «Dərin! Dərin! Tsao-qun şübhəsiz ki, bütün bunları bilirdi, lakin onun əsəri yalnız komandirlərin təlimi üçün nəzərdə tutulmuşdu. O birbaşa döyüşün və manevrin əsas qanunlarını ehtiva etmir.

...Beləliklə, mən rəqibi birbaşa döyüşümü manevr, manevrimi birbaşa döyüş kimi qəbul etməyə vadar ediəmsə, elə bu «digərlərinə müəyyən formanı göstərmək deyilmi?» Mən öz manevrimi birbaşa döyüşə və birbaşa döyüşü manevrə çevirəndə, bütün dəyişiklikləri və çevrilmələri hesaba almaq mümkünsüz olanda elə bu «özünün həmin formaya malik olmamağın deyilmi?»

Li Vey-qun ehtiramla təzim edərək söyləyir: «Zati-aliləri ilahi müdrikliyə malikdir. Öz qavrayışınızla siz sələflərinizi ötüb keçmisiniz. Bu mənim üçün əlçatmazdır».

Tay-tszun demişdir: «Müxtəlif dəyişiklikləri – bölünmə və birləşdirmələri icra edəndə, burada birbaşa döyüş və manevr harada olacaqdır?»

Li Vey-qun cavab verir: «Yaxşı döyüşməyi bacaranlarda hər şey birbaşa döyüş və manevrdir. İş burasındadır ki, rəqibə heç nəyi anlamağa yol verməyəsən. Odur ki, həm birbaşa döyüş, həm də manevr ilə qələbə çalırlar. Ordunun əsgərləri yalnız qələbəni görür, onun necə əldə olunduğunu isə bilmirlər» («Li Vey-qun venduy», səh.3-8).

Beləliklə, birbaşa döyüş və manevr arasında dialektik tənasüb bərqərar olur. Bu nəinki bir-biri ilə uzlaşan, bir-birindən irəli gələn iki ünsür deyil, habelə, müəyyən vahidlikdə üst-üstə düşən ünsürlərdir. Bununla belə, məsələnin «Dialoq» lardakı qoyuluşunda həmin ünsürlərin özünün meydana çıxması təkcə özünlə deyil, həmçinin rəqiblə əlaqədə irəli sürülür. Həm birbaşa döyüş, həm də manevr hər iki tərəfin qarşılıqlı münasibətlərinin xarakterindən, yəni, konkret döyüş şəraiti, birbaşa döyüşün manevr forması alması və əksinə cərəyan edən vəziyyətdən asılılıqla müəyyənləşdirilir.

Lakin Sun-tszının döyüşün bu iki fəndi haqqında mühakimələri bununla bitmir. Hələ əvvəllər o, döyüş şəraitinin növ dəyişikliklərinin sonsuzluğundan bəhs etmişdir. Müharibə– minlərlə dəyişikliklər və on minlərlə çevrilmələr deməkdir. Buna müvafiq olaraq, birbaşa döyüşdəki və manevrdəki bütün dəyişiklikləri hesaba almaq mümkünsüzdür. Döyüşün bu iki fəndinin hər cür dəyişikliklərinin tükənməzliyini, müvafiq surətdə döyüş şəraitinin dəyişikliklərinin sonsuzluğunu Sun-tszı rəngin, səsin (avazın) və zövqün dəyişiklərinin sonsuzluğu ilə müqayisə edir. çin qamması (musiqidə: aralarında müəyyən münasibət olan həmahəng səslər sırası) beş ton (səs) ayırd edir, lakin «həmin tonların bütün dəyişikliklərini eşitmək mümkünsüzdür». Çinlilər spektrdə (şüşə prizmadan və ya difraksiya şəbəkəsindən keçən işıq şüalarının ayrılması nəticəsində əmələ

gələn rəngli zolaqlar) beş təbii rəngi – mavi, qırmızı, sarı, ağ və qara rəngləri ayırd edir, lakin «bu rənglərin bütün dəyişikliklərini görmək mümkünsüzdür». Çin fiziologiyası beş dadbilmə hissiyyatından – tünd, turş, duzlu, şirin və acı hissiyyatdan bəhs edir, lakin «bu dadların bütün dəyişikliklərini duymaq mümkünsüzdür». «Döyüşdə iki cür hərəkət olsa da, birbaşa döyüş və manevrdəki bütün dəyişiklikləri hesaba almaq mümkünsüzdür».

Soray bu vəziyyəti əyani surətdə izah etməyə çalışır. O, ordunun səkkizhissəli düzülüşünü, yəni, onun xaç şəklində – avanqard, aryeqard, sol və sağ cinah, mərkəzdə ali baş komandanın qərargahı; avanqardın hər iki tərəfində köməkçi hissələr və eynilə aryeqardda bu şəkildə olmaqla düzülüşü nümunə kimi götürür. Avanqard, aryeqard və hər iki cinah birbaşa döyüş; küncər irəliyə çıxarılmış hissələr boyu manevr üçün nəzərdə tutulub. Lakin Soray qeyd edir ki, hər bir belə sahədə– avanqardda, aryerqardda, və s. özünün səkkizhisseli daxili düzülüşü var. Nəticə etibarilə orada da, həmçinin birbaşa döyüş və manevr üçün öz hissələri mövcuddur. Beləliklə, sözügedən hissənin tam olaraq apardığı ümumi birbaşa döyüş əməliyyatlarında özünün daxili əməliyyatları da mövcuddur ki, onlardan biri birbaşa, digərləri manevr döyüş məqsədini güdür. Və əksinə, tam olaraq manevr əməliyyatını aparan hissənin özünün də birbaşa döyüş və manevr əməliyyatları mövcuddur. Beləliklə, Soray bunun dəfələrlə təkrar olunduğunu qeyd edərək hər bir əməliyyatın özündə iki bir-birinə zidd, bir-birinə təhkim olunmuş əməliyyatları ehtiva etdiyini deyir (sitat, əsər, səh.84).

Beləliklə, döyüşün bu iki fəndin qarşılıqlı təsirindən əmələ gəldiyini bilmək kifayət deyildir; bu qarşılıqlı təsirin özünün xarakterini və onların mürəkkəb təbiətini də tamamilə dərk etmək gərəkdir. Sun-tszının sözlərinə görə, kim ki, buna, yəni döyüşün mürəkkəb mexanikasına yiyələnibsə, «kim ki, manevri lazımınca işə salır (Sun-tszı bir fəndin adını çəkməklə onunla bağlı olan digəri öz-özlüyündə nəzərdə tutulur– N.K.), o, torpaq və səma kimi hüdudsuz, Xuanxə və Yan tszıtzyanu kimi tükənməzdir.

Sun-tszı özünün döyüşün iki ünsürü barədə mühakimələrində rəqibə zərbədən də söhbət açır. O, hesab edir ki, belə zərbə «dolu» (tamlıq) ilə «boşun» toqquşmasını təzahür etdirir.

Tamlıq və boşluq anlayışlarına hələ Sun-tszının (məsələn, I fəsildəki) mühakimələrində, özü də həmişə müəyyən mənada rast gəlinirdi: tamlıq– bu bütövlükdə hərbi hazırlığın tamlığıdır, yüksək döyüş qabiliyyəti– bu gücdür, boşluq– bu lazımi hazırlığın və döyüş qabiliyyətinin mövcud olmaması, zəiflikdir. Sun-tszının burada müraciət etdiyi obrazlı ifadədə öz döyüş gücünün tamlığı möhkəm daşa, boşluq, yəni rəqibin zəifliyi kövrək (tezsınan) yumurtaya bənzədilir. Sun-tszı deyir: «Qoşunun zərbəsi daş ilə yumurtaya vurmağa oxşayır: «bu tamlıqla boşluqdur».

Şərhçi Men-şi bu ifadəni bu cür aydınlaşdırır: «Qoşun təlim görübsə və qaydasındadırsa, onun düzülüşü dəqiq müəyyən edilibsə, rəqibin vəziyyətini tanımağı bacarırlarsa, ondakı tamlığı və boşluqları yaxşı bilərək qoşun çıxarırlarsa, bu həqiqətən də elə yumurta ilə daşa vurmaqdır».

Sun-tszının bu qeydi onun tərəfindən təsadüfi edilməmişdir. O onun tərəfindən təsbit olunmuş döyüş qaydası ünsürlərinin zəncirində sonuncu həlqədir. Birinci ünsür– bölmə və ya onun anlamında hissənin və layın özünəməxsus nisbətdə vahidliyi, ikinci ünsür– forma və adın vahidliyi kimi qavranılan düzülüş, üçüncü ünsür– döyüşün iki fəndinin – birbaşa döyüş və manevrin vahidliyidir. Lakin, bütün bunlar onun tərəfindən müstəsna olaraq döyüş nöqteyi-nəzərindən nəzərdən keçirilir, çünki orduya aid olan yalnız döyüş üçün mövcuddur. Odur ki, onun tərəfindən adıçəkilən bir şeyi nəzərdə tutur: rəqibə zərbə daş ilə yumurtaya zərbənin eyni olmalıdır.

Çjan Yuy da Sun-tszının mühakimələrində məhz bu ardıcıllığı görür. O, bunu bu cür anlayır: «Ordunu formalaşdırıb bütün tərkibi toplayarkən hər şeydən öncə, bölmələri müəyyənləşdirirlər. Bölmələr formalaşanda bundan sonra düzülüşləri təlim edirlər. Düzülüşlər düzgün aparıldığı təqdirdə hissələri birbaşa döyüş və manevr üçün ayırırlar. Bu hissələr müəyyənləşdirilərdən sonra tamlığın və boşluğun harada olduğunu görmək olar. Həmin dörd ünsürün qaydası da elə bunun əsasında təşkil olunmuşdur.

Beləliklə, zərbə və onunla uzlaşan tamlıq və boşluq anlayışları birbaşa döyüş və manevr anlayışları ilə bilavasitə bağlıdır. Bu əlaqənin məzmunu Li Vey-qunun «Dialoq» larında açılır.

Tay-tszun deyir: Mən hərb sənəti üzrə cürbəcür əsərlər oxumuşam, onların heç biri «Sun-tszı» nın hüdudlarından kənara çıxmır. «Sun-tszı» nın bütün 13 fəslində heç nə tamlıq və boşluq barədə təlimin hüdudlarından kənara çıxmır. Müharibəni apararkən tamlığın və boşluğun mənasını anlasan qalib gəlməmək olmaz.

Hazırda sərkərdələr düşmənin tamlığına hazır olmaq və onun boşluğuna zərbə endirməyin gərəkliliyindən yalnız danışmağı bacarır, tamlığın və boşluğun nə olduğunu nadir hallarda bilən tapılır. Belə ki, onlar rəqibi idarə etməyi bacarmır, əksinə ona özlərini idarə etmək imkanı verirlər («Sun-tszı», VI, 1). Belə deyilmi? Bütün sərkərdələr üçün bu anlayışların mahiyyətini ifadə edin».

Li Vey-qun cavab verir: «Ümumiyyətlə desək, əvvəlcə manevri birbaşa döyüşə çevirmək sənəti öyrədir və əksinə sonra tamlıq və boşluq barədə söhbət açırlar. Və bu düzdür. Lakin sərkərdələrin əksəriyyəti, hətta manevri birbaşa döyüşə, birbaşa döyüşü manevrə çevirməyi bilmirlər. Onda onlar tamlığın və boşluğun nə olduğunu, boşluğun elə tamlıq, tamlığın elə boşluq olduğunu nə cür dərk edə bilərlər?»

Tay-tszun demişdir: «Rəqibi öyrənərkən onun səhv və düz mülahizələrini anlamaq gərəkdir; rəqibi anlayaraq onun hərəkət və dinclik qanunlarını anlamaq gərəkdir; öz formanı ona yanlış surətdə göstərməklə rəqibin olumla ölüm yerini, toqquşarkən onda nəyin artıq, nəyin isə əskik olduğunu anlamaq gərəkdir. (Sun-tszı, VI, 11). Bu sözlər manevr və birbaşa döyüşün mənim özümdə, tamlıq və boşluğun rəqibdə yerləşdiyi mənasını verir».

Li Vey-qun cavab verir: «Manevr və birbaşa döyüşün köməyi ilə rəqibin tamlığı və boşluğu idarə olunur. Əgər onda hər şey tamdırsa, mən mütləq birbaşa döyüş; əgər onda boşluq varsa manevrlə hərəkət edirəm. Əgər sərkərdə manevr və birbaşa döyüşün nə olduğunu bilsə də belə, rəqibi nəyin tamlıq və boşluq halında olduğunu bilmirsə, onda onları necə idarə edə bilər? Sizin həzrətlərinizin əmrinə əməl edərək mən qoşun başçılarına manevr və birbaşa döyüşü təlim edəcəyəm. Bundan sonra tamlıq və boşluq anlayışları öz-özlüyündə aydın olur».

Tay-tszun demişdir: «Beləliklə, manevri birbaşa döyüşə çevirmək aşağıdakıları ehtiva edir: rəqib bunun manevr olduğunu düşünəndə birbaşa döyüşə keçir və rəqibə zərbə endirirəm. Birbaşa döyüşü manevrə çevirmək aşağıdakıları ehtiva edir: rəqib mənim birbaşa döyüş apardığımı düşünəndə mən manevrə əl atır və rəqibə zərbə vururam. Bir sözlə, rəqibin qüdrətini hər zaman boş, öz qüdrətimi dolu tutmaq lazımdır». (Li Vey-qun venduy, səh. 28-30).

Sun-tszı öz traktatı boyunca dəfələrlə tamlıq və boşluq anlayışlarına müraciət edir. O, hətta VI fəsli bütünlüklə həmin anlayışlara həsr edir. Odur ki, onların ətraflı izahı daha sonralar veriləcəkdir; elə buradaca onu qeyd etmək gərəkdir ki, bu anlayışlar cütünü də əvvəlkilər kimi Sun-tszı bir-birinə keçməyi bacaran ziddiyyətlər qismində nəzərdən keçirir. Özündə və rəqibdə tamlıq və boşluq anlayışları – mütləq anlayışlar deyil; tamlıq boşluğa çevrilə bilər və əksinə baş verə bilər. Tay-tszunun dediyi kimi, birbaşa döyüşün fəndlərindən məharətlə istifadə rəqibin «tamlığını», yəni güclü yerini zəifə çevirməyə imkan verir. Hər bir «tamlıqda» potensial «boşluq» olur, yəni düşmənin gücünü təşkil edən hər bir şeydə onun zəifliyi də özünə yer tapmışdır.

Bunun dərk olunmasında düşmənin gücünü onun zəifliyinə çevirmək bacarığında nəticə etibarilə, sərkərdənin məharətinin sirri gizlənir. Əgər o, bunu bacarırsa, onun rəqibə zərbəsi daşla yumurtaya vurulan zərbəyə bənzəyəcəkdir.

Beləliklə, rəqibə zərbənin mahiyyəti aydınlaşdırılmalıdır: bu öz «tamlığın» ilə onun «boşluğuna» zərbədir. Daha sonra Sun-tszı zərbənin özünün keyfiyyətinin xarakteristikasına keçir. Bu keyfiyyətlər– qüdrət və tədbirlilikdir.

Sun-tszı bu iki anlayışı obrazlarla təsvir edir. «Qüdrət» sözünün nəyi ehtiva etdiyini təsəvvür etmək üçün o axarı boyunca öz yolunda iri daşları sürətlə aparan iri axını nümunə gətirir. «İri axına

daşları aparmağa imkan verən qüdrətdir». «Tədbirlilik» anlayışını təsvir etmək üçün Sun-tszı onu yırtıcı quşla müqayisə edir. Qanadlı yırtıcı öz qurbanını havada haqlayır. «Yırtıcı quşa öz qurbanını dəf etməyə imkan verən zərbənin tədbirliliyidir». Çjan Yuy şərh verir: «Yırtıcı quşcuğazı zəruri olaraq məsafəni hesablayır, diqqətlə hədəfini izləyir və yalnız bundan sonra zərbə endirir. Odur ki, o öz qurbanını yaxalamağa qabil olur.

Düşmənə zərbənin yırtıcı quşun zərbəsi ilə müqayisə edilməsi göründüyü kimi, hərbi zərbə haqqında təsəvvürü çox yaxşı əks etdirə bilir. Bu cür müqayisəyə biz «Vey Lyao-tszı»da da rast gəlirik. «Ordunun bütün alətləri əlverişli olanda, onda hərbi döyüş ruhu və şücaət tərbiyə olunanda bütün bunlar rəqibə yırtıcı quş kimi zərbə endirir, su dağlardan minlərlə (fəsil III, səh.9). Sonrakı dövrdə Li Vey-qun da bu obraza müraciət edir: «Yırtıcı quş öz qurbanına zərbə endirərkən aşağı yönəlir və qanadlarını seçir».

Lakin Sun-tszı zərbənin iki keyfiyyətinin– qüdrətinin və hesablanmış olmasını təsbit etməklə işini bitmiş saymır; o, daha sonra bu qüdrət və hesablanmanın necə olduğunu müəyyənləşdirir: «Yaxşı döyüşən tərəfdə qüdrət iti, hesablanma qısa olur». Çjan Yuy bu fikri təfsilatı ilə inkişaf etdirir: «Yaxşı döyüşən əvvəlcə məkanın ölçülərini və məsafəsini müəyyənləşdirir, sonra öz hissələrinin bir-birindən uzaqda yerləşmədiyi mövqeni seçir. Öz zərbəsini o əlli bu məsafəyə hesablayır, məsafəni çox uzağa hesablamaq olmaz. Odur ki, bu cür zərbənin qüdrəti iti olarsa, ona qarşı durmaq çətindir; zərbə yaxın məsafəyə hesablananda qələbə çalmaq asandır». Beləliklə, Sun-tszıya görə zərbə qüdrətinə görə iti və qısa olmalı, yaxın məsafəyə hesablanmalıdır. Və yenə də öz fikrini aydınlaşdırmaq üçün o, obrazlı müqayisəyə əl atır: «Qüdrət– yayın dartılması, zərbənin hesablanması – elə bil ki, oxun atılmasıdır». Çjan Yuy bu sözləri belə izah edir: «Yayın dartılmasında olduğu kimi qüdrət gərgin olmamalı; onun atılması uzaq məsafəni nəzərdə tutmamalıdır»». Dartılmış yay gərgin vəziyyətin obrazıdır. Cəldlik bu cür olmalıdır. Ox, atılırsa, deməli hədəfə çatılıb, ona dəymək olar, yəni o yaxındadır. Eynilə daş yumurtanı parçalayan kimi, düşməni darmadağın edən həmin cür qarşısıalınmaz zərbə də, zahirdən və batindən bu cür müəyyənləşdirilir.

Sun-tszı döyüşü aparan ordudan tələb olunan hər şeyi sadalayır: müəyyən bölmələrin mövcudluğu, hərbi düzülüş şəklini almaq bacarığı, birbaşa döyüş aparmaq və manevr həyata keçirmək bacarığı. Tamlığın və boşluğun qarşılıqlı təsir mexanizmi və mahiyyətinin, yəni «tamlığı», yəni gücü rəqibin zəifliyinə, yəni «boşluğuna» çevirmək bacarığının dərk olunması bütün bunlarla birləşib ordunun zərbəsinin sarsıdıcı olmasını şərtləndirir. Bununla yanaşı, bu ünsürlər ordunun daxili möhkəmliyini – rəqibin həmin ordunu məğlub etməyinin mümkünsüzlüyünü təşkil edir. Sun-tszı həmişə olduğu kimi, məsələni iki tərəfdən nəzərdən keçirir; o,

ordunun hücum qüvvəsini – zərbəsinin qüdrətini səciyyələndirir. O, onun müdafiə qüvvəsini də– onun daxili qüdrətini də səciyyələndirməlidir.

Bu qüdrəti Sun-tszı aşağıdakı sözlərlə səciyyələndirir: «Qoy hər şey bir-birinə qarışsın və nizamsız çarpışma getsin, onsuz da pozğunluğa uğraya bilməz, qoy hər şey qaynansın və çalxalansın və formasını dəyişsin, onsuz da məğlubiyyətə uğraya bilməz.

Birinci ibarə hərbi düzülüşün dayanıqlığını ehtiva edir. Baş verən çarpışma nə qədər qaydasız görünsə də, hərbi qaydaya adət etmiş əsgərlər sıraların müvəqqəti pozğunluğu şəraitində belə həmişə kortəbii olaraq və inadla cərgəni bərpa etməyə cəhd göstərir və onların bu yenilməz və sarsılmaz cəhdi hərbi qaydanın bərpasının və onun qorunub saxlanmasını şərtləndirir. Başqa sözlə desək, ilk baxışdan nəzərə çarpan nizamsızlıq arxasında daxili qayda-qanun, hərbi düzülüşün hər bir pozğunluğu təzahüründə onun bərpası meyli gözlənir. Odur ki, pozğunluğa uğraya bilmirlər.

İkinci ibarə ordunun sabitliyini nəzərdə tutur. İlk baxışdan bütün «forma» pozulub, yəni onun müteşəkkilliyi və döyüşün– bütün «dəyişikliklərinə və çevrilmələrinə» çevik reaksiya verməklə yaradılan daxili gücü sarsılıb. Lakin məhz bu bacarıq hərbi şəraitin «hər şeyin coşub daşdığı və çalxalandığı kimi» dəyişikliklərinin öhdəsindən gəlmək zərurətini şərtləndirir. Bundan savayı, məhz bu cür– hər bir ordu üçün faciəli durum bu «forma» ya istənilən şəraitin öhdəsindən gəlməklə özünü göstərməyə imkan verir. Əgər ordu bu cür səbitliyə malikdirsə, «məğlubiyyətə uğraya bilməz». Ordunun müdafiə qüvvəsi, onun daxili dayanıqlığı və sabitliyi bundan ibarətdir.

Traktatın bu yerini Çjan Yuy da elə həmin mənada şərh edir: «Daimi dəyişikliklər və çevrilmələr şəraitində düşmənin qarşısını almaq lazım gələndə, hər şey bir-birinə qarışır; gah bir yerdə toplaşır, gah dağılışır və nizamsız olaraq döyüşür, lakin buna baxmayaraq, döyüşün qaydaları pozulmur; hər şey coşub-daşır və bir-biri ilə çulğalaşır, forma pozulmuş qalır, bununla belə qüdrət sarsılmır».

Sun-tszının ifadə etdiyi əsaslar üzərində qurulan ordu budur. Bu əsasların zahiri təzahürləri hansılardır, hərbi şəraitin hər cür dəyişikliklərinə bu hazırlığın və müteşəkkilliyin əlamətləri nədən ibarətdir? Sun-tszı cavab verir: qayda, güc və şücaət. Həmin ordunun üç keyfiyyəti bunlardır.

Lakin Sun-tszı öz təfəkkür tərzinə sadiq qalaraq, burada da bu üç əlaməti müstəqil ölçü vahidi kimi nəzərdən keçirməkdən imtina edir. O, dərhal onları əksləri ilə – nizamsızlıq, qorxaqlıq və zəifliklə əlaqədə göstərir və bu xarakter etibarı ilə bir-birinə zidd əlamətləri qarşılaşdırmaqla əslində onların bir-birindən doğduğunu göstərir. «Nizamsızlıq qaydadan, qorxaqlıq qoçaqlıqdan, zəiflik gücdən törəyir».

Sun-tszının bu kəlamını şərh edən Sorayda bir fövqəladə əhəmiyyətli qeyd var: «Nizam öz yüksək həddinə çatanda, nizamsızlıq doğur». Bu qeyddə lun fəlsəfəsinin təməlini təşkil edən Çjou-tszının məşhur «Böyük Hədd planının izahı» traktatında verilmiş mövcudluq təzahürlərinin dövranı düsturu əksini tapmışdır. Çjou-tszıda deyilir: «Hərəkət öz həddinə çatır və durğunluq törəyir. Durğunluq öz həddinə çatır və hərəkət törəyir». Soray açıq-aşkar düsturun hər iki hissəsini nəzərdə tutur. Əgər o, «Nizam öz həddinə çatır və nizamsızlıq törəyir»- deyirsə, şübhəsiz ki, əksini də güman edir: «Nizamsızlıq öz həddinə çatır və nizam törəyir». Başqa sözlə desək, bu iki təzahürün qarşılıqlı münasibətləri bərqərar olur.

Əlbəttə, bu şəkildə həmin düstur Çjou-tszıda XI əsrdə meydana gəldiyi halda, «Hədd» anlayışının özü hələ qədim dövrdə «Dəyişikliklər Kitabı»– «İ- tszin»in əlavəsi olan m.ö. VI əsrə aid «Si Tsı-çjuan» tərəfindən irəli sürülüb. Öz dünya nizamının bütün sisteminin əsas müddəalarını təsbit edərkən Si Tsı Çjuan dəyişikliklərin özünün növbələşməsi prosesinin mexanizmini bu və ya digər şəkildə müəyyənləşdirməli idi. Bu mexanizmi o, hədd anlayışında tapır. Hər bir təzahür, yəni dəyişiklik digər təzahürə – dəyişikliyə birinci öz həddinə çatanda keçir, öz həddinə çatıb o iki əksliyə bölünür, bu iki əkslilik hər biri öz həddinə çataraq yenə üç əksliyə bölünür. «Dəyişikliklə də Böyük Hədd vardır» və o iki başlanğıcı doğurur»– «Si Tsı Çjuan» da həmin fikir bu kimi sözlərlə ifadə olunmuşdur. Elə bu əsasda Soray e.ə. VI əsrə aid mətnlə bağlı hədd anlayışını işlətmişdir.

Sorayın bu düsturu nə deməkdir– yəni onun Sun-tszının «nizamsızlıq nizamdan törəyir» sözlərinə bərabər tutduğu «nizam öz həddinə çatır və nizamsızlıq törəyir» fikri nəyi ifadə edir? Soray bunu belə izah edir. Nizam özünün həddinə, ən yüksək dərəcəyə çatdırıla bilər. Təbii ki, bu zaman həmin nizamın əhəmiyyətinin həddindən artıq şişirdilməsi meydana çıxır: o hər hansı mütləq başlanğıca çevrilir. Nizama bu cür münasibət bütün digər cəhətlərə etinasızlığa gətirib çıxarır: hər şeydə öz-özlüyündə yalnız nizama arxalanırlar. Digər hər şeyə etinasızlıq əmələ gəldikdə, nizam təhlükəyə məruz qalır və adətən dağılır, nizamsızlığa çevrilir. Güc və zəiflik ilə də eyni cür olur. Yeganə dəyərə, hər hansı mütləq bir şeyə çevrilən güc artıq güc deyil, zəiflikdir. Bunu eyni zamanda qoçaqlıq və qorxaqlığa da şamil etmək olar (sitat, əsər. səh.100-101).

Tszya Lin həmin fikri bu sözlərlə ifadə edir: «Əgər bütövlükdə nizama arxalansan, nizamsızlıq doğacaq; əgər bütövlükdə güc və qoçaqlığa arxalansan, qorxaqlıq və zəiflik törəyəcək».

Lakin bu ziddiyyətli keyfiyyətlərin bağlılığı öz vahidliyini hər hansı bir sintezdə tapır. Sun-tszı bu vahidliyi (birliyini) bu cür müəyyənləşdirir: «Nizam və nizamsızlıq – saydır; qoçaqlıq və qorxaqlıq – qüvvətdir; güc və zəiflik – formadır».

Bütün bu anlayışlarla biz artıq tanışıq. «Say»– bu «hissə və say, yəni bölmə deməkdir. «Qüvvət»– bu daxili güc, ordunun potensialıdır. «Forma»– bu ordunun vəziyyətidir. Bölmə döyüş nizamının əsasıdır; hərbi düzülüş bölməsiz mümkün deyildir. Sun-tszı bölmə anlayışını məhz bu cür əsas rolunu oynadığından irəli sürür və hesab edir ki, bu cür bölmədə hər iki ünsürün– nizam və nizamsızlığın təməli qoyulmuşdur; məhz o öz-özlüyündə bölmələrin fəaliyyət göstərməsi prosesində reallaşan bu iki əksliyin daşıyıcısıdır.

Bölmə onun əsasını təşkil edən bütün ünsürlər– hərbi düzülüş, döyüşün iki fəndi və onunla əlaqəlik tamlıq və boşluq ünsürü ilə ordunun potensialını, onun bu və ya digər daxili gücünü, qüdrətini müəyyənləşdirir. Lakin bu qüdrət bu və ya digər cür ola bilər, igidlikdə, qorxaqlıqda ifadə oluna bilər, yəni mənfi ola bilər. Odur ki, Sun-tszı hesab edir ki, qüdrətdə iki əkslik – şəraitdən asılı olaraq gah biri, gah o biri reallaşan igidlik və qorxaqlıq mövcuddur. «Forma»– ordunun vəziyyəti, onun müharibə şəraitinə tamamilə uyğunlaşmaq qabiliyyətidir. Lakin bu bacarığın dərəcəsi ordunun gücünü və zəifliyini müəyyənləşdirir. Odur ki, «formada» həm o, həm də o birisi mövcuddur. Öz-özlüyündə anlaşılandır ki, «bölmə»nin birliyinin nizam və nizamsızlıq, «qüdrət»in birliyinin qoçaqlıq və qorxaqlıq, «forma»nın birliyinin güc və zəiflik kimi əksliklərə bölünməsi bütün bu birliklərin daşıyıcısı olan yalnız ordu öz əksi ilə– rəqib ordusu ilə qarşılaşanda baş verir. Başqa sözlə desək, bölmələrin və bütün ordunun qüdrətinin dərəcəsi, onun formasının keyfiyyəti – bütün bunlar hərbi toqquşmada ciddi desək, ordunun yeganə və əsas funksiyası olan döyüşdə aşkara çıxır.

Onun bütün digər mühakimələrindən göründüyü kimi, Sun-tszı təzahürləri nəinki nəzəri, habelə əməli surətdə nəzərdən keçirir. Sun-tszının hər bir mücərrəd müddəası həmişə hərəkət üçün qayda kimi qəbul olunur.

Məsələnin bu tərəfini traktatın Çin şərhçiləri çox yaxşı işləyirlər. Tsao-qun, Du Mu, Mey Yao-çen, Van Çje, Xe Yan-si və Çjan Yuy demək olar ki, hamılıqla bu və ya digər çalarla hesab edirlər ki, Sun-tszı «nizamsızlıq nizamdan doğur» sözləri ilə rəqibə qarşı necə hərəkət etmək üçün sərkərdəyə işarə verir. Sun-tszı öz traktatının əvvəlində «Müharibə – bu aldatma yoludur» ifadəsini işlədir. Və görünür, həmin formaları bu müddəa nöqteyi-nəzərindən anlamaq gərəkdir.

«Nizamsızlıq nizamdan törəyir». Bu o deməkdir ki, guya nizamsızlıqda olduğunu göstərməklə fəndgirliklə rəqibi aldatmaq gərəkdir. Belə olan təqdirdə rəqib sənin üzərinə hücuma keçərkən nizamsızlıq əvəzinə nizamla üzləşəcək və darmadağın olunacaqdır. Rəqibi aldadıcı qorxaqlıq və zəifliklə tovlamaq gərəkdir. Bu halda olan qələbəyə ümid edən rəqib sənin üzərinə hücuma keçərkən həqiqi rəşadət və güclə rastlaşacaqdır.

Çjan Yuy Çin tarixinin bir epizodunu xatırladır. Xan imperatoru Qao-tszu (Lyu Van) hunlara qarşı yürüşə hazırlaşır. O, rəqibin hansı qüvvələrə malik olduğunu və onun ümumi vəziyyətini öyrənmək üçün öz casuslarını səfirlər örtüyü altında oraya göndərir. Hunlar işin nə yerdə olduğunu dərk edərək, casusları azdırmaq qərarına gəlirlər. Onlar bilərəkdən öz yaxşı hissələrini gizlədərək yalnız zəif döyüşçüləri və taqətdən düşmüş atları göstərirlər... Səfirlər geriyə döndükdə bu barədə imperatora xəbər verir və yekdilliklə hunlara qarşı hücuma keçməyin mümkünlüyünü iddia edirdilər. Yalnız imperatorun bir müşaviri əksinə heç bir halda hücuma keçməmək barədə fikrini qətiyyətlə bəyan etdi. Səfirlərin hunlarda yalnız zəif dəstələri görməsi ona şübhəli gəldi və o, belə qənaətdə idi ki, bu bir fənddir və onların əlində hərbi əməliyyatlar üçün əla hazırlıqlı dəstələri vardır. Bununla belə, Qao-tszu öz uzaqgörən müşavirini dinləməyərək hunlara qarşı yürüşə başladı. Məlum olduğu kimi, onun yürüşü uğursuzluqla başa çatdı. Beləliklə, hunlar Sun-tszının qaydası ilə hərəkət etdilər: hiyləgərcəsinə zəifliklərini nümayiş etdirməklə ehtiyatsız düşməni var gücləri ilə üzbəüz qoydular.

Yadda saxlamaq lazımdır ki, belə bir vəziyyətdəki məğlubiyyət heç də mənim qayda-qanunum, qəhrəmanlığım və ya gücüm ilə izah olunmamalıdır. Sun-tszı demişdir ki, mənim qələbəm düşmənin əlindədir. Ona görə də ona mənim qayda-qanunum, qəhrəmanlığım və gücüm deyil, onun öz qayda-qanunsuzluğu, qorxaqlığı və zəifliyi qalib gəlir. Bəs bu hallar haradan yaranır? Düşmən görəndə ki, məndə qayda-qanunsuzluq hökm sürür, o lazımi tədbirləri görmədən mənə hücum edir və asan qələbəyə ümid bəsləyir. Ona görə də o qəfildən tam və möhkəm qayda-qanunla toqquşduqda, dərhal özünü itirir və özü-özünə qalib gəlməyə imkan yaradır. Beləliklə, Sun-tszının sözləri belə məna verir: düşmənin qayda-qanunsuzluğu sənin qayda-qanunundan doğur, düşmənin qorxaqlığı mənim qəhrəmanlığımdan doğur, düşmənin zəifliyi mənim gücümdən doğur.

Bütün bu deyilənləri Sun-tszı növbəti sözlərdə ümumiləşdirir: «Kim ki, öz rəqibini hərəkətə gəlməyə məcbur edir və ona öz formasını göstərirsə, rəqib hökmən onun arxasınca gedir». Du Muk bu fikri belə şərh edir: «Əgər mən güclü, düşmən isə zəifdirsə, onda düşmənə özümün zəif formasını göstərmək və bununla da onu hərəkətə gətirmək lazımdır. Əgər mən zəif, düşmən isə güclüdürsə, onda ona öz güclü formanı göstərmək və bununla da onu çıxıb getməyə məcbur etmək lazımdır: «Düşmənin bütün hərəkətləri sənə tabe vəziyyətdə olacaq». Başqa sözlə, desək, işləri elə qurmaq lazımdır ki, düşmən öz təşəbbüsü ilə heç bir iş görə bilməsin. Faktiki olaraq onun bütün hərəkətlərinə rəhbərlik etməyi bacarmaq lazımdır.

Rəqibə özünün yalançı formanı nümayiş etdirmək, rəqibin hərəkətlərini idarə etməyin birinci üsuludur. Başqa bir üsul isə – onu hər hansı bir təxmin edilən mənfəətə cəlb etməkdir. Düşmən,

adətən, bu tələyə düşür və qarşı tərəfə sərf edən qaydalara uyğun hərəkət edir.

«Düşmənə nə isə verəndə, o mütləq onu götürür və onu bu mənfəətlə aldatdıqda onu qəflətən qarşılayırlar».

Gördüyümüz kimi, bütün bu fikirləriylə Sun-tszı I fəsildə irəli sürdüyü mənanı inkişaf elətdirir. Özünün «yeddi üsulundan» aşağıdakıları tez-tez təkrar edir: «Əgər sən nəyi isə bacarırsansa, düşmənə özünü bacarıqsız kimi göstər», «düşməni mənfəətlə cəlb et və qəfil məğlub et».

Sun-tszı qələbənin səbəbini taktiki məharətin müxtəlif üsullarından istifadə etmək bacarığında görürdü. Lakin taktika özü də müstəqil məfhum deyil və ordunun gücünün səviyyəsini uğurla nəticələnən taktikanı müəyyənləşdirən şəraitdə axtarmaq lazımdır. Sun-tszı deyirdi: «Kim yaxşı vuruşursa, bunun səbəbini öz ordusunun gücündə görür və insanlardan mümkün olmayanları tələb etmir». Burada artıq yeni bir fikir – insanın ordudakı rolu haqqındakı fikir formalaşır. Bu rolun qiymətləndirilməsi tamamilə Sun-tszının ordunun gücü haqqındakı konsepsiyasına tabe olunmuşdur.

Qələbənin insanlardan deyil, ordunun gücündən asılı olması barədəki fikri nə ilə izah olunmalıdır? Belə düşünmək olar ki, Sun-tszı qələbənin yalnız özünün əsgər və komandirlərinin bacarığından asılı olması fikri ilə razı deyil. Qələbəni ordunun ümumi gücü müəyyənləşdirir. Bu ümumi gücdə insanlar nə kimi yer tuturdular?

Bu suala Sun-tszı qısa cavab verir: «Sərkərdə insanları seçməyi bacarır və onları öz güclərinə uyğun olaraq təyin edir». Şərhçilər bu qısa izahatı başa düşməkdə kömək edirlər. Soray deyirdi: «Sərkərdə insanın nəyi bacardığını və nəyi bacarmadığını qiymətləndirməyi bacarır; hər bir insanın gücündən istifadə etməyi və onu döyüşə göndərməyə məcbur etməyi bacarır». Çjan Yuy daha ətraflı izah edir: «İnsanlardan istifadə qaydası belədir: birincinin xəsisliyindən, ikincinin axmaqlığından, üçüncünün ağlından, dördüncünün qəhrəmanlığından istifadə etmək lazımdır, hər bir insanı onun təbii keyfiyyətinə uyğun olaraq təyin etmək lazımdır və insandan onun bacara bilmədiyini tələb etmək lazım deyil». Beləliklə, Sun-tszının fikri aydındır: ordunun gücü bir çox faktlarla, birinci növbədə isə insan faktoru ilə müəyyənləşdirilir. Lakin belə bir fikri irəli sürmək yanlışlıqdır ki, guya ancaq istedadlı, məharətli və qəhrəmanlardan ibarət ordu əsl gücə malikdir. Ordu yalnız qəhrəmanlardan ibarət ola bilməz. Buna görə də qələbənin səbəblərini yalnız döyüşçünün yüksək şəxsi keyfiyyətlərində axtarmaq düz deyil. Ordunun gücü insanların, ümumiyyətlə, yaxşı vuruşması ilə formalaşır. Sərkərdə bütün bu müsbət və mənfi keyfiyyətlərə öz nöqteyi-nəzərindən qiymət verərkən, bunların mənfi-müsbətliyinə fikir vermir. Sərkərdə üçün hər şeydən vacibi və maraqlısı bu keyfiyyətlərin hər birindən əldə etmək olan «güc» maraqlıdır. Hətta bu keyfiyyət «xəsislik» olsa belə, əgər bu xəsislik

güc doğurursa, ondan istifadə etmək lazımdır. Sun-tszı deyirdi: «Sərkərdə insanları onların gücünə müvafiq olaraq təyin etməlidir». Bu bacarıqdan ordunun gücü və ordunun son məqsədi olan qələbə asılıdır. Buna görə də öz şərhlərinin sonunda bu bacarığın vacibliyini əyani surətdə təsvir edən Sun-tszı obrazlı müqayisəyə müraciət edir: «İnsanları onların gücünə müvafiq olaraq seçməyi bacaran şəxs, həmin insanları ağac və daşların yuvarlanmasına oxşar bir tərzdə döyüşə göndərməyə məcbur edir». Ağacların və daşların təbiəti belədir ki, əgər yer səthi hamardırsa, onlar sakit bir təpədə düşdükləri yerdə qalırlar, əgər yer səthi mailidirsə, onlar hərəkətə gəlirlər, əgər onlar dördküncdürlərsə, onlar yenə də yerlərində sakit qalırlar, əgər onlar yumrudurlarsa, onlar yuvarlanırlar».

Mey-Yao-çen bu sözləri belə izah edir: «Ağac və daş ağır cisimlərdir. Onların öz gücündən istifadə etməklə onları asanlıqla tərpətmək olar, lakin insan öz gücündən istifadə edərsə onları tərpətmək çox çətin olar. Ordunun bütün kütləsini onun öz gücündən istifadə etməklə döyüşə göndərmək olar, lakin öz gücündən istifadə etsən buna nail ola bilməzsən. Bu təbii bir haldır».

Mey-Yao-çen Sun-tszının fikirlərini çox gözəl başa düşürdü. Ordunu idarə edərkən, ordunun daxilindəki gücdən istifadə etmək lazımdır, xarici gücdən istifadə mənasızdır. Ağır kötüyü öz əzələlərinin gücündən istifadə etməklə yerindən tərpətmək mümkün deyil, lakin kötüyün öz ağırlığından itstifadə edilsə, kiçik bir təkanla kötüyü yerindən tərpətmək olar.

Beləlikə, sərkərdədən yalnız kiçik bir təkan tələb olunur. Bu nədən ibarətdir? Bu suala Çjan Yuy belə cavab verir: «Ağac və daş hamar yerdə yerləşirsə, sakit dayanır, mail yerdə yerləşirsə yuvarlanır, onlar dördküncdürsə yenə sakit dayanırlar, əgər yumrudurlarsa yuvarlanırlar. Bu onların təbii gücüdür. Əgər ordunun əsas kütləsi təhlükəli vəziyyətlə üzləşirsə, o heç nədən qorxmur, əgər geri çəkilməyə imkan yoxdursa, o möhkəm şəkildə mövcudluğun qoruyur və vuruşur – və bu məfhumlar onun təbii gücüdür».

Beləliklə, Sun-tszının fikri aşağıdakılardan ibarətdir: ağacı və ya daşı tərpətmək üçün mail yer lazımdır; əgər ağac yumru deyilsə, onun budaqlarını kəsmək və onu asan yuvarlanan bir vəziyyətə gətirmək lazımdır. Ordu ilə də belə bir rəftar lazımdır. Ordu üçün elə bir şərait yaradılmalıdır ki, bu şəraitdə döyüş qaçılmaz olsun, belə bir şəraitdə ordunun daxili gücü üzə çıxır. Sun-tszı bu mövzuya həsr etdiyi başlığı «Güc» adlandırmışdır.

Bu başlıqda Sun-tszı ordunun gücünü müəyyənləşdirən elementlərin analizindən bəhs edir. İlk olaraq Sun-tszı ordu təşkilində əsas rol oynayan bölmələrdən bəhs edir. Bundan sonra iki döyüş qaydasından– düzgün döyüşdən və manevrdən bəhs olunur.

Bu elementlərin mövcudluğunu ordunun «bütöv»lüyünü, onun tam döyüş qabiliyyətini, ordunun hücum gücünü, zərbənin

keyfiyyətini müəyyənləşdirir. Bununla birlikdə bu elementlər ordunun müdafiə qabiliyyətini, möhkəmliyini və məğlubedilməzliyini müəyyənləşdirir. Bu elementlər, həmçinin ordunun üç ümumi keyfiyyətini: qayda-qanun, qəhrəmanlıq və gücü müəyyənləşdirir.

Lakin bu elementlər ayrı-ayrılıqda deyil bir yerdə mövcuddur. Onlar ordunun gücünü müəyyənləşdirirlər. Beləliklə, vahid daxili qüvvə yaranır ki, bu qüvvəni Sun-tszı ordunun «gücü» adlandırır. Döyüş bu daxili gücün hərəkəti nəticəsində yaranır. Lakin bu güc oyadılmağa ehtiyacı olan potensiyaya bənzəyir. Sərkərdə bu potensiyanı canlandırmalıdır. Buna necə nail olmaq olar? Ordunu qaçılmaz döyüş şəraitinə gətirmək lazımdır.

VI FƏSİL

Doluluq və boşluq

Tay-tszun Li Vey-qunla «Dialoq»unda qeyd edirdi: «Mən döyüş məharətinə aid çox əsərlər oxumuşam və onların heç biri «Sun-tszı»nın əsərləri hüdudlarından kənara çıxmır. «Sun-tszı»nın bütün 13 bölməsində isə doluluq və boşluq haqqındakı bəhslərdən əlavə heç nə yoxdur. Əgər müharibə aparılan bir dövrdə doluluq və boşluq nəzəriyyəsi mükəmməl öyrənilərsə qalib gəlməmək mümkün deyil». Sun-tszının traktatının VI fəsli olan «Doluluq və boşluq» bu şərhlərin izahına həsr olunub.

Bu terminlərə artıq I və V fəsillərdə rast gəlinib. Sun-tszı dəfələrlə bu terminlərə müraciət edib, çünki doluluq və boşluq, yəni özünün və rəqibinin gücü və zəif tərəfləri haqqındakı təlim onun taktikasının əsasını təşkil edir.

Bu fəsildə Sun-tszı döyüş hazırlığının son vəziyyəti, doluluq və boşluq şəraitində rəqibə qarşı qaydaların ümumi qanunauyğunluğu haqqında bəhs etmir. Bu barədə o, I fəsildə danışmışdı: «Əgər düşmən hazır vəziyyətdədirsə, sən də hazır ol». Lakin müharibə– bu «min cür dəyişiklik və on min cür dəyişəndir», ona görə də, hər bir ümumi vəziyyəti hər bir indiki vəziyyətə uyğunlaşdırmağı bacarmaq lazımdır. Ümumi vəziyyəti uyğunlaşdırmaq isə– özünün və rəqibin gücünün və zəifliyinin təbiətini anlamından asılıdır. Traktatdakı bölmələrin ardıcıllığını təsadüfi deyil, bu ardıcıllıqda bir qanunauyğunluq var. Buna görə də, təsadüfi deyil ki, «Boşluq və doluluq» fəsli, «ordunun gücü» fəslinin ardınca gəlir.

Çjan Yuy bu ardıcıllığı belə izah edir: «Forma haqqındakı fəsil hücum və müdafiədən bəhs edir; güc haqqındakı fəsil düzgün döyüş və manevrdən bəhs edir. Kim müharibə aparmağı bacarırsa, əvvəlcə hücum və müdafiənin bərabərliyi qanununu dərk edir, sonra düzgün döyüş və manevrin nə olduğunu dərk edir; əvvəlcə düzgün döyüş və manevrin birgə dəyişmə mexanizmini dərk edir, sonra isə boşluq və doluluğu dərk edir. Çünki düzgün döyüş və manevr öz funksiyalarını hücum və müdafiəyə uyğun olaraq yerinə yetirir; doluluq və boşluq

isə düzgün döyüş və manevr vasitəsilə aşkar olunur. Buna görə də, bu fəsitl güc fəslinin ardınca gəlir».

Çjan Yuyun bu sözləri o nöqteyi-nəzərdən vacibdir ki, bu sözlərdə Sun-tszının oxucularının və davamçılarının Sun-tszını necə başa düşmələri əks olunub. Bu fəsildə barəsində bəhs olunan hücum və müdafiə, düzgün döyüş və manevr, doluluq və boşluq bir-birindən asılı olmayan elementlər şəklində mövcud olmayıb, əksinə, bir-birini tamamlayan elementlər şəklində mövcuddurlar.

Beləliklə, bu fəsildə yüksək taktiki məharətə– özünün və rəqibin güclü və zəif cəhətlərindən, «boşluq və doluluq»larından istifadə etməyi bacarmaq məharətindən bəhs olunur. Sun-tszının yüksək taktiki məharət haqqında belə bir ümumi formulası mövcuddur: «Kim yaxşı döyüşürsə, o düşməni idarə edir və özünün idarə edilməsinə imkan vermir».

Bu formula çox yüksək qiymətləndirilmişdir. Li Vey-qun qeyd etmişdir: «Bütün min sözlər və on min frazalar Sun-tszının bu frazası çərçivəsi hüdudundan kənara çıxmır». Çjan Yuy isə bu formulaya belə şərh verirdi: «Əgər mən düşməni idarə edərək onu döyüş meydanına gəlməyə və döyüşməyə məcbur edə biliramsə, deməli, onun gücü həmişə boş olacaq; əgər mən bu zaman döyüşü tərk edib döyüşmüramsə, mənim gücüm daim tam olacaq». Beləliklə, bu formulasında Sun-tszı strateji və taktiki təşəbbüsün daim tam şəkildə insanın əlində cəmləşməsinin vacibliyini qeyd edirdi. Lakin bu ancaq problemin zahiri hissəsidir. Problemin daxili hissəsini Çjan Yuy növbəti surətdə izah edirdi. Düşmənin hərəkətlərindən öz mənafeyinə uyğun olaraq istifadə etməyi bacarmaq lazımdır. Düşmən üzərində qələbə qazanmaq üçün şərait yaratmaq lazımdır. Öz qələbəni təmin etmək üçün növbəti şəraiti yaratmaq lazımdır: düşməni hər vasitə ilə gücsüzləşdirmək və özünü gücləndirmək və yaxud Sun-tszının terminlərinin dili ilə desək, düşmənin tamlığını boşluğa, özünün boşluğunu isə tamlığa çevirmək lazımdır. Çjan Yuy belə izah elədi: düşməni ona sərf etməyən bir şəraitdə döyüşə girməyə məcbur edərkən, onun güc ehtiyatları parçalanır, onun tamlığı boşluğa çevrilir və bu zaman insanın öz zəifliyi gücə çevrilir. Çjan Yuy belə hesab edirdi. Sun-tszının fikirlərində belə bir məna hökm sürür: düşmənin öz təşəbbüsü ilə atmadığı hər hansı bir addım onun üçün əlverişli ola bilməz. Bu vəziyyət onun zəifləməsinə aparıb çıxarır. Beləliklə, «tamlıq və boşluq» nəzəriyyəsinə görə düşməni daim məcburi hərəkətə vadar etmək vacibdir. Bu barədə Sun-tszının konkret qaydaları mövcuddur: birincisi, sərkərdə düşmənin hərəkətləri barədə xəbərdar olmalıdır və həmişə düşməndən cəld tərpənməlidir: «Kim döyüş meydanına ilk olaraq gəlirsə və düşməni gözləyirsə, o gücünü qorumuş olur; lakin, kim döyüş meydanına gecikirsə və döyüşə atılırsa, o artıq gücdən düşmüş vəziyyətdə olur». Çjan Yuy bunu belə izah edir: «Əgər mən qabaqcadan əlverişli mövqe tutsam və bu mövqedə düşməni gözləsəm, mənim

döyüşçülərimin və atlarımın qüvvəsi qorunub saxlanılacaq, yox əgər mən düşmənin əlverişli mövqelərinə hücum etsəm və vuruşsam, o zaman mənim qüvvələrim tükənəcək». Beləliklə, Sun-tszı I fəsildə təqdim etdiyi ümumi qaydanı - ancaq başqa əsasda -təkrar edir: «Əgər düşmənin qüvvələri gümrahdırsa, onu taqətdən sal».

Düşmənin bütün hərəkətlərindən xəbərdar olmaq özünün «tam»lığını və düşmənin «boş»luğunu təmin edir. Sun-tszı «düşmənin tamlığını boşluğa, özünün boşluğunu tamlığa çevirmənin» dörd taktiki şərtini göstərirdi, düşmənin cəlb edilməsi, yalançı hücum, zəif yerlərə zərbə, təhlükə yaradılması.

Sun-tszının fikrincə, düşməni cəlb etmək, onu özünə sərf edən istiqamətdə hərəkət etməyə məcbur etməkdir və əksinə, özünə sərf etməyən istiqamətdəki hərəkətdən çəkindirməkdir. Birinci manevrin şərti düşməni cəlb etmə vasitəsi olan müvəqqəti mənfəətdir, ikinci manevrin şərti isə düşməni özünə sərf etməyən istiqamətdə hərəkətdən məhrum etməkdir. Sun-tszı qeyd edirdi: «Düşmənin özünü döyüş meydanına gəlməyə məcbur etmək– onu mənfəətlə cəlb etmək deməkdir; düşmənə irəliləmək və keçib getmək imkanı verməmək isə – ona böyük bir ziyan vurmaq deməkdir». Bu barədə Li Tszyan qeyd edirdi: «Əgər düşmən mənfəətlə cəlb edilərsə, o lap uzaqdan da gələr. Əgər onun zəif yerinə zərbə endirilərsə, düşmən məni dərhal tərk edər və möhkəmlənməyə çalışar».

Sun-tszı belə hesab edirdi ki, bu kimi hərəkətlər böyük nəticələr verə bilər. Düşməni məharətlə idarə etməklə onu taqətdən salmaq və son nəticədə onu məhv etmək olar.

Çin strateqləri düşmənin gücdən salınmasına böyük əhəmiyyət verirdilər. Sun-tszı və digər hərbi tarixçilər həmişə bu məsələyə toxunmuşlar. Belə ki, Çjanqo dövründə (m.ö. VI əsrin sonu– V əsrin əvvəli) sərkərdə U Tszı-syuy Çu çarlığı ilə döyüşərkən növbəti taktikaya əl atırdı: düşmən hücuma keçməyə başlarkən, o geri çəkilirdi: düşmən geri çəkilərkən o öz qoşunlarını hücuma aparırdı; düşmən ona cənubdan zərbə endirmək istərkən, o düşmənə şimaldan zərbə endirirdi; düşmən şimala hərəkət edirdisə, o düşmənə cənubdan təhlükə törədirdi. Beləliklə, o bir il ərzində Çu çarlığını yeddi dəfə və ordusunu müxtəlif istiqamətlərə göndərməyə məcbur etmiş və beləliklə, Çu ordusunu tamamilə taqətdən salmışdı.

Düşməni aclığa vadar etmək də çox vacibdir. Soray yazırdı ki, buna düşmənin azuqə arabalarını ələ keçirməklə, onun ehtiyatlarını yandırmaqla, əkinləri məhv etməklə nail olmaq mümkün idi. Lakin Çin müharibələri xronikasında düşməni aclığa vadar etməyin başqa üsullarından da bəhs olunur. Məsələn, Suy imperiyası dövründə (VII əsrin əvvəlləri) daxili müharibələr zamanı üsyan etmiş tərəfin rəhbəri Li Mi möhkəmləndirilmiş Liyanqene şəhərində möhkəmlənmişdi. Suy imperatoru Yan-di ona qarşı özünün sevimli sərkərdəsi – Yuyvan Xua-tszini göndərmişdi. Li Miyə məlum idi ki, bu sərkərdə heç də

uzaqgörən deyil və çox az ərzaq ehtiyatı var. Buna görə də, Li Mi hiyləyə əl ataraq, düşməninə sülh təklif edir. Xua-tszi belə bir qəfil qələbədən şadlanaraq, bütün ərzaq ehtiyatının əsgərlərə paylanması barədə əmr verdi. Aydın məsələdir ki, təzliklə Xua-tszinin düşərgəsində ərzaq ehtiyatı qurtardı. Belə bir vəziyyətdə Li Mi düşmənin aclıq çəkən ordusuna zərbə endirdi və onu geri çəkilməyə məcbur etdi.

Bundan əlavə, yalançı hücum faktoru da çox vacibdir. Düşməni bu yolla özünə sərf edən istiqamətdə hərəkətə məcbur etmək olar. Sun-tszı bunu belə ifadə edirdi: «Düşmənin səni gözləmədiyi bir istiqamətdə yürüşə başlamaq lazımdır». Düşmən üçün çox vacib və təhlükəli olan bir məntəqəyə yalançı hücum təşkil etmək lazımdır. Bu zaman o özünün bütün qüvvələrini və diqqətini bu məntəqədə cəmləşdirəcək və son nəticədə həqiqi hücum üçün gözəl imkan yaranacaq.

Bu barədə Sun-tszı belə deyir: «Kim insan olmayan yerlərlə, hətta min mil məsafə qət edirsə, o yorulmur».

Saxta hücum təşkil edilərkən, əvvəla bu hücum yaxşı məsafələrə hesablanır, sonra həqiqi hücum isə daha uzaq məsafələrə hesablanır. Yəni düşmən saxta hücum nəticəsində öz əsas qüvvələrini daha yaxşı ətraf məntəqələrdə cəmləşdirdiyindən, əsl hücum gözlənilən daha uzaq məsafələrdə onun qüvvəsi qalmır və buna görə də qarşı tərəfin qüvvələri düşmənin müqaviməti ilə rastlaşmadan uzaq məsafəni qət edərkən qüvvələrini qoruyub saxlaya bilir. Nümunə olaraq Vey və Şu çarlıqları arasında gedən müharibələr dövründə sərkərdə Den Ayın hərəkətlərini göstərmək olar. Vey tərəfindən iki sərkərdə Çjazi Xay və Den Ay fəaliyyət göstərirdi. Onlardan biri öz qoşunlarını düşmən üçün çox təhlükəli olan Tszyanqe istiqamətinə apardı. Şu çarlığının sərkərdəsi Tszyan Vey onu qarşılamağa tələsdi. Digər Vey sərkərdəsi düşmənin bütün qüvvələrini öz cinahına cəlb edə bildi. Den Ay isə bu zaman düşmənin paytaxtına– Çendu şəhərinə hücum etdi. İnpin tərəfdən hərəkət edən Den Ay dağlıq ərazilərlə 700 mil məsafə qət edərək, Çendunu zəbt etdi və beləliklə müharibənin taleyi həll olundu.

Çen Xao əhali yaşamayan, məskunlaşmamış ərazilərdə qoşunların hərəkətini belə izah edir: «Burada bəhs olunan boşluq, təkcə düşmənin müdafiə qabiliyyətinin zəifliyi demək deyildir. Əgər düşmənin müdafiəsi zəif və qeyri-sabitdirsə, əgər ordunun sərkərdəsi zəifdirsə, ordunun ərzağı çatışmırsa, mən öz mütəşəkkil ordumla onun qarşısına çıxıram və o bu vəziyyəti görüb özü dağılmağa məhkum edilir. Bu da o deməkdir ki, mən heç bir çətinliklə toqquşmadan asan qələbə qazanıram».

Düşmənin qüvvələrini yalançı istiqamətə cəlb etmək, onun tamlığını boşluğa çevirmək deməkdir. Onun lazım olmayan səmtə yönəlmiş qüvvəsi zəifliyə çevrilir. Digər tərəfdən onun müdafiə etdiyi «dolu» yerlər, müdafiəsiz «boş» yerə çevrilir. Sun-tszı V fəsildə

deyirdi: «Belə zərbə «tam»ın «boş»a, «daş»ın «yumurta»ya zərbəsidir».

Sun-tszı «boş»luğa zərbə haqqındakı fikrini belə izah edirdi: «Hücum edərək düşmənin mövqeyini mütləq ələ keçirmək onun müdafiə olunmadığı yerə hücum etmək deməkdir». Du Mu isə buna necə nail olunduğunu təsvir edir: «Düşmənə şərqdə təhlükə yaradırsan, qərbdə isə zərbə endirirsən, onu qarşı tərəfdən cəlb edirsən, arxadan isə zərbə endirirsən». Başqa cürə desək: «Düşmənə onun səni gözləmədiyi bir yerdən zərbə endirməlisən». Van Çje isə belə izah edirdi: «Düşməndə mənim istəyimdən asılı olmayan zəif nöqtələr var və mən bundan istifadə etməliyəm». Çjan Yuy isə belə hesab edirdi ki: «Düşməndə zəif cəhətlər məhz mənim aktivliyim nəticəsində yaranır». Sun-tszı hücumun qəfil olmasına əhəmiyyət verirdi: «Kim yaxşı hücum edir və düşmənə müdafiəyə hazırlanmağa imkan vermirsə, o qalib gəlir». Beləliklə, mənim hücum etdiyim ərazi düşmən tərəfindən müdafiə olunmur.

Sun-tszının bu dediklərinə tarixdə yaxşı bir nümunəni misal çəkmək olar. Xan dövrünün sərkərdəsi Qen Yanın Çjan Bu ilə döyüşü buna gözəl nümunədir. Düşmənin müdafiəsinin bir-birindən 40 mil məsafədə yerləşən – Sian və Mindyan qalaları təşkil edirdi. Bunlardan biri kiçik, lakin çox gücləndirilmiş, ikinci qala isə böyük, lakin zəif müdafiə olunan idi. Qen Yan düşmənin bu dayaq nöqtələrini məhv etmək qərarına gəldi. Bu məqsədlə o, orduya kiçik və möhkəmləndirilmiş Sian qalasına hücum etmək əmri verdi və hücum gününü təyin etdi. Tsi Yanın düşərgəsində əvvəlki döyüşlərdə ələ keçirilmiş əsirlər var idi. Qen Yan bu əsirlərə qaçmaq imkanı verilməsi barədə məxfi əmr verdi. Əlbəttə ki, qaçan əsirlər Sian qalasına tələsərək, öz sərkərdələri Çjan Buya beş gündən sonra qalaya ediləcək hücum barəsində məlumat verdilər. Çjan Bu müdafiəni möhkəmləndirmək məqsədilə, digər– Lindyan qalasından qoşunların bir hissəsini Sian qalasına köçürdü və hücumu gözləməyə başladı. Lakin Qen Yan Sian qalası əvəzinə, demək olar ki, tam müdafiəsiz qalmış Lindyan qalasına hücum etdi və asanlıqla onu ələ keçirdi. Beləliklə, Sian qalası təcrid olunmuş bir vəziyyətə düşdü və tezliklə təslim oldu.

Xan imperatoru Tszin-dinin (e.ə. 156-140-cı illər) hakimiyyəti dövründə imperatora qarşı yeddi knyaz üsyan etmişdi. Üsyançıları sakitləşdirmək məqsədilə Çjou Ya-fu göndərildi. Öz qoşunları ilə o Çanyidə mövqe tutdu. Üsyançılar cənub-şərqdən ona hücum etdilər. Çjou Ya-fu bundan xəbərdar olan kimi, dərhal müdafiənin şimal-qərb hissəsini möhkəmlətmək əmri verdi. Onun əlaltıları bu əmrdən çox təəccübləndilər. Lakin tezliklə aydın oldu ki, Çjou düz qərar qəbul etmişdir. Çanyiyə cənub-şərqdən hücum edən düşmən, döyüşün qızğın çağında özünün ən seçmə hissələrini şimal-şərq istiqamətindən hücuma göndərdi. Düşmən elə hesab edirdi ki, bu səmtdən şəhərə girmək asan olacaq. Lakin o çox möhkəm bir

müdafiə ilə üzləşdi və onun ən yaxşı hissələri məğlubiyyətə uğradı və geri çəkildilər. Çjou Ya-fu düşmənin hücum etmədiyi səmtdə müdafiəyə hazırlaşdı və qalib gəldi.

Du Mu Sun-tszının fikirlərini belə izah edir ki: «Sərkərdə döyüşdə düşmənin hücum etmədiyi sahələri də müdafiə etməlidir». Van Çje hesab edir ki, söhbət, ümumiyyətlə, müdafiənin tamlığından gedir: «özündəki doluluğun köməyilə müdafiə olunmaq». «Sərkərdə bacarıqlı olmalı, əsgərlər yaxşı təlim görməli; döyüş hazırlığı tam ciddiyyətlə aparılmalı, ərzaq ehtiyatı tam olmalıdır: bunlar hamı qələbəni yetişdirir və yaxınlaşdırır». Çjan Yuy Sun-tszının bu sözlərini belə izah edir: «Kim yaxşı müdafiə olunursa, o düşmənə onun planlarından xəbərdar olmaq imkanını vermir. Beləliklə, mən nəyi müdafiə edirəmsə, düşmən ona hücum etmir».

Bütün yuxarıda deyilənlər Sun-tszının fikirlərini düz izah edir, lakin bu fikirləri axıra qədər şərh edə bilmir. Sun-tszının «hücum etmək və bu zaman əldə etmək– bu müdafiə olunmayan yerə hücum deməkdir, müdafiə olunmaq və nail olduğumu əldə saxlamaq– bu isə düşmənin hücum etmədiyi ərazini müdafiə etmək deməkdir» sözləri o vaxt xüsusi məna kəsb edir ki, bu sözləri onun əsas mərkəzi fikri ilə müqayisə edəsən. Mərkəzi fikir isə bundan ibarətdir: «Müharibədə daim «ev yiyəsi» olmalısan, «qonaq» olmamalısan, həmişə düşmənin hərəkətlərini idarə etməlisən, ona imkan verməməlisən ki, o səni idarə elәsin. Lakin düşmən hücum edən zaman müdafiə nə deməkdir? Bu düşmənin məni vadar etdiyi və mənim tərəfimdən həyata keçirilən bir hərəkətdir. Deməli, mən onu yox, o məni idarə edir. Düşmənin möhkəmlətdiyi və müdafiə etdiyi əraziyə hücum etmək nə deməkdir? Bu da həmçinin məcburi bir haldır və hər iki halda «ev sahibi» mən yox, odur. Belə olan surətdə qələbədən söz belə ola bilməz. Düşmən möhkəm müdafiə yaradır və məni darmadağın edir, düşməndən məcburi müdafiə olunuramsa, mən daima məğlubiyyət riski ilə qarşılaşıram. Buna görə də, Sun-tszı djüşmənin səni gözləmədiyi yerə hücum etməyi məsləhət görürdü, yəni hücum üçün yer seçməyi sənin öz öhdənə buraxırdı. Həmçinin müdafiə üçün də elə bir yer seçilməliydi ki, o yerə düşmən hücum etmir. Başqa sözlə desək, özün müdafiə üçün mövqe seçməlisən və bununla da digər cinahlarda möhkəm mövqe yaradıb, düşmənin hücum etdiyi mövqe üçün təhlükəni aradan qaldırmalısan. Sun-tszı qeyd edirdi: «Hücum etməyi bacaran sərkərdənin düşməni haradan müdafiə olunmağı bilmir; müdafiə olunmağı bacaran sərkərdənin düşməni isə haradan hücuma başlamağı bilmir». Sun-tszı müharibənin «sahib»inin vəziyyətini çox gözəl təsvir edir. Kim yaxşı hücum edirsə, strateji və taktiki təşəbbüsü öz əlində cəmləşdirir. Onun hərəkətləri müstəqil və düşməndən asılı olmayan vəziyyətdə olur və nəticədə düşmən necə addım atmağı bilmir. Həmin nəticə yaxşı müdafiə olunmağı bacaranlara da aiddir. Əgər sərkərdə öz müdafiəsini yaxşı qura bilirsə, özü müdafiə metodları seçə bilirsə və

bu metodları hücum edən düşməndən qəbul etmək məcburiyyətində qalmırsa, bu müstəqilliyin hesabına hücum edən tərəfin bütün ümidlərini puça çıxara bilər.

Çin müharibələri tarixində bəhs etdiyimiz bu müdafiəyə aid gözəl bir nümunə var. Şu çarlığının görkəmli sərkərdəsi Çjuqe Lyan Siçen şəhəri yaxınlığında Vey çarlığının sərkərdəsi Sıma İ başda olmaqla düşmənin sayca qat-qat üstün qüvvələri tərəfindən mühasirə olunmuşdu. Bu vəziyyətə görə Çjuqe Lyan şəhər daxilində möhkəmlənməli və var gücü ilə müdafiə olunmalı idi. Lakin bu vəziyyət düşmənin mənafeyinə uyğun olmuş olardı. Buna görə də Çjuqe Lyan qəflətən darvazaları açdırdı, əsgərlərə yerlərindən tərpənməmək əmri verdi, özü isə şəhərin əsas darvazasının qülləsinə çıxdı və düşmənin gözü qarşısında tütək çalmağa başladı. Olduqca təəccüblənən düşmən heç cür inana bilmirdi ki, Çjuqe Lyan özü darvazaları açsın və düşmənə şəhərə girməyə imkan versin və düşmən belə güman etdi ki, bu hərəkətin arxasında məharətlə qurulmuş bir tələ gizlənir. Beləliklə, düşmən tam çaşqınlıq içərisində qoşunları mühasirədən geri çəkdi və Çjuqe Lyan hətta müdafiə vəziyyətində olsa da belə, döyüş meydanının «sahib»inə çevrildi.

«İncə məharət! İncə məharət!– onu təsvir etmək üçün forma belə yoxdur. İlahi məharət! İlahi məharət!– onu ifadə etmək üçün söz belə yoxdur» - Sun-tszı düşmənin hərəkətlərini idarə etmək məharətini belə xarakterizə edir. Bu məharətə malik olan sərkərdəyə isə Sun-tszı belə tərif verirdi: «Buna görə də o, düşmənin taleyinin hakimi ola bilər».

Bəhs etdiyimiz bölmədə əsasən gözlənilməzlik prinsipindən bəhs olunur. Həmişə rəqib üçün gözlənilməz fəaliyyət göstərməklə, döyüş «sahib»i roluna yiyələnmək olar.

Bu haqda Sun-tszı bu bölmənin sonunda belə deyirdi: «Əgər sən irəliləyirsən və düşmən buna mane ola bilmirsə– deməli sən onun boşluğuna zərbə endirirsən». Bu sözlər o mənanı verir ki, əgər hücum düşmən üçün gözlənilməz bir tərzdə başlayırsa və təşəbbüs onun əlindən alınırsa, düşmən məcburi müdafiəyə keçir. Hücumun gözlənilməzliyi isə düşmənin hazırsızlığını aşkara çıxarır. «Sən geri çəkilirsən və düşmən səni təqib edə bilmirsə, demək sən elə bir cəldlik və surətə maliksən ki, düşmən səni haqlaya bilmir». «Cəld» sözü burada geri çəkilmək barəsindəki fikirləşməyə daha çox aid olunmalıdır. Sərkərdə qələbə çalmaq üçün geri çəkilməyin vacibliyini hiss edən kimi, dərhal geri çəkilməyi qərara alır. Hücum edən tərəfin gözlənilmədən hücumdan imtina etməsi və geri çəkilməsi düşməni daim çaş-baş salır. Çaşqınlıq içində olan düşmən artıq geri çəkilən tərəfi təqib etmək iqtidarında deyil və yalnız ona görə yox ki, onun əsgərləri geri çəkilən tərəfin əsgərlərindən iti hərəkət edirlər, sadəcə olaraq düşmən tərəfindən təqib ləng və qətiyyətsiz bir tərzdə aparılır. Düşmən burada bir hərbi fəndin– tələnin olmasından ehtiyat edir.

Düşmənin hərəkətinin idarə olunmasında üçüncü vacib şərt, düşmənin vacib nöqtəsinə zərbə endirməyi bacarmaqdır. Sun-tszı bunu belə izah edir: «Düşməni onun istəyib-istəməməsindən asılı olmayaraq döyüşü qəbul etməyə məcbur etmək lazımdır». Buna isə ancaq düşmən üçün vacib və təhlükəli olan bir yerə zərbə endirməklə nail olmaq olar. Sun-tszı belə deyir: «Əgər mən vuruşmaq istəyirəmsə, qoy düşmən yüksək maneələr ucaltsın, dərin xəndəklər qazsın, heç bir əhəmiyyəti yoxdur; o mənimlə döyüşə bilməyəcək. Çünki mən onun dərhal xilas etməyə borclu olduğu bir yerə hücum edirəm». Tsyao-qun bu yerləri belə təsvir edir: «düşmənin ərzəq daşınan yollarını kəsmək, geriyə çəkilmək yollarını tutmaq, düşmən hökmdarına hücum etmək və s.». Bu manevrlərə misal olaraq, Çjanqo dövründəki Çin müharibələri tarixindən bir epizodu xatırlamaq olar.

Lyan və Çjao knyazlıqları arasında müharibə gedirdi. Lyan ordusu Çjao knyazlığına hücum etmiş və knyazlığın paytaxtı– Xandan şəhərini mühasirəyə almışdı. Xandan artıq süquta çox yaxın idi. Bu zaman Çjao knyazı qonşu Tsi knyazlığından yardım istədi. Tsi knyazı köməyə razı oldu və öz sərkərdəsi Tsyan Tszi başda olmaqla böyük bir ordunu köməyə göndərdi. Lakin knyazın məsləhətçilərindən olan Sun Bin onu bu fikrindən qəti olaraq daşındırmağa çalışaraq təklif etdi ki, mühasirədə olanlara köməyə getməkdənsə, Lyan knyazlığının paytaxtına hücum etmək daha əlverişlidir. O, əmin edirdi ki, Lyan ordusu öz paytaxtını təhdid edən təhlükədən xəbər tutan kimi, özü Xandanın mühasirəsini aradan qaldıracaq və öz paytaxtının müdafiəsinə tələsəcək. Başqa sözlə desək, o, «elə bir yerə hücum etməyi təklif edirdi ki, bu yeri rəqib hökmən xildas etməlidir». Həm də bu tipli döyüşlər, adətən, döyüşə məcbur edilmiş tərəfin məğlubiyyəti ilə sona çatır. Ona görə də, mühasirə ilə məşğul olan və burada qüvvələri tükənən, sonra isə öz paytaxtının xilasına tələsən və tələsik yürüş nəticəsində qüvvədən düşən və yorulan Lyan ordusu yaxşı, möhkəmləndirilmiş mövqe tuta bilmir və özünün «tam»lığını itirərək «boş»luğa çevrilir. Tsian knyazı bu məsləhətə qulaq asdı və hər şey Sunn Binin dediyi kimi oldu. Beləliklə, Çjaonun paytaxtı xilas edildi. Lyan ordusu isə darmadağın olundu.

Sun-tszının dediyinə görə– dördüncü şərt strateji təhlükə yaratmaqdır. Belə üsulla düşməni əvvəllcədən nəzərdə tutduğu hərəkətdən əl çəkməyə məcbur etmək olar. Sun-tszı bunu belə izah edir: «Əgər mən döyüşə girmək istəmiriəmsə, mən ancaq bir yerdə mövqe tuturam və bu mövqeni müdafiə edirəm, onsuz da düşmən mənimlə döyüşə girə bilməyəcək, çünki mən onu getdiyi yoldan qaytarıram».

Bunu belə şərh edək: hazırki şəraitdə mənə döyüşə girmək əlverişli deyil, düşmən üçün isə əksinə, bu əlverişlidir. Belə etmək lazımdır ki, o mənimlə döyüşə girə bilməsin. Bunu etmək üçün

möhkəm bir mövqe tutmaq kifayətdir, düşmən mənimlə döyüşə girə bilmir.

Qeyd etmək lazımdır ki, bir çox Çin şərhçiləri Sun-tszının bu qeydlərini bir qədər başqa tərzdə izah edirlər. Çjan Yuy belə bir şərh verir: «Əhvalat düşmənin soxulduğu ərazimdə baş verir. Bu ərazıyə düşmən müdaxilə etmişdir. Mən – ev yiyəsi, o isə – qonaqdır. Mənim çoxlu ərzağım, azacıq əsgərim var; onun isə cüzi ərzağı və çoxlu əsgəri var. Təbii ki, onunla döyüşə girmək mənə sərf etmir. Mən möhkəmləndirilmiş mövqe tikməyə bilərəm, onsuz da düşmənin mənə hücum etməyə cürəti çatmayacaq. Çünki mən onu yönəldiyi istiqamətdə geri çəkilməyə məcbur edə bilirəm». Du Mu da bu fikirdədir: «Əgər düşmən mənə hücum edirsə, mən onunla döyüşə girməyərək, müxtəlif manevrlərə əl atıram və onu çaşdırıram».

Hansı vasitələrlə düşməni çaşdırmaq və onu cəsarətsiz etmək olar? Du Mu Çin müharibələri tarixinə müraciət edir. Çjao Yun Vey hökmdarı U-di ilə döyüşərkən, təsadüfən az bir qüvvə ilə U-dinin çoxsaylı qoşunları ilə toqquşur. Öz düşərgəsinə çəkilən Çjao Yun darvazaları açmaq, bayraqları endirmək və tam fəaliyyətsizlik və sakitliyə riayət etmək əmrini verir. Geri çəkilənləri təqib edən U-di düşərgəyə yaxınlaşarkən belə gözlənilməz bir mənzərə ilə toqquşduqda, bunun məharətli bir hiylə olduğunu düşünüb qoşunlarını geri çəkdi.

Məharətlə istifadə olunması düşmənin hərəkət və fəaliyyətini öz qərarınla idarə etmək imkanı verən dörd üsul bunlardır. Bu Sun-tszının ümumi strategiya və taktikasının ikinci şərtidir. Sun-tszının fikrincə üçüncü şərt – döyüş zamanı düşmən üzərində sayca üstünlüyün təmin edilməsidir.

Lakin bu ümumi xarakterli bir şərtdir. Həqiqi müharibədə həmişə düşməndən sayca üstün olan orduya malik olmaq mümkün deyil. Sun-tszı belə hesab edir ki, belə hallarda yalnız o zaman döyüşə girmək olar ki, sənin qüvvələrin sayca düşməninkindən çox olsun. Belə bir şəraitə nail olmaqdan ötrü, Sun-tszı düşmənin qüvvələrini hissələrə parçalamağı və hər hissəyə ayrıca zərbə endirməyi təklif edirdi. Beləliklə, bu şəraitdə ümumi cəhətdən düşməndən sayca zəif olursansa, onun ayrı-ayrılıqda hər bir hissəsindən güclü olursan. «Tamlığı müdafiə edərək, mən tam bir vahid təşkil edirəm, hissələrə parçalanan düşmən isə onluq təşkil edir. O zaman mən öz onluğumla onun tək bir vahidinə hücum edəcəm».

Sun-tszı düşmənin qüvvələrini parçalamağa necə nail olmağı izah edirdi. «Forma» terminindən istifadə edərək izah edir: «Əgər mən düşmənə hər hansı bir formanı göstərirəmsə, özüm isə o formaya malik deyiləmsə, mən öz bütövlüyümü qoruyub saxlayıram, düşmən isə ayrı-ayrı hisslərə parçalanır».

Çjan Yuy bu fikri belə izah edir: «Düşmənə formanı göstərmək – onu manevri düzgün döyüş, düzgün döyüşü isə manevr kimi qəbul

etməyə məcbur etmək deməkdir. Formaya malik olmamaq – bu öz manevrini düzgün döyüşə, öz düzgün döyüşünü isə manevrə çevirmək, daim öz taktikanı dəyişmək və onu düşmənin qavraya bilməyəcəyi bir hala gətirməkdir. Düşmənin forması mənim üçün tam müəyyənləşəndə, mən ona hücum edirəm. Bununla belə, mənim formam aşkarlanmır. Bu zaman düşmən öz qüvvələrini parçalayaraq, müdafiəyə keçməyə məcbur olur».

Çjan Yuyun fikirləri tamamilə düz olsa da, birtərəflidir. Düşməni saxta döyüş üsulları ilə döyüşə cəlb etməklə aldatmaq – bu yalnız çoxsaylı imkanlardan biridir. «Forma» anlayışının ümumi bir anlayış olaraq, ordunun bütün hərəkət və potensialını əhatə edir. Sun-tszının formulasının ümumi xarakterini şərhçi Xuan syan Çen gözəl izah edir: «Düşmənə özünün tam və boşluğunu göstərməməlisən; və özünün güclü və zəif cəhətlərin haqqında onu çaşdırmalısan». Buna isə ancaq rəqibə olmayan bir şeyi nümayiş etdirməklə nail olmaq olar. Bunun nəticəsində düşmən öz qüvvələrinin ona ilk baxışdan zəif və güclü görünən məntəqələrə yönəldəcək və beləliklə öz qüvvələrini parçalayacaq. Son nəticədə düşmən üzərində say çoxluğuna nail olmaq olar».

Sun-tszı belə izah edir: «Düşmən vuruşacağı yeri qabaqcadan bilmir. Əgər o bunu bilmirsə, onun hazır olmalı olduğu bir çox yerləri var. Əgər onun belə yerləri çoxdursa, demək onun mənimlə vuruşmağa qüvvəsi çox az qalır». Çjan Yuy daha ətraflı izah edir: «Düşmən mənim döyüş arabalarımın haradan hücum edəcəyinin, mənim süvarilərimin haradan peyda olacağını və mənim piyadalarımın haradan hücuma keçəcəyini bilmir. Buna görə də o öz qüvvələrini parçalayır və döyüşə müxtəlif yerlərdə hazırlaşır. Nəticədə onun qüvvələri parçalanıb, zəifləyir, onun gücü tükənir. Bununla əlaqədar olaraq, mənim onunla qarşılaşacağım yerdə mənim qüvvəm ondan qat-qat artıq olur».

Beləliklə, öz qüvvələrini parçalamağa məcbur olan sərkərdə hər yerdə öz düşməninə nisbətən az saylı qüvvəyə malik olur. Sun-tszı belə izah edir: «Əgər o irəlidə hazırdırsa, arxada onun öz qüvvəsi olacaq, əgər o arxada hazırdırsa, irəlidə onun az qüvvəsi qalacaq, əgər o solda hazırdırsa, sağda az qüvvəsi qalacaq, əgər o sağda hazırdırsa, solda az qüvvəsi qalacaq». «Əgər sərkərdə hər bir istiqamətdə qüvvə saxlamalıdırsa, demək onun qüvvəsi düşməninkindən sayca həmişə az olacaq». Du Mu Sun-tszının bu fikrini belə izah edir: «Döyüşə harada başlayacağını düşmənə heç zaman bildirmək olmaz. Mənim formam onun üçün anlaşılmaz olmalıdır. Düşmən heç vaxt bilməməlidir ki, mən ondan sağda, solda, arxada və ya öndəyəm, ondan uzağam və ya ona yaxınam; mən düz yerdə və ya dağlıq ərazidə yerləşirəm. O bilməməlidir ki, mən haradan hücum edəcəm və bizim döyüşümüz harada baş verəcək. Buna görə də o öz ordusunu ayrı-ayrı hissələrə parçalayır və hər

yerdə müdafiə olunmağa məcbur olur. Nəticədə mən say çoxluğu vasitəsilə ona qalib gəlirəm».

Sun-tszının fikrincə, sərkərdə döyüş yerini və vaxtını dəqiq seçə bilməlidir. «Əgər sən döyüş yerini və gücünü dəqiq bilirsənsə, min mil uzaq məsafəyə də yürüş edə bilərsən». Çjan Yuy isə bunu belə izah edir: «Rəqibə zərbə endirərkən, əvvəlcədən döyüş yerini bilmək lazımdjır və döyüş yerinə gələrkən düşməni sənlə döyüşə girməyə məcbur etmək lazımdır. Əgər mən döyüş yerini və gücünü biliəmsə, mənim döyüş qabiliyyətim həmişə tam və mənim müdafiəm həmişə möhkəm olacaq».

Sun-tszı əvvəlcədən döyüş yerini və döyüş gücünü bilməməyin ağır nəticələr verə biləcəyindən bəhs edərək, yazırdı: «Əgər mən düşmənin hər hərəkətindən xəbərdaramsa, qoy onun çoxsaylı qoşunu olsun, heç bir əhəmiyyəti yoxdur, bu ona döyüşdə kömək etməyəcək».

Strategiyanın və taktikanın növbəti şərti – düşməni yaxşı tanımaqdır. Sun-tszı belə hesab edir ki, növbəti şərtləri yaxşı öyrənmək lazımdır: 1) düşmənin operativ planlarının səhvləri və üstünlüklərini; 2) onun hərəkətlərini idarə edən qanunları; 3) onun «yaşayış yeri»; 4) onun vəziyyətini; onun «çatışmamazlıqları və boşluqlarını».

Sun-tszı bu şərtləri öyrənməyin yollarını da göstərirdi. Düşmənin operativ planının səhvlərini və üstünlüklərini bu plana ümumi qiymət vermək yolu ilə öyrənmək olar.

Düşmənin ölüm və həyat yerlərini, özümün «yalançı formamı» ona göstərməklə təyin etmək olar. Güclü və zəif cəhətlərini yalnız onunla toqquşduqda müəyyənləşdirmək olar.

Bu barədə Çjan Yuy yazırdı: «Düşmənin vəziyyətini qiymətləndirməyi, onun operativ planının üstünlüklərini və çatışmamazlıqlarını öyrənməyi Se-qundan öyrənmək lazımdır, necə ki, Se-qun Tszin-Bunun üç planını qiymətləndirə bilmişdi».

Çin tarixinin Xan dövrünün başlanğıcında, Qao-tszunun çarlığı dövründə (m.ö. 206-195); yerli knyazlardan biri– Tszin Bu üsyan qaldırdı. İmperator məsləhət üçün Se-quna müraciət etdi. Se-qun ona belə cavab verdi: «Hökmdar, əgər Tszin Bu əla plana üstünlük versə, siz Şandun əyalətini itirəcəksiniz, əgər o orta plana üstünlük versə, qələbənin kimin tərəfində olacağını qabaqcadan söyləmək çətindir. Əgər o zəif plana əl atsa, onda siz arxayın yata bilərsiniz». Bu zaman imperator soruşdu: «Əla, orta və zəif planlar nə deməkdir?» Se-qun cavab verdi: «Əgər Tszin Bu şərqdə U, qərbdə isə Çu knyazlığını ələ keçirərsə, Tsi və Lu knyazlıqlarını birləşdirirsə, Yan və Çjao knyazlıqlarını öz tərəfinə cəlb edə bilsə, və onun özü öz iqamətgahında möhkəmlənə bilsə, bu onun əla planı olacaq. Əgər o şərqdə U, qərbdə Çu knyazldıqlarını ələ keçirsə, Xan və Vey knyazlıqlarını birləşdirsə, Ao-tsanda yerləşən böyük miqdarda ərzaq və hərbi sursatı ələ keçirsə, orada möhkəmlənsə və Çenqaya gedən

yolu bağlasa, bu onun orta planı olacaq. Əgər o şərqdə U, qərbdə Syatsay knyazlığını ələ keçirsə, öz sərvəilərini Yue knyazlığına daşısa, özü isə Çninada gizlənsə bu onun zəif planı olacaq». Bu zaman imperator soruşdu: «Bəs Tszın Bu bu planlardan hansını seçəcək?» Se-qun cavab verdi: «Tszın Bu lovğa və dərrakəsiz adamdı. Buna görə də o, zəif planı seçəcək». Hadisələrin gedişi göstərdi ki, Se-qunun dedikləri doğru imiş.

Başqa bir nümunə göstərək. Qərbi Vey çarlığının sərkərdəsi Yuy Tszin düşməni qiymətləndirməyi bacarırdı. Şimali Çində yerləşən qərbi Vey və cənubda yerləşən Lyan çarlığı arasında müharibə başlamışdı. Lyan ordusunun başında Lyan imperatoru Yuan-di dururdu. Qərbi Vey imperatoru ona qarşı öz sərkərdəsi Yuy Tszini göndərmişdi. Yuy Tszin Tszyanmin yaxınlığında lyanlılara hücum etdi. Döyüşdən qabaqkı məşvərətdə Yuy Tszin demişdi: «Əgər Yuan-di Tszyanmini tərk etsə və qədimdən cənub sülaləsinə məxsus olan– Dyan-yana tərəf geri çəkilsə – bu onun tərəfindən ən yaxşı fənd olar. Əgər o xalqı möhkəmləndirilmiş Tszyanminin müdafiəsinə göndərsə və arxadan kömək gözləsə, bu onun orta fəndi olar. Tszyanminin yaxınlığında kiçik Loqo qalası var. Əgər o Loqo qalasında möhkəmlənsə, bu onun zəif fəndi olar. Lakin Tszyanminin əhalisini köçürmək çətindir. Bundan əlavə Yuan-dinin özü qorxaq, zəif və cəsarətsizdir. Buna görə də o zəif planı seçəcək». Yuy Tszinin sözləri özünü tamamilə doğrultdu. Sunn-Tszeminin dediyinə görə, düşmənin fəaliyyət qanunlarını, yəni düşmən fəaliyyət göstərərkən nəyi əldə rəhbər tutduğunu yalnız «ona təsir göstərməklə» öyrənmək olar. Bu nə deməkdir?

U-tszının traktatında belə bir yer var: «Knyaz U soruşdu: «Tutalım ki, iki rəqib tərəf qarşı-qarşıya gəlib və mən düşmən sərkərdəsini tanımıram lakin tanımaq istəyirəm. Bunu necə etmək olar?»

U-tszı cavab verdi: «Aşağı vəzifəli, lakin cəsur bir komandir seçmək, ona az miqdarda seçilmiş dəstə vermək və düşmən sərkərdəsini sınağa çəkmək tapşırığı vermək lazımdır. Lakin bu komandir nəyə isə nail olmamalı, yalnız geri qaçmalıdır və eyni zamanda rəqibin fəaliyyətini müşahidə etməlidir. Əgər rəqib öz fəaliyyətini yaxşı təşkil edibsə, əgər o qarşı tərəfin qaçan əsgərlərini təqib edərkən, özünü elə göstərirsə ki, guya qaçanlara çata bilmir və əgər o öz qarşısında bir mənfəət görürsə və özünü bilməməzliyə vurursa, onda belə sərkərdəni ağıllı saymaq olar və onunla döyüşməkdən çəkinmək lazımdır. Əgər onun ordusu səs-küylüdürsə, bayraqları səliqəsizdirsə, əgər onun əsgərləri təkbaşına hərəkət edirlərsə, əgər rəqibin əsgərlərini təqib edərkən, onun qarşısına hər hansı bir qənimət çıxanda o bu qəniməti itirməkdən qorxursa, demək o axmaq sərkərdədir. Onun çoxsaylı qoşunu olsa da belə, onu məğlub etmək olar».

Sun-tszı deyirdi: «Düşmənə təsir etmək– onu hər hansı bir addım atmağa məcbur etməkdir». Məsələn, düşməni fəaliyyət göstərməyə məcbur etmək üçün saxta hərbi manevr kifayətdir. Düşmənin necə hərəkət edəcəyini hərbi əməliyyatlar başlayana qədər öyrənmək lazımdır. Düşmənin döyuş taktikası isə yalnız döyüş zamanı müəyyənləşir. Du Mu və Çjan Yuy «düşmənə təsir etmək» sözünü başqa cür başa düşürlər. Onlar belə hesab edirlər ki, düşmən sərkərdəsinin psixologiyasına təsir göstərmək lazımdır. Rəqibin psixologiyasına təsir edərək, onu hər hansı bir fəaliyyətə məcbur etmək və eyni zamanda, bu fəaliyyəti müşahidə etmək lazımdır. Bu müşahidə nəticəsində rəqib haqqında dolğun məlumat almaq olar. Sun-tszı bu barədə belə yazırdı: «Düşməndə qəzəb oyat və onu çaşqınlıq halına gətir». Buna bariz bir misal göstərək. Çjuqe Lyan öz rəqibi Sıma-İyə istehza hissi ilə bir «hədiyyə»= qadın libası göndərmişdi. Çjan Yuy isə yuxarıda söylədiklərimizə bir misal göstərir. Tszin və Çu çarlıqları arasında gedən müharibə zamanı Tszin knyazı Ven-qun düşmən çarlığının səfiri Van Çunu həbs etmişdi. Bununla o rəqib sərkərdəsi İn Tszi-Yuyanı qəzəbləndirmiş və rəqib sərkərdəsi tam hazırlıq görmədən hərbi əməliyyatlara başlamış və məğlub edilmişdi.

Gördüyümüz kimi, Sun-tszı «düşmənə öz formanı göstərmək» fikrini irəli sürərkən, yalnız yalançı formadan bəhs edirdi. «Yalançı formanı nümayiş etdirməklə düşməni çaşdırmaq olar». Sun-tszının bu fikrini Soray belə izah edir: «Formanı göstərmək» - düşmənə mənim guya güclü və zəif olmağımı, mənim qoşunlarımın çox və ya az olmasını, mənim öz qüvvələrimi hissələrə parçalayıb-parçalamamağım, mənim şərqdə və ya qərbdə vuruşmağı qərara almağımı göstərməkdir». Yalançı formanın nümayiş etdirilməsinin birinci konkret məqsədi düşmənin fikrini özümün zəif nöqtələrindən yayındırmaq və güclü nöqtələrinə yönəltməkdir.

Çjan Yuy bu barədə belə yazırdı: «Əgər sən düşmənə öz formanı zəif göstərirsənsə, o hökmən irəli gələcək; əgər sən öz formanı güclü göstərirsənsə, o geri çəkiləcək. Düşmənin irəliləməsi və geri çəkilməsi ilə əlaqədar olaraq, sən onun sığındığı yerin bir qüvvəyə malik olub-olmamasını biləcəksən».

«Forma nümayiş» indən sonra Sun-tszı düşmənin «boşluq və çatışmamazlıqları» nın harada yerləşməsini necə öyrənməyi məsləhət görürdü. «Boşun və çatışmamazın» sözlərini necə başa düşməli? Bu iki terminə IV fəsildə də rast gəldik. «Əgər müdafiə olunursansa, demək nə isə bir çatışmamazlıq var; əgər hücum edirsənsə, demək hər şey qaydasındadır. Hərbi şəraitin inkişafından asılı olaraq, bu termin ikili məna daşıyır. «Mən ona görə müdafiə olunuram ki, mənə nə isə çatışmır, yəni mən hansısa bir səbəbə görə zəifəm, lakin mənim bu zəifliyim nisbi bir anlayışdır; mən ona görə zəifəm ki, hücum etmək üçün mənə rəqibin zəifliyi çatışmır, mənə lazımdır ki, o da nəyəsə ehtiyac hiss etsin. Mən hücum

edirəm, ona görə ki, məndə boşluq hökm sürür, yəni mən güclüyəm; lakin mənim gücüm nisbidir; mən ona görə güclüyəm ki, mənim rəqibimdə mənə güc verən amillər hökm sürür». Burada söhbət hər şeydən əvvəl düşmənin güclü və zəif cəhətlərindən və eyni zamanda onun mənim gücümü və zəifliyimi müəyyənləşdirən cəhətlərindən gedir.

«Onunla yəni düşmənlə toqquşmaq» ifadəsi nə deməkdir? Tarixi faktlara müraciət edək. Soray Xan sülaləsindən olan imperator Quan-unun Van Manla müharibəsindən bəhs edir. Quan-u düşmənin döyüş hazırlığının vəziyyətini öyrənmək məqsədilə belə bir manevrə əl atmışdı: o, 3000 nəfərlik bir dəstə ilə düşmənin mərkəzinə zərbə endirmiş və burada düşmənin işlərinin «tam» qaydasında olduğunu müəyyənləşdirmişdi. Tszin çarlığının sərkərdəsi Se Syuan Latszyan yaxınlığında Fu Tsinə qarşı analoji əməliyyat aparmışdı. Bu qeyd etdiyimiz faktlar müasir dillə desək, kəşfiyyat xarakterlidir.

Belə kəşfiyyat düşmənin harada güclü və harada zəif olmasını müəyyənləşdirir. Lakin eyni zamanda belə kəşfiyyat hücum edən tərəfin zəif və güclü tərəflərini müəyyənləşdirir. Li Vey-qunun «Dialoq» larında Tan imperatoru Tay-tszun belə deyir: «Mən düşmənlə üzbəüz olanda öz zəifliyimi onun gücünə, öz gücümü isə onun zəifliyinə qarşı qoyuram. Əgər mən buna əməl etməsəm, mən onun və özümün güclü və zəif cəhətlərimi öyrənə bilmərəm».

Düşməni öyrənmək haqqında Sun-tszının göstərdiyi dörd üsulun hər birinin özünəməxsusluğu olmaqla bərabər, bir-biri ilə də sıx əlaqədardır. Düşmənin operativ planlarının qiymətləndirilməsi onun güclü və zəif tərəflərini, onun strategiyasını və taktikasını müəyyənləşdirmək məqsədini daşıyır. Düşmənin hər hansı bir hərəkət etməyə məcbur edilməsinə yönəldilmiş taktiki manevr, eyni zamanda düşmənin öz hərəkətlərində nəyi rəhbər tutduğunu müəyyənləşdirir.

Yuxarıda qeyd etdiyimiz dörd üsulun hər biri düşmənin yeni bir cəhətini aşkar edir, onlar bir-birini tamamlayır və düşməni hərtərəfli öyrənmək imkanı yaradırlar. Sun-tszı qeyd edirdi: «Əgər sən özünü və öz düşmənini tanıyırsansa, istəyirsən onunla yüz dəfə vuruş, heç bir qorxusu yoxdur».

Bu başlığın axırıncı bölməsində Sun-tszı sərkərdə qarşısında çox yüksək bir tələb qoyur: bu tələb ən çətin və bundan əvvəlki tələblərin hamısını əhatə edən bir tələbdir. Sun-tszı bu tələbi belə izah edir: «Öz orduna forma verməyin son hüdudu – formanın olmamasına nail olmaqdır».

Biz artıq əvvəllər Sun-tszının strateji təliminin spesifik termini olan «forma» anlayışı ilə qarşılaşmışıq. «Forma» ordunun elə bir vəziyyətidir ki, bu vəziyyətdə rəqabətin mürəkkəb təbiəti özünün bütün mənasını və əhəmiyyətini aşkar edir. «Forma» ordu quruluşunun yüksək nailiyyəti, onun döyüşkənliyinin yüksək nailiyyəti, ordunun hər bir döyüş vəziyyətinə uyğunlaşmaq

bacarığının olması deməkdir. Bütün bunlarla birlikdə «forma» anlayışında ən ali cəhət formanın olmamasıdır. Bunu Sun-tszı təsdiqləyir.

Onun bu sözlərini başa düşmək çox sadədir: formanı, yəni öz ordunun vəziyyətini düşməndən gizlətməlisən. Düşmən sənin təhlükəsizliyin və sənin gördüyün tədbirlər haqqında heç nə bilməməlidir. Lakin belə anlayış Sun-tszının fikirlərinin abstrakt anlayışıdır. Doğrudur, düşmən sənin vəziyyətin barədə heç nə bilməməlidir. Lakin əgər forma mövcuddursa, demək onu müşahidə etmək olar. Əgər düşmən formanı adi üsullarla aşkar edə bilmirsə, o kəşfiyyatçılara və casuslara müraciət edir.

Lakin Sun-tszı qeyd edir ki, «Əgər forma yoxdursa, hətta ən dərinliklərə baş vurmuş casus belə heç nə aşkar edə bilmir». Lakin əgər forma varsa və ciddi-cəhdlə düşməndən gizlədilirsə, ağıllı və dərrakəli düşmən sərkərdəsi hər hansı bir əlamətlər vasitəsilə formanı aşkar edəcək. Lakin Sun-tszı qeyd edirdi: «Forma olmayanda, hətta müdrik belə heç bir şey haqqında danışa bilməz». Burada söhbət formanın gizlədilməsindən deyil, formanın məhv edilməsindən gedir.

Əvvəlki bölmələrdə biz diqqət yetirmişdik ki, bizim miladdan əvvəl VI əsrdə Sun-tszı dövrünə aid olan «Si tszi çjuan» əsərinə hadisələrin inkişaf prosesi izah edilərkən «hüdud» termini meydana gəlir. Hər hansı bir hadisənin inkişafının yüksək nöqtəsi onun «son hüdudu» hesab olunurdu. Lakin bu «son hüdud» qət olunanda, həmin hadisə özünün inkarına çevrilirdi. Sun-tszı bu barədə belə deyirdi: «Səliqəsizlik səliqədən, qorxaqlıq cəsarətdən doğur». Bu sözləri «forma» anlayışına da aid etmək olar. Forma inkişaf edərək, özünün son həddinə çatır və həmin andaca özünün inkarına və əksinə, yəni formanın yoxluğuna çevrilir. Beləliklə, «formanın yoxluğu» - formanın gizlənməsi deyil, formanın həqiqətən də olmaması deməkdir. Yəni ordunun təşkil olunmaq bacarığı, döyüş qabiliyyəti və s. öz formasını itirir və bu məfhumlar ordunun ayrılmaz bir hissəsinə çevrilirlər. Beləliklə, heç bir casus orduda bir yenilik görə bilmir, heç bir təcrübəli sərkərdənin rəqib ordusu barədə bir təəssüratı yaranmır. Du Mu bu barədə belə deyir: «Forma yoxdursa, qoy ən təcrübəli casus mənim işlərimə dərindən müdaxilə etsin və məni nəzarətdə saxlasın, onsuz da o mənim güclü və zəif cəhətlərim haqda heç nə öyrənə bilməyəcək».

Bütün bu söylədiklərimiz müharibədə qələbə üçün çox yaxşı şərait yaradır. Düşmən formanın yoxluğuna ikili surətdə yanaşa bilər: o ya fikirləşə bilər ki, forma əlçatmazdır və onda onun hərəkətləri iflic vəziyyətinə düşəcək və yaxud düşmən formanın yoxluğunu labüd bir hal kimi qəbul edərək, yəni qarşı, rəqib tərəfin döyüş qabiliyyətinə şübhə ilə yanaşacaq və bir sıra səhv hərəkətlərə yol verəcək».

Sun-tszının «formanın mövcudluğu– formanın yoxluğu» formulası heç də bir təzahürün əsas təzahürə mexaniki çevrilməsi

demək deyildir. Bu çevrilmə prosesinə «forma»nın daxili təbiətini dərk edən sərkərdənin dərrakəsi rəhbərlik edir; bu zamaan bu «forma» onun əlində qorxulu silaha çevrilir və bu silah ona qələbə gətirir.

Lakin bu qələbəni o özü deyil, onun rəhbərlik etdiyi ordu qazanır. Buna görə də Sun-tszı belə yazırdı: «Formadan istifadə edən sərkərdə, qələbə qazanmağı ordu kütlələrinə həvalə edir». Lakin Sun-tszı belə hesab edirdi ki, kütlə belə rəhbərliyin sirrinə bələd deyil. Sun-tszmin öz fikrini belə izah edirdi: «İnsanlar mənim qalib gəlməyimə kömək edən formanı tanıyırlar, lakin onlar mənim qələbəmin təşkilinə kömək edən formanı tanımırlar». Ordu formanın daşıyıcısıdır, rəhbər isə ordunu idarə edir. Lakin qeyd etmək lazımdır ki: müharibə «min cür dəyişiklik və on min çevrilmədən» ibarətdir. Ona görə də hər dəfə təkrar olunan döyüş əməliyyatlarından söz belə gedə bilməz; şərait tez-tez dəyişir. Eyni vasitələrlə dalbadal iki qələbə qazanmaq mümkün deyil.

Lakin qələbə qazanmağın müxtəlif üsulları üçün ümumi olan bir şərait var. Sun-tszı formanın təbiətində, formanın dəyişmə prosesində bir ümumi prinsip aşkar etmişdir. Bu prinsip– «boşluq və doluluqdur». Qələbəni təmin etməyin bir çox müxtəlif üsulları ola bilər, lakin bütün bu üsulların məzmunu birdir: öz tamlığınla düşmənin boşluğuna zərbə endirmək. Bu prinsipin dəyişməzliyini Sun-tszı suyun daimi bir xüsusiyyəti ilə müqayisə edir: su həmişə aşağı axır; bu xüsusiyyət su üçün həmişə dəyişməz qalır. «Ordudakı forma suya bənzəyir– suyun forması– hündürlükdən yan keçmək və aşağı axmaqdır; ordunun forması isə– tamlıqdan qaçmaq və boşluğa zərbə endirməkdir».

Lakin Sun-tszı, yenə də absolyut prinsip yeritdiyi kimi düz başa düşülməyəcəyindən ehtiyat edir. Buna görə də o, belə izah edir: «Su öz axarını axdığı ərazidən asılı olaraq müəyyənləşdirir, ordu öz sərbəstliyini düşməndən asılı olaraq müəyyənləşdirir». Bu sözlərdən belə bir nəticəyə gəlmək olar ki, «öz tamlığımla düşmənin boşluğuna zərbə endirmək» qələbəni təmin edən hər bir üsulun məzmunudur. Lakin bu zərbə üsulları hər dəfə zərbə anındaca şəraitə müəyyənləşdirilir və düşmənlə ünsiyyətin xarakterinə uyğun həll edilir. Sun-tszı yazırdı: «Orduda dəyişməz güc, suda dəyişməz forma yoxdur». Ordunun gücü– ordunun bütün elementləri olan– təşkilatçılıq, döyüşkənlik və s.-in birgə fəaliyyəti nəticəsində yaranan daxili taktikasıdır. Lakin bu potensiya daima dəyişməz qala bilməz; potensiyanın vəziyyəti– özündən və düşməndən, ən başlıcası mənimlə düşmənin ünsiyyətinin xarakterindən asılıdır. Beləliklə, orduya rəhbərlik etmək bacarığı «doluluq və boşluq» taktikası çox çətin və dərin bir məsuliyyətli işdir.

Sun-tszı dövründə Çində hökmranlıq edən «İ-tszin» əsərində əks olunmuş naturalist fəlsəfi baxışlara əsasən təbiətin bütün hadisələri ziddiyyətlər dialekti əsasında yaranmışdır. Bu ziddiyyətlər

şərti olaraq İn və Yan– «zülmət» və «işıq» adlandırılır; çünki bu iki məfhum daha qabarıq ziddiyyət təşkil edir: bu iki məfhumu müşahidə etmək insan üçün asandır. Bu yerdəyişmə təbiətin əsas elementlərinin yerdəyişməsi ilə müşayət olunur. Belə elementlərin sayı beşdir: su, od, ağac, metal, torpaq. Bu beş element inkişaf edərək, bir-birinin tərkibinə keçir və dünyanın bütün cisim və hadisələri bu prosesdə yaranır. Bu elementlərin hərəkəti isə bir-birlərini «aradan qaldırmaq» formasında təsvir edilir: ağac torpağı, su odu, od metalı, metal ağacı aradan qaldırır. Başqa sözlə desək, ağac torpaqdan, torpaq sudan yaranır.,

Bu aradan qaldırma prosesi bütün beş elementə aid edilir: hər bir element digərini aradan qaldırır, lakin bununla birgə özü də başqa element tərəfindən aradan qaldırılır. Buna görə də hər «aradan qaldırmada» bir «tabeçilik» də var. Sun-tszı bu barədə belə yazırdı: «Buna görə də– təbiətin beş elementi arasında daim qalib gələni yoxdur, ilin dörd fəsli arasında daima öz vəziyyətini qoruyub saxlaya biləni yoxdur. Günəşin qısalığı və uzun müddətli davamiyyəti, ayın isə həyatı və ölümü var».

Sun-tszı nəyə görə bu barədə ətraflı danışır? Ona görə ki, müharibə qanunları təbiətin və həyatın ümumi qanunlarının əksidir. Doluluq və boşluq haqqında təlimi, təbiət və həyat haqqında təlimin, demək olar ki, əksi saymaq olar. Bu isə o deməkdir ki, Sun-tszı üçün müharibə zamanındakı mübarizə məharəti həyat mübarizənin ümumi qanunlarına, son nəticədə isə həyata tabedir.

VII fəsil

Müharibədə mübarizə

Müharibə mübarizədir. Mübarizə müharibənin məğzidir.

«Sərkərdə hökmdardan əmr alaraq ordunu təşkil edir, qoşunları toplayaraq düşmənlə təmas xəttinə girərək mövqe tutur. Hərbdə mübarizədən çətin şey yoxdur». Bunu Sun-tszı deyərək, öz traktatının VII fəslini bu mübarizəyə həsr edir.

Əsərdə söhbət hansı mübarizədən gedir? Bu fəslin məzmunu onu deyir ki, burada Sun-tszı döyüşü deyil, sözün geniş mənasında mübarizənin özünü nəzərdə tutur. Onun anlamınca, bu mübarizədə sərkərdənin əsas silahı strateji və taktiki mədəniyyət, təşkilatçılıq və idarəetmə bacarığı, müharibənin psixoloji amilləri və ondan məharətlə istifadə etməsidir.

Mübarizənin öz məqsədi var. Məqsəd– müvəffəqiyyət və qələbədir. Sun-tszı söyləyir ki, məqsəd fayda qazanmaqdır. Ona görə ki, fayda anlayışı daha geniş məna daşıyır və o, bütün müvəffəqiyyətlərin əsasını təşkil edir, hətta hər bir hadisə zamanı. Qələbə yalnız son nəticədə fayda əldə etmək üçün yaranmış imkandır. Buna görə də Sun-tszı hər yerdə deyir: mübarizə faydalanmaq üçün aparılır.

Lakin mübarizə mübarizədir və onun nəticəsi uğur və uğursuzluq ola bilər. «Müharibə zamanı mübarizə uğurla, müharibə zamanı mübarizə həm də təhlükə ilə nəticələnə bilər– bunu Sun-tszı bildirir. Lakin necə etmək lazımdır ki, mübarizə müvəffəqiyyətlə nəticələnsin? Sun-tszının cavabı aydındır: Bu fəsildə o, mübarizənin qaydaları haqqında, yuxarıda göstərilən mübarizə silahı barədə söz açır. Əlbəttə ki, özün üçün müvəffəqiyyəti təmin etmək və özünü təhlükədən qorumaq üçün bir yol var: bu qaydaları bilmək, mübarizə sənətinə yiyələnmək. Və bu, asan deyil. «Hərbdə mübarizədən çətin şey yoxdur».

«Müharibədə mübarizə» fəsli «Sıxlıq və boşluq» fəslindən sonra gəlir. «O zaman ki, sıxlıq və boşluq vəziyyəti artıq müəyyənləşdirilibdir, onda düşmənlə fayda uğrunda mübarizə aparmağa dəyər», - bunu isə Çjuan deyir. «İki qoşun üz-üzə dayanıb və onlar fayda uğrunda mübarizə aparırlar. Əvvəlcə onlar özlərinin və düşmənin sıx və boş yerlərini müəyyənləşdirir, sonra isə fayda uğrunda mübarizəyə başlayırlar. Buna görə də, bu fəsil «boşluq və sıxlıq» fəslindən sonra verilib,- deyir Çjan Yuy.

Beləliklə, özünün şərhçilərinin nöqteyi-nəzərincə Sun-tszı öz mülahizələrini ciddi ardıcıllıqla, ümumi mövzulardan daha xüsusi mövzulara keçməklə irəli sürür. Sıxlıq və boşluq haqqında biliklər özündə və qarşı tərəfdə güclü və zəif cəhətləri ehtiva edir. Bu cür qarşılıqlı təsiri, strategiya və taktikanı bilmədən mübarizəyə başlamaq olmaz. Buna görə də, Sun-tszı özünün sıxlıq və boşluq haqqında biliklərini izhar etdi. Sonra isə o, bu əsasda mübarizəyə keçir, özünün qanun və qaydalarını açıqlayır.

Sun-tszı mübarizəyə dair öz təlimlərinin əsas müddəalarını formalaşdırır. Bu fəsildə o, «müharibədə mübarizə qaydaları», «küləyə rəhbərlik etmək qaydaları» və «müharibənin aparılması qaydaları» haqqında bəhs edir.

«Müharibədə mübarizənin çətinliyi– bu, dolayı yoldan birbaşaya keçilməsi, məğlubiyyətin uğurla əvəzlənməsidir»,– Sun-tszı öz düşüncələrinə belə başlayır. Bunu Çjan Yuy da təsdiq edir: «Dolayı və üzücü yolu yaxın, birbaşa yola çevirmək, uğursuzluğa son qoymaq və onu öz xeyrinə yönəltmək– bu, müharibədə mübarizənin çətin məsələsidir».

Sun-tszı yenidən özü üçün xarakterik olan məsələyə qayıdır. O, öz baxışlarının obyektini qeyd-şərtsiz müvəffəqiyyətə gətirən imkanlara yönəltmir. O, məsələni belə qoyur: - Necə etməli ki, qarşıya çıxan çətinlikləri öz xeyrinə həll edəsən və bu məqsədlə də o dolayı hərəkətin taktiki anlayışlarını irəli sürür.

Dolayı hərəkət, yan keçmək adından göründüyü kimi, birbaşa yol deyil. Məsələ ondadır ki, dolayı hərəkət taktikasını birbaşa hərəkət taktikasına çevirəsən. Bu zaman Sun-tszı dolayı hərəkəti uğursuzluqla, birbaşa gedişi isə uğurla əlaqələndirir. Buna görə də dolayı hərəkətin birbaşaya çevrilməsi uğursuzluğun öz xeyrinə

döndərilməsi ilə əlaqəlidir. Bu o deməkdir ki, Sun-tszı dolayı hərəkətlərin iki şərt əsasında mümkünlüyünə haqq qazandırır: o zaman ki, bunu məqsədyönlü, cəmləşdirilmiş zərbə üçün edirlər və bunun icrası üçün bütün tədbirlər görülməlidir ki, bu hərəkət özün üçün faciəyə səbəb olmasın.

Dolayı hərəkət edən hissələri hansı uğursuzluqlar gözləyə bilər?

Bu cür yürüş zamanı pusquya düşmək və tar-mar edilmək. Bu ona görə baş verə bilər ki, adətən, belə yürüşlərə ayrıca hissələr buraxılır və onlar müəyyən vaxt ərzində digər qüvvələrdən aralı düşürlər; bununla yanaşı, onlar ya çətin keçilən ərazilərdə hərəkət edir, yaxud da düşmənin arasından keçməli olurlar. Buna görə də, əgər düşmən bu hərəkətdən tez və vaxtında duyuq düşərsə, həmin hissəni mühasirəyə ala və məhv edə bilər. Bu da Sun-tszının dediyi həmin fəlakətdir.

Bununla belə, o həmin hərəkətin icrasını onda məqbul hesab edir ki, yan keçmək müvəffəqiyyətlə nəticələnsin. Bəs bu müvəffəqiyyətə necə təminat vermək olar? Sun-tszı buna cavab verir: «Kim ki, bu dolayı yolla getməyi qərara alır, fayda qazanmaq məqsədi ilə düşmənin diqqətini yayındırır və düşməndən gec hərəkətə gələrək, ondan tez mənzil başına çatır. O, dolayı hərəkət taktikasını başa düşür». Bu sözlərdən görünür ki, dolayı hərəkət iki şərt əsasında uğurlu ola bilər: birincisi, düşmən qüvvələrinin diqqətini yayındırmaq və onu digər tərəfə yönəltmək. Bunu o zaman etmək olar ki, düşməni müvəqqəti və cəlbedici fayda ilə, hətta bunun üçün qurban vermək zərurəti ilə aldatmaq mümkün olsun. İkincisi isə, olduqca cəld hərəkət etmək lazımdır. Düşmən özünə gəlincə, sən ondan tez cəhd etdiyin yerə çatmalısan. Düşmənin diqqətini və onun qüvvələrini özündən yayındırmaq və manevrin sürəti dolayı hərəkətin müvəffəqiyyətini təmin edən əsas şərtlərdir.

Çjan Yuy bu fikri belə izah edir: «Əgər mən möhkəm mövqe tutaramsa, qalib gələrəm. Ümumiyyətlə, əgər mən düşmənin yaxınlıqdakı sərfəli mövqeyini ələ keçirmək istəyirəmsə, hər şeydən əvvəl öz qoşunlarımı geri çəkərəm və uzaqlaşaram. Düşməni isə kiçik bir uğura nail olmağa sövq edərəm və ona imkan vermərəm ki, o, mənim irəli hərəkət edəcəyimi başa düşsün. Sonra isə mən onu kiçik uğuru qazanmaq üçün atılmağa məcbur edərəm. Buna görə də mən düşməndən gec çıxaraq, ondan tez lazımi yerə gələ bilərəm. Bu isə dolayı hərəkəti birbaşaya, uğursuzluğu isə müvəffəqiyyətə çevirməkdir.

Traktatın bu yerinin adi anlamı bundan ibarətdir. Amma təkcə bununla Sun-tszının fikirləri tamamlanmır. Düzdür, Sun-tszı öz düşüncələrində dolayı gedişin bütün hərəkətlərinin ən əsaslarını nümunə çəkir və onun taktikasını nəzərdə tutur. Sun-tszı məqsədə çatmaq üçün dolayı və birbaşa yolun rolunu bir sual kimi qarşıya qoyur. Özünün inanılmış ümumi konturlarını cızaraq, o göstərir ki,

dolayı yolla hərəkət edərək məqsədə daha tez çatmaq olar, nəinki birbaşa yolla. Sun-tszı bu yolu həm də «aldatma yolu» adlandırır. Məhz həmin dolayı yollarda birbaşa yolların səmərəsi qoyulub. Lakin bunun üçün sən yan keçən yolu birbaşaya döndərməyi bacarmalısan. Başqa sözlə, Sun-tszı öz inamına arxalanaraq deyir ki, bir hadisədə həmişə ona əks olan digər hadisə var.

Traktatın bu hissəsinin başa düşülməsi üçün Du Mu tarixi nümunəni analiz etməyi lazım bilir. O, Çzanqo dövründə Xan və Tsin çarlıqları arasında müharibə zamanı sərkərdə Çzao Şenin fəaliyyətinə istinad edir. Du Mu bu nümunələri Sun-tszının qaydaları üçün əyani vasitə kimi göstərir.

Miladdan əvvəl III əsrdə Xan çarlığı güclü Tsin çarlığının hücumuna məruz qalır. Tsin ordusu Xan ərazisinə girərək Eyuy şəhərini mühasirəyə alır. Xanlılar öz düşmənlərindən qat-qat zəif idilər və onların vəziyyəti acınacaqlı idi. Bu zaman onlar kömək üçün qonşu Tszao çarlığına müraciət etdilər. Tszao hökmdarı sərkərdə Çzao Şeni öz güclü qoşunu ilə onlara köməyə göndərdi. Çzao çarlığın paytaxtı Xəndan şəhərindən yürüş etdi və 20 milə qədər yol keçərək, düşərgə saldı. O, qoşuna müraciət edərək dedi ki, nə qədər ki, mən bu ekspedisiya ordusunun komandanı təyin edilmişəm, qoşunu özüm bildiyim kimi hərəkət elətdirəcəyəm, yaxud onu öz yerində saxladacağam və· xəbərdarlıq etdi ki, kim onun fəaliyyətini tənqid etsə, ölüm cəzasına məhkum olunacaq.

Tsinlilər Tszao çarlığının hücumu və Çzao Şenin hərəkəti barədə məlumat alaraq, təcili əksmanevr etmək qərarına gəldilər. Onlar Tszao çarlığının möhkəmlənmiş məntəqəsi olan Uançen şəhəri istiqamətində təxribat törətdilər. Onlar bu şəhərə yaxınlaşaraq, möhkəm düşərgə saldılar, təbilləri çaldılar və ordu hücuma hazırlaşmaq əmri aldı. Şəhər əhalisi bundan bərk qorxdu və sakinlər düşmənin qarşısında dura bilməyəcəklərini hiss edərək tələsik Çzao Şeni məlumatlanlırmaq üçün adam göndərdilər. Bununla belə, Çzao Şen qoşununu yerindən tərpətmədi. Onun zabitəli həyəcanlanmağa başladılar. Onların arasında belə söhbətlər gedirdi ki, öz şəhərlərinə köməyə tələsmək lazımdır. Zabitlərdən biri səbrsizlik etdi və bu barədə öz fikirlərini komandana söylədi. Çzao Şe onu dərhal edam etmək əmri verdi.

Çzao Şenin ordusu öz yerində qalmaqda davam edirdi. Bundan əlavə, Çzao Şe düşərgəni möhkəmləndirmək əmri verdi. Bu isə guya onu göstərdi ki, ordu hələ burada uzun müddət qalacaq və öz şəhərinə, eləcə də köməyə göndərildiyi müttəfiqinin şəhərinə yardım etmək niyyəti yoxdur.

Uançen tərəfdə təxribat törədən tsinlilərin məqsədi bu idi ki, Çzao Şeni möhkəmləndirilmiş düşərgədən çıxmağa və onun üçün faydasız şəraitdə döyüşə girməyə sövq etsinlər. Düşmən tərəf Çzao Şenin niyyətini öyrənmək üçün plan qurdu və onun mövqeyinə casuslar göndərdi. Çzao Şe onların niyyətini dərhal başa düşdü və

özünü elə göstərdi ki, heç nədən şübhələnmir. O, «qonaqları» səmimi qarşıladı, onların şərəfinə qonaqlıq verdi və heç bir maneəsiz buraxdı. Casuslar geriyə döndülər və onlarda belə bir fikir yarandı ki, düşərgə uzun müddət üçün salınıb və Çzao Şe oranı tərk etmək istəmir. Casuslar düşərgədən çıxan kimi, Çzao Şe təcili hücum əmri verdi. Casuslar geriyə dönənədək tsinlilərin heç bir hərəkət etməyəcəklərini yaxşı bilən Çzao Şe sürətli yürüşlə müttəfiqin mühasirədə olan şəhərinə istiqamət götürdü və iki gün və bir gecə ərzində bütün məsafəni keçərək Uançen şəhərinin 50 milliyində dayandı. Tsinlilər Çzao Şenin qəfil gəlişindən sarsılaraq şəhərin şimalındakı yüksəklikləri tutmağa çalışdılar. Lakin Çzao Şe onları qabaqlamağa nail oldu. Tsin ordusu möhkəmləndirilmiş düşərgəni buraxdı və yenisini tutmağa macal taprmayaraq yeni mövqe tutmadan dağıldı, döyüşə girməyə cəsarət etmədi və geri çəkildi.

Bu tarixi misalı nəzərdən keçirərkən Çjao Şenin hərəkətlərində dolayı hərəkətin manevrlərini sözün dəqiq mənasında başa düşmək çətindir. Bu ancaq ümumilikdə dolayı hərəkət taktikasının əks olunmasına xidmət edir. Çjao Şe birbaşa yolu seçmədi və o, mühasirə olunmuşların birbaşa köməyinə getmədi və dolayı yolla gedərək öz məqsədinə inamla çatmağa üstünlük verdi. Əgər o, mühasirəyə alınmış şəhərin üzərinə birbaşa hücum etsəydi, o zaman möhkəmləndirilmiş mövqedə qərar tutmuş, yaxşı hazırlaşmış və müdafiə olunan düşmənlə döyüşə girməli idi və nəticədə özü üçün məqbul olmayan şəraitdə yaxşı mövqe seçə bilməzdi, bundan başqa, öz ordusunu döyüş yerinə haldan düşmüş vəziyyətdə gətirərdi. Sun-tszı da bununla əlaqədar sərkərdəyə xəbərdarlıq edir. Bu nöqteyi-nəzərdən öz haldan düşmüş, yorulmuş qoşununu düşmənin yeni qüvvəsinə qarşı qoymaq olmaz. Ən əsası isə odur ki, döyüş mövqeyində «ağalıq» imkanını əldən vermək omlaz. Əgər Çjao Şe düşmənin üstünə birbaşa getsəydi, o zaman Sun-tszının məsləhətinin əksini etmiş olardı. Buna görə də o, «ağalıq» mövqeyini saxlamağı üstün tutdu. Nə vaxt ki, o, gözlənilmədən mühasirədə olan şəhərin divarları yanında göründü, öz düşmənini bir sıra əlavə hərəkətlər etməyə məcbur etdi. Başqa cür desək, Çjao Şe Sun-tszının dəqiq məsləhətləri ilə getdi: düşmənini idarə etməyə başladı və onu öz istədiyini həyata keçirməyə qoymadı. Beləliklə, dolayı hərəkət məqsədə çatmaq üçün birbaşa yola çevrildi. Məhz bu nümunə göstərir ki, Sun-tszının sözlərində hər hansı məqsədə çatmaq üçün birbaşa və yan keçmə yolunda imkanlar mövcuddur.

Sun-tszı artıq demişdi ki, yan keçən yoldan istifadə etmək və onu birbaşa, səmərəli yola döndərmək asan məsələ deyil. Bunun nəticələri Çjal Şedə olduğu kimi deyil, onun tam əksi də ola bilər. Buna görə də, o, deyir: «Müharibədə mübarizə uğura da, təhlükəyə də gətirə bilər». Hər şey sərkərdənin bacarığı və sənətkarlığından asılıdır. Onun şəxsiyyəti və onun biliyi burada həlledici rol oynayır. Çjan Yuy belə düşünür: «Əgər əməliyyat ağılla aparılırsa, o, fayda ilə

nəticələnir, əgər əməliyyatı sıravi adam aparırsa, onda təhlükəyə səbəb olur. Bu ona görə belədir ki, aydın ağıllı insan başa düşür ki, yan keçən və birbaşa yol nə deməkdir, ağılsız insan isə bunun nə demək olduğunu bilmir».

Sun-tszının xəbərdarlığı daha irəli gedir və daha konkret olur: «Əgər uğur üçün mübarizə aparırsansa, bütün ordunu ayağa qaldırmaqla buna nail olmaq mümkün deyil; əgər ordunu bütünlüklə döyüşə göndərəcəksənsə, onda arabaları itirəcəksən. «Bu sözləri deyərkən iki müxtəlif vəziyyət qarşı-qarşıya durur. Bunlar iki söz birləşməsi ilə xarakterizə olunur; «ordunu qaldıraraq» və «ordunu ataraq». Birinci halda sərkərdə tam tərkibdə ordu ilə qabağa gedir, yəni ki, yüklənmiş arabalarla. İkinci halda isə o, ordunun bir qismini arxada saxlayır, özü isə yüngül hissələrlə - süvari, yüngül piyada dəstəsi və s. Sun-tszının fikrincə, hər iki halda sərkərdəni təhlükə gözləyir. O zaman ki, bütün ordu ağır arabalarla hərəkət edir, onda bəzən hərəkətin astalığı zərurəti yaranır. Hərəkətin asta olması isə, Sun-tszı belə hesab edir ki, qələbənin başlıca şərtini: lazımi döyüş yerinə sənin tez çatmağını və əlverişli mövqe tutmağını sual altında qoyur. Sözün daha geniş mənasında, asta hərəkət təşəbbüsləri əldən verməyə və düşməndən asılı qalmağa, döyüş mövqeyinin «sahibi» olmaq vəziyyətini itirməyə səbəb olur.

İrəliyə yüngülcə hərəkət etmək isə əsas ordudan, təchizatdan aralı düşmək, hətta arabaları itirmək vəziyyəti yarada bilər. Əgər özünün bütün hərbi qüvvələrinlə asta hərəkət edəcəksənsə, qarşıya qoyulmuş məqsədə çata bilməyəcəksən. Əgər bütün ağır olanları ataraq, irəli yalnız yüngül hissələrlə hərəkət edəcəksənsə, arabalar asanlıqla düşmənin əlinə keçə bilər və sən onu itirəcəksən,- deyir Çjan Yuy.

Qələbəyə doğru daha bir yol var– adama elə gəlir ki, bu ən sadə və birbaşadır: düşmənin ərazisinə soxulmaq və ayrı-ayrı yerləri yürüşdə elə keçirməklə imkan daxilində dərinə getmək. Və bu hərəkət düşmənin strateji məntəqələrini tutmaqla, onun qoşunlarını bir-birindən ayırmaqla edilməlidir. Sun-tszı hesab edir ki, bu üsul xüsusilə təhlükəlidir. O, hətta bu zaman hansı təhlükələrin baş verə biləcəyini düşmən ərazilərinə girərkən onun dərinliyindən asılı olaraq səciyyələndirir.

«O zaman ki, fayda uğrunda yüz mil məsafədən mübarizə aparmağa başlayırsan, sürətlə hərəkət edir, silahları asudə buraxır, gecə-gündüz dincəlmədən gedir və marşrutu ikiqat artırırsan, onda hər üç ordunun komandanları əsir verməli olurlar – dözümlülər qabağa gedir, zəiflər qalırlar və mənzil başına döyüşçülərdən onda biri çatır. Fayda uğrunda əlli mil məsafədən mübarizə aparanda öndəki ordunun komandanı pis vəziyyətdə qalır və qoşunun yarısı təyin olunmuş yerə çata bilir. Mübarizəyə otuz mil məsafədən başlayanda isə, qoşunların üçdə ikisi lazımi yerə gələ bilir. Əgər ordunun arabaları, ehtiyat ərzaq və hərbi sursatı yoxsa, o məhv

olacaq. Çjan Yuy bu təhlükələri daha aydın izah edir: «Ordu gün ərzində 30 mil gedir və dayanır. 50 mil və bundan da çox gedərsə, bu ikiqat marşrut hesab olunur. Gecə və gündüz dayanmadan hərəkət etmək isə fasiləsiz marşrutdur. Sun-tszının sözünün mənası belədir: «Əgər düşmənlə fayda uğrunda mübarizəni 100 mil məsafədən aparmağa başlayırlarsa, yüngül dəstələr irəliyə çıxarılır, arabalar geridə saxlanılır. İnsanlar haldan düşür, atlar yorulur, insanlar su içmək istəyir, lakin su tapmırlar, onlar acdırlar, lakin yemək tapmırlar. Əgər bu zaman onlar əlavə olaraq düşmənlə qarşılaşsalar, belə çıxır ki, yorulanlar dincəlmiş, aclar isə tox düşmənlə qarşılaşmalıdırlar. Sonra isə ordunun əvvəli ilə sonu arasında əlaqə itəcək. Nəticədə hər üç ordunun öncülləri düşmənə əsir düşəcəklər. Yüngül silahlanmış 10 döyüşçüdən biri, Ən dözümlüsü davam gətirəcək, qalan doqquzu isə taqətdən düşəcək və geridə qalacaq, illah da ki, ağır silahlananlar. Tarixi müharibələrin çoxu göstərir ki, ordular daha çox düşmənin ərazilərinin dərinliyinə keçərkən itki verirlər.

«Kim ki, knyazların məramını bilmir, qabaqcadan onlarla ittifaq yarada bilməz. Sun-tszı hakimiyyəti dövründə hökmdarlar qonşularının tərəfdarlığına səy göstərirdilər. Mübarizəyə hazırlıq və elə müharibə dövründə də qonşu ilə ittifaqa girmək qaçılmaz bir akt idi. Buna görə də Sun-tszı bu yolda maneə ola biləcək təhlükələr barədə xəbərdarlıq etməyi lazım bilir. «Əvvəlcə qonşu knyazlıqlardakı həqiqi vəziyyəti öyrənmək və bundan sonra onlarla ittifaqa girmək olar. Əgər onların məqsəd və məramlarını düzgün dərk etməsən, bu ittifaqa girməklə başını bəlaya salmış olarsan», - izah edir Çjan Yuy.

Müharibə çöldə aparılır. Buna görə də, kim ki, şəraitin– dağ, meşə, kolluq, yarğan, su və bataqlığın nə olduğunu bilmirsə, o, qoşunu idarə edə bilməz»- deyir Sun-tszı və hərbi fəaliyyət səhnələrinin topoqrafiyasını bilməyi tələb edir. «Lazımdır ki, hərəkət edəcəyin yerin kəşfiyyatını aparasan, sonra isə qoşun yeridəsən»- təkrar edir Çjan Yuy.

«Kim ki, qoşunun hərəkəti zamanı yerli bələdçilərdən istifadə etmir, o, ərazinin üstün cəhətlərindən yararlana bilməz»,- deyir Sun-tszı. «Dağlar sıldırım və hamar, çaylar həzin və şaqraq, yollar dolanbac və birbaşa ola bilər». Əgər yerli sakinlərdən bələdçi götürərsənsə və onlardan nəyin ən sərfəli olduğunu öyrənsən, onda qələbə uğrunda müğabarizə apara bilərsən»- Çjan Yuy izah edir.

Hərbi mübarizənin bu cür təhlükələri mövcuddur. Sərkərdə elə hərəkət etməlidir ki, həmin təhlükələrdən yayına bilsin. Buna hərbi mübarizənin mexanizmini anlayaraq nail olmaq mümkündür. Bu mexanizmin düsturunu Sun-tszı belə izah edir:

«Müharibədə yalana əsaslanaraq, üstünlüyü əldə rəhbər tutur, qüvvələri ayırmaq və birləşdirmək yolu ilə dəyişiklik edirlər».

Bu düstur birdən-birə başa düşülmür. Onu açırlar – hərçənd ki, şərhçilər öz aralarında bununla bağlı bir o qədər də razılığa gələ bilmirlər.

«Müharibə aldatma yoludur». Bunu Sun-tszı hələ öz traktatının əvvəlində demişdi. Hərbi hiylə müharibə dövründə adi və qaçılmaz vasitədir. Təbiidir ki, hərbi mübarizəyə həsr olunmuş indiki fəsildə o heç də deməyə bilməz ki, bu mübarizənin əsasında və hiylə durur. Məhz bu aldatma ideyasını mübarizənin əsası kimi qeyd edir Çjan Yuy. Bünövrəyə hiylə və ona uyğun dəyişiklik qoyulur». Bəs bu konkret olaraq nə deməkdir? Əgər mübarizənin əsasıdırsa, bununla da söhbət hansısa ümumi prinsipdən gedir. Çjan Yuy hesab edir: «Düşməni elə çaşdırmaq lazımdır ki, o, sənin harada əsas döyüş, harada manevr aparmaq istədiyini başa düşməsin». Du Yunun təbirincə, burada ondan danışılır ki, «düşməni aldatmaqla, sən özünün əsl vəziyyətin barədə onda fikir yaranmasına imkan verməməlisən. Bu məsələ genişdir və həmçinin düzgündür. Sun-tszı çox deyib ki, özünün həqiqi vəziyyətini düşməndən gizlətmək zəruridir. Onda «forma» haqqında biliklər toplusu yaranıb. Həmin biliyin əsas Prinsipi «əslində olmayan formanı göstərməkdir. Yəni düşməndə öz barəndə onun əleyhinə olan fikir yaratmaqdır. Bu isə onun aldadılması və çaşdırılmasıdır. Xe yan Si də belə deyir: «Müəyyən formanı qəbul edərək və müəyyən güc nümayiş elətdirərək düşməni düzgün olmayan səmtə yönəldirlər». Beləliklə, söhbət hər hansı bir hərbi hiylədən getmir; «müharibədə özünü təsdiq etmək» zərurətindən gedir. Bu səni mübarizədə təhlükədən qoruyan birinci şərtdir. İkinci şərt öz hərəkətlərində uğuru əsas tutmaq. Bu fikir elə bil ki, özünün əsas mənasını itirib. Axı, Sun-tszı hər zaman uğur haqqında ümumilikdə müharibənin məqsədi kimi danışıb. Belə ki, müharibədə hər bir hərəkətin məqsədi üstünlük əldə etməkdir. Nə üçün bu fikri bir daha təkrar edək? Du Mu bu məsələni belə izah edir: «Yalnız faydasını gördükdə hərəkət etmək lazımdır». Mey Yao-çen əlavə edir: «Faydasız yerə hərəkət etmək omlaz». Xe Yan-si deyir: «Əgər düşmənin vəziyyətini qiymətləndirərək görürsən ki, ona zərbə endirmək olar, zərbə vur». Burada söhbət düşünülmüş hərəkətdən gedir, gümandan söhbət gedə bilməz. Qələbənin perspektivlərini görərək hərəkət etmək lazımdır. Əməliyyatı onda başlamaq lazımdır ki, onun müsbət nəticəsi təmin olunsun. Bu, özünü təhlükədən qorumağın ikinci yoludur.

Üçüncü şərt– «ayırmaq və birləşdirmək yolu ilə dəyişiklik etmək». Bu nə deməkdir?

Ayrılma və birləşmə– bu ordunun müxtəlif cür hərəkətidir. Müxtəlif hərəkətlər edərək, ordu öz simasını dəyişir, öz görünüşündə, imkanlarında «dəyişiklik» edir,. Si Tsyunan deyir ki, «gah birləşərək, gah da ki, ayrılaraq, formada dəyişiklik və yeniləşmə edilir. Belə hərəkətlər nə üçün lazımdır»? Bu suala Du Mu cavab verir: «Bölünmə və birləşmə ilə mən düşməni azdırıram,

müşahidə edirəm ki, o, mənim bu hərəkət formama necə reaksiya verir və ancaq bundan sonra mən müvafiq dəyişiklik və dönüş edə bilərəm ki, bunlarla qələbə qazanım».

Beləliklə, özünü mübarizədə təhlükədən qorumaq üçün hər üç şərt müəyyən edilir: düşmən üçün gizli olan nə varsa, mənim xeyrimədir, hər hansı bir hərəkəti onda etmək lazımdır ki, haçan müvəffəqiyyət təmin olunur, bu həm də ehtiyatlılıq deməkdir. Operativlik isə döyüşün istənilən vaxtında öz qüvvələrini idarə edə və gücünü göstərə bilməkdir. Du Munun sözlərinə görə, bütün bunlarla özünü təhlükədən qoruya və qələbə çala bilərsən. Sun-tszı bu şərtlərə çox böyük əhəmiyyət verir. Əgər sərkərdə öz ordusuna bu cür rəhbərlik edə bilirsə, onda onun bütün hərəkətləri məqamında xüsusi xarakter alır: «O, külək kimi sürətlidir; o, meşə kimi sakit və ahəstədir; o, od kimi gedir və yox edir; o, daş kimi hərəkətsiz, zülmət kimi keçilməzdir. Onun hərəkətləri ildırımın çaxması kimidir».

«Müharibədə aldatma əsasında və uğuru qarşıya məqsəd qoyaraq, ordunu lazım gəldikdə ayırmağı və birləşdirməyi bacaran sərkərdənin əsas keyfiyyətləri yuxarıda sadalanan altı əlamətdir. Onu da nəzərə almaq lazımdır ki, bu altı əsas taktika deyil, bir taktikanın altı üsuludur. Bu da o «dəyişiklik və döndərmədir» ki, bunu hər bir mübarizə aparan şəxs bilməlidir. Lazımi şəraitdə cəsarət və sürət, bəzən isə əksinə – səbr və sakitlik, bəzi hallarda isə hərəkətsizlik, heç nəyə baxmadan heç bir təxribata uymamaq, öz mövqeyinin saxlanılmasında iradə nümayiş etdirmək və əksinə lazım gələndə «ildırım kimi çaxaraq zərbə endirmək», düşmənə qarşı amansız olmaq. Bütün bunlar müharibədə qələbə qazanmaq imkanları və onun təhlükələrindən yayınmaq yollarıdır.

Sun-tszı bununla əlaqədar sonuncu məsləhətini verir: «Yaşayış məntəqələri qarət olunarkən öz qoşunlarını ayrı-ayrı hissələrə bölürlər; torpaqlar zəbt olunarkən öz hissələri ilə əlverişli məntəqələri ələ keçirirlər. Bu hər iki göstəriş yaxşı məlum olan şeylərdən xəbər verir: «Düşmənin ərazisinə soxularkən yerli əhalidən zorla öz ordun üçün ərzaq ehtiyatı alırsan. Sun-tszı. görünür, öz dövrünün qaydalarını göstərir, hansı ki, sonradan bu qaydalar qarşıduran tərəflər üçün qanuna çevrilib: «Düşmənin hesabına ərzaq tədarük et». Bunun üçün düşmənin ərazisinə daxil olarkən ordunu müxtəlif istiqamətlərə göndərmək və onu qoruyan hissələrlə əhatə etmək lazımdır. Düşmənin sərhədlərində olarkən onun vacib strateji məntəqəlrini də müəyyənləşdirmək lazımdır. Bu, mübarizə zamanı səni təhlükələrdən daha yaxşı qorunmağa zəmin yaradır. Sun-tszının təbirincə desək, «hər şeyi götür-qoy edərək hərəkət etmək lazımdır, yaxud da Tsao-qunun dediyi kimi «düşməni qiymətləndirərək hərəkət etmək zəruridir». Bu isə o deməkdir ki, hər zaman elə üsul tapmalısan ki, o, vəziyyətə uyğun olsun və uğurla nəticələnsin. Bu üsullar çox və müxtəlifdir. Buna görə də Sun-tszı bu bölməni o sözlərlə bitirir: «Kim ki, dolayı və birbaşa yolun taktikasını

qabaqcadan bilr, o, qalib gəlir. Bu müharibədə mübarizə qanunudur».

U-tszı öz traktatında deyir: «Təbillərlə, nağaralarla və sinclərlə qulağa, standart, nişan və bayraqlarla gözə, qadağa, əmrlər və cəza ilə ürəyə təsir edirlər» (U-tszı, IV, 3). Söhbət qoşun kütləsinə, orduya rəhbərlik etməkdən gedir.

U-tszının fikrincə, kütləyə rəhbərlik ondan ibarətdir ki, onu gözün qulağın və ürəyinlə idarə edə bilərsən. Sun-tszı buna əlavə edir: ruh və qüvvə ilə təkcə öz orduna deyil, düşmən ordusuna da təsir etməyi bacarmalısan. Bu fəslin ikinci bölməsi «kütləyə rəhbərlik qanunu» adı altında bu mədəniyyətə həsr olunub.

Sun-tszı öz izahını bizə məlum olmayan qədim və hərb mədəniyyətinə dair, özünün isə «Ordunu idarəetmə» yazısından iqtibasla başlayır. «Müharibədə danışmaqla bir-birini başa düşmək olmaz. O zaman təbil və sinclər hazır vəziyyətə gətirilir, baxanda bir-birini görmürsən, o zaman bayraq və işarələr lazım gəlir». Bu sözlər U-tszının yuxarıda söylədiyi fikirlərilə uzlaşır.

Ən əsası, burada söhbət Sun-tszı ilə U-tszı dövründə, bəlkə də onlardan qabaqkı dövrlərdə Çin ordusunun idarəçilik sistemindən gedir. Qədim sərkərdələr nəzərə alıblar ki, səslə komanda vermək məhdud məsafədə və bir o qədər də çox olmayan insan yığını zamanı mümkündür. Orduda isə səs digər vasitələrlə əvəz olunur. Eyni zamanda, öyrənilmişdi ki, böyük kütlənin idarə olunması kiçik hərəkətlərlə mümkün deyil və bunun üçün bayraq və nişanlardan istifadə edilməlidir. Çin ordusunun hərəkəti və idarə olunması bu əsaslar üzərində qurulmuşdu.

«Sıma fa» traktatında belə bir yer var: «Təbillərlə təkərli, süvari və piyadalara, silaha, başa və ayağa siqnal verilir». Si İn bu sözləri şərh edərək deyir: «Təbil döyüşü əsasında bayraqlar hərəkətə gətirilir və bununla da qoşunların hərəkəti idarə olunur; təbillər döyülərkən süvari dəstələr irəli atılır; piyada qüvvələr irəli gedir, təbilin döyülməsi ilə silahlar hazır vəziyyətə gətirilir, təbillərin döyülməsi ilə əsgərlər başlarını bu və digər tərəfə döndərirlər: «sola» siqnalına əsasən başlar sola, «sağa» siqnalına əsasən sağ tərəfə döndərilir, «İrəli» siqnalı zamanı başlar irəliyə, «geriyə» siqnalı zamanı geri döndərilir. Təbillərin döyülməsi ilə ayaqlar qoyulur və qaldırılır, əsgərlər irəli və geri gedirlər» («Sıma fa», IV f., s. 28).

U-tszının traktatından göründüyü kimi, siqnallar təbillərdən başqa sinc və kiçik zənglərlə də verilir. Vey Lyao-tszı bunu yada salır: «Təbillərə döyülür– irəli çıxmaq lazımdır; ikinci dəfə döyülür– hücuma keçmək; sincə vurulur– dayanmaq lazımdır; ikinci dəfə vurulur– geri çəkilmək lazımdır. Zəngçilər əmrləri ötürürlər» («Vey Lyao-tszı», XVIII f., s. 46).

Görünür, «Vey Lyao-tszı»nın misal çəkdiyi qaydalar yeganə deyil. U-tszı başqası haqqında söz açır: «Təbilə vurulmuş bir zərbə– silahı hazırla; iki zərbə– lazımi canlanma yarat; üç zərbə– qida tələbi;

dörd zərbə– döyüş üçün silahlanmaq, beş zərbə– sıraya düzlən deməkdir» (U-tszı, III f., 6).

Bəs bayraqlar və nişanlar nəyə xidmət edir? U-tszının əsərində belə bir yer var: «Göy Əjdaha təsvir olunmuş hissə solda, Ağ Şir həmişə sağda, Qırmızı Çalağan qabaqda, Sarı Tısbağa arxada, Mərkəzi Saray başın üzərində, özün isə onun altında olmaq deməkdir» (U-tszı, III f., s.7). burada söhbət üzərinə müxtəlif astroloji fiqur, əsasən də heyvan və quş şəkli olan bayraqlardan gedir. İşarələnmiş istiqamətlər– sağ, sol və s. sərkərdəyə ordunun müxtəlif bölmələrinin hərəkətini tənzimləməyə imkan verir. Bayraqların işarələndirilməsi nizamı ordunun iki cinahını, avanqard və axırdakı hissəsini müəyyənləşdirməyə xidmət edir. Vey Lyao-tszı, bayraqların ordunun sıra düzümünü müəyyənləşdirməsini belə göstərir: «Ordu üç hissəyə bölünür – mərkəz, sağ və sol cinah. Mərkəzin bayrağı sarı, sol cinahınkı göy, sağ cinahınkı isə ağ olur. Əsgərlər cinahlara uyğun olaraq papaqlarında sarı, göy və ağ lələklər gəzdirirlər (Vey Lyao-tszı, XVII f., s.45).

Yalnız hərbi qüvvələrin böyük hissələri deyil, nizami dəstələrin digər elementləri də bu cür işarələnir: «Hər bir komandir özünün xüsusi nişanına malikdir (Vey Lyao-tszı, XXI f., s. 51) və bu, onun hissəsinin əlamətidir. Beləliklə, bütün nizami ordu bayraqlar və nişanlarla işarələnirdi. Bu bayraqların köməyi ilə də komandalar verilirdi. Elə o Vey Lyao-tszı deyir: «Əgər bayraqlar «sola» işarəsi verirsə, qoşun sola dönür, əgər «sağa» işarəsi verilirsə, qoşun sağa dönür» (Vey Lyao-tszı, XVIII f., s.46).

U-tszı bu sistemi bir qədər başqa cür izah edir: «Gündüz hər şey bayraq, standart və nişanlarla icra olunursa, gecə isə sinc, təbil və şeypurla komanda verilir» (U-tszı, V f., s.1). Təbiidir ki, qaranlıqda hərəkət zamanı bayraqlardan siqnal vermək üçün istifadə oluna bilməz.

Ən qədim dövrlərdə Çin ordusunda hərəkətin təmin olunması sisteminin ümumi cizgiləri bundan ibarətdir.

Sun-tszı göstərmək istəyir ki, bu sistemdən istifadə ilə kütləni idarə etmək üçün nəyə nail olmaq mümkündür. O, vurğulayır: «Sinclər, təbillər, bayraq və nişanlar öz əsgərinin gözləri və qulaqlarını birləşdirir və diqqəti bir istiqamətə yönəldir. Əgər hamı bir şeyə yönəldilibsə, cəsarətli əsgər qabağa, qorxaq isə geriyə gedə bilməz. Bütün bunlar Sun-tszı üçün olduqca əhəmiyyətlidir. Bu, kütləyə rəhbərlik etmək qanunudur».

Biz artıq I fəsildə Sun-tszının müharibədə birliyə necə əhəmiyyət verdiyini bilirik. Burada o, bütövlükdə ölkənin, onun hökumətinin və əhalisinin birləşməsini tələb edir. O, dəfələrlə ordu və sərkərdələrin tam birliyinin zəruriliyini söyləyir. Burada o, ordunun bir tam halında təşkil olunmasını tələb edir. Bu birliyə nail olmaq kütlənin idarəçiliyi, bu kontekstdə isə ordunun idarə olunması üçün açar əldə etmək deməkdir.

Çjan Yuy bu yeri belə aydınlaşdırır: «O zaman ki, əsgərin sayı çoxdur, onda daha geniş əraziyə yığılmaq zərurəti yaranır; buna görə də qoşunun əvvəli ilə sonu bir-birini nə görür, nə də eşidir. Bu zaman insanların diqqətinə hər hansı bir məsələni çatdırmaq üçün təbilləri vuraraq, bayraqları qaldırmaqla onlara işarə verilir. Haçan ki, hamının diqqəti bir şeyə yönəlib, bir milyon insan da olsa, onlar bir nəfər kimi hərəkət edəcəklər.

Sun-tszının fikirləri burada ona görə dəyərlidir ki, belə birlik zamanı həddən artıq çılğın əsgərlərin, eləcə də qorxaqların qeyri-mütəşəkkil hücumu istisna olunur. Mütəşəkkillik və birlik cəsur əsgərin artıq tozanaq qoparmasını, digərlərinin isə qorxaqlıq göstərməsinin qarşısını alacaq. Yaxud Maey Yao-çenin dediyi kimi, Sun-tszının «sözləri göz və qulağı birləşdirir. Yəni bütün əsgərlərin eşitdiyi səslər və onların baxışları birləşib, onların diqqətinin yayınmasına imkan vermir».

Öz əsgərlərinə bu cür təsir edə bilərsən. Lakin Sun-tszı hesab edir ki, «kütləyə rəhbərlik etmək» həm də düşmənə təsiri özündə ehtiva edir. Buna görə də əsl sərkərdənin əlində düşmən ordusunun əsgərlərinin, eləcə də onun sərkərdəsinin gözünə və qulağına təsir etmək imkanları var. Bu necə edilir?

«Gecə döyüşündə çoxsaylı od və təbillərdən, gündüz döyüşlərində isə xeyli bayraq və nişanlardan istifadə olunur». Sun-tszı deyir ki, bunlarla düşmənin gözləri və qulaqları yanlışlığa yönəldilir.

Soray bu məsələni belə şərh edir:

«Gecə döyüşündə çoxlu od və təbillərdən istifadə olunur» fikri bu mənanı verir: gecə bayraqların rəngi görünmür, onun üçün də çoxlu məşəl və təbilləri işə salırlar. Bununla düşməni azsaylı qoşunu çoxsaylı kimi başa düşməyə inandırırlar.

«Gündüz döyüşlərində çoxlu bayraq və nişanlardan istifadə etmək» fikri isə bu mənanı verir: gündüz gah bu, gah da digər yerlərdə – dağda, meşədə çox sayda bayraqlar, nişanlar yerləşdirirlər və bu, sanki qoşunun çoxluğu anlamı, həm də yeni qüvvələr gətirildiyi təsəvvürünü yaradır» (Soray, sit, s.157).

Sun-tszı deyir ki, bu üsulla «düşmən ordusunun ruhunu, sərkərdənin isə ürəyini qoparmaq olar».

U-tszı digər fikri önə çəkir: «Müharibədə dörd təkanverici vasitə var: birincisi– ruh, ikincisi – şərait, üçüncüsü– hərəkət, dördüncüsü isə– güc» (U-tszı, IV f., s.2). Beləliklə, qədim Çində tanınan ikinci strateq orduda ruh yüksəkliyinin vacibliyini təsdiq edir. Vey Lyao-tszı orduda ruh amilini yüksək qiymətləndirir. «Sərkərdə öz xalqı ilə birlikdə mübarizə aparır, xalq isə öz ruhu ilə qalib gəlir. Ruh yüksəkdirsə, döyüşürlər, ruhdan düşəndə qaçırlar. Lyu İn, hətta belə deyir: «Bünövrə – xalqdır, ruh – ağadır. Əgər bu ruh yüksəkdirsə, sakitlik də, nizam-intizam da, toxluq və gümrahlıq da var. Əgər ruhdan düşüblərsə, aclıq, yorğunluq, nizamsızlıq və pərakəndəlik

yaranır» (Vey Lyao-tszı, IV f., s.14). Buna görə də, sərkərdəlik qabiliyyətinə «ruh yüksəkliyini idarə etmək də daxildir. Bu sərkərdəlik mədəniyyəti birinci olaraq ondan başlayır ki, sən «səhər ruhən sağlam olmaq, gündüz əzgin, axşam isə evə qayıtmaq haqqında fikirləşməyin nə olduğunu» bilirsən. Bu, bəşəriyyətin yarandığı gündən insanların təbiətində olan əsas xüsusiyyətdir. «O şəxs ki, müharibəni aparmağı bacarır, düşməndə ruh yüksəkliyi olarkən onunla savaşdan yayınır və nə zaman ki, düşmən ruhdan düşüb, əzgindir və evə qayıtmaq haqqında düşüncələrə dalıb, o vaxt üstünə hücum çəkir; bu ruhun idarə olunması deməkdir», - söyləyir Sun-tszı.

Li Vey-qun aydın şəkildə bu məsələyə münasibət bildirir: «O zaman ki, həyat verilən varlıq var və qan tökülür, amma o varlıq heç nəyə baxmadan can-başla döyüşür. Onu buna ruh sövq edir. Müharibə aparmaq qaydaları ondan ibarətdir ki, sərkərdə öz zabit və əsgərlərini mütləq yaxşı tanımalı və onlarda qələbə ruhu aşılamalıdır. Yalnız bu qabiliyyətlə düşməni məhv etmək olar» (Li Vey-qun venduy, III f., s. 57).

Sun-tszının əsgərin səhər, gündüz və axşamçağı ilə bağlı əhval-ruhiyyəsinə dair sözləri hərfi və dəyişkən mahiyyət daşıyır. Sun-tszını oxuyanların hamısı bunu başa düşür. Məsələn, Çjan Yuy bunu belə dərk edir:

«Səhər hər şeyin başlanğıcıdır, gündüz orta vəziyyət, axşam isə qurtaracağın surətidir. Bunlar heç də başlanğıc, orta və günün sonu deyil. Ümumiyyətlə isə, insanların əhval-ruhiyyəsi belə qurulub ki, hər hansı bir işə başlayanda, onun əhvalı yaxşı olur, enerjili olur. Bu iş uzun çəkəndə isə insan yorulur və onun əhvalı dəyişir. Buna görə də kim ki, müharibəni aparmağı bacarır, düşmənin güclü və əhvalının yaxşı olduğu vaxtda savaşa girmir. O, möhkəm müdafiə olunur və gözləyir ki, düşmən yorularaq geri çəkilmək barədə düşünsün və bu zaman ağıllı sərkərdə öz qoşunlarını hərəkətə gətirir və ona zərbə vurur. Bu, öz ruhuna hakim kəsilmək və düşmənin ruhunu qırmaqdır.

Çjan Yuy o mənada haqlıdı ki, «səhər, gündüz və axşam» sözlərinin geniş mənasında hər bir işin, müəssisənin işinin əvvəli, ortası və sonu başa düşülməlidir. Bununla yanaşı, bu sözlərin hərfi mənalarını bütünlüklə atmaq olmaz. Bu sözlər yalnız düşmənə deyil, sənə də aiddir. Təkcə düşmənin deyil, özünün də əhval-ruhiyyəni idarə etməyi bacarmalısan.

Sərkərdə bu təbii dəyişkənliyi öz əsgərlərinin timsalında başa düşməli, əməliyyatların gedişində ruhun aşağı düşə biləcəyini nəzərə almalı, əzginliyi və evə qayıtmaq istəyini dəf etməli və əsgərlərin döyüş ruhunu qaldırmalıdır. Soray burada Çin materialist filosoflarının düşüncələrini və həyat fəlsəfəsini yada salır: «İn öz sonuna çatır və Yan yaranır». Gecə öz dövrünü başa vurur və səhər açılır. Eləcə də, yorğunluq, düşkünlük sona yetir və gümrahlıq, enerji doğulur. Düşmən enerji ilə dolu olarkən, onunla döyüşdən yayınmaq

lazımdır. Ordu üçün müharibədən yayınmaq, passivlik vəziyyətidir. Materialist filosofların təbirincə – İnin vəziyyətidir. Ordu üçün bu cür vəziyyət normal deyil; bu ordunun təbiətinə ziddir. Ordu onun üçün yaradılıb ki, hərəkət etsin. Buna görə də, o, zəiflik vəziyyətində müəyyən müddətdə qala bilər, lakin bu, tədricən onun üçün dözülməz olar. «O zaman ki, İn öz sonuna çatır, Yao yaranır». Passivlik də belədir. Müəyyən müddətdən sonra o, fəallıqla əvəzlənir, gümrahlıq və enerji gəlir. Gecə öz vaxtını başa vurur və səhər açılır. Digər tərəfdən, düşmənlə döyüşdən inadla yayınmaqla Sun-tszının fikirləşdiyinə inamla nail olmaq mümkündür. Sənin düşmənin döyüşə girməyə etdiyi uğursuz cəhdlər bir qədərdən sonra səngiyəcək, enerji itəcək, gümrahlıq isə uçub gedəcək. Gündüz olacaq, yoxsa gecə düşəcək. Sənin özündə isə bu zaman əksinə, səhər açılacaq. O zaman vəziyyətin özü sənə deyəcək ki, nə etmək lazımdır: «Öz sıxlığın və gücünlə düşmənin boşluqlarına zərbə endirmək». Bu da ruhun idarə olunmasıdır.

Qədim zamanlarda, bizim eradan əvvəl VII əsrdə Çuntsyu dövründə Tsi knyazlığı Lu knyazlığı ilə müharibə edirdi. Hər iki tərəfin ordusu döyüş meydanına çıxdı və Çanşavda qarşı-qarşıya düşərgə qurdular. Birdən Tsi düşərgəsində səs-küy qalxdı; təbillər vuruldu və əmrlər eşidildi. Aydın idi ki, Tsi döyüşçüləri hücuma hazırlaşırlar. Lu hökmdarı Çjuan-qun qaydaları yada saldı ki, həmişə düşməni xəbərdar etmək lazımdır, lakin hücumu gözləməyib özü hücum etmək qərarına gəldi. Ancaq hərbi rəhbəri Tsao Kuy onu dayandırdı.

Bir müddətdən sonra Tsi düşərgəsində yenidən təbillər döyülməyə başladı və səs-küy qopdu. Çjuan-qun yenə də hücuma keçmək istədi, lakin yenə djə Tsi kuy onu saxladı. Sərkərdə dedi ki, üçüncü dəfə təbillər döyüləndə döyüşə girməyin ən yaxşı zamanı olacaq. Hökmdar bunun səbəbini izah etməyi xahiş etdi. Tsal Kuy izah etdi: «Döyüş fədakarlıq deməkdir. Təbilləri ilkin vurmağa başlayanda ruh qaldırılır, gümrahlıq, qüvvə və döyüş ehtirası yaranır. İkinci dəfə vurduqda əhval-ruhiyyə düşür, üçüncü dəfə təbillər döyüləndə isə ruh tamamilə enir. Bizdə isə əksinədir. Biz döyüşmürük və gözləyirik, enerji bizdə aşıb-daşır, ruh yüksəkliyi yaranır. Buna görə də düşmənə zərbə endirərək biz qalib gələcəyik (Soray, sit, sh161).

Sun-tszı davam edir: «Nizam-intizamlı olaraq nizamsızlığı, sakitlikdə olaraq həyəcanı gözləyirlər; bu, ürəyi idarə etməkdir».

Soray Sun-tszının bu vəziyyətini belə başa düşür: «Sərkərdənin ürəyi sakit olanda onun ordusunda həmişə intizam var. Sərkərdənin ürəyində tərəddüd yoxdursa, yenilməzlik varsa, onun ordusunda sakitlik var. Aydınlıq ağıl deməkdir. Yenilməzlik igidlikdir. Tərəddüd və qorxu ağıl və mərdliyin olmaması deməkdir. Qarışıqlıq və səs-küy sərkərdənin ürəyində yer tutmuş qorxu və tərəddüddən yaranır (Soray, sit, yaz, s.162). Başqa cür desək, Soray belə hesab

edir ki, ürəyi idarə etmək sözü sərkərdəyə aiddir. Sərkərdə öz ürəyini idarə etməyi bacaranda, o, öz əllərində əsgərlərinin ürəyini də tutur.

Çjan Yuy bu məsələyə başqa yöndən yanaşır: «Nizamda olmaqla düşmənin mövqelərində qarışıqlıq, sakitlikdə olaraq düşməndə həyəcanı gözləyir, ciddi intizam yaradaraq, düşməndə intizamın pozulmasına nail olurlar. Bu, öz ürəyini qaydasında saxlamaq bacarığı, düşmənin isə ürəyini özündən almaq deməkdir».

Çjan Yuy Sun-tszının sözlərini belə bir göstəriş kimi başa düşür ki, öz ürəyi ilə bacaran sərkərdə, düşmənin də ürəyini idarə edə bilər. Şübhəsiz ki, Sun-tszının sözlərində Soray və Çjan Yuyun ümumi fikirlərinin ayrı-ayrı tərəfləri var. Öz ürəyi ilə bacaran sərkərdə öz əsgərlərinin ürəyini daha yaxşı idarə edə və öz ordusundan sonra – düşmənin ürəyini də idarə edə bilər.

İdarə etməyi bacarmalı növbəti obyekt, gücdür «Yaxında yerləşərək, uzaqdakıları, tam yeni qüvvəni yığaraq, əldən düşmüşləri, tox olanların nə vaxt açacaqlarını gözləyirlər; düşməni məşğul edərək, onun nə vaxt gələcəyini, pusquda duraraq, onun nə zaman ehtiyatsızlıq edəcəyini gözləyirlər. Bu öz qüvvələrini idarə etmək bacarığı və düşmənin qüvvələrinə çətinlik yaratmaqdır. Beləliklə, «qüvvəni idarə etmək» özündə iradəli olmağı, uğurlu hərəkət üçün bütün imkanlara yiyələnməyi və tələsmədən maksimum əlverişli vəziyyəti gözləməyi ehtiva edir. Bu cür dözüm və özünü idarə etmək bacarığı ilə düşmənə də təsir göstərmək və onun qüvvələrini idarə etmək olar. Bu yolla düşməni çətin vəziyyətdə qoymaq olar, - deyir Çjan Yuy.

Bununla belə, Li Vey-qun hesab edir ki, Sun-tszının göstərdiyi hal «qüvvənin idarə olunması» sözünün ümumi izahıdır. O, belə hesab edir ki, hər bir strategiyaçı Sun-tszının göstərdiyi vəziyyəti və buna oxşar halları inkişaf etdirməlidir. Əsasən bu üç vəziyyət altı hadisəni tam əhatə edir, hansı ki, burada qüvvəni idarə etmək mədəniyyəti üzə çıxacaq. Bu altı hadisə aşağıkılardır:

1.Düşməni strategiyaya cəlb etmək və onu nəzarətdə saxlamaq.

2.Özünün sakitliyi və təmkinliyini düşmənin həyəcan və çaxnaşmasına qarşı qoymaq.

3.Öz ehtiyatlılığını düşmənin ağılsızlığına qarşı qoymaq.

4.Özünün qayda və əmrlərinin ciddiliyini düşmənin özbaşnalığına qarşı yönəltmək.

5.Özünün nizamını düşmənin nizamsızlığına qarşı qoymaq.

6.Özünün güclü müdafiəni düşmənin hücumlarına qarşı qurmaq.

Li Vey-qun öz izahını bu sözlərlə bitirir: «Əgər bu qaydaların əksinə gedilsə, həmişə qüvvə çatışmazlığı yaranacaq; əgər qüvvəni idarə etmək mədəniyyətinə yiyələnməmisənsə, müharibəyə girişməyin əbəsdir.

Li Vey-qun bir vacib fikrə – sərkərdənin hərbi nəzəriyyənin bu və yaxud digər vəziyyətlərindən nəticə çıxarmaq qabiliyyətinə toxunur, xüsusilə də Sun-tszının təcrübəsinə. Onun fikrincə, bu traktat insana yalnız ümumi yol göstərir sərkərdənin özü isə bu bilikləri genişləndirməlidir. Li Vey-qunun müsahibi Tay-tszun öz sərkərdəsinin sözünün məhz bu tərəfini yüksək qiymətləndirdi: indiki insanlar, Sun-tszını öyrənir, ancaq onun elminin hərflərini təsdiq edirlər. Sun-tszının elmini inkişaf etdirənlər isə azdır. Bütün hərbi rəhbərlərə «qüvvənin idarə olunması qaydalarını» öyrətmək lazımdır» (Liy Vey-qun venduy, II f., s.31).

«Əgər düşmən tam qaydasındadırsa, onun bayraqlarına qarşı getmə; əgər düşmənin mövqeyi keçilməzdirsə, ona qarşı hücuma keçmə. Bu idarəçilikdə dəyişiklik deməkdir»,- Sun-tszı özünün son qaydasının düsturunu verir.

Çjan Yuy bu sözlərin məzmununu yaxşıca açır: «Əgər düşmən bu vəziyyətdədirsə, (yəni, onun sıraları qaydasındadırsa və mövqeləri möhkəmdirsə– N.K.), sadəlövhlük edib onunla döyüşə girmək olarmı? «Ordunun idarə olunması» bölməsində deyilib: görürsən ki, getmək olar, get; bilsən ki, getmək çətindir, geriyə çəkil. Və həm də deyilib: əgər o güclüdürsə, ondan yayın. Bu, ona işarə edir ki, dəyişikliyi başa düşmək lazımdır. Burada söhbət ondan gedir ki, düşməni başa düşərək, dəyişiklik və düzəliş etmək vacibdir.

Dəyişiklik və düzəliş etmək mədəniyyəti əvvəlki hadisələri tamamlayır. Öznün və düşmən qüvvələrinin gözü, qulağı, ürəyi və gücünü idarə etmək əsasdır. Dəyişiklikləri idarə etmək bu əsasa yiyələnməkdir. Bunların hamısı birlikdə isə kütləni idarə etmək mədəniyyətidir və Sun-tszı buna belə böyük əhəmiyyət verir: «Yaxında yerləşməklə uzaqdakıları gözləyirlər» - öz qüvvələrini idarə etmək, özünə hakim olmaq və dözüm bu mədəniyyətin qaydalarındandır.

Bu fikri başa düşmək üçün «yaxın» və «uzaq» sözlərindən istifadənin mənasını nəzərə almaq lazımdır. Bu terminlər heç də yalnız məsafə anlamında deyil. Onlar bütün digər hallara aid ola bilər. Hər hansı bir şeyə «yaxınlıq» həqiqi və məcazi mənada ola bilər. Yəni məsafədə yaxınlıq və yaxud hər hansı bir hadisəyə tam hazır olmaq mənasında. «Uzaq» sözü isə əks mənanı ifadə edir. Müharibə, strategiya və taktika dilində yaxınlıq, «qələbəyə yaxınlıq» anlamında işlənilir, yəni bu zaman qələbənin təminatı vəziyyətidir. Beləliklə, «yaxınlıqda olaraq, uzaqdakını gözlə» qaydası o deməkdir ki, özün qələbə qazanmaq şansılarına yiyələnərək, gözlə ki, sənin düşmənin ümumilikdə bütün qələbə qazanmaq imkanlarını itirsin.

Traktatın bu yerini başa düşmək üçün vəziyyəti də nəzərə almaq lazımdır. Sun-tszı əsərdə hər yerdə «gözləmək», «sahmanda» olaraq, sahmansızlığı, sakit olaraq həyəcanı, yaxında olaraq uzağı gözləyirlər» ifadələri işlədir.

Əlbəttə ki, bu ifadələrin ilkin mənası tərcümədə necə verilib, elədir. Sonuncunu isə həqiqi mənasında başa düşmək olar: ilkin olaraq əlverişli mövqe tutmaqla hələ uzaqda olan, yəni, bu mövqeni tuta bilməyən düşmənini sakitcə gözlə.

Bununla belə, «gözləmək» işarəsi «qarşı qoymaq» mənasında da işlədilə bilər. Bu heç də yeni məna kəsb etmir və «gözləmək» mənasının inkişafı, daha doğrusu, onun inikasıdır. Buna görə də, yuxarıda söylənənləri rus dilində başqa şəkildə də demək olar.

«Düşməndəki başıpozuqluğu özündəki nizama; düşməndəki həyəcanı özündəki sakitliyə; düşmənin qələbədən uzaq olmasını özünün qələbəyə yaxınlığına, düşməndəki yorğunluğu özünün yeni qüvvələrinə, düşmənin aclığını özünün tox döyüşçülərinə qarşı qoy». Bu cür qarşılaşdırmada Sun-tszının passiv taktikası sanki aktivləşir, onun müdafiə strategiyası hücum strategiyası ilə əvəzlənir. Beləliklə, «gözləmək» sözündə iki müxtəlif konsepsiya, iki qraşı-qarşıya olan başlanğıc qoyulub. Sun-tszının sözlərilə desək, iki və eyni zamanda «dəyişiklikdən» asılı olaraq bir konsepsiya qoyulub. Bu, sərkərdənin «dəyişiklikləri idarə etmək» bacarığıdır və onun dördüncü mədəniyyətini təmin edir. Bu məsələ Sun-tszıda sonuncu yerdə verilib. Yuxarıda deyildiyi kimi, ona görə belə edilib ki, bu mədəniyyət müstəqildir və eyni zamanda digər idarəçilik mədəniyyətlərini də əhatə edir.

Bu fəslin sonuncu abzası Sun-tszının «müharibə aparmağın qanunları» adlandırdığı məsələyə həsr olunub. «Əgər düşmən yüksəkliklərdə yerləşibsə, onun üzərinə birbaşa getmə; əgər üstünlük ondadırsa, düşmənə qarşı çıxma; düşmən özünü qaçmağa meyilli kimi göstərirsə, onu təqib etmə; əgər o, güclə doludursa, hücum etmə; əgər o, sənə haradasa güzəşt edirsə, aldanma; əgər düşmənin qoşunu öz yerinə qayıdırsa, onu saxlama; əgər düşmən qoşunlarını mühasirəyə alırsansa, bir tərəfi açıq saxla; əgər o, çıxılmaz vəziyyətdədirsə, onu sıxma; bu, müharibənin aparılması qanunlarıdır».

Şərhçilər bu halları izah edirlər. Çjan Yuy deyir: «Düşmən yüksəkliklərdə mövqe tutubsa, ona hücum etmək olmaz; bu, insanlar və atlar, eləcə də atəş açmaq üçün rahat deyil». Ona görə də Çjuqe Lyan deyir: «Dağlarda döyüş zamanı dağa çıxmaq olmaz. Eləcə də düşmən yüksəklikdən enərkən ona qarşı çıxmaq olmaz. Bu cür hal qarşılayan üçün əlverişli deyil. Qoy düşmən düzənliyə ensin, sonra isə onunla döyüşə gir».

Çinin Şimal və Cənub çarlığına bölündüyü dövrdə Şimal çarlığının özü də iki dövlətə çevrildi– Axırıncı Çjou (557-580) və Şimali Tsi (550-577). Onların arasında müharibə başladı. Keçmiş Şimal çarlığının paytaxtı– Loyan şəhəri Şimali Tsinin əlində idi və Axırıncı Çjou bu şəhəri tutmaq üçün öz qoşunlarını hərəkətə gətirdi. Şəhərin müdafiəsi ilə sərkərdə Dyan Şao məşğul idi. Düşmən üzərində müşahidə aparmaq üçün o, az qüvvə ilə yüksəkliklərdən

birində yerləşdi və oradan düşmənin bütün hərəkətlərini izləməyə başladı. Dyan Şao bir yerdən başqa yerə keçirdi və bu hərəkət zamanı gözlənilmədən Axırıncı Çjounun qoşunu ilə üzləşdi. Bu zaman o, tez bir vaxtda dağın gədiklərinə çıxdı və gözləməyə başladı. Düşmən dağa hücum çəkmək üçün piyadaları sıraya düzdü. Bu zaman Dyan Şao öz süvarilərinə düşmənə zərbə vurmaq və tezcə də geri çəkilmək əmri verdi. Axırıncı Çjounun dəstələri qələbə qazanacaqlarını zənn edib, dağın döşünə qalxdılar. Dyan Şao sakitcə gözləyirdi ki, düşmən qüvvələri dağı qalxıb yorulsunlar və o, bunu etdi, yuxarıdan aşağıya zərbə vuraraq düşməni ciddi məğlubiyyətə uğratdı.

Tszya Lin Sun-tszının başqa fikrini dəqiqləşdirir. O, deyir: «Bəzən düşmən məğlub olmamış qaçmağa üz tutur. Bu o deməkdir ki, düşmən sənə mütləq tələ qurur və orduna qarşı hücum edəcək. Bu zaman öz komandir və əsgərlərini saxla və düşməni təqib etmə».

Çjaonun hakimiyyəti dövründə Tsin və Çjao knyazlığı arasında müharibə gedirdi. Çjao ordusuna Çjao Şe, Tsin ordusuna isə qoca və təcrübəli sərkərdə Bo Tsi komandanlıq edirdi. Çanpin yaxınlığında döyüş zamanı Çjao qoşunları güclü hücuma keçdilər. Bu vaxt Bo Tsi geri çəkilmək əmri verdi və belə bir görüntü yaratdı ki, guya onların hücumuna tab gətirə bilmirlər. Çjao Şe bu manevrə aldandı, tam əmin oldu ki, əzilmiş düşməni qovur və geridə qalanları təqib etməyə başladı. Qaçışın tozu içərisində o, gözlənilmədən düşmənin möhkəmləndirilmiş düşərgəsi ilə üzləşdi. Bu vaxt Bo Tsi öz qoşununu istehkamlarda gizlədərək, özünün döyüşə hazır olan 25 minlik dəstəsinə düşmənə arxadan zərbə vurmaq əmri verdi. Özünün süvari qoşununu isə cinahlara atdı. Çjao Şenin ordusu öz arxa qüvvələrindən ayrı düşdü və bölündü. Bo Tsi yüngül piyadalarını öndən onun üzərinə göndərdi və Çjao Şenin ordusu darmadağın edildi (bizim eradan əvvəl 280-ci il).

Sun-tszının digər fikrini Çjan Yuy aydınlaşdırır: «Düşmən tam gücdə olanda ona qarşı silah qaldırmaq mümkün deyil, lazımdır ki, ondan yayınasan və yorulmağını gözləyəsən».

Tan imperatoru Tay-tszun müharibə apardığı dövrlərdə (627-649) Se Jen-qu ilə qarşılaşmalı olmuşdu. Se Jen-quya 100 mindən çox əsgərlə Tay—tszuna qarşı güclü mövqedə dayanmışdı və hər vəchlə onu döyüşə çəkmək istəyirdi. İmperatorun hərbi rəhbərləri ondan xahiş edirdilər ki, savaşa başlamağa icazə versin. Lakin imperator icazə verməyərək, deyirdi ki, indi düşmən güclüdür və ona üstün gəlmək mümkün deyil. Döyüşməkdənsə, öz mövqeyini hər cür möhkəmləndirmək və düşmənin nə vaxt zəifləyəcəyini gözləmək lazımdır. Bu minvalla xeyli vaxt keçdi. Qoşunlar qarşı-qarşıya duraraq, öz mövqelərini möhkəmləndirdiklərini göstərirdilər. Nəhayət, Se Jen-qunun ərzağı tükəndi, onun əsgərləri avaralanmağa başladılar. Bunu görən imperator hərbi rəhbər Lyan Şini Tsyandakı möhkəmləndirilmiş mövqeyi tutmağa göndərdi.

Düşmənin hərbi rəislərindən biri, Lo Xou təcili olaraq ona hücuma keçdi, lakin mövqe möhkəm idi və onu ələ keçirmək mümkün olmurdu. Qəzəblənmiş Lo Xou gətdikcə daha gərgin hücumlar edirdi. Bu zaman imperator düşmənin əsas düşərgəsinin cinahında təxribat törətmək üçün Lun Yuyun komandanlığı altında dəstə göndərdi. Lo Xou özününkülərə kömək etmək üçün tələsərək, ordusunun bir qismini Lyan Şiyə qarşı qoydu. Döyüşün qızğın çağında Tay-tszunun özü peyda oldu və düşmənin sol cinahına zərbə vurdu. İkitərəfli cinah zərbələri ilə düşmən bütünlüklə məhv edildi.

Mey Yao-çen Sun-tszının növbəti fikrini belə izah edir: «Əgər balıq aldadıcı yemi udursa, o, tilova düşür. Qoşun da tələyə düşsə, məhv ediləcək. Əgər düşmən səni tilova gətirmək istəyirsə, aldanma».

Sun-tszı geri çəkilmək istəyən qoşuna dayanmamağı və sakitcə getməsinə imkan yaratmağı məsləhət görür. Çjan Yuy izah edir ki, bu nəyə görə lazımdır: «Əsgərlər naməlum ərazidə olanda evə getmək istəyirlər və sən onlara yolda olarkən hücum etsən, sona kimi döyüşəcəklər».

Bu qayda o qədər sınanıb ki, onu digər müəlliflər də, o cümlədən «Sıma fa» traktatının müəllifi təkrar edir: «Düşməni üç tərəfdən mühasirəyə alaraq, bir tərəfi açıq saxla ki, ona həyat yolunu göstərəsən».

Bu məsləhət nə üçün verilir? Çen Xao bunu izah edir: «Çıxılmaz vəziyyətdə qalan quş, var gücü ilə qanadlarını çırpır; vəhşi heyvan çıxılmaz vəziyyətdə qalanda dişləyir».

Bu iki qayda sanki taktikanın əsas təfərrüatlarını inkar edir: məhz qoşun geri çəkiləndə onu təqib etmək və axınna çıxmaq lazımdır; qoşun mühasirəyə alınanda ya onu tərksilah etmək, ya da ki, məhv etmək lazımdır. Bununla belə, Sun-tszının taktika və strategiyası başqa cür hərəkət etməyi məsləhət görür. Tarixi misallar göstərir ki, bu qaydalar məşhur sərkərdələr tərəfindən tətbiq olunub.

«Əgər düşmən qoşunları evə gedirlərsə, onları saxlama», - deyir Sun-tszı.

Çin hərb tarixinin bir epizodu Sun-tszı tələblərinin yerinə yetirilməsinin hansı nəticə verdiyini göstərir və bu epizod evə qayıdan düşmənə hücum etməmək tələbi ilə bağlıdır.

Üççarlıq dövründə, U-dinin (Tsao Tsao) Çjan Syu ilə müharibəsində hərbi rəis Lyu Byao özünün böyük qüvvəsi ilə sonuncunun köməyinə gəldi. İki düşməni ilə üz-üzə qalan U-di öz ərazisinə qayıtmalı oldu. Bu zaman Lyu Byao onun geri çəkilmə yolunu kəsməyə tələsdi. Çjan Syu isə geri çəkilənləri təqib etməyə başladı. Beləliklə, geri çəkilənlərin həm önündə, həm də arxasında düşmən peyda oldu. Vəziyyət çıxılmaz kimi görünürdü. Gecə düşdü. Hər iki tərəf dayandı və düşərgə qurdular. U-dinin əsgərləri gördülər ki, öz həyatlarını mümkün qədər qorumaqdan başqa yolları yoxdur.

U-di qeyri-ixtiyari bir yol seçdi. Qərara gəldi ki, düşmənin arxasında təxribat törətsin.

Onun dəstəsi gecənin qaranlığından istifadə edərək, Çjaonun düşərgəsindən yan keçdi və gözlənilmədən ona arxadan zərbə vurdu. Bu zərbəni gözləməyən Çjan ordusu pərən-pərən düşdü və əzildi. U-di bundan sonra öz yaxınlarından birinə dedi: «Mənim qoşunlarım evə qayıdarkən düşmən onu saxladı. O, məni ölüm vəziyyətində qoydu və buna görə də mən qalib gəldim».

Bu cür arqumenti düşməni mühasirəyə alarkən onun getməsi üçün çıxış saxlamağın əhəmiyyəti ilə əlaqədar da gətirmək olar.

Sun-tszının bu məsləhəti elə bil ki, mühasirə taktikası, hətta mühasirə anlayışının özünün məntiqinə ziddir.

Belə hallar da olur ki, mühasirəyə alınmış düşmənin oradan getməsi üçün çıxış saxlamaq qələbə çalanın özü üçün gözlənilməz yaxşı nəticəyə səbəb olur. Çin tarixindən bir misal bunu sübut edir.

Sonuncu Xan imperiyası dövrünün əvvəllərində onun əsasını qoyan Quan-unun hakimiyyəti illərində gərgin mübarizəyə davam gətirənlərdən biri Çjan Bu Tsi knyazlığını tutdu. Çen Yan ona qarşı döyüşmək üçün göndərildi. Qen Yan əvvəlcə Çjua şəhərini mühasirəyə aldı. Bu şəhər Çjan Buya məxsus idi. Bu şəhərin yaxınlığında isə müdafiəsi möhkəmləndirilmiş digər şəhər Çjunçen yerləşirdi. Çjua şəhərinin üç tərəfində qoşun yerləşdirilmişdi, digər tərəfi, Çjunçen ilə üzbəüz tərəf isə açıq saxlanılmışdı. Mühasirəyə düşmüşlər öz qarşılarından açıq yolu görərək, tərəddüd etdilər və özlərini axıradək vuruşmaq barədə qərarlarından imtina edərək, Çjunçen şəhərinə keçməyə və buradakı qüvvələrlə birləşməyə üstünlşük verdilər. Beləliklə, Çjua şəhəri döyüşsüz mühasirəyə alanların əlinə keçdi. Bundan əlavə, Çjunçen qarnizonu Çjua şəhərinin süqut etdiyini və oradan çıxmış nizamsız qoşunları yanında görəndə öz cəsarətini tamamilə itirərək təslim oldu.

Sun-tszının sonuncu qeydləri təsdiq edir: «Əgər o, çıxılmaz vəziyyətdədirisə, üstünə getmə. Ona görə ki, quş çıxılmaz vəziyyətdə qalanda qanadlarını var gücü ilə çalır; vəhşi heyvan çıxılmaz vəziyyətdə qalanda dişləyir»,- izah edir Çen Xao.

VIII fəsil

Doqquz dəyişiklik

Əgər Sıma Tsyunun dediklərinə inansaq, Sun-tszının traktatı 2500 il bundan əvvəl yaranıb. Tam təbiidir ki, traktatın mətni kitab nəşrinin icad olunduğu dövrə qədər keçən müddət ərzində köçürülmə zamanı təhrif olunmamış deyil: mətndə buraxılmış yerlər, kənar əlavələr ola bilər, bəzi yerlər dəyişilə bilər. Bütün bunların hamısı mümkündür. Diqqətlə analiz edəndə əmin olursan ki, hətta

bizə gəlib çatan redaktədə çatışmazlıqlar mümkün qədər aradan qaldırılsa da, bəzi yerlərdə mətn heç də qaneedici deyil.

VIII fəslin əvvəlindəki mətndə çatışmazlıqlar özünü daha qabarıq göstərir. Ən birinci ifadə: «Müharibənin aparılması qaydaları bunlardır»; eləcə də «öz hökmdarından əmr alan sərkərdə ordunu formalaşdırır və qoşun toplayır– ifadəsi VII fəslin ilk abzasının birinci hissəsinin eynilə təkrarıdır və bu kontekstdə tamamilə artıqdır.

Sonrakı bir ifadə: yerlərdə– yolayrıclarında ittifaq bağla... mühasirə yerində dərk et; ölüm yerində vuruş» ifadələri IX fəsildəki ifadələrin təkrarıdır. «Yolsuz yerdə düşərgə qurma» ifadəsi azca dəyişilmiş şəkildə XI fəsildə verilib: «Yolsuz yerdə dayanma».

IX fəsildə bu ifadələr yerindədir, digərləri ilə uzlaşır və fəslin özü şərait barədədir. Buranın özündə də bəzi ifadələr təsadüfidir. Buna görə də bu ifadələrin mətnə səhv düşdüyünü ehtimal etmək olar. Bunu nəzərə alaraq, bu halların izahını biz indi deyil, XI fəsildə veririk.

Sonrakı qeydlər: «Çılpaq və susuz yerdə çox dayanma» ifadəsi buradakı mətndə havadan asılı qalır. Bu ifadə ümumilikdə bu fəslin məndəricatına uyğun gəlmir və digər sözlərlə əlaqəli deyil.

Çjan Yuy belə bir fikir söyləyir ki, bu ifadəni VII fəslə aid etmək və digər səkkiz ifadə ilə bir yerdə, bir cərgədə vermək lazımdır: «Əgər düşmən yüksəklikdə yerləşibsə, onun üzərinə birbaşa getmə» və s. Ancaq bu fikir sırf süni arqumentə əsaslanır. Çjan Yuy bu fəslin həsr olunduğu «doqquz dəyişikliyi» axtarır, lakin onları tapa bilmir. Buna görə də o, səkkiz qeydi VII fəslin sonundan götürərək bu fikri çılpaq, susuz yerlə əlaqələndirir və axtardığı «doqquz dəyişikliyi» tapır. Görmək heç də çətin deyil ki, bu, nəyin bahasına olursa-olsun «doqquz dəyişikliyi» tapmaq istəyindən irəli gəlir. Bütün səkkiz hal VII fəslin sonunda təsvir edir ki, düşmənlə üzləşdikdə nə etmək lazımdır; yerin çılpaqlığı və susuzluğunun isə bu cür qarşıdurma ilə heç bir əlaqəsi yoxdur.

Bu məsələnin nisbətən uyğun gəldiyi yer X fəsil ola bilərdi. Belə ki, burada «ərazinin forması»- onun açıq, maili və s. olması sadalanır. «Açıq və susuz» yer məsələsi burada qərarlaşa bilərdi.

Beləliklə, bu fəsildə yenilik, daha doğrusu bu fəslin özü məşhur beş düsturdan başlayır, hansı ki, bu beş düstur ümumi qaydalar içərisində əsas ola bilər. Ümumi qaydaları bu cür formalaşdırmaq olardı; yol ilə gedirlər, qoşunlara hücum edirlər, qalaları mühasirəyə alırlar, ərazilər uğrunda vuruşurlar, hökmdarın əmrlərini yerinə yetirirlər. Lakin bunlar heç də tam olmayan ümumi hallardır.

Sun-tszı həmişə deyir ki, bu cür ümumi halların əhəmiyyəti çox şərti və nisbidir. Əslində isə onlar «doqquz dəyişikliklə» yeni məziyyət kəsb edirlər. Buna görə də, Sun-tszı bu fəsildə ümumi qaydaları deyil, yeniliklərə səbəb olan istinadları izah edir. Onların dəyişilməsini və çevrilməsi yollarını göstərir. Çin mütəfəkkirləri

deyirlər ki, bu dəyişikliklər tamamilə əks qaydalar yaradırlar. «Elə yollar olur ki, onunla getmirlər; ordular olur ki, onların üstünə hücum çəkmirlər; qalalar var ki, onlardan ötrü döyüşmürlər, yerlər var ki, onların uğrunda vuruşmurlar; belə də olur ki, hökmdar əmr edir, lakin bu əmr icra olunmur». Beləliklə, Sun-tszı burada vəziyyəti əks vəziyyətlə qarşılaşdırır.

Şərhçilər bu beş halı belə izah edirlər.

Tsao-qun, Du Yu və Li Tsyuan «o yollar ki, gedilmir» ifadəsini belə başa düşürlər ki, bu yollarda ya güclü hərəkət var, ya da ki, həmin yollar çətin keçiləndir. Vay Çje hesab edir ki, bu yollarda pusqu qurula bilər. Du Yu isə sualı daha geniş qoyur. «Əgər yolda çətinlik varsa, heç onu getməyə dəyməz. Amma başqa yol yoxdursa, onunla gedilməlidir. Dəyişikliyin mahiyyəti budur. Əgər yol qısadırsa və onu keçməklə heç bir mənfəət əldə olunmursa, bu yolu keçməyə dəyməz.

Sun-tszının sözünün bu yöndən işıqlandırılması böyük əhəmiyyət kəsb edir. «O yolları ki, getmək olmaz» anlayışını onun topoqrafik çətinlikləri ilə məhdudlaşdırmaq olmaz; yol strateji baxımdan da yararlı olmaya bilər. İş topoqrafiyada deyil, «faydadadır»; əgər hər hansı bir mənada «yol mənfəətsizdirsə», o, hamar, düz, yaxın olsa belə, onunla gedilmir. Du Yunun da bu baxımdan göstərişləri vacibdir ki, zəruri halda heç bir çətinliyə görə dayanmaq olmaz. Başqa sözlə, Du Yu bütünlüklə «dəyişikliklərin» öyrənilməsi yolunu araşdırır.

Birinci Xan hakimiyyəti dövründə Tszin-di çarlığında (m.ö. 156-140 illər) Xan idarəçiliyinə qarşı yeddi knyazlıq üsyan qaldırdı. Yuxarıda xatırladığımız, tanınmış sərkərdə Çjou Ya-fu qiyamçıların üstünə göndərildi. Əsas və adətən hamının hərəkət etdiyi yol şərqə, qiyamçıların olduğu ərazilərə aparırdı. Bununla belə, bu yol çoxlu axın olan yerlərdən keçirdi. Buna görə də Çjou Ya-funun yaxın tərəfdarlarından biri– Çjao Şe öz sərkərdəsini bu yolla getməməyə inandırdı. O, hesab edirdi ki, üsyançıların rəhbərlərinə öz bayraqları altında xeyli qüvvə toplamaq çətin olmayacaq. Belə ki, onların ölkəsi zəngindir, imkanları çoxdur və döyüşçülərə heç bir mükafatı əsirgəmirlər. «O, əmin idi ki, yolda əlverişli yerlərdə pusqu qurulacaq və bu yolda hər dəqiqə təhlükə ilə üzləşmək qorxusu var. Buna görə də Çjao Şe təklif etdi ki, digər yolla, cənub istiqamətindən və Uqnan dağ keçidindən aparan yolla getsinlər. Bu yolla iki gün müddətində paytaxt Loyanaya çatmaq mümkündür. Çjao Şe güman edirdi ki, düşmən bu istiqamətdən Can ordusunun gələcəyini gözləmir və Xan bayraqlarının Loyanada qəfil görünməsi üsyançılara ağır təsir edəcək. Çjou Ya-fu bu məsləhətə qulaq asdı və Çjao Şenin ehtimalları özünü doğrultdu. Düşmənin diqqətini yayındırmaq üçün təxribat törətmək məqsədilə əsas yolla göndərilən dəstə mühasirəyə düşdü.

Sonuncu Xan dövründə Quan-Unun hakimiyyəti illərində (25-57) başqa kökdən olan usiman tayfaları ilə müharibə aparılırdı. Ma Yuan və Qen Şunun başçılığı ilə ekspedisiya dəstələri hazırlanaraq silahlandırılmışdı. Düşmənin tutduğu əraziyə iki yol gedirdi– Xuton və Çundao yolu. Xuton yolu qısa idi, lakin dağlıq və çaylıq ərazilərdən keçirdi. Çundao yolu isə uzaq olsa da, düzəngah və açıq yerlərdən keçirdi. Hansı yolu getmək məsələsində iki hərbi rəisin fikri ayrılırdı. Qen Şu uzun olsa da Çundao yolunu seçməyi məsləhət gördü. Ma Yuan isə hesab edirdi ki, bu, artıq vaxt itkisinə, ərzaq ehtiyatının qurtarmasına və ordunun çətin vəziyyətdə qalmasına səbəb olacaq. Buna görə də o, Xutou yolu ilə getməyi təklif etdi. Çünki, bu yol düşmənin yerləşdiyi məkana tez çatmağa və o saat da zərbə vurmağa imkan verərdi, düşmənə psixi təsir edərək, onun silahı yerə qoymasını təmin edərdi. Hər iki sərkərdə bu sualın həlli üçün imperatora müraciət etdi. Quan-u qısa yolla getməyi əmr etdi.

Yenilməz tayfalar Xan ordularını görərək, çoxlu qüvvə topladılar, dağ keçidlərini möhkəmləndirdilər, pusqu qurdular. Xan ordusu düşmənin aramsız zərbələri altında hərəkət edir, dağ çayları da əlavə maneələr yaradırdı. Bununla yanaşı, bu yerlərə xas olan rütubətli istilər başladı və bu səbəbdən xəstəliklər yarandı. Qoşunda hər gün xəstələnənlərin və ölənlərin sayı artdı. Nəhayət, Ma Yuanın özü də vəfat etdi. Beləliklə, yürüş bütünlüklə müvəffəqiyyətsizliklə nəticələndi. Məhz bu Xutou yolu o yol idi ki, gedilməli deyildi.

«Elə ordular var ki, onların üzərinə hücum etmirlər» - bunu Sun-tszının ikinci nəzəriyyəsi təsdiq edir. Şərhçilər bir sıra hallar göstərirlər ki, belə vəziyyətlərdə düşmənə hücum etmək lazım gəlmir. Tsao-qun hesab edir ki, əgər düşmənin yerləşdiyi ərazini tutduqdan sonra onu əldə saxlaya bilməyəcəksənsə, ona hücum etmə; əgər tutacağın yerdən heç bir mənfəət əldə edə bilməyəcəksənsə, oraya hücum etmə. Sun-tszının əvvəlki fəsildə dediyi kimi, «Düşmən çıxılmaz vəziyyətdədirsə, onu sıxma». Du Mu deyir ki, düşmən güclüdürsə, o evə qayıdarsa və yaxud da onun gücü səninkini üstələyirsə, hücum etmə. Çen Xao kiçik mənfəət üçün vuruşmağı da məsləhət görmür. Tszya Sin göstərir ki, müəyyən halda düşmənə öz gücünlə təsir edərək, onun tərksilah olunmasını təmin etmək olar. Van Çje Sun-tszının düşmənin aldadıcı hərəkətlərindən qorunmaq barədə xəbərdarlığını, nizami hərəkət edən orduya, eləcə də təhlükəli düşərgəyə hücum etməmək xəbərdarlığını da yada salır.

Ən ümumi düsturu isə Çjan Yuy verir: «Üzərinə qələbə çalacağın düşməndən sənə heç bir fayda yoxdursa, ona hücum etmə və bundan sən heç nə itirməzsən də».

«Qalalar var ki, onların uğrunda mübarizə aparmırlar». Sun-tszının üçüncü qaydası bunu təsdiq edir. Tsao-qun hesab edir ki, burada söhbət bir o qədər də böyük olmayan, lakin güclü mühafizə olunan, çoxlu silah və sursat olan qalalardan gedir. Tszya Sin cəsur

və inamlı əsgərlərin qoruduğu qalaya hücum etməkdən də çəkinməyə çağırır. Van Çye alınması çox baha başa gələn, çoxlu itkilərə səbəb olan və digər əməliyyatları çətinləşdirən qalalar uğrunda döyüşməyi də lazım bilmir. Özü zəif, lakin qoruyanları güclü olan, eləcə də müdafiəsinə güclü dəstək gələ biləcək qalaların üzərinə də hücum etmək məqbul deyil. Çjan Yuy yenə də daha ümumi düstur verir: «Tutarkən əlində saxlaya bilməyəcəyin və yaxud onu itirməyindən heç bir ziyan çəkməyəcəyin qalanı mühasirəyə alma».

Nanbeyçao dövründə Sun çarlığının son illərində Şun-di əmirliyində vilayət rəhbərlərindən biri– Çen Yuçye qiyam qaldırdı. Ordu toplayaraq paytaxt Tszinlin şəhərinə hücum etmək qərarına gəldi. Tszinlinə gedən yolda İnçen qalası yerləşirdi. Çen Yu-çji hesab etdi ki, bu qalanı tutmaq lazımdır və oraya istiqamət götürdü. Bu zaman hərbi rəislərindən biri Tszyun İn onu dilə tutdu ki, bu addımı atmasın. O, məsləhət gördü ki, mühasirəsi on, iyirmi gün çəkə biləcək qalaya vaxt və güc itirməsinlər. Bu qaladakı qarnizonun fəaliyyətinə nəzarət edə biləcək qüvvə saxlamaqla paytaxta tələsmək lazımdır. Tszyan İn belə güman edirdi ki, paytaxtın tutulması avtomatik olaraq bu qalanın da alınmasına gətirib çıxaracaq. Çen Yu-çji bu məsləhətə qulaq asmadı və qalanın mühasirəsinə üstünlük verdi. Lakin bu qala elələrindən idi ki, onu mühasirəyə almaq lazım deyildi. Bunu başa düşməyən Çen Yu-çji tam məğlubiyyətə düçar oldu.

Sonuncu Çjou imperatoru U-dinin Tsi çarlığı ilə müharibəsi zamanı (561-577) belə bir hadisə baş verdi. U-di hər şeydən əvvəl düşmənin Xeyançen qalasını tutmaq istədi. Onun nazirlərindən biri Yuy Ven bunu etməməyə çalışdı. Belə ki, bu qala keçilməz idi, onu seçmə döyüşçülər qoruyur və onu ələ keçirmək çox çətin olacaq. Bunun əvəzində digər qala– Tezd-yçyuyun tutulması təklif olundu. Bu qalanın mühafizəsi o qədər də güclü deyildi və onun tutulması bu rayonda azad hərəkətin təmin olunması demək idi. U-di buna qulaq asmadı və «mühasirəsi lazım gəlməyən qala» nın üzərinə getdi, çoxlu qüvvə sərf etdi, lakin ala bilmədi.

Bu hər iki hadisə Sun-tszının məsləhətlərinə qulaq asmamağın hansı ziyanlı nəticəyə gətirib çıxardığını sübut edir.

«Yerlər var ki, onlardan ötrü vuruşmurlar»,- deyir Sun-tszının dördüncü qaydası.

Tsao-qun belə başa düşür ki, az fayda verən və asan itirilən yer uğrunda döyüşməyə dəyməz. Du Mu o yerlər haqqında danışır ki, onları almaq olar, lakin qoruyub saxlamaq çətindir və itirilməsi də ziyana səbəb olmaz. Çjan Yuy belə izah verir: «Əgər hər hansı bir ərazinin alınması müharibə üçün heç bir xeyir vermirsə və onun itirilməsi ziyanlı deyilsə, onun uğrunda mübarizə aparmaq lazım deyil».

Du Mu Çin tarixində sərkərdənin Sun-tszı qaydalarını gözləməməsi səbəbindən ciddi ziyan çəkməsi ilə bağlı epizodu yada salır. U knyazlığının sonuncu hökmdarı Fu Ça Tsi çarlığı üzərinə hücum etməyə hazırlaşırdı (m.ö. 495-473-cü il). Müşaviri U-Tszı syunu onu bu fikirdən daşındırmağa çalışdı. «Tsini tutmaq daşlı səhəni tutmaq kimi bir şeydir»,- o, deyirdi. Tsi knyazlığı çox uzaqda, bir neçə min millikdə yerləşirdi. Artıq onun ərazisini tutmaq heç nə verməyəcəkdi. Bununla yanaşı, düşmən əhval-ruhiyyədə olan qonşularla əhatədə onu əldə saxlamaq çox çətin olardı: bunun üçün çoxlu qüvvə və xeyli vəsait lazım idi. Bununla belə, Fu Ça bu ağıllı məsləhətləri qulaq ardına vurdu və müharibəyə başladı. Nəticədə qonşu Yue knyazlığı ona qarşı hücuma keçdi və nəhayət, Fu Ça həlak oldu.

Sun-tszının beşinci qaydası «Hökmdarın əmrləri bəzən yerinə yetirilmir» fikrini təsdiq edir. Bu, o zaman olur ki, sərkərdə bu əmrlərin ziyan gətirəcəyini görür. Bu sözlərlə Sun-tszı göstərir ki, ali komandanlığın əmrlərinin necə olmasına baxmayaraq, hərbi əməliyyatlarda sərbəstlik zərurdir. Başqa cür desək, sərkərdənin şəxsi təşəbbüsü və şəxsi cavabdehliyi zəruridir.

Nəhayət, Sun-tszının bu sözləri onun əvvəllər dediyi qaydaların təsdiqinə xidmət edir. Sərkərdəyə öz səlahiyyətləri çərçivəsində hərbi əməliyyatlar zamanı orduya rəhbərlik etmək üçün hakimiyyət və sərbəstlik vermək zəruridir. Bundan əvvəl III fəsildə Sun-tszı hökmdarın hərbi əməliyyatların gedişində sərkərdənin fəaliyyətinə müdaxiləsi nəticəsində baş vermiş fəlakətlərdən söz açmışdı. Burada Sun-tszı o zaman demədiyini tam izhar edir: belə halda sərkərdə nə etməlidi? Onun məsləhəti dəqiq və müəyyəndir: bu zaman sərkərdə hökmdarın əmrlərini yerinə yetirməyə də bilər.

Şərhçilərin hamısı Sun-tszının fikirlərini dəstəkləyirlər. «Əgər bu, ümumi iş üçün lazımdırsa, hökmdarın dedikləri ilə razılşmaya da bilərsən»,- deyir Tsao-qun, yeri gəlmişkən– özüm hakiməm. Onun bu sözlərini Li Tsyuan və Çjou Yuy da təkrar edirlər. Mey Yao-çen deyir: «Vəziyyət necə tələb edir, elə hərəkət etmək lazımdır». Du Mu Vey Lyao-tszının sözlərini xatırladır: «Silah– fəlakət vasitəsidir, xeyirli iş görmək istəyənlərə qarşı mübarizədir, sərkərdə– ölüm daşıyıcısıdır». Onun başı üstündə səma, ayağının altında torpaq, qarşısında düşmən, özü üçün hökmdar yoxdur (Vey Lyao-tszı, VIII f.).

Men-şi də bu sözlərdən iqtibas gətirir və Vey Lyao-tszının digər sözlərini söyləyir: «Sarayın astanasından kənarda nə varsa, sərkərdəyə məxsusdur». Bu sözləri hökmdar yeni təyin olunmuş sərkərdəni qoşunlara təqdimetmə mərasimində deyib və bu, onu göstərir ki, döyüş bölgəsində bütün səlahiyyətlər sərkərdəyə, ölkə daxilində isə hökmdara məxsusdur.

Vey Lyao-tszı, ümumiyyətlə, bu fikri çox inadla söyləyir. Deyilən sözlərlə yanaşı, o, iki dəfə təkrar edir: «Sərkərdədən

yuxarıda səmanın, aşağıda torpağın, ortada insanın hakimiyyəti yoxdur» (Vey Lyao-tszı, II f., VIII f.). Səmadan asılı olmamaq mənası sərkərdənin göydə baş verənlərə biganəlik göstərmək anlamı verir. Yəni, Qun Tszı-sin səmada kometa peyda olanda nə etmişdisə, o cür hərəkət etmək lazımdır (səh. 48-ə bax). Torpaqdan asılı olmamaq ifadəsi sərkərdənin yerdə istənilən çıxılmaz vəziyyətdən çıxa bilməsi və mövqe tutması mənası verir. İnsandan asılı olmamaq fikri isə sərkərdənin hökmdardan asılı olmaması və yeri düşəndə onun əmrlərini icra etməmək anlamını ifadə edir (bax: Vey Lyao-tszı, II f., Lya İnin qeydləri). Bu nöqteyi-nəzəri sonradan gələn strateqlər də bölüşürdülər. Li Vey-qun «Dialoqlar» əsərində qədim zamanlarda sərkərdələrin təyini və onaların qoşuna təqdim olunması mərasimləri təsvir olunur.

«Qədimdə hökmdar ordunu göndərərkən və sərkərdələri təyin edərkən üç gün ayin və dualar icra etdirir və bündan sonra təyin olunmuş şəxsə təbərzin təqdim edərək, deyirdi: «Göyə qədər nə varsa, sənin tabeçiliyində olacaq». Sonra baltanı ona təqdim edərək, deyirdi: «Yerə qədər hər şey sənin öhdəndə olacaq». Sonra sərkərdənin atlı arabasını özü hərəkətə gətirərək, söyləyirdi: «Sənin irəli və geriyə hərəkətin ancaq vaxtdan asılı olacaq». Sərkərdə yürüşə çıxdıqdan sonra isə orduda ancaq hərbi rəislərin səsləri gəlirdi, hökmdarın isə səsi eşidilmirdi (Li Vey-qun venduy, III f., s. 62).

«Lyu tao» bu qədim mərasimləri daha geniş təsvir edərək, bildirir: «Təyinatını alan sərkərdə baş əyərək hökmdara cavab verirdi: «Mən eşitmişəm ki, dövləti kənardan idarə etmirlər (yəni, yürüşdə olan sərkərdəyə işarə olunur– N.K.), ordu isə daxildən idarə olunmur (yəni, paytaxtdan– N.K.) (Lyu-tao, XXI f., s. 10). Bütün bunlar onu göstərir ki, qədim Çində öz səlahiyyətləri çərçivəsində sərkərdəyə tam sərbəstlik hüququ verilirdi və bu, qəbul olunurdu.

Sıma Tszyan tərəfindən ötürülən və daha çox tarixi lətifəyə bənzəyən ənənə sübut edir ki, Sun-tszının özü hökmdarın əmrini yerinə yetirməməklə nümunə göstərib. Artıq qeyd olunduğu kimi, adi ənənəyə uyğun olaraq Sun-tszı öz traktatını knyaz Xo Lyuya üçün tərtib etmişdi. Bir gün knyaz ona dedi ki, traktatın on üç fəslini oxuyub və yoxlamaq istəyir ki, bu hərbi qaydaları öyrənmək və onları tətbiq etmək mümkündürmü? Sun-tszı cavab verir ki, bunu etmək olar. Bu zaman knyaz soruşur ki, yoxlamanı qadınlarla aparmaq mümkündürmü? Sun-tszı cavab verir ki, qadınlara da hərb sənətini öyrətmək olar. Onda knyaz öz sarayındakı qadınların çağrılmasını əmr etdi və 180 qadın toplaşdı. Sun-tszı onları iki dəstəyə böldü və dəstələrə rəhbərliyi knyazın sevimli kənizlərindən ikisinə tapşırdı. Sun-tszı qadınlara müraciət edərək, onlardan soruşdu ki, ürək, sağ və sol əl, kürəyin harada yerləşdiyini bilirlərmi? Qadınlar əminliklə cavab verdilər ki, bilirlər. O zaman Sun-tszı veriləcək siqnal əsasında qarşıdakılara– qabağa, soldakılara– sola, sağda dayananlara– sağa,

arxadakılara– geriyə baxmağı əmr etdi. Təbilin səsi gəldi, ancaq qadınlar əmri icra etmək əvəzinə, gülüşdülər. Sun-tszı o zaman dedi ki, əmrin icra olunmaması, izahın başa düşülməməsi səbəbindəndir və bunda onun özü komandir kimi günahkardır. Buna görə də o, bir daha soruşdu ki, qadınlar arxa, sağ və solun, irəlinin harada olduğunu bilirlərmi və əmri başa düşdülərmi? Lakin ikinci dəfə də siqnal veriləndə, qadınlar lazımi hazırlıq nümayiş etdirmək vəzinə, qəhqəhə çəkdilər. O zaman Sun-tszı söylədi ki, indi artıq dəstələrin komandirləri günahkardırlar və hər dəstənin başında duran iki qadını öldürəcək. Öz sarayından hadisələri izləyən knyaz gördü ki, sərkərdə onun iki sevimli kənizini ölümə göndərmək istəyir, tələsik xəbər göndərdi ki, Sun-tszı bunu etməsin və dedi: «Mən artıq başa düşdüm ki, siz müharibə aparmağı bacarırsınız: mənə isə bu iki qadınsız yemək belə ləzzətsiz olar. Onları öldürməyin». Lakin Sun-tszı ona cavab verdi: «Mən sizdən əmr alaraq sərkərdə olmuşam. O zaman ki, sərkərdə ordudadır, hökmdarın əmri onun tərəfindən icra olunmaya da bilər». Hökmdarın sonuncu əmrinə baxmayaraq, Sun-tszı qadınların ikisini də öldürdü. Onların yerinə isə növbəti iki qadını komandir təyin etdi. Siqnal verilən zaman bütün tələb olunan hərəkətlər nizamla və qaydası üzrə icra olundu və heç kəs bir daha gülmədi.

Qədim Çinin daha bir strateqi, şöhrətli sərkərdə Tyuan Jan-tszyunu da hökmdarın əmrinin bu cür icrası ilə bağlı nümunə göstərib. Qeyd edək ki, bu sərkərdənin adı hərb sənətinə həsr olunmuş «Sıma fa» traktatı ilə bağlıdır. Nadir istedada malik olan sərkərdə Tyan Jao-tszyuy knyaz Tszin-qun tərəfindən Tsi knyazlığının ordusuna baş komandan təyin olunmuşdu və müharibə gözləmirdi (m.ö. 547-490-cı illər).[5]

Bununla belə, Tyan Jan-tszyuy tanınmış nəsildən idi və ehtiyat edirdi ki, əsgərləri hələ onu yaxşı tanımırlar və lazımi nüfuzu olmayacaq. Buna görə də knyazdan xahiş etdi ki, güclü və böyük xidmətləri olan vassallıqlardan hörmətli bir şəxsi köməkçi kimi onun ordusuna baş müvəkkil təyin etsin. Tszin-qun xahişi qəbul etdi, özünün sevdiyi güclü hərbçi Çjuan Tszyuanı orduya müvəkkil təyin etdi. Baş komandan və baş müvəkkil görüşdülər və şərtləşdilər ki, o biri gün yürüşə çıxsınlar.

Növbəti gün səhər Tyan Jan-tszyuy müəyyən olunmuş saatda görüş yerinə gəldi və öz müvəkkilini gözləməyə başladı. Lakin Çjuan Tszya görünmürdü. Vaxt gedirdi, o gəlib çıxmırdı. Nəhayət, Tyan Jan-tszyuy öyrəndi ki, valideynləri və dostları onun yürüşə çıxması ilə əlaqədar qonaqlıq təşkil ediblər və müvəkkil həmin mərasimdədir. Tyan Jan-tszyuy vədin və ümumilikdə hərbi intizamın bu cür

---

[5] *Tyan Jan-tszyuyun mübahisəli həyat dövrü ilə bağlı bax: «Sun-tszı traktatı» və «Yeddicildlik»*

pozulmasından qəzəbləndi. Elə həmin gün axşam gəlib çıxanda Tyan Jan-tszyuy ona dedi ki, orduda hərbi vəziyyət zamanı belə hərəkət etməyə görə ölüm cəzası verilir. Çjan Tszya xahiş üçün adam göndərmək istədi ki, knyaz bu işə qarışsın, lakin Tyan Jan-tszyuy qəti olaraq ona mane oldu və dedi: «Orduda xidmət zamanı sərkərdə hökmdarın əmrlərinə tabe olmur» və bütün qoşunun iştirakı ilə Çjuan Tszyanı edam etdirdi.

Hökmdarın çox sevdiyi hərbçinin edam olunması o qədər güclü təəssürat oyatdı ki, bundan sonra Tyan Jan-tszyuyun əmrləri o saat və dəqiqliklə icra olundu, nizam-intizam ciddi şəkildə qorundu və nəticədə bütün kampaniya müvəffəqiyyətlə keçdi.

Bundan əvvəl haqqında dəfələrlə danışılmış sərkərdə Çjou Ya-fu (m.ö. 152-ci ildə vəfat edib) barədə də məşhur söhbətlər var. Tszin-dinin hakimiyyəti illərində (156-140) yeddi knyazlıqda üsyan qaldırılmış və Çjou Ya-fu onlara qarşı göndərilmişdi. Üsyançılar Xan imperatorluğunun tabeçiliyində olan Lyan knyazlığına hücum etmişdilər. Lyan knyazlığının Xan hökuməti ilə qohumluq əlaqəsi olduğundan Tszin-di Çjou Ya-funu Lyan knyazlığına köməyə göndərdi. Lakin Çjao Ya-fu bu əmrə tabe olmadı və hətta Lyan knyazlığından düşmən üçün aldadıcı vasitə kimi istifadə etdi (Bu vasitə haqqında Sun-tszı da çox danışıb). Düşmən Çjao Ya-funun kələyinə aldandı və sərkərdə hücum edərək, onu məhv etdi. Nəticədə Lyan knyazlığı salamat qaldı.

Ven-dinin hakimiyyəti illərində (1797) hunlar Xan imperiyasına hücum etdilər. İmperator üç sərkərdəsini– Çjou Ya-fu, Lya Li və Syuy Lini onlara qarşı göndərdi. Onların hər üçü hücuma keçdilər və öz ordularını möhkəmləndirilmiş mövqelərdə yerləşdirdilər. Ven-di qərara gəldi ki, öz qoşunlarını yoxlasın və mövqelərə baş çəkdi. Lya Li və Syuy Li görəndə ki, imperator özü onların yanına gəlir, özləri, komandir və əsgərləri onun qabağına qaçdılar. Ven-di Çjou Ya-funun düşərgəsinə yaxınlaşanda isə qapıda dayanmış qarovulçu onu içəri buraxmaq əvəzinə, döyüş vəziyyəti aldı, oxu yaya qoyaraq, atəş açmaq əmrini gözlədi. Bunu görən imperator çapar vasitəsi ilə Çjou Ya-fuya bildiriş göndərdi ki, düşərgəyə girmək istəyir. Yalnız bundan sonra sərkərdə Çjou Ya-fu imperatoru buraxmaq barədə əmr verdi, gözətçi silahı aşağı endirdi və qapını açdı. Geri qayıdarkən imperator bəyan etdi ki, onun həqiqi sərkərdəsi yalnız Çjou Ya-fudur, digər iki hərbi rəisə isə etibar etmək olmaz.

Çin sərkərdələri müharibə dövründə orduda olarkən özlərinin hökmdarlarından asılı olmadıqlarını bu cür qısqanclıqla qoruyurdular. Hələ Sun-tszının şərhçiləri məsələni bir qədər şərti qoyaraq, onu bir az yumşaldırlar: «O zaman ki, bu, iş üçün lazımdır, özünü hökmdarın əmri ilə əlaqələndirməmək də olar».

Bu fəslin sonrakı abzası şərhçilərdə anlaşılmazlıq yaradır. Sun-tszı sonra deyir: «Doqquz dəyişiklik»də mənfət olduğunu başa düşən sərkərdə müharibəni necə aparmağı bilir». Burada hansı «doqquz dəyişiklik»dən söhbət gedir? Fəslin özünün mətnində, bu yerə qədər və bundan sonra «doqquz dəyişiklik»in sadalanmasına oxşar heç nə yoxdur.

Artıq deyildiyi kimi, Çjan Yuy hesab edir ki, bu sadalanmanın yoxluğu traktatın mətninin nöqsanı ilə bağlıdır. Onun fikrincə, bundan əvvəl gələn fəslin sonunda verilmiş səkkiz halı bu fəslə gətirmək, «Çılpaq və susuz yerdə ləngimə» ifadəsi ilə birləşdirmək lazımdır. Lakin bu ifadənin əvvəlki səkkiz halla yaxınlaşdırılmasının düzgün olmaması fikri artıq yuxarıda göstərilmişdi. Bunun üçün də Çjan Yuyuye izahı inkar olunmalıdır.

Digər şərhçi– Xyan-si başqa həll təklif edir. O, fəslin əvvəlində yerlə bağlı beş əlaməti götürərək, yuxarıda təsvir olunmuş dörd «istisna» ilə birləşdirir, doqquz halı alır və bunları «doqquz dəyişiklik» saymaq istəyir. Məsələnin bu cür həlli daha qəbul olunandı, nəinki birincisi. Ondan götürsək ki, beş istisna halda oxşarlıq var, amma nədənsə, ilk dördü götürülür, beşincisi «yerinə yetirilməyən əmrlər» isə atılır.

Bunun yeganə səbəbi odur ki, başqa cür etsən, doqquz deyil, on qayda yaranır. Bundan başqa, aydındır ki, hər hansı bir yer şəraitində nəyi etmək olar, nəyi etmək olmaz məsələsinin beş istisna hal ilə heç bir ümumiliyi yoxdur. Beləliklə, birləşdirmə onunla izah oluna bilməz ki, arzu edilən doqquz düsturu daha başqa cür almaq mümkün deyil.

Bəs, bu «doqquz dəyişiklik» haradadır? Axı mətndə onun haqqında söz açılır. Həm də ki, bütöv bir fəsil belə adlanır. «Doqquz yer» adlanan XI fəsildə məhz yer şəraitinin doqquz kateqoriyası təsvir olunub, yəni fəsil məzmuna tam uyğun gəlir. Burada da fəsil məzmuna uyğun gəlməlidir. Lakin bu, ilk baxışda belədir. Əslində isə bu iki fəsli– doqquz dəyişiklik və doqquz yeri eyniləşdirmək olmaz.

«Doqquz» sözü «doqquz yer», «doqquz dəyişiklik» söz birləşmələrində olan «doqquz» deyil. Birinci halda bu saydır, riyazi böyüklükdür, ikinci halda isə kateqoriyadır.

«Doqquz», «doqquzluq» «İ-tszinin» heksoqramında yuxarı xəttdir, bu, üstəgəl sayların artması və azalması həddidir, artımın yuxarı nöqtəsidir və bundan sonra yenidən ilkin vəziyyət gəlir. Bu artım və azalma hər dəfə yeni forma alır ki, bu «İ-tszinin» dəyişiklikləridir. Bu, hadisələrin əbədi dəyişməsi, bir haldan digər hala əbədi olaraq keçməsidir. Beləliklə, «dəyişiklik» anlayışı kontekstində «doqquz» sayı xüsusi mənasını kəsb edir. Demək olar ki, «doqquz dəyişiklik» dəyişilmə prosesinin ən yuxarı sərhədidir. Daha ümumi desək, saysız və sonsuz dəyişikliklərdir. Buna görə də mətndə mütləq hər hansı doqquz qaydanın axtarılmasına ehtiyac yoxdur. Sun-tszının indiyə qədər dedikləri bu dəyişiklikləri təsvir edir və buna

görə də o, yorulmadan təkrar edir ki, dediyi qaydalar çoxsaylı variantlar və üsullarda həqiqətən də mövcuddur. Onun əsas fikri budur ki, «Minlərlə dəyişikliklər və on minlərlə çevrilmələr var».

Beləliklə, aydın olur ki, nə üçün Sun-tszı bu «Doqquz dəyişiklik» haqqında indi, özünün «Beş istisna»sından sonra danışmağa başlayır. Bu istisnalar digər qaydalara nisbətən danılmaz həqiqətlərin təsdiqinə əyani sübutdur. Gedilməsi üçün yoldan təbii nə ola bilər? Axı yol ondan ötrüdür ki, onunla gedəsən. Müharibədə düşmənlə vuruşmaqdan başqa təbii bir şey ola bilərmi? Axı müharibə düşmənlə vuruşmaq deməkdir, başqa bir şey deyil. Bununla belə, yollar var ki, onunla gedilmir, ordular var ki, onların üzərinə hücum edilmir. İstənilən hadisədə, istənilən halda, istənilən qayda və qanunda nə qədər sayda dəyişiklik olduğunu nə əyani şəkildə göstərə bilər. Buna görə də Sun-tszı bütün bu göstərilənlərdən sonra deməyi lazım bilir: «Doqquz dəyişiklik»də fayda olduğunu başa düşən sərkərdə (yəni bütün dəyişən vəziyyətlərdən faydalanmağı bacaran– N.K.) müharibəni necə aparmağı bilir». Sonra o, əlavə edir: «Doqqüz dəyişiklik» də fayda olduğunu görməyən sərkərdə yerli şəraiti bilsə, belə, ondan bəhrələnə bilməz. Bu ifadə Sun-tszının bütün fikirlərini açır. Lakin belə görünməsin ki, bütün dəyişiklikləri izləyərək, hər bir halda özün üçün fayda götürə bilərsən. Sərkərdədən daha mürəkkəb məsələlər tələb olunur: o, bu dəyişikliklərin özünü mənfəət kimi dəyərləndirməlidir.

Sun-tszı deyir: «Sərkərdə... olduğu yerin formasını hətta anlasa belə, o yerin faydasına yiyələnə bilməz. Bəs, bu necə olur? Axı «Yerin forması» fəsilində hər şey bu forma və tələblərin izahına həsr olunub. Sərkərdə bunları bilmədən başçı adını daşıya bilməz. Və birdən məlum olur ki, bunları bilmək heç nə vermir: əsası odur ki, «Doqquz dəyişikliyə» çata biləsən.

Sun-tszı öz oxucusunu sanki pillədən pilləyə keçirir. Ümumi vəziyyət, qaydalar və qanunlar zəruridir. Həmçinin daimi, stabil və formalaşdırılmış şeyə də ehtiyac var. Bunlar təbiətdə müəyyən qədər mövcuddur və onlarla rəftar etməyi bacarmaq lazımdır. Lakin bu, öyrənmənin birinci pilləsi üçündür. İkincisi isə bilmək lazımdır ki, stabil, daimi və müəyyən qədər təyin olunmuş heç nə yoxdur kimi qaydalar mövcud deyil. «Növbələşmə» var, hansı ki, İ-tszin bunu «dəyişiklik» adlandırır. Bunlar hər şeyin mahiyyətindədir. Ümumi vəziyyət və qaydalar «dəyişikliyin» özündədir. Buna görə də, həqiqi bilik hadisələrin getdiyi yerin formasını dərk etməkdə deyil, əslində isə bu yerin formasınını dəyişkən şəkildə olmasının başa düşülməsindədir. Sabit olan dəyişikliyə, daimi olan müvəqqətiyə keçir. Bax bunları sərkərdə bilməlidir. Tsya Lin bu barədə yaxşı fikirlər söyləyir. «Əgər sərkərdə olduğu ərazinin formasını bilsə, belə və onun ürəyinə dəyişiklik yaranmadısa, iş onunla bitməyəcəkmi ki, o, bu yerin faydasına yiyələnə bilməyəcək? Əksinə, sərkərdə

bundan daha çox ziyan çəkəcək. Ən əsası özünü dəyişikliyə uyğunlaşdırmaqdır.

Bütün bunlardan çıxış edərək, sərkərdə başa düşməlidir ki, fayda sabitlikdə deyil, hadisələrin dəyişməsindədir. Sun-tszının çəkdiyi nümunələrə söykənərək (bu onda ancaq misaldır) demək olar ki, şəraitin özü, «yerin forması» həqiqi faydanı verə bilməz: əsl faydanı onun dəyişməsi verə bilər və bu, bütün təsiredici amillərin qarşılıqlı fəaliyyəti ilə alınır. Yerin forması hər şey nəzərə alınmaqla, orada nə varsa və kimin onun üzərində olması ilə qiymətləndirilir. Məhz bu halda yerin təbiətindən və onun dəyişilməsindən fayda götürmək olar.

Mətnin növbəti yeri də oxucuda anlaşılmazlıq yaradır. Bu «Qoşunu idarə edəndə sərkərdə «Doqquz dəyişiklik» mədəniyyətini öyrənməsə o, insanlardan istifadə edə bilməyəcək., hətta «beş fayda» nı bilsə də». Burada hansı «beş fayda» dan söhbət gedir? Bu sualın iki cavabı var. Tsao-qun və Çjan Yuy belə hesab edirlər ki, «beş fayda»- o faydalardır ki, sərkərdə beş əvvəlki vəziyyətdən, yəni ki, beş istisnadan çıxara bilir. Şi Tszı-mey hesab edir ki, burada həm də «beş təhlükə» nəzərdə tutulur, hansı ki, onların dəf olunması yenə də sərkərdəyə mənfəət gətirir.

Şərhçilərin getdiyi yol aydındır. Onlar cəhd edirdilər ki, nəyin bahasına olursa-olsun fayda gətirən o beş halı tapsınlar. Ancaq məlum oldu ki, «beşlik» həmin yerin əvvəli və axırında mövcuddur. Qalır ancaq iki düşərgəyə bölünmək: ya Sun-tszının yuxarıda dediklərini təsdiq etmək, ya da ki, aşağıda söylədiklərini.

Lakin Çjan Yuy özünün digər baxışlarında düzgün yol tutur. «Ümumiyyətlə, hərbdə fayda və dəyişikliklər var. Faydanı görərək dəyişiklikləri başa düşmədən insanlardan istifadə etmək olarmı?»

Görünür, Çjan Yuy özü doqquz dəyişiklikdən danışmadığı kimi, beş faydadan da danışmaqdan imtina edir. o, ümumiyyətlə, fayda və dəyişikliklərdən bəhs edir. Məsələnin yalnız bu cür qoyuluşu düzgündür.

Sun-tszı artıq I fəsildə «fayda» sözünü işlədib. Özünün «beş qaydasını» izah edib qurtararaq, o, deyir: «Əgər o (sərkərdə), bunları fayda kimi qəbul edərsə, onlar mümkün olduğundan da çox güc yarada bilər. Sun-tszı fayda haqqında, demək olar ki, hər fəsildə danışır,.

Sun-tszının doktrinasında «fayda» anlayışı heç də «dəyişiklik» anlayışından az vacib yer tutmur. Fayda – sərkərdə üçün onun müşahidə etdiyi hadisənin mahiyyətidir. Beləliklə, bu iki anlayış müxtəlif baxış bucağına malik hadisəyə aiddir. Buna görə də Sun-tszının yuxarıda dediklərinin mənası sonrakılarla uyğun gəlir.

Fərz edək ki, fayda anlayışının mövcudluğunu və onun əhəmiyyətini başa düşürsən. Lakin hadisələrin inkişafını başa düşmədən insanların idarə olunması məsələsində bu, sənə praktik olaraq nə verə bilər? Nəzərə alsaq ki, hadisələrin inkişafı zəminində

fayda yaranır. Təbiətin özü isə– «dəyişiklik» deməkdir. Buna görə də dəyişikliklərin sirrinə bələd olmaqla faydanın düzgün başa düşülməsi və hesablanmasına, bunun ardınca isə insanlardan istifadə bacarığına yiyələnmək olar. Beləliklə, «fayda» başqa aspektdə götürülmüş «dəyişiklikdir». Bəs nə üçün Sun-tszı sadəcə fayda haqqında deyil, «beş fayda» haqqında danışır?

İzahını vermək üçün məsələyə bu kontekstdə yanaşmaq lazımdır. Nə üçün Sun-tszı sadəcə «fayda» deyil, «beş fayda deyir? Ona görə ki, Sun-tszı bununla yanaşı «dəyişiklikdən» deyil, «doqquz dəyişiklikdən» danışır. Başqa cür desək, o, tək hal əvəzində, cəm hal işlədir, hər hadisəni ayrı-ayrı hallarda deyil, bütöv bir halda izah edir. «Doqquz dəyişiklik» - bu, ümumilikdə böyük dəyişikliklər cəmidir. «Beş fayda»– hər hansı beş fayda növü yox, faydalar çoxluğudur. Bu hallarda «doqquz» və «beş» sözləri çoxluq mənası verir.

Beş sayı qədim Çində dünya haqqında təsəvvür yaradan və böyük məna daşıyan saylardan biridir. Burada təbiətin 5 əsas ünsürdən ibarət olduğu bildirilir (su, od, ağac, metal, torpaq); rənglər spektri beşdir (göy, qırmızı, sarı, ağ, qara); təbii dad beşdir (kəskin, turş, duzlu, şirin, acı); musiqi qamması 5 ahəngdən ibarətdir və s. Təbiətdə də belədir.

Cəmiyyətdə də belədir. İnsan cəmiyyəti beş əlaqədən ibarətdir: valideynlər və uşaqlar, ər və arvad, qardaşlar, dostlar (kənar adamların onlarla qarşılıqlı əlaqələri), idarə edənlər və idarə olunanlar.

Cəmiyyət əxlaqının rəhbər prinsipləri beşdir: insansevərlik, ədalət, daxili intizam, dərrakəlilik, düzgünlük. Başqa cür desək, təbiət və cəmiyyət hadisələrini müəyyən etmək, onların əlaqələrinin daxili dialektikasına baxış bucaqlarını aydınlaşdırmaq üçün «doqquz» rəqəmi götürülür və İ-tszinin natural fəlsəfəsinin arqumentləri açıqlanır. Təbiət və cəmiyyət hadisələrinin xarakteristikasını vermək üçün isə beş rəqəmi götürülür və bu beş elmi əsasdan – fizika, o dövrün kimya və filologiya elmi, təbiət elmləri və etikadan istifadə olunur. Buna görə də «beş ünsür» ifadəsi sadəcə «ünsür», «beş rəng» sadəcə «rəng» mənasını verir və s. «Fayda» təzahürün bu kateqoriyalarına aiddir. Buna görə də «beş fayda» sadəcə «fayda» anlamı da verə bilər. Əvvəldə (V fəsil) Sun-tszı bu cür (beş ahəng, beş rəng, beş dad) ifadələri olduqca çox işlədir, lakin sadalamır ki, bunlar hansı ahəng, dad və rənglərdir. O, yalnız bunların mahiyyətini açır. Beləliklə, bu fəsildə hər hansı bir yerdə konkret «beş fayda» nın axtarılmasına heç də ehtiyac qalmır.

«Fayda» anlayışı Sun-tszıda buna əks anlayış olan «faydasızlıq», «zərər» anlayışı ilə birləşdirilir. Ona görə bunlar iki əks və həmçinin eyni olan anlayışlardır. «Ziyan» «fayda» nın əks tərəfi, faydanın yaranması eyni zamanda «ziyanın» əmələ gəlməsidir. Burada bu iki hadisəni, iki anlayışı bölmək mümkün deyil. Sun-tszı deyir: «Ağıllı adamın düşünülmüş hərəkəti onunla nəticələnir ki, o,

ziyanla xeyiri birləşdirə bilir, yəni bu iki təzahürü biri-birindən ayırmır. Çjan Yuy bu fikri belə aydınlaşdırır. «Ağıllı Adam fikirləşir ki, o, əlverişli mövqe tutsa da bu, ona ziyan da gətirə bilər və yaxud o, əlverişsiz mövqedə dayananda da fikirləşir ki, bu, ona fayda da gətirə bilər. Bu, dəyişikliyə daxil olmaq deməkdir».

«Dünyada hər şey qarışıq vəziyyətdədir»,– deyir İ-tszin. Bütövlükdə bu dünyagörüşdən çıxmış Sun-tszı şübhəsiz ki, məhz bu qanunun ümumiliyini nəzərdə tutur. Lakin Çjan Yuy öz izahlarında «ağıllı sərkərdə» mədəniyyətini, yaxud Sun-tszının ifadə etdiyi kimi, ümumiyyətlə, «ağıllı Adam» mədəniyyətinin mahiyyətini formalaşdırır: bu da dəyişikliyə daxil olmaqdır. Başqa sözlə, xeyir-ziyan dialektikası «dəyişikliyin» digər aspektidir. Bu dialektikanın dərinliklərinə baş vurmaq «dəyişikliklər» mexanizminə daxil olmaq deməkdir. Burada praktiki nəticələr başlayır: «Nə zaman ki, fayda ilə ziyanı birləşdirirlər, səy nəticəyə gətirib çıxara bilər; o zaman ki, ziyanla faydanı birləşdirirlər, onda fəlakət aradan qaldırıla bilər», - deyir Sun-tszı. Başqa sözlərlə desək, əgər qarşıdakı faydanı görürsənsə, o zaman ona nail ola bilərsən ki, bu faydada olan ziyanı da görə biləcək və aradan qaldıracaqsan; əgər qarşında ziyan görürsənsə, o zaman ondan qaça bilərsən ki, bu ziyanda olan faydanı nəzərə ala və həyata keçirə bilərsən. Çjan Yuy Çin tarixindən olan misalı– faydanı qabaqcadan görən, onun mahiyyətini başa düşən və onun təsvirini çəkən insanı xatırlayır.

Çunçyu dövründə kiçik Çjen knyazlığı müharibə zamanı olduqca güclü Tsay knyazlığı üzərində qələbə qazandı. Çjendə hamı qələbəni bayram edir, şənlənirdi. Təkcə Tszı Çan ümumxalq şənliyində sevinə bilmirdi. O, başa düşürdü ki, Çjen balaca dövlətdir və istənilən vaxt qonşu güclü dövlətin əlində məhv ola bilər. Hərbi müvəffəqiyyətdən məst olmaq da böyük təhlükəyə səbəb ola bilər. «O vaxt ki, dövlətdə ancaq hərbi şöhrət haqqında düşünürlər və onda dinc inkişaf yoxdursa, bunun özü artıq bədbəxtlikdir»,- deyirdi Tszı Çan. «Bu, qonşu dövlətlərdə ya nifrət, ya da həyəcan yaradar və ölkə sabit ola bilməz. Tszı Çanın narahatlığı özünü tezliklə doğrultdu. Qüdrətli Çu knyazlığı Çjen knyazlığının üstünə hücum çəkdi. Tszı Çanın ağıllı adam olduğu və müvəffəqiyyətdə mümkün təhlükə və facieni gördüyü üzə çıxdı.

Həmin Çjan Yuy digər bir misal, Sun-tszının dediklərinin ikinci hissəsini əks etdirən nümunə çəkir.

Hadisə Loyana şəhərinin Çjan Fan tərəfindən mühasirəsi zamanı baş vermişdir. Şəhəri tutmaq cəhdləri müdafiəçilərin mətinliyi səbəbindən boşa çıxırdı. Çjan Fanın qoşununda ruh düşkünlüyü yaranmışdı. Onun yaxın köməkçiləri bir ağızdan təsdiq etdilər ki, şəhəri tutacaqlarına ümid yoxdur və getmək lazımdır. Özü də bunu gecə etmək lazımdır ki, düşmən onları görüb təqib etməsin. Lakin Çjan Fan fikrindən dönmədi. O, bəyan etdi ki, müharibədə qalibiyyət və məğlubiyyət adi şeydir, əsl sərkərdənin rolu odur ki,

müvəffəqiyyətsizliyi müvəffəqiyyətə çevirə bilsin. O, gecə geri çəkilmək əvəzinə, gizlicə düşmənin mövqelərinə yaxınlaşdı və bir zərbə ilə onu ələ keçirdi. Beləliklə, Çjan Fan ağıllı adam olduğunu və müvəffəqiyyətsizlikdə uğurun kökü olduğunu sübut etdi.

Sun-tszı göstərir ki, uğur və ziyanın köməyi, eləcə də qonşu knyazlarla münasibətdə öz məqsədinə çatmaq üçün nə etmək lazımdır. «Knyazları ziyanla özünə tabe etdirir... fayda dalınca harasa getməyə səy göstərirlər». Çjan Yuy buna aydınlıq gətirir: «Əgər onları özləri üçün əlverişsiz şəraitə salırsansa, onlar özləri sənə tabe olurlar; əgər onları cüzi mənfəətlə aldadırsansa, bununla düşməni həmin mənfəət dalınca düşməyə məcbur edirsən».

«Ağıllı adam», hökmdar, diplomat, sərkərdə bu iki imkanı– fayda və ziyanın qarşılıqlı fəaliyyətini nəzərə alaraq, öz qonşuları ilə münasibətdə məhz bu iki imkan daxilində öz siyasətini qurur və hərəkət edir. Onlardan birini qəbul etmək tam, əsası isə davamlı nəticəyə gətirib çıxara bilməz.

Mətndə bu iki ifadə arasında daha bir ifadə verilib: «Knyazları özün üçün həqiqi işə məcbur edirsən». Mətndə bu yer az başa düşüləndir. Daha ağlabatan izah sonrakına yönəldilir: o anlama ki, «iş» anlayışına yalnız xeyir və yaxud ziyan kimi deyil, onların hər ikisi kimi baxılır. Məhz bu «işlərlə» hərəkət edərək, knyaz özü üçün fayda gözləyə bilər, lakin bu zaman o, mümkün ola bilən ziyandan da qaçmalı, düşməni daimi gərginlikdə saxlamalı və beləliklə, onu öz məqsədlərinə xidmətə məcbur etməlidir.

Bu bölüm sərkərdəyə onu göstərməklə bitir ki, mənfəətin arxasında zərər dayana bilər və sərkərdə bunu həmişə başa düşməli, öz hərəkətlərində onu əldə rəhbər tutmalıdır.

«Müharibəni aparmaq qaydaları belədir: «Arxayınlaşmaq olmaz ki, düşmən qayıtmayacaq, əksinə, fikirləşmək lazımdır ki, mən onu nə ilə qarşılaya bilərəm». Nəzərə almaq lazım deyil ki, o, hücum etməyəcək, fikirləşmək lazımdır ki, öz üzərinə hücumu düşmən üçün qeyri-mümkün edəsən. Tsao-qun bununla əlaqədar bildirir: «Baxmayaraq ki, məndə hər şey qaydasındadır, mən təhlükəni yaddan çıxarmıram və həmişə ona qarşı hazır vəziyyətdə dayanıram». Bu, tamlıq, doluluq deməkdir», - Van Çje Sun-tszının əhatəli anlayışını xatırladır. Çjan Yuy deyir: «Fəlakətlər barədə düşünmək və onlar haqqında qabaqcadan xəbərdarlıq etmək lazımdır».

Bu sözlərlə Sun-tszının əvvəlki mülahizələri arasında əlaqəni görmək çətin deyil. Belə vəziyyət də yarana bilər ki, düşmənin gəlişi gözlənilməsin. Sun-tszının fikrincə, bu, «fayda»dır. Lakin «ağıllı adam» hardasa fayda görürsə, o dəqiqə bu faydanın arxasında gizlənə bilən ziyan barədə düşünür. Buna görə də o, belə hesab etmir ki, düşmən gəlməyəcək. Əksinə, bütün tədbirləri görür ki, o gələrsə, lazımınca qarşılaya bilsin. Xey Yan-si qədim «Y Iyuya» əsərindən iqtibas gətirir: «Kişi sülh və sakitlik zamanı da qılıncından

aynlmır». Soray da qədim deyimi xatırladır: «Sülh dövründə təhlükəni yaddan çıxarma». Bu, Sun-tszının da dediyi fikirdir, ancaq o, bunu başqa sözlərlə ifadə edib: «Faydanı görərkən, ziyanı da düşün».

Fəsilin sonuncu bölməsi Tsao-qunun yaddan çıxarmamağı məsləhət gördüyü məhz həmin təhlükələrə həsr olunub. Burada Sun-tszı sərkərdəni gözləyə bilən beş təhlükə barədə danışır. O, hesab edir ki, bunlar «sərkərdənin çatışmazlığı, müharibə aparılarkən baş verən bədbəxtliklərdir». O, bunlara belə əhəmiyyət verir və deməyi lazım bilir: «Bu beş təhlükə ilə orduları əzir, sərkərdələri öldürürlər». Bəs, bu təhlükələr nədən ibarətdir? Beş təhlükə barədə bilik, fayda və ziyanla əlaqədar biliklərlə bağlıdır. Sun-tszı indicə dedi ki, hər bir mənfəətdə ziyan, hər bir ziyanda potensial mənfəət var. Xarici aləmdəki bütün hadisələrdə və bütün «dəyişikliklərdə» də bu belədir. Bu cür əksəriyyət mənəvi dəyərlər sahəsində insanın keyfiyyətində və qabiliyyətində– indiki halda isə sərkərdədə mövcuddur. Onun hər bir uğurunda çatışmazlıq, hər bir güclü tərəfində zəif yerlər var. Məhz bu potensial çatışmazlıqların olması sərkərdə üçün təhlükə törədər və nəticədə ya uğur, ya da faciə gətirə bilər.

Şübhə doğurmamalıdır ki, düşmənə qarşı yönəldilmiş fədakarlıq, dərrakəlilik, çılğınlıq, şərəf və xeyirxahlıq kimi hisslər sərkərdənin ləyaqəti kimi başa düşülür. Bununla bərabər, Sun-tszı göstərir ki, bu keyfiyyətlərin hər birinin arxasında böyük bir təhlükə gizlənir. Sun-tszı qısa düsturlarla bunun nə zaman baş verdiyini və nəyə gətirib çıxardığını izah edir.

«Əgər sərkərdə nəyin bahasına olursa-olsun, ölməyə cəhd edirsə, o öldürülə bilər»,- deyir Sun-tszı. Ölümə hazır olmaq, öldürücü döyüşə girməyə hazır olmaq mərdlik, igidlik əlamətidir. Amma Tyan Jan-tszyuy deyir: «Ölümü hər şeydən yuxarı tutmaq– qalib gəlməmək deməkdir». Çjan Yuy bu sözləri xatırladaraq yazır: «Sərkərdə qarşısına hər hansı məqsəd qoymadan döyüşmək və öz əsgərləri qarşısında ölmək istəyirsə, o, qalib gəlməyəcək». Çjan Yuy bunun nə üçün belə olduğunu izah edir: «O zaman ki, hünərlidir, lakin vuruşmaq üçün planı yoxdursa, və mütləq döyüş meydanında ölmək istəyirsə, onunla döyüşməyə dəyməz. Lazımdır ki, onun üçün tələ qurasan və onu bu tələyə salıb öldürəsən».

Təfsirçilərin bu izahı Sun-tszının fikrini aydın başa düşməyə yol açır. Hünər ağılla birləşdirilməyibsə, özündə təhlükə gizlədir. Ağılın çatışmadığı halda bu müsbət keyfiyyət özünün əksinə çevrilir.

Ağıl da belədir. Ağlın çoxluğu sərkərdənin danılmaz ləyaqətidir. Ağıl deyir ki, düşünülməmiş risk, faydasız ölüm heç nə gətirmir. Lazımdır ki, ölməyəsən, sağ qalasan. Bu, düzgün fikirdir. Ancaq, «Sıma fa» da deyilib: «O zaman ki, həyat hər şeydən üstün tutulur, onda çoxlu tərəddüdlər yaranır. Tərəddüd isə böyük bədbəxtliklərə səbəb olur». Buna görə də Sun-tszı təsdiq edir: «Əgər sərkərdə nəyin bahasına olursa-olsun, sağ qalmaq istəyirsə, o, Əsir

düşə bilər». Buna görə də, ağıla zəruri olan hünər, yəni, ləyaqət əlavə olunmasa, ağıl özünə əks olan keyfiyyətə çevriləcək.

Soray da ağıl və igidliyin əlaqəsini çox obrazlı şəkildə ifadə edir.

«Ağıl və igidlik– cəng arabasının iki təkəri, günəş və ay, qaranlıq və işıq kimidir. Günəş çıxır, ay batır, ay çıxır, günəş batır; qaranlıqdan sonra işıq gəlir, işıq öz vaxtını başa vurur və qaranlıq düşür. Buna görə də, ağlı digərlərindən çox olan adamda mütləq mərdlik çatışmazlığı olur. İgidliyi digərlərindən çox olan adamda isə ağıl azlığı müşahidə olunur. O zaman ki, ürək bütövlükdə nəyin bahasına olursa, olsun sağ qalmağa yönəldilibdir, bu, ağlın çoxluğu və mərdliyin çatışmazlığını göstərir (Soray, əsər. sit. səh.192). Sorayın fikirlərindən görünür ki, yalnız ağıl və hünərin vacibliyi deyil, onların tarazlığı da nəzərə alınmalıdır.

Düşmənə qarşı hərəkətlərdə qəzəb, sərkərdəyə xas olan xüsusiyyətdir. Artıq yuxarıda göstərilib ki, Sun-tszı müharibədə düşmənçilik, qəzəb və çılğınlığa necə əhəmiyyət verir. Çılğın olmadan qabiliyyət yoxdur. ancaq buna nail olmaq üçün öz hərəkətlərinə nəzarət etməyi də bacarmalısan. Əgər çılğınlıq idarə olunmursa, o, çatışmazlığa çevrilir. Sun-tszı deyir ki, əgər sərkərdə qəzəbə daha çox üstünlük versə, ona nifrət edə bilərlər».

Sun-tszı hesab edir ki, o adamlar ki, hər cür nifrətə reaksiya verirlər, sənin nifrətin onlarda qəzəb hissi doğuracaq və nəticədə onlar da qəzəbdən dolub-daşacaqlar. Əksinə, kim ki, hisslərini cilovlaya bilir və özünü saxlamaq qabiliyyətinə malikdir, heç kəsdə ona qarşı qəzəb yaranmayacaq. Buna görə də qəzəb sənin özündə olanda müsbət keyfiyyətə çevrilir.

Sərkərdənin qıcıqlanan, heysiyyətli olması müsbət keyfiyyətdir, lakin bu, düşmənin əlində onun özünə qarşı xidmət edən silaha çevrilə bilər. Sərkərdənin həssaslığını başa düşən düşmən onu təhqir etməyə başlaya və bununla ehtiyatsızlığa yol verməyə sövq edə bilər. Sun-tszı qısaca deyir: «Əgər o, həddən çox qıcıqlanandırsa, onu təhqir edə bilərlər». Tsao-qun bunun nəyə gətirib çıxaracağını izah edir: «Tez qıcıqlanan adamı təhqir etməklə, onu istədiyin kimi idarə edə bilərsən».

Xeyirxahlıq sərkərdənin ləyaqəti, onun insanpərvərliyidir, yəni, «beş keyfiyyət» dən biridir. Bu keyfiyyətləri Sun-tszı əsərinin I fəslində verib. Bununla yanaşı, bu xeyirxahlıq fəlakətlərə də səbəb ola bilər. Sun-tszı deyir: «Əgər sərkərdə insanları sevsə, onu gücsüzləşdirə bilərlər». Tsao-qun bu sözləri belə başa düşür: «Əgər insanları sevən sərkərdə müdafiəsinə cəhd göstərdiyi şeyin əksinə çıxarsa, ikili keçidlə köməyə tələsəcək; əgər köməyə tələsəcəksə, o, yorulacaq və zəifləyəcək».

Maraqlıdır ki, qədim Çin strateji mədəniyyətinin ikinci banisi olan U-tszı da eynilə həmin fikri başqa formada ifadə edir. O, deyir: «Həlak olanlara görə kədərlənmək özünün insansevərliyi deməkdir

(U-tszı, Hücum). U-tszı öz tabeçiliyində olan əsgərlərin döyüş zamanı meyitlərini görərək kədər və göz yaşları içərisində olan sərkərdəni insansevər adlandırmaqdan imtina edir. əgər bu insansevərlikdirsə, gecikmiş və məqsədsizdir. U-tszının fikrincə, həqiqi insansevərlik odur ki, sərkərdə artıq qurbanlara yol verməsin, hər bir insanın həyatının qorunması qayğısına qalsın.

Sərkərdənin müsbət keyfiyyətləri kimi görünən hallarda gizlənən beş təhlükə bunlardadır: onu həmişə ölümə gelməyə hazır olmağa yönəldən igidlikdə, onu məqsədsizdir ölümü axtarmamağa məcbur edən ağılda, onu düşmənlə döyüşə ruhlandıran çılğınlıqda, onu ləyaqətini yüksək tutmağa məcbur edən şərəf hissində, xeyirxahlıqda. Beləliklə, Sun-tszı öz fikirlərini yeni aspektdə təsdiq edir ki, bütün mənfəətin arxasında mümkün ola bilən zərər gizlənir. «Bu beş təhlükə sərkərdənin çatışmazlığı, müharibə aparılarkən bədbəxtlikdir.

Sun-tszı bu təhlükələrə böyük diqqət verir. O, deyir: «Ordunu bu beş təhlükə ilə əzir, sərkərdəni öldürürlər. Bunu başa düşmək lazımdır». Bu beş təhlükə və beş çatışmazlıq sərkərdənin özünün və onun ordusunun məhvinə səbəb ola bilər.

Xe Yan-si burada işin hədə olduğunu izah edir: «Qədimdə də istedadlı sərkərdələr az olub, indi də onlar azdırlar. Öz xarakterinə görə hər bir sərkərdə adətən nəyəsə meylli olur. Buna görə də Sun-tszı I fəsildə ağıl, soyuqqanlıq, humanizm, igidlik və ciddilikdən danışır. Ən əsası odur ki, bütün bunlara tam yiyələnəsən».

Özü də bütün bu keyfiyyətlərə ayrı-ayrılıqda deyil, birgə, bir-biri ilə əlaqəli şəkildə yiyələnmək lazımdır». Xe Yan-si belə fikirləşir. Digər bir şey də zəruridir. Sun-tszı fəsli bu sözlərlə qurtarır: «Bunu başa düşmək lazımdır». Əlbəttə ki, bu beş təhlükəni yaxından başa düşmək, sonra isə ümumi prinsipi öyrənmək gərəkdir. Başa düşmək gərəkdir ki, hər bir faydada mümkün ziyan, hər bir ziyanda isə mümkün ola bilən fayda var.

IX FƏSİL

Yürüş

Traktatın doqquzuncu fəsli bir-biri ilə sıx bağlı olan iki mövzuya: müxtəlif hərbi şəraitdə olan qoşunların yerləşdirilməsi və düşmən üzərində müşahidə qaydalarına həsr olunub. Sun-tszının bununla bağlı göstərişləri qoşunları yerləşdırmək, düşməni müşahidə etmək, hücum və müdafiənin ən yaxşı şəraitini müəyyənləşdirmək, istənilən halda necə hərəkət etmək baxımından konkret məsləhətlərdir.

Qoşunların yerləşdirilməsi məsələsindən danışarkən Sun-tszı mövqelərin seçimi ilə bağlı öz göstrişlərini verir. Bu zaman o, müharibənin dörd müxtəlif coğrafi səhnəsini fərqləndirir: dağlarda döyüş, su üzərində döyüş, bataqlıq ərazidə döyüş, düzəngahda döyüş. Bunların hər birində qoşunların yerləşdirilməsi qaydaları

müxtəlifdir. «Dağlardan keçərkən vadilərdən istifadə et» - deyir Sun-tszı. İlk baxışda bu göstəriş «həmişə yüksəklikdə yerləşmək lazımdır» məsləhətinə zidd kimi görünür. Lakin Sun-tszı «dağlar» və «yüksəkliklər» ifadələrini bir-birindən fərqləndirir. Dağlarda olarkən onun zirvəsində, yaxud yüksək yamaclarda yerləşərkən birincisi, vadi üzərindəki hər cür nəzarəti, yəni düşmənin hərəkəti üzərindəki nəzarəti itirirsən. Belə ki, dağlardakı bütün hərəkət vadi boyunca icra olunur; ikincisi isə düşmənlə birbaşa döyüş imkanları itir. Çünki o dövrdə mövcud olan silahlar düşmənlə yalnız birbaşa təmasda vuruşmağa imkan verirdi. Buna görə də, Sun-tszı dağlardan keçid zamanı «vadiyə arxalanmağı», yəni, vadi üzərində komandanlıq mövqeyi tutmağı məsləhət görür. Bu şəraitdə komanda mövqeyi isə uzanan vadinin dərinliyindən, yəni, onun aşağı nöqtəsi ilə yüksəklik arasındakı məsafədən asılıdır. Beləliklə, Sun-tszının traktatının bu hissəsində verdiyi izah digər yerlərdə olan izahlarla uzlaşır.

Sun-tszının fikrincə, yüksəklikdə mövqe tutmaq üçün onun günçıxan tərəfində yerləşmək lazımdır. Bu tələb hansı mənanı verir? Soray hesab edir ki, bu mətndə «günəşli tərəf» əvəzinə, «bitki olan tərəf» deyilsəydi, daha düzgün olardı. ona görə ki, bu yerin tutulması mənasında o, mövqeyin ağaclı və otlu olmasını görür. Ağaclı və otlu yer ona görə lazımdır ki, ondan sığınacaq kimi istifadə edə biləsən və pis hava şəraitində daldalana biləsən. Bu yer həm də su mənbəyi olmaq, eləcə də heyvanların yemlənməsi baxımından əlverişlidir. Burada həm də insanlar üçün əlavə qida mənbələri var.

Tsao-qun, ondan sonra isə on təfsirçinin hamısı, onlardan daha sonrakılar– Lyu İn, Xuan Syan-çen və Pen Tsziyao «günəşli tərəf» heroqlifini qəbul edərək, bunun əsasında mətni indiki kimi, ruscaya çevrilmiş halda izah edirlər. Mətnin bu yerinin müzakirəsinə qoşulmadan belə, demək olar ki, günəş işığının daha çox düşdüyü yerlərdə insan üçün lazım olan yaxşı, sağlam, bitkilər yetişir.

Sun-tszının da sözlərindən məlum olduğu kimi, Çin sərkərdələri həmişə kölgəli, rütubətli yerlərdən qaçır, həmişə günəşli yerlərdə qərar tutmağa üstünlük verirdilər.

Bütün bu deyilənlər mövqe tutulması qaydaları ilə bağlıdır. Onlar eyni zamanda döyüşdə də nəzərə alınmalıdır. Vadi üzərində komanda mövqelərini tutmaq, düşmən üzərində bir sıra hərbi üstünlüklərə nail olmaq deməkdir. Buna görə də, əgər düşmən yüksəkliklərdə mövqe tutmağa nail olubsa, «döyüş zamanı onun üzərinə birbaşa yuxarı getmə».

Yüksəklikdə olan düşməni oradan vurub çıxarmaq istəyirsənsə, bunun üçün başqa üsullar lazımdır. Yəni dolayı hərəkətdən istifadə etmək gərəkdir. Sun-tszı bu barədə traktatın başqa yerlərində söz açıb.

Digər göstəriş meşəlik ərazilərdə gedən döyüşlərlə əlaqədar verilir. Belə hərəkətlər üçün xüsusi qaydalar mövcuddur. Hər şeydən

əvvəl çayı keçərkən «çaydan uzaqda olan ərazidə yerləşmək lazımdır».

«Çayı keçərkən» ifadəsi burada müxtəlif məna daşıyır. Tsao-qun, onun ardınca isə bir sıra digər təfsirçilər belə fikirləşirlər ki, burada söhbət ondan gedir ki, «çayı keçmək istəyirsənsə, keçid mövqeyini çayın özündən yox, ondan aralı seçməlisən». Bu, ona görə edilir ki, çayı keçmək üçün düşmənə yer saxlanılsın, bəlkə o, bunu etmək istəyir. Sun-tszı sonradan deyir: «Əgər sən düşmənlə döyüşə girmək istəyirsənsə, onu çayın yanında qarşılama». Bu fikrin mənası barədə hələ danışacağıq. Bəzi təfsirçilər, eləcə də Lyu İn hesab edir ki, burada söhbət çayı keçəndən sonrakı vəziyyətdən gedir və bu, belə də ola bilər. Təfsirçilərin birinci qrupu belə hesab edir ki, özün və çay arasındakı boş məsafədən əlavə, sərbəst hərəkət üçün də yer saxlamaq lazımdır; ikinci qrup isə belə hesab edir ki, müəllif çayı keçməyin qaydasını əsas tutaraq, çayı əvvəl keçənlərin ondan aralı yerləşməsini və arxadan gələnlər üçün yer saxlanılmasını zəruri bilir.

Növbəti göstəriş düşmənin özünün çayı keçməsi ilə əlaqədar verilir: «Əgər düşmən çayı keçməyə başlayırsa, onu suda qarşılama (yəni, keçməyə başladığı zaman– N.K.). Ümumiyyətlə, yaxşı olar ki, qoşunun yarıya kimi keçməsinə imkan verəsən, sonra isə ona zərbə vurasan».

Çjan Yuy bu taktikanın mənasını izah edir. «Əgər düşmən öz qoşunları ilə çayı keçərək döyüşə başlayırsa, onu çayın lap yanında qarşılama. Əgər sən bir qədər gözləyib onun qüvvələrinin yarısının çayı keçməsinə imkan verərək hücum etsən, düşmən qüvvələrinin əvvəli ilə axırı bir-birindən ayrılacaq və sən qalib gələcəksən».

Təfsirçi Xe Çin müharibələri tarixindən bir hadisəni xatırladaraq deyir ki, bu qaydaların gözlənməməsi ağır nəticələrə səbəb olub. Çun-tsyu dövründə Sunn və Çu knyazlıqları arasında müharibə gedirdi. Belə vəziyyət yaranmışdı: Sunn qoşunları knyaz Syan-qunun (650-637) komandanlığı altında çayı keçdilər və cəbhə boyu düzüldülər. Onların arxasınca gələn, Çu qoşunları ilə hələ çayı keçə bilməmişdilər. Bu zaman Sunn hərbi əsirlərindən biri– Mu J öz knyazına məsləhət gördü ki, düşmən çayı keçərkən ona zərbə vursunlar. Knyaz bu məsləhəti qəbul etmədi. Bu zaman Çu qoşunları çayı keçdilər. Həmin sərkərdə yenə də knyazı dilə tutdu ki, hələ ki, düşmən hərbi nizama düşməyib, bundan istifadə etsinlər. Lakin knyaz bununla da razılaşmadı. Nəticədə sunlular çayı sağ-salamat keçə bilən və sərbəst hərbi nizama düzlənə bilən düşmənlə döyüşə girməli oldular. Əlbəttə, Sunn ordusu darmadağın edildi, çünki ona qarşı vuruşan duşmən say etibarı ilə də üstün idi.

Sun-tszı ümumi qaydanı söyləyir: «Çayı keçərkən çaydan mütləq aralıda yerləş». Yuxarıda deyilənlərlə yanaşı, çaydan aralanmaq digər məsələlərlə də bağlıdır. Çünki, belə vəziyyət yarana bilər ki, məhz çayın yanında döyüş aparsan və yaxud da düşmən

çayın sən olan tərəfinə keçərkən arzuolunan şərait yaranar. Əgər çayın sahilində mövqe tutsan, düşmən qarşı tərəfdəki təhlükəni görərək çayı keçməyəcək. Buna görə, çaydan o qədər uzaqlıqda dayanmaq lazımdır ki, düşmən öz qarşısında birbaşa maneə görməsin və çayı keçsin. Sun-tszı artıq deyib ki, düşmənin çayı keçməsi üçün imkan vermək və onun qoşunlarının yarısı keçənlən sonra zərbə vuraraq hissələrə bölmək lazımdır. Amma bunun üçün sahilə nisbətən yaxın ərazidə yerləşmək sərfəli ola bilər və bu zaman əmin olmalısan ki, düşmən çayı keçməyə cürət edəcək. Bəs arzu olunur ki, düşmənlə çayın sahilində döyüşə girəsən, onda necə etmək lazımdır? Bunun üçün Sun-tszı yol göstərir: «Əgər sən düşmənlə döyüşə girmək istəyirsənsə, onu çayın yanında qarşılama. Yüksəklikdə qərar tut və başa düş ki, günəşin çıxdığı tərəfdə yerləşmək məqsədəuyğundur». Sun-tszı daha bir xəbərdarlıq edir: «Çayın axınının əksinə dayanma». Du Yu bu fikrin tərəfdarıdır: «Axına əks dayanmaq o deməkdir ki, sən düşmənindən aşağıdasan. Axının aşağısında yerləşmək isə olmaz». Xe Yan-si bunu belə izah edir: «Çayın axını üzrə döyüş aparanda öz hərəkətlərinə asanlıqla güc verirsən».

Təfsirçilərin bu izahını, görünür, iki vəziyyətlə əlaqələndirmək olar: gəmilərdə aparılan döyüşlərlə və sahildə gedən döyüşlərdə. Birinci halda tam təbiidir ki, axının əksinə gedərək döyüş aparmaq çətindir, axın istiqamətində döyüşdükdə isə axının gücü hərəkəti tezləşdirir və hücumu gücləndirir. İkinci halda, maili və nisbətən hamar yerdə döyüş aparmaq asandır. Bu barədə Sun-tszı traktatının digər yerində məlumat verir. Soray göstərir ki, traktatın buy eri bəziləri tərəfindən belə başa düşülürdü ki, çayın axınında düşməndən aşağıda olmaq ona görə qadağan edilir ki, düşmən axının yuxarısından «zəhərli maddələr» buraxa bilər, yəni ki, suyu zəhərləyər. Bu və digər halda Sun-tszı düşməndən aşağıda, axında olmağı məsləhət görmür. Qoşunların çay yaxınlığında yerləşməsi qaydalarına dair bölmə bu göstərişlə də sona çatır.

Sun-tszının qoşunların bataqlıq ərazidə yerləşməsi ilə bağlı qaydaları çox, sadə və qısadır. Hər şeydən əvvəl o, məsləhət görür: «Bataqlıqdan keçərkən tələs, orada ləngimə». Koda bu məsləhəti belə izah edir: «Burada torpaq batandır, su və bitkilər pis və seyrəkdir, insanlar və atlar burada tez xəstələnirlər, hərəkət etmək narahatdır». Lakin belə də olur ki, bataqlıqda mövqe tutmalı olursan. Bununla əlaqədar Sun-tszı sonrakı tapşırığını verir: «Əgər sən bataqlıqlar arasında döyüşə girməli olsan, elə yer tut ki, sənin yanında ot və su, arxanda isə meşə olsun». Çjan Yuy bu göstərişi belə şərh edir. «Əgər sən də düşməni belə yerdə qarşılamaq məcburiyyətində qalmısansa, o dəqiqə elə mövqe tut ki, sənin yaxınlığında su və ot olsun; sən bunlarla özünü su və yanacaqla təmin edə biləcəksən; səndən arxada isə meşə olsun ki, o sənə təbii örtük və daldalanacaq kimi xidmət etsin».

Düzənlik yerdə olmaqla bağlı göstəriş də qısadır. «Düzənlik yerdə düz yerdə yerləş, lakin bu zaman sənin qarşında və sağında təpə olsun, səndən qabaqda yer alçaq olsun, arxada isə hündür».

Çjan Yuy bu cür yerləşmənin mənasına aydınlıq gətirir: «Qoy bu düzəngah olsun, hər halda onun üzərində təpələr olacaq. Elə dayan ki, onlar səndən sağda və arxada olsun; onlara söykənərək, sən təbii əlverişli mövqeyə malik olacaqsan. Alçaq yer sənin qarşında olsun, hündür isə arxanda; bu tez bir zamanda hücum etmək üçün rahatdır.

Beləliklə, təpələr səndən sağda və arxada olmalıdır. Təpələrin səndən arxada olması arxadan təbii müdafiə kimi lazımdır. Cinahlardan yalnız sağda təpələrin olması nə ilə bağlıdır? Sun-tszının özü bunun izahını vermir. Tsao-qun isə qeyd edir ki, belə şəraitdə «vuruşmaq rahatdır». Soray bu sözləri o mənada izah edir ki, burada qılınc, nizə ilə vuruşmaq, eləcə də ox atmaq rahatdır, sağdan sola dönərkən sağ tərəf təbii sığınacaqla qorunmalı, sol tərəf isə açıq qalmalıdır (Soray, sit., əsər. səh. 202-203). Lakin, Sun-tszının bu tələbində izahı onunla əsaslandırmaq olar ki, cəbhə boyunca düzülüş adətən sağdan sola başlayır.

Əgər alçaq yer qarşıda, hündür yer arxadadırsa, bu yer bir qədər axıcı səth yaradır. Sun-tszı buna o nöqteyi-nəzərdən yanaşır ki, düşmənə yuxarıdan aşağıya hücum zamanı zərbə düz yerə nisbətən güclü olur.

Sun-tszı IX fəslin birinci bölümünün birinci hissəsini bu sözlərlə bitirir: «Qoşunların bu dörd sərfəli qayda əsasında yerləşdirilməsi Xuan-dinin dörd imperator üzərində qələbəsini təmin etdi». Qeyd edək ki, Xuan-di qədim Çinin əfsanəvi imperatorudur. Rəvayətə görə, Xuan-di dörd əsas rəqibinə – özlərinə «imperator» titulu vermiş dörd hakimə qalib gələ bildi. [6]

Əgər bu rəvayətdə hansısa bir tarixi hadisənin təsvir olunduğunu görməyə cəhd edilsə, (bu, o qədər də vacib deyil), o zaman yəqin ki, burada söhbət bir-biri ilə mübarizə aparan tayfa başçılarından birinin qələbəsindən gedir. Burada Xuan-dinin xatırlanması onunla izah olunur ki, qədim Çində hərbi təşəkkül bu ənənəyə əsaslanır.

IX fəslin birinci hissəsində qoşunların ümumi coğrafi şəraitdə yerləşməsi məsələsinə toxunulub. İkinci hissədə isə xüsusi şəraitdə yerləşmədən danışılır.

Sun-tszı əvvəlcə əlverişsiz yerlərdən– rütubətli, yumşaq torpaqlı, gün işığının pis düşdüyü yerlərə toxunur. Belə yerlərdən qaçmaq lazımdır: «Əgər qoşun yüksək yerləri sevəcəksə, alçaq yerləri istəməyəcəksə, günəş işığını nəzərə alaraq kölgədən üz döndərəcəksə; əgər həyat əhəmiyyətli və bərk torpaqda

---

[6] *IX fəsildə 6-cı qeyd, səh. 298* [6]

yerləşəcəksə, o zaman qoşunda xəstəlik olmayacaq. Bu isə mütləq qələbə deməkdir».

Təfsirçilər bu halı genişləndirirlər.

«Yüksəklikdə yerləşəndə aşağıdakı hər şeyi müşahidə edə bilirsən və bu zaman rəqibi təqib etmək də asandır; alçaqda olanda isə möhkəmlənmək çətindir və xəstəliklər asanlıqla baş qaldırır» - yazır Çjan Yuy. Van Çje daha bir səbəbi əlavə edir: «Qaranlıq və rütubətli yerdə çox qalanda xəstəliklər üzə çıxır, silahlar isə paslanır».

«Həyat əhəmiyyətlinin qaydasına qalmaq» ifadəsinin bir qədər anlaşılmayan olmasını təfsirçilər belə izah edirlər ki, bu, yüksəklikdə yerləşəcək, yaşayış üçün yaxşı, içməli su və bitkiləri əldə etmək mənasını verir.

Növbəti məsləhət bundan əvvəl verilmiş, qoşunların yüksəkliklər arasında yerləşməsi ilə əlaqədar məsləhətlərlə bağlıdır. «Əgər yüksəkliklər və təpələr arasında yerləşmisənsə, çalış ki, onlar sənin sağında və arxanda qalsın və günəş tutan yerdə ol. Bu, qoşun üçün faydalıdır, bu – yerdən olan köməkdir».

Çayın keçilməsi ilə əlaqədar növbəti xüsusi göstəriş verilir: «Əgər çayın mənbəyində yağış düşübsə və su köpüklüdürsə, çayı keçən gözləməlidir ki, o sakitləşsin».

Sonrakı abzasda Sun-tszı dağlıq şəraitdə hərəkətdən danışır və bu şəraitin ayrı-ayrı növlərini sadalayır. Bu sadalanma qədim Çinin topoqrafik xüsusiyyətləri baxımından maraqlıdır.

Sun-tszı «şaquli dərələrdən», «təbii quyulardan», «təbii zağalardan», «təbii torlardan», «təbii tələbələrdən», «təbii çatlardan» danışır. Bir-biri ilə bəzən heç də razılaşmayan təfsirçilərin izahı bu xüsusi adlar və yerlər haqqında təsəvvür yaradır.

«Şaquli dərələr» ifadəsi daha az izahat tələb edir. bu dağlarda olan dar, sərt qayaları olan və öldürücü dağ seli axan dərələrdir ki, buradan keçmək çətindir.

«Təbii quyu» quyunu xatırladan, hər tərəfdən sərt daşlarla əhatələnmiş dar dərəyə deyilir. «Təbii zağa» termini Tsao-qun yüksək dağların arasında yerləşən və bitkilərlə sıx örtülmüş yerlə əlaqələndirir ki, bu bitki örtüyü oranı demək olar ki, tam qaranlıq edir. Du Mu burada darlıq, darısqallıq əlamətini ön plana çəkir. «Təbii toz» u təfsirçilərin çoxu bitki ilə sıx örtülmüş yerlə əlaqələndirirlər ki, həmin yeri keçmək toru keçmək kimi çətindir. «Təbii tələ» deyildikdə isə yumşaq torpaqlı, bataqlıq olan yer başa düşülür ki, buraya ayaq basmaq tələyə düşmək deməkdir. Bəzi təfsirçilər dağlıq yerlərdə çat-çat olmuş, çala-çökək torpaqları «təbii çatlar», bəziləri isə çata oxşar, çox dar dərələri «təbii çatlar» adlandırırlar. Qısa desək, Sun-tszı dağlarda yerləri nəzərdə tutur ki, orada qoşunun hərəkəti çox çətindir və məsləhət görür ki, həmin yerdən uzaq durmaq, oraya düşdükdə isə olduqca tez çıxmaq lazımdır. Və əksinə, rəqibi bu yerlərə salmaq çox faydalıdır. Bu cür yerlər düşmənin arxasında

olduqda daha sərfəlidir. Rəqib geri çəkilmək məcburiyyətində qalanda belə yerlərə düşüb məhv olar.

Sun-tszı yarğan, bataqlıq, cəngəllik, meşə, sıx kolluq olan yerlərdə xüsusilə diqqətli olmağı məsləhət görür. Düşmən belə yerlərdə pusqu qura bilər, yaxud da bu ərazilərdə rəqibin gözətçi dəstələri gizlənə bilər. Bu fəsilin növbəti, ikinci hissəsi rəqib üzərində müşahidə aparmağa həsr olunub. Sun-tszı düşmənin vəziyyəti barədə məlumatlı olmağın zərurəti haqqında yorulmadan israr edir. Onun bu cür tələbi demək olar ki, hər fəsildə təkrarlanır. Burada o, konkret olaraq göstərir ki, rəqibin hansı əlamətlərinə görə fikir söyləmək və bu əlamətlərə görə nəyi bilmək olar. Onun mühakimələri öz dövrünün hərbi vəziyyətləri barədə aydın təsəvvürlər yaradır.

Sun-tszının fikrincə, bir sıra əlamətlərə görə, bunlar haqda söz demək olar: 1) rəqiblərin mövqeyi barədə, 2) onun niyyətləri barədə, 3) onun hərəkətləri barədə və 4) onun vəziyyəti barədə. Bu ardıcıllıqla onun göstərişlərinin şərhinə cəhd edəcəyik.

Rəqibin mövqeyinin necə olduğunu onun hərəkətləri ilə müəyyən etmək olar. Əgər rəqib mənim onun mövqelərinə yaxın olmağımdan narahat deyilsə, deməli o, hücum ediləcəyindən qorxmur və onun mövqeyi müdafiə üçün tam hazırlanıb. Elə bu davranışla da düşmənin qalaları haqqında fikir söyləmək olar. Ümumiyyətlə, qədim dövrlərin ənənəsinə uyğun olaraq müharibə zamanı hər iki tərəf müəyyən anda möhkəmləndirilmiş mövqelərindən çıxaraq döyüşə girirdi. Əgər düşmən öz istehkamlarından çıxmırsa, bu, o deməkdir ki, açıq yerdə döyüşməkdən yayınır və öz mövqeyində tam təhlükəsizlik şəraitindədir. Əgər o, təhrikedici vəziyyətdədirsə və bunun üçün heç bir əsas yoxdursa, bu göstərir ki, rəqib mənim hücum etməyimi istəyir. Başqa sözlə desək, o, öz mövqelərində qalaraq, məni döyüşə çağırır. Bu göstərir ki, belə döyüş onun üçün faydalıdır. Görünür, möhkəm mövqeyin belə davranışı o dərəcədə mübahisəsiz əlamətdir ki, elə bu cür göstərişi Vey Lyao-tszı da verir: «Kim ki, özünə toxunulmaz yer seçib, onun vuruşmaq istəyi yoxdur, səni döyüşə çağıranın fitvasına getmə».

O da şübhəlidir ki, düşmən birdən düzənlik yerdə peyda olur.

Sun-tszının da bir neçə dəfə göstərdiyi kimi, adətən, yüksəklikdə olmağa, hətta, xüsusən, açıq və düzəngah yerdə belə, yüksəkliyə oxşar ərazidə qərar tutmağa çalışırlar. Ona görə də rəqibin düz yerdə olması göstərir ki, onun hansısa xüsusi üstünlüyü var və bu üstünlük onun qələbə çalmasına imkan verə bilər.

Rəqibin niyyətlərini onun diplomatiyası və çöldəki hərəkətləri ilə də bilmək olar. Diplomatik fəaliyyət onun ümumi niyyətlərini, səhradakı davranışı isə ayrı-ayrı tədbirlərini göstərir.

Düşmən məğlub olmasa da belə, heç bir görünən əsası olmadan, gözlənilməz sülh təklif edə bilər. Sun-tszı bildirir ki, belə

halda onun hansısa məqsədi ola bilər. Bu fikrin aydın olmaması iki müxtəlif yanaşma tələb edir. Du Yu belə hesab edir: «Əgər lazım olmadığı halda düşmən tərəfindən elçi gəlir və sülh bağlamağı xahiş edirsə, bu, o deməkdir ki, casus gəlib». Çen Xao başqa cür düşünür: «Haçan ki, mən və o, hələ zəifləməmişik, məğlub olmamışıqsa, o sülh təklif edirsə, bu o deməkdir ki, rəqibin dövlətində hansısa bədbəxtlik baş verib və o, qısa müddətə də olsa, sakitlik istəyir». Və yaxud da belə ola bilər: o bilir ki, ona qarşı hər hansı tədbir görmək üçün mənim kifayət qədər gücüm var və istəyir ki, mənim şübhələrimi dağıtsın. Buna görə, o cəhd edir ki, əvvəlcə sülh bağlasın, sonradan isə mənim hazırlığımdan istifadə edərək, üstümə hücum çəksin». Qısa desək, bu və digər izahda gözlənilməz sülh təklifi tələ kimi başa düşülməlidir.

Bu da olduqca şübhəlidir ki, rəqib tərəfdən elçilər gəlir, «üzr istəyir və girov təklif edirlər». Bu, o deməkdir ki, rəqibin vəziyyəti o qədər ağırdır ki, o sülh bağlamaqla vaxt qazanmaq, «nəfəs dərmək», sonra yenidən dirçəlib müharibəyə başlamaq niyyətindədir. Sun-tszı belə hesab edir ki, bu cür hərəkətlər gizli məqsədlərdən xəbər verir və yaxşısı budur ki, mübarizəyə hazırlaşasan.

Ümumiyyətlə, elçilərin hərəkəti həmişə tərsinə başa düşülməlidir: əgər onlar özlərini sakit, hətta alçalmış kimi göstərirlərsə, hərbçilərin hazırlığı dayanmadan gedir və bu, o deməkdir ki, düşmən hücuma hazırlaşır; əgər elçilər dözümlü və sərtdirlərsə, hərbçilər isə bu zaman qorxuducu yerdəyişmələr edirlərsə, bu, düşmənin öz zəifliyini pərdələməsi cəhdi və maneəsiz geri çəkilmək istəməsi kimi başa düşülməlidir.

Çjan Yuy birinci vəziyyətlə bağlı Çin müharibə tarixindən epizodu xatırladır (m.ö. III əsr). Tsi və Yan knyazlığı arasında müharibə gedirdi. Yan ordusu Tsi Tszenin rəhbərliyi altında möhkəmləndirilmiş Tszimo şəhərini mühasirəyə almışdı. Bu şəhər Tyan Danın rəhbərlik etdiyi, bir o qədər də böyük olmayan qarnizonla müdafiə olunurdu. Tyan Dan adi imkanlarla şəhəri qoruya bilməyəcəyini başa düşərək, hiylə işlətmək qərarına gəldi. O, Tsi Tszenin yanına elçi göndərdi ki, şəhəri təslim etməyə hazırdır. Bununla yanaşı, o, rəqib tərəfin qoşunlarının hamısının başçılarına qiymətli hədiyyələr göndərdi və xahiş etdi ki, şəhərə girərək qadın və uşaqlara rəhm etsinlər. Tyan Dan özü isə hərbi əməliyyatların dayanmasından istifadə edərək, istehkamlarını təmir etdirdi, şəhər əhalisini, o cümlədən də qadın və uşaqları bu işə cəlb etdi, özü də onlarla birlikdə işlədi və yeni istehkamlar qurdu. Elçilər tərəfindən sülh danışıqları adı ilə aldadılan qarşı tərəfin sərkərdəsi belə hesab etdi ki, hər şey qurtarıb, gözətçiləri postlardan götürdü və düşərgəni açdı. Tyan Dan bundan istifadə etdi. Vaxt seçdi, rəqibin düşərgəsinə hücuma keçdi və onu məhv etdi.

Düşmənitn niyyətini səhradakı hərəkətlərinin əlaməti ilə də müəyyən etmək olar. Məsələn, görmək olar ki, düşmən yerləşdiyi

ərazidə cəng arabalarını hər iki tərəfə düzüb. Bu, ona işarədir ki, həmin yerdə hərbi mövqelər qurulur. Əgər görünsə ki, əsgərlər qarışırlar, vurnuxurlar və cəng arabalarını hərbi qaydada yerləşdirirlər, deməli, hücum vaxtı gəlib çatıb. Tszya Lin buna daha çox aydınlıq gətirir: «Adi vəziyyətdə qaçmır və vurnuxmurlar. Bu, göstərir ki, qoşuna əlavə qüvvə gəlib və döyüş vaxtıdır. O, tezliklə bütün qüvvələrini toplamaq və mənim üzərimə hücuma keçmək niyyətindədir. Buna tezliklə hazır olmaq gərəkdir». Belə halı da müşahidə etmək olar: birdən düşmən nizamsız hərəkətlər etməyə başlayır. Onun hissələrinin bəziləri qabağa gedir, digərləri geri çəkilirlər. Sonralar bu taktika «çjuqolyan taktikası» adını alıb və bu qaydanı tətbiq edən sərkərdənin adı ilə bağlıdır. Taktikanın özü isə aldatma məqsədi güdür: «O, öz cərgələrini qəsdən pozur; o, aldadır»,- deyir Çjan Yuy.

Düşmənin bu cür rəftarı da şübhəlidir. Onun qoşunu, görünür, sanki yüksək döyüş ruhundadır, lakin özünü qəribə aparır: döyüşə girmir, amma çəkilib getmir də. «Mütləq onu diqqətlə izləmək lazımdır»,- Sun-tszı tapşırıq verir. «O, nə isə uydurub və bununla sənə qarşı gedəcək»,- Mey Yao-çen izah edir.

Düşmənin səhradakı hərəkətlərini bir sıra əlamətlərə görə müəyyən etmək olar. Bitkilər, quşlar və heyvanlar, toz yaxşı müəyyənedici sayılır. Birdən meşədəki ağaclar tərpənməyə başlayır. Sun-tszı deyir ki, bu, düşmənin gəlməsini göstərir. Tsao-qun aydınlıq gətirir: «O ağacları kəsir, öz yolunu təmizləyir və buraya istiqamət götürüb. Buna görə də, ağaclar tərpənmir». Bəzən də biçilmiş ot və kəsilmiş kolla qarşılaşa bilərik. Bu, o deməkdir ki, rəqib qəsdən sənin fikrinə yeritmək istəyir ki, burada tələ qurulub, əslində isə məqsəd sənin diqqətini əsl pusqudan yayındırmaqdır.

Quşlar yaxşı işarələr verə bilirlər. Əgər quşlar hər hansı bir yerdə birdən qorxaraq uçurlarsa, deməli orada pusqu qurulub. Əgər quşlar dəstə ilə hər hansı bir yer üzərindən uçurlarsa, bu, ona işarədir ki, artıq orada heç kəs yoxdur və düşmən oradan gedib. Kato Kilmasa Koreyaya yürüşü zamanı Seula yaxınlaşdı və çayın sahilində dayandı. O, gördü ki, çayın üzərindən əks tərəfdəki sahildən quş dəstələri uçurlar. Sərkərdə bundan nəticə çıxardı ki, Koreya qoşunları çayın o tərəfindəki mövqelərini boşaldıblar və sonradan bunun həqiqətən də belə olduğu bilindi.

Heyvanlar da düşmən haqqında bir sıra məlumatlar verə bilərlər. Meşədən, yaxud sahədən, eləcə də hündür otluq və kolluqdan çıxıb qaçan heyvan görsən, başa düşməlisən ki, onlar burada gizlənən düşmən qüvvələrindən qaçırlar. Toz da dəqiq əlamətin göstəricisidir. «Əgər toz sütun kimi qalxırsa, deməli, cəng arabaları gəlir; əgər o alçaqdan yayılırsa və geniş məsafəni əhatə edirsə, demək, piyadalar gəlirlər, əgər toz müxtəlif yerlərdən qalxırsa, bu onu göstərir ki, əsgərlər yandırmaq üçün ot və odun

yığırlar, əgər toz gah bir, gah da digər yerdən qalxırsa və çox deyilsə, deməli, düşərgə qurulur».

Çjan Yuy aydınlaşdırır ki, bu əlamət nəyə xidmət edir? «Oturaq istehkam qurulan zaman hər tərəfə yüngül atlı dəstələri göndərilir ki, onlar yaxınlıqdakı ərazini, harada yamac, harada düz, geniş, dar yerlər olduğunu öyrənsinlər. Bu səbəbdən toz gah bu, gah da digər yerdən gəlir və az görünür».

Rəqibin vəziyyətini onun ümumi davranışından, onun əsgərlərinin və sərkərdəsinin hərəkətlərindən bilmək olar. Birinci, belə şəkil nəzərə çarpa bilər: düşmən öz qarşısında mütləq fayda görür, lakin o, buna nail olmaq üçün yerindən tərpənmir. Bəs, səbəb nədir? Sun-tszı cavab verir: «O yorulub». «Əsgərlər yorulub və onları vuruşmağa məcbur etmək olmaz. Buna görə də, sərkərdə faydanı görsə belə, hərəkət edə bilmir»,- izah edir Çjan Yuy.

Bütün bayraqlar və nişanlar qoşunun idarə olunması vasitəsidir. Onların əsasında ciddi qaydada hərəkət edilir. Bunun əksi olduqda isə belə nəticə çıxara bilərsən ki, rəqibin daha düzgün hərbi nizamı yoxdur.

Lu sərkərdəsi Tsao Kuy (Tsao Mo, m.ö. VII əsr) düşmənin yenicə keçdiyi yolda cəng arabaları ilə rəqibin qoyduğu iz üzrə hərəkət edirdi və düşmən arabalarının saldığı izlərdən başa düşdü ki, onun hərbi nizamı pozulub əgər düşmənin sıralarında ümumi nizamsızlıq müşahidə edirsənsə, deməli onda intizam aşağı düşüb və sərkərdənin nüfuzu zəifləyib. Bu cür hallar böyük sərkərdələrlə də bağlı olur, lakin onlar bunun öhdəsindən gələ bilirlər. Xan sərkərdəsi Çjou Ya-fu yeddi knyazlıqla müharibə aparan zaman onun qoşununda gecə iki dəfə həyəcan, səs-küy qalxdı, tez bir zamanda bütün düşərgəyə yayıldı və baş komandanın istefa verə bilməsi həddinə çatdı. Lakin Çjou Ya-fu özünü elə göstərdi ki, guya o, heç nə görmür və yatmaqda davam edir. Sərkərdənin belə sakitliyi səs-küy salanlara ayıldıcı təsir göstərdi və onlar tezliklə sakitləşdilər.

Əgər görürsən ki, komandirlər qışqırır və söyüş söyürlər, bu o deməkdir ki, əsgərlər gücsüzləşiblər və onları qabağa getməyə və vuruşmağa məcbur edirlər.

Rəqib əsgərlərinin davranışı təcrübəli sərkərdəyə çox şeylər deyir. Əgər gecələr düşmən düşərgəsində əsgərlər bir-birini səsləyirlərsə, ümumiyyətlə qışqırırlarsa, bu, onu göstərir ki, əsgərlər qorxurlar və bu yolla özlərini ruhlandırmağa cəhd göstərirlər. Əgər onlar ayaq üstə öz silahlarına söykəniblərsə, deməli aclıq var. «Əgər insan yemirsə, o, gücsüzləşir. Buna görə o, öz silahına söykənərək dayanır. Orduda hamı– yuxarılar da, aşağılar da bir vaxtda yeyir və içirlər. Əgər biri acdırsa, deməli, bütün ordu acdır»- bildirir Çjan Yuy. Əsgərlərin su ilə bağlı davranışları da belədir. Əgər onlar suya çatanda onun üstünə atılıb dağ çayından su içirlərsə, demək, onlar susuzluqdan əziyyət çəkiblər. «Onlara su gətirmək əmri verilib, lakin onlar suyu yığmadan içirlər; deməli onlar bərk susayıblar. Əgər bu

hərəkəti edən bir adam görürsənsə, bunu bütün ordu barəsində də demək olar»,- söyləyir Du Mu.

«Əgər atları yarma ilə yemləyir, özləri isə ət yeyirlərsə, əgər şərab kürələrini ağaclardan asmırlarsa və əgər düşərgələrinə getmirlərsə, deməli onları quldur dərəcəsinə çatdırıblar». Bu barədə Sun-tszı da sonra danışılır[1]

Mətnin bu yerini, adətən, belə başa düşürlər; yarma çinlilərin əsas qidalarından biridir, ət də bahalı ərzaq növüdür; buna görə də əgər buğda ilə atları yemləyir, özləri isə ətlə qidalanırlarsa, deməli, əsgərlərin digər çıxış yolu yoxdur, məlum olur ki, qarşıda onları sonuncu ümidsiz döyüş gözləyir və yəqin ki, onlar bu döyüşdən sağ çıxmayacaqlar. Onlar bu cür yeyib-içməklə öz dərdlərini dağıdırlar, adəti üzrə şərab kuzələrini ağaclardan asmır, öz yanlarında saxlayır və sərxoşluq edir, düşərgə haqqında düşünmürlər. Bunlar göstərir ki, düşmən son anlarını yaşayır.

Rəqibin vəziyyətini onun sərkərdəsinin davranışı ilə də öyrənmək olar. Fərz edək ki, biz düşmən sərkərdənin öz döyüşçüləri ilə yumşaq və ölçülüb-biçilmiş söhbətlərini görürük. Sun-tszının dediyinə görə, bu, həmin sərkərdənin «öz döyüşçülərini itirdiyini» və onları toplamağa çalışdığını göstərir. Və yaxud da o, saysız-hesabsız mükafat paylamağa başlayır. Bu, həmin orduda vəziyyətin pis olduğunun, əsgərlərin yorularaq vuruşmaq istəməməsinin parlaq təzahürüdür. Əgər sərkərdə addımbaşı cəza verirsə, bu da o deməkdir ki, qoşun onun əmrlərinə tabe olmaq istəmir, əsgərlər yorulub və vuruşmaq istəmirlər. Əgər müşahidə edirsənsə ki, sərkərdə o baş bu başa qaçır, əvvəlcə amansızlığı ilə fərqlənir, sonra isə öz döyüşçülərindən qorxmağa başlayır, bu onu göstərir ki, bu sərkərdə özü heç nəyə gərək deyil. «Bu, hərb sənətini başa düşməməyin ən yuxarı həddidir»- deyir Sun-tszı. Beləliklə, yaxşı sərkərdənin ixtiyarında bir çox əlamətlər var ki, o, bunlarla düşmənin mövqeləri, onun niyyətləri, onun hərəkətləri və vəziyyəti barədə nəticə çıxara bilər. Ancaq lazımdır ki, bu əlamətləri oxuya biləsən və hərb mədəniyyətində səriştən olsun. Bununla belə, nəzərə almaq lazımdır ki, bu əlamətlərin hamısı heç də qeyd-şərtsiz qəbul oluna bilməz. Sun-tszının təfsirçiləri öz müəlliflərini həmişə belə başa düşürdülər ki, o, düşmən haqqında nəyin hansı məlumatları verə biləcəyini göstərir. Amma bu heç də o demək deyil ki, yalnız onun göstərdiyi şeylərdən nəticə çıxarmaq lazımdır. Belə ki, məsələn, səhər üzərində fırlanan quş dəstələri və istehkamlara maneəsiz oturan quşlar hansı əlamətlərdən xəbər verirlər? Belə çıxır ki, həmin yerlərdə düşmən olmadıqda bu mümkündür. Bununla yanaşı, yuxarıda adı çəkilən Tyan Dan qəsdən öz istehkamlarına yem səpərək quşları oraya toplayıb. Quşlar dəstə-dəstə uçub gələrək, yorulmadan onun istehkamları üzərində dövrə vurardılar. Əsgərlərin

---

[1] *Mətnin digər yozumu ilə IX fəslin 10-cu qeydinə bax: səh.300*

yorğunluğunu müəyyənləşdirən düzgün əlamətlərdən biri, deyildiyi kimi, odur ki, əsgərlər su götürmək üçün çaya yaxınlaşanda, onlar su götürməzdən əvvəl özləri içməyə başlayırlar. Lakin Tsin sərkərdələrindən biri guya axının aşağısında olan düşməni zəhərləmək üçün çaya zəhərli maddə buraxır, amma ondan gözlərini çəkmək üçün öz əsgərlərinin ölümcül susuzluğundan istifadə edilməsi səhnəsi qurur. Əsgərlərin öz silahlarına söykənmələri onların yorulması əlaməti kimi başa düşülür. Amma düşməni aldatmaq üçün əsgərlərə bu hərəkəti etmək əmri də verilə bilər. Yuxarıda deyilən əlamətlərin hamısına bu cür əks misallar çəkmək olar (bax Soray, sit. əsər. 224-226 səh.). Bu, deməyə əsas verir ki, Sun-tszının göstərdikləri əlamətlər nisbi mahiyyət daşıyır.

Bu fəslin sonuncu qısa bölməsi sərkərdənin öz qoşunlarına necə rəhbərlik etməsi ilə bağlı göstərişlərdən ibarətdir.

Sun-tszı məsləhət görür ki, qüvvələrin say etibarı ilə çoxluğuna üstünlük və bir o qədər də əhəmiyyət vermək lazım deyil. Onun bu məsləhəti (III fəsildə) deməyə əsas verir ki, say etibarı ilə on, beş və s. dəfə üstün olmaq qələbəni daha yaxşı təmin edən amildir, lakin heç də əsas amil deyil.

«İş onda deyil ki, əsgərlərin sayını daha da artırasan,– deyir Sun-tszı,– bəs edər ki, onu (hərbi qüvvəni– N.K.) düşmənə qalib gələ biləcəyin qədər və düşməni düzgün qiymətləndirərək toplaya və öz qüvvələrini düzgün istiqamətə yönəldə biləsən». Yalnız hərbi gücə arxalanmaq olmaz. Ağıllı hərəkət etmək, dəqiqləşdirmək və düşməni qiymətləndirmək lazımdır, - deyə Van Çje müəllifin fikirləri barədə söhbət edir. Sun-tszı bu mənada bir az da qabağa gedərək, belə bəyan etmək qərarına gəlir: «Kim ki, düşmən ilə ehtiyatlı davranmağı düşünməsə, o, mütləq rəqibin əsirinə çevriləcək». Beləliklə, Sun-tszı hərbi gücü qələbənin amili hesab etməklə yanaşı, daha iki amili önə çəkir – bir tərəfdən ağıl və hesablamanı digər tərəfdən isə düşməni qiymətləndirməyi. Ancaq bu üç amili nəzərə almaqla qələbə təmin olunur.

«Əgər əsgərlər sənə hələ uyğunlaşa bilməyiblərsə, və sən onları cəzalandırmağa başlayacaqsansa, onlar sənə tabe olmayacaqlar; əsgərlər tabe olmayacaqlarsa, onlardan istifadə etmək çətin olacaq– deyir Sun-tszı. Du Mu da xəbərdarlıq edir. «Sərkərdənin rəhmi və əsgərlərin ona inamı hələ geniş əhatədə deyilsə, yalnız cəzalandırmaqla onları idarə etmək olmaz. Lakin Sun-tszı o saat əks göstəriş də verir: «Əgər əsgərlər sənə uyğunlaşıblarsa və cəzadan istifadə olunmayacaqsa, əsgərlərdən heç zaman istifadə edilməyəcək». Bunun nə üçün belə olduğunu Çjan Yuy izah edir: «Əgər cəzalandırma zəifləsə, əsgərlər arxayınlaşacaqlar və onlardan istifadə etmək mümkün olmayacaq».

Bu bölmənin sonuncu abzasında Sun-tszı daha geniş məsələyə keçir: o, ümumilikdə hökmdarın xalqla münasibətlərindən danışır. Öz-özlüyündə aydındır ki, (təfsirçilər də belə başa düşürlər)

onların arasında yaranan münasibətlər sərkərdə ilə əsgərləri arasında yaranan vəziyyətlərə uyğundur, lakin Sun-tszının burada işlətdiyi terminlər və bu fikrin özü onu göstərir ki, burada məsələ geniş qoyulur.

Sun-tszı insanların– ordu və xalqın idarə olunmasında iki prinsip müəyyən edir. Bu iki prinsipi o, ənənəvi Çin sözləri ilə, qarşılıqlı şəkildə bir-birinə əks olan anlayışla ifadə edir. Bu – iki başlanğıcdır; mülki və hərbi. Bu iki başlanğıcın qarşılıqlı əlaqələri və qarşılıqlı fəaliyyəti mütəşəkkil bəşəriyyətin həyatını qurmuş olur. Qədim Çinin ictimai fəlsəfəsi bu iki təmələ bu cür baxırdı, qədim Koreya və Yaponiya da bu fəlsəfəni qəbul edirdi.

Bir-birinə əks olan bu iki cütlükdə yuxarıda göstərildiyi kimi, qədim Çinin nəzəri fikrinin xüsusiyyətləri mövcuddur, həmin nəzəriyyə xarici aləmdə baş verən bütün hadisələrdə və həyatda bu iki qarşı-qarşıya duran başlanğıcın birgə fəaliyyətini göstərir. Mülki və hərbi fəaliyyət bir sahəni– cəmiyyəti və dövləti– əhatə edir. Lakin bu anlayışlar mahiyyətlərinə görə çox mürəkkəbdirlər. Mülki fəaliyyət inkişafdır. Hərbi fəaliyyət– hərb sənətidir; bu – sülh və müharibə kimidir, bir tərəfdən mülki mədəniyyət və hərbi iş, ədəbiyyat elmi və qılınc, həlimlik və xeyirxahlıq, digər tərəfdən isə sərtlik və ciddilikdir. Sun-tszı bu iki başlanğıcın üstün əhatə dairələrini belə bölüşdürür. Mülki başlanğıc ordu şəraitində əsasən «əmrlər» üzrə, dövlətçilik şəraitində isə «qanunlar» əsasında fəaliyyət göstərir. Qanunlar maarif və mədəniyyət ruhu ilə əhatə olunmalı, idarə edənə hörmət, insanpərvərlik və humanizm ruhu ilə yoğrulmalıdır. Bu qanunların öyrədilməsi də «hərbi ruhda», yəni, enerji, güc və inadla yerinə yetirilməlidir. Ancaq bu yolla ona nail olmaq mümkündür ki, orduda əmrlər, dövlətdə isə qanunlar icra olunsun. Bu isə olduqca vacib əhəmiyyyət kəsb edir. «O zaman ki, qanunlar (və əmrlər, əgər söhbət ordudan gedirsə– N.K.) xalqa nə isə öyrədiləndə yerinə yetirilirsə (yaxud orduya – N.K.), xalq (ordu– N.K.) sənə tabe olacaq». «O zaman ki, qanunlar (əmrlər – N.K.) inamla qəbul edilir və aydındırsa, deməli, biz (hökmdar, sərkərdə – N.K.) və kütlə (xalq – N.K.) bir-birimizi qarşılıqlı şəkildə başa düşə bilmişik».

Bu iki təməlin nəzərə alınması zəruriliyini Çinin bütün strateqləri sözsüz etiraf edirlər. U-tszı bu prinsiplərə dövlətin yalnız idarə olunması nöqteyi-nəzərindən deyil, ümumilikdə, ahəngdar və möhkəm dövlətin mövcud olmasının rəhni kimi baxır.

«Qədimdə Çen San özünün mülki təməlini inkişaf etdirərək, hərbi işi özbaşına buraxmış və bununla da öz dövlətini məhv etmişdi. Yu Xu hər şeydə qüvvəsinin sayca çoxluğuna arxalanır, təkcə fədakarlığı qiymətləndirirdi və bununla da öz dövlətini itirdi. Müdrik hökmdar bunu nəzərə alaraq ölkə daxilində, dayanmadan mülki əsas yaradır, xarici düşmənlərə qarşı isə öz hərbi qüvvələrini hazır saxlayır» (U-tszı, Giriş, 5).

Bu nəzəriyyəyə uyğun olaraq, qədim Çində dövlət aparatı iki idarəyə bölünmüşdü– mülki və hərbi. Buna uyğun olaraq, dövlət qulluqçuları mülki məmurlara və hərbçilərə bölünmüşdü. Lakin bununla yanaşı, nəzəriyyədə göstərilmirdi ki, bu cür bölünmə vahid «dövlət» anlayışının ikili əksidir. Bu bölünmədən danışarkən Vey Lyao-tszı qeyd edir ki, mülki və hərbi idarə dövləti idarə etməyin «iki üsulu» ndan başqa bir şey deyil (Vey Lyao-tszı, X f., s. 34).

Bu iki üsulun konkret məzmununa Li Vey-qunun «Dialoqlar» əsərində yaxşıca toxunulur: «Mülki təməllə insanları özlərinə cəlb edir, hərbi təməllə düşmənləri qorxudurlar» (Li Vey-qun venduy, II h.). Başqa cür desək, mülki təməl humanistlik, hərbi təməl isə ölkənin hərbi gücüdür. Sun-tszı və U-tszı Vey Lyo-tszı bu iki təmələ təkcə dövlətin deyil, ordunun da idarə olunması prinsipi kimi baxırlar. Bu iki qayda yalnız hökmdarın deyil, sərkərdənin də ağır silahıdır. «Müharibədə hərbi təməl cərgələrdir, mülkidə isə ailə. Hərbi təməl– xarici tərəf, üzdür; mülki təməl– iç tərəf, daxildir. Əgər bu iki təməli qavraya bilirsənsə, qələbə və müvəffəqiyyəti ayıracaqsan. Mülki başlanğıc, təməl odur ki, bununla fayda və ziyanı görür, müvəffəqiyyət və təhlükəni fərqləndirə bilirlər; hərbi təməl isə odur ki, bunun vasitəsi ilə güclü düşməni dəf edir, hücum və müdafiəni sarsılmaz edirlər» (Ven Lyao-tszı, XXIII f., s. 58).

X fəsil
Yerin formaları

Traktatın X fəsli hərbi əməliyyatların strategiyası və taktikasına yerləşdiyi ərazinin təsiri məsələsinə həsr olunub.

Sun-tszı öz izahını yerin müxtəlif tiplərinin fərqləndirilməsindən başlayır. O, altı yer tipi müəyyən edir: açıq yer, maili, kəsişən, dərəli, dağlı və ayrılmış.

Əgər Sun-tszının verdiyi izahlardan çıxış etsək, etiraf etmək lazımdır ki, bu cür bölgü əsasında yerlərə qiymət verilir, buna hərbi əməliyyatların taktika və strategiyası nöqteyi-nəzərindən baxılır. Olduğun yer hər cür manevr etmək üçün sərfəli, lakin hücum və müdafiə üçün əlverişsiz ola bilər. Sun-tszı belə yeri «keçici», yəni açıq adlandırır. Hücum üçün rahat, geri çəkilmək üçün narahat yeri isə o, «asılı» adlandırır, yəni maili, bir tərəfə sərt enişli olan yer. Yer hücum üçün əlverişsiz, müdafiə üçün rahat ola bilər. Bu, «maneəli» yerdir, yəni, kəsişəndir. Bəzi yerlər gözəl təbii müdafiə mövqelərinə malik ola bilər. Belə yerlər dərəlidir, Sun-tszı bunu «dar yerlər», dərəli və dağlı yerləri isə «yüksəkliklər» adlandırır. Nəhayət, yerlər qüvvələrin çox olduğu halda uğurlu hücum üçün əlverişli ola bilər və yaxud əksinə, qüvvələrin azlığı və çoxluğu vəziyyətində müdafiə üçün əlverişli ola bilər. Bu, «ayrılmış yer» adlandırılır, yəni, düşmənin mövqeləri uzaq məsafədə yerləşir.

Yerin bu altı növünü saydıqdan sonra, Sun-tszı bu yerin hər birində döyüşün strategiya və takitkasına nəzər salır.

Sun-tszı hesab edir ki, hətta hər bir hərəkəti etməyə imkan verən tam açıq yer. Sun-tszının təbirincə desək, «mən də gedə bilərəm, o da gələ bilər», açıq döyüşdə strategiya və taktikaya təsir edir. Nə qədər açıq və nə qədər düzəngah olsa belə (əgər söhbət ordunun hərəkəti üçün lazım olan genişlikdən gedirsə), onun üzərində çox da böyük olmayan yamaclar, hündürlüklər var və onlar məlum strateji üstünlüklər verir. Buna görə də Sun-tszı ilkin olaraq belə yerləri tutmağı məsləhət görür.

Ancaq bu azdır. Açıq yerdə hər bir məntəqə, yamaclar istisna olmaqla, hücuma tez məruz qalır. Buna görə də, belə yerdə mövqe tutarkən kommunikasiya xətləri təhlükə altında olacaq və bu, yamaclarda yerləşən döyüşçülərə də öldürücü təsir göstərə bilər. Bunu nəzərə alan Sun-tszı ikiqat strateji göstəriş verir: «Açıq yerlərdə günəş düşən yamaclarda yerləş və özün üçün ərzaq gətirilməsi yollarını təmin et. Əgər bu şərtlər daxilində döyüş aparsan, fayda qazanacaqsan».

Du Yu bununla əlaqədar deyir: «Rəqibi idarə et və imkan vermə ki, o, özü-özünü idarə etsin. İlkin olaraq yamacları tut, geriyə aparan yollara nəzarət etmək üçün dəstələr ayır və düşmənə imkan vermə ki, sənin ərzaq gətirilən yollarını kəsə bilsin». Açıq yerdəki döyüşün strategiyası belədir.

Görünür, Sun-tszı bir tərəfə çox meylli olan yeri «asılı» adlandırır. Onun fikrincə, belə yerlər hücum üçün əlverişli, geri çəkilmək üçün səmərəsizdir. «O zaman ki, getmək asan, qayıtmaq çətindir, bu yer «maili» adlandırılır» - deyir Sun-tszı. Görünür o, qoşunun yuxarıdan aşağıya hərəkətinə böyük əhəmiyyət verir və geri çəkilərkən yoxuşu çıxmağın çətinliyinə işarə edir. Sun-tszı «gücün yuxarıdan aşağıya təsirinin» səmərəsini yaxşıca nəzərə alır. IX fəsildə o, «yuxarıdan aşağıya sürətli zərbənin» faydasını birbaşa göstərir. Belə yerdə konkret döyüşün strategiyası bunlarla şərtlənir: geri çəkilməyin çətinliyi və onun təhlükəsi. Lazımdır ki, ancaq fayda təmin olunduğu şəraitdə döyüşə girəsən. Sun-tszının terminləri ilə desək, bu, o zaman olur ki, özündə hər şey «dolu»dur, rəqibdə isə «boş». Başqa sözlə desək, o, döyüşə hazır olmayanda. «Düşmən maili olan yerdə döyüşə hazır deyilsə, hücum etsən, ona qalib gələrsən; düşmən belə yerdə döyüşə hazırdırsa, hücum etsən, məğlub olacaqsan. Geri qayıtmaq isə çətin olacaq: faydası olmayacaq.

Çjan Yuy bu fikri daha geniş formada verir: «Düşmənin vəziyyətini öyrənib, onun hazır olmadığını müəyyən etsən, onun ürəyinə gedərək qalib ola bilərsən, əgər o, döyüşə hazırdırsa, qələbə çala bilməyəcəkən. Əgər dayanmaq istəsən, bunu edə bilməyəcəksən. Bu, faydalı deyil». «Yerlər var ki, hücum üçün əlverişsizdir, ancaq müdafiə üçün rahatdır. Sun-tszı belə yerləri «maneəli yerlər» adlandırır, yəni ki, kəsişən. «Mənim də hücum etməyin, onun da hücum etməyi üçün faydalıdırsa, belə yer

kəsişəndir», deyir o. çjan Yuy izah edir: «Hər iki tərəf təbii istehkamlarla möhkəmlənibiər və qarşı-qarşıya dururlar».

Bu şəraitdə hansı strategiya məqbul hesab olunur? Sun-tszı belə məsləhət verir: «Kəsişən yerdə hücum etmə, hətta düşmən sənə fayda verirsə də. Qoşunu çək və get; düşməni oraya yarıya qədər gəlməyə məcbur et; əgər bu zaman hücuma keçsən, xeyir qazanacaqsan». Beləliklə, kəsişən yerdə döyüşün strategiyası ondan ibarətdir ki, bu yerdə düşməni öz möhkəmləndirilmiş mövqelərindən çıxmağa məcbur edəsən. Bu, hücum edənin məhvinə səbəb ola bilər, çünki o, burada özü üçün əlverişli olmayan yerdə döyüşə girəcək. Buna görə də, Sun-tszı öz sərkərdəsinə xəbərdarlıq edir ki, düşmənin onu aldatmaq üçün qəsdən verə biləcəyi faydadan imtina etsin və geri çəkilərək, düşmənin onu təqibinə şərait yaratsın, rəqibi öz möhkəmlətdiyi mövqelərdən çıxmağa sövq etsin. Bu cür mühakimə Sun-tszının bundan əvvəl söylədikləri ilə uzlaşır ki, düşməni geri çəkilmək adı ilə aldadır, onu cüzi, ya da guya görünə bilən fayda ilə çaşdırırlar. Çjan Yuy bu yeri belə şərh edir. «Fayda verdi» sözü bu mənanı daşıyır: qəsdən mənə arxanı göstərir və geri çəkilir». Nə üçün manevr zamanı düşmənə onu aldadaraq əraziyə yarıya qədər girməsini məsləhət görürlər? Çjan Yuy buna aydınlıq gətirir: «Əgər düşmən görünürsə və səni təqib edirsə, izlə ki, o, əraziyə yarıya qədər girə bilsin və onun dəstələri arasında pozuntu yaransın. Əgər bu zaman sən rəqibin üzərinə seçmə qoşunla hücum çəksən, mütləq qələbə qazanacaqsan». İş burasındadır ki, bir tərəfdən sən düşməni kəsişən yerə çatanda ayrı-ayrı hissələrə bölürsən, digər tərəfdən isə ona hələ cəbhə boyu düzlənməmiş zərbə endirirsən.

Vadidəki yer və yaxud da Sun-tszının dediyi «darısqallıq» müdafiə üçün rahatdır. Bu cür yerin topoqrafik xüsusiyyətlərini Tsao-qun və Çjan Yuy belə xarakterizə edirlər, bu – dağlar arasında, dar və sıx giriş olan dərələrdir. Belə yerlərdə mübarizənin strategiyası onunla üstündür ki, öz qüvvələrinlə hər iki tərəfdən belə yerləri sıx bağlamanla düşmənin hücumlarını sakitcə gözləmək və əmin olmaq mümkündür ki, onu burada saxlamaq olar. Bu zaman hücum edənin şansı onda ola bilər ki, dərələri, giriş-çıxışı və yaxud ondan yan keçən yolları tamamilə bağlamayasan. «Əgər dərədə ilkin olaraq sən yerləşmisənsə, mütləq onun bütün ərazisini tut və düşməni gözlə; əgər düşmən ilkin olaraq dərəni tutubsa və onun bütün ərazisində yerləşibsə, onun üstünə getmə. Əgər düşmən dərəni bütövlükdə tutmayıbsa, onun arxasınca get».

Dağlıq yerlər də müdafiə üçün bu cür üstünlüklər verir. Bu cür yerlər artıq təbii istehkamlardır, burada strategiya isə ondan ibarətdir ki, düşməni qabaqlayasan və ondan öncə bu cür mövqeləri tutasan». Dağlıq əraziləri sən birinci tutubsansa, onun yüksəkliyində günəşli hissəsində yerləş və rəqibi gözlə; əgər yüksəklikdə düşmən birinci yerləşibsə, qoşunu geri çək və oradan uzaqlaş; onun

arxasınca düşmə»,- Sun-tszı məsləhət verir. Çjan Yuy bununla əlaqədar bildirir: «Hətta düzəngah yerdə də birinci yerləşmək lazımdır; yüksəklik və ətəklərdə isə bu daha vacibdir. Necə etmək olar ki, düşməni öz təsirin altına sala biləsən. Əgər sən yüksəkliklərdə birinci möhkəmlənsən, öz yeni gücünlə yorulmuş düşməni gözləyəcəksən və qalib gələcəksən. Orada düşmən ilkin olaraq yerləşibsə, o saat çəkilib getmək lazımdır; onunla döyüşə girmək olmaz».

Belə coğrafi şərait də mövcuddur ki, hücum ancaq hücuma keçənin gücünün olduqca çoxluğu şərti ilə mümkündür. Sun-tszının fikrincə, bu, o zaman olur ki, səninlə düşmən arasında böyük məsafə var. Belə halda uzun yol keçən hücumçu tərəf düşmənə yeni qüvvə ilə həmlə etməlidir. Təbiidir ki, qoşunun yorğunluğu onun sayının çoxluğu ilə kompensasiya olunduqda qələbə mümkündür. «Ayırıcı yerlərdə güclər bərabərdirsə, düşməni döyüşə çağırmaq çətindir, döyüşə başlasan da, fayda gətirməyəcək».

Sun-tszı X fəslin bu hissəsini döyüş üçün coğrafi amilin qiymətləndirilməsi ilə bitirir. «Yer haqqında biliklərin altı bəndi var. Sərkərdənin başlıca vəzifəsi bunu başa düşməkdir».

Fəslin ikinci bölməsi sərkərdənin səhvlərinin öyrənilməsinə həsr olunub. Sun-tszı bu səhvləri özünü biruzə verməsi ilə ordunun vəziyyətini müəyyən edir. Onun fikrincə, sərkərdənin bu səhvləri nəticəsində ordu geri çəkilə bilər, ordu dağıla bilər, təşvişə düşüb qaça bilər və onda özbaşnalıq yarana bilər. Bu altı mümkün bədbəxtlik artıq təbii bədbəxtlik deyil, bu – sərkərdənin səhvlərinin nəticəsidir.

«Eyni şəraitdə bir nəfərin onuna qarşı nisbətində hücum edilirsə, o deməkdir ki, qoşun tezliklə geri çəkiləcək», - söyləyir Sun-tszı. Du Mu bu vəziyyəti bir qədər başqa cür dəyərləndirir:

«Əgər sən bir nəfərlə onuna qarşı hücum etmək istəyirsənsə, bunun üçün əvvəlcə zəruridir ki, sərkərdənin istedadı, əsgərlərinin hünəri, vaxt və yerin faydası, əsgərlərinin çoxluğu və gücü düşməninkini on dəfə üstələsin. Ancaq bundan sonra birin ona nisbətində hücuma keçə bilərsən. Əgər şərait eynidirsə və qüvvələr bərabərdirsə, sən vəziyyəti öyrənə bilməmisənsə, bir əsgərlə onuna qarşı döyüşə başlasan, tezliklə tələsik halda geri çəkiləcəksən, düşərgəyə qayıtsan da orada çox qala bilməyəcəksən».

Beləliklə, traktatın bu yeri, xüsusilə də, Du Munun izahı ilə Sun-tszının əvvəl dediyi fikirlərə korrektədir və rəqib səndən güclü olanda, on dəfə güclü olanda onunla döyüşdən yayınmağın zərurilliyini göstərir. Şübhəsiz ki, Sun-tszının bir nəfərlə onuna qarşı döyüşmək sözləri hərfi mənada başa düşülməməlidir, bununla o, sadəcə düşmən qüvvələrinin əhəmiyyətli dərəcədə üstünlüyünə işarə edir. Sən demə, təkcə güc və yaxud da bütün şərait (coğrafi mənada– mövqe, mənəvi cəhətdən– qoşunun ruhu, rəhbərlik tərəfdən– sərkərdənin istedadlılığı, vaxt sarıdan– əlverişlilik) bərabər

olanda da, hücuma keçmək lazım deyil. O zaman həqiqətən say cəhətdən zəiflik müəyyən qədər rol oynayar və döyüş məğlubiyyətlə başa çata bilər. Əgər say çıxılmaq şərtilə digər bütün şəraitlərdə mənim tərəfim düşməndən üstündürsə, hətta sayca on dəfə çox olan rəqiblə döyüşə girmək olar.

Çinin hərb tarixi sayca çox üstün olan düşmən üzərində qələbələrlə bağlı çoxlu misallar göstərir. Məsələn, bu cür böyük qələbəni məşhur U-tszı çalmışdır; cəmi əlli min piyada, üç min süvari və beş yüz cəng arabası ilə (m.ö. IV əsrin sonu) o, Tsin knyazlığından Sixin rəhbərlik etdiyi beş yüz minlik ordusunu məhv etdi (U-tszı, VI f.). Daha sonrakı vaxtlarda Çjou Yuy Yantszıda qırmızı divarlar yanında otuz minlik qoşunu ilə Tsao-qunun səkkiz yüz minlik qoşununu darmadağın etdi (208). Se Syuan səksən minlik qoşunu ilə Fu Tszyanın səkkiz yüz minlik ordusuna qalib gəldi (384). Şübhəsiz ki, tarixi salnaməçilər qələbəni daha yaxşı təsvir etmək üçün məğlub olan tərəfin qüvvələrinin sayını çox artırırdılar, ancaq hər halda, aydındır ki, bu məşhur vuruşmalarda qələbə düşmənin güc üstünlüyü vəziyyətində olub. Sərkərdənin günahı deyil ki, o, özündən on dəfə çox olan qoşunun üzərinə gedir, onun təqsiri bundadır ki, digər üstünlüklərə malik olmadan bunu edir.

Sun-tszı deyir ki, «əsgərlərin güclü, komandirlərin zəif olması qoşunda özbaşınalığın əlamətidir».

«Əsgərlər güclü, komandirlər zəifdirlər» deyəndə nə başa düşülür? Çjan Yuyun dediyinə görə, bu o deməkdir ki, «əsgərlər sərbəst və cəsarətlidirlər, komandirlər isə qorxaq və zəif». Belə şəraitdə orduda nizam-intizamı saxlamaq, ona rəhbərlik etmək, xüsusilə də müharibə zamanı rəhbərlik etmək mümkün deyil. Məhz bu tərəfini– rəhbərliyin zəifliyi və bunun nəticələrini təfsirçilər xüsusi qeyd edirlər. «Komandirlər rəhbərlik edə bilmirlər, buna görə də qoşunda boşluq və dağılma gedir»,- deyir Tsao-qun. «Nə vaxt ki, əmrləri yerinə yetirmirlər, başçıya tabe olmurlar, düşmənlə qarşılaşanda pozğunluq yaranır. Bu zaman dağılmaqdan başqa bir şey alınmır»,- deyir Tszya Lin. Bunda cavabdehliyi, əlbəttə ki, sərkərdə daşıyır. O, necədirsə, komandirləri də elədir, əgər sərkərdə əsgərləri ilə bacara bilmirsə, bunu onun tabeçiliyində olanlar da edə bilməz. Du Mu Fan hökmdarı Mu-tszyu dövründə (821-824) sərkərdə təyin olunmuş Tyan Bunu misal gətirir. Tyan Bu Vey vilayətinin general-qubernatoru təyin edilmişdi və burada o, Van Tin-tsinlə mübarizə aparmalı oldu. Tyan Bu özünü o qədər zəif apardı ki, əsgərlər ondan qorxmamağa və onu eşitməməyə başladılar. İş vuruşmağa gələndə isə Tyan Bunun qoşunu pərən-pərən düşdü və sərkərdə özünü öldürdü.

Bunun əksi də pis nəticələr verir: «O zaman ki, komandirlər güclü, əsgərlər isə zəifdirlər». Sun-tszının fikrincə, belə hallarda düşmənə əsir düşmək qorxusu yaranır. Du Mu əsgərin zəifliyin qorxaqlıqda, Çjan Yuy isə təlimsizlikdə görür. Bütün təfsirçilər

komandirlərin gücünü həmişə döyüşə getməyə hazır olmaqda görürlər. O zaman ki, komandirlər güclüdürlər və irəli getmək istəyirlər, əsgərlər isə zəifdirlər, onda düşmənin əlinə keçir və məğlub olurlar»,- deyir Tsao-qun. Sərkərdənin burada günahı nədədir? «Ondadır ki, sərkərdə öz komandirləri ilə birlikdə əsgərlərinin qorxaqlığı və zəifliyini aradan qaldıra, öz fədakarlığını onlara telqin edə, əsgərlərini döyüşə ruhlandıra bilmir». Təfsirçi Mey Yao-çen Sun-tszının sözlərini belə başa düşür.

Sun-tszının dördüncü qaydası təsdiq edir: «Yüksək vəzifəli komandirlər öz rəislərinə qarşı acıqlıdırlarsa və ona tabe olmurlarsa, düşmənlə qarşılaşdıqda öz rəislərinin acığına özbaşına döyüşə qoşulurlar. Bu onunla izah olunur ki, sərkərdə komandirlərin nəyə qadir olduğunu bilmir. Bu o deməkdir ki, qoşunda parçalanma var». Beləliklə, sərkərdənin burada günahı ondadır ki, o, öz köməkçilərinin istedadını qiymətləndirə, onların istək və səylərimni qəbul edə bilməyib, bununla onlarda narazılıq yaradıb.

«Onda ki, sərkərdə zəifdir və ciddi deyil, əsgərlərin təlimləri qeyri-müəyyənliyi ilə fərqlənir. Komandir və əsgərlər arasında daimi heç nə yoxdursa, hərbi nizama düzülərkən hər şey əyri və köndələndirsə, bu o deməkdir ki, qoşunda nizamsızlıq var», - deyir Sun-tszı. Çjan Yuy bu cür vəziyyəti növbəti sözlərlə aydınlaşdırır: «Sərkərdə zəifdir və ciddi deyil» - bu hərbi rəhbərin nüfuzunun yoxluğu deməkdir. «Əsgərlərin təlimləri qeyri-müəyyənliyi ilə fərqlənir»- bu, təlimin ənənəvi qanunlara əsaslanmamasıdır. Komandir və əsgərlər arasında daimi heç nə yoxdur» - bu, onda deyilir ki, komandirlər öz vəzifələrində uzun müddət qalmırlar və ordunun komandanlığı elədir ki, bu, öz-özlüyündə nizamsızlığa aparır».

Sərkərdə öz rəqibini qiymətləndirə bilməyəndə, az sayda qüvvələrini düşmənin böyük qüvvəsinə qarşı aparanda, özü zəif olduğu halda güclünün üstünə hücum edəndə, özünün seçmə hissələri olmayanda qoşun qaçmağa başlayır, - bunu Sun-tszı deyir.

Çjan Yuy seçmə hissələrə malik olmağı belə izah edir: «Döyüşdə seçmə hissələrdən istifadə etmək və onları ön xətdə yerləşdirmək lazımdır. Bununla birinci, özünün ruhunu qaldırır, ikinci, düşmənin gücünü qırırsan».

Qədim Çin ordusunda seçmə qoşunlara böyük əhəmiyyət verilirdi. U-tszı öz traktatında qoşunda seçmə hissələrin olmasına zəmanət verərək deyir: «Əgər üç min belə adamın olsa, içəridən çıxaraq düşmənin mühasirəsini yara, çöldən hücum çəkərək onun qalasını ala bilərsən» (U-tszı, I f., s.5).

«Lyu tao» traktatında da seçmənin on bir prinsipi irəli sürülərək, xüsusi seçmə hissələrin yaradılması tələb edilir (Lyu tao. «Tsyuan tac» bölməsi, 53-cü fəsil). Tarix şəhadət verir ki, qədim Çin ordusunda həmişə bu qaydalar gözlənilib. Çuntsyu dövründə, yəni, Sun-tszının dövranında bir çox knyazlıqlar öz seçmə hissələri ilə

şöhrətlənmiş, hətta xüsusi adlar almışdılar. Xan, Fan və Sua dövründə də belə, idi. Görünür, Sun-tszının «orduda seçmə hissələr yoxdursa, o qaçmağa üz tutacaq» kəlamı tam real, əsaslandırılmış misallarla təsdiqlənir.

Bu altı hal bunlardır, hansı ki, Sun-tszı bunlarda tam cavabdehliyi sərkərdənin üzərinə qoyur. «Bu altı bənd düşmənin məhv edilməsi ilə bağlı biliklərdən ibarətdir, - deyir o, və əlavə edir ki, sərkərdənin ali borcu ondan ibarətdir ki, bunu başa düşsün».

Sun-tszı, görünür, düşünülmüş şəkildə, məhv etməklə bağlı təlimi yer haqqında biliklərdən sonra verib.

Məğlubiyyətdən qaçmaq üçün müxtəlif coğrafi yerlərdə necə hərəkət etməyi göstərən Sun-tszı indi məğlubiyyətdən yayınmaq üçün orduda olan və bunda sərkərdənin məsuliyyət daşıdığı səbəblərdən danışır. Bununla o, sanki coğrafi amillərə həddən çox üstünlük verməkdən çəkinməyə çağırır və əsas məsələnin üstündə dayanır – bu ordunun vəziyyətidir. Coğrafi amil, «yerin forması», onun fikrincə, «ordu üçün ancaq köməkdir». O, fəslin yeni bölməsini bu sözlərlə başlayır.

«Ali sərkərdənin elmi düşməni qiymətləndirməkdə, qələbəni təşkil etmək, yerin xarakterini və məsafəni öyrənməkdədir», - deyir Sun-tszı. Çjan Yuy daha aydın ifadə edir: «Yerin formasını təyin etmək bacarığı müharibə işində köməkdir, bu– ikinci dərəcəlidir; əsası düşməni qiymətləndirmək və qələbəni təmin etməkdir... Nə vaxt ki, rəqibin vəziyyətini qiymətləndirməyi bacarır, onun boş və doluluğunu, güclü və zəif cəhətlərini təyin edir, yerin formasını – relyef və məsafəni müəyyən edirsən, onda hər şeyi– əsas və ikinci dərəcəliləri– öyrənirsən; sərkərdənin elmi bununla bitir». Yaxud da daha konkret dilə çevirsək: «Kim müharibəni başa düşərək aparırsa, o, mütləq qalib gəlir; kim müharibəni başa düşmədən aparırsa, o, mütləq məğlubiyyətə uğrayır»,- deyir Sun-tszı.

Beləliklə, sərkərdədən böyük məsələlər tələb olunur və onun üzərinə çox böyük məsuliyyət qoyulur. Bunun müqabilində, əgər sərkərdə hərb elminə yiyələnibsə, Sun-tszı ona elə səlahiyyətlər, elə hakimiyyət verir ki, sərkərdə demək olar ki, əsl həqiqətdə diktatora, heç nə və heç kimlə, hətta öz ölkəsinin hakimiyyyəti ilə məhdudlaşdırılmayan şəxsə çevrilir.

Sun-tszı sərkərdənin səlahiyyət məhdudiyyətsizliyi məsələsinə III fəsildə geniş toxunub, bu barədə VIII fəsildə də danışıb. III fəsildə o, birbaşa «orduda o vaxt faciə olur ki, hökmdar sərkərdənin işinə qarışır» məsələsindən danışır. Həminki fikirlər, amma bir qədər başqa cür formalaşdırılmış şəkildə bu fəsildə də verilir. «Əgər hərb elminə əsasən, döyüşdə elə bir vəziyyət yaranıb ki, vuruşsan məğlub olacaqsan, hökmdar «vuruş» desə də vuruşma». Mey Yao-çen bu sözlərlə qeyd kimi Sun-tszının VIII fəsildəki digər sözlərini xatırladır: «Hökmdarın elə əmrləri olur ki, icra edilmir».

Bununla belə, Sun-tszı, görünür, bu dəfə çəkinir ki, onun sərkərdəyə səlahiyyətlər verilməsi ilə bağlı dediyi sözlər hərbi rəislər tərəfindən belə başa düşülər ki, onlar bütün hallarda özlərini diktator hesab edə bilərlər.

Sun-tszı sərkərdəyə sərbəstlik verən bir şərti artıq irəli sürüb: bu– hərb elminə tam yiyələnməkdir. Ancaq bu da azdır. Müvafiq mənəvi keyfiyyətin, mülki xeyirxahlığın da olmalıdır. Sərkərdənin hərəkətlərində mənsəbpərəstlik yer tutmamalıdır; o, öz hərəkətlərinə görə həmişə cavab verməyə hazır olmalıdır; onun bütün hərəkətlərində həmişə bu fikir təlqin olunmalıdır «xalqın rifahı və hökmdarın xeyrinə». Buna görə də, döyüşə girən sərkərdə şöhrət axtarmır, geri çəkilərkən isə cəzadan yayınmır. Bu sərkərdə ancaq xalqın rifahı və hökmdarın xeyri haqqında düşünür,- deyir Sun-tszı. Belə sərkərdə dövlət üçün xəzinədir.

Çin tarixindən belə bir hekayə var. İki knyaz bir-biri qarşısında zənginlikləri ilə öyünürdü. Lyan knyazı Xoyvan (370-335) və Tsi knyazı Vey-van (373-343). Lyan knyazı böyük fəxrlə öz qiymətli lələ-cəvahiratını Tsi knyazının qarşısında nümayiş etdirirdi. Tsi knyazı onların hamısını gözdən keçirdi, lakin bunları dedi:

«Mənim vassallarım arasında Tyan Tsi adlı birisi var. Mən ona Nançeni müdafiə etmək əmri verəndə, Çu knyazları ona yaxın da düşə bilmədi... Suşay çayı yanında mənim knyazlığıma qarşı 12 knyaz hücum edirdi. Lakin mənim Fen-tszım var. Mən Qaotançenin müdafiəsini ona tapşırdım və Çjao knyazlığı mənim knyazlığımla sərhəddəki çayda balıq tutmağa belə cəsarət etmədi. Mənim Tszyan Fuyum var, ona Syuyçjounun müdafiəsini həvalə etdim. Yan və Çjou knyazlığından tam 7 min ailə Syunçjouya axışıb gəldi.

Mənim Çjun Şoum var. Mən ona ölkəni oğru və soyğunçulardan təmizləməyi əmr etdim və nəticədə heç kim yerə düşərək qalmış şeyi götürməyə cürət etmədi». Hekayədə deyildiyinə görə, Lyan (daha doğrusu Vey) knyazı heç nəyə etiraz etmədi və elə o gündən bir daha öz var-dövləti ilə bağlı çərənləmədi.

Sun-tszının növbəti fikirləri sərkərdənin öz ordusu ilə münasibətləri barədədir. Burada sərkərdənin öz yaxın köməkçiləri, yüksək vəzifəli hərbi rəislərlə münasibətləri, öz tabeliyində olan hərbçilərin qabiliyyət və istedadlarını görmək, sıravi heyət, əsgərlər barədə söhbət gedir.

Sun-tszı tələb edir ki, sərkərdə öz əsgərlərinə öz uşaqları, öz əziz oğulları kimi yanaşsın. Bu, sərkərdəyə ona görə lazımdır ki, onun qoşuna sevgi və sadiqliyini təmin etsin və Sun-tszının sözləri ilə desək, göstərsin ki, «onlarla ən dərin dərəyə... hətta ölümə gedə bilər». Amma bununla yanaşı, sərkərdə öz əsgərlərinə elə əmr etməyi bacarmalıdır ki, onlar bu əmrləri dönmədən yerinə yetirsinlər; əgər əsgərlərdə nizamsızlıq yaranıbsa, sərkərdə o dəqiqə çatışmazlığı aradan qaldırmalıdır. Yoxsa, Sun-tszı demişkən, onlar

artıq «sözə qulaq asmayan uşaqlar olacaqlar və əsgərlərdən faydalanmaq mümkün olmayacaq».

Sərkərdənin əsgərlərlə öz sevimli uşaqları kimi rəftar etməsi tələbi feodal Çinin bir çox strateqləri tərəfidən irəli sürülüb. Onların bəziləri bu tələbi, məsələn «Lyu Tao» traktatında olduğu kimi qoyurlar: «Sərkərdə öz əsgərləri ilə birlikdə soyuq və bürkünü, zəhmət və əzabı, aclıq və toxluğu bölə bilməlidir» (Lyu tao, «Lun tao» bölməsi, 23-cü fəsil). Sıma Tszyanın U-tszı haqqında yazdığı tərcümeyi-halda tanınmış sərkərdəni məhz bu yöndən xarakterizə edir. U-tszı Vey knyazlığında xidmətə qəbul olunaraq onun ordusunun başında durdu, o, özünü «Lyu tao» nun tələb etdiyi kimi apardı: o, ordudakı lap sonuncu əsgərin geyindiyi kimi geyinir; əsgərlərinin də yediyi yeməklə qidalanır, heç bir örtük sərmədən quru yerdə yatır, yürüş zamanı piyada gedir, arabadan istifadə etmirdi; əsgərlərin götürdüyü yürüş payından o da götürür, hərbi həyatın bütün çətinlik və ağırlığını əsgərlərlə bərabər bölüşürdü. Heç nə onun əsgərlərə olan qayğısının qarşısını ala bilməzdi. Bir dəfə əsgərlərdən birində çiban çıxmışdı və o, keçib getmək bilmir, əziyyət verirdi. Bunu görən U-tszı çibanı deşir və oradakı irinin hamısını sorub çıxarır. Bu, əlbəttə ki, bütün qoşunu riqqətə gətirir. Bununla bağlı xəbər xəstə əsgərin anasına çatdıqda isə, qadın acı göz yaşları tökür. Bunu görən qohumları soruşurlar ki, o niyə ağlayır. Qadın cavab verir: «Mənim mərhum ərim orduda xidmət edərkən, onun da bədənində çiban çıxır və o da heç cür sağalmırmış. Bu zaman onun baş komandanı şişmiş yaranı çərtərək, içərisindəki irinin hamısını sorub. Mənim ərim bu cür qayğıdan son dərəcədə təsirlənir və rəisinə borcunu qaytarmaq üçün səy göstərir, fikirləşmədən vuruşun ən qaynar yerinə atılır və nəticədə öldürülür. Mən indi qorxuram ki, oğlum da öldürüləcək (Şi-tszı, «U-tszının tərcümeyi-halı).

Bununla yanaşı, Sun-tszı buradaca xəbərdarlıq edir ki, sərkərdə yalnız xeyirxah və öz əsgərlərinin sevimli atası və yoldaşı ola bilməz. Lazım gəldikdə ciddi olmağı da bacarmaq lazımdır. Bu fikir ümumi halda, lakin çox yaxşı şəkildə «San Lyue» traktatında yazılıb. Onda hərb sənətinə dair qədim əsər olan «Tszyun-çan»dan iqtibaslar verilib: «Kim ki, yumşaq və bərk olmağı bacarır, onun dövləti daha çox çiçəklənəcək. Kim ki, zəif və güclü olmağı bacarır, onun dövləti daha çox şöhrətlənəcək. Kim ki, ancaq yumşaq və zəifdir, onun dövləti mütləq ziyan çəkəcək. Kim ki, yalnız bərk və güclüdür, onun dövləti mütləq məhv olacaq («San-lyue», I fəsil, səh.4). «San Lyue» hökmdarın yumşaq və bərk olmasının zəruriliyindən danışır. Lakin bu qayda təbiidir ki, ordunu idarə edənlərə, sərkərdələrə və Sun-tszının dediyi kimi, illah da hamı tərəfindən qəbul olunan, öz ordusunun hədləri çərçivəsində məhdudiyyətsiz hökmdar olan sərkərdələrə şamil olunur. U-tszı, məhz belə deyir: «O sərkərdədə ki, mülki xeyirxah əməl və hərbi

rəşadət cəmləşib, o, ordu komandanıdır. O şəxsdə ki, sərtlik və yumşaqlıq uzlaşır, o, ordu başçısıdır». (U-tszı, IV, 1).

Vey Lyao-tszı da bu cür tələb irəli sürür ki, ancaq sərtlik və yumşaqlıqla birlikdə məhəbbət və qorxu haqqında danışmaq olar. Əsgərləri sevgi ilə özünə cəlb edə bilər, onları qorxu altında özünə tabe etdirə bilərsən. Qorxunun əhəmiyyəti haqqında Çinin hərbi yazıçıları tərəfindən tez-tez xatırlanan məşhur Vey Lyao-tszı düsturunda söz açılır: «O zaman ki, əsgərlər düşmənlərindən çox öz sərkərdələrindən qorxurlar, onlar qalib gəlirlər; o zaman ki, əsgərlər öz sərkərdələrindən çox düşməndən qorxurlar, onlar məğlub olurlar» (Vey Lyao-tszı, XXIII f., s.58).

Çjan Yuy Vey Lyao-tszının fikirlərinə tamamilə qoşularaq, hesab edir ki, Sun-tszıda da əsgərin həmin o iki hissindən söhbət gedir: sevgi və qorxudan.

Sun-tszı deyir: «Əgər görsən ki, düşmənə hücum etmək olar, əgər görsən ki, əsgərlərinlə onun üstünə hücuma keçmək olmaz, sənin üçün qələbənin yarısı təmin olunacaq».

Görmək çətin deyil ki, yuxarıda deyilmiş və Sun-tszının bu sözləri onun III fəsildə söylədiyi fikirləri bir qədər də genişləndirir. «Əgər özünü tanıyır, onu tanımayırsansa, bir dəfə qalib gələcək, başqa vaxt məğlub olacaqsan». Bu əsas qaydanı Sun-tszı bu və digər formada təkrar etməkdən yorulmur.

Çin müharibə tarixində bu qaydanın yaddan çıxarılması üzündən ölüm halları ilə bağlı çoxlu nümunələr mövcuddur. Yeddi çarlıq dövründə (m.ö. IV əsr) 6 çarlıqdan ibarət koalisiya– Tsi, Çu, Yan, Xan, Vey və Çjao güclü Tsin çarlığına– sonradan bütün Çini tutan knyazlığa qarşı silah qaldıranda hücum edənlər gördülər ki, öz orduları ilə müharibəyə girmək olar, lakin başa düşmədilər ki, bu qüvvələr Tsinə qarşı mübarizədə kifayət deyil. Buna görə də, onlar məğlub oldular. Çen Şe Tsin çarlığı üzərinə yürüş edəndə də gördü ki, bu çarlıq elə vəziyyətdədir ki, onun üzərinə hücuma keçmək olar, amma nəzərə almadı ki, öz ordusu ilə Tsinə qarşı çıxmaq olmaz. Bu səbəbdən onun yürüşü müvəffəqiyyətsizliyə uğradı.

Bu qaydanın yaddan çıxarılmasının mənfi nəticələri Tsao-qunla olmuş hadisədə də özünü qabarıq göstərir. O, Qırmızı divarlar yaxınlığında 800 minlik ordusu ilə düşmənin 30000 qoşununa qarşı müharibədə uduzdu. Nə üçün? Ona görə ki, öz ordusu ilə müharibəyə girə biləcəyini və düşmənin vəziyyətinin necə olduğunu görürdü, lakin döyüşün şəraitini nəzərə almamışdı. O, döyüşü Yantszıtszyan çayında gəmilərlə aparmalı oldu, buna isə onun əsgərləri vərdiş etməmişdilər. Onun məğlubiyyətinin səbəbi də elə bu oldu.

Sun-tszı bu mühakiməni birləşdirici düsturla yaxınlaşdırır: «Buna görə də o şəxs ki, hərəkətində səhv etməyəcəyini və müharibəyə qalxanda bədbəxtliyə düçar olmayacağını yəqin edirsə, o, müharibənin nə olduğunu bilir». Bu onunla izah olunur ki, o, bütün

üç amili nəzərə almağı bacarır: öz ordusunun vəziyyətini, düşmənin vəziyyətini və şəraiti. Du Munun dediyi kimi, belə halda «qələbə və məğlubiyyət hərəkət etməzdən, döyüşə başlamazdan əvvəl müəyyən olunur».

Sun-tszı öz traktatının I fəsilində əvvəldə «hesablamalar»ın hələ müharibədən əvvəl «Saray şurası»nda aparılmasının vacibliyini və müharibə başlayarkən nəyi harada istifadə etməyi qabaqcadan bilməyin zərurətini deyib. Ancaq bu cür sərkərdə «müharibəni apara bilən», yaxud, «yaxşı vuruşan» hesab oluna bilər»,- deyir Sun-tszı. Van Çje məhz bu fikirlərin işığında bu sözləri başa düşür: «Kim ki, bir şeyin hesabını götürür, o, səhv etmir; kim ki, müharibəni aparmağı bacarır, o, faciə ilə üzləşmir».

Fəslin sonuncu ifadəsi Sun-tszının bütün strateji və taktiki bilikləri haqqında rəy verir. «Buna görə də deyilib,- o, hərb sənəti ilə bağlı qədim əsərdən iqtibas gətirir: əgər sən onu bilirsənsə, özünü də tanıyırsan və qələbə uzaqda deyil; əgər bununla yanaşı, Səmanı və Yeri də tanıyırsansa, qələbə tam təmin olunub».

Adətən, Çin strateqləri «Yer» sözünü deyəndə dayandığın mövqeyi, döyüş şəraitini, sözün geniş mənasında – hərbi əməliyyat səhnəsini nəzərdə tuturlar; «Səma» sözünü isə deyəndə hava şəraiti, sözün geniş mənasında ilin fəsli nəzərdə tutulur.

Bu anlayışlara Sun-tszının özündə də rast gəlinir. I fəsildə o, özünün müəyyənləşdirdiyi, müharibənin beş ünsürünü sadalayaraq, bu sırada Səma və Yerin də adını çəkir və onları belə izah edir: «Səma– bu, işıq və qaranlıq, soyuq və bürküdür; bu, fəsillərin sırasıdır; Yer– bu, uzaq və yaxındır, hamar və kələ-kötürdür, geniş və dardır, ölüm və həyatdır». Doğrudan da, qədim strategiyanın bu cür halları Sun-tszının öz fikirləri ilə uyğun gəlir. Özünü və düşməni tanımaqla bağlı deyilənlər də Sun-tszının fikirləri ilə dəqiqliklə uzlaşır. Qeyd edək ki, onun dediyi bu fikirlər III fəsilin sonunda verilib. Beləliklə, bu deyimlər Sun-tszının müharibənin qələbə amilləri ilə bağlı elminin tərkib hissələridir.

Hələ qədimlərdə İ-tszin müəyyən edib ki, dünyada fəaliyyət göstərən üç başlanğıc var: Səma, Yer və İnsan. «İ-tszin» in dilində ilin fəsilləri, atmosfer, iqlim və meteoroloji şərait, coğrafi və topoqrafik vəziyyət və yerin əhalisi– insanlar bu cür adlanır. Mövcüd olan bu üç amildə bütün məişət və həyat yerləşir. Sonradan gələn Çin mütəfəkkirləri bu düstur əsasında məişət fəlsəfəsini qurdular və onu həyatın bütün sahələrinə yaydılar. Görmək çətin deyil ki, Sun-tszı bu qədim konsepsiya ilə tam razılaşaraq, onu həm də müharibə sahəsində genişləndirir. O, anı nəzərə almağı bacarmağı, yerin dəqiqliyini, özünü və düşməni düzgün qiymətləndirməyi tələb edir. Bu, həm də Səmanı, Yeri və İnsanı tanımaq deməkdir.

Qədim «İ-tszin» bu üç amildən danışarkən hər birinin öz xüsusiyyətini saxlamaqla onları bölünməz vahid kimi başa düşür. Sun-tszı da belə düşünür. O, müharibədə bu üç amilin təsirini

araşdıraraq, onların bir-biri ilə sıx əlaqəsini görür və müharibə aparandan tələb edir ki, o, hər bir amillə bağlı biliklərlə yanaşı, onların bir-biri ilə qarşılıqlı əlaqəsini də başa düşsün. Əgər sərkərdə bu üç sayı bərabər bilirsə– insanlarla, fəsillə, yerlə bağlı hər şeyi bilirsə, o yüz dəfə müharibə aparsa, yüz dəfə də qalib gələcək,- deyir Li Tszyuan.

Sun-tszı bu mövzuya həsr etdiyi «Yerin formaları» fəslini bu sözlərlə qurtarır. Amma Sun-tszının dediklərinə belə bir hal xarakterikdir ki, hər hansı bir vəziyyətlə bağlı izahat verəndə onun nisbiliyini də diqqətə çatdırır, bu halın digər vəziyyətlərdən asılılığını göstərir. Sun-tszı istəmir ki, söylədiyi fikirlər, yaratdığı qaydalar mütləq mənа versin. Bu da ki, onun göstərdiyi bütün ünsür və amillərin, tələb və qaydaların müharibədə birgə əlaqəsi, qarşılıqlı fəaliyyətidir. Müharibədə hər bir hadisə bir-biri ilə bağlıdır, bir-birini müşayət edir. Bunun üçün də Sun-tszı coğrafi amil haqqında biliklərdən danışarkən, bu və digər şəraitdə necə hərəkət etməyi önə çəkir, lakin göstərir ki, bu, hələ azdır: bununla yanaşı, Yer, Səma və İnsanlar var. Yeri o zaman öyrənmək olar ki, Səma və İnsanı tanıyasan. Yalnız bu üçlüyü birlikdə öyrənmək, Li Tsyuanın və Sun-tszının dediyi kimi, sərkərdəyə «yüz dəfə döyüşmək və yüz dəfə qalib gəlmək» imkanı verir».

XI FƏSİL
Doqquz cür yer

Sun-tszı öz traktatının XI fəsilində yenidən yer məsələsinə qayıdır. Bu məsələ əvvəlki fəsildə araşdırılıb və o, yerin təsnifatını (yerin açıqlığı, maililiyi, kəsişən, dərəli, dağlı olması, uzaqlığı) verir. Bu fəsildə isə Sun-tszı həmin bu məsələyə dair yeni təsnifat verir və mövzunu yenidən mühakimə edir. Bu nə deməkdir? Sun-tszı sırf əvvəlki mövzuyamı qayıdır, yoxsa problemi digər tərəfdən araşdırır? Əgər onun mühakimələrinin məzmununa, birinci təsnifatla ikincinin və fəsillərə verilmiş adların fərqinə baxsaq, görərik ki, Sun-tszı əvvəlki fikirləri təkrar etmir və problemə yeni nöqteyi-nəzərdən baxır.

Görünür, iş buna gətirib çıxarır. X fəsildə– «Yerin formaları» nda mümkün hərbi fəaliyyət ərazisinə öz topoqrafik əlamətlərinə görə baxılır; bu fəslin təsnifatı hərbin topoqrafik təsnifatıdır. «Doqquz cür yer» adlanan XI fəsildə mümkün hərbi fəaliyyətin ərazisinə öz strateji özəlliklərinə görə baxılır; bu fəslin təsnifatı hərbi-strateji təsnifatdır. Beləliklə, yazının məqsədi hər iki halda müxtəlifdir.

Sun-tszının bu fəsildə verldiyi yer siyahısında müəyyənləşdirmənin özünəməxsusluğu çoxlu şərh tələb edir. Sun-tszının terminləri o dövrə xas olan terminlər deyil və görünür, müəllifin nüfuzunun artması ilə əlaqədar onun hərbi doktrinasının xüsusi kəşfləridir.

«Səpələnmə yeri» strateji nöqteyi-nəzərdən nəyi ifadə edir? Hər şeydən əvvəl, onun ilk əlamətini müəyyən etmək asandır: bu –

öz ərazində olan yerdir; başqa cür desək, Sun-tszı burada öz ərazində müharibə aparmağın şərtlərindən danışır.

Öz ərazin deyəndə nə nəzərdə tutulur – hərbi fəaliyyət səhnəsi – bəlkə «səpələnmə» ərazisi kimi adlandırılır?

Çjan Yuy məsələyə belə aydınlıq gətirir: «O zaman ki, öz torpaqlarında vuruşurlar, zabit və əsgərlər həmişə öz evlərinə baxırlar. Bu yerlərə ki, onlar buradan asanlıqla müxtəlif tərəflərə səpələnə bilərlər».

Tsao-qun da məsələni belə anlayır: «Zabit və əsgərlər doğma yerləri haqqında düşünürlər, bu yerlərə yol yaxındır və onlar asanlıqla dağılışa bilərlər».

Du Yu da belə vəziyyəti bu cür ruhda izah edir: «Nə vaxt ki, öz torpaqlarında vuruşurlar, zabitlərin və əsgərlərin fikri bir məqsədə yönəlmir, onlar dağılışmağa və səpələnməyə meyllidirlər. Buna görə də, həmin yer səpələnmə yeri adlanır». Başqa təfsirçilər də o haqda danışırlar: «Haçan ki, əsgərlər öz torpaqlarında yerləşirlər, onlar öz arvad və uşaqları haqqında düşünürlər. Fövqəladə bir hal yaranan kimi, onlar səpələnirlər. Buna görə həmin yer "səpələnmə yeri" adlandırılır» (Li Tsyuan). «Əsgər və zabitlər öz evlərinin yaxınlığında olanda, hücum zamanı onlarda ölümə hazırlıq yoxdur, geri çəkilərkən isə onların qayıtmağa yerləri var». (Du Mu).

Beləliklə, traktatın bu yerinin qoca Çin hərbi salnaməçiləri tərəfindən necə başa düşülməsi bizə aydındır. onların sözü ilə iş belə başa düşülür ki, öz ərazində vuruşarkən əsgərlərinə tam güvənə bilməzsən: onlar qaçıb dağılışa bilərlər.

Şübhəsiz ki, belə anlamların arxasında feodal Çinində aparılan müharibənin real təcrübəsi gizlənir. O dövrün feodalları arasında gedən müharibələrə zorla cəlb olunan kəndli, qarşıya qoyulmuş məqsədə biganə idi və onlar vuruşmağı bacarmırdılar. Kəndçilər eyni zamanda öz acı təcrübələrinə əsaslanaraq bilirdilər ki, bu müharibələr onları ancaq müflisləşdirəcək.

Bu cür vəziyyət Sun-tszı dövründə də müşahidə olunmalı idi və onun traktatından da göründüyü kimi, o zaman ordunun əsasını kəndlilər təşkil edirdilər. Və onlar öz istismarçılarının maraqları naminə döyüşməyə meyl göstərmirdilər. Sun-tszı döyüş ruhunu yüksəltmək üçün onlarda «hərislik» hissini oyatmağı, onları düşmənin əmlakını ələ keçirmək imkanı olmasına şirniklendirməyi əbəs yerə məsləhət görmür. Buna görə də, traktatın bu yeri; eləcə də bu fəslin çox məqamları, digər yerlərdən fərqli olaraq, daha çox özünün tarixi şəraiti ilə şərtlənir. Əgər traktatın çox yerində müəllifin fikirləri açıq-aydın öz dövründən yuxarı qaldırılırsa, lakin buradan fikirlər sırf öz dövrü çərçivəsində verilir.

Əlbəttə ki, feodal Çini tarixində çox hallar olub ki, kəndlilər, xalq mübarizəyə gedərkən dönüb öz ev-eşiyinə baxmayıb və o haqda düşünməyib ki, tezliklə öz evlərinə qaçacaqlar: bu, kəndli üsyanları, böyük kəndli müharibələri dövründə olub.

Çin kəndlisinin xalqın maraqları uğrunda necə döyüşdüyünü bizim dövrümüzdə son onilliklərin təcrübəsi aydın göstərir,– bizim gözlərimiz qarşısında Çində xalq inqilabı tam qələbə çaldı. Ancaq Sun-tszının öz traktatı və onun təfsirçiləri bu cür mübarizə haqqında düşünmürdülər: onların gözləri qarşısında «ağalar» ın və onların «vassallar» ının lazımsız və mənasız müharibələri dururdu. Bu fəslin bir çox yerləri bu cür müharibələrin şəraiti haqqındadır.

Öz ərazindəki müharibələrdə yer amilini və şəraiti qiymətləndirərək. Sun-tszı düşmən ərazisində gedən müharibələrdə bu amilin qiymətləndirilməsinə keçir. Burada o, iki müxtəlif şəraiti bir-birindən ayırır: düşmənin sərhəd rayonlarında hərbi əməliyyatlar və düşmənin ərazisinin içərilərində gedən hərbi əməliyyatlar. Onun terminologiyasına əsasən, sərhəd ərazidəki zona «dayanıqlı olmayan yerdir», düşmən torpaqlarının içərisindəki mübarizə ərazisi «ciddi vəziyyət yeridir».

Bu adlara əsaslanaraq, o dəqiqə demək olar ki, Sun-tszı yenə də mənəvi-psixoloji amili, qoşunun döyüş ruhunu və əlbəttə ki, onun döyüş qabiliyyətini ön plana çəkir.

«Dayanıqsız yer» nə deməkdir? Çjan Yuy cavab verir: «Rəqibin sərhədinə girən kimi, əsgər və zabitlər qayıtmaq haqqında düşünürlər: bu, o deməkdir ki, onlar geriyə qayıtmağı daha asan yol hesab edirlər. Görmək çətin deyil ki, məsələnin belə yozulması bu fəslin birinci hissəsi ilə sıx əlaqədardır və o dövr müharibələrinin real təcrübəsinə əsaslanıb.

Sun-tszı və onun təfsirçiləri düşmən ərazilərinin içərisinə keçmiş qoşunların vəziyyətini tamamilə başqa cür qiymətləndirirlər. O zaman ki, onların ətrafında hər yerdə düşmən var və «Bu, o yerdir ki, oradan evə qayıtmaq çətindir»,- deyir Tsao-qun. «Düşmən ərazilərinin içərilərinə çox keçəndə, geridə çoxlu düşmən istehkamları qoyanda, zabit və əsgərlər evə qayıtmaq əhvalı-ruhiyyəsində olmur. Bu, o yerdir ki, oradan geri çəkilmək çətindir»,- yazır Çjan Yuy. «Bu– ciddi çətinliklər yeridir»,- bunu isə Mey Yao-çen deyir. Belə yerdə «vəziyyətin ciddiliyi» barədə Van Çje də danışır. Sun-tszının bu yeri, qoşunların mənəvi-psixoloji vəziyyətini və hərbi-operativliyi nöqteyi-nəzərindən «ciddi vəziyyət yeri» adlandırılır».

«Öz ərazində və düşmən ərazisində aparılan hərbi əməliyyatların xüsusiyyətlərini söyləyən Sun-tszı sonra neytral ərazilərdə gedən döyüşlər zamanı baş verən hadisələrə keçir.

Sun-tszı bunu o halda deyir ki neytral ölkənin ərazisi döyüşən tərəflərin sərhədində olur.

Belə halda Sun-tszı nəyi təklif edir? «O yerə birinci çatmaq» (yəni, düşməndən əvvəl– N.K.). «Kim ki, o yerə ilk çatacaq, o Səmanın altında nə varsa, ona yiyələnəcək». Sun-tszı qələbənin təminatı üçün lazım bilir ki, həmin ərazi strateji cəhətdən əhəmiyyətli olsun».

Tsao-qun Sun-tszının fikirlərini bir qədər genişləndirir: «Odur ki, mən və rəqibim üz-üzə dayanırıq, yaxınlıqda isə başqa dövlət yerləşir. Lazımdır ki, o yerə birinci gedəsən və o ölkənin də sənə köməyini təmin edəsən». «Köməyini təmin etmək» ifadəsi, əlbəttə ki, geniş məna verir. Sun-tszının VIII fəsildəki fikrincə, bu, o deməkdir: «Kəsişən yerlərdə ittifaq bağla» (VIII, 2). Burada, əlbəttə ki, söhbət neytral ərazinin yiyəsini öz tərəfinə çəkməkdən gedir.

Sun-tszı öz dili ilə belə yeri «kəsişən yer» adlandırır, yəni, bu ərazi ilə hər yerə keçmək üçün geniş yollar açılır.

Sun-tszının sonrakı müəyyənləşdirməsi artıq ərazinin bu və ya digər tərəfə məxsusluğu ilə bağlı deyil; o, hər hansı bir yeri ancaq hərbi nöqteyi-nəzərdən araşdırır.

Sun-tszı «tutula bilən yer»lərdən danışır, yəni, bu yeri döyüşən tərəflər biri-birindən ala bilərlər. Əlbəttə ki, bu cür vəziyyət onda yarana bilər ki, tutulan yer bu və ya digər tərəf üçün faydalı olsun. Bu hansı yerdir.

Bu suala Tsao-qun cavab verir: «Orada az sayda qoşunla çoxsaylı qoşunu məğlub edə, zəif qüvvə ilə böyük gücə qalib gələ bilərsən». Çjan Yuy bir qədər başqa cür düşünür. «Bu yer təbii möhkəmlənmiş yerdir». Li Tsyuan əyani şəkildə göstərir: «Bu, o yerdir ki, düşməni boğazından tuturlar».

Elə ərazilər var ki, onları «yığılan yer» ya da «ayrılan yer» adlandırmaq olar. Sun-tszı bu yerləri belə təyin edir. Bu, elə yerlərdir ki, oradan mən də keçə bilərəm, düşmən də keçə bilər». Tsao-qun əlavə edir: «Bu oradadır ki, həmin yerdə yollar çarpazlaşır və qurulurlar». Başqa cür desək, bu yerlər hər iki tərəfin asanca hərəkəti üçün mümkündür, elə yerlər var ki, öz qoşunların və düşmən qoşunları hərəkət edir və buradan qarşılıqlı şəkildə keçirlər.

VIII fəsildə yolsuz yerlər barədə artıq danışılıb. Lakin Sun-tszı orada bildirmişdi ki, belə yerlərdə düşərgə salmaq olmaz. Burada isə bu cür yerlərin coğrafi xüsusiyyətləri verilib: bu yer ya dağlıqdır,ya meşə ilə örtülüdür, ya bataqlıqdan keçir, ya da ki, bu yer strateji cəhətdən ona görə narahatdır ki, ordunun manevr etməsini çətinləşdirir. «Belə yerlərdə heç nəyə arxalanmadan geriyə, yaxud irəli getmək çətindir». Sonuncu sözləri mövqe tutulması ilə bağlı yaranmış çətinlik kimi başa düşmək lazımdır. Tsao-qun və Xe Yan-si də həmin yerlərin quruluşunu belə başa düşürlər.

Həmin VIII fəsildə «mühasirə yeri» də xatırlanıb. Sun-tszı orada xəbərdarlıq edirdi: «Mühasirə yerində anla». Burada artıq belə yerin coğrafi xarakteristikası verilir. Bu, elə yerdir ki, «oraya girilən yol dar, çıxılan yol isə genişdir». Bu zaman düşmən az qüvvə ilə mənim çox qüvvəmin üzərinə basqın edə bilər». Beləliklə, qoşun elə bil ki, hər tərəfdən bağlanmış vəziyyətə düşür, ya çətin keçilən yerlə əhatələnir, ya da düşmən dəstələrinin kəsdiyi yollarla üzləşir. Çjan Yuy xəbərdarlıq edir ki, belə yerdə asanlıqla pusquya düşmək

mümkündür. Li Tsyuan qeyd edir ki, bu cür yerdə hər hansı bir hərəkət etmək çox çətindir.

VIII fəsildə «Ölüm yeri»ndən danışarkən Sun-tszı qısaca ifadə edir: «Ölüm yerində vuruş». Bu fəsildə isə o, izah edir ki, bu, nə üçün lazımdır: «əgər döyüşə tez atılsan, sağ qalacaqsan, bunu etməsən, öləcəksən; onun fikri belədir. Bəs, bu necə yerdir ki, artıq heç nə fikirləşmədən, cəld döyüşə atılmalısan?»

Tsao-qun bu suala cavab verir: bu– oradır ki, qarşıda hündür dağlar, arxada böyük çay var, irəli getmək mümkün deyil, arxada isə maneələr var. Bu zaman «ərzaq da tükənib», əlavə edir Du Yu. Yalnız Çjan Yuy ilə razılaşmaq qalır: «Dağlar şərtdir, çaylar ensizdir, nə irəli, nə də geriyə getmək mümkündür, ərzağın hamısı qurtarıb, düşmən hər tərəfdən çıxır. Belə halda əsgərləri ruhlandırmaq və amansızlıqla vuruşmaq lazımdır; gecikmək heç cür olmaz».

Beləliklə, «ölüm yeri» dedikdə Sun-tszı o yeri nəzərdə tutur ki, burada döyüş şəraiti ordunun taleyi məsələsini qarşıya qoyur və ölüm-dirim savaşına girməkdən başqa yol yoxdur.

Du Mu bu cür yerin xüsusiyyətlərini və Li Vey-qunun bununla bağlı verdiyi döyüş şərtlərini xatırladır. «Ola bilər ki, yürüşə çıxarkən yerli bələdçilərin köməyindən istifadə etməzsən və təhlükəli vəziyyətlə üzləşərsən, dyüşmənin zərbəsi altına düşərsən. Səndən solda dərə, sağda isə dağlar var. Getdiyin çığır və atlar, nə də ki, cəng arabaları üçün yarayır. Qarşıda çığır yox olur, arxada isə uçurumdur. Sənin getdiyin qayalar qarşısında çöl qazlarınnın dəstəsi kimi ucalır; dırmaşdığın sərt qayalar səni balıqçı toru kimi əhatəyə alıb. Mövqelər hələ möhkəmləndirilməyib və birdən səndən yuxarıda düşmən peyda olur. İrəliyə gedəcəksən– nəfəs dərməyə yer yoxdur, geriyə çəkiləcəksən– möhkəmlənmək üçün yer yoxdur. Döyüşə girmək istəyirsən– olmaz; fikrindən müdafiə olunmaq keçir– etibarlı yer yoxdur. Burada dayanmaq isə günlərlə, aylarla gözləmək deməkdir. Qabağa hərəkət etmək– qoşunun əvvəli və axırını düşmən hücumuna məruz qoymaq olar. Yerləşdiyin ərazidə nə su, nə də at var. Qoşunda sursat və ərzaq çatışmır. Atlar əldən düşüb, insanlar yorulublar. Ağıl işləmir, güc son gərginlik həddindədir. Bu yer belədir ki, bu daşlığı bircə nəfər müdafiə edə bilər, 10000 nəfər isə ona qarşı vuruşa bilməz. Belə təbii istehkamı sənin düşmənin birinci tutub. Bu üstünlüyü mən itirmisən. Mənim döyüşçülərim lap igid, silahları iti də olsa, burada nə edə bilərəm? Əgər bu ölüm yerində tezliklə döyüşə atılsan, sağ qalacaqsan; əgər döyüşə tez atılmasan, öləcəksən. Burada lazımdır ki, komandir və əsgərlərin ürəyi bir vursun, onların ruhu bir, gücləri birləşmiş olsun. Gərəkdir ki, özünün bütün daxilini üzə çıxarasan, qanını sıxıb çıxarasan, öz qarşında yalnız ölümü görəsən. Lazımdır ki, məğlubiyyəti müvəffəqiyyətə, bədbəxtliyi xeyirə çevirəsən».

Li Vey-qunun «ölüm yeri» ilə bağlı verdiyi xarakteristika belədir. Bu xarakteristika belə yerdə rəqiblə toqquşmanın tam və

hərtərəfli əlamətlərinin izahını əhatə edir. Xüsusi qeyd olunmalıdır ki, Li Vey-qun Sun-tszının hərəkətin tezliyinin zərurəti ilə bağlı dediklərini sanki eynilə təkrar edir. Belə şəraitdə cəldlik– xilas olmağın yeganə yoludur. Bu cür münasibətlərdə Sun-tszı elə əsas zərurəti qeyd edir ki, o, vacib şərt olsun. Cəldlik təkcə «ölüm yerində» lazım deyil. Daha sonra o, deyir: «Müharibədə ən əsası– cəldlikdir».

İki tərəfin toqquşması zamanı səhnə ola bilən doqquz yer növü bu cürdür: Sun-tszı onların qısa xarakteristikasını verməklə yanaşı, onlardakı döyüşün şərtlərinə qısaca toxundu. Daha sonra isə o, adı çəkilən yerlərdə, daha dəqiq desək, şəraitdə olarkən nə etmək lazım gəldiyini lakonik şəkildə göstərməyə keçir.

Sun-tszı səpələnmə yerində vuruşmağı təklif etmir. Bu məsləhət nə deməkdir? O mənanı verirmi ki, ərazinə soxulmuş düşmənlə vürüşma? Bu, ilk baxışda belə görünə bilər.

Ola bilməz ki, o, müqavimət göstərməmək taktikasını nəzərdə tutur. Düşmənlə vuruşmamaq o deməkdir ki, sən öz ölkəni ona döyüşsüz verirsən. Amma Sun-tszı təslim olmaqdan yox, mübarizədən danışır. Yəqin ki, onun bu sözlərinin mənası nə isə başqadır.

Çjan Yuy öz sərhədində Sun-tszının bu və digər göstərişlərinə onun U knyazlığının hökmdarı ilə dialoqundan iqtibaslar gətirir. Qeyd edək ki, Sun-tszı həmin knyazlıqda xidmətdə olmuşdu və bu traktatı hökmdar üçün yazmışdı. Bu dialoq knyaz və onun strategiyaçısı ilə söhbətdən ibarətdir. Bu söhbət zamanı traktatda toxunulmuş məsələlər diqqət mərkəzində olub və guya bu mükalimə knyaz Sun-tszının traktatını oxuduqdan sonra baş verib. Təfsirçilərin bu dialoqu göstərdikləri mənbə məlum deyil; mümkündür ki, bu, müəllif Sun-tszının özünü traktatın ayrı-ayrı yerlərini izah etməyə sövq etdiyi hansısa qədim təfsirdən götürülmüş fraqmentdir. Hər halda, bu iqtibaslar Sun-tszının qısa dediklərinə yaxşıca aydınlıq gətirir və Çjana minnətdar olmağa dəyər ki, o, ixtisarlar də olsa bu naməlum şərhi verib.

Knyaz Sun-tszıdan soruşdu: «Əgər səpələnmə yerində komandirlər və əsgərlər öz evləri haqqında düşünürlərsə, döyüşmək olmazsa, deməli, müdafiə vəziyyətində daha yaxşı möhkəmlənmək və döyüş sahəsinə çıxmamaq lazımdır; amma düşmən mənim sərhəd qalalarıma yiyələnibsə, əgər o, mənim tarla və düzənliklərimi çapıb-talayırsa, mənə ehtiyat toplamağa imkan vermirsə, mənim əsas yollarımı tutubsa və gözləyirsə ki, haçan məndə boşluq yaranacaq, cəsarətlə irəli çıxıb mənə hücum edəcək, mən o zaman nə etməliyəm?

Sun-tszı cavab verdi: «Əgər düşmən mənim torpaqlarımın içərilərinə çox keçəcəksə və öz arxasında çoxlu şəhərlər qoyacaqsa, onun komandirləri və əsgərləri ordunu öz aileləri hesab edəcək, onların fikirləri bir istiqamətə yönələcək və onlar döyüşə çox

asanlıqla gedəcəklər. Mənim əsgərlərim isə öz ölkələrində olaraq, özlərini öz torpaqlarında hiss edəcək, həyat haqqında fikirləşəcəklər və mövqelərdə yerləşərək, möhkəm durmayacaqlar, döyüşə girsələr isə qalib gəlməyəcəklər. Buna görə də lazımdır ki, insanları toplayasan, ordunu fəlmalaşdırasan, bütün taxılı yığaraq, qalalarda müdafiə olunasan və təbii istehkamları olan rayonlarda müdafiə mövqeləri qurub, atlı dəstələri ilə düşmənin təchizat və ərzaq gətirdiyi yolları kəsməyə göndərəsən. Əgər düşmən döyüşə çağırırsa, buna getmək heç cür olmaz. Haçan ki, rəqibin ərzaq və təchizatı kəsiləcək, mənim sahələrimdə isə onun üçün heç nə yoxdur. Düşmənin ordusunda süstlük və aclıq başlayacaq. Belə halda onu tələyə sala bilsən, müvəffəqiyyət əldə edə bilərsən. Əgər döyüş meydanında vuruşmaq istəyirsənsə, üstün mövqelərə söykən. Yaxınlıqda dağlar varsa, pusqu qur. Əgər dağ yoxdursa, bağlı yerlərdə gizlən. O gözləmədiyi halda hücum et və zərbəni köməyi olmayanda vur».

«Dayanıqlı olmayan yerdə dayanma», - Sun-tszı növbəti göstərişini verir.

«Dayanıqlı olmayan yer» dedikdə nə başa düşüldüyü yuxarıda izah olunub. Bu – düşmənin ərazisi olan yerdir, lakin öz sərhədlərin yaxınlığındadır. Bu yeri Sun-tszı ona görə belə adlandırır ki, onun fikrincə əsgərlər bu ərazidə olarkən, evə yaxın və açıq yolu görərək müharibəyə tam şəkildə hazır ola bilməyirlər və burada onların döyüş qabiliyyəti yüksək olmur. Nə üçün bu yerdə çox dayanmaq olmaz?

Mey Yao-çen belə hesab edir ki, bu yerdə, öz sərhədləri yaxınlığında çox gecikmək əsgərlərin dözümsüzlüyünü artırır və bunun qarşısını almaq üçün tezliklə irəli getmək lazımdır.

Çjan Yuy knyaz Xo Lyu ilə Sun-tszının dialoqundan misal gətirir.

Knyaz soruşdu: «O zaman ki, zabitlər və əsgərlər ancaq evə qayıtmaq haqqında düşünür, çətinliklə irəliyə və yüngüllüklə geriyə gedirlərsə, arxada heç bir dağ yoxdursa, bütün ordu qorxur və çəkinirsə, onda nə etmək lazımdır?»

Sun-tszı cavab verir: «Qoşun dayanıqlı olmayan yerdə əsgər və zabitlər hələ bir məqsədə yönələ bilmirlər. Sərkərdənin burada bütün vəzifəsi ondan ibarətdir ki, o, düşmən ərazilərinin içərilərinə getsin və vuruşmasın. Bu zaman düşmənin güclü mühafizə olunan qalalarına yaxınlaşmaq olmaz (Belə ki, bu cür yaxınlaşma zamanı qarşıdurma labüddür və bu, sənin üçün uğurlu ola bilməz. Birincisi, ona görə ki, sən güclü düşmənlə üzləşərsən, ikincisi isə, sənin əsgərlərinin döyüş qabiliyyəti hələ aşağıdır; mümkün uğursuzluq isə sənin döyüş qabiliyyəti hələ aşağı olan əsgərlərinə öldürücü şəkildə təsir edə bilər – N.K.). Düşmənin adi yolu ilə getmə (belə ki, bu yolla hərəkət etmək, ümumiyyətlə, asandır, o ki, qaldı öz ərazisində olan rəqib üçün, o, hər vaxt sənə hücum edə bilər. Bu cür hücum isə səni məğlubiyyətə gətirib çıxara bilər– N.K.), düşməni azdır, özünü elə

göstər ki, guya yolu azmısan, görüntü yarat ki, geriyə dönmək istəyirsən. Özün isə bu vaxt ən yaxşı atlılarını topla, onların ağzına qanıtarğa ver ki, səsləri eşidilməsin (bununla onların danışığı və heç bir səs çıxmasın– N.K.) onları qabağa göndər ki, gedib düşmənin ev heyvanları və quşlarını yığıb gətirsinlər. Ordu bu qəniməti görəndə irəli gedəcək və daha qorxmayacaq. Özünün ən yaxşı əsgərlərini yığ, onları gizlincə pusquda yerləşdir, düşmən görünəndə heç bir tərəddüd etmədən, ona zərbə endir. Əgər o gəlmirsə, bu yeri tərk edib qabağa get».

«Tutula bilən yerlərdə hücuma keçmə»,- Sun-tszının sonrakı göstərişi belədir. Tutulması böyük strateji və taktiki üstünlük verən bu yer mübahisə mövzusuna çevrilir. Buna görə də düşməni qabaqlamaq və yeri birinci tutmaq lazımdır. Əgər rəqib həmin yeri ələ keçiribsə, ona hücum etmək faydasızdır». Sun-tszının məsləhətlərinin mənası budur.

Sun-tszı ilə knyaz Xo Lyunun dialoquna müraciət edək.

Knyaz soruşdu: «Əgər rəqib bu yeri birinci tutub, orada möhkəmlənib və həmin yerin bütün üstünlüklərinə yiyələnibsə, o, özünün ən yaxşı əsgərlərini toplayıb mənə qarşı göndərir, sonra yenidən müdafiə vəziyyətinə keçirsə və beləliklə, mənim ona qarşı təxribatlarıma hazırdırsa, bu halda nə etməli?»

Sun-tszı cavab verdi: «Tutula bilən yerlərin qaydası belədir ki, kim onu tutubsa, kim ona nail olubsa, həmin yeri itirəcək. Düşmən həmin ərazini ələ keçiribsə, səbrli ol, ona hücum etmə. Öz qoşunlarını çevir və özünü tələskənliklə geri çəkilən kimi göstər. Bayraqlarını qaldır, təbilləri vur, o yerə istiqamət götür ki, ora düşmən üçün vacibdir. Çoxlu məşəllər yandır, qatı toz qaldır və düşmənin gözü və qulaqlarını başqa istiqamətə yönəlt. Özünün ən yaxşı əsgərlərini yığ və onları gizlicə pusquda yerləşdir. Rəqib tezliklə sənin «köməyinə» gələcək. O istəyəndə mən verirəm; o atanda mən götürürəm; yerin birinci tutulması və ona sahib olmaq qanunu belədir. Əgər bu yeri mən birinci tutsam, rəqib də taktikadan istifadə edəcək (yəni, mənim üçün vacib olan məntəqəfyə zərbə endirəcək– N.K.). Mən özümün ən yaxşı əsgərlərimi toplamalı və bu yeri möhkəm qorumalıyam, yüngül silahlanmış döyüşçüləri isə düşmənin dalınca göndərməliyəm ki, onu dəstələrə bölərək pusquya salsınlar. O zaman mənim əsgərlərim tərəfindən izlənilən düşmən geriyə dönərək döyüşə başlayacaq və pusqudakılar hər tərəfdən onları mühasirəyə alacaqlar. Bu, tam qələbə qanunudur».

«Qarışma yerində əlaqəni itirmə», - Sun-tszının növbəti çağırışı belədir. Sun-tszı «toplaşma, qarışma yerini» o ərazilər hesab edir ki, buradan hər tərəfə çoxlu yollar gedir və bu yerlər qoşunların keçməsi üçün rahatdır, eləcə də burada hər iki tərəfin hissələri bir-birinə qarışır. Bu cür şəraitdə öz cəbhənin istənilən yerində sənə zərbə vurula və hissələrin bir-birindən ayrı düşə bilər. Sun-tszı, məhz bundan qorunmağa çağırır.

Knyaz soruşdu: «Qarışma yerində mən çalışıram ki, düşmənin əlaqə xətlərini kəsəm və gəlməsinə mane olam. Bunun üçün mən sərhəd qalalarıma öz müdafiəçilərimi gücləndirməyi, düşmənin getdiyi yolları kəsməyə hazır olmağı və öz təbii istehkamlarında möhkəmlənməyi əmr edirəm. Əgər mən bunu düşməndən əvvəl etməsəm, o isə artıq buna hazırlaşıb, əgər o gələ bilərsə, mən gedə bilmiramsə, həmçinin bizim qüvvələrimiz bərabərdirsə, bu zaman və etmək olar?»

Sun-tszı cavab verdi: «Əgər mən gedə bilmirəm, rəqibisə gələ bilərsə, mən öz döyüşçülərimi bölərək onları gizlədərəm. Müdafiə vəziyyətinə keçərək, düşmənə və özümün köməksizliyimə nifrət ifadəsi göstərər, belə görüntü yaradaram ki, heç nə etmək gücündə deyiləm. Düşmən gələndə isə mən pusqu quraraq, əsgərlərimi çöllüklərdəki qamışlıqlarda gizlədərəm. O gözləmədiyi halda mən hücum çəkərək, bu yolla müvəffəqiyyətə nail olaram».

Sun-tszının növbəti göstərişi: «Kəsişən yerlərdə müqavilə bağla» dır.

Yuxarıda da izah olunduğu kimi, «kəsişən yer– yolayırıcı» deyəndə iki döyüşən tərəfin sərhədində yerləşən üçüncü neytral dövlətin ərazisini nəzərdə tutur. Belə yerlərdə elə bil ki, iki düşmənin strateji və diplomatiya yolları çarpazlaşır. Təbiidir ki, belə yerdə həmin o üçüncü dövlətin köməyini əldə etməyə, ya da ki, onun bitərəf dost kimi qalmasına çalışmaq lazımdır.

Yenidən dialoqa müraciət edək.

Knyaz soruşdu: «Kəsişmə yerində ən vacib şərt düşməni qabaqlamaqdır. Əgər bu yerə yol uzaqdırsa, mən gecikmişəmsə və atlarımı var gücü ilə oraya çapsam da düşməndən tez çata bilməyəcəyəmsə, onda nə etmək olar?»

Sun-tszı cavab verdi: «O zaman ki, ərazi hər üç tərəfə məxsusdur və onun yolları müxtəlif tərəflərə aparır, bu, o deməkdir ki, biz düşmənlə üz-üzəyik, bizim yanımızda isə başqa dövlət yerləşir. Düşməni qabaqlamaq o deməkdir ki, necə olursə-olsun, ondan əvvəl üçüncü tərəfə bahalı hədiyyələr, xoşməramlı elçilər göndərmək və onunla saziş bağlamaq, xoş münasibətlər yaratmaq lazımdır. O zaman qoşunlarım həmin yerə gec gəlsələr də, artıq oradakıların hamısının ürəyi mənimlədir. Mən orada hamının köməyinə arxalanacağam, düşmən isə dəstəyini itirəcək. Yeni ittifaq dövləti ilə biz düşmənin buynuzundan və ayağından tutacaq, təbilləri çalacaq və birlikdə onun üzərinə hücuma keçəcəyik. Onda düşmən çox qorxacaq və bilməyəcək ki, bizimlə necə mübarizə apasın».

Sun-tszının bu cavabı, ümumiyyətlə, onun doktrinasının bir nümunəsidir. Knyaz «düşməni qabaqlamaq» deyəndə onu başa düşür ki, bu hərəkət qonşu dövlətlə ittifaqdır, onun köməyi ilə düşmənə təzyiq edilir və yaxud da ki, rəqibin ərazisi birbaşa zəbt olunur. Buna görə də, düşmənə bu imkanı verməmək üçün onu qabaqlamaq lazımdır. Knyaz Xo Lyu Sun-tszının bu göstərişini belə

başa düşdü. Sun-tszının cavabı şəhadət verir ki, traktatın müəllifi bu məqsədə çatmaq üçün digər yolları– diplomatik çəkişmə, pulla ələ almanı da məqbul hesab edir. Bütün bu imkanlar cəbbəxanası lazımi səmərə verməklə yanaşı, həmin yerə birinci gəlmiş düşmənin qazandığı uğurları heçə də endirə bilər. Sualın bu cür qoyuluşu Sun-tszının baxışları ilə Çjan Yuyun iqtibas gətirdiyi dialoqun mənasını və traktatda əks olunmuş fikirləri təsdiq edir.

«Ciddi vəziyyət yerində qənimət var»,- deyir Sun-tszı. Müəllifin izahına əsasən, vəziyyətin ciddiliyi onda yaranır ki, ordu düşmən ərazilərinin içərilərinə çox keçir və özündən sonra rəqibin alınmamış qalalarını saxlayır. Sun-tszı belə düşünür ki, bu cür dərinləşmənin yaxşı və pis cəhətləri var. O, belə hesab edir ki, əsgərlər öz doğma yerlərindən çox uzaqlaşdıqda, yurdları və ailələrini unudur, özlərindən irəlidə və geridə çoxlu düşmən olduğunu başa düşür, ehtiyatlı və sayıq olur, özlərini qələbəyə hazırlayır, yaxşı döyüşürlər. Bu cür dərinə getməyin mənfi tərəfi isə odur ki, belə hallar zamanı öz bazarları ilə əlaqə saxlanması, hərbi sursat və ərzağın gətirilməsi yolları həmişə təhlükə altında qalır. Ona görə də, düşmənin malik olduğu ehtiyatlardan istifadə etmək məcburiyyəti yaranır, Sun-tszının dediyi kimi, soyub-talamaq lazım gəlir.

Çin strateqlərinin heç də hamısı qarşıya belə sərt tələb qoymur. Qədim Çinin hərbi yazıçıları və sərkərdələrinin bəziləri birbaşa əks məsləhətlər verirlər. Məsələn, Sun-tszıdan sonra hərb sənətinin nüfuzlu nümayəndəsi olan U-tszı tamamilə əks göstəri verir: «Sənin əsgərlərin olduqları yerlərdə ağacları kəsməsin, evləri dağıtmasın, taxılı götürməsin, ev heyvanlarını öldürməsin və ehtiyatları yandırmasınlar. Əhaliyə göstər ki, səndə qəddarlıq yoxdur. Əgər özlərini təslim olmaq istəyənlər kimi göstərirlərsə, onlara aman ver və sakitləşdir» (U-tszı, I, 10).

«Sıma fa» nın müəllifi, Çjou hökumətinin baş kanslerinin düşmən ərazisində olan ordunun özünü necə aparması ilə bağlı əmrindən iqtibaslar gətirir:

«Düşmən torpağına daxil oarkən həmin xalqın inanclarını təhqir etmə, onun sahələrində ov etmə, əkinləri, su bəndlərini dağıtma, yaşayış yerlərini yanıdrma, meşələrə girmə, əhalinin əlindən ev heyvanlarını, çörəyini, avadanlığı, alətlərini alma. Əgər qoca və uşaq görürsənsə, onları hörmətlə evlərinə ötür, onlara heç bir xətər toxundurma. Əgər sənlə, hətta yeniyetmə üzləşibsə və müqavimət göstərmirsə, onu düşmənin hesab etmə. Əgər sənin düşmənin yaralıdırsa, onu müalicə et və evinə burax» («Sıma fa», I f., s.6).

Çjou çarlarının rəsmi siyasəti belədir və «Sıma fa» traktatının müəllifi bunu təsdiq edir. Beləliklə, Sun-tszının «soy, tala!» nəsihəti qədim Çində heç də mübahisəsiz deyil. Düzdür, Sun-tszı bu nəsihəti şərtlərlə verir: «Soyğunçuluğu öz ərzaq ehtiyatın qurtaranda və onun gətirilməsi yolları kəsiləndə, ordu aclıq çəkəndə et». Başqa cür

desək, əhalinin talanması o vaxt məsləhət görülür ki, başqa çıxış yolu yoxdur. Bu şərt onun əvvəl dediyinin ümumi mənasını bir qədər zəiflədir. Digər tərəfdən isə o hal xarakterikdir ki, U-tszı «soyma» göstərişini ancaq düşmən əziləndən sonrakı halda verir.

Sualın başqa cür həlli də var. Artıq Çjou dövründə, görünür, elə sərt rəsmi idarəetmə üsulları işlənib hazırlanmışdı ki, bu, qədim və orta əsrlər Çininin hökmdarları üçün də xarakterik idi. Əhali onlar tərəfindən verilən mənəvi-əxlaqi prinsiplərə dair bəyanatları çox eşitmişdi. Bu istiqamətdə çar sülalələri dövründə hakimiyyətin siyasətinə rəhbərlik edən konfusionlar fəal surətdə işləyirdilər. Bu, onlara həyatda da qəddarlıq göstərməyə mane olmurdu.

Ciddi vəziyyət yerində yaranan hallar təkcə onunla məhdudlaşmır ki, ordu öz təchizat bazarlarından aralı düşür. Sun-tszının knyaz Xo Lyu ilə dialoqunda bu yerdə hansı çətinliklər, təhlükələrin ola biləcəyi və ondan çıxış yolları göstərilir.

Knyaz soruşdu: «Vəziyyətin ciddi olduğu yerdə mən özümdən arxada düşmənin möhkəmləndirilmiş şəhər və kəndlərini qoymuşam, özümün isə təchizat yollarım bağlanıb. Əgər mən evə qayıtmaq istəyirəm, ancaq qayıda bilmirəmsə, nə etməliyəm?»

Sun-tszı cavab verdi: «Ciddi vəziyyət yerində zabitlər və əsgərlər döyüşə yüngüllüklə gedir və hüñərlə vuruşurlar. Əgər yük gətirmək mümkün deyilsə, qarət et və beləliklə, özünə ərzaq topla. Tabeçiliyində olanlar götürdükləri çörək və geyimlərin hamısını rəislərinə təhvil verməlidirlər. Əgər kim çox gətiribsə, onu mükafatlandırmaq lazımdır. Əgər evə qayıtmaq istəyirsənsə, öz mövqelərində qazmaları dərinləşdirməyə, səngərlərin önünü hündürləşdirməyə başla, görüntü yarat ki, hələ burada çox qalacaqsan. Gedəndə isə elə et ki, rəqib sənin açıq yolla gedəcəyini zənn etsin, sən özün dağlıq yerdən get. Cəng arabalarının başçılarına əmr et ki, atlarının ağzına qantarğa vursunlar (yəni, tam səssiz getsinlər N.K.). Sıx toz qaldır (aldadıcı istiqamətdə– N.K.), öz atların və öküzlərindən düşmən üçün qənimət kimi saxla (bu məqsədlə ki, rəqibin başı bu qəniməti götürməyə qarışsın– N.K.). Əgər düşmən görünsə və təbilləri çalıb sənin arcxanca gəlsə, öz döyüşçülərini gizlincə pusquda oturt və onlara şərtləndirilmiş siqnal ver. Əgər bu cür, içəridən və bayırdan, razılaşdırılmış şəkildə hərəkət edilsə, qələbəyə əmin olmaq mümkündür».

«Yolsuz yerdə get»– məsləhət görür Sun-tszı. Bu məsələ də Sun-tszının knyazla söhbətində izah olunur.

Knyaz soruşdu: «Mən dağlardan və çaylardan, sıldırım və yarğanlaprdan, çətin yollardan keçirəm, uzun müddət gedirəm və mənim əsgərlərim yorulub, məndən qabaqda düşmən, arxada isə pusqu, solda boz səhra var, sağdan isə o, məni gözləyir. Onun ən yaxşı cəng arabaları, şux atlıları mənim getmək istədiyim dar keçidi bağlayıb, belə olan halda nə etmək olar?»

Sun-tszının cavabı bu idi: «Hər şeydən əvvəl lazımdır ki, cəng arabalarını irəli buraxıb, ordudan on milədək aralıda saxlayıb, düşmənin gözətçi dəstəsinə qarşı gözətçi qoyasan; sıldırım və yarğan olan yerdə bir-birinə kömək edəsən. Öz ordunu iki hissəyə bölüb, onları gah sağa, gah da ki, sola istiqamətləndirmək lazımdır. Sərkərdə özü isə hər yeri gözdən keçirərək düşmənin harada boş yeri olduğunu müəyyən etməli və o yerləri tutmalıdır. Yarıyolda bütün dəstələri birləşdirmək lazımdır. Əgər onlar çox yorulublarsa, dayanıb nəfəs dərmək lazımdır».

«Mühasirə yerində başa düş»,- deyir Sun-tszı.

Onun əvvəlki sözlərindən göründüyü kimi, Sun-tszı ətrafı meşə və dağlar, keçilməyən, yalnız irəliyə gedən dar yolu olan və bu yolun da düşmən tərəfindən tutulduğu yeri mühasirə yeri adlandırır. Bu halda nə etmək lazımdır?

Sun-tszı hesab edir ki, bu mühasirədən güc tətbiq etməklə çıxmaq olmaz. Belə şəraitdə, hətta kiçik bir dəstə böyük ordunu əsir ala bilər. Əlbəttə ki, burada sayın çoxluğundan danışmağın heç bir əhəmiyyəti yoxdur. Silah cəhətdən də üstün olmaqdan söhbət gedə bilməz. Qalır bircə çarə yaradıcılıq və biclik. Sərkərdə də ona işarə edir: «düşün, başa düş».

Knyaz soruşdu: «O zaman ki, məndən irəlidə düşmən, geridə keçilməz qayalar var, düşmən də təchizat yollarını kəsib və mənə özünü geriyə çəkilən kimi göstərir, təbilləri çalaraq, hərbi əmrlər verir, lakin yerindən tərpənmir, müşahidə edir ki, mənim qüvvələrim neçədir, onda nə etməli?

Sun-tszı cavab verdi: «Mühasirə yerində bu çıxışı bağlamaq, (elə bil ki, düşmən tərəfindən verilən– N.K.) öz qoşununa göstərmək lazımdır ki, getməyə imkan yoxdur. Belə olan halda bütün ordu bir ailəyə çevrilir və on minlərlə insanın ürəyi bir yerdə vurmağa başlayır, ordu vahid qüvvə olur. Gərəkdir ki, heç bir od və tüstü görüntüsü yaratmadan bir neçə günlük yemək bişirilsin (bununla düşməndə belə bir fikir yaradılır ki, guya məndə ərzaq tükənib– N.K.). Qəsdən özündə qarışıqlıq yaratmaq və göstərmək lazımdır ki, guya səndə güc azalıb və zəifləyib. Məndəki belə vəziyyəti görən düşmən ehtiyatsızlığa yol verəcək və bu zaman əsgər və zabitlərini ruhlandırmaq, onalrda qəzəb və çılğınlıq yaratmaq, ən yaxşı əsgərləri düşmənə qarşı qoymaq, qalanlarını pusquda yerləşdirmək; elə yer seçmək lazımdır ki, sağda və solda dağlar və yarğanlar olsun, belədə təbilləri çalıb hücuma keçmək lazımdır. Əgər düşmən güclü zərbə endirsə və mənim cərgələrimi pozmağa cəhd göstərsə də, mən irəlidə və geridə vuruşacaq, solda ayaqlarımla, sağda isə buynuzlarımla hərəkət edəcəyəm».

Sun-tszı mühasirə yerindən bu cür çıxmağı məsləhət görür. Burada səni hiyləgərlik və qeyri-adi mətinlik xilas edə bilər. Lakin sərkərdə təkcə onu bilməli deyil ki, bu vəziyyətdən necə çıxmalıdır,

o, belə vəziyyətə düşmüş rəqibin oradan çıxmasına imkan verməmək yollarını da bilməlidir.

Knyaz soruşur: «Bəs, düşmən mənim mühasirəmdədirsə, pusqu qurubsa və yeni-yeni yollar düşünür, məni guya mənfəətlə aldadırsa; mənim hərəkətlərimi öyrənir, lakin özünü elə göstərirsə ki, onda tamamilə nizamsızlıqdır, hər şey bulanıqdır, qaynayır, mən də bilmirəm ki, haraya gedim, belə halda nə etmək gərəkdir?»

Sun-tszı dedi: «Min nəfər götürüb onlara bayraq vermək və onların vasitəsilə keçidi bağlamaq lazımdır. Yüngül hissələri irəliyə buraxmaq gərəkdir. Qoy, onlar rəqibi döyüşə çağırsınlar, lakin özləri boş yerə hücum çəkməsinlər. Lazımdır ki, düşmənlə üz-üzə dursun, ondan çəkinməsinlər. Bu, düşmənin planlarının pozulması qaydasıdır».

«Ölüm yerində vuruş»- deyir Sun-tszının son göstərişi. Knyazla Sun-tszının söhbəti zamanı bu fikir tamamilə açıqlanır.

Knyaz Sun-tszıdan soruşdu: «Fərz edək ki, mənim qoşunum öz sərhədlərindən kənara çıxıb və düşmən ərazisində müharibə aparır. Belə hesab edək ki, düşmən çox sayda gəlir və bir neçə sırası ilə məni mühasirəyə alır. Mən mühasirədən çıxmaq istəyirəm, ancaq hər tərəfim bağlıdır. Öz döyüşçülərimi ruhlandırmaq, onların enerjisini yüksəltməklə, həyatları bahasına mühasirədən çıxmağa göndərirəm, bu halda nə etməliyəm?»

Sun-tszı cavab verdi: «Səngərləri dərinləşdirməyə, istehkamlarını gücləndirməyə başla, özünü elə göstər ki, müdafiəyə keçirsən. Sakitcə dayan, hərəkət etmə, bununla özünün gücünü gizlət. Orduya müraciət et və bildir ki, heç bir çıxış yolu yoxdur. Öküzləri kəs, arabaları yandır, qoşun üçün son yeyib-içmək məclisi qur. Ərzağın hamısını yandır, quyuları torpaqla doldur, yemək qablarını və qazanların hamısını vur əz. Başları qırxdır, papaqları kənara at. Qoy hamı həyatdan əlini üzsün. O zaman ki, sərkərdə başqa heç nə fikirləşə bilmir, onun əsgərlərində yalnız ölmək arzusu yaranacaq. Bu zaman onlar öz tiyələrini təmizləyəcək, qılınclarını itiləyəcək, öz ruhlarını birləşdirəcək, qüvvələrini bir məqsədə yönəldəcəklər. Onlar iki tərəfdən düşmənin üstünə atılanda, təbillər çalınanda və qeyri-adi səslər çıxaranda düşmən vahiməyə düşəcək və necə müdafiə olunacağını bilməyəcək. Bu zaman yaxşı əsgərlərini yığıb cəld zərbə vurmaq üçün düşmənin arxasına göndər. O zaman yolu itirəcək, amma həyatı tapacaqsan. Buna görə də deyilib: «Kim ki, çətin vəziyyətdə qalıb, heç nə fikirləşə bilmir o, çıxılmaz vəziyyətdədir, kim çıxılmaz vəziyyətdə olanda döyüşə bilmirsə, o məhv olacaq».

Sun-tszının yer haqqında bilikləri bir xarakterik cəhəti ilə fərqlənir. Yerin əhəmiyyətini müharibə amillərindən biri kimi yüksək qiymətləndirən Sun-tszı qeyd edir ki, bu və ya digər şərait hərbi əməliyyatların aparılması üçün yaxşı vəziyyət yarada, eləcə də qoşunu çətin vəziyyətlərdə qoya bilər. Ancaq Sun-tszı yerin

əhəmiyyətini həddindən çox qiymətləndirmir, bu amilə həlledici amil kimi baxmır. Yaxşı yerləşmək üçün üstünlük verən yerlərdən danışan Sun-tszı bəyan edir ki, «yerin şəraiti– sərkərdəyə ancaq köməkdir, yəni dolayı imkandır. Əsas o deyil, əsas taktiki və strateji mədəniyyətdir. Bu mədəniyyəti başa düşməyən sərkərdəyə, hətta ən faydalı şərait belə, heç nə verə bilməz. Bu, faydasız yerlərdə də belədir. Bir qədər əvvəl Sun-tszı ordunu çətin və təhlükəli vəziyyətdə qoya biləcək yerləri sadaladı. Bununla yanaşı, Sun-tszı bu şəraitin növlərindən danışarkən, hər bir halda çətinlikdən çıxılması yollarını göstərir və traktatın oxucusunu da bununla əlaqədar məlumatlandırır. İndicə deyildiyi kimi, Sun-tszı bu yolları həmişə sərkərdənin taktiki və strateji mədəniyyətində axtarır. Buna görə də, Sun-tszı düşmənlə müxtəlif şəraitdə döyüş aparmaq taktikası haqqında biliklərini sərkərdənin taktiki mədəniyyətini xarakterizə edən sözlərlə yaxşılaşdırır.

Nümunə üçün o, qədim dövrlərdə əsl sərkərdə kimi tanınan şəxslərin adını çəkir. Əgər bir sözlə ifadə etsək, onların taktikası nədən ibarətdir? Sözün geniş mənasında desək– düşməni parçalamaqdan. Sun-tszı yalnız bu parçalanmanın bir neçə əsas əlamətini sayır: bunlardan bir qismi onun sırası, bir qismi isə mənəvi vəziyyəti ilə bağlıdır. Əsl sərkərdələr qədimdə «belə etməyi bacarırdılar ki, rəqibin ön və arxa hissələri bir-biri ilə əlaqə qura bilməsin, iri və kiçik birləşmələr bir-birini müdafiə edə bilməsinlər». Qoşun yuxarılardan və aşağılardan, yəni zabitlərdən və əsgərlərdən ibarətdir. Müharibə vaxtı orduda onlar arasında hansı qarşılıqlı münasibətlər mövcuddur? «Generallar və böyük komandirlər zabit və əsgərləri qoruyur, onları düşmənin zərbələrindən ağılları və strateji mədəniyyətləri ilə müdafiə edirlər. Zabitlər və əsgərlər isə özlərinin general və böyük komandirlərini düşmənin zərbələrindən mərdliklə və cəsarətlə qoruyurlar»,- izah edir Soray (sit. əsər. 277-ci səh.). Sun-tszı belə hesab edir ki, keçmişdə kamil sərkərdə işi elə qururdu ki, «alilər və aşağılar (rəqibdə– N.K.) bir-birinə kömək etmək iqtidarında olmurdular; yuxarıdakılar və aşağılar bir-biri ilə birləşə bilmirdilər», yəni bir-birlərinə kömək edə və bir orqanizm kimi hərəkət etmək imkanından məhrum edilirdilər. Qoşun o zaman güclüdür ki, bir tam kimi birləşir və vahid orqanizm kimi hərəkət edir. Bacarıqlı sərkərdə elə edirdi ki, rəqibin qoşunu tamlıq vəziyyətində olsa da, «bir olmasın». Hesab olunurdu ki, qədimdə əsl sərkərdələr bu cür fəaliyyət göstərirdilər və Sun-tszı da öz dövrünün sərkərdələrini – onların ənənələrini davam etdirməyə çağırır. Əsası budur– «onda hərəkət et ki, fayda görünür, fayda yoxdursa, hərəkət etməyə dəyməz, yerində qalmaq məsləhətdir». Sun-tszı sərkərdənin taktiki mədəniyyətinin xarakteristikasını bu cür ümumi vəziyyətlərlə başa çatdırır.

Bununla belə, Sun-tszı başa düşür ki, heç də bütün düşmənləri o saat və asanlıqla parçalamaq olmaz. Rəqibin ordusu

çoxsaylı, bir-birinə bağlı və yaxşı təşkil edilmiş olar «Əgər düşmən çox sayda və tam qaydasındadırsa, onu necə parçalamalı?»- deyə Sun-tszı özü-özündən soruşur.

Onun cavabı çox sadədir: «Düşmən üçün nə gərəklidirsə, ilk olaraq onu ələ keçir. Əgər ələ keçirsən, o, sənə tabe olacaq», yəni təşəbbüsü əldən verəcək, fəaliyyət azadlığını itirəcək və öz rəqibinin xeyrinə işləmək məcburiyyətində qalacaq.

«Onun üçün nə gərəklidirsə» deyəndə nə başa düşülür? Təfsirçilər bunu müxtəlif cür başa düşürlər və hər birisi özü-özlüyündə haqlıdır. «Onun üçün nə gərəklidirsə»- bu, düşmənin bu və digər səbəbdən lazım bildiyi hər şeydir. Sun-tszı qəsdən bu fikrə ən ümumi düstur verir ki, onunla mümkün olan bütün halları əhatə etsin. Düşmən üçün əziz olan vətəndə qoyduqları: ailəsi, doğma yerləri, babalarının qəbirləri; ona gərəkli olan istehkamlar, özünə xidmət edən dayaq məntəqələri, paytaxtı, onu təchiz edən istənilən baza, kommunikasiya vasitələridir. Sun-tszı qeyd edir ki, düşmən üçün əziz olan onun öz rəqibinə vermək istəmədiyi hər şeydir. Buna görə də, Sun-tszı təklif edir ki, düşmən üçün ən əziz olan tutulsun. Bununla düşməni öz planlarından əl çəkməyə, təhlükədə olan şeyi geri almaq üçün atılmağa məcbur etmək olar. Bütün bunlarla düşmən öz sərbəstliyini itirir, öz hərəkətləri ilə öz rəqibinin əlinə keçir. Bu isə ən yaxşı şəkildə onu gücsüzləşdirir. Belə halda o, «sənə itaət edəcək»,- deyir Sun-tszı. Bu halda «Sən istədiyinə nail olacaqsan»,- söyləyir Tsao-qun. Beləliklə, «düşmənin hər hərəkəti və fəaliyyəti sənə tabe olacaq», - təsdiqləyir Tsyuan. «Düşmən güclü olsa da, onun bütün hərəkətləri və fəaliyyəti, qələbə və məğlubiyyəti səndən asılı olacaq»,- bəyan edir Du Mu. «Rəqib sənin planların üzrə hərəkət etməyə bilməz»,- bildirir Çjan Yuy. «Bundan sonra sən düşməni parçalanmaya gətirib çıxara bilərsən»,- qərar verir Mey Yao-çen. Sun-tszı və onun təfsirçiləri bu fikri beləcə genişləndirirlər. Lakin Sun-tszı belə halda sərkərdədən mütləq bir şərti tələb edir– cəldliyi. Əgər burada söhbət ondan gedirsə ki, gərəkli, əziz olan yer düşmənin öz ərazisində yerləşir, oraya tez çatmaq lazımdır ki, təhlükəni dəf edə, özünü güclü və yaxşı təşkil olunmuş düşmənin hücumlarından qoruya biləsən. Əgər söhbət mənim ərazimdə yerləşən və düşmən üçün gərəkli olan yerdən, (məsələn, hər hansı bir rayona girmək üçün açar rolunu oynaya bilər), onu tuta biləcəyi halda böyük üstünlüyə malik ola biləcəyi mövqedən gedirsə, oranı tezliklə bütövlükdə öz qoşunlarımla tutmalıyam. Bu hərəkət cəldliyini Sun-tszı ümumilikdə hərbi fəaliyyətin əsas prinsipi hesab edir: «Müharibədə ən əsas şey cəldlikdir»,- deyir və aydınlaşdırır ki, ilk növbədə hər şey bu cəldliyə istiqamətləndirilməlidir. «O şeyə yiyələnmək lazımdır ki, düşmən çatmağa vaxt tapmayıb; o yolla getmək lazımdır ki, rəqibin ağlına gəlmir, o yerdən hücum etmək gərəkdir ki, düşmən oradan təhlükə gözləmir».

Sun-tszının davamçıları da müharibədə cəldliyə olduqca böyük əhəmiyyət verirdilər. Onların çoxu bunu müharibənin ali qanunu hesab edirdi. Çjan Yuy da onunhaqqında müharibənin aparılmasının ali, «ilahi» prinsipi kimi danışır».

Bəs, cəldlik nə verə bilər? Əgər bu cəldlikdə «ona yiyələnirlər ki, düşmən ora çata bilməyib, o yolla gedirlər ki, düşmənin ağlına gəlmir, o yerdən hücum edirlər ki, düşmən onu gözləmir»sə bundan nə əldə etmək olar? Çjan Yuy buna cavab verir: o, zaman «düşməndə qorxu və təlaş yaranacaq, o parçalanacaq və dağılacaq; onun ön və arxa hissələri bir-birinə kömək edə bilməyəcək». Başqa sözlə desək, Sun-tszının bir qədər əvvəl söylədiyi kimi, qədimdə əsl sərkərdələrin əldə etdiyi qələbəyə çatmaq, rəqibin o imkanlarına yiyələnmək olar ki, özü üzərində qələbəni təmin etsin.

Bu fəslin ikinci bölməsi qələbənin həlledici amili olan cəldliyin halları ilə sona çatır. Növbəti bölmə xüsusi mövzuya – başqasının ərazisində gedən müharibəyə həsr olunub. Sun-tszının terminologiyasında bu «qonaqla müharibə adlanır». Bu termini başa düşmək asandır. Mənim ərazimə basqın edən rəqib orada «qonaq» sayılır, əlbəttə ki, çağrılmamış və dəvət olunmamış qonaq. Mən isə bu yerin yiyəsi kimi burada «ağayam». Əlbəttə, öz ərazimdə və düşmən ərazisində müharibənin strategiyası və taktikası başqa-başqadır.

Sun-tszı bu məsələnin aydınlaşdırılmasına özünün əvvəlki fikirləri ilə əlaqəli şəkildə başlayır.

«Ümumiyyətlə, qonaq qismində müharibə aparmağın qaydaları ondan ibarətdir ki, düşmən ərazilərinin içərilərinə çox daxil olaraq, öz bütün gücünü və fikrini bir yerə cəmləşdirirsən və o zaman həmin yerin sahibi sənə üstün gələ bilməz».

Görmək çətin deyil ki, burada söhbət «ciddi vəziyyət yerinə» xarakterik olan şəraitin yaranmasından gedir; Sun-tszı bunu düşmən ərazilərinin dərinliklərinə gedərkən yaranmış müharibə arenası adlandırır. Onun fikrincə, düşmən ərazilərinin bu qədər içərilərinə getmək öz əsgərlərini ev, ailə düşüncələrindən ayırır və məqsədi bir istiqamətə yönəldir, mübarizədə qələbə əzmini artırmaqla öz-özlüyündə həm də evə yol açır; buna görə də, düşmən ərazilərinin dərinliklərinə getmək onun ölkəsində müharibə aparmağın birinci şərtidir.

İçərilərə keçərkən nə etməyin lazım olduğunu Sun-tszı artıq deyib. Hər şeydən əvvəl o, göstəriş verib ki, ordunun ərzaq təminatını yaxşılaşdırmaq üçün soyğunçuluq etmək lazımdır. Bu, öz ölkəndən sursat və ərzaq gətirilməsi çətinləşdikdə, yollar bağlandıqda zəruridir. Bununla yanaşı, Sun-tszı artıq bir dəfə deyib ki, (II fəsildə) öz ölkənin əhalisini, daha doğrusu, kəndliləri məcbur etmək olmaz ki, onlar ərzağı ordu üçün uzağa daşısınlar. Bu, əhalinin yoxsullaşmasına və hətta tam müflisləşməsinə səbəb ola bilər. Buna əsaslanaraq, Sun-tszı müharibənin düşmən ərazisində

aparılması üsullarını göstərərək, bu fikri təkrar edir: «Dolu tarlaları qarət edərək, öz ordun üçün kifayət qədər azuqə topla».

Bu hal Li Vey-qunun «Dialoqlar» əsərində də özünəməxsus şəkildə işıqlandırılıb. Sun-tszı bu məsələni düşmən ərazisində, özünün dediyi kimi təklif edir. Li Vey-qun bu qaydaya riayət etməklə qonaqdan ağaya, sahibə keçmək imkanı görür.

Tay-tszın dedi: «Müharibə sahib olmağa üstünlük verir və uzunmüddətlilik halını sevmir. Bu nə deməkdir?»

Li Vey-qun cavab verdi: «Müharibəyə o vaxt başlayırlar ki, bu, qaçılmazdır. O, qonaq vəziyyətində olmağı və uzun müddət davam etməyi necə seva bilər?» Sun-tszı söylədi: «Əgər ərzaq uzağa aparılırsa, kəndlilər yoxsullaşır. Bu bədlik yaradır». Bundan başqa o, dedi: «Orduya ikinci dəfə səfərbərlik etmirlər, ərzağı ikinci dəfə toplamırlar». Bu onu göstərir ki, müharibə uzun müddət davam etməməlidir. Bununla belə, sahib və qonağı qarşı-qarşıya qoyaraq, mən qonağı sahibə, sahibi qonağa çevirmək imkanlarını görürəm».

Tay-tszın soruşdu: «Bəs, bu necə olur?»

Li Vey-qunun cavabı belə oldu: «Əgər rəqibin hesabına təchiz oluna bilirsənsə, bu, qonaqdan sahibə keçməkdir. Əgər özün tox olacaq, düşməni isə aclıq çəkməyə məcbur edə, özün yeni qüvvəli, rəqibini yorğun edə biləcəksənsə, bu, sahibin qonağa çevrilməsi deməkdir. Buna görə də, müharibə sahib və ya qonaq olmaqdan yox, cəld və asta olmaqdan asılıdır. Bir şey vacibdir; bir işi başlamaq üçün, zəruri yerə düşə bilərsən. Bu da ki, necə lazımdır elə hərəkət etmək qaydasıdır» (Li Vey-qun venduy, II hissə, s. 49).

Sonra Li Vey-qun qonaqdan sahibə və əksinə olan çevrilmələrlə bağlı misallar gətirir. Birinci misal U və Yue knyazlıqları arasında müharibə ilə bağlıdır. Yue qoşunları U knyazlığının ərazilərinə hücuma keçərək, qonaq vəziyyəti tutdular. Lakin onlar vəziyyəti ələ ala bildilər. Yue knyazı özünün cinah hissələrini ayıraraq onları rəqibin cinahlarına zərbə vurmağa göndərdi. İki tərəfdən düşmənin yaxınlaşdığını görən U knyazı öz qüvvələrini iki hissəyə böldü və hücumu dəf etmək əmri verdi. Bu vəziyyətdən istifadə edən Yue knyazı öz yanındakı əsas ordu ilə rəqibinə zərbə vurdu və U knyazlığının qoşunları tamamilə məhv edildi. «Bu, qonaqdan sahibə çevrilməklə bağlı nümunədir»,- deyir Li Vey-qun.

Görmək çətin deyil ki, Li Vey-qunun düşüncələri Sun-tszının VI fəsildə dediyi fikirlərə əsaslanır. «...düşməni idarə etmək və onun özünü idarə etməsinə imkan verməmək». Onun fikrincə, hər şey təşəbbüsün kimin əlində olmasından asılıdır. Mən hərəkətlərimi özüm müəyyən edirəmsə, mən müharibədə sahibəm, ağayam; əgər mənim fəaliyyətim kimdənsə asılıdırsa, mən müharibədə qonağam. Bu vəziyyət ərzaqla təminat məsələsinə də aiddir. Əgər ərzağın öz ölkəndən gətirilməsinə göz diksən və onu gözləsən, asılı vəziyyətdə qalacaqsan. Əgər düşmənin hesabına ərzaq ehtiyatı toplasan, bu imkansızlıq aradan qalxar. Sun-tszının termini ilə desək, bu halda

qonaqdan sahibə çevrilirsən. Bununla yanaşı, haçan ki, əhalidən ərzağı alınır, həmin ölkənin sahibi pis vəziyyətdə qalır, yəni ki, qonaq vəziyyətinə düşür. Beləliklə, «qarət et» göstərişi qonaq sifətindən sahib olmağa çevrilmək üçün verilir.

Sun-tszının ikinci göstərişi düşmən ərazilərinin dərinliklərində olanda «öz əsgərlərinin yorulmaması üçün zəruri qayğı» ilə bağlı məsləhətlər haqqındadır. Sun-tszı çox deyib ki, «əldən düşmüş əsgərlərin döyüş qabiliyyəti zəif olur. VII fəsildə o, düşmənin əldən düşmüş döyüşçülərinə qarşı özünün təzə qüvvələrini qoymağı məsləhət görür. Bu nəsihət öz əsgərlərini yorma çağırışı onun fikirlərində həmişə var. Əsgərlərinin gücünü rəqibin ərazisində qoruyub saxlamaq xüsusilə vacibdir.

IX fəsildə Sun-tszı düşməni üstələmək üçün öz qüvvələrini cəmləşdirmək, birləşdirməyin özəlliklərindən danışır. Bu birlik həmişə lazımdır, amma düşmən ərazilərində mübarizə zamanı bu daha zərurdir. Bunun üçün də Sun-tszı deyir: «Onları birləşdir (öz əsgərlərini – N.K.), onların ruhunu və gücünü birləşdir». O, öz ordunun asan idarə olunmasına, onunla lazımi hazırlıq hərəkətləri, «öz imkanların və planların üzrə» istənilən manevrlər etməyə böyük əhəmiyyət verir. Bununla yanaşı, o bir şey idə tələb edir: bu, imkan, say və planlar barədə heç kəs məlumatlı olmamalıdır.

Tam yəqinliklə bunlar təkcə düşmənə deyil, öz əsgərlərinə də aiddir. «Sərkərdə... həmişə təmkinli və bununla da başqaları üçün qapalı olmalıdır»,- bir qədər alçaqdan deyir Sun-tszı. Bunu söyləyərkən o, çox yəqin ki, bütün şeylərdə qapalılığı nəzərdə tutur. Bundan başqa, operativ əməliyyatın planı da çox ciddi şəkildə, hətta öz qoşunların daxilində gizli saxlanılmalıdır.

Sun-tszı bir qədər əvvəl «ölüm yeri» anlayışını bizim diqqətimizə çatdırırdı. Onun fikrincə, əsgərlər çıxılmaz vəziyyətə düşdüklərini, ölümə məhkum olunduqlarını gördükdə, tərəddüdlərini igidliklə əvəz edərək, var gücləri ilə vuruşurlar. Bu vəziyyətlə onlar düşmənləri üçün qorxuludurlar. Bunun üçün də Sun-tszı VII fəsildə birbaşa deyir: «Əgər rəqib çıxılmaz vəziyyətdədirsə, onu sıxma». O, hesab edir ki, düşmən ərazinin içərilərindədir, öz əsgərlərini atmaq lazımdır, belə yerdə, harada ki, çıxış yolu yoxdur, onlar öləcəklər, amma qaçmayacaqlar». Onlar qaçmayacaq, duşməni öldürəcəklər. «Əgər onlar ölümə getməyə hazır olacaqlarsa, qələbəyə necə nail olmamaq mümkündür? Döyüşçülər də, digər insanlar da belə vəziyyətdə öz güclərini tam toplayırlar...» Qısa desək, ordunun düşdüyü belə vəziyyət onun döyüş qabiliyyətinin yüksəlməsinin rəhnidir. «O zaman ki, əsgərlər ölüm təhlükəsinə məruz qalırlar, onlar heç nədən qorxmurlar; haçan ki, onların çıxış yolu yoxdur, möhkəm dayanırlar».

Sun-tszı xatırladır ki, ehtiyatlılıq, öncəgörmə necə böyük əhəmiyyət kəsb edir; o, həmişə məsləhət görür ki, bu və digər

vasitələrlə düşmənin sayıqlığını azaltmaq və onun üzərinə pis müdafiə olunduqda hücum etmək lazımdır.

O, həmçinin, orduda tam razılaşmanın, həmrəyliyin vacibliyinə də diqqət yetirir. Lap əvvəldə Sun-tszı belə bir tələb irəli sürürdü ki, sərkərdə öz təltif və cəzalarında ciddi olmalıdır ki, öz tabeçiliyində olanların sarsılmaz inamını qazansın və bu, sərkərdə ilə əsgərlərinin bütün münasibətlərində məhək daşına çevrilsin. Düşmən ərazilərinin içərilərinə keçdikdə isə «əsgərlər heç bir kənar təsir olmadan ehtiyatlılıq göstərir, qüvvələrini toplayır, öz aralarında mehribanlıq yaradır, heç bir əmr olmadan öz rəislərinə etibar edirlər». Şəraitin gücü bundadır,- deyir Sun-tszı.

Bu şəraitin özü nə qədər əhəmiyyətli olsa da, ona bütünlükla arxayınlaşmaq olmaz. Şərait – sərkərdənin ordunu bu və digər məqsədə yönəltmək üçün yaranmış şərtdir. Bu, ancaq şərtdir. Sərkərdənin xüsusi tədbirləri də ona əlavə olunmalıdır. Şərait müəyyənləşdirə bilir, hətta lazımi döyüş əhval-ruhiyyəsi yaradır, lakin bu ruhun düşməsinə imkan vermək olmaz, onu həmişə qoruyub-saxlamaq lazımdır. Bunu necə etmək olar? Yaranmış döyüş əhval-ruhiyyəsini nə poza bilər? Sun-tszı cavab verir: «baxıcılıq».

Yuxarıda xatırlanmışdı ki, qədim Çində baxıcılıq geniş yayılmışdı. Həyatda baş verənlər, həm fərdi, həm də dövlət işləri, o cümlədən müharibələr zamanı baxıcılara üz tutulurdu. Öncəgörmə ilə yanaşı, ulduzlara əsasən fikir söyləmək də dəbdə idi. Bir çox möcüzəli və anlaşılmayan hadisələr ulduzlaşma ilə əlaqələndirilirdi. Belə ki, məsələn, bir rəvayətdə deyilir ki, Tan hökmdarı Li Syao-tun Fu Qunn-yuya qarşı yürüşə çıxmazdan əvvəl qonaqlıq verən zaman, bir kasa şərab birdən qana çevrilir və iştirakçılar bunu döyüş meydanında baş verəcək məğlubiyyət və ölümün göstəricisi kimi yozurlar. Qarşıdakı hadisələrin taleyini göydəki ulduzların hərəkəti və kometalarla da müəyyən etmək olardı. Qarşıdakı taleyi quşların səs-küyü, heyvanların səsi ilə də yozurdular. Yuxugörmə, xüsusi hissiyyat öncəgörmənin etibarlı vasitəsi idi və s. Bir sözlə, hadisələrlə bağlı taleyi müəyyənləşdirmək üçün əlamətlərin çeşidi çox böyük və müxtəlif idi. Sərkərdə bu öncəgörmələrin əsgərlərin psixoloji vəziyyətinə necə təsir etdiyini bilməli və onu öz xeyrinə yönəltməyi bacarmalı idi. Əvvəldə (I fəsil) deyilib ki, Çu hökmdarı Qunn Tszı-sin necə hərəkət edib. Ona göstərəndə ki, «səma süpürgəsi» göydə dəstəyi ilə düşmənə tərəf dayanıb və qələbəni ona vəd edir, Qunn Tszı-sin buna soyuqqanlıqla etiraz edərək, deyib: «Süpürgə ilə döyüşərkən, məhz dəstəyi düşmənə tərəf çevirib, onu döyürlər». Hökmdar heç də kefini pozmadan döyüşə getdi və düşməni darmadağın etdi.

Li Sya-qun da belə elədi, haçan ki, onun şərabı qana döndü, o, təntənə ilə dedi: «Bu– düşmənin qanıdır». Li Sya-qun döyüşə getdi və tam qələbə çaldı. Qədimdə bütün xalqların sərkərdələri bu üsuldan istifadə edirdilər, görünür, Çində də bundan geniş istifadə

olunub. Lakin Sun-tszı daha qəti tədbirlər görməyi təklif edir. Öncəgörmələrin əsgərlərə pis təsir etməməsi üçün Sun-tszı onlara qadağa qoymağı təklif etdi. Bu, ən yaxşı çarədir. «Əgər öncədən deyilənlər qadağan olunsa və şübhələr aradan qaldırılsa, əsgərlərin ağlı ölənə qədər heç yerə döndərilməz». O, ancaq qarşıya qoyulmuş məqsədə– düşməni məhv etməyə yönəldilər.

Sun-tszının bu sözlərini Du Mu yaxşı izah edir: «Xuan Şi-qun («San Lyue»nin müəllifi belə hesab edir ki, m.ö. III əsr) dedi: söhbətləşməni qadağan et, zabit və əsgərlərin döyüşünə dair fərziyyələr söyləməsinə icazə vermə». Bu iqtibaslardan sonra o, əlavə edir. «O, qorxur ki, bununla döyüşçülərin ürəyində boşluq yaranar. Əgər bütün tərəddüd və həyəcan aradan qaldırılıbsa, o zaman əsgər və zabitlərin ürəyində ölənəcən heç bir fikir olmayacaq (döyüş haqqında fikirlərdən başqa– N.K.».

Görünür, o dövrdə ulduzlar əsasən taleyi müəyyən etmək inamına üstün gəlmək olduqca çətin və bəlkə də mümkün deyildi: bu inam qədim Çində insanların təfəkküründə dərin kök atmışdı. Bu inama qarşı mübarizə aparmaq bir o qədər də vacib deyildi. Vacib olan başqa şey idi və bunu Soray göstərir; lazımdır ki, sərkərdənin özü bu deyimlərə inanmasın (sit. əsər. səh. 286). Sorayın bu qeydləri tarixi şəhadətlər əsasında yaranıb. Həqiqətən də, məşhur Çin sərkərdələri yeri gələndə bu cür əlamətlərə inanmır, lazım gəldikdə isə onları ustalıqla öz xeyirlərinə yönəldirlər. Amma hər halda Sorayın bu sözlərində qabaqcadan yozma hallarına nifrət hiss olunur və o dövrün saray mühitində çalışan konfusionlar da bu əməlləri «qara camaat»ın uydurmaları adlandırırdılar. Konfusionlar isə sərkədələri ağıllı və maarifçi adamlar hesab edirdilər. «Elmli, maarifçi sərkərdələr» heç bir ulduz falı, baxıcılıqla barışmırdılar, bunları ancaq cahillər qəbul edirdilər Tay-tszun da belə deyir və onun Li Vey-qun ilə dialoqunda bu barədə danışılır (I fəsil).

«Siz haçansa səmavi hadisələr, zaman və günlər haqqında danışır və deyirdiniz ki, ağıllı sərkərdə onlarla hesablaşır, cahillər isə özlərini bu hadisələrlə əlaqələndirilər. Deməli, onları atmaq olar?»

Məlum olduğu kimi, Li Vey-qun ciddi şəkildə cavab verdi və bunu iki tarixi nümunə əsasında təsdiq etdi ki. Sərkərdələr «münəccimləri»in faydalı hesab etmədiyi hallarda qələbə qazanıblar. Əlbəttə ki, Soray haqlıdır: əsası odur ki, sərkərdə belə əlamətlərə inanmasın.

Amma Sun-tszının bu məsələyə münasibəti bir qədər özünəməxsusdur. İş orasındadır ki, «işıqlı sərkərdələrin» çoxu bu əlamətlərə inanmasalar da, baxıcılığı qadağan etmirdilər. Li Vey-qunun «Dialoqlar» əsərində çox maraqlı bir söhbət aparılır.

Tay-tszun soruşdu: İn-Yanı (əlamətlər sistemi– N.K.) eləcə də, qabaqcadan görməyi və duanı inkar etmək olarmı?»

Li Vey-qun cavab verdi: «Yox. Müharibə– aldatma yoludur. İn-Yana, yozma və dua etməyə gəldikdə isə onların köməyi ilə insanın

hərisliyi və insanın ağılsızlığından istifadə etmək olar. Buna görə də, onları təkzib etmək mümkün deyil» (Li Vey-qun venduy, III f., s. 63).

Bu cavab konfusionun qədim Çin və orta əsrlərin baxıcılığına və ümumilikdə mövhumata münasibətlərinin ən yaxşı təsdiqidir. Bunlar hərislik və cahillik həddidir. Maraqlıdır, Li Vey-qun hesab edir ki, mövhumata insanları ilk növbədə cahillik deyil, hərislik sövq edir. Görünür, qədim çinlilər mövhumatı harasa yiyələnməyə və ölkə tutmağa cəhdin əsas stimulu hesab edirlər.

Li Vey-qun müharibədə bu iki xüsusiyyətdən– hərislik və cəhalətdən istifadə etməyi lazım bilir. «Müharibə– bu, aldatma yoludur»,- o, Sun-tszının sözlərini təkrarlayır. Amma bu bənddə Sun-tszının ardıcılı olan şagird Li Vey-qunun fikirləri müəlliminin fikirlərindən fərqlənir. Sun-tszı müharibə haqqında öz sözünü bu cür genişlikdə danışmağa, baxıcılığa və öncədeyimlərə ona görə imkan vermir ki, əsgərlərinin hərislik və cəhalətdən öz məqsədləri üçün istifadə olunsun. Bununla yanaşı, o, qətiyyətlə hər cür öncədeyimlərin əleyhinə çıxır. Mövhumatdan istifadə etmədən, onunla mübarizə- Sun-tszının fikrincə, bu, sərkərdənin vəzifəsidir. Bu məsələdə Sun-tszı digər Çin sərkərdələrindən və hərb mədəniyyətinin nəzəriyyəçilərindən kəskin surətdə fərqlənir.

Sun-tszının müharibəyə baxışlarına görə, daha bir xüsusi cəhəti var. O, həmişə xatırladır ki, müharibə– ağır zərurətdir və ona o zaman getmək lazımdır ki, çıxış yolu yoxdur. Vəziyyəti əsaslandırmaq üçün Sun-tszı öz traktatında bu barədə az yazmayıb, xüsusilə də II fəsildə. Bu fikirlərinə sərkərdə o qədər sadiqdir ki, hətta müharibəyə gedərkən rəqibi təslim olmağa səy göstərməyə çağırır, nəinki «strateji hücumları ilə» onunla vuruşmağa. Bu barədə o, III fəsildə də danışır.

Müharibəyə bu cür münasibət Çinin digər hərbi yazıçıları üçün də xarakterikdir. Vey Lyao-tszı hətta bu fikrin ifadəsi üçün məxsusi aydın sözlər də tapıb və onu həmişə təkrar edir: «Müharibə– bədbəxtlik aləti, mübarizə– xeyirli işlərin əleyhdarı, sərkərdə– ölüm daşıyıcısıdır. Buna görə də o, tam zərurət yarandığı halda silah qaldırır» (Vey Lyu-tszı, VIII f.). Li Vey-qunun «Dialoqlar»ında Tay-tszun deyir: «Müharibədən böyük bədbəxtlik yoxdur». Bunu nəzərə alan Sun-tszı, insanların döyüşə sevinə-sevinə getməsinə imkan vermir. O, inanmır ki, insanlar müharibə naminə hərşeyi ata, hər şeyi yaddan çıxara bilərlər. O, başqa şey haqqında düşünür: «Əsgərlərin «əşyalar bizə bir daha lazım deyil» söyləməsi o demək deyil ki, onlar əşyaları sevmirlər; «bizə daha həyat lazım deyil» demək isə o mənanı vermir ki, onlar artıq canlarını sevmirlər». Çjan Yuy bununla əlaqədar deyir: «Əşyalar və həyat elə şeydir ki, onları hamı sevir. Əşyaları və həyatı o zaman atırlar ki, onda bu, tam qaçılmazdır». «O zaman ki, hərbi əmr çıxır, zabit və əsgərlərdə, kim oturubsa, göz yaşları yaxalarına, kim uzanıbsa buxaqlarına axıb-tökülür»,- deyir Sun-tszı. Soray bununla əlaqədar bildirir: «Bəzi təfsirçilər söyləyirlər

ki, onlar ölümdən qorxduqlarına görə göz yaşı axıtmırlar. Lakin döyüşçü nə qədər fədakar olsa da, o ölümdən necə kədərlənməyə, həyatına necə heyfsilənməyə bilməz? Bilirsə ki, bu gün onun taleyi həll olunur, o, atasını, anasını, arvadı və uşaqların xatırlayır, hələ heç bir işey edə bilmədiyini düşünərək, kədərlənir və göz yaşı tökür. Bu, insan hissiyatı üçün normal bir haldır» (Soray, sit. əsər. səh. 287). Deyilən sözləri mühakimə edərək, Sun-tszı da hesab edir ki, bu, tam normal haldır.

Öz əsgərlərinin döyüş qabiliyyətinin yüksəldilməsi, döyüş ruhunun necə qaldırılmağı ilə bağlı məsləhət verərək, Sun-tszı döyüşün qaçılmaz olduğu, vuruşmaqdan başqa bir yol olmadığı halda şərait yaradılmasını təklif edir. «O zaman ki, insanlar çıxılmaz vəziyyətə salınıblar, onlar Çjuan Çyu və Tsao Kuy kimi fədakardırlar»,- deyir Sun-tszı; «Hektor və Axilles kimi»,- deyərdi belə halda avropalı.

Sun-tszının fikrincə, şərait hər şeyi həll edir. O, əsgəri fədakar olmağa, onu tükənməz enerji ilə vuruşmağa vadar edə bilər. Şərait orduya daha bir xüsusi özəllik verə bilər. «O kəs ki, müharibəni yaxşı aparır, Syayjana oxşayır. Syayjan– Çanşan ilanıdır. Nə zaman ki, onun başına zərbə vururlar, quyruğu ilə döyüşür, quyruğuna zərbə endirdikdə isə bu ilan başı ilə vurur, onun ortasına zərbə endirdikdə isə o, həm başı, həm də quyruğu ilə vurur».

Çanşan– Çinin beş ən yüksək dağ zirvələrindən biridir. Çanşan ilanı Sun-tszının hesabına obraz kimi Çin dilinə daxil olub və dəlicəsinə müqavimәti, cavab zərbəsinin ildırım sürəti və mütəhərrikliyini, zərbəyə zərbə ilə cavab təmsilini ifadə edir. Sun-tszı bu ilanı «Syayjan» adlandırır. Bu, cəldlik, sürət obrazıdır. Əlbəttə ki, o, ilanın bu cür reaksiyasını xüsusilə qeyd edir.

Sun-tszının fikrincə, ordu da əsl sərkərdənin əlində bu cür olacaq, o sərkərdənin ki, öz əsgərlərinin psixoloji durumunu yaxşı bilir və bu psixoloji vəziyyətə təsir edə bilir.

Çjan Yuy Sun-tszının bu sözlərinə xüsusi hərbi məna verir. O, belə hesab edir ki, Sun-tszı «Çanşan ilanı» obrazı ilə sərkərdənin öz qoşununu elə hərbi nizamda qurmasını istəyir ki, düşmən ona istənilən yerdən zərbə vurduqda, qoşunun digər hissəsi rəqibə əks-zərbə endirə bilsin. «Bu obraz, Çjan Yuy deyir,- hərbi nizamla bağlıdır. «Səkkiz cür yerləşmə planı»nda (Çjuqe Zyanın– N.K.) deyilir: «Aryerqard avanqarda, avanqard isə aryerqarda çevrilir. Dörd baş, səkkiz quyruq olur, lakin rəqiblə toqquşma zamanı hamısı başa çevrilir. Düşmən ortaya zərbə vurduqda isə, baş və quyruq birlikdə onu xilas edirlər». Bu, ordunun bütün hissələrinin cəld və güclü əlaqələndirilməsidir, hansı ki, bir hissə digərinə kömək edir və orduda olduqca yüksək daxili həmrəylik təmin olunur. Çanşan ilanı kimi hərəkət etmək o halda mümkündür ki, əsgərlərin birliyi yüksək olsun və bir hissənin cəld digərinin köməyinə gəlməsi tamamilə avtomatik şəkildə baş versin. Bu, hətta xüsusi əmr olmadan

edilməlidir. Belə zamanında və güclü şəkildə olunan köməyi nə təmin edir? Sun-tszı yenə də özünə inamlıdır. O, dostluq, yoldaşlıq, ideya həmrəyliyi və başqa şeylərdən danışmır. «Çanşan ilanları» ordunu başqa cür edirlər»,- deyir.

«Soruşa bilərəm,- deyə Sun-tszı sual verir,- ordunu Çanşan ilanları kimi etmək olarmı? Cavab verirəm: olar. Axı, U və Yue çarlıqlarının əhalisi bir-birlərini sevmirlər. Əgər onlar çayı bir qayıqda keçsələr və fırtına ilə üzləşməli olsalar, sağ əl sol əli xilas edən kimi bir-birlərini xilas edəcəklər». Bax gör, nə insanları bir-birinə köməyə vadar edir: birinin digərini düşdüyü bədbəxtlikdən xilas etmək. Sun-tszı buna daha çox güvənir, nəinki başqa bir şeyə. «U sakini və Yue sakini bir qayıqdadırlar»- bu obraz Çində çox işlənən atalar sözünə, məcburiyyət və möhkəm həmrəylik təmsilinə çevrilib.

Sun-tszı bu həmrəyliə həlledici əhəmiyyət verir. Yerləşdiyi mövqedə hələ möhkəmlənməyə macal tapmayan qoşun hücum təhlükəsi olarkən, adətən, növbəti imkana əl atır. Məlumdur ki, o dövrdə qoşunda arabalar var idi, döyüş arabaları və yükləri daşımaq üçün iri arabalar. İri arabalar o dövrün zirehi hesab olunan bərk dəri ilə üzlənirdi və bu, düşmənin atdığı ox və nizələrdən qorunmaq üçün edilirdi. Buna görə də daha tez möhkəmlənmək üsulu ilə böyük arabaları dördbucaq şəklində sıx yığır və onların arxasında gizlənirdilər. Əlbəttə ki, Sun-tszı bu üsuldan xəbərdardır, lakin o, bunu etibarlı üsul saymır. «Əgər atları bir-birinə bağlasan, arabaların təkərlərini yerə basdırsan da, Onlara etibar etmək olmaz». Bəs, nə etmək lazımdır? Hünər və birlik lazımdır. Gərəkdir ki, «əsgərlər öz hünərlərində bir olsunlar». Beləliklə, mənəvi-psixoloji amil əsas rol oynayır.

Sun-tszı bunu bir neçə dəfə isbat edib ki, bu amilə necə böyük əhəmiyyət verir. Onun özü və U-tszı üçün bu, ordunun döyüş qabiliyyətinin ən vacib «vint»lərindən biridir. Lakin Sun-tszı düşünmür ki, mənəvi-psixoloji amil öz-özünə yaranır. Onun üçün bu, yaradılandır, tam maddi səbəblərdən doğandır. Sun-tszı deyir: «O zaman ki, güclülər və zəiflər mərdliyə eyni cür köklənirlər, bunu yerin şəraiti tələb edir». Yaranmış şərait qoşunu Sanşan ilanı kimi olmağa məcbur edir; şərait bir-biri ilə düşmən olan U və Yue sakinlərini qarşılıqlı köməyə məcbur edir. Hər şey ətrafdakı vəziyyətdə, kənar şərtlərdədir.

Hansı vəziyyətlərdən söhbət gedir? Bu sualın cavabı aydındır.

Zəruri şərait onda yaranır ki, «ordu çətin vəziyyətə düşüb və bundan çıxış yolu yoxdur»,- deyir Li Tszyuan; «haçan ki, döyüşçülər elə vəziyyətə salınıb və onlara ölməkdən başqa bir yol qalmır»,- deyir Du Mu. Çjan Yuy bunu birbaşa belə adlandırır: «ölüm yerində». Belə şəraitdə əsgərlər «bir əl digərinə etdiyi kimi, bir-birlərinə kömək edəcəklər... Bu, əsl qələbəyə aparan yoldur»,- deyir Du Mu. Əlbəttə ki, söhbət şəraitin əsgərlərin döyüş qalibiyyətinə təsiri və sərkərdənin öz ordusunu hansı şəraitə salması zərurətindən gedir. Bu isə o

deməkdir ki, Sun-tszı şərait amilini mexaniki başa düşmür; iş onda deyil ki, ordu belə şəraitə düşüb, ondadır ki, bu vəziyyətə o, kiminsə düşünülmüş iradəsiylə gəlib. Kimin? Əlbəttə ki, bütün müharibə dövründə ona rəhbərlik edən şəxsin, sərkərdənin iradəsi ilə. Sərkərdə öz ordusunu döyüşün qaçılmaz olması vəziyyəti ilə üzləşdirir, belə halda isə qoşun sərkərdənin əlində idarəolunan alətə çevrilir. «O zaman ki, bacarıqlı sərkərdə sanki ordunun əlindən tutub aparır, elə bil ki, bir adamı aparır, bu, çətin vəziyyətin yaranması və ondan çıxış yolunun olmaması deməkdir». «Belə vəziyyət yarandıqda isə, hamı qeyri-ixtiyari mənim tabeçiliyimə keçir»,- Sun-tszının fikirlərini təfsirçi Mey Yao-Çen davam etdirir. Sərkərdə isə ordunu qələbə istiqamətinə aparır. Ona görə də, «bu inamlı qələbəyə aparan yoldur»,- bu Du Munun fikridir.

Feodal Çininin, Koreya və Yaponiyanın hərb tarixi Sun-tszının planları əsasında fəaliyyət göstərən sərkərdələr haqqında çoxlu misallar çəkir. Bu misallardan biri yaponların Koreyada Kosyu yaxınlığında Bunrokun (1593) hakimiyyətinin ikinci ilində Xideyesinin Koreyaya yürüşü zamanı məğlubiyyətdir.

Konisi Yukinaqanın ordusu Pxenyan yaxınlığındakı döyüşdə Çin qoşunları tərəfindən əzilərək, cənuba çəkildi, lakin Xetiteykan yaxınlığında uğurla vuruşaraq, çinlilərin hücumunu dəf etdi və onları təqib edən dəstələri əsir götürə bildi. Bu müvəffəqiyyətdən ruhlanan yaponlar yenidən hücuma keçmək və ilk olaraq koreyalıların Kosyudakı dağ istehkamlarını ləğv etmək istədilər. Həmin ərazi Seuldan üç Çin mili uzaqlıqda qərbdə yerləşirdi. Koreyalı hərbi rəis bu yeri Sun-tszının vaxtilə verdiyi göstərişlər əsasında seçmişdi. O öz əsgərlərini heç bir çıxış yolu qoymadan, vuruşman zərurəti şəraitində saxlamışdı. Koreyalıların yerləşdikləri ərazinin arxasında böyük çay var idi və bununla da, geri çəkilmə yolu kəsilmişdi; digər tərəflər isə bataqlıqla əhatə olunmuşdu. Bu, tam mənada «ölüm yeri» idi.

Vəziyyəti belə görən Yukinaqa özünün 30 minlik ordusunu cəmi 2300 nəfərlik Koreya dəstəsinə qarşı yönəltdi. Belə görünürdü ki, qələbə tam təmin olunub: Koreyalı hərbi rəis düşünülmüş şəkildə özünü tələyə qoydu. Burada Sun-tszının sözləri yada düşür: «Çıxış yolu olmayanda insanlar Çjyan Çji və Tsao Kuy kimi fədakar olurlar». «Ölüm yerində vuruş», göstəriş verir Sun-tszı və doğrudan da, koreyalılar o qədər yaxşı vuruşdular ki, yapon ordusunu geriyə çəkilməyə məcbur etdilər.

Bu misaldan görünür ki, həqiqi sərkərdə necə böyük əhəmiyyət daşıyır. Sun-tszı məsələni belə qoyur ki, hərbi əməliyyatların nəticəsi son anda məhz sərkərdədən asılıdır. Beləliklə, onun üzərinə qoyulmuş məsuliyyət olduqca böyükdür. Buna görə də, təbiidir ki, onun fəaliyyət tərzi, özünü necə aparması xüsusi tələblərə tabe olmalıdır.

Birincisi, Sun-tszının sərkərdədən tələb etdiyi, onun təmkinli və qapalı olmasıdır. Soray «təmkinli» sözünü tam əsəbsiz, dözümlü, öz hisslərini və düşüncələrini heç nə ilə biruzə verməmək kimi izah edir (sit. əsər. səh. 295). Bu halda başa düşülür ki, nə üçün Sun-tszı bu iki xüsusiyyəti bir-biri ilə əlaqəli verir: birincisi– şərt, ikincisi– nəticə. Sun-tszı o sərkərdə haqqında danışır ki, təmkinlidir və buna görə də başqaları üçün qapalıdır. Daha sonra sərkərdədən intizam tələb olunur və o, bununla da başqalarını nizamda saxlayır. Sun-tszı qapalılıq tələbini xüsusilə qeyd edir. Növbəti sözləri ilə o, bu tələb haqqında ətraflı danışsa da, çox zaman bundan bəhs etmir.

Qapalı olmaq nə deməkdir? Ümumiyyətlə bu, öz məqsəd və planlarını ciddi şəkildə gizli saxlamaqdır. Hərbi sirri qorumaq– hələ qədimdən sərkərdə üçün qoyulmuş tələbdir. Amma Sun-tszı bu tələbi çox geniş şəkildə başa düşür. Hərbi sirri qorumaq heç də öz planlarını və istəklərini gizlətmək deyil, eyni zamanda başqalarını azdırmaq deməkdir. Bununla belə, Sun-tszı başa düşür ki, bütün qoşuna məlum olan hərbi sirr, artıq sirr deyil. Əgər bu sirri bütün zabitlər və əsgərlər bilirlərsə, onu düşmən də bilir. Buna görə də, öz planlarını təkcə rəqibdən deyil, öz ordundan da gizlətməlisən. Yalnız gizlətmək yox, həm də elə etmək lazımdır ki, ordu hər hansı əlamətlər əsasında sənin planını müəyyənləşdirə bilməsin. Bu məsələ sənin planlarını düşməndən gizlətməyindən də vacibdir. Sun-tszı yaxşı başa düşür ki, hərbi sirr haqqında məlumatlar düşmənə sənin öz əsgərlərin vasitəsi ilə sıza bilər. Buna görə də o, fikirləşmədən qətiyyətlə deyir: «Sərkərdə öz əsgər və zabitlərinin gözi və qulaqlarını yanlış istiqamətə yönəltməlidir ki, onlar hərbi sirr haqqında heç nə bilməsinlər». Du Mu Sun-tszının sözlərində çox sadə və dəqiq qayda görür. Onun fikrincə, «Sun-tszı burada o haqda danışır ki, sərkərdə elə etməlidir ki, döyüşçüləri onun əmrlərindən başqa heç nəyi bilməsinlər, onlar kar və kor olsunlar». Mey Yao-çen deyir: «Müharibənin strategiya və taktikasını... yerinə yetirməyə məcbur etmək lazımdır, lakin imkan vermək olmaz ki, onun haqqında bilsinlər».

Sun-tszı üçün həmişə passiv deyil, aktiv fəaliyyət aşılamaq cəhəti xarakterikdir. O, demir ki, «öz fikirlərini əsgər və zabitlərindən gizli saxla», bu passiv tələbdir. Sərkərdə yalnız sirri gizlətməli deyil, o, həm də elə etməlidir ki, bu sirr saxlanılsın: o, başqalarını azdırmalıdır. Bu, aktv tələbdir.

Sun-tszı gizlətmək üçün digər hərəkətlər etməyi də lazım bilir. «O, öz istəklərini dəyişməli, öz planlarında dəyişikliklər etməlidir ki, başqaları onun haqqında düşünə bilməsinlər». Sun-tszı hesab edir ki, bütün ehtiyatlılığa baxmayaraq, hərbi sirr tez-gec açılacaq. Sərkərdənin planlarını onun hərəkətləri ilə başa düşmək olar. Ona əsaslanaraq və ağıllı nəticələr çıxararaq, sərkərdənin planlarını açmaq olar. Sun-tszı hesab edir ki, sərkərdənin niyyətlərini onun durduğu yerlərdən və yerdəyişmələrdən də bilmək olar. Buna görə

də, düşmənin planlarını pozmaq üçün Sun-tszı «öz yerini dəyişməyi və özünə dolayı yollar seçməyi» məsləhət görür. Bütün bunlar «başqalarının sənin planın barədə fikirləşməsinə imkan verməmək məqsədi daşıyır».

Olduqca maraqlıdır ki, qədim Çində sərkərdələr hərbi sirrləri saxlamaq üçün bəzən elə vasitələrdən istifadə edirdilər ki, bu vasitələrdən indi də istifadə olunur. Belə ki, məsələn, hər hansı bir hissə yürüşə göndərilərkən yürüşün marşrutu və məqsədi ondan gizlədilirdi. Bu barədə ancaq müəyyən məsafə keçdikdən, hissəyə verilmiş möhürlənmiş zərf açıldıqdan və oxunduqdan sonra bilmək mümkün idi. Beləliklə, yürüşün birinci mərhələsində hərbi sirr tam təmin olunurdu. Sun çarlığının əsasını qoyan Lyu Yuy öz sərkərdəsi Çju Lin-Şini Şu knyazlığına qarşı yürüşə göndərərkən ona heç bir göstəriş vermədən, möhürlənmiş zərf təqdim edərək, əmr etdi ki, zərfi ancaq qoşun Bodiçena şəhərinə çatanda açsın. Şunun sərhədlərinə üç çay ilə getmək olardı: «daxili», «xarici» və «orta» çayla. Göstərilmiş məntəqəyə çatandan sonra Çju Lin-Şi zərfi açdı və bildi ki, əsas qüvvələri Şu sərhəddinə «xarici» çay vasitəsilə, bir dəstəni «orta» çay boyunca, ən zəifləri isə gəmilərə oturdaraq, oraya «daxili» çayla göndərmək lazımdır. Həmin bu zəif hissələr üçün böyük gəmilər düzəldilmişdi ki, onlara baxanda ordunun əsas qüvvələrinin guya bunlarda olduğu nəzərə çarpsın. Çju Lin-Şi belə də etdi. Düşmən əsas qüvvələrin gəmilərdə gedənlər olduğunu başa düşdü və əsas diqqətini bu istiqamətdə cəmləşdirərək, öz paytaxtı Çen-dunu demək olar ki, müdafiəsiz qoydu və qapıları qalibin üzünə açmış oldu.

Beləliklə, sirr– ümumilikdə müharibənin və ayrı-ayrılıqda hər bir hərbi əməliyyatın aparılmasının əsas şərtidir. Müvəffəqiyyət əldə etməyin ən əsas qaydası isə öz əsgərlərinin var qüvvə ilə vuruşması üçün zərurət yaratmaqdır. Sun-tszı indiyə qədər bu iki şey haqqında ayrı-ayrılıqda danışırdı, indi isə bu iki şərtə bir yerdə baxır.

Sun-tszı qədim Çin sərkərdələrinin öz əsgərləri ilə münasibətləri taktikasını müəyyən edən obrazlı sözləri tapıb. Bu sözlər qanadlı ifadələrə çevrilib və bütün Uzaq Şərqdə işlək sözlərə çevrilib. Bu ifadələrdən biri – «nərdivanları götürün»dür. Qərb aləmində belə halda «gəmiləri yandırın» ifadəsi işlənir.

«Qoşunu aparırkən onu elə şəraitə salmaq lazımdır ki, yüksəkliyə qalxdıqdan sonra nərdivanları yığışdırsınlar «Lazımdır ki, öz əsgərlərinin geriyə yolunu kəsəsən, onları yeganə bir yol qarşısında qoyasan – qabağa, onları qələbədə yalnız bir imkanı görməyə məcbur edəsən. Uzaq Şərqdə deyildiyi kimi, «on min ölüm arasından özünə bir həyat tapmalısan».

«Nərdivanları götürün» ifadəsi, əlbəttə ki, qalaların mühasirəsi təcrübəsindən irəli gəlir. O zaman ki, əsgərlər nərdivanlarla qala divarları üstünə çıxıblar, onları orada düşmənlə gərgin əlbəyaxa

döyüş üçün saxlamaq lazımdır. Mümkün geriyə çəkilmə cəhdlərinin qarşısını almaq üçün sərkərdə nərdivanları yığışdırmaq əmri verirdi.

Sun-tszı «gəmiləri yandırın» ifadəsini də işə salır. Onda üçüncü işlək söz də var: «qazanları əzin». Bu hər üç ifadə bir mənanı verir: «Qoşunu apara və onunla knyazların ərazilərinin içərilərinə gedərkən həlledici fəaliyyətə başlayarkən, gəmiləri yandırmaq, qazanları əzmək və əsgərləri qoyun sürüsü kimi qovmaq lazımdır; onları hara qovursan, oraya gedirlər; onlar bilmirlər ki, hara gedirlər».

Çində olduğu kimi, Yaponiyada da sərkərdələr çox zaman «gəmiləri yandırır» və yaxud da «nərdivanları yığışdırırdılar» ki, əsgərlərini coşğunluqla vuruşmağa məcbur etsinlər. Məsələn, Oun U çaydan keçərkən öz gəldikləri gəmiləri batırmağı əmr etdi və bununla özünün geriyə çəkilmək yolunu kəsdi. Bu üsuldan xüsusilə, də onda istifadə olunurdu ki, sayca çox olan düşmənlə vuruşurdular. Kodzi hakimiyyətinin birinci ilində (1555) Yapon feodalı Mori Motonari çox sayda və güclü silahlanmış Uye Xarukata qarşı mübarizə apararkən həmin üsulu tətbiq etdi. Xarukatun ordusu İçukusuma adasında mövqe tutmuşdu. Motonari öz düşmənini bu yolla məhv etmək fikrinə düşdü. Öz əsgərlərini gəmilərə oturdaraq o, həmin yerə gəldi və əsgərləri sahilə çıxardıqdan sonra, gəmiləri geriyə göndərdi. Geriyə yolun kəsildiyini görən əsgərlər qızğınlıqla vuruşaraq Xarukatın ordusunu darmadağın etdilər.

Bu ifadələrin işığında Sun-tszının gəldiyi «Bütün ordunu yığaraq, onunla təhlükənin içərisinə atılmaq lazımdır; sərkərdənin işi elə budur» nəticəsi aydınlaşır. Çjan Yuy bu sözlərə əlavə kimi deyir: «Qələbə bununla əldə olunur».

Yuxarıda Sun-tszı şəraitin doqquz növünü– doqquz cür yeri müəyyən etdi. Elə oradaca, hansı şəraitdə necə hərəkət etməyin ümumi yollarını göstərdi. İndi isə daha uyğun gələn misallarla düşmən ərazisində əməliyyatın aparılmasının ümumi qaydaları və bu doqquz yerin hər birində mübarizə taktikasının qaydalarını izah edir. O, ilkin olaraq ümumi qeyddən başlayır: «Doqquz cür yerdəki dəyişikliklər, daralma və genişlənmənin faydası, insan hissələrinin qanunları– bunların hamısını başa düşmək lazımdır».

Əvvəlki izahlardan məlumdur ki, Sun-tszı «dəyişikliklərə» necə əhəmiyyət verir. Onun üçün hər bir hadisə öz dəyişikliyi ilə mövcuddur və hər bir halda hadisə məlum mənada öz simasını dəyişir. Buna görə də, yuxarıda sadalanan «doqquz yer», yəni, doqquz şərait növü daimi və dəyişilməz deyil. Onlar da dəyişikliklərə məruz qalır, bu dəyişikliklərlə mövcud olur. Bunun üçün də Sun-tszı özünün qəbul etdiyi qaydalardan hər bir hadisə üçün spesifik olan taktiki üsullara keçərək, oxucuya bu hadisələrin yaranması səbəblərini, yer və şəraiti xatırladır. Sun-tszı bu doqquz növ yerlərin hər birində fəaliyyət göstərməyin qaydalarını müəyyənləşdirərək onlardan kortəbii istifadənin təhlükə yarada biləcəyi ilə əlaqədar

xəbərdarlıq edir. Məsələnin bu tərəfini Çjan Yuy yaxşı görür. «Doqquz yerin qanunauyğunluqlarına kortəbii şəkildə əsaslanmaq olmaz, lazımdır ki, onları dəyişilmələrlə başa düşəsən».

Daha sonra Sun-tszı müharibədə bütün fəaliyyəti xarakterizə edən iki anlayışı irəli sürür. Onun təbirincə, bu, «daralma və genişlənmə»dir. Bu iki qüvvə hər bir hadisədə, hər bir əşyada var. Bununla yanaşı, onlar bir-birindən asılı, bir-biri ilə şərtlənirlər. Yuxarıda artıq Çin naturalist fəlsəfəsinin məlum qaydalarından iqtibaslar gətirilib: hərəkət öz yüksək həddinə çatır və sakitliyə çevrilir, sakitlik öz mümkün həddinə çatır və hərəkətə çevrilir. Bu– ümumi qanundur. Daralma öz həddinə yetişir və öz-özünə genişlənmə yaranır, genişlənmə həddinə çatdıqdan sonra, daralma başlayır. Çin mütəfəkkirləri bu asılılığı əyani vasitələrlə göstərirlər. Tullanmağa hazırlaşan, yəni tam açılmağa hazırlaşan ilan əvvəlcə öz var qüvvəsi ilə bir yerə yığılır, yumağa dönür. «İ-tszin» bu halı soxulcanın timsalında göstərir: «Soxulcan uzanmaq üçün yığılır».

Yapon təfsirçisi Soray bu qaydaya belə cümlələr həsr edir: «Bu, Göyün, Yerin və bütün Təbiətin ümumi qanunudur.Giriş dağların arxasına gedir– bu sıxılmadır. O, səhər yenidən çıxır, bu genişlənmədir. Payızda və qışda bitkilər öləziyir, Göyün və Yerin gücü qapanır – bu daralmadır. Yazda və Yayda bitkilər çiçəkləyir, meyvələr yetişir– bu genişlənmədir. Məhz ona görə ki, qışda hər şey sıxılır, yayda hər şey artır; ona görə yığılırlar ki, sonradan bütün uzunluqları boyunca düzlənsinlər. Əgər qışda çox qar yağırsa, bu, həmin il bol məhsul olacağını xəbər verir. Qış sərt gəlirsə, yazda mülayimlik və bolluq olur. Əgər sıxılma zəifdirsə, genişlənmə də zəif olacaq; əgər sıxılma güclüdürsə, bunun müqabilində genişlənmə də güclü olur. İnsan nəfəsi də belədir. Nəfəs almaq sıxılmadır, nəfəs vermək genişlənməkdir. Nəfəsi güclü alırsansa, onu vermək də uzunmüddətli olur. İnsan yeriyərkən bir addım qabağa atırsa, bu genişlənmədir, o, ayağını yerə qoyduqda isə sıxılma baş verir. Əgər o, ayağını yerə qoymasa, addımı ata bilməz. Əgər adam addım atmazdan əvvəl bədənini geriyə güclü şəkildə gərirsə, addımını irəliyə daha geniş atacaq. Hər şeydə belə olur. Elə bir şey yoxdur ki, bu qanuna tabe olmasın (Soray, sit. əsər. səh. 301).

Soray sıxılma və genişlənmənin əlaqəsini «İ-tszin» əsərində daha geniş əks etdirib. Şübhəsiz ki, Sun-tszı da həmin anlayışı bu şəkildə qəbul edir. Onun dünyagörüşünün «İ-tszin»dəki ideyalarla bağlılığı artıq bir neçə dəfə qeyd olunub. Buna görə də, Sorayın sözləri Sun-tszının fikirləri ilə daha uyğun gəlir, nəinki digər təfsirçilərinki ilə. Müharibədə də həmin daralma və genişlənmə qanunu işləyir. Bəzən öz planlarını ona görə dayandırmalı olursan ki, sonradan daha böyük qüvvə ilə döyüşə girəsən. Olur ki, sonradan daha güclü zərbə vurmaq üçün müdafiəyə keçməli olursan. Sərkərdə dəyişiklikləri başa düşdüyü kimi, bunu da başa düşməlidir.

O, sıxılma və genişlənmədə öz mənfəətini görməyi bacarmalıdır. Sun-tszı məsələni bu cür qoyur.

Sərkərdə üçüncü şeyi də nəzərə almalıdır: insan hissiyatı qanununu, başqa cür desək– insanın psixologiyasını, xüsusilə də kütlənin psixoloji durumunu. Bundan əvvəlki göstərişlərində Sun-tszı öz əsgərlərində lazımi əhval-ruhiyyəni yaratmaq üçün insan psixologiyasına əsaslanmağın zəruriliyini göstərib. O, bildirir ki, ordunun döyüş qabiliyyəti, son nəticə olan qələbə bunlardan asılıdır.

Beləliklə, Sun-tszı öz sərkərdəsindən tələb edir ki, o, fəaliyyəti üçün konkret taktika işləyib hazırlayarkən bu üç qanuna əsaslansın: vəziyyətin dəyüşməsi qanununa, daralma və genişlənmə qanununa, eləcə də insanın psixologiyası qanununa. Yalnız onda sərkərdənin taktikası möhkəm özül əsasında durmuş olacaq.

Bəs, bu taktika nədən ibarətdir?

Xatırladaq ki, Sun-tszı «səpələnmə yeri» ifadəsi işlətmişdi. O, özünün durduğu və müharibə arenası adlandırdığı, düşmənin hücum edəcəyi yeri bu cür adlandırmışdı. Sun-tszı hesab edir ki, əsgərlər öz torpaqlarının düşmən tərəfindən boşaldıldığını gördükdə, öz ailələri və təsərrüfatları haqqında düşünməli olurlar və onların əhvali-ruhiyyələri döyüş qabiliyətlərinin aşağı düşməsinə səbəb olur. Buna görə də, Sun-tszı deyir: «Səpələnmə yerində mən hamının səyini bir yerə toplayacağam. Başqa cür desək, onları evləri barədə düşüncələrdən ayırmaq və fikirlərini digər istiqamətə yönəltmək lazımdır. Lakin nəyə? Axı, müəllif əvvəllər demişdi: «Səpələnmə yerində vuruşma». Görünür, bu, şərti olaraq qadağan edilib. O zaman vuruşmaq olmaz ki, qoşun hər hansı səbəbdənsə döyüş qabiliyyətində deyil. Yox, əgər əsgərlər öz ailələri haqqında fikirləşməyə son qoyacaqlarsa, o zaman əsgərlərin döyüş qabiliyyəti yüksək olacaq və vuruşmaq mümkündür. Sun-tszının mətnindəki fikirlər Çjan Yuyun digər fikirləri söyləməyə sövq edir: «İnsanları yığ, azuqə topla, güc birliyinə nail ol, möhkəm müdafiə olun, pusqular qur və gözlənilməz hücumlar et». Çjan Yuyun bu əlavələri ilə hücum edən rəqibə qarşı mübarizənin taktikası zənginləşmiş olur.

«Dayanıqsız yerdə», yəni düşmən ərazisinə hücum zamanı öz hissələrinlə əlaqə saxlanılmalıdır. Mey Yao-çen izah edir: «Hərəkət edən zaman lazımdır ki, hərbi hissələr bir-birinin ardınca getsin; dayanan zaman möhkəmləndirilmiş dayanacaqlar bir-biri ilə birləşməlidir ki, düşmənin gələcəyi halda öz hissələri arasında boş məsafə qalmasın».

«Tutulacaq yerə rəqibimdən sonra istiqamət götürürəm» ifadəsi əvvəlki göstərişin mənasını təkrar edir. «Tutulmuş yerdə hücum etmə». Başqa sözlərlə desək, əgər düşmən həmin vacib mövqeni tutubsa, onun üzərinə birbaşa hücum etmə, hər hansı bir manevrlə onu həmin yerdən çıxmağa məcbur et, o yeri azad edəndən sonra tut. Təfsirçilərin biri, Çen Xao bu yeri başqa cür başa düşür: «Tutulan yerə rəqibdən sonra getmək lazımdır» ifadəsi o

deməkdir ki, əgər yerin şəraiti sərfəlidirsə, mən irəlidəyəmsə, seçmə hisslər ayıraram və bu yeri rəqibdən tez tutaram; əgər o, böyük qüvvə ilə buraya əvvəlcə gələrsə, mən çoxlu qüvvə ilə həmin yerə düşməndən sonra istiqamət götürərəm. Belə olan halda qələbə təmin olunacaq».

«Qarışma yeri» deyəndə Sun-tszı sərhəd ərazidə yerləşən, hər tərəfdən gələn yollarla kəsilən və hər iki tərəfin qoşunlarının hərəkət edə biləcəyi yeri nəzərdə tutur. Sun-tszı belə yerdə müdafiəyə hazır olmağı məsləhət görür. Mey Yao-çen bunu izah edir: «Müdafiə xətlərini möhkəm qoru və düşmənin yolunu kəs».

«Kəsişən yerdə (yəni, neytral dövlətin ərazsisində– N.K.) əlaqələri möhkəmləndirərəm» (o ölkənin knyazı ilə) ifadəsi əvvəllər deyilmiş fikrin təkrarıdır. Görünür, «ciddi vəziyyət yerində», yəni düşmən ərazilərinin dərinliklərində, Sun-tszının fikrincə, ən böyük problem ordunu ərzaqla təmin etməkdir. Bunun üçün nə etmək lazım gəldiyini Sun-tszı tam qısa şəkildə deyib: «qarət et». Burada o yeni bir məsləhət də verir ki, bu da ehtiyat hissələri və ərzağın daşınmasının kəsilməməsinə nəzarət etməkdən ibarətdir.

«Çətin keçilən yerlərdə irəliyə yollarla hərəkət edəcəyəm» ifadəsində əvvəllər verilmiş qısa düsturu təkrarlayırlar: «yolsuz yerdə dayanma».

Sun-tszının düşmənin mühasirəsinə düşdüyün halda özünün yeganə çıxış yolunun elə özün tərəfindən bağlamağa dair verdiyi tapşırıq maraqlıdır. Görünür, bu, belə halda sərkərdənin düşünəcəyi və əvvəllər verilmiş məsləhətə uyğun hərəkətdir: «Mühasirə yerində dərk et».

Bu tədbir nə üçündür? – sualına Sun-tszının bütün konsepsiyası cavab verir: mühasirədən çıxmaq, çıxış yolu olduqda belə, çətindir; bunun üçün bütün qüvvəni gərmək lazımdır; ona görə də, elə şərait yaratmaq vacibdir ki, qoşunun döyüş qabiliyyəti əhəmiyyətli dərəcədə artsın; lakin bu o zaman baş verir ki, «mühasirə yeri» «ölüm yerinə» çevrilir, yəni, əsgərlər yalnız qeyri-adi mübarizənin onları xilas edəcəyini görürlər.

Sonuncu məsləhətdə göstərilir ki, kritik vəziyyətdə əsgərlərə ölümə getməkdən başqa yol olmadığını başa salmaq və qeyri-adi igidliyin onları xilas edə biləcəyini göstərmək lazımdır. Du Munun dediyi kimi, «onları ölüm gözlədiyini izah etməklə, həm də ayağa qaldırmağa və həyatı qazanmağa məcbur edirsən».

Sun-tszı belə vəziyyətin xarakteristikasını bu sözlərlə bitirir: «Əsgərlərin hissiyyatı belədir ki, onlar mühasirəyə düşdükdə müdafiə olunurlar; haçan ki, başqa heç nə qalmır, onlar döyüşürlər; o zaman ki, vəziyyət çox gərgindir, onlar tabe olurlar». Bu sözlər əvvəllər deyilmişləri başqa formada təkrar edir: çıxılmaz vəziyyətdə olanda «əsgərlər heç bir kənar təsir olmadan sayıqlıq göstərir, qüvvə toplayır, heç bir söhbət olmadan bir-birinə mehribanlıq göstərir, heç bir əmrsiz öz rəislərinə inanırlar» (XII, 10).

Yerin müxtəlifliyini, bununla əlaqədar müharibə şəraitini, hər bir hadisə üçün taktikanı müəyyənləşdirdikdən sonra Sun-tszı öz ağlı və biliyi ilə silahlanmış, doqquz vəziyyəti və şəraiti, bunlardakı dəyişiklikləri, «sıxılma və genişlənmənin faydasını», «insan təbiətinin qanunlarını dərk edən» insanın xarakteristikasına keçir. Bu hökmdar və sərkərdə artıq adi səlahiyyət sahibi deyil. Bu, Sun-tszının terminləri ilə desək, hegemondur, diktatordur.

Qədim Çində «ba»- «diktator», «hegemon» adı Çuntszyu dövründə və qismən də Çjanqo dövründə elə hökmdarlara verilirdi ki, o, bir çox knyazlıqları idarə edirdi, həmin knyazlar öz hakimiyyətlərini saxlamaqla praktik olaraq hegemondan asılı olurdular. Formal olaraq, o, knyazlar ittifaqının başçısı olurdu. Hegemon anlayışının qarşılığı olaraq «van» - çar anlayışı işlənirdi. Birinci,- elə keçirdiyi hakimiyyətin daşıyıcısı, ikincisi isə hakimiyyətin daşıyıcısı idi. Lakin əlbəttə ki, bu diktatorlar adətən belə hakimlərin arasından çıxırdılar. Bununla belə, hər bir nüfuzlu knyazın hər birinin ürəyindən diktator– hegemon olmaq keçirdi.

Sun-tszı söhbəti məhz bu cür hegemon ətrafında qurur. Adi hakimiyyəti olan knyazı o, əhəmiyyətsiz hesab edir və onları biz elmindən istifadəyə gərəkli bilmir. Sun-tszının dedikləri əzəmətli, böyük və güclü dövlət quran hökmdarlara aiddir, hər hansı bir sərhəd rayonundan ötrü dava-dalaş salan, yaxud qarətçilik edən kiçik knyazlara aid deyil. Mümkündür ki, Sun-tszıya görünür ki, U knyazlığının hökmdarı belə hegemon ola bilər. Buna görə də, o, öz traktatını U hökmdarı– böyük fateh müharibəsinin rəhbərliyi üçün yazıb. Bu Sun-tszının sonrakı qeydlərindən görünür. Əvvəlcə o, VII fəsildə deyilənləri təkrar edir: «kim ki, knyazların niyyətlərini bilmir, o, qabaqcadan knyazlarla ittifaq bağlaya bilməz; kim ki, təbii şəraiti – dağ, meşə, qayalıq, yarğan, bataqlığın nə olduğunu bilmir,o, qoşunu idarə edə bilməz; kim ki, yerli bələdçilərdən istifadə etmir, o, yerin faydasından istifadə edə bilməz». Nə üçün o, bunları təkrar edir? Çjan Yuy bu cür izah edir: «Gərəkdir ki, bu üç qaydanı biləsən, ancaq bundan sonra doqquz yer şəraitinin hər birinin faydasını başa düşə bilərsən. Buna görə də o, bunları yenidən aydınlaşdırır». Əlbəttə ki, bu üç qayda doqquz şəraitin hər birinin başa düşülməsinə girişdir. Ən əsası, belə şəraitin dəyişikliklərlə birlikdə başa düşülməsidir. Və beləliklə, «kim ki, bu doqquzdan birini belə bilməsə, onun ordusu hegemonun ordusu olmayacaq». Sun-tszı bu sözlərlə bir tərəfdən göstərir ki, öz elmini kimin üçün nəzərdə tutur, digər tərəfdən isə vurğulayır ki, onun öyrətdiklərini tam qəbul etmək lazımdır; qismən bilik heç nə vermir; onun elmi bir tam halındadır, sistemdir, qaydalar toplusu deyil. «Doqquz» - bu, şəraitin faydalı və faydasız tərəfləridir. «Bunlardan birində nəyi isə bilmədən, tam qələbəyə nail olmaq mümkün deyil», - deyir Çjan Yuy.

Sun-tszının dediyi vəziyyətlərin əks mənası da var: kim ki, doqquz cür şəraitdə bütün dəyişiklikləri bilir, onun ordusu hegemon

ordusu adlandırıla bilər. Buna görə də, Sun-tszı daha sonra o haqda danışır ki, belə ordu ilə nəyə nail olmaq mümkündür».

Çox xarakterikdir ki, Sun-tszı hegemonun özündən deyil, onun ordusundan danışır. Sun-tszı öz hegemonunu knyazlar arasında axtarır. Bu aydındır, belə ki, fatehlik yoluna girmək üçün bazaya malik olmaq gərəkdir– öz təsərrüfat qaynaqları və hərbi qüvvələri olan dövlətin olmalıdır. Lakin onu yüksək hakimiyyət pilləsinə diktatorun özü deyil, onun ordusu gətirir, daha dəqiq desək, hərb elmini yaxşı bilən sərkərdə gətirir (bu fikir Sun-tszınındır). Sun-tszıya görə, həqiqi fateh odur ki, «müharibəni apara bilir», yəni kamil və istedadlı sərkərdə. Diktatorluğa namizəd olan knyaz bu sərkərdəyə güvənməli və ordu daxilində ona məhdudiyyətsiz hakimiyyət verməlidir.

Hegemonun ordusu nəyə nail ola bilər?

Fərz edək ki, hər hansı bir dövləti digər bir dövlət hədələyir. Tam təbiidir ki, hədələnən dövlət öz qüvvələrini toplamağa başlayır, yəni orduya səfərbərlik elan edir. Əgər bu ölkə güclü və nüfuzludursa, o, qonşu dövlətlərlə saziş bağlamağa səy göstərəcək ki, hücum edən tərəfə qarşı çıxa bilsin. Amma Sun-tszı bunu o zaman etməyi məsləhət görür ki, hücum edən adi rəqibdir, qüvvələr nisbəti təxminən bərabərdir, fəaliyyət miqyası müharibənin məqsədi ilə uyğun gəlir. Əgər bu dövlətə qarşı hegemon ölkəsi çıxış edirsə və sərhəddə güclü fatehin ordusu dayanıbsa, onun hərb elminin sirlərinə bələd olan sərkərdələri varsa, hissələrə əsl hərbi rəhbərlər komandanlıq edirlərsə, onların ordusu birinci dərəcəlidirsə, yaxşı silahlanıb və təlim keçiblərsə, belə olan halda heç bir şey etmək olmaz; tam ümidsizlik olduğu zaman orduya səfərbərlik elan etmək və qonşu ölkələrlə ittifaq bağlamağın mənası yoxdur. Hansı ölkə öz taleyini, üzərinə fateh gələn dövlətin taleyi ilə bağlamağa risq edə bilər? Buna görə də, Sun-tszı söyləyir: «Əgər hegemonun ordusu böyük dövlətə qarşı çıxış edərsə, o, öz qüvvələrini toplaya bilməz. Əgər hegemonun güclü ordusu düşmənin üstünə yeriyəcəksə, o, ittifaq bağlaya bilməz».

Belə ordunun gücünün hərbi nöqteyi-nəzərdən nədə olduğunu Van Çje izah edir: «O zaman ki, rəqiblər planlarını öyrənə, yerin faydasını bilir və ondan istifadə edə bilirlərsə, düşmənin bir-biri ilə əlaqə saxlamasına, bir-birinə kömək etməsinə imkan verilmirsə, o böyük ölkə olsa da, öz qoşununu toplaya və müqavimət göstərə bilməyəcək. Əgər düşmən üzərinə gedən qüvvə böyükdürsə, düşmən müqavilə bağlaya bilməz».

Buna görə də, hegemonun davranışı xüsusi xarakter kəsb edir. Adətən, hökmdarlar ittifaq bağlamağa səy göstərirlər ki, öz güclərini artırsın və təhlükəsizliklərini təmin etsinlər. Onlar çalışırlar ki, hər vasitə ilə tədricən hakimiyyəti və təsir mexanizmlərini öz əllərinə alsınlar. Hegemon isə belə etmir. Yuxarıda göstərilən səbəblər üzündən o, «yerlərdəkilərlə saziş bağlamağa, hakimiyyət

axtarmağa qaçmır. O, yalnız öz şəxsi iradəsini genişləndirir və düşmənə öz əzəməti ilə təsir edir. Buna görə də o, rəqibin qalasını da ala bilər, dövlətini də çökdürə bilər». Çen Xao növbəti vasitə ilə belə fatehin gücünü təsvir edir: «O zaman ki, ağıl və güc tamlığındadır, güc və hakimiyyət mənim əlimdədir, onda ki, mən özüm əsgər və zabitlərimi tərbiyə etmişəm, sarsılmaz plan hazırlamışam, o zaman Səma altında olan elə bir knyaz, hakimiyyət ola bilməz ki, mənə qarşı nə isə edə bilsin. Humanizm, ağıl, ədalət, strateji mədəniyyət– bunların hamısı məndədir, mən onların köməyi ilə hər şeyə yiyələnirəm». Buna görə də deyilir: «Mən öz gücümü genişləndirirəm və Səmanın altında nə varsa riqqələ gətirirəm, mənim əməllərim dörd dəniz ətrafında parlayır, mərhəmətim bütün varlıqlara keçir, hər kəsdə və hər şeydə təmizlənir– hətta donuzlarda və balıqlarda da. Və xalqın ürəyi mənim yanıma gəlir. Buna görə də, mən qalaya hücum edəndə onu mütləq alıram; mən silahı hər hansı bir dövlətə qarşı çevirəndə, o dövlət yıxılır».

Sun-tszı öz hegemonunu bu cizgilərlə xarakterizə edir. Bunun ardınca o, göstərişlərə keçir ki, bu hegemonun ordusuna necə rəhbərlik etmək olar. Təbiidir ki, belə ordunu adi qaydada idarə etmək mümkün deyil. Hər şeydən əvvəl Sun-tszı belə hesab edir ki, belə ordunu idarə edən sərkərdə adi qanunlardan azad olmalıdır. Adi işlək qanun və qaydalar onun və bu cür müharibə aparan ordu üçün deyil. Başqa cür desək, Sun-tszı istisna qanun və qaydaların zəruriliyini nəzərdə tutur, hansı ki, adi nöqteyi-nəzərdə bu hətta «qanunsuzluq» və «anarxiya» kimi görünə bilər. Buna baxmayaraq, Sun-tszı qeyd edir ki, müharibə şəraitində bu «qanunsuzluq» və «anarxiya» zəruridir.

Bu «qanunsuzluq» və «özbaşınalıq» özünü nədə göstərir? Sun-tszı dəqiq cavab verir: «Sərkərdə mükafatları paylayır, adi qanunlarla kifayətlənməyərək, adi idarəçilikdən kənar fərmanlar verir». Traktatın özündən də göründüyü kimi, Sun-tszı orduda təltiflərə və cəzalara necə əhəmiyyət verir. Əlbəttə ki, burada mükafatları xatırlatmaqla Sun-tszı cəzaları da nəzərdə tutur. Lakin Soray o məsələdə haqlıdır ki, Sun-tszı burada ona görə mükafatların adını çəkir ki, orduda cəza sərkərdənin əsgərləri ruhlandırması ilə bağlı siyasətinə müsbət təsir edə bilməz; buna ancaq mükafatlarla nail olmaq mümkündür (Soray, sit.əsər.səh.309). Və bu məsələdə qanundankənar norma və vəziyyətlərdən heç də çəkinmək lazım deyil. Sərkərdə özündə «qanunsuzluğa» yol verə bilər. Eləcə də əmr və sərəncamlar verilərkən orduda yalnız vahid idarəetmə qaydaları ilə kifayətlənmək olmaz; vəziyyət fövqəladədirsə, ona qarşı tədbir də fövqəladə olmalıdır. Tszya Lin bununla əlaqədar deyir: «O zaman ki, qalanı almaq, dövləti çökdürmək istəyirlər, kütləvi şəkildə mükafatlandırmağa və cəzalandırmağa başlayır, fövqəladə əmrlər verirlər. Buna görə idarəçiliyin adi qanun və qaydalarına riayət olunmur». Mey Yao-çen «Sıma fa» nın sözlərini təkrarlayaraq dəqiq

izah edir ki, bu nə üçün belə olur: «Təltifi xidmətdən asılı olaraq verirlər; bunun üçün əlavə bir qayda qoymaq olmaz». Tsao-qun isə birbaşa deyir: «Hərbi qanun və əmrlər qabaqcadan hazırlanmış olmur». Sözdə hamı təsdiq edir ki, müharibədə sərt qanunlar işləyir. Vəziyyətləri dəyişməsi ilə əlaqədar, nəticədə ordunun idarə edilməsi Sun-tszının dediyi kimi olur. O, nə zamansa deyib ki, ordunu təşkil edən əsgər çoxluğunu bir neçə nəfəri idarə etdiyin kimi idarə etmək mümkündür və bu cür etmək lazımdır. Sun-tszı ordunun birliyi, onun bir nəfər kimi olmasının zəruriliyini çox deyib. Buna görə də, o hesab edir ki, yuxarıda deyildiyi kimi hərəkət etdikdə «bütün ordunu bir nəfəri idarə etdiyi kimi idarə edə biləcəksən?». «Xidmətlərinə görə mükafatlandırıldıqda və bu, vaxtında edildikdə, eləcə də günahlarına görə cəzalandırıldıqda; mükafat və cəza qanunu aydın olduqda və bu, tezliklə icra olunduqda kütləyə rəhbərlik az sayda insana rəhbərlik etmək kimidir», - deyir Çjan Yuy.

Lakin ağıllı və heç nədən çəkinmədən əvvəldən qoyulmuş mükafat və cəza tədbirləri çərçivəsində hərəkət etməklə iş bitmir. Sərkərdə ordu ilə davranış qaydalarını da əxz etməlidir. Bu, çox sadədir. «Ordu sərəncamında olarkən iş haqqında danış, izahata yer vermə. Ordunu idarə edərkən ziyan barədə deyil, fayda haqqında danış», - tələb edir Sun-tszı. Mey Yao-çen bu sözləri dəqiqləşdirir: «Ordluya vuruşmaqla rəhbərlik edirlər, planların izahı ilə yox». Ordu bir şeyi bilməlidir: döyüş əmrini.

Döyüş əmri ordunu düşmənə qarşı hərəkət etməyə, döyüşə atılmağa məcbur edir. Ancaq əmrlə ən əsas şeyə nail olmaq mümkün deyil: döyüş ruhunun qaldırılmasına. Buna necə nail olunduğunu Sun-tszı yuxarıda deyib. Burada o, həmin fikri təkrar edir. «Əsgərlər ancaq ölüm yerinə atıldıqdan sonra öz mövcudluqlarını göstərirlər, onlar ölüm yerinə salındıqdan sonra yaşamağa başlayırlar, əsgərlər bədbəxtliklərlə üzləşdikdə döyüşün nəticəsi barədə qərar verə bilirlər».

Mey Yao-çen bu sözləri aydınlaşdırır: «Yer ölüm yeri adlandırılsa da, var gücünlə vuruşsan həlak olmayacaqsan. Buna görə də deyilib: «ölmək – mövcudluğun əsasıdır; ölüm – həyatın köküdür».

Öz orduna rəhbərlik etmək taktikası belədir. Bəs, düşmən ordusu ilə münasibətlərdə necə olmalı? Onlarla mübarizə taktikası necədir? Buna Sun-tszı bu cür cavab verir: «Müharibənin aparılması ondan ibarətdir ki, düşmənə fəaliyyət imkanı verərək onun niyyətlərini dəqiqliklə öyrənir, sonra isə onun diqqətini hər hansı bir şeyə yönəldərək, onun sərkərdəsini öldürürsən. o, min mil uzaqda olsa belə».

«Düşmənə niyyətləri üzrə hərəkət etmək imkanı vermək» nə deməkdir? Çjan Yuy buna cavab verir: «Əgər düşmən irəliyə getmək istəyirsə onu gözlə və getməsinə imkan ver. Əgər düşmən

geriyə qayıtmaq istəyirsə, yenə də mane olma. Onun niyyətini sakitcə öyrən, onun üçün tələ qur və onu oradaca tut».

Məsələ ondadır ki, hər şeydən əvvəl düşməni öyrənmək, onun niyyətlərini açmaq, onun yerdəyişmələrinin sirrini bilmək lazımdır. Bunun ən yaxşı üsulu isə rəqibə müəyyən müddət daxilində hərəkət azadlığı vermək, onun istədiyi fəaliyyətə imkan yaratmaq və eyni zamanda, onun yerdəyişmələrini ciddi surətdə müşahidə etmək gərəkdir. Bu yerdəyişmələr mütləq onun niyyətlərini açacaq. O zaman ki, rəqibin məqsədi aydındır, onu məhvə doğru itələmək olar. Lazımdır ki, ona guya hərəkət azadlığı vermək istədiyini göstərməklə geriyə çəkiləsən, o hücum etdiyi zaman irəli çıxasan, düşmən geriyə gələndə özünün hərəkətlərinlə onun hərəkətini idarə etməlisən. Onun güclü və zəif məntəqələrini aydınlaşdırdıqdan sonra, öz hərəkətlərinlə onu elə bir əməliyyat üçün cəmləşdirə bilərsən ki, rəqibin özü üçün çıxılmaz olar. Bu zaman öz taktikanı dəyişməli, gözlənilmədən hücuma keçməli və zərba vurmalısan.

Sun-tszının nöqteyi-nəzərincə, belə halda qələbə o qədər dəqiq olacaq ki, düşmən min mil üzaqlıqda olsa da onu tar-mar etmək, o cümlədən sərkərdəni də öldürmək mümkündür.

Sun-tszı öz göstərişlərini verməkdə davam edir. Bu dəfə o, orduya səfərbərlik və yürüşə çıxmaqla bağlı tədbirlər üzərində dayanacaq. Hər şeydən əvvəl o təklif edir: «Bütün sərhəd məntəqələrini bağla, onların vasitəsilə bütün buraxılış vərəqələrini məhv et ki, kənardan göndərilmişlər sərhədi keçə bilməsinlər».

Mey Yao-çen və Çjan Yuyun aydınlaşdırmasına görə, bu, onun üçün edilir ki, rəqibə heç bir məlumat keçməsin. Mey Yao-çen Sun-tszının bu sözlərinin mənasını bir qədər də geniş şəkildə başa düşür: o, hesab edir ki, burada söhbət, ümumiyyətlə, yollarda hər cür hərəkətin dayandırılmasından gedir. Digər səbəblərlə yanaşı, bu, onunla da şərtlənir ki, orduya yeni çağırılanlar öz yaxınları, ata və anaları ilə ünsiyyət qura bilməsinlər, çünki bu, onların əhvalına pis təsir edir (Soray, sit.əsər.səh.313).

Elə həmin gün orduda səlahiyyətlər tamamilə sərkərdəyə həvalə olunur. Sun-tszı əvvəllər demişdi ki, müharibədən qabaq Saray Şurasının iclası keçirilir və burada müharibə şansları və kampaniyanın planı götür-qoy edilir. Bununla da, mərkəzi hakimiyyətin rolu, qismən də hökmdarın rolu başa çatır. Plan sərkərdənin nəzərinə çatdırılır və onun icrasında bütün məsuliyyət sərkərdənin üzərinə qoyulur.

O zaman ki, rəqib açmağa və bağlamağa başlayacaq, onda vaxt aparmadan və sürətlə onun üstünə get»,- deyir Sun-tszı. Bu ifadənin mənasını Tsao-qun açır: «O zaman ki, düşmənin cərgəsində boşluq əmələ gəldi, tez həmin yerə gir. Görünür, «açılma və bağlanma» ifadələri düşmənin hərəkəti və yerdəyişmələri ilə bağlıdır. Düşmənin hərəkətlərini müşahidə etmək lazımdır ki, nəzarətsiz yer,

«boşluq» yarandıqda həmin yerdə nəzarəti ələ ala bilərsən». Bunu Tsao-qun söyləyir.

«Onun üçün əziz şeyi tutmağa tələs və sakitcə onu gözlə». Bu məsləhəti Sun-tszı əvvəllər dediyi kimi, yenidən səsləndirir və «Ona əziz olanı» dedikdə, strateji cəhətdən əlverişli olan mövqeyi nəzərdə tutur. Belə ki, düşmən belə mövqeyi rəqibinin əlində qoymaq istəməyəcək və mütləq vuruşmaq üçün burada peyda olacaq. Bu isə Sun-tszının dediyi manevrin yerinə yetrilməsidir ki, «düşmənin diqqətini nəyə isə yönəltməklə», yəni manevr etməklə onu məcburi hərəkətə sövq edirsən. Soray bu sözləri daha geniş şəkildə izah edir. O, hesab edir ki, burada söhbət ondan gedir ki, əvvəlcə nəyin düşmən üçün əziz olduğunu təyin etmək və hamıdan gizlincə onu özünün hücum obyektinə çevirmək lazımdır.

«Müəyyənləşdirdiyin xətt üzrə get, amma rəqibin dalınca getmə. Bu üsulla müharibəni həll edərsən»- daha sonra söyləyir Sun-tszı. Bu göstərişi Çjan Yuy tam izah edir: «Müharibənin qanunlarına riayət et, onun qaydaları üzrə hərəkət et, düşməndəki bütün dəyişiklikləri və çevrilmələri izlə; vəziyyət həmişə eyni cür olmur. Bu yolla sən müharibəni həll edə və qələbə çala bilərsən». Çjan Yuy Sun-tszının sözlərində müharibənin ibarət olduğu «min dəyişiklik və on min çevrilmələr» haqqında yeni xatırlatmalar görür. Müharibənin bu xüsusiyyətləri taktikada mütəhərrikliyi və manevrliliyin olmasını tələb edir.

Sun-tszı bu fəsli özünün son sözləri ilə tamamlayır: «Əvvəlcə özünü günahsız qız kimi göstər– rəqib sənin üçün öz qapısını açacaq. Sonra isə yerindən qopmuş dovşana dön– o zaman düşmən müdafiə tədbiri görməyə macal tapmayacaq».

Sun-tszı yenə də fikirlərini, sevdiyi obrazlı şəkildə izah etməyə başlayır: «Günahsız qız» ifadəsi ilə Sun-tszının nə demək istədiyini başa düşmək çətn deyil. Görmək olar ki, təfsirçilər bu obrazı zəiflik əlaməti kimi qəbul edir və hesab edirlər ki, Sun-tszı bununla özünü gücsüz göstərməyi və düşmənin ehtiyatsızlıq edərək, sənin üçün qapı açmasına onu məcbur etməyi ifadə etmək istəyir. «Yerindən qopmuş dovşan» obrazı az başa düşüləndir. Adi danışıqda bu obraz cəldlik, sürət rəmzidir.

Bu üçlük birlikdə nə deməkdir? Onları Çjan Yuy daha yaxşı açır: «Müdafiə zamanı qız kimi zəif ol və düşməni arxayınlaşmağa məcbur et; bunun müqabilində o, özündə boşluğa yol verəcək. Hücum edəndə isə yuvasından çıxıb qaçan dovşan kimi sürətli ol və düşmənin özünü itirməsindən yararlan».

Bu cür söhbətdə yalnız bircə şeyə etiraz etmək olar; özünü zəif və gücsüz göstərməyi təklif etməklə, Sun-tszı yalnız müdafiə zamanı davranışı deyil, ümumilikdə bütün davranışları nəzərdə tutur; bu davranış düşməni sayıqlığı itirməyə vadar edir. O zaman bundan istifadə etmək və onun üzərinə hücuma keçmək, özü də sürətlə və var qüvvə ilə keçmək lazımdır.

Beləliklə, əgər Sun-tszı əvvəl «hücum strategiyası» prinsipini müəyyənləşdirmişdisə, indi bu sözlərlə hücumun cəldliyi və sürəti tələbini müəyyən edir.

XII FƏSİL

Od hücumları

Sun-tszı öz əsərinin XII fəslini «od hücumları» na, yəni bu ifadənin geniş mənasında od vasitəsilə fəaliyyətə həsr edib. İlk olaraq Sun-tszı «od hücumlarının növlərini hansı obyektlərin bu hücuma məruz qalmasından asılı olaraq sadalayır. Bu növlər beşdir: insanların yandırılması, ehtiyatların yandırılması, arabaların yandırılması, anbarların yandırılması, dəstələrin yandırılması. İnsanların yandırılması– bu, düşmənin canlı qüvvəsinin qırılmasıdır-, əsgərlərin və əhalinin də; ehtiyatların yandırılması– bu, ərzaq və digər məhsulların məhv edilməsidir; arabaların yandırılması– ordunun dalınca gedən arabaların, yəni, hərbi sursat və partlayıcı maddələrin məhv edilməsidir; anbarların yandırılması– düşmənin bütün saxlanclarının– hər cür qiymətli şeylərin, avadanlığın, əlbəttə ki, hərbi geyim və digər ləvazimatların məhv edilməsidir; dəstələrin yandırılması– bu, düşmənin düşərgələrinin məhv olunması və onun mövqelərinə odla hücumlar deməkdir. Qısa desək, od hücumuna hər şey məruz qala bilər.

Beləliklə, «od hücumu» ən yaxın mənada qədim Çində yandırmaq, alışdırmaq mənasında başa düşülürdü. Lakin bu söz geniş mənada çox şeyi əhatə edir və hansı ki, indiki dövr mənasında atəş vasitələri nəzərdə tutulur; [8] buraya mina müharbələri, partladılma, hətta zəhərliyici və boğucu qazlar, tüstü və sairə nəzərdə tutulur.

Çin ta qədimdən bu müharibə vasitəsi ilə tanış idi soray qədim silahlar siyahısına əsaslanaraq bu sözün geniş mənasında yüz cür odlu hücum silahının adını çəkir. Buraya hər cür yandırıcı nəzmlərin atılması üçün istifadə olunan toplar, yandırıcı maye atan toplar, hətta tüstü və qaz dumanı atan vasitələr daxildir. Uzaq məsafədən fəaliyyət göstərmək üçün «od topları», «yandırıcı oxlar», «od tüfəngləri», «od bombaları»; yaxın məsafədə döyüş zamanı «od nizələri», «od bıçaqları», «od çubuqları» mövcud idi. Bir sözlə, qədim Çin sərkərdəsinin öhdəsində oldu hücumlar üçün böyük və müxtəlif növ vasitələr var idi.

Od hücumu dar mənada, sadəcə, yanğın idi və bu müxtəlif üsullarla icra olunurdu. Bəzi hallarda «odlu dəstələr», yəni xüsusi hissələr yaradılırdı və onlar dişlərində çubuq tutaraq» (danışmaq imkanı olmamaq üçün, yəni səs salmamaq), atların dilləri bağlanmış halda düşmən məskənində gizlənir, əsgərlərin hər birinin belində

---

[8] *müasir hərbi dildə «odlu hücumlar» deyəndə bu və digər obyektin atəş vasitəsi, artilleriya, minaatanlardan və s. açılan atəşlər mənasını verir*

çör-çöp dəstəsi, qoltuqlarında isə çaxmaq daşı. Düşmənə yaxınlaşaraq, bu əsgərlər od buraxırdılar. «Od quldurları» adlandırılan dəstələr də var idi ki, onlar yandırmaqla bağlı xüsusi təlim keçmişdilər. Onlar təklikdə hərəkət edərək düşmənin düşərgəsinə yaxınlaşır və öz işlərini görürdülər. «Od heyvanları» maral və qabanlar da var idi ki, onların başına balqabaqdan hazırlanmış xüsusi qab bağlayır, qabın içərisinə isə yunan yağı töküb, yandırırdılar. Bu halda dörd deşik açırdılar ki, od sönməsin. Bu heyvanları dəstələrlə düşmənin yerləşdiyi sahəyə buraxırdılar, bitki örtüyü yanır və rəqibin məskəni odun əhatəsində qalır, son nəticədə isə alov düşmənin öz içərisinə keçirdi. «Od quşları», əsasən də qırqovulu tutaraq, onların üzərinə qoz qabıqları asır və onları yandırıcı maye ilə doldurub yandırırdılar. Xüsusi piyada dəstələri var idi və onlar düşmənin mövqelərinə yandırıcı oxlar buraxırdıdar. Bunların hamısı şəhadət verir ki, odlu müharibələr hələ o dövrlərdə çox geniş miqyasda aparılırdı.

Çin tarixi odlu vasitələrdən istifadə ilə bağlı çoxlu misallara malikdir və çoxsaylı vasitlərlə hücumların təşkili onu göstərir ki, bu, həmin dövrdə populyar olub. Bu barədə hərb mədəniyyətinə dair yazılmış digər traktatlarda da söz açılır. Onların birində– «Lyu tao» da odla hücumun ən sadə növlərindən danışılır.

«U-van Tay-qundan soruşdu: «Fərz edək ki, mən öz qoşunumla gəlib knyazın ərazilərini dərinliyinə keçmişəm və elə yerdəyəm ki, mənim ordumu sıx otluqlar əhatə edir. Ordum isə buraya gələnə qədər uzun yol keçib, insanlar və atlar yorulublar, dincəlirlər. Və bu zaman isti hava və güclü küləyi görən düşmən bundan istifadə edərək mənim tərəfəimdəki otluğa od vurur. Onun arabaları və süvarıə dəstələri, seçmə hissələri isə mənim arxamda pusquda durublar. Mənim bütün ordum qorxuya düşüb və qaçmağa hazırdır. Burada nə etmək lazımdır?»

Tay-qun cavab verdi: «Belə olan halda Səma nərdivanları (müşahidə üçün hündür nərdivan– N.K.) və uçan güllələr (səyyar müşahidə güllələri– N.K.) götürmək, sağda və solda uzaqda olan hər şeyə diqqətlə baxmaq lazımdır, qarşıda və arxada hər şeyi gözdən keçirmək gərəkdir. O zaman ki, od göründü, özündən ürəlidə və arxada geniş ərazidə otları yandırmaq lazımdır. Əgər düşmən yaxınlaşsa, öz qoşunlarını geriyə çəkərək, yandırdığın ərazidə yerləşməlisən. Sənin arxandakı düşmən yaxına gələndə odu gördükcə tezliklə geriyə çəkilərək, uzağa qaçacaq. Sən isə yandırdığın yerdə yerləşəcəksən; özüatan və bacarıqlı döyüşçülər sənin sağını və solunu qoruyacaqlar. Sən belə etsən, düşmənin törətdiyi yanğın səndən öndə və arxada heç bir ziyan vura bilməz» .

Bu zaman U-van soruşdu: «Əgər büşmən məndən sağda və soldakı, qarşımdakı və arxamdakı otları yandırarsa və tüstü mənim ordumu bütünlüklə bürüyərsə, rəqibin böyük ordusu yandırılmış ərazidə yerləşir və mənim üzərimə qalxırsa, mən nə etməliyəm?»

Belə olan halda dörd zərbə dəstəsi yaradaraq onlara qarşı göndərmək lazımdır, atıcılarla isə sol və sağ tərəfi qorumaq gərəkdir. Bu üsulda qələbə olmayacaq, lakin məğlübiyyətə də uğramayacaqsınız» («Lyu-tao», «Xu-tao bölməsi», 41-ci fəsil).

Lyu İn bu yeri şərh edərək od hücumunun dəf olunması üsulunu göstərir.

«Əgər imkan daxilində zərurət üzündən quru otla əhatə olunmuş ərazidə yerləşməli olubsansa, ilk növbədədə düşərgənin arxasında iki-üç sajen ərazini otdan təmizləməlisən. Əgər düşmən otu yandıracaqsa, sən təmizlənmiş yerdə duraraq öz tərəfindən otu yandırmalısan. Onların yandırdığı od sənə tərəf, sənin yandırdığın od isə ona tərəf gedəcək, hər iki tərəf gedəcək, hər iki od bir-birinə çatdıqda öz-özünə sönəcək. Əgər sən ərazini qabaqcadan təmizləmədən otu yandırsan, belə ola bilər ki, güclü külək nəticəsində od yeriyə və sənin düşərgənə yayıla ».

«Lya-tao» traktatı sonuncu xan sülaləsindən tez yazılmayıb. Yəni II əsrdən əvvəl yazılmayıb çox güman ki, sonra- uççarlıq dövründə, bəlkə də Tszin dövründə yazılıb: Beləliklə, «od hücumları» görünür, çinlilər tərəfindən sonrakı dövrlərdə tətbiq olunurdu. Bu cür hücumlar monqollar tərəfindən daha çox edilirdi; Çingiz xanın qoşununda, eləcə də Yaponiyada feodallar tərəfindən bu üsul həvəslə istifadə olunurdu. Belə hücumlar yalnız qədimdə deyil, XVI əsrin sonlarında da edilirdi. Bunu bütöv Yaponiyada hegemon adını qazanmış Nəbunaqasinin fəalyyəti ilə bağlı epizodlar da təsdiqləyir.

Deməyə əsas var ki, «od hücumları» yapon feodallarının sevimli üsuluna çevrilmişdi. Tarix çox sayda şəhadət verir ki, belə hallara (təkcə XVI əsrin ikinci yarısında tayfalararası müharbələri götürsək) təkcə Nəbunatla yox, onun düşmənləri Takaeda Sinqe, İesuqi, Kensin, Asai və Asakura, onun hərbi rəisi və sonradan mübarizə müttəfiqi– Xadeyosi, onun ardınca isə Takuqara İzyasunun vuruşları zamanı rast gəlinib. Bu üsul daha qədim zamanlarda qalaların mühasirəsi zamanı tətbiq olunurdu.

Odlu hücumlar zamanı qalaların süqutu ilə bağlı hadisə Kasaqi və Yosino qalalarının XIV əsrin birinci yarısında olmuş müharibələrlə tarixə düşüb.

Sun-tszı od müharibələrinin təsəvvürünü davam etdirərək, belə hücumların hansı şərtlərlə tətbiq oluna biləcəyindən danışır. Onun fikrincə, belə şərt dörddür: 1)od vəsaitlərinin sayı. 2) bu vasitələrin işə salınması üçün lazım olan elementlərin miqdarı, 3) ilin uyğun gələn fəsli, 4) uyğun gələn gün. Təbiidir ki, odla hücumun birinci şərti alışdırıcı ləvazimatlardan və yandırıcı materialların birinci şərti alışdırıcı ləvazimatların və yandırıcı materialların miqdarıdır. Bu yandırıcı materialların ən sadəsi çör-çöp, quru saman və maye yanacağıdır. Sadə vasitələr sırasına kükürd, selitr və qədim çinlilərə məlum olan, yandırıcı mərmilərin hazırlanmasında istifadə olunan şeylər də əlavə olunur. Bundan başqa, Sun-tszı yandırıcı vasitələr

deyəndə, bu yandırıcı şeyləri atan topları və yandırıcı qaytanları və s. nəzərdə tutur.

«Od hücumu»nun edilməsi üçün lazım olan ikinci şərt belə hücumun həyata keçirilməsi üçün elementlərin olmasıdır. Sun-tszı demir ki, bu elementlər hansılardır, ancaq şərhçilər izah edirlər ki, bu imkanı xüsusilə də quru havada düşmən düşərgəsinin ətrafında olan bitkilər verə bilər. Əgər külək əsirsə və onun istiqaməti lazımi yerədirsə, onun da xidmətindən istifadə oluna bilər. Əgər bunların heç biri yoxdursa, rəqib tərəfə alışdırıcı casuslar göndərmək lazımdır. Bunu düşmən düşərgəsində olan gizli adamın vasitəsi ilə də etmək olar. Görünür, bu sonuncu üsul ən etibarlı idi və geniş yayılmışdı. Tsao-qun qısaca deyir: «Casusların xidmətindən istifadə etmək və küləyin təsiri, eləcə də quru otların vasitəsilə yanğınlar törətmək lazımdır».

«Od hücumu»nun tətbiqi üçün lazım olan üçüncü şərt– zamandır. Bunun nə demək olduğunu Sun-tszı özü müəyyən edir: «Zaman odur ki, quraq hökm sürür».

Dördüncü şərt– gündür; küləkli gün olmalıdır. Bununla yanaşı, Sun-tszı göstərir ki, külək, adətən, hansı günlərdə olur. Bu göstəriş ona görə lazımdır ki, yanğını törətmək üçün hazırlığı qabaqcadan görəsən. Sun-tszı küləkli günlərin müəyyən olunmasında qədim Çinin astronomik baxışlarından istifadə edir. Bu əlamət odur ki, ay səmada yerini dəyişirkən, iyirmi səkkiz ulduzun cəmləşdiyi yerdən keçir. Sun-tszı göstərir ki, küləkli günlərdən əvvəl ay bu ulduzların dördünün arasında yerləşir.

Daha sonra Sun-tszı «od hücumları» nın taktikasının izahına keçir. Sun-tszının izahlarından belə məlum olur ki, o, hər şeydən əvvəd belə hücumun iki üslubunu müəyyən edib; daxildən, yəni düşmənin yerləşdiyi ərazisinin içərisindən və xaricdən,- yanğının bayır tərəfdən buraxılması. Əlbəttə, yuxarıda deyildiyi kimi, əsas üsul– içəridən, gizli agentin vasitəsi ilə yandırmadır. Lakin Sun-tszı belə agent yoxdursa da, dayanmamağa məsləhət görür. «Əgər bayırdan yanğın törətmək mümkündürsə, daxildə kimisə gözləmə, vaxt seç və yandır».

Bununla belə, hər iki halda bütün hücum vasitəsi əlaqəli şəkildə işə salınmalıdır, yəni odla və silahla hücum edilməlidir; hücum edən tərəfin bütün hərəkətləri əlaqələndirməlidir. «Odla hücum zamanı hücumun beş növü ilə ona kömək etmək lazımdır»,- deyir Sun-tszı. «Əgər yanğın içəridə yaranıbsa, onu mümkün qədər tez bayırda da təşkil etmək gərəkdir»,- söyləməklə yanaşı, Sun-tszı ehtiyatlı olmağa çağırır: «Əgər yanğın baş tutubsa, düşmənin qoşunu sakit dayanıbsa, gözlə, hücum etmə». Bu, o deməkdir ki, rəqibə o zaman hücum etmək lazımdır km, onun düşərgəsində yanğınla əlaqədar qarışıqlıq baş verib. Odla hücum əsasən ona görə edilir ki, düşmən tərəfdə çaxnaşma yaransın. Sun-tszı bu məsələdə çox ehtiyatlıdır: «Yanğın öz yüksək həddinə çatanda, imkan varsa, onun

arxasınca get; əgər imkan yoxdursa, yerində dayan». Çjan Yuy aydınlıq gətirir: «Əgər alovun gücü öz yüksək həddinə çatıbsa, və orada hər şeyi dağıdırsa, hücum et. Əgər düşmənin mövqeyində sakitlikdirsə, geriyə çəkil».

«Od hücumları ilə yanaşı, Sun-tszı «su hücumları»nı da xatırladır.

Sun-tszı od hücumlarına nisbətən su hücumlarına az əhəmiyyət verir. Odla hücumun səmərəsini su ilə hücumla müqayisə edərək o, deyir: «Odun hücuma köməyi aydındır, suyun hücuma etdiyi kömək güclüdür. Lakin suyun köməyi ilə ayırmaq olar, onunla zəbt etmək isə olmaz. Bu deyimdə «aydındır» sözü bir qədər başa düşülən deyil. Du Yu hesab edir ki, bu, «qələbə aydındır» deməkdir. Mey Yao-çenin fikrincə, Sun-tszı bu sözlərlə demək isləyir ki, bu cür kömək «göz qabağındadır və asan qələbə verir». Su ilə hücum barədə isə Çjan Yuy deyir: «Su ancaq düşmənin qoşunlarının arasını kəsə, onu hissələrə ayıra bilər; onun köməyi ilə yalnız müvəqqəti qələbəyə nail olmaq mümkündür. O, düşmənin bütün ehtiyatlarını yandıraraq onun məhvinə səbəb olan od deyil». Fəslin sonunda Sun-tszı «od hücumundan» digər mövzuya keçir. Bu mövzu son zərurət olmayanadək müharibəyə başlamamaq barədə inadkar xəbərdarlıqdır.

Bu mövzu ilə əvvəlki fikirlər arasında əlaqə aydın deyil. Çox güman ki, Sun-tszı indicə müharibə aparmağın ən amansız üsulunu təsvir edərkən «qeyri-insani» hərəkətələrin edilə biləcəyi ilə bağlı məsələ qaldırır və bu mövzuya toxunmaqla müharibənin dəhşətlərinin təəssüratlarını azaltmağa cəhd göstərməklə, müharibəyə başlayanları dəhşətli qırğın vasitələrindən son anda istifadəyə çağırır. Buna görə də, o bir sıra ehtiyat tədbirlərini məsləhət görür.

«Əgər fayda yoxdursa, hərəkət etmə»- birinci xəbərdarlıq budur. Du Mu deyir: «Müharibəyə başlayacağın təqdirdə fayda əldə edə bilərsənsə, silaha əl at». Mey Yao-çen, hətta hansı faydadan söhbət getdiyini təyin edir. «Əgər müharibə xalq üçün ziyanlıdırsa, onu başlamaq olmaz». «Əgər təhlükə yoxdursa, müharibə etmə»,- deyilir ikinci xəbərdarlıqda. «Silaha onda əl at ki, başqa çıxış yolun yoxdur»,- söyləyir Tsao-qun. «Müharibə– bədbəxtlik silahıdır, vuruşmaq- təhlükəli işdir. Özünü bədbəxtlik və məğlubiyyətdən qorumaq gərəkdir. Ağılsızcasına silah qaldırmaq olmaz. Buna o zaman rəvac verirlər ki, başqa çıxış yolu yoxdur»,- aydınlaşıdırır Çjan Yuy.

«Hökmdar öz qəzəbi üzündən silah qaldırmamalıdır» - bildirir üçüncü xəbərdarlıqda. Çjan Yuy izah edir: «Ona görə ki, qəzəb nəticəsində müharibəyə başlayanda, az-az hallar olur ki, sağ qalırsan».

«Sərkərdə döyüşə öz hikkəsi üzündən başlamamalıdır»- deyilir dördüncü çəkindirmədə. «Ona görə ki,- aydınlıq gətirir Çjan

Yuy,- haçan ki, hikkə üzündən döyüşə başlayırlar, az-az olur ki, məğlubiyyətə uğramırlar». «Qəzəb yenidən sevincə, hikkə yenidən şənliyə çevrilə bilər, məhv olmuş dövlət isə yenidən dirçələ bilməz, ölülər dirilməzlər»- çəkindirərək deyir Sun-tszı. Mövzuya son qoyaraq, o, söyləyir: «Buna görə də ağıllı hökmdar müharibə məsələsində ehtiyatlı, yaxşı sərkərdə isə təmkinli olur. Bu, dövləti sülh şəraitində, ordunu isə bütöv saxlamaq yoludur».

XIII FƏSİL

Casuslardan istifadə

Tsao-qun öz təfsirində yazır: «Müharibədə . mütləq casuslardan istifadə edir və onların vasitəsi ilə düşmənin vəziyyətini öyrənirlər casusluğun təşkilinin zəruriliyini Çjan Yuy da etiraf edir: «Düşmənin vəziyyəti barədə bir şey bilmək istəyirsənsə, casuslardan başqa vasitə ilə bunu edə bilməzsən. Ancaq casusdan istifadə ciddi sirr tələb edir». Bu son ifadədə aydınlaşdırılası bir neçə məqam var, nə üçün bu fəsil «Casuslardan istifadə» adlandırılıb. Casus saxlamaq hələ kifayət etmir, onlardan istifadəni bacarmaq lazımdır. Sərkərdənin sənətkarlığı da elə bundadır».

Çjan Yuy deyir ki, bu sənətkarlıq çox ciddi sirri saxlamaq bacarığındadır. Soray bu işi daha geniş başa düşür. O, deyir ki, düşmən haqqında nəyisə bilmək üçün, casusdan istifadədən yaxşı yol yoxdur. Lakin casuslar sadiq və satqın da ola bilirlər. Bunlardan biri casusluğa yararlıdır, digəri isə yox. Casusun gətirdiyi məlumatda həqiqət də ola bilər, yalan da; onların dediyi şeyləri bəzən başa düşmək çətindir, yəni ki, bu həqiqətən belədir, yoxsa yox. Bunun üçün də casusdan istifadə– ordu üçün böyük işdir.

Soray casuslardan uğursuz istifadə ilə bağlı misallar gətirir, o, sərkərdələrdən danışır ki, onlar heç də bu iş üçün yararlı deyillər. M.ö. III əsrdə Tsin qoşunları Xanun köməyinə göndərildiyi Çjao Şeyə qarşı mübarizə apardığı zaman, əvvəldə deyildiyi kimi, onun düşərgəsinə casus yolladılar, amma o, kəşfiyyat məqsədilə heç nə edə bilmədi; Çu çarlığından Qao-tszının düşərgəsinə göndərlən casuslar da heç nə öyrənə bilmədilər. Buna görə də iş yalnız casusların özlərində deyil, onlardan istifadədir. Sun-tszının traktatının XIII fəsili bu mövzuya həsr olunub.

Sun-tszı casusluğun təşkilindən imtinanı və yaxud da kəşfiyyat işlərinə bir o qədər də diqqət yetirilməməsini «qeyri-insaniliyin yüksək həddi» adlandırır. Nə üçün? O, bunu adəti üzrə qısa, lakin çox aydın şəkildə izah edir.

Hələ II fəsildə o, müharibənin dövlətin maliyyəsinə vurduğu ziyanı göstərmişdi: «Əgər sənin min ədəd yüngül və bir o qədər də ağır araban, yüz min əsgərin varsa, ərzağı və ehtiyat hissələrini min mil uzaqlıqda göndərirsənsə, daxili və xarici xərclər, qonaqların qəbulu, lak, kley, arabalar və sursat üçün bir günlük xərclər min qızıl pul edir» (II,2). Biz əlbəttə, bu məbləğin real dəyərini təyin edə

bilmərik, amma heç şübhəsiz, Sun-tszının o dövrdə söylədiyi bu məbləğ çox yüksəkdir.

II fəsillə bağlı şərhdə göstərildiyi kimi, məsələ bununla bitmir. Əsası odur ki, bu, əhalinin çox hissəsinin yoxsullaşmasına, təsərrüfat işlərinə mənfi təsir edir. Müharibə ağır məhrumiyyətlərlə bağlı olur. ordunu silah, sursat və geyimlə təmin etmək, yürüş zamanı saxlamaq lazım gəlir. Buna görə də, yüz minlik ordunu ayağa qaldırıb, min mil uzaqlığa yürüşə göndərirlərsə,- deyir Sun-tszı,- kəndlilərin məsrəfləri, dövlətin xərcləri bir gündə min qızıl pul olur. Sun-tszı bu rəqəmi artıq II fəsildə çəkib, burada isə o, həmin məbləğin kim tərəfindən ödəniləcəyini söyləyir; bu kəndlilər (onlar əhalinin böyük əksəriyyətini təşkil edirlər) və hökumətdir. Amma nəzərə alsaq ki, hökumətin xərcləri töycü və vergidən ödənilir, belə çıxır ki, müharibənin bütün ağırlığını xalq çəkirdi.

Bu, hələ hamısı deyil. Ən əsası, ən nəzərə çarpanı kənd təsərrüfatına dəyən ziyandır. Böyük müharibələr dövründə əhalinin çox hissəsi özlərinin adi məşğuliyyətindən ayrılırdı və tarlalar işlənməmiş qalırdı. «Yeddi yüz min ailə işlə məşğul ola bilmirdi»,- deyir Sun-tszı.

Yuxarıda III fəsilə aid şərhdə artıq izah olunub ki, Sun-tszı bu rəqəmləri haradan götürüb. Bunu ancaq «quyu sistemi» şəraitində başa düşmək olar. Buna görə də, traktatın bu hissəsi Sun-tszı dövründə bu sistemin mövcudluğunu sübut edir. Traktatın təfsirçilərinin hamısı belə başa düşürdülər. «Qədimdə,- yazır Tsao-qun,- hər səkkiz həyət qonşu icması yaradırdı. Bir həyət orduya işləyirdi (yəni, orduya rekrut verirdi), qalan yeddi ailə onu himayə edirdi. Sun-tszı deyir ki, yüz minlik ordu yürüşə başlayanda 700 min ailə torpaq becərmə işindən kənarda qalır. Du Mu yazır ki, qədimdə hər bir kişi işləmək üçün bir tsin torpaq alırdı. Bu torpaq doqquz pay yerinin mərkəzində olurdu. Orada quyu qazılır, taxıl yerləşdirilir və bu səkkiz ailə onun hesabına yaşayırdı. Bu quyulu sahədir». Çjan Yuy deyir: «Quyulu sahənin qanunlarına əsasən, səkkiz həyət qonşu icması yaradır. Bir ailə ordu üçün işləyir, qalan yeddi ailə onu himayə edirdi. Yüz minlik ordunu ayağa qaldıranda, 700 min həyət torpaq becərmə işindən kənarda qalırdı.

Beləliklə, bir həyət əsgərlərə kömək edirdi, qalan yeddisi isə bu qonşunu öz himayəsinə götürürdü. Bu, heç də təkcə o demək deyildir ki, kəndlilər qoyulmuş vergini ödəməlidirlər, onlar həm də digər lazımi şeylər və ərzaq verməli, eləcə də bu şeyləri və hərbi sursatı hərəkət edən orduya çatdırmalı idilər. Bunları uzaq məsafəyə çatdırmaq isə kəndlilər üçün ikinci ağır yük idi. Uzaq yol onları əldən salır, yolun uzaqlığından halsızlaşırdılar.

Traktatın hər yeri ilə tanış olduqdan sonra onun bu yeri bir qədər anlaşılmazlıq yarada bilər. Əgər ordu 1000 mil uzaqlaşırsa, bu, artıq ya düşmən ərazisi, ya da ki, öz sərhədlərindən çox uzaqda olmaq deməkdir. Başqa cür desək, bu, Sun-tszının söylədiyi kimi

«ciddi vəziyyət ərazisi» olacaq. Bəs belə yerlərlə bağlı nə deyilib? Ciddi vəziyyət yerində, qarət et, yəni, düşmənin hesabına qidalan. «Bəs uzaq yolda necə yorulurlar, ərzağı nə üçün uzağa daşıyırlar?»- Çjan Yuy sual qoyur və cavab verir: «Ərzağın daşınması dayandırılmır, hərbi sursat da öz arcxasınca gedir. O zaman ki, müharibədə rəqibi qarət etmək lazım gəlir, deyirlər, bu ona işarədir ki, düşmən ərazilərinin içərilərinə hərəkət edəndə, ərzağın və digər ehtiyatların gecikməsinə hazır olmaq lazımdır. Buna görə də, ehtiyatı təmin etmək məqsədilə, əhalinin qarət olunmasına icazə verilir. Amma, görünür, əhalinin talan edilməsi ilə özünü tam təmin etmək mümkün olmur. Bundan başqa, insanların yaşamadığı, ərzaq olmayan yerlərdən də keçməli olursan. Mümkündürmü ki, yeri gələndə öz ölkəndən gələn yüklərdən imtina edəsən?»

Çjan Yuyun bu sözləri hər şeyi aydınlaşdırır: «ərzağın gətirilməsi dayanmırdı». Buradan məlum olur ki, Sun-tszı belə tez-tez və inadkarcasına sərkərdəni öz kommunikasiya xətlərini, ərzaq gətirilmə yollarını qorumağın zəruriliyi barədə xəbərdar edir. Ordu yürüşdə olduğu zaman, görünür öz ölkəsindən fasiləsiz kəndli karvanları gəlirmiş. Təbiidir ki, 700 min ailənin hamısı torpağın becərilməsi işləri ilə məşğul ola bilməzdi. Tarlalar tam becərilmir, kənd təsərrüfatı itkilərə məruz qalırdı. Müharibənin iqtisadi nəticələri belədir.

Buna görə də, müharibəni mümkün qədər tez «həll etmək» lazım gəlirdi. «Müharibəni həll etmək» düşmənə qalib gəlmək deməkdir. Qələbəni yüngülləşdirmək, ən əsası onu tezləşdirmək üçün düşməni tam öyrənmək lazımdır. Buna görə də Sun-tszı deyir: «Titulları, mükafatları, pulu əsirgəmək və rəqibin vəziyyətini öyrənməmək– bu qeyri-insaniliyin ən yuxarı həddidir».

Bəs, bu titul, mükafat və pulları kimə vermək lazımdır? Li Tsziyan bu suala cavab verir: «Adları və mükafatları casuslara verməmək və onları düşmənin vəziyyətini öyrənməyə göndərməmək– bu, qeyri-humanistliyin yüksək nöqtəsidir. Mey Yao-çen deyir: «O zaman ki, tərəflər bir neçə ildir üz-üzə dayanıblar, 700 min ailə pis vəziyyətdədir, adlar və mükafatları əsirgəyir, hansısa yüz qızıla görə casusları düşmənin vəziyyətinin öyrənilməsinə göndərmir və qələbəyə nail olmurlarsa, bu, qeyri-humanistliyin son həddidir» Pulları, titul və mükafatları boş şey hesab edən Çjan Yuy da belə deyir. Sun-tszının nöqteyi-nəzəri belədir və onu müxtəlif dövrlərin, müxtəlif baxışlı təfsirçiləri yekdillikla qəbul edirlər. Burada əsasən də o xarakterikdir ki, onların fikrincə, xalqın sosial rifahı ilə müqayisədə adlar, mükafatlar və pullar– xırda şeylərdir. Buna görə də Sun-tszı təsdiq edir: əgər sərkərdə bu xırda şeyləri əsirgəyirsə, xalqın rifahı və zəhmətini nəzərə almırsa, o, «xalqın sərkərdəsi, dövlətin köməkçisi və qələbənin sahibi deyil». Digər tərəfdən: «Bacarıqlı hökmdarlar və müdrik sərkərdələr hərəkət edir və qalib gəlirdilər, hər şeyə üstün gələrək hünər göstərirdilər, ona görə ki, hər şeyi qabaqcadan

bilirdilər». «Hökmdarlar yerlərindən boşuna tərpənmirdilər. Əgər onlar hərəkətə gəlirdilərsə, mütləq qələbə çalırdılar. Sərkərdələr mənasız hünər göstərmirdilər. Əgər onlar qəhrəmanlıq edirdilərsə, mütləq hər şeyə əsaslanıb bunu edirdilər. Bu, nəyin hesabınadır? O, hesab edir ki, onlar düşmənin vəziyyətini qabaqcadan bilirdilər»,- deyir Mey Yao-çen. «Düşmənin imkanlarını qabaqcadan öyrənmək– bu. Allah kimi hərəkət etmək deməkdir»,- Van Çje bildirir.

Bəs bu biliyi hansı yolla almaq olar? Sunn-tszı buna dəqiq cavab verir: «Biliyi Allah və şeytandan öncə almaq mümkün deyil». Nə üçün? Buna Çjan Yuy cavab verir: buna görə ki, «onlara baxırsan, lakin heç nə görmürsən; onları eşidirsən, lakin heç nə eşitmirsən; dua etməklə nə isə bir şey öyrənmək olmaz». Mey Yao-çen əlavə edir: «Biliyi baxıcılıqla əldə etmək mümkün deyil». Sun-tszı davam edir: öncəgörməni «oxşarlıq və təhtəlşüurla bilmək olmaz. eləcə də hər cür hesablamalarla da almaq mümkün deyil. Düşmənin vəziyyəti ilə bağlı biliyi ancaq insanlardan almaq mümkündür». «Ancaq insanlardan almaq» ifadəsini Tsao-qun bir qədər dəyişir. «Ancaq casuslardan»- dəqiqləşdirir Li Tsyuan. Mey Yao-çen belə mühakimə edir: «Allahlar və şeytanlar haqqında baxıcılıq vasitəsi ilə bilmək olar; şeylər, onların forma və məzmunu ağlın nəticəsi və oxşarlığı ilə öyrənilə bilər; Səma və Yerin qanunlarını sərf-nəzər etməklə bilmək olar; düşmənə gəldikdə isə, onu öyrənmək üçün mütləq casusun köməyinə arxalanmaq lazımdır, ancaq bundan sonra nə isə bilmək olar». Çjan Yuy da belə fikirləşir.

Casus fəaliyyətinin zəruriliyi barədə təsəvvür yaratdıqdan sonra Sun-tszı casusların kateqoriyalarına keçir, hansı ki, onun dövründə bunlar yaxşı məlum idi. Bu kateqoriyalar beşdir. Sun-tszı bunlara belə adlar verir: yerli casuslar, daxili casuslar, əks casuslar, ölüm casusları, həyat casusları. Nəzərə almaq lazımdır ki, bu, o dövr casuslarının təsnifatıdır və onların üzərində dayanmaq lazımdır.

Sun-tszı özü müəyyən edir ki, bunlar nə deməkdir. «Yerli casuslar onlardır ki, ordu rəqib ölkənin ərazisində olduqda həmin ölkədən olan casuslar məlumatlar gətirirlər. «Daxili casuslar» deyəndə, o şəxslər nəzərdə tutulur ki, onlar başqa ölkənin ordusunda xidmətdədir və eyni zamanda özgə dövlətin agentidirlər. «Əks casus» deyiminin xüsusiliyi var və bunlar o şəxslərdir ki, duşmənin agentləridirlər, düşərgəyə gəliblər və burada tutularaq geriyə göndərilir və öz xeyirlərinə işlədilirlər, yəni, gəldiyi ölkənin maraqlarına xidmət edirlər. Sun-tszı «ölüm casusları» deyəndə öz agentlərini nəzərdə tutur və bu agentlər tapşırığı yerinə yetirərkən ölə bilərlər. «Həyat casusları» isə onlardırlar ki, onlar düşmən tərəfdə məlumat toplamaq üçün göndərildikdə tələb olunur ki, nəyin bahasına olursa-olsun geriyə sağ qayıtsınlar və məlumat gətirsinlər. Beləliklə, birinci kateqoriya casuslar– informasiya gətirənlərdir, ikincisi– düşmən düşərgəsində olan agent və ordunun öz adamlarındandır, üçüncüsü– düşmən agentidir və ondan düşmənin

özünün əleyhinə istifadə olunur, dördüncüsü– casus təxribatçılar, beşincisi isə kəşfiyyatçılardırlar.

Soray yerli casusların ələ alınması ilə əlaqədar belə yazır: «O zaman ki, yerli sakinlər rəqibdən (yəni, öz hakimiyyətindən– N.K.) rütbə və mükafatlar almırlar, borc hissi onlarda çox zəif olur. Əgər onları öz mərhəmətinlə ovundura bilsən, bunun müqabilində düşmənin güclü və zəif cəhətlərini söyləyəcəklər. Onların ipə-sapa yatmayanlarını pul və daş-qaşla ələ almaq olar; bəzilərinə vəzifə vəd etmək, digərlərini güc tətbiq etməklə özün üçün işləməyə məcbur etmək olar.

İnsan güc tətbiq edilməklə ələ alınarsa, bu, onun hərisliyi və borc hissinin yoxluğu deməkdir. Yerli sakinlər arasında da elələri tapıla bilər ki, onlar uğursuzluğa düçar olublar və gizlənirlər. Belə insanlar öz istedadlarını göstərmək, rütbə və mükafatlar almaq istəyirlər. Bu insanların mənsəbpərəstliyindən istifadə oluna bilər». Beləliklə, hərislik, vətəndaşlıq borucunun olmaması, eqoistlik və mənsəbpərəstlik– bütün bunlardla, bunun əsasında düşmən ölkənin əhalisindən casus kimi istifadə etmək mümkündür.

«Daxili casuslar» kimlərdən olur? Bu suala cavabı Du Mu verir: «Duşmənin məmurları arasında elə ağıllı adamlar var ki, vəzifələrini itiriblər; insanlar var ki, nədəsə təqsirli biliniblər və cəza çəkirlər; zəngin olmaq istəyənlər var; elələri də var ki, aşağı vəzifəyə qoyulublar; elələri var verilən tapşırığı yerinə yetirməyiblər; elə insanlar var ki, öz qabiliyyətini göstərmək üçün geniş məkan axtarırlar və bunu başqalarının bədbəxtliyi hesabına etmək istəyirlər; elələri də var ki, hiyləgərliyə və yalana meyllidirlər, ikiqəlblidirlər. Belə insanlarla casusluq əlaqələrinə girmək, onları səxavətlə pul təklif etməklə öz yanına çəkə, ölkədə və ordudakı vəziyyətlə bağlı məlumat əldə edə, eləcə də onun vasitəsi ilə hökmdar və onun vassalları arasında nifaq sala bilərsən».

Təfsirçi Xe Çin tarixindən məlum olan daxili casusların tapılması və onlardan istifadə ilə bağlı əyani vasitə kimi edə bilən bir hadisəni xatırladır.

Çjanqo dövründə– daxili müharibələrin bitmədiyi dövrdə, (236-229) Tszin və Çjao knyazlıqları arasında müharibə gedirdi. Tsin ordusunun başında məşhur sərkərdə Van Tszyan dayanmışdı. Çjao knyazlığının qoşununa isə knyazlığın şimal sərhədlərini hunların hücumlarından məharətlə qorumaqla şöhrətlənmiş Li Mu komandanlıq edirdi. Bu sərkərdə «ağıl və hünəri» özündə birləşdirmidi. Bunun nəticəsində Tsin qoşunu bir-birinin ardınca məğlubiyyətə uğrayırdı. Böyük hərbi rəislərdən sayılan Xuan Yaonun dəstəsi tamamilə məhv edildi, baş komandan Van Tszyan isə təhlükəli vəziyyətdə qaldı. Bu zaman Van Tszyan başa düşdü ki, bu cür rəqiblə açıq döyüşdə bacara bilməyəcək və başqa üsullarla fəaliyyət göstərmək qərarına gəldi.

Çjao knyazının sarayındı Qo Kay adlı birisi vardı və o, knyazın sevimlisi idi. Van Tszyan bilirdi ki, bu şəxs sərkərdə Li Munun uğurlarına həsəd aparır və onun knyaza təsirindən qorxaraq sərkərdəni aradan götürmək istəyir. Buna görə də, Van onunla gizli əlaqəyə girdi, çoxlu pul verdi və guya dostcasına xəbərdarlıq etdi ki, Li Mu müharibənin sona çatmasını gözləyir, sonra isə əleyhdarı ilə haqq-hesab çürüdəcək. Bu fikir Qonun özünün ehtimalları ilə uyğun gəldi və o, fikirləşmədən knyazın yanına gedib dedi ki, guya ona məlum olub ki, Li Mu knyazı öldürmək, Tsin knyazlığının tərəfinə keçərək, Tsin knyazının əli ilə Çjao knyazlığına rəhbərlik etmək istəyir. Çjao knyazı öz sevimlisinə inandı, Li Munu ordudan geri çağırdı və onu edam etdirdi. Li Munun yerinə iki başqa, heç bir qabiliyyəti olmayan hərbi rəhbərlər qoyuldu. Bacarıqlı sərkərdənin yoxluğu özünü çox gözlətmədi. Cəmi üç ay keçdi, Çjao ordusu Tsin qoşunları tərəfindən tamamilə məhv edildi, orduya rəhbərliyə göndərilmiş iki nəfərdən biri həlak oldu, digəri isə əsir düşdü.

Həmin Xe belə bir misal da çəkir ki, özünə daxili casus axtaran düşmənin öz casusunun özü əleyhinə işləməsini təmin etmək olar. Hadisə Tszin knyazlığının Şu knyazlığı ilə müharibəsi dövründə baş verib (m.ö. IV əsrin birinci yarısında). Şu qoşunlarına Li Syun komandanlıq edirdi. Tszin qoşunlarının başında Lo Şan dayanmışdı. Mübarizə heç bir tərəf üçün nəticəsiz davam etdirilirdi. Bu zaman Li Syun hiyləyə əl atmaq qərarına gəldi. O, bilirdi ki, Lo Şan tezliklə hər bir hadisədən istifadə edərək düşmən düşərgəsində «daxili casus» tapmaq istəyəcək və ona bu imkanı vermək qərarına gəldi; bu rolu oynamağı özünün etibarlı vassalı Pu Taya tapşırdı. Onun guya satqınlığını göstərmək üçün əsgərlər qarşısında açıq cəzalandırma səhnəsi quruldu və Pu Taya çubuqla döyüldü. Cəza o qədər vicdanla icra olundu ki, onu qan içində apardılar. Bunun müqabilində Lo Şanda heç bir şübhə qalmadı ki, Pu Tayadan «daxili casus» kimi istifadə etmək olar. Buna görə də Pu Taya gizli şəkildə ona əməkdaşlıq təklif edəndə və bildirəndə ki, bununla o, öz hərbi rəhbərindən qisas almaq istəyir, Lo Şanda şübhə qalmadı. Pu Tayanın planına əsasən, o, öz rəisini öldürməli, od yandırmalı və bu, Lu Şanın qoşunlarının hücumu üçün siqnal olmalı idi. Məsələ razılaşdırılmışdı və təyin olunmuş vaxtda Li Syunun düşərgəsində alov göründü. O saat Lo Şanın seçilmiş yüz döyüşçüsü hücuma keçdi; düşünülürdü ki, çaxnaşmada onlar asanlıqla düşmən mövqelərinə keçə biləcəklər. Əlbəttə ki, onlar öldürüldülər. Bununla yanaşı, hücuma keçən Lo Şanın qoşunu pusquya düşdü və tar-mar edildi.

Casusların üçüncü tipi «əks casuslar» adlandırılır. Sun-tszı, düşmənin göndərdiyi casusların geri qaytarılaraq öz ölkələrində həmin dövlətin əleyhinə iş aparan casuslara belə ad qoyub. Bu, düşmən casusudur və o, elə həmin düşmənin özünə qarşı yönəldilir.

Buna necə nail olunur? Bu suala Du Mu cavab verir: «Düşmənin casusu gələndə və məni müşahidə etdikdə, mən qabaqcadan bundan xəbərdar olmalıyam; bu zaman ona çoxlu pul təklif edərək, onu mənə işləməyə məcbur etmək olar; belə də mümkündür ki, özünü bilməməzliyə vuraraq, ona yanlış məlumatlar verib yola salmaq olar. Belə olan halda düşmən casusunun özü əksinə, mənim tapşırığımı yerinə yetirəcək». Adətən, düşmən casusundan istifadə aləti kimi pula ələ alma və yalan rol oynayır.

Çin tarixində xeyli nümunə tapmaq olar ki, casus sənin tərəfinə xidmət etmək üçün pula ələ alınır.

Sun sülaləsi dövründə Şeen-tszunun hakimiyyəti illərində (1068-1086), məşhur islahatçı Van An-Şi öz fəaliyyəti ilə əleyhdarlarının ehtirası ilə üzləşdi və bu, böyük həyəcana səbəb oldu. O dövrdə Sun imperiyası şimaldan təzyiq edən kidanlarla gərgin mübarizə aparmalı olurdu. İmperiyadakı qarışıqlıqdan və Van An-Şinin öülümnən istifadə edən kidanlar bir sıra uğurlu yürüşlər edərək, demək olar ki, Şimali Çinin bütün ərazilərinin tutdular. Sunn dövləti cənuba, Yantszının arxasına sıxışdırıldı və o vaxtı Çinin doqquz vilayətindən üçünü güclə saxladı. Bununla belə, Sunn imperiyası süquta uğramadı və özündə güc taparaq qüdrətini qismən bərpa etdi. Bir sıra siyasətçi sərkərdələr– Tszın Tsze, Yue Fey, Xan Şi-çjun, Çjan Tszyun və başqaları meydana çıxdı. Dövlətin daxili vəziyyətinin qaydaya düşməsi ilə yanaşı, kidanlara zərbələr də vuruldu. Bu vaxt Kidan hökmdarı mübarizəni müvəqqəti dayandırmaq və Sunn imperiyasının bu xadimlərinin gücünün azalmasını gözləmək qərarına gəldi. Lakin düşmənin gücü o qədər təhlükəli xarakter aldı ki, Kidan hökmdarı hərəkət etmək məcburiyyətində qaldı. Eyni zamanda kidanlar Sun hökuməti tərəfindən göndərilmiş agent Tsin Quyu tutmağa nail olub. Vətənə qayıdan Tsin Quy yenidən Sun sarayında xidmət etməyə başladı və qabiliyyətli adam kimi vəzifəcə yüksəldi, kansler postuna sahib oldu, nəhayət Sun hökumətinin idarəsi gizli kidan agentinin əlinə keçdi.

Tsin Quy kidan hökmdarı ilə əldə olunmuş razılığa əsasən ölkənin hərbi qüdrətinin artırılması ilə bağlı olan bütün tədbirləri ləğv etdi, kidanlara qarşı müharibəyə hazırlığı dayandırdı, onalrla sülh bağladı və Sun imperiyasının maraqlarına xidmət edən bütün hərbi rəisləri vəzifələr azad etdi. Beləliklə, o, Çinin iki çarlığa– Şimali və Cənubi Çinə bölünməsinin qarşısını almaq istəyən Sun imperiyası xadimlərinin mövqeyinə zərbə vurdu və faktiki olaraq Çinin bütün şimalını xarici müdaxiləçilərə təslim etdi. Bu, Sun imperiyasının qüdrətini– birliyini təmin etmək ümidləri bütün cəhdlərə baxmayaraq başa çıxdı.

Sun-tszının «ölüm casusları» o şəxslərdir ki, onlar düşmənin yanına o məqsədlə göndərilirlər ki, ona yalan məlumatlar versinlər, onu aldatsın və elə hərəkətlərə məcbur etsinlər ki, ona ziyandır və hətta rəqibin məhvinə səbəb ola bilər. Təbiidir ki, yalan üzə çıxsa,

agent öldürüləcək. Əgər təfsirçilərin gətirdiyi tarixi misallara əsaslansaq, görərik ki, düşmənlə aldadıcı sülh danışıqlarına, hətta sülh bağlanmasına casus elçilər göndərilirdilər. Məhz bu zaman düşmən elçinin sülh vədlərinə inanaraq sayıqlığını itirir və ehtiyatsızlığa yol verir, əks tərəf qəti hücuma keçirdi. Bu zaman düşmən tərəfində girov kimi qalan və öz təklifinin həqiqi olduğunu sübut etmək üçün saxlanılan elçinin hiyləsinin üstü açılır və o öldürülürdü. Məsələn, Du Mu Xon imperatoru Qao-Iszının (m.ö. 206-195) Tsi knyazlığı ilə müharibəsi zamanı baş vermiş bir hadisəni xatırladır. Bu knyazlıqla müharibə apararkən Qao-Iszu başa düşdü ki, öz düşmənini adi yolla qələbə çala bilməyəcək. Buna görə də o, rəqibi ilə yalançı sülh danışıqları aparmaq üçün oraya bacarıqlı diplomat Li Şi-tsını göndərdi. Bu diplomat işi elə ustalıqla qurdu ki, Tsi knyazı nəinki sülhə razı oldu, hətta öz qoşunlarını sərhəddən geri çəkdi. Qao-tszu elə bunu gözləyirdi. Sərhədlər müdafiə olunmadığı zaman Xan sərkərdəsi Xan Sin Tsi knyazlığının ərazilərinə soxuldu. Elçi əlbəttə ki, öldürüldü, lakin bu, Tsi knyazlığını xilas etmədi; o, xanlıların zərbələri nəticəsində süqut etdi.

Bu cür hadisə Fan imperatoru Tay-tszının hakimiyyəti illərində də oldu (627-649) və bu barədə Xe Yan-Si danışır. Tay-tszun türklərlə gərgin mübarizə aparırdı. O, türkləri mümkün qədər tez məğlub etmək üçün Fan Tszyanı sülh danışıqlarına göndərdi. Türklər öz əməliyyatlarını müvəqqəti dayandırdılar. Danışıqların qızğın getdiyi bir vaxtda Tay-tszun qoşunlarını özünün ən yaxşı sərkərdəsi Li Vey-qunun komandanlığı altında irəli göndərdi (Li Tszina). Li Vey-qun öz sayıqlıqlarını azaltmasından istifadə edərək, gözlənilmədən türkələrin üstünə hücum etdi və həlledici zərbə vurdu. Bu epizod haqqında Li Vey-qunun «Dialoqlar»ında da söhbət gedir, lakin bir qədər başqa şəkildə.

«Tay-tszun soruşdu: «O zaman ki, mən Fan Tszyanı türklərin yanına göndərdim, siz bundan istifadə edib onlara hücum çəkdiniz və əzdiniz. O vaxt mənə dedilər ki, siz Tan Tszyandan ölüm casusu kimi istifadə etmisiniz. Mən indiyə qədər bilmirəm ki, bu düzdür, ya yox. Məsələ necə olub?»

Li Vey-qun bir qədər əyilərək, cavab verdi: «Biz Tan Tszyanla çiyin-çiyinə öz dövlətimizə xidmət edirdik. Lakin Tan Tszyanın danışmaq bacarığına əmin olsam da, belə başa düşürdüm ki, o, türkləri yola gətirə bilməyəcək. Buna görə də, mən qərara gəldim ki, danışıqlar yolu ilə türklərin sayıqlığını azaldaq. Onların döyüş qabiliyyətini aşağı saldıq və öz ordumuzla hücuma keçdik. Böyük bədbəxtliklərin qarşısı alınanda kiçik şeylərə diqqət yetirilmir. Adamlar deyirlər ki, mən Tszyandan ölüm casusu kimi istifadə eşitmişəm, mənim belə fikrim olmayıb» (Li Vey-qun venduy, II, s. 47-48). Lyu İnin şərhdə söylədiyi fərziyyəyə əsasən, hadisə belə olub.

Çjen-qun hakimiyyətinin dördüncü ilində (630) Li Vey-qun Tszeli xanın başçılıq etdiyi türklərə amansız zərbə vurdu. Xan

Teşana qaçsa da. öz qoşununun 100.000-dən çox əsgərini özündə saxlaya bildi. Oradan Tay-tszuna xəbər göndərdi ki, təslim olmağa və Tan imperiyasının vassalına çevrilməyə hazırdır. İşin sülh ilə başa çatmasını istəyən Tay-tszunun özü də elçi Tan Tszyan xanın yanına göndərdi ki, onu dilə tutsun və həqiqətən təslim olmağa razı salsın. Eyni zamanda o, Li Vey-quna öz ordusu ilə xana hücum etmək əmri verdi. Lakin xan özünü barışmağa meylli kimi göstərdi, əslində isə vaxt udmaq istədi. Buna görə də, Çin ordusunun hərəkətə gəldiyini öyrənəndə Tsibeyə qaçmaq qərarına gəldi. Bu zaman Li Vey-qun həmkarı, Li Şi-tszı ordusunun komandanı ilə görüşdə ona dedi: «Xan məğlub olub, amma onun gücü hələ çoxdur. Əgər xan indi Tszibeyə qaçsa, onunla bacarmaq çətin olacaq. Hazırda imperatorun elçilsi onun yanındadır. Quldurlar bununla əlaqədar, yəqin ki, öz sayıqlıqlarını azaldacaqlar. Əgər indi biz on min seçmə süvari götürsək, ona zərbə vura və xanı əsir götürə bilərik». Bu müşavirədə iştirak edən Çjan Qunn-tszyan bununla bağlı dedi: «Axı imperator göndərdiyi məktubunda xanın təslim olmasını istəyir və elçi də oradadır. Belə olan halda xanın ürəyinə necə hücum etmək olar? Li Vey-qun cavab verdi: «Tan Tszyana görə heyfsilənməyə dəyməz»,- Li Vey-qun öz qoşununu topladı və gecə yürüşə çıxdı.

İmperatorun elçisini öz yanında görən xan çox sevindi və hesab edirdi ki, onun fikirləri həyata keçəcək və Çin qoşunlarının yaxınlaşdığını onda bildi ki, onlar artıq yeddi millik məsafədədirlər. O, tez ata minib qaçdı, ordusu isə pərən-pərən düşdü. Tan Tszyan isə heç bir ziyan çəkmədən geri qayıtdı.

Bu mülahizədən belə çıxır ki, Tan Tszyan türklərin yanına «ölüm casusu» qismində göndərilməyib. O, sadəcə, yaranmış vəziyyət üzündən bu rolu oynamalı olub. Bu işi quran Li Vey-qun isə onu düşünmürdü ki, öz dostunu ölümə sövq edir; onun üçün dostu qarşısında borc «kiçicik borc» idi, vətən qarşısında borc isə «böyük borcdur». Tan imperiyası üzərində asılmış təhlükəni gördükdə və bunu aradan qaldırmaq üçün o, fikirləşmədən öz dostunu qurban vermək qərarına gəlib.

Çinlilər bu cür «ölüm casusları» nın hesabına XVI əsrdə Koreyaya hücum etmiş yaponların üzərində qələbə çala bilmişdilər. Konisi Yukinaqa Mancuriya sərhədlərinə qədər gəlib çıxanda, Koreya qoşunlarını və hətta yaponlara qarşı göndərilmiş Tszu Çen-syunun rəhbərliyi altında olan birinci ordusunu darmadağın etdilər. Çinlilər onunla sülh bağlamaq üçün səlahiyyətli nümayəndə göndərdilər. Fasiləsiz döyüşlər apararaq çox yorulan Yukinaqa bu təklifə müsbət cavab Verdi və barışıq vəziyyəti yapon qoşunlarının sayıqlığı və durumuna öz təsirini göstərdi. Bundan əlavə, onun kəşfiyyat şəbəkəsinin ləğvi öz düşməni haqqında məlumat toplamaq imkanını puça çıxardı. Nəticədə yapon ordusu Pxenyan yaxınlığındakı döyüşdə tar-mar edildi.

Çjan Yuy qəhrəmanı yenə də «ölüm casusu» olan lətifəyə bənzər hadisəni misal gətirir. Bu hadisə Sun imperiyasının Sis çarlığı ilə tanqutlara qarşı müharibəsi zamanı baş vermişdi (XI əsr). Həmin dövrdə tanqutlar o qədər güclü idilər ki, sunlular qərbdən özlərinin başı üzərində asılmış bu təhlükəyə qarşı heç nə edə bilmirdilər. Tanqut çarlığının qüdrəti onda idi ki, orada çox sayda istedadlı və sadiq hərbi rəhbərlər və inzibatçılar var idi. Buna görə də sunlular birinci növbədə onları aradan götürmək qərarına gəldilər. Bu məqsədlə növbəti plan hazırlandı: ölüm cəzasına məhkum olunmuş şəxsi əfv edərək «ölüm casusu» kimi tanqutların tərəfinə göndərmək. Belə bir cinayətkar tapıldı, amma onun sadıqliyinə və fədakarlığına şübhə var idi, buna görə də ona heç bir tapşırıq verilmədi, onu bal yaxılmış qoşun kürəciyi udmağa məcbur etdilər, başını qırxdırdılar və bütpərəst monax paltarı geyindirib tanqutların yanına göndərdilər. Yalançı monax əlbəttə ki, tutuldu və sorğu-sual edildi. İşgəncə altında o, özünə məxfi məlumat olan kürəcik uddurulduğunu etiraf etdi. Ona dərman verdilər və kürəciyi çıxardılar. Kürəciyi açaraq Sun imperatorunun məktubunu götürdülər, hansı ki, bu məktubda Sun sarayı ilə əməkdaşlıq edən tanqut sərkərdələrinin və yüksək vəzifəli şəxslərin adları var idi. Tanqut imperatoru o qədər dardüşüncəli idi ki, bu yalanı həqiqət kimi qəbul etdi və məktubda adı olan şəxsləri edam etdirdi. Əlbəttə ki, «ölüm casusu» da sağ qalmadı. Bununla da, Tanqut çarlığının müəyyən qədər zəifləməsinə nail olundu, elə çinlilər də bunu istəyirdilər.

Sun-tszı casusların sonuncu kateqoriyasını «həyat casusu» adlandırır. Təyinatına görə, bunlar o casuslardırlar ki, «məlumat gətirərək qayıdırlar». Qısaca desək, başqa dövlətə göndərilən bu casuslar lazımi məlumatlar toplayırlar. Onların işinin mənası ondan ibarətdir ki, bu məlumatları çatdırmaq üçün həmin casuslar öz işlərini gizli görməli və hər bir vasitədən istifadə edərək öz vətənlərinə sağ-salamat qayıtmalıdırlar. Onların adı elə bundan götürülüb. Təbiidir ki, bu iş üçün xüsusi adamlar seçilməlidir. Bütün təfsirçilər bundan danışır və hətta bu cür casuslar üçün lazım olan keyfiyyətləri sadalayırlar. Du Mu deyir: «Həyat casusları üçün seçilən şəxslər daxilən zəngin və ağıllı, zahiri cəhətdən isə kəntoy, xarici görünüşcə zəif, ürəyində cəsur olmalıdırlar; o insanları seçmək lazımdır ki, yaxşı yol gedə bilirlər, sağlam, dözümlü, fədakar, sadə mədəniyyəti dərk edən, aclığa, soyuğa, təhqirə, rüsvayçılığa dözümlüdürlər. Du Yu bu agentlərdən tələb olunan digər keyfiyyətlərə işarə edir: «Elə şəxsləri seçmək lazımdır ki, onlar müdrik, istedadlı, qabiliyyətlidirlər, düşmən tərəfdə daha vacib olan şeylərə müdaxilə edə bilir, onu başa düşənlərlə əlaqə yarada və öz hərəkətlərinin nəyə gətirib çıxara biləcəyini əvvəlcədən görür, düşmənin zəif və güclü cəhətlərini anlaya bilir və lazımi məlumatları gətirib çatdıra bilirlər». Mey Yao-çen deyir ki, ağıllıları və bəlağətli danışığı olanları göndərmək lazımdır,– Soray daha bir dərəcə əlavə edir: o şəxslər ki, düşmənin

«yüksək vəzifə və rütbəsində olan təsirli və qüdrətli şəxsləri ilə dostluq əlaqələrinə malikdirlər,. XVIII əsrin yapon təfsirçisi özünün çinli həmkarlarının xatırlatmadıqları daha qədim üsullardan danışır. Onları şaman, rahib, kustar sənətkar, avara, həkim, dərviş görkəmində göndərmək lazımdır. Onları səfir qismində də göndərmək olar.

Yeri gəlmişkən, Du Munun yuxarıda dediyi sözlərdə casus xidmətinə göndərmək üçün seçim tələbində «sadə sənət adamları» da hallanmışdı. O zaman bu cür sənət dedikdə, ilk növbədə rəsm və hesab, əsasən də ölçmə və hesablama bacarığı nəzərdə tutulurdu. Beləliklə, Du Mu bu cür işlərə çertyoj cızmaq, plan çəkmək, məsafə ölçmək, ölçünü təyin etmək və s. aid edirdi. Sunn imperiyası ilə bağlı bir epizod şəhadət verir ki, belə insanlardan istifadə olunurdu. Yuxarıda göstərildiyi kimi, sunlular şimal köçəriləri– kidanlarla uzun və inadlı mübarizə aparmalı oldular. Xatırladaq ki, kidanlar hələ 907-ci ildən yavaş-yavaş Şimali Çini zəbt etmiş və özlərinin Lyao çarlığının əsasını qoymuşdular. Bu zaman müharibələr qısa barışıq fasilələri ilə aparılırdı və bu fasilələrdə məqsəd növbəti qarşıdurmaya hazırlıq məqsədi daşıyırdı. Bir dəfə (bu Cənubi Sun dövründə olmuşdu) bu cür sakitlik zamanı kidanların yanına elçi göndərildi elçi kidanlar tərəfindən hörmət-izzətlə qarşılandı və onun şərəfinə qonaqlıq verildi. Qonaqlıq verilən zalda şəkillər çəkilmişdi. Elçi bu şəkillərə baxarkən gördü ki, onlardan birində onun dövlətinin paytaxtı– Tszinlina şəhəri təsvir olunub və onun altında belə bir yazı var: «Atımı Tszinlinanın lap zirvəsinə çıxaracağam». Elçi vətənə qayıdarkən bu barədə imperatora və onun müşavirlərinə məlumat verdi və onlar başa düşdülər ki, müharibə aparmaq faydasızdır. İş burasında idi ki, kidanların sunluların sarayında bundan əvvəlki səfirliyində olan adama bu şəhərin təsviri və planını çəkmək tapşırılıbmış.

Casusların və onların fəaliyyətinin beş kateqoriyası bu cürdür. Bu kateqoriyalar o qədər müxtəlif və əhatəlidirlər ki, Sun-tszı həyəcanlanmaya bilmir: «Casusların bütün beş dərəcəsi işləyir və onların yollarını bilmək olmur. Bu əlçatmaz sirr adlanır. Onlar hökmdar üçün xəzinədirlər. Sun-tszı casus işinin əhəmiyyətini bu cür qiymətləndirir. Bununla əlaqədar onun növbəti nəticəsi də aydındır: «Buna görə də ordu üçün casusdan yaxın olan şey yoxdur; casusdan böyük mükafat yoxdur; casusun işindən gizli olan iş yoxdur».

Bununla əlaqədar olaraq casuslarla işləyən, onlara rəhbərlik edən şəxslərə qoyulan tələblər də aydındır. Belə adamlardan ilk tələb olunan şey ağıldır. Sun-tszı təsdiq edir ki, kamil biliyin olmadan casuslardan istifadə edə bilmirsən». «Ona görə ki,– izah edir Du Mu,– əvvəlcə casusun xarakterini, onun ciddiliyini, düzlüyünü, ağlının hərtərəfliliyini qiymətləndirmək və bundan sonra ondan istifadə etmək lazımdır». Mey Yao-çenin fikrincə, o qədər böyük ağlın

olmalıdır ki, casusun gətirdiyi məlumatın, yalan, düz və yaxud qeyri-dəqiq olduğunu başa düşə biləsən, yalnız bu zaman casusdan istifadə etmək olar». Casusdan yararlanmaq üçün insanları tanımaq lazımdır. «Əgər yetkin ağlın varsa, insanları tanıya bilərsən»,- deyir Çjan Yuy.

Casusun üstünə rəhbərlik edən şəxsdən tələb olunan ikinci şey humanizm və ədalətlidir. «Ədalətli və humanist olmadan casusluq fəaliyyətni tətbiq edə bilməzsən»- təsdiq edir Sun-tszı. Bu halı Men-Şi Tan-qunun «Lya tao» əsərindən iqtibaslar gətirərək izah edir. «O zaman ki, humanistlik və ədalət aşılanır bu insana müdriklik gəlir; əgər müdriklik varsa, həmin şəxs casuslardan istifadə edə bilər». Mey Yao-çen məsələyə konkret şəkildə baxır: «Əgər onlara humanizminlə nəvaziş göstərərsənsə, öz ədalətini göstərər və onlardan istifadə edə bilərsən. Humanistliklə onların ürəyini özünə bağlayır, ədalətlə onların sadiqliyini artırırsan. İnsanpərvərlik və ədalətlə adamlara rəhbərlik edirlər. Bu zaman qeyri-mümkün olan şey qalarmı?»

Casus işinə rəhbərlik edəndən tələb olunan üçüncü şey incəlik və nüfuzetmədir. «İncə və nüfuzedici olmadan casuslardan əsl nəticəsi ala bilməzsən»,- deyir Sun-tszı. Du Mu bunu belə izah edir: «Ola bilər ki, casus hər cür ləl-cəvahirat alsın, amma düşməndən heç bir məlumat gətirməsin. Bu zaman o, mənim tapşırığımı yalanla başından eləməyə cəhd göstərəcək. Bax, burada ehtiyatlı və nüfuzedici olmalısan; bilmək lazımdır ki, onun məlumatında nə düz, nə səhvdir». Mey Yao-çen hesab edir ki, nüfuzedicilik onun üçündür ki, «özünü düşmənin göndərdiyi casusdan qoruya biləsən». «Nüfuzedicilik... Nüfuzedicilik! Bu olan zaman casusdan istifadə etmək çətin deyil,- vurğulayır Sun-tszı və bu xüsusiyyətin vacib rolunu qeyd edir.

Maraqlıdır, təfsirçilər bu qabiliyyəti o qədər qüdrətli hesab edirlər ki, dərin nüfuzetməyə malik olan adam hər şeyi qabaqcadan bilər və görər. Çjan Yuy birbaşa belə də deyir: «O zaman ki, nüfuzetmə və yenə də nüfuzetmə var, mümkün olmayan və əhəmiyyətsiz şey yoxdur: hər şey qabaqcadan bilinir». Du Mu hesab edir ki, «hər işdə hər şeyi qabaqcadan bilmək lazımdır» və o hesab edir ki, Sun-tszının yuxarıda dediklərinin də mənası elə bundan ibarətdir.

Soray bu deyilənlərin son sözlərinə xüsusi əhəmiyyət verir: «Nüfuzedicilik olduğu zaman, casuslardan istfadə etməkdən asan şey yoxdur». Onun fikrincə, bu sözlər o deməkdir ki, sərkərdə hər şeydən və hamıdan istifadə edə bilər: «Düşmən ölkəsindən gələn hər kəsdən, istər o sadə kəndli olsun, istər dağ sakini, odunkəsən, ovçu və yaxud alverçi olsun. İnsanlardan heç danışmağa dəyməz: hər bir şeydən, gözünə görünən, qulağın eşidən nə varsa: küləkdən, bulaqdan, çaydan, xoruzların banlamasından, itlərin hürməsindən–

bütün bunlardan əsl sərkərdə casus kimi istifadə edə bilər. Soray casus işinin müzakirəsinə bu cür geniş meydan verir.

Bununla da, casuslardan istifadə mədəniyyəti ilə bağlı əsas hallardan bəhs edən fəsilin birinci bölməsi başa çatır. Daha sonra ayrıca detallarla bağlı müzakirələr gəlir.

«Əgər casus məlumatı hələ göndərlməyibsə və bu, artıq məlum olubsa, casusun özü və onun məlumat verdiyi adam ölümə məhkum edilir».- Sun-tszının yeni qaydası bunu təsdiq edir. «Birini sirri verdiyinə görə, digərini isə bu barədə danışdığına görə cazalandırırlar»,- izah edir Çjan Yuy.

Xan imperiyasının tarixində göstərilir ki, imperator Qao-tszunun hakimiyyəti dövründə Vey knyazı hökmdara qarşı üsyan qaldırdığı zaman Uao-tszu başqa heç bir şey soruşmadan bir şeyi xəbər almışdı: Vey knyazlığında kim baş komandan təyin olunub? Ona cavab verdilər ki, Bo Çji. İmperator isə dedi: «O, hələ südəmər uşaqdır. Onun hələ mənim Xan Sirimə çatmağına çox var! Narahat olmağına dəyməz». Sonra soruşdu ki, süvari qoşunlara kim rəislik edir? Ona cavab verdilər ki, Pin Tszin. O, ancaq güldü və dedi: «O ağıllıdır, lakin mənim Quan İnimə çatmağına çox var: «Bəs, piyadaların rəisi kimdir?– sonra soruşdu Qao-tszu. Ona dedilər, Şan-To. «Əşi, o, mənim Tsao-Tsanımla müqayisə edilə bilməz. Mən tam sakin ola bilərəm!» – və bir daha heç nə soruşmadı.

Bu rəvayətin işığında Sun-tszının sonrakı sözləri lap aydın olur: «Ümumiyyətlə, nə vaxt ki, düşmənin ordusuna zərbə endirmək, onun qalasına hücum etmək, onun insanlarını öldürmək istəyirsən, mütləq əvvəlcədən onun xidmət sahələrinə başçılıq edənlərin, köməkçilərinin, mühafizəçilərinin, onu qoruyan əsgərlərin adlarını öyrən. Öz casuslarına tapşırıq ver ki, bunların hamısını öyrənsinlər».

Aydın olmalıdır ki, kimlə qarşılaşırsan, vacibdir ki, düşmənlə mübarizə taktikası müəyyən edəsən. Əgər bunlar hər hansı başqa yolla mümkün deyilsə, rəqibin ordusunun şəxsi heyəti barədə məlumat toplamağı casuslara həvalə edirlər. Sun-tszı düşmənin təkcə yüksək vəzifəli hərbi rəisləri barədə deyil, aşağı vəzifəli, hətta sadə komandirləri barədə məlumatlar toplamağın da zəruriliyini təklif edir. «Hücum etmək istəyəndə mütləq bilmək vacibdir ki, rəqib tərəfdə xidmətdə kimlər var, onlardan hansı ağıllı və bacarıqlıdır, hansı yox. Bunları götür-qoy edib, onların qabiliyyətini öyrənib, düşmənə qarşı çıxış etmək lazımdır»,- deyir Du Mu.

Düşməni tanımaq yalnız ona görə lazım deyil ki, necə hərəkət etməyi müəyyənləşdirəsən. Bu həm də casus işi üçün lazımdır. Casuslar o zaman yaxşı işləyirlər ki, kimlə iş gördüklərini bilirlər. Bu fikir Mey Yao-çenin söhbətlərində də öz əksini tapıb: «Əgər mən öz casuslarıma bunları qabaqcadan öyrənməyi tapşırsam, casuslarım fəaliyyət göstərə biləcəklər».

Bu tövsiyələrdən sonra Sun-tszı «əks casuslar» məsələsinə keçir və o, buna xüsusi əhəmiyyət verir. Yuxarıda göstərildiyi kimi,

bu adı o, öz əlinə keçirdiyi düşmən casuslarına verir və bu casuslar öz iradələri ilə əks tərəfə işləyirlər. Sun-tszı hər şeydən əvvəl onu tələb edir ki, düşmənin bu cür agentini öz agentinə çevirmək üçün maksimum cəhd edilsin. «Əgər sən bildin ki, düşmən agenti gəlib və səni izləyir, mütləq fayda götürmək üçün ona təsir et; onu öz yanına gətir və ona yanında yer ver. Bu yolla sən əks casus əldə edə və ondan faydalana bilərsən».

Sun-tszı belə casusun ələ keçirilməsinin iki üsulunu göstərir: pula ələ alma və xüsusi diqqət göstərmək. Van Çje daha geniş tövsiyə verir: «Onun bütünlüklə qayğısına qalmaq, onu bəlağətli və təmtəraqlı sözlərlə ovutmaq, ona ən dərin nəvaziş göstərmək, sonra isə bahalı hədiyyələr vermək və onu dəhşətli cəza ilə qorxutmaq lazımdır». Beləliklə, Van Çje hesab edir ki, bu cür casusa təsir etməyin ən yaxşı üsulu onun iyrənc məqsədlərini təmin etmək və eyni zamanda onu ölümlə qorxutmaqdır.

Bu əks casus nə verə bilər? «Onun vasitəsilə sən hər şeyi biləcəksən,- aydınlıq gətirir Sun-tszı. Məsələn, nəyi? Buna Çjan Yuy cavab verir: «Əks casusun vasitəsilə sən biləcəksən ki, bu ölkədə kim pul düşkünüdür, məmurlarda hansı çatışmayan cəhətlər var». Bu, nəyə səbəb ola bilər? Sun-tszı dəqiq deyir: «Bu yolla sən özünə həm yerli casus (Sun-tszının dediyi kimi, hansı ki, yerli sakinlərdən ələ keçirilir– N.K.) və daxili casus qazanacaqsan (hansı ki, düşmənin məmurlarından olur– N.K.)».

«Onun vasitəsi ilə sən hər şeyi biləcəksən»,- deyə Sun-tszı təkrar edir. Məhz nəyi? Buna Çjan Yuy cavab verir: «Əks casus vasitəsi ilə sən düşməni necə aldatmağı öyrənəcəksən». «Buna görə də- Sun-tszı davam edir– hər hansı bir yalan uydurараq, özünün ölüm casusuna düşməni azdırmağı tapşıra bilərsən».

«Onun vasitəsilə sən hər şeyi biləcəksən»,- deyə Sun-tszı üçüncü dəfə təkrar edir. Nəyi? «Düşmənin vəziyyətini,- Çjan Yuy cavab verir. «Buna görə,- Sun-tszı davam edir,- həyat casusunu öz ehtimalların üzrə hərəkət etməyə məcbur edərsən».

Əks casusun əhəmiyyəti bundadır. Onun vasitəsi ilə casus şəbəkəsinin yaradılması üçün hər tərəfə etibarlı yollar açılır, həmçinin casus işi üçün düzgün şərait təmin olunur. «Düşmən haqqında məlumatlar mütləq əks casuslar vasitəsilə alınır»,- Sun-tszı belə deyir. «Dörd cür casusun hər biri– yerli, daxili, ölüm casusu və həyat casusları- onların hamısı düşməni əks casus vasitəsilə öyrənirlər»,- Du Mu izah edir.

«Bütün casus işinin başlanğıcı əks casusdan asılıdır»,- bunu isə Mey Yao-çen deyir. «Buna görə də- Sun-tszı sözünü tamamlayır, - əks casusa xüsusilə diqqətli yanaşmaq lazımdır».

Soray əks casusun zəruriliyini öz bildiyi kimi əsaslandırır. O, yazır: «Düşmən tərəfdən olan casusu ələ keçirib öz xeyrinə işlətmək daha yaxşıdır, nəinki öz casusunu düşmən tərəfə göndərmək. Böyük ağıllı olan insanlar azdırlar, oxşarları isə çoxdurlar. Buna görə də

bizim casus düşmən əlinə keçəndə qızıl və zinət əşyaları, gözəl qadınlarla çaşdırıla bilir; onun iradəsini cəza ilə qıra bilərlər; hərislik və ölüm qorxusu bütün insanlara xas olan şeydir. Ona görə çox vaxt belə olur ki, bu cür casus həqiqəti açır və özününkülərə yalnız ziyan gətirir. Hətta möhkəm və dözümlü insan belə, əgər ağlı o qədər yüksək deyilsə, hər gün düşmənin işgəncələrinə məruz qalırsa, nəhayət ki, danışacaq. Bunu nəzərə alan Sun-tszı əks casusları birinci yerə qoyur».

Bununla da, Sun-tszı əks casuslar haqqında mühakimələrinə son qoyur. Ümumilikdə casusluğa qayıdaraq, o, deyir:

«Casusların beş kateqoriyasının hamısı ilə hökmdarın özü maraqlanır». Bu sahə olduqca vacibdir.

Bu zərurət barədə Çin tarixində parlaq və məşhur misallar var, bu, Çin dövlətçiliyinin və mədəniyyətinin əsasını qoyanların zamanından mövcud idi.

«Qədimdə,- Sun-tszı deyir,- İn çarlığı ayağa qaldırılanda, Sya çarlığında İ Çji var idi; Çjou çarlığı ayağa qaldırılanda, İn çarlığında Lyu Ya var idi».

Sun-tszı «qədimdə» sözünü boş yerə işlətmir. Həqiqətən, xatırlanan hadisədən onun üçün də– qədimdə baş verən hadisələrdir. Qədim İn çarlığının yaradılması tarixi ardıcıllıq ənənələrinə görə m.ö. 1766-cı ilə təsadüf edir, və bu, Sun-tszı dövründən çox əsrlər qabaqdır. Həmçinin İn adlanan ərazidə Çjou çarlığının meydana gəlməsi də Sun-tszıdan çox qabağa, m.ö. 1144-cü ilə aiddir. Bu iki hadisəni xatırlatmaqla Sun-tszı nə demək istəyir?

İn çarlığı Sya çarlığını əvəz etdi. Sun-tszı dövrünə qədər gəlib çıxan ənənəvi tarixi fərziyyəyə görə, Sya çarlığı ona görə süqut etdi ki, onun sonuncu hökmdarı Tszevanın qəddarlığı bütün əhalini ona qarşı çıxmağa sövq etdi; həm xalqı, həm də knyazları. O zaman knyazlıqlardan birinə– Şan knyazlığına Çen Ton rəhbərlik edirdi. Xeyirxah və müdrik hökmdar kimi o, tez bir zamanda üsyan edənlərə başçılığı öz üzərinə götürərək, Tsze-vanı əzdi və taxta çıxdı. Əvvəlcə çarlıq onun öz doğma çarlığının Adı ilə Şan adlandırıldı, sonra isə onun nəvəsinin hakimiyyəti dövründə paytaxtın İn şəhərinə köçürülməsi səbəbindən çarlıq da bu yeni adı aldı və beləliklə, tarixə düşdü.

Olduqca maraqlıdır ki, iki qədim müəllif– Men-tszı və Sun-tszı İ Çjinin bu çevrilişdə iştirakını necə təsvir edirlər. Onları necə müqayisə etmək olar?

Men-tszının dediyinə görə, İ Çji (İ İn) Tsze-vanın yanında xidmət edirdi və çox comərd (əlbəttə ki, konfusion mənasında) insan idi. Bu qabiliyyət onu o qədər şöhrətləndirmişdi ki, Şan knyazı olan Çe Tan onu yanına çağırdı və öz davamçısı elan etdi; rəhbərliyə çəkdi. Tsze-vanın sərt idarəçiliyindən narahat olan Çen Tan öz hökmdarına dinc vasitələrlə təsir etmək istədi: O, Tsze-vana təklif etdi ki, uyğun gələn şəxsi– İ Çjini özünə nazir götürsün. Tsze-van

onun təklifini qəbul etmədi. Bu zaman Çpen tan öz təklifini daha sərt şəkildə irəli sürdü, lakin Tsze-van onu yenə də qəbul etmədi. Bu minvalla Çen Tan bu təklifi beş dəfə irəli sürdü və hər dəfə də rədd olundu. Yalnız bundan sonra Çen Tan gördü ki, hökmdarı yola gətirmək üçün dilə tutmağın mənası yoxdur və silaha əl atmağı qərarlaşdırdı.

Beləliklə, Men-tszıya görə İ Çji- comərd xidmətçidir, lakin hökmdarı tərəfindən qiymətləndirilməyib. Sun-tszıda isə bu məsələ tamamilə başqa cür qoyulur. Sun-tszı nə Çen Tanın comərdliyindən, xidmətlərindən, hətta onun özündən belə, danışmır; ancaq sülalənin devrilməsi və onun yerinə başqasının gətirilməsindən bəhs edir. Bu, «Sya çarlığında İ Çjinin olması üzündən baş veribmi?» İ Çji kim idi? Tsze-vanın yanında xidmətdə olan adam. Sun-tszının bu barədə danışdığı fəsil «Casuslardan istifadə» adlanır. Burada hər zaman casuslardan, onların köməyi ilə nəyə nail olmaqdan söhbət gedir. Soruşula bilər, İ Çji Sun-tszı üçün kim idi? Soray faktları etiraf etməyə məcburdur. «Tan Van digər knyazların arasından qalxaraq hökmdar olduğu vaxt İ Çji də onun davamçısı kimi Tsze-vanın paytaxtında yerləşirdi və düşmənin vəziyyətini hərtərəfli bilirdi. Buna görə də Tan-van belə tezliklə müvəffəqiyyətə nail oldu» (Soray, sit. əsər. səh. 349). Məsələ, görünür, bir şeydədir: Sun-tszının terminologiyasına əsasən İ Çjini «yerli casus», yaxud, «daxili casus» adlandırmaq olarmı?

Ənənəvi fərziyyəyə əsasən, bu cür hadisə Çen Tanın əsasını qoyduğu İn sülaləsinin süqutu və onun yerinə Çjou sülaləsinin gəlməsi zamanı da baş vermişdi. İn sülaləsinin sonuncu hökmdarı Çjou-van da belə qəddar tiran idi və ondan gələcək üçün xeyirli heç nə qalmamışdı. Yenidən bütün ölkə zülmkara qarşı çıxdı və yenə də yerli ixtiyar sahiblərinin arasından səxavətli və cüsur knyaz, Çjou knyazlığının hökdmarı U-van meydana çıxdı, Çjou-vanı devirdi və yeni sülalənin əsasını qoydu.

Lyuy Ya (Lyuy Şan) İn hökmdarlarının xidmətçisi idi və o da konfusi ənənələrinə əsasən, yüksək dərəcəli və səxavətli kişi idi. Hərb mədəniyyətinin nəzəriyyəçisi Tay-qun Vanın təsiri ilə şöhrətlənmişdi öz qanuni hökmdarı onu qiymətləndirə bilmədi, U-van isə onun fəaliyyətini dəyərləndirə bildi. Hələ U-vanın atası– Van-van bir dəfə ovda olarkən Lyuy Yanla qarşılaşdı və onun müdrik bir adam olduğunu başa düşdü. Sun-tszının sözlərinə görə, «Çjou çarlığı ayağa qalxan zaman Dyuy Ya İn çarlığında idi». Bu zaman o, hansı rolu oynadı? Soray deyir: «Çjou U-van üsyan qaldırdığı zaman digər knyazların arasınan çıxaraq imperator oldu». Tay-qun Van isə davamçı kimi İ Çjou-vanın yanında idi və düşmənin vəziyyətini yaxşı bilirdi. Buna görə də U-van müvəffəqiyyətə belə tezliklə nail oldu» (Soray, sit. əsər. səh. 349). Məsələ yenə də Sun-tszının təsnifatı üzrə Lyuy Yanın mənsub olduğu kateqoriyanı müəyyənləşdirilməsindən gedir.

Sun-tszı qədim Çin tarixinə dair iki böyük hadisəni və onlarda casusların oynadığı rolu bu cür izah edir. Casusların köməyi nəticəsində nəinki döyüşü udurlar, həm də hakimiyyəti devirməyə nail olurlar. Onların üzündən həm döyüşü uduzur, həm də sülalələr süqut edirlər. Bununla belə, İ Çji və Lyuy Ya qədim tarixi ənənələrə görə, adi kiçik casuslar deyillər. Bunlar böyük adamlardırlar. Tan Van və U-vanı ağıllı və güclü hökmdar dərəcəsində görürlər. Bu iki çevrilişdə ağıllı hökmdarların ağıllı casuslarla uzlaşmasını göstərir. Buna görə də, hər hansı kiçik bir iş deyil, böyük bir işə– hökmranlıq edən sülalənin devrilməsinə nail olunub. Sun-tszı belə fikirləşir ki, böyük nailiyyətin əsası, məhz bu iki şəxsiyyətin birləşməsi nəticəsində qoyulub. Bu fikri o, belə ifadələrlə verir: «Yalnız bilikli hökmdarlar və müdrik sərkərdələr öz casuslarını ağıllı adamlar kimi yetişdirir və bu yolla mütləq möhtəşəm işlər görürlər».

Sun-tszı bu fəsli və ümumilikdə bütöv traktatı bu sözlərlə bitirir: «Casuslardan istifadə– müharibədə əsas mövcudiyyətdir; bu həmin dayaqdır ki, ordu ona söykənərək fəaliyyət göstərir».

Du Mu yazır: «Düşmənin vəziyyətini bilmədən, ordu heç nə edə bilməz, düşmənin halını isə casuslardan savayı heç nə ilə bilməzsən. Buna görə də Sun-tszı deyir: «Onlar dayaqdırlar və ordu onlara arxalanaraq hərəkət edir» və Li Vey-qunun sözlərindən iqtibas gətirir: «Qələbə vuruşdadır... Məgər onu göydə və yaxud yerdə axtarırlar? O– insanlardadır, onu ancaq insanların köməyi ilə qazanırlar. Baxın, qədim insanlar casuslardan necə istifadə ediblər. Onların sənəti bu sahədə çoxşaxəlidir. Onlar düşmənin hökmdarlarını güdürdülər, digərləri onun yaxın ətrafını izləyirdilər, üçüncülər müdriklərdən, dördüncülər onun ən qabiliyyətli insanlarından, beşincilər ona kömək göstərənlərdən, altıncılar onun qonşu və dostlarından, yeddincilər onun sağında və solunda yerləşənlərdən, səkkizincilər onun bu və digər istiqamətində duranlarından casusluq edirdilər». Casusluq obyekti düşmən tərəfdəki hər şey ola bilər: rəqib tərəfdəki elə bir insan, elə bir vilayət, elə bir hadisə yoxdur ki, qarşı tərəf üçün naməlum olsun. Və ən yaxşı vasitə casusluqdur.

Li Vey-qun casuslardan istifadə ilə bağlı özünün «Dialoqlar»ında danışır və qeyd edir ki, «Su, qayığı öz üzərində saxlaya da bilər, onu çevirə də bilər» («Dialoqlar», II his.s.48). Bu sözlərlə o, casusların işlədikləri tərəfə vura biləcəkləri təhlükəli ziyan barədə də xəbərdarlıq edir.

QEYDLƏR

I fəsil

1.Təfsirçilik ədəbiyyatında tszin sözünün başa düşülməsi ilə əlaqədar böyük fikir ayrılığı var. Du Mu onun «ölçmək» kimi başa düşülməsini təklif edir.

Bu cür yozum həmin sözün texniki mənasında daha çox qəbul oluna bilər və tikinti zamanı işlənirdi; bu kontekstdə tszin tikinti üçün ayrılmış sahənin ölçülməsi deməkdir. Bu cür ölcü inşaatçının ilkin hərəkəti olduğundan, bu söz daha ümumi məna alır: hər hansı bir işə başlanılmazdan əvvəl hesablama aparmaq. Tsin sözünün daha yaxşı başa düşülməsi üçün mənaya bir qədər yaxın olan tszyao sözünü də qarşılaşdırmaq olar. Bu söz isə yaxın mənada «çəkmək, götür-qoy etmək» anlamı, uzaq mənada «qarşı-qarşıya qoymaq» kimi işlədilir. Tszyao sözü tszinin paraleli olduğu üçün belə çıxır ki, tszin sözünü paraleli olan «götür-qoy etmə», «ölçmək» kimi tərcümə etmək olar.

Bu cür başa düşülmənin ciddi əsasları var, lakin mən hər halda başqasının üstündə dayanıram və tszin sözünü ruscaya «əsasını qoymaq» kimi çevirirəm. Əslində isə tszin sözünün ilkin mənası məlum olduğu kimi, tikinti sahəsi ilə deyil, toxuculuq işi ilə bağlıdır. Tszin sözü parçanın əsası, vey sözünün qarşılığıdır ki, bu da kələf kimi işlənilir. Bununla yanaşı, parçanın hazırlanması texnikasına əsasən, uzununa saplar həmişə parçanın içərisində hərəkətsiz qalır və məhz onlar parçanın əsasını təşkil eldirlər və bu zaman köndələn saplar uzununa sapların üzərinə toxunulur. Beləliklə, texniki dildə «əsasını qoymaq», «nə isə bir şeyi bünövrəyə qoymaq» kimi başa düşülür. Çjan Yuy və Van Çje tszin sözünü məhz bu mənada başa düşürlər. Əgər tszin sözünü tszyao (götür-qoy etmək) və «ölçmək»sözü ilə paralel götürsək, hər iki ifadə eyni və yaxın məna verən hərəkəti bildirəcək, müharibəni nə iləsə ölçüb-biçirlər, nə iləsə götür-qoy edirlər. Lakin fəslin məzmunundan göründüyü kimi, bunlar ayrı-ayrı şeylərdir. «Beş element» başqa şeydir, «yeddi hesablama» başqa: məna da başqadır, izahat forması da, hətta sualın qoyuluşu da başqa cürdür. Buna görə də, burada iki eyni və yaxın hərəkət paralelləşdirilmir, əksinə, iki müxtəlif fəaliyyət paralelləşdirilir: bir şeylə əsas qoyulur, digərinin köməyi ilə hesablama aparılır.

2.Şan sözünü «ali», «idarəedənlər» mənasında götürmək olardı.

Bunu ona görə etmirəm ki, bu mənada o, adətən sya «aşağılar», «idarəolununlar» sözü ilə paralel işlədilir. Bu anlamda Şan sözü min– «xalq» sözünə qarşı qoyulur; adətən də «xalq» anlayışı «hökmdar», «idarəedən» anlayışına qarşı işlənilir. Buna görə

də Şan sözünü tərcümə edərkən «ali», «hökumət», «idarəedənlər»i cəm halda deyil, tək halda «hökmdar» kimi götürürəm.

3.Vey sözünü təfsirçilərin çoxu kimi (Tsao-qun, Du Yu, Du Mu, Çjan Yuy) fel kimi götürürəm, yəni ki, «tərəddüd etmək».

4.Şi Çji ifadəsini yerindən asılı olaraq iki mənada işlədilə bilər və bu, çji sözünün hansı məna verməsindən asılıdır. Əgər çjidu mürəkkəb sözündə işlənirsə, bu ifadə «nizam», «cərgə», «sistem» mənasını verir. Şi çji ifadəsi isə «vaxt bölgüsü», «zaman qanunları» anlamını verə bilər və s. Çji sözünü rus dilində feldən düzələn isim– «sərəncam», «idarəetmə» kimi başa düşmək olar. Çji sözü fel kimi də işlənə bilər– «idarə etmək», «sərəncam vermək». Bu sözü Mey Yao-çen bu cür başa düşür və iki sözü şi, çji sözlərini, birləşdirərək «bu işin öhdəsindən vaxtında gəlmək» ifadəsini işlədir. «Sıma fa» traktatında belə bir ifadə var ki, Sun-tszının sözlərinə çox yaxın məna verir:-«Səmanı izləmək (yəni, havanı– N.K.) və vaxtı gözləmək». Lyu İn bu yeri izah edərək, Sun-tszıya oxşar ifadələr işlədir və bu sözlər «Sıma fa»da da öz əksini qismən tapıb. «İşıq və qaranlıq, isti və soyuq; bu zamanın nizamıdır». Yeri gəlmişkən, Lyu İnin bu ifadəsi çji felində hansı əlavə fikirlərlə ifadə oluna bilər; çji sözü çox güman ki, bundan əvvəl gələn «işıq və qaranlıq, isti və soyuq» sözlərinə aiddir. Bu cür başa düşüləcəyi təqdirdə Sun-tszının fikirləri aşağıdakı kimi şərh oluna bilər: «Səma»- bu atmosfer, iqlim, meteorologiya, fəsil, havanın vəziyyyəti» deməkdir. Müharibəni aparmaq baxımından bütün bunları vaxtında müəyyənləşdirmək, iqlim şəraitinə və vaxta müvafiq surətdə, lazımi anda hərəkət etmək lazımdır.

Lakin mən mətnin bu yerinin geniş izahı üzərində dayanmıram. Mənə belə gəlir ki, bu yer təyin olunmuş, dəqiq ifadə edilmiş struktura malikdir: bu– bir sıra anlayışların müəyyən edilməsidir («Yol», «Səma», «Yer» və s.). Bu anlayışların izahı onların tərkibinə daxil olanlarla birlikdə verilir. Bununla yanaşı, bu sadalanmanın elementləri müstəqildirlər, öz məzmunları var və özündən əvvəl gələnləri əhatə eləmirlər. Burada üç şeydən söhbət gedir: astronomik xarakterli hadisələrdən (işıq və qaranlıq), meteoroloji və iqlim dəyişmələrindən (soyuq və isti) və «zamanın nizamı»ndan, yəni, il, ay, gün, mövsüm və s.

5.Bin çjin ifadəsini «qoşun» sözü kimi tərcümə edirəm və Çin dilində olan bu sözdə iki heroqlif işlənilir. Bu sözdəki birinci işarə– «bin»– nizami heyət, ikinci işarə və eyni zamanda söz– çjin– qeyri-nizami heyət kimi tərcümə olunur. Bu söz ikilikdə «qoşun» mənasını verir, yəni, ümumi heyət.

Buradaca hərbçilərin müxtəlif kateqoriyalarını bildirən Şi və tszu sözlərinə rast gəlinir. Sun-tszı da hər yerdə bunlardan zabit və sıravilərin, komandir və əsgərlərin ümumi nişanələrini ifadə edən söz kimi istifadə edir.

IX fəsildə yeni termin «li» termini işlədilir və bu, əvvəlki sözün qarşılığıdır, yəni, «aşağı rütbədə olanlar» deməkdir.

IX fəsildə «da li» terminin də adı çəkilir və bu, yüksək rütbəli rəisləri və yaxud onların köməkçilərini ifadə edir.

Heç şübhəsiz ki, bütün bu terminlər sırf hərbi məqsədli deyillər. Məsələn, qədim Çində Şi sözü yuxarı təbəqənin ikinci qatına məxsus idi.

Beləliklə, bu adlar yalnız Çin ordusunun strukturunu bizim üçün açmır, eyni zamanda onun sinfi təşkilinə, onun mənbəyinə aydınlıq gətirir.

Traktatdan da göründüyü kimi, Sun-tszı dövründə ordudakı əsgərlər qullar deyil, əkinçilik icmalarından olan kəndlilər idilər, yəni, onlar ordunun əsas canlı qüvvəsini təşkil edirdilər.

6.Qəbul olunmuş ənənəyə əsasən, Sun-tszı traktatı xidmətdə olduğu zaman knyaz Xo Lyu üçün yazmışdı. Bunu nəzərə alaraq, bu sözlər knyaza birbaşa müraciət kimi də başa düşülə bilər, onun verdiyi təkliflər və tövsiyələr təcrübədə sınaqdan çıxarıla bilər. Bununla yanaşı, müəllif bəyan edə bilir ki, onun üsulları tələb olunan şəkildə tətbiq olunarsa, qələbə təmin olunar. Knyaza güclü təsir etmək məqsədilə Sun-tszı hədəyə də yol verir və xəbərdarlıq edir ki, əgər knyaz onun məsləhətlərindən yararlanmasa, o, başqa knyazın yanında xidmətə gedəcək və beləliklə, knyazı öz köməyindən məhrum edəcək.

Çjan Yuy bu ifadənin yozumunu bir qədər başqa cür verir. O, tszyan sözünü «sərkərdə» mənasında deyil, köməkçi söz kimi, gələcək zaman ifadəsində verir. Belə olan halda, bütün ifadə rus dilində belə görünə bilərdi: «əgər, knyaz, siz mənim üsullarımdan istifadə etsəniz, sizin yanınızda qalacağam; əgər siz onları öyrənməsəniz, mən sizdən gedəcəyəm». Mən yalnız tərcümə formasına istinad etdim və «tszyan» sözünü «sərkərdə» mənasında götürdüm. Bunun üçün mənim iki əsasım var: birincisi, Sun-tszı bütün traktat boyu bu sözü gələcək zaman mənasında işlətməyib; ikincisi, «sərkərdə» sözü orduya özü rəhbərlik edən knyaza uyğun gəlir. Bu barədə Çen Xao deyir: «Bu zaman knyaz müharibə aparırdı, həm də ki, çox vaxt orduya özü sərkərdəlik edirdi».

Bu yerin başa düşülməsi üçün daha bir qrammatik imkan var: «Əgər, sərkərdə mənim hesablamalarımı qəbul edib onu öyrənəcəksə... və s. və i.a. onu özünüzdə saxlayın. Əgər, sərkərdə mənim hesablamalarımı öyrənmədən qəbul edəicəksə... və s. və i.a. onu uzaqlaşdırın».

Mənə belə gəlir ki, ümumi vəziyyət, xüsusilə də Çen Xaonun izah etdiyi şəkildə olması bu tərcüməni qəbulolunan edir.

7.Bu mətndə çox çətin olan tsyuan sözünü rusca «taktika», «taktiki manevr», «taktiki üsul» kimi verməyi təklif edirəm. Məni bu cür tərcüməyə sövq edən düşüncələr mətnin bu yerində artıq verilib və mən bu məsələyə qayıtmağı artıq hesab edirəm. Yeri gəlmişkən, rusca «strategiya» sözünü qədim hərbi mətnlərdə Çin dilində «mou»

sözə ilə əvəzləməyi təklif edirəm. Ancaq bu halda bu söz öz həqiqi mənasını verir.

8.Myaosuan ifadəsi konkret məna kəsb edir. Sun-tszı dövründə ululaların məbədləri– tyao saray ərazisində, adətən, Şərq hissədə yerləşirdi və hökmdarların müşavirələrinin məşvərət yeri idi. Bu, necə deyərlər, «məsləhət zalı» idi. Təbiidir ki, müharibədən əvvəl burada hərbi Şura toplanırdı və müharibənin şansları götür-qoy edilir, fəaliyyət planı hazırlanırdı.

Buna görə, myaosuan ifadəsi «hərbi şurada qəbul olunmuş müharibə planı» mənasını verirdi, yəni, müharibənin ilkin planı idi. Nəzərə almaq lazımdır ki, saray şurasında yalnız müharibə planı müzakirə olunmurdu və myaosuan ümumi əhəmiyyət kəsb edirdi- digər sahələrə dair planlar da burada müzakirəyə çıxarılırdı, məsələlər götür-qoy edilirdi. Əcdadların məbədlərinin vacib mərasimlərin, iclasların, qonaqlıqların keçirilməsinə xidmət etdiyini biz U-tszının traktatından da öyrənə bilərik. Bu məbədlərdə dövlət qulluğunda fərqlənənlərin şərəfinə mərasimlər də keçirilirdi (U-tszı, VI, 1).

II fəsil

II fəsilin mətninin tərcüməsində mən «knyazlar» ifadəsi işlətmişəm. Çin dilində bu söz çjuxoudur. Bu cür tərcümə çinşünqaslıq təcrübələrində mövcuddur və mən onun dəyişdirilməsinə ehtiyac duymuram. Buna görə də, mən onu düzgün hesab edirəm, belə ki, rusca knyaz sözü tarixdə müxtəlif tipli dövlətçilikdə rəhbərlərin adlandırılması üçün qəbulolunandır, istisna isə o zamandır ki, ayrı-ayrı knyazlıqlara rəhbərlik edən ali şəxs bu cür adlandırıla bilməz. Çinlilərin çjuxou sözü isə belə halda işlənilir. Bununla əlaqədar olaraq mən xəbərdarlıq edirəm ki, gələcəkdə hər yerdə mənim ifadələrimdə «knyaz» sözünə rast gəlinəcək. Bu ümumi ad altında mən hakimiyyətdə olan knyazların Çuntsyu dövründəki titullarını göstərəcəyəm. Məlum olduğu kimi, bu titullar belədir– qun, xou, bo, tsze, nan. Əlbəttə ki, bu titullarda müəyyən hədlər var (ən azı, «hüquqi» mənada). Mənə belə gəlir ki, bu çərçivəni, həddi onda açmaq lazımdır ki, bu, çox vacibdir. Digər hallarda ayrı-ayrı məmləkətləri idarə edənləri elə «knyaz» kimi adlandırmaq olar. Çində isə bu söz çjuxou kimi səslənir.

Mən Çuntsyu dövrünün ağalarını «knyaz» ifadəsi ilə verirəm, bunlar isə ümumilikdə çjuxou kateqoriyasına daxildirlər. O dövrdə bəzi hökmdarların titulu isə Van idi. Bu titulu mən rusların «çarı» kimi işlədirəm. Əlbəttə ki, bu deyimlər sonrakı dövrlərə aid deyil. Qədim dövrdə di titulu da var idi ki, bu, ruscaya çevrildikdə, «imperator» titulu ilə uyğun gəlirdi. Bir daha deyirəm ki, mən bu titulların rusca uyğun gələn qarşılığını verirəm.

1.Çiçe və qeçe terminləri arabaların müxtəlif növlərini göstərir. Bu arabalardan qədim Çin ordusunda istifadə olunurdu. Bu terminlər

müxtəlif cür başa düşülür. Tsao-qun və Mey Yao-çen birincini «yüngül arabalar», ikincini «ağır arabalar»a aid edirlər. Li Tsyuan birincini «hərb arabaları», ikincini isə «yüngül arabalar» adlandırır. Du Mu belə başa düşür: «yüngül arabalar» döyüş arabalarıdırlar və qədim zamanlarda onlarla döyüşürdülər, «qeçe»yə gəldikdə isə, bunlar onun fikrincə, yük arabalarıdırlar, ağır arabalardır və onlarla silah, sursat, digər şeylər daşıyırdılar. Çjan Yuy bu terminləri başqa cür izah edir: onun fikrincə, birincilər hücum arabalarıdır, ikincilər isə müdafiə üçündür. Beləliklə, birinci terminin– «çiçe»nin əhəmiyyəti aydındır; bunlar döyüş üçün lazım olan arabalardır; onları gah yüngül, gah döyüş, gah da ki, hücum arabaları adlandırırlar». İkinci termin tərəddüd doğurur: bunlar döyüş arabalarıdır, yoxsa yük faytonlarıdır. Du Mu onları yük arabaları hesab edir, Çjan Yuy isə deyir ki, bunlar da döyüş arabalarıdır, lakin müdafiə əhəmiyyətlidir. Digər təfsirçilər onların təyinatını göstərmədən «ağır arabalar» adlandırırlar. Bununla belə, LiTsyuan gözlənilmədən onları adlandırmaq üçün «yüngül arabalar» terminini təklif edir və onları «döyüş arabalarına qarşı qoyur, bu zaman Du Mu məhz, «döyüş arabaları»nı «yüngül arabalar» adlandırır.

Mən hesab edirəm ki, Du Mu o mənada haqlıdır ki, birincilər, yəni yüngül arabalar bu sözün dəqiq mənasında döyüş arabalarıdırlar, ikincilər, ağır arabalar isə yük arabalarıdır. Mənə belə gəlir ki, yüngül və sürətli olan bu arabalara ağır silahlanmış üç döyüşçü yerləşirdi, onun ətrafında isə 72 piyada hərəkət edirdi. Bu arabaların sürətlə hərəkət etməsi üçün onlara dörd at qoşulurdu və onlar düşmən oxlarından qorunmaq üçün dəri örtüklə izlənirdi. Aydındır ki, bunlar döyüş üçün nəzərdə tutulmuşdu. Ağır arabalar həcmcə böyük olduğundan, döyüşə yaramırdılar. U-tszı öz traktatında xatırladır ki, bu arabalar bəzən evdən də böyük olurdu (U-tszı, Giriş).

Bundan əlavə, onlara 12 kəl qoşulurdu və bu, onların ləng hərəkət etməsi deməkdir. Bu arabalarda qeyri-nizami heyət– aşpazlar, mehtərlər, yemçilər, bu cür müxtəlif işlər görən fəhlələr, odun və su daşıyanlar yerləşdirilərdi və onlar 25 nəfər olurdular. Əlbəttə ki, bu arabalar döyüşlərdə iştirak etmirdilər. Bununla belə, onlar oxlardan müdafiə üçün yaxşı mühafizə olunurdular. U-tszının traktatında təsvir olunur ki, onlar bütövlükdə dəri itlə örtülürdü, hətta təkərləri də dəri ilə işlənirdi və s. (U-tszı, Giriş). Əgər yürüş zamanı yüngül arabalar irəlidə, ağırlar geridə gedirdilərsə, dayanan zaman döyüş arabaları ortada, yük arabaları isə qıraqlarda dayanırdılar ki, bu, möhkəmləndirilmiş düşərgəni xatırladırdı. Döyüş zamanı ağır arabalar cəbhənin arxasında bütöv divartək dayanır, əsgərlərin sığınması üçün istehkam kimi istifadə olunurdu. Beləliklə, Çjan Yuy ağır arabaları müdafiə arabaları adlandırmaqda haqlıdır. Bu böyük, necə deyərlər, zirehlənmiş yük arabaları müdafiə zamanı istehkam rolunu oynaya bilirdi.

2.Təfsirçilər Sun-tszının dediyi kimi, min millik ölçünün zaman baxımından nəyə bərabər olduğunu təyin etmək istəyirlər. Əgər bizə yaxın olan təfsirçilərin vaxtı ilə götürsək, min mil Avropa ölçüləri ilə götürüldükdə bu 450 km-ə bərabərdir. Sun-tszı isə traktatında bu məsafəni hərfi mənada götürməyib, bu, sadəcə yolun uzaqlığına işarədir.

3. «Çjun-yuan» sözünü mən rusca «ölkə» kimi tərcümə edirəm. Məxsusi desək, bus öz yer kimi Çin ərazisinin Xuanxa çayı boyunca yerləşən, mərkəzi və düzənlik hissəsini əhatə edirdi və hazırda Şandun və Xenan əyalətləridir.

Bəzi təfsirçilər traktatın bu yerinə istinad edərək Soray kimi fikir yürüdürlər. Onların bu cür fikirləşməsinə səbəb odur ki, Sun-tszı U knyazlığında olduğu vaxt buranı öz knyazlığının ərazisi kimi adlandırmaya bilməz: O, Yantszı tszyanın aşağı axınından cənubda yerləşirdi. Bununla belə, yaddan çıxarmamaq lazımdır ki, «çjun-yuan» «ölkələr» mənasını verir. Buna görə də, burada o, elə bu mənada da işlənib.

4.«Tsyunyu» ifadəsini bəziləri «kəllər, kənd icmalarında istifadə olunan heyvanlar» mənasında, bəziləri isə «böyük kəllər» mənasında başa düşürlər. Bu, «tsyu» sözünün «böyük» mənası verməsi ilə əlaqədardır. Mən, sadəcə, «öküzlər» sözünü qoyuram və hesab edirəm ki, əvvəlki mətndə olduğu kimi, burada söhbət kənd icmasının işlətdiyi öküzlərdən gedə bilər.

5.Mən Çinin «çjun» və «dan» sözlərini ruscaya «funt» və «pud» kimi tərcümə etdim. Əlbəttə ki, bu, çəki və ölçü ninsbətində bir-biri ilə tam uyğun gəlmir. Amma burada dəqiq ölçülərdən söhbət getmir- Sun-tszı traktatında onu göstərir ki, olduğun ölkədə əldə edilən ərzaq kənardan, uzaq yerdən gətirdiyin ərzaqdan çox olur, başqa sözlə desək, iqtisadi cəhətdən sərfəlidir.

6.Soray II fəsilin bu hissəsini tamamilə başqa cür izah edir. Onun fikrincə, Sun-tszı burada ondan danışır ki, düşməndən alınmış arabaları təslim olan rəqib əsgərlərinin özlərinə qaytarmaq lazımdır. Məhz kim birinci təslim olmaq istəyini bildirib... onlara qaytarmaq lazımdır. Başqa sözlə desək, Soray belə hesab edir ki, düşmənin arabalarının ələ keçirilməsi onun əsgərlərinin qaytarılması yolu ilə olur. Bu yolla düşmən əsgərlərinin qaytarılmasına təsir etmək və onları öz tərəfinə çəkmək mümkündür, digər tərəfdən isə bu, başqalarının da təslim olmasına gətirib çıxara bilər. Lakin hər iki halda ehtiyat tədbirləri gözlənilməlidir; təslim olmuşların aralarında öz əsgərlərini yerləşdirməlisən, ya da ki, ələ keçirilmiş və içərisində üç döyüşçü olan hər bir arabada ya iki, ya da bir nəfər sənin etibarlı adamın olmalıdır.

Bu cür anlam mətndə bir sözlə əsaslandırılıb– işarə əvəzliyi olan «tsi» ilə, hansı ki, bir abzasda iki dəfə göstərilir. Soray hesab edir ki, bu əvəzlik yalnız və yalnız bir şeyə işarə etməlidir. Birinci dəfə o, söz birləşməsində özünü göstərir, «onları mükafat olaraq

elələrinə ver ki, kim birinci olub» və s., ikinci dəfə– söz birləşməsində «onların bayraqlarını dəyiş» (əslində: o). Belə ki, ikinci halda tam aydındır ki, o- əvəzliyi bayraqlara aiddir, hansı ki, alınmış arabalardadır. Birinci halda «onlara» əvəzliyi düşmənə aid olmalıdır. Yəni ifadə bu mənanı bildirməlidir, «mükafatları o şəxslərə ver ki, kim birinci təslim olub» (Soray, sit.əsər.səh.45).

Bu arqumentlər tam əsaslıdır, lakin Sorayın fikirlərini tam qəbul etmək olmaz. Axı onun söhbətini araşdırsaq, «de» sözünü «təslim omlaq» kimi başa düşmək lazım gələcək, əslində isə bu, «sahib olmaq» mənasını verir. Deyə bilərlər ki, bu, məsələyə sırf lüğəvi yanaşmadır. Bu, heç də düzgün deyil: six hakimiyyəti dövründə müharibə zamanı U-tszının döyüş qabağı verdiyi əmrdə bu fel arabalarla bağlıdır və məhz «ələ keçirmək» mənasını daşıyır. Bu məsələ traktatın VI fəsilində öz əksini tapıb. «Komandirlər və əsgərlər, deyir: bu sərkərdə, sizin hər biriniz düşmən arabaları, piyada və süvarilərlə üzləşəcəksiniz. Yadınızda saxlayın ki, hər bir arabaçı düşmənin arabasını tutmasa (de), hər bir atlı düşmənin atlısını tutmasa, hər piyada düşmənin piyadasını tutmasa, biz onun ordusunu darmadağın etsək də, heç kəsin yüksək xidməti olmayacaq. Tamamilə aydındır ki, bu fel qənimət əldə etmək mənasında tətbiq olunur. Buna görə də onun «təslim olmaq» kimi başa düşülməsi hədsiz ağırlıq gətirir.

Daha sonra, yenə də Sorayın fikirlərini tədqiq etsək, görərik ki, «yerləşdirmək» felini əsgərlərə aid etmək lazımdır. «Öz əsgərlərini indicə ələ keçirdiyin arabalara yerləşdir». Lakin qrammatik cəhətdən aydındır ki, «Çe tsza» söz birləşməsində bu fel arabalara aiddir, bu söz birləşməsində başqa söz yoxdur və başqa cür başa düşülə də bilməz.

III fəsil

1.Çin hərbi bölmələrinin rus hərbi bölmələri ilə nisbətən uyğun gəldiyini nəzərə alaraq, «taqım», «tabır» və s. kimi hərbi ardıcıllığın ruscaya çevrilməsini mümkün hesab edirəm. Çin ordusunda Çjon dövründə ən kiçik bölmə «beşlik» (çin dilində: u) idi. Bunun mən rusca «vzvod» kimi verilməsini təklif edirəm; 5 vzvoddan ibarət bölmə isə rotadır və burada 25 nəfər olur, bu, çin dilində «lyan» adlanır. Sonra isə «batalyon» gəlir və o, dörd rotadan, 100 nəfərdən ibarət olur (çincə: tszu), sonra briqada (çincə: lyuy)– beş batalyondan ibarət olur, yəni 500 nəfər; daha sonra diviziya gəlir və o, beş briqadadan ibarət olur, yəni 2500 nəfər (çincə: «si»). Ordunu isə 5 dviziya təşkil edirdi, yəni 12500 nəfər (çincə: tszyun). Ən böyük hərbi birləşmə isə yürüş vaxtı «üç ordu» olurdu və onun tərkibində 37500 nəfər var idi. Birinci ordu irəlidə gedirdi və avanqard adlanırdı, ikinci ortada gedirdi və burada baş komandan yerləşirdi və bura

mərkəzi ordu adlanırdı. Geridə gedən ordu isə arxanı qoruyur və aryerqard adlanırdı. Belə qoşun qrupunu da mən ordu adlandırıram. Çin dilində isə tszyun «üç ordu» demək idi. Bu, sözün geniş mənasında ordu idi. Bunlar elə bir qüvvə idi ki, Çjou hüququna görə, «böyük dövlət» adını ala bilərdi. Belə ordusu olan dövlətin hökmdarı qunn və yaxud Xoy titulu alırdı. «orta dövlət»in hökmdarı bo titulu, «kiçik dövlət»in rəhbəri isə tszı və yaxud nan titulu alırdı. Bo titulu olan hökmdar 25000, nan titulu olvn 12000 hərbçi saxlaya bilərdi. Çjou vannı isə altı ordu saxlamaq hüququna malik idi, yəni 75000 nəfərlik. Bütün bu adlar– «lyu tszyun», «san tszyun», «lyan tszyun» və «tszyun» sözün geniş mənasında «ordu» mənasını verirdi.

Yeri gəlmişkən deyək ki, ordunun vəziyyəti böyük şərtlər tələb edir. Bizə məlumdur ki, məsələn, qunn və xoy titulu olan hökmdarlar min araba saxlaya bilərdilər. Hesablasaq ki, hər arabaya nizami və qeyri-nizami heyətdən 100 nəfər təhkim olunurdu, onda belə alınır ki, bu hökmdar yüz min nəfərlik ordu saxlaya bielrdi. Bundan əlavə, hərb sənətinə dair digər traktatlardan biz hərbi bölmələrin bir qədər başqa sisteminin olduğunu da bilirik (Məsələn, Vey Lyao-tszıda, «Lyu tao», Li Vey-qunun «Dialoqlar»ında) Əlbəttə ki, Çjounun nizamnaməsi də müxtəlif dəyişikliklərə məruz qalmaqla yanaşı, Çjou evindən tam azad olan knyazlıq və çarlıqların da öz qayda-qanunları işlənib hazırlanmışdı.

2.Traktatın mətninin giriş hissəsində istifiadə edilən «Kambun taykey» ifadəsi yalnız zabit heyətinin itki verməsi haqqında danışıldığını bildirir.

3.«Moy» sözü kontekstdən asılı olaraq ruscaya çevirəndə bəzən «fikirlər», bəzən «planlar», bəzən də «strategiya» mənasını verir. «Mou qunn» söz birləşməsi isə «strateji hücum» mənasını verir.

4.«Fu» sözü əsasən metafora kimi «köməkçi» mənasını verir. Hesab edirəm ki, Sun-tszı mətn daxilində obrazlı müqayisəyə keçib və mən bu sözü ilkin mənasında «təkəri arabaya bağlayan ox» kimi verirəm.

5.Böyük qrammatik çətinliklər yaradan ifadələr. Görünür, bunu Sun-tszının qədim Çin oxucuları da hiss ediblər ki, bəzi nəşrlərdə «hökmdar» (tszyun) və «ordu» (tszyun) biri digərinin yerinə qoyulub (bax: Soray, sit. əsər. səh.59). Şübhəsiz, bu cür yerdəyişmədə bu ifadəni anlamaq asanlaşır; bu, fikrin qrammatik cəhətdən ifadə olunmasının daha çox yayılmış formasıdır– «ordunun hökmdarın günahı üzündən bədbəxtliyə düçar olmasına gətirib çıxaran belə şey üçdür». Bununla belə, Çin qrammatik formasının xüsusiyyəti burada elə bir əhəmiyyət kəsb etmir: məna hər iki halda eyni olur.

6.Soray bu ifadəni başqa cür şərh edir. O, hesab edir ki, burada söhbət ordunun sərkərdə ilə eyni hüquqda olan «ordu müvəkkili» tərəfindən idarə olunmasından gedir (tszyantszyun

tərəfindən idarə olunmasından). Xatırladaq ki, ordu müvəkkilliyinə orduya, xüsusilə də sərkərdəyə nəzarət etmək tapşırılırdı. Soray göstərir ki, hökmdarlar çox vaxt öz sərkərdələrinə etibar etmirdilər, onlar tərəfindən gözlənilməzliklərdən ehtiyat edərək, özlərininin tam inandıqları yaxın adamlarından ordu müvəkkili təyin edirdilər. O zaman ikihakimiyyətlilikla yanaşı, orduda belə müvəkkillərin olması və onların çoxunun hərbi işi tam bilməməsi, Sorayın fikrincə, ziyan gətirirdi. Bundan da ki, «orduda özünüitirmə halı» baş verirdi (Soray, sit.əsər.səh.60-61).

Hesab edirəm ki, bu cür söhbət olduqca sünidir. Çünki o, xaricdən pərçim edilib, mətnə əsaslanmır. Bunu o fakt da təsdiq edir ki, Çjan Yuy bu ifadə ilə müqayisədə başqa məna verən növbəti ifadəni də bu cür şərh edir.

Mənə belə gəlir ki, tam leksik baxımdan, eləcə də ümumi kontekst nöqteyi-nəzərindən traktatın bu yerini Tsao-qun və Du Yu başa düşdüyü kimi qəbul etmək lazımdır.

7.Çjan Yuy bu yeri başqa cür başa düşür. Ona belə gəlir ki, Sun-tszı burada xüsusi «ordu müvəkkillərinin (tszyantszyun) təyin olunmasını sonrakı dövrlərə aid edir. Qısa desək, Çjan Yuy mətnin bu yerini Sorayın əvvəldə başa düşdüyü kimi qəbul edir. Onun buna bəzi əsasları da var. Bu, mətndə «yen» (təyinat) sözünün olmasıdır ki, lazım gəldikdə ona isinad etməklə müvəkkillərin daha sonrakı dövrlərə təyin ounduğunu demək olar.

Əlbəttə ki, Çjan Yuyun səhv etdiyini təsdiqləmək çətindir, Sun-tszının da düsturu olduqca qısa və ümumidir. Hər halda mənə belə gəlir ki, əgər Çjan Yuy Sun-tszının əvvəlki qaydasını Tsao-qun və Du Yu kimi başa düşsəydi, o da bu qaydanı onların başa düşdüyü kimi qəbul etməli idi. İki qaydanın göstərildiyi forma demək olar ki, eyni cürdür və onlar arasında fərq budur ki, birinci qaydada «ordunu idarə etmək», ikincisində isə «orduya təyin olunmaq» ifadələri var. Əgər Çjan Yuy birinci qaydanı «ordunu idarə etməyi dövləti idarə etməklə eyniləşdirmək olmaz» tövsiyəsi kimi başa düşürsə, o, ikinci qaydanı da orduya təyinatları dövlətdəki təyinatlar əsasında etmək omaz» kimi başa düşməlidir. Bu cür başa düşüldükdə, bu qayda əvvəlki qaydada qoyulmuş prinsipin məntiqi davamı olacaq.

IV fəsil

1.Çin dilində «tszyu di» və «tszyu tyan» sözləri ruscaya «yerlərin dərinliyi» və «göylərin yüksəkliyi» kimi, yəni, təxminən «doqquzuncu yer» və «doqquzuncu dağ» mənasında verilib. Öz-özlüyündə məlumdur ki, bu anlayışlar müəyyən sahədə konkret məna kəsb edirlər və yerinə görə müxtəlif mənalı olurlar. Məsələn, Çen Xaonun fərziyyəsində «göyün doqquzuncu qatından yuxarı» yazda üçüncü dəfə Ayın doğmasında «pələng günü»nü», yayın üçüncü Ayının doğmasında «at gününü», payızın üçüncü Ayında «meymun günü»nü, həmçiinin qışın üçüncü Ayında «siçan

günü»nü–(«Yerin doqquzuncu qatından aşağısı») və s. və i.a. ifadə edirdi. Lakin bunların digər mənaları da var və bu ifadələr fəsillərin və vaxt dəyişmələrinin ardıcıllığını göstərirdi. Lakin ümumi dildə bu sözlər metafora kimi işlənilirdi. Belə istifadəyə yol onların hərfi mənalarından açılırdı– «yerin doqquzuncu qatı» və «göyün doqquzuncu qatı». Bu, yeraltı dünyanın, yerin doqquz qatı və göyün doqquz qatı təsəvvürlərindən qaynaqlanırdı. Doqquz sayı «İ-tszində» əksini tapdığı kimi, sayların yuxarı həddidir, «doqquzuncu yer» yeraltı aləmin ən dərində olanıdır, «doqquzuncu göy» ifadəsi isə göyün ən yuxarı təbəqəsini bildirir. Buna görə də mən çincə «tszyu di» və «tszyu tan» ifadələrini metafora kimi, ruscaya çevirərək işlətmişəm.

2. «Yüngül lələklər» sözlərini çincənin «tszyu xao» söz birləşmələrini ruscaya çevirməklə vermişəm və bu birləşmə «payız lələyi» ifadəsini bildirir. Ona görə ki, quşların lələkləri payızda uzanaraq ucları incələşir və onlar yüngül və iti olurlar. «Payız lələyi» obrazı incə və yüngül metaforası kimi işlənilirdi.

3. «U» sözünü çinin pul vahidi kimi ruscanın «rubl», «sju» sözünü isə «qəpik» sözü ilə qarşılaşdırıram. Sun-tszı bu vahidlərə məbləğin dəqiqliyi ilə yanaşır, ancaq əlaqələri göstərir. Buna görə də tərcümədə bu əlaqələri qabartmaq gərəkdir, lakin müəllifin özü kimi, pul nişanlarına müraciət etməklə göstərmək lazımdır. Çinlilərin bir «u» pul vahidi 480 «çju»ya, yəni qədim Çin hesabı ilə 20 lana bərabər idi.

4. Sun-tszının burada nəzərdə tutduğu yüksəkliyi təyin etmək mümkündür. Bu, 1800 metrə yaxındır.

V fəsil

1. Sun-tszı üçün bu yerdə ordunun hərbi cədvəli vacib deyil, onun prinsipi vacibdir. Buna görə də mən şərhimdə ordunun təşkilinin tipik olan formasını götürmüşəm. Lakin hərbi bölmələr sistemi hərb sənətinə dair digər traktatlardan da göründüyü kimi müxtəlifdir. Məsələn, Vey Lyao-tszı bölmələrin digər sistemini xatırladır: beşlik (u) yaxud vzvod, beş onluq rota idi (şu), iki rota, yəni 100 nəfər– batalyon (lyuy) «Vey Lyao-tszı», XIV f., s.42). Xan mərhələsi dövründə hərbi bölmələrin sistemi başqa idi, bu haqda Çjan Yuy öz təfsirlərində xatırladır: Onda da ilk olan beşlikdir (le), sonra onluq (xo) gəlir, daha sonra əllilik (duy): iki əllilik yüzlüyü təşkil edirdi (quan), iki yüzlük batalyon (tsyuy) idi, iki batalyon, yəni 400 nəfər polku təşkil edirdi (bu), iki polk, yəni 800 nəfər briqada (tszyao) demək idi, iki briqada, yəni 1600 nəfər– diviziya (bey), iki diviziya, yəni 3200 nəfər ordu (tszyun) idi.

2. «Sin min» ifadəsinin «düzülüş» mənasında başa düşülməsi Du Munun şərhində daha geniş əsaslandırılır. Du Muya görə, «sin»-«forma» sözü «düzülüş» formasını ifadə edir. «Min» sözü– «nişanlar və bayraqlar», yəni düzülüşün göstəricisidir. Məlum olduğu kimi, Çin ordusunda hər bir hərbi dəstə bu qayda əsasında düzlənirdi və

ümumi hərbi quruluşa malik olurdu. Avanqardın özünün xüsusi bayrağı, sağ cinahın öz bayrağı var idi və s. Buna görə də, bayraqların adı hissənin təyinatı ilə bağlı idi. U-tszının traktatında göstərilir ki, avanqard qırmızı çalağan təsvir olunmuş bayraq, aryerqard qara tısbağa, sol cinah hissələri göy əjdaha, sağ cinah hissələri ağ pələng təsvir olunmuş bayraqlar aparırdılar (U-tszı, III, 7).

3.Tsao-qun «sin» və «min» sözlərini başqa cür izah edir. O, hesab edir ki, Sun-tszı «forma» dedikdə nişan və bayraqları, yəni düzülüşü, «ad» dedikdə isə sinc və təbilləri, yəni, komanda siqnallarını nəzərdə tutur. Belə ki, qədim Çində komandaları səslə deyil, bu alətlərin vasitəsilə verirdilər. Mən Du Munun fərziyəsi üzərində dayandım, belə ki, məncə, onun fikirləri Sun-tszının fikirləri ilə daha uyğun gəlir. Verilmiş ifadə əvvəlkinin tam qrammatik təzahürüdür, buna görə də bu iki ifadədə terminlərin tam paralelləşdirilməsi mümkündür. Əgər birinci ifadədə «fenq-şu» termini «bölmə» anlamındadırsa, onun iki əlaməti hissə və miqdarı ilə birgə götürülübsə, ikinci ifadədə «sin-min» termini də bu tipdə olmalıdır, yəni bir mənanı verməlidir və iki əlamətin köməyi ilə izah olunmalıdır. Burada düzülüşdən söhbət getdiyini Tsao-qun etiraf edir, lakin bu, ona hər iki termini bir anlam əsasında söyləməyə məcbur edir. Əgər «sin» sözünün mənasını bu terminin bütün əhatəsi ilə düzülüş mənasında götürsək, o zaman «min» sözü bu anlamdan çıxacaq və hansısa başqa kateqoriyadan söhbət edəcək. Burada isə iki müxtəlif kateqoriyadan söhbət gedə bilməz. Buna görə də mən hesab edirəm ki, belə olan təqdirdə Sun-tszını Tsao-qun deyil, Du Mu düzgün başa düşür.

3. «Syan» sözünü ruscaya «sürətli» kimi çevirirəm və Van Çjenin söhbətinə əsasən bunu edirəm: «Sel gələrkən sıldırım, dar dərələrə düşəndə onun gücü çoxalır». Başqa sözlə desək, o, dağ seli timsalını götürür və bu Selin gücü sərt qayalar olan yerlərdə və dar yataqlarda artır.

4. Sun-tszının ifadə eitdiyi anlamın üzərində dayanıram və hesab edirəm ki, bu, əvvəlki fikirlərlə bilavasitə əlaqəli olmalıdır. Buna görə də «yuan»- dairəvi sözünü Li Tsyuan və Xe Yan-sinin başa düşdüyü mənada şərh edirəm. Li Tsyuan hesab edir ki, Sun-tszıda «dairəvi» sözü «önü və arxa tərəfi olmayan», yəni hər cür formadan kənar mənasında işlədib. Xen-Yan-si də hesab edir ki, «dairəvi» «düzgün cərgəli olmayan», yəni hərbi nizamsız mənasını verir. Hesab edirəm ki, bu cür fikir yürütmək daha düzgündür, nəinki başqa cür. Belə ki qədim Çin ordusunda «dairəvi sözünün işlənməsi «pozulmuş» sözünün sinonimii olmalıdır. Burada bütün düzülüş formaları, ən kiçik fazadan tutmuş orduya kimi dördbucaqlı olmalı idi. Əsgərlər cərgələrlə dururdular, yəni, düz xətt üzrə; bu cərgələr bir-birinin ardında olurdu və bütün bunlar «dördbucaqlı» prinsipinə əsaslanırdı. Beləliklə, düzülüşün «dairəviləşməsi» bu dördbucaqlı

formasının pozulması, yəni hərbi nizamın pozulması demək idi. Bu səbəbdən, Mey Yao-çenin fikri ilə heç cür razılaşa bilmirəm. Eləcə də Soray və digər təfsirçilərlə, hansı ki, onlar Sun-tszının «dairəvi» ifadəsini «hərəkət edən» mənasında başa düşürlər. Belə olduqda bu anlamda işlədilən «xunxun-xunxun» obrazlı ifadəsini də araşdırmaq lazım gəlir. Du Yu belə edir və bildirir ki, sürətlə axan su tez və sürətlə hərəkət edən araba obrazıdır. Bu fikirlə razılaşmaya bilmərəm və hesab edirəm ki, obrazlı ifadə olunmuş bu fikir birinci ifadədə işlənmiş «fen-fen- yunyun» ifadəsi ilə paraleldir. Şərhçilərin hamısının başa düşdüyü ifadə «qarışmaq», «dolaşıq düşmək» mənası verirsə və bu, hər iki ifadəni paralelləşdirdikdə heç bir, necə deyərlər, «müsbət» məna vermirsə, o zaman əvvəldə olduğu kimi, hansısa təşkilatsızlığın əlamətidir. Heç kəsdə tərəddüd doğurmayan birinci ifadə belə qurulub: təşkilatsızlığı təsvir edən oğrazlı ifadə, bu nizamsızlığı ifadə edən, sonra dəyişdirici-əksmənalı köməkçi söz, nəhayət, inkar formasında olan əsas xəbər: «idarə etmək» (belə ordunu) mümkün deyil». Mənim tərcüməmin formal əsası budur. Real əsas da fəslin ümumi kontekstindən götürülüb və bu, şərhlərdən də görünür.

VI fəsil

1.Sorayın fikirlərinə əsaslanaraq (sit.əsər.səh.120-122) onun şərhində olan anlayış üzərində dayanıram. Soray guya Sun-tszının burada «geri çəkilən o qədər tez gedir ki, ona çata bilmirlər» deməsi ilə bağlı fikirləri inkar etməkdə tam haqlıdır. Soray bu cür mühakimə edir: «Qoy, sərkərdə sürətli getmək qabiliyyətinə malik olsun, lakin onun zabit və əsgərləri adi adamlardırlar». Yerişin sürəti öz əsgərlərində də, düşmən əsgərlərində də eynidir. Buna görə də burada söhbət yerişin tezliyində yox, düşmənin özü üçün geri çəkilməyin tez və gözlənilməz olmasından gedir. Soray Mununu fikirlərinə düzgün yanaşır. Du Mu hesab edir ki, Sun-tszının hər iki ifadəsini bir yerdlə işlətsən, belə bir fikir yaranar: hücum zamanı rəqib tab gətirə bilmirsə, bu, onunla izah olunur ki, onun boş yerinə, yəni ki, cərgəsi aralanmış hissəyə zərbə endirilib. Bu zaman əzilmiş və zəifləmiş düşmən təbiidir ki, geriyə dönən qalibin arxasınca çapa bilməz. Soray tarixi misallar gətirir ki, məhz əzilmiş rəqib qalib gəlmiş tərəfin arxasınca düşərək onu qırırdı. Tszao-qunun müharibəsindən bir epizod çox məşhurdur. Tszao-qun öz düşməni Çjan Syunun yerləşdiyi qalanı mühasirəyə almışdı. Qaladakılar möhkəm dayanmışdılar və Tszao-qun onu tutmaq ümidini itirdi. Bu səbəbdən mühasirəni dayandırdı və geriyə çəkildi. Bunu görən Çjan geri çəkilənin dalınca düşmək qərarına gəldi. Çjnanın müşaviri Tszya onu dilə tutdu ki, bunu etməsin. Lakin Çjan Syu onu eşitmədi və düşməni təqib etməyə başladı. İş onunçün pis nəticələndi. Tszao-qun təqib olunduğunu görərək pusqu qurdu və gələnləri qırdı. Onda Çjan Syu Tszya Syuya bu sözlərlə müraciət etdi: «Siz qabaqcadan bilirdiniz ki,

mən məğlub olacam. Siz həm də bilirsiniz ki, mən necə qalib gələ bilərəm». O, cavab verdi: «Siz əzilən zaman təqib etməyə üz tutun». Çjan Syu məsləhətə qulaq asdı və sağ qalmış qüvvələri ilə Tszao-qunun arxasınca düşdü. Tszao-qun yenicə əzilmiş düşmən tərəfdən heç bir təhlükə gözlənilmədiyinə arxayın olaraq, hər hansı ehtiyat tədbiri görmədən hərəkət edirdi, buna görə də qəflətən hücuma məruz qaldı və məğlub oldu.

Beləliklə, Çin sərkərdələrinin fəaliyyəti Du Munun düşüncələrini inkar edir.

Li Tsyuanın da geri çəkilənləri tez hərəkət etməsi və düşmənin ona çata bilməməsi ilə bağlı dediyi fikirlər qəbulolunan deyil. Onun fikrincə, iş orasındadır ki, geri çəkilənlər əvvəlcədən öz yük arabalarını göndəriblər və bu onların hərəkətini asanlaşdırıb. Lakin birincisi, bu nəticə mətndən çıxarılmayıb, bu, şərhçinin öz fikridir. İkincisi, geri çəkilmənin tez edilməsi zərurətindən irəli gəlir və bu zaman yük arabalarının qabaqcadan geriyə göndərilməsi mümkün deyil. Üçüncüsü, təqib edənlər öz arxasındakıları tam təminatlı saxlayırlar və onların heç də özləri ilə yük arabaları götürməsinə ehtiyac qalmır, çünki bu, onların hərəkətinin sürətini azaldardı. Digər təfsirçilə rbununla bağlı çox qısa, ya da nisbi fikir söyləyirlər. Buna görə də mən Sorayın söhbətinin üstündə dayanıram, belə ki, onun fikirləri başqalarından üstündür və o, Sun-tszının bu fikirlərini bu bölmənin ümumi kontekstindən çıxarır.

2. Çin dilindəki «yue» sözünü rusca «az» sözünə çevirirəm, hansı ki, şərhçilər də belə edir, (Du Mu, Du Yu, Xe Yan-si, Mey Yao-çen) bu sözün «şao» ilə eyni mənada olduğunu söyləyirlər. Adama elə gəlir ki, bunları tərcümə etdikdə boş söz yığını əmələ gəlir, təbiidir ki, əgər mən çoxlarının üzərinə hücum çəkirəmsə, mənlə çox adam vuruşmur. Göründüyü kimi, bu vəziyyətdə Çjan Yuy bu sözü düşmənə deyil, özünə aid edir. o deyir: «Çoxsaylı və güclü qoşunla azsaylı və zəif qoşuna hücum edəndə qələbə üçün az qüvvə tətbiq olunur, nəticə isə böyük olur». Bu söhbət (öz-özlüyündə düzgündür) «yue» sözünü düşmənə deyil, özünə aid edir. Lakin bu qrammatik cəhətdən düzgün deyil və cümlənin quruluşundan görünür ki, bu söz xəbərdir və özündən əvvəl gələn «çje» sözü ilə işləmir və belə bir söz birləşməsi yaradır: «Kim ki, mənlə savaşır», yəni düşmən. Soray bu sözü «düşmənin vacib məntəqəsi» kimi qələmə verir. Düşmən üçün çox əhəmiyyətli olan məntəqə. Lakin bu söz də inkar olunur, çünki qrammatik nöqteyi-nəzərdən «yue» sözü «çje»nin xəbəri ola bilməz. Bu sözü mənə elə gəlir ki, az-çox Du Yu aydınlaşdırır, hansı ki, onun fikrincə, «yue» iki sözün mənasını ifadə edir: «şao» və «i şeen», yəni «az» və «qələbə asandır». Mən bu fikirdə də qalıram.

3.Belə bir fikir var, hansı ki, Soray istinad edir. «Yuejen» sözünü Yue knyazlığının sakini mənasını və adını verən ifadə kimi başa düşmək lazımdır– «yueslilər». Söz birləşməsi kimi isə «digər insanlardan üstün olmaq». Lakin təfsirçilərin hamısı yekdil

fikirdədirlər ki, bu ifadəni xüsusi ad kimi qəbul etmək lazımdır və traktatda bu, konkret tarixi şəraitdə öz əksini tapıb, o zaman yaranıb. Onlar hesab edirlər ki, Sun-tszı öz traktatını xidmətində olduğu Xo Lyu üçün yazıb. O zaman U knyazlığı Yue knyazlığı ilə müharibə şəraitində idi. Buna görə də, bu ifadədə U traktatın müəllifinin özü kimi, yəni, Sun-tszı kimi başa düşülməlidir.

4.«Şənbay» birləşməsini bir sözlə «qələbə» ilə ifadə edirəm, hesab edirəm ki, bu, bir mürəkkəb sözdür və üçüncünü ifadə etmək üçün iki əks anlayışdan yaranıb. Bu iki sözdən «qələbə» sözünü ona görə götürürəm ki, ruscada belə sözlər iki əks sözü ümumiləşdirmək üçün istifadə olunur.

5.«Deşi», «duntszin» və «sişen» sözlərini üslub baxımından iki sözə çevirirəm «ləyaqət və səhvlər», «hərəkət və sakitlik», «həyat və ölüm» bu ifadələrin daxil olduğu həmin o üç söz dördüncü ilə də bir tam təşkil edir. Elə oradaca, uyğun gələn yerdə paralel ifadələr durur, «gəlir və çatışmazlıq» iki müstəqil sözdən ibarət olur.

6.Çen Xao, Men-şi, Tszya Lin və Mey Yao-çen bu yeri tam başqa cür başa düşürlər. Onlar «forma» (sin) sözünü düşmənə aid edirlər və beləliklə, Sun-tszının ifadələrini Mey Yao-çenin sözləri ilə belə deyirlər: «Düşmənin həyat və ölüm yerini mən onun formasından görür və öyrənirəm». Bu cür baxışla mən iki nöqteyi-nəzərdən razılaşa bilmərəm. Birincisi, elə bu cür söz birləşməsi– «sinaji»yə Sun-tszının traktatının V fəsilində rast gəlinib. «Kim ki, rəqibini hərəkətə məcbur edir, ona formanı göstərir, düşmən mütləq onun arxasınca gedir». Orada bu söz birləşməsi heç bir tərəddüd doğurmur. Nə üçün burada ona yeni və qrammatik cəhətdən çox gərilmiş məna verilsin. İkincisi, bu sözün ümumi kontekstı və bu bölmənin özəlliyi müharibə aparanın passiv vəziyyətini nəzərdə tutmur, əksinə onun aktiv tədbirlərindən danışılır. Hər yerdə söhbət düşmənin «boşluq» və «doluluğundan» gedir, və bunun müşahidə yolu ilə aydınlaşdırılmasından, özünün «boşluq» və «doluluğundan» istifadə etməyindən bəhs olunur. Fəslin bütün məzmun və mənası bundan ibarətdir. Beləliklə, elə bu bir fikrə əsasən təfsirçilərin dedikləri qəbul oluna bilməz.

VII fəsil

1.Tərcümə zamanı «xe tszyun» və «tszyuyu çjin», söz birləşmələrinin yerini dəyişmək olardı, yəni «ordunu formalaşdırırlar və qoşunu yığırlar» yox, «qoşunu yığır, ordunu formalaşdırırlar» demək olardı. Mey Yao-çen bu iki söz birləşməsini məhz bu cür izah edir. Çjan Yuy «tszyunu çjin» ifadəsini «qoşunu yığır və ona hərbi nizam verirlər» kimi başa düşür. Əgər Çjan Yuy «tszyuy çjun» ifadəsinin məzmununu açsaydı, bu fikir tam qəbul olunardı. Lakin o, bunu etmir, onu olduğu kimi təkrarlamaqla yanaşı, yeni söz birləşmələri qoşur– «ona hərbi nizam verirlər». Həqiqətdə bu, belədir, lakin mətndə belə şey yoxdur. Van Çjenin də fikirləri bu cür

sünidir və o hesab edir ki, «ordunun formalaşdırılması» ifadəsi «üç ordu»nun adi qaydada təşkilinə aiddir, yəni 375500 nəfərin). «qoşunun yığılması» isə ikiqat tərkibin, yəni 75000 nəfərin toplanması deməkdir.

2.»Xe» sözü «tszyun men», yəni «düşərgə qapıları» kimi başa düşülür və belə də adlandırılırdı – «xe men».

«Sülh qapıları» adı verilən düşərgə qapılarını bəzən sülh və razılaşma kimi başa düşməyi təklif edirlər və bu, düşərgədə komandirlər və əsgərlər arasında münasibətlər anlamı verir (Soray sit.əsər.səh.141). Bu mümkünlürmü? Mənə elə gəlir, olduqca təbiidir ki, bu adda tabu qoyulub və bu, bəzi sözlərin işlədilməsinə qoyulmuş qadağadır. Belə ki, bəzi şeylər özünün əksi olan sözlərlə ifadə olunur. Məsələn, «ölüm» yerinə «həyat», «nizamsızlıq» yerinə «nizam» və s. Buna görə də «sülh qapısı» əslində «müharibə qapısı» mənasını verir.

3.»Veytszi» ifadəsini təfsirçilər müxtəlif cür şərh edirlər. Van Çjeyə görə bu, yanacaq, duz, tərəvəz və meşə materiallarıdır; lakin ilk üç təchizat növü ərzaq yükü, dördüncü hərbi təchizat yükünə daxildir.

Çjan Yuy və Du Mu hesab edirlər ki, burada söhbət əmlakdan gedir, lakin bu sözün belə mənada işlədilməsinə rast gəlinmir. Belə bir fikir mövcuddur ki, bu ifadə işlədildikdə quru ot, yem nəzərdə tutulur, lakin «veytszi»nin bu mənada işlədilməsinə rast gəlmirik. Buna görə də mən Lyu İnin dediyinin üstündə dayandım, onun fikrincə, burada söhbət ümumilikdə ehtiyatlardan– həm döyüş, həm ərzaq ehtiyatlarından gedir və o ardıcıl şəkildə, dayanmadan təmin olunur.

4.Bəzi şərhçilər Sun-tszının bu sözlərinə müxtəlif cür izahlar verirlər. Məsələn, Tsao-qun və Çjan Yuy hesab edirlər ki, «meşə kimi sakit və ahəstədir» ifadəsini belə başa düşmək lazımdır ki, sərkərdə qarşısında fayda görməyəndə yerindən tərpənmir. Görünür, Sun-tszının burada xatırladığı «ahəstəlik» məhz bununla bağlıdır. Mən bu məsələyə ona görə şərh vermirəm ki, bu ola bilsin, sərkərdənin passivliyi kimi başa düşülə bilər, lakin müharibədə hər şeyin vaxtı var və kənardan passivlik kimi görünən, aktivlik üçün hazırlıq mərhələsidir. Müharibədə bu passivlik düşməni aldatmaq məqsədi də güdə bilər. Mey-şi və Du Mu hesab edirlər ki, hərəkət zamanı ahəstəlik ehtiyatlılıq göstərmək və hücum təhlükəsi ilə bağlıdır. Lakin burada təkcə hərəkət yox, ümumilikdə fəaliyyətin aramlığından söhbət gedə bilər.

Li Tsyuan «müdaxilə edir və od kimi boşluq yaradır» ifadəsini düşmən ərazisinə daxil olaraq oradakıları qılıncdan keçirmək kimi başa düşür. Bu fikir «tsinlyue» söz birləşməsini ağırlıq mərkəzinə gətirir və biz bu sözü ruscaya «müdaxilə» kimi tərcümə edirik, ikinci element– «lyue», yəni «qarət etmək» bu ifadələri belə mənaya gətirir (qarət və boşaltmaq). Əlbəttə ki, Sun-tszı dövründə belə hallar çox

olurdu, lakin bu, Sun-tszı üçün əsas məqsəd deyildi. Sun-tszının bu məsələyə münasibəti bu sözlərdə çox aydın ifadə olunub: «Düşmənin tağımını əsir götür, nəinki onu tar-mar et».

5.Traktatın bu yeri olduqca müxtəlif başa düşülür. Buna səbəb «fen-çjun» və «fen-li» söz beirləşmələrinin müxtəlif cür başa düşülməsidir. Mən şərhdə və tərcümədə olan anlamın üzərində dayandım. Lakin Xe Yan-si və Mey Yao-çen hesab edirlər ki, burada söhbət qarət olunmuş şeylərin öz əsgərləri arasında bölünməsindən, zəbt olunmuş torpaqların vassalları arasında bölünməsindən gedir. Mənə elə gəlir ki, bu cür izah nə qrammatik, nə də məna cəhətdən əsaslandırılmayıb. «Fen-çjun» və «fen-li» ifadələri eyni tipə aiddir. Buradakı ifadələr «faydanın bölünməsi» mənasına gəlir və burada söhbət zəbt olunmuş torpaqların bölünməsindən yox, faydalı, əlverişli, vacib strateji məntəqədən gedir. Və buradakı ifadələrin hamısını aydınlaşdırdıqda məlum olur ki, əsas məna düşmənin ərazisini elə keçirərkən «öz hissələrinlə ən vacib və strateji əhəmiyyətli məntəqələrdə yerləşir»dir. Bu qayda o qədər nəzərə çarpandır ki, bu, bütün ölkələrdə və müharibələrdə qorunurdu.ö əgər bu belədirsə, o zaman birinci söz birləşməsi ilə bağlı məsələ artıq həll olunur. Qrammatik cəhətdən də fel vasitəsiz tamamlıqla uzlaşmalıdır, yəni, nəyisə öz qoşunların arasında bölmək deyil, «hərbi hissələri ən əsas yerlərə ərzaq tədarükü etmək üçün göndər» mənasını verir ki, bu da o dövrün müharibə qaydalarına uyğun idi.

6.Du Mu traktatın bu yerinin izahını belə başa düşür. O, hesab edir ki, gecə döyüşləri zamanı çoxlu məşəllər yandırmaq və təbilləri çox döyəcləmək mənasızdır, çünki gecə döyüşləri adətən açıq, geniş yerdə deyil, dar bir müstəvidə aparılırdı, gecə döyüşü böyük vuruşma deyil, kiçik basqın, həmlədir. Bununla yanaşı, o, təhlükəsiz də deyil, çünki düşmənə yol aça bilər. Buna görə, Du Mu hesab edir ki, burada söhbət başqa şeydən gedir. Qədim Çin ordusunun düzülüşü şahmat taxtasını xatırladır, damalar, cərgələr arasında keçid olurdu. Bu keçidlərin çarpazlaşdığı hər yerdə qabaqcadan məşəllər qoyulurdu. Gözətçi qüllələrində təbilin vurulması ilə heyət düşmənin gəlməsi barədə məlumatlandırılırdı. Bütün məşəllər yandırılır və düşərgə tamamilə işıqlanırdı. Bu, çaxnaşma və nizamsızlığın qarşısını alır, əsgərlər asanlıqla hərbi nizama düzülür və düşməni qarşılamağa hazır olurdular. Bu cür izah belə hadisələrə ilk baxış deyil, bununla belə, bəzi səbəblər üzündən qəbul oluna bilməz.

VIII fəsil

1.Tszya Lin bu yeri özü bildiyi kimi izah edir. o, hesab edir ki, Sun-tszının sözlərində məsələ mükafat və cəzaların üsullarındandır. Bunlardan biri olan yerdə digəri də mövcuddur. Lakin bu fikir tam əsassızdır. Belə ki, Sun-tszıda «mükafat», «cəza», «fayda», «ziyan» anlayışları dəqiq terminlər əsasında rol oynayırlar. Bunların hər biri

öz adı ilə dəqiq ifadə olunub. Buna görə də bir terminin mənasının digərinə aidiyyəti yoxdur.

2.Çin dilində «sin» sözü «düzlük», «inam», «etibar» mənalarını ifadə edir.

3.Bu yerin ümumi izahında dayanaraq hesab edirəm ki, şərhçilərin Sun-tszının konkret qayda və üsullarını ifadə edən sözlərinə əlavələr etməsi əsassızdır. Məhz buna görə, onların hamısı ayrı-ayrı şeylərdən danışırlar. «Knyazlara ziyan vuraraq onları özünə tabe etdirmək» ifadəsində bəziləri qonşu ölkələrin vacib şəxslərini öz tərəfinə çəkməyi başa düşür; digərləri öz agentlərini göndərməyi və onların idarələrinin işini pozmağı; üçüncülər xalqla hökmdar arasında nifaq salmaq üçün casusların göndərilməsini nəzərdə tuturlar, dördüncülər belə düşünürlər ki, qonşu knyazın yanına əsl sənətkarların göndərilməsi və onlara böyük və təmtəraqlı binalar, qurğular tikilməsi ilə onların xəzinəsinə ciddi ziyan vurulur; nəhayət, bəziləri hesab edirlər ki, burada söhbət qonşu knyazlara gözəl qadınlar göndərilməklə knyazın idarəçilik işlərindən yayındırılmasından gedə bilər. Qısaca desək, təfsirçilər konkret tədbirləri sadalayırlar ki, bu yolla knyazlara ziyan vurula bilər. Bu tədbirlərin siyahısını uzatmaq da mümkündür. Sun-tszı isə ümumi prinsiplər əsasında fəaliyyət göstərməyi tövsiyə edir və buna görə də onun fikirləri necə lazımdır, elə başa düşülməlidir.

Eləcə də, «e» sözünün mənası ilə bağlı şərhçilərin fikirlərini başa düşmək çətindir. Məsələn, Du Mu və Çjan Yuy hesab edirlər ki, Sun-tszının «özünə işlə xidmətə məcbur edirlər» ifadəsi o məna kəsb edir ki, əgər mənim ölkəm böyük və onun gücü çoxdursa, qonşu dövlətlərin özləri mənə ehtiram göstərirlər. Amma tam düzgün olaraq deyir ki, belə olan halda, «e» sözü kənd zəhməti, kənd təsərrüfatı kimi başa düşülməlidir və bu amil ölkənin zənginləşməsi üçün əsas yaradır. Du Yu belə hesab edir ki, «e» sözü ilə inşaat işləri, bəzək şeyləri və musiqi alətləri, yəni bütün təmtəraqlar ifadə olunur. Bütün bunlar və digər məsələləri nəzərə alaraq, hesab edirəm ki, traktatın bu yerində nə iisə sonradan üzə çıxan və üçüncü ifadədə faydadan danışılması, ya da «e» sözünün «iş» mənasında işlədilməsi özündə ziyan və faydanı birləşdirir. Birinci kontekst də bu ifadəyə sövq edir. Sun-tszı bildirmişdi ki, hər faydada ziyan, hər ziyanda fayda var. Buna görə də onun dilində belə ümumiləşdirici ifadə ola bilər; ikincisi bu anlama bu ifadənin yerləşdiyi yer də təsir edir. o, ziyan ifadəsi ilə fayda ifadəsinin arasında yerləşir.

4.Soray hesab edir ki, Sun-tszının işlətdiyi «beş təhlükə» ifadəsi onun əvvəldə dediyi elə həmin «beş fayda» deməkdir. Soray bunu belə izah edir: «Bu beş təhlükənin harada olduğunu bilməyəndə, onlar təhlükəli olurlar. Ancaq bu təhlükələri bilib və ona qarşı tədbirlər görülürsə, onlar faydaya çevrilirlər» (sit. əsər. səh.190). Bu fikri qəbulolunmaz hesab edirəm. Belə ki, Sun-tszı o təhlükələri nəzərdə tutur ki, onlar sərkərdənin şəxsi keyfiyyətləri ilə

şərtlənir; hər halda fayda haqqında bundan əvvəlki mühakimələr mətndən də göründüyü kimi, ümumilikdə istənilən sahədə faydanı nəzərdə tutur. Sorayın fikirlərindən görünür ki, o, «beş» sözünü əldə əsas tutaraq, «beş fayda» üzərində dayanmağa məcbur olur və onların harada olması asılılığında qalır, bu beş faydanı axtarır. Mən ümumiyyətlə, belə hesab edirəm ki, «təhlükə» sözü «fayda» sözünü əvəz edə bilməz. Sun-tszı bu iki anlayış arasında əlaqə görür, lakin onun heç vaxt ağlına gəlməz ki, hər hansı deyimin öz əsas mənasını inkar etsin, o ki qaldı bir-birinə əks olanı eyniləşdirsin.

IX fəsil

1. «Şen» sözünü şərhçilərin təklif etdiyi kimi, ya «yan»- «günəş», ya da «syak yan»- «günəşə yönəlmiş» kimi tərcümə edirəm. Du Mu deyir «myat, nan»- «cənuba yönəlmiş», Çen Xao «Syan dun»- «şərqə yönəlmiş» kimi başa düşür. Soray bu iki fikri birləşdirir və onu «cənub-şərqə yönəlmiş» kimi verir.

2.Du Mu və Çjan Yuy göstərirlər ki, «Sun-tszı»nın bəzi nəşrlərində iki heroqlifin yeri dəyişik düşüb. Ona görə də birinci söz «yüksəklikdə yerləşən düşmənlə döyüş zamanı» kimi deyil, «döyüşü aşağı enə-enə apar, yəni yuxarıdan aşağıya» kimi başa düşülməlidir. Soray hesab edir ki, bu variant düzgündür, çünki bu zaman qrammatik cəhətdən daha düzgün cümlə quruluşu yaranır və məntiqi əlaqə olur. Bu mülahizəni mümkün hesab edir, lakin onu tərcümənin əsası kimi götürə bilmirəm, çünki «Sun-tszı»nın oxucularının çoxu bunu ruscaya tərcümədəki kimi başa düşürdülər. Hətta bu variantı əsas götürən Du Mu və Çjan Yuy da onu tərcümədəki kimi izah edirlər.

3.Soray təsdiq edir ki, bu ifadəni iki cür başa düşürlər; bəzi şərhçilər hesab edirlər ki, burada söhbət çayı keçənə qədərki mövqedən, digərləri isə çayı keçəndən sonra tutulmuş mövqedən gedir. Sorayın özü isə birinci fikrə üstünlük verir. Lakin mən adı çəkilən şərhçilər arasında birinci fikrin tərəfdarı olan və Sun-tszıı da belə başa düşdüklərini göstərən elə bir şeyə rast gəlmədim.

4.Du Mu və Çjan Yuy «sı» və «şen» sözlərini «alçaq yer» və «yüksək yer» mənasında başa düşürlər. Soray buna etiraz edərək bildirir ki, bu, deyilmiş şeyin təkrarıdır. O təklif edir ki, «si» ifadəsi susuz və bitki olmayan yer mənasında başa düşülsün, şen isə bunun əksidir. Soray hesab edir ki, öz qarşında su və bitkinin olması faydasızdır, belə ki, onlar döyüş zamanı maneçilik törədirlər. Bu cür yerin səndən arxada olması isə faydalıdır, çünki onlardan təbii istehkam kimi istifadə oluna bilər. Çin strategiyası nöqteyi-nəzərindən bu doğrudur, lakin başqa şərhçilər başqa fikir söyləyirlər və bu da tam qəbulolunandır. Mən Du Mu və Çjan Yuyun fikirləri üzərində dayandım və hesab edirəm ki, onlar Sun-tszının maili yerdə döyüş aparmağın faydası ilə bağlı ümumi ideyaları daha yaxşı başa düşürlər; bundan başqa, Sun-tszı olduqca aydın şəkildə bildirir ki,

belə yerdə vuruşarkən özündən sağda və arxada yüksək yer olmalıdır.

5. «Dörd imperator» ifadəsi şərhçilərə uğur gətirir. Çinin tarixi ənənələri lap qədimdə «beş imperator»dan bəhs edir bu ənənəyə əsasən, ilkin olaraq Xuan-di Çin dövlətçiliyinin əsasını qoyub (m.ö. 2696-2597-ci illər). Bu imperatorlar bir-birinin ardınca qəliblər və görünür ki, Xuan-di onlarla mübarizə apara bilməyib. Bunu əsas götürərək, Mey Yao-çen, Van Çje və Men-şi hesab edir ki, buradakı mətndə işarə səhvi olub; «imperatorlar» əvəzinə «qoşun» olmalıdır. Belə olan halda söhbət Xuan-dinin «dörd imperator» deyil, «dörd ordu» üzərində qələbəsindən gedərdi». Tsao-qun, Li Tsyuan, Çjan Yuy və başqaları mətni burada tərcümə olunduğu kimi qəbul edirlər. Həqiqətən, qədim Çin yazılarında (daçyuan xəttində) heroqliflər bir-birlərinə az oxşayırlar. Bununla belə, bu mübahisələr əslində artıqdır, əsası odur ki, burada «dörd» sayı var, hansı ki, hər zaman «dörd tərəfi» göstərə bilər və bu, həm də hər tərəf deməkdir. Buna görə də Xuan-dinin dörd imperatora» və yaxud «dörd orduya» qalib gəlib-gəlməyib deyilməsindən asılı olmayaraq, burada ümumi bir məna var: ətrafdakı hər şey üzərində qələbə. Rəvayətə görə, Xuan-di ətrafdakı bütün knyazlara, tayfa başçılarına, lap elə «dörd imperatora» qalib gələrək Sini birləşdirdi».

7.Tsao-qun «şi» sözünü «qao» kimi, yəni «hündür yer», «yüksəklik» kimi verir. Hesab edirəm ki, Soray bu sözü «tszyan», yəni «möhkəm», «bərk» mənasında başa düşməyi təklif etməklə düzgün yoldadır.

8.Hər bir təfsirçi bu yerlərdən hər birini özü bildiyi kimi təsvir edir. əlbəttə ki, onların arasında bəzi fikir ayrılıqları var. Lakin bu təsvirlərdəki fərq əsasən detallardadır. Buna görə də mən bu izahı daha dəqiq olan Çjan Yuyun fikirləri əsasında götürürəm.

9. Sun-tszının burada işlətdiyi «yue» sözü aydın başa düşülmür və müxtəlif mübahisələrə səbəb olur. Şərhçilərin irəli sürdüyü təkliflərdən Çen Xaonun fikirlərini, bu sözün «tsyuy jo»– «sındırılmış», «gücsüz olmaq» ifadəsi vasitəsi ilə işlədilməsini seçirəm.

10.Lu İnin anlamında mətnin abzasının sonuncu hissəsi başqa şəkildə sevilir, yəni, «əgər silər atları öldürür və onların ətini yeyirlərsə, bu o deməkdir ki, onların ərzaqları qurtarıb, əgər onlar yemək bişirdikləri qazanları ağaclardan asıblarsa (yəni, onlan lazımsız şey kimi atıblarsa) və düşərgəyə getmirlərsə (etibarlı yerdə sığınmaq istəmirlərsə), deməli, onlar quldurluq həddinə çatdırılıblar». Lakin bu mülahizə mənə az inandırıcı görünür. Belə ki, adama qəribə gələrdi ki, nə üçün yük öküzlərini deyil, atları öldürürdülər; bundan başqa, «Şovenyunu» ifadə edən heroqlif yemək bişirmək üçün istifadə olunan qazanlar deyil, məhz, şərab üçün kuzələr mənasını verir. Mənim tərəfimdən tərcümə olunan mülahizə «Sun-tszı»nın

nüfuzlu biliciləri olan Du Yu, Mey Yao-çen, Van Çje, Çjan Yuyun nəşrlərində də qəbul olunur.

Yeri gəlmişkən, bundan əvvəlki ifadə mənim tərəfimdən belə tərcümə olunub: «Əgər komandirləri söyüş söyürlərsə, deməli, əsgərlər yorulublar. Digər şərhçilər, məsələn, Du Yu «əsgərlər» sözünü dəyişərək bu cümləni belə başa düşür: «Əgər onun komandirləri söyüş söyürlərsə, (özlərinin komandanlarına) deməli, onlar yorulublar».

11.Soray belə hesab edir ki, «tsyuy jen» söz birləşməsini «qələbəni düşməndən qoparmaq» mənasında başa düşmək lazımdır, onun fəaliyyətini öz xeyrinə dəyişmək gərəkdir. Bu cür söhbət «Sun-tszı» ruhunda mövcuddur, lakin bu yerdə vacib deyil. Du Mu bu söz birləşməsini olduqca orijinal şəkildə izah edir: istedadlı və qabiliyyətli insanları seçmək lazımdır. Bu, onun həmin yeri ümumi anlamda başa dyşməsi ilə əlaqədardır. O hesab edir ki, Sun-tszı düşmənin sayca çox olduğu təqdirdə öz əsgərlərinin xüsusi fədakarlığına bel bağlamamağı məsləhət görür, öz döyüşçülərinin ən yaxşılarını seçmək, onları əsas kütlədən ayırmaq, düşmənin bütün vəziyyətini diqqətlə götür-qoy etmək, qələbə çalmaq lazımdır. Bu fikir o zaman düzgündür ki, «jen» sözünü, adətən, Sun-tszıda olduğu kimi öz əsgərlərinə aid edirsən. Başlıcası odur ki, elə buradaca növbəti ifadədə həmin söz, məhz düşmən mənasındadır.

X fəsil

1.Du Mu «qua» sözünü dağlıq və sıldırım mənasında verir. Belə mövqedə hər iki tərəfin hərbi hissələri «itin dişləri kimi» bir-birinin arxasına keçir. Lakin bu cür başa düşüldükdə Sun-tszının belə yerdə döyüş aparmaq tövsiyəsinin mənasını anlamaq çətindir. Buna görə də mən Lyu İnin fikri üzərində dayanıram. O birbaşa deyir ki, burada sən qarşısı alçaq, arxası hündür, yəni yüksələn yerdə, yəni düşmənin dayandığı yerdən yuxarıda dayanırsan. Məsələyə bu cür yanaşma Sun-tszının belə yerlə bağlı verdiyi növbəti xarakteristika ilə uzlaşır. (bax 3).

2.Çuntsyu dövründə «üç ordu» birləşməsinin öndəki ordusunun komandanı «Şantsyan» sözü ilə ifadə olunurdu, yəni ön, mərkəz və arxa ordunun ümumi komandanı. Bu halda həmin termin– «baş» və yaxud da tərcümədə üstünlük verdiyim «ali sərkərdə», baş komandan kimi işlənmişdir.

XI fəsil

1.Maraqlılır ki, «qarət et» sözü ilə Sun-tszının şərhçilərinin heç də hamısı razılaşmırdı. Məsələn, Li Tsyuan hesab edir ki, mətnin bu yerində qüsur var. Sanki bir heroqlif «bu»– inkar heroqlifi itib, orijinalda «qarət et» yox– «qarət etmə» olmalıymış. Bu, ancaq

şərhçinin heç nəyə əsaslanmayan uydurmasıdır. Sun-tszı şübhəsiz ki, qarətə icazə verir və bu, yalnız buradan yox, II fəsildən də görünür. O, deyir ki, düşmənin hesabına ərzaq tədarük etmək vacibdir.

2.Mən öz şərhimdə bu yerlə bağlı xatırlatmışdım ki, avropalı belə yerdə deyərdi: «Hektor və Axilles kimi hünərlidir». Qədim ellinlilər şübhəsiz ki, Çjuan Çju və Tsao Kuya qədər hünərli olsalar belə, onların öz məşhur qəhrəmanları ilə eyniləşdirilməsinə etiraz edərdilər. Həqiqətən də bu qədim çinlilərin qəhrəmanlığı onların hünərlərinə dəlalət edir, lakin bu heç də onların alicənab olması demək deyil. Çjyuan Çju nə ilə şöhrətlənmişdi? Çjanqo dövründə (m.ö. VI əsr) belə bir hadisə baş vermişdi. Şahzadələrdən biri, Quan o vaxt hökmdar olan knyaz Laonu öldürmək istəyirdi. U Tszı-syunun məsləhəti ilə o, cəsur Çjuan Çjunu bu işə cəlb etdi. Təmtəraqlı qonaqlıq təşkil olundu və heç nədən şübhələnməyən knyaz da öz yaxınları ilə məclisə dəvət edildi. Çjuan Çju aşpaza stola verilmiş böyük balığın içərisinə qılınc qoymağı əmr etdi. Bu balıq kəsiləndə Çjuan Çju verilən siqnala uyğun olaraq qılıncı götürdü və knyaza sancdı, onun özlərini itirmiş yaxınlarını da doğradı.

Eləcə də, Tsao Kuyun qəhrəmanlığı onun comərdliyi ilə seçilmir. Onunla bağlı hadisə isə Çuntsyu dövründə baş verib (m.ö.VII əsr). Tsao Kuy Lu knyazlığında Çjuan-qunun yanında hərbi rəis kimi xidmətdə idi, lakin bəxti gətirməyənlərdən sayılırdı. O, qonşu Tsi knyazlığı ilə müharibədə üç dəfə uduzmuşdu. Nəticədə Lu knyazlığı ərazisinin bir hissəsi Tsi knyazlığına keçmişdi. O zaman Lu knyazı Tsi knyazı ilə barışmaq və sülh danışıqları aparmaq qərarına gəldi. Knyazların görüşü zamanı Tsao Kuy qəflətən xəncəri çəkib Tsi knyazının boğazına dirədi və tutduğu torpaqları geri qaytarmasını tələb etdi.

3. «Fan ma» söz birləşməsini Du Munun izahında «atları bir-birinə bağlayıb onlardan dördbucaqlı yaratmaq» kimi tərcümə edirəm. Hesab edirəm ki, ümumi kontekst sonra gələn «may lun»-«təkərləri yerə basdırmaq» ifadəsi ilə eyni məna verir. Söhbət bütün arabalardan, xüsusilə də ağır arabalardan istifadə etməklə qoşunu əhatə edən və müdafiə məqsədilə qurulmuş dördbucaqlı barrikadaya oxşar bir şeydən gedir. Bu cür halda atlar bir-birinə bağlanır, arabalar isə onları əhatə edirdi.

4. «Qann» və «joy» sözlərini, yəni «bərk» və «yumşaq» ifadələrini ruscaya «güclü» və «zəif» kimi tərcümə edirəm. Tsao-qun, Du Mu, Mey Yao-çen və Van Çenin şərhinə əsasən, «qan» və «jou» adətən torpağa aid edilir. Bu «Si tsı-çjan» tərəfindən «İ-tszina»da da müəyyənləşdirilib, burada «bərklik və yumşaqlıq» torpağın əlamətidir. Bu ifadələrdən sonra «yer qanunu» sözləri gəlir. Lakin Sun-tszının sözlərini uzaq mənada deyil, yaxın mənada tərcümə etmək lazımdır. Söhbət yalnız ümumən torpaqdan getmir, yerləşmək üçün yerdən gedir. Sun-tszıda «yer qanunu» torpağın

xüsusiyyətləri deyil, «yerləşmə qanunudur». Buna görə də, «bərklik və yumşaqlıq» çağları şəraitə aid edilir. Sun-tszının sözlərinin mənasına bu coğrafi şərait ordunun müəyyən qədər güclü və yaxud zəifliyinə təsir edir. Buna görə də, «bərklik və yumşaqlıq» keçici əhəmiyyətlidir– «güc və zəiflik».

5.«Qaçılmaz» sözünü «vəziyyət» sözünə çevirməyə haqqın olduğu qənaətindəyəm. Bunu ona görə edirəm ki, sözün özü kontekstdən tələb edir. Bu, bütün şərhçilərdə hiss olunur, Mey Yao-çen isə öz yarımifadəsinə «şi» sözünü– «vəziyyəti» daxil edir.

6.Tszya Lin «şi» sözünü ifadədə ruscaya çevirdikdə «o» yəni «düşmən» kimi göstərir və buna görə də mətndə bu yer tamamilə başqa məna alır: sərkərdə rəqibini yerini dəyişməyə məcbur etməyi bacarmalıdır ki, o, dolanbac yerlərlə getsin. Bu şərh dörd səbəbdən yersizdir: 1)şübhəsiz ki, bu ifadə əvvəlki ilə birlikdə işlənir, quruluşuna görə onunla uyğun gəlir; «şi» sözü bu ifadədə tamamilə sərkərdəyə aiddir; 2)bu anlamda bütün ifadə göydəndüşmə olur; «sərkərdə düşmənini öz gəldiyi yeri dəyişməyə, dolaşıq yolları getməyə məcbur etməyi bacarmalı və başqalarının vəziyyəti öyrənməsinə imkan verməməlidir»; belə çıxır ki, sərkərdə düşmənin hərəkəti və planlarının başa düşülməməsi üçün çalışmalıdır; 3)bu yerin bütün ümumi konteksti sərkərdənin öz plan və addımlarının gizli saxlanılması barədədir, amma Tszya Linin fikirləri Sun-tszının fikirlərinə uyğun gəlmir; 4)Tszya Linin tövsiyə etdiyi kimi başa düşmək isə qrammatik təsəvvürlərə manə olur.

7.Bu fəsilin 20-ci paraqrafı və qismən də 21-cini şərh etmədən saxlayıram. Belə ki, burada olduğu kimi, VIII fəsildə də mətndə hansısa nöqsanlar var. Aydındır ki, belə paraqrafların məzmunu ya hərfi, ya da bir qədər başqa redaktədə fəslin əvvəlində deyilənləri təkrarlayır. Bu, müəllifin öz tövsiyələrini verməzdən əvvəl hər bir formasında necə fəaliyyət göstərilməsi, yerlərin tipinin müəyyənləşdirilməsi ilə bağlı əlavə ştrixlərin sadalanması, dediklərinin təkrarlanması istəyindən irəli gəlir. Lakin bu halda müəllif nə üçün doqquz yer növünü deyil, ancaq yeddisini götürür?

Daha sonra mətnə «aralanma yeri» ilə bağlı əlavə bənd salınıb. Bunu necə başa düşək? Bu yerin yeni növüdür və ya əvvəl deyilənlərdən hansı birininsə başqa cür adıdır? Mey Yao-çen hesab edir ki, bu, yeni növdür və «səpələnmə yeri», yəni öz ərazin və «dayanıqsız yer»in, yəni, rəqib tərəfin sərhəd rayonlarının arasında yerləşir. Bəs, bu nədir? Sərhəd zolağının özüdürmü? Ola bilməz ki, Qədim Çində sərhədlərin qovuşduğu yerdə bu zolaqda o qədər geniş əməliyyatlar aparılsın. Van Çje və Çjan Yuy belə fikirləşirlər ki, burada söhbət çox uzaq məsafədən gedir, o yerdən ki, ordu öz yürüşü zamanı təkcə öz torpaqlarını deyil, başqalarının ərazilərini də gerıdə qoyub. Mənə elə gəlir ki, Sun-tszının dəqiq sözlərindən çıxış edərək bu ifadəni iki cür başa düşmək olar. Sun-tszı deyir: «Öz ölkəndən çıxaraq sərhədi keçib müharibə aparırsansa, bu, aralanma yeri olacaq». Bu o deməkdir ki, Sun-tszı bu ad ilə düşmən ərazisində

olan bütün yerləri, yəni sərhəd arazini, düşmən ərazilərinin içərilərini və s. adlandırır. Başqa fikir də mövcuddur. Belə ki, Sun-tszı nə bundan əvvəl, nə də sonra bu yerdə necə hərəkət etmək barədə fikir söyləmir, bəlkə bu yer elə sərhəd xəttidir? Mey Yao-çen isə bunu sərhəd xətti yox, məhz sərhədin özü hesab edir: o, doğma torpaqdan «aralanma yeri adlana bilməzmi?»

Sun-tszı traktatının ən yeni şərhlərinin yapon müəllifləri Fudzitsyka və Mori hesab edirlər ki, bu fəslin bəzi hissələri mətnə sonradan salınıb. Bu, sadə mətni analizdən də aydın olur. «Lakin mətnin digər hissələrinə xələl gətirən əlamətlər yoxdur. adı çəkilən şərhçilər mətnin bir hissəsini o baxımdan inkar edirlər ki, məsələn, hansısa fikir Sun-tszı üçün çox elementardır. O, belə şey deyə bilməz. Əlbəttə ki, mətnin hər bir ifadəsinə görə cavab vermək çətindir. Lakin mənə belə gəlir ki, mətndə yaranmış vəziyyətin «Sun-tszı»ya məxsus olub-olmaması fikri iki yerdə deyilir: o yerdə ki, «qonaqla müharibə» və «hegemon» haqqında fikirlər söylənilir. «Qonaqla müharibələr» ideyası Sun-tszının mühakimələrinə sığır: «hegemon»a gəldikdə isə bu, fikiri o şəxsdə yarana bilərdi ki, onun özü üçün hegemon obrazı tam realdır.

XII fəsil

1.Od hücumları obyektlərinin siyahısında şərhçilərin dəqiq əks etdirdikləri bir neçə anlaşılmazlıq var. «İnsanların yandırılması» ilə «dəstələrin yandırılması» arasındakı fərq aydın deyil. İlk baxışda söhbət eyni şeydən gedir– düşmənin canlı qüvvəsinin məhv edilməsindən. Bu vəziyyət şərhçiləri mümkün fərziyyələrə baş vurmağa məcbur edir. Li Tsyuan, Mey Yao-çen və Çjan Yuy hesab edirlər ki, «dəstə– «duy»- dedikdə «duy çjan», yəni «silah» başa düşmək lazımdır. Amma Soray düzgün deyir ki, əgər söhbət anbarda saxlanılan silahlardan gedirsə, əsgərin əlində olan silahı xatırlatmaq mənasızdır. Tsya Lin «torpağa giriş»dən «istehkam»dan danışır və hesab edir ki,, burada söhbət bu girişlərin və təchizatla məşğul olanların yandırılmasından gedir. Du Yu «atmaq», «yandırmaq» sözünü ifadə edən heroqlifi qoyur və hesab edir ki, burada söhbət düşmənin ordugahına od atıb yandırmaqdan gedir. Amma bu, ümumi kontekstlə uyuşmur. Buna görə də mən hesab edirəm ki, bütün bunları əhatə edən ümumi anlayış üzərində dayanmaq lazımdır: «insanların yandırılması» dedikdə ümumilikdə düşmənin adamlarının, yəni həm silahların, həm də əhalinin yandırılmasını başa düşmək lazımdır. Bu cür hal müharibənin ümumi təcrübəsinə əsaslanır. Müharibə gedişində bütöv yaşayış məntəqələrinin, hətta rayonların da yandığı hallar az olmayıb. «Dəstələrin yandırılması» deyiləndə orduya odla hücum, düşmənin düşərgəsinin yandırılması nəzərdə tutulur.

XIII fəsil

1.«Du» sözünü Li Tsyuanan fikirləşdiyi kimi ruscaya çevirirəm. O, göstərir ki, bu sözü «uzun, qısa, enli, dar, uzaq, yaxın, böyük,

kiçik,- bir sözlə, ölçü və sayla ifadə olunan hər şey kimi başa düşmək lazımdır». Soray təklif edir ki, bu sözü o «ölçü» mənasında başa düşmək lazımdır ki, onunla «ay və ulduzların» hərəkəti, İn və Yanın xarakterizə etdiyi «forma», bütün təbiət, külək, bulud ölçülür (Soray, sit. əsər, səh.332). belə başa düşüldükdə Sun-tszının bu ifadələri düşmən haqqında nəyinsə qabaqcadan baxıcılıq üsulları ilə öyrənilməsi imkanlarını inkar edir. Amma bu inkar Mey Yao-çenin allahlar və şeytandar haqqında fikirlərində öz əksini tapıb. Buna görə də, mən belə başa düşürəm ki, Li Tsyuan Sun-tszının bu üçüncü ifadəsinə yeni məna verməklə, onun fikirlərinə yaxındır.

2. «İn tszyan» ifadəsini Çeya Lin və Çjan Yuyun zəmanət verdiyi tək «yerli casus» kimi verirəm.

3.Çətin ifadə olunan «şen tszi» müxtəlif cür izah olunur. «Şen» sözü– «allah», «tanrı» aydındır, onun epitet kimi qarşılığı «fövqəltəbii», «əlçatmaz», «sirli» və s.-dir. «Tszi» sözü də müxtəlif cür anlaşılır. Bəziləri onu «fa»nın sinonimii– «qanun», «üsul» kimi başa düşürlər. Belə olan halda Sun-tszının ifadəsi təxminən belə məna kəsb edir: casuslardan istifadə bacarığı– bu, fəaliyyətin ən yaxşı üsuludur. Digər şərhçilər «tszi» sözünə «əlamət», «yaranma» mənasını verirlər. Bu zaman həmin ifadə casus fəaliyyətinə hansısa möcüzə xarakteri verəcək. Tsya Lin «tszi»ni «li» sözünün sinonimii, yəni, «qanun», «prinsip» hesab edir və bu, ümumilikdə casusluq qanunlarının müəyyənləşməsində fövqəltəbiiliyin, əlçatmazlığın ifadəsidir. Bəzi nəşrlərdə «tszi» sözü «tyaoli» kimi, yəni, «qayda», «quruluş» kimi qələmə verilir və o zaman «Şeen tszi» ifadəsi bir qədər başqa cür alınır: casusların fəaliyyətində heç bir fövqəltəbiilik və təəccüblü bir şey yoxdur; o, ciddi müəyyənləşdirilmiş, dəqiq qaydalara əsaslanır. Bu fikirlərin heç birini tamamilə inkar etmək olmaz. «Tszi» anlayışının qeyri-müəyyənliyinə baxmayaraq onların hər biri üçün uyğungələndir. Tərcümə zamanı ancaq seçmək lazımdır. Mən «əlçatmaz sirr» sözünü götürmüşəm. Bu, ona görə belə edilib ki, məncə Sun-tszının bütün bu ifadəsində casus işinin xüsusiyyətindən irəli gələn hiss, həyəcan var. Axı, bu ifadəni o bitirərək deyir: «onlar (casuslar)– hökmdar üçün xəzinədirlər». Buna görə də, ümumi yüksələn ahənglə mən «əlçatmaz sirr» sözünü daha uyğun gələn hesab etdim.

4.«Şou tszyan» söz birləşməsini «hərbi rəislər onun xidmətində» ifadəsinə çevirmişəm. Bu məsələdə Çjan Yuyun fikirlərinə əsaslanmışam və o, belə hesab edir ki, bu ifadə işlədiləndə «öz postunu qoruyan və müəyyən məsuliyyət daşıyan» ümumi hərbi rəislər nəzərdə tutulur.

Bu söz birləşməsini «onun qalasını qoruyan hərbi rəislər» ifadəsi kimi tərcümə edərkən «şou» sözünü bildirən heroqlifin mənasından çıxış etmək olardı, «çen»- «qala» sözü işlədiləndə isə bu mümkün deyildi. Belə ki, bütün kontekstdən aydındır ki, burada söhbət təkcə qalaların mühasirəsindən deyil, ümumilikdə düşmənə qarşı bütün fəaliyyətdən gedir.

U-TSZI

Hərb sənəti haqqında traktat



Giriş 413

Dövlətin qayğısına qalınması 414
Düşmənə qiymət verilməsi haqqında 417
Ordunu idarə etmək haqqında 421
Qoşun başçısı haqqında 424
Dəyişikliklər haqqında 427
Əskərlərin mükafatlandırılması haqqında 431

Nikolay Konradın şərhi 433

GİRİŞ

Vey knyazı Ven-xou hərb sənətində göstərdiyi məharətlərə görə U Tsini[9] qəbul etmişdi.

Ven-xou dedi: «Mən hərb işini sevmirəm». U Tsi dedi: «Gördüyümə əsaslanaraq gizlədilənlər haqqında mühakimə edirəm; olub keçənlərə əsaslanaraq, olacaqlar haqqında nəticə çıxarıram. Hökmdar, nə üçün Sizin sözünüz fikirlərinizdən ayrılır?

İndi Siz bütün il boyu dəri aşılatdırırsınız, onlara kinovar[10] və lak çəkdirirsiniz, onları qırmızı və göy rənglərlə boyatdırırsınız, dəriləri fil və taybuynuz at şəkilləri ilə bəzəyirsiniz. Ancaq bu dəriləri qışda əyninə geyinsən, onlar səni qızdırmayacaq; yay günlərində geyinsən, onlar sərin hava buraxmayacaq. Siz böyük nizələri iki çjan dörd çi, balaca nizələri isə– bir çjan iki çi uzunluğunda hazırlayırsınız. Cəng arabalarını elə böyük düzəldirsiniz ki, onlar evləri belə görünməz edir. Onların təkərləri dəri ilə örtülüb, oxlar üçün oymaqlar[11] gizlədilmişdir. Onlar görünüşcə yaraşıqsızdır, minib meydanları gəzmək üçün ağırdılar. Mən bilmirəm, hökmdar, Siz onlardan nə üçün istifadə edəcəksiniz.

Əgər Siz bütün bunları hücum və müdafiə üçün hazırlamısınızsa, ancaq bütün bunlardan istifadə edə biləcək adam tapmamısınızsa, bu elə qırt toyuğun safsar üstünə atılması, balalarını yedizdirən itin pələngə hücum etməsi kimi bir şeydir. Sizin döyüşmək arzunuz olsa da fərqi yoxdur, Siz dərhal həlak olacaqsınız.

Qədimlərdə Çen San ölkəsində xalqın yaşayışının yaxşılaşdırılması ilə məşğul idi və hərb işini başlı-başına buraxmışdı; bununla o, öz ölkəsini məhv etdi. Yu Xu hər şeydə çoxsaylı orduya güvənirdi və təkcə igidliyi qiymətləndirirdi; bununla da o, doğma məbədlərini itirdi. Müdrik hökmdar bunlardan ibrət götürərək, mütləq öz ölkəsində mülki əsasları inkişaf etdirir, xarici düşmənlərə qarşı isə öz hərbi qüvvəsini hazır vəziyyətdə saxlayır.

Buna görə düşmənə qarşı çıxmamaq– öz borcunu yerinə yetirməmək deməkdir. Həlak olanlar üçün yas saxlamaq– daxilində humanistliyin olmaması deməkdir».

Bu yerdə knyaz Ven-xou özü U-tszı üçün həsiri sərdi, knyazın xanımı şərab qədəhini ona təqdim etdi; knyaz U-tszının şərəfinə məbəddə şərab nəziri vermə ayinini yerinə yetirdi və onu baş sərkərdə təyin etdi.

U Tsi Sixeni müdafiə etdi. Onun knyazlarla yetmiş altı böyük döyüşü oldu, onlardan altmış dördündə U-tszı tam qələbə çaldı; qalan hallarda döyüşlər heç-heçə qurtardı. O, dörd bir tərəfdə

---

[9] *Tsi– U-tszının adıdır.*

[10] *kinovar– civə iki-sulfiddən alınan qırmızı rəng.*

[11] *oymaq– çarxların içərisində sürtünməni azaltmaq üçün metal borucuq və halqa.*

əraziləri genişləndirdi, min li torpaqları işğal etdi. U Tsinin belə qəhrəmanlıqları olub.

I fəsil
DÖVLƏTİN QAYĞISINA QALINMASI
Birinci hissə

1. U-tszı deyirdi: «Qədimdə, dövlətin qayğısına qalan hər kəs, hər şeydən əvvəl mütləq öz xalqını maarifləndirər və öz adamlarını sevərdi.

2. Dörd ixtilaf var; dövlətdə həmrəylik yoxdursa, ordunu irəli çıxarmaq olmaz; orduda yekdillik yoxdursa, cəbhəyə yola düşmək olmaz; ordugahda fikir birliyi yoxdursa, irəliləmək və döyüşmək olmaz; döyüşdə fikir birliyi yoxdursa, qələbəyə nail olmaq olmaz.

3. Buna görə, əgər Yolu bilən hökmdar, öz xalqını ayağa qaldırmaq istəyirsə, o, hər şeydən əvvəl həmrəyliyi bərpa edir və yalnız bundan sonra böyük işlərə başlayır.

4. O, öz şəxsi fikirlərinə güvənmir, bu barədə mütləq əcdadların məbədində elan edir, tısbağa üzərində fala baxır, falın vəd etdiyini zamanla tutuşdurur və, əgər bütün bunlar uğur vəd edirsə, yalnız bundan sonra hərəkət edir.

5. Xalq, hökmdarın onun həyatını belə qoruduğunu, onun ölümündən belə kədərləndiyini gördükdə, öz hökmdarı ilə birlikdə təhlükə qarşısında dayanacaq, əsgərlər hücumu və ölümünü şərəf, geri qaçmağı və sağ qalmalarını isə– rüsvayçılıq hesab edəcək».

İkinci hissə

1.U-tszı demişdir: «Yol– ilk əsasa dönməyə və başlanğıca qayıtmağa səbəb olandır. Borc– əməllər etməyə və nəticələr əldə etməyə səbəb olandır. Ağıl– ziyanlıdan uzaqlaşmaq və mənfəət əldə etməkdir. Zəka– işi mühafizə etmək və görülmüş işi qorumaqdır.

2. Əgər insanın fəaliyyəti Yolla, əməli isə Borcla uyğun gəlmirsə, bu şəxs böyüklərin, adlı-sanlı adamların arasında olsa belə, fərqi yoxdur– bədbəxtlik mütləq onu haqlayacaq.

3. Buna görə də, kamil adam Yol vasitəsilə adamları rifaha gətirib çıxarır, Borcun köməyilə onları idarə edir, normalar vasitəsi ilə onların fəaliyyətinə rəhbərlik edir, humanizmin köməyilə onları özünə cəlb edir.

4. Bu dörd məziyyətə əməl olunan yerdə tərəqqi var; onlar rədd olunan yerdə– tənəzzül.

5. Buna görə, Çen Tan Tsze-vanı öldürəndə, Sya xalqı şadlıq etdi; U-van Çjou-vanı məğlub etdikdə İn sakinləri onu pisləmədilər.

Onlar öz hərəkətlərində Göylərin hökmünə və adamların arzularına riayət etmişdilər. Buna görə də, onlar bunu edə bildilər».

Üçüncü hissə

1.U-tszı deyirdi: «Dövləti idarə edərkən və orduya rəhbərlik edərkən, ictimai normaları öyrətmək, borc hissi ilə ruhlandırmaq, şərəf hissini təlqin etmək lazımdır.

2. İnsanlarda şərəf hissi varsa, bu, böyük dövlətdə döyüşmək üçün, kiçik dövlətdə isə müdafiə olunmaq üçün kifayətdir.

3. Ancaq döyüşərək qalib gəlmək– asandır, müdafiə olunaraq qalib gəlmək isə çətindir.

4. Buna görə, belə deyilib: Yerdəki dövlətlər müharibə aparan zaman, kim beş dəfə qalib gəlirsə, ona bədbəxtlik üz verir; kim dörd dəfə qalib gəlirsə, zəifləyir, kim üç dəfə qalib gəlirsə, o, knyazlar arasında birinci olur; kim iki dəfə qalib gəlsə– van olur; kim ki, bir dəfə qalib gəlir– o, baş hakim seçilir. Tez-tez qələbələr qazanmaqla dünyanı ələ keçirən azdır, ancaq bu qələbələrdən məhv olanlar çoxdur».

Dördüncü hissə

1.U-tszı dedi: «Müharibənin başlanma səbəbləri– beşdir. Birincisi– şöhrətpərəstlik üzündən müharibə, ikincisi– qazanc əldə etmək üçün müharibə, üçüncüsü– düşmənçiliyin artması, dördüncüsü– daxili iğtişaşlar, beşincisi– aclıq.

2. Müharibələrin adı da beşdir. Birincisi– ədalətli müharibə, ikinicisi– işğalçı müharibə, üçüncüsü– şəxsi müharibə, dördüncüsü– zorakılıq müharibəsi, beşincisi– vətəndaş müharibəsi.

3. Zorakılığı aradan qaldıraraq öz ölkələrini iğtişaşlardan qoruyurlarsa– bu ədalətli müharibədir. Öz ordusunun sayının çoxluğuna güvənərək hücum edirlərsə– bu işğalçı müharibədir. Qəzəbləri üzündən ordunu ayağa qaldırırlarsa– bu şəxsi müharibədir. Hər növ qanuniliyi rədd edərək, bir tək mənfəət dalınca qaçırlarsa– bu zorakı müharibədir. Ölkədə iğtişaşlar baş alıb getdiyi və adamlar haldan düşdüyü vaxt bütün ölkəni ayağa qaldırıb, çoxsaylı ordunu hərəkətə gətirirlərsə– bu vətəndaş müharibəsidir.

4. Bu beş müharibənin hər birinin dayandırılmasının öz yolu vardır. Ədalətli müharibə mütləq qanuniliklə qurtarır; işğalçı müharibə mütləq itaətlə qurtarır; şəxsi müharibəni mütləq məharətli danışıqla dayandırırlar; zorakılıq müharibəsi yalanla ortadan qaldırılır; vətəndaş müharibəsi hökmən məharətli taktika ilə aradan qaldırılır.

Beşinci hissə

1.Knyaz U-xou dedi: «Ordunu necə idarə etməyi, adamları necə qiymətləndirməyi və öz dövlətini necə möhkəmlətməyi Sizdən eşitmək istərdim».

2. U Tsi buna, belə cavab verdi: «Qədim dövrlərin müdrik padşahları hökmdara və rəiyyətə aid olan qanunlara ciddi riayət edir, yuxarıdakılara və aşağıdakılara aid qaydaları gözləyir; xalqı adətlərə uyğun tərbiyə edir, istedadlı adamları seçirdilər və beləliklə, hər vaxt hər cür vəziyyətə hazır olurdular.

3. Qədimdə Tsis knyazı Xuan əlli min əsgər topladı və onların sayəsində knyazlar arasında hegemon oldu. Tszin knyazı Ven özünün qabaqcıl ordu hissələrinə qırx min adam yığdı və onların köməyilə öz arzularının həyata keçməsinə nail oldu. Tsin knyazı Munun otuz minlik məğlubedilməz ordusu var idi və buna görə öz düşmənlərini– qonşularını fəth etdi.

4. Buna görə, güclü dövlətlərin hökmdarları mütləq öz xalqlarını öyrənirlər. Onlar xalqın arasından cəsurları və igidləri, ruhən və cisмən möhkəm olanları seçib, onlardan dəstələr təşkil edir; döyüşə məmnuniyyətlə gedənləri, bütün qüvvələrini mübarizəyə həsr edənləri və bununla öz sadiqliyini və igidliyini göstərənləri seçib, onlardan dəstələr yaradır; dağları aşa bilən, uzaq məsafələri qət etməyi bacaran, iti gedişli, keçidlərdən yaxşı keçə bilən adamları toplayaraq onlardan dəstələr yaradır; bundan başqa hökmdar öz mövqeyini itirmiş və yenidən hökmdar qarşısında xidməti olmasını istəyən xidmətçilərini yığaraq, onlardan dəstələr təşkil edir; qalalarını təslim etmiş, mudafiə oluna bilməmiş, bu rüsvayçılıq ləkəsini üstündən götürmək istəyənləri toplayaraq onlardan dəstələr yaradırlar. Və bu beş dəstə ordunun ən yaxşı seçmə hissələri olur.

5. Üç min belə əsgərlə içəridən çıxaraq, düşmənin mühasirəsini yarmaq, xaricdən soxularaq, düşmən qalasını təslim etməyə məcbur etmək olar».

Altıncı hissə

1. Knyaz U-xou soruşdu: «Ordugahın həmişə möhkəm olması, müdafiənin həmişə etibarlı olması, döyüşün həmişə qələbəyə gətirib çıxarması üçün nə etmək lazım olduğunu bilmək istərdim».

2. U Tsi buna cavab verdi: «Bunu elə buradaca, indi görmək olar. Heç bunu soruşarlar?»

3. Padşah ağıllıları yuxarıda, ağılsızları isə aşağıda yerləşdirə bilərsə, artıq onun düşərgəsi möhkəm olacaq.

4. Bütün xalq öz əkin sahələrində və evlərində sakitdirsə, məmurlara xoş hisslər bəsləyirsə, müdafiə artıq bununla möhkəmdir.

5. Xalq öz padşahını yaxşı, qonşu dövlətləri isə pis sayırsa, artıq bununla döyüş udulub».

Yeddinci hissə

1. Knyaz U-xou bir dəfə öz xidmətçiləri ilə məsləhətləşirdi. Onların arasında, ağlına görə knyaza bərabər olan bir nəfər olsun

belə, adam yox idi. Buna görə, məşvərət zalını tərk edərkən, onun çox özündən razı görkəmi var idi.

2. Belə olan halda U Tsi dedi: «Keçmiş zamanlarda Çus knyazı Çjuan bir dəfə öz xidmətçiləri ilə məsləhət edirmiş və onların arasında ağlına görə knyaza tay olanı yox idi. Buna görə, məsləhət zalını tərk edərkən, o, çox qəmli idi. Şen-qun ondan soruşdu: «Hökmdar, Sizin qəmli görkəminiz var, nədəndi?» Knyaz cavab verdi: «Mən eşitmişəm ki, dünyada həmişə kamillər olur, eşitmişəm dövlətdə heç vaxt ağıllı adamların azlığı olmur. Kimin müəllimi kamil olur, o– vandır; kimin dostları ağıllı olur, o– hegemondur. Ancaq bax mən...mənim istedadım yoxdur. Həm də mənim xidmətçilərim arasında isə bircə nəfər yoxdu ki, ağılda mənə tay olsun. Çus dövləti təhlükə qarşısındadır».

Çus knyazı Çjuan-qun buna görə kədərlənmişdi. Siz isə, padşah, bundan razısınız. Mən çox narahatam».

II fəsil
DÜŞMƏNƏ QİYMƏT VERİLMƏSİ HAQQINDA
Birinci hissə

1. Knyaz U-xou, U-tszıya müraciət edərək, dedi: «Hal-hazırda Tsin Qərbdən məni hədələyir, Çu məni cənubdan sıxışdırır, Çjao şimaldan məni qovur, Tsi şərqdə qarşımı kəsib, Yan geriyə yolumu bağlayıb, Xan irəli yolumu bağlayıb. Altı dövlətin ordusu hər tərəfdən məni güdür. Mənim vəziyyətim olduqca çətindir. Bu məni çox kədərləndirir. Mən nə edim?»

2. U Tsi cavab verdi: «Dövləti əmin-amanlıqda saxlamaq üçün, ən qiymətli şey– ehtiyatlı olmaqdır. İndi Siz, hökmdar, artıq ehtiyat tədbirləri görmüsünüz. Xəta Sizdən uzaqdır.

3. Bu altı dövlətdəki adət və qaydaları müzakirə etməyi Sizdən xahiş edirəm. Tsi ordusu: inadcıldır, ancaq möhkəm deyil. Tsinin ordusunda hamı təklikdə döyüşür, özbaşına. Çunun ordusu: yaxşı təşkil olunub, ancaq dözümlü deyil. Yanın ordusu yaxşı müdafiə olunur və geri qaçmır. Xan və Çjaonun ordusu yaxşı təşkil olunub, ancaq istifadə oluna bilmir.

4. Tsislərin xasiyyəti sərtdir; ölkələri varlıdır; knyazlar və onların xidmətçiləri lovğadırlar və cah-cəlala uyurlar, xalqı heç fikirləşmirlər. Onların idarə üsulu zəifdir, donluqları bərabər deyil. Onlarda bir sırada iki ürək var. Ön mövqeləri möhkəmdir, arxadakılar etibarsızdı. Buna görə, Tsinin ordusu vahiməlidir, ancaq möhkəm deyil.

5. Onu darmadağın etmək üçün üç hissəyə ayırmaq, qorxudaraq sağdan və soldan qovmaq, daim onu təqib etmək lazımdır; o zaman ordu məğlub ediləcək.

6. Tsinlərin xasiyyəti sərtdir: onların əraziləri dağlıqdır, idarə üsulları sərtdir, bəxşiş və cəzaları ədalətlidir. Adamları inadcıldırlar

və döyüş ruhu ilə aşıb-daşırlar. Ancaq onlar təklikdə döyüşürlər, hərə özü üçün.

7. Onları məğlub etmək üçün, hər şeydən əvvəl onları hansısa bir qazancla tələyə salmaq və geriyə çəkilmək lazımdır. Onların əsgərləri qənimətə hərisdirlər, sərkərdələrindən uzaqlaşacaqlar. Bundan istifadə edib, onları tək-tək qovsaq, pusqu quraraq lazımi anda zərbə endirmək, qoşun başçılarını da ələ keçirmək olar.

8. Çusların qayda-qanunları zəifdir; onların ölkəsi böyükdür, idarə üsulları hay-küylüdür, xalq yorulub. Buna görə, onların ordusu yaxşı təşkil olunsa da, uzun müddət davam gətirə bilməz.

9. Bu ordunu darmadağın etmək üçün, əvvəlcə onun mövqelərinə hücum edib, onun qətiyyətini sındırmaq, sakitcə irəliləyib, cəld geriyə çəkilmək, onu yorub əldən salmaq, açıq döyüşə isə girişməmək lazımdır. Bu yolla ordu məğlub ediləcək.

10. Yanların xasiyyəti səmimidir, camaatı xoşxasiyyətdir, igidliyi və ədaləti sevirlər, onlarda hiyləgərlik və yalana az rast gəlinir. Buna görə də onların ordusu yaxşı müdafiə olunur və geri qaçmır.

11. Onu məğlub etmək üçün, ordunun arxasınca gedib onu təşvişə salmaq, ancaq onunla üz-üzə gələn kimi dərhal uzaqlaşmaq lazımdır; onu təqib edərək, tez geri çəkilmək lazımdır. O zaman onların rəhbərləri özlərini itirəcək, əsgərləri isə qorxmağa başlayacaq. Əgər onların mütləq keçəcəyi yolda, hərbi cəng arabalarını və atlılarımızı gizlətsək, onların sərkərdəsini əsir götürə bilərik.

12. Çjao və Xan– ortalıqda yerləşən dövlətlərdir. Onların xasiyyəti yumşaq, idarə üsulları ədalətlidir, ancaq onların camaatı müharibələrdən yorulub; onlar hərb işinə alışıblar, ancaq komandirlərini pis eşidirlər, hesab edirlər ki, donluqları çox azdır, əsgərlər ölümə hazır deyillər. Buna görə, onların ordusu yaxşı təşkil olunsa da, istifadə üçün yararsızdır.

13. Bu ordunu məğlub etmək üçün ona uzaqdan təzyiq etmək lazımdır. Əgər böyük ordu hücuma keçərsə, onu dəf etmək; əgər onlar geri qaçarlarsa, onları təqib etmək və beləliklə, onların ordusunu yormaq lazımdır. Çjao və Xan orduları ilə bağlı vəziyyət belədir.

14. Orduda həmişə pələng kimi cəsur əsgərlər, ağır sacayağını asanlıqla qaldıran güclü adamlar, döyüş atlarından iti yeriyən piyadalar; bayrağı əlindən ala bilən, sərkərdəni doğraya bilən adamlar tapılar. Belələrini seçib o birilərdən ayırmaq, onları sevmək və qiymətləndirmək lazımdır. Ordunun taleyi– onlardadır.

15. Əgər silah işlətməkdə mahir olanı, bacarıqlı və güclü, bədəni sağlam və zirək, düşməni udmaq xəyalında olanları varsa, onlara titul vermək və onların köməyilə qələbəyə nail olmaq lazımdır.

16. Əgər onların ata və analarının, arvad və uşaqlarının qayğısına qalınsa, onlar səxavətlə mükafatlandırılıb, ciddi

cəzalandırılsa, bunlar ordunu möhkəmləndirən əsgərlər olacaq; onlarla uzun müddət davam gətirmək olar– əgər bütün bunları əsaslı surətdə qiymətləndirməyi bacarsan, iki dəfə güclü düşməni məğlub etmək olar».

17. Knyaz U-xou dedi: «Yaxşı!»

İkinci hissə

1. U-tszı dedi: «Gəlin düşməni qiymətləndirək. Heç bir fal açmadan onunla döyüşə başlanması lazım olan düşmən səkkizdir.

2. Birinci: şiddətli küləkdə və bərk soyuq havada səhər tezdən qalxır və ayılan kimi düşərgəni tərk edir, buzu qıraraq çayları keçir və çətinliklərdən qorxmur.

3. İkinci: yayın qızmar istisində gec oyanır, özünə dinclik vermədən, hey gedir, gedir, aclığa və susuzluğa dözür, böyük məsafə qət etməyə çalışır.

4. Üçüncü: ordusu çoxdandı bir yerdə durur, ərzaqı artıq yoxdur, sakinləri qəzəblənir və hirslənir, bir-birinin ardınca xoşagəlməz hadisələr baş verir, qoşun başçısı artıq bütün bunlarla bacara bilmir.

5. Dördüncü: hərbi sursatlar artıq tükənib, yanacaq və atlar üçün yem azalıb, hava tutqundu, yağışlar çox yağır, soyğunçuluq etmək istəyir, amma əlinə keçəcək heç nə yoxdu.

6. Beşinci: əsgər azdır, su və ərzaq sarıdan əziyyət çəkir, adamlar və atlar xəstədir, ancaq qonşulardan heç kim köməyə gəlmir.

7. Altıncı: yol uzaqdır, ancaq artıq qaranlıq düşüb, əsgərlər yorulublar və qorxurlar, onlar tamam heydən düşüblər və hələ heç nə yeməyiblər, əsgərlər yaraq-əsləhələrini çıxarıb, dincəlirlər.

8. Yeddinci: sərkərdənin nüfuzu azdır, komandirlərin səlahiyyətləri səbatsızdır, əsgərlər qərarsızdırlar; ordu hər an qorxur, heç yerdən orduya kömək yoxdur.

9. Səkkizinci: mövqe hələ seçilməyib, ordugah hələ qurulub qurtarmayıb; onlar yamacla hərəkət edərkən və hündürlüyü keçərkən ordunun yarısı gözə görünmür, yarısı görünür.

10. Belə düşmənin üzərinə tərəddüdsüz hücum etmək lazımdır.

11. Heç bir fal açmadan yayınmaq lazım gəldiyi düşmənlər altıdır.

12. Birinci: düşmənin ərazisi geniş, adamları və sərvəti çoxdursa.

13. İkinci: orada yuxarıdakılar aşağıdakıları sevirlərsə və yaxşılıq hər yerdə yayılırsa.

14. Üçüncü: onun mükafatları ədalətli, cəzaları isə layiqlidirsə və bunların hər ikisi vaxtında yerinə yetirilirsə.

15. Dördüncü: xidmətlərinə görə yüksəldərək, məşhurlarla bir sıraya qoyurlarsa, işləri ağıllılara həvalə edib, istedadlılardan istifadə edirlərsə.

16. Beşinci: ordunun sayı çox, silahı isə ən yaxşıdırsa.

17. Altıncı: bütün qonşu dövlətlər əlavə qoşun göndərirsə, başqa bir böyük dövlət ona kömək edirsə.

18. Əgər siz bu cür düşməndən üstün deyilsinizsə, tərəddüdsuz onunla üz-üzə gəlməkdən yayının.

19. Bu o deməkdir ki: görsən ki, imkan var, yürü, bilsən ki, çətindir, geri çəkil».

Üçüncü hissə.

1. Knyaz U-xou soruşdu: «Mən zahiri görkəminə görə düşmənin daxili vəziyyətini müəyyən etməyi bacarmaq istərdim: onun hərəkətindən necə dayandığını başa düşməyi, bu yolla qələbə və ya məğlubiyyət olacağını təyin etmək istərdim. Bu barədə Sizi eşidə bilərəmmi?»

2. U-tszı cavab verdi: «Əgər düşmən yüngül və laqeyd hərəkət edirsə, əgər onun əvəzedilməz ordusu nizamsızdırsa, əgər onun adamları və atları daim ətrafa boylanırsa, bir adamla on nəfərə hücum etmək olar. Ancaq düşmənə qətiyyən özünə gəlməyə aman vermək olmaz.

3. Əgər onun yanında knyazlar yığışmırsa, əgər hökmdarla rəiyyət arasında narazılıq varsa, əgər xəndəklər və səngərlər qazılmayıbsa, əgər qadağalar və əmrlər verilmirsə, əgər ordu çox hay-küylüdürsə, irəliləmək istəyir və bacarmırsa, geri çəkilmək istəyir və cürət etmirsə, iki dəfə səndən güclü olan belə düşmənin üzərinə yarı qüvvə ilə hücum etmək olar. Belə halda, istəyirsən lap yüz dəfə döyüş, təhlükə olmayacaq».

Dördüncü hissə

1.Knyaz U-xou soruşdu: «Düşmənin üzərinə nə vaxt mütləq hücum olunmalıdır?».

2.U-tszı buna, belə cavab verdi: «Müharibə apararkən, düşmənin güclü və zəif tərəflərini dəqiq bilmək vacibdir və onun daha təhlükəli mövqelərinə yönəlmək lazımdır.

3.Düşmən uzaq səfərdən qayıdıb, ordusu hələ özünə gəlməmiş hücum etmək lazımdır.

4.Düşmənin başı yeməyə qarışanda və o hələ ehtiyat tədbirləri görməmiş hücum etmək lazımdır.

5.Düşmən tələsdiyi və qaç-qova düşdüyü vaxt hücum etmək lazımdır.

6.Düşmən həddən artıq cəhd etdikdə hücum etmək lazımdır.

7.O hələ ərazinin üstünlüklərindən istifadə etməyə macal tapmamış hücum etmək lazımdır.

8.Düşmən vaxtı dəyişik salaraq, ona uyğunlaşa bilmədiyi zaman hücum etmək lazımdır.

9.Ordusu çox uzun keçiddən keçdikdən sonra və arxa sıraları hələ dincəlməyə macal tapmamış hücum etmək lazımdır.

10.Düşmən çayı keçərkən hələ çayın yarısını adladığı vaxt hücum etmək lazımdır.

11.Düşmən ordusu dağ yollarında, dar cığırlarda olduğu vaxt hücum etmək lazımdır.

12.Düşmən tez-tez bir mövqedən başqa mövqeyə keçdiyi vaxt hücum etmək lazımdır.

13.Düşmənin bayraqları nizamsız şəkildə hərəkət etdikdə hücum etmək lazımdır.

14.Sərkərdə öz komandirlərindən və əsgərlərindən ayrı düşdüyü zaman hücum etmək lazımdır.

15.Düşmənin canını qorxu alanda hücum etmək lazımdır.

16.Belə hallarda düşmənin ən yaxşı hissələrini seçərək, onlara zərbə endirmək; sonra öz ordunu hissələrə ayırıb düşmənin ardınca getmək lazımdır. Düşmənə tərəddüd etmədən hücum etmək lazımdır».

III fəsil
ORDUNU İDARƏ ETMƏK HAQQINDA
Birinci hissə

1.Knyaz U-xou soruşdu: «Orduya rəhbərlik edilməsində ən əsası nədir?»

2.U-tszı cavab verdi: «Ən əsası– «dörd yüngüllüyü», «iki ağırlığı», «bir qərəzsizliyi» bilməkdir».

3.Knyaz dedi: «Bunlar nədir?»

4.U-tszı cavab verdi: «Elə etmək lazımdır ki, torpaq üçün at yüngül olsun, at üçün cəng arabası yüngül olsun, araba üçün adam yüngül olsun, adam üçün döyüş asan olsun.

5.Kələ-kötür və hamar səthin nə olduğunu yaxşı bilsən, torpaq üçün at yüngül olar.

6.Əgər samanı və arpası vaxtlı-vaxtında verilərsə, at üçün araba yüngül olar.

7.Əgər təkərlər yaxşı yağlanıbsa, araba üçün adam yüngül olacaq.

8.Əgər nizələr iti, əlbəsə möhkəmdirsə, adam üçün döyüş yüngül olacaq.

9.Hücum vaxtı səxavətli olmaq, yaxşı bəxşişlər paylamaq lazımdır; geri çəkilərkən ağır cəzalar vermək lazımdır. Bunların hər ikisini ədalətlə etmək lazımdır.

10.Hər kim bütün bunları tam dərk etsə, qələbənin sahibi odur».

İkinci hissə

1.Knyaz U-xou soruşdu: «Ordu nə ilə qalib gəlir?»

2.U-tszı cavab verdi: «O özünün mütəşəkkilliyi ilə qalib gəlir».

3.Knyaz yenə soruşdu: «Məgər sayının çoxluğu ilə deyil?»

4.U-tszı bunu belə cavablandırdı: «Əmrlər və təlimatlar aydın, mükafatlar və cəzalar ədalətli deyilsə, əsgərlərə geri çəkilmək əmri verilməsinə baxmayaraq, onlar döyüşürlərsə, hücuma keçməyə siqnal verilsə də, onlar irəli getmirlərsə, sayları qoy milyon olsun, onlar nəyə yarayırlar ki?

5.Ordunun mütəşəkkilliyi isə bax budur: bir yerdə dayandığı vaxt qoyulmuş qayda-qanuna əməl olunursa; hərəkət etdiyi vaxt qüdrətli olduğu hiss olunursa; hücum etdiyi zaman heç kim onun qarşısında duruş gətirə bilmirsə; geri çəkildiyi zaman heç kim onu təqib etməyə cəsarət etmirsə; irəliyə və geriyə hərəkətlər qaydalara uyğun icra olunursa; sağa və sola hər bir hərəkət komanda ilə yerinə yetirilirsə; əsgərlər ayrı düşsələr belə, nizamlarını pozmurlarsa, dağınıq düşsələr belə, cərgələrini qoruyub saxlayırlarsa; qoşun başçısı əmin-aman vaxtda da, təhlükə vaxtında da onlarla bir yerdədirsə; onun bütün ordusunu asanlıqla birləşdirmək olarsa, ayırmaq olmursa; bu ordunu işə salmaq olarsa və bu vaxt onu yormaq(san) olmazsa; onu istənilən yerə atırlarsa və bütün dünyada ona qarşı dura biləcək heç kim yoxdursa. Bu elə «ata və oğulları ordusu» adlanır.

Üçüncü hissə

1.U-tszı dedi: «Ordunu aparan zaman hərəkət qaydalarını pozmamaq lazımdır, ərzaq və suyun paylanmasında nöqsanlara yol verilməməlidir, adamlar və atlar gücdən salınmamalıdır. Bu üç şərt əsgərlərə imkan verir ki, komandanlığın əmrlərini yerinə yetirsinlər. Komandanlığın əmrlərinin yerinə yetirilməsi imkanı isə, elə mütəşəkkilliyi doğuran şərtdir.

2.Hərəkətdə nizam yoxdursa, yemək və içki düz paylanmırsa, atlar yorğundursa və yəhərləri götürülməyibsə, adamlar əzgindirlərsə və dincəlmək istəyirlərsə, bununla ona nail olunur ki, əsgərlər komandanlığın əmrlərini yerin yetirmək iqtidarında olmurlar. Əmrlərə artıq itaət olunmadıqda isə, ordu bir yerdə dayandıqda qarışıqlıq düşür, döyüş vaxtı məğlubiyyətə uğrayırsan».

Dördüncü hissə

1.U-tszı demişdir: «Döyüş meydanı– cəsədlərin qaldığı yerdir. Döyüş vaxtı ölümü qaçılmaz hesab etdikdə, sağ qalırlar; sağ qalmağı xoşbəxtlik saydıqda ölürlər.

2.Yaxşı sərkərdə özünü elə aparır, sanki batan gəmidə, yanan binadadır. Bununla o, düşmənin müdriklərinin bütün kələklərini nəticəsiz qoyur, düşmən igidlərinin bütün çılğınlığını əbəs edir. O, düşməni qəbul etməyə hazırdır.

3.Orduya rəhbərlikdə ən ziyanlısı– meymun Yunun hədsiz ehtiyatlılığı və tülkü Qunun həddən artıq etibarsızlığıdır».

Beşinci hissə

1.U-tszı deyirdi: «İnsanlar, adətən, ölümlərini məharətsiz olduqları işdə tapırlar, faydalı tətbiq edə bilmədikləri işlərdə məğlub olurlar. Buna görə müharibə aparılmasında ən başlıcası– təlim və təlimatdır.

2.Biri döyüşməyi öyrənəndə, on nəfər başqasını öyrədəcək; döyüş sənətini on nəfər öyrənəndə, onlar yüz adamı da öyrədəcəklər; hərb işini öyrənən yüz nəfər, min adamı öyrədəcək; hərb sənətinə yiyələnən min adam, on min nəfəri öyrədəcək; hərb işini on min adam öyrənsə, onlar bütün ordunu öyrədəcəklər.

3.Uzaqdakı ilə yaxındakını müqayisə et; yorğun adamla gümrahı müqayisə et; ac adamla toxu müqayisə et.

4.Dairə və kvadrat şəklində sıraya düzülməyi, oturub-durmağı, addımlamağı və bir yerdə dayanmağı, sağa və sola dönmələri, irəli və geri getməyi, aralanmağı və birləşməyi, bir yerə toplanmağı və dağılmağı öyrədin. Bu yerdəyişmələrin hər birini yaxşıca öyrəndikdən sonra, onlara silah verin. Bu– sərkərdə işidir».

Altıncı hissə

1.U-tszı deyirdi: «Təlim nizamnaməsinə əsasən, alçaqboylular ov nizəsi və mizraqla silahlanıb, hündürboylular yay-kaman və arbaletlərlə silahlanıb, güclülər bayraqları aparır, igidlər təbil və sincləri daşıyır, zəiflər atlara qulluq edir və mətbəxdə xidmət edirlər, dərrakəlilər qərargaha cəlb olunurlar.

2.Eyni qəza və kəndlərdən olan əsgərlər bir-birilə mehribandırlar, hər beşliyin və onluğun əsgərləri bir-birlərini müdafiə edirlər.

3.Təbilə bir zərbə vurulanda– silahları hazırlamaq, iki zərbə– lazımi yerdəyişmə etmək, üç zərbə– yemək tələb etmək, dörd zərbə– döyüş üçün silahlanmaq, beş zərbə– sıraya düzülmək deməkdir. Təbil siqnalının sonunu dinləyir və yalnız bundan sonra bayraqları qaldırırlar».

Yeddinci hissə

1.Knyaz U-xou soruşdu: «Ordunun hərəkət etməsi üçün hansısa qaydalar varmı?».

2.U-tszı cavab verdi: «Göylər tiyanı», «Əjdaha başı» şəklində hərəkət etmək məsləhət deyil. «Göylər tiyanı»– dərin dərəyə girişdir, «Əjdaha başı» - hündür dağın kənarıdır.

3.Göy əjdaha həmişə solda, Ağ pələng– sağda, Qızıl şahin– irəlidə, Qara tısbağa– arxada olmalı, Orta sarayı– başının üstündə tutub, özün də onun altında olmalısan.

4.Döyüşə girməyə hazırlaşırsınızsa, diqqətlə küləyin istiqamətini təyin etmək lazımdır. Əgər külək arxadan əsirsə, döyüş çağırışı verərək, düşmənin üzərinə getmək lazımdır; əgər külək qarşıdan əsirsə, öz mövqeyində möhkəmlənmək və düşməni gözləmək lazımdır».

Səkkizinci hissə

1.Knyaz U-xou soruşdu: «Döyüş atlarına qulluq etməyin xüsusi qaydası varmı?»

2.U-tszı cavab verdi: «Atı sakit yerdə saxlamaq, yeməyini və suyunu vaxtlı-vaxtında vermək, orta miqdarda yemləmək lazımdır, qışda tövləni qızdırmaq, yayda sərin talvarlar düzəltmək lazımdır; quyruğunu və yalını qırxmaq, dırnaqlarını kəsib gödəltmək, gözlərini və qulaqlarını bağlamaq lazımdır ki, at qorxmasın; atı idarə etməyi və onunla davranmağı öyrətmək lazımdır. Adamla at dost olduqdan sonra, atdan istifadə etmək olar.

3.Vacibdir ki, qoşqu ləvazimatı– yəhər, yüyən ağızlığı, yüyən, cilov– möhkəm olsun. Ümumiyyətlə, ata sonralar heç nə olmur, başlanğıcda isə mütləq nəsə olur; at acından xəstələnmir, toxluqdan isə mütləq xəstələnir. Əgər günəş artıq qüruba enirsə, yol isə hələ uzaqdırsa, atdan bir neçə dəfə düşmək lazımdır. Yaxşı olar ki, qoy adam yorulsun, amma atı yormaqdan çəkinin. Elə edin ki, onun həmişə artıq gücü olsun, elə olsun at düşmənin qəfil hücumuna həmişə hazır olsun. Kim bunu yaxşı bilsə, Yerdə rahat hərəkət edəcək».

IV fəsil
QOŞUN BAŞÇISI HAQQINDA

Birinci hissə

1.U-tszı dedi: «Fəaliyyətində həm mülki, həm də hərbi əsasları birləşdirə bilən adam sərkərdədir. Həm sərt, həm də mülayim olmağı bacaran kəs orduya rəhbərlik edə bilər.

2.Ümumiyyətlə desək, adamlar sərkərdə haqqında fikirləşəndə, adətən onda tək igidliyi görürlər. Lakin igidlik sərkərdənin yalnız bir xüsusiyyətidir. Sadəcə cəsur adam mütləq yelbeyincəsinə mübarizəyə atılır, öz mənfəətinin nə olduğunu ayırd etməyən belə adam isə yararsızdır.

3.Buna görə, qoşun başçısının xüsusi diqqət yetirməli olduğu beş maddə var. Birincisi– rəhbərlik etmək qanunu, ikincisi– daim hazırlıq vəziyyəti, üçüncüsü– igidlik, dördüncüsü– sayıqlıq, beşincisi– sadəlik.

4.Rəhbərlik qanunu– böyük orduya sanki balaca dəstə kimi başçılıq etmək deməkdir.

5.Daimi hazırlıq– bu o deməkdir ki, sanki darvazadan çıxan kimi qarşında düşməni görəcəksən.

6.İgidlik– düşmənlə göz-gözə dayananda həyat haqqında düşünməməkdir.

7.Ehtiyatlı olmaq– artıq qalib gəlsən də elə döyüşməlisən, sanki bu birinci dəfədir.

8.Sadəlik– əmrlərin həm qısa, həm də aydın olmasıdır.

9.Göstəriş almaq və ailə ilə görüşməmək, düşməni məğlub etmək və yalnız bundan sonra evə dönmək– sərkərdə üçün qanun budur».

İkinci hissə

1.U-tszı deyirdi: «Ümumiyyətlə, müharibədə dörd hərəkətverici qüvvə var. Birincisi– ruhun hərəkətverici qüvvəsi, ikincisi– ərazinin hərəkətverici qüvvəsi, üçüncüsü– fəaliyyətin hərəkətverici qüvvəsi, dördüncüsü– canlı qüvvənin hərəkətverici qüvvəsidir.

2.Bütün ordunun, milyonlarla əsgərin hərəkətinin asan və ya çətinliyi adamda tamamlanır– bu ruhun hərəkətverici qüvvəsidir.

3.Yol– dar, yol– döngəli, hər tərəfdə– uca dağlar, dik qayalar; on adamın müdafiə edə biləcəyi və min adamın keçə bilməyəcəyi yer– bu ərazinin hərəkətverici qüvvəsidir.

4.Casuslardan ustalıqla istifadə etmək, bütün istiqamətlərdə sürətli dəstələrlə hərəkət etmək, düşməni pərən-pərən salmaq, rəqib hökmdarla onun təbəələri arasında düşmənçilik salmaq, yuxarıdakılarla aşağıdakılar arasında nifrət yaratmaq– bu fəaliyyətin hərəkətverici qüvvəsidir.

5.Cəng arabalarının oxları möhkəmdir, gəmilərin avarları yaxşı işləyir, əsgərlər hərbi nizama öyrədiliblər, atlar qaçmağa alışqandılar– bu qüvvənin hərəkətverici qüvvəsidir.

6.Bu dörd hərəkətverici qüvvəni bilən kəs, qoşun başçısı ola bilər.

7.Amirlik, comərdlik, humanistlik və igidlik kifayət edər ki, tabeçiliyində olanları öz arxanca apararkən, ordunda sakitliyi qoruyub saxlayasan, düşməni qorxudasan, bütün şübhələri dağıdasan. Sərkərdə əmr edir– və tabeçiliyində olanlar itaətsizliyə cəsarət etmirlər. O, hansısa bir yerdə düşərgə salır– və düşmən ona qarşı hücuma keçməyə cürət etmir. Əgər belə adamı tapmaq mümkün olsa, dövlət güclü olar; əgər belə adam itirilsə, dövlət məhv olar. Belə adamı yaxşı sərkərdə adlandırırlar».

Üçüncü hissə

1.U-tszı demişdir: «Təbillər, nağaralar, sinclər və zənglərlə qulağa təsir edirlər; boncuqlar,[12] bayraqlar, rəmzlər və nişanlarla gözə təsir edirlər; qadağalar və əmrlərlə, tənbehlər və cəzalarla ürəklərə təsir edirlər.

2.Qulağa səslə təsir edirlər; deməli, səs gur olmalıdır. Gözə rənglərlə təsir edirlər; deməli, rəng aydın seçilməlidir. Ürəklərə tənbehlərlə təsir edirlər; deməli, cəzalar ağır olmalıdır.

3.Əgər bu üç qayda tətbiq edilməyibsə, sərkərdə dövlətə ağalıq etsə belə, mütləq düşmən tərəfindən darmadağın ediləcəkdir.

4.Buna görə belə deyilib: «Sərkərdə işarə etsə– hamı onun yanına, hamı onun ardınca! Sərkərdə əmr versə– hamı irəli, hamı ölümə!

Dördüncü hissə

1.U-tszı deyirdi: «Müharibədə ən əsası– mütləq hər şeydən əvvəl düşmənin sərkərdəsini tanımaq və onun bacarıqlarını bilməkdir. Əgər onun vəziyyətindən asılı olaraq ona qarşı taktika tətbiq etsən, elə də qüvvə sərf etmədən uğur qazanmaq olar.

2.Əgər o, axmaqdırsa və adamlara inanırsa, onu yalanla tovlamaq olar.

3.Əgər düşmən sərkərdəsi şöhrətpərəstdirsə və öz nüfuzunu qorumursa, onu qiymətli hədiyyələrlə ələ gətirmək olar.

4.Əgər o, hər növ dəyişikliyə qeyri-ciddi yanaşırsa və qəti hərəkət planı yoxdursa, onu yoraraq, əldən salmaq lazımdır.

5.Əgər düşmən qoşununda böyüklər varlı və özündənrazı, kiçiklər isə kasıb və deyingəndirlərsə, onları ayırmaq lazımdır.

6.Əgər rəqib sərkərdənin hərəkətlərində tərəddüd varsa, əgər onun ordusu nəyə arxalanacağını bilmirsə, onu qorxutmaq və qaçmağa məcbur etmək lazımdı

7.Əgər əsgərləri sərkərdəyə qarşı etinasız yanaşır və evə can atırlarsa, onların düz yolunu kəsərək, dağ yolunu açmaq və onları qarşılayıb tutmaq lazımdır.

8.Əgər onun hücum yolu asan, geri çəkilmək yolu isə çətindirsə, ona, yaxın məsafəyə qədər gəlməyə imkan vermək və ona zərbə endirmək lazımdır.

9.Əgər onun hücum edəcəyi yol dağ yolu, geri çəkiləcəyi yol isə hamardısa, ona yaxın getmək və zərbə endirmək lazımdır.

10.Əgər sərkərdə ordusunu su üçün axar olmayan aran yerdə yerləşdiribsə, və əgər bu vaxt tez-tez leysan yağışlar yağırsa, onun üstünə çoxlu su tökərək, onu batırmaq lazımdır.

---

[12] *boncuq– keçmiş zamanlarda kazak atamanlarının və getmanların hakimiyyət simvolu olaraq ağac başına keçirilən at quyruğu.*

11.Əgər o, ordusunu hər tərəfi sıx ot və kollarla örtülü sərt ərazidə yerləşdiribsə, və burada tez-tez güclü küləklər əsirsə, onları yandırmaq və düşməni məhv etmək lazımdır.

12.Əgər düşmən sərkərdəsi uzun müddət bir yerdə dayanıb, hərəkət etmirsə, əgər onun komandirləri və əsgərləri tənbəlləşibsə, və onun ordusu döyüşə hazır deyilsə, gizlincə hazırlıq görərək, ona hücum etmək lazımdır».

Beşinci hissə

1.Knyaz U-xou soruşdu: «Tutaq ki, hər iki ordu qarşı-qarşıya dayanıb, və mən onların sərkərdəsini tanımıram, ancaq xarici əlamətlərinə görə onun keyfiyyətlərini təyin etmək istəyirəm. Bunu necə etmək olar?».

2.U-tszı cavab verdi: «Rütbəcə aşağı, ancaq cəsur olanlardan birini seçib, ona yüngül bir seçmə dəstə vermək və bu sərkərdəni yoxlamadan keçirməyi tapşırmaq lazımdır. Ancaq qoy onlar qaçmağa çalışsınlar, nəyəsə nail olmağa can atmasınlar.

3.Qoy onlar düşmənin necə yaxınlaşacağını müşahidə etsinlər. Əgər o, gah oturub, gah dursa və bütün idarə üsulu mütəşəkkildirsə, əgər o, bizim qaçan əsgərlərimizi təqib edərkən, guya onlara çata bilməməsi ilə hiylə işlədəcəksə; əgər qarşısında hansısa mənfəəti görərkən, özünü guya bunun nə olduğunu başa düşməyən kimi göstərərsə– belə sərkərdəni ağıllı adlandırmaq olar. Onunla döyüşə girmək lazım deyil.

4.Əgər onun ordusu hay-küylü, bayraqları səliqəsizdirsə; əgər onun əsgərləri istədikləri kimi addımlayıb, istədikləri vaxt dayanırlarsa; əgər onun əsgərləri gah uzununa, gah eninə düzülübsə; əgər o, bizimkiləri təqib edərkən, onları əldən buraxmaqdan qorxursa; əgər o, qazanc gördükdə onu itirməkdən qorxursa,– bu axmaq sərkərdədir. Onun lap böyük ordusu olsa belə, onu tutmaq olar».

V fəsil
DƏYİŞİKLİKLƏR HAQQINDA

Birinci hissə

1.Knyaz U-xou soruşdu: «Tutaq ki, arabalar möhkəmdir, atlar yaxşıdır, sərkərdə cəsurdur, əsgərlər güclüdür, ancaq düşmənlə qəfil görüşdən hər şey öz nizamını itirir və bütün sıra pozulur, bəs bu vaxt nə etməli?»

2.U-tszı cavab verdi: «Ümumiyyətlə, müharibənin qanunlarına görə, gündüzlər hər şey rəmzlər, boncuqlar, bayraqlar və nişanlarla, gecə isə sinclər, təbillər, tütəklər və fleytalarla bildirilir. «Sola» əmri veriləndə, sola dönürlər, «sağa» əmri veriləndə sağa dönürlər, təbillər çalınanda – hücum edirlər; sinclərə vuranda– dayanırlar; fleyta bir dəfə çaldıqda– gedirlər, iki dəfə çaldıqda– yığışırlar; əmrlərə tabe olmayanları isə edam edirlər. Əgər ordu sərkərdənin hökmünə

tabedirsə, əgər komandirlər və əsgərlər əmrləri yerinə yetirirlərsə, döyüş vaxtı güclü düşmən, hücum zamanı möhkəm mövqe olmur».

İkinci hissə

1.Knyaz U-xou soruşdu: «Əgər düşmənin ordusu çox, bizimki azdırsa, bəs onda necə hərəkət etmək lazımdır?»

2.U-tszı cavab verdi: «Onunla düzənlik ərazidə görüşməkdən yayınmaq və ona dar keçiddə zərbə vurmaq lazımdır.

3.Buna görə deyirlər ki: birinin onuna zərbə vurması üçün dar keçiddən yaxşı yer yoxdur; on nəfərlə yüz adama hücum etmək üçün, sıldırım dərədən yaxşı yer yoxdur; min əsgərlə on min əsgərə həmlə etmək üçün dərə-təpəli və yarğanlı yerlərdən yaxşısı yoxdur.

4.Əgər az sayda əsgərlə dar keçid yolda qəfildən qalxaraq sincləri və təbilləri çalsan, qoy düşmənin ordusu lap böyük olsun, o qorxmaya bilməz.

5.Buna görə də deyirlər ki, kimin ordusu çoxdursa, o, düz yerdə düşərgə salmağa çalışır; kimin ki, ordusu kiçikdir, o, dar dərədə yerləşməyə çalışır».

Üçüncü hissə

1.Knyaz U-xou soruşdu: «Əgər düşmən ordusunun sayı çoxdursa, o cəsur və döyüşkəndirsə, əgər rəqibin arxasında hündür dağ, qarşısında uçurumdursa, onun sağı dağ, solu sudursa, xəndəkləri dərin, səngərləri hündürdüsə, əgər onlar böyük qundaqlı ox-yayla müdafiə olunurlarsa, onun geri çəkilməsi dağların hərəkətinə, hücumu külək və yağışa bənzəyirsə, əgər düşmənin azuqəsi də çoxdursa və uzun müddət ona qarşı dayanmaq mənim üçün çətindisə, bu vəziyyətdə nə etmək lazımdır?»

2.U-tszı dedi: «Gözəl sualdır! Burada artıq hərbi cəng arabaları və süvari dəstəsi gücü önəmli deyil, burada kamil, müdrik insanın ağlı lazımdır.

3.Min ədəd hərbi cəng arabası və on min süvari hazırlamaq, onlara piyadaları əlavə edib, bütün bunları beş dəstəyə ayırmaq lazımdır. Hər dəstə qoy öz istiqamətində hərəkət etsin. Beş dəstə beş istiqamətdə hərəkət etməyə başladıqda, düşmən hökmən çaşacaq və zərbənin hansı tərəfdən enəcəyini bilməyəcək.

4.Əgər düşmən inadla müdafiə olunursa, əgər onun əsgərləri möhkəm dayanıbsa, mümkün qədər tez ora kəşfiyyatçı göndərmək və onun fikrini öyrənmək lazımdır. Əgər o, bizim elçimizi eşidərsə, mövqelərdən çəkiləcək və çıxıb gedəcək. Yox, əgər eşitməsə, elçini öldürsə, məktubu isə yandırsa, onda bölünərək beş yerdə döyüşə başlamaq lazımdır. Lakin qələbə çaldıqda düşməni təqib etmək lazım deyil. Qələbə yox isə, tez oradan uzaqlaşmaq lazımdır.

5.Beləliklə, əgər gah yalandan qaçmağa başlasan, gah yavaş-yavaş irəliləsən, gah sürətlə döyüşə girsən, əgər sənin dəstənin biri düşmənin qabağa, o biri isə geriyə yolunu kəssə; əgər sənin hər iki

dəstən, dişlərinin arasında çübüq tutaraq, gah sağdan, gah soldan həmlə etsə və onun müdafiə olunmayan yerinə hücum etsə; əgər sənin beş dəstənin hamısı düşməni növbə ilə haxlasalar – mütləq uğur qazanılacaq. Güclü düşmənə zərbə endirməyin üsulu budur».

Dördüncü hissə

1.Knyaz U-xou soruşdu: «Fərz edək ki, düşmən mənə yaxınlaşır və məni haqlayır. Mən ondan qaçmaq istəyirəm, ancaq yolum yoxdur və əsgərlərim də bərk qorxublar. Bu halda nə etməli?»

2.U-tszı cavab verdi: «Bu halda belə hərəkət etmək lazımdır: əgər mənim ordum çox, onunku isə azdırsa, bütun qüvvələri bölərək, onlar vasitəsilə iş görmək lazımdır. Əgər mənim ordum az, onunku isə çoxdursa, düşmənə qarşı taktik bacarıqla hərəkət etmək lazımdır. Əgər belə qəti hərəkət etsən, ordusunun çox olmasına baxmayaraq, o təslim olacaq».

Beşinci hissə

1.Knyaz U-xou soruşdu: «Əgər mən düşmənlə dərədə görüşmüşəm və mənim yanımda hündür sıldırım dərələr və yarğanlar varsa, həm də onun ordusu çox, mənimki isə azdırsa, nə etmək lazımdır?»

2.U-tszı cavab verdi: «Əgər onunla dərə-təpə yerdə, meşəli vadidə, uca dağlarda, böyük bataqlıqlarda qarşılaşmısınızsa tez gedin və cəld oradan uzaqlaşın, gecikmək olmaz. Əgər onunla hündür dağlar arasında, dərin vadidə qəfil görüşmüsünüzsə, hökmən hər şeydən əvvəl düşmənə təbil çalmaq və hərbi qışqırtılarla təsir edin, kaman və qundaqlı ox-yayla hücuma keçin, atın, əsirlər tutun və diqqətlə düşmən ordusundakı nizamı və ya qarışıqlığı müşahidə edin. Qarışıqlıq varsa, tərəddüd etmədən hücuma keçin».

Altıncı hissə

1.Knyaz U-xou soruşdu: «Əgər sağda və solda uca dağlardısa, yer çox dardısa düşmənlə rastlaşırsansa; əgər ona zərbə endirmək istəyirsən və buna cəsarət etmirsənsə, ondan qaçmaq istəyirsən, ancaq bunu edə bilmirsənsə, bu halda nə etmək lazımdır?»

2.U-tszı belə cavab verdi: «Bu «dərədə döyüş» adlanır. Belə halda, lap böyük ordun olsa belə, düşmənə heç nə edə bilməzsən. Ən yaxşı döyüşçüləri toplamaq və onları düşmənə qarşı qoymaq, ən yaxşı silahlarla silahlanmış yüngül piyada qoşununu irəli çıxartmaq, döyüş arabalarını bölmək və süvari dəstəni düzmək, onu bir neçə li məsafədə dörd bir tərəfdə gizlətmək lazımdır. Bu hissələri rəqib qəti görməməlidir. Düşmən mütləq öz mövqeyində möhkəmlənəcək, nə hücum etməyə, nə də geri çəkilməyə risq etməyəcək. O vaxt rəmzləri irəli çəkmək, nişanları yerbəyer etmək, tərpənmək, dağların hüdudların çıxmaq və orada yerləşmək lazımdır. Düşmən hökmən

vahiməyə düşəcək. Qoy döyüş arabaları və süvari dəstə onu döyüşə çağırsın və ona dinclik verməsin. Dərə döyüşünün taktikası belədir».

Yeddinci hissə

1.Knyaz U-xou soruşdu: «Tutaq ki, mən çoxlu su olan bataqlıq yerdə düşmənlə toqquşdum; arabalarımızın təkərləri əyilib, dişlələr (qoşqu aləti– t.) suya batıb, su arabaların üstünə və süvarilərə qədər qalxıb, mənim isə qayıq ehtiyatım yoxdur, nə irəli, nə geri tərpənə bilmirəm. Belə olan halda nə edim?».

2.U-tszı cavab verdi: «Bu «suda döyüş» adlanır. Əlbəttə, cəng arabaları və süvari dəstədən bu halda istifadə etmək mümkün deyil, buna görə onları bir müddət saxlamaq lazımdır. Hündür bir yerə çıxaraq, bütün ətrafa göz gəzdirmək, suyun nə vəziyyətdə olduğunu bilmək lazımdır. Ərazini bildikdən, suyun daşma dərəcəsini təyin etdikdən, onun dərinliyini müəyyənləşdirdikdən sonra, bunun əsasında öz taktikanı quraraq, düşmənə qalib gələ bilərsən. Əgər düşmən suyu keçmək qərarına gəlsə, ona keçid vaxtı həmlə etmək lazımdır».

Səkkizinci hissə

1.Knyaz U-xou soruşdu: «Fərz edək ki, uzun müddətdi dayanmadan yağışlar yağır, atlar yıxılır, arabalar irəliləyə bilmir, ətraf düşmənlə doludur, ordu qorxu içindədir. Bu vəziyyətdə nə etməli?»

2.U-tszı cavab verdi: «Cəng arabalarından istifadə edəndə, əgər yer bataqlıqdırsa, onlar dayanırlar, əgər torpaq qurudursa, gedirlər; arabaların hərəkəti üçün hündür yerlər rahatdır, alçaq yerlər yox. Xüsusilə möhkəm arabalardan istifadə etmək lazımdır. Onları hərəkətə gətirəndə və durduranda bu qaydaya əməl etmək lazımdır. Əgər düşmən arabaların ardınca getsə, onun iziylə getmək lazımdır.

Doqquzuncu hissə

1.Knyaz U-xou soruşdu: «Tutaq ki, qəflətən azğın quldurlar peyda olurlar, mənim zəmilərimi viran qoyur, mal-qaramı aparırlar, bu halda nə edim?»

2. U-tszı cavab verdi: «Əgər zalım quldurlar peyda olarsa, hökmən onların qüvvəsi ilə hesablaşın, yaxşıca müdafiə olunun və onlarla döyüşə girməyin. Axşam, onlar çıxıb gedəndə, yükləri mütləq ağır olacaq, onların qəlbində hökmən nigarançılıq olacaq, onlar tez vaxtda buradan uzaqlaşmağa çalışacaqlar və aralarında hökmən geri qalanları olacaq. Əgər o vaxt onların dalınca düşüb, zərbə endirsəniz, dəstələrini darmadağın etmək olar».

Onuncu hissə

1.U-tszı demişdir: «Düşmənə hücum etmək və qalanı mühasirəyə almaq qanunu budur: istehkam şəklinə salınmış şəhər artıq təslim olmuşsa, düşmənin sarayını ələ keçirin və onun

vassallarının donluqlarını verməyi tapşırın, avadanlığı isə özünüzə götürün. Sizin ordunuz zəbt etdiyi yerdə qoy ağacları qırmasın, evləri dağıtmasın, buğdanı camaatın əlindən almasın, ev heyvanlarını öldürməsin, ehtiyatlarını yandırmasın. Əhaliyə göstərin ki, siz qəddar deyilsiniz. Təslim olmaq istəyənlər olsa– onları bağışlayın və sakitləşdirin».

VI fəsil

ƏSGƏRLƏRİN MÜKAFATLANDIRILMASI HAQQINDA

1.Knyaz U-xou soruşdu: «Cəzalar ağır, mükafatlar ədalətli olduqda qələbə üçün yetərlidirmi?

2. U-tszı cavab verdi:

«Bu barədə– zabitəlilik və ədalət haqqında– mən mühakimə yürüdə bilmərəm. Ancaq onu deyim ki, tək buna arxalanmaq olmaz. Sərəncamlar, əmrlər verilir və insanlar onları canla-başla yerinə yetirirsə; ordu ayağa qaldırılır, insan kütləsi hərəkətə gətirilir və insanlar sevinclə döyüşürsə; silahlar çarpazlaşır, tiyələr bir-birinə dəyir və insanlar fərəhlə ölürsə– bax onda başqa məsələ; bu üç hal hökmdarın həqiqi dayağıdır».

3.Knyaz U-xou dedi: «Bəs buna necə nail olmaq olar?»

4 U-tszının cavabı belə oldu: «Hökmdar, kimin xalq qarşısında xidmətləri var onları dəvət edin, onların şərəfinə ziyafətlər təşkil edin. Bununla xidməti olmayanları ruhlandırın».

5.Onda knyaz U-xou əcdadların məbədinin həyətində oturacaqdar qoydu, onları üç sıra düzdü və öz döyüşçülərini və əyanlarını ziyafətə çağırdı. Böyük xidmətləri olanları birinci sırada oturtdu, onların yeməkləri seçmə, qab-qacaqları bahalı idi. Onlardan az xidmətləri olanları orta sırada oturtdu, onların yeməkləri də, qab-qacaqları da birincilərdən zəif idi. Heç bir xidməti olmayanları isə o, arxa sırada yerləşdirdi, onların da qabağında yemək vardı, ancaq bahalı ləvazimat yoxdu. Ziyafət başa çatanda knyaz çölə çıxdı. Əcdadların məbədinin çölündə o, xidmətləri olanların ata və analarına, arvad və uşaqlarına hədiyyələr payladı, burada da knyaz xidmətlərdən asılı olaraq, fərq qoydu. O, hər il xidmətdə ölənlərin ailələrinə elçilər göndərər və onların ata və analarına hədiyyələr yollayardı; bununla hökmdar ürəyində ölənləri unutmadığını göstərirdi.

6.Bu minvalla üç il belə ziyafətlər təşkil olundu. Və budur, tsiinlər ordunu ayağa qaldıraraq Sixe üzərinə gəldilər. Vey əsgərləri, bunu eşitcək, komandirin əmrini gözləmədən, zirehlərini və dəbilqələrini geydilər, və düşmənin üstünə getdilər. Belə əsgərlərin sayı on min idi.

7.Onda knyaz U-xou U-tszını çağırdı və ona dedi: «Sizin o vaxt verdiyiniz nəsihət nəticə verdi».

8.U-tszı dedi: «Mən eşitmişəm ki, insanların yaxşı cəhətləri və nöqsanları var, onlarda həm enerjinin qalxması, həm də enməsi

halları olur. Hökmdar, heç bir xidməti olmayan əlli minlik ordunu döyüşə göndərin, mən isə Sizdən onlara komandanlıq etməyi və tsinlərin üstünə aparmağı mənə etibar etməyinizi xahiş edirəm. Və əgər qələbə çalmasam, qoy bütün knyazlar mənə gülsünlər, qoy aləmdə qazandığım bütün nüfuzumu itirim.

9.Fərz edin ki, Siz geniş bir düzəngahda ölməyə hazır olan cəmi bir quldur gizlətmisiniz, ancaq o ölməyə hazırdı. Minlərlə adam onu tutmağa çalışacaq, və hamı da bayquş kimi dörd tərəfə göz gəzdirəcək, canavarlar kimi ətrafa boylanacaqlar. Çünki onların hər biri qorxacaq ki, quldur qəfil çıxacaq və onu öldürəcək. Buna görə, min nəfəri qorxutmaq üçün ölümə hazır olan bir nəfər kifayətdir. Mən isə əlli minlik kütləni ölümə hazır olan quldur edəcəm. Əgər mən onları apararaq düşmənə zərbə vursam, davam gətirmək onun üçün həqiqətən çətin olacaq».

10.Knyaz U-xou onun məsləhətini eşitdi. U-tszı, özü ilə beş yüz döyüş arabası və üç min süvari götürərək, Tsinin beş yüz minlik ordusunu darmadağın etdi. Bu əsgərləri ruhlandırmağın nəticəsi idi.

11.Döyüşdən qabaq U-tszı əmr etdi: «Komandirlər və əsgərlər! Sizin hər biriniz görüşməlisiniz – kiminiz düşmənin döyüş arabaları, kiminiz süvari dəstəsi, kiminiz də piyadalır ilə. Yadda saxlayın ki, əgər hər bir araba onun arabasını, hər bir süvari onun süvarisini, hər bir piyada düşmənin piyadasını tutmasa, onun ordusunu darmadağın etsək belə, heç kimin burada xidməti olmayacaq».

12.Buna görə də döyüş günü U-tszının əmrləri qısa və sadə, idi, ancaq onun gücü bütün dünyanı sarsıtdı.

Nikolay Konradın şərhi

GİRİŞ

U-tszı fəaliyyətinə Lu şahlığı hökmdarının yanında xidmətdən başlamışdı. Bu bir vaxtlar Konfutsinin nazir olduğu şahlıqdır. Burada U-tszı ilk dəfə hərbi istedadı ilə diqqəti özünə çəkdi. Sərkərdə olan U-tszı qonşu Tsi dövləti ilə müharibəni uğurla apardı. Ancaq şöhrəti ona çoxlu paxıllıq edənlər qazandırdı ki, bunun nəticəsində o, bioqrafiyasında qısaca deyildiyi kimi, «ləkələnərək», Lu knyazının yanından getməyə məcbur oldu.

Bundan sonra biz ona başqa şahlıqda– Vey çarlığında rast gəlirik.

U-tszının kitabından da göründüyü kimi bu məhz Vey şahlığının çox təhlükəli vəziyyətdə olduğu vaxt idi: şahlığı dörd bir tərəfdən güclü və düşməncəsinə münasibət bəsləyən qonşular mühasirəyə almışdı. Vey knyazı yaranmış vəziyyəti yaxşı başa düşürdü. O, U-tszıya dedi: «Altı dövlətin ordusu hər tərəfdən məni pusur. Mənim vəziyyətim həddən artıq ağırdır. Bundan çox kədərlənirəm. Mən nə edim?» (II f. I hissə). Əsərin mətnindən görünür ki, Vey knyazı bu vaxt səylə silahlanır və müharibəyə hazırlaşırdı: səltənətdə döyüş arabaları düzəldilir, silah, yaraq-əsləhə (qalxan, geyim) hazırlanırdı. Knyazın təkcə yaxşı sərkərdəsi çatışmırdı və o, U-tszını öz yanına xidmətə dəvət etməyi qərara aldı. Traktatın giriş hissəsi U-tszının gələcək hamisi ilə ilk görüşünü təsvir edir. Mətndən göründüyü kimi, U-tszı özünü elə məharətlə aparırdı ki, knyaz ona valeh olmuşdu: «Özü U-tszı üçün həsir dōşədi...». Və U-tszı knyazın ümidlərini doğrultdu.

Əsərin giriş hissəsindəki o dövrün silahlarının təsviri maraqlıdır. Knyazın hərbi hazırlıqlarını göstərərək, U-tszı aşağıdakı silah növlərini sadalayır: dəri zirehlər, uzun və qısa nizələr, döyüş arabaları. U-tszının sözlərindən görünür ki, bu zirehlərin dərisi, onu nəmişliyin təsirindən və islanmaqdan qorumaq üçün kinovar və lakla örtulur, düşməni qorxutmaqdan ötrü fil və taydiş şəkilləri ilə bəzədilirdi. Beləliklə, zireh hazırlanması üçün dəridən istifadə edilməsi artıq qədim zamanlardan Uzaq Şərqdə məlum idi. Əsərdən biz silahların müxtəlif vahiməli fiqur şəkillərilə bəzədildiyinin də qədimliyini öyrənirik.

Silahlardan U-tszı uzun və qısa nizələrin adını çəkir. Onların nə ölçüdə olduğunu demək indi çətindir, çünki qədim ***çjan*** *və* ***çinin*** *həcmi qeyri-müəyyəndir. Mətnə görə, (mətnin mənasını nəzərə alsaq) bir şey şübhəsizdir ki, bunlar çox uzun nizələr olub. Onu da*

qeyd etmək lazımdır ki, «nizələr» adını yalnız şərti şəkildə onlara aid etmək olar: bu nizələrin ucu iki tiyəli idi, yəni, ov nizəsi və ya yabaya oxşayırdılar.

U-tszının adını çəkdiyi üçüncü silah növü– döyüş üçün cəng arabalarıdır. U-Tszının təsvir etdiyinə görə, arabalar çox böyük ölçüdə, «evlərdən hündür» ola bilərdi.

Əlbəttə, bu müəyyənliyi, U-tszının knyazla söhbətindəki tona uyğun olaraq, mübaliğə hesab etmək olar, lakin yenə də şübhə yoxdur ki, bu arabalar çox böyük olublar. Arabaların üstünə hər tərəfdən bir növ zireh olan qalın dərilər çəkirdilər ki, bu da onları oxlardan, mızraqlardan və daşlardan qoruyurdu.

Bizə məlum olduğu kimi, döyüş arabaları ordunun formalaşmasının əsas vahidi idi. O vaxtlar ordu komplektləşdirilərkən hər bir döyüş arabasına yetmiş beş piyada əsgər, bir arabadan və 75 əsgərdən ibarət bölməyə isə bir araba və 25 nəfərlik xidmətçi personal tələb olunurdu. O dövrlərdə dövlətin hərbi qüdrəti döyüş arabalarının sayı ilə qiymətləndirilirdi. Yeri gəlmişkən, məğlub edilmiş düşmənin və ya daha zəif partnyorun silahlanmasını məhdudlaşdırmaq məqsədi güdən o vaxtkı müqavilələrdə, həmişə qarşı tərəfin neçə cəng arabası saxlamaq ixtiyarı olduğu müəyyənləşdirilirdi. Dövlətlərin xüsusiyyət təşkil edən iyerarxiyası tədricən belə yarandı: silahlandırmada olan arabalarının sayına görə. Bu iyerarxiya pilləsinin başında, on min döyüş arabasına malik olan və ya ola bilən Çjou vanı dayanırdı. Arabaların sayı isə elə ordunun sayını müəyyən edirdi. Beləliklə, ciddi-cəhdlə döyüş arabalarının hazırlanması Vey hökmdarının böyük müharibəyə hazırlaşdığına ən yaxşı sübut idi.

U-tszı öz nitqində, ta qədimdən Çində tamamilə mübahisəsiz hesab edilən tezisi irəli sürür: «Müdrik hökmdar... mütləq öz ölkəsində mülki əsasları inkişaf etdirir, xarici düşmənlərə qarşı isə öz hərbi qüvvəsini hazır vəziyyətdə saxlayır».

Bu sözlərlə sonralar ənənə halını almış ictimai və dövlət həyatının iki əsasının– mülki və hərbi əsasların tutuşdurulması göstərilir. Qədim çinlilərin təsəvvürünə görə, bu iki əsas insan təbiətinin özündədir və humanistlik və igidlik kimi iki xüsusiyyət onların mənbəyidir. İnsan təbiətinin bu iki xüsusiyyəti insanın həyat məsələləri ilə də şərtlənir: bütün çətinliklərə baxmayaraq öz sakit həyatını qurmaq və eyni zamanda, qurub-yaratmağa mane olan çətinliklərlə mübarizə aparmaq. Buna görə bu əsaslar qarşı qoyulmurlar, ictimai həyatda dinc əmək və hərb peşəsi, mülki mədəniyyət və hərb işi, maariflənmə və insanlarda hərbi keyfiyyətlərin tərbiyə olunması şəklini alaraq, bir-birini tamamlayırlar. Dövlətin həyatında bu mülki və hərbi idarəetmədir, yəni ölkədə mülki həyat əsaslarının inkişaf etdirilməsi və döyüş ruhunun tərbiyə edilməsi, hərb sənətinin inkişaf etdirilməsi və silahlanmanın qayğısına qalmaqdır.

U-tszı bunların hər ikisinin əlaqələndirilməsinin vacibliyini göstərir, hər hansı bir əsasa üstünlük verilməsindən çəkinməyə çağırır. Sübut kimi o, birinin yalnız mülki əsasları, o birinin isə ancaq hərb işlərini həyata keçirməklə öz dövlətlərini məhvə sürükləyən iki qədim hökmdarlara isnad edir. Qədim Çin yazıçılarından çox azının bu mülki və hərbi əsasların qarşılıqlı əlaqələrindən tamam yan keçdiyi faktı bu fikrin o vaxtlar geniş yayıldığını təsdiq edir.

Hərb işinin qədim nəzəriyyəçilərindən Sun-tszı bu barədə danışaraq göstərir ki, sərkərdə ordu idarəçiliyində bu əsasları rəhbər tutmalıdır. (Sun-tszı, IX f., 19-cu bölmə)[13]

Vey Lyao-tszı bu iki əsas haqqında belə ifadələr işlədir: «Müharibədə hərbi əsas– şitildir, mülki əsas– toxum.

Hərbi əsas– zahiri tərəfdir, üzdür; mülki əsas– daxili tərəf, astardır. Bu iki əsası ayırd etməyi bacarsan, qələbə və məğlubiyyəti də bilmək olar. Mülki əsas odur ki, onun vasitəsilə xeyrin və ziyanın harda olduğunu görürsən, əmin-amanlığın və təhlükənin harda olduğunu ayırırsan; hərbi əsas odur ki, onun vasitəsilə güclü düşməni dəf edir, öz hücum və müdafiələrini gücləndirirlər». (Vey Lyao-tszı. XXIII f.).

Lakin, Vey Lyao-tszının fikrincə, bu əsaslar təkcə ordu və müharibə sahəsində əhəmiyyətli deyildirlər. «Hər növ qadağa hərbi əsasın köməyilə, hər növ mükafatlandırma– mülki əsasın köməyilə həyata keçirilir» (Vey Lyao-tszı, XI f.). Şərhçinin izahına görə, bu sözlərin mənası odur ki, bu iki əsas, ümumiyyətlə cəmiyyətin həyatında mütləq lazımdır, çünki dünyadakı hər növ fəlakət hərbi əsasın köməyilə aradan qaldırılır, hər növ yaxşı əməl isə mülki əsasın köməyilə mükafatlandırılır.

Cəmiyyətin fəaliyyətinin məzmunu isə bədbəxtliyin qarşısının alınması və yaxşılığın mükafatlandırılmasındadır.

Bu iki əsasın əhəmiyyəti haqqında, Li Vey-hunun (m.ö.VII əsr) xeyli sonra yazılmış «Dialoqlar» elmi əsərində də danışılır: «Mülki əsasla adamları özünə cəlb edir, hərbi əsasla– düşməni qorxudurlar» (Li Vey-hun venduy, II f.). Beləliklə, U-tszı bu iki əsas haqqında danışarkən, yaşadığı dövrdə məşhur olan və sonralar da qüvvədə olan nəzər nöqtəsini ifadə edir.

U-tszı nitqində Çin fəlsəfəsinin daha iki mühüm məfhumuna da toxunur– humanistlik və borc anlayışları. O, əlbəttə, müharibə şəraiti ilə əlaqədar bu məfhumlara toxunur. U-tszI deyir: «Düşmənə qarşı çıxmamaq– öz borcunu yerinə yetirməmək deməkdir. Həlak

---

[13] *səh.459. Qədim dövrlərin hərbi yazıçılarına edilən bütün istinadlar «Kambun taikey» seriyasında çap olunmuş «Yeddi kitab» (XIII c., Tokio, 1912) nəşrinin tsin şərhinə əsasən verilir.*

olanlar üçün kədərlənmək– özündə humanistliyin olmaması deməkdir».

«Humanistlik»– Konfusinin (Kun-tsızı) nəsihətində xüsusi əhəmiyyət almış qədim çin əxlaq sistemində birinci əsasdır. Başlanğıcda «humanist» dedikdə adi, sadə mənada yaxşılıq başa düşülürdü. İnsanların qarşılıqlı əlaqələrinin– adamların bir-birinə şəfqətli və xeyirxah münasibətlərinin - əsas başlanğıcı mənasını aldı. Vaxt keçdikcə bu anlayış, ümumiyyətlə, bütün əxlaqın əsas tələbinə çevrildi; daha sonra onu insan təbiətinin əsas xüsusiyyəti, insan varlığının əsası kimi şərh etməyə başladılar.

Burada bu məfhum dar mənada– insanpərvərliyin hökmdarın xassəsi kimi verilir. U-tszı, döyüş meydanında həlak olanların cəsədlərini görərkən qəmlənən və göz yaşı axıdan hökmdarı humanist hesab etmir. Əgər bu humanistlikdirsə də, gecikmiş və mənasızdır. Həqiqi humanistlik, hökmdarın öz ölkəsinin, xalqının əsarət altına alınması və xaraba qoyulmasına yol verməməsi cəhdlərində təzahur edir.

Bu kimi nəzər nöqtəsi qədim çin strateqləri, onların ardınca isə bütün sonrakı çin müharibə fəlsəfəsi üçün çox xarakterikdir. Bu strateqlər, müharibədə verilən hər qurban üçün qüssələnməyə və buna görə müharibəni rədd etməyə vadar edən həssas ürəyiyumşaqlıqdan çox uzaqdırlar; onların fikrincə, belə humanistlik yalnız ölkəni, xalqı işğalçıya verə bilər. Belə olan halda bədbəxtliklər və iztirablar daha çox olacaq, nəinki əldə silah öz ölkəni müdafiə etdiyində. Buna görə, U-tszı üçün həqiqi humanistlik, qurbanların qaçılmazlığı üzündən müqavimət göstərməyə boyun qaçırmaqda deyil, öz xalqını silahla müdafiə etməkdədir.

Sun-tszı da bu fikirdədir. Amma o, bu məsələyə başqa tərəfdən yanaşır: o, həqiqi humanistliyin mümkün qədər az qurban verməklə döyüşməkdə olduğunu hesab edir. Buna görə o, müharibənin imkan daxilində qısamüddətli və əlbəttə, qalibiyyətli olmasına təkid edir.

Əgər öz düşməninin vəziyyəti barədə tam məlumata malik olaraq müharibəyə girsən, buna nail olmaq olar. Məlumat əldə etməyin ən yaxşı yolu isə– düşmənin ölkəsində və ordusunda casuslarının (agentlərin) olmasıdır. Buna görə «titulları, bəxşişləri, pulu əsirgəmək və düşmənin vəziyyətini bilməmək– humanist olmamanın ən yüksək həddidir»,- Sun-tszı deyir (XIII f., 2-ci b).

U-tszının toxunduğu ikinci anlayış, xalqın öz dövlətinə münasibətdə borcudur: «Düşmənə qarşı çıxmamaq– öz borcunu yerinə yetirməmək deməkdir».

Beləliklə, U-tszı qısaca dövləti idarəetmənin başlıca əsaslarına toxunur.

Lakin onun söhbətinin əsas məqsədi başqadır. Ven-xouya müraciət edərək, o, deyir: «Əgər Siz bütün bunları (yəni silahı) hücum və müdafiə üçün hazırlamısınızsa, lakin bütün bunlardan

istifadə edə biləcək adam tapmamısınızsa, bu elə o deməkdir ki, kürt toyuğun safsar üstünə atılması, balalarını yedizdirən itin pələngə hücum etməsi kimi bir şeydir. Sizin döyüşmək arzunuz olsa da, fərqi yoxdur, siz dərhal həlak olacaqsınız». Deməli, məsələ yaxşı sərkərdədədir.

Əlbəttə, U-tszının bütün bunları, knyazı yaxşı sərkərdəyə malik olmağa inandırmaq və bu yolla onun yanında xidmətə düzəlmək üçün dediyini düşünmək olar. Sun-tszının əsərində sərkərdə mərkəzi yer tutur; onun doktrinasının bütün şərhi, ilk növbədə məhz sərkərdəyə aiddir. O, yaxşı sərkərdənin əhəmiyyətini son dərəcə yüksək qiymətləndirir: «Dövlət üçün sərkərdə– arabanın necə bərkidilməsi deməkdir; əgər bu bərkitmə möhkəmdirsə, dövlət hökmən güclü olur; əgər bağlama aralanıbsa, dövlət hökmən zəif olur» (Sun-tszı, III f., 5 b.). İstedadlı sərkərdə, yaxud onun dediyi kimi, «müharibəni başa düşən sərkərdə», «xalqların talelərinin hakimi, dövlətin təhlükəsizliyinin ağasıdır» (Sun-tszı, II f., 15 b.). Doğrusu, burada da demək olar ki, ənənənin dediyi kimi, U şahlığının hökmdarı üçün öz traktatını yazmış Sun-tszı da həmçinin sərkərdənin əhəmiyyətini yüksəltməkdə maraqlı idi. Lakin bu cür izah məsələnin həddən artıq sadələşdirilmiş həlli olardı. Xeyli müddət sonra yazılmış «San-lyue» (VI-VII əsrlər) traktatı da sərkərdə haqqında bu tərzdə danışır: «Sərkərdə – dövlətin taleyinin hakimidir. Əgər sərkərdə qələbə qazanmağı bacarırsa, dövlət möhkəm dayanır».

(San-lyue, I f.). «Lyu tao» (III-IV əsr.) da bu haqda danışır: «Müharibə – dövlət üçün böyük işdir: o– var olma və ya məhv olmağın yoludur; dövlətlərin taleyi– sərkərdənin əlindədir.

Sərkərdə– dövlətin dayağıdır. Əvvəlki hökmdarlar ona mühüm əhəmiyyət verərdilər. Buna görə sərkərdə təyin edərkən xüsusilə diqqətli olmaq lazımdır» (Lyu tao. Lun tao. XIX f.). Sun-tszı və U-tszı kimi strateqlər tərəfindən sərkərdənin əhəmiyyətinin hər yolla həddən artıq tərifləmməsi tamamilə aydındır. Bir də axı, onlar hər ikisi öz sənətlərini hökmdarlara təqdim edən və mümkün qədər yüksək qiymətləndirilmələrində maraqlı olan muzdlular idilər. Ancaq məsələ ondadır ki, Konfusi və Men-tszı kimi səyyah siyasətçilər kimi, səyyah sərkərdə olan bu strateqlər onlara ehtiyac yarandığı üçün meydana çıxdılar. Arası kəsilməyən daxili müharibələr dövründə hərb işi hökmdarların xüsusi qayğı obyekti oldu. Bir yüzillikdən çox sürən bu müharibələr vaxtında hərb sənəti o qədər çətinləşdi və inkişaf etdi ki, bu sahədə həqiqi mütəxəssislər lazım oldular. Hər bir knyaz başa düşürdü ki, yaxşı sərkərdə onun üçün çox şey deməkdir. U-tszının sərkərdə barəsində sözləri, yaşadığı dövrdə tək onun yox, həm də həmsöhbətinin düşündüklərini xəbər verir.

Sərkərdəyə necə əhəmiyyət verildiyi barədə, U-tszının düşmən üzərinə gedən orduya başçı təyin edilməsi mərasimi çox gözəl ifadə olunub. Hərb sənəti haqda əsərlər bu təntənəli aktı təsvir edirlər.

«Lyu tao»da bu təsvir daha ətraflıdır. Ölkəni bəla təhlükəsi alanda, hökmdar sarayından uzaqlaşaraq (öz ölkəsindəki hər hansı bəlaya görə özünü günahkar saymalı olduğu üçün– N.K.) və sərkərdəni çağıraraq bu sözlərlə ona müraciət edərdi:

«Vətənin taleyi bütünlüklülə qoşun başçısının əlindədir. İndi yad dövlət özünün vassal borcunu pozmuşdur. Sizdən xahiş edirəm, ordunu götürün və onun üstünə gedin». Sərkərdə belə göstəriş aldıqdan sonra, hökmdar, tayşiyə (baxıcıya– N.K.) fala baxmağı əmr edərdi. Üç gün oruc və pəhriz tutaraq, hökmdar əcdadların məbədinə yollanar və müqəddəs tısbağa ilə fala baxardı. Bu üsulla uğurlu günü təyin edərək, o, balta və təbərzini sərkərdəyə verərdi.

Hökmdar məbədin darvazalarından içəri girər və üzü qərbə tərəf dayanardı. Sərkərdə məbədin darvazalarından içəri girib, üzü şimala tərəf dayanardı. Hökmdar təbərzini götürüb tiyəsindən tutaraq, onun tutacağını sərkərdəyə verər və deyərdi: «Göyün üzünə qədər, başımızın üstündə nə varsa, hamı sənin ixtiyarındadır, sərkərdə!». Sonra o, baltanı sapından tutar və onun tiyəsini sərkərdəyə verərək, deyərdi: «Yerin təkinə qədər, ayağımızın altında nə varsa, sən idarə et, sərkərdə! Əgər düşməndə zəif yer görsən, get. Əgər onun gücünü görsən, dayan. Öz ordunun sayına arxayın olub, düşmənə etinasız yanaşma. Aldığın əmri ən vacib sayıb, ölümə getmə. Adamlarının qədrini bil və bir tək özünü qiymətləndirmə. Yalnız öz fikrinə güvənib, orduya qarşı çıxma. Lakin hökmən başqalarının sənə dediyi kimi də hərəkət etmə. Əsgərlərin hələ oturmayıbsa, özün də oturma. Əgər hələ əsgərlərin yeməyə başlamayıbsa, özün də yemək yeməyə başlama. Soyuğu da, istini də onlarla bölüş. Belə olan halda qoşun başçıların və əsgərlərin hökmən bütün qüvvələrini sənə verəcəklər». Təyinatını alaraq, sərkərdə baş əyib hökmdara cavab verərdi:

«Mən eşitmişəm ki, dövlət qıraqdan, ordu isə paytaxtdan idarə olunmur. İki ürəyi ola-ola hökmdara xidmət etmək olmaz. Şübhə varsa, düşmən üstünə getmək olmaz. İndi Sizin nökəriniz fərman almışdır və bütün hakimiyyəti– balta və təbərzin hakimiyyətini qəbul etmişdir. Nökəriniz sağ qayıtmağa cürət etməz. Ancaq Sizdən, hökmdar, xahiş edirəm, nökərinizi öz hökmünüzlə şərəfləndirəsiniz (müharibə aparılmasında tam sərbəstlik verilməsi haqda– N.K.). Əgər Siz, hökmdar, buna icazə verməsəniz, nökəriniz sərkərdə olmağa cəsarət etməz».

Hökmdar ona icazə verdikdən sonra, sərkərdə vidalaşıb gedərdi. «Lyu tao» nun müəllifi bu izaha aşağıdakı sözləri əlavə edir:

«Orduda hökmdarın əmrinə tabe olmurlar. Bütün əmrləri sərkərdə verir. Düşmənlə üz-üzə dayanıb döyüşü həll edəndə onun iki ürəyi yoxdur. Əgər beladirsə, onun başı üstündə səma, ayağının altında torpaq, qarşısında düşmən, arxasında hökmdar yoxdur. Buna görə, müdriklər onun üçün fikirləşir, cəsurlar onun üçün döyüşürlər. Hamının ruhu buludlara qədər qalxır. Onların cəldliyi iti qaçışa

bənzəyir. Ordu hələ silahlarını çarpazlamayıb, düşmənsə artıq təslim olur. Döyüş xarici düşmən üzərində qələbə gətirir. Qəhrəmanlıqların dövlətin içərisində şöhrəti aləmə yayılır. Komandirlərin rütbələri artır, əsgərlər mükafatlar alır, xalq sevinir və şadlanır. Sərkərdənin nə günahı, nə fəlakəti yoxdur. Buna görə külək və yağış öz vaxtında olur. Bolluca taxıl yetişir, vətən sülh və əmin-amanlıqdadır». (Lyu tao. Lun tao, XXI f.).

Şübhəsiz, U-tszı Tsinlərə qarşı müharibədə baş komandan təyin olunduqda da belə mərasimlər təşkil olunmuşdu.

I FƏSİL

Birinci hissə

Əsərin birinci hissəsində söhbət dövləti necə idarə etməkdən gedir. Lakin U-tszının əsəri– idarəetmə prinsipləri haqqında tədqiqat deyil; əsər müharibə probleminə həsr edilib.

Buna görə də burada dövlət idarəçiliyi haqqında söhbət müharibə ilə, daha doğrusu– müharibəyə hazırlıqla əlaqədar açılır. Burada xalqın həmişə müharibəyə hazır olması və hökmdarın bir çağırışı ilə döyüşə getməsi üçün xalqı necə idarə etmək lazım olduğundan danışılır.

U-tszı mülahizələrini Sun-tszının da öz traktatını başladığı məsələdən– hökmdar və xalqın tam birliyinin vacibliyi fikrindən başlayır. Sun-tszı bunu «Yol», yəni biriliyi təmin etmək istəyən hökmdarların getməli olduğu yol adlandırır.

Onun izahına görə, «Yol– xalqın fikirlərinin hökmdarın fikirləri ilə eyni olduğuna nail olunması, xalqın onunla birlikdə ölməyə, onunla birgə yaşamağa hazır olması, xalqın nə qorxu, nə şübhə bilməməsidir» (Sun-tszı, I f., 3 b). U-tszı da həmin fikri irəli sürür.

«Dörd ixtilafdan (narazılıqdan)», yəni, müharibədə qələbəni imkansız edən səbəblərdən danışaraq, o, «dövlətin daxilində ixtilafı» birinci yerə qoyur ki, şərhçilər yekdilliklə bunu hökmdarla təbəələri, dövlət və xalq arasında ixtilaf hesab edirlər. Lyu İn məsələni daha geniş qoyur. O, traktatın bu hissəsini belə izah edir: «Dövlətdə ixtilaf, hökmdarla təbəələri, yuxarılarla aşağılar arasında həmrəyliyin olmamasıdır». Lyu İn, ümumiyyətlə, «yuxarılarla» «aşağılar», yəni, idarə edənlərlə idarə olunanlar arasında, ümumiyyətlə, antaqonizmin qurtarmasını və ya aradan qaldırılmasını tələb edir. «Dövlətdə həmrəylik yoxdursa, xalqın ürəyi dönürsə (hökmdardan– N.K.), elə buna görə də qoşunu çıxarmaq olmaz»,- o, iddia edir. Bununla əlaqədar, U-tszının çıxardığı nəticə aydındır: «Buna görə, əgər Yolu bilən hökmdar öz xalqını gücləndirmək istəyirsə, o, hər şeydən əvvəl, həmrəylik yaradır və yalnız bundan sonra böyük işlərə başlamayır».

Bu formul ümumi xassəyə malikdir. Burada, xalqa aid olan bütün «böyük işlərdən» əvvəl ölkədə daxili həmrəyliyin olmasının vacibliyindən danışılır. Lakin, o vaxtlar «böyük iş» dedikdə, görünür,

hər şeydən əvvəl müharibə nəzərdə tutulurdu. Sun-tszı müharibəni açıqdan-açığa «dövlət üçün böyük iş» adlandırır (Sun-tszı, I f., 1 b.).

Buna görə aydındır ki, traktatın bu yerində, müharibənin aparılması üçün vacib şərt kimi dövlətdəki daxili həmrəylik nəzərdə tutulur. Sun-tszı da, belə düşünür, qədim Çinin strateqlərindən üçüncüsü olan Vey Lyao-tszı da belə hesab edir: «İnsanlar arasında fikir birliyi, ərazinin faydasından vacibdir. Kamilin qiymətləndirdiyi yalnız adamların işləri olub– vəssalam» (Vey Lyao-tszı, IV f.).

U-tszı hökmdarın hansı yollarla belə razılığa nail ola biləcəyini açıqlayır. Bu hissənin elə birinci cümləsində o, deyir: «Qədimlərdə dövlətin qayğısına qalan hər kəs, mütləq hər şeydən əvvəl öz xalqını maarifləndirirdi və öz adamlarını sevirdi».

Bu tezisin, həyat və quruluşlarında hələ patriarxal-qəbilə münasibətləri üzərində qurulmuş cəmiyyətə xas elementlərin qüvvədə olduğu erkən quldarlıq dövlətləri üçün səciyyəvi olan konsepsiyanın- hələ çox qədimlərdə formalaşdığını, hökmdarlar haqqında «öz xalqının müəllimi, maarifpərvəri» təsəvvürünü canlandırdığını görmək çətin deyil. Hökmdarın «yer allahlarının», yəni doğma allahların məbədini mühafizə etdiyi haqqında təsəvvür də bu konsepsiyaya daxil idi. Qədim Çin hökmdarları, hansısa bir ərazidə məskən salarkən, mütləq saraylarının yanında «torpaq allahlarının ibadətgahı»nı və torpağın istehsal etdiyinin– dənli bitkilərin allahlarının məbədini tikərdilər. Bu ibadətgahlar bir növ doğma torpağın, vətənin təcəssümü idilər. Buna görə, Vey knyazı ilə birinci söhbətində U-tszı onun fikrincə təkcə hərbi əsasa tərəfdarlığı ilə öz ölkəsini, məhv etmiş qədim Yu Xu hökmdarını xatırlayaraq deyir ki, bu hökmdar «öz doğma məbədlərini itirdi». «Giriş» də təsvir olunduğu kimi, Vey knyazının özünün davranışından da qədim şahlıqların hökmdarlarının, doğma məbədlərin mühafizəçisi vəzifələrini yerinə yetirərkən nə etdiklərini mühakimə etmək olar:

U-tszını öz yanına xidmətə götürmək qərarını verərək, knyaz dərhal ibadətgaha yollandı və

«U-tszının şərəfinə məbəddə şərab nəziri vermə ayinini yerinə yetirdi». Hələ lap qədimlərdən Çində hökmdar, öz xalqının mürəbbisi– maarifçisi və baş kahini kimi ali hakimiyyətin təmsilçisi haqqında təsəvvür vardı. Bu üç funksiyadan, görünür, ikincisinə əhəmiyyət verilirdi ki, U-tszının traktatının birinci fəslinin başladığı açan, yuxarıda göstərilmiş sözlərdə bunu göstərir.

«Lyu tao» da o vaxtlar «öz adamlarını sevmək», yəni xalqı sevmək sözlərinin nə demək olduğunun izahını tapmaq olar.

Bu izahat qədim Çjou şahlığının banisi hesab olunan U-vanın atası, Ven-vanın müdrik məsləhətçisi Tay-qunla dialoqunda verilib.

Tay-quna müraciət edərək, Ven-van dedi: «Sizdən dövlət başçısının başlıca vəzifəsi haqqında eşitmək istərdim. Mən istərdim ki, hökmdara hamı hörmət bəsləsin, camaat isə firavan yaşasın.

Bunun üçün nə etmək lazımdır?»Tay-qun cavab verdi: «Xalqı sevmək– artıq heç nə.

Ven-van soruşdu:

«Xalqı sevmək» nə deməkdir?»

Tay-qun cavab verdi: «Xalqa xeyir vermək, ona ziyan vurmamaqla hərəkət etmək; dağıtmaq yox, yaratmaq; öldürmək yox, həyatlarını qorumaq; onlardan nəyisə almaq yox, nəsə vermək; əzab yox, sevinc bəxş etmək; qəzəbləndirmək yox, sakitləşdirmək».

Ven-van dedi: «Bunu daha ətraflı izah etməyinizi rica edirəm».

Tay-qun dedi: «Nə vaxt ki, xalq öz məşquliyyətindən əl çəkmir, bu o deməkdir ki, xalqa xeyirli hərəkət edirlər; torpaq işləri vaxtında görülürsə, deməli, yaradırlar; günahsızları cəzalara məruz qoymurlarsa, deməli, xalqa yaşamağa imkan verirlər; vergi və töycüləri yüngülləşdirəndə, bu o deməkdir ki, xalqa nəsə verirlər (əlindən almırlar); vəsaitləri saray və qalalara xərcləmirlərsə, deməli xalqa sevinc bəxş edirlər; vəzifəli şəxslər vicdanlıdırsa və xalqdan rüşvət almırlarsa, deməli xalqı qəzəbləndirmirlər. Buna görə, dövləti yaxşı idarə edən şəxs, ata və ana uşaqlarını sevdiyi kimi, böyük qardaşlar kiçikləri sevdiyi kimi xalqına böyüklük edir. Hökmdar görəndə ki, xalq aclıq içindədir, şah onun üçün əzab çəkir. O, görəndə ki, xalqa bədbəxtlik üz verib, hökmdar da kədərlənir. Belə hökmdarın bəxşişi və tənbehləri sanki onun özünə ünvanlanıb. Töycü və vergilər elə bil onun özündən alınır. «Xalqı sevmək» bu deməkdir». (Lyu tao, Ven tao, III f.).

Bu şəkildə izahdan U-tszının fikri aydın olur ki, öz xalqını sevən başçı, bununla öz ölkəsində tam həmrəyliyə nail olur.

U-tszının fikrincə, ölkədə ixtilafın olması, qalibiyyətli müharibə aparılmasına mane olan narazılıqların birinci növüdür. «Dövlətdə fikir birliyi yoxdursa, ordunu irəli çıxarmaq olmaz», yəni ordunu təşkil etmək olmaz. Lakin bu yalnız birinci addımdır. Ölkədə fikir birliyi yaratmaq və ordu yaratmaq olar, ancaq bu hələ o demək deyil ki, bu ordu döyüş qabiliyyətlidir. Ordu o vaxt döyüş qabiliyyətlidir ki, onun özündə həmrəylik hökm sürür. «Orduda həmrəylik yoxdursa, düşərgə salmaq olmaz», yəni döyüş mövqeyi tutmaq olmaz. Lyu İn ordu daxilindəki bu narazılığı, «qoşun başçısı və rəislər, komandirlər və əsgərlər arasında həmrəyliyin olmaması» kimi başa düşür. Bununla Lyu İn üçün məsələ, şübhəsiz, ən əvvəl komandirlər və sıravi döyüşçülər arasında narazılıq kimi izah olunur. Hər halda, bu kimi narazıçılığın nəticələrini təsvir edərək, Lyu İn yazır: «Orduda həmrəylik olmadıqda, hamının ürəyi (söhbət ordu kütləsindən, yəni əsgərlərdən gedir– N.K.) üz döndərir (qoşun başçılarından– N.K.) ki, buna görə də düşərgə salmaq olmaz».

Tutaq ki, orduda birlik var, amma düşərgənin özündə birlik yoxdursa, bunun da xeyri yoxdur: «Düşərgədə birlik yoxdursa, irəliləmək və döyüşmək olmaz»- U-tszı deyir. Bu halda narazılıq hissələrin qarşılıqlı münasibətlərinin aydın olmamasıdır. U-tszının bu

sözlərini məhz bu mənada başa düşməyə bizi, əsərin bu yerinə şərhində belə bir fikir söyləmiş Lyu İn məcbur edir. O, yazır: «Düşərgədə birlik yoxdursa, deməli, ayrı-ayrı hissələr arasında həmrəylik yoxdur».

Əlbəttə, qeyri-müteşəkkil orduyla döyüşmək olmaz: Ancaq, hətta mütəşəkkilliyə nail olunub döyüşə girsən də, nəticə etibarilə, qələbə üçün daha bir şərt də vacibdir: «döyüşün özündə həmrəylik». «Döyüş zamanı birlik yoxdursa, qələbəyə nail olmaq olmaz»,- deyir U-tszı. Görünür, döyüş zamanı narazılıq dedikdə, ayrı-ayrı hissələrin döyüş əməliyyatlarının razılaşdırılmaması; əmrlərin ziddiyyətli olması və s. başa düşmək lazımdır.

Müharibəyə hazırlaşan hökmdarın birinci qayğısı dörd «narazılığın» aradan qaldırılmasıdır. İkinci qayğı– müharibə planının işlənməsi, əhalinin hazırlanması və lazımi vaxt seçilməsidir. U-tszı hökmdarın bu istiqamətdə fəaliyyətini, qədim zamanların dövlət başçılarına xas olan xüsusiyyətlərlə təsvir edir. Plan işləyərkən, hökmdar yalnız öz şəxsi fikirlərinə və ya ayrı-ayrı adamların mühakimələrinə arxayın olmalı deyil. O, Allahlara müraciət etməli və onlardan göstərişlər almalıdır.

Hökmdar bu haqda (Allahlara müharibəyə başlamaq niyyəti haqqında elan edir– N.K.) əcdadların məbədində elan edir, tısbağa üzərində fala baxmağa başlayır...»

Dövlət üçün birinci dərəcəli əhəmiyyətə malik olan hər hansı bir işə başlamaq niyyətinin Allahlara bildirilməsi, bütün şamanlıqlarda tətbiq olunan «Allahlarla məsləhətləşmələr»ə gedib çıxır. Kahin funksiyalarının tayfa başçısına keçirilməsilə bu «məsləhətləşmələr» onun ixtiyarına keçdi, daha sonra isə– patriarxal məişətinin hələ güclü olduğu erkən quldarlıq dövlətləri yarandığı vaxt,- öz torpağının Allahları ilə məsləhətləşmək hüququ və vəzifəsi hökmdara keçdi.

U-tszı, Allahların göstərişlərinin məlum olduğu üsulla– tısbağa üzərində fala baxmağa da işarə edir. Başqa mənbələrdən bildiyimiz kimi, fala belə baxırdılar: «müqəddəs tısbağa» götürülür və odun üstündə qızardılır. Bu zaman tısbağanın qını üzərində əmələ gələn çatlarla, Allahların göstərişlərini oxuyurlar. Yeri gəlmişkən onu da deyək ki, fala baxmanın bu üsulu çox qədimlərə aiddir. Çində maral kürəyində fala baxmağa oxşar bu fala baxmaq haqqında məlumatlar, çox qədimlərə gedib çıxır.

Bu vasitə ilə hansısa göstərişləri alaraq, hökmdar hücum vaxtını təyin edir. Bu zaman o, U-tszının dediyi kimi, «bunu zamanla tutuşdurur», yəni əgər ilin fəsli, hava şəraiti, həmçinin zamanla bağlı müxtəlif əlamətlər uğur vəd edirsə,- yalnız bu zaman hökmdar yürüşə çıxır.

Bu cür hərəkətlər qədim dövrlərin bütün dövlətlərində adi hal idi. Buna bənzər hallarda qədim Romada müraciət olunan falları göstərmək kifayətdir. Qədim Çində, fala müraciət edərkən, müəyyən bir siyasi məqsəd də güdürdülər; fala baxmanın köməyilə hökmdar

qarşıdakı müharibədən təşvişə düşmüş əhalini sakitləşdirməyə, görülən tədbirlərə onları inandırmağa, uğur qazanacaqlarına inam yaratmağa çalışırdı. Əlbəttə, bunun üçün falın uğur vəd etməsi tələb olunurdu, ancaq hökmdarlar, əlamətlər arzu edilməyən olduqda belə, nə etməli olduqlarını bilirdilər.

Vey Lyao-tszının belə bir hekayəsi var. Çu şahlığının sərkərdəsi Qun Tszı-sin, Tsi şahlığı ilə müharibə aparırdı. Elə döyüşdən əvvəl səmada, quyruğu Tsi tərəfə yönəlmiş kometa göründü (çinlilər kometanı süpürgəyə oxşadırdılar). Belə bir inam vardı ki, tutacağın yönəldiyi tərəf qalib gəlməlidir. Buna görə Qun Tszı-sinə dedilər ki, döyüşə başlamaq olmaz. O, buna belə cavab verdi: «Kometa...O nə bilir axı? Kim ki, süpürgə ilə döyüşür, əlbəttə, onun tutacağını döndərir və qalib gəlir». Ertəsi gün o, tsinlərlə döyüşdü və onları darmadağın etdi (bax Vey Lyao-tszı, I f.). Vey Lyao-tszı bu hekayəni, qədimlərin hökmdarı olmuş Xuan-Dinin sözləri ilə bitirir: «Allahlara, şeytanlara üz tutmazdan əvvəl, öz ağlına xitab etmək lazımdır». Yəqin ki, məhz bu sözləri çin sərkərdələrinin bütün əlamət və fallara həqiqi münasibətlərinin ifadəsi hesab etmək olar. Onlar faldan istifadə edirdilər, ancaq özünəməxsus şəkildə. Bu haqda Li Vey-qunun «Dialoqa»larında maraqlı danışılır.

Bu «Dialoqlar»da nağıl edildiyi kimi, imperator Tay-tszun (m.ö.. 627-650) sərkərdəsi Li Vey-qundan soruşur: «İn Yan[14] *haqqında təlimi, həmçinin fala baxma və dua etmələri qəbul etməmək olarmı?». Li Vey-qun cavab verdi: «Yox! Müharibə– yalan yoludur...Əgər İn-Yana, fallara və dualara müraciət etsən, onların köməyi ilə insanın tamahkarlığından və axmaqlığından istifadə etmək olar. Buna görə də onları rədd etmək olmaz». (Li Vey-qun venduy: III f.). Buradan belə nəticə çıxır ki, çin sərkərdələri fala, tamahkar və cahil hesab etdikləri əsgərlərinin əhvalına təsir etmək vasitəsi kimi əl atırdılar. Hər halda, Tan imperiyası dövrlərinin sərkərdəsi olmuş Li Vey-qun onları belə hesab edirdi. Sərkərdələr özləri isə, hökmdarlar kimi, yəqin ki, Vey Lyao-tszının sözlərində ifadə olunmuş fikirlərə tərəfdar idilər: «Əgər ağıllı adamları cəlb etsən və onları bacarıqlarına uyğun işə təyin etsən, çox vaxt keçməz, işə xeyirləri olar. Əgər düzgün əmrlər versən və ədalətli qanunlar çıxarsan, hər hansı fal və ovsunsuz da işlərində uğur qazanarsan. Əgər xidmətlərinə görə yüksəltsən və əməklərini mükafatlandırsan, dualarsız da xoşbəxtlik əldə edərsən» (Vey Lyao-tszı, IV f.. səh.15).*

İkinci hissə

Birinci fəslin ikinci hissəsində U-tszı, onun fikrincə, həyat tərzinin yol göstərən qanunları, insanın hər cür fəaliyyətinin əsası olan bir sıra müddəaları bəyan edir. Bu zaman, qədim Çin fəlsəfi

---

[14] *kainatın əsasını təşkil edən iki əks başlanğıcın mübarizəsi haqqında qədim çinlilərin dualist görüşləri.*

fikrinin ən sabit cərəyanlarından birinə müvafiq olaraq, bu müddəalar insanın ictimai fəaliyyətini nəzərdə tuturlar.

U-tszının insandan tələb etdiyi birincə şərt– «Yola» riayət edilməsidir. Bu, hər bir çinli mütəfəkkirin xüsusi məna verdiyi sözdür, traktatın bu yerində U-tszı, insanın getməyə dəvət olunduğu yolu, «onun Göylərdən aldığı» yolu göstərir.

Lakin, bu «yolu», insan üçün göylərdən müəyyən edilmiş bir şey kimi başa düşmək lazım deyil. Söhbət, insan təbiətinin özünün müəyyən etdiyi və deməli, tək insana yox, həm də bütün «əşya və hadisələrə», yəni varlığın bütün elementlərinə aid olan «yoldan» gedir. Hər bir cisim, hər bir hadisə öz təbii spesifikasına malikdir: belə spesifikaya sayəsində cisim elə özü olur. Təbii, buna görədir ki, həyat, cismin və ya hadisənin inkişafı, elə bu spesifikanın açılmasında və həyata keçirilməsindədir. Bu elə «Yola riayət edilməsi» adlanır. Lyu İn belə də deyir: «Yol– hər bir maddə və hadisənin təbii qanunudur; bu bütün adamların riayət etməli olduqları haldır».

U-tszı belə bir düstur verir: «Yol, ilk əsasa dönməyə və başlanğıca qayıdışa səbəb olandır». Bu sözlərlə, U-tszının, «Yola riayət edilməsi», yəni öz təbiətinə riayət edilməsinin, insan təbiətinin özündə olan «təbii qanunu» yorulmadan açmaqda olmasını demək istəməsini başa düşmək çətin deyil. Bir halda ki, bu cür qanun insan təbiətində lap başlanğıcdan qoyulub, onda, «təbii qanunun» açılması, Lyu İnin dediyi kimi, «Göydən alınan» qanun olan «ilk əsasa dönmə və başlanğıca qayıdışdan» başqa bir şey deyildir. Çində fəlsəfi fikir tarixində «Göy» anlayışına çox halda bizim «təbiət» məfhumuna verdiyimiz məna verilir; buna görə «Göydən alınmış» «təbiətdən alınmış»a bərabərdir. İnsanın bütün fəaliyyəti sosial planda baxıldığı üçün, «təbiətdən alınmış» anlayışı «insanın sosial təbiəti ilə şərtləndirilmiş»lə eyni mənadadır.

U-tszı özü, hansı «təbii qanunu», yəni, insanın sosial təbiətinin hansı qanunu nəzərdə tutduğunu izah etmir. İzahı Lyu İn verir.

Məlumdur ki, U-tszının vaxtında Çin ictimai fəlsəfəsində artıq möhkəm formalaşmış «beş ictimai münasibət» haqqında təlim mövcud idi. Bu fəlsəfi nöqteyi-nəzərdən, insan təbiəti, onun ictimai sistemdə tutduğu mövqe ilə müəyyən edilir. Qədim Çin mütəfəkkirləri hesab edirdilər ki, bu sistemdə üç sosial üsul fəaliyyət göstərir: ailə, cəmiyyət, dövlət. Ailə ər və arvad, valideynlər və uşaqlar, böyük və kiçik qardaşlardan yaranır. Cəmiyyət ayrı-ayrı üzvlərdən ibarət olur. Dövlət idarə edən və idarə olunanlardan ibarət olur.

Bu üç sosial sistemin hər birinin fəaliyyəti, onun tərkibinə daxil olanların münasibətləri ilə müəyyən olunur; hər bir münasibət isə öz xüsusi mahiyyətinə malikdir ki, bu xassənin açılması, yəni insanın real fəaliyyəti, elə «ilk əsasa dönmə və başlanğıca qayıdışdır».

İctimai münasibətlərdən hər birinin qanunları necədir? Ailə daxilində valideynlər və uşaqların münasibət qanunları qohum sevgisidir, ərlə arvadın münasibət qanunu– vəzifələrin müstəqilliyi; böyük və kiçik qardaşların münasibət qanunu– yaşa görə böyüklük nizamıdır. Cəmiyyət daxilində onun üzvlərinin münasibətləri, çin terminologiyasına görə, qarşılıqlı etibar üzərində qurulmuş münasibətləri bildirən «dost» münasibətləri kimi xarakterizə olunur. Dövlət çərçivəsində idarə edənlə idarə olunanların münasibətləri borc qanunu– hökmdarın öz təbəələrinə münasibətdə borcu və vətəndaşların öz hökmdarına münasibətdə borcu üzərində qurulur.

U-tszıya görə, «Yolun» əməl edilməsi məhz bütün bu qanunları gözləməkdən ibarətdir. Buna görə, Lyu İn deyir: «İnsan bu və ya digər mövqeni tutduğu vaxt, vəziyyətə uyğun olaraq öz ilk mənbəsinə yönəlirsə və lap əvvəldən Göydən aldığı qanuna qayıdırsa, bununla onun (insanın– N.K.) Yolu sona qədər tamam olur.

İnsan fəaliyyətini idarə edən ikinci prinsip, U-tszının fikrincə, borcdur. Lyu İn bu prinsipi belə izah edir: «Borc öz ürəyini idarə etməkdir, öz hərəkətlərinin məqsədəuyğunluğudur». Qədim Çin fəlsəfəsindəki bu konsepsiyanı Lyu İn də izləyir: «Borc», şəxsi görüşlər və emosiyalar deyil, lazım olan prinsipə tabe olan, yəni, vəziyyətin tələb etdiyi, məhz bu vəziyyətdə əlverişli olan hərəkətlərdir. Bu hərəkətlər məhz onları etmək lazım olduğu vaxt həyata keçirilir. Şübhəsiz, borcu belə başa düşdükdə, U-tszı deyə bilərdi: «Borc– hərəkətlərin yerinə yetirilməsinə və nəticə əldə etməyə səbəb olandır».

Beləliklə, fəaliyyətin və hərəkətlərin effektivliyi «borc» vasitəsilə, bu prinsipin qeyd olunan anlamında əldə edilir. Ancaq uğursuzluqlardan, zərərli nəticələrdən qoruya biləcək daha bir fəaliyyət və davranış tənzimləyicisi də tələb olunur. U-tszı bu cür nizamlayıcını mühakiməli olmaqda, məqsədə nail olmaq üçün hər şeyi ölçüb-biçmək və qiymətləndirmək bacarığında görür. O, deyir:

«Mühakiməli olmaq– ziyandan uzaqlaşmağa və xeyir əldə etməyə səbəb olandır».

Nəhayət, bir şey də tələb olunur: fəhmlilik– hər şeydə ən zəruri, ən vacib olanı ayırd etmək bacarığı. Bu, U-tszının dediyi kimi, «işi müdafiə etmək və görülmüş işləri qoruyub saxlamaq» üçün lazımdır.

İnsan fəaliyyətinin bu dörd qanununa əməl edilməsi insanın bütün hərəkətlərinin təbiiliyinə, onların məhsuldarlığına, əldə edilmiş nəticələrin davamlılığına səbəb olur. Bu zaman birinci iki qanun «Yol» və «borc» xüsusi əhəmiyyət kəsb edir, çünki məhz onlar insan təbiətində kök salmışlar. «Əgər insanın fəaliyyəti Yolla, hərəkətləri isə borcla uyğun gəlmirsə, onda, qoy bu adam lap elə böyüklərin, məşhurların arasında olsun, onsuz da bədbəxtlik mütləq onu haqlayacaq»,- U-tszı belə iddia edir.

Qədim Çin mütəfəkkirləri qanunların üç növünü ayırırdılar. Bir qanun– «əşyaların qanunudur», yəni, məlum cisim və hadisənin təbiətinə xas olan. İnsanın varlığında, ailə, cəmiyyət, dövlət üzvü kimi insanın təbiətində kök salmış yuxarıda göstərilmiş başlanğıclar bu qanunlardır. Başqa qanunlar– insanın ailədə, cəmiyyətdə, dövlətdəki davranışını nizamlayan «normalar»dır. Bu cür normalar həddən çoxdur, çünki insanın mütəşəkkil insan cəmiyyətində mövqeyi olduqca çox çeşidli və elə cəmiyyətdə adamların qarşılıqlı münasibətləri çox müxtəlifdir. Qanunların üçüncü növü– «dövlət qanunları»dır, yəni, adamlar tərəfindən adamlar üçün yaradılan və məcburi qaydada riayət olunması üçün təqdim olunan qanunlar. I fəslin ikinci hissəsinin əvvəlində görünən fikirlərinin gedişatına sadiq qalaraq, U-tszı «Yol» və Borc haqqında danışdıqdan sonra, insan cəmiyyətində qüvvədə olan normalardan söhbət açır. Sonunda o, hər bir insanın hərəkətlərini idarə edən prinsipləri xatırladır.

Bu prinsip– humanistlikdir, yəni, «Giriş»də də sözü gedən haldır. U-tszının dövründə, sonralar Çində bütün fəlsəfi fikir tarixindən keçmiş daha bir təlim artıq tamamilə təşəkkül tapmışdı: «Kamil insan» (şenjen), ideal insan şəxsiyyəti haqqında təlim.

«Kamil», cisimlərin təbiəti, «Yol» ilə tam qarışan, varlığın qanunauyğunluğuna tam müvafiq hərəkət edən insan sayılır. Buna görə, özünün göstərdiyi prinsiplərə uyğun hərəkət etməyi göstərməyə çalışaraq, U-tszı belə bir ideal şəxsiyyətin hərəkətlərini misal gətirir: «Kamil insan Yol vasitəsilə adamları xeyrə çatdırır, Borc vasitəsilə onları idarə edir, normaların köməyilə onların fəaliyyətlərinə rəhbərlik edir, humanistlik yolu ilə onları cəlb edir».

Bu cür hərəkətlərin əhəmiyyəti çox böyükdür.

«Bu dörd məziyyət həyata keçirildiyi yerdə– yüksəliş; onların rədd edildiyi yerdə tənəzzül var»,- U-tszı deyir və dərhal, onun fikrincə, «kamil» olan iki adamın hərəkətlərini misal gətirir.

Çin istorioqrafiyasının ənənəvi, hələ qədimlərdə yaranmış konsepsiyasına əsasən, məsələ aşağıdakı kimi təsvir olunur.

Çox qədim zamanlarda Çinin ərazisində Sya dövləti mövcud idi. Əvvəllər, müdrik hökmdarların başçılıq etdiy bu dövlət çiçəklənirdi, lakin sonralar, bir-birinin ardınca bu ölkədə axmaq hakimlər peyda olmağa başladılar. Nəhayət, əsl qaniçən olan, xalqa amansızcasına zülm edən Tsze meydana çıxdı. Xalq üsyan qaldırdı. Qoşun başçılarından biri müdrik Çen Tan onu devirdi və öldürdü.

Çen Tan özünün qanuni hökmdarını öldürmüşdü; deməli, o, cinayət işləmişdi. Lakin xalq, U-tszının ifadə etdiyi kimi, şadlıq etdi. Nə üçün? U-tszı bunu belə izah edir: çünki Çen Tanın hərəkəti «Göylərin hökmünə və adamların arzularına» cavab verirdi.

Çen Tan özü taxtdan salınmış hakimin yerində oturdu və təzə İn dinastiyasının əsasını qoydu. Dövlət yenidən çiçəklənməyə başladı. Lakin yenə də axmaq hökmdarlar ortaya çıxmağa başladılar, ən sonda isə əsl yaramaz Çjou Sin taxta çıxdı. Yenə xalq zülmkara

qarşı ayağa qalxdı. Üsyançılara müdrik knyaz U-van rəhbərlik edirdi. Çjou Sin devrildi və öldürüldü. U-van da cinayət işləmişdi, ancaq «İn sakinləri onu qınamadılar». Nə üçün? Çünki öz hərəkətlərində U-van «Göylərin hökmünə və adamların arzularına riayət etmişdi». U-tszı, «Elə buna görə də onun bu işi görə bildiyini» izah edir.

Qədim dinastiyaların bir-birini əvəz etməsini izah etmək iqtidarında olan, xalqın öz hökmdarını devirmək hüququ haqqında təlim forması almış bu konsepsiyanın hansı mühitdə və hansı ictimai təbəqələrdə yarandığı tarixi nöqteyi-nəzərdən tamamilə aydındır.

U-tszıya qədər Çində artıq bir neçə yüzilliklər ərzində müxtəlif iri və xırda şahlıqların mübarizəsi baş vermişdi. Bununla yanaşı şahlıqların daxilində daim mübarizə gedirdi, özü də dəfələrlə olmuşdu ki, əyanlardan biri öz hökmdarını devirmiş və onun yerini tutmuşdu. U-tszının müsahibi özü– Vey knyazı– keçmişdə böyük və qüdrətli Tszin şahlığının əyanlarından biri olmuşdu. Vey knyazının qonşuları olan, traktatdan göründüyü kimi ona hədə-qorxu gələn Çjao və Xan şahlıqlarının hökmdarları da, keçmişdə Tszin şahlığında əyan olmuşdular.

Daxili müharibələr nəticəsində bu şahlıq üç ayrı-ayrı ölkəyə bölündü.

Beləliklə, o vaxtlar şöhrətpərəst və bacarıqlı siyasətçi və ya qoşun başçısı hakimiyyəti ələ keçirmək haqqında fikirləşə bilərdi. Öz hökmdarlarını devirmək haqqındakı təlim elə bu adamların əlində ideologiya silahı oldu.

Üçüncü hissə

Ümumi məsələlərdən U-tszı özünün birbaşa mövzusuna müharibə haqqında təlimə keçir. Dövlət və xalqı idarə etməyin ümumi qaydaları, onun dediyi kimi, dörd «məziyyətdir». «Yol», ədalət, qanun və humanizm.

Dövləti idarə etmədə olduğu kimi, ordunun idarə edilməsində də ən əsası– adamları tərbiyə etməyi bacarmaq onları müəyyən davranış sisteminə alışdırmaq, onları ruhlandırmaqdır. Fikrini U-tszı bu sözlərində ifadə edir: «Dövlətə başçılıq edərkən və ordunu idarə edərkən, ictimai normaları öyrətmək, borc hissi ilə ruhlandırmaq, şərəf hissi təlqin etmək lazımdır».

Dövləti və ordunu idarə etməyə aid olan bütün fikirləri, U-tszı axırda yalnız müharibədə qələbəni təmin etməli olan şərtlər kimi verir. Qələbə müharibənin məqsədidir, «ancaq, döyüşərək (yəni, hücum edərək– N.K.) qələbə çalmaq– asandır; müdafiə olunaraq qalib gəlmək– çətin». U-tszı bütünlüklə hücum xarakterli müharibə mövqeyindədir. Bu barədə o, daha çevik taktikanı tövsiyə edən sələfi Sun-tszıdan fərqlənir: «Əgər sənin qüvvən beş dəfə artıqdırsa (düşmənə nisbətən), ona hücum et; əgər sənin qüvvən iki dəfə çoxdursa, onu hissələrə ayır; əgər qüvvələr bərabərdirsə, onunla döyüşməyi bacar; əgər qüvvən azdırsa, ondan müdafiə olunmağı

bacar; əgər sənin, ümumiyyətlə, nəyinsə düşməndən zəifdirsə, ondan yayınmağı bacar» (Sun-tszı, III f., 4 b.).

Bundan əlavə, Sun-tszı hücum və müdafiənin mahiyyəti və qarşılıqlı əlaqəsi haqqında məsələni özünəməxsus tərzdə irəli sürür (IV f., 1-2 b.). Müdafiəyə aktiv fəaliyyət kimi, zəiflik yox güc əlaməti kimi baxır.

Bu barədə U-tszı daha sadə və birbaşadır, lakin, Sun-tszı kimi, o da hərbi qələbələrə aludə olmaqdan çəkindirməyi vacib hesab edir. Sun-tszı təlimində əsas yeri uzun sürən müharibələrin arzuolunmazlığı fikri tutur.

O: «Hələ heç vaxt elə olmayıb ki, müharibə uzun çəksin və bu da dövlətə xeyirli olsun»,- deyir. (Sun-tszı, II f., 6 b.). «Əgər müharibə aparırlarsa və qələbə yubanırsa– silahlar kütləşir və tiyələri qırılıb tökülür». (Sun-tszı, II f., 3 b). Sun-tszının traktatındakı bu və buna bənzər aforizmlər, onun uzun sürən müharibənin təhlükəli olduğu haqqında fikrini aydın ifadə edir. U-tszı da, həmçinin hesab edir ki, müharibələr nə qədər çox olsa, lap elə qalibiyyətli müharibə olsun, ölkə üçün bir o qədər pisdir. Bu fikir onda, hətta bir az paradoksal şəkil alıb: « qələbə nə qədər az olsa, bir o qədər yaxşıdır». O, hətta qələbənin özünəməxsus hesabını göstərir: «Kim beş dəfə qalib gələrsə, ona bədbəxtlik üz verir; kim dörd dəfə qələbə çalsa, o zəifləyir; kim üç dəfə qələbə çalır, o, knyazlar arasında birinci olur; kim iki dəfə qalib olsa– Van olur; kim ki, bir dəfə qələbə çalır– baş hakim olur». Bu tiradadakı sayları, əlbəttə ki, qələbələrin sayının nisbətən çox və ya az olmasına ümumi işarə kimi başa düşmək lazımdır. Əsas olan başqa şeydir – qələbələrin bu və ya digər saylarının müxtəlif nəticələrinin göstərilməsi. Əgər daim müharibələr aparılırsa, o zaman, hətta həmişə qələbə çalındıqda belə bu dövlətə elə baha başa gəlir ki, dövlət özü fəlakət qarşısında qalır; qalibiyyətli belə olsa, çoxsaylı müharibələr, əlbəttə ki, nəhayətsiz, müharibələrdən yaxşıdır, ancaq bu halda da dövlət zəifləyir. Müharibə və qələbə nə qədər az olsa, bir o qədər yaxşıdır. Ağıllı hökmdar az döyüşür və bununla da, dövlətinin gücünü qoruyur; bu ona baqalın – hegemon-knyaz, yəni knyazlar şürasının başçısı yerini tutmaq imkanı verir. Hökmdar daha da ehtiyatlı davranıb, mümkün qədər az döyüşməyə çalışırsa, onun dövlətinin gücü müharibələrdən yorulmuş başqa dövlətlərlə müqayisədə o qədər artacaq ki, o asanlıqla van, yəni qüdrətli çar yerini elə keçirir. Nəhayət, ən böyük mövqeyə o kəs nail olur ki, o müharibəyə bunun qətiyyən qaçılmaz olduğu halda başlayır; belə hökmdar di, yəni ali hakim yerini tuta bilər.

«Tez-tez qələbələrlə Dünyaya sahib olanlar azdır, ancaq, bu qələbələrdən həlak olanlar çoxdur»,- U-tszı, öz fikirlərini müsahibinə belə qəti xəbərdarlıqla tamamlayır.

Dördüncü hissə

Fəslin növbəti hissəsində müharibələrə bais olan səbəblər sadalanır, müharibələrin təsnifatı verilir.

U-tszının fikrincə, bəzi hallarda müharibələr hökmdarın şöhrətpərəstliyi üzündən başlanır; Lyu İnin izahatına görə– hansısa bir hökmdarın knyazların iyerarxiyasında daha yüksək mövqe tutmaq cəhdi üzündən.

Digər hallarda müharibəni mənfəət üçün, Lyu İnin dediyi kimi, «torpaqlar və üzərlərinə vergilər qoyulması mümkün ola bilən adamlar əldə etmək məqsədilə başlayırlar». U-tszı deyir ki, müharibələr düşmənçilik üzündən də başlaya bilər; Lyu İn bunu belə izah edir: «hökmdarlar və onların yaxın xidmətçiləri arasında». Ölkədə daxili qarışıqlıqlar- çəkişmələr, üsyanlar yarandığı vaxt da başlaya bilər; bu isə qonşu hökmdarı bu ölkəyə hücum etməyə sövq edə bilər. Ölkədə aclıq olduqda, «xalq yorulub əldən düşdüyü, vəsaitlər tükəndiyi» vaxt da hücum ola bilər, Lyu İn izah edir.

Müharibənin müxtəlif növlərinə U-tszının verdiyi adlar onu göstərir ki, o, müharibələrə onların əsaslandırılması və ədalətliyi nöqteyi-nəzərindən yanaşır. Sadaladığı beş müharibə növündən yalnız, ya xalqına zülm edən tiran-hökmdarlara qarşı, ya da «zorakılıq» müharibəsi aparan istilaçıya qarşı müharibəni ədalətli adlandırır. Deməli, U-tszı üçün, Çen Tan və U-vanın öz hökmdarlarına qarşı qaldırdıqları üsyanlar, qiyam deyil, ədalətli müharibələrdir, çünki Tsze-van və Çjou Sin qəddar tiranlar idilər.

Güclü və böyük orduya malik olan hər hansı bir dövlətin yad ərazini ələ keçirməyə cəhd etdiyi istilaçı müharibələri U-tszı «işğalçı» müharibələr adlandırır. U-tszı dövründə, yəni, m.ö.

IV əsrdə həddən artıq güclənən və özünün hökmranlığını başqa çarlıqlar üzərində yaymağa can atan Tsin çarlığının apardığı müharibələr bu nöqteyi-nəzərdən belə müharibələrdəndir. Məlumdur ki, bu müharibələr Tsinin bütün Çin üzərində hökmranlığının bərqərar olması və m.ö. 221-ci ildə Tsin imperiyasının yaranması ilə başa çatdı.

Hökmdarın şəxsi bəhanələri səbəbindən, məsələn, nə vaxtsa ona qarşı olmuş təhqirə görə intiqam almaq arzusu ilə başlanan müharibələri U-tszı «şəxsi» müharibələr adlandırır. Tszin şahlığının hökmdarı Tsis hökmdarının anası tərəfindən təhqir edildiyinə görə, Tszin şahlığının Tsi dövlətinə qarşı başladığı müharibə o dövrün məhz «şəxsi» müharibəsi sayılırdı. U-tszı zəbt etmək və qarət etmək məqsədilə aparılan müharibəni «Zorakılıq müharibəsi» adlandırır. U-tszının şərhçilərinin fikrincə, o vaxt

U şahının Yue şahına qarşı apardığı müharibə belə müharibə idi: U hökmdarı fikirləşdi ki, Yue hökmdarının ölümü ilə əlaqədar bu ölkədə yaranmış vəziyyət, asanlıqla ölkəni ələ keçirməyə imkan

verər və buna görə qoşunlarını Yue şahlığı üzərinə yeritdi. U-tszının «özünə qarşı müharibə» adlandırdığı xalqa qarşı müharibə onda baş verir ki, hökmdar ölkəsinin müflis olması və əhalinin vəziyyətinin pis olması ilə hesablaşmayaraq, hərbi əməliyyatlara başlayır. Lyu İn bunu «Göylərin yoluna, xalqın istəklərinə qarşı» müharibə adlandırır. Onun şərhçilərinin fikrincə, öz ölkəsi müflis olduğu halda U şahının hökmdarı Fu Çanın Tsi və Tszin şahlığına qarşı apardığı müharibə belə müharibə idi.

Bu müharibələrdən danışaraq, U-tszı hücuma məruz qalmış dövlətlərə necə hərəkət etmək, təhlükədən necə yayınmaq, bu təhlükəni «aradan qaldırmaq», yəni öz dövlətini necə xilas etmək haqqında göstərişlər verir.

Əgər tiranın hökmranlığı üzündən ədalətli müharibə başlanıbsa, bu tiran fikrindən dönməli, öz günahını başa düşməli və doğru yola qayıtmalıdır. Belə olduqda hücum edənlərin hərəkətlərinin heç bir əsası olmur və müharibə öz-özünə qurtarır. Əgər dövlət güclü düşmənin hücumuna məruz qalıbs və bu düşmənə layiqi müqavimət göstərmək haqqında heç düşünməyə dəyməzsə, ölkəni «itaət» göstərməklə xilas etmək olar. Bu yolla ikitərəfli nəticə əldə etmək olar: sən işğalçıya itaət etməklə, öz qüvvələrini qoruyub saxlayırsan; düşmən isə bu halda lovğalanacaq və öz zəif tərəflərini aşkar edəcək. Bu zaman fürsəti gözləyərək, onun öhdəsindən asanlıqla gəlmək olar. Lyu İn U-tszının «itaət» haqqında məsləhətini belə şərh edir. Şəxsi incikliklər səbəbindən başlanmış müharibəni «məharətli nitqlə», yəni diplomatik yolla aradan qaldırmaq olar. «Zorakı müharibə mütləq yalanla dayandırılır»,- U-tszı deyir. Çox güman burada, Sun-tszının traktatında söz açdığı yalan, yəni hərbi hiyləgərlik nəzərdə tutulur. Öz xalqına qarşı, ölkəsindəki vəziyyəti nəzərə almayaraq xalqının istəyinə zidd olaraq müharibəyə başlamış hökmdarın öhdəsindən gəlmək çətin deyil: belə hökmdarın ordusu etibarlı ola bilməz və birinci zərbədən darmadağın ediləcək.

Beşinci hissə

Birinci fəslin bu hissəsindən başlayaraq, çox kiçik istisnalar olmaqla, qalan hissələr sual-cavab formasında qurulub. Sualı knyaz verir, cavabı isə sərkərdə. Adətən, sual çox qısa formada təklif olunur, cavab isə olduqca genişdir.

Beşinci hissənin mövzusu sual formasında ifadə edilir. «Ordunu necə idarə etmək, adamları necə qiymətləndirmək və öz dövlətini necə möhkəmləndirmək lazımdır?»

Cavab formasında təqdim edilmiş fikirlərin gedişatı, hər şeydən əvvəl o dövr xadimlərinin mövcud olan rejimin saxlanmasına necə əhəmiyyət verdiklərni göstərir:

U-tszının cavabında, hökmdarlar və təbəələr, yuxarıdakılar və aşağıdakılar arasında lazımi münasibətləri gözləməyin vacibliyi haqqında sözlər vardır. Zaman etibarilə U-tszının traktatına yaxın

olan, hərb sənəti haqda başqa bir elmi əsər olan «Sım qanunları» (Sıma fa) da bu fikri açıqlayır.

Əsərdə belə bir yer var: «Qədimlərdə hökmdarlar öz xalqını maarifləndirərkən, mütləq əsilzadə və aşağı təbəqələrin möhkəm sarsılmaz bünövrələrini əsas tutar və onların pozulmasına yol verməzdilər. Heç kim ləyaqətli olduğunu gğstərməkdə onun üçün ayrılmış həddi aşmazdı; Heç kimin istedadı başqasının qabiliyyətini kölgədə qoymazdı; Hər kəs öz igidliyi ilə seçilərdi. Buna görə də hər yerdə həmrəylik, hər kəsin fikirlərində yekdilliu vardı (Sıma fa. II f.).

Lakin U-tszının traktatında vacib bir izahat vardır: hökmdarla rəiyyət, yuxarıdakılarla aşağıdakılar arasında münasibətlər hansı vasitələrlə lazımi formada saxlanılır. Bu vasitələr– qanunlar, qaydalar və adətlərdir.

U-tszının bu anlayışları necə işlətdiyindən asılı olaraq, görünür ki, «qanunlar» dedikdə o, hökmdarlar və xalq arasındakı münasibətləri nizamlayan normaları, «qaydalar» dedikdə– sosial bərabərsizlik şəraitində müxtəlif ictimai təbəqələr arasındakı münasibətləri nizamlayan normaları nəzərdə tutur. Ancaq bu normaların effektivliyi bir şərtdən asılıdır: bütün bunlar «adətlərə», yəni ictimai və dövlət həyatının çoxdan təsbit edilmiş qaydalarına uyğun olmalıdır».

U-tszının, öz idarəetməsində hökmdarların istedadlı adamlara arxalanmasının, onları tapıb öz yanında xidmətə cəlb etməsinin vacibliyini göstərməsi də son dərəcə əhəmiyyətlidir. Bu fikrin o vaxt nə qədər populyar olduğunu, məşhur tezis göstərir: «istedadlı adamları seçmək və onları qabağa çəkmək». Bu tezisə sonralar biz az qala bütün qədim və orta əsrlər Çininin tarixi boyu rast gəlirik, həm də dövlət idarəetməsinin əsas prinsiplərindən biri kimi. Şübhəsiz, bu tezis ali hakimiyyətin həqiqi praktikasını, hökumətə lazımlı adamların seçilməsi prinsipi üzərində təsis edilmiş praktikanı riyakarcasına himayə edən vasitələrdən biri oldu. Ancaq U-tszının vaxtında bu tezis hələ, rejimi möhkəm və tarixən bəraət almış qanunlarla nizamlanan idarə etməsi isə bacarıqlı və istedadlı adamlar tərəfindən həyata keçirilən böyük dövlət arzusunda olan ictimai dairələrin döyüş şüarı idi.

U-tszı, m.ö. VII-VI əsrlərdəki hadisələrə müraciət edərək, ən yaxşılarının seçilməsi prinsipini, ordunun yaradılmasında yolgöstərici üsul kimi irəli çəkir. Bu zaman çoxsaylı ölkələr arasında beş iri dövlət– Tsi, Tszin, Sun, Tsin və Çu şahlıqları seçilirdi.

Bu şahlıqların hökmdarları ba– «hegemonlar» olmuşdular.

U-tszı bu hegemonlardan üçünü– Tsi hökmdarı Xuan-qunu, Tszin şahı Ven-qunu və Tsin hakimi Mu-qunu xatırlayır. Onlar nə ilə güc və qüdrətə müvəffəq olmuşdular? U-tszı, bir sərkərdə kimi, təbii ki, onların seçmə hissələrdən təşkil olunmuş güclü orduları olduğunu göstərir.

U-tszı kimi orduya götürməyin lazım olduğunu göstərir: birincisi, ruhən və cismən güclü olan cəsur və mətin adamları; ikincisi, igid və sədaqətli adamları; üçüncüsü, sağlam və dözümlü adamları. Fiziki və mənəvi keyfiyyətlərinə görə seçim prinsipi belədir. Ancaq U-tszı şəxsi səbəbləri üzündən var qüvvəsi ilə döyüşəcək kəsləri də ordu üçün qiymətli material hesab edir. Bunlar, müvəffəqiyyətsizliyə uğramış və ya qəbahət işləmiş və hərbi xidmətləri ilə öz vəziyyətlərini düzəltməyə ümid edən adamlardır.

Sonuncu fikir də U-tszı üçün xarakterikdir: «Əgər üç min belə adamın olarsa, içəridən çıxaraq, düşmənin mühasirəsini yarmaq, xaricdən soxularaq onun qalasını təslim etmək olar». U-tszı ordunun sayının deyil, onun heyətinin keyfiyyətini daha vacib amil hesab edir.

Bu fikrə Çinin qədim strateqlərinin çoxu şərikdir. «Lyu tao» traktatı bu fikri daha müfəssəl şərh edir. U-tszı kimi, bu traktatın müəllifi də seçmə hissələri necə adamlardan təşkil etmək məsələsinə baxır və bu seçim üçün on bir əlamət müəyyən edir. Orduya, qoçaq və güclü, ölüm və yaralardan qorxmayan; çalışqan və igid, həddən artıq güclü; cərgəni yaxşı saxlaya bilən; böyük fiziki qüvvəyə malik olan; yerişi iti; öz əvvəlki günahlarını yüngülləşdirmək istəyən; düşmənin öldürdüyü sərkərdənin qohumları; kasıbçılıqdan narazı olan və müharibədə öz vəziyyətini düzəltməyə ümid edən; fərqlənməyə can atan və bununla da aşağı mövqedəki vəziyyətindən çıxmağa çalışan şəxsləri; cəzadan azad edilmiş cinayətkarları; çətin və məsul tapşırıqlar verilə biləcək istedadlı və bacarıqlı adamları götürmək lazımdır. (Lyu tao, Tsyuan tao, III f.). Bu siyahıdan görünür ki, «Lyu tao»nun müəllifi də, U-tszı kimi, seçim vaxtı seçilənlərin həm fiziki keyfiyyətlərinə, həm də mənəvi xüsusiyyətlərinə, şəxsi təşəbbüslərinə, psixologiyalarına əsaslanmağı tövsiyə edir. Ordunun azsaylı, ancaq seçmə heyətli olması prinsipini Vey Lyao-tszı da qəbul edir. O, fikrini özünəməxsus lakoniklik və qətiyyətlə belə ifadə edir: «Əmrləri yerinə yetirməyən bir milyondansa, on min döyüşkən əsgər yaxşıdır; on min, sadəcə, döyüşən əsgərdənsə, yüz nəfər qızğın surətdə vuruşan yaxşıdır» (Vey Lyao-tszı, XXXIV f.).

Altıncı hissə

Birinci fəslin altıncı hissəsinin mövzusu sual formasında ifadə edilib: necə etmək lazımdır ki, ordunun döyüş mövqeyi həmişə möhkəm, müdafiə həmişə dayanıqlı olsun, döyüş isə həmişə qələbə qazandırsın? Bu mövzunun mühakiməsində biz U-tszıdan hərbi nizam-intizam göstərişləri verməyi gözləyə bilərdik; ordu necə təşkil edilməlidir, uğurlu müdafiəni təmin etmək üçün hansı mövqeni tutmaq lazımdır, döyüşdə hansı taktikanı seçməli.

Bunun əvəzinə U-tszı yenə dövləti idarə etmək haqqında danışır, yəni fikirlərini sırf siyasi plana çəkir.

Buna görə onun cavabı qısadır: hər şey ölkənin vəziyyətindən, onun necə idarə olunmasından asılıdır.

Mövqelərin möhkəmliyi, yəni ordunun döyüş qabiliyyəti nədən asılıdır?

Hökmdarın adamlara münasibətdə doğru siyasət yeridib-yeritmədiyindən, U-tszının dediyi kimi, onları düzgün «qiymətləndirmək», yəni ən yaxşılarını seçib onları lazım olan yerdə yerləşdirmək bacarığından asılıdır.

Buna görə, U-tszı yenə adamların düzgün istifadə edilməsi fikrinə qayıdır, ancaq əvvəlki qeydindən fərqli olaraq, burada o, adamların məlum ictimai quruluşda onlara verilmiş funksiyalara müvafiq deyil, onların şəxsi keyfiyyətlərinə– istedad və bacarıqlarına uyğun yerləşdirilməsindən danışır. Vey Lyao-tszı da bu barədə danışır:

«Əgər adamları yüksəltsən və bacarıqlı olanlardan istifadə etsən, çox keçməz işlərdə xeyir taparsan» (Vey Lyao-tszı, IV f.). «San lyue» traktatı da həmin bu fikri irəli sürür; o da ağıllılara arxalanmağın vacibliyindən danışır, ancaq bunu, ümumiyyətlə, xalqa söykənməyin mühüm olduğu ilə birləşdirmək lazımdır: «Dövləti idarə etməyin yolu müdrklərə və xalqa arxalanmaqdadır. Əgər müdriklərə öz ağlın kimi inansan, əgər xalqı öz əlin və ayağın kimi idarə etsən, bununla dövləti idarəetmə bütünlüklə bitəcək». Belə olduqda, «hara getsəniz də, hər yerdə gövdə və ətrafların bir-birindən ayrılmaz olduğu, sümük və əzələlərin bir-birinə kömək etdiyi bədəndə olduğu kimi olacaq; Göylərin Yolunun öz-özünə təbiiliyi, azacıq da olsa qüsur olmayan mükəmməl qanunauyğunluq yaranacaq».

U-tszının, ölkənin özünü möhkəm qorumasına necə nail olunması sualına verdiyi cavab daha geniş məna kəsb edir. U-tszının fikrincə, bunun üçün ölkədə elə şərait yaratmaq lazımdır ki, xalq özünü əməyinə və işinə hər cür qəsd edilməsindən uzaq, sakit və təmin olunmuş hiss etsin. Xalq hökümət nümayəndələrinə düşmənçilik deyil, xoş hisslər bəsləsin. O zaman «müdafiə artıq özü möhkəm olacaq». «Xalq öz hökmdarını yaxşı, qonşu dövləti isə pis hesab edirsə, o ölümü və həyatı hökmdarı ilə bölüşəcək və təhlükədən qorxmayacaq»,- U-tszının bu fikrini Lyu İn belə aydınlaşdırır.

Yeddinci hissə

U-tszı ilə eyni dövrdə yaşamış siyasi yazıçı və filosof Sun-tszının (m.ö. 298-238) traktatında belə bir hekayə var.

Vey knyazı U-xoy bir dəfə öz xidmətçiləri ilə məşvərət edirdi. Onların arasında ağlına görə knyazla müqayisə ediləcək biri tapılmadı. Buna görə, müşavirə zalını tərk edərkən knyazın özündən razı görkəmi var idi. O vaxt U-tszı dedi: «Siz Çu şahlığının hökmdarı Çjuan-qun haqqında hekayəti eşitmisinizmi?» Knyaz soruşdu: «Bu nə hekayətdir belə?» U-tszı cavab verdi: «Çu şahlığının hökmdarı Çjuan-qun bir dəfə xidmətçisi ilə məşvərət edirdi və onların arasında ağlına görə knyazla müqayisə ediləcək kimsə tapılmadı. Buna görə

də məşvərət otağından çıxarkən Çjuan-qun çox kədərli idi. Onun xidmətçilərindən olan Şen-qun soruşdu: «Hökmdar! Məşvərətdən sonra görkəminiz qəmlidir. Nə üçün?» Çjuan-qun cavab verdi:

«Mən indi öz xidmətçilərimlə məsləhətləşirdim. Onların arasında elə bir adam tapılmadı ki, ağlına görə mənə bərabər olsun. Buna görə məyusam. Çjuan-xueyin söhbətlərində deyilir:

«Knyaz (Çjuxou) müəllim əldə edirsə– o, şahdır (van); dost əldə edirsə, o– hegemondur (ba); o, inamsızlıqla rastlaşırsa, deməli yalnız mövcuddur; özü özü ilə məsləhət edirsə, o zaman məhv olur». Bax mən də... Mən özüm– ağılsızam, eyni zamanda, xidmətçilərim arasında mənə tay ola biləcək heç kim yoxdur. Məgər mənim dövlətim fəlakət qarşısında deyilmi? Bax elə buna görə də mən bikefəm». Bax belə, hökmdar. Çu hökmdarı Çjuan-qun bundan məyus idi. Siz isə bundan razısınız».

Knyaz U-xoy ayağa qalxıb, U-tszının qarşısında əyildi və dedi: «Sizi, səhvlərimi düzəltmək üçün göylər mənə göndərib». (Sun-tszı, XX f. 32 b.).[15]

U-tszının traktatına daxil edildiyi üçün, görünür, Çjuan-van haqqında hekayə m.ö. IV-III əsrlərdə Çində məşhur olub. Mətnlərin hər ikisi, demək olar ki, eynidir, ancaq fikirlərdən biri Sun-tszıya nisbətən, U-tszının şərhində daha yaxşı verilib: U-tszı hökmdarın məhz necə mürəbbisi olmasını izah edir. Bu «kamil», yəni U-tszının artıq xatırladığı ideal müdrik adam olmalıdır. Həmçinin hökmdarın ağıllı adamı özünə dost etməli olduğu da göstərilir.

Hökmdarın ağıllı adamları öz ətrafına toplamasının vacib olduğu haqda U-tszı əvvəl də danışmışdı, bu onun daimi fikridir. Və bu fikir tək onun üçün xarakterik deyil: o dövr mütəffəkirlərindən çox az adam bu fikri hər hansı bir formada qeyd etmir.

Görünür, sonrakı tarixşünaslığın ***çjutszı*** *və* ***botszya*** *adlandırdığı o dövr adamlarının dünyagörüşünün mərkəzi konsepsiyalarından biri ağlın tərif edilməsidir. Bu məfhumları oxucuya çatdırmaq üçün az-çox uyğun gələn sözlər– «alimlər» və «yazıçılardır». Deməli bunlar, qədim, quldar Çinin, o dövrün bütün maarifini, bütün əqli həyatını özlərində təcəssüm etdirən ziyalılarının nümayəndələri idi. Güman ki, o dövr Çininin ictimai və dövlət həyatında müəyyən dərəcədə bəlkə də şişirdilmiş rollarını bilmələri, öz əsərlərində hökmdarların məhz belə «ağıllı xidmətçilərin» fəaliyyəti ilə qədim şahlıqları tərifləmələrini izah etməyə vadar etmişdi. Məsələn, Xuan-qunun vaxtındakı Tsi şahlıqlarının tərifi onun naziri olmuş Quan Çjunun fəaliyyəti ilə əlaqələndirilir. (m.ö. 685-643) Quan Çjun isə, sadəcə, hökmdar xidmətçisi olan əyan deyildi, o, bütöv bir siyasi-iqtisadi təlimin banisi, yəni sonralar çjutszı və botszya adlandırılanlardan biri idi.*

---

[15] *«Kambun taykey», XV cild.*

Quan Çjunun təliminin əsası bu formulanı verir: «Varlı ölkə, güclü ordu». Ölkənin varlı olması, onun düşündüyü kimi, xalqın qida və geyimdə heç bir çatışmazlığı olmaması ilə izah olunur. Buna nail olmaq üçün hökmdarlar vergi yükünü yüngülləşdirməli və təsərrüfatı inkişaf etdirməlidir. Ölkəni çiçəkləyən vəziyyətə gətirib, güclü ordu yaratmaq üçün Quan Çjun, daima Tsi şahlığına hücumlar edən müxtəlif yad xalqların tayfaları olan «dağ varvarlarını» müvəffəqiyyətlə dəf edə və güclü Çu şahlığına zərbə endirə bildi. Onun vaxtında Tsi şahlığı, o dövrün Çin dövlətlərindən ən güclüsünə çevrildi, hökmdar isə hegemon oldu.

II FƏSİL

Sun-tszının traktatında qoşun başçısından öz imkanlarını və düşmənin gücünü bilmək ciddi tələb olunurdu. Sun-tszının qənaətinə görə, belə bilgilər olduqda hər zaman qələbəyə ümid etmək olar, «əgər onu (düşməni) və özünü bilirsənsə, lap yüz dəfə döyüş, təhlükə olmayacaq»- o, deyir. (III f. 9 b.). Vey Lyao-tszı da xüsusi olaraq «düşmənin qiymətləndirilməsi» haqqında yazır (IV f.). «San lyue» traktatı da bu haqda danışır. Traktatda hərb sənəti haqqında qədim əsərlərdən birindən bu sitat gətirilir: «Müharibənin aparılmasında ən başlıcası– hər şeydən əvvəl düşmənin vəziyyətini öyrənmək, onun anbarlarını gözdən keçirmək, onun azuqəsini nəzərə almaq, onun gücünü və zəifliyini bilmək, onun Səmasını və Torpağını (yəni onun ölkəsinin iqlim və topoqrafiya şəraitini – N.K.) bilmək, onun qorunmayan yerlərini güdməkdir» (San lyue, I f.).

Bütün bu fikirlər, U-tszının traktatının ikinci fəslində açılan söhbətlərə yaxındır. Bu fəsil elə belə də adlandırılıb: «Düşmənin qiymətləndirilməsi haqqında».

Birinci hissə

U-tzının xidmət etdiyi Vey şahlığı, o zaman altı qonşu ölkə tərəfindən mühasirəyə alınmışdı. Çinin o vaxtlar daha qüdrətli olan şahlıqları onunla həmsərhəd idi: Tsin, Tsi, Çu və Yan. M.ö. 403-cü ildə, Vey şahlığı kimi Qədim Çinin iri şahlıqlarından biri olan böyük Tszin şahlığının parçalanması nəticəsində yaranmış iki digər dövlətlər– Çjao və Xan da kifayət qədər güclü ölkələr idi.

Bütün bu dövlətlər bir-birlərindən həm coğrafi şəraitlərinə, həm idarəetmə üsullarına, həm də əhalinin mənəviyyatına görə fərqlənirdilər. Buna görə toqquşma baş verərdisə, onların hər biri ilə mübarizə mütləq özünəməxsus şəkil almalı idi. Elə mübarizənin mümkün şərtlərinin təhlili U-tszıya öz strategiyasının əsas qaydalarını tamamilə aydın meydana çıxarmağa imkan verdi.

Bu strategiyanın ümumi prinsipi– hər bir rəqiblə mübarizənin özünəməxsusluğunun nəzərə alınmasıdır, bunun üçünsə Sun-tszının çox qısa və ifadəli şəkildə dediyi kimi, düşməni tanımaq vacibdir.

Düşmənin tanınması bütöv, dolğun olmalıdır, yəni, onun ordusunun təşkili, onun silahlanması, hərbi qüvvələrinin mövqeyi haqda məlumatlarla kifayətlənmək olmaz; düşmən ölkənin daxili vəziyyətini, onun idarə edilməsinin xarakterini, əhalinin ayrı-ayrı təbəqələri arasında münasibətləri, hətta əhalinin xasiyyətini bilmək vacibdir. U-tszının fikrincə, son nəticədə ordunun sayı, təşkili forması və s. deyil, məhz əhalinin xasiyyəti ordunun döyüş qabiliyyətini müəyyən edir. Buna görə, onun torpaqlarına göz dikən altı dövlətin mühasirəsində nə etmək lazım olduğunu soruşan knyaza cavabında U-tszı belə bir qaydaya tərəfdar çıxır: əvvəlcə mümkün düşmən ölkə əhalisinin xasiyyətlərinin xarakteristikasını verir və bu ölkənin daxili vəziyyətini qiymətləndirir. Bunun əsasında onun ordusunun döyüş qabiliyyətini müəyyənləşdirir, sonra isə, bütün bu verilənlərdən nəticə çıxararaq, hər bir halda hansı taktikaya tərəfdar olmağı göstərir.

U-tszı hər bir xalqın ümumi psixoloji xüsusiyyətlərinə böyük əhəmiyyət verir, hesab edir ki, bu xüsusiyyətlər müəyyən dərəcədə ölkənin daxili vəziyyətini müəyyən edir. Lakin, U-tszının fikrincə, xarakterin xüsusiyyətləri, ancaq ölkənin özünün xüsusiyyətləri və onun daxili vəziyyəti ilə birləşdikdə rol oynayırlar.

O, əlbəttə ki, bunların orduya və onun döyüş qabilliyyətinə aidiyyəti olduğu dərəcədə ölkənin coğrafi mövqeyini və onun iqtisadiyyatını nəzərə alır. Məsələn, Tsi şahlığı haqqında danışarkən, o xüsusi olaraq bu ölkənin ərazisinin dağlıq olduğunu qeyd edir. Çu şahlığı haqqında danışarkən onun ərazisinin geniş olduğunu vurğulayır. Dağlar arasındakı həyat sərt və güclü xarakterli adamlar yaradır və idarə etmənin ciddiliyinə və «bəxşiş və cəzaların» ədalətli olmasına səbəb olur. Ancaq bir-birləri ilə əlaqələri çətinləşdirən dağlar arasındakı həmin həyat ümumilik, həmrəylik ruhunun inkişafına mane olur, «inadcıllığa» səbəb olur. Xasiyyətin bu keyfiyyəti isə, U-tszının düşündüyü kimi, döyüşmək tərzində özünü göstərir: əsgərlər bir-birindən və ümumi cərgədən aralı hərəkət edir, «ayrı-ayrılıqda, hərə özü üçün döyüşürlər».

Ərazinin genişliyi də, həmçinin sakinlərin xasiyyətinə təsir göstərir. Geniş düzənliklərdə yaşayan adamlar, dağ adamlarına xas olan sərtlik və güc ilə seçilmirlər. Elə bu amil düzənlik ərazi sakinlərindən təşkil olunmuş ordunu, dağ adamlarının ordusundan az dözümlü edir.

Bundan əlavə, belə ordunun döyüş qabiliyyətində– söhbət isə Çu şahlığının ordusundan gedir– bu ölkənin idarə edilməsinin xüsusiyyətləri öz əksini tapır. U-tszı bu idarə etməni, həm artıq qarışıqlıq əlaməti, həm də «gurultu», yəni xalqı sakit qoymayan idarənin lazımsız çalışqanlığı əlamətinin daxil olunduğu mürəkkəb məfhum kimi xarakterizə edir. Buna görə Çu şahlığının xalqı «yorulub». Bu hal da həmçinin ordunun dözümlü olmasına mənfi təsir göstərir.

U-tszı iqtisadi faktları da nəzərə alır. Tsi şahlığı haqqında danışarkən o, bu ölkənin zənginliyini vurğulayır. Həqiqətən, başqa şahlıqlara nisbətən, burada istehsalat və ticarət daha çox inkişaf etmişdi; ölkə duz istehsalından, geniş inkişaf etmiş balıqçılıqdan böyük gəlirlər əldə edirdi.

U-tszının fikrincə, bu, ölkənin müdafiə qabiliyyəti üçün arzuolunmayan nəticələrə gətirib çıxarırdı. «Knyazlar və onların xidmətçiləri lovğadırlar və cah-cəlala uyublar, xalqı düşünmürlər». Belə hökmdarlar idarəetmənin lazımi şəkildə təşkil olunmasını təmin edə bilməzlər: «onların idarə etməsi zəifdir»,- U-tszı deyir. Ədalət də ola bilməz: «Donluqlar bərabər deyil». Buna görə təkcə xalq arasında deyil, idarə edənlər arasında da narazılıq var. Əgər beladirsə, orduda həmrəylik ola bilməz: U-tszının obrazlı ifadə etdiyi kimi «onların bir cərgəsində iki ürək var».

Müəllif, həmçinin o dövrdəki Çin dövlətləri arasında ölkənin vəziyyətini də nəzərə alır. Belə ki, Xan və Çjao barəsində o, deyir ki, onlar «ortada yerləşiblər», yəni güclü dövlətlərin arasındadırlar. Qonşular tərəfindən daima hücum təhlükəsi Xan və Çjao sakinlərini silaha alışmış edir, ancaq, eyni zamanda, tez-tez baş verən toqquşmalar onları yorur, onlar müharibəyə həvəssiz gedirlər, komandirlərinə qulaq asmırlar, donluqdan narazıdırlar. Buna görə, «baxmayaraq onların ordusu yaxşı təşkil olunub, ancaq bu ordu istifadə edilə bilməz»,- deyir U-tszı.

U-tszının «düşmənə qiymət verilməsi» məsələsində fikirlərinin gedişatı beladir. Düşmənlə mübarizə strategiyası elə bu qiymətdən irəli gəlir.

Tsinin ordusu kimi, yəni irəlidə etibarlı hissələr, arxadakı bütün kütlənin isə qərarsız olduğu bir orduya qarşı necə hərəkət etməli?

U-tszı düşünür ki, belə olan halda mütləq hər şeydən əvvəl bu etibarlı hissələrin əhəmiyyətini zəiflətmək lazımdır. Bunun üçün onları üç qrupa ayırmaq və hər birini ayrı-ayrılıqda qırmaq lazımdır. Daha sonra qalan kütlənin etibarsızlığını nəzərə alaraq, fasiləsiz təzyiqlərlə onlara təsir göstərmək gərəkdir. U-tszının fikirləşdiyi kimi, bu düşmən ordusunun toqquşmasına gətirib çıxaracaq və o darmadağın ediləcək.

Hər bir əsgərin özbaşına döyüşməyə alışdığı Tsin ordusu kimi bir orduya qarşı necə hərəkət etmək lazımdır? Bu halda U-tszı aldadıb tələyə salma taktikasını təklif edir. O, hesab edir ki, hər kəs özbaşına döyüşdüyü yerdə, nəticə etibarı ilə hər kəs elə özü üçün döyüşür. Buna görə, belə əsgəri hər hansı bir qazancla tovlamaq asandır. «Onların qənimət hərisi olan əsgərləri öz qoşun başçılarından ayrılacaqlar (yəni cərgənin onsuz da sarsılmaz olmayan birliyini pozacaqlar– H.K.). Əgər bundan istifadə edib, onları ayrı-ayrılıqda qovsan, pusqu qurub, lazımi anda zərbə endirsən, onların sərkərdəsini də ələ keçirmək olar».

Çunun ordusu kimi həm çoxsaylı, həm yaxşı təşkil olunmuş, ancaq uzun müddət davam gətirə bilməyən orduya qarşı necə hərəkət etmək lazımdır? U-tszı hesab edir ki, belə düşmənlə həlledici vuruşmaya girmək olmaz. Qısa zərbələr və gözlənilməz hücumlar etməklə onu ancaq daimi gərgin vəziyyətdə saxlamaq lazımdır, böyük döyüşlərdənsə qaçmaq lazımdır.

Yan ordusu kimi orduya qarşı nə etməli? Bu U-tszının dediyi kimi, yaxşı müdafiə olunan və ümumiyyətlə cəsur ordudur. Lakin ordunu təşkil edən Yan şahlığının sakinləri sadəlövhdürlər. Heç bir hiyləgərlikləri yoxdur. Onlarla müharibənin taktikasını elə onların bu xüsusiyyəti üzərində qurmaq lazımdır: elə hərəkət etmək lazımdır ki, düşmən karıxsın, öz rəqibinin hərəkətlərindən nəsə anlaya bilməsin. Məsələn; hücum etmək və dərhal geri çəkilmək, düşmənin hansısa hissəsini qovmaq və qəfildən geri çəkilmək. O zaman «onların böyükləri özlərini itirəcək, kiçiklər isə qorxmağa başlayacaq»- U-tszı deyir.

Xan və Çjaonun, əsgərləri son dərəcə həvəssiz müharibəyə getdiyi ordularına qarşı necə hərəkət etməli? Hər vəchlə onların bu döyüş həvəssizliyini gücləndirmək, müharibəni uzatmaq, onları taqətdən salmaq lazımdır; hücum etməməli və ancaq onların hücumlarını dəf etməli; əgər onlar geri çəkilməyə başlasalar mütləq onları təqib etməli. İkinci fəslin bu hissəsində U-tszı yenə seçmə qoşun yaradılmasının vacibliyini qeyd edir və bu qoşunun təşkilində yararlı olan adamları sadalayır. Bununla o, əvvəl deyilənləri tamamlayır və inkişaf etdirir. (I fəslin beşinci hissəsində) Orada olduğu kimi burada da o adamların fiziki– güc, möhkəm sağlamlıq, iti yeriş, anadangəlmə igidlik və cəngavərlik kimi keyfiyyətlərinə görə seçilməsi haqqında danışır. Burada o, daha bir kateqoriyanı da əlavə edir: silahı məharətlə işlədə bilən adamları.

U-tszı bu hissələri həqiqətən etibarlı etmək üçün bütün tədbirlər görməyi təklif edir. O, hökmdara əsgərlərin ailələrininin hər vasitə ilə qayğısına qalınmasının vacibliyini, fərqlənənləri vaxtında və səxavətlə mükafatlandırmasının və günahı olanların ciddi cəzalandırılmasını buyurur. «Əgər bütün bunları əsaslı sürətdə qiymətləndirə bilsən, onda iki dəfə səndən güclü düşməni darmadağın edə bilərsən»,- U-tszı öz mülahizəsini belə bitirir.

İkinci hissə

Bu fəslin ikinci hissəsi «düşmənin qiymətləndirilməsinə» başqa nöqteyi- nəzərdən baxılmasına həsr olunub. Bu hissədə qiymət obyekti düşmən ordusunun vəziyyəti və müharibə vaxtı özünü aparması, əhalinin orduya münasibəti və nəhayət, qonşu dövlətlərin düşmənin ölkəsinə münasibətidir. Bütün bunların nəzərə alınması, U-tszın fikirləşdiyi kimi döyüşə nə vaxt gedib, nə zaman getməməyi müəyyən etməyə imkan verir.

U-tszı hesab edir ki, aşağıdakı şəraitlərdə düşmənə hücum etmək olar:

1. Döyüş sursatı, azuqəsi və yemi olmayan və onları heç yerdən tapa bilməyən, taqətdən düşmüş orduya, sözsüz hücum etmək lazımdır.

2. Uzun keçidlərdən yorulmuş, əsgərləri ancaq istirahət düşünən və düşmənin qəfil hücumu haqqında qorxa-qorxa fikirləşən orduya hücum etmək lazımdır.

3. Əlverişsiz ərazidə düşərgə salmış, sudan korluq çəkən, adamların və heyvanların xəstəliyindən əzab çəkən orduya hücum etmək lazımdır. Ancaq bu halda o vaxt hücum etmək olar ki, ordunun sayı azdır və kömək gələcəyinə ümidi də yoxdur. Ordunun say çoxluğu bütün çatışmazlıqları ört-basdır edə bilər.

4. Əsgərləri daima hücum olunacağından qorxan, komandirlərinə qulaq asmayan, pozğunluq vəziyyətində olan orduya hücum etmək lazımdır. Ancaq burada da əlavə şərt vacibdir: bilmək lazımdır ki, belə ordu kömək ala bilməyəcək.

5. Uzun keçiddən keçmiş, hələ dayanacaq yeri seçməmiş və düşərgə salmağa imkan tapmamış orduya hücum etmək lazımdır. Lakin burada da əlavə bir şərt tələb olunur: belə orduya dərə-təpə yerdə, yəni ordunun ayrı-ayrı hissələri bir-birindən aralı olanda və bir-birlərini görmədiyi vaxt hücum etmək lazımdır; o zaman düşmənə hissə-hissə zərbə endirmək olar.

Düşmənin hansı davranışı göstərir ki, onun üzərinə hücum etmək nəinki mümkündür, həm də lazımdır.

U-tszı hesab edir ki, öz xüsusi ordusuna qarşı ağılsız və başısoyuq olan düşmənə hücum etmək lazımdır. Sərkərdənin ən əsas vəzifəsi– əsgərləri qorumaq, yürüş həyatının və hərbi əməliyyatların çətinliklərini hər vəchlə yüngülləşdirməkdir. Əgər qoşun başçısı bunlara diqqət etmirsə, o hökmən əbəs yerə əsgərlərini itirir, qalanların döyüş qabiliyyətini aşağı salır. U-tszının fikrincə iki halda belə olur:

1. Sərkərdə xüsusi ehtiyac olmadan, bərk soyuq havada dinclik vermədən və çətinliklərə baxmadan əsgərlərini qovursa.

2. Sərkərdə qızmar isti havada, yenə də əsgərlərinə yorğunluğunu almağa imkan vermədən, uzun keçidlərdən keçirsə.

Düşmənin ətrafında yaranmış hansı vəziyyət, sərkərdəni ona hücum etməyə məcbur edir?

U-tszı cavab verir: düşmən ordusu düşməncəsinə münasibətdə olan əhali ilə əhatə olunduğu vaxt. Bu ən çox o hallarda olur ki, ordu uzun müddət bir yerdə dayanır, öz azuqəsini artıq tükədib və yerli əhalinin hesabına dolanır.

Toqquşma qaçılmaz olan düşmənləri müəyyən edərək, U-tszı yenə də rəqibin ölkəsinin ümumi vəziyyətinə onun ordusunun vəziyyətinə, onun qonşu dövlətlərlə münasibətinə əsaslanır.

Ölkənin hansı ümumi vəziyyəti düşmənləri onunla üz-üzə gəlməkdən qaçmağa məcbur edir? U-tszı buna belə cavab verir:

Birincisi, ölkənin coğrafi və iqtisadi vəziyyəti böyük əhəmiyyət kəsb edir. Əgər ölkə böyükdürsə, zəngindirsə, əhalinin sayı çoxdursa, ona hücum etmək lazım deyil.

İkincisi, ölkə daxilindəki vəziyyət böyük əhəmiyyət kəsb edir. Aşağıdakıları nəzərə almaq vacibdir:

1. Hökmdarlar və idarə olunanlar arasında münasibətlər necədir: əgər onlar arasında həmrəylik varsa, əgər xalq öz hökmdarlarından razıdırsa, belə ölkəyə hücum etmək olmaz.

2. Hakimiyyət xalqa münasibətdə özünü necə aparır: əgər insanların hüququ qorunur və ədalət prinsiplərinə riayət olunursa, belə ölkəyə hücum etmək olmaz.

3. Hökümətin istedadlı və ağıllı adamları cəlb edib, əsl-nəcabətinə və mövqelərinə baxmayaraq, idarə etmə işlərini onlara etibar edtb, onları yüksəldə bildiyini bilmək vacibdir. Əgər hökümət bunu edə bilirsə, belə ölkəyə hücum etmək olmaz.

Ölkənin ümumi vəziyyətini xarakterizə edən və bu ölkə üzərinə hücum etməyi imkansız edən əlamətlər.

4.*Düşmən ordusunun vəziyyətini bilmək vacibdir: «qoşunun sayı çox, silahı isə ən yaxşısıdırsa», bu ölkə üzərinə hücum etmək olmaz.*

5. *Düşmənin qonşularla münasibətini aydınlaşdırmaq lazımdır. «Bütün qonşular qoşunla yardım edirsə, böyük dövlət kömək edirsə» hücum etmək olmaz.*

Lyu İn, ikinci fəslin bu hissəsinin şərhini bitirərkən yazir:

«Bu hissədə U-tszı yalnız ən ümumi vəziyyətləri söyləyir. Ümumiyyətlə desək, ordunun gücü daimi və dəyişməz bir şey deyil; zəiflik gücə, bədbəxtlik– uğura çevrilə bilər».

Lyu İn tamamilə haqlıdır. U-tszı, birincisi, düşmən üzərinə hücum etməyin nə vaxt mümkün olduğu və olmadığı haqda bütün halları sadalamır; ikincisi, o hesab etmir ki, hətta onun göstərdiyi hallarda belə həmişə onun məsləhət bildiyi kimi hərəkət etmək lazımdır. Əslində hər şey konkret şəraitdən asılıdır və sərkərdə üçün ali qanun– həmin andakı şəraitin tələb etdiyi kimi hərəkət etmək bacarığıdır. Son nəticədə konkret şəraitin hər şeyi həll etdiyi haqqında U-tszı özü qısa, ancaq aydın deyir: «Görəndə ki, imkandır, hücum et, biləndə ki, çətindir, geri çəkil».

Üçüncü hissə

Hər şeyi bilmək istəyən şagird öz müəllimini sorğu-sual etməyə davam edir. Düşmənin zahiri görkəminə görə onun daxili vəziyyəti haqda necə mühakimə yeritmək olar? Onun bir hərəkəti ilə başqa mümkün ola bilən hərəkəti haqda necə ehtimal etmək olar? Bütün bunların əsasında necə müəyyən etmək olar ki, qələbə kimin tərəfində olacaq?

U-tszı cavabında düşmənin zəifliyinə sübut ola bilən üç zahiri əlaməti göstərir: düşmən yüngül və laqeyd gedirsə; onun sıralarında bayraqlar səliqəsizdirsə; onun əsgərləri və atları ətrafa boylanırlarsa.

Birinci əlamət ordunun ümumi əhvalını göstərir. Əgər ordu ehtiyat tədbirləri görmədən irəliləyirsə, deməli, o hesab edir ki, heç nədən qorxmaq lazım deyil, düşmənin öhdəsindən gəlmək onun üçün çox asan olacaq.

U-tszının fikrincə, bu pis əlamətdir: bu cür əhval-ruhiyyədə olan ordunun döyüş qabiliyyəti yüksək ola bilməz.

İkinci əlamət birinci ilə sıx əlaqəlidir: laqeydlik düzgün qoşun sırasının pozulmasına aparır; bayraqların səliqəsizliyi– bu cür pozulmanın sübutudur.

Sun-tszı traktatının bir yerində deyir: «Kütlələri döyüşə aparmaq– elə az sayda adamı döyüşə aparmaq kimidir: məsələ forma və adamlardadır» (Sun- tszı, V f., 2 b.). Bu sözlərlə Sun-tszı o fikri ifadə edir ki, əgər sıranın və komandanlığın düzgünlüyünə əməl olunursa, böyük qoşun kütlələrinə rəhbərlik etmək çətin deyil. Cərgənin nizamı bayraqlarla təmin olunur. Bayraq– müəyyən hərbi hissənin nişanıdır. Bu hissənin əsgərləri öz bayraqlarının ətrafında cəmləşirlər; yürüşdə və döyüşdə onun ardınca gedirlər. Bayraqların düzülüş sırası– hissələrin düzülüş qaydasıdır. Yürüş zamanı hər bir hissə hansı bayraqdan qabaqda və hansı hissənin arxasınca getdiyini bilir. Döyüş vaxtı bayraqların yerləşdirilməsi– ordunun döyüş düzülüşüdür. Buna görə əsərin başqa yerində Sun-tszı deyir:

«Əgər bayraqlar bir yerdən başqa yerə keçirlərsə, deməli, onun (yəni sərkərdənin– N.K.) ordusunda qarışıqlıqdır» (IX f., 15 b. U-tszının «bayraqların səliqəsizliyi» haqqında sözləri də bunu deyir. Üçüncü əlamət birinci ikisi ilə əlaqəlidir. Əsgərlər və hətta onların atları yürüş vaxtı ətraflara boylanırlarsa.- bu, U-tszının fikrincə, nizam-intizamın olmamasına işarədir. Lyu İn öz şərhində çox qısa izah verir: «Adamlar və atlar daim ətrafa boylanırlarsa, deməli, onların ürəklərinin sahibi yoxdur», yəni onlar özbaşına buraxılıblar, komandirlər onların davranışına və daxili vəziyyətinə nəzarət etmir və ya pis nəzarət edirlər. U-tszı fikirləşir ki, belə ordu səndən on qat güclü olsa belə, ona hücum etmək olar. Deməli, təkcə zahiri əlamətlərinə görə ordunun vəziyyəti haqqında mühakimə yürütmək olar.

Düşmənin adi vaxtdakı davranışına əsasən onun özünü döyüşdə necə aparacağını necə ehtimal etmək olar? U-tszı aşağıdakıları göstərir.

Əgər knyazlar, yəni hökmdarın itaəti altında olan hakimlər onun ətrafında toplanmırlarsa, buradan belə çıxır ki, hökmdarla yaxın xidmətçiləri arasında razılıq yoxdur və müharibə vaxtı hökmdar onların dəstəyinə ümid edə bilməz. Əgər ölkədə müdafiənin möhkəmləndirilməsinin qayğısına qalınması nəzərə çarpmırsa, buradan belə nəticə çıxır ki, bunu müharibə vaxtı da pis həyata

keçirəcəklər. Əgər qadağa və əmrlər dinc vaxtda verilmirsə, onda müharibə vaxtı yaxşı olacağını fikirləşməyə əsas yoxdur. Əgər ordu nizamsız və səs-küylüdürsə, onun döyüş qabiliyyəti necə olacaq? Lyu İn hesab edir ki, axırıncı halda U-tszı düşərgə salmış, yəni artıq hərbi əməliyyatlar aparan ordunu nəzərdə tutur; belə halda «səs-küy» onu bildirir ki, əsgərlər ucadan danışmaqla və hay-küylə özlərini ruhlandırmağa çalışırlar.

Qeyd olunan əlamətlər olduqda, hətta sayca iki dəfə artıq orduya inamla hücum etmək olar.

Dördüncü hissə

«Düşmənin qiymətləndirilməsi» mövzusu hazırki fəslin axırıncı hissəsində də inkişaf etdirilir. U-tszı, hansı hökmdara və hansı şəraitdə müvəffəqiyyət ümidiylə hücum etmək olduğu haqda mülahizələrini davam etdirir.

Başlanğıcda o, yenə ümumi xarakterli göstəriş verir: düşmənin güclü və zəif tərəflərini dəqiq bilmək və zərbəni ən zəif yerinə tuşlamaq vacibdir.

Düzünü desək, traktatın bu yerinin hərfi tərcüməsi bir az başqa olardı: «güclü və zəif tərəfləri» əvəzinə «doluluq» və «boşluq» demək lazım idi. Bu anlayışlar qədim Çin hərbi doktrinasında ən əsaslar sırasına aiddirlər.

Sun-tszı əsərin birinci fəslində «təxmini ehtimalları» şərh edərək, deyir: «Əgər onda hər şey sıxdırsa (doludursa), hazır ol» (Sun-tszı, I f., 7 b.). Bu o deməkdir ki, əgər düşməndə müharibə üçün lazım olan hər şey doludursa, ona hücum etmək haqqında yox, şəxsi müdafiən barəsində fikirləşmək lazımdır. Sun-tszının VI fəsli «Doluluq və boşluq» adlanır. Onun bütün məzmunundan belə çıxır ki, «dluluq» Sun-tszının dilində, ümumiyyətlə, hərbi hazırlığın tamlığı, «boşluq»- lazımi hazırlığın olmaması deməkdir; «doluluq» - ordunun güclü tərəfləri, «boşluq»- zəif tərəfləridir.

U-tszının yuxarıda göstərilən qeydində şərhçilər «dəqiq bilmək» sözlərinə xüsusi əhəmiyyət verirdilər. Lyu İn deyir: «Əgər onun güclü və zəif tərəflərinin harada olduğunu dəqiq bilməsən, elə ola bilər ki, düşmən güclü olduğu halda, özünü yalandan zəif göstərə bilər; həqiqətən nədəsə zəif olduğu halda, özünü qəsdən güclü göstərər. Belə vəziyyətdə o yox, sən darmadağın ediləcəksən».

Lyu İn şübhəsiz müharibə haqqında təlimin, Çində ilk dəfə olaraq Sun-tszı tərəfindən irəli sürülmüş, sonralar isə– onun təsiri altında– bütün hərb nəzəriyyəçiləri tərəfindən qəbul edilmiş müddəasını təkrar edir.

Sun-tszının əsərində həmin müddəa bu sözlərlə ifadə edilmişdir: «Nə vaxt ki, düşməni hərəkətə gətirməyə məcbur etməyi bacaran formasını ona göstərirsə, düşmən mütləq onun ardınca gedir; nə vaxt düşmənə nəsə verirlərsə, o hökmən götürür;

mənfəətlə onu hərəkət etməyə məcbur edirlər, özünü isə gözlənilməzliklə qarşılayırlar» (V f., 10 b.).

«Forma» dedikdə Sun-tszı ordunun döyüş vəziyyətinin, onun döyüş qabiliyyətinin dərəcəsini nəzərdə tutur. «Forma»nın öz «dluluğu», yəni güclü tərəfləri, həm də «boşluğu», yəni zəif cəhətləri ola bilər. Məhz bu cəhətlər təcrübəli sərkərdə üçün gözəl vasitə ola bilər; o, süni olaraq özünü zəif göstərə və bununla düşməni onun üçün məğlubiyyətlə qurtarmalı olan hansısa bir hərəkətə sövq edə bilər, çünki görünən zəifliyin arxasında həqiqətdə əsl qüvvə gizlənib.

Beləliklə, aldadıcı «mənfəət» və ya «boşluqla» düşməni hərəkət etməyə məcbur edir, onu isə «gözlənilməzliklə», yəni «doluluqla» qarşılayırlar. Şübhəsiz, Lyu İnin mülahizələri Sun-tszının traktatının məhz bu fikirləri ilə irəli sürülmüşdür.

U-tszı zərbəni düşmənin zəif yerinə endirməyi məsləhət görür. İkinci fəslin bu hissəsinin sonrakı bütün şərhi elə bu kimi «təhlükəli yerlərin» sadalanmasından ibarətdir.

Lyu İnin bəzi halları necə şərh etməsi də maraq doğurur.

U-tszı deyir: «O (düşmən– N.K.), tələsərkən hücum etmək lazımdır». Lyu İn bu sözləri belə izah edir: «Komandir və əsgərlər tələsirlərsə, artıq onlarda ruh yüksəkliyi yoxdur. Buna görə də, hücum etmək lazımdır». Görünür, bu izahı o mənada başa düşmək lazımdır ki, hərəkətlərindəki tələskənlik bir tərəfdən sakitliyin və fikir aydınlığının olmamasını; digər tərəfdən, tələskənliyin adətən ehtiyatsız hərəkətlərə gətirib çıxardığını göstərir.

U-tszı deyir: «Düşmən həddən artıq səy göstərdiyi vaxt hücum etmək lazımdır». Lyu İn bu sözləri aşağıdakı kimi izah edir: «Komandirlər və əsgərlər həddən artıq səy göstərdikdə, onların gücü pozulur». Görünür, bu izahı belə başa düşmək lazımdır ki, «həddən artıq səy göstərmək», yəni nəyin bahasına olursa- olsun hər şeydə düşməni qabaqlamaq cəhdi yalnız öz şəxsi gücünün zəifləməsinə gətirib çıxara bilər.

U-tszı deyir: «Düşmən vaxtı səhv salaraq, ona uyğunlaşa bilmədiyi zaman hücum etmək lazımdır». Lyu İn bunu belə başa düşür: «Ümumiyyətlə, işə başlayıb qoşunu ayağa qaldıranda vaxtla uyğunlaşmaq vacibdir», yəni əməliyyat üçün lazımi an seçməyi bacarmaq lazımdır. Əgər düşmənin bu haqda fikirləşmədiyi nəzərə çarpırsa, ona hücum etmək olar və lazımdır.

U-tszı deyir: «O (düşmən– N.K.), çayı keçərkən onun yarısını keçibsə, hücum etmək lazımdır». Lyu İn izah edir: «Böyük çayı keçən vaxt düşmən qüvvəsinin ancaq yarısını o biri tərəfə ötürübsə, onun sıralarında hələ qarışıqlıq varsa, o tərəfə keçən hissələrlə keçməyənlər hələ bir-biri ilə qarşılıqlı əlaqə yarada bilmirlərsə, elə bu vaxt ona hücum etmək lazımdır».

U-tszı deyir: «Düşmən tez-tez bir mövqedən digərinə keçirsə hücum etmək lazımdır». Lyu İnin şərhi belədir: «Əgər düşmən tez-

tez bir mövqedən digərinə keçirsə, deməli, onun adamlarının ürəyi sakit deyil».

U-tszı qələbəyə tam əminliklə düşmən üzərinə hücum etməyin mümkün olduğunu bildirən on üç halı sadalayır.

Elə bu mövzuda «Lyu tao» traktatında danışılanlarla U-tszının göstərişlərini tutuşdurmaq maraqlıdır. Bu traktatda hücum etməyin lazım olduğu on dörd hal sadalanır:

1.Düşmən düşərgə salmağa başladığı vaxt hücum etmək lazımdır. (Məlum olduğu kimi, o vaxtlar hərbi əməliyyatlar bundan başlanırdı).

2.Düşmənin adamları və atları hələ yeməklərini və yemlərini yemədiyi vaxt hücum etmək lazımdır.

3.Hava şəraiti əlverişsiz olduğu vaxt (yəni, bərk soyuq və ya qızmar isti olduqda, tufan və leysan vaxtı; bir sözlə– düşmən əsgərlərinin döyüş enerjisinin zəiflədiyinə ümid etmək olduğu vaxt) hücum etmək lazımdır.

4.Olduğu yer münasib olmadığı zaman (yəni, düşmən, onun hərəkətlərini çətinləşdirən şəraiti olan əraziyə düşdüyü vaxt) hücum etmək lazımdır.

5.Düşmən tələsdiyi vaxt (yəni, ehtiyatsız, düşünülməmiş hərəkətlər edə biləcəyi vaxt) hücum etmək lazımdır.

6.Düşmən ehtiyatsız olduğu vaxt hücum etmək lazımdır.

7.Düşmən yorğun olduqda hücum etmək lazımdır.

8.Düşmən sərkərdəsi əsgər və komandirlərdən uzaq düşdüyündə hücum etmək lazımdır.

9.Düşmən uzun bir keçiddən keçdiyi vaxt (yəni, onun hissələri hökmən bir-birindən ayrı düşdükdə) hücum etmək lazımdır.

10.Düşmən çayı keçərkən hücum etmək lazımdır.

11.Düşmənin başı nəyəsə bərk qarışdığı vaxt hücum etmək lazımdır.

12.Düşmən dağlıq ərazidə dar yollarda olduğu vaxt hücum etmək lazımdır.

13.Düşmən nizamsız halda getdiyi vaxt hücum etmək lazımdır.

14.Düşməni qorxu bürüdüyü vaxt hücum etmək lazımdır. (Lyu tao. Tsyun tao. DII f.).

«Lyu tao»nun göstərişlərinin az qala hərfbəhərf U-tszının göstərişlərini təkrar etdiyini görmək çətin deyil. Müəlliflərdən hansının digərindən götürməsi sualından asılı olmayaraq, qədim Çinin hərb doktrinası üçün hərbi şəraitin müxtəlif hallarının bu cür qiymətləndirildiyi aydın olur.

III FƏSİL

Birinci hissə

Çuntsyu (m.ö.722-481-ci illər) və Çjanqo (m.ö. 403-221-ci illər) dövrünün müdrikləri və müəllimləri dinləyicilərini və şagirdlərini hansısa bir gözlənilməz və anlaşılmaz deyimlə təəccübləndirməyi çox sevirdilər. Əgər Lunyuya inansaq, «Kamil»– Konfusi– özü də belə edirmiş.

Bir dəfə Tszı-çjan Konfusiyə müraciət edərək, soruşdu: «Dövləti düzgün idarə etməyi necə həyata keçirmək olar?» Konfusi cavab verdi: «Əgər beş gözəlliyə ehtiram edib, dörd pisliyi kənar etsən, dövləti düzgün idarə etməyi həyata keçirə bilərsən» (Lunyuy, XX f., 2 b.). Karıxmış şagirdin sual verməkdən başqa əlacı yox idi: «Bəs, beş gözəllik və dörd pislik nədir?» Bu zaman o, bağışladığı təsirdən həzz alaraq, fərasətsiz şagirdini başa salmağa başladı.

Həmsöhbəti knyaz U-xou ilə söhbət edərkən, U-tszı da Konfusi kimi etdi. Knyazın orduya rəhbərlikdə ən vacib nə olduğu sualına U-tszı cavab verir: «Ən əsası– «dörd yüngüllüyü», «iki ağırlığı», «bir qərəzsizliyi» özün üçün aydınlaşdırmaqdır».

U-tszının cavabı onun hərbi doktrinasını başa düşmək üçün çox vacibdir. Bu cavabdan biz bilirik ki, o dövrün qoşun başçıları ordunun çevikliyinə, onun hərəkətinin itiliyinə böyük əhəmiyyət verirdilər.

Artıq əvvəlki fəsillərdə U-tszı təkrarlanmaqdan çəkinməyərək, iki dəfə göstərir ki, seçmə hissələrə başqaları ilə yanaşı, «ayaqdan yüngül», iti və yorulmadan gəzə bilənləri toplamaq lazımdır. Beləliklə, biz belə bir nəticəyə gələ bilərik ki, o dövrün Çin ordularında cəld hərəkət etməyə qadir olan yüngül piyada dəstəsi var idi.

U-tszının cavabından biz başqa nəticə də çıxara bilərik: bəzi hallarda piyadaları (güman ki, ağır silahlanmışları) döyüş arabalarına mindirərdilər.

Sun-tszı əsərinin ikinci fəslində, ordunun tərkibi haqda danışarkən, cəng arabalarından başlayır. O, cəng arabalarının iki növünü xatırladır: yüngül və ağır. Onlardan biri döyüş üçün istifadə olunurdu: bu cür arabalarla düşmənin mövqelərinə girərdilər. O birileri döyüş sursatlarının daşınması və müdafiə vaxtı istifadə olunurdu. Onlar həm də hərəkət vasitəsi idi: piyadaları bu arabalarda daşıyırdılar. Bu, U-tszının «adamları cəng arabaları üçün yüngül etməyin» vacibliyi barədə sözlərindən məlum olur. Yəqin ki, yalnız ağır deyil, həm də yüngül, yəni döyüş arabasına da iki-üç adam yerləşə bilərdi; bu arabaya dörd at qoşulmuşdu, daimi komandası isə üç nəfərdən ibarət idi: bir nəfər atları idarə edir, qalan ikisi isə döyüşürdülər.

«Üç yüngüllük» haqqında mülahizələrdən, U-tszının ordunun çevikliyinə necə əhəmiyyət verdiyi görünür. Ordunun cəld hərəkətini təmin etmək üçün, üç «yüngüllüyə» nail olmaq lazımdır: düz, rahat

yol seçmək, atları vaxtı-vaxtında yemləmək və arabaların təkərlərini yaxşı yağlamaq. Dördüncü «yüngüllük»- döyüşün əsgərlər üçün yüngüllüyü- iti nizələr və möhkəm yaraq-əsləhə əsgərlərin vuruşmasını yüngülləşdirməlidir.

«İki ağırlıq» dedikdə, U-tszı «ağır», yəni, səxavətli mükafatları və «ağır», yəni, sərt cəzaları nəzərdə tutur.

Çin hərbi doktrinasında mükafat və cəza siyasətinə həmişə xüsusi əhəmiyyət verilib. Sun-tszı traktatının birinci fəslində, hazırlanan müharibədə tərəflərin şanslarının qiymətləndirilməsi vaxtı nəyə diqqət yetirməyin lazım olduğunu sadalayaraq, «kimdə düzgün mükafatlandırma və cəzalandırma» olduğunu müəyyən etməyin vacibliyini deyir (Sun-tszı, I f., 4b.). Mükafat və cəzaların birinci dərəcəli əhəmiyyətli olduğundan Vey Lyao-tszı ətraflı danışır: «Əvvəlki hökmdarların, birbaşa müharibəyə aidiyyəti olan beş qaydası var idi: əgər azuqə ehtiyatı çox deyilsə, əsgərlər getmirlər; əgər donluq və mükafatlar səxavətli deyilsə, adamlar çalışmırlar; əgər əsgərlər seçmə deyilsə, ordu güclü deyil; əgər kifayət qədər silah hazırlanmayıbsa, güc yetərincə deyil; əgər mükafat və cəzalar ədalətlidirsə, xalq qorxmur» (Vey Lyao-tszı, IV f.).

Qədim strateqlərin bu mükafat və cəza siyasətini necə təsəvvür etdikləri elə həmin traktatdan görünür. Nizamnaməyə görə, beş adam «beşliyi» təşkil edir; beşliyin əsgərləri bir-biri üçün cavabdehdir. On adam «onluğu» təşkil edir; onluğun əsgərləri bir-biri üçün cavabdehdir. Əlli adam «yarımbölüyü» təşkil edir; yarımbölüyün əsgərləri bir-biri üçün cavabdehdir. Yüz adam «bölüyü» təşkil edirlər; bölüyün əsgərləri bir-biri üçün cavabdehdirlər. Beşlikdə kimsə əmri və ya qadağanı pozduqda, əgər onu ələ verərdilərsə, qalanları cəzalandırılmaqdan azad edilirdilər; yox, əgər bilir və bu əsgəri satmırdılarsa, beşliyin hamı ölümə məhkum olunurdu. Onluqda kimsə əmri və ya qadağanı pozardısa, qalanları onu ələ versə, cəzadan azad olunurdular, əgər bilib onu satmırdılarsa, onluğun hamısı edam olunurdu və s. (Vey Lyao Tszı, XIV f.).

Yəqin, Vey Lyao-tszı ellik zəmanət (hamının hər biri üçün və hər birinin hamı üçün zamin olması– tərc.) tətbiq etməyi təklif edir. Bu zəmanətin əhəmiyyəti barədə o, belə deyir: «Beşliyin və onğulun bütün üzvləri bir-biri ilə bağlı olduqda, yuxarıdakılar və aşağıdakılar bir-biri ilə müttəfiq olduqda, tapa bilmədikləri yaramaz; satmadıqları cinayətkar ola bilməz. Ata– heç o da oğlunu gizləyə bilməz, böyük qardaş– heç o kiçik qardaşını gizlədə bilməz; o ki qaldı müxtəlif sahələrdən olan, təsadüfən bir hissədə toplanmış, təsadüfən eyni yeməyi yeyən adamlar ola,- onlar əmri pozmuş adamı necə gizlədə bilərlər?» (Vey Lyao-tszı, XIV f.).

Hərbi əmrlərin pozulmasına görə cəzalar bələdir. Hərbi əməliyyatlar vaxtı olan xətalara görə cəzalar isə daha da ciddidir. «Əgər min nəfərlik və daha çox dəstənin komandiri, döyüş vaxtı

qaçmağa üz tutarsa, haranısa müdafiə edərkən təslim olarsa, qoruduğu yeri tərk edərsə, qoşundan qaçarsa– bu cür komandir dövləti cani olacaq. Onu ölümə məhkum edir, evini dağıdır, adını icmanın siyahılarından pozurlar; əgər o, ölməyə imkan taparsa, onun qəbrini qazıb açır və cəsədini bazar meydanına atırlar; onun ailəsindən olan kişi və qadınları dövlət köləliyinə verirlər. Əgər yüz və çox adamlıq dəstənin komandiri döyüş vaxtı qaçmağa üz tutarsa, haranısa müdafiə edərkən təslim olarsa, qoruduğu yeri tərk edərsə, qoşundan qaçarsa- bu komandir hərbi cani sayılacaq. Onu ölümə məhkum edir, evini dağıdır, onun ailəsindən kişi və qadınları dövlət köləliyinə verirlər (Vey Lyao-tszı, XIII f.,). Qədim strateqlərin bu və bu kimi deyimləri, U-tszının həqiqətən ağır cəzaları nəzərdə tutduğunu təsdiq edir.

Bununla belə o öz dinləyicisini xəbərdar edir: səxavətli mükafat və ağır cəza siyasəti öz məqsədinə nail olmaq üçün vacibdir ki, bu siyasət tam qərəzsiz aparılsın. U-tszı bunu o qədər mühüm hesab edir ki, «bir qərəzsizlik» haqqında tezisi xüsusi ayırır.

Beləliklə, ilk baxışda az başa düşülən «dörd yüngüllük», «iki ağırlıq», «bir qərəzsizlik» ifadələrinin arxasında ordunun çevikliyinin təmin olunması, onun ən yaxşı silahlarla silahlandırılması, orduda hücum ruhunun və dözümlüyün inkişaf etdirilməsi üçün tədbirlər müəyyən edilməsi fikirləri gizlənir. Sərkərdə isə elə bundan başlamalıdır. «Kim bütün bunları tamlığı ilə dərk edə bilsə, o – qələbənin ağasıdır»,- U-tszı mülahizəsinin bu hissəsini belə tamamlayır.

İkinci hissə

Sun-tszı ordunun sayca üstünlüyünə çox böyük əhəmiyyət verir. Traktatın üçüncü hissəsində o, göstərir ki, döyüşə, ya qüvvəcə üstün olduqda, ya da imkanlar bərabər olduğu halda girmək olar. Doğrudur, traktatın başqa yerlərində bu tezisə bəzi düzəlişlər daxil edilib. Belə ki, məsələn, traktatda belə sözlər də var: «İş əsgərlərin sayını daha da artırmaqda deyil. Tək bir hərbi qüvvə ilə irəliləmək olmaz. Öz qüvvəni səfərbər edib, düşmənin öhdəsindən gəlmək üçün lazım olan qədər canlı qüvvənin olması və düşmənin düzgün qiymətləndirilməsi kifayətdir» (Sun-tszı, IX f., 18 b.). Sun-tszı başqa cür də izah edir: əgər qoşun çoxdursa, bu hələ qüvvənin çox olması demək deyil. «Hər yerdə hazırlıqlı olmağa məcbur olanın qüvvəsi azdır; başqasını hər yerdə hazırlıqlı olmağa məcbur edənin qüvvəsi çoxdur» (Sun-tszı, IV f., 8 b.). Lakin, bütün bu qeydlərə baxmayaraq, yenə də şübhəsizdir ki, Sun-tszı bir qayda olaraq, say üstünlüyünün yaxud, heç olmazsa, qüvvələrin bərabərliyinin vacibliyini qəbul edir.

U-tszının traktatında tam əks nəzər-nöqtəsi söylənilir. Knyazın, «Ordu nə ilə qalib gəlir?», sualına sərkərdə belə cavab verir: «Öz müteşəkkilliyi ilə». «Bəs, məgər sayı ilə deyil?»- knyaz, görünür, o

vaxtlar çox yayılmış fikri söyləyərək, etiraz edir. U-tszı bu fikirlə qətiyyən razı deyil. O, müteşəkkilliyi vacib hesab edir.

Onun sübutu çox sadədir. Böyük, ancaq pis təşkil olunmuş ordu nə edə bilər? Əgər «əmrlər və sərəncamlar aydın deyilsə, mükafat və cəzalar qərəzsiz deyilsə, adamlara geri çəkilmək üçün siqnal verilsə də onlar dayanmırlarsa, hücum əmri verilsə də irəli getmirlərsə, onların sayı milyon olsa belə, onlar nəyə yarayırlar ki?». U-tszı belə düşünür, Vey Lyao-tszı da bu fikirdədir: «Milyon nəfər əmrləri yerinə yetirməyəndənsə, on min döyüşkən yaxşıdır; on min sadəcə döyüşən əsgərdənsə, yüz nəfər qızğın surətdə vuruşan yaxşıdır» (Vey Lyao-tszı, XXIII f., s.62).

Ordunun mütəşəkkilliyi özünü nədə göstərir?

Bu barədə U-tszının fikirləri üç müddəa şəklini alır: idarə etmənin yaxşı təşkil edilmiş sistemi, əsgərlərin təlimi, mənəvi birlik.

Düzgün idarə etmə sistemi, U-tszının fikrincə, birincisi, ordunun lazımi nizamını təmin edir, orduda təsbit edilmiş hərbi intizamı saxlayır; ikincisi, yüksək döyüş qabiliyyətini şərtləndirir.

Əsgərlərin yaxşı təlim alması komandaların dəqiq icra edilməsini təmin edir; «sağa və sola hər bir hərəkət komanda ilə edilir. Yaxşı təlim almış əsgərlər, «dəstədən aralı düşsələr də, cərgəni qoruyub saxlayırlar; pərən-pərən düşsələr də, öz sıralarını qoruyurlar». Ordunun mütəşəkkilliyinin üçüncü əlaməti– onun mənəvi birliyidir. U-tszının fikrincə bu, ordu kütləsinin daxili birliyində və ordunun öz sərkərdəsi ilə birləşməsindədir.

Daxili birliyin əlaməti odur ki, ordunu «asanlıqla birləşdirmək olar və ayırmaq olmaz»; ordunun sərkərdə ilə birliyi öz ifadəsini onda tapır ki, «sərkərdə həm əmin-amanlıq vaxtı, həm də təhlükə anında onlarla (öz əsgərlərilə– N.K.) birlikdədir».

«Lyu tao» adlı əsər bu mövzunu daha da genişləndirir: «Sərkərdə soyuğu və istini, çətinlikləri və məhrumiyyətləri, aclıq və toxluğu öz əsgərləri ilə bölüşməlidir. Buna görə, əsgərlər təbillərin vurmasını (yəni hücuma keçmək siqnalı– N.K.) eşidəndə, sevinirlər; sinclərin səsini (yəni, geri çəkilmək siqnalı– N.K.) eşidəndə hirslənirlər. Qoy divarlar hündür, xəndəklər dərin olsun, qoy oxlar və daşlar dolu kimi yağsın– əsgərlər bir-birinin qarşısını kəsərək, divarlara dırmanacaqlar.

Əlbəyaxa döyüşə çatanda, əsgərlər bir-birinin qarşısına keçərək, həmlə edəcəklər. Bu o demək deyil ki, əsgərlər ölməyə tələsir və yaralarına sevinirlər; onlar ona görə belə edirlər ki, çünki onların sərkərdəsi isti və soyuğun, toxluq və aclığın nə olduğun yaxşı bilir, zəhmətləri və yorğunluqları yaxşı görür» (Lyu tao, Lun tao, XXIII f.). U-tszı sərkərdə ilə əsgərlər arasında belə münasibətlər yaradılan orduya qısaca belə tərif verir: bu, «ata və oğulları ordusu»dur.

Sərkərdə və əsgərlərin qarşılıqlı münasibətlərinin atanın uşaqlarıyla münasibətlərilə müqayisə edilməsi Lyu İni bəzi şərhlər

verməyə təhrik edir. «Ata və uşaqların ordusu,- o, yazır,- yuxarıdakılarla aşağıdakıların həmrəyliyidir.

Sərkərdə və əsgərlər, bir tərəfdən sərkərdənin əsgərlərə yaxşı münasibəti, digər tərəfdən isə əsgərlərin sərkərdəyə inamı ilə bir-birləri ilə bağlı olmasalar; sərkərdə öz humanistliyi və ədalətliyi ilə əsgərlərə təsir etməsə, belə bir ordu yarana bilərmi (yəni, ata və uşaqları– N.K.)?»

Lyu İn üçüncü fəslin bu hissəsinə verdiyi şərhi bu sözlərlə bitirir: «Sun-tszı deyib: «Yol– odur ki, xalqın fikirlərinin hökmdarın fikirləri ilə eyni olmasına nail olunub, xalq hökmdarı ilə birgə ölməyə, onunla birgə yaşamağa hazırdır, xalq nə qorxu, nə şübhə bilir».

Burada (yəni U-tszının verilmiş sözlərində– N.K.) məhz bu məna verilmişdir.

Üçüncü hissə

Bu fəslin üçüncü hissəsində U-tszı ordunun mütəşəkkilliyi haqqında fikri inkişaf etdirməkdə davam edir. Bu dəfə o, sözsüz və dəqiq icra etmələrində ifadə olunan əlamətlərdən danışır.

U-tszı, çox təcrübəli sərkərdə kimi bilir ki, əmrlər verməyi bacarmaq azdır, onların icra edilməsi üçün imkan yaradılmasını da təmin etmək lazımdır. Əsgərlərə hücum etməyi əmr etmək azdır, elə etmək lazımdır ki, onların hücuma keçməyə qüvvələri olsun; keçidlərdən keçməyə ciddi nəzarət etmək; düşərgəni vaxtında salmaq; yemək və suyun kifayət qədər olmasına nəzarət etmək; nə adamları, nə atları həddindən artıq yormaq. Yalnız belə şərtlər «əsgərlərə komandanlığın əmrini yerinə yetirmək üçün imkanı təmin edir». U-tszı isə əmrlərin yerinə yetirilməsinə o qədər böyük əhəmiyyət verir ki, deyir: «(Bu) elə mütəşəkkilliyin doğduğu haldır».

Dördüncü hissə

Bu hissənin əsas mənasını U-tszı bu sözlərlə ifadə edir: «Döyüşdə ölümü qaçılmaz hesab edirlərsə, sağ qalırlar; həyatı xoşbəxtlik hesab etdikləri halda ölürlər».

Bu fikir qədim Çinin demək olar bütün hərbi strateqləri üçün xarakterikdir. Sun-tszı traktatının XI fəslində bu fikri deyir: «Əgər onlar (əsgərlər– N.K.) ölümə getməyə hazır olsalar, qələbəni necə qazanmayasan?» (Sun-tszı, XI f., 9 b.)

Sun-tszı, «ölüm yeri» adlandırdığı anlayış haqqında bütöv bir təlim irəli sürüb. O, düşünür ki, əsgərlər, onlara xilas olmadığı, döyüşə gedib ölməkdən başqa çarələri qalmadığını biləndə daha yaxşı döyüşürlər. Elə qələbə də bu halda, sanki ən ümidsiz vəziyyətdə əldə olunur. Sun-tszının ifadə etdiyi kimi, əsl «ölüm yerində». Eyni məna U-tszının da sözlərində var: «Döyüşdə ölümü qaçılmaz hesab edəndə, sağ qalırlar». Qədim Çinin hər iki məşhur strateqi bu məddədə bir-birilə razıdırlar.

Lakin ölümə getmək hazırlığı əsgərlərdə öz-özünə yarana bilməz.

U-tszı hesab edir ki, bu hazırlığın yaranmasına sərkərdə səbəb olmalıdır.

O, hansı vasitələrlə buna nail ola bilər? «Ölüm yeri» haqqında nəzəriyyəsini inkişaf etdirərək, Sun-tszı, sərkərdəyə əsgərlərini qəsdən sanki heç bir çıxış yolu olmayan vəziyyətlərə, ölməyin yeganə çıxış yolu olduğu vəziyyətə salmağı məsləhət görür. U-tszı başqa yolu seçir. O, sərkərdəyə hər an ölümə getməyə hazır olduğunu həmişə əsgərlərinə nümayiş etdirməyi məsləhət görür.

U-tszının obrazlı ifadəsincə, «yaxşı sərkərdə sanki batan gəmidə, yanan binada yerləşir». Lyu İn deyir: «Sərkərdə həmişə ölümün qaçılmaz olduğunu fikirləşməlidir və o, bunu hər yerdə komandirlərə və əsgərlərə göstərməlidir». Sərkərdə özünü məhz belə apardıqda, «düşmən müdriklərinin bütün qurduğu hiyləgərlikləri nəticəsiz edir, düşmən igidlərinin bütün çılğınlığını heçə endirir».

Qədim çinlilər meymunların bir növünü fərqləndirərək, ona Yu adını vermişdilər. Lyu İnin izahına görə, bu meymunlar həddindən artıq ehtiyatlıdırlar; insan səsi eşitcək onlar ağaclara dırmaşır, ancaq ətrafda heç kimin olmadığına əmin olduqdan sonra ağacdan düşürlər. Lakin az vaxt keçdikdən sonra onlar yenə ağacda olurlar. Və fasiləsiz olaraq belə davam edirlər. Buna görə, hələ qədim zamanlarda həddən artıq ehtiyatlı insan haqqında deyirdilər ki, o, meymun Yu kimi ehtiyatlıdır».

Tülkü Qu xasiyyətinə görə Meymun Yuya oxşayan heyvandır. O çox etimadsızdır, heç nəyə inanmır. Buzun üzərindən keçmək lazım olduqda, əvvəlcə o diqqətlə buzun altından suyun səsinin gəlib-gəlmədiyini yəqinləşdirir və yalnız heç bir səs eşitmədiyi vaxt buza ayaq basmağa qərar verir. Buna görə, hələ qədimlərdə həddən artıq etimadsız adam haqqında deyirdilər ki, «o, tülkü Qu kimi heç kimə inanmır».

U-tszı üçüncü fəslin bu hissəsinin axırıncı məşhur cümləsində elə bu heyvanları xatırladır: «Orduya rəhbərlikdə ən ziyanlısı– meymun Yunun həddən artıq ehtiyatlılığı və tülkü Qunun həddən artıq etimadsızlığıdır».

Beşinci hissə

Daha sonra ordunu idarə etmək haqqında elmini inkişaf etdirərək, U-tszı hərbi təlim məsələsinə keçir. Bu məsələnin ciddiliyini dərk etməyi lap əvvəldən müsahibinə təlqin etmək məqsədilə, o, qeyd edir ki, adamların başladıqları işə hazır olmaması, çox pis nəticələrə aparır: «adamlar, adətən, ölümü səriştəsiz olduqları işdə tapırlar». Əgər hazırlıqsız olmağın adi vəziyyətdəki nəticəsi belədirsə, onlar müharibə şəraitində qəti qaçılmazdır. «Buna görə, müharibənin aparılmasında ən əsası– təlim və təlimatlardır».

U-tszının traktatıtnın bu hissəsi qədim Çindəki döyüş təlimi haqqında bəzi təsəvvür yaradır. Əsgərlərə «dairə və kvadrat şəklində düzlənməyi, oturub-durmağı, nizamla yeriyərək və yerində dayanaraq addımlamağı, sağa və sola dönmələri, irəli və geri gətməyi, aralanıb-birləşməyi, bir yerə toplanmağı və səpələnməyi» öyrədirdilər. Hamı bütün bunları mənimsədikdən sonra onlara silah verməyin mümkün olduğunu U-tszı göstərir.

Dairə və kvadrat şəklində sıraya düzülməyi Lyu İn, ordunun mövqedən asılı olaraq, qəbul edilən iki düzülüşü kimi izah edir.

Li Vey-qunun «Dialoqlar»ında dairəvi sıraya düzülmə belə izah olunur: ortada ordunun mərkəzi korpusu yerləşirdi, onun ətrafında altı başqa korpuslar düzülürdü; dairəni, daha doğrusu, altı ləçəkli çiçəyi xatırladan forma alınırdı, özü də bu vaxt mərkəzi korpus çiçəyin özəyi kimi görünürdü (Li Vey-qun venduy, II f.).

«Ayrılmağın və birləşməyin» öyrədilməsi, hər bir hərbi əməliyyatın iki şərtdən ibarət olduğu təsəvvüründən irəli gəlirdi: birinci şərt– döyüş vəziyyəti almaq, ikincisi– döyüşün özü. Döyüş vəziyyətinin alınması bütün mühüm strateji məntəqələrin ələ keçirilməsindən ibarət idi. Bu məntəqələri zəbt etmək üçün, ordu «bölünürdü», yəni, bir neçə qrupa ayrılırdı ki, bunlardan hər biri– şəraitdən asılı olaraq, döyüşərək və ya döyüşsüz– bu və ya digər məntəqəni işğal edirdi. Bundan sonra, alınmış məntəqələrdə yerləşmiş bütün qruplar «birləşirdilər», yəni, düşmənə qarşı ümumi, birgə əməliyyata başlayırdılar. Bu əməliyyatların məqsədi, döyüşün taleyini həll etməli olan zərbələrin endirilməsi idi (Li Vey-qun vnduy, II f.).

U-tszı əsgərlərə hansı üsulla təlim keçilməsini göstərir:

«Bir nəfər döyüşməyi öyrənsə, o, on nəfər başqasını öyrədəcək; döyüş sənətini on nəfər öyrənsə, onlar da yüz adamı öyrədəcəklər» və s.

Bu sözləri iki cür başa düşmək lazımdır.

Bir tərəfdən, U-tszı, «bir-on-yüz» və s. sadalamaqla, orduda bəzi sayda yaxşı təlim keçmiş, təcrübəli əsgərlərin olmasının onun üçün necə əhəmiyyət kəsb etdiyini vurğulayır; digər tərəfdən, o, göstərir ki, təlim on nəfərlik birləşmələrdə aparılmalıdır.

«Lyu tao» traktatında biz buna bənzər təlimin təsvirinə rast gəlirik. «Komandirlərə təlim keçərkən, bir nəfərə döyüşməyi öyrədirlər; o öyrəndikdə, onunla birlikdə on nəfərlik birləşmə təşkil edirlər. Bu on nəfər döyüşməyi öyrənirlər. Onlar təlimi başa vurduqdan sonra, onlarla birlikdə yüz nəfərlik birləşmə yaradırlar. Bu yüz adam da döyüş təlimləri keçir. Onlar öyrəndikdən sonra, min nəfərlik birləşmə yaradırlar. Min nəfər döyüşməyi öyrənir. Onlar öyrəndikdən sonra, onlarla birlikdə ordu təşkil edəcəklər. Böyük döyüşün qaydaları ordu tərəfindən öyrənildikdən sonra, milyonluq qoşun yaradılır» (Lyu tao, Tsyuan tao, LIV f.).

U-tszı əsgərlərə təlim keçilməsi haqda mülahizələrini hələlik bununla məhdudlaşdırır. Onun sonrakı sözləri artıq sərkərdəyə nəsihətə aiddir.

Bu nəsihət dəqiqliklə Sun-tszının sözlərini təkrar edir: «Yaxında olarkən, uzaqdakıları gözləyirlər, tam qüvvədə olarkən yorğunları, tox olduqda acları gözləyirlər» (Sun-tszı, VII f., 15 b.). Bunun yaxın mənası belədir: artıq bu yerə yaxın yerləşmiş qüvvələrini döyüş yerinə uzaqdan gəlmiş düşmənə qarşı qoymaq, yorğun düşmənə qarşı sağlam qüvvələrini çıxarmaq, azuqə çatışmazlığından əziyyət çəkən düşmənin qabağına tox əsgərlərini çıxarmaq. Ancaq bu sadə göstərişlərin arxasında daha ümumi fikirlər gizlənir. Belə ki, döyüş mövqeyini düşməndən əvvəl tutmağın vacibliyinin göstərilməsi, ordunun az əvvəl deyilmiş çevikliyi, onun böyük keçidləri adlamaq qabiliyyəti haqqında tələblərlə; yorulmuş düşmənə qarşı sağlam qüvvələrin çıxarılmasının vacibliyinin göstərilməsi dözümlülük tələbi ilə; öz tox əsgərlərini düşmənin ac əsgərinə qarşı çıxarmağın vacibliyi əsgərlərin yüksək fiziki sağlamlığı ilə əlaqələndirilir.

Altıncı hissə

Bu hissədə ordunun təşkil olunması haqda mülahizələr davam etdirilir. Bu dəfə U-tszı sərkərdəyə bildirir ki, ordunun təşkil edilməsi işində və əsgəri düzülüşdə, hər bir əsgərin fiziki, əqli və mənəvi xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, boy böyük əhəmiyyət kəsb edir. Alçaq boyluları qabaq cərgədə düzmək və onları mızraq və ov nizələri ilə silahlandırmaq lazımdır. O vaxtın mızraqları iki növ idi: iki çjan dörd li, yəni, uzunluğu üç metrə yaxın, və, iki çjan, yəni, iki metrə yaxın. Ov nizələri, yəni iki tiyəli mızraqların da uzunluğu iki metrə yaxın idi. Beləliklə, alçaqboylu əsgərlərə batan, özü də uzun silah verilirdi. Onların arxasınca uca boylu əsgərləri yerləşdirir, onları atıcılıq silahları ilə– kaman və qundaqlı ox-yaylarla silahlandırırdılar. Onların boyu hündür olduğu üçün qarşıdakı əsgərlər onların qabağını kəsmir və atıcılıqda onlara mane olmurdular.

U-tszının sözlərinə görə, bayraqları böyük fiziki qüvvəsi olanlara vermək lazımdır. Təbil və sincləri xüsusilə igid olanlara və özlərini yaxşı saxlaya bilənlərə vermək lazımdır. Lyu İn traktatın bu yerinə şərhində xatırladır ki. Əsgərlərin cərgədəki bütün hərəkətləri siqnallarla müəyyən edilir. Buna görə, siqnalçılardan igidlik və iradə tələb olunurdu.

Ağıllı və zəkalıları U-tszı qərargaha götürməyi məsləhət verir. «Onlar düşməni qiymətləndirməyi bacarırlar; buna görə planların işlənib hazırlanmasını onlara tapşırmaq lazımdır»,- Lyu İn izah edir.

U-tszının «eyni qəza və kənddən olan əsgərlər bir-birlərilə dostdurlar» fikri böyük əhəmiyyət kəsb edir. Lyu İnin izahına görə, o vaxtlar əhalisi orta hesabla 12500 ailə olan ərazi qəza və mahal hesab olunurdu; 25 həyətlik qrup kənd hesab olunurdu. Güman

etmək lazımdır ki, U-tszı burada hissələrin formalaşmasının əsas prinsipinə işarə edir: görünür, hər bir hissəni yerli adamlardan, eyni kəndin, yaxud, heç olmazsa, eyni qəzanın sakinlərindən təşkil etməyə çalışırdılar; bu hissələrin tərkibinin müteşəkkilliyini, eyni zamanda da, yüksək döyüş qabiliyyətini təmin edirdi.

Yeddinci hissə

Knyaz U-xou soruşdu: «Ordunun hərəkət etməsi üçün hansısa qaydalar varmı?». U-tszı cavabında: «Üç müxtəlif göstəriş var: yürüş intizamı necə olmalıdır; hansı ərazidə qətiyyən ləngimək olmaz; hansı hava şəraitində hücum etmək olar, hansında olmaz»,-dedi.

Böyük ordunun yürüş intizamı, bayraqların yerləşdirilməsi vasitəsilə təsvir edilmişdir. Bayraqların üzərində, bu və ya digər ulduzların işarəsi olan müxtəlif heyvan və quşlar təsvir olunurdular.

İstiqamət cənub tərəfə olurdu) «Göy əjdaha» təsvir olunmuş bayraqlar ordunun yürüş cərgəsinin sol tərəfində, yəni ordunun şərq cinahında yerləşirdi; «Ağ pələng» bayrağı– sağ, yəni şərq qanadda, «Qara tısbağa» bayrağı arxada, yəni ordunun şimal qanadında yerləşirdi. Baş komandanın bayrağı olan «Orta saray» bayrağı, yəni Beta ulduzunun Çoban bürcündəki şəkli emblem olan bayraq mərkəzdə olurdu. Bu bayrağın altında qərargah yerləşirdi.

U-tszı «Göylər tiyanı»nın yanında, yəni vadinin girəcəyində və «Əgdaha başı»nın yanında, yəni dağı kənarında ləngiməməyi məsləhət görür. Lyu İn bunu belə izah edir: «Əgər vadinin girəcəyində düşərgə salsan, düşmən tərəfindən zərbəyə məruz qalmaq olar, həm də subasma təhlükəsi ola bilr. Əgər dağın kənarında düşərgə salsan, düşmən tərəfindən mühasirəyə alına bilərsən, su və ot sarıdan vəziyyət çətinləşə bilər».

U-tszının axırıncı göstərişi hərbi əməliyyatların meteoloji şəraitlə bağlılığına aiddir. O, yalnız külək haqqında danışır, ancaq bu o vaxt küləyə xüsusi əhəmiyyət verildiyini bildirir. U-tszı külək düşmən tərəfə əsəndə, ona hücum etməyi məsləhət görür. Bu hal iki fikirlə izah olunur: arxadan əsən külək yaxşı müşahidə etməyə və nişan almağa, həmçinin oxların yaxşı uçuşmasına kömək edir. Külək qarşıdan əsəndə toz-torpaq əsgərlərin qabağa baxmasına mane olur, hərəkətlərini məhdudlaşdırır və onların əhvalına pis təsir edir.

Səkkizinci hissə

Üçüncü axırıncı hissəsi at haqqında mülahizələrə ayrılıb. U-tszı dövründə çin ordusunda at süvarilər və döyüş arabaları üçün istifadə olunurdu, ağır, yəni cəng arabalarına öküzlər qoşulurdu.

U-tszının sözlərindən görünür ki, Çin ordusunda atlara çox böyük əhəmiyyət verirdilər. Əgər döyüş arabalarının – ordunun əsas zərbə qüvvəsi, o vaxtlar dedikləri kimi, «ordunun gözləri və qulaqları» olan süvari dəstənin qədim Çin ordusunda oynadığı rolu xatırlasaq, bu aydındır.

IV FƏSİL

Birinci hissə

Artıq «Giriş»də U-tszı deyir ki, dövlət başçısına iki əsas– mülki və hərbi əsası uyğunlaşdırmaq vacibdir.

Ayrıca sərkərdəyə həsr olunmuş dördüncü fəsildə U-tszı sərkərdəyə münasib olan mülki və hərbi əsasdan danışır:

«Həm mülki, həm də hərbi əsası öz fəaliyyətində birləşdirə bilən adam– ordunun sərkərdəsidir».

Yuxarıda «Giriş»ə verilən şərhdə artıq bu iki əsas dedikdə, qədim Çin mütəfəkkirlərinin nəyi nəzərdə tutduqlarını xatırlamışdıq.

Buna görə, U-tszının sərkərdəyə verdiyi bu tərifi istisna qəbul etməmək olmaz. Özündə ictimai və dövlət həyatının hər iki əsasının harmonik uyğunlaşmasını sığışdırmaq– o vaxt ictimai insan idealı olmaq hesab olunurdu.

Sun-tszı sərkərdənin fəaliyyətini xarakterizə edərək, deyir: «Onlara (əsgərlərə– N.K.) əmr edərkən, mülki əsasın köməyilə hərəkət et; onların hamının bir nəfər kimi sənə tabe olmalarına məcbur edərkən, hərbi əsasın köməyilə hərəkət et». (Sun-tszı, IX f., 20 b.). Sun-tszının bu nəsihəti hər şeydən əvvəl bu deməkdir: orduya yalnız hökm etmək yox, həm də onu tərbiyə etmək lazımdır. Ancaq rəis– komandir yox, həm də müəllim-tərbiyəçi olmaq lazımdır. Lakin ordunu tərbiyələndirərkən, maarifləndirmə üsulları ilə, özü də yüksək mənəviyyatlı adama xas olan humanizmlə hərəkət etmək lazımdır. Orduya komandanlıq edərkən, onu döyüşə apararkən, böyük iradəli adam möhkəmliyi ilə əmrlərlə hərəkət etmək lazımdır. Baxdığımız fəsildə U-tszı da bu fikri irəli sürür.

Lyu İn, traktatının bu yerini belə şərh edir: «Zaman şərtlərindən, ərazinin əlverişli şəraitindən, adamların işlərindən baş çıxarmağı bacarmaq; hökmdar və təbəələri haqqında qanunlara ciddi əməl etmək; yuxarıdakılar və aşağıdakılar haqqında qaydalara riayət etmək; xalqı adətlərinə uyğun maarifləndirmək; Yol vasitəsilə əsgərlərini əmin-amanlığa çıxarmaq; ədalətlə onları idarə etmək; qanunlar vasitəsilə onların fəaliyyətinə rəhbərlik etmək; humanistlik vasitəsilə onlara sevgi göstərmək– bu mülki əsasdır (sərkərdənin fəaliyyətində– N.K.). Hökmdardan göstərişlər aldıqda valideynləri unutmaq, döyüş zamanı özünü unumaq, hücum və ölümü şərəf bilmək, geri çəkilməyi və sağ qalmağı rüsvayçılıq hesab etmək, mükafatlandırma və cəzalandırmalarda qərəzsiz olmaq, müdrik planlar işləyib hazırlamaq, aydın əmrlər vermək və öz qüdrətinlə Aləmi sarsıtmaq– bu hərbi əsasdır. Əgər bu iki əsasa birlikdə sahib ola bilsən, sərkərdə olmaq olar».

Lyu İnin bu sözlərindən əsl sərkərdənin kamil insan şəxsiyyəti üçün mütləq olan xüsusiyyətlərin daşıyıcısı olduğu görünür. «Yolun», ədalətin, qanuniliyin, humanizmin başlanğıcları onda təcəssüm etməlidi. O, ağıllı və bilikli olmalıdır, çünki bunsuz «zamanın

şərtlərindən, ərazinin faydasından, adamların işlərindən baş açmağı» bacarmaz. O, həqiqəti özündə təcəssüm etdirməlidir, çünki bunsuz «mükafatlandırmada və cəzalandırmada qərəzsiz» ola bilməz.

Lyu İnin bu sözlərini mənbə ilə– U-tszının, birinci fəsildə verilmiş fikirləri ilə müqayisə etmək ibrətamiz olardı. Orada bütün fikirlər «kamil insan»a aiddir. «Kamil insan» Yol vasitəsilə adamları xeyrə çatdırır, borc vasitəsilə onları idarə edir, normalar vasitəsilə onların fəaliyyətinə rəhbərlik edir, humanizmin vasitəsilə onları cəlb edir» (U-tszı, I f., 2 h.). Lyu İn isə deyir:

«Əgər bu iki əsasa əlaqələndirilmiş şəkildə malik olsan, sərkərdə olmaq olar». Beləliklə, Lyu İn üçün «kamil insan», yəni ideal şəxsiyyət adamların əsl rəhbər və müəllimi anlayışı– və əsl sərkərdə anlayışı uyğun gəlirlər.

«Həm sərtlik, həm mülayimlik birləşən yerdə, orduya rəhbərlik vardır»,- U-tszı davam edir. Bununla əlaqədar Lyu İn deyir: «Orduya rəhbərlikdə həm sərtlik, həm mülayimlik bir araya sığmalıdır. Həddən artıq sərtlik dağılmaya gətirib çıxarır; həddən artıq mülayimlik olduqda hər şey öz-özünə dağılıb-tökülür. Sərkərdə sərtdirsə və eyni zamanda mülayim ola bilirsə, heç bir zorakılıq olmadan qayda-qanun yaranır; sərkərdə mülayimdirsə və bu zaman sərt də ola bilirsə, bütün vəziyyətlərdə işlər həyata keçirilir. Sərtlik və mülayimlik bir-birini tamamlayır. Bu iki keyfiyyətlə orduya rəhbərliyi öz üzərinə götürmək olar».

Lakin U-tszının və Lyu İnin konsepsiyasında sərkərdə ordu rəhbərindən artıqdır: o, xalqın rəhbəridir. Buna görə, onun qeyd olunan xüsusiyyətlərinin əhəmiyyəti ordu çərçivəsi ilə məhdudlaşmır. Lyu İn, «San Lyus» traktatındakı sözləri misal gətirərək, bu haqda danışır: «Hər kim ki, həm mülayim və həm də sərt olmağı bacarırsa, onun dövləti get-gedə daha da çiçəklənir. Hər kim ki, həm zəif və həm də güclü olmağı bacarırsa, onun dövləti get-gedə daha da şöhrət tapır. Hər kim ki, yalnız sərt və güclüdür, onun dövləti hökmən məhv olur» (San Lyus, I f.).

Bütün bunlardan sonra U-tszı bir qədər istehza ilə deyir: «Ümumiyyətlə desək, sərkərdə haqqında düşünən adamlar, adətən onda təkcə igidlik görürlər». «Lakin, sərkərdənin igidliyi– onun yalnız bir tərəfidir»,- U-tszı izah edir. Bu keyfiyyəti elə də dəyərləndirmədiyini onun sözləri göstərir: «Sadəcə, igid adam mütləq sadəlövhcəsinə mübarizəyə cəlb olunur, düşüncəsiz halda mübarizəyə atılan və mənfəətin harada olduğundan ayırd etməyən adam isə yararsızdır».

İgidliyə belə münasibətə U-tszının şəxsi hərəkətlərində də rast gəlinir. Vey Lyao-tszı belə bir hekayə danışır:

«U-tszı müharibədə olarkən, yaxınları ona qılınc bağışladılar. U-tszı dedi: «Sərkərdə bayraqlar və təbillərlə idarə edir, başqa heç nəylə. Çətinliklərlə qarşılaşarkən o, şübhələri həll edir; əsgərləri ruhlandıraraq, o, qılıncları hara yönəltməyi göstərir.

Budur sərkərdənin işi! Qılınc oynatmaq– sərkərdənin işi deyil» (Vey Lyao-tszı, VIII f.).

Bu sözlərdə, heç nə ilə nəzarət olunmayan igidliyin özündə gizlətdiyi təhlükəyə sadəcə işarə olunmur, burada sərkərdənin roluna məlum prinsipial baxış vardır. Ümumiyyətlə, qədim çin mütəfəkkirlərinə belə bir əqidə xas idi ki, öz-özlüyündə götürülmüş hər hansı bir keyfiyyət və ya əsas mənfi simadır. Yalnız keyfiyyətcə ona uyğun olan başqası ilə ahəngdə o özünün həqiqi mahiyyətini və dəyərini göstərir. Konfusinin az qala bütün başlanğıcların əsasını gördüyü humanizm ilk baxışdan nə qədər dəyərli keyfiyyət olsa da, ancaq artıq Men-tszı qeyd edirdi ki, humanizmin Konfusi və onun ardıcılları tərəfindən birtərəfli nəzərə alınması əslində düz deyil və təhlükəlidir. Men-tszı üçün humanistlik yalnız ədalətlə birləşəndə müsbət keyfiyyət olur. Ədalətsiz humanizm– humanistlik deyil, həmçinin də humanizm olmayan ədalət– ədalət deyil.

Bu nəzər nöqtəsi mərdliyə də aid olunur. Çjunyun– qədim çin fəlsəfəsinin gözəl kitablarından biri– igidlik haqqında, mərdlik haqqında danışır, ancaq mücərrəd halda yox: mərdlik ağıl və humanistliklə bağlıdır.

Çjunyunda yazılmış təlimə görə, yalnız ağıla əsaslanan və humanistliklə dolub-daşan mərdlik əsl mərdlikdir. Əlbəttə, qeyrətsiz ağıl,– faydasız, insanpərvərlikdən uzaq ağıl– boşdur və ağılsız humanistlik– boş, mətanətsiz humanistlik– əbəsdir.

O dövrün fəlsəfi fikrinin bu ümumi düşüncə tərzi U-tszının misal gətirilən sözlərində deyildiyi kimidir: başqa keyfiyyətlərlə tamamlanmadan edilən igidliyə mənfi münasibət bəslənilir. O, sərkərdənin qarşısına tamamilə başqa tələblər qoyur:

Birinci tələb– orduya rəhbərlik etmənin əsas prinsipini başa düşməkdir. Sun-tszı deyirdi: «Kütlələri (yəni, çoxsaylı ordunu– N.K.) idarə etmək– elə az adamı (yəni, kiçik dəstəni– N.K.) idarə etmək kimidir». Ordunu idarəetmə prinsipinin nədən ibarət olduğunu izah etmək üçün U-tszı bu fikri təkrarlayır. Ancaq Sun-tszı bütün mühakimələri komandanlığı asanlaşdırmaq üçün müəyyən hərbi hisslər yaratmaq məsləhətilə izah edir. U-tszı böyük ordunu kiçik dəstəni olduğu kimi asanlıqla idarə etməyin necə mümkün olduğunu heç cür anlatmır. Onun əvvəlki deyimlərinə əsaslanaraq, təkcə onu ehtimal etmək olar ki, o, həm ayrıca fərdin, həm də çoxlarının hərəkətlərini lazımi qaydada idarə etməyə imkan verən insan təbiətini bilməyi nəzərdə tutur.

İkinci tələb– özündə düşmənlə qarşılaşmağa daimi hazırlığı tərbiyə etməkdir. U-tszının obrazlı deyiminə görə, həmişə elə vəziyyətdə olmaq lazımdır ki, «sanki darvazadan çıxan kimi qarşında düşməni görəcəksən».

Üçüncü tələb– şücaət. U-tszı şücaəti belə xarakterizə edir: «Düşmənlə üz-üzə dayandıqda, həyat haqqında düşünməməli». Lyu İn bu xarakteristikanı daha geniş şəkildə verir: «Düşmənlə üz-üzə

olduqda, ölüm əzmi ilə dolu olmalı, həyat qayğıları ilə coşub-daşan ürəyə sahib olmamalı».

Dördüncü tələb– ehtiyatlılıq. Beşinci– sadəlik.

U-tszı sərkərdə haqqında mülahizələrinin bu hissəsini sərkərdənin özünün «qanunu», onun davranış qanununu müəyyənləşdirməklə bitirir:

«Əmr almaq və ailəsi ilə görüşməmək, düşməni darmadağın etmək və yalnız bundan sonra evə qayıtmaq– budur sərkərdənin qanunu».

Vey Lyao-tszı da bu fikri inkişaf etdirir:

«Sərkərdə əmr (yəni təyinat– N.K.) alanda, o, evini unudur; ordusu ilə hərəkət edərkən və çöldə gecələyərkən, o, doğmalarını unudur, o, toxmağını götürüb təbilə vuranda (yəni, döyüş siqnalı verirsə– N.K.) özünü unudur» (Vey Lyao-tszı, VIII f.).

Vey Lyao-tszının bu sözləri, kontekstı nəzərə alsaq, məhz U-tszıya aiddir. Görünür, öz vəzifələrinə belə münasibət bu məşhur sərkərdənin xarakterik xüsusiyyəti idi.

İkinci hissə

Sərkərdə haqqında mühakimələrini davam edərək, U-tszı kimin yaxşı sərkərdə adlandırıla biləcəyi məsələsinə keçir.

Bu məsələyə o, iki tərəfdən baxır: sərkərdənin bilməsi vacib olan bəzi biliklər var və bəzi xüsusiyyətlər var ki, o, mütləq onlara malik olmalıdır.

Sərkərdə, U-tszının müharibənin «hərəkətverici quvvəsi» adlandırdığının nə olduğunu bilməlidir. O, dörd belə «qüvvə» sadalayır: sərkərdənin özünün «ruhu», onun şəxsiyyətinin nüfuzu; hərbi əməliyyatların gedişatına təsir edən «ərazi»; «fəaliyyətlər», yəni, tədbirlərin bütün məcmusu, «güc», yəni hərbi qüvvənin vəziyyəti.

Birinci «hərəkətverici qüvvə» haqqında U-tszı qətiyyətlə danışır:

«Bütün ordu kütləsinin, bütün milyonluq qoşunun fəaliyyətinin yüngül və ya çətinliyi bir adamda, yəni sərkərdədədir». Lyu İn bu fikri belə izah edir: «Bütün milyonluq kütlənin ruhu bir adamın ruhunda olduğu üçün, bu o mənada ruhun hərəkətverici qüvvəsi adlanır.

Buna görə, əgər sərkərdə cəsurdursa– onun əsgərləri də güclüdürlər; əgər sərkərdə qorxaqdırsa– onun əsgərləri də zəifdirlər».

Digər qədim strateqlər də ruha böyük əhəmiyyət verirlər.

Vey Lyao-tszı deyir: «Sərkərdənin döyüşdüyü qüvvə, xalqdır. Xalqın döyüşdüyü qüvvə, ruhdur» (Vey Lyao-tszı, IV f.). Buna görə də, Sun-tszı sərkərdənin hərəkətlərində məhz «ruhu idarəetməni» birinci yerə qoyur (Sun-tszı, VII f., 13 b.). Vey Lyao-tszı da o barədə danışır: «Ordunun rəhbəri– ürək, onun tabeliyində olanlar əllər və ayaqlardır». Əgər ürək əminliklə doludursa, əllər və ayaqlar

güclüdürlər; əgər ki, ürək çaşqınlıqla doludursa, əllər və ayaqlar ona tabe olmayacaqlar» (Vey Lyao-tszı, V f.).

Başqa bir yerdə Vey Lyao-tszı deyir: «Döyüşdə vacibdir ki, sərkərdə əsgərlərini ruhlandırsın. Bu elə ürəyin əlləri və ayaqları idarə etməsi kimidir. Ruh yüksəkliyi olmasa, əsgərlər borca sədaqətləri üzündən ölümə getməyəcəklər. Və əgər əsgərlər borca sədaqət üzündən ölümə getməsələr, heç kim döyüşməyəcək» (Vey Lyao-tszı, IV f.).

Li Vey-qunun fikri U-tszının görüşləri ilə uyğun gəlir:

«Həyat verilmiş və qanı axan varlıq ölümü nəzərə almadan, ruh yüksəkliyi ilə mübarizə aparırsa, onu bu hala gətirən ruhdur». Buna görə, müharibə aparılması qaydaları hər şeydən əvvəl, mütləq öz zabit və əsgərlərini tanımaqdan, onlarda qələbə ruhunu oyatmaqdan ibarətdir. Məhz bu üsulla düşməni məhv etmək olar» (Li Vey-qun, vendzuy, III f., s.57).

İkinci «hərəkətverici qüvvə»– ərazidir. U-tszı, ələ keçirilməsi qalibiyyətin hərəkətverici qüvvəsini təşkil edə biləcək ərazini təsvir edir. «Yol dar, dolanbacdır, ətrafda uca dağlar, dik divarlar». Bunlar, təbii qalanı təmsil edən ərazinin əlamətidir.

Tək U-tszı belə ərazini müdafiə üçün ən yaxşı hesab etmirdi.

«Sım metodları»nda sərkərdənin «beş qayğısı» sırasında ərazinin istifadəsi haqda qayğı da göstərilir. İzahatda deyilir: «Ərazidən istifadə etmək– dar keçidlər, yarğanlar, sıldırım dərələr (uçurumlar) arasında müdafiə olunmaq deməkdir» (Sıma fa, III f.). Lyu İn, bu yeri şərh edərək, birbaşa göstərir ki, söhbət U-tszının traktatında danışılan ərazidən gedir.

Üçüncü «hərəkətverici qüvvə», U-tszının dediyi kimi, hərəkətlər, yəni düşmənlə mübarizənin bütün taktikasıdır. U-tszı sərkərdənin istifadə etməli olduğu tədbirləri sadalayır: düşmən içərisinə casuslar göndərilməsi, onun mövqelərinə sürətli hissələrin yollanması, düşmən qüvvələrinin parçalanması, onun düşərgəsində nifaq salınması. Bu tədbirlərin demək olar hamını Sun-tszı da nəzərdə tutur, belə ki, bu məddədə qədim Çinin hər iki tanınmış strategi tamamilə həmfikirdirlər.

Dördüncü «hərəkətverici qüvvə»– gücdür. Burada U-tszının fikri iki tələbə cəlb olunur: yaxşı təlim görmüş orduya, ən yaxşı silaha malik olmaq vacibdir. Birinci tələb haqqında onun bu sözləri var: «Əsgərlər hərbi nizama öyrədilmişdir, atlar qaçmağa alışqandır»; ikinci haqqında bu sözlər: «cəng arabalarının oxları möhkəmdir, gəmilərin avarları yaxşı işləyir».

Lyu İn bu sözləri belə izah edir:

«Cəng arabalarının oxları bərk olduqda– onlar quruda döyüşə hazırdırlar; gəmilərin avarları yaxşı işləyəndə– suda döyüşə hazırdırlar; əsgərlər hərbi nizamda təcrübəlidirlərsə, bu, onların təliminin müəyyən qaydalara əsaslandığını göstərir; atlar qaçmağa

alışqandırlarsa, bu onların məşqlərində müəyyən sistemin olduğunu göstərir».

Hərbi uğurun dörd «hərəkətverici qüvvəsi» bunlardır. Onları bilmək hər bir sərkərdə üçün vacibdir. Ancaq yaxşı sərkərdə olmaq üçün həm də şəxsi, xüsusi keyfiyyətlərə malik olmaq lazımdır.

Bütün Çin strateqləri sərkərdənin şəxsi keyfiyyətlərindən danışırlar. Sun-tszı traktatın birinci fəslində bu keyfiyyətləri sadalayır: ağıl, qərəzsizlik, humanistlik, mərdlik, sərtlik (Sun-tszı, I f.). «Lyu tao» sərkərdədən ağıl, humanistlik, doğruluq, səmimilik tələb edərək, bu tələbi aşağıdakı fikirlərlə əsaslandırır: «Sərkərdə igiddirsə, onu məğlub etmək olmaz; o, ağıllıdırsa, onu çaşdırmaq olmaz; humanist olarsa, deməli, adamları sevir; doğruçudursa, bu o deməkdir ki, o, aldatmaz; sərkərdə səmimidirsə, deməli, ikiürəkli deyil» (Lyu tao, Lun tao, XIX f.). Beləliklə, «Lyu tao» az qala bütünlüklə Sun-tszının irəli sürdüyü tələbləri təkrarlayır.

U-tszı məsələyə bir az başqa cür yanaşır. O, dörd keyfiyyət tələb edir: amirlik, comərdlik, humanistlik və igidlik. «Arxanca tabeliyində olanları apararkən qoşunda sakitliyi saxlamaq, düşməni qorxutmaq, bütün şübhələri dağıtmaq üçün» bu keyfiyyətlər kifayətdir. Bu keyfiyyətlər sərkərdədə olduqda «o, əmr edir– və tabeliyində olanlar itaət etməməyə cürət etmirlər. O, hər hansı bir yerdə olur– və düşmən ona qarşı çıxmağa cəsarət etmir».

Lyu İn, bu dörd xüsusiyyətdən məhz hansının bu və ya digər nəticəni təyin etdiyini müəyyənləşdirməyə çalışır. Onun fikrincə, orduda sakitlik sərkərdənin comərdliyi və humanistliyi ilə yaradılır; tabeçiliyində olanların hər hansı şübhələrinin aradan qaldırılması və düşmənə qorxu təlqin edilməsi sərkərdənin igidliyi ilə əldə olunur; bütün əmrlərə sözsüz əməl edilməsi sərkərdənin amirliyi, yəni onun gücü, nüfuzu ilə şərtlənir.

İki keyfiyyətin– comərdlik və humanistliyin– «mülki əsaslar» kateqoriyasına, digər ikisinin isə– amirlik və igidliyin– «hərbi əsaslar» kateqoriyasına aid olduğunu müşahidə etmək çətin deyil.

Yalnız bu dörd keyfiyyətə malik olan sərkərdəni U-tszı yaxşı adlandırmağı mümkün hesab edir. Bu qiymətin nə qədər yüksək olduğunu onun sözləri sübut edir: «Əgər belə adam tapılarsa, dövlət güclü olar; əgər belə adam itirilərsə, dövlət məhv olar».

Üçüncü hissə

Sərkərdə orduya rəhbərlik edir. U-tszı bu rəhbərlik barədə bir qədər özünəməxsus şəkildə düşünür.

Adamlara rəhbərlik etmək nə deməkdir? Onun fikrincə, bu onlara təsir etməkdir. Adamların fəaliyyətini nə idarə edir? Onların xarici aləmdən aldıqları təəssüratlar; onların gördükləri; onların eşitdikləri; onların hiss etdikləri. Deməli, adamları bu və ya digər hərəkətləri etməyə vadar etmək üçün, onların qulağına, gözünə və ürəklərinə təsir etmək lazımdır.

Hələ hərb sənəti haqqında qədim Çin traktatında, Çjan Yuyenin Sun-tszıya şərhində gətirdiyi sitatda deyilirdi ki, böyük insan kütlələri toplandığı şəraitdə «danışdıqları zaman bir-birlərini eşitmirlər» (yəni, səslə verilən komanda eşidilmir). Buna görə, bu qədim traktatda deyilir, «təbillər və sinclər hazırlayırlar». U-tszı səslə verilən komandaları əvəz edən səsli xəbərdarlıq vasitələrini sadalayır: təbillər, nağaralar, sinclər və zənglər. Bu alətlərdən hər biri komandanın müəyyən növü üçün istifadə olunur.

Belə ki, məsələn, təbil zərbəsi hücuma, irəli keçmək siqnalıdır, sincə vurulan zərbə– geri çəkilmək, dönmək siqnalıdır.

Gözə nə ilə təsir etmək olar? Əlbəttə, jestlərlə komanda vermək olar, ancaq, elə həmin qədim traktatın dediyi kimi, çoxlu sayda adamların toplandığı şəraitdə, baxanda bir-birlərini görmürlər». Buna görə, «nişanlar və bayraqlar hazırlayırlar». U-tszı optik xəbərdarlıq vasitələrini sadalayır: boncuqlar, bayraqlar, şüarlar və nişanlar.

Ürəyə nə ilə təsir etmək olar? U-tszı cavab verir: «qadağalar və əmrlər, cəza və tənbehlərlə». «Tənbeh» dedikdə adi «cəzadan» daha ağır bir şey nəzərdə tutulurdu; sonralar «tənbeh» dedikdə məhkəmə cəzasını, «cəza» dedikdə isə– inzibati və ya intizam cəzaları başa düşülürdü.

Üçüncü fəslin bu hissəsi, sərkərdənin qüdrəti tərənnüm edilən, bizə məlum olmayan qədim blir əsərdən götürülmüş şerlə bitir:

«Sərkərdə işarə ilə çağırar, hamı yanına, hamı ardınca! Sərkərdə əmr verər– hamı irəli, hamı ölümə!»

Dördüncü hissə

Ordunun qarşısında başqa ordu olur. Sərkərdənin qarşısında başqa sərkərdə olur. Əgər uğur sərkərdənin keyfiyyətlərindən asılıdırsa, onda bu uğur həm də düşmən tərəfin sərkərdəsinin keyfiyyətlərindən asılıdır. Buna görə, düşmən sərkərdənin keyfiyyətlərini də bilmək vacibdir. Bu keyfiyyətlər nəzərə alınaraq, düşmənlə mübarizənin bu və ya digər taktikası işlənib hazırlanır.

IV fəslin dördüncü hissəsi elə bu mövzuya həsr olunub. Mübarizənin bu və ya diğər taktikası müəyyən mənada düşmən sərkərdəsinin şəxsi keyfiyyətləri ilə təyin edilir.

Əgər o, axmaq, şöhrətpərəstdirsə, qətiyyətsizdirsə, hər cürə dəyişikliklərə asanlıqla gedirsə, onunla bacarmaq asandır; axmaq sərkərdəni aldadıb tələyə salmaq, şöhrətpərəsti– rüşvətlə ələ almaq, istənilən dəyişikliyə sakit baxan sərkərdəni hər cürə hərəkətlərə cəlb edərək gücdən salmaq, qətiyyətsizi–qorxutmaq olar. İşinə görə də düşmən sərkərdə haqqında fikir söyləmək olar.

U-tszı onun orduya rəhbərlik etmək bacarığının olmadığını bildirən dörd hərəkətini göstərir. İlk iki hərəkət hücum əməliyyatları vaxtı onun strategiyasına aiddir. Bir sərkərdə hücum üçün rahat yol seçməyə can atır, məsələn, maili müstəvi üzrə aşağı enən yol seçir.

Bu zaman o,arxasında yoxuş qaldığını nəzərə almır və bununla da, geri çəkilməli olduğu halda özünü çox çətin vəziyyətdə qoyur. Digər sərkərdə əksinə edir: özünün geri çəkilməsi üçün rahat yolun olması qeydinə qalır, maili müstəvi üzrə üzüyuxarı hücum etmənin çətinliklərinə əhəmiyyət vermir.Yüksəklikdən enərək hücum edən sərkərdəyə aşağı enməyə mane olmaq lazım deyil. Onu enişin sonunda gözləmək, hücum edən hissələrini bir yerə toplanmağa imkan tapmamış növbə ilə darmadağın etmək lazımdır.

Sərkərdənin iki digər hərəkəti mövqe seçməkdə təcrübəsiz olduğunu göstərir. O, ordusunu aran və rütubətli ərazidə yerləşdirə bilər. Əgər bu zaman güclü yağışlar yağıbsa. Sun-tszının traktatında deyildiyi kimi, «su ilə hücum» təşkil etmək, yəni onu batırmaq lazımdır. Sərkərdə ordusunu sıx kolluq olan ərazidə yerləşdirə bilər. Əgər bu vaxt külək ona tərəf əsirsə, «odla hücum» etmək, yəni düşərgəsini yandırmaq lazımdır.

Əsgərlərin ona münasibəti ilə də sərkərdə haqqında fikir söyləmək olar. Tabeçiliyində olanların ona laqeyd münasibəti onun nüfuzu olmadığına sübutdur. Belə olan halda onun əmrləri təsir etməyəcək, əsgərlər ancaq evə qayıtmaq haqqında fikirləşəcəklər. Onların yolunu açmaq, əsgərlər getmək istədikdə onları hissə-hissə məhv etmək lazımdır. Nəhayət, ölkəsinin nə vəziyyətdə olduğunu nəzərə alıb, sərkərdə haqqında fikir söyləmək olar: «Əgər onun böyükləri zəngin və lovğadırlarsa, kiçikləri isə kasıbdırlar və şikayətlənirlərsə», orduda da vəziyyət bu cür olmalıdır. Bu halda «onları ayırmaq», sərkərdə ilə əsgərləri arasında ədavəti gücləndirmək lazımdır.

Beşinci hissə

Düşmənin rəhbərliyinin necə olduğunu müəyyənləşdirməyin bir yolu da var. Bu, döyüş vasitəsi ilə kəşfiyyat etməkdir. Bu haqda U-tszı fəslin son hissəsində danışır.

U-tszı kiçik bir seçmə dəstəni kəşfiyyata göndərməyi məsləhət görür. Bu dəstə iti hərəkət edən əsgərlərdən, yəni onun «ayaqdan yüngül» olanlarından təşkil edilməlidir. Kəşfiyyatın taktikası belə olmalıdır:

«Düşmənlə döyüşə girmək, lakin o böyük qüvvələrini döyüşə yeridən kimi dərhal geri çəkilmək lazımdır». Bu zaman onun əsgərlərinin necə getdiyini və düşmənin təqibi nə cür apardığını müşahidə etmək vacibdir. Əgər onun hissələri mütəşəkkil formada, tam döyüş nizamında hərəkət edirlərsə, əgər düşmən təqibi ehtiyatla edirsə, geri çəkilənləri aldadıcı ləngimə ilə saxlamağa cəhd edirsə, əgər o özünü guya geri çəkilənlərə fikir verməyir kimi göstərirsə və düşünürsə ki, bu halda geri çəkilənlər ehtiyatsızlıq edəcək və onları məhv etmək asan olacaq– bütün bunlar düşmən sərkərdənin ağıllı olduğunu göstərir. Yox, əgər onun hissələri nizamsız irəliləyəcəksə, əgər qarşı tərəf fikirləşmədən təqib ediləcəksə, əgər o rəqibin cavab

tədbirləri görə biləcəyini düşünmədən qarşısına çıxan istənilən mənfəətdən faydalanmağa tələsəcəksə, bütün bunlar düşmən sərkərdənin axmaq olduğunu göstərir. Nəticə, beləliklə, aydındır ki, birinci sərkərdə ilə döyüşə girmək lazım deyil, ikincisi haqqında isə U-tszı deyir:

«Onun ordusu lap çox olsun, onu tutmaq olar».

V FƏSİL

U-tszının beşinci fəsli «Dəyişikliklər haqqında» adlanır. Lyu İn bu fəslə şərhini aşağıdakı sözlərlə başlayır: «Əgər müharibə apararkən bir tək ümumi qaydaları bilərək, zamandan asılı olaraq hansı dəyişikliklər baş verdiyini, şəraitdən asılı olaraq hansı dəyişikliklərin ortaya çıxacağını bilməsən, hər hansı bir gözlənilməzlik halında necə qələbə çalmaq olar?»

Sun-tszının əsərində bütün VIII fəsil «dəyişikliklərə» həsr edilib. Müharibə aparmağın müxtəlif qaydalarını anladaraq, bu fəsildə müəllif deyir:

«Elə yollar olur ki, onlarla getmirlər; elə ordular olur ki, onlara hücum etmirlər; elə qalalar olur ki, uğrunda mübarizə aparmırlar; elə ərazilər olur ki, onlardan ötrü döyüşmürlər; hökmdarın elə fərmanları olur ki, onları yerinə yetirmirlər» (Sun-tszı, VIII f., 3 b.).

Əvvəlki göstərişlərlə müqayisə edildikdə, bu sözlərin mənası budur: qaydalar var, ancaq istisna hallar da olur.

Daha sonra Sun-tszı deyir: «Doqquz dəyişmədə» faydalı nə olduğunu dərk etməmiş sərkərdə, hətta ərazinin quruluşunu bilsə də ərazidən faydalana bilməz» (Sun-tszı, VIII f., 4 b.).

Digər deyimlərlə tutuşdurduqda, bu sözlər praktikada ümumi nizamnamə olmadığını bildirir: hər bir nizamnamə hər vaxt hər hansı bir modifikasiyada çıxış edir, o «doqquz», yəni sonsuz dəyişikliyə məruz qalır.

Beləliklə, hər iki köhnə strateq, bir tək qaydaları bilməyin kifayət etmədiyi, «dəyişiklikləri» də bilmənin vacib olduğu fikrinə tərəfdardırlar.

Birinci hissə

Bu fəslin birinci hissəsi ancaq müqəddimədir. Müxtəlif hallarda, şəraitin müxtəlif dəyişiklikləri zamanı necə hərəkət etmək haqqında məsləhətlərə keçməmişdən əvvəl, U-tszı taktikanı asanlıqla və sərbəst dəyişməyi mümkün edən təxmini şərti göstərməyi vacib hesab edir. Bu şərt– ordunun necə təlim aldığıdır. Yaxşı təlim almış ordu ilə bütün təsadüflər və gözlənilməzliklərin öhdəsindən asanlıqla gəlmək olar. Vey knyazı soruşur ki, əgər ordu düşmənlə qəfil üz-üzə gəldikdə çaşqınlıq yaranırsa, nə etmək lahımdır. U-tszı knyazın gözlədiyi konkret göstərişlər əvəzinə,

gözlənilmədən ümumi nizamnaməni təqdim edir ki, o da elə müqqədimədir.

«Müharibənin qanunlarına görə,- o, deyir,- günorta hər şey bayraqlarla, boncuqlarla, şüarlarla və nişanlarla uyğunlaşır; gecə hər şey sinclər, təbillər, tütəklər və fleytalarla uyğunlaşdırılır. «Sola» siqnalı verildikdə sola dönürlər, «sağa» siqnalı verildikdə sağa dönürlər» və s. Konkret göstəriş əvəzinə, nəticə etibarilə, sanki hərbi nizamnamədən parça verilir. Lakin, axırıncı ifadə artıq nizamnamə kimi səslənmir: «Əgər ordu sərkərdənin iradəsinə itaət edirsə, əgər komandirlər və əsgərlər əmrləri yerinə yetirirlərsə, döyüş zamanı güclü düşmən, hücum vaxtı möhkəm mövqe olmur».

Bu artıq sualın birbaşa cavabıdır. Əgər ordu sərkərdənin iradəsinə tabedirsə, əgər ordu nizamnamənin öyrətdiyi kimi hərəkət etməyi bacarırsa, knyazın dediyi vəziyyət, yəni düşmənlə qəfil görüş vaxtı pozğunluq, ümumiyyətlə, ola bilməz.

Yeri gəlmişkən qeyd edək ki, traktatın bu yerindən biz onu da öyrəndik ki, qədim Çin ordusunda, əvvəl sadaladığımız səsli xəbərdarlıq vasitələrindən başqa, həm də tütək və fleytalardan istifadə olunub.

İkinci hissə

İlkin şərtləri müəyyən etdikdən sonra, U-tszı müharibədə rast gəlinə biləcək konkret təsadüflərin ayırd edilməsinə keçir.

Birinci sual: mənim qoşunumun sayı az, düşməninki isə çox olduğu bir vəziyyət alınarsa necə olsun?

Sun-tszı bu vəziyyətlə bağlı ümumi qaydalar verir: «Əgər (sənin) qüvvən azdırsa, ondan müdafiə olunmağı bacar»,- traktatın bir yerində o, belə deyir (Sun-tszı, III f., 4 b.).

«Əgər o güclüdürsə, ondan yayın»,- traktatın başqa yerində belə deyilir (Sun-tszı, I f., 7 b.). U-tszı başqa fikirdədir: sayca üstün olan düşmənlə döyüşdən çəkinmək lazımdır, ancaq həmişə yox: düzənlik ərazidə döyüşdən yayınmaq lazımdır, qıraqdan təpələrlə əhatə olunmuş dar dərədə, yəni, dar məkanda isə, döyüşü qəbul etmək lazımdır.

U-tszının traktatının şərhçilərindən biri Quan Çtun-syu bu halda nə üçün düşmənlə döyüşə girməyin mümkünlüyünü izah edir: «Böyük qoşun dar dərədə olanda kiçik olur; kiçik qoşun, dar keçidə düşəndə, böyükdür; qoşun ərazinin faydalı şərtlərin öz xeyrinə işlədir». Belə ərazinin şərtləri hücum edən üçün o qədər sərfəlidir ki, U-tszı belə deməyi lazım bilir: «Bir nəfərin on adama zərbə endirməsi üçün, dar keçiddən yaxşı yer yoxdur». Başqa sözlə desək, bu vəziyyətdə qüvvə üstünlüyü artıq həlledici rol oynamır.

Üçüncü hissə

Görünür, gənc Vey knyazı öz müəllimini çaşdırmaq istəyir. O, soruşur ki, düşmən hər cəhətdən üstündürsə nə etmək lazımdır;

onun qüvvəsi də çoxdur, əsgərlərin hazırlığı da əladır, mövqeyi də əlçatmazdır.

Lakin müəllim yüksəkdə durur: o, hətta belə ümidsiz vəziyyətdən də çıxış yolu tapdı.

U-tszı etiraf edir ki, belə düşmənin üstünə birbaşa, necə deyərlər, qətiyyətlə getmək mənasızdır. Ona üstün gəlmək üçün, bu halda xüsusi usullar lazımdır. O, əvvəlcə düşməni mövqelərini tərk etməyə məcbur etməyi təklif edir. U-tszı, Sun-tszı və qədim Çinin digər strateqləri düşmən düşərgəsinə göndərilən məharətli kəşfiyyatçıların köməyilə nəyə nail olmağı yaxşı bilirdilər. Buna görə də o, hətta sənin nəyi isə təklif edən, nəsə ləğv edən, nə iləsə hədələyən, qanını qaraldan, nəyəsə təhrik edən, məktubunu aparan öz agentini düşmənin yanına göndərməyi və onun mövqedən ayrılmasına nail olmağa çalışmağı məsləhət bilir.

U-tszı bu üsulun arzulanan nəticələr verə bilməyəcəyini də qabaqcadan görür: bu zaman döyüşməkdən başqa yol yoxdur.

U-tszı bu halda necə hərəkət etmək haqqında nəsihətlər verir. Hücumu elə hazırlamaq lazımdır ki, düşmən qabaqcadan zərbənin haradan gələcəyini müəyyən edə bilməsin. Öz qüvvələrini beş hissəyə ayırmaq, onlarla müxtəlif istiqamətlərdə hərəkət etmək və düşməni hər tərəfdən narahat etmək lazımdır. Nəticədə düşmən U-tszının belə ifadə etdiyi bir vəziyyətə düşür: «Beş dəstə beş istiqamətdə hərəkət etməyə başladıqda düşmən mütləq çaşacaq və zərbənin hansı tərəfdən endiriləcəyini bilməyəcək». Sun-tszının haqqında belə danışdığı vəziyyət yaranır.

«Düşmən harada döyüşəcəyini bilmir. Bir halda ki, o bunu bilmir, onda onun hazır olmalı olduğu yer çoxdur. Əgər belə yer çoxdursa, mənimlə döyüşənləri azdır... Hər yerdə hazır olmalı olanın qüvvəsi azdır; başqasını hər yerdə hazırlıqlı olmağa vadar edənin qüvvəsi çoxdur» (Sun-tszı, VI f. 8 b.)

U-tszı kimi Sun-tszı da təsvir edilmiş şərait yaradılmasında düşmənin say üstünlüyünü heçə endirməyin ən yaxşı üsulunu görür. Bununla yanaşı hər tərəfdən hücum gözləmək zəruriyyəti ən zəif yerlərin yaranmasına gətirib çıxarır. Məhz bu yerləri aşkar etmək lazımdır. V fəslin bu hissəsində bunun necə edildiyi və zəif yer aşkar edildikdən sonra necə hərəkət etmək lazım olduğu haqda danışılır.

Mətndəki «ağızlarında çubuq tutaraq» sözləri, hərfi və məcazi məna daşıyır; düşmənə qəfil zərbə endirmək üçün ona yaxınlaşan vaxt qoşunların səssiz hərəkət etməsi üçün, əsgərləri, danışmaqlarına mane olmaqdan ötəri dişlərinin arasında çubuq tutmağa məcbur edirdilər; məcazi mənada bu ifadə «tam səssizlik», «azacıq səs olmadan» mənasında işlədilirdi.

Dördüncü hissə

Vey knyazının müsahibinə həllini tapmaq üçün təqdim etdiyi yeni vəziyyət aşağıdakılardan ibarətdir: düşmən məni hədələyir, mən

isə nəyə görəsə döyüşü qəbul edə bilmirəm, geri çəkilməyə yer yoxdur və əsgərlər geri çəkilmək üçün yol olmadığını görüb dəhşət içindədilərsə, bu halda nə etməli?

U-tszının cavabından görürük ki, o vaxtlar qoşunun sayına böyük əhəmiyyət verildiyini görürük. U-tszı bu fikrə əsaslanaraq taktikasını qurur: hərəkət seçimi, qüvvə üstünlüyünün kimin tərəfindən olmasından asılıdır.

U-tszı özünün başqa fikrinə də sadiq qalır: bütün çətin hallarda kombinasiya edilmiş zərbə taktikasından, yəni qüvvələrini müxtəlif istiqamətlərdə əməliyyat aparan, ayrı-ayrı hissələrə ayırmaq və müxtəlif tərəflərdən zərbə endirmək taktikasından istifadə etmək lazımdır. O, bu halda da belə etməyi təklif edir, özü də qeyd edir ki, bu taktikadan yalnız qüvvə üstünlüyü sənin tərəfində olduqda istifadə etmək olar. Əgər üstünlük sənin tərəfində deyilsə, müxtəlif üsullardan istifadə etmək lazımdır, ancaq mütləq düşmənə bir dəqiqə belə dinclik vermədən.

Beşinci hissə

Knyaz təzə vəziyyət təklif edir; düşmənin üstün qüvvəsi ilə qarşılaşma, hər iki tərəfi dik qayalar və yarğanlar olan dərədə baş verir. Bu vəziyyətin mahiyyəti belədir: belə vəziyyətdə cəbhə boyu düzülmə üçün yer yoxdur və özünü düşmən zərbəsi altına qoyaraq döyüş aparmaq lazım gəlir.

U-tszının cavabı qədim Çin sərkərdələrinin belə vəziyyəti necə ciddi qiymətləndirdiklərini sübut edir. Onun məsləhət gördüyü birinci şərt– belə yerdən mümkün qədər cəld keçib getmək, iti irəliləyişlə düşmənə zərbə endirmək üçün imkan verməməkdir. Və əgər döyüş qaçılmaz olarsa, bu vaxt təbil zərbələri, hərbi çağırışlar, arası kəsilməyən oxlarla, qısa zərbələrlə düşmənə elə təsir etmək lazımdır ki, onun hücum həmlələrini pozmaq və sıralarında çaşqınlıq yaratmaq mümkün olsun. Lyu İn belə deyir:

«Ox-yayla və kamanla hücuma keçmək, ox atmaq və əsirlər götürmək– onun zəif yerlərinə təsir etməkdir. Bundan sonra diqqətlə onun sıralarındakı intizam və qarışıqlığı müşahidə etmək lazımdır. Əgər düşmən ordusunda qarışıqlıq yaranarsa, tərəddüd etmədən dərhal hücum etmək lazımdır. Əgər qoşundakı intizam qorunursa, bu zaman qarışıqlıq salmaq üçün bütün tədbirlər görmək lazımdır.

Altıncı hissə

Altıncı hissədə «dərədə döyüş» təhlükəsi olduqda nə etmək lazım gəldiyi izah olunur. Dərə dedikdə, ərazisi çox da böyük olmayan, sağdan və soldan dağlarla əhatə olunmuş ərazi nəzərdə tutulur. U-tszı hesab edir ki, imkan daxilində hələ həlledici vuruşa başlamamışdan əvvəl dar yerdən geniş əraziyə çıxmaq üçün bütün qüvvəni sərf etmək lazımdır. Bu ona görə lazımdır ki, dar məkanda həlledici vuruş üçün lazımi sıra düzülüşü etmək mümkün deyil.

Dərədən çıxmağa düşmənin mane olmaması üçün nə etməli? U-tszı özünün ən yaxşı hissələrini düşmən üstünə yeritməyi, qoşunun əsas kütləsinin avanqardında yüngül piyada qoşunu yerləşdirməyi, eyni zamanda, cəng arabalarını ayrı-ayrı qruplara bölüb, hər qrupa bir süvari dəstəsi verməyi və bu birləşmələri müxtəlif istiqamətlərdə göndərməyi məsləhət görür. U-tszı hesab edir ki, bu hərəkətlə düşməni gözlənilməz tərəfdən zərbələrdən çəkinməyə, tələ qurulduğunu fikirləşməyə məcbur edəcək, düşməni çaşdıracaq ki, sərkərdə öz qoşununu cəld dərədən çıxarmaq üçün elə bundan istifadə etməlidir.

Yeddinci hissə

«Dərədə döyüş»ü necə keçirməyi göstərdikdən sonra U-tszı «bataqlıq ərazidə döyüş» taktikasına keçir. Əslində, bu halda o birbaşa göstərişlər vermir, təkcə diqqəti ona yönəldir ki, belə ərazidə cəng arabalarının və süvari hissələrinin hərəkəti, ümumiyyətlə, istisna edilir, o ərazini diqqətlə əsaslı surətdə öyrənməyi və bunun əsasında da hərəkət planını işləyib hazırlamağı məsləhət görür.

Səkkizinci hissə

U-tszı hava şəraitinin hərbi əməliyyatlara təsirini də nəzərə alır. Yağışların arabaların hərəkətini bərk çətinləşdirdiyi haqda onun fikri təbiidir; lakin bir maraqlı detal var: əgər yağışlar yağarkən düşmən qabaqda gedibsə, onda öz arabalarını onun arabalarının qoyduğu izlə aparmaq lazımdır.

Doqquzuncu hissə

Vey knyazı soruşur: «Fərz edək ki, qəflətən azğın quldurlar peyda olur, mənim sahələrimi boşaldır, mal-qaramı aparır, bu halda nə etməli?»

Əlbəttə, burada söhbət sözün həqiqi mənasında quldurlardan getmir. Ümumiyyətlə, düşmən qoşunlarını quldur adlandırırdılar. Belə ki, yapon salnaməçiləri, XIII əsrin axırlarında Yaponiyaya hücum etmiş monqolları quldur adlandırırdılar; koreya salnaməçiləri, XIII əsrin axırlarında Koreyaya basqın etmiş yaponları quldur adlandırırlar. Buna görə knyazın bu sözlərini düşmənin qəfil hücumuna işarə kimi başa düşmək lazımdır.

U-tszı cavabında üç tezisə əsaslanır ki, görünür, bu fikirlər onun dövrünün bütün strateqləri tərəfindən qəbul edilmişdi. Onlardan birincisi Sun-tszının məşhur sözlərində öz ifadəsini tapmışdır:

«Səhərlər gümrahdırlar, günorta əzgindirlər, axşam evə qayıtmağı düşünürlər» (Sun-tszı, VII f. 13 b.). Bu sözlər geniş mənada başa düşülməlidir: müharibə başayanda qoşun enirji və döyüşkən ruhla dolu olur, ortaya çatanda artıq bunlar yoxdur, müharibənin axırında isə ümumi yorğunluq özünü göstərir. Buna görə Sun-tszı, «düşmənin ruhu gümrah olanda ondan qaçmağı, o

əzgin olduqda və geri qayıtmaq haqqında düşündüyü vaxt ona zərbə endirməyi» məsləhət görür.

İkinci tezis U-tszı tərəfindən xülasə edilib. İkinci fəslin axırında düşmənə nə vaxt hücum etmək lazım olduğu hallarını sadalayaraq, U-tszı deir: «o qorxu içərisində olanda hücum etmək lazımdır».

Üçüncü müddəaya qədim Çinin hər iki strateqinin əsərlərində dəfələrlə rast gəlinir: onlar düşmənin sıraları dağınıq olanda, ayrı-ayrı hissələr arasında rabitə pozulduqda, hissələrin bəziləri irəlidə, digərləri isə geri qalanda düşmənə hücum etməyi məsləhət görürlər.

Belə qarışıqlığın müxtəlif səbəbləri ola bilər: ordunun düşkünlüyü, coğrafi şərait, sərkərdələrin səhvləri. Bu halda səbəblər özləri deyil, nəticə yəni döyüş sıralarının pozulması mühümdür. Sun-tszı da, U-tszı da bunu «bayraqların nizamsızlığı» adlandırırlar.

Əgər qeyd olunan hər üç şərt göz qabağındadırsa; «axşam», yəni düşmənin döyüşkən ruhunun sönməsi, onu qorxu bürüyübsə və sıralarında qarışıqlıqdırsa, bu zaman nəinki ona hücum etmək olar, hücum lazımdır.

«Quldurların» basqını zamanı, U-tszının fikrincə, bu üç şərtin üçü də mütləq qüvvədə olacaq.

U-tszının nəzərdə tutduğu mənzərə, Lyu İnin izahında belədir: «Azğın quldurlar təzəcə peyda olduqda, onların qüvvəsinin çox böyük olduğunu nəzərə almaq vacibdir; buna görə öz istehkamlarının arxasında gizlənmək və qarşı tərəfi açıq döyüşə cəlb etməyənə qədər cəhd etsə də, döyüşə girməmək lazımdır. Onlar çəkilib getməyə hazırlaşdıqda isə özləri ilə götürəcəkləri qənimət elə ağır olacaq ki, onların ürəyində mütləq qorxu yaranacaq və onlar ehtiyat edəcəklər. Gedərkən, onlar mümkün qədər tez hərəkət etməyə çalışacaqlar, buna görə də düşmən dəstəsinin hissələrindən mütləq geridə qalanları olacaq. Əgər o vaxt onları təqib edib zərbə endirsən, onun qoşunu darmadağın ediləcək».

Onuncu hissə

Sun-tszı traktatının on ikinci fəslində düşmənlə mübarizədə onun əhalisinin məhv edilməsindən, ehtiyatlarının, anbarların yandırılmasından və s. haqqında danışır. Başqa sözlə desək, düşmənin bütün canlı və maddi qüvvəsinin məhv edilməsi üçün müharibə aparırlar. U-tszı əks nəzər-nöqtəsi irəli sürür: düşmənin ölkəsinə daxil olarkən onun əhalisini öz tərəfinə cəlb etmək lazımdır.

Bunun üçün U-tszı ağacları qırmamağı, evləri dağıtmamağı, taxılı götürməməyi, ev heyvanlarını öldürməməyi, ehtiyatları yandırmamağı məsləhət görür. U-tszı daha sonra düşmənin xidmətində olmuş hər kəsə qarşı rəhmli olmağı məsləhət görür: onlara qarşı təkcə heç bir cəza tədbiri görməməyi deyil, hətta onların donluqlarını da verməkdə davam etməyi məsləhət bilir. Müqavimət göstərmədən təslim olanların hamını U-tszı bağışlamağı və sakitləşdirməyi məsləhət görür.

Düşmən üzərində qələbədən sonra ona qarşı belə münasibət göstərilməsini tək U-tszı məsləhət görmür. Təqribən bu dövrə aid olan «Sım qanunları» traktatında belə bir taktika göstərilir: «Günahkarın (yəni, müharibə aparılan ölkənin hökmdarı– N.K.) torpağına daxil olarkən, onun Allahlarını təhqir etmə, onun təsərrüfat yerlərində ov eləmə, sahələrdə mərzlərini (suyu saxlamaq üçün tikilmiş– N.K.) dağıtma, tikililəri yandırma, meşələrini qırma, heyvanlarını, taxılı, azuqələrini və avadanlıqlarını əllərindən alma. Əgər qoca və uşaqlara rast gəlsən, onları hörmətlə evlərinə ötür və onlara toxunma. Əgər cavan adama rastlasan və o, sənə müqavimət göstərməsə, ona düşmən kimi baxma. Əgər düşmənin yaraları varsa, onu sarı və evlərinə burax. Günahkar artıq cızalandırıldıqdan sonra, qalib öz knyazları ilə onun ölkəsində qayda-qanun tətbiq edir. O, müdrikləri yüksəldir, ölkəyə elmli hökmdar təyin edir, bütün vəzifələri qaydaya salır» («Sıma fa», I f.).

VI FƏSİL

Traktatın axırıncı fəsli mükafat və cəzalandırmalardan söhbət açır.

U-tszı əvvəlki fəsillərdə də bir neçə dəfə bu məsələyə toxunmuşdu. Məsələn, ordunu möhkəm, dözümlü, cəsur və döyüşkən adamlardan təşkil etməyi məsləhət verərək, o, demişdir: «Əgər onların ata və anaları, arvad və uşaqlarının qayğısına qalınarsa, əgər onlar səxavətlə mükafatlandırılarsa, və ciddi cəzalandırılarsa, bunlar ordunu möhkəmlədən əsgərlər olacaq: onlarla uzun müddət davam gətirmək olar». (II f., 1 b.). ‹Orduya rəhbərlik etməkdə knyazın başlıca vəzifəsinin nə olduğu sualına cavabında, U-tszı digər məsələlərlə yanaşı, hücum vaxtı yaxşı mükafatlandırmaq və geri çəkilərkən ciddi cəzalandırmağın vacibliyindən danışır (III f., 1b.).

U-tszının bu mövzuya təkidlə qayıtması knyazı bir sual da verməyə həvəsləndirdi: «Cəzalar sərt, mükafatlar ədalətlidirsə, bu qələbə üçün yetərmi?»

«Bir tək buna arxayın olmaq olmaz»,- U-tszı cavab verir. Qələbə üçün digər məsələ daha vacibdir: «Əmrlər veriləndə və adamlar səylə onları yerinə yetirdikləri zaman... ordunu qaldırdıqda... və adamlar həvəslə döyüşdükləri zaman; silahlar çarpazlaşan... və adamlar sevinclə ölən zaman...»,- bax bu zaman hökmdar qələbə çalacağına əminliklə inana bilər.

Təbii, bundan sonra sual meydana çıxır: «Bəs buna necə nail olmalı?» Cavabında U-tszı hökmdarın necə hərəkət etməli olduğu haqda böyük bir nəsihət təqdim edir. Burada ziyafətlər də, hədiyyələr də, həm döyüşçülərin özünə, həm də onların ailələrinə qarşı hər cürə diqqət nişanələri vardır.

Traktatın bu yerində mülahizənin ümumi əsasına təhkiyə elementi daxil edilir: tövsiyə edilən tədbirlərin necə gözəl nəticələr verdiyi haqda danışılır.

Ancaq traktat bununla bitmir. Məlum olur ki, qələbə üçün ən başlıca amil yenə də (ancaq) əsgərlərin ölümə getməyə hazır olmalarıdır. Yalnız bu amil ordunu həqiqətən güclü edir, çünki «həyatından keçməyə hazır olan bir nəfər bəs edər ki, min adamı qorxuya salsın».

U-tszının traktatı, bütün vacib hissələrdə müəyyən doktrinanı şərh edən tamamilə bitmiş əsərdir.

Əlbəttə, bu traktat, hər şeydən əvvəl– hərb sənəti haqqında əsərdir. Eyni zamanda bu traktat «Lunyuy», «Men-tszı», «Lao-tszı» və başqa əsərlərlə yanaşı qədim Çin ədəbiyyatına daxildir. Bütün bu əsərlər o dövrün ədəbi təsirini təmsil edirdi.

İndiki dövrdə işgüzar nəsr və ədəbi nəsr adlandırdığımızın elementləri bu nəsrdə birləşib. Ancaq bu yalnız bizim üçün belədir. Qədim çinlilər üçün nəsrin iki müxtəlif növə bölünməsi yox idi. Bu ona görə belə deyildi ki, o vaxt çinlilər bu kimi fərqləri dərk etməmişdilər, bu ona görə beləydi ki, onlarda nəsrin xüsusi növü, tamamilə sərbəst və bütöv bir növü yaranmışdı. Mən nəsrin bu növünü sintetik adlandırmağı təklif edirəm. Sintetik nəsr Çuntsyu və Çjanqo dövrləri, yəni m.ö.

VIII-II əsrlər Çini– quldarlıq cəmiyyətinin çiçəklənmə dövrü ədəbiyyatı üçün xarakterikdir.

Bu sintetik nəsrin öz janrları vardı. Ən geniş yayılmış janrlardan biri dialoq janrı idi. U-tszının traktatı məhz bu janra aiddir.

Bu janrın əsas əlaməti– şərhi dialoq formasında qurmaqdır. Ancaq o dövr ədəbiyyatının təsdiq etdiyi kimi, bir janrın ümumi haşiyəsində onun müxtəlif modifikasiyaları mövcuddur. Şərh həqiqətən sual və cavab formasında, iki və ya bir neçə şəxsin söhbəti şəklində qurula bilərdi. Elə də olardı ki, əslində heç bir söhbət olmazdı və verilən sual yalnız müzakirə üçün bəhanə idi; sual şəklində ya müzakirə mövzusu xülasə edilirdi, ya da fikir şərh olunurdu ki, sonra öz mülahizələrində müəllif bu tezisi davam etdirirdi. Əslində, bu halda bu dialoq formasından sırf kompozisiya-stilistik üsulu kimi istifadə edilməsi ilə rastlaşırıq. U-tszının traktatı ədəbi nəsr kimi dialoq janrının məhz bu variantına aid edilməlidir.

Əslində, bir sıra hallarda sual açıq-aşkar mövzunun şərhini verir. Məsələn, birinci fəslin beşinci hissəsinin başlandığı sual belədir: «Ordunu necə idarə etmək, insanları necə qiymətləndirmək və dövləti necə möhkəmlətmək lazımdır?» Həmin fəslin altıncı hissəsinin başladığı sual da belələrindəndir: «Necə etmək lazımdır ki, düşərgə hər zaman möhkəm, müdafiə həmişə etibarlı olsun, döyüş hər vaxt qələbəyə gətirib çıxarsın?»

Başqa hallarda sual yalnız mülahizələrin başlanmasına xidmət edir. Məsələn, ikinci fəslin birinci hissəsinin başlandığı sual bu tipdəndir:

«Hal-hazırda Tsin qərbdən məni hədələyir, Çu cənubdan məni mühasirəyə alır, Çjao şimaldan məni sıxışdırır, Tsi şərq istiqamətində qarşımda dayanıb, Yan geriyə yolumu kəsib, Xan irəli yoluma sədd çəkib... mən nə edim?»

Aydındır ki, bu sual yox, ordunun keyfiyyətinin adamların kəmiyyətindən asılılığı, düşmənlə mübarizə üsullarının onun ordusunun keyfiyyətindən asılılığı haqqında sonrakı mülahizələr üçün çıxış nöqtəsidir.

Bəzən formasına görə bu heç sual da deyil, eləcə, ya aralıqdakı, ya son replikadır. Bu kimi replikalar mülahizənin əsas məqsədini xüsusi qeyd etmək üçündür. Aralıq replika kimi üçüncü fəslin ikinci hissəsinin başlanğıcında knyazın ikinci sualını misal göstərmək olar.

Knyaz U-xou soruşdu: «Ordu nə ilə qalib gəlir?»

U-tszı cavab verdi: «Ordu öz müteşəkkilliyi ilə qalib gəlir».

Knyaz U-xou soruşdu: «Məgər sayı ilə deyil?»

Deyilmiş fikri xüsusi qeyd edən son replika kimi, ikinci fəslin birinci hissəsinin sonunu misal gətirmək olar. Burada düşməni qiymətləndirmə vasitələri haqqında təlim inkişaf etdirilir: «Knyaz U-xou dedi: «Yaxşı!»

Bəzən müzakirəyə yad element də- hekayə daxil edilir. Altıncı fəsildə yer almış knyazın hərəkətləri barədə hekayə, U-tszının qələbələri haqqında məlumat buna misal ola bilər. Lakin burada da qeyd etmək lazımdır ki, hekayə elementlərinin üslub (stilistik) müxtəlifliyi, bu kimi hekayələrin müstəqil əhəmiyyət kəsb etməməsilə aradan qaldırılır: hekayə vasitəsilə həm də deyilmiş fikrin vacibliyi qeyd olunur.

U-tszının traktatında bəzi kompozisiya- stilistik üsullar da görmək olar. Xülasə edilmiş fikirlərə say işarələrinin yerləşdirilməsi onlara aiddir. Məsələn, traktatda dörd narazılıq, müharibənin başlandığı beş səbəb, müharibənin beş adı, döyüşə girmək lazım olan səkkiz düşmən, döyüşə girilməsi lazım olmayan altı düşmən, müharibənin dörd «hərəkətverici qüvvəsi» haqqında danışılır.

Əlbəttə, bütün bu hallarda saylar real əhəmiyyət də daşıyır, ancaq onlar, eyni zamanda, həm də kompozisiya-stilistik rol oynayırlar; onlar fəsillərin müqəddiməsi yolu ilə şərhin qaydaya salınmasına xidmət edirlər.

Üçüncü fəslin birinci hissəsində tətbiq edilmiş xülasələrin qəsdli gözlənilməzlikləri də stilistik üsuldur: «Ən əsası– «dörd yüngüllüyü», «iki ağırlığı», bir «qərəzsizliyi» başa düşməkdir. Bu üsul növbəti şərhə diqqəti çəkmək üçündür.

Tarixə müraciət də bir üsuldur. Bəzi hallarda bu müraciət deyilmiş fikrin yaxşı başa düşülməsi üçün misal gətirmək məqsədi güdür. Məsələn, birinci fəslin yeddinci hissəsində Çjuan-qun haqqındakı hekayə buna misaldır. Digər hallarda tarixi məlumat bütün müzakirənin kompozisiya sonluğudur. Məsələn, birinci fəslin ikinci hissəsinin axırıncı abzası belədir:

«Buna görə, Çen Tan Tsze-vanı öldürəndə, Sya xalqı şadlıq etdi».

Yuxarıda qeyd olunanlar hamı, U-tszının traktatının təqdim etdiyi ədəbi janrın daha xarakterik əlamətlərini görməyə imkan verir. Əlamətlər bunlardır: şərhin ümumi danışıq üslubu, üslubun ibrətamizliyi, hekayə xarakterli elementlərin əlavə olunması, felsiz cümlələrin işlədilməsi.

Bu traktatın, o dövrün janrca baxılan əsərə yaxın sintetik nəsr nümunələri ilə müqayisə edilməsi çox maraqlıdır. Bu cür müqayisə, hətta bir janr dairəsində ədəbi üsulların müxtəlifliyini açır.

Men-tszının traktatı da dialoq formasında qurulmuş özünəməxsus mülahizədir. Lakin buradakı dialoq çox vaxt həqiqətən söhbətdir. Məzmunun təhlili göstərir ki, dialoq janrının bu variantı, sadəcə, fikrin şərhi yox, polemika göz qabağında olduqda meydana çıxır. Men-tszı U-tszının traktatından başqa xüsusiyyəti ilə də fərqlənir: U-tszının traktatında, əsasən bir mövzudursa, Men-tszıda çoxlu müxtəlif mövzular vardır. Buna görə, Men-tszının kitabı– çox inkişaf etdirilmiş olsa belə, tək dialoq deyil, mühakimələrlə növbələnən ayrı-ayrı dialoqlar toplusudur.

Beləliklə, U-tszı və Men-tszının əsərləri– sintetik nəsrin dialoq janrının müxtəlif variantlarıdır. Eyni zamanda, biz U-tszının traktatında gördüyümüz stilistik üsullardan çoxuna Men-tszıda da rast gəlirik: çox hallarda mövzunun sadə xülasəsi və ya Men-tszının sonrakı mühakiməsində əsaslandığı başlanğıc olur; tez-tez mövzunun inkişaf etdirilməsi və ya mühakiməni başqa istiqamətə yönəltmək üçün aralıq replikalar tətbiq edilir, saylar da istifadə edilir, U-tszının traktatında olduğu kimi, şərh olunan fikirlərin misallarla izah edilməsi və ya əsaslandırılması məqsədi ilə tarixə istinad edilir.

5

VEY LYAO-TSZI

尉繚子

Tədqiqat 495
Tərcümə 506

*1.*Ğöylərin əlamətləri 506
2.Müharibənin müzakirəsi 507
3.Qanunların müzakirəsi 508
4.Döyüşdə qorxuducu qüvvə 510
5.Hucum zaman qüvvələrin taktiki tarazlıgı 513
6.Qüvvələrin müdafiədə taktiki tarazlıgı 515
7.On iki xəbərdarlıq 517
8.Hərbi Planlar 517
9.Komandanlıq etmək prinsipləri 521
10.Vəzifələrin mənbəyi 521
11.Əsasın idarə edilməsi 522
12.Müharibədə qüvvələrin taktiki tarazlığı 524
13.Sərt cəzalar haqqında əmrlər 525
14. «Beşliklər» üçün əmrlər 526
15. Ərazinin bölünməsi və çəpərlənməsi haqda əmrlər 526
16. «Beşliklərin» əlaqələndirilməsi haqda əmrlər 527
17.Ordunu idarə etmə üzrə əmrlər 528
18.İrəliləmə haqda əmrlər 528
19.Sərkərdənin əmrləri 529
20.Avanqarda əmrlər 530
21.Hərbi nizamnamələr–ı 531
22. Hərbi nizamnamələr–ıı 532
23.Orduya dair əmrlər–ı 535
24. Orduya dair əmrlər–ıı 537

25.Qeydlər 540

TƏDQİQAT

Fərz edirlər ki, «Vey Lyao-tszı» traktatı Lyao adlı (soyadı Vey olan, müvafiq heroqlif, Vey şahlığını bildirən heroqlifdən fərqli yazılır) real tarixi şəxsiyyətin adı ilə «Müəllim», «müdrik» mənasını verən «tszı» heroqlifi kitabın tərtibçiləri tərəfindən əlavə olunub. Şəhadətlərdən birinə görə, o, vaxtilə tanınmış legizm nəzəriyyəçisi, insanlara və dövlətin sərvətlərinə nəzarət edən güclü mərkəzləşdirilmiş hakimiyyət yaratmaq istəyən dövlət xadimi Şan Yanın yanında dərs alıbmış. Başqa bir fərziyyəyə görə, Vey Lyao Çinin birləşdirilməsi uğrunda qızğın mübarizə vaxtı imperator Tsinin baş məsləhətçisi olmuşdur.

Necə olursa-olsun, Vey Lyao gözəl strateq, mahir mütəfəkkir idi. O, başa düşürdü ki, yalnız hərbi və mülkinin birləşməsi qarışıq «Döyüşən Çarlıqlar» dövründə dövlətin yaşamasını təmin edə bilər. O, bir dəfə də olsun öz fikirlərini şəxsi hərbi təcrübəsindən misallarla izah etmir; onun sərkərdə olduğunu sübut edə biləcək tarixi şəhadətlər yoxdur, kitab isə demək olar ki, real taktiki «reseptlər»dən məhrumdur. Beləliklə, kitabın yaradıcısı «təmiz» nəzəriyyəçi kimi qarşımızda durur. Ancaq «Altı məxfi təlim», «Hərb sənəti» və başqa hərbi traktatlardan[1] gözlənilməz hadisələrin, eləcə də orduda təşkilatın və nizam-intizamın dəqiq təsvirinin kitaba daxil edilməsi onun geniş hərbi biliklərə malik olduğunu bildirir.

Ənənələrdən birinə görə, Vey Lyao miladdan əvvəl IV əsrin ikinci yarısında yaşamışdır. Bu o dövr idi ki, kasıb məsləhətçilər, mənəvi keyfiyyətlərindən və dövlət mənsubiyyətindən asılı olmayaraq onlara qulaq asmaq istəyən hakimlər axtarırdılar. Onlardan çoxunun sədaqət və səmimiyyət doktrinasını təbliğ etmələrinə baxmayaraq, təbliğçilər özləri, qəribə də olsa, bu keyfiyyətlərdən tamamilə məhrum idilər. Heç olmazsa lazımi hörmət görənə və müvafiq vəzifə almayana qədər onlar belə olurdular. Ancaq məşhur sərkərdə U Tsinin misal göstərdiyi kimi, vəziyyət dəyişərdisə və mərhəmət rəhmsizliklə əvəz olunardısa, onlar elə də vicdan əzabı çəkmədən, başqa rejimə xidmətə keçirdilər.

Vey– «Döyüşən Çarlıqlar» dövrünün yeni və dəhşətli reallığı ilə qarşılaşan dövlətlərdən biri idi. Tszin dağıldıqdan sonra yaranmış üç dövlətdən biri olan Vey çarlığı nəinki yeddi hegemondan biri ilə hesablaşmaq üçün kifayət qədər qüvvə qoruyub saxlamışdı, hətta başlanğıcda öz hərbi gücünü də artırırdı. Onun qərb sərhədi gələcək Böyük divar boyu uzanırdı, mərkəzi hissəsi isə Çjou vanının torpaqlarından şimala tərəf yerləşirdi. Lakin Veyin ulduzu Xuey-vanın

vaxtında (m.ö. 370-319 illər) parlamağa başladı. Bu dövrdə şahlıq iki sarsıdıcı məğlubiyyətə uğradı və paytaxtı Dalyana köçürməyə məcbur oldu. Əsas məğlubiyyət m.ö. 341-ci ildə Malin yaxınlığında Tsinlə döyüşdə oldu. Amma sonrakı iki onillik güclü dövlətə çevrilmiş, m.ö. 221-ci ildə Çini birləşdirmiş Tsin şahlığı və cənubda yerləşən Çu şahlığı ilə mübarizədə bir neçə uğursuzluqla nəticələndi. Paytaxtı köçürtdükdən sonra hökmdar dövləti Lyan, özünü isə «Lyan hökmdarı» adlandırdı.

«Vey Lyao-tszı»nın birinci fəslində, Vey Lyaonun, təkcə Veyin sarsılmış müdafiəsini möhkəmlədəcək deyil, həm də düşmənə qalib gəlib, verdiyi itkilərə görə ondan intiqam almağa imkan verəcək siyasi və hərbi biliklərə susamış Xuey-vana cavabları verilir. Məşhur konfutsian Men-tszı təxminən həmin vaxtlarda Xuey-vanın yanına gəldikdə, hökmdar söhbətə bu sözlərlə başladı: «Şərqdə mən Tsiyə məğlub oldum, böyük oğlum isə orada həlak oldu. Qərbdə biz bir neçə yüz li ərazini Tsin şahlığına güzəştə getdik. Cənubda Çu üzərimizə hücum edir. Mən bundan utanıram».

Xuey-van çəkinmədən Vey Lyao ilə söhbətini də bu mövzudan başladı: «Düzdür ki, Sarı İmperator cəzalar və səxavət sayəsində yüz qələbə qazanıb [bir dəfə də məğlub olmadan]?» Vey Lyao cavabında ləngiməyərək, hər şeyin insanın səylərindən asılı olduğunu qeyd etdi: «Cəzalardan hücum vaxtı [üsyan edənlərə qarşı], səxavətdən xalqı qorumaq üçün istifadə olunurdu. Bu «göylərin əlaməti», [əlverişli] saatlar və günlər, in və yan, üzü və ya arxası ilə dönən adlandırılanlar deyil». Sarı imperatorun [qələbələri] insan səyinin nəticəsi idi, vəssalam». Vey Lyao Veydə bir vəzifə sahibi ola bilmədiyindən şahlığı tərk etdi. Çünki hökmdar, hərbi tədbirlərə əlavə olaraq məziyyətləri təbliğ edən və ona əməl olunmasını tələb edən siyasətə az inanırdı.

Vey Lyao haqqında yeganə digər bir xatırlatma «Şi tszı» əsərində, səksən il sonra Tsinin hakimiyyətə gəlməsini təsvir edən fəsildə yer alıb. Haqqında ancaq «Dalyandan (Veyin paytaxtı) olan Vey Lyao adlı adamın Tsinin gənc hökmdarına, gələcəkdə Tsin ölkəsini birləşdirəcək Şi Xuan-diyə məsləhətlər verdiyi qeyd edilir. M.ö. 237-ci ildə Şi Xuan-di idarəetmə ixtiyarını nazirlərin əlindən aldı və dərhal başqa şahlıqlardan gəlmiş və vassalların himayəsində olan bütün məsləhətçiləri qovmağa başladı:

Hökmdar bütün gəlmə məmurları qovmaq istəyirdi. Li Si[2] *yuxarıya bunun əleyhinə ərizə göndərdi və hökmdar qovulma haqqında əmrin icrasını dayandırdı. Sonra Li Si, Tsin hökmdarını, başqa dövlətləri qorxutmaq üçün ilk növbədə Xanı ələ keçirməyə inandırdı. Belə olduqda hökmdar Xanın basılması planını tərtib etməyi Li Sıya əmr etdi. Xan hökmdarı narahat idi və Xanla birlikdə Fey-tszı şahlığı da Tsini necə zəiflətmək haqqında düşünməyə başladı.*

[Bu vaxt] Dalyandan olan Vey Lyao, Tsin hökmdarına məsləhət verdi: «Tsin sərhədlərinin [genişliyi] ilə müqayisədə, digər hökmdarlar vilayət və qəza rəisləri kimi bir şeydirlər. Mən təkcə ondan qorxuram ki, onlar birləşib nəsə etsinlər. Çji Bo, Fu Çay və Min-van belə həlak olublar. Mən əlahəzrətdən xahiş edirəm ki, o, xərc çəkərək birinci nazirləri ələ almaq və bununla onların planlarını alt-üst etmək üçün xəsislik etməsin. Otuz minə qədər tszin tələb olunur, bununla da dövlətlər məhv edilə bilər». Tsin hökmdarı bu məsləhətə qulaq asdı. O, heç vaxt Vey Lyao ilə qəbullarda ayinlərə əməl etmir, onun yediyi yeməkdən yeyir, geydiyi geyimdən geyirdi.

Lyao [başqalarına] dedi: «Tsin hökmdarının xüsusiyyətlərinə gəldikdə, onun burnu arı burnuna oxşayır, gözləri uzunsovdur, çiyinləri quzğun çiyni kimidir, səsi isə– canavar səsidir. Onda başqaları üçün az mərhəmət və alicənablıq var, ancaq onun ürəyi pələng və ya canavar ürəyidir. Çətinliyə düşəndə o, asanlıqla başqalarına iltifat göstərir, ancaq öz məqsədlərinə çatanda, o eyni asanlıqla adamları məhv edir. Mən sadə bir adamam, lakin o mənə baxanda çox ehtiram göstərir. Əgər mən həqiqətən Tsin hökmdarına öz məqsədinə çatmaqda– Çinin hökmdarı olmaqda kömək edə bilsəm, onda Çində hamı əsir olacaq. Mən onun işinə yarıya bilmərəm». Və Vey Lyao uzaqlaşdı. Tsin hökmdarı bunu başa düşdü, onu dayandırdı, sərkərdə təyin etdi və onun hesab və strategiyalarından bəhrələndi. İdarəetmə işlərini aparmaq Li Sıya həvalə olundu.

Vey Lyaonun fəaliyyəti yaxud onun Tsinin taleyində rolu haqqında hər hansı bir xatırlatma qalmamışdır. Amma onun təklif etdiyi tədbirlər, çox güman ki, əhəmiyyətli dərəcədə uğurla həyata keçirilmişdi.

Vəziyyət bir az da onunla çətinləşir ki, vaxtilə «Xan-şu»nun müxtəlif biblioqrafik fəsillərində «Vey Lyao tszı» adlı iki mətn yerləşdirilmişdi. Şan Yanın yanında təhsil almış Vey Lyaoya oxşadılan mətn «qarışıq» traktatlar bölməsində, o biri isə «hərbi» traktatlar arasında yerləşdirilib. İndiki «Yeddi hərbi qanunlar»a daxil edilmiş mətn, əslində ardıcıl olsa da, görünür, hər iki mənbədən ibarətdir. Daha fəlsəfi və ümumi xarakter daşıyan ilk on iki fəsildə əsas strategiya müzakirə olunur, qalan on iki fəsildə isə təşkilat, nizam-intizam, komandanlıq və struktur məsələlərinə diqqət verilir. Bu dixotomiya mümkün müəlliflər və onların mətnlərə verilən münasibəti haqqında müxtəlif konsepsiyalar yaratdı ki, bu barədə aşağıda söhbət açacağıq.

«Vey Lyao-tszı»ya elmi maraq yaxın zamanlardan artmışdır, çünki bambuk lövhəciklərdə yaxşı qorunub qalmış bəzi fəsillər, 1972-ci ildə Lin-i yaxınlığında xan məzarlığında tapılmışdır. Çoxsaylı, lakin kiçik leksik ziddiyyətlərin,– xüsusən də ədatların seçimində,– qeydə alınmasına və bambuk lövhəciklərdəki mətnin əvvəllər tanınan «Vey

Lyao-tszı»dan daha fəlsəfi olmasına baxmayaraq, ümumilikdə yalnız bir neçə yerdə mətnin oxunması əhəmiyyətli dərəcədə dəyişilir.

Traktatın üslubu və tarixi məzmunu onun m.ö. IV əsrin axırlarında tərtib olunduğunu təxmin etməyə imkan verir. Bambuk lövhəciklərin əsasında isə bu qənaətə gəlmək olar ki, mətn m.ö. 206-cı ildə[3] Xan sülaləsi hakimiyyəti ələ alana qədər axırıncı formasını almışdır. Bu, traktatın gecikmiş saxta yazı olduğunu hesab edən skeptiklərin inamını alt-üst edir. Beləliklə, təsdiq etmək olar ki, «Vey Lyao-tszı» Vey Lyaonun m.ö. IV əsrdə Xuey-vanla söhbətləri əsasında tərtib olunub və güman ki, Vey Lyaonun ölümündən sonrakı yüzil ərzində onun ailəsinin və ya məktəbinin üzvlərindən birinin əlavə etdiyi hərbi təşkilat işləri üzrə ətraflı işlənmiş materiala malikdir.

ƏSAS SİYASİ TƏDBİRLƏR

Vey Lyao-tszı hərb işinin inkişaf tarixini və m.ö. IV əsrdəki məşhur döyüşləri yaxşı bilirdi. Xuey-van tərəfindən birinci dəfə qəbul olunana qədər o, Quylin və Malina yaxınlığında Veyin məğlubiyyətinin səbəblərini, həmçinin bütün mümkün strategiyaları dərindən öyrənməli idi. Dövlətin vəziyyətini araşdıraraq o, belə nəticəyə gəldi ki, yalnız qətiyyətli, düşünülmüş və ölçüb-biçilmiş tədbirlər dövlətə özünü qorumağa, hətta, bəlkə də, hökmdarın müəyyən etdiyi əlçatmaz məqsədlərə nail olmağa ümid verir. Buna görə, «Vey Lyao-tszı»da təsvir edilmiş söhbətlərində o, dövlətin özülünün özündə sərt məcburiyyət və ciddi dəyişikliklər tələb edir.

Əsas: xalq və kənd təsərrüfatı

Vey şahlığı (çarlığı) əvvəlki müharibələrdə çox böyük ərazi, hərbi və iqtsiadi itkilər verdiyi üçün, əhalinin sayının artması birinci dərəcəli əhəmiyyət kəsb edən məsələyə çevrilmişdi. Vey Lyaonun fikrincə, dövlətin çiçəklənməsi onun kənd təsərrüfatı sərvətlərinin tam istifadəsindən asılıdır. Məhsulu artırmaq üçün yeni torpaqlara yiyələnmək və əməksevər torpaq adamları yetişdirmək (tərbiyə etmək) lazımdır. Kənd təsərrüfatına ehtiram göstərən, ev-eşiyindən məhrum olmuş və məğlub olmuş, narazı adamları cəlb edən dövlət siyasəti, eyni zamanda, hər iki məqsədə nail olardı. Taxıl yığımının artırılması əhalinin və dövlətin iqtisadi rifahını daha tez təmin edərdi. İnsanlar yedirilib- geyinibsə və evlə təmin ediliblərsə sağlam, güclü, razı olar və bütün bunları onlara vermiş hökmdara minnətdar olarlar. Onlar istənilən öyüd-nəsihəti sevinclə və diqqətlə eşidəcəklər.

Humanist dəyərlər və avtoritar idarəetmə

İdarəetmə humanist konfutsian dəyərlərin əsasını təşkil edən bütün dəyərlərə əsaslanmalıdır, baxmayaraq ki, «Vey Lyao-tszı»da

nə Konfutsi haqqında, nə onun məktəbinin bu idealların ardınca getdiyi barədə xatırlatmalar yoxdur. Hökmdar özü Daoya əməl edən örnək olmalı, məziyyətləri şəxsən təbliğ etməli və təcəssüm etdirməlidir. O, öz istəklərini azaltmalı, sadəlik və özünüməhdudiyyət[4] yolu ilə getməlidir. Onun əməlləri ədalətli, fikirləri isə yüksək olmalıdır. Onun siyasətinin məqsədi şəxsi hakimiyyəti ilə nəşələnmək və qürurlanmaq deyil, xalqa kömək olmalıdır. Əxlaq normaları, səmimiyyət, oğul ehtiramı, ailə, dostluq və utancaqlıq hissi – bütün bu dəyərləri əhali arasında yaymaq lazımdır. Əkinçilik mövsümlərinə hörmət edilirsə, hökmdar yüngül vergilər təyin edib, mülkədara işləməni minimuma endirirsə, insanlar boş vaxtlarını yaxşılığa həsr edə bilərlər. Onların hökmdara inamı artdığı üçün, onlara öyüd-nəsihət vermək və müvafiq davranışlarına görə mükafatlandırmaq olar. Qanunlar, davranış normaları və ədalət təlqin edilmişsə, xəcalət hissi meydana gəlir və hökmdar nalayiq davranışa görə cəzalandıra bilər. Nə qədər ki, dövlət insanları taqətdən salmayıb, əxlaqlı davranış da, cəmiyyətdə həmrəylik də gözləmək olar.

Vey Lyao humanist konfusian dəyərlərə inansa da, o, eyni zamanda, ancaq dövlət tərəfindən səmərəli və məqbul kimi bəyənilmiş dəyərlərin mövcudiyyət hüququ olduğu bir vəziyyətin qorunub saxlanması üçün, həqiqətən amansız tədibrlərin həyata keçirilməsini dəstəkləyirdi. Buna görə o, kənd təsərrüfatı və müharibəyə zidd gedən, dövlətin təməlinin əsaslarına qarşı olan hər şeyi çox sərt boğmağı təklif edirdi. Elə bir mühit yaradılmalıdır ki, istəklər, azadlıq və israfçılıq haqqında fikirlər xalqın heç ağlına da gəlməsin.

Dövlətin və adamların fəaliyyətinə nəzarət etmək üçün istedadlı məmurlardan istifadə etmək vacibdir. Bu zaman xalqın rifahı onların birinci qayğısı olmalıdır. Dövlət iqtisadiyyatında qaçılmaz olan kommersiya fəaliyyətini və mənfəət dalınca qaçmağı müvafiq qaydada istiqamətləndirmək və çərçivədə saxlamaq lazımdır ki, onlar xalqa və bütün dəyərlər sisteminə ziyan vurmasın. Fəaliyyətin bütün sahələrində harmoniyaya, əməkdaşlığa və birliyə nail olmaq lazımdır.

İstila və qələbəyə aparan yol

Əgər dövlət məziyyətləri bərqərar edərsə və xalqın rifahını təmin edərsə, o silaha əl atmadan öz gücünü kənardan izhar edə və düşmənləri məhv edə bilər. Müharibədə uğur qazanmaq üçün bir çox şərtlərin əlaqələndirilməsi vacibdir, ən əsası isə– məşqlər, hesabın düzgün götürülməsi və qiymətləndirilmədir. Buna görə də:

Ümumiyyətlə, müharibədə elələri var ki, Dao sayəsində qələbəyə nail olur; qələbəyə qorxuducu gücü sayəsində nail olur; və elələri də var ki, qələbəyə şəxsi gücü sayəsində nail olur. Əsaslı müzakirələr aparılması və düşmənin qiymətləndirilməsi, düşmənin

«çi»ni itirdiyi, və sayı çox olsa belə qoşunun dağıldığı üçün, düşmənin ondan istifadə edə bilmədiyi vəziyyətin yaradılması– bu Dao sayəsində əldə edilən qələbədir.

Qayda və qanunlardakı dəqiqlik, mükafat və cəzaların məntiqli olması, silah və təchizatın yaxşılaşdırılması, ürəklərin ram edilməsi– bu dəhşətli qüvvə sayəsində əldə olunmuş qələbədir.

Orduların dağıdılması və sərkərdənin məhv edilməsi, dik qalalardan arbaletlərdən atəş açılması, əhalinin heyrətə salınması və torpaqların işğalı, yalnız uğur qazandıqdan sonra geri dönmək– bu şəxsi gücün sayəsində əldə edilmiş qələbədir (4-cü fəsil, «Döyüşdə qorxuducu qüvvə»).

Vey Lyao klassik humanist metodların orduya da tətbiq edilməsi üzərində dayanır. Bununla da, o, cəza tədbirlərinin əhaliyə qarşı deyil, zalım hökmdarlara və onların əlaltılarına qarşı tətbiq edilməsini təsdiq edən zamanın təqdis etdiyi konfusian ideyasını ifadə edir. Ancaq burda bir istisna da var ki, ordu hücuma məruz qalarsa bu cəza tədbirləri əhaliyə qarşı da tətbiq edilə bilər. Hərbi siyasətdə istifadə olunan bu konsepsiya, düşmənin tarla və bağlarının qorunub saxlanması, şəhərlərin qarət edilməsi və əhalinin qırılmasından, onun ev şeylərinin korlanmasından imtina etməyi nəzərdə tutur. Belə humanist tədbirlər təklif edərkən, Vey Lyao bununla döyüşlərdə həlak olanların sayı yüzminlər olduğu dövrdə müşahidə olunan, həqiqətən görünməmiş ümumi qırğına və rütbələrin döyüşdə qazanılmış başların sayına görə verildiyi Tsin kimi dövlətlərin qəddar siyasətinə cavab verirdi. Buna görə, Sun-tszıdan fərqli olaraq, viran etmə və qarəti pisləyərək, Vey Lyaonun fikrincə, o, düşmənin müqavimətini minimuma endirəcək və humanist hökmdara tabe olmağa həvəsləndirəcək tədbirlər təklif edirdi. «Vey Lyao-tszı» belə tədbirləri dəstəkləyən «Yeddi hərb qanunu» traktatlarından yeganəsi olmasa da, onun müəllifi bilərəkdən o dövrün ümumi praktikasından uzaqlaşmışdı. O, bunu yaxşılığa sadəlövhcəsinə inancı üzündən deyil, belə siyasətin strateji üstünlükləri səbəbindən etmişdir.

Təşkilat və birlik

Vey Lyao, adamları «beşlik» və «onluq»da birləşdirən qarşılıqlı zaminlik sisteminə əsaslanan sərt iyerarxik təşkilatın zəruriliyinə əmindir və belə sistemi bütün səviyyələrdə tətbiq edir. Hökmdar ali hakimiyyətə malikdir, amma döyüş meydanında onu sərkərdə əvəz edir. Bütün ordu kimi, mülki əhali də, «ətrafları idraka tabe olduğu kimi» sərkərdəyə tabe olmalıdırlar. Şan Yanın kəşf etdiyi dairəvi zaminlik sistemi, beşliyin və ya bölmənin birinin xətası üçün cavabdehliyi nəzərdə tutur. İstər əmin-amanlıq vaxtı, istərsə də, döyüşdə başqasının cinayət əməli barədə xəbər verməmək, yoldaşını ölümdən qurtara bilməmək bacarıqsızlığı, yaxud cəsarətlə döyüşmək istəyinin olmaması çox ağır cəzalandırılır. Əgər fərsiz bir

adam cinayət törətsəydi, o da belə ağır cəzalandırılardı. Konfusianlığın əksinə olaraq, bu sistemdə ata oğlunun cinayətini gizlədə bilməz və əksinə. Ardıcıl sərt hərbi təlimlər və qeyri-şüuri intizam üzərində qurulmuş tərbiyə, «beşlik»lərdə[5] birliyi, əsgərlərin əmrlərə tabeçiliyini, onların bir-biri və komandir qarşısında öz vəzifələrini tam başa düşmələrini, həmçinin onların manevrlər etmək və təşvişə düşmədən və döyüşü özünün əsas işi hesab edərək düşmənlə döyüşə girmək bacarığını təmin edir.

Mükafat və cəzalar

Hər bir hərb nəzəriyyəçisi mükafat və cəzaların cəmiyyət və ordu üçün birinci dərəcəli əhəmiyyətini qeyd etməyi öz borcu hesab edib. «Vey Lyao-tszı»nın əsas hissəsi mükafat və cəzaların effektiv sisteminin yaradılmasının əsas prinsiplərinə həsr edilib. Bu prinsiplərin çoxu o dövrün başqa hərbi və legist əsərlərində təsvir olunmuş prinsiplərlə oxşardır. O, ağır cəzaların və (Şan Yanın[6] ideyalarından fərqli olaraq) səxavətli mükafatların təsis edilməsini göstərir. Özü də ki, cəzalar mütləq yuxarılara da tətbiq olunmalı, mükafatlar isə ən aşağı məmura da verilməli idi. Cinayətlər bağışlanmamalıdır, amma bəzi cinayət əməlləri igid hərəkətlərlə bağışlana bilər.

Qanunlar və qaydalar kimi, davranış qaydaları da aydın olmalı və hər kəsə çatmalıdır. Hər hansı növ yayınmalar– daxili səbəblərdən törəyən igidlik və şücaətə bənzər– yolverilməzdir. Mükafatlar döyüş xidmətlərinə görə, rütbələr isə döyüşdə fərqlənənlərə verilməlidir. Cəzalandırma və mükafatlandırmalarda təxirə salınmalar olmamalıdır, çünki bu onların effektivliyini azaldır.

Strateji və taktiki konsepsiyalar

Əgər biz razılaşsaq ki, «Vey Lyao-tszı» «Döyüşən Şahlıqlar (Çarlıqlar)» dövrünün ortaları– ikinci yarısında yazılıb, onda artıq «Sıma fa», «Hərb sənəti», «U-tszı», «Mo-tszı» və «Hərbi metodlar»da qoyulmuş məsələlərin inkişafı və işlənməsi aydın olur. Xüsusilə maraqlı odur ki, elə lap əvvəldə Vey Lyao yalnız onun vaxtında inkişaf edən in-yan taktikasını deyil, həm də Göylərin və ruhların köməyini kənar eləyir. İnsan səyləri– məqsədə nail olmaq üçün yeganə vasitədir, buna görə, hökmdar mövcud vəziyyətə uyğun gələn qayda və qanunlar hazırlamalı və insan faktorundan bütünlüklə istifadə etməlidir. Bu isə yalnız dövlətin bütün daxili– iqtisadi və hərbi– qüvvələrinin inkişafı ilə mümkündür. Bu az da olsa «sin» (formalar) və «şi»nin (qoşunların bacarıqla (məharətlə) cəbhə boyu düzülməsindən irəli gələn strateji faydanın qarşılıqlı əlaqəsinə yaxındır.

Vey Lyao konsepsiyasına görə, hərəkətdə olan ordu ideal nizam-intizam və absolyut birliyə malik olmalıdır ki, çevik, kompleksli və effektiv olsun. Taktika digər hərbi traktatlarda da irəli sürülmüş

seçilmiş prinsiplərə əsaslanır və sürəti, hiyləgərliyi, qüvvələrin bir yerə toplanmasını, düşmənin zəif yerlərinə hücum edib, güclü mövqelərindən qaçmağı, kəşfiyyat məlumatları əsasındakı hərəkətləri, təşəbbüsün ələ keçirilməsi və əldə saxlanmasını, həmçinin passiv yox, aktiv davranışı nəzərdə tutur. Sun-tszının müntəzəm qüvvələrin birbaşa hücuma başladığını, qəribə qüvvələrin isə cinahdan hücum etmələrini və ya dolayı manevr etmələrini ehtimal edən baxışları, bu qüvvələrin biri digərinə keçdikdə qarşılıqlı təsir konsepsiyasını tədricən inkişaf etdirmişdir. Əgər intizam, sürət, komanda təcrübəsi, həmçinin müntəzəm və qəribə qoşunlar bir yerdə birləşirsə, çox da böyük olmayan qüvvə ilə böyük qələbələrə nail olmaq olar.

VEY LYAO VƏ MƏTNİN TARİXİ

«Vey Lyao-tszı» traktatı, şübhəsiz, m.ö. IV əsrin axırları və III əsrin sonları arasında, ya da ortalarında– «Döyüşən Şahlıqlar» dövrünün sonunda yazılmışdır. Ancaq müasir alimlər hələ də əvvəlki mətnlərin son formasını aldığı vaxt tarixi Vey Lyaolardan hər hansı biri ilə əlaqəli olduğu və indiki mətnin originalının məzmununu kifayət qədər dəqiq çatdırdığı haqda mübahisə edirlər. Müxtəlif yazılı mənbələrə əsaslanan fərziyyələr tamamilə əks nəticələrə gətirib çıxardığı üçün onlar haqda qısaca danışmaq lazımdır.

Çinin klassik ənənə alimləri qeyd edirlər ki, «Xan şu»da «müxtəlif» əsərlər bölməsində, 29 fəsildən ibarət «Vey Lyao-tszı» traktatı yer alıb. Ban Qunun yazdığı annotasiyada, traktatın müəllifinin «Altı Şahlıq» («Döyüşən Şahlıqlar») dövründə yaşamış Vey Lyao olduğu bildirilir. Eyni adlı, 31 fəsildən ibarət digər kitab isə, «Bin sin şi»nin «hərb» bölməsində yer alıb. 1972-ci ildə Linidə bambuk lövhəciklər tapılana qədər, Sun sülaləsindən başlayaraq, praktiki olaraq bütün əsərlər, ya «Yeddi hərbi qanun»una daxil olan mətnin saxta olduğunu israr edir, ya da materialın xeyli hissəsinin itirildiyinə təəssüflənirdilər ki, bu da originalın ixtisar olunaraq 24 hissə qalmasına gətirib çıxardı.

Əsərdəki həqiqi kamil müdriklərin yolu ilə ziddiyyət təşkil edən doktrinaların inkişafına görə «Altı məxfi təlimi» açıq-aydın saxta hesab edən tənqidçilər, «Vey Lyao-tszı»nı da bunda təqsirləndirirlər; onlar xüsusən, əsl komandanın öz adamlarının yarısını «öldürə» bilməsini bildirən passaja qarşı etiraz edirdilər.

Daha sonrakı tənqidçilərdən biri olan Yao Tszi-xen, «Vey Lyao-tszı»da, Men-tszıdan gətirilmiş dəqiq olmayan sitata– «Göylərin mövsümü Yerin məziyyətləri qədər yaxşı deyil»- rast gəlib. O, bunu müəllifin «Xan şu»nun «müxtəlif əsərlər» bölməsinə daxil olan kitabı saxtalaşdırmaq üçün nümunə olaraq qəbul edilmiş əsərlərdən çox şey götürüldüyünə sübut hesab edir. Ənənəçilər də iki müxtəlif mətnin mövcud olduğunu qəbul edərək, onlardan hansının indiki traktatın əsasını təşkil etdiyi haqda mübahisə

etmişlər. Mətnin «müxtəlif əsərlər» bölməsinə daxil edilməsini şərh edərək, Yan Şi-qu Vey Lyaonu Şan Yanın şagirdi adlandırır. Nəticədə bir sıra tədqiqatçılar məhz mətnin məzmununun legist əsasına müstəsna diqqət yetirməyə başlayaraq, daos və konfusian təsirini tamamilə unutdular.

Bir başqaları isə əmin idilər ki, mətnin «hərbi əsərlər» bölməsindən olan böyük bir hissəsi qorunub saxlanmış və nəzakətlə ötürülmüşdür, «müxtəlif əsərlər»in mətnini isə itmiş hesab edirdilər. Üçüncülər belə düşünürdülər ki, cəmi bir kitab olub, amma müxtəlif variantlarda. Axırıncı nöqteyi-nəzərə aşağıda baxacağıq.

«Vey Lyao-tszı»nın tanınmış tarixi şəxslərlə mümkün əlaqəsinə dair dolaşıq məsələ mətnin ötürülməsi problemindən ayrılmazdır. Bir varianta görə, bunun əksini sübut edərək qaneedici dəlillər olmadığından, xüsusən bambuk lövhəciklər tapıldıqdan sonra, əsəri səyyah məsləhətçi Vey Lyaoya aid etmək olar. Çünki onun Xuey-vanla söhbətləri barədə qeydlər mövcuddur. (Belə olduqda, sonrakı əlavələr və araşdırmaların mümkünlüyü asan izah olunur). Aşağıdakı dəlilləri onun xeyrinə göstərək: əsərin əvvəlində Vey Lyaonun xatırlanması; hökmdar və təbəənin söhbətinə xarakterik olan yaltaq üslub; hökmdarın zəifliyi və kobudluğu və dövlətin açıq-aşkar pis vəziyyəti, həmçinin tarixi dəlillərin xarakteri.

Digər alimlər hesab edirlər ki, «Vey Lyao-tszı»nın konsepsiyaları, mətndəki hərbi əməliyyatların xarakteri və miqyası ilə birlikdə, əsəri «Döyüşən Şahlıqlar» dövrünün sonuna aid etməyə imkan verir, müəllifin isə Tsin hökmdarına məsləhətlər verməyə cürət edən Vey Lyao olduğu bildirilir. Ola bilsin ki, bu Vey Lyaonun soyadı həqiqətən də Lyao olub, və o, «komendant» vəzifəsini bildirən «vey» şərəfli vəzifəsini tutubmuş. Bu onun II hissədə göstərilən Tsin hərb maşınını gözəl bilinməsini izah edərdi, lakin, təəssüf ki, Xuey-vanın yanında məsləhətçi olması fakt deyil, çünki iki dövlətin siyasi reallıqları həddindən artıq müxtəlif idi.

Hərbi traktatların yaranması və tarixi haqqında bir neçə məqalə yazmış Çjan Le, mətnin «Döyüşən Şahlıqlar» dövrünün sonunda yarandığını düşünür və bunu bir neçə maraqlı səbəblərlə izah edir. Birincisi, Xuey-van və Şan Yan tanınmış tarixi şəxsiyyətlər olduqları üçün, əgər Vey Lyao ikinci ilə necəsə bağlı olsaydı, çətin ki, o, Xuey-vanın yanında olmağa cürət edərdi. İkincisi, ədalətlilik və humanistlik kimi konfusian anlayışları və təcavüzkar müharibəyə icazə verən (şəri fəth etmək bəhanəsi ilə) dövlət siyasəti yalnız «Döyüşən Şahlıqlar» dövrünün sonunda Sun-tszıda[7] birləşmişdi. Əvvəllər isə, Xuey-vanın hakimiyyəti vaxtında, Şan Yan, Men-tszı kimi konfusianlardan fərqli olaraq, yaxşılıq və onunla bağlı anlayışların ictimai və siyasi həyatdan tamamilə aradan qaldırılması, və gücə, mükafat və cəzalandırmalara arxalanmağın lehinə çıxırdı. «Vey Lyao-tszı»da, əksinə, ləyaqət və güc birləşir, cəzanın ağırlığından və mükafatların səxavətindən danışılır. Səxavətli

mükafat Şan Yana tamamilə ziddir. Buna görə, tarixi müəllif ancaq Şan Yan və Sun-tszıdan sonra yaşaya bilərdi. Üçüncüsü, müəllif Sun-tszının başqa ideyalarını qəbul edir və inkişaf etdirir. Məsələn, Göylərə deyil, insanlara arxalanmaq, xalqı zənginləşdirmək haqqında ideyalar. Nəhayət, Vey Lyaonun «Şi tszi»də qeyd olunmuş narahatlığını qeyd edərək, Çjan hesab edir ki, bu narahatlığın səbəbi, onun fövqəladə cəngavərlik və amansızlıq dövründə yaxşılığa və ədalətə çağırdığı vaxt keçirdiyi qorxudur. Buna görə, Çjan belə bir nəticəyə gəlir ki, mətn «Döyüşən şahlıqlar» dövrünün sonunda yazılıb və bu mətni daha gec yaşamış tarixi şəxsə– gənc hökmdarın məsləhətçisinə aid etmək lazımdır.

Bambuk lövhəciklər və «Vey Lyao-tszı»nın müasir mətni haqqında ilk məqalələrdən birində Xe Fa-çjou bəzi ümumi nəticələrə gəlir. Birincisi, o, hesab edir ki, lövhələrdəki mətn, «Tsyun şu tszi yao»[8]dakı dörd fəsil və «müxtəlif əsərlər» bölməsindəki mətn ilkin tam oxşar olublar.

Ancaq «Yeddi hərbi qanun»a daxil olan mətnin variantı, «hərbi əsərlər» kateqoriyasında yerləşdirilmiş mətnlərdəndir. Daha sonra qorunub saxlanmış mətnlərin təhlili onu belə bir nəticəyə gətirib çıxarır ki, «Xan şu»ya daxil edilmiş hər iki əsər eyni bir kitabın variasiyalarıdır. Ancaq ki, «müxtəlif əsərlər» bölməsində olan əsər daha dərin konfusian və daos təsiri ilə qeyd olunub. Müvafiq olaraq, hərbi traktatlar arasında yerləşən mətndəki hərbi tematika daha çox inkişaf etdirilmiş, dili sadələşdirilmişdir, ancaq baxılan məsələ və nəticələr, ümumiyyətlə, uyğun gəlirlər.

O, həmçinin çox maraqlı bir sual verir: əgər kitab saxtadırsa, nə üçün o daha çox öz səhvləri və səhv hesablamaları ilə tanınmış hökmdarla qəribə söhbətlər aparan naməlum sofistə aid edilir? «Vey Lyao-tszı»da ancaq zəif hökmdara ünvanlana biləcək– Tsin kimi dövlətin zülmkar hakiminə deyil– müxtəlif məsləhət və tövsiyələr olduğu üçün Xe qərara gəlir ki, mətn hər şeydən əvvəl, həqiqətən baş tutmuş qəbuldan qeydlərdir, uydurma deyil. Buna sübut kimi o, həmçinin Vey Lyaonun söhbət açdığı tarixi hadisə və U Tsin kimi şəxsiyyətləri, o, əsasən, misal çəkir. Xe hesab edir ki, Vey Lyao, Veydə idarəetmə ənənəsində və birinci legistlər tərəfindən artıq istifadə olunan ideya və praktikaları inkişaf etdirirdi. Sonra Veyin zəifləməsi Xuey-vanı intellektual meylliyini nəzərə almadan, kənardan gələn məsləhətçilərə müraciət etməyə məcbur etdi. Bununla da konfusianlar, daoslar, legistlər və başqaları, Vey Lyao kimiləri arasında ideya və konsepsiya mübadiləsinə təkan verildi.

R.Ueyts özünün dolğun məqaləsində yuxarıda baxılan təfsirlərdən çoxunu yekunlaşdıraraq, öz şəxsi şərhini verir. O, «Vey Lyao-tszı»nın mətninin «formanın üstünlüyü və mövqelər» (sin-şi) kateqoriyası altında hərbi əsərlər bölməsində yerləşdirilməsini sübut edən dəlilləri qeyri-qənaətbəxş sayır və bizim günlərə qədər gəlib çatan mətnlərin həqiqətənmi «Xan şu»nun yaradıcılarının gördüyü

mətnlər olduğunu soruşur. Daha sonra o, güman edir ki, mətn yalnız nüfuzu artırmaq fikri ilə Vey Lyaonun adına çıxılır, buna isə heç bir əsas yoxdur. Konfusian və daos materialları və baxıcılığın əleyhinə olan bizə qədər gəlib çıxmış diatriblər əsasında Ueyts güman edir ki, mətn Men-tszıdan az sonra meydana gəlib.

Nəhayət, 1989-cu ildə dərc olunmuş «Vey Lyao-tszı tsyanşo» kitabına yazdığı tənqidi ön sözdə Syuy Yun həmçinin mətnlə bağlı materialı ətraflı təhlil edir– bunu ancaq müxtəlif vaxtlarda yaşamış iki adamın eyni bir şəxs ola biləcəyi haqda son dərəcə orijinal nəzəriyyəni canlandırmaq üçün edir. Əvvəllər və ya sonralar yaşamış Vey Lyaoya aid edilən mətnlərin əsaslandırıldığı arqumentlərdən razı qalmayaraq, Syuy «Döyüşən şahlıqlar» dövrünün cəmi bir yüz il ərzində iki eyni adlı adamın peyda olmasının mümkünlüyünün çox az inandırıcı olduğunu israr edir. Kitabın ikinci hissəsində hərbi təşkilat formaları və Tsin ordusunu idarəetmə prinsipləri ətraflı təsvir edilir. Kitabın birinci hissəsində yer almış müharibə aparılması üçün humanistliyin yeganə ədalətli bəraət ola biləcəyi ideyası, Syuyun fikrincə, yalnız «Döyüşən Şahlıqlar» dövrünün sonuna yaxın formalaşmışdı. Syuy Yun kitabı strukturuna görə yekcins hesab etdiyinə görə, onu bir mütəfəkkirə aid edir. Belə olan halda isə, Vey Lyaonun həqiqətən inanılmaz dərəcədə uzunömürlü olması problemi ortaya çıxır, o, az qala yüz illik ərzində iki sarayda xidmət etməli idi. Və Syuy Xuey-vanın idarə etdiyi tarixi düzəldir. O, deyir ki, Xuey-van m.ö. 310-cu ilə qədər hakimiyyətdə olub, yəni, ölümünə aid edilən vaxtdan sonra hələ doqquz il yaşayıb. Onda, əgər Vey sakini olan gənc Vey Lyao, Xuey-vanın, Men-tszı da daxil olmaqla, ucdantutma hamıdan məsləhət istədiyi vaxt qəbul almışdısa, onun Tsinin cavan hökmdarı ilə növbəti görüşü, onun artıq doxsandan çox yaşı olanda baş tuta bilərdi. Onun haqqında daha heç nə eşidilmir, çünki, o, çox güman, qocalıqdan ölmüşdü, nəinki bir vəzifə almışdı. Buna görə, qorunub saxlanmış əsərin «müxtəlif əsərlər» bölməsindən olan mətndəki birinci on iki fəsli onun gəncliyinin məhsuludur, «hərbi əsərlər» bölməsinə daxil olan mətnin axırıncı on iki fəsli isə, ömrünün axırıncı illərində yazılıb. Beləliklə, Syuy Yuna görə, bütün altmış fəsil Ban Qu vaxtında mövcud olmuşdu. Ancaq o özü, ola bilsin, onları iki əsərə bölürdü. Sonralar əsrlər boyu mətnə əlavələr edərək büsbütün dəyişmişlər və nəhayət, o bizə qədər gəlib çatmış olduğu formanı almışdır.

1. GÖYLƏRİN ƏLAMƏTLƏRİ

Lyan hökmdarı Xuey-van Vey Lyao-tszıdan soruşdu:

-Düzdür ki, Sarı İmperator, cəza və məziyyət sayəsində yüz qələbə çaldı [bir məğlubiyyətə uğramadan]?

Vey Lyao-tszı cavab verdi:

-Cəzalardan hücüm vaxtı istifadə olunurdu (üsyan edənlərə qarşı), məziyyətlərdən xalqı qoruyub saxlamaq üçün. Bu, «Göylər əlaməti, uğurlu saat və günlər, in və yan, üzü və ya arxası ilə dönmək» adlandırılan şey deyil. Sarı İmepatorun qələbəsi insan səylərinin nəticəsi idi, vəssalam. Niyə belə olmuşdu?

Əgər möhkəmləndirilmiş şəhərə şərqdən və qərbdən, cənubdan və şimaldan hücum edirlərsə və onu ala bilmirlərsə, ola bilərmi ki, dörd bir tərəfdən hücum vaxtı əlverişli məqam əldən qaçırılmış olsun? Əgər şəhəri hələ də ala bilmirsənsə, bu ona görədir ki, divarlar hündürdü, xəndəklər dərindi, silah və ləvazimat tam hazırlıqlıdı, material və taxıl böyük miqdarda toplanıb, düşmənin cəsur döyüşçülərinin isə vahid planı var. Əgər divarlar alçaqdırsa, xəndəklər dərin deyilsə, müdafiə isə zəifdisə, şəhəri almaq olar. Bu nöqteyi-nəzərdən «məqam», «fəsillər» və «göylərin əlamətləri» insan səyləri qədər vacib deyil.

«Göylərin əlamətləri»[9]nə görə, qoşunların yerləşməsi, onların arxasında su olanda, «ayrılmış ordu» adlanır. Qoşunların yerləşməsi, qabaqlarında sıra dağlar olanda, «atılmış ordu» adlanır. U-van Şan hökmdarı Çjouya hücum edəndə, ordusunu elə yerləşdirdi ki, arxasında Tszi[10] çayı, qarşısında isə dağın yamacı idi. 22500 adamla o, Çjou hökmdarının yüz minlik ordusuna hücum etdi və Şan sülaləsini məhv etdi. Lakin məgər Çjou hökmdarı qoşunlarını göylərin əlamətlərinə görə yerləşdirməmişdi?

Çudan olan Qun-tszı Sin adlı sərkərdə Tsi ilə döyüşə başlamağa hazırlaşırdı. İnanclara görə kometanın quyruğu kimin başı üstündə olarsa, qələbə çalmalıdı və ona hücum etmək olmaz. Qun-tszı Sin dedi: «Kometa nə bilə bilər ki? Gözünü kometadan çəkmədən döyüşənlər, darmadağın və məğlub ediləcəklər». Ertəsi gün o, Tsi ilə döyüşə başladı və onları ağır məğlubiyyətə uğratdı. Sarı İmperator dedi: «Şeytanları və ruhları birinci yerə qoymaqdansa, əvvəlcə öz biliklərini yoxlamaq yaxşıdır». Bu o deməkdir ki, göylərin əlamətləri insan səylərindən başqa bir şey deyil.

2. MÜHARİBƏNİN MÜZAKİRƏSİ

Əvvəlcə torpağın münbitliyini öyrənirlər, sonra şəhərləri tikirlər. Şəhər divarlarını tikmək üçün, münasib ərazini təyin edirlər. Şəhər divarları ilə adamların lazımi sayını müəyyən edirlər.

Adamların sayına görə lazımi qədər taxıl ehtiyatını müəyyənləşdirirlər. Bunlar hər üçü qarşılıqlı surətdə təyin edildikdən sonra daxildə etibarlı müdafiə olacaq, xaricdən isə– döyüşdə qalibiyyət. Xaricdə qələbələr qazanıb, içəridə hazırlıqlar görüldükdə, qələbə və hazırlıqlar birkanın bir-birinə uyğun gələn iki tayı kimi istifadə olunurlar.

Ordunu idarə etmək Yerin təki qədər sirlidir. Göyün ənginlikləri qədər qaranlıq və naməlumdur və bu idarəetmə boşluqdan yaranır. Buna görə onu açmaq lazımdır. Böyük az deyil, az böyük deyil.

Qadağalar, bağışlanmalar, ifşa etmə və dayandırmalar barədə məlumatlı olanlar, öz yerlərindən qovulmuş adamları cəlb edərək insan olmayan torpaqları canlandıracaq.

Torpaqlar geniş və becərilmişdirsə, dövlət çiçəklənir, xalq çoxsaylı və itaətkardırsa, dövlət idarə olunur. Dövlət çiçəklənib idarə olunduqda, adamlar döyüş arabalarının təkərləri altından daşları götürüb, silahlarını sıyırmırlarsa belə, onların dəhşətli gücü kainatda nizam-intizamı qoruyub saxlayır. Buna görə deyiblər ki, «ordunun qələbəsi saraydan gəlir». Yaraq-əsləhələrini geyinmədən qələbə çalırlarsa, bu hökmdarın qələbəsidir; qələbə ordunun cəbhə boyu düzülməsindən sonra gəlirsə, bu sərkərdənin qələbəsidir.

Ordunu şəxsi qəzəb üzündən toplamaq olmaz. Əgər qələbəni qabaqcadan görmək mümkündürsə, qoşunu toplamaq olar. Əgər qələbəni qabaqcadan görmək mümkün deyilsə, toplanmanı dayandırmaq lazımdır. Əgər bədbəxtlik yüz li dairəsində yaranırsa, qoşunu toplamağa bir gündən çox vaxt itirmə, əgər bədbəxtdlik min li dairəsində yaranırsa, qoşun toplamağa bir aydan çox vaxt sərf etmə. Əgər təhlükə dörd dəniz dairəsində yaranırsa, qoşun toplamağa bir ildən artıq vaxt sərf eləmə.

Sərkərdəyə gəldikdə: yuxarıda o Səmaya tabe deyil, aşağıda Yerə tabe deyil, ortada adamlara tabe deyil. O, elə vüqarlı olmalıdır ki, onu qəzəbləndirmək mümkün olmasın. Sərkərdə elə təmiz olmalıdır ki, onu var-dövlətlə şirnikləndirmək mümkün olmasın. Əgər onun ağlı pəjmürdədirsə (hissləri ilə), əgər onun gözləri görmür, qulaqları isə eşitmirsə– belə çatışmazlıqlarla ordunu irəli aparmaq çətindir!

Ordu hara gedirsə-getsin– o qoyun bağırsaqları kimi sarmaşan adamsız yolla, yaxud, mişar dişləri kimi çala-çuxur cığırla gedirsə; dağlarla, ya düzənliklə gizlicə gedirsə, fərqi yoxdur– o müzəffər olacaq. Cəbhə boyunca kvadrat, ya dairə şəklində düzülərək, bu ordu müzəffər olacaq.

Ağır ordu dağlara, meşələrə, çaylara və su sədlərinə bənzəyir. Yüngül qüvvələr şiddətli alova bənzəyir: torpaq təpələr kimi onlar

düşməni sıxır, buludlar kimi onu çulğayır. Bu düşmən qoşunlarına bölünməyə imkan vermir, parçalanmışlara isə təzədən bir yerə yığışmağa mane olur. Soldakılar sağda olanların, sağdakılar isə sol tərəfdə yerləşənlərin köməyinə gələ bilmir.

Silah sıx meşəliyi, arbaletlər keçi buynuzlarını xatırladır. İstisnasız olaraq hamısı başını dik tutaraq gedir və igidlik göstərir. Şübhələri rədd edərək, fədakar və idarə olunan, onlar qətiyyətlə irəli gedirlər.

3. QANUNLARIN MÜZAKİRƏSİ

Müharibəyə gəldikdə isə, ilk növbədə qanunlar verilməlidi. Qanunlar verildikdə əsgərlər nizamsız olmayacaqlar. Əsgərlər nizamsız deyirlərsə, cəzalar aydın olacaq. Sinc və təbil onları hara istiqamətləndirsə, yüz adam rəqabət aparacaq, düşmənin sıralarına soxulub təşviş salmaq üçün min adam çalışacaq; düşmənin ordusuna qalib gəlmək və sərkərdəni öldürmək üçünsə, on min nəfər silahını birdən qaldıracaq və Yer üzündə heç kim döyüşdə onlara qarşı dayana bilməz.

Qədimlərdə əsgərlər beş və on adam olmaqla bölmələrə ayrılmışdı, döyüş arabaları isə– qrup və sıralara bölünürdü. Təbillər çalınıb bayraqlar dalğalananda, heç elə olmamışdı ki, divarlara dırmanan ilk adamlar dövlətin böyük qüvvəyə malik görkəmli əsgərləri olmasın! Ölümü qarşılamağa ilk hazır olanlar da dövlətin böyük qüvvəyə malik olan görkəmli əsgərləri olmuşlar. Əgər düşmən birini, bizsə yüzünü itiririksə, bu düşmənin qüvvəsini artırır və bizimkini azaldır. Əsrlər boyu sərkərdələr bunun qarşısını ala bilməmişlər.

Orduya yeni çağırılmış əsgər doğma yerlərə qaçanda və ya döyüşdən qorxub qaçanda, satqınların vurduğu ziyan çox böyük olur. Əsrlər boyu sərkərdələr bunun qarşısını ala bilməmişlər.

Adamları yüz addımlıqdan vuran– ox və yaylardı. Adamı əlli addımlıqda öldürə bilən– nizə və alebardlardı. Sərkərdə hücum əmri veribsə, komandirlər və qoşunlar bir-birlərinə baxırlarsa, oxları qırırlarsa, nizələri fırladır və alebardları yelladirlərsə, həmçinin geri çəkilməyi daha sərfəli hesab edirlərsə, əgər döyüş başlayırsa– bu özünü öldürməkdir. Əsrlər boyu sərkərdələr bunun qarşısını ala bilməmişlər.

Əsgərlər beş-beş və on-on sıraları pozurlarsa, döyüş arabaları sıra və qruplardan çıxırlarsa, çevik qoşunlar öz sərkərdələrini tərk edib qaçırlarsa, ordu isə pərakəndə halda qaçırsa– bu, əsrlər boyu sərkərdələrin qarşısını ala bilmədikləri haldır. Buna görə, əgər sərkərdə bu dörd halın qarşısını ala bilərsə, o, hündür dağlardan, dərin çaylardan keçə bilər və güclü qoşuna hücum edə bilər. Bu dörd halın qarşısını ala bilməmək– Yantszı və Xuanxeni keçərkən qayıq və avarları itirmək kimi bir şeydir. Buna yol vermək olmaz!

İnsanlar ölümdən zövq almırlar, həyata nifrət etmirlər ancaq əgər komanda və əmrlər aydındırsa, qanun və qaydalar mükəmməl işlənibsə, adamları hücuma məcbur etmək olar. Döyüşdən əvvəl mükafatlar ədalətli bölünübsə, döyüşdən sonra cəzalar qətiyyətli olubsa, qoşunlar irəli gedəndə üstünlükdən istifadə edə bilərlər, hərəkət etdikdə isə onlar qələbəyə nail olacaqlar.

Əmr ver ki, komandir yüz nəfərin, «sıma»– min nəfərin, sərkərdə isə– on min nəfərin üstündə rəhbər qoyulsun. Onda azsaylı qoşunla çoxluğu, zəif güclə– güclüləri cəzalandıra bilərsən. Əgər mənim dediklərimi yoxlasan görərsən ki, biri cəzalandırıldıqda üç ordudan heç birinin cəzadan qaça bilməməsi üçün təklif olunan vasitələr kifayət edər. Atalar oğullarını, oğullar isə atalarını gizləməyə cürət edə bilməz, bu dövlətin əhalisi üçün nə qədər belə ola bilər?

Əgər döyüşçü meydanda zərbə endirmək üçün qılıncını qaldırırsa, on min nəfərin arasında elə bir adam olmaz ki, kənara çəkilməsin. Əgər məsələnin bir nəfərin igidliyində deyil, on min nəfərin onun kimi olmamasında olduğunu desəm, bunun səbəbi nədir? Ölümə hazır olmaq və həyatını qorumaq– bunlar müqayisə edilməzdir. Əgər məsləhətləri eşitsən, üç ordunu ölməyə hazır olan quldura çevirmək üçün onları yetərli görərsən. Heç kim onların qabağında duruş gətirməyəcək, heç kim onları təqib etməyəcək. Onlar hegemon ordusu olaraq, təklikdə gəlib-gedə biləcəklər.

Kim yüz minlik ordunu aparıb və Çində heç kim ona müqavimət göstərə bilməyəib? Xuan hun.

Kim yetmiş minlik ordunu aparıb və Çində heç kim ona qarşı dura bilməyib? U Tsi.

Kim otuz minlik ordunu aparıb və Çində heç kim onun qarşısında dayana bilməyib? Sun-tszı.

İndi müxtəlif dövlətlərin sərkərdələri tərəfindən idarə edilən orduları arasında iki yüz min nəfərdən az saylı ordu yoxdur. Və əgər onlar qəhrəmanlıq göstərə bilməyiblərsə, bu ona görədir ki, onlar qadağaları, əvf etmələri, həyata yol açmaları və həddən artıq qəddarlığı dayandırmağı başa düşmürlər. Əgər əmrləri elə aydın etsən ki, bir nəfər qalib olacaq, onda on adam da qalib olacaq. Əgər on nəfər qalib olarsa, onda yüz, min, on min nəfər də qalib ola bilərlər. Buna görə mən deyirəm ki, əgər silah və təchizatımızı yaxşılaşdırsaq, hərbi ruhu yetişdirsək, onda bizim qüvvələrimiz azad olacaq, hücum edən quşa, min sajın hündürlükdən tökülən suya bənzəyəcəklər.

Çətin vəziyyətdə olan dövlət, səfirləri ilə birlikdə ən yaxşı sərvətlərini başqa dövlətlərə göndərir, öz sevimli oğlanlarını girov verir və sərhəd torpaqlarını güzəştə gedir ki, Çinin köməyini əldə edə bilsin. Əgər köməyə gələcək qoşunlar haqqında deyirlərsə ki, onlar yüz min olacaq, əslində onların sayı bir neçə on mindən çox olmayacaq. Qoşun hücuma keçən zaman elə bir sərkərdə yoxdur ki, hökmdar ona deməsin: «Kim olursa-olsun, ondan aşağı olmayın və

döyüşə birinci başlamayın». Əslində, belə qoşunlarla döyüşə girmək olmaz.

Əgər biz sərhədlərimiz hüdudunda əhalini qiymətləndirsək, görərik ki, «beşlik» sistemi olmadan onlara əmr vermək olmaz. Əmrlərlə yüz minlik qoşunu idarə edirlər, hökmdar isə onları geyim və yeməklə təmin etməlidir. Əgər onlar döyüşdə qalib gəlmirsə və müdafiədə dayanıqlı deyirlərsə, bu onların günahı deyil, çünki bunlar daxili səbəblərdən irəli gəlir. Çinin bizə döyüşdə kömək edən müxtəlif dövlətləri, üzülüb əldən düşmüş saçları qarışıq, mifik çapar qaçağan atlarla ayaqlaşmaq istəyən atlara oxşayırlar. Onlar bizim tsiyə nə əlavə edə bilərlər?

Biz Çinin bütün ehtiyatlarından xeyrimiz üçün istifadə etməliyik, Çinin qanunlarını öz şəxsi qanunlarımız kimi idarə etməliyik. Biz əmr və komandalarımıza düzəlişlər etməli və mükafat və cəzaları aydın etməliyik. Elə etməliyik ki, əkinçiliklə məşğul olmadan yeməyə heç nə olmasın; müharibədə döyüşmədən rütbə almaq mümkün olmasın. Biz elə etməliyik ki, insanlar tarlaya və döyüşə can atarkən bir-birlərini itələsinlər. Onda bütün Çində bizim düşmənimiz olmayacaq! Ona görə mən deyirəm ki, əmrlər elan olunubsa, komandalar verilibsə, bütün dövlətdə onlara etibar edəcəklər.

Əgər əhali arasında düşməni məhv edə biləcəyini deyənlər varsa, onlara boş-boş danışmağa imkan vermə, ancaq onların döyüş bacarığını yoxla.

Başqalarının torpaqlarına baxmaq və onları ələ keçirmək, özgə hökmdarın təbəələrini parçalamaq və onların nazını çəkmək üçün layiq olanları özünə tərəf çəkməyi bacarmaq lazımdır. Əgər düşmənin layiqli adamlarını özünə tərəf çəkməyi və onlardan istifadə etməyi bacarmırsansa, ancaq Çinin şahı olmaq istəyirsənsə, düşmənin ordularını dağıdıb, sərkərdələrini öldürməlisən. Lakin onda döyüşdə qalib gəlsən belə, dövlət xeyli zəifləyəcək. Əgər torpaqlar ələ keçirsən belə, dövlət xeyli kasıblayacaq. Bütün bunlar ondan irəli gəlir ki, dövlətdəki qanunların icrası tükənib.

4. DÖYÜŞDƏ QORXUDUCU QÜVVƏ

Ümumiyyətlə, müharibədə elələri var ki, Dao sayəsində qalib gəlirlər; qorxuducu qüvvə hesabına qalib gələnlər, daha doğrusu şəxsi gücü (qüdrəti) sayəsində qələbə çalanlar var. «Əsaslı müzakirələr aparılması və düşmənin qiymətləndirilməsi, düşmənin tsini itirdiyi və sayı çox olsa belə qoşunun dağıldığı üçün, düşmənin ondan istifadə edə bilmədiyi vəziyyətin yaradılması– bu Dao sayəsində əldə edilən qələbədir.

Qayda və qanunlardakı dəqiqlik, mükafat və cəzaların məntiqli olması, silah və təchizatın yaxşılaşdırılması, ürəklərin ram edilməsi– bu dəhşətli qüvvə sayəsində əldə olunmuş qələbədir.

Orduların dağıdılması və sərkərdənin məhv edilməsi, dik qalalardan arbaletlərdən atəş açılması, əhalinin heyrətə salınması və torpaqların işğalı, yalnız uğur qazandıqdan sonra geri dönmək– bu şəxsi gücün sayəsində əldə edilmiş qələbəsidir». Hökmdar və knyazlar bunu bilirlərsə, qələbəyə aparan üç yol başa çatacaq.

Sərkərdənin döyüş vasitəsi– insanlardı; adamların döyüş vasitəsi– onların tsisidir. Tsi tamdırsa, onlar döyüşəcəklər; tsi məhv edilibsə, onlar məğlub olacaqlar.

Düşməni cəzalandırmazdan əvvəl; əsgərlər silahlarını çarpazlaşdırmazdan əvvəl, düşməni tutmağın beş üsulu var:

1.Qələbəyə aparan yolu sarayda müzakirə etmək.

2.Sərkərdənin mandat almasını müzakirə etmək.

3.Sərhədləri keçməyi müzakirə etmək.

4.Xəndəkləri necə dərin, bəndləri hündür etməyi müzakirə etmək.

5.Qoşunun səfərbər edilməsi və bölüşdürülməsini və düşmənə qarşı cəza tədbirləri görülməsini müzakirə etmək.

Bu beş halda əvvəlcə düşməni qiymətləndir, sonra isə hücuma keç. Belə olduqda onun boş yerinə hücum edib, onu tutmaq olar.

Müharibəni bacarıqla aparan kəs, başqalarını tutmağa qadirdir və özünü istila etməyə imkan verməz. İşğal– ağlın sənətidir. Əmrlər adamların ağlını birləşdirir. Əgər öz qoşunlarını başa düşmürsənsə, əmrləri tez-tez dəyişmək lazımdır. Əmrləri tez-tez dəyişəndə, əgər onlar verilibsə belə, qoşun ona inanmır.

Buna görə əmrlərin verilməsi qaydası belədir: hətta ən kiçik səhvləri, ən kiçik şübhələri göstərmək olmaz. Buna görə, yuxarılar şübhəli əmrlər verməyəndə qoşunlar iki müxtəlif variant eşitməyəcəklər. Hərəkətlə bağlı heç bir sual olmadıqda, çoxunun müxtəlif fikri, qərəzi olmayacaq. Heç olmayıb ki, adamlar sərkərdələrinin ağlına inanmasınlar və öz qüvvələrini göstərmək iqtidarında olsunlar. Heç vaxt olmayıb ki, öz gücünü göstərmək iqtidarında olmayan birisi döyüşdə həyat yox, ölüm uğrunda vuruşsun.

Buna görə, dövlətdə ayinlərin (li) ədalətli formaları, sədaqət, dostluq və sevgi olmalıdır, belə olduqda o aclığı toxluqla əvəz edə bilər. Dövlətdə oğul ehtiramı, valideyn sevgisi, düzlük və xəcalət hissi olmalıdır, yalnız o zaman dövlət ölümü həyatla əvəz edə bilər. Qədim hökmdarlar adamları idarə edəndə, birinci yerə ayin və sədaqəti qoyurdular və ancaq bundan sonra rütbə və mükafatlandırmalar gəlirdi. Onlar düzlük və xəcalət hissini birinci yerə qoyurdular, yalnız bundan sonra cəza və cərimələr gəlirdi; dostluq münasibətləri və sevgi birinci idi, adamlar üçün məhdudiyyətlər isə– ikinci.

Buna görə, döyüşə girən kəs adamları özü aparmalıdı, onlara arxa olmalıdı, ağıl dörd ətrafı idarə etdiyi kimi, komandir və əsgərləri

hərəkətə təhrik etməlidir. Əgər adamlarda ruh yüksəkliyi oyanmayıbsa, komandirlər şərəflə ölməyəcəklər. Komandirlər şərəflə ölməyəcəklərsə, qoşunlar döyüşməyəcək. Əsgərləri ruhlandırmaq üçün xalqın dövlətini əsirgəməməlisən. Zadəgan rütbələrini, ölüm və matəmdə fərqləri, adamların əməllərini görünməz etməməlisən.

Adamları onların yaşama tələbatlarına uyğun idarə etmək və onların əməllərinə uyğun fərqləri aydınlaşdırmaq vacibdir. Torpağın məhsulu və mükafatlar, qohumları yemək və şərabla qonaq etmək, kənd mərasimlərindəki ümumi şənlik, ölüm və hüzn vaxtı ümumi kədər, qoşunların mehribanlıqla yola salınması– budur adamları ruhlandıran.

Çalış ki, beşlik və onluqların üzvləri qohum, bölmələrin əsgər və komandirləri isə dost kimi olsunlar. Onlar dayandıqda möhkəm dairəvi divar kimi, hərəkət etdikdə külək və yağış kimi olacaqlar. Və onda cəng arabaları geri dönməyəcək, əsgərlər qaçmayacaqlar. Döyüş üçün əsas yaradılması yolu bundadır.

Torpaq– əhalini təmin etmək vasitəsidir; möhkəmləndirilmiş şəhərlər– torpağı müdafiə etmək vasitəsidir; döyüş– şəhərləri mühafizə etmək vasitəsidir. Buna görə, kim ki, adamların torpağı şumlamasına nəzarət edir, o, ac qalmayacaq; kim ki, torpaqların müdafiəsinə diqqət verir, təhlükədə qalmayacaq; kim ki, bütün qüvvəsini döyüşə sərf edir, mühasirəyə düşməyəcək. Bu üç şərt keçmiş hökmdarların əsas qayğısı olub və bunların arasında hərb işləri əsas yer tutub.

Buna görə, keçmiş hökmdarlar beş hərb işinə diqqət yetiriblər. Anbarlar taxılla dolu olmayanda, əsgərlər hərəkət etmirlər. Mükafat və bəxşişlər səxavətli deyilsə, adamlar həvəslənmirlər. Ən yaxşı döyüşçülər seçilməyibsə, qoşunlar güclü olmayacaq. Silah və təchizat hazırlanmayıbsa, ordunun gücü çox olmayacaq. Mükafat və cəzalar düz olmayanda, qoşunlar onlara etibar etməyəcək.

Bu beş şərtə diqqət versək, ordu, müdafiə mövqeyi tutaraq vəziyyəti mühafizə edə bilər, yürüşə çıxarkən isə düşmən torpaqlarını işğal edə bilər.

Dövlətdə qalanlara və yürüşə çıxanlara gəldikdə isə, sən istəyirsən ki, arxada qalanlar «möhkəm» olsunlar. Qoşunları cəbhə boyu düzərkən istəyirsən ki, sıralar sarsılmaz olsun. Hücumun əvvəlində istəyirsən ki, onlar böyük səy göstərsinlər. İrəli döyüşə gedərkən isə, istəyirsən hamı bir nəfər kimi olsun.

Əsl hökmdarın dövləti xalqı hegemonun dövləti– məmurları zənginləşdirir. Sağ qalan dövlət yüksək məmurları zənginləşdirir, məhvə məhkum dövlət isə ancaq öz ambarlarını zənginləşdirir. Buna «yuxarı doludur, aşağı isə damır»,- deyirlər. Bəla gələndə xilas olmaq qeyri-mümkün olacaq.

Buna görə mən deyirəm ki, əgər layiqli olanları özünə tərəf çəkib, bacarığı olanları vəzifəyə qoysan, əlverişsiz vaxtda belə, vəziyyət üstün olacaq. Əgər qanunlar aydın olsa və əmrlər verərkən

diqqətli olsan, tısbağanın qını üzərində və ya boymadərən gövdəsində fala baxmadan da uğur üzünü sənə çevirəcək.

Əgər uğuru qiymətləndirirsənsə və səy göstərirsənsə, duasız da xeyir-dua alacaqsan. Bundan başqa, deyiblər ki: «Göyün fəsillərindənsə, Yerin mənfəəti yaxşıdır; Yerin mənfəətindənsə, adamlar arasında harmoniya yaxşıdır». Kamil müdrikin qiymətləndirdiyi insan səyləridir, vəssalam!

Yürüş vaxtı ordu çətinliklə irəliləyirsə, sərkərdə şəxsi nümunə göstərməlidir. İstidə o çətir açmır, soyuqda isə çox paltar geyinmir. Çətin ərazidə o, atdan düşüb piyada getməlidir. Ancaq ordu su içib qurtardıqdan sonra sərkərdə su içə bilər. Ancaq ordunun yeməyi hazır olduqdan sonra o, özü yeyə bilər. Yalnız ordu bəndləri tikdikdən sonra sərkərdə dincələ bilər. O, çətinlik və istirahəti ordu ilə bölüşməlidir. Belə olduqda, əgər ordu uzun müddət düzənlikdə olsa belə, nə laqeyd, nə də yorğun olmayacaq.

5. HÜCUM ZAMANI QÜVVƏLƏRİN TAKTİKİ TARAZLIĞI

Müharibədə qələbəyə nizam-intizam sayəsində nail olurlar; dövlət birlik sayəsində qələbə çalır. Qüvvələri parçalanmış tərəf zəif olacaq; tərəddüd edənə qarşı üsyan edərlər. Əgər qüvvələr zəifdirsə, hücum və yürüş cəsarətli olmayacaq, düşməni təqib edərkən isə heç kim əsir götürülməyəcək. Sərkərdələr, komandirlər, rəislər və qoşunlar hərəkətdə də, istirahətdə də bütöv bədən kimi olmalıdırlar. Əgər sərkərdə tərəddüd edirsə, qoşun isə itaətsizliyə meyl edirsə, hər şey hesablanıbsa belə, onlar hücum etməyəcək. Yaxud yürüş başlayıbsa, onları idarə etmək mümkün olmayacaq. Ağızdan boş sözlər çıxırsa, sərkərdə özünü düz aparmırsa, qoşunlar isə bərkiməyibsə, ona görə, əgər onlar hücuma keçsələr, mütləq darmadağın ediləcəklər. Bu, «tələsən, itaət etməyən ordu» adlanır. Beləsi ilə müharibəyə girmək olmaz.

Sərkərdə ordunun ağlıdır, bütün qalanlar isə– ətraflar və oynaqlardı. Ağıl səmimi olduqda, ətraflar və oynaqlar mütləq güclü olur. Ağıl tərəddüdlə dolu olanda, ətraf və oynaqlar əsirlər. Buna görə, əgər sərkərdə öz ağlını idarə etmirsə, qoşun şişmiş üzvlər kimi olacaq. Bu zaman ordu qalib gəlsə belə, bu, hücum vaxtı qüvvələrin taktik tarazlığının nəticəsi deyil, xoşbəxt bir təsadüf olacaq.

Adamlar iki şeydən eynilə qorxa bilməzlər. Əgər onlar bizdən qorxurlarsa, düşmənə nifrət edəcəklər; əgər onlar düşməndən qorxurlarsa, onda bizə nifrət edəcəklər. Nifrət olunan isə darmadağın ediləcək; öz dəhşətli qüvvəsini göstərən isə qələbə çalacaq. Sərkərdə dəhşətli qüvvənin Daosunu həyata keçirə bildikdə, komandirlər ondan qorxacaq. Komandirlər sərkərdələrindən qorxduqda, adamlar komandirlərindən qorxacaqlar. Adamlar komandirlərindən qorxanda, düşmən bizdən qorxacaq. Buna görə, qələbə və məğlubiyyətin Daosunu bilmək istəyənlər, ilk növbədə «qorxu» və «nifrət» gücünün tarazlığını bilməlidirlər (kursiv–red.).

Adamların sevmədikləri və xatırlamadıqlarının xidmətlərindən istifadə edə bilmərəm; heç kimin hörmət etmədiyi və qorxmadığı adamı vəzifəyə təyin edə bilmərəm. Sevgi aşağıdan törəyir, qorxuducu qüvvə yuxarılar tərəfindən təyin edilir. Əgər onlar öz sərkərdələrini sevirlərsə, onların ikili fikirləri olmayacaq; əgər onlar sərkərdələrindən qorxurlarsa, üsyan etməyəcəklər. Buna görə komandanlıq etmək işi– sevgi və qorxuducu qüvvə məsələsidir.

Döyüşə girib qələbə çalacağından əmin olmayan kəs haqqında demək olmaz ki, «o, döyüşür». Hücum edib düşməni ələ keçirəcəyinə inanmayana demək olmaz ki, o «hücuma keçib». Əgər bu başqa cürə olsaydı, mükafat və cəzalara lazımi qədər etibar eləməzdilər. İnam vacib olduğu vaxta qədər əldə edilməlidir; ilk əlamətlər görünənə qədər işləri idarə etmək lazımdır. Buna görə, bir dəfə birləşən qoşun, ehtiyac olmadan səpələnməməlidir. Ordu hərəkətə başlayırsa, boş əllə geri dönməməlidir. O düşməni itkin düşmüş oğul kimi axtaracaq; o düşmənin üzərinə, batan adamı xilas edirmiş kimi hücum edəcək.

Dərədə mövqe tutan tərəfin kifayət qədər ağlı yoxdu. Dərhal döyüşə atılan tərəfin döyüş ruhunun tamlığı kifayət qədər deyil. Döyüşdə döyüşkən olan tərəfin qələbə çalmaq üçün kifayət qədər əsgəri yoxdur.

Ümumiyyətlə, müharibəyə başlayarkən ədalətə çox inanan tərəf döyüşə birinci başlamağı sevir. Yalnız şəxsi qəzəbi üzündən döyüşən tərəf, artıq qaçılması mümkün olmayan vaxtda cavab verməli olur. Əgər, hətta ürəyin nifrətlə doludursa, qoşun isə artıq cəmlənibsə, düşməni gözlə və onun yerdəyişmələrinə cavab ver. Döyüş vaxtı düşmənin nə zaman hücum edəcəyini gözləmək vacibdir. Müvəqqəti sakitlik olanda, qəfil hücuma hazırlaşmaq lazımdır.

Ordu var qələbəyə sarayda nail olur, ordu var çöllərdə və düzənliklərdə qələbə çalır və ordu da var qələbəni meydanlarda qazanır. Elələri var ki, döyüşür və qələbəyə nail olur, elələri var ki, tabe olurlar və uduzurlar, elələri də var ki, düşmən qəfil qorxub geri çəkiləndə, məğlubiyyətdən qaça bilirlər və hadisələrin gedişatındakı dəyişmələr nəticəsində qələbə onlara qismət olur. Sonuncu qələbə tam olmayan qələbə hesab olunur. Tam olmayan qələbə, taktikadan istifadənin nəticəsi hesab oluna bilməz. Buna görə, bilikli hökmdar hücum günü diqqət edəcək ki, təbil və sinclər yekdilliklə çalışsınlar, ordunun gücü isə nizamlı olsun. O zaman hökmdar qələbəni axtarmadan ona nail olacaq.

Elə ordular var ki, müdafiə mövqelərini qoyub gedir, qorxuducu qüvvələrini itirir və bununla belə qələbə çalır, çünki onların öz üsulu var. Elələri də var ki, silahdan istifadəni qabaqcadan elə müəyyən ediblər ki, onların düşmənə cavab zərbəsi– hərtərəfli, ümumi idarəetmə isə– nöqsansızdır.

Buna görə, beş adam üçün– böyük, on nəfər üçün– ən birinci, yüz adam üçün– rəis, min nəfər üçün– komandir, on min nəfər üçünsə– sərkərdə. Belə təşkil olunma artıq hər şeyi əhatə edir və nöqsansızdır. Əgər adam səhər ölürsə, o biri onu həmin səhər əvəz edir, əgər adam axşam ölürsə, başqası həmin axşam onun yerini alır. Müdrik hökmdar özünün və düşmənin taktik tarazlığını götür-qoy edir, sərkərdələri qiymətləndirir və yalnız bundan sonra ordunu toplayır.

Buna görə ordunu min li məsafədə toplayanda on gün lazım olur, yüz li məsafədə isə– bir gün, özü də toplantı yeri düşmən sərhədi olmalıdır. Qoşunlar yığıldıqdan və sərkərdə gəldikdən sonra, onlar düşmən ərazisinin içərilərinə soxulmalı, yolları kəsməli və şəhər və kəndləri tutmalıdırlar. Qoy qoşunlar divara dırmaşıb düşməni təhlükəli vəziyyətdə qoysunlar. Qoy kişi və qadınlardan ibarət bir neçə dəstə ərazinin şəraitindən istifadə edərək düşmənə təzyiq etsinlər və bütün strateji maneələrə hücum etsinlər. Əgər şəhərləri (ətraf ərazini) zəbt edirsənsə və şəhərə aparan yolu bağlayarsansa, bunun ardınca şəhərə də hücum etmək olar. Əgər düşmənin sərkərdələri və orduları bir-birinə inanmırlarsa, komandir və əsgərlər harmoniya təşkil edə bilmirlərsə və elələri də var ki, cəzalar onlardan yan keçir, biz onları darmadağın edərik. Kömək gəlib çatana qədər şəhər təslim olacaq.

Əgər bərələr və körpülər tikilməyibsə, strateji maneələr qaydaya salınmayıbsa, qala divarlarındakı təhlükəli yerlər möhkəmlənməyibsə, dəmir «kirpilər» düzülməyibsə, şəhər uzaqdan vahiməli görünsə də, onun heç bir müdafiəsi yoxdur.

Əgər uzaq zastavalardakı qoşunlar hələ şəhərə girməyibsə, sərhəd qoşunları və digər dövlətlərdə olan qüvvələr qayıtmayıbsa, düşmənin adamı olsa da, onun adamı yoxdur! Əgər altı ev heyvanı bir yerə cəmlənməyibsə, əgər beş dənli bitki yığılmayıbsa, əgər var-dövlət və istifadə olunacaq əşyalar toplanmayıbsa, düşmənin ehtiyatı varsa da, onun ehtiyatı yoxdur!

Şəhər boş, ehtiyatlar tükənmiş olduqda, biz boşluqdan istifadə edib düşmənə hücum etməliyik. Hərb sənətində belə deyilir: «Onlar tək gedirlər, onlar tək qayıdırlar. Düşmən əsgərləri silahlarını onlarla çarpazlaşdırana qədər, onlar artıq qələbə qazanmışdılar». Bunun mənası budur.

6. QÜVVƏLƏRİN MÜDAFİƏDƏ TAKTİKİ TARAZLIĞI

Müdafiəçilər irəli gedəndə, əgər onlar nə şəhərin bayır divarlarını, nə sərhəd torpaqlarını tutmurlarsa, geri çəkilərkən isə müdafiə müharibəsi üçün nəzarət qüllələri və qoruyucu qurğular qoymurlarsa, onda onlar müdafiədə müvəffəqiyyət qazanmaya-caqlar.

Cəsur qəhrəmanlar və igid əsgərlər, davamlı əlbəsə və iti silahlar, iri arbalet və möhkəm oxlar– bütün bunlar bayır divarların

içərisində olmalıdır. Divarların bayır tərəfində torpaq zirzəmilərdə və anbarlarda saxlanılan bütün taxıl toplanmalıdır, bayır divarlardan kənardakı evlər isə dağıdılmalı və istehkamlara çevrilməlidir. Bu hücüm edənləri on dəfə, yüz dəfə çox qüvvə itirməyə məcbur edər, müdafiə olunanlar isə canlı qüvvənin heç yarısını da itirməz. Hücum edən düşmənə böyük ziyan vurulacaq, ancaq sərkərdələr əsrlər boyu bunu bilməyiblər.

Müdafiəçilər strateji əhəmiyyətli ərazilərə laqeydlik göstərməməlidirlər. Şəhər divarlarının müdafiə olunması qaydaları belədir: hər çjana[11], sənətkarlar və aşpazlar saya alınmadan, on nəfər qoymaq lazımdır. Döyüşməyə çıxanlar şəhəri müdafiə etmirlər, şəhəri müdafiə edənlər, döyüşə çıxmır. Müdafiədə bir nəfər on hücum edən əsgərə qarşı dayana bilər; on nəfər yüz əsgərə; yüz adam min nəfərə, min müdafiəçi isə on min nəfər hücum edən düşmənə qarşı dayana bilər. Buna görə, şəhərin daxili və bayır divarlarının boş (sonralar tapdalanaraq hamarlanmış) torpaqdan tikilməsi adamların qüvvələrini boş yerə sərf etməməyə imkan verir, çünki bu qüvvələr müdafiə üçün vacibdir.

Əgər divarın uzunluğu min çjandırsa, onu on min adam müdafiə etməlidir. Xəndəklər dərin və geniş, divarlar– qalın və möhkəm, əsgərlər və adamlar– hazırlıqlı, çırpı və ərzaq– ehtiyatlanmış olmalıdır. Arbaletlər tarım, oxlar– möhkəm, nizə və təbərzinlər– rahat olmalıdır. Müdafiəni möhkəm etməyin yolu büdür.

Əgər hücum edənlər yüz mindən az deyilsə, müdafiə olunanların isə bayırda ordusu varsa, bu ordu mütləq köməyə gələcək, bu vaxt məhz şəhəri qorumaq lazımdır. Əgər köməyə gələ biləcək bayır ordu yoxdursa, onda bu şəhəri müdafiə etmək lazım deyil.

Əgər divarlar möhkəmdirsə, kömək isə yaxınlaşırsa, onda, hətta axmaqlar və nadan qadınlar belə düşmənin gücünü zəiflədərək və onu qana bulayaraq qalanı müdafiə edəcəklər. Şəhər bir il mühasirəyə davam gətirmək üçün müdafiəçilərin gücü hücum edənlərin gücündən artıq olmalıdı, köməyə gələn ordunun gücü isə müdafiə olunanların qüvvəsindən çox olmalıdır.

Əgər divarlar möhkəmdirsə, ancaq kömək gəlməyə bilərsə, onda axmaqlar və təcrübəsiz qadınlar– hamı bir nəfər kimi– istehkamları müdafiə edəcəklər, ancaq onlar ağlayacaqlar. Bu adi insan hissidir. Onları sakitləşdirmək və təsəlli vermək üçün ehtiyat anbarların ağzını açsan belə, daha onları saxlaya bilməzsən. Möhkəm əlbəsələr geyinmiş, iti silahla, tarım çəkilmiş arbaletlə və bərk oxlarla silahlanmış mərd qəhrəmanları və cəsur döyüşçüləri qabaqda döyüşməyə həvəsləndirmək, gəncləri, zəifləri, şikəstləri və xəstələri isə öz qüvvələrini arxada göstərməyə sövq etmək lazımdır.

Əgər yüz minlik ordu şəhər divarları altında yerləşibsə, köməyə gələn ordu mühasirəni yarmalı, şəhəri müdafiə edənlər şəhərdən çıxmalı və hücum etməlidilər. Onlar şəhərdən çıxarkən,

təhlükəli yerləri qorumalıdırlar. Ancaq köməyə gələn ordu, mühasirədə olanların arxasında olan sursat gətirilən yolları bağlamamalıdır. İçəridəki və çöldəki qüvvələr yekdil hərəkət etməlidirlər.

7. ON İKİ XƏBƏRDARLIQ

Qorxuducu qüvvə dəyişməzliyə əsaslanır. Yaxşılıq fəsillərə uyğunlaşmağa əsaslanır. Fərasət işi başa düşməyə əsaslanır. Müharibə tsini idarəetməyə əsaslanır. Hücum xarici qüvvənin ölçülməsinə əsaslanır. Müdafiə xarici qüvvənin hesaba alınmasına əsaslanır. Sadəlik ölçməyə və hesablamaya əsaslanır. Çətin vəziyyətlərdən qaçılması qabaqcadan görmə və hazırlığa əsaslanır. Diqqətli olmaq kiçiyə hörmətə əsaslanır. Müdriklik böyüyü idarə etməyə əsaslanır. Ziyanın aradan qaldırılması qətiyyətli olmaq bacarığına əsaslanır. Qoşunların itaət etməsi başqalarına hörmətə əsaslanır.

Təəssüf şübhəli olana inama əsaslanır. Şər (pislik) hədsiz cəzalara əsaslanır. Mövhumatlar çox vaxt arzulara göz yummağa əsaslanır. Xoşagəlməz hadisələr öz səhvlərin barədə eşitmək istəməməyinə əsaslanır. İsrafçılıq insanların gücünün zəifləməsinə əsaslanır. Nadanlıq həqiqətdən uzaqlaşdıran məsləhətlərə əsaslanır. Ciddiyyətsizlik düşünülməmiş hərəkətə əsaslanır. İnadkarlıq və cəhalət layiqli adamları özündən uzaqlaşdırmağa əsaslanır. Bədbəxtlik mənfəətə sevgiyə əsaslanır. Ziyan şübhəli adamların yaxınlaşmasına əsaslanır. Bədbəxtlik müdafiə etmək üçün yerin olmamasıdır. Təhlükə aydın komanda və əmrlərin çatışmamasına əsaslanır.

8. HƏRBİ PLANLAR

Müharibə apararkən qanunları pozmamış şəhərlərə hücum etmə, cinayət törətməmiş adamları öldürmə. Ataları və böyük qardaşları öldürənlər; başqalarının dövlət və varını götürənlər; başqalarının oğul və qızlarını əsarət altına alanlar həmişə quldur kimi tanınır. Buna görə müharibə– qəddar və zalımları cəzalandırmaq və haqsızlıqları dayandırmaq vasitəsidir. Nə vaxt müharibə olursa-olsun, kəndlilər öz tarlalarını, tacirlər dükanlarını, məmurlar isə xidmət yerlərini tərk etmirlər– bütün bunlar bir adamın planlarından asılıdır. Onda hətta silahlar qana boyanmamışdan, Səmaaltı itaətkarlıq göstərir.

On min cəng arabası olan dövlət kənd təsərrüfatı və müharibə ilə məşğul olur. Min ədəd cəng arabası olan dövlət başqalarını xilas edir və özünü müdafiə edir. Yüz cəng arabası olan dövlət başqa dövlətlərə xidmət edir və onlara tərəfdar olur. Kənd təsərrüfatı və müharibə ilə məşğul olanlar, qıraqda nümunə axtarmır; başqalarını xilas edib, özünü müdafiə edənlər kənarda kömək axtarmır; başqa dövlətlərə xidmət edən və tərəfdar olanlar, kənardan var-dövlət

axtarmır. Əgər kiminsə hücum etmək və döyüşü başlamaq və sərhədinin hüdudlarında qalaraq öz dövlətini müdafiə etmək üçün kifayət qədər var-dövləti yoxdursa, bu çatışmazlığı bazarlarla doldurmaq lazımdır.

Bazarlar– hücum və müdafiə xarakterli müharibəni təmin etmək vasitəsidir. Əgər on min cəng arabası olan dövlətin müttəfiqləri– min cəng arabası olan dövlətlər – yoxdursa, bu ölkə yüz cəng arabasını təmin etmək iqtidarında olan bazarlara malik olmalıdı.

Edamlar əsgərləri maarifləndirmək imkanı verir. Əgər bir nəfərin edamından sonra bütün ordu sarsılacaqsa, onu öldür. Əgər bir nəfərin mükafatlandırılmasına on min nəfər sevinəcəksə, onu mükafatlandır.

Edam edərkən çoxu qiymətləndir; mükafatlandırarkən, azı qiymətləndir. Əgər kimsə edam olunmalıdısa, o adam lap hörmətli və qüdrətli olsa belə, onu öldür, çünki bu cəzalandırma mahiyyəti əldə ediləndir. Mükafatları, hətta çobanlar və mehtərlər alırlarsa, bu ən aşağılara qədər uzanan mükafatlardı. Mahiyyəti əldə edilən cəzalardan və lap aşağılara qədər uzanan mükafatlardan istifadə etmək bacarığı sərkərdənin böyüklüyüdür. Buna görə hökmdarlar öz sərkərdələrini qiymətləndirirlər.

Sərkərdə təbili götürəndə, çubuqlarla vurur və həlledici döyüş üçün təhlükənin üstünə gedəndə, əsgərlər görüşüb çılpaq silahlarını çarpazlaşdıranda, əgər sərkərdə hücum təbili çalır və qoşun qələbə çalmaq üçün hay verirsə, o, xidmətlərinə görə mükafatlandırılacaq və onun şöhrəti möhkəmlənəcək. Əgər sərkərdə hücum təbili çalırsa və qoşun onu eşitmirsə, onda sərkərdə öləcək, dövlət isə məhv olacaq. Buna görə həyat və ölüm, təhlükəsizlik və təhlükə– bütün bunlar təbil çubuqlarının ucunda gizlənib! Sərkərdəni necə qiymətləndirməmək olar?

Təbili götürüb çubuqları əlində tutmaq, elə etmək ki, əsgərlər döyüşə girsin və silahlar cingildəsin və hökmdar hərbi işlər sayəsində böyük uğurlar qazansın– mən burada çətin heç nə görmürəm. Qədimlərdə deyiblər: «Müdafiə örtüklü cəng arabaları ilə hücum etmək, «kirpi» kimi ləvazimatsız müdafiə olunmaq– bu cür ordu heç nədə müvəffəqiyyət qazana bilməz!» Baxmaq və görməmək, dinləmək və eşitməmək– bu, dövlətdə bazarların olmamasından irəli gəlir.

Bazarlar hər cür mallarla doludur. Dövlət bazarda ucuz mallar almalı və qiyməti qalxanları satmalıdır ki, əyanları və xalqı qıssın. Adamlar bir kisə taxıl yeyir, atlar isə üç dou yulaf. Necə olur ki, adamların tox görkəmi var, atlar isə üzülüb əldən düşüb? Bazarda elə mallar var ki, onları çatdırmaq olar, ancaq işləri idarə edən yoxdur. Əgər Səmaaltındakı (Çindəki) ən yaxşı ordunu ayağa qaldırırsansa, ancaq müxtəlif malları idarə etmirsənsə, bu «müharibə aparmaq bacarığı» adlandırılan deyil.

Adamları toplantıdan dərhal sonra və onların əlbəsə və dəbilqələrini qurd-quş yeyənə qədər xidmətdə saxlamaq üçün onlar bizim istifadə edə biləcəyimiz kimi qalmalıdırlar. Vəhşi quş sərçəni təqib edir və sərçə adamın əlinə qaçır ya da kiminsə komasında gizlənir. Bu ona görə deyil ki, sərçə yaşamaq istəmir, ona görədir ki, onun qorxduğu nəsə var.

Tay-qun-vanın yetmiş yaşı olanda, o, Çaokedə inəkləri öldürüb, ətini Mentszində satdı. Onun yaşı yetmişi keçmişdi, ancaq hökmdar onu eşitmirdi, adamlar isə onu dəli hesab edirdilər. Sonralar o, Ven-vanla görüşdüyü vaxt, otuz minlik orduya komandanlıq etdi, və bircə döyüşlə Çin ölkəsi ram oldu. Onun hərbi planları və ya anlayışları olmadan, onlar belə birləşməyə necə nail ola bilərdilər? Buna görə deyilib: «Əgər yaxşı atın minicisi varsa, böyük məsafə qət etmək olar; əgər ləyaqətli və tanınmış adamlar birləşirlərsə, böyük Dao həyata keçirmək olar».

U-van Çjouya basqın edəndə, ordu Mentszin yaxınlığında Sarı çayı keçdi. Sağ tərəfdə vanın bayrağı, solda– cəza baltası, ortada– ölməyə hazır olan üç yüz əsgər və otuz min əsgər vardı. Çjou bir neçə min əsgər çıxardı, Fey Lyao və Ou Lay kimi şərəfsiz nazirlər isə təbərzin və döyüş baltaları ilə silahlanmış əsgərləri şəxsən aparırdılar. Onların qoşun xətti yüz li uzunluğunda idi. U-van nə əsgərlərin, nə xalqın qüvvəsini tükətmədi, əsgərlər silahlarını qana bulamadılar, onlar Şan sülaləsini fəth edərək Çjounu edam etdilər. Əlverişli və düzgün olmayan heç nə yox idi; bu, sadəcə, insan işlərində kamilliyin və natamamlığın olması halı idi.

İndiki nəsil sərkərdələri «yeganə günləri» və «boş başlanğıcı» seçir, Syan-çi ulduzuna görə nəyisə qabaqcadan deyir, bütöv və uğursuz günləri müəyyən edir, tısbağa qını üzərində fala baxır, münasib və qaçılmaz olanı axtarır, planetlərin, bürclər və küləyin dəyişikliklərini müşahidə edir– bununla qələbəyə nail olub, uğur qazanmaq istəyirlər. Mən bunu çox çətin hesab edirəm!

Nə yuxarıdan Səma, nə aşağıdan Torpaq, nə ortadan adamlar sərkərdəni idarə etmir. Buna görə silah– şər alətidir. Döyüş comərdliyə ziddir. Sərkərdənin mövqeyi vəzifəsi– ölüm yeridir. Buna görə, bundan qaçmaq mümkün olmadıqda, onlardan istifadə et. Nə yuxarıda Səma, nə aşağıda Torpaq, nə arxada hökmdar, nə öndə düşmən var. Bir adamın ordusu canavar və pələngə, yağış və küləyə, ildırım və şimşəyə bənzəyir. Sarsıdıcı və sirli olan bu ordu bütün Çinə ixlaskar qorxu hissi təlqin edir.

Qələbə çalan ordu suya bənzəyir. Su– hər şeydən yumşaq və zəifdir, ancaq o nəyə toqquşarsa– lap təpə və yarğanlar belə olsa– hər şeyi dağıdacaq, çünki onun təbiəti bir vahiddə cəmlənib, onun təzyiqi isə bütünlüklə məqsədə tabedir (kursiv– red.). Əgər Mo Enin məşhur qılıncının itiliyinə, kərgədan dərisinin möhkəmliyinə, üç ordunun qoşunlarına, düzgün və qeyri-adi üsullara malik olsan–

Kainatda (Səmaaltında– Çində) heç kim döyüşdə sənin qabağında dayana bilməz.

Buna görə deyilib ki, əgər layiqliləri yüksəldib, istedadlılardan istifadə edirsənsə, gün və saat əlverişsiz olsa belə, işlər əvvəlki kimi uğurlu olacaq. Əgər qanunları aydın edirsənsə və əmrlər verərkən ehtiyatlısansa, tısbağa qınında və boymədərən gövdəsi ilə fala baxmadan arzuolunan nəticələrə nail olacaqsan. Əgər xidmətlərə hörmət edib, səyləri qiymətləndirirsənsə, onda dua etmədən də xoşbəxtlik əldə edərsən. Onu da deyiblər ki, «Səma fəsilləri Yerin üstünlükəri qədər yaxşı deyil; Yerin üstünlükləri adamlar arasındakı harmoniya qədər yaxşı deyil». Qədimlərin kamil müdrikləri insan səylərini əsas hesab edirdilər, vəssalam.

U Tsi Tsinlə döyüşə başlayanda, düşərgəsini harda qurурdusa, ordusu tarlaları tapdamırdı. Cavan ağacları donma və şehdən qoruyurdular. O, nə üçün belə edirdi? Çünki o, özünü başqalarından üstün tutmurdu. Əgər adamların həyatlarını qurban vermələrini istəyirsənsə, onlardan zahiri hörmət tələb etmək lazım deyil. Əgər adamlardan öz qüvvələrini sərf etmələrini istəyirsənsə, onlardan ayinləri yerinə yetirmələrini tələb etmək lazım deyil. Buna görə, qədimlərdə dəbilqə və əlbəsə geyən döyüşçü təzim etmirdi, bununla o, adamlara bildirirdi ki, onu heç nə narahat etmir. Adamları hirsləndirmək və bununla yanaşı onlardan ölmələrini və öz qüvvələrini vermələrini tələb etmək ki,– bu barədə ta qədimdən indiyə qədər heç kim eşitməyib.

Sərkərdə mandatı aldıqda öz ailəsini unudur. O, orduya komandanlıq edəndə və ordu tarlada düşərgə salanda, sərkərdə ona yaxın olanları unudur. O, təbil çubuqlarını götürüb hücum təbili çalanda, özünü unudur.

Döyüş vaxtı yaxınlaşanda köməkçiləri U Tsiyə öz qılınclarını təklif etdilər. U Tsi dedi: «Sərkərdə yekdilliklə bayraq və təbillərlə idarə edir. Çətin sınaq olanda, o şübhəli məsələləri həll edir, qoşunları idarə edir və onların qılınclarını istiqamətləndirir. Sərkərdənin əməyi belədir. Təkcə qılınc gəzdirmək– sərkərdənin işi deyil».

Üç ordu döyüş sırasına düzüləndə gün ərzində yol getməlidir, üç günə gedilməsi tələb olunan məsafəni qət etmək üçün ertəsi gün də iti marş eləməlidir. Üç günlük yolu keçdikdən sonra onlar çayın ağzı açılan mənbəsinə bənzəməlidirlər. İrəlidə düşməni müşahidə edərək, onun gücündən istifadə etmək vacibdir.

Əgər düşmən ağdırsa, onu ağla ələ keçir; əgər düşmən qırmızıdırsa, onu qırmızı ilə tut. U Tsi Tsinlə döyüşə girəndə, hələ ordular silahlarını çarpazlaşdırana qədər, igidlikdə tayı-bərabəri olmayan birisi irəli getdi, iki nəfəri öldürüb, onların kəlləsi ilə geri qayıtdı. U Tsi dərhal onun başını kəsməyi əmr etdi. Ordulardan birinin komandanı etiraz edərək dedi: «Bu çox gözəl döyüşçüdür. Siz onu edam edə bilməzsiniz». U Tsi dedi: «Onun əla döyüşçü

olduğuna şübhə yoxdur. Ancaq o, mənim əmr etdiyimi eləməyib». Və əsgəri edam etdi.

9. KOMANDANLIQ ETMƏK PRİNSİPLƏRİ

Sərkərdə– qanunun quludur, on minin hökmdarıdır. Qanun bir nəfərin şəxsi mülki ola bilməz. Qanun bir nəfərin şəxsi mülki deyilsə, bütün on minlər ortaya çıxacaq və idarə olunacaq, bütün on minlər toplanacaq və itaətkar olacaq.

Alicənab kişi cinayətkarları beş addımlığından uzaqda saxlamır. Əgər ona kamandan ox atılarsa da, o, cinayətkarları təqib eləmir. O, özünü cinayətin açılmasında göstərir. Tikanlı sahələrə əl atmadan o, cinayətin səbəbini tam başa düşə bilər.

Əgər kimisə çubuqla döyürsənsə, qabırğalarına damğa vurursansa, barmaqlarını məngənədə sıxırsansa, onda heç dövlətin qəhrəman oğlu da bu qəddarlığa dözməyib özünə şər atar.

Bizim vaxtımızda deyirlər: «Kimin min qızılı var o ölməz, kimin üç yüz qızılı var, ona işgəncə verməzlər». Əgər məsləhətlərimə qulaq assan və onlardan istifadə etsən, onda hətta Yao və Şunun igidliyinə malik olan adam günahı özündən uzaqlaşdıra bilməz. on min qızılı olan belə cəzadan qaçmaq üçün ən kiçik gümüş qəpiyi belə xərcləyə bilməz.

Bu gün cəzasını gözləyərək nəzarət altında olanların sayı hər kiçik zindanda bir neçə onluqdan, hər orta həbsxanada bir neçə yüzdən az deyil; hər böyük həbsxanada onların sayı bir neçə mindir. On adam öz işləri ilə yüz nəfəri çaşdırır; yüz nəfər min adamı cəlb edir; min nəfər isə on min adamı aldadır. Bir nəfərin səhvinə görə cəlb olunanlar onların valideynləri və qardaşları; arvadı tərəfdən qohumları; sonra tanışları və köhnə dostlarıdır. Buna görə kəndlilər tarlaları, tacirlər dükanlarını, məmurlar vəzifələrini (mövqelərini) tərk edirlər. Bütün bu yaxşı adamlar istintaq qaydaları üzündən cəlb olunublar. «Hərb sənəti»ndə deyilir: «On minlik ordu hərəkət edəndə, gündəlik xərc min qızıl edər». On min adam bu yolla işə cəlb olunub həbsə salınanda, hətta hökmdar belə işlərin gedişatını izləmək iqtidarında deyil– mən bunu təhlükəli hesab edirəm.

10. VƏZİFƏLƏRİN MƏNBƏYİ

Məmur idarələri– işləri idarə etmək vasitəsi və üsul-idarənin əsasıdır. Xalqı dörd kateqoriyaya[12] ayıran qaydalar– hakimiyyətin gücünü tətbiq etmək sahəsidir. Zadəganlıq, rütbə, var-dövlət və məvacib müvafiq qaydada müəyyən edilməlidir, çünki onlar aristokratları və kasıbları birləşdirir. Düzgün olanlarla yaxşı münasibət və pislərin cəzalandırılması, adamların birləşdirilməsi üçün qanunlara düzəlişlər edilməsi, vergi və baş vergilərin toplanması– bütün bunlar xalqı idarə etmək alətidir.

Torpağın ədalətli bölüşdürülməsi və adamların üzərinə qoyulmuş vergi və baş vergilərin məhdudlaşdırılması, nə yığılıb

paylandığının həddini təyin edir. Sənətkar və alətləri hazırlayanları idarə etmək– yaşlı sənətkarların işidir. Torpağın bölünməsi və strateji yerlərin tutulması– artıq olanın aradan qaldırılması və israfçılığa son qoyulmasıdır. Qanunların saxlanması, işlərin araşdırılması və qərarların qəbul edilməsi– tabelikdə olanların işidir. Qanunların aydınlaşdırılması və onların yerinə yetirilməsinin yoxlanması– hökmdarın işidr. Məmurların vəzifələrinin izah edilməsi, ağır və yüngül məsuliyyətin onların üzərinə qoyulması– nazirlərin və hökumətin işidir.

Mükafat və bəxşişləri aydın etmək, edam və cəzaların tətbiqində düzgün olmaq– şərin qarşısını almağın yolu budur. Başlanğıcda və sonda ehtiyatlı olmaq və yeganə Daonu qoruyub saxlamaq– idarəetmənin mahiyyəti bundadır. Aşağıdan gələn məlumatlar yuxarılara çatanda, yuxarıların qayğıları isə aşağı düşəndə bu ən yaxşı qarşılıqlı anlaşmadır. Dövlətin ehtiyatlarının nə qədər çox olduğunu bilərək, artıq olanın istifadəsini nəzərdə tutmaq olar. Başqalarının zəif cəhətlərini bilmək– gücün həyata keçirilməsinə aparan yoldur. Başqalarını hərəkəti haqda bilmək– sakitlik yaradılmasına aparan yoldur. İdarələr mülki və hərbi olur və yalnız hökmdar onların hər ikisinə nəzarət edir.

Dini mərasimə aid qablar Səma Oğlunun mərasimləri üçün hazırlanıb. Səyyah məsləhətçilər və casuslar başqa dövlətin ərazisinə keçə bilməyəndə, bu müzakirələrə düzəliş edilməsi üsuludur. Udel knyazlarının Səma Oğluna öz ehtiram mərasimləri var. Hökmdarlar da, xalq da nəsildən-nəslə idarəetmənin mandatını tanımaqda davam edirlər. Əgər kimsə ayinləri dəyişir və ya yenilərini yaradırsa, artıq formalaşmışa mane olursa və ya hökmdarın şöhrət qazanmış məziyyətlərinə zidd olursa, bu zaman, mərasimə müvafiq olaraq, hökmdar onun üzərinə hücum edə bilər.

Məmurlar həll olunmalı işlərdən uzaq; hökmdar təltif edilməli olan rütbə və mükafatlardan uzaq; xalq cinayət və çəkişmələrsiz; dövlət tacirlərsiz və alverçilərsiz– hökmdarın idarəetməsi nə qədər mükəmməldir! Hökmdar, mənim bu qədər aydın izah etdiyimə diqqət yetirməlidir.

11. ƏSASIN İDARƏ EDİLMƏSİ

Ümumiyyətlə, adamların idarə edilməsi Daosu nədədir? Mən israr edirəm ki, beş taxıl olmadan onların qarnını heç nə ilə doldurmaq olmayacaq, ipək və çətənə lifi olmadan, onları heç nə ilə geyindirmək olmayacaq. Deməli, onların qarnını doldurmaq üçün taxıl, onları geyindirmək üçünsə iplər mövcuddur. Kişilər ot-ələfi təmizləyib torpağı şumlayırlar, arvadlar toxuyurlar. Əgər adamların ikinci dərəcəli məşğuliyyəti yoxdursa, anbarlar taxılnan dolu olacaq. Kişilər nə yonma ilə, nə dekorativ oyma ilə, qadınlar nə tikmə, nə də dekorativ toxuculuqla məşğul olmalı deyillər.

Oyma naxışlı taxta qablar pis iylənir, oyma naxışlı metal əşyadan pis qoxu gəlir. Kamil müdrik insan saxsı qablarda yemək yeyib, su içir. Buna görə, haçan əşya saxsıdan hazırlanır, Səmaaltında (Çində) əlavə israfçılıq olmur. Bu gün adamlar geyimlərini metal və taxta ilə bəzəyirlərsə, onları soyuqqanlı hesab etmirlər. Atlar təbiətən ot yeyib, su içməlidir, ancaq adamlar onlara paxla və taxıl verirlər. Bu, əsasını itirmiş idarəetmədir və xərclərə nəzarət edəcək qaydalar təyin etmək pis omlazdı.

Əgər yazda və yayda kişilər cənub tarlalara çıxırlarsa, payızda və qışda isə qadınlar paltar tikirlərsə, adamlar kasıb olmayacaq. İndi, qısa və kobud geyim heç bədəni örtmədiyi, hətta şərab xıltı və buğda qabığı mədəni doldurmadığı vaxtda, idarəetmənin əsası itirilmişdir.

Qədimlərdə torpağı məhsuldar və zəif növə, adamları isə çalışqan və tənbəl qisminə bölmürdülər. Qədimdəkilər buna necə nail ola bilmişdilər, biz indi bunu necə itirdik? Kişilər tarlaları axıra qədər şumlamır, qadınlar gündən-günə toxumağı dayandırırlar, belə olan halda onlar necə aclıq və soyuqdan əziyyət çəkməsinlər? Görünür, qədim insanlarda idarəetmə qeyri-məhdud olub, indi isə onun qarşısı alınır.

Mənim «yaxşı idarə etmək» adlandırdığım, adamları xudbin olmamağa məcbur etmək lazımdır. Əgər adamlar xudbin olmasalar, bütün Səmaaltı (Çin) bir ailə kimi olar. Əgər hər kəs şumlayıb, toxumasa, onlar hamı birlikdə aclıqdan və soyuqdan əziyyət çəkəcəklər. Onların on oğlu olsa belə, bir cam artıq düyü sərf etməyəcəklər. Əgər onların bir oğlu varsa, onların xərcləri bir cam düyü qədər belə azalmayacaq. Onda dinc xalqı bərbad edən narazılıq və sərxoşluq necə yarana bilər?

İnsanlar bir-birinin yüngüllük və əxlaqsızlığına göz yumanda, ürəklərin alçaqlığı və cır-cındır dalınca qaçmaqdan bədbəxtliklər yaranır. Əxlaqsızlıq bir şeydən başlayır, adamlar isə xudbinlikdən nə yolnan olur-olsun artıq yemək (qida, ərzaq) və dövlət yığmağa çalışırlar. Əgər adamlar bir cinayət işləyirlərsə, onları tutub cismani cəza verirlər– məgər bunlar xalqın hökmdarına layiq hərəkətlərdirmi? İdarə etməyi bacaranlar, qanunları əldə rəhbər tutaraq, adamları xırdaçılıq etməyə qoymurlar. Aşağıda olanlar xəsislik etməyəndə, pislik edən olmayacaq.

Əsasa qayıt, əmrlər verərkən prinsiplərlə əlaqələndir, vahid Daodan çıxış et və o zaman alçaq ürəklər yox olacaq. Rəqabət aradan qalxacaq, həbsxanalar boşalacaq, tarlalar dolu, taxıl isə bol olacaq. O zaman adamları müxtəlif ərazilərdə yerləşdirib, uzaq yerlərdəkiləri cəlb edə bilərsən. Onda sənin sərhədlərin hüdudlarından qıraqda çətinliklər olmayacaq, dövlətin özündə isə nə qəddarlıq, nə də həyəcan olmayacaq. İdarəetmənin mükəmməlliyi bundadır.

Mavi səma– heç kim bilmir o harada qurtarır! Qədim imperatorlardan və kamil müdrik hökmdarlardan kim nümunə ola bilər? Keçən əsrləri qaytarmaq olmaz, gələcək əsrləri gözləmək olmaz. Onları özündə axtar.

«Səma Oğlu» adlanan üçün dörd keyfiyyət xarakterikdir: «elmilik», «möhtəşəmlik», «dilavərlik» və «düşmənlərin olmaması». Səma Oğlunun keyfiyyətləri bunlardır.

Vəhşi heyvanları qurban kimi kəsmirlər, səliqəsiz təlim elmli alim yaratmır. İndi adamlar deyirlər: «Dənizin yüz lisi bir adamın yanğısını söndürə bilməz, üç fut dərinliyində bulaq üç ordunun susuzluğunu söndürə bilməz». Mən deyirəm: «Arzular tədbirin yoxluğundan, əxlaqsızlıq qadağaların olmamasından irəli gəlir». Əlahəzrət hökmdar ruh kimi hərəkət edir, sonra cisimlərə istinad edir, sonra isə adamları mövsümi işdən ayırmır və onların var-dövlətini zəbt etmir. Qadağalar hərbçilər arasında, mükafatlar mülki şəxslər arasında tamlığa nail olmalıdır.

12. MÜHARİBƏDƏ QÜVVƏLƏRİN TAKTİKİ TARAZLIĞI

Hərb sənətində deyilir: «Min nəfər qüvvələrin taktiki tarazlığını (tsyuan) həyata keçirməyə imkan verir, on min adam hərbi igidlik göstərir. Əgər taktiki qüvvənin gücünü düşmənə qarşı birinci tətbiq etsən, o öz qoşunlarını hərəkətə gətirə bilməyəcək. Əgər hərbi şücaəti birinci işlətsən, düşmən öz qorxuducu qüvvəsini tam göstərərək döyüşə girə bilməyəcək». Buna görə ordu üçün birinci olmaq vacibdir. Əgər o bu məsələdə qalib gəlsə, düşməni fəth edəcək. Əgər ordu bu məsələdə qalib gəlməsə, düşməni tabe edə bilməyəcək.

Biz gedəndə, düşmən gəlir, biz gələndə, düşmən gedir. Bunun qarşılıqlı təması qələbə və məğlubiyyət doğurur. Döyüşün mahiyyəti belədir.

Lazımi səmimilik dini elmiliyə əsaslanır. Qüvvələrin taktiki tarazlığı Daonun intəhasızlığına əsaslanır. Əgər nəyinsə varsa, özünü elə göstər ki, yoxdur; nəyinsə yoxdursa, özünü elə göstər ki, o şey səndə var. O zaman rəqib göstərilənə necə etibar edə bilər?

Keçmiş zamanların hökmdarları haqqında bu günə qədər danışılmasının səbəbi odur ki, onlar düzgün adamları dəvət edib, aldadanları uzaqlaşdırardılar. Onlar həmişə humanist və alicənab olublar, ancaq cəzaların dərhal tətbiq edilməsində qətiyyətli idilər.

Müharibə Daosunu başa düşən, birinci növbədə məğlubiyyətdən qorunmağa çalışacaq. Bu məğlubiyyətin səbəbi harada dayanmaq lazım gəldiyini bilməməkdir. Nə üçün uğur qazanmaqdan ötrü mütləq hücum etmək lazımdır? Əgər düşünmədən hücum edərək, düşmənlə döyüş axtarırsansa, o isə əksinə– irəliləməyi dayandırmağı planlaşdırırsa, qələbəni rəqib idarə edəcək. Buna görə hərb sənətində deyilir: «Əgər düşmən bizi axtarırsa, onu təqib et; onu gördüyün vaxt hücum elə. Hücum

edənlər bizə müqavimət göstərməyə cürət etməyəndə, hücum təşkil elə, onda onlar mütləq öz taktiki qüvvələrini itirəcəklər».

Təşəbbüsü əlindən alınanlar tsidən məhrum olublar; qorxanlar müdafiəni təşkil edə bilməzlər; məğlub olanların adamları da yoxdur. Bütün bu hallar, ordu Daodan məhrum olduqda olur. İrəli getməyi qərara almısansa və tərəddüd etmirsənsə, öz qərarına əməl et. Əgər düşmənin niyyətini alt-üst etmisənsə və heç kim sənə müqavimət göstərmirsə, qayıt evinə. Əgər yüksəklikləri açıq-aydın görüb, tuta bilirsənsə, onda düşməni qorxut ki, o sənə təslim olsun. Müharibə Daosunun mahiyyəti bundadır.

Planları müzakirə edərkən mühafizə dəstəsi olmayanlara gizli qulaq asmaq olar. Sənin ordunu təhqir etmək və onu lağa qoymaq üçün irəliləyən, ancaq nizam-intizamı olmayan düşməni darmadağın etmək olar. Hücumları qabağa can atan suya, ildırım gurultusuna bənzəyənlər düşmən ordusunu qaçmağa vadar edə bilər. Qoşun arasında dilxor olanları sakitləşdirmək, onlann həyəcanını azaltmaq və müdriklik göstərərək məsələləri həll etmək lazımdır. Sarayda fikir mübadiləsi olarkən, düşməndən yüksək ol; düşmən komandanlıq mandatı alarkən fikir mübadiləsi etdiyi vaxt olduğundan möhtəşəm və sərt ol; düşmən sərhədlərini keçməkdən danışarkən döyüş ruhunu qaldır. O zaman düşmən dövləti döyüşsüz təslim olmağa məcbur etmək olar.

13. SƏRT CƏZALAR HAQQINDA ƏMRLƏR

Əgər min, ya daha çox adama komandanlıq edən sərkərdə döyüşdən çıxır, mövqeləri təslim edir və ya döyüş meydanının tərk edərək, qoşunu satırsa, onu «dövlət qulduru» adlandırırlar. O, edam olunmalı, ailəsi məhv edilməlidir, onun adı annallardan silinməli, əcdadlarının qəbirləri açılmalı və sümükləri meydana qoyulmalıdır. Onun hər iki cinsdən olan övladları dövlətə qul kimi təhvil verilməlidir. Yüz və ya daha çox adamın komandiri döyüşdən çıxır, mövqeləri təslim edir və ya döyüş meydanını tərk edərək, qoşunu satırsa, onu «qoşun qulduru» adlandırırlar. O, edam edilməli, ailəsi məhv edilməli, hər iki cinsdən olan uşaqları isə qul kimi dövlətə verilməlidir.

Əgər adamların ölkə daxilində ağır cəzalardan qorxmalarına nail olsan, dövlətdən qıraqda onlar üçün düşmənlə üzləşmək asan olacaq. Deməli, qədimlərin hökmdarları əvvəlcə qanun və əmrləri aydın edir, bundan sonra qorxuducu qüvvə göstərir və ağır cəzalar təyin edərdilər. Cəzalar ağır olanda, onlardan dövlətin daxilində qorxacaqlar. Cəzalardan dövlətin daxilində qorxanda, onun hüdudlarından kənarda da möhkəm olacaqlar.

14. «BEŞLİKLƏR» ÜÇÜN ƏMRLƏR

Orduda təşkil etmə qaydaları belə olmalıdır: beş adam «beşliyi» təşkil edir, onun bütün üzvləri qarşılıqlı zəmanətlə bağlıdırlar. On nəfər «onluğu» təşkil edir, onun bütün üzvləri qarşılıqlı zəmanətlə bağlıdırlar. Əlli adam dəstə təşkil edir, onun bütün üzvləri qarşılıqlı zəmanətlə bağlıdırlar. Yüz nəfər birləşməni təşkil edir. Onun bütün üzvləri qarşılıqlı zəmanətlə bağlıdırlar.

Əgər «beşliyin» üzvü intizamı pozursa və ya cinayət törədirsə və başqaları bu haqda xəbər verirlərsə, onlar cəzadan azad edilirlər. Əgər onlar bu haqda bilir, ancaq xəbər vermirlərsə, bütün «beşlik» cəzalandırılır. Əgər «onluğun» üzvü intizamı pozursa və ya cinayət törədirsə və başqaları bu haqda xəbər verirlərsə, onlar cəzadan azad edilirlər. Əgər onlar bu haqda bilir, ancaq xəbər vermirlərsə, bütün «onluq» cəzalandırılır. Əgər dəstənin üzvü intizamı pozursa və ya cinayət törədirsə və başqaları bu haqda xəbər verirlərsə, onlar cəzadan azad edilirlər. Əgər onlar bu haqda bilir, ancaq xəbər vermirlərsə, bütün dəstə cəzalandırılır. Əgər birləşmədə olanlardan biri intizamı pozursa və ya cinayət törədirsə və başqaları bu haqda xəbər verirlərsə, onlar cəzadan azad edilirlər. Əgər onlar bu haqda bilir, ancaq xəbər vermirlərsə, bütün birləşmə üzvləri cəzalandırılır.

«Onluq» səviyyəsindən Sağ və Sol orduların sərkərdələrinə qədər olan bütün komandirlər, yuxarıdakılar və aşağıdakılar, bir-birinə görə məsuliyyət daşıyırlar. Əgər kimsə intizamı pozur və ya cinayət törədirsə, bu haqda xəbər verənlər cəzadan azad edilirlər. Bu haqda bilib xəbər verməyənlər isə hamısı bu cür cinayətkar hesab olunacaqlar.

«Beşliklər» və «onluqlar» düzgün əlaqəli, yuxarı və aşağı vəzifəlilər bir olanda, heç bir nöqsanın, heç bir cinayətin üstü açılmamış qalmaz. Atalar öz oğullarını, böyük qardaşlar kiçikləri gizlədə bilməzlər. Bir yerdə yaşayan və bir yerdə yemək yeyən adamlar dövlətdə nə qədər az intizam poza və bir-birlərini gizlədə bilərlər?

15. ƏRAZİNİN BÖLÜNMƏSİ VƏ ÇƏPƏRLƏNMƏSİ HAQDA ƏMRLƏR

Orta, sağ, sol, ön və arxa orduların hər birinin öz yeri var– hər biri dörd tərəfdən müvəqqəti divarlarla əhatə olunub– və onların arasında keçid və rabitə həll edilməyib.

Sərkərdənin öz yeri var; rəisin öz yeri var; «yüzlüyə» komandanlıq edənin öz yeri var. Onlar çalalar və bəndlər hazırlamalı və çəpərləmə haqda aydın əmr verməlidirlər. Bunlar elə hazırlanmalıdır ki, «yüzlüyün» üzvü olmayanlar burdan keçə bilməsinlər. Əgər yüzlüyün üzvü olmayan biri keçirsə, komandir onu edam etməlidir. Əgər o bunu etməsə, xətanın günahını bölmüş olur.

Düşərgə ilə kəsişən yollar boyu hər 120 addımdan bir müşahidə postu qoy. Adamları və ərazini qiymətləndir. Yollardakı

postlarlardan bir-birini görməlidirlər. Yollardan keçməyi qadağan et və yolları təmizlə. Əgər əsgərdə komandirin və ya başqa rəisin verdiyi birka və ya fərqləndirici nişan yoxdursa, o, keçə bilməz. Çırpı yığanlar, furajirlər və çobanlar «beşlikləri» təşkil edir və «beşliklərdə» hərəkət edirlər. Əgər onlar «beşlikdə» hərəkət etmirlərsə, yoldan keçə bilməzlər. Əgər komandirin fərqləndirici nişanı yoxdursa, əgər əsgərlər «beşlikdə» deyillərsə, darvaza gözətçiləri onları edam etməlidirlər. Əgər kimsə məhdudlaşdırıcı xətti keçirsə, onu öldür. Əgər orduda heç kim intizamı pozmursa və qadağaların həddini keçmirsə, o zaman müəyyən olunmamış bircə cinayətkar belə olmayacaq.

16. «BEŞLİKLƏRİN» ƏLAQƏLƏNDİRİLMƏSİ HAQDA ƏMRLƏR

«Beşliyi» əlaqələndirən əmrlərdə deyilir: «Beş adam «beşliyi» təşkil edir. onlar hamı birlikdə komandanlıqdan birka alırlar. Əgər onlar döyüşdə adamlarını itirsə, ancaq eyni sayda düşmən ələ keçirər və ya öldürərlərsə, itkinin əvəzini ödəmiş olarlar. Əgər onlar düşmənləri ələ keçirsə və özləri itki verməsə, onlar mükafatlandırılacaqlar. Əgər onlar itki versələr, əvəzində eyni sayda düşməni ya ələ keçirib, ya da öldürməsələr, onlar öldürüləcəklər, ailələri isə qırılacaq.

Əgər onlar öz komandirlərini itirsələr, ancaq düşmənin komandirini ələ keçirsələr, bu itkini əvəz edər. Əgər onlar öz komandirlərini itirmədən, düşmən komandirini ələ keçirsələr, mükafatlandırılacaqlar. Əgər onlar öz komandirlərini itirsələr, ancaq düşmən komandirini tutmasalar, onları öldürəcəklər, ailə üzvlərini isə qıracaqlar. Lakin, əgər onlar təzədən döyüşə girərək düşmən komandirinin başını gətirsələr, onların cəzalandırılması ləğv olunacaq.

Əgər onlar öz sərkərdələrini itirsələr, ancaq düşmən sərkərdəsini tutsalar ya öldürsələr, bununla rüsvayçılığı təmizləmiş olarlar. Əgər onlar özlərininkini itirmədən, düşmən sərkərdəsini tutsalar, mükafat alacaqlar. Əgər onlar sərkərdələrini itirsələr, ancaq rəqib sərkərdəni öldürməsələr, onlarla «Mövqeləri atıb getmək və qaçmaq Qanunu» üzrə davranacaqlar.

«Döyüş meydanında edamlar Qanunu»nda deyilir: «Onluğun» komandiri qalan doqquz nəfəri edam edə bilər. «Yüzlüyün» komandiri «onluq» komandirlərini edam edə bilər. Minlik komandiri «yüzlük» komandirlərini edam edə bilər. On minlik qoşunun komandanı minlik komandirlərini edam edə bilər. Sol və Sağ ordu sərkərdələri on minlik qoşunun komandanlarını edam edə bilər. Ali baş sərkərdə istənilən şəxsi edam edə bilər».

17. ORDUNU İDARƏ ETMƏ ÜZRƏ ƏMRLƏR

Qoşunları idarə etmək üçün onlara üç orduya bölünməyi buyuran əmrlərdən istifadə et. Sol ordunun bayraqları yaşıl olacaq, qoşunlar isə yaşıl lələklər taxacaqlar. Sağ ordunun bayraqları ağ olacaq, qoşunlar isə ağ lələk taxacaqlar. Orta ordunun bayraqları sarı olacaq, qoşunlar isə sarı lələklər taxacaqlar.

Qoşunların beş emblemi olacaq. Ön cərgədə yaşıl, ikinci sırada qırmızı, üçüncü sırada– sarı, dördüncü cərgədə– ağ, beşinci sırada isə qara emblemlər olacaq.

Qoşunları idarə etmənin növbəti qaydası ondan ibarətdir ki, emblemi itirən hər kəs edam olunacaq. Birinci beş cərgədəkilərin emblemləri başlarında, sonrakı beş cərgədəkilərin emblemləri boyunlarında, daha sonrakı beş cərgədəkilərin emblemləri– sinələrində, növbəti beş cərgədəkilərin emblemləri– qarınlarında, axırıncı beş cərgədəkilərin emblemləri– toqqalarında olacaq. Beləliklə, heç vaxt ola bilməz ki, qoşunların arasında öz komandirlərindən başqa kimsə, komandirlərin isə öz qoşunlarından başqa kimisə olsun. Əgər kimsə pozulma halı görərsə, amma bu haqda soruşmazsa, yaxud özbaşnalıq halı görüb, bunun qarşısını almaq üçün heç nə etməzsə, onun günahı da təqsirkarın günahı kimi olacaq.

Qoşunların irəli getməsi və döyüşə başlamasını əmr edən təbillər çalınanda, hücuma keçən sıralar təhlükə ilə üz-üzə gəlirlər, geri çəkilənlər isə, adamlarda nifrət hissi oyadırlar. Beş cərgə irəliləyənlər mükafatlandırılacaq; beş cərgə geri çəkilənlər edam olunacaqlar. Belə başa düşmək olar ki, hücum və geri çəkilmə, irəli və geri hərəkət etmə– komandirlərin xidmətidir. Buna görə deyilib: «Əgər təbilləri çalırsansa və onlar göy gurultusu kimi hücum edirlərsə; külək və yağış kimi gedirlərsə– heç kim qarşıdan onlara müqavimət göstərməyə, arxadan isə onları təqib etməyə cürət etməyəcək». Bu, onların idarə olunduğunu deyir.

18. İRƏLİLƏMƏ HAQDA ƏMRLƏR

Sinclər, təbillər, zənglər və bayraqlar– bunların hər birinin öz istifadə qaydaları vardır. Təbillər çalınanda ordu irəliləməlidir; təbillər yenidən vuranda ordu hücuma keçməlidir. Sinclər səslənəndə ordu dayanmalıdır; sinclər yenidən çalınanda ordu geri çəkilməlidir. Zənglər əmrlərin ötürülməsi üçün istifadə olunur. Bayraqlar solu göstərəndə, ordu sola getməlidir; bayraqlar sağ tərəfi göstərəndə, ordu sağa getməlidir. Qeyri-adi qoşunlar əksinə hərəkət edir.

Təbil bir dəfə çalınır, sol ayaq bir addım irəli atılır; bir də çalınır, sağ ayaq da irəli atılır. Hər addım üçün bir zərbə çalınanda, bu marş zərbəsidir. Əgər on addıma bir təbil zərbəsi çalınırsa– bu iti yeriş zərbəsidir. Əgər zərbələrin ardı-arası kəsilmirsə– bu qaçış zərbəsidir. «Şan» tonu sərkərdənin təbilini bildirir. «Tszyao» tonu komandirə məxsusdur. Balaca təbil «yüzbaşı»ya məxsusdur. Təbillər üçü eyni

vaxtda çalınanda, bu sərkərdə, komandir və «yüzbaşı»nın bir olduqlarını bildirir. Qeyri-adi qoşunlar əksinə hərəkət edir.

Əgər təbilçi zərbənin birini ötürsə, onu edam edirlər. Səs-küy salanları edam edirlər. Sinclərə, təbillərə, zənglərə və bayraqlara itaət etməyərək özbaşına (icazəsiz) hərəkət edənləri edam edirlər.

Yüz adam döyüş aparma üsullarını öyrəndikdən, təlimatlar qurtardıqdan sonra, onları başqaları ilə birləşdir ki, min adam olsunlar. Min adamın təlimi başa çatdıqdan sonra onları başqaları ilə birləşdir ki, on min nəfər olsunlar. On min nəfərin təlimi qürtardıqdan sonra onları üç orduda birləşdir. Üç ordunun qoşunları aralanıb, birləşə bilirlərsə, onlar böyük döyüş qaydalarını həyata keçirə bilərlər. Onların təlimi qurtardıqda, hazırlıqlarını manevrləri yerinə yetirmələri ilə yoxla.

Kvadratşəkilli düzülüşlə onlar müzəffərdirlər; dairəvi düzülüşlə də onlar yenilməzdilər; çıxıntılı düzülüşdə də onlar yenilməzdirlər; əgər onlar çətin ərazi ilə üzləşsələr, yenə müzəffərdirlər. Əgər düşmən dağın hündür yerindədirsə, onun ardınca dırmaş. Əgər düşmən dərinlikdədirsə, onun dalınca get. Düşməni itmiş oğlun kimi axtar, onu tərəddüdsüz təqib et. Belə halda düşməni darmadağın edib, onun taleyini idarə edə bilərsən.

Qərarları qabaqcadan qəbul etmək və vaxtında nəzərə almaq vacibdir. Əgər planlar əvvəlcədən tərtib edilməyibsə, əgər məqsədlər əvvəldən müəyyənləşdirilməyibsə, nə hücuma, nə geri çəkilməyə nəzarət etmək mümkün olmayacaq. Tərəddüdlər doğanda məğlubiyyət qaçılmazdır. Düzgün ordu birinci olmağı sevir, qeyri-adi ordu sonra gəlməyi xoşlayır. Bəzən birinci olmaq, bəzən axırıncı – düşməni idarəetmənin yolu bundadır. Əsrlər boyu bu qaydanı bilməyən sərkərdələr, irəli getmək tapşırığını alandan sonra yalnız öz igidliklərinə arxalanaraq, hücuma birinci başlayırdılar. Məğlub olmayan bir sərkərdə belə olmayıb.

Sənə elə gəlir ki, düşmən tərəddüd edir, əslində isə yox; sənə elə gəlir ki, düşmən saymazyana hərəkət edir, əslində elə deyil; onun hərəkəti bəzən asta, bəzən cəlddir; əslində isə nə astadır, nə də cəld. Bu döyüşdəki üç çətinlikdir.

19. SƏRKƏRDƏNİN ƏMRLƏRİ

Sərkərdə tapşırıq almağa hazırlaşan vaxt hökmdar ilk növbədə əcdadların məbədində hərbi strategiyanı müzakirə etməli, sonra əmrləri sarayda elan etməlidir. Hökmdar özü «fu» və «yue» baltalarını sərkərdəyə verərək, deyir: «Sağ, Sol və Orta orduların hərəsinin öz vəzifələri var. Onlardan hansısa daha böyük rütbə almaq ümidiylə vəzifəsindən kənara çıxsa, o, ölümə məhkum olunacaq. Orduda iki əmr mənbəyi ola bilməz. İkinci əmri verən istənilən kəs edam olunmalıdır. İntizamı pozan istənilən kəs edam edilməlidir. Qaydalara tabe olmayan istənilən kəs edam olunmalıdır».

Ordu sərkərdəsi elan edir: «Dövlət paytaxtının darvazalarından çıxmalı olanlar üçün, toplanma siqnalı günortaya təyin olunub. Düşərgədə biz əsas darvazaların üstündə su saatları qoyacağıq. Təyin olunmuş vaxtdan gec gələnlər edam olunacaqlar».

«Ordu sərkərdəsi düşərgəyə girdikdə darvazaları bağlayır və keçidləri təmizləyir. Bu keçidlərdən keçməyə cürət edən istənilən adam edam olunacaq. Ucadan danışmağa cürət edən istənilən kəs edam olunacaq. Əmrlərə riayət etməyənlər edam ediləcəklər».

20. AVANQARDA ƏMRLƏR

«Avanqard» adlandırılan qoşunlar əsas qüvvələrdən yüz li qabağa gedərək, təyin olunmuş vaxtda təyin olunmuş yerdə toplanırlar. Onlar özləri ilə üçgünlük ərzaq ehtiyatı aparırlar. Bayraqlar döyüşə girməzdən qabaq birləşmək üçün lazımdır. Döyüşə başlamaq üçün bayraq qaldırıldığı vaxt avanqardın döyüşçüləri ayini yerinə yetirirlər və döyüş üçün strateji cərgəyə düzülürlər. Onları «döyüşə tələsənlər» adlandırırlar.

İrəli çıxmış ordu avanqardın önündə irəliləyir. Döyüşə başlamaq bayrağı qaldırılıbsa, bu ordu əsas qüvvələrdən iki dəfə çox (avanqardla müqayisədə) məsafəyə– avanqarddan yüz li irəli– çəkilir, müəyyən olunmuş vaxtda təyin olunmuş yerdə toplaşır. Onlar altı günlük ərzaq ehtiyatı aparırlar. Onlara döyüşə hazırlaşmaq və strateji mövqeləri tutaraq qoşunları düzmək əmr olunub. Əgər döyüş ordu üçün müvəffəqiyyətli olarsa, onlar geri çəkilən düşməni təqib edirlər; əgər qoşunlar çıxılmaz vəziyyətdədirlərsə, onlar düşmənin üzərinə atılırlar. Əgər avanqrad geri qaçan kimi isə görərsə, onu edam etməlidir. «Müxtəlif sərkərdələrin orduları» adlandırılan, dörd qeyri-adi qüvvədən ibarət olanlar qələbəni qapıb alacaqlar[13].

Orduda «onluqlar» və «beşliklər», həmçinin də ayrılmaq və birləşmək qaydaları var. Döyüşə girməzdən əvvəl vəzifələr müəyyənləşdirilib, seçmə qoşunlar isə strateji yüksəklikləri, keçidləri və körpüləri tutmalıdırlar. Döyüş üçün birləşməyə görə bayraq qaldırılıbsa, hamı bir yerə toplanmalıdır. Əsas ordu təyin olunmuş gündəlik payla və tam döyüş ləvazimatı ilə irəli çıxır. Əmrlər verilib və qoşunlar irəliləyirlər; əmrlərə itaət etməyən istənilən adamı edam edəcəklər.

Qoşunları dövlətin dörd sərhədlərinin hüdudlarındakı strateji məntəqələr boyu yerləşdir. İrəli çəkilmiş ordu və avanqard artıq yola düşdükdən sonra, ölkə daxilində adamlar hərəkət edə bilməyəcəklər. Hökmdarın əmrlərini alanlar, müvafiq birkalar və fərqlənmə nişanları verilənlər, «öz vəzifələrinə müvafiq hərəkət edən komandirlər» adlandırılırlar. Öz vəzifələrinə müvafiq hərəkət etməyərək irəliləyən komandirlər edam olunmalıdırlar. Döyüşə girmək üçün birləşmək bayrağı qaldırılıbsa, öz vəzifələrinə müvafiq hərəkət edən komandirlər qoşunlara nəzarət edir və hərəkətələrin

qarşılıqlı nizamını təmin etmək üçün istifadə edilirlər. Beləliklə, müharibə aparmaq istəyən, ilk növbədə daxildəkini qorumalıdır.

21. HƏRBİ NİZAMNAMƏLƏR– I

Döyüşçülərin təliminə dair əmrlər: əsgərləri öz yerlərinə düz və döyüş sırasını tutmağı əmr et. Əmrin əleyhinə irəli və geri gedənlər, təlimatlara itaətsizliyə görə cəzalandırılmalıdırlar.

Ön cərgələrə ön cərgə komandirləri təlim keçir; arxa cərgələrə arxa cərgə komandiri təlim keçir; soldakı sıraları sol sıra komandiri öyrədir; sağdakı sıraları sağ sıra komandiri öyrədir. Cərgədəki beş adamın hamısı müvəffəqiqyyətlə təlim keçiblərsə, onların komandiri mükafat alır. Hamına yaxşı təlim keçə bilməmək bacarıqsızlığı cəzaya gətirib çıxarır, çünki əmrlərə itaətsizlik kimi cinayət törədilib. Əgər sıradan çıxan bu barədə «beşliyin» üzvlərinə məlumat verir və onlar hamı bu haqda xəbər verirlərsə, onlar cəzalandırılmadan azad olunurlar.

«Beşlik» döyüş qabağı döyüş sırasına düzüldüyü vaxt, əgər kimsə hücum etmir və ya düşmənlə üz-üzə gəlmirsə, təlimatçı qanunu pozmuş kimi cəzalandırılacaq. «Onluq» on nəfərin hamı üçün cavabdehdir. Əgər onlar bir nəfəri itirsələr, qalan doqquz nəfər isə düşmənlə ölümcül döyüşmürsə, onda onların təlimatçısı qanunu pozmuş kimi cəzalandırılacaq. «Onluqdan» «on minə» qədər kimsə əmrlərə riayət etmirsə, onların təlimatçıları qanunu pozmuş kimi cəzalandırılacaqlar. Cəza və cərimələri aydın etmək, mükafat və bəxşişləri düzgün etmək üçün onlar əsgərlərin öyrədilməsi qanunu çərçivəsində olmalıdırlar.

Komandirlərin müxtəlif bayraqları, birləşmələrin müxtəlif emblemləri var. Sol ordu emblemləri sol çiynində; Sağ ordu sağ çiynində; Orta ordu emblemləri sinəsində gəzdirir. Emblemi «yaraq-aslahəli təyin olunmuş əsgərə» və «müəyyən olunmuş komandirə» məxsus kimi nişanla. Birincidən tutmuş axırıncıyadək beş cərgədən ibarət hər bir bölmədə fəxri emblemləri başlarında, qalanları isə hamısı– aşağıda gəzdirirlər.

«Beşliyin» komandiri qalan dörd nəfərə lövhəni təbil kimi, kirəmit qırığını sinc əvəzinə, budağı bayraq əvəzinə necə istifadə etməyi öyrədir. O, təbilə vuranda onlar hücum etməlidirlər; o, bayrağı aşağı endirəndə, onlar irəli qaçmalıdırlar; o, sincə vuranda onlar geri çəkilməlidirlər. O, sola göstərəndə, əsgərlər sola, sağa göstərəndə, onlar sağa getməlidirlər. Təbil və sinclərə eyni vaxtda vurulanda, onlar oturmalıdırlar.

«Beşliyin» komandiri təlimi qurtaranda, onlar «onluğun» komandirinin rəhbərliyi altında başqa «beşliklə» birləşdirilməlidirlər. «Onluğun» komandiri onlara təlim keçməyi qurtaranda, onlar dəstə komandirinin rəhbərliyi altında birləşməlidirlər. Dəstə komandiri onlara təlim keçməyi qurtardıqda, onlar ordu komendantının[14] rəhbərliyi altında birləşdirilməlidirlər.

Komendant onlarla təlimi qurtardıqdan sonra, onlar sərkərdənin rəhbərliyi altında birləşdirilməlidirlər. Sərkərdə onların təlimini başa çatdırdıqda, onlar Ali sərkərdənin rəhbərliyi altında birləşdirilməlidirlər.

Ali sərkərdə onlara təlim keçib qurtarandan sonra onları ərazidə döyüş sırası ilə yerləşdirir. O, bir-birindən yüz addım məsafədə üç əsas post qoyur və qoşunlara onlardan uzaqlaşmağı əmr edir. Onlar yüz addım aralanırlar və silah oynatmaq üzrə məşqlər edirlər. Onlar cəld daha yüz addım gedirlər, sonra isə yüz addım qaçırlar. Onlar sərkərdənin müəyyən etdiyi ölçüyə çatmaq üçün döyüş taktikasına yiyələnirlər. Sonra mükafat və cəzalardan istifadə etmək vacibdir.

Ordu komendantı və bütün aşağı komandirlərin hərəsinin öz bayrağı var. Döyüş udulubsa, ələ keçirilmiş bayraqların dərəcəsinə baxırlar ki, ürəkləri aydın mükafatlarla həvəsləndirsinlər.

Müharibədəki qələbə qorxuducu qüvvədən asılıdır. Qorxuducu qüvvə qüvvələrin birləşdirilməsindən asılıdır. Qüvvələrin birləşməsi cəzalara düzəlişlər edilməsindən asılıdır. Cəzaların təshihi vasitəsilə mükafatlar aydınlaşır.

Bu gün, adamların kürəklərini sərhəd darvazalarına çevirdikləri və həyat və ölüm məsələsini həll etdikləri vaxtda, əgər onlar tərəddüdsüz ölməyə öyrədiliblərsə, bunun səbəbi var. Məşğələ və təlim müdafiəçiləri ələkeçməz; döyüşə girənləri– döyüşmək eşqilə yanan; pis hesablamaları– yararsız; pis adamları– sakit; əmrləri– sözsüz yerinə yetirilən; ordunu– qətiyyətlə hücum edən; yüngül dəstələri qorxmuş düşmənin üzərinə atılmaq üçün ildırım gurultusuna bənzər etdilər. Xidməti olanları yüksəlt, fərqləri qara və ağ arasındakı kimi aydın edərək, yaxşıları ayırd et. Elə et ki, adamlar yuxarıdakıların əmrlərinə, dörd ətraf ağıla tabe olduğu kimi əməl etsinlər.

Əgər ön dəstələr düşmənin cərgələrini pozur, onun sıralarında vahimə salırlarsa və onun gur axan su kimi möhkəmliyini dağıdırlarsa, bunun üçün əsas var. Bu əsas «orduya təlim verilməsi» adlanır. O sərhədləri açmaq, dövlətin altarını saxlamaq, bədbəxtlik və ziyanı aradan qaldırmaq, və hərbi igidliyi həyata keçirməyə imkan verir.

22. HƏRBİ NİZAMNAMƏLƏR– II

Eşitmişəm ki, adamları idarə edən mütləq qələbə Daosuna nail olmalıdır. Buna görə, başqalarını birləşdirməyi bacarmaq, fərman və qaydaları müəyyən etmək, öz qorxuducu qüvvəni dünyada üstün etməkdən ötrü hər şeyi əhatə edən və böyük olmaq üçün on iki əsas vasitə mövcuddur:

Birincisi, «cinayətlə əlaqəli olanlar», bu «beşliyin» bütün üzvlərinin törədilmiş cinayətə görə məsuliyyət daşımalarını bildirir.

İkincisi, «ərazinin məhdudlaşdırılması»dır ki, bu da casusların və pozucuların tutulması üçün yollardakı keçidlərin qadağan olunması və bağlanmasını bildirir.

Üçüncüsü, «döyüş arabalarının qorunub saxlanması», arabaların və piyada qoşunların komandirlərinin qarşılıqlı əlaqəli olduğunu, arabadakı üç döyüşçünün və «beşliyin» döyüş bağları ilə bağlandığını bildirir.

Dördüncüsü, «açılış və bağlanış»dır. Bu vasitə onu bildirir ki, torpağa hədd qoyulub və hər bir döyüşçü lazım olduğu yerdə, öz yerində ölməlidir.

Beşinci vasitə «sərhədlərin təyin olunması» onu bildirir ki, sol və sağ cinahlar bir-birlərini mühafizə edirlər, ön və arxa cinahlar bir-birini gözləyirlər, döyüş arabalarının divarı isə düşmənə müqavimət göstərmək və onu saxlamaq üçün keçilməz müdafiə səddi yaradır.

Altıncısı, «komandalar müxtəlifdir». Bu o deməkdir ki, əsas vəzifəsi hücum etmək olan ön sıralar, divara birinci dırmanmaq üçün yarışa bilməyən və öz mövqelərini adlayıb keçə bilməyən arxa sıralardan fərqlənirlər.

Yeddincisi, «beş emblem»dir ki, bu da sıraların emblemlərlə seçildiyini, bununla da qoşunların nizamsız olmayacağını bildirir.

Səkkizinci, «dəstələrin mühafizə edilməsi», onu bildirir ki, dəstələr aralanırlar və bir-birinin ardınca gedirlər, onlardan hər birinin özünün müəyyən edilmiş yeri var.

Doqquzuncu, «sinclər və təbillər»dir. Bu vasitə qoşunların uğura təhrik edilməsini və məziyyətə tabe olduqlarını bildirir.

Onuncusu «döyüş arabalarının mövqeləridir». Bu onu bildirir ki, sıra keçilməzdir, nizələr irəli çıxarılmışdır, atların gözləri isə gözlüklərlə bağlanmışdır.

On birincisi «ölüm əsgərləri»dir. Cəng arabalarını idarə etmək üçün bacarıqlı və müdrik əsgərlərin seçilməsini bildirir. Onlar düşmən üzərində üstünlük qazanmaq üçün qıvraq taktika tətbiq edərək, irəli və geri, eninə və dairəvi sürətli hərəkətlər edirlər.

On ikincisi, bayraqları idarə edən və sıraları mühafizə edən «güclü qoşunlardı». Bayraqlarsız onlar hərəkət etmirlər.

Bu on iki vasitə uğurla təlim edilibsə, qaydanı pozanlardan heç kim bağışlana bilməz.

Əgər ordu zəifdirsə, bu vasitələr onu möhkəmləndirə bilərlər. Əgər hökmdar naməlumdursa, ona hörmət edə bilərlər. Əmrlər zəifləyərsə, bu vasitələr onları həyata qaytara bilərlər. Əgər adamlar köçkün olarlarsa, bu vasitələr onları cəlb edə bilərlər. Əgər adam

çoxdursa, bu vasitələr onları idarə edə bilərlər. Əgər torpaq genişdirsə, bu vasitələr onu müdafiə edə bilərlər. Sərhədləri kəsib keçən arabalar olmadan, anbarlardan müxtəlif yaraq-əsləhə götürmədən, sənin qorxuducu qüvvən Səmaaltını (Çini) boyun əyməyə məcbur edər.

Döyüşçülərin beş öhdəçiliyi var: sərkərdə naminə onlar öz ailələrini unudurlar; sərhədi keçərkən qohumlarını yaddan çıxarırlar; düşmənlə qarşılaşarkən özlərini unudurlar; onlar ölməli olduqda, yaşayacaqlar və axırıncısı– qələbəyə doğru can atmaq. Silah yarasının ağrısının həsrətini çəkən yüz adam düşmən sıralarına soxula və sırada qarmaqarışıqlıq yarada bilər. Silah yarasının ağrısını hiss etmək istəyən min adam düşməni ələ keçirə və onun sərkərdəsini öldürə bilər. Silah yarasının ağrısını yaşamaq istəyən on min adam bütün Səmaaltını (Çini) öz istəyi ilə yarıb keçə bilər.

U-van Tay-quna dedi:

-Qısa vaxt ərzində, mən müharibə aparmağın əsaslarını tam bilmək istəyirəm.

Tay-qun cavab verdi:

-Sizin mükafatlarınız dağlar kimi, cəzalarınız– çöllər kimi olmalıdır. Yüksəkdə duran səhvlər etmir, onun ardınca gedən öz səhvlərini düzəldir. Cəzalandırılmalı olan və bağışlanmasını diləyən istənilən adam ölməlidir. Mükafatlandırılmalı olan və mükafatını istəməyən istənilən adam ölməlidir.

Dövlətin üzərinə orada baş verən dəyişikliklərə uyğun hücum et. Onların kasıb olduğunu bilmək üçün özünü zəngin göstər. Onların xəstəlikləri haqqında bilmək üçün özünü yorğun göstər. Əgər hökmdar mənəviyyatsız adamdırsa, xalq isə narazıdırsa, belə halda hücum etməyə əsas var.

Ümumiyyətlə, ordu nə vaxt toplanarsa, yürüşə başlamağın mümkün olub-olmadığını hesablamaq üçün ilk növbədə sərhədlərin daxilində və hüdudlarından kənarda qüvvələrin strateji tarazlığını qiymətləndirmək vacibdir. Ordunun hazır olub-olmaması və ya çatışmazlıqlarını, ərzağın artıq və ya əskik olmasını öyrənmək vacibdir. Hücuma keçmək və geri qayıtmaq yollarını müəyyən etmək vacibdir. Yalnız bundan sonra, xaosda olan dövlətə hücum etmək üçün ordunu toplamaq olar. Bu zaman əmin olmalısan ki, bu dövlətə daxil olmaq olar.

Əgər torpaqlar geniş, şəhərlər isə kiçikdirsə ilk olaraq torpaqları tutmaq lazımdır. Əgər şəhərlər böyük, ərazi isə dardırsa,

ilk olaraq şəhərlərə hücum etmək lazımdır. Əgər dövlət böyük, əhalisi azdırsa, bu zaman strateji əhəmiyyətli yerləri ələ keçir. Əgər dövlət kiçik, əhalisi isə çoxdursa, onda hündür təpələr düzəlt ki, onlardan yuxarıda olasan. Var-dövlət mənbələrini məhv etmə və çöl işlərinə qarışma. Dövlət məmurlarına qarşı ürəyi açıq ol, adamların məşğuliyyətlərini müəyyənləşdir və onların kasıblığını asanlaşdır. O zaman bütün Səmaaltını (Çini) əhatə etmək üçün bu kifayət edər.

Bu gün döyüşən şahlıqlar bir-birinə hücum edir və yaxşılar üzərinə böyük yürüşlər hazırlayırlar. «Beşlik»lərdən dəstələrə, dəstələrdən ordulara qədər– heç kimdə vahid əmrlər yoxdur. Onlar adamları çaşqınlığa məcbur edirlər; onlar yekəxanalıq və israfçılığa meyl edirlər. Onların planları bədbəxtlik törədir; onların arasında daim fikir ayrılığı var, buna görə məmurlar vaxtlarını işlərin araşdırılmasına sərf edirlər. Bütün bunlar çətinliklər yaradır, bundan əlavə məğlubiyyətə gətirib çıxarır. Hətta günəş batandan sonra yollar uzun qalır, əsgərlər düşərgəyə qayıdanda isə çox dilxor olurlar. Ordu köhnə, sərkərdələr acgözdürlər. Sərkərdə var-dövlət əldə etməyə çalışanda, onu darmadağın etmək asan olacaq.

Sərkərdə yelbeyin olanda, istehkamlar– alçaq, adamlar isə düşkündür: onlara hücum etmək olar. Əgər sərkərdə möhkəm, istehkamlar– hündür, ancaq qoşun qorxu içindədirsə, onları mühasirəyə almaq olar. Ümumiyyətlə, kimisə mühasirəyə alanda, düşmən üçün azacıq mənfəət görüntüsü yarat ki, o gündən-günə zəifləsin. Onda mühasirə olunanlar yeməyə heç nə tapmayana qədər paylarını kəsməyə məcbur olacaqlar. Qoşunlar bir-biri ilə gecə döyüşürlərsə, demək onlar vahimə içindədirlər. Əgər qoşunlar öz vəzifələrini yerinə yetirməkdən imtina edirlərsə, demək onlar narazıdırlar. Əgər onlar kiminsə gəlib onları xilas edəcəyini gözləyirlərsə, döyüşmək zamanı gəlib çatanda isə onlar həyəcanlıdırlarsa, deməli hamı iradəsini itirib və pərişandırlar. Ruh düşkünlüyü ordunu məhv edir; səhv hesablamalar dövləti məhv edir.

23. ORDUYA DAİR ƏMRLƏR– I

S i l a h – arzuolunmayan vasitədir. Müharibə yaxşılığa ziddir. Bütün işlərin əsası olmalıdır. Buna görə, əsl hökmdar qəddar və əxlaqsız hökmdar üzərinə hücum edəndə, əsas kimi o, humanistliyi və ədaləti istifadə edir. İndi mübarizə aparan şahlıqlar öz qorxuducu qüvvələrini möhkəmlədir, düşmənlərinə müqavimət göstərir və bir-

birinin qəsdinə dururlar. Buna görə onlar öz ordularını buraxa bilmirlər.

Ordu hərbini cücərti, mülkini isə– toxum qismində istifadə edir. O hərbini– xarici, mülkini isə– daxili edir. Bu ikisini araşdırıb ölçüsünü təyin etməyi bacaran, qələbə və məğlubiyyəti dərk edir. Mülki– mənfəət və ziyanı müəyyən etmək, təhlükəsizlik və təhlükəni təyin etmək vasitəsidir. Hərbi– güclü düşmənə qarşı durmaq, amansızcasına hücum etmək və müdafiə olunmaq vasitəsidir.

Birliyi olanlar– qələbə çalacaq; pərakəndə olan– darmadağın ediləcək. Sıralar keçilməz olanda, möhkəm olur. Ön sıralar səpələnmiş olanda, onlar məqsədə nail ola bilərlər. Kimin qoşunu düşməndən çox öz sərkərdəsindən qorxursa, qələbə çalacaq. Kimin ki, qoşunu öz sərkərdəsindən çox düşməndən qorxur,– darmadağın ediləcək. Buna görə, kimin qalib, ya məğlub olacağını bilmək üçün öz sərkərdəni düşmən sərkərdəsi ilə müqayisə et. Düşmənin sərkərdəsi və bizimki– tərəzi və tarazlıq kimidir. Əgər o, sərt və sakitdirsə, qoşunlar yaxşı idarə olunur; əgər o, qəddar və tələskəndirsə, qoşunda nizamsızlıqdır.

Qoşunların irəli çıxarılması və ordunun kiçik hissələrlə yerləşdirilməsi öz müəyyən olunmuş əmrlərinə malikdir; sıraların və düzülüşün dağınıqlığı və sıxlığı öz müəyyən olunmuş qaydalarına malikdir; öndən arxaya qədər sıraların yerləşməsi öz təyinat və əlverişliyinə malikdir. Qaçan düşməni təqib edərkən və ya şəhərə qəfil hücum edərkən təsbit edilmiş qanunlar istifadə olunmur. Əgər ön və arxa yerlər qaydasında deyilsə, ordu öz bütövlüyünü itirir. Əgər kimsə cərgələrdə səliqəsizlik yaradırsa, onun başını vur.

Döyüşçülər üzü düşmənə tərəf dayananda standart olaraq kiçik hissələrlə yerləşdirmənin həmişə yeri var. Həmçinin xaricdən yönəldilmiş, daxilə yönəldilmiş ayaqüstü və oturaq sıralar var. Daxilə yönəldilmiş sıralar mərkəzi qorumaq imkanı verir; kənara yönəldilmiş sıralar xaricdən olacaq təhlükəyə hazırlaşmaq imkanı verir. Dayanan cərgələr hərəkət etməyə imkan verir; oturaq cərgələr dayanmağa imkan verir. Qarışıq cərgələr– irəliləmək və ya dayanmaq ehtiyacına müvafiq olaraq əsgərlərin bir-birinə hay verərək yarısının ayaq üstə, yarısının oturaq olması, sərkərdənin isə ortada olması deməkdir. Oturan döyüşçülərin silahı– qılınc və baltadır; ayaq üstə olan döyüşçülərin silahı– ucluqlu təbərzinlər və arbaletlərdir; sərkərdə yenə ortadadır.

Düşməni müvəffəqiyyətlə vuran əvvəlcə müntəzəm qoşunlarla döyüşə girir, sonra düşməni idarə etmək üçün qeyri-adi qoşunlardan istifadə edir. Mütləq qələbəyə nail olmağın üsulu budur.

«Fu» və «yue» baltalarını cəzalar üçün müəyyən et, mükafat kimi istifadə olunan emblem və bayraqları göstər. İgidlik göstərənlər mükafatlandırılmalıdır; əmrlərə itaət etməyənlər ölməlidirlər. Dövlətin saxlanması və ya dağılması, əsgərlərin həyatı və ya ölümü – hər şey sərkərdənin təbil çubuqlarının ucunda yerləşir. Əgər Səmaaltında orduya komandanlıq etməkdə müvəffəqiyyət qazanmışlar varsa belə, onları heç kim məğlub edə bilməz.

Kamanların kirişləri enməmişdən və oxlar hədəfə doğru uçmamışdan qabaq, uzun ülgüclər zərbə endirməmişdən qabaq, birinci qışqıranlar «boş», onların ardınca qışqıranlar «dolu» adlanır, susanlar isə «sirli» adlanırlar. «Boşlar» və «dolular» müharibə təcəssümüdürlər.

24. ORDUYA DAİR ƏMRLƏR– II

Xüsusi dəstələr əsas ordudan seçilib, müdafiə üçün ilkin hazırlıqlar görməyə göndərilir. Onlar sərhəd boyu üçdən beş liyə qədər məsafədə müşahidə postları qoymalıdır. Onlar eşidəndə ki, əsas ordu hücuma hazırlaşır, müdafiə təşkil edir və döyüşə girir, onlar dövlətin təhlükəsizliyini təmin etmək üçün bütün hərəkətləri dayandırmalıdırlar.

Dərinlikdə olan qoşunlar sərhədlərin mühafizəsinə başlamalı olanda, komandir onları bayraqlarla, təbillərlə, təbərzin və yaraq-əsləhə ilə təmin etməlidir. Yola çıxan gün komandir yerini tərk edəndən sonra gələn istənilən adam sərhəd xidmətinə gecikdiyi üçün məhkəməyə verilməlidir.

Əsgərlər üçün sərhəd xidmətinin müddəti bir ildir. Əvəz edənlər gələnə qədər öz postunu tərk edən istənilən əsgər, ordudan qaçmaq haqqında qanuna əsasən cəzalandırılmalıdır. Əgər onun valideynləri, həyat yoldaşı və uşaqları bu barədə bilirdilərsə, onlar birlikdə cinayətə görə günahı bölüşməlidirlər. Əgər onlar bu barədə bilmirdilərsə, onları bağışlamaq lazımdır.

Əgər əsgər ordunun tutduğu mövqeyə öz komandirindən sonra gəlirsə, onun valideynləri, həyat yoldaşı və uşaqları cinayətə görə günahı onunla bölüşməlidirlər. Əgər əsgər bir günlük evinə qayıtmaq üçün postunu tərk edirsə, valideynləri, arvadı və ya

uşaqları onu saxlamasalar və ya bu barədə məlumat verməsələr, onlar cinayətə görə günahı onunla bölüşməlidirlər.

Əgər onlar döyüşdə komandirlərini itirsələr və ya komandir tabeçiliyində olanları ataraq qaçsa, onların hamının boynunu vur. Əgər ön kənardan komandir tabeçiliyində olanları tərk edib qaçıbsa, onu öldürməyi və onun tabeçiliyində olanları yenidən bir yerə yığa bilən arxadakı istənilən komandir mükafatlandırılmalıdır. Orduda igidlik göstərə bilməyən hər hansı belə qoşun, üç il sərhəddə xidmət çəkməlidir.

Əgər üç ordu həlledici döyüşə giribsə və sərkərdə həlak olursa, həmin sərkərdəyə tabe olan, düşmənlə ölümcül döyüşməyə qadir olmayan, beş və daha çox adamdan ibarət birləşmələrə başçılıq edən komandirlərin hamısının boynu vurulmalıdır. Sağdan və soldan müdafiə sıralarında sərkərdənin yanında olan bütün qoşunların boynu vurulmalıdır. Yerdə qalan komandir və əsgərlərə gəldikdə isə, hərbi xidmətləri olanlar bir dərəcə alçaldılmalıdırlar. Hərbi xidmətləri olmayanlar üç il sərhəddə qulluq etməlidirlər.

Əgər «beşlik» döyüşdə əsgərini itiribsə və ya «beşliyin» üzvü döyüşdə həlak olubsa, onun cəsədini qaytarmayıblarsa, «beşliyin» üzvləri bütün xidmətlərindən məhrum edilirlər. Əgər «beşliyin» üzvləri cəsədi qaytartdıra biliblərsə, onların cinayətləri bağışlanmalıdır.

Ordunun mənfəət və ziyanı dövlətdəki ad və əşyaların uyğun gəlməsi ilə əlaqəlidir. Bu gün, əgər kiminsə adı hərbi idarədə peyda olursa, əslində isə o adam öz evindədirsə, onda idarə mətləbə nail olmur, ailə ocağı isə ad almır. Qoşunlar ordunu təşkil etmək üçün toplaşıblarsa, onlar mahiyyətsiz boş ada malik olacaqlar. Dövlətdən kənarda onlar düşməni dəf edə bilməyəcəklər, daxildə isə dövləti müdafiə edə bilməyəcəklər. Bu, ordunun döyüşə qabil olmaması, sərkərdənin isə qorxuducu qüvvəsini itirməyə aparan yoldur.

Hesab edirəm ki, əsgərlər dəstələrini ataraq evə dönəndə, «beşliyin» mənzildəki digər üzvləri və onların komandirləri onların paylarından istifadə etdikləri üçün cəzalandırılmalıdırlar. Çünki qaçaqların adları ordunun tamlığını göstərir. Belə ki, sanki adam ordudadı, əslində isə ikiqat norma israf edilir. Onda dövlətin ehtiyatları boşalır, xalqın əkin yeri isə gücdən düşür. Məğlubiyyət dəhşətindən necə can qurtarmaq olar?

Bu gün, əgər qanunlar onları ordudan qaçmaqdan çəkindirirsə, bu ordunun itirilməsinin qarşısını alır və birinci hərbi

qələbədir. «Beşliklər» və «onluqlar» döyüşdə qoşunların və komandirlərin bir-birlərinə kömək edə bilməsi üçün mövqeyə qarşılıqlı surətdə bağlı olsalar, bu ikinci hərbi qələbədir. Əgər sərkərdə qorxuducu qüvvəni möhkəmlətmək, əsgərlər onun təlimatlarını mənimsəmək və onlara əməl etmək iqtidarındadırlarsa, komanda və əmrlər aydındır və onlara etibar edirlərsə, hücum və müdafiə düzgün həyata keçirilirsə, bu üçüncü hərbi qələbədir.

Mən eşitmişəm ki, qədimlərdə müharibəni bacarıqla aparan kəs, öz əsgər və komandirlərinin yarısını məhv edə bilirdi. Sonrakılar üçdə birini, ən aşağıdakıları isə– onda birini öldürə bilərdilər. Öz qoşunlarının yarısını qurban verə bilənin qorxuducu qüvvəsi dörd dəniz hüdudlarında hamını sarsıdırdı. Qoşunlarının üçdə birini qurban verə bilənlərin gücü udel knyazlarına qarşı yönəldilə bilərdi. Onda biri qurban verənlərin əmrləri onun qoşunları və komandirləri arasında yerinə yetirilirdi. Buna görə mən deyirəm ki, əmrlərə riayət etməyən milyon qoşundansa, döyüşməyi bacaran on min əsgər yaxşıdır. Döyüşən on mindənsə, həqiqətən ruhlanmış yüz adam yaxşıdır.

Mükafatlar günəşə və aya bənzəyəndə, sədaqət dörd fəsil kimidir, əmrlər «fu» və «yue» baltaları kimidir, qaydalar isə Qan-tszyanın iti qılıncına oxşayar. Mən heç vaxt eşitməmişəm ki, komandirlər və əsgərlər əmrlərə riayət etməsin!

QEYDLƏR

1. Çox güman ki, «Vey Lyao-tszı» traktatı Sun-tszının «Hərb sənətindən»; Sun Binyanın «Mo-tszı», «Hərbi metodlar»ı və «U-tszı»dan sonra yazılıb. Burada U Tsinin bir çox konsepsiyaları geniş istifadə olunur.

2. Li Sı– Tsində birinci nazir və Tsin Şi Xuan-dinin ən yaxın məsləhətçisi.

3. Həm heroqliflərin yazılış üslubu, həm də mətndə lövhəciklərdəki ieroqliflərin olması bu nəticənin xeyrinə şahidlik edir. Bu lövhəciklərdəki ieroqliflər Xan dövründə yazılsaydı, müəlliflər onlardan qaçmalı idilər. (İmperator taxta çıxandan sonra onun adının heroqlifləri qadağan olunmuşdu).

4. Bu onu göstərir ki, traktatda daos konsepsiyaları da müzakirə edilir, baxmayaraq ki, legizmin təsiri üstün olaraq qalır.

5. «Beşlərə» bölünmə bütün Çin tarixi boyu hərbi təşkiletmənin əsası olaraq qalmışdır.

6. ŞanYan hesab edirdi ki, cəzalar çox olmalıdır, mükafatlar isə az.

7. Syun-tszı (Syun Kuan)– (m.ö. 313-238-ci illərə yaxın). Qədim Çinin ən böyük filosoflarından və mütəfəkkirlərindən biri, konfusian məktəbinin nümayəndəsi.

8. «Tsyun şu tszi yao» - Tan sülaləsi vaxtı tərtib edilmiş və kanonlardan, tarixi və fəlsəfi əsərlərdən ən əsas fəsillər də daxil olan xülasə.

9. Bir çox şərhçilər bu halda itirilmiş kitabın adı verildiyini qeyd edirlər.

10. Daha doğrusu Tsin çayı. Çünki o həlledici döyüşün baş verdiyi Muedən keçərək axır.

11. Çjan– 3,3 metrə bərabər uzunluq ölçüsü.

12. Dörd dərəcə– məmurlar, kəndlilər, sənətkarlar və tacirlər.

13. Şərhçilər bu dörd qüvvənin müxtəlif izahlarını verirlər, məsələn: əsas ordu, irəli çəkilmiş ordu, avanqard və divizion (sonuncu açıqcasına sünidir). Digərləri hesab edirlər ki, bu düzülüşün dörd tipi yaxud sadəcə qıraq mövqelər ola bilər. Ordunun hər bir bölməsi «qeyri-adi» kimi istifadə edilə bilər.

14. Ordu komendantı– tabeçiliyində 800-ə yaxın adam olan orta rütbəli komandir.

6

XUAN Şİ-QUNUN ÜÇ STRATEGİYASI

黃石公三略

Tədqiqat 543
Tərcümə 552

I. Ali strategiya 553
II. Orta strategiya 560
III. Aşağı strategiya 563

Qeydlər 566

«Üç strategiya»nın əmələ gəlməsi

Çin ənənəsi üç hərbi əsəri– «Altı məxfi təlim», «Xuan Şi-qunun üç strategiyası» və «İn fu» məxfi əsərini– məşhur sərkərdə, strateq və siyasi mütəfəkkir, Tay-qun adı ilə daha çox tanınan Tszyan Şana aid edir. Qədim Çin kitablarının çoxu kimi, «Üç strategiya»nın da mətninin əsli olduğu ilə bağlı çoxsaylı fikirlər var. Lakin, əgər «dəyərini itirmiş saxta» kitab olsaydı belə, öz qədimliyinə, çeşidli məzmununa və Çinin, sonralar isə Yaponiyanın hərbi nəzəriyyəçilərinə açıq-aydın təsirinə görə ciddi tədqiq edilməsi tələb olunardı. Əsər müasir mətn dilinə, problematika və üslubuna görə m.ö. I əsrin sonunda yaranmışa bənzəyir. Ancaq aşağıda təhlil edilən digər dörd konsepsiya, yaranma tarixi məsələsində tamamilə ayrıdırlar.

«Üç strategiya» qəddar Tsin sülaləsinin uzun sürməyən idarəçiliyinə son qoyan iğtişaş və üsyanlar vaxtı Xan sülaləsi hakimiyyətinin yaradılması və birləşməsində Çjan Lyanın müvəffəqiyyətləri dövründə tarixi əhəmiyyət qazandı. Mətnin qəfil meydana gəlmə tarixi, mətnin zamanların qaranlığı içərisindən Tay-qunun özünə qədər ötürülməsinin həqiqi xəttini yaratmaq cəhdlərinə baxmayaraq, yarıməfsanəvi Çin tarixi təsvirlərinin klassik nümunəsidir. Bu ənənəyə əsasən, «Üç strategiya» hörmətli müdrikin nitqindən ibarətdir. Bu nitqi o, Şan sülaləsini istila etdikdən sonra, Çjou sivilizasiyasının sərhədində yerləşən Tsi dövlətinə hökmdar təyin edildikdən sonra söyləmişdir. Sonralar «meydanlarda» yazılmış parça-parça, təsadüfi deyimlər toplanmış, redaktə edilmiş və nizama salınmışdır. Güman ki, bu tapşırığı Tsi sarayının tarixçisi yerinə yetirmişdi, əsər özü isə çox böyük hərbi dəyər kəsb etdiyindən sonrakı nəsillər tərəfindən məxfi saxlanmışdı. Fərz edilir ki, Tay-qun «Altı məxfi təlimi» tərtib etmiş, Çində sülh bərqərar olduqdan sonra onu tamamlamışdı. Bu, materialın daha ümumi xarakterini və döyüş meydanında əmrlər və taktika kimi məhz hərbi mövzuların olmamasını izah edir.

Kitab hələ Çjan Lyan məşhur və qüdrətli olmamışdan on il əvvəl naməlum bir qoca tərəfindən ona verildikdə üzə çıxdı. «Şi tszi»də bu hadisənin təsviri verilib.

Bir dəfə Çjan Lyan tələsmədən Sya-pey körpüsü ilə gəzişərkən, kasıb geyimli bir qoca– istefaya çıxmış tszyun-tszı ilə rastlaşdı. Qoca Çjan Lyanın dayandığı yerə yaxınlaşanda, qəsdən ayaqqabısını körpüdən atdı. Çjana baxaraq, əmr etdi: «Düş aşağı və mənim ayaqqabımı gətir». Çjan Lyan bundan heyrətə gəlmişdi. O, qocanı vurmaq istədi, ancaq onun yaşını nəzərə alıb, bu fikrindən daşındı

Çjan aşağı, körpünün altına düşüb, ayaqqabını götürdü. O, qayıdıb gələndə, qoca əmr etdi: «Onu mənim ayağıma geyindir». Çjan artıq bir dəfə aşağı düşüb ayaqqabını gətirdiyi üçün, diz çökdü və qocanı geyindirdi. Qoca ayağındakı ayaqqabıya baxıb gülümsündü və yoluna davam etdi. Çjan Lyan çox təəccüblənmişdi, qocadan gözünü çəkmirdi. Bir neçə sot addım gedəndən sonra qoca geri döndü və dedi: «Oğlum, səni öyrətmək olar. Beş gündən sonra, sübh tezdən məni burada gözlə». Çjan Lyan bunun qəribə olduğunu fikirləşdi, ancaq razılıq əlaməti olaraq dizini əydi.

Beş gün sonra sübh tezdən Çjan körpüyə yollandı. Qoca artıq orada idi və onu məzəmmət etdi: «Yaşlı adamla görüş təyin olunubsa, sən nə cürətlə ondan sonra gəlirsən?» Qoca bu sözləri deyərək, üzünü çevirib getdi: «Beş gündən sonra yenə burada görüşürük». Beş gün sonra, xoruzun ilk banında Çjan Lyan oraya yollandı. Ancaq qoca yenə orada idi və yenə də hirsli idi: «Sən nə cürət edib məndən sonra gəlirsən?» Gedərkən, qoca qışqırdı: «Beş gündən sonra gəl!»

Beş gündən sonra, gecə yarı olmamış Çjan Lyan oraya getdi. Az sonra qoca gəldi. Çjanı orada görüb çox sevindi: «Bax belə də olmalıdı». Sonra kitabı çıxararaq, dedi: «Əgər sən bu kitabı oxusan, hökmdarların müəllimi ola bilərsən. On il sonra sənin işlərin yaxşı gətirəcək. On üç il sonra sən məni Tszi çayının şimal sahilində görəcəksən. Qu-çen dağının ətəyində Sarı qaya– bu mən olacam». Sonra o, heç bir söz demədən çıxıb getdi və bir daha onu görmədilər. Səhərisi Çjan Lyan kitaba baxdı və başa düşdü ki, bu Tay-qunun hərbi strategiyasıdır. O, bu kitabı son dərəcə maraqlı hesab edirdi və daim oxuyub-öyrənirdi.

Həmin qoca Tsi şahlığının «layiqli» saray tarixçisinin məğrur nəslindən ola bilərdi. Onun ailəsi məxfi təlimi gələcək nəsillər üçün qoruyub saxlamışdı. Hərbi tarixçi general Syuy Pey-genyuya görə, belə ehtimal ərazinin yaxşı tanınmasına əsaslanır. Qoca ərazini o qədər dəqiq tanıyır ki, özünü böyük sarı qayaya (xuan şi) oxşadır. Elə kitabın adı da buradan əmələ gəlib: «Sarı qaya knyazının üç strategiyası». Tsi şahlığı pis tərəfdən tanınmış Tsin tərəfindən zəbt olunmuş sonuncu şahlıqlardan biri olduğu üçün, Sarı qaya Knyazının mənfur sülalənin məhvini arzulamağı tamamilə təbiidir. İmperatora sui-qəsd cəhdi etdiyi üçün izlənilən cavan qaçaq oğlana strategiyaya dair vacib kitabın verilməsi, bu halda, çox münasib hərəkət olardı.

Beləliklə, «Üç strategiya»nın yaranmasının beş əsas nəzəriyyəsi mövcuddur. Birincisi, ənənəvi və yuxarıda təsvir edilmiş olanı, Tay-qunun özünə aid edilir. İkinci nəzəriyyə birincinin variantıdır və mətni Tay-qunun şagirdlərinə və ya hərbi ardıcıllarına aid edilir. Nəzəriyyəyə görə, ilkin mətn zaman keçdikcə pred-tsin dövründə geniş işlənmələrə məruz qalıb, bu isə ideya və konsepsiyaların köhnəlmiş xarakterini və onun Sun-tszı və Vey Lyao-tszıya (əksinə yox) təsirinin mümkünlüyünü izah edir. Üçüncü

nəzəriyyədə, Tay-qunun əsərlərinin təsiri altında Xuan Şi-qunun özünün bu kitabı məlum hadisələrdən az öncə yazdığını ehtimal edir. Bu həm də kitabın konsepsiyasını və onun dilini, xüsusilə də, daosizmin açıq-aşkar görünən təsirini izah edə bilər. Əsasən klassik məktəbin konservativ alimləri ilə eyniləşdirilən dördüncü ehtimal kitabın Vey Tszin (m.ö. 220-420-ci illər) dövrünün və ya daha gec dövrun saxtası olduğunu iddia edir. Çjen Xuan kimi bəzi alimlər, «Üç strategiya»nı «daosizmin boş sözləriylə dolu və ona görə faydasız kitab olduğunu» hesab edir, başqaları kitabı sərtliyinə görə tənqid edir və ya dilin sadəliyinə hücum edirlər.

Nəhayət, beşinci nəzəriyyə müasir alim Syuy Bao-linə məxsusdur. O, mətndəki konsepsiyalara, dilə və tarixi dəlillərə əsaslanaraq belə bir nəticəyə gəlir ki, kitab Erkən Han dövrünün sonlarına yaxın, güman ki, Xuan-Lao məktəbinin ardıcılı, hərbi işi gözəl bilən zahid tərəfindən yazılıb. O, daha sonra düşünür ki, Çjan Lyana verilən kitab «Altı məxfi təlim» olub. Bu barədə Sım Tsyanın «Şi-Tszi» də daxil edilmiş bioqrafiyasında da danışılır. (Suan Şi-qunun indi «Xuan Şi-qunun üç strategiyası» kimi tanınan kitabı, əvvəllər «Xuan Şi-qunun qeydləri» adlanırdı və indiki adını yalnız Suy sülaləsi vaxtı almışdı). Bu, hakimiyyəti qəsb etmiş qüdrətli soyadların xatırlanmasını, sair işlər arasında Xuan-Lao məktəbi ideyalarının üstünlük təşkil etməsini, həmçinin əmin-amanlıq vaxtı diqqətin dövlət işlərində möhkəmlənədirilməsini izah edir. Buna zidd arqumentlərin arxeoloji sübutları olmadıqda, Syuyanın arqumentlərinin bir az süni olmasına baxmayaraq, güman edirik ki, onun ümumi nəticələri, hər halda, qəbul edilməlidir. «Üç strategiya» isə – köhnə və yeni əsrin qovşağında yaranmış orijinal qədim əsərlərdən axırıncısı kimi qəbul edilib[1].

ƏSAS MƏZMUN VƏ BAŞLICA KONSEPSİYALAR

«Üç strategiya»nın üslubu, müəllifləri müəyyən edilmiş başqa əsərlər və «Altı məxfi təlim»lə müqayisədə xeyli yumşaqdır. Bəlkə ona görədir ki, imperiyanın birləşdirilməsi və bilikli idarəetmənin yaradılması kimi çox əmək tələb edən və möhtəşəm iş artıq Han sülaləsi tərəfindən həyata keçirilmişdi. Əvvəlki beş hərbi qanunların mövzu və ideyalarının «Üç strategiya»da öz əksini tapmasına baxmayaraq, burada əsas diqqət idarəetməyə, həmçinin hərbi administrasiya və nəzarətə ayrılır. «Güclü mövqelər» nəzəriyyəsini inkişaf etdirən qısa passaj istisna olmaqla, ümumiyyətlə, kampaniya strategiyası və döyüş taktikası, demək olar ki, müzakirə olunmurlar. Bunun əvəzinə mətndə idarəetmənin, qüvvələrin təşkil edilməsinin və xalqın birləşdirilməsi konsepsiyaları; bacarıqlı sərkərdənin xarakteristikaları; möhkəm maddi baza yaradılması metodları; tabelikdə olanların və əsgərlərin sübutları; mükafat və cəzaların tətbiq edilməsi; böyüklüyün təzahürü yolları və sərt və mülayim arasındakı tarazlıq haqqında məsələlər ətraflı təhlil edilir.

Fikrin dörd əsas xətti– onların fərqləri açıq-aydın razılaşdırılır, və nəticədə onlar qəribə tərzdə bir arada çəlpəşirlər– «Üç strategiya»da açıqca tədqiq edilir. Syuy Bao-linin dediyi kimi, müəllifin Xuan-Lao məktəbinin ideyalarının yeni intellektual əsasında belə bir sintezi qəsdən yaratdığını, yoxsa müasir tədqiqatlçıların uzun sürən düşüncələrdən və mətnin geniş təhlilindən sonra tamlığı olmadığı yerdə izləməyə uyduqlarını müəyyənləşdirmək üçün sonrakı tədqiqatlar tələb olunur. Ümumiyyətlə, desək, konfusianlığın ədalət, humanist idarəetmə, xalqının rifahının təmin edilməsi, məziyyətlərin köməyi ilə idarəetmə, layiqlilərdən istifadə edilməsi kimi əsas anlayışları əsərin əsasını təşkil edir.

Legistlərin dövlətin qüvvətləndirilməsi, qanunların sərt yayılması, mükafat və cəzaların sərt tətbiq olunması, sarsılmaz hakimiyyət və hökmdarın nüfuzu kimi təklif etdiyi əsas tədbirlər, mahiyyətcə əsərin konfusian konsepsiyasını tamamlayır. Bu da əsəri üslub və fikir etibarilə Konfutsi və Men-tszıdan çox Syun-tszıya daha yaxın edir. Passivliyi, ahəngdarlığı, rəqabətin olmamasını, həyatın qorunub saxlanmasını, Dao və Deni (yaxşılığı) tərənnüm edən və müharibənin şərini pisləyən Dao ideyaları kitabın ana xəttiindən keçir. Lakin onların şəkli kifayət qədər dəyişdirilib və biz mətndə buna sübut tapırıq– ədalətli müharibə prinsipi və harmoniya uğrunda mübarizə prinsipi təsdiqlənir.

Əvvəlki hərbi strateqlərin əsərləri, xüsusən «Vey Lyao-tszı» və «Altı məxfi təlim» (onu bəzən «Hərbi nitqlər» kimi də verirlər), idarəetmənin, təşkilatın və nəzarətin əsas konsepsiyalarını verir. Xalqın əsas kimi təsdiq edilməsi və mükafat və cəzaların sərt tətbiq edilməsi kimi birləşmiş konfusian və legist siyasi görüşlərindən çoxu, mətn yaranana qədər stretaqlər arasında artıq uzun ənənəni müəyyən etmişdi. Onlardan bəziləri «Üç strategiya»da öz apogeylərinə çatır. Şübhəsiz ki, mətn fəlsəfi planda hərbi idarə etmə haqqında adi əsərlərdən xeyli mürəkkəbdir. Sözsüz ki, mətn sonrakı araşdırmalar tələb edir. Biz ətraflı təhlili xüsusi monoqrafiyalar üçün saxlamağa məcburuq və Xuan Şi-qunun dünyasına giriş kimi daha parlaq məqamların yalnız qısa sadalanmasını qeyd etməliyik.

Strategiyaların iyerarxiyası

İndiki halında əsər, ənənəvi qaydada «ali», «orta» və «aşağı» adlandırılan üç hissədən ibarətdir. Təəssüf ki, verilən terminlərin iki interpretasiyası mümkündür: bu, ya əsərdə yerin, ya da prioritetlərdə birinciliyin işarəsidir. Kitabda yer almış və müəllifin fikrindən çox şərhçinin interpolyasiyası ola bilən passaj göstərir ki, hər bir hissə mütləq müəyyən mənəvi və siyasi tənəzzül dövrünə uyğundur.

Fəsillər iyerarxiyasının, gözlənildiyi kimi, idarəetmənin müxtəlif tipləri və «yaxşılıqlar dövrləri» ilə uyğun gələ biləcəyinə heç bir işarə yoxdur.

Minilliklər ərzində çinli ziyalılar tarixə təkrarlanan sülalələr silsiləsi, onlara aid olan mənəvi tənəzzül modeli prizmasından baxıblar. Kamil müdrik imperatorlar dövründən başlayaraq, sivilizasiya daha hərtərəfli, daha riyakar və əxlaqsız olurdu. Bu hal, təsadüfi adamların hakimiyyəti qəsb etdiyi dövrdə öz kulminasiya nöqtəsinə çatdı. Və alimlər şərin qarşısını almaq üçün səmərəsiz cəhdlər edərək yaxşılıq konsepsiyasını yaratmalı və inkişaf etdirməli oldular. Hər bir fəlsəfi məktəb bu tənəzzülü özü üçün əlverişli nöqteyi-nəzərdən təfsir edirdi. Son dərəcə sadələşdirilmiş formada, konfusianlar mədəniyyət və sivilizasiyanın yaradılmasını keçmişin müdriklərinin və qəhrəmanlarının əsas xidməti, məziyyətlər üstün olmalı, mənəviyyatın isə idarə etməli olduğu cəmiyyətdə idarə üsulunun əldə edilməsi və saxlanması vasitəsi hesab edirdilər. Lao-tszı başda olmaqla, daoslar yaxşılıq konsepsiyalarını və sivilizasiyanın tapşırıqlarını pisləyirdilər. Onlar hesab edirdilər ki, bu konsepsiya və tapşırıqlar sadəliyin və təbii harmoniyanın tənəzzül etməsinin sürətlənməsinə ancaq kömək ediblər. Legistlər bu tənəzzüldən başqa nəticə çıxartdılar. Onlar bu tənəzzülə nəhəng tədbirlərin– qanun və hakimiyyət cəmiyyətdəki özbaşnalıqlara mane olmalı, güclü dövlət yaranmasına imkan yaratmalı və hökmdarın təhlükəsizliyini təmin etməlidir– vacibliyinin sübutu kimi baxırdılar. İdarəetmənin bir-birlərindən öz dəyərləri və əsas siyasi tədbirləri ilə fərqlənən diametral zidd formaları sayəsində əldə edilmiş insan təcrübəsi, hər bir nəzəriyyənin illüstrasiyası üçün çox təsirli material verirdi. Belə bir fikir ağla gəlir ki, Xuan Şi-qun üç strategiyadan hər birini, hakim elitanın qəddarlığı və aqressivliyi dərəcəsinə müvafiq olaraq idarəetmənin xüsusi üsuluna aid edirdi. Ancaq indiki mətn bu kimi fikirlərə əsas vermir və həqiqətən də, «Ali strategiya» «əxlaq normalarını və mükafatı müəyyən edir» ki, bu da açıqca kamil müdriklərin metodu deyil.

Hər bir dövr üçün yenidən qanunlar tərtib edilməli olduğunu iddia edən legist təliminə müvafiq olaraq, Xuan Şi-qun deyir ki, hər üç təlim tənəzzülün müvafiq dövrləri üçün vacibdir. Hər fəsildə hökmdara idarəetmənin məqsədlərinə nail olmaq üçün müxtəlif məsləhətlər verilir:

Kamil müdrik Səmanı dərk edir, Ləyaqətli Torpağı nümunə götürür, müdrik isə müəllimləri qədimdə axtarır. Buna görə, «Üç strategiya» tənəzzül dövrü üçün yazılıb. «Ali strategiya» əxlaq normalarını və mükafatları təyin edir, şər törədənlər və qəhrəmanlar arasında fərq qoyur, qələbə və məğlubiyyəti aydınlaşdırır. «Orta strategiya» igidlik və davranışı fərqləndirir və qüvvələrin tarazlığındakı dəyişiklikləri müəyyən edir. «Aşağı strategiya» Dao və məziyyəti nizama salır, təhlükəsizliyi və təhlükəni öyrənir, layiqlilərə vurulan ziyandan törəyən bədbəxtlikləri aşkarlayır.

Buna görə, əgər hökmdar «Ali strategiyanı» dərindən başa düşürsə, o, layiqlilərdən istifadə edib düşməni ələ keçirə bilər. Əgər

o, «Orta strategiyanı» dərindən başa düşürsə, o öz sərkərdələrindən istifadə edə və onları idarə edə, həmçinin adamları birləşdirə bilər. Əgər hökmdar «Aşağı strategiya»nı dərindən başa düşürsə, o, çiçəklənmə və tənəzzülün mənbələrini müəyyən edə və dövləti idarəetmənin qaydalarını başa düşə bilər. Əgər onun tabeçiliyində olanlar «Orta strategiya»nı dərindən başa düşürlərsə, onlar xidmətlərə nail ola və özlərini qoruya bilərlər.

Lakin kitabın məzmunu ilə tanışlıq belə güman etməyə imkan verir ki, bu cür interpretasiya kifayət qədər mətnə tam uyğun əsasdan məhrumdur. Strategiyalardan hər biri müxtəlif məqamlara xüsusi əhəmiyyət versə də, mahiyyət etibarilə hər üçünün əsasında eyni bir tematika və maraq dayanır. Birinci fəsil əsərin böyük hissəsini əhatə edir, o biri iki fəsildə isə bəzi yeni məsələlər daxil edilir və artıq irəli sürülmüş fikirlər genişləndirilir. Bunun mətnin təhrif olunduğu və ya əsərin yarımçıq ötürülməsi və xeyli fraqmentlərin itirildiyinin nəticəsi olduğunu biz heç vaxt bilməyəcəyik. Mətnin fəsillərinin uyğunsuzluğu qeyri-adidir, ancaq digər tərəfdən, müəllif fəsillərin mütənasibliyi və böyüklüyünün qeydinə qalmayaraq, sadəcə öz fikrini idarə edə bilərdi.

İdarəetmənin konsepsiyaları

Tarixi «tənəzzül» ideyası ilə dolub-daşan «Üç strategiya», məziyyətlərin təkmilləşdirilməsi mövzusuna, eyni zamanda da, tənəzzüllə mübarizənin ciddi tədbirlərinə həsr edilib. «Altı məxfi təlim» və «U-tszı» kimi, bu əsər də xalqın qeydinə qalmağın, onu eşitməyin vacibliyini, əxlaqlı hökmdar və qüdrətli dövlət aparatının müdafiə edilməsi və hakimiyyəti altında birləşməsinə xüsusi əhəmiyyət verir. Kamil müdrik hökmdar ali ideal olduğu üçün, müəllif xalqın rifahının təmin edilməsi və onun könüllü sədaqətinə nail olmağın konfusian siyasətinin tərəfdarıdır. Həm hökmdar, həm də sərkərdə elə hərəkət etməlidirlər ki, ehtiyac yüngülləşsin, şər aradan qaldırılsın və rifah artsın. Sonra onlar vergiləri və əmək mükəlləfiyyətini azaltmalı, tarla işlərinə mane olmamalı və sakitliyi və sabitliyi möhkəmlətməlidirlər. Apriori yaxşı idarə olunan dövlətin hərbi təhlükə olduqda əhalini səfərbər edə biləcəyini etiraf etdiyindən, strategiya və taktika ilə yanaşı, mülki idarəetmə və rəhbərlik məsələləri ön plana çıxırlar. Əsgərlər hərbi gücün əsasını təmin edir və əsas diqqət müdafiə məsələlərinə yönəldilir.

Hakimiyyətin təzahürü

Həm «Ali», həm «Aşağı strategiya», hökmdarın vəziyyətə nəzarətini artıq itirdiyi, hakimiyyət şöbə və idarələrində şərin hökmranlıq etdiyi, partiya və güruhların isə dövlətin var-dövlətini daşıyıb apardığı zaman doğan çoxsaylı problemləri müzakirə edir. «Üç strategiya», hökmdarın mümkün olduğu qədər hakimiyyətə malik olmasını bildirən legist doktrinasına riayət edərək, çıxararaq

bunun yolverilməz olduğunu bildirir. Böyük soyadların, hökmdarın qohumlarının və hətta qüdrətli hərbçilərin güclənməsinə əks-təsir kimi əsas vasitə layiqli və müdriklərin istifadə olunmasıdır. (Bu, əxlaqi keyfiyyətlər və fərdi istedadlara arxayın olmamaq kimi klassik legist prinsiplərindən uzaqlaşmadır. Moistlər və konfusianlar, əksinə, müdriklərin dövlət üçün çox böyük əhəmiyyətini qeyd edirdilər. Bu isə «Üç strategiya»nın müəllifinə «anlaşılmaza uyğunluq», «Daoya uyğunluq» kimi görünür). Xeyirxahlar qəbul edilib, irəli sürüləndə, pislər isə geri çəkilib, cəzalarını çəkirsə, həm ədalətli, effektiv və humanist idarə etmə üçün əsas, həm də xalqın saraya sədaqəti yaranır.

Hərbi hazırlıqlar, idarəetmə və edamlar

Artıq qeyd olunduğu kimi, daos təsiri bütün kitabda gözdən keçirilir– Dao praktikasında ümumi birləşmə ideyasından tutmuş, hər yerdə qəbul edilmiş müharibəin bədbəxtlik və şər olduğunu və onun «həyata təbii meyli» pozduğuna qədər. Müharibənin millət üçün böyük əhəmiyyətli iş kimi təsvir edildiyi «Altı məxfi təlim»dən fərqli olaraq, «Üç strategiya»da müharibənin mənfi, neqativ tərəfinə diqqət ayrılır. Ordudan ehtiyatla istifadə etmək lazımdır: lakin, dövləti qoruyub saxlamaq, sivilizasiyanın bünövrəsini müdafiə etmək və həyatı müdafiə etmək vacib olduqda, ordudan istifadə Daoya uyğun gəlir. Tərəddüd və şübhələr hərbi işləri uğursuzluqlara düçar etdiyi üçün, müharibə aparmaq barədə qərar qəbul edilibsə, mütləq hərəkət etmək lazımdır: «Müdrik hökmdar müharibə aparmaqdan zövq almır. O, müharibəni, ən pisləri və üsyan edənləri cəzalandırmaq üçün başlayır. Silah– arzu edilməyən vasitədir, Göylərin Daosu ona nifrət edir. Lakin, müharibə qaçılmaz olduqda, o Göylərin Daosuna uyğundur». Lao-tszının məşhur («ordu– arzu edilməyən vasitədir») kəlamı açıq-aşkar dəyişdirilib ki, Xuan-lao məktəbinin «Üç strategiya»da əks olunmuş ideyaları kontekstinə daxil edilsin.

Hərbi əməliyyatın aparılmasının əsası həmişə xalq olur. Əsl hökmdarın xalqı tərbiyə olunmuş, geydirilmiş və bununla öz hökmdarına və hökumətinə bağlı olmalı olduğu vaxtda, bir çox dövlətlərdə adamlar var-yoxdan çıxıblar və narazıdırlar. Layiqli və istedadlı adamlar kimi, bütün qaçqın və təqib olunanları salamlamaq və ələ alaraq, dövləti möhkəmlətmək lazımdır. Əgər hökmdarın hakimiyyəti altına düşmüş adamların hamısını birləşdirsək, onlar möhkəm və sarsılmaz bütövü təşkil edərlər.

Xalqın əsasları

Əsasların və həvəsləndirmənin əsrlər boyu sürən problemi «Üç strategiya»da kifayət qədər ətraflı müzakirə edilir. Diqqət cəmiyyətin müxtəlif təbəqələrinə ayrılıb: rəiyyətə, məmurlara, nazirlərə, sərkərdələrə, komandir və əsgərlərə.

Hətta iyirmiyə yaxın xarakterik– davranış əsasında fərdi tiplər də seçilir və bu tiplərdən hər birini dövlətin xeyri üçün istifadə etmək təklif olunur. Sabitlik və çiçəklənmə vacib şərt kimi qəbul edilir, çünki sabitlik olmadan yiyələnmə, çiçəklənmə olmadan mükafatlar verilməsi mümkün deyil. Əgər adamlar dövlət üçün bütün qüvvələrini verməlidirsə, onlar perspektiv kimi müvafiq mükafat da görməlidirlər; əgər onlar dövlət üçün ölməlidirlərsə, onları ailələrinə veriləcək vardövlət və ehtiram vədləri ilə həvəsləndirmək lazımdır.

Mükafatlar məqsədli və aydın olmalıdır, çünki adamların dəyərləri və tələbləri müxtəlifdir. Məsələn, baxmayaraq çoxları vardövlət hərisidir, namuslu və vicdanlı adamları yalnız şöhrət, ehtiram və vəzifə ilə cəlb etmək olar. Həm maddi, həm də mənəvi stimulları dəqiq müəyyənləşdirmək və əlaqəli surətdə tətbiq etmək lazımdır. İtaətkarlıq humanistlik, maariflənmə və niyyət; ağıllar– məmnuniyyət; bədənlər– əxlaq normaları və dövlətin qanunlarının qəbul edilməsi vasitəsilə əldə olunur. İstənilən adamın hiss və arzuları ilə oynayaraq, onu cəlb edib, istifadə etmək olar. Lakin layiqliləri yalnız məziyyətlər cəlb edər; buna görə hökmdar və sərkərdə hər zaman təkmilləşməlidirlər.

Hərbi və siyasi konsepsiyalar

Xuan Şi-qun əsas diqqəti inzibati idarəetmə məsələlərinə yönəltdiyinə baxmayaraq, «Üç strategiya»da olan bəzi vacib hərbi konsepsiyalar da diqqətə layiqdir: bu, orduya rəhbərlik, cəldlik, nüfuz, birlik və tarazlıq, «bərk və yumşaqdır».

«Baharlar və payızlar» dövründən başlayaraq, baş komandana tək hərbi rəhbərlik deyil, həmçinin, həm əsgərlər və komandirlər, həm də onlarla bağlı olan mülki şəxslərdən ibarət çoxsaylı müşayiətçilər üzərində tam hakimiyyət daha artıq dərəcədə etibar edilirdi. Bəzi istisnalar olmaqla, mülki sahədə istifadə üçün müzakirə edilən tədbirlər, hərbi sahədə də tətbiq edilə bilər. Komandan mandatı qəbul etdikdə, onun avtoriteti şübhə doğurmamalıdır. Böyük hakimiyyət və geniş imkanları olduğu üçün, yalnız bilikli, qətiyyətli və müxtəlif qabiliyyətə malik adam tapşırılan işin öhdəsindən gələ bilərdi. O, özünü ələ almalı, tələsməməli və tərəddüd etməməlidir. O, təkliflərə və tənqidə qarşı həssas olmalıdır, ancaq onun avtoriteti mütləq qalmalıdır. Onun hakimiyyəti yəqin və möhkəm, qəzəbi isə– ədalətli və dəhşətli olmalıdır.

«Ləngitmə yox, cəldlik» ideyasını Sun-tszı irəli sürüb, «Üç strategiya»da da sürət və qətiyyətin üstünlüyü dəfələrlə qeyd edilir: «Döyüş əsən küləyə bənzəməlidir; hücumlar axar çay kimi olmalıdır». Şübhələr, qəbul edilmiş qərarlara inamsızlıq, ruhlara müraciət etmək və fala baxma yaxud başqa nəyəsə əl atmaq– bütün bunlar ordunun hazırlığını heçə çıxara və hərəkətləri elə ləngidə bilər ki, vəziyyəti xilas etmək artıq mümkün olmaz.

İndi olduğu kimi, qədimdə də, avtoritet hakimiyyətin və adamları idarəetmənin çox mühüm və çox vaxt yeganə əsası idi. «Vey»– bunu «qorxuducu qüvvə» kimi tərcümə etmək daha yaxşı olar,– adətən, avtoritet şəxsin xarakteristikası üçün istifadə olunan termindir. Konfutsiyə görə, «vey»– yaraq-əsləhə geymiş, başqa adamlara təsir edən ədalətli adam obrazıdır. Bu, qorxudan əsən imperiyanın bütün gücünə sahib olan sərkərdə, ya hökmdarın ali hakimiyyətidir.

Praktiki olaraq, bütün legistlər və hərbi mütəfəkkirlər qorxuducu qüvvənin adamların idarə edilməsində və düşməni döyüş meydanından dağıdıb qaçmağa məcbur etməkdə böyük rolunu qəbul edərək, onun möhkəmləndirilməsi yollarını axtarırdılar. Onsuz sərkərdə iş qabiliyyətli deyil, çünki o, mütləq adamların sədaqətini itirə bilər.

Dövlətdə real hakimiyyətin əbədi əsası mükafat və cəzalara sözsüz nəzarət edilməsidir. Mükafat və cəzalardan sərt, kəskin və müntəzəm istifadə praktikasının daha çox legist məktəbi ilə əlaqəli olmasına baxmayaraq, hər bir hərb nəzəriyyəçisi onların həyati zəruriliyi ilə razılaşırdı. Onlara möhkəm inananda, sərkərdənin böyüklüyü və qorxuducu qüvvəsi sübut edilmişdir: «Ordu mükafatları öz forması, cəzaları isə öz mahiyyəti kimi qəbul edir. Mükafat və cəzalar aydın olanda, sərkərdənin böyüklüyü sübut edilib».

Sərkərdə və hökmdarın qorxuducu qüvvəsinin ikinci vacib elementi komanda və əmrlərin bacarıqlı istifadəsidir. Əmrlər nə düşünülməmiş verilməli, nə də ləğv olunmalıdır; əks təqdirdə onlar öz güc və təsirlərini itirər. Qorxuducu qüvvə əmrlərin qəbul və əməl edilməsindən asılıdır, onlara riayət edilməsi isə adamların qorxu, hörmət və könüllü itaətinə əsaslanır. Görünür, bu cür tarazlığı var qüvvəsi ilə qoruyub saxlamaq vacibdir, çünki şübhə çatları əmələ gələn kimi, avtoritetin məhvi qaçılmazdır.

«Ali strategiya»nın ilk müddəalarından biri qədim hərbi əsərdən sitatdır: «Həlim adam sərt adamı, zəif güclünü idarə edə bilər». Görünür, müəllif oxucunu çaşdırmaq istəyir. Axı, bu daos paradiqmasını göstərərək o, bir növ, güc və möhkəmliyin qələbənin açarı olduğunu deyən formalaşmış hərbi həqiqəti rədd etmiş olur. Lao-tszının «Dao-de tszina»nın bir neçə fəslində öz əksini tapmış həlimin sərti fəth etmək bacarığını təsdiq etməsi, onu inandırır ki, çox zəif və ya həddən artıq güclü və açıq olmamaq üçün passiv və aşağı mövqe tutmaq lazımdır. Xuan Şi-qun bu ideyaları hərbi sahəyə də şamil etdi. Ancaq o, yalnız həlimlik və zəifliyin istisna gücünü israr etmir, eyni dərəcədə sərt və güclünün– hər birinin öz vaxtında və müəyyən şəraitlərdə tətbiq edilməsinə tərəfdar çıxır. Xuan Şi-qunun fikrincə, belə düşünülmüş istifadə Göylərin Daosuna uyğundur və dövləti idarəetmə sənətinə müvəffəq olmaq istəyən üçün vacibdir.

Başqa fraqmentdə– həlimliyin, sərtliyin, zəifliyin və gücün– bu dörd halın hamısının vacib olması ideyasını sübut etmək üçün yenə

«Hərbi nitqlər» sitat gətirilir. Vurnuxma halları qeyri-sabitliyə gətirib çıxaracaq və dövlət məhv olacaq. Buna görə həlimlik kimi müəyyən olunan «məziyyəti», təcrübədən keçirmək vacibdir, ancaq güclü ordu və ədalətli müharibəyə hazırlaşmaq haqda da unutmaq olmaz. Bəzi şərhçilər, məsələn, minli Lyu İn, yalan və hiyləyə əl atmağın mümkünlüyünü göstərir– bu yolla həlimliyi gizlədib sərtlik göstərmək olar və ya əksinə. Ancaq «Üç strategiya»da bu mövzu inkişaf etdirilmir və əsərin Xuan-lao məktəbinin üzvü (strateq-eklektik yox) tərəfindən yazıldığına müvafiq passajları danılmaz sübut kimi sitat gətirən tədqiqatçılar, görünür, arzu olunanı həqiqət kimi qələmə verirlər. Daos düşüncəsi, lap qədimlərə, lap Sun-tszının özünə qədər gedib çıxan hərbi fikirlərlə köhnə əlaqələrə malikdir. Elə buna görə də mətndə «daos fraqmentlərinin» olması özlüyündə inandırıcı sübut ola bilməz.

I
ALİ STRATEGİYA

Baş komandanın metodu cəsurların ürəklərinin ələ alınmasından, mükafatlandırmadan, fərqlənənlərə əmək haqqının verilməsindən, həmçinin qoşunların könüllü ruhlanmasından ibarətdir. Buna görə, əgər o da qoşunlardakı üstünlüyə malikdirsə, onun nail ola bilməyəçəyi heç nə yoxdur. Əgər qoşundakı nifrət onda da varsa, o zaman onun devirə bilməyəcəyi heç kim yoxdur. Dövləti idarəetmə və ailənin təhlükəsizliyinin təmin edilməsi– bu, adamların əldə edilməsi məsələsidir. Dövlətin itirilməsi və ailənin məhv edilməsi– bu, adamların itirilməsi məsələsidir. Bütün adamlar arzularının həyata keçməsini istəyirlər.

«Hərbi nitqlər»də deyilir: «Həlim adam sərt adamı, zəif güclünü idarə edə bilər». Həlim– yaxşı adamdır. Sərt– quldurdur. Zəif– adamların kömək edəcəkləridi. Güclü– özlərindən çıxanlardı. Həlimin formalaşma halları var; sərtin tətbiq etmə halları; zəifin istifadə olunma halları var; güclünün artmaq halları var. Bu dörd şeyi uyğunlaşdır və müvafiq qaydada onlarla idarə et.

Nə qədər ki, nə əvvəl, nə son məlumdur, heç kim onları dərk etmək iqtidarında deyil. Səma və Yer. Dəyişikliklər və sərkərdənin hərəkətləri eyni olmalı deyil. O düşmənə müvafiq olaraq dəyişməli və başqalaşmalıdır. O, işləri qabaqcadan duymur, düşmən hərəkətə gəldikdə, o, yubanmadan onun dalınca gedir. Buna görə o, idarəetmənin bitib-tükənməyən strategiya və metodlarını tərtib edə və Səmanın qorxuducu qüvvəsini müvəffəqiyyətlə tamamlaya bilər. Səkkiz istiqamətə dinclik və intizam gətirə, Doqquz barbarı toplayıb ram edə bilər. Bu cür strateq– imperator, yaxud əsl hökmdar üçün müəllimdir.

Buna görə, mən təsdiq edirəm ki, hər kəs güclü olmaq arzusundadır, ancaq çox az adam dərkedilməzi qoruyub saxlamaq iqtidarındadır. Əgər kimsə dərkedilməzi qoruyub saxlaya bilsə, o, öz həyatını qoruya bilər. Kamil müdrik dərkedilməzi qoruyub saxlayır ki, işlərin azacıq belə dəyişməsinə öz münasibətini bildirsin. Əgər onu azad etsə, o dörd dəniz hüdudlarında yayılacaq. Əgər onu bir yerə yığsa, o heç bir camı belə doldurmaz. O, dərkedilməzin içində yaşayır, ancaq evi yoxdur. o, onu qoruyur, ancaq şəhər divarları olmadan. O, onu sinəsində gizlədir və düşmən dövlətlər tabe olurlar.

«Hərbi nitqlər»də deyilir: «Əgər kimsə həlim və sərt ola bilirsə, onun dövləti günü-gündən çiçəklənəcək! Əgər kimsə zəif və güclü ola bilirsə, onun dövləti get-gedə daha əhəmiyyətli olacaq! Əgər yalnız həlim və yalnız zəif olsa, onun dövləti mütləq tənəzzül edəcək! Əgər yalnız sərt və yalnız güclü olsa, onun dövləti mütləq məhv ediləcək!»

Dövləti idarəetmənin daosu layiqli olanlara və xalqa arxalanmaqdır. Əgər layiqli olanlara öz mədən və ürəyin kimi etibar

etsən və adamları dörd ətrafın kimi istifadə etsən, bütün niyyətlər sona çatacaq. Əgər sənin hərəkətlərin, sümüklərin oynaqları bir-birinə uyğun gəldiyi kimi bir-birini davam etdirirsə, onda bu– Səma Daosudur, təbiidir. Bu sənətdə boş yer yoxdur.

Ordu və dövlətin mahiyyəti adamların ağlının öyrənilməsi və idarə etmənin yüz vəzifəsinin yerinə yetirilməsindədir.

Sülhü təhlükədə olanlara ver. Xoşbəxtliyi qorxu içərisində olanlara ver. Üsyan qaldıranları qaytar. Dərdi olanlara qarşı mərhəmətli ol. Bağışlanmasını diləyənlərin ərizələrinə bax. Aşağı olanları yüksəlt. Güclüləri özünə tabe et. Düşməni məhv et. Acgözləri zənginləşdir. Şöhrətpərəstlərdən istifadə et. Qorxaqları gizlət. Strateqləri cəlb et. Xəbərçiləri araşdır. Pozucuları məzəmmət elə. İtaət etməyənləri məhv elə. Qızğın təbiətli olanların qarşısını al. Dikbaşları alçalt. İtaət göstərənləri dəvət et. Tabe olanlara həyat ver. Təslim olanları azad et.

Əgər strateji mövqeni müdafiə edirsənsə, onu qoru. Əgər təhlükəli dərə ələ keçirirsənsə, onu bağla. Əgər çətin ərazini ələ keçirmisənsə, onu əldə saxlamaq üçün düşərgə sal. Əgər şəhəri mühafizə edirsənsə, sərkərdəyə udel vermək üçün onu ayır. Əgər torpağı işğal edirsənsə, onu komandirlərə mükafat vermək üçün bölüşdür. Əgər var-dövlət ələ keçirmisənsə, onu öz qoşununun arasında payla.

Düşmən hərəkət edəndə, ona göz qoy; düşmən yaxınlaşanda, hazırlaş. Əgər düşmən güclüdürsə, onu özünə güvənən etmək üçün, ona ehtiram göstər. Əgər düşmən yaxşı dincəlibsə, onu rahat burax. Əgər düşmən təhqir edirsə, onun tsisi tənəzzül edənə qədər gözlə. Əgər düşmən tez özündən çıxandısa, onu sakitləşdir. Əgər düşmən qiyam qaldırıbsa, ona qarşı ədalətli ol. Əgər düşmən səmimidirsə, pozğun hökmdarı tərk etməsi üçün onu idarə et.

Hərəkətə başlamaq və düşməni əzmək üçün, onunla əlaqə yarat. Onu məhv etmək üçün, strateji qüvvəyə arxalan. Yalan sözlər yay və düşməni səhv etməyə məcbur elə. Onu tutmaq üçün tor qur.

Nəyə isə nail olanda, onu özün üçün tutub saxlama. Əgər torpağı ələ keçirirsənsə, daimi müdafiə qurma. Əgər şəhəri işğal edirsənsə, orada uzun müddət qalma. Əgər təzə hökmdarı yüksəldirsənsə, dövlət altarlarını götürmə. Buna görə, hərəkət edərkən bundan mənfəət götürən komandirlər olur. Əsil mənfəətin nədə olduğunu necə bilmək olar? Onlar udel knyazları, sən özün isə imperator olursan. Elə et ki, şəhərlər özlərini qorumağa hazırlaşsınlar, komandirlər isə öz yerlərində olsunlar.

Əsrlər boyu hökmdarlar mərasimlər vasitəsilə əcdadlarına ehtiram göstəriblər, ancaq adamlarla onların layiq olduğu kimi əlaqə saxlamaq çoxlarına nəsib olmayıb. Öz əcdadlarına hörmət edənlər, lazımi ailə əlaqələrini qoruyub saxlayırlar, adamlarla lazım olan qaydada ünsiyyət yaradanlar isə, hökmdar olurlar. Adamlarla lazımi qaydada əlaqə saxlamaq, kənd təsərrüfatına və ipəkçiliyə diqqət

ayırmaq və çöl işləri vaxtı adamları narahat etməməkdir. Bu minimal vergi və biyarların müəyyən edilməsi və onların əmlakının dağıdılmamasıdır. Əgər cüzi əmək vergiləri müəyyən etsən, əgər adamları çox yormasan, o zaman dövlət çiçəklənəcək, ailələr isə razı qalacaq. Yalnız bundan sonra onları idarə etmək və onlara nəzarət etmək üçün məmurları seçmək olar.

«Komandir» adlandırılanlar– xarakter və şücaət adamlarıdır. Buna görə deyilib: «Xarakterli və igid adamları cəlb et, və düşmən dövləti viran olacaq». Bu igid adamlar dövlətin gövdəsidirlər.

Sadə xalq– dövlətin köklərıdir. Əgər gövdə var və köklər möhkəmdirsə, idarə etmənin işləri narazıçılıq doğurmadan axıra çatdırılacaq.

Ordudan istifadə edilməsinin məğzi əxlaq normalarına (li) hörmətdən və mükafatların səxavətli olmasından ibarətdir. Əxlaq normalarına əməl edirlərsə, müdrik məmurları cəlb etmək olar. Mükafatlar səxavətli olduqda, vəzifəsini yerinə yetirmiş komandirlər, ölümə asanlıqla yanaşacaqlar. Buna görə, layiqliləri mükafatlandırarkən xəsislik etmirlərsə, bacarıqlıları təltif edərkən isə, ləngimirlərsə, onda tabeçilikdə olanların gücü birləşəcək, düşmənin qüvvələri isə azalacaq, çünki bacarıqlılar onu tərk edəcək.

Adamlardan istifadə olunması yolu, onlara rütbə verilməsi və çoxlu var-dövlət bağışlanmasıdır, çünki o zaman məmurlar öz arzuları ilə gələcəklər. Onları ləyaqətlə qarşıla, onları ədalətlə ruhlandır və o zaman onlar dövlət üçün həyatlarını verəcəklər.

Orduya başçılıq edənlər, öz həvəs və üstünlüklərini komandir və əsgərlərlə bölüşməli və təhlükə və hədələri onlarla birlikdə qarşılamalıdırlar, çünki o zaman düşmənə hücum etmək olar. O zaman ordu tam qələbəyə nail ola, düşmən isə tamamilə məhv edilə bilər. Qədimlərdə, görkəmli sərkərdələr ordulara başçılıq edəndə, belə bir əhvalat olmuşdu. Sərkərdəyə bir çəllək şirin çaxır bağışlamışdılar. O, çaxırı çaya boşaltmış və komandirlər və əsgərlərlə birlikdə çayın suyundan içmişdi. Bir çəllək şərab çayın sularını şirinləşdirə bilməz, ancaq üç ordu komandirləri döyüşə və ölümə ruhlanmışdılar, çünki şərabın şirinliyi və dadı hamının qanına axmışdı[2].

«Hərbi nitqlər»də deyilir:

«Ordu üçün su quyuları tam qazılmayana qədər, sərkərdə susuzluğu yada salmır. Düşərgənin mühafizəsi qoyulmayıbsa, sərkərdə yorğunluqdan danışmır. Nə qədər ki, ordunun mətbəx sobaları yandırılmayıb, sərkərdə aclıqdan danışmır. Qışda o, xəzdən tikilmiş kürk geyinmir, yayda yelpicdən istifadə etmir, yağışda isə çətirin açmır». Bu sərkərdənin özünü aparmağının lazımi forması adlanır.

O, təhlükəsizlik anlarında onlarladır, o, təhlükə zamanı onlarla birdir. Buna görə, onun ordusunu qarışdırmaq olar, ancaq parçalamaq olmaz. Onlar istifadə edilə bilər, lakin yorula bilməzlər.

Öz iltifatı ilə sərkərdə onları bir yerə yığır, onun planları isə onları birləşdirir. Buna görə deyiblər ki, əgər daim yaxşılıq etsən, bir nəfərlə on min adamı tutmaq olar.

«Hərbi nitqlər»də deyilir:

«Sərkərdənin qorxuducu qüvvəsinin əsası– onun komanda və əmrləridir. Döyüşdə tam qələbənin əsası– hərbi idarəetmədir. Komandirlərin döyüşə asanlıqla yanaşmalarının səbəbi əmrlərdən istifadə edilməsidir». Buna görə, sərkərdə heç vaxt əmrləri ləğv etmir. Mükafat və cəzalar Səma və Torpaq kimi yəqin olmalıdır, çünki yalnız o zaman sərkərdə adamlardan istifadə edə bilər. Komandir və əsgərlər əmrlərə riayət etdikdə, ordu sərhədi keçə bilər.

Ordunu birləşdirib, onun strateji gücünü (şi) öz əlində saxlaya bilən sərkərdədir. İşğalları həyata keçirib, düşməni məhv edənlər qoşun adlanır. Buna görə, çaşqın sərkərdə ordunun qorunub saxlanması üçün istifadə oluna bilməz, qiyam etmiş qoşundan isə düşmən üzərinə hücum etmək üçün istifadə edilə bilməz. Əgər belə sərkərdə şəhərə hücum edirsə onu almaq mümkün deyil, əgər belə ordu şəhəri mühasirəyə alırsa, şəhər süqut etmir. Əgər hər ikisi uğursuzdursa, o zaman komandirlərin gücü zəifləyəcək. Güc zəifləyibsə, sərkərdə tək qalacaq, qoşunlar isə üsyan qaldıracaq. Əgər onlar müdafiə mövqeyi tutmağa çalışsalar, onlar təhlükəsizlikdə olmayacaqlar. Əgər onlar döyüşə girsələr, dönüb qaçacaqlar. Onlara «köhnə ordu» deyilir.

Qoşunlar «köhnə» olanda, sərkərdənin qorxuducu qüvvəsi olmur. Sərkərdənin qorxuducu qüvvəsi olmayanda, komandir və qoşunlar cəzalardan qorxmurlar, və ordu «beşlikləri» itirir. Ordu «beşliklər»i itirdikdə, komandir və əsgərlər öz mövqelərindən qaçırlar. Onlar qaçanda, düşmən mürgüləmir. Düşmən mürgüləməyəndə, ordu mütləq məhv olur.

«Hərbi nitqlər»də deyilir: «Nümunəvi sərkərdə orduya başçılıq edərkən adamları özünə qarşı münasibət tələb etdiyi kimi idarə edir».

O, öz məharətini yayır və yaxşılıqlarını artırır və onun komandirlərinin gücü gündən-günə təzələnir. Döyüş zamanı onlar güclənmiş küləyə bənzəyirlər; onların hücumu qarşısı alınmış çayın azad olunması kimidir». Buna görə də, bizim ordunu görmək olar, ancaq ona müqavimət göstərmək olmaz, ona tabe olmaq olar, ancaq onu fəth etmək olmaz. Əgər şəxsən özün qoşunlarını aparsan, onlar Çində ən cəsurları olacaqlar.

«Hərbi nitqlər»də belə qeyd olunur: «Layiqlilər hara getsələr, onların qarşısında düşmən yoxdur». Buna görə, komandirlərə təkəbbürlə baxmaq olmaz, onlara ehtiramla yanaşmaq lazımdır. Sərkərdə razı ola bilər, ancaq təşvişə düşə bilməz. Düşüncələr müxtəlif ola bilər, ancaq şübhə doğura bilməz. Komandirlər lovğadırsa, onların tabeçiliyində olanlar itaət göstərməyəcəklər. Sərkərdə narahatdırsa, onun tabeçiliyində olanlar və qoşunlar bir-

birinə etibar etməyəcəklər. Fikirlər şübhə doğurduqda, düşmən özündən inamlı olacaq. Əgər belə şəraitdə hücum etmək istəsən, qarışıqlıq yaranacaq.

Sərkərdə– dövlətin taleyidir. Əgər o, ordunu idarə edib, qələbə qazana bilirsə, dövlət təhlükəsizlikdə və dinclikdə olacaq.

«Hərbi nitqlər»də deyilir: «Sərkərdə təmiz olmağa; sakit olmağa; rahat olmağa; idarə olunan olmağa; tənqidi qəbul etməyə; mübahisə vaxtı hakimlik etməyə; adamları cəlb edib, onlardan istifadə etməyə; məsləhəti seçib, qəbul etməyə; dövlətin adət-ənənələrini bilməyə; xəritəyə dağları və çayları yerləşdirməyə; dərələri və çətinlikləri müəyyən etməyə; hərbi hakimiyyəti idarə etməyə qadirdir».

Buna görə deyilib ki, humanist və layiqlilərin müdrikliyi, kamil müdriklərin və elmlilərin fikir və hesablamaları, meşədə çırpı daşıyanların sözləri, saraydakı mübahisələr, qalxma və tənəzzül işləri– bütün bunlar sərkərdənin bilməsi vacib olan məsələlərdir. Əgər sərkərdə komandirləri haqqında özünün yanğısı kimi fikirləşə bilirsə, onun planlarına əməl edəcəklər.

Əgər o, məsləhətlərə laqeyd yanaşırsa, cəsurları onu tərk edəcəklər. Əgər planlarına məhəl qoymurlarsa, strateqlər üsyan qaldıracaqlar. Əgər xeyir və şərə eyni yanaşırlarsa, cəsur komandirlərin səbri tükənəcək. Əgər sərkərdə bir tək özünə arxalanırsa, onun tabeçiliyində olanlar məsuliyyətdən yayınacaqlar.

Əgər sərkərdə lovğalanırsa, onun köməkçilərinin nailiyyəti az olacaq. Əgər o, iftiraya inanırsa, adamların ürəklərini itirəcək. Əgər o, acgözdürsə, satqınlığın həddi olmayacaq. Əgər o, qadınlara aludədirsə, qoşunlar və komandirlər pozğun olacaqlar. Əgər sərkərdə bu səhvlərdən birinə yol verirsə, qoşunlar itaət etməyəcəklər. Əgər bu səhvlərdən ikisini edərsə, orduda qarışıqlıq olacaq; üç səhv edərsə, tabeçiliyində olanlar onu tərk edəcəklər; dörd səhvə yol verərsə, bədbəxtlik bütün dövləti əhatə edəcək!

«Hərbi nitqlər»də deyilir: «Sərkərdənin düşüncələri mütləq məxfi olmalıdır. Komandirlər və qoşunlar üçün birlik vacibdir. Düşmənə hücum etmək üçün cəldlik vacibdir». Sərkərdənin fikirləri məxfi olduqda, satqınlıq cəhdləri aradan qalxır. Komandirlər və qoşunlar birləşibsə, onda ordunun bir ürəyi var. Düşmən üzərinə hücum qəfil olarsa, o hazırlaşmağa vaxt tapmayacaq. Bu üç şey orduda varsa, onun planlarını pozmaq mümkün deyil.

Əgər komandanlığın planları məlum olursa, ordu strateji qüvvəsini («şi»ni) göstərə bilmir. Əgər xarici casuslar daxili işlərə göz olursa, ordunun başına gələcək bədbəxtliyin qarşısını almaq mümkün olmayacaq. Əgər düşərgəyə var-dövlət girirsə, canilər bura toplaşır. Əgər bu üç şey sərkərdədə varsa, ordu mütləq darmadağın ediləcək.

Əgər sərkərdə öz hərəkətlərini ətraflı götür-qoy etməzsə, strateqlər onu tərk edəcəklər. Əgər sərkərdə igid deyilsə,

komandirlər və qoşunlar qorxu içində olacaqlar. Əgər sərkərdə ordunu başısoyuq idarə edirsə, onun qorxuducu qüvvəsi olmayacaq. Əgər o, hirsini günahsızlara tökürsə, bütün ordu qorxuya düşəcək. «Hərbi nitqlər»də deyildiyi kimi: «Ətraflı düşünmə və igidlik – sərkərdənin qiymət verdiyidir; hərəkət və qəzəb – sərkərdənin istifadə etdiyidir».

Bu dördü – sərkərdə üçün aydın qaydalardır.«Hərbi nitqlər»də deyilir:

«Əgər ordunun kifayət qədər ehtiyatı yoxdursa, komandirlər gəlməyəcək. Əgər orduda səxavətli mükafatlandırmalar yoxdursa, komandirlər lazımi səviyyədə ruhlanaraq döyüşə getməyəcəklər».

«Hərbi nitqlər»də deyilir: «Dadlı yemin ardında mütləq tutulmuş balıq olacaq. Qiymətli mükafatların ardında mütləq cəsur komandirlər olacaq». Buna görə, əxlaq normaları komandirlərin üz çevirəcəyi, mükafatlar isə – onların uğrunda öləcəyi şeydir. Əgər onları cəlb edənləri təklif etsən və uğrunda öləcəklərini onlara göstərsən, o zaman sənin axtardıqların gələcək. Lakin əgər onlarla hörmətlə davranıb, sonra buna peşiman olursansa, onlar sənlə qalmayacaqlar. Əgər onları mükafatlandırıb sonra buna təəssüf edirsənsə, o zaman komandirlər sənin komandalarına tabe olmayacaqlar. Əgər durmadan ləyaqət və mükafatlardan istifadə edirsənsə, komandirlər ölmək hüququ uğrunda bir-birilə yarışacaqlar.

«Hərbi nitqlər»də deyilir: «Ordu toplamağa hazırlaşan dövlət, birinci növbədə iltifatını bol edir. Başqa dövlətə hücum edib, ələ keçirmək istəyən dövlət, birinci növbədə xalqın qeydinə qalır». Azların köməyi ilə çoxları özünə tabe etmək– iltifat məsələsidir. Zəiflərin köməyi ilə güclüləri fəth etmək– adamların məsələsidir. Buna görə yaxşı sərkərdə, komandirlərinin qeydinə qalaraq, onlara başqa cür yanaşır, nəinki özünə. O zaman o, üç ordunu bir ağılla olduğu kimi istiqamətləndirə bilər və bu zaman qələbə tam olacaq.

«Hərbi nitqlər»də deyilir:

«Müharibə aparmağın açarı– əvvəlcə düşmənin vəziyyətini öyrənmək, onun ambar və arsenallarına baxmaq, ərzaq ehtiyatını qiymətləndirmək, gücünü və zəif cəhətlərini müəyyən etmək, onun təbii üstünlüklərini axtarıb tapmaq, onun boş və çat yerlərini görməkdir». Buna görə, əgər dövlətin yürüşdə olan ordusu yoxdursa, o isə taxıl daşıyırsa, deməli, o boşluqdan əziyyət çəkir. Əgər adamlar təhlükəli risqə gedirsə, deməli onlar kasıbdılar.

Əgər onlar azuqəni min li məsafəyə daşıyırlarsa, komandirlərin ac görkəmi olacaq. Əgər onlar yemək yeməzdən əvvəl odun və ot yığmalıdırsa, deməli bir gecəni keçirmək üçün ordunun yeməyi çatışmır. Buna görə, əgər kimsə ərzağı min li məsafəyə aparırsa, deməli bir il məhsulu olmayıb; iki min li məsafəyə daşıyırsa, onun iki il məhsulu olmayıb; üç min liyə daşıyırsa– onun üç il məhsulu olmayıb. Bu, «boş dövlət» adlanır. Dövlət boş olduqda, xalq

müflis olur. Xalq müflis olduqda, əhali və məmurlar uzaqlaşırlar. Düşmən xaricdən hücum edəndə, adamlar daxildə oğurluq edirlər. Bu «müvəffəqiyyətsizlik zamanı» adlanır.

«Hərbi nitqlər»də deyilir: «Hökmdarın hərəkətləri son dərəcə sərt olduqda, onun tabeçiliyində olanlar sərt tədbirlər görməyə tələsəcəklər. Vergilər ağır, biyarların sayı çox, cərimə və cəzalar sonsuz olduqda, adamlar bir-birinə ziyan vurub, oğurluq etdikdə, buna «məhv olmuş» dövlət deyirlər».

«Hərbi nitqlər»də deyilir: «Acgözlər gizlicə zahiri namusluluq göstərəndə; qeyri-səmimilər və özünü tərifləyənlər şöhrət qazananda; məmurlar, vəzifədə olanları təşvişə salaraq, ələ almaq və dadandırmaq üçün dövlətdən oğurluq edəndə; adamlar isə yüksək vəzifə almaq üçün özlərini bəzəyərək, yaltaq sifət alanda, bu «oğurluğun başlanğıcı» adlanır».

«Hərbi nitqlər»də deyilir: «Dövlət məmurları qruplar və dəstələr yaradıb, hər kəs öz tanışını irəli sürəndə; dövlət humanist və ləqayətliləri təqib edib, pis və əxlaqsızları çağırıb vəzifə verəndə; məmurlar arxalarını dövlətə çevirib, yalnız özlərinə can yandırırlarsa, eyni zümrədən olan adamları isə parçalayıblarsa, bu «qarışıqlıq mənbəyi» adlanır».

«Hərbi nitqlər»də deyilir: «Güclü nəsillər pisləri toplayanda, xidmətləri olmayan adamlara ehtiram göstəriləndə və onların böyüklüyündən hamı qorxanda; bu praktika yayılıb, yaxşılıqlarda ifadə olunan yalançı comərdliklə qarışanda, və onlar hakimiyyəti vəzifədə olanların əlindən alanda; onlar özlərindən aşağıdakılara ziyan vuranda, dövlətdə isə qalmaqal və iftira baş alıb gedir, nazirlər isə bir-birinin eyiblərini ört-basdır edir və susurlarsa, bu «kökdə qarışıqlığın törəməsi» adlanır».

«Hərbi nitqlər»də deyilir: «Nəsildən nəslə onlar yerli idarələri hissə-hissə oğurlayaraq, satqınlıq edir. İrəli sürülmə və işdən yayınmalarda onlar yalnız öz rahatlıqlarını axtarır, sənədləri saxtalaşdırır və təhrif edir, bununla da hökmdar üçün təhlükə yaradırlar. Belələri «dövlət satqınları» adlanır.

«Hərbi niqlər»də deyilir: «Məmurların sayı çox, əhali az olanda; hörmət edilənlərlə aşağıda olanlar arasında fərq yoxdursa; güclülər və zəiflər bir-birinə ziyan vurursa; heç kim qadağalara məhəl qoymur və qanunlara riayət etmirsə, o zaman bütün bunların nəticələri hökmdara da toxunur və dövləti bədbəxtlik tapır».

«Hərbi nitqlər»də deyilir: «Hökmdar yaxşılara yaxşı kimi yanaşır, ancaq onları irəli çəkmirsə; nə vaxt ki, o, pislərə nifrət edir, ancaq onları vəzifədən götürmürsə; layiqlilər işlərdən uzaqlaşıb gizlənirsə, ləyaqətsizlər isə vəzifədədirlərsə, dövlətə ziyan dəyəcək».

«Hərbi nitqlər»də deyilir: «Budaqlar (hökmdarın qohumları) və yarpaqlar (tanınmış soyadlar) güclü və çoxsaylıdırsa, elə dəstələr yaradıb, böyük vəzifələri tuturlar ki, aşağıdakılar və ortalar hörmətli

adamlara ziyan vururlar; onlar vaxt keçdikcə daha nüfuzlu olurlarsa, hökmdar isə onları vəzifədən çıxara bilmirsə, dövlət bundan məğlub olacaq».

«Hərbi nitqlər»də deyilir: «Yalançı nazirlər böyük vəzifələr tutursa, bütün ordu səs-küylü və dalaşqan olacaq. Öz nüfuzlarına arxalanaraq, onlar sevimlilərini şirinləşdirir və elə hərəkət edirlər ki, bu qoşunu hiddətləndirir. İrəli çəkmə və vəzifədən çıxarmaqda heç bir əsas yoxdur, pisləri uzaqlaşdırmırlar, adamlar isə bütün mümkün vasitələrlə öz xeyirlərini güdürlər. Onlar kiminsə təyin olunması hüququnu mənimsəyir, işdə irəli çəkilməsi və çıxarılmada öz xidmətləri ilə lovğalanırlar. Onlar böyük yaxşılıqlar etmişləri böhtanlayıb, ləkələyir və ləyaqətliləri nahaqdan ittiham edirlər. Onlar yaxşılarla da, pislərlə də eyni cür davranırlar. Onlar idarə etmə işlərini öz əllərinə alır və ləngidirlər, belə ki, əmrlər yerinə yetirilmir. Onlar əcdadların yolunu dəyişərək kobud məmurlar təyin edir və artıq formalaşmış ənənəni pozurlar. Hökmdar belə əxlaqsız adamları istifadə etdikdə, mütləq bədbəxtliklər və fəlakətlərlə üzləşəcək».

«Hərbi nitqlər»də deyilir: «Qəddar, ancaq mərd adamlar bir-birlərini tərifləyəndə, onlar hökmdarın müdrikliyini qarışdırırlar. Tənqid və tərif eyni vaxtda meydana çıxanda, hökmdarın müdrikliyini dayandırır. Hər kəs öz xeyirxahını tərifləyəndə, hökmdar ona sədaqətli olanları itirir».

Buna görə, əgər hökmdar qeyri-adi sözləri araşdırırsa, onların əvvəlini tapacaq. Əgər o, alimləri və ləyaqətliləri qarşılayırsa, qəddar, ancaq mərd olanlar çıxıb gedəcəklər. Əgər hökmdar yaxşı adamları, təcrübəli və bacarıqlıları təyin edirsə, saysız-hesabsız işi yaxşı idarə etmək olar. Əgər o, zahid və işlərdən uzaqlaşmış alimlərə hörmət edirsə, məmurlar öz vəzifələrini yerinə yetirəcəklər. Əgər onun fikirləri çırpı daşıyanlara qədər yayılsa, uğurlar əvvəlcədən bilinəcək. Əgər o, adamların ürəklərini itirmirsə, onun xoşbəxtliyi artacaq.

II
ORTA STRATEGİYA

Üç Dahi əcdad heç vaxt danışmayıblar, ancaq onların islahatları dörd dəniz hüdudlarında yayılıb. Çində elə bir adam yox idi ki, nailiyyətləri ona aid edəsən.

İmperatorlar Səmanı qavrayır və Torpağı nümunə kimi götürürdülər. Onlar danışır və əmrlər verirdilər və Çində Böyük əmin-amanlıq hökm sürürdü. Buna nail olmaq üçün hökmdar və nazirlər bir-birinə güzəştə gedirdilər və dörd dəniz hüdudlarında hər şey kökündən dəyişilirdi, və sadə xalq dəyişikliklərin necə baş verdiyini bilmirdi. Buna görə, tabeçilikdə olanlardan istifadə edərkən, onlar əxlaq normaları və mükafatlara güvənmirdilər. Təkcə nailiyyətlərin gözəlliyi və ziyanın yoxluğu vardı.

Hökmdarlar adamların ürəklərini yolayovuq, iradələrini isə itaətkar edərək, onları Daonun köməyilə idarə edirdilər. Eyni zamanda, tənəzzüldən qacmaq üçün məhdudiyyətlər qoyur və hazırlıqlar görürdülər. Dörd dəniz hüdudlarındakı bütün knyazlar saraya toplaşır və idarə etmə borcuna etinasız yanaşmırdılar.

Onlar müharibə hazırlıqları görürdülərsə də, heç vaxt müharibənin bədbəxtliklərini görməmişdilər. Hökmdarlar tabeçiliklərində olanlardan şübhələnmirdilər, onlar da öz hökmdarlarına inanırdılar. Dövlət qurulmuşdu, hökmdar təhlükəsizlikdə idi, məmurlar öz borclarını yerinə yetirib, vəzifədən gedə bilərdi, buna görə onlar da gözəlliyə malik idilər və ziyana düşmürdülər.

Hegemonlar hakimiyyət məziyyətlərinin köməyi ilə– etibar etməklə onların əl-qolunu bağlayaraq, onları mükafatlarla ruhlandıraraq– öz məmurlarını idarə edirdilər. Etibar tənəzzülə uğrayanda, məmurlar uzaqlaşdılar, bəxşişlər tənasübsüz olduqda isə onlar əmrlərə tabe olmaqdan əl çəkdilər.

«Ordunun strateji gücü»[3]ndə deyilir: «Ordu bir yerə toplanaraq yola çıxdığı zaman, fərdi hakimiyyət sərkərdənin üzərinə düşür. Əgər hücum və ya geri çəkilmə vaxtı saray bu işə qarışarsa, uğur əldə etmək çətin olacaq».

«Ordunun strateji gücü»ndə deyilir: «Müdriklərdən, igidlərdən, acgözlərdən və axmaqlardan istifadə et. Müdriklər uğurlar əldə etdikdə zövq alırlar. İgidlər öz iradələrin həyata keçirməyi xoşlayırlar. Acgözlrər yorulmadan mənfəət güdürlər. Axmaqların ölümdən qorxusu azdır. Onların hisslərini oynatmaqla onlardan istifadə et, çünki müharibədə gücün ağlasığmaz təzahürü budur!»

«Ordunun strateji gücü»ndə deyilir: «İnadkar komandirlərə düşmənin hərəkətlərini müzakirə etməyə icazə vermə, çünki onlar qoşunu çaşdıra bilərlər. Humanist adamlara maliyyə işlərini idarə etməyə izn vermə, çünki onlar həddən artıq pulu paylayacaq və aşağıdakılara bağlı olacaqlar».

«Ordunun strateji gücü»ndə deyilir: «Cadugər və şamanlara məmur və komandirlərin adından ordu üçün xoşbəxtlik və ya bədbəxtliyə fal açmağı qadağan elə».

«Ordunun strateji gücü»ndə deyilir: «Tək var-dövlətə arxalanaraq, ədalət hissi güclü olan komandirlərdən istifadə etmə. Çünki ədalət dolu hisslər qəzəblilər uğrunda ölməyəcəklər. Müdriklər, axmaq hökmdarın adından strategiya tərtib etməyəcəklər». Hökmdar səxavətli olmalıdır, yoxsa nazirlər üsyan edərlər. O, qorxuducu qüvvədən məhrum olmamalıdır, çünki əgər qorxuducu qüvvədən məhrumdursa, hakimiyyəti itirəcək. Nazir məziyyətlərdən məhrum edilə bilməz, əks təqdirdə o, hökmdarına xidmət edə bilməz. O, qorxuducu qüvvəsini itirməməlidir, yoxsa dövlət zəifləyər. Əgər o, həddən artıq zəhmlidirsə, onu devirəcəklər.

Buna görə, kamil müdrik hökmdarlar Çini (Səmaaltını) idarə edərkən, çiçəklənmə və tənəzzülə nəzarət edirdilər, insan tələbatı və

itkilərinin dərəcəsini təyin edirdilər, idarə etmə formalarını yaradırdılar. Buna görə udel knyazlarının iki, yerli hökmdarların üç, Səma Oğlunun isə altı ordusu vardı. Çin (Səmaaltı) dövləti təşviş içində olanda, üsyan və özbaşnalıqlar başlanır. Hökmdarın lazımi təsiri itəndə, udel knyazları ittifaq yaradaraq and içirlər və bir-birlərinə hücum edirlər.

Əgər dövlətin məziyyət və strateji gücü düşməndəki kimidirsə, belə ki, heç biri o birindən üstün ola bilmir, bu halda cəsurları cəlb etmək, sadə xalqla meyl və ədavəti bölüşmək və yalnız bundan sonra qüvvələrin tarazlığındakı dəyişikliyə uyğun olaraq düşmən üzərinə hücum etmək lazımdır. Buna görə, hiylə işlətmədən şübhələri aradan qaldırmaq və tərəddüdlərə son qoymaq mümkün deyil. Şayiələr yaymadan və hiyləgərlik etmədən ziyanvericiləri məhv etmək və hücum edənlərin qarşısını almaq mümkün deyil. Məxfi planlarsız uğur əldə etmək mümkün deyil.

* * *

Kamil müdrik Səmanı dərk edir, layiqli Torpağı nümunə götürür, müdrik isə müəllimləri qədimlərdə axtarıb tapır. Buna görə, «Üç strategiya» tənəzzül dövrü üçün yazılıb. «Ali strategiya» əxlaq normalarını və mükafatları müəyyənləşdirir, şər törədənlər və qəhrəmanlar arasında müqayisə aparır, qələbə və məğlubiyyəti aydınlaşdırır. «Orta strategiya» məziyyət və davranışı ayırd edir və qüvvələr tarazlığındakı dəyişikliyi müəyyən edir. «Aşağı strategiya» Dao və məziyyəti nizama salır, təhlükəsizlik və hədəni öyrənir, layiqlilərə ziyan vurulmasından doğan bədbəxtlikləri aşkarlayır.

Buna görə, əgər hökmdar «Ali strategiyanı» dərindən başa düşürsə, o, layiqlilərdən istifadə edə və düşməni istila edə bilər. Əgər o, «Orta strategiyanı» dərindən dərk edirsə, öz sərkərdələrindən istifadə edə və onları idarə edə, həmçinin adamları birləşdirə bilər. Əgər o, «Aşağı strategiya»nı dərindən başa düşürsə, o, çiçəklənmə və tənəzzülün mənbəyini öyrənə və dövləti idarə etmə qaydalarını anlaya bilər. Əgər onun tabeçiliyində olanlar «Orta strategiya»nı dərindən başa düşürlərsə, onlar xidmətə nail olar və özlərini qoruyub saxlaya bilərlər.

Səmada süzən quşlar hamısı öldürüləndə, yaxşı yayları gizlədirlər. Düşmən dövlətlər məhv edildikdə, hesablara cavabdeh olan nazirlər yoxa çıxırlar. «Yoxa çıxırlar» ölürlər demək deyil. Hökmdar onları qorxuducu qüvvə və hakimiyyətdən məhrum edir. O, onları saraya yaxınlaşdıraraq, alilərin arasında yerləşdirir ki, onların xidmətlərini göstərsin. Hökmdar ailələrini zənginləşdirmək üçün onları orta vilayətdəki ən yaxşı torpaqlarla mükafatlandırır, könlünü almaq üçün gözəl qadınlar və xəzinələr verir.

Əgər qoşunlar bir yerə toplanıbsa, onları tələsik bölüşdürmək olmaz. Əgər hakimiyyətin qorxuducu qüvvəsi bağışlanıbsa, onu qəflətən başqasına ötürmək olmaz. Qoşunların qayıtması və müharibədən sonra ordunun buraxılması– qoruyub saxlama və

itkinin vacib mərhələləridir. Buna görə, sərkərdənin təzə vəzifəyə təyin olunmaqla zəifləməsi, dövləti ona bağışlamaq yolu ilə onu hakimiyyətdən məhrum etmək «hegemonun strategiyası» adlanır. Buna görə, hegemonun hərəkətləri məziyyət və qüvvədən qarışıq istifadədən ibarətdir. Dövlət səcdəgahlarının qorunub saxlanması, xarakterli və mərd adamların yaxınlaşması– «Orta strategiya»nın strateji gücü buna ruhlandırır. Buna görə, belə qüvvəni həyata keçirmək üçün hökmdar son dərəcə sirr verməyən olmalıdır.

III
AŞAĞI STRATEGİYA

Çində təhlükədə olanları müdafiə etməyi bacaran, Çində sakitliyi idarə edə bilər. Çində yaşayanların bədbəxtliklərini kənarlaşdıra bilən kəs, onu idarə etmək sevincini yaşaya bilər. Çində bədbəxtliklərdən əzab çəkənlərə köməyə gələ bilən adam, onun çiçəklənməsinə nail ola bilər. Buna görə, hökmdarın görünməmiş mərhəməti adamlara şamil edildikdə, ləyaqətlilər itaətkarlıq göstərirlər. Onun görünməmiş mərhəməti ən axırıncı tırtıla qədər gedib çatanda, müdriklər onunla birləşəcəklər. Ləyaqətlilər itaətkarlıq göstərəndə, dövlət güclü olacaq. Müdriklər kimə tərəfdar olarsa, o, altı istiqaməti birləşdirər. Ləyaqətliləri yaxşılıqla axtarıb tapmaq, müdrikləri Daonun köməyilə cəlb etmək lazımdır. Ləyaqətlilər çıxıb gedəndə, dövlət zəifləyir; əgər müdriklər gedirlərsə, dövlət pozğunlaşır. Zəiflik– təhlükəyə qarşı yolda bir addımdır, əxlaqsızlıq– məhvolma əlamətidir.

Ləyaqətli adamın idarə etməsi adamları bədənlərini tabe etməyə məcbur edir. Kamil müdrik insanın idarə etməsi adamları öz ağıllarını tabe etməyə məcbur edir. Bədənlər tabe olanda başlanğıcı saxlamaq olar; ağıllar tabedirsə, sonu saxlamaq olar. Onların bədənləri əxlaq normaları ilə tabe olur; ağılları musiqi vasitəsilə tabe olur.

Mənim musiqi adlandırdığım, musiqi alətlərinin səsləri deyil, daşların, dəmir zənglərin, sim və qamış fleytaların səsidir. Daha doğrusu, mən sevinclərini öz ailələrində, qəbilələrində, məşğuliyyətlərində, paytaxtlarda və şəhərlərdə hökmdarın əmrlərində, Dao və yaxşılıqda sevinc tapan adamları nəzərdə tuturam. Adamları məhz belə idarə edən kəs, musiqini onların davranışlarına ahəng vermək, onların öz harmoniyasını itirməyəcəklərini bilmək üçün yaradır. Buna görə, yaxşı hökmdar musiqidən adamlara sevinc gətirmək üçün istifadə edir; əxlaqsız hökmdar musiqidən özü sevinmək üçün istifadə edir. Başqalarına sevinc gətirən adam, zamanın sınaqlarına dözür və çiçəklənir; tək özü zövq alan isə, dözə bilmir və məhv olur.

Uzaqdakının qəsdində olmaq üçün yaxındakını tərk edən adam, boş yerə qüvvəsini itirəcək. Uzaqdakını ataraq yaxındakına arxalanan adam, rahat olacaq və böyük uğur əldə edəcək. Dinclik içində olan hökmdarın çoxlu sədaqətli nazirləri var. Gücünü sərf

edən hökmdarın çoxlu hiddətlənmiş adamları var. Buna görə deyiblər: «Öz torpaqlarının genişləndirilməsi ilə məşğul olan adam qüvvəsini zəiflədəcək; yaxşılığını çoxaldan adam isə, qüvvətlənəcək». Kim ki, malik olduğunu əlində saxlaya bilir, təhlükəsiz olacaq; başqalarının malik olduğuna həris olan isə, məhv ediləcək. Məhv edilməyə yaxınlaşan idarə etmə, növbəti nəsilləri bədbəxtliyə düçar edəcək. Kim ki, ölçüb-biçmədən fərmanlar verirsə, bu fərmanlar uğurlu olsalar belə, o, mütləq məğlub olacaq. Özünə qarşı mərhəmətli olmaq və bununla yanaşı başqalarına nəsihət etmək, təbii qaydalara ziddir, özünü düzəltmək və başqalarının dəyişdirilməsi Daoya uyğundur. Ziddiyyət– iğtişaşa çağırmaqdır; uyğunluq– quruluşun məğzidir.

Dao, yaxşılıq, humanistlik, ədalət və əxlaq normaları– bu beş hamısı birdir. Dao– adamların riayət etdiyidi; yaxşılıq– adamların nail olduqlarıdır; humanistlik– adamların can atdıqlarıdır; ədalət– adamların doğru hesab etdikləridir; əxlaq normaları– adamların həyata keçirdikləridir. Onlardan heç olmazsa biri belə olmayanda düz deyil.

Buna görə sübh tezdən yuxudan qalxıb, gecə yatmaq– əxlaq normaları ilə qoyulmuş məhdudiyyətlərdir. Zalımların cəzalandırılması və qisas– ədalətin qərarıdır. Rəhmli ürək– humanistliyin ifadəsidir. İstədiyinə özün nail olmaq və buna başqaları üçün nail olmaq– yaxşılıq yoludur. Adamların bərabərliyinin həyata keçirilməsi və onların öz yerlərini qoruyub saxlamaları – bu Daonun təcəssümüdür.

Hökmdardan çıxaraq nazirə qədər gedib çatanlar «sərəncam» adlanır. Bambuk lövhəciklər də və ipək kağızlarda yazılanlar «əmrlər» adlanır. Başlanmış və həyata keçirilmiş şey, «idarə etmə» adlanır. Sərəncamlara tabe olmayanda, əmrlər yerinə yetirilmir. Əmrlər yerinə yetirilməyəndə idarə etmə həyata keçirilmir. İdarə etmə həyata keçirilməyəndə, Dao Çinə nüfuz etmir. Dao nüfuz etməyəndə, əxlaqsız nazirlər üstünlük təşkil edəcəklər. Belə olduqda isə, hökmdarın böyüklüyünə xətər toxunur.

Ləyaqətliləri min li məsafədən cəlb eləmək– yol uzundur; ləyaqətsizləri cəlb etmək– yol çox yaxındır. Buna görə, elmli hökmdar yaxındakıları qoyub, uzaqdakıları qəbul edir. Ona görə o, öz işlərini sona çatdıra bilər. O, ləyaqətli adamlara hörmət edir və tabeçiliyində olanlar bütün qüvvələrini verirlər.

Əgər bir yaxşı adamı vəzifəsindən kənar etsən, çoxlu yaxşı işlər tənəzzül edəcək. Əgər bir pis adamı mükafatlandırsan, çoxlu bədbəxtliklə üzləşəcəksən. Yaxşıları mükafatlandırıb pisləri cəzalandıranda, dövlət əmin-amanlıqda olacaq və çoxlu sayda mehriban adamlar gələcək.

Qoşunlar tərəddüd içində olanda, dövlət sakit ola bilməz. Qoşun aldadılanda, itaətkar xalq yoxdur. Şübhələr dağılıbsa, səhvlər isə aradan qaldırılıbsa, dövlət əmin-amanlıq içində ola bilər. Bir əmri pozurlarsa, onda yüz əmrə də tabe olmayacaqlar. Bir pis hərəkətə

yol verilərdə, yüz yamanlıq törəyir. Buna görə, əgər yolayovuq adamlar arasında yaxşılıq edirsən və itaətsiz adamlar arasında sərt tədbirlərə əl atırsansa, əmrlər hər hansı bir narazılıq olmadan yerinə yetiriləcək.

Narazı olanları idarə etmək üçün narazılardan istifadə etmək «Səmaya etiraz etmək» adlanır. İntiqamçıları idarə etmək üçün kinliləri istifadə etmək bərpa edilməz bədbəxtliyə gətirib çıxaracaq. Adamları dinc olmağa məcbur edərək idarə et. Əgər əmin-amanlıq təmizliklə əldə olunursa, adamlar öz yerlərində yaşayacaq, Çin isə asayişdə olacaq.

Əgər hökmdara qarşı duranlara hörmət edilirsə, acgöz və axmaqlar isə varlanırlarsa, onda hətta kamil müdrik hökmdar belə lazımi idarə etməni həyata keçirə bilməz. Əgər hökmdara qarşı çıxanlar cəzalandırılır, acgözlər və axmaqlar isə yaxalanırlarsa, o zaman idarə etmə həyata keçəcək, saysız-hesabsız pisliklər isə aradan qaldırılacaq.

Namuslu, təmiz məmurları rütbə və əmək haqqı ilə cəlb etmək mümkün deyil. Ciddi və ədalətli məmurları qorxuducu qüvvə yaxud cəzalandırma ilə məcbur etmək olmaz. Buna görə, elmli hökmdar ləyaqətli adamları axtaranda, bilməlidir ki, onları nə ilə cəlb etmək olar. Təmiz və namusluları cəlb etmək üçün o, əxlaq normalarının gözlənilməsində mükəmməlləşir. Ciddi və ədalətli adamları cəlb etmək üçün o, Daoda mükəmməlləşir. Yalnız o zaman belə adamları cəlb etmək olar və hökmdarın adı qorunub saxlanılar.

Kamil müdrik və təmiz adam çiçəklənmə və tənəzzülün mənbələrini dərk edir, uğur və məğlubiyyətin başlanğıcını başa düşür. O, idarə etmənin mahiyyətini və təlaş yaranmasının səbəbi barədə əsl biliklər əldə edib, gəlmək və getməyin həddini bilir. Belə adamlar, hətta yoxsulluq içində olsalar belə, məhv olan dövlətdə vəzifəyə getməzlər. Hətta aşağı olsalar belə, onlar narahat dövlətdə düyü yeməzlər. Onlar öz adlarını gizlədir və Daoya riayət edirlər. Vaxtı gələndə onlar irəli gedərək, insanın nail ola biləcəyi ən yüksək məqama nail olurlar. Onlar özlərinə uyğun olan məziyyətlərlə rastlaşanda, çox böyük müvəffəqiyyətlər əldə edirlər. Buna görə onların Daosu əzəmətlidir, onların adlarını isə gələcək nəsillər göylərə qaldıracaq.

Kamil müdrik hökmdar müharibə aparılmasından zövq almır. O, müharibəni əxlaqsızlar məhv etmək və itaət etməyənləri cəzalandırmaq üçün başlayır. Haqsızları cəzalandırmaq üçün ədalətli adamlardan istifadə edilməsi– məşəli söndürmək üçün Yantszı və Xuanxenin sularından istifadə edilməsi, uçurumun kənarında yellənən adama təkan vermək kimidir. Belə halda onların müvəffəqiyyət qazanacağı qaçılmazdır! Buna görə, hərəkət etmək vacib olduqda tərəddüd edən və sakit olan adam, hücum etməyərək, bütün canlı varlıqlara ziyan vurur. Silah– arzuolunmaz vasitədir, Səma Daosu ona nifrət edir. Lakin istifadəsi qaçılmaz olduqda, bu Səma Daosuna uyğun gəlir. Daodakı adamlar sudakı balıq kimidirlər,

Əgər onların suyu varsa, onlar yaşayacaqlar; yoxdursa– onlar məhv olacaqlar. Buna görə, hökmdar həmişə qorxu içində olmalıdır və Daoya laqeydlik göstərməməlidir.

Tanınmış və qüdrətli soyadlar məmurların vəzifələrini idarə etməyi öz əllərinə alanda, dövlətin qorxuducu qüvvəsi zəifləyir. Həyat və ölüm üzərindəki hakimiyyət məşhur və qüdrətli soyadların əlində olanda, dövlətin strateji gücü azalır. Əgər tanınmış və qüdrətli ailələr, itaətkarlıq əlaməti olaraq başlarını əyirlərsə, dövlət uzun müddət yaşaya bilər. Həyat və ölüm üzərində hakimiyyət hökmdarın əlində olduqda, dövlət əmin-amanlıqda ola bilər.

Əhalinin dörd təbəqəsində heç nə tədarük edilməyibsə, dövlətin heç bir ehtiyatı olmayacaq. Dörd təbəqədə hər şey boldursa, dövlət əmin-amanlıq və firavanlıq içində olacaq.

Ləyaqətli nazirlər idarə etməyə yaxın olduqda əxlaqsızlar ondan kənar olur. Əxlaqsız nazirlər idarə etməyə cəlb olunduqda, ləyaqətli nazirlər məhv olacaq. Daxildə və xaricdə uyğunluq itirildikdə, bədbəxtlik və iğtişaşlar nəsillər boyu davam edəcək.

Əgər baş nazirlər hökmdardan şübhələnirlərsə, çoxlu sayda şər işlər birləşəcək. Əgər nazirlər hökmdara göstərilməli olan hörməti mənimsəyirlərsə, yuxarılar və aşağılar təlaşa düşəcəklər. Əgər hökmdar nazir vəzifəsini tutursa, yuxarılar və aşağılar intizamı itirirlər.

Əgər bir kimsə ləyaqətlilərə ziyan vurursa, bədbəxtliklər üç nəsil davam edəcək. Əgər bir kimsə ləyaqətliləri gizlədirsə, o, özü ziyana düşəcək. Əgər bir kimsə ləyaqətlilərə həsəd aparırsa, onun adı çox ucalmayacaq. Əgər bir kimsə ləyaqətliləri irəli çəkirsə, xoşbəxtlik onun oğullarına və nəvələrinə də çatacaq.

Buna görə hökmdar ləyaqətliləri irələ çəkməli və bununla da öz adını məşhurlaşdırmalıdır. Əgər bir nəfərə xeyir verib, yüzünə ziyan vursan, adamlar şəhəri tərk edəcəklər. Əgər bir nəfərə xeyir verib, on min adama ziyan vursan, dövlətin əhalisi qaçıb getmək istəyəcək. Əgər bir nəfərdən xilas olsan və bununla yüz nəfərə xeyir versən, adamlar sənin köməyinə can atacaqlar. Əgər bir nəfərdən xilas olsan və bununla on min adama xeyir versən, idarə etmə qaydasında olacaq.

QEYDLƏR

1. Erkən Xan dövrü m.ö. 9-cu ildə, azyaşlı imperatorun yanında hökumət naibi təyin edilmiş imperator qohumu Van Man taxt-tacı qəsb edərək özünü Sin sülaləsinin birinci imperatoru elan edəndə başa çatdı.

2. Təsvir edilmiş epizod m.ö. 375-ci ilə yaxın baş vermişdi. U şahlığının hökmdarı Qou Tszyan belə etmişdi.

3. İtirilmiş, yaxud da, çox güman, ümumiyyətlə, heç vaxt mövcud olmayan mətn. Şərh edilmiş görüşlərə böyük nüfuz vermək üçün uydurulmuşdur.

TAN HÖKMDARI TAY-TSZUNUN SUALLARI VƏ LİVEY-QUNUN CAVABLARI

唐太宗李衛公問對

Tədqiqat 569
Tərcümə 578

I kitab 578
II kitab 593
III kitab 606

Qeydlər 617

TƏDQİQAT

Tsin sülaləsi sərt siyasi tədbirlərlə, təcavüzkar hərbi strategiyadan məharətlə istifadə edərək, m.ö. 221-ci ildə imperiyanı birləşdirdi. Lakin iki on illikdən də az bir vaxtdan sonra onun yerini cürətli Xan dövləti tutdu ki, onun idarə etməsi dörd əsrlik birlik və çiçəklənmə ilə əlamətdar oldu. Sonra Çin yenə də siyasi möhkəmliyini itirir və parçalanma dövrü Suy sülaləsinin çalışqan imperatoru Ven-di taxta çıxana, 581-ci ilə qədər davam edir. Onun Suy sülaləsinin tarixi rolu Tsin sülaləsinin roluna oxşayır, çünki o yalnız yenidən ölkəni coğrafi cəhətdən birləşdirmədi, həm də əhali üzərində sərt nəzarəti müəyyənləşdirən və yerli məmurları dövlət siyasətinin alətinə çevirən mərkəzi bürokratiya institutları yaratdı. Həm də ki, Ven-di şimal və cənubun mədəni inteqrasiyasına nail olmağa çalışırdı; o, qüdrətli və nüfuzlu soyadların hakimiyyətini dağıtdı və vergi sistemində islahatlar apardı. Onun hakimiyyəti vaxtı yaradılmış institutların çoxu, əzəmətli Tan şahlığının əsasını təşkil etdilər.

Təəssüf ki, artıq onun davamçısı, Suy hökmdarı Yan-di (604-618-ci illərdə hakimiyyətdə olur) çox tez mənfi xüsusiyyətlərini göstərdi. Bu xüsusiyyətlər, ənənəvi olaraq, sülalənin sonuncu hökmdarının arxetipini təşkil edir və Səma mandatının itirilməsi ilə assosiasiya edir. Onun israfçılığı, xüsusən də ictimai işlərdə, həqiqətən görülməmiş həddə idi. Milyonlarla adam Böyük divarın bərpası, təzə paytaxtın kanalları və tikililərinin tikintisi və genişləndirilməsi kimt «layihələr» üzərində işləmək üçün müxtəlif yerlərdən toplanmışdılar. Bundan başqa, 611-ci ildən 614-cü ilə qədər Suy hökmdarı Yan-di, Koreya üzərinə, nəticəsinə görə kədərli olan üç yürüş təşkil etdi. Onun məqsədi Koreya üzərində çin süzerenliyi qurmaq idi. Bunun üçün o, əsasən şimal-şərq rayonlarından əsgərlər toplayırdı. Bu cür dövlət siyasətinin nəticəsi yoxsulluq, narazılıq və çoxlu sayda adamların ölümü oldu. Nəticədə bütün ölkədə iki yüzdən artıq üsyan ocaqları alovlandı.

Mötəbər suy məmuru, Tan sülaləsinin banisi Li Yuan (ölümündən sonra məbəddəki adı Qao-Tszu), oğlu Li Şi-minin (Tan hökmdarı Tay-tszun) gələcəyi xəbər verməsi və fırıldaqlarının təsiri altında üsyançılara qoşuldu. Li Yuan təkcə ən güclü əyalət ordusuna komandanlıq etmirdi, o, həm də birbaşa həm imperator familiyası ilə, həm şimal-şərqdəki yarımbarbar nəsillərlə bağlı idi. 613-cü ildə başlamış bir neçə kortəbii üsyanları yatırtmaq ona həvalə edilmişdi. Qazandığı uğurlar onuni nüfuzunu möhkəmləndirdi və strateji əhəmiyyətli Şansi əyaləti üzərində nəzarəti bərpa etməyə imkan verdi. 617-ci ilin beşinci ayında başlanan qiyamı digər üsyançılar da, mötəbər sərkərdələr də müdafiə etdilər; həmin ilin on birinci ayında Li Yuan paytaxtı ələ keçirdi. 618-ci ilin beşinci ayında, Suy hökmdarı

Yan-di qətlə yetirilən il, o, rəsmən taxta çıxdı və Tan sülaləsinin hökmranlığını elan etdi.

Əvvəl Suy, sonra da Tanın yüksəlişi dövründə, Böyük divarın o tərəfindəki köçəri dövlətlər dağıldı, bəzi türklər formal olaraq çin süzerenliyini tanıdılar, köçərilərin çoxu, hətta imperator ordusunda xidmət edirdilər. Şərq türkləri Li Yuanın üsyanına böyük köməklik göstərdilər. Onlar təkcə atlar, adamlar, azuqə və sursat vermirdilər, həm də nifaq və qarışıqlıq salırdılar. Sülalə hökmranlığa başlayana qədər yalnız şimaldakı balaca ərazi mərkəzin hakimiyyəti altında idi; sonrakı on il qüvvələrin toplanmasına, kənd təsərrüfatı cəhətdən vacib olan şərq rayonları da daxil olmaqla imperiya torpaqlarının genişləndirilməsinə və gələcək nəsillər üçün «Çinin sakitləşdirilməsi»nə sərf olundu.

Tanın möhkəmlənməsi istedadlı və məharətli sərkərdələr hesabına, suy institutlarının iqtibas edilməsi, populist tədbirləri və «humanist sakitləşdirmə» siyasəti– xüsusilə cənubda– sayəsində mümkün oldu. Üç sərkərdə özünü xüsusi olaraq göstərdi: hərbi kanonlardan yeddincisinin aid edildiyi strateq Li Tszin; Li Şi-tszi və Li Yuanın ikinci oğlu, 627-ci ildə taxt-tacı qəsb edərək Tan hökmdarı Tay-tszun olan Li Şi-min. Onlar hər üçü imperiyanın yenidən yaradılması və birləşdirilməsi uğrunda aktiv fəaliyyət göstərirdilər. Tay-tszun özü isə, tarixi sənədlərə görə, həlledici döyüşlərdə qoşuna şəxsən başçılıq edirdi.

Bu hərbi qanunda suallar verən və qısa qeydlər eyləyən Tan hökmdarı Tay-tszun, konfusian təhsili almışdı. O, qanunlar və tarix haqqında dərin biliklərə malik idi, həmçinin hərb işində çox məharətli idi. Məlumatlara görə, artıq on beş yaşında o, qoşunlara komandanlıq edirdi. Strateq və sərkərdə kimi Tan sülaləsinin hakimiyyəti ələ almasında xidmətləri olan Tay-tszun çoxsaylı köçəriləri, o cümlədən qərb türklərini yeni dövlətə tabe etmişdi. Nəhayət, öz atasını vəzifəsindən kənar edərək və taxt-tacın qanuni varisi olan böyük qardaşını öldürərək o, imperator oldu. Onun qəhrəmanlıqları və gözəl atları barədə hekayələr populyar xalq rəvayətlirini zənginləşdirir.

İmperator olarkən o, tam şüurlu şəkildə xalqın arzularına cavab verən, məsləhətlər və tənqid üçün açıq olan kamil hökmdar obrazı yaradırdı. Ölkə həm siyasi, həm də mədəni planda həqiqətən birləşmişdi. Xalqın vəziyyətinin yüngülləşdirilməsi və iqtisadiyyatın inkişafı üçün tədbirlər görülmüşdü. Hökumət xərcləri azaldılmış, bütün millət üzərində isə effektiv idarə etmə yaradılmışdı. Ancaq vaxtı gələndə o, həddən artıq sərbəst, çox dözülməz və dəlisov olurdu. Bununla belə, Tanın təşəkkül illəri, üç yüzilliklər ərzində Asiyanı məftun edəcək fikir və mədəniyyətin dirçəlməsinin, sivilizasiyanın bərqərar olunmasının şahidi oldu.

571-649-cu illərdə yaşamış Li Tszin karyerasına Suy vaxtında, şimal-şərqdə hərbi xidmətdə olarkən başlamışdı. Sonra o, Çan-

aninin paytaxtının süqutundan sonra Tan qoşunlarına qoşuldu və Tay-tszunun tərəfdaş və köməkçilərindən birincilərindən oldu. O, daxili və xarici qiyamların yatırılması vaxtı, qərb türklərinin böyük istilası (nə ilə ki, şöhrət tapdı) və cənubun ram edilməsi vaxtı Tan qüvvələrinə komandanlıq edirdi. Buna görə, əgər «Suallar və cavablar» həqiqətən də onun Tay-tszunla söhbətlərini, yaxud onların böyük bir hissəsini təşkil edirsə, onda müzakirə olunan strategiyalar– təkcə nəzəri konsepsiyalar deyil, həm də mühüm döyüşlərdə sınanmış taktiki prinsiplərdir.

Kitab erkən qanunlardan əhəmiyyətli dərəcədə fərqlənir. O, daha çox özündən əvvəlki əsərlərin, onların nəzəriyyələrinin və ziddiyyətlərinin icmalıdır. Şəxsi təcrübədəki tarixi misallarla izah edilən söhbətlər, görünür o vaxt üstün olan taktika və strategiyanı açıqlayır. Bir çox tarixçilər kitabı Gecikmiş Tan və ya Şimali Sun dövrünün saxta əsəri hesab etsələr də, mətnin, dövrün fikir və əməllərini cəmləşdirən digər əsərlər kimi, orijinal qeydlər əsasında tərtib olunduğunu bildirən arqumentlər də irəli sürülür.

Li Tszinin «Sin Tan şu»[1] dakı tərcümeyi-halı təkcə bəxti gətirən Tan siyasətçisi və sərkərdəsinin qızğın karyerasını təsvir etmir, həm də onun özünü və strategiyalarını əməli işdə göstərir:

Adı Yao-şi olan Li Tszin, paytaxt vilaytdəki Sanyuan sakini idi. O, uca boylu və qəşəng idi, kanonları və tarixi yaxşı bilirdi. Bir dəfə o, yaxınlarına dedi: «Bu həyatda adam öz xidmətlərinə görə var-dövlət və rütbə almaq istəyir. Nəyə görə konfusianlar kimi şərhlər tərtib etmək vacibdir?»[2] Onun dayısı Xan Tsin-xu nə vaxt onunla hərbi məsələləri müzakirə etsəydi, vəcdlə nəfəsini çəkər və deyərdi: «U-tszı və Sun-tszı haqqında bu adamla danışmayasan, bəs kiminlə danışasan?» Li Tszin saray xidmətçilərinin rəisi kimi Suy sülaləsində xidmət edərkən, məmurlar İdarəsinin rəhbəri Nyu Xun onu görüb, demişdi: «Hökmdara kömək etməyə layiq istedaddır!» Dövlət işlərinin sol kansleri Yan Su, əlini özünün böyük oturacağına qoyaraq, ona dedi: «Axırda siz burada oturmalısınız!»

Da-enin idarə etməsinin axırlarında o, Mai vilayətinin vitse-qubernatoru idi. Tan hökmdarı Qao-tszu türklərlə hücum edəndən, Li Tszin onun şöhrət düşkünü olduğunu gördü. O, Qao-tszuya itaətsizlik etməyərək, özünü tutmağa imkan verdi ki, onun niyyətləri haqqında tez xəbər çatdırsın. Və o, Tszyanduya göndərildi. Li Tszin Çananiyə gəlib çatanda, yol bağlı idi. Sonra Qao-tszu paytaxtı ələ keçirdi və Li Tszini tutdu. O, Lsi-Tszinin boynunu vurdurmaq istəyirdi ki, Tszin qışqırdı: «Mənim ağam qoşunları ayağa qaldırıb ki, Çin adından qarışıqlığı və əxlaqsızlığı məhv etsin və əgər siz bu böyük işi (imperator olmaq) başa çatdırmaq istəyirsinizsə, onda şəxsi ədavət üzündən ədalətli adamı necə öldürə bilərsiz?» Tsin hökmdarı (Li Şi-min) da onu müdafiə etdi. Li Tszin azad edilərək idarədə paytaxtın Üç qarovulundan biri təyin edildi. O, Van Şi-çunun yatırılması vaxtı Li

Şi-mini müşayiət edirdi və öz xidmətlərinə görə sərkərdə təyin olundu.

Syao Syan Tszyanlini tutmuşdu. Buna görə də Qao-tszu Tszinə əyaləti sakitləşdirməyi əmr edən imperator hökmü verdi. Yüngül süvari dəstəsinin müşayiəti ilə o, Tszinçjounun sərhədlərini keçdi. Burada o, əyalətin dağlıq vadilərində məskunlaşmış man tayfasından olan Den Şi-lonun quldurlarına qarşı durmalı idi. Lutszyan hökmdarı Yuan qələbə çala bilmədi, buna görə Tszin onlara hücum etməyi və onları geri çəkilməyə məcbur etməyi planlaşdırırdı. Onlar Syaçjouya yollandılar, burada Syanın ordusu tərəfindən mühasirəyə alındılar və buna görə hücuma keçə bilmədilər. İmperator onun yubandığını qərara aldı və Baş nəzarətçi Syuy Şaoya Tszinin boynunu vurmağı əmr etdi. Şao Tszini müdafiəyə qalxdı və Li bağışlandı.

Sonra man tayfaları Jan Çjao-tszenin rəhbərliyi altında Kuyçjouya soxuldular. Çjaodakı qoşunların komandanı Syao-qun onlarla döyüşə girdi, ancaq heç bir üstünlük əldə edə bilmədi. Tszin onların düşərgəsini məhv etmək və strateji əhəmiyyətli dərələri tutmaq üçün səkkiz yüz adam apardı və pusqu saxladı ki, bu da Çjao-tszının edam olunmasına və beş min nəfərin əsir alınmasına gətirib çıxardı. İmperator köməkçilərinə müraciət edərək, ucadan dedi: «Ləyaqətli adamlardansa, səhvi olanlardan istifadə etmək yaxşıdır. Li Tszinin timsalında bu tamamilə ədalətlidir». Sonra o, bu sözləri deyərək, şəxsən özü yazdı: «Siz olub keçənlərə görə günahkar deyilsiniz. Mən ötənləri çoxdan unutmuşam». Sonralar Li Tszin Syana qarşı onlarla yürüşdə strategiyanı işləyib hazırlamışdı.

İmperatorun fərmanı ilə Tszin orduya sərkərdə təyin edildi. O, eyni zamanda Syao-qunun ordusunda köməkçi idi. Hər iki orduda idarə etmə işləri ona həvalə olunmuşdu. İdarəçiliyin dördüncü ilinin avqustunda o, «Hərbi məziyyət» devizi altında (621-ci il) Kuyçjouda qoşunlara baxış keçirdi. Bu, payız daşqınları vaxtı idi. Bu zaman dolub-daşan Yantszı çayı dəli dalğalardan kükrəyirdi. Syan düşünürdü ki, Tszin çayı keçə bilməz, buna görə də heç bir müdafiə tədbiri görməmişdi. Komandirləri də Tszindən xahiş edirdilər ki, çayın suları sakitləşənə qədər hücumu saxlasın. Tszin dedi: «Ordu üçün ən əsası odur ki, onun sürəti hiss edilməsin. İndi adamlar toplaşıb, Syanın isə bundan xəbəri yoxdu. Əgər biz çayın faydasından bəhrələnsək və onun istehkamlarına yaxınlaşsaq, bu, göy gurultusu vaxtı qulaqları tutmaq imkanı olmamasına bənzəyəcək. Əgər o, tez qoşunlarını çağıra bilsə belə, onun bizə müqavimət göstərmək imkanı olmayacaq, bizsə onu mütləq ələ keçirəcəyik». Syao-qun onun planı əsasında hərəkət etdi və doqquzuncu ayda donanma İlinə hücum etdi. Syan sərkərdəsi Ven Şi-xun bir neçə on minlik qoşunla Tszin-tszyanda düşərgə qurmuşdu. Syao-qun ona hücum etmək istədi, lakin Tszin dedi: «Olmaz! Şi-xun– dözümlü sərkərdədi, onun tabeçiliyində olanların hamısı isə cəsurdurlar. İndi, az əvvəl

Tszinşeni itirdikləri bir vaxtda onlar bizə müqavimət göstərmək arzusundadırlar. Bu ordu məğlub olanlara köməyə gələ bilənlərdəndir və onunla ayaqlaşmaq olmaz. Yaxşı olar ki, çayın cənub sahilinə gedib onların ruhdan düşəcəyini gözləyək, sonra isə onları ələ keçirək». Syao-qun qulaq asmadı. Döyüşə girmək üçün irəli getdi. Ağır döyüşdən sonra o, geri qayıtdı. Quldurlar, hər tərəfə səpələnmək və ərazini talan etmək üçün qayıqlardan istifadə edirdilər. Tszin onların özbaşnalığını görüb ordusunu sərbəst şəkildə irəli apardı ki, onları məhv etsin. Onlar dörd yüzdən çox qayıq ələ keçirdilər. On min düşmən isə çayda batdı.

Sonra o, beş min yüngül süvari dəstəsindən ibarət hissələrin başında Tszyanlinə tələsdi. Onlar şəhəri mühasirəyə alaraq düşərgə saldılar. Az sonra sərkərdələr Yan Tszyun-mao və Çjen Ven-syunu öldürərək, yaraq-əsləhəli dörd min əsgəri əsir götürdülər. Syao-qun hücumu davam etdirdi, Syan dəhşət içində idi. O, Tszyannani rayonundan qoşunları köməyə çağırsa da, onlar gəlmədilər və ertəsi gün Syan təslim oldu. Tszin onların paytaxtına girdi. Onun əmrləri sakit, ancaq sərt idi və ordu şəhəri talan etmirdi.

Bəzi komandirlər Tszindən xahiş edirdilər ki, Syanın onlara qarşı müqavimət göstərən sərkərdələrinin irsi var-dövlətini əllərindən alıb mükafat kimi orduya paylasınlar. Tszin dedi: «Əsl hökmdarın ordusu xalqa şəfqət göstərir və günahkarları tutur. Onları bizə qarşı getməyə məcbur ediblər, buna görə də əgər bizə müqavimət göstərdiyi üçün ordunun– bunu isə onlar özləri də istəmirdilər– onların var-dövlətini əllərindən alsaq, biz əsl üsyançılar yetişdirərik. İndi, Tszin və İni təzəcə sakitləşdirdiyimiz bir vaxtda, onların könlünü açmaq üçün biz səxavət və alicənablıq göstərməliyik.

Əgər onlar təslim olsa, biz isə onların var-dövlətini əllərindən alsaq, qorxuram ki, Tszindən cənuba onlar divarlarını möhkəmlədib, mövqelərini genişləndirsinlər. Onları şiddətli döyüşə hazırlaşmağa məcbur etmək ağıllı fikir deyil». Tszin onları dayandırdı və onların var-dövlətinə toxunmadı. Buna görə, Tszyan və Xan çayları arasındakı bütün şəhərlər tabe olmaqdan ötrü öz aralarında rəqabət aparırdılar.

Xidmətlərinə görə Li Tszin Yunkan uyezdinə başçı və Tszinçjouya rəis təyin edildi. Sonra o, Quyçjou istiqamətində dağları keçdi və itaət siyasətini elan etmək üçün hər tərəfə elçilər göndərdi. Fenan kimi tafyaların başçıları uşaqları ilə birlikdə tabe olmağa gəldilər və cənub vilayəti sakitləşdirildi. Mənfəəti hesablayanda, hakimiyyət quranda və idarələr yaradanda, cəmi doxsan altı uyezd əlavə etdilər ki, burada altı yüz min ev vardı. İmperatorun fərmanı ilə o, saraya çağrıldı, onun əməlləri tərifləndi. Ona Linnaninin sakitləşdiricisi və Quyçjouda Ali Sərkərdə titulları verildi.

Li Tszin, başa düşürdü ki, Linxay vilayəti– vəhşi və uzaqdır. Burada uzun müddət məziyyətlər görməyiblər. Buna görə də nə qədər ki, o, qorxuducu qüvvəsini və döyüş ruhunu, ayin və ədaləti

göstərməyib, onların adətlərini dəyişmək üçün onun vasitəsi olmayacaq! Buna görə o, ordunu cənub istiqamətində yürüşə apardı. Onlar hara gedirdilərsə, o, xəstələr və əziyyət çəkənlər haqqında soruşar, ağsaqqalları və qocaları qəbul edərdi. O, imperatorun nicatverici niyyətlərini elan etdi: həm yaxın, həm uzaqdakılar qorxu içində tabe oldular.

Fu Qun-şi üsyan qaldıraraq, Tanyanı tutdu. İmperator Syao-qunu Ali Sərkərdə təyin etdi və Tszini saraya çağırdı. Burada o, Syao-qundan sonra ikinci sərkərdə təyin edildi və yürüşün strategiyası ilə tanış oldu. Onlar cəza ekspedisiyası ilə şərqə gedəndə, Li Şi-tszi və yeddi nəfər yüksək rütbəli məmur vilayətlərin sərkərdələri təyin olundular. Quan-şi Dantı mühasirəyə almaq üçün Fen Xuey-lyanı otuz min adamla qayıqla yola saldı. Çen Çjen-tunu isə iyirmi minlik piyada və süvari dəstəsi ilə yola saldı ki, Tsinlinşan dağlarını mühasirəyə alsınlar. Lyanşan dağının ətəyində onlar qoşunlarını birləşdirib Tszyana gedən yolu kəsdilər və şimaldan cənuba doğru on li məsafədə uzanan aypara formasında divar qurdular ki, cinahları uzatsınlar.

İmperatorun bütün sərkərdələri öz fikirlərini bildirdilər: «Onların güclü əsgərləri və keçilməz çəpərləri var. Hətta döyüşə girmədən belə, onlar bizim ordunu taqətdən salar. Əgər birbaşa Danyanı ələ keçirib onların qalasını boşaltsaq, onda Xuey-lyan və başqaları özləri təslim olacaqlar». Tszin dedi: «Bu belə deyil. O iki ordu seçmə olsa da, Qun-şinin şəxsi komandanlığı altında ruhən güclü əsgərlər qalıblar. Əgər onlar artıq Şitou dağını qoruyurlarsa, onların istehkamını keçmək olmaz. Əgər biz burada qalsaq, məqsədimizə nail olmayacağıq, ancaq biz geri də çəkilməməliyik. Mədə və kürək üçün böyük xoşagəlməzliklər– çox da uğurlu plan deyil. Bundan əlavə, Xuey-lyan və Çjen-tun– təcrübəli döyüşçülərdi, yüzdən artıq döyüş görüblər. Onlar qalın meşəliklərdə döyüşməkdən belə qorxmurlar. Məhz indi onlar Qun-şinin strategiyasına uyğun olaraq, öz mövqelərini möhkəmlədirlər. Əgər biz onları hirsləndirərək gözlənilmədən zahir olsaq və onların istehkamlarına hücum etsək, mütləq onları məhv edəcəyik.

Xuey-lyan tələyə salınacaq, Qun-şi isə əsir götürüləcək».

Syao-qun onu eşitdi. Tszin, Xuan Tszyun-xanı və başqalarını apararaq, Sudan və qurudan hücuma başladı. Ağır döyüşdən sonra onlar on mindən çox adamı öldürdülər və yaraladılar. Xuey-lyan və başqaları qaçdılar, buna görə Tszin yüngül süvari dəstəsinin başında Danyanın yanına yollandı. Qun-şi qorxuya düşmüşdü, və baxmayaraq ki, onun hələ çox qoşunu qalmışdı, onlar döyüşməyə qadir deyildilər, buna görə də o, qaçırdı. O, həbs edildi və çaydan cənuba tərəf olan Yantszı vilayəti əmin-amanlıqda oldu.

Cənub-şərqi mahalda dövlət işlərinin yerli İdarəsi yaradılanda, Tszin hərbi məsələlər üzrə nazir təyin edildi. Ona min parça ipək, yüz kölə-qadın və yüz at bəxşiş edildi. Dövlət işlərinin yerli İdarəsi

ləğv edilərdə o, Yançjouda ali vilayət komandanlığının rəisi təyin edildi. İmperator ah çəkərək dedi: «Tszin, qədim Xan, Bay, Vey və Xo[3] sərkərdələri sizin Syan və Qun-şi ilə mübarizədə elədiklərinizdən artıq nəsə edə bilmişdilərmi?»

Səkkizinci ildə (625-ci) türklər Tayyuan üzərinə qəfil hücum etdilər. Ali baş sərkərdə olan Tszin, tszyan və xuay ordusundan olan on minlik qoşunla Tayqu vilayətində düşərgə saldı. Bu vaxt başqa sərkərdələr çoxsaylı itkilərlə məğlub oldular. Tszin isə yeganə olaraq bütün ordu ilə geri qayıtdı. Tezliklə o, Ançjouda Ali baş sərkərdə təyin edildi.

Tan hökmdarı Tay-tszun taxta çıxanda o, məhkəmə idarəsinə təyinat aldı, onun xidmətləri qeyd edildi və o, katibliyin rəisi vəzifəsində olarkən, dörd yüz ev aldı.

Türklərin bir hissəsi ayrılıb, qiyam qaldırdı. Buna görə imperator, hərəkət etmək və onları tutmaq strategiyasını nəzərdə tutmuşdu. Hərbi işlər naziri olmaqla bərabər, Tszin, Dinsyan mahalındakı ordunun Ali baş sərkərdəsi idi. O, üç min seçmə süvari dəstəsini Maidən keçərək Ouyan dağlarına gətirdi. Se-li Ke-xan təəccüblənirdi: «Əgər hələ Tan ordusu yığılmayıbsa, Tszin qoşunları ilə bura tək gəlməyə necə cürət edib?» Onun əsgərləri bərk qorxuya düşmüşdülər. Tszin Ke-xanyuya sadiq adamlar arasında ədavət salmaq üçün casuslarını göndərdi. Gecə o, qəflətən Dinsyana hücum etdi və oranı viran etdi. Ke-xanyu xilas ola bildi və Tsikouya qaçdı.

Xidmətlərinə görə Tszin irəli çəkildi və Tayqo-qun titulu aldı. İmperator dedi: «Li Lin[4] beş minlik piyada qoşunla səhranı keçdi, ancaq sonda syunnaya təslim oldu. Ancaq onun xidmətləri haqqında bambuk və ipək üzərində yazılıb. Tszin üç minlik süvari dəstəylə qan içindən keçdi və Dinsyan ələ keçirtdi. Qədimlərdə buna bənzər heç nə olmayıb. Mənim Vey[5] çayı yaxınlığındakı rüsvayçılığımı yuyub təmizləmək üçün bu yetərlidir!»

Se-li Teşan dağını müdafiə etməyə yollandı. Sonra öz cinayətlərini etiraf edərək elçi göndərdi və xahiş etdi ki, onun dövləti daxili vassal olsun. Dinsyan mahalının sərkərdəsi Tszin onu qəbul etmək üçün göndərildi. İmperator mərasimlər İdarəsinin baş naziri Tan Tszyanı və sərkərdə An Syu-jeni məmurlarla birlikdə sakitləşdirmək üçün yolladı. Se-linin itaət edəcəyinin şübhəli olduğunu bilən Tszin, öz sərkərdəsi Qun-tszinə dedi: «İmperatorun elçisi, əslində, əsirdir. Buna görə, Se-li, özünü təhlükəsiz hiss etməlidi. Əgər iyirmi günlük ehtiyatı olan on minlik süvari dəstəsi gözlənilmədən Baydao tərəfdən hücum etsə, biz mütləq istədiyimizə nail olacağıq». Qun-tszin dedi: «İmperator artıq onun təslim olmasına razılıq verib, məmurlar da onlarladı. Necə edək?» Tszin dedi: «İmkanı əldən vermək olmaz. Xan Sin Tsi dövlətini məhz belə məğlub etdi. Hansısa bir Tan Tszyana rəhmi gəlməyə dəyərmi?»

O, ordunu sürətli hücuma göndərdi. Onlar harda düşmənin gözətçi dəstəsinə rast gəlirdilərsə, onları əsir götürür, arxalarınca gəlməyə məcbur edirdilər. Onlar Se-linin qərargahından yeddi li məsafədə olanda, sərkərdə işin nə yerdə olduğunu başa düşdü. Köçərilər bərk qorxuya düşdülər və qaçıb dağılışdılar. Tszinin ordusu on mindən çox adamı məhv etdi, yüz min kişi və qadın əsir götürdü.

Onlar Se-linin oğlu De-lo-şini tutdular, şahzadə İ-çeni öldürdülər.

Se-li qaçdı. Lakin Tadundakı ordu sərkərdəsinin köməkçisi Çjan Bao-syan tərəfindən tutularaq, imperatora təhvil verildi. Bununla Tan İ dağından şimala doğru Böyük səhraya qədər torpaqlarını genişləndirdi.

Sonra imperator Çində ümumi amnistiya elan etdi və xalqa beş gün bayram verdi. Baş senzor Syao Yuy, Tszini ordu sərkərdəsi vəzifəsində qanunlara etinasızlıq göstərməkdə taqsırlandırdı. Çünki o, qoşunlara çoxlu soyğunçuluq etməyə icazə vermişdi ki, bununla da dövlət bir çox nadir və qiymətli əşyalar itirmişdi. İmperator Tszini çağırdı və onu danladı. Tszin özünə bəraət qazandırmaq üçün heç nə demədi, ancaq başını aşağı əyərək günahını etiraf etdi. İmperator yavaş-yavaş dedi:

«Suy yaxınlığında, sərkərdə Şi Van-suy Da-toy Kexanı məğlub edəndə, onu mükafatlandırmadılar, edam etdilər. Mən belə etməyəcəm. Mən sizin xidmətlərinizi xatırlayaraq, xətanızı bağışlayıram». Sonra imperator onun vəzifəsini böyüdərək «bol xoşbəxtçiliyin sol başçısı» təyin etdi. Ona min parça ipək verdi və mülklərinin sayını beş yüz evə çatdırdı. Bütün bunlardan sonra o, dedi: «Əvvəllər adamlar sizə böhtan atırdılar və sizi tənqid edirdilər, ancaq indi mən həqiqəti bildim». Sonra imperator Tszinə daha iki min parça ipək bağışladı və onu dövlət işləri üzrə Sağ nazirin köməkçisi vəzifəsinə təyin etdi. Tszin nə vaxt müzakirələrdə iştirak etsəydi, o, danışa bilməsəydi də, ona çox hörmət edirdilər, onu dərin və səmimi adam hesab edirdilər.

Bu zaman imperator xalqın adətlərini öyrənmək üçün on altı mahala elçilər göndərmişdi. O, Tszini paytaxt mahal üzrə səlahiyyətli şəxs təyin etmişdi. Tszin ayaq xəstəliyindən əziyyət çəkdiyi üçün imperatordan xahiş etdi ki, onu bu vəzifələrdən azad etsin. İmperator katiblik rəisinin köməkçisi Tsen Ven-beni belə bir göstərişlə onun yanına yolladı: «Ta qədimlərdən var-dövlət və şöhrət əldə edəndən sonra necə dayanmağı bilənlər az olub. Siz xəstə və yorğun olsanız da, özünüzü məcbur edin. Əgər dövlətin rrifahını nəzərə alsanız, bundan çox məmnun olaram. Əgər siz öz bütün dövrlər üçün nümunə olmaq kimi nəcib məqsədinizə nail olmaq istəyirsinizsə, bunu qəbul etməlisiniz». Sonra o, Tszinə sarayda qalmaq imtiyazı verdi. Bundan əlavə, ona min parça ipək və yüksək rütbəli məmur ekipajı olan iki at qoşulmuş minik arabası bağışladı. İmperator onun əvvəlki məvacibini və torpaqlarını da saxladı. Xəstəliyi səngiyəndə o,

təyin olunmuş üç gündən birində katibliyin dəftərxanəsının baş məsləhətçisi kimi xidmətə gələrdi. Ona həmçinin «mənəvi uzunömürlük əsası»ndan istifadə etmək imtiyazı verilmişdi.

Qısa bir müddətdən sonra tuyuy-xunlar sərhədlərə hücum etdilər. İmperator öz köməkçilərinə müraciət etdi: «Tszin yenidən sərkərdə ola bilərmi?» Tszin Fan Syuan-minin yanına gedərək, dedi: «Qoca olsam da, amma hələ bir yürüşdə də iştirak edə bilərəm». İmperator razı qaldı və onu «qərbi dənizlər» mahalındakı orduya sərkərdə təyin etdi. Beş digər sərkərdələr– Çen hökmdarı Dao-tszun; Xou Tszyun-tszi; Li Da-lyan; Li Dao-yan və Qao Tszen-şen– öz orduları ilə ona tabe edildilər. Onlar Fusı şəhərinə gəlib çatanda, tuyuy-xun qoşunları artıq bütün otu yandırmış və Dafey çayı vadisinin müdafiəsinə çəkilmişdilər. Bütün komandirlər inanırdılar ki, yaz otu hələ bitmədiyi, atlar isə zəif olduğu üçün onlar döyüşə girə bilməzlər. Tszin gizli soxulma strategiyası seçdi. Sonra onlar Tszişi dağını keçdilər. Bir neçə onluq vuruşmada böyük miqdarda qoşunu əsir götürdülər, dövləti məhv etdilər, adamların böyük əksəriyyəti təslim oldu. Tuyuy-xunların Fu-yun Ke-xanı (yəni xaqanı– red. qeydi.), azadlığını itirərək, özünü asdı. Tszin hakimiyyəti Fu-yunun oğlu, həmçinin Da-nin hökmdarı kimi tanınan Mu-jun Suna verərək, evə qayıtdı.

Yürüşün başlanğıcında Qao Tszen-şenin ordusu, yolüstü duz gölləri ilə keçib gəldiyindən, gecikmişdi. Tszin onu danladı. Buna görə, onlar qayıdıb gəldikdə Qao onu təhqir etdi. Quançjou qubernatoru Tan Fen-i ilə birlikdə o, Tszini üsyan etmək fikrində olduğunda ittiham etdi. Məmurlar ittihamı araşdıraraq, onu əsassız saydılar. Tszen-şen və başqaları xəyanətkarcasına böhtan atmada təqsirli bilindilər. Tszin, evinin qapılarını bağlayıb, qonaqları və qohumları qəbul etməkdən imtina edərək, tənha yaşadı.

İmperator onu Veyqoda[6] knyaz təyin etdi. Onun həyat yoldaşı vəfat etdi. İmperator, Vey və Xo haqqında hekayələrdən məlum olan stildə sərdabə (türbə) tikilməsi üçün göstəriş verdi. Sərdabənin qüllələri Teşan və Tszişi-şan dağları şəklində hazırlanmışdı. Bu onun xidmətlərinin sübutu üçün idi. Tszin «Misilsiz şücaət sərkərdəsi» adlandırıldı.

İmperator Lyaoya hücum etmək istəyirdi, buna görə də Tszini saraya çağırıb, dedi: «Cənubda siz U-nu ram etdiniz, şimalda türkləri məğlub etdiniz, qərbdə tuyuy-xunları təslim etdiniz. Təkcə Qaoli (Koquryo) təslim olmadı. Sizin bu barədə hansısa fikirləriniz varmı?» O, cavabında dedi: «Keçmişdə mən əhəmiyyətsiz xidmətlərə nail olmaq üçün Səmanın qorxuducu qüvvələrinə arxalanırdım. Mən xəstəlikdən belə zəiflədiyim bir vaxtda, əgər əlahəzrət həqiqətən məni azad etmək istəmirlərsə, mənim xəstəliyim keçib gedər». İmperator yaşına hüsn-rəğbətlə yanaşaraq, onun təyinatını təsdiq etmədi.

İyirmi üçüncü ildə (649) onun xəstəliyi ağırlaşdı. İmperator ona şərəf verərək, baş çəkmək üçün evinə gəldi. Tszini görəndə gözləri yaşardı. «Siz bütün həyatınız boyu mənim dostum olmusunuz və dövlətə xidmət etmisiniz. İndi sizin xəstəliyiniz belə ağırlaşdığı üçün mən təəssüf edirəm». Tszin yetmiş doqquz yaşında vəfat etdi. Ölümündən sonra ona təhsil naziri və köməkçi ordunun Ali sərkərdəsi titulları verilmişdi. Sədaqətli nazir kimi o, Çjao-lindəki imperator sərdabələrinin yanında dəfn edildi. Ona əbədi yaşayan (ölməz) «Tszinu» titulu verildi.

Biografiyasından gətirilmiş misallardan göründüyü kimi, Suy və Tan dövründə ordu arbaletçilər, piyadalar və süvarilərdən ibarət olurdu. Cəng arabaları artıq əhəmiyyətli bir rol oynamırdı, bürünc silahlar yox olmuşdu. Böyük çeviklik mümkün olmuşdu, çünki əsas yürüş üçün çoxsaylı yerli ordular çağrıla bilərdilər. Bu qoşunlar, əsasən, peşəkarlar idi, lazım gəldikdə isə əlavə kimi rekrutlar da toplanırdılar. Dəstələrin hər hansı bir silah növündə ixtisaslaşması geniş yayılmışdı. Taktika isə əsasən tezlik və sürətlə hərəkət etmə qabiliyyətinə, cinahdan manevr və digər yayındırıcı manevrlərə əsaslanırdı.

I KİTAB

Tay-tszun soruşdu:

-Qaoli (Koquryo) Sinloya (Silla)[7] bir neçə dəfə basqın edib. Mən müqavimət göstərmək əmrilə elçi göndərdim, ancaq onlar bizim fərmanı qəbul etmədilər. Mən cəza ekspedisiyasını göndərməyə hazırlaşıram. Biz necə etməliyik?

Li Tszin dedi:

-Onlar haqqında öyrənə bildiklərimizə görə, Qay Su-ven hərb işlərindəki biliklərinə arxalanır. O, deyir ki, orta dövlətlər cəza ekspedisiyaları göndərməyə qadir deyil, və elə buna görə də sizin mandata etiraz edir. Onu tutmaq üçün otuz minlik ordu xahiş edirəm.

Tay-tszun dedi:

-Bu qoşun kifayət eləməz, həm də ki, yol uzaqdır. Siz onlara yaxınlaşmaq üçün hansı strategiyadan istifadə edəcəksiniz?

Li Tszin dedi:

-Mən bilavasitə (çjen) qoşunlardan istifadə edəcəm.

Tay-tszun dedi:

-Tutszyueni (türkləri) ram edəndə çevik qoşunlardan (tsi) istifadə etdiniz. İndi bilavasitə qoşunlar haqqında danışırsınız. Niyə?

Li Tszin dedi:

-Çjuqe Lyan Men Xunu yeddi dəfə zəbt edəndə bu hər hansı başqa Yol deyildi. O, bilavasitə qoşunlardan istifadə etmişdi, vəssalam.

* * *

Tay-tszun dedi:

-Ma Lun Tszin[8] sülaləsi vaxtı Lyançjouya qarşı cəza yürüşü edəndə də bu «səkkiz sıra diaqramması»[9]na uyğun idi və o, balaca cəng arabaları hazırlamsışdı.

Ərazi geniş olanda, o, arabalardan ibarət «maral buynuzları»[10] düşərgəsindən istifadə edirdi, yol dar olanda isə o, taxta evciklər hazırlayırdı. Bu evcikləri arabalarda elə yerləşdirirdi ki, onlar həm döyüşə, həm də hücum edə bilirdilər. Mən əminəm ki, bunlar, qədimlərin çox qiymətləndirdiyi bilavasitə qoşunlar olub.

Li Tszin dedi:

-Mən cəza ekspedisiyasını türklərə qarşı aparanda, bir neçə min li qərbə tərəf getdik. Əgər bunlar bilavasitə qoşunlar deyildisə, biz belə uzaq məsafəyə necə gedə bilərdik? Kiçik cəng arabaları və «maral buynuzu» arabaları ordu üçün vacibdir. Onlar qüvvələri sərf etməyi idarə etməyə imkan verir, ön kənar müdafiəsini təmin edir, dəstələr və «beşliklər»i yaradırlar. Bu üç amil növbə ilə istifadə olunur. Məhz buna görə Ma Lun ciddi-cəhdlə qədimlərdən öyrənirdi.

* * *

Tay-tszun dedi:

-Mənim Sun Lao-şeni məğlub etdiyim döyüşdə, ön sıralar toqquşanda, bizim ədalətli ordu bir az geri çəkildi. O zaman mən şəxsən seçmə süvari dəstəsini cənub düzənlik tərəfdən apararaq, düşmənləri qəfil hücumla məhv edirdim. Lao-şenin qoşunları arxadan aralananda, biz onları qəddarcasına darmadağın etdik, sonra isə onun özünü də tutduq. Bunlar bilavasitə qoşunlar idi, yoxsa çevik qoşunlar?

Li Tszin dedi:

-Əlahəzrət anadangəlmə hərbi dahidir, hərbiçi omağı öyrənənlərdən deyil. Mən, Sarı İmperatorun vaxtından bu günümüzə qədər tətbiq edilən hərb sənətini tədqiq etmişəm. Əvvəlcə bilavasitə, sonra isə çevik ol; əvvəlcə humanist və ədalətli ol, sonra isə qüvvələrin tarazlığından (tsyuan) və ustalıqdan istifadə et. Bundan əlavə, Xon yaxınlığındakı döyüşdə ordu ədalətlə toplanmışdı, buna görə də bilavasitə idi. Tszyan-çen[11] atdan yıxılarkən Sağ ordu azacıq geri çəkiləndə, bu çeviklik idi.

Tay-tszun dedi:

-O zaman azacıq geri çəkilmək az qala bizim böyük işimizi məhv etmişdi, siz bunu necə çevik adlandıra bilərsiniz?

Li Tszin dedi:

-Ümumiyyətlə, qoşunlar irəli hərəkət edərkən, bu bilavasitəlik hesab olunur, onlar qəsdən geri çəkiləndə isə çeviklik sayılır. Bundan başqa, əgər Sağ ordu hansısa məsafəni geri çəkilməsəydi, siz Lao-şenin irəliləməsinə necə nail ola bilərdiniz? «Hərb sənəti»ndə deyilir: «Onları aldadıb tələyə salmaq üçün yalançı

mənfəət göstər, sıralarında təşviş yarat və onları tut». Lao-şen qoşunlarından necə istifadə etməyi bilmirdi. O, igidliyə arxalanaraq tələsik hücuma keçdi. O, heç güman etmirdi ki, arxa cəbhəsini əlahəzrət kəsə, ya tuta bilər. Bu, «çeviklərin bilavasitə kimi istifadə edilməsi» adlanır.

Tay-tszun dedi:

-O ki, qaldı Xo Tsyuy-binin təsadüfən Sun-tszı və U-tszının taktikası ilə uyğun gələn taktikasına, bu həqiqətənmi belə idi? Bizim sağ cinah ordumuz geri çəkiləndə, atam, imperator Qao-tszunun rəngi ağardı. Ancaq sonra mən amansızca hücuma keçdim və əksinə, bu bizim üçün üstünlük oldu. Bu öz-özlüyündə Sun-tszı və U-tszı ilə uyğun gəldi. Siz, sözsüz ki, onların dediklərini bilirsiniz.

* * *

Tay-tszun dedi:

-Ordu nə vaxt geri çəkilirsə çəkilsin, bunu çeviklik adlandırmaq olarmı?

Li Tszin dedi:

-Bu belə deyil. Əsgərlər nə vaxt geri çəkilirsə çəkilsin, əgər bayraqlar səhv düşüb və qarşıbısa, böyük və kiçik təbillərin səsi biri-birinə cavab vermirsə, əmrlər isə səs-küy və qışqırtı səsləri içərisində itib-batırsa, bu heç də çevik strategiya deyil, əsl məğlubiyyətdir. Əgər bayraqlar qaydasındadırsa, təbillər bir-birinə cavab verirsə, komanda və əmrlər vahiddirsə, o zaman onlar, hətta geri çəkilib qaçırlarsa belə, bu məğlubiyyət deyil, bəlkə də, çevik strategiyadır. «Hərb sənəti»ndə deyilir: «Yalandan geri çəkilənləri təqib etmə». Bu da deyilib ki, «Bacarıqlı olduğun halda, özünü aciz göstər». Bütün bunlar çevik qoşunlara aiddir.

* * *

Tay-tszun dedi:

-Xan yaxınlığındakı döyüşdə Sağ ordu azacıq geri çəkiləndə, bunun Səma ilə əlaqəsi vardımı? Lao-şen tutulanda, bunlar insanın səyi nəticəsindəmi baş verdi?

Li Tszin dedi:

-Əgər bilavasitə qoşunlar çevik, çevik qoşunlar isə bilavasitə olmasaydı, siz qələbəyə necə nail ola bilərdiniz? Buna görə, müharibə aparmağı bacaran bilavasitə çevik insandır. Vəssalam! Sərkərdə onları ruhunun qüvvəsi ilə dəyişir. Onları Səmaya aid etmənin səbəbi budur.

Tay-tszun başını tərpətdi.

* * *

Tay-tszun dedi:

-Bilavasitə və çeviklər əvvəlcədən ayırd edilir, yoxsa bu döyüş vaxtı müəyyənləşir?

Li Tszin dedi:

-Tsao Tsaonun[12] Yeni kitabı «Sin şu»ya görə:

«Əgər düşməndən iki dəfə güclüsənsə, qoşunlarını iki hissəyə ayır. Bir hissəsi bilavasitə olacaq, o biri– çevik. Əgər düşməndən beş dəfə güclüsənsə, onda qoşunun üç hissəsi bilavasitə, ikisi isə– çevik olmalıdır». Bu əsas olanı müəyyən edir. Sun-tszının dediyi kimi: «Müharibədə strateji qüvvə bilavasitə və çevik qüvvələri üstələmir, ancaq bilavasitəlik və çevikliyin dəyişikliklərini tamamilə tükəndirmək olmaz! Bilavasitə və çeviklər sonsuz sikl kimi qarşılıqlı surətdə bir-birlərini udur. Onları kim tükəndirə bilər?» Bu onları əhatə edir. Buna görə, onları əvvəlcədən necə ayırmaq olar?

Əgər komandirlər və qoşunlar hələ mənim qaydalarımı öyrənməyibsə, əgər sərkərdənin köməkçiləri hələ mənim əmrlərimlə tanış deyillərsə, o zaman biz təlimi iki hissəyə ayırmalıyıq. Döyüş taktikasını öyrənərkən, əsgərlər növbə ilə bölünərək və birləşərək hər bir halda bayraqları və təbilləri tanımalıdırlar. Buna görə, Sun-tszı deyirdi: «Bölünmək və birləşmək– dəyişiklikdir».

Hərbi işi öyrətməyin qaydaları belədir. Həyata keçirməyə hazırlıq və qiymətləndirmə başa çatıbsa və qoşunlar mənim qaydalarımla tanış olublarsa, yalnız o zaman onları sərkərdənin göstərdiyi istiqamətdə yönəldərək, qoyun sürüsü kimi hərəkətə gətirmək olar. O zaman kim bilavasitə və çeviklər arasında müqayisə aparır? Sun-tszının «başqalarına forma vermək, lakin özün formasız olmaq» adlandırdığı elə bilavasitə və çevikdən istifadənin yüksək həddidir. Buna görə, təlim xatirinə onları əvvəlcədən ayırırlar. Döyüş vaxtındakı dəyişikliklərdən danışsaq, onlar saya-hesaba gəlməz.

Tay-tszun dedi:

- Həqiqətən müdrikanədir! Tsao Tsao, görünür, bunu bilirmiş. Ancaq «Sin şu»nun bizə öyrətdiyi sadəcə onun öz sərkərdələrinə dediklərıdir, bilavasitə və çeviklərin əsas metodu deyil.

Tay-tszun dedi:

-Tsao Tsao deyir: «Çevik qoşunlar cinahlardan hücum edirlər». Bu barədə nə deyə bilərsiniz?

Li Tszin dedi:

-Sun-tszını şərh edərkən Tsao Tsaonun dediyini xatırlayıram: «Döyüşə başlamaq üçün birinci irəli keçmək– bilavasitəlikdir; sonra hərəkətə keçmək – çeviklikdir». Bu cinahlardan olan hücumlar haqqında fikirlərdən fərqlənir. Mən sadəcə çoxlu sayda qoşunların toqquşmasını bilavasitə qüvvələrə, sərkərdənin şəxsən irəli göndərdiklərini isə çevik qüvvələrə aid edirəm. Birincinin və ya ikincinin, yaxud yan tərəfdən hücumların məhdudiyyəti hanı bəs?

* * *

Tay-tszun dedi:

-Əgər düşməni mənim bilavasitə qoşunlarımı çevik, çevik qoşunlarımı isə bilavasitə hesab etməyə məcbur edirəmsə, bu «başqalarına forma göstərməkdirmi?» Çevikliyin bilavasitə kimi,

bilavasitənin çeviklik kimi, çox böyük dəyişikliklərin və dönmələrin istifadə edilməsi, «formasız olmaq» adı altında nəzərdə tutulandırmı?

Li Tszin iki dəfə təzim etdi və dedi:

-Əlahəzrət kamil müdrikdir. Siz geriyə, qədimlərə, mənim dərk edə biləcəyim hüdudlarından kənara qayıdırsınız.

* * *

Tay-tszun dedi:

-Əgər bölünmə və birləşmə dəyişiklikdirsə, bəs bilavasitə və çeviklər harda yerləşir?

Li Tszin dedi:

-Müharibəni məharətlə aparanlar üçün bilavasitə və çevik olmayanlar yoxdur. Buna görə, onlar heç vaxt düşmənə öz ölçüsünü təyin etmək imkanı vermirlər. Buna görə, bilavasitə qüvvələrlə, həmçinin çevik qoşunlarla onlar qalib gəlirlər. Üç ordu komandirləri yalnız qələbə bilirlər, lakin heç kim qələbəyə necə nail olunduğunu bilmir. Dəyişiklikləri tam anlamaq iqtidarında olmadıqda buna necə nail olmaq olar? Bölünmə və birləşmənin haradan yarandığına gəldikdə isə, yalnız Sun-tszı bunu dərk etməyə qadir idi. U Tsidən başlayaraq, heç kim buna nail ola bilmədi.

* * *

Tay-tszun soruşdu:

-U Tsinin strategiyası necə idi?

Li Tszin dedi:

-İcazə verin onu ümumilikdə təsvir edim. Vey knyazı U-xou U Tsidən iki ordu bir-biri ilə qarşı-qarşıya dayanarkən tətbiq edilməli olan strategiya haqqında soruşdu. U Tsi dedi: «Rütbəcə aşağı olan hissələrinə və cəsur əsgərlərinə irəli getməyi və hücum etməyi əmr etdi. Ön cərgələr toqquşanda, onlara qaçmağı əmr elə. Onlar qaçanda, onları cəzalandırma, ancaq hiylə işlətmək üçün düşmənin hücum edib-etmədiyinə nəzarət et. Əgər onun əsgərləri bir nəfər kimi oturub-dururlarsa, qaçan qoşunları təqib etmirlərsə, deməli, düşmənin yaxşı strateqləri var. Əgər onun bütün qoşunları gah irəliləyib, gah dayanaraq nizamsız şəkildə qaçanları təqib edirlərsə, deməli düşmən istedaddan məhrumdur. Tərəddüd etmədən ona hücum et». Mən düşünürəm ki, U Tsinin strategiyası ümumilikdə belədir, bu, Sun-tszının «bilavasitə döyüş» adlandırdığı deyil.

Tay-tszun dedi:

-Sizin dayınız Xan Tsin-xu deyirdi ki, siz onunla Sun-tszı və U-tszını müzakirə edə bilirsiniz. O, həm də bilavasitə və çevikliyimi nəzərdə tuturdu?

Li Tszin dedi:

-Tsin-xu bilavasitə və çeviyin mahiyyəti barədə necə billə bilərdi? O, sadəcə çevikləri çevik kimi, bilavasitəni bilavasitə kimi

müzakirə edirdi! O, heç vaxt «bilavasitə və çeviyin qarşılıqlı surətdə bir-birinə çevrilməsi, tükənməyən silsilə» haqqında bilməyib.

* * *

Tay-tszun dedi:

-Qədim döyüşçülər düşmənin döyüş sıralarına yaxınlaşıb, gözlənilməyən yerdən hücum etmək üçün çevik qoşunları irəli göndərəndə, onlardamı «qarşılıqlı çevrilmə» qaydalarından istifadə edirdilər?

Li Tszin dedi:

-Qədimlərdə döyüş, kiçik taktika ilə heç bir taktikası olmayanların istila edilməsi, az dərəcəli üstünlüklə heç bir bacarığı olmayanların özünə tabe edilməsi məsələsi idi. Bu haqda müharibə sənəti kimi danışmağı onlar necə haqq edə bilərlər? Misal kimi Fu Tszyanın Se Syuan tərəfindən məhv edilməsini göstərmək olar. Bu, Se Syuanın üstünlüyü səbəbindən deyil, Fu Tszyanın bacarıqsızlığı üzündən baş verdi»[13].

Tay-tszun orada olan məmurlara salnamələrdən Se Syuanın tərcümeyi-halını tapıb məlumat verməyi əmr etdi. Məruzəni dinləyib qurtardıqdan sonra o, dedi:

-Fu Tszyanın bu işi necə idarə etdiyi həqiqətən yaxşı deyil.

Li Tszin dedi:

-Fu Tszyanın bioqrafiyasında görürəm yazılıb ki, «Tsin ordusunda hamı darmadağın edilib dağıdılmışdı, və yalnız Mu-jun Çuyun qoşunları salamat qalmışdı. Fu Tszyan (Tsin hökmdarı) mindən artıq atlı dəstənin başında onlara qoşulmağa tələsdi. Çuyun oğlu Bao, Çuya Fu Tszyanı öldürməyi məsləhət gördü, amma nəticəsiz qaldı». Buradan aydın görünür ki, Tsin orduları təşviş içində olarkən, yalnız Mu-jun Çuyun qoşunları sağ-salamat qalmışdı. Buna görə, çox guman ki, Fu Tszyanı Çuy satmışdı. Başqaları tərəfindən satılmaq və bununla belə düşməni məğlub etməyə ümid etmək, məgər bu çətin deyil? Bunun üçün mən, Fu Tszyana oxşayanların taktikası olmadığını israr edirəm.

Tay-tszun dedi:

-Sun-tszı deyirdi ki, «planları geniş olan, planları zəif olanı məğlub edəcək». Buna görə, biz bilirik ki, hətta kiçik bir planın olması plansız olanı məğlub edir. Bütün işlər belədir.

* * *

Tay-tszun dedi:

-Sarı İmperatorun[14] «Hərb sənəti» əvvəlki nəsillər vasitəsilə «Çeviyin hücum kanonu» və «Ağlasığmaz dəyişikliklərin əhatə edilməsi kanonu» kimi ötürülmüşdü. Bu haqda nə deyə bilərsiniz?

Li Tszin dedi:

- «Çevik» ieroqlifi «ağlasığmaz dəyişikliklər» ieroqlifi kimi ifadə olunur. Buna görə, bəziləri adı ikinci kimi ötürmüşdü, ancaq mənası elə həminkidir. Əgər biz əsərin özünü öyrənsək, onda görərik:

«Dördü bilavasitə, dördü – çevikdir». Hərəkəti dayandıran qoşunlar– «ağlasığmaz dəyişikliklərin mühasirəyə alınması üçündür». Burada «çevik» ieroqlifi «qalıq» mənasını verir. Buna görə, bu halda o «tszi»[15] kimi ifadə olunur. Mənim dəyərsiz fikrim budur ki, ağlasığmaz heç nə yoxdur, buna görə, nə üçün bu barədə danışarkən diqqəti «əhatə etməyə» ayırırlar? Bu «qalanlar» olmalıdır, o zaman bu doğru olar.

Bilavasitə qoşunlar hökmdardan əmr alırlar, çevik qoşunlara isə sərkərdə özü əmr edir. Sun-tszı deyib: «Əgər əmrlər daim adamları öyrətmək üçün həyata keçirilirsə, o zaman adamlar tabe olacaqlar». Bu hökmdardan əmr alanlar haqqındadır. Daha sonra o, deyir: «Qoşunların istifadə edilməsi haqqında əvvəlcədən danışmaq olmaz» və «hökmdarın yerinə yetirilməyən əmrləri var». Bu sərkərdənin özünün verdiyi əmrlər haqqındadır.

Sərkərdələrə gəldikdə: əgər onlar bilavasitə taktikadan istifadə edirlər və heç bir çevik taktika yoxdursa– bu müdafiə sərkərdələridir. Əgər onlar heç bir bilavasitə taktika olmadan çevik taktikadan istifadə edirlərsə, bunlar hücum sərkərdələridir. Əgər onlar hər iki taktikadan istifadə edirsə, bu, dövləti qorumağa qadir olan sərkərdələrdir. Buna görə, «ağlasığmaz dəyişikliklərin əhatə edilməsi» və «çeviklərin əhatə edilməsi» əslində iki qayda deyil. Hərbi strategiyanı öyrənənlər hər ikisini dərindən başa düşürlər!

* * *

Tay-tszun dedi:

-«Ağlasığmaz dəyişikliklərin əhatə edilməsi kanonu»nda deyilir: «Birləşmələrin sayı– doqquzdur, ortada– Ali sərkərdənin idarə etdiyi qalıqdır. «Dörd tərəf» və «səkkiz istiqamət» burada müəyyən edilir. Əsas birləşmənin içərisində birləşmələr yerləşir; dəstələrin içərisində dəstələr yerləşir. Onlar ön dəstələrdən arxa dəstələr kimi və əksinə istifadə edə bilərlər. Hücum edərkən onlar tez getmirlər; geri çəkilərkən qaçmırlar. Dörd baş, səkkiz quyruq var. Düşmən haradan zərbə vursa, baş cavab verir. Əgər düşmən ortaya hücum edirsə, yaxındakı iki baş köməyə gələcək. Saylar beşdən başlayır və səkkizlə qurtarır». Bütün bunlar nə deməkdir?

Li Tszin dedi:

-Çjuqe Lyan daşları üfüqi və şaquli yerləşdirirdi ki, səkkiz sıra quraşdırmaq mümkün olsun. Kvadratşəkilli sıraların tərtib edilmə qaydası məhz belədir. Mən orduya təlim keçərkən, mütləq belə düzülüşdən başlayırdıq. Nəsillərin «Ağlasığmaz dəyişikliklərin əhatə edilməsi kanonu» kimi ötürdükləri, güman ki, ancaq kobud layihədir.

* * *

Tay-tszun dedi:

-Səma, Torpaq, külək, buludlar, əjdahalar, pələnglər, quşlar və ilanlar– bu səkkiz düzülüşün mənası nədir?

Li Tszin dedi:

-Bunları bizə ötürənlər səhvə yol veriblər. Qədimlər bu qaydaları səylə gizlədirdilər, buna görə onlar ustalıqla səkkiz ad uydurublar. Səkkiz düzülüş əvvəlcə bir olub, sonradan səkkizə bölünüb. Məsələn, «Səma» və «Torpaq» cinahların işarələrindən yaranıb; «külək» və «buludlar» bayraqların adından əmələ gəlib. «Əjdahalar», «pələnglər», «quşlar» və «ilanlar» - dəstələrin və «beşliklər»in bölünməsindən əmələ gəlib. Sonrakı nəsillər onları səhvən ötürüblər. Əgər qədimdəkilər düzülüşü heyvanlara oxşadaraq müdrikcəsinə tərtib etsəydilər, onda bəs nə üçün səkkiz rəqəmi üzərində dayanırdılar?

* * *

Tay-tszun dedi:

-Saylar beşdən başlayıb, səkkizdə qurtarır, buna görə, əgər onlar həqiqətən obrazlar kimi təyin edilməyibsə, deməli bu doğrudan da qədim düzülüşdür. Onları məna izah edə bilməzsiniz ki?

Li Tszin dedi:

-Hesab edirəm ki, Sarı İmperator, müharibəni ilk əvvəl «kəndlər və su quyuları»[16] sistemini müəyyən etdiyi qaydaların köməyi ilə aparıb. Buna görə, «su quyusu» dörd yol ilə ayrılmışdı, və səkkiz ailə onu tutmuşdu. O «su quyusu» ieroqlifinə bənzər formada idi, buna görə orada doqquz meydan açılmışdı. Beş meydan qayda-qanun üçün istifadə olunurdu, dördü boş idi. Məhz bu «sayların beşdən başladığı» kimi bildirilir.

Orta boş qalırdı və sərkərdə üçün nəzərdə tutulmuşdu, dörd tərəfə isə müxtəlif birləşmələr rəvan şəkildə yerləşirdi, elə buna görə də «səkkizlə qurtaran» adlanır.

Düşmən üzərində nəzarət üçün dəyişilmə və çevrilməyə gəldikdə isə: onlar qarışıq düşüblər və narahatdırlar, onlar nizamsız döyüşürlər, ancaq onların qaydaları qarışıq deyil. Qeyri-müəyyən və dəyişkən, onların sıraları pozuqdur, ancaq onların strateji gücü (şi) dağınıq deyil. Məhz bu «bölünüb səkkiz olurlar, birləşirlər və yenə də bir olurlar», adlanır.

* * *

Tay-tszun dedi:

-Sarı İmperatorun necə müharibə aparması həqiqətən müdrik idi! Gələcək nəsillərdə Səmanın müdrikliyindən pay almış və ruhlar kimi hesablamaq bacarığı olan adamlar olsa belə, heç kim onu keçə bilməz! Bundan sonra kim ona yaxınlaşıb?

Li Tszin dedi:

-Çjou sülaləsi birinci dəfə çiçəklənəndə, Tay-qun onun qaydalarını bütövlükdə təkrar etdi. Tsi dövlətinin paytaxtında o quyu sistemindən, üç yüz cəng arabasının hazırlanmasından və üç yüz «Pələng keşikçisi»nin təlimindən başladı ki, hərbi təşkilat yaratsın. Onlar döyüş taktikasını öyrənərək, «altı addım, yeddi addım» irəliləməsi ilə məşq edir, «altı hücum, yeddi hücum» keçirirdilər. O, ordunu Mue yaxınlığında yerləşdirəndə, Tay-qun yalnız yüz komandirlə ordunu idarə edirdi və qələbə qazandı. Qırx beş minlik ordu ilə o, tiran Çjounun yeddi yüz minlik qoşununu fəth etdi.

Çjou sülaləsi dövründə «Sıma fa» Tay-qunun qaydalarına əsaslanırdı. Tay-qun vəfat etdikdə, Tsi şahlığının adamları nəsillərə ötürülmüş strategiyaları əldə etdilər. Knyaz Xuan-qun Çində hegemon olduqdan sonra o, yenidən Tay-qunu öyrənən Quan Çjuna əsaslanırdı. Onların ordusu «səbrli və idarə olunan qoşun» adlanırdı və bütün udel knyazları onlara tabe oldular.

* * *

Tay-tszun dedi:

-Konfusianlar deyirlər ki, Quan Çjun sadəcə hegemonun (əsl hökmdarın deyil) naziri idi. Buna görə onlar Quan Çjunun hərb qanunlarının hökmdarın göstərişlərinə əsaslandığını bilmirlər. Çjuqe Lyan hökmdar köməkçisi olmaq istedadına malik idi və özünü Quan Çjun və Yue İ ilə müqayisə edirdi. Buna görə biz bilirik ki, Quan Çjun həm də hökmdarın etibarlı dayağı idi. Çjou tənəzzül etdikdə, hökmdar ondan istifadə edə bilmədi, buna görə Quan Çjun Tsi dövlətini qəbul etdi və orada ordu topladı.

Li Tszin iki dəfə təzim edərək, dedi:

-Əlahəzrət kamil müdrikdir! Bir halda ki, siz adamları belə yaxşı başa düşürsünüz, sizin qoca naziriniz ölsə belə, o, qədimlərin ləyaqətlilərindən heç birinin qarşısında utanmayacaq.

Mən Quan Çjun tərəfindən Tsi dövlətinin təşkil edilməsi qaydaları haqqında danışmaq istərdim. O, Tsini böldü ki, üç ordu yaratsın. Beş ailə əsas vahidi təşkil edirdi, beş əsgər isə– «beşliyi». On ailə balaca kəndləri təşkil edirdi, əlli adam isə– dəstəni.

Dörd balaca kənd bir kəndi, iki yüz adam isə birləşməni təşkil edirdi. On kənd şəhəri təşkil etdiyi üçün iki min adam polk təşkil edirdi. Beş şəhər ordu üçün əsgərlər verirdi, buna görə on min əsgər ordunu təşkil edirdi. Bütün bunlar «Sıma fa»da başlanırdı. Burada deyilir ki, bir ordu beş polkdan, bir polk isə beş birləşmədən ibarətdir. Həqiqətdə, bütün bunlar– Tay-qunun vəsiyyət etdiyi qaydalardır.

* * *

Tay-tszun dedi:

-Adamlar deyirlər ki, «Sıma fa»nı Jan-tszyuy tərtib edib. Bu doğrudur, ya yox?

Li Tszin dedi:

-«Şi tszi»də olan «Jan-tszyuyun bioqrafiyası»na görə o, Tsi hökmdarı Tszin-qunun vaxtında Yan və Tszinin qoşunlarını məğlub edərək uğurla orduya komandanlıq edib. Tszin-qun ona «atların sərkərdəsi» (sıma) titulu verib. O vaxtdan da onu Sıma Jan-tszyuy çağırmağa başlayıblar. Onun oğulları və nəvələri Sıma soyadı alıblar. Tsi hökmdarı Vey-vanın idarəçiliyi vaxtında qədim «atları idarə edənlər»in (sıma) qaydalarını axtarırdılar. Nəhayət, «Sıma Jan-tszyuy» adlandırılan on fəsildən ibarət kitab meydana çıxdı. Daha sonra hərbi strateqlər tərəfindən ötürülən və bu gün də qorunub saxlanılan dörd kateqoriyaya ayrılır: «qüvvələrin və qrupların tarazlığı», «mövqe və strateji güc», «in və yan» və «vasitələr və sənət». Bunlar hamı başlanğıcını «Sıma fa»dan götürür.

* * *

Tay-tszun dedi:

-Xanın idarəçiliyi vaxtında Çjan Lyan və Xan Sin hərb sənətinə dair kitabları qaydaya saldılar. Cəmi yüz səksən iki mütəfəkkir var idi. Ancaq onlar mühüm olanı seçmək üçün bu mütəfəkkirləri tutuşdurduqdan və düzəlişlər etdikdən sonra, otuz beşini müəyyən etdilər. Biz onların çatdırdıqlarını itirdik. Bu barədə nə deyərsiniz?

Li Tszin dedi:

-Çjan Lyanın öyrəndikləri Tay-qunun «Altı məxfi təlim» və «Üç strategiya»sıdır. Xan Sinin öyrəndiyi «Sıma Jan-tszyuy» və «Sun-tszı»dır. Lakin əsas prinsiplər «üç darvaza» və «dörd tip»in sərhədindən kənara çıxmır, vəssalam!

* * *

Tay-tszun dedi:

-«Üç darvaza» nədir?

Li Tszin dedi:

-Mən hesab edirəm ki, «Tay-qunun planları»nın səksən bir fəsli «məxfi strategiya» adlandırılanı sözdə; «Tay-qunun söhbətləri»ndəki yetmiş bir fəsli müharibədə; «Tay-qunun müharibələri»ndəki səksən beş fəsli vəsaitlərdə tükəndirmək olmaz. «Üç darvaza» belə

* * *

Tay-tszun dedi:

-«Dörd tip» nədir?

Li Tszin dedi:

-Onlar haqqında Jen Xun Xanın vaxtında danışıb. Hərbi strategiyaların tiplərinə gəldikdə, «qüvvə və qrupların tarazlığı» bir tipi, «mövqe və strateji güc» daha birini təşkil edir, «in və yan» və «vasitələr və sənət» isə – qalan ikisini. «Dörd tip» belədir.

• • •

Tay-tszun dedi:

-«Sıma fa» yaz və qışdakı təntənəli ovlardan[17] başlanır. Nə üçün?

Li Tszin dedi:

-Fəsillərə müqavimət göstərmək, ruhlarla əlaqəni möhkəmləndirmək və onların mahiyyətini qeyd etmək üçün. «Çjou li»yə görə («Çjounun ayinləri») bunlar ən vacib dövlət işləri idi. Çen-van yaz ovunu Tsi-şan dağının cənub yamacında edirdi. Kan-van hamını Fen sarayında yığardı. Mey-van hamını Tuşan dağına toplayardı. Bu Səma Oğlunun işidi.

Çjou idarəçiliyi zəiflədiyi vaxt Tsi hökmdarı Xuan-qun dövlətlərin ordularını Çjaolində bir yerə yığdı, Tszin hökmdarı Ven-qun isə Tszyantuda knyazlarla ittifaqa girdi. Bütün bu hallarda, knyazlar ehtiramla Səma Oğlunun işlərini yerinə yetirirdilər. Əslində onlar sayğısız olanları qorxutmaq üçün «Doqquz hücum qanunu»ndan[18] istifadə edirdilər. Ov etmək bəhanəsi ilə onlar saraya toplaşar, knyazlarla ov təşkil edərək, onlara silah və yaraqdan istifadə etməyi öyrədərdilər. «Sıma fa»da deyilir ki, ümumi təhlükə yoxdursa, ordunu bir yerə yığmaq lazım deyil, ancaq fəsillər arasında onlar hərbi hazırlıqlar haqqında unutmamalıdır. Buna görə də, məgər yaz və qış ovlarının lap əvvəldə yerləşdirildiyi ağıllı fikir deyilmi?

• • •

Tay-tszun dedi: «Baharlar və Payızlar» dövründə, «Çu hökmdarı Çjuan-vanın gücləndirilmiş dəstəsinin qaydaları»nda deyilib ki, «yüz komandir cisimlərin əlamətlərinə uyğun hərəkət etməli, hərbi idarəçiliyi rəsmi əmrlər olmadan hazırlamaq lazımdır». Bu Çjounun qaydalarına uyğun gəlirdimi?

Li Tszin dedi:

-«Tszo çjuana» müvafiq olaraq, «Çjuan-vanın cəng arabaları birləşmələri (quan) hər biri otuz cəng arabasından ibarət idi. Birləşmədəki hər bir cəng arabası piyada dəstəsinə (tszu) və cinahlarda qrupa (lyan) malik idi». «Ordu hücuma keçdikdə, sağda olanlar kolonnaya çevrilirdi. Onlar kolonnanı müdafiə vasitəsi kimi istifadə edirdilər. Buna görə döyüşdə onlar kolonnanın yanında qalırdılar. Bütün bunlar Çjounun qaydaları idi.

Çunun halında mən yüz adamı «tszu» adlandırıram, əlli nəfəri isə «lyan» adlandırırlar. Buna görə, hər bir cəng arabasını, Çjounun hərbi təşkilatındakından xeyli çox olan, yüz əlli adam müşayət edir. Çjounun vaxtında hər bir cəng arabasını yaraq-əsləhəli yetmiş iki piyada və üç komandir müşayət edirdi. İyirmi beş adam, komandir də daxil omlaqla, bir «lyanı» təşkil edirdi. Buna görə, Çjounun üç qrupunda (lyanda) cəmi yetmiş beş adam vardı. Dağlar və bataqlıqlar dövləti olan Tsidə cəng arabası az, adam çox idi. Əgər

onları üç hissəyə (duy) bölsəydilər, onda bu elə Çjounun vaxtındakı kimi olardı.

* * *

Tay-tszun dedi:

-«Baharlar və Payızlar» dövründə, Syun U diyə hücum edəndə, piyada sıraları təşkil etmək üçün cəng arabalarını atdı. Bunlar bilavasitə qoşunlar idimi? Yoxsa çevik qoşunlardı?

Li Tszin dedi:

-Syun U cəng arabaları döyüşü strategiyasından istifadə edirdi, vəssalam! O, cəng arabalarını atmışdısa da, onun strategiyası belədir. Qüvvələrin biri soldan, digərləri sağdan hərəkət edirdi, üçüncüləri isə ortada düşmənə müqavimət göstərirdi. Qoşunları üç hissəyə bölmək– bu bir taktikadı. Cəng arabalarının sayı min olsun, ya on min– eyni şeydir. Mən bilirəm ki, Tsao Tsaonun «Sin şu» əsərində deyilib:

«Hücum arabalarını yetmiş beş adam müşayət edir. Düşmənə müqavimət göstərmək üçün irəlidə bir dəstə, soldan və sağdan– digər iki dəstələr. Müdafiə arabalarının əlavə dəstəsi var. Bu dəstə, yemək hazırlamalı olan on adamdan ibarətdir; beş adam ləvazimatın təmiri və qayğısına qalmaq üçün; beş adam atlara qulluq etmək üçün və beş adam da çırpı toplamaq və su tapmaq üçün– cəmi iyirmi beş adam. Bir cüt hücum və müdafiə arabası üçün cəmi yüz adam». Əgər yüz minlik ordu yığırsansa, min ədəd yüngül (hücum edən) və ağır (müdafiə olunan) cəng arabasından istifadə et. Bu Syun U-nun köhnə qaydalarının ümumi eskizidir.

Daha sonra mən bilirəm ki, Xan dövründən Vey zamanına qədər, qaydalara əsasən (uyğun olaraq), beş cəng arabası onlara başçılıq edən müşahidəçi ilə dəstəni (duy) təşkil edirdi.

On cəng arabası, komandirin idarəçiliyi altında «şi» təşkil edirdi. Min cəng arabası üçün iki adam vardı– sərkərdə və onun köməkçisi. Əgər cəng arabalarının sayı çox idisə, o zaman onlar prinsipə əməl edirdilər.

Əgər bunu bugünkü ilə müqayisə etsək, o zaman bizim kəşfiyyat qoşunları– süvari dəstəsidir; hücum qoşunlarımız– süvarilər və piyadalar, yarıbayarı; bizim gizlənmiş qoşunlarımız isə, cəng arabalarının qarışıq taktikasından istifadə edərək, irəli gedirlər.

Mən, türkləri sakitləşdirmək və fəth etmək üçün qərbə tərəf gedəndə, düşmən ərazisi ilə bir neçə min li yol keçdik. Mən bir dəfə də olsun bu qaydaya xəyanət etməyə cürət etməmişəm, çünki qədimlərin məhdudiyyətlərinə və göstərişlərinə bütünlüklə etibar etmək olar.

* * *

İmperator Tay-tszun Lin-çjounun yanına gedərək onu şərəfləndirdi. Qayıtdıqdan sonra o, Li Tszini çağırıb, oturmaq təklif etdi. O, dedi:

-Mən syue-yantonu sakitləşdirmək və fəth etmək üçün Dao-tszuna, Aşin Şeerə və başqalarına yürüş təşkil etməyi əmr etmişəm. Tele xalqları xan məmur idarəetməsinin yaradılması xahişilə müraciət etdilər və mən onların xahişini qəbul etdim. Yantolar qərbə qaçdılar, ancaq mən qorxuram ki, onlar bizimçün narahatlıq mənbəyinə çevrilərlər. Buna görə də Li Tszini göndərdim ki, onlara hücum etsin. Bu gün bütün şimal vilayətləri əmin-amanlıqda yaşayırlar, ancaq barbarların müxtəlif tayfaları və xanlılar bir-birlərinə qarışıblar.

Biz onların hamısını yerləşdirmək və qoruyub saxlamaq üçün hansı tədbir görə bilərik?

Li Tszin dedi:

-Əlahəzrət ön kənara nəzarət etmək üçün türklərdən xueyxelərə (uyğurlara) qədər altmış altı qoruqçu postlarından ibarət sərhəd xətti yaratmağı əmr etdi. Bu addım artıq vacib tədbirdir. Ancaq mənim dəyərsiz fikrim beladir ki, xanlıların müdafiə qoşunlarını bir qaydaya, barbarları isə başqa qaydaya öyrətmək rahat olardı. Əgər onların təlimi və məşqləri ayrıdırsa, onlara bir-birinə qarışmağa və bir-biri ilə eyni rəftar etməyə icazə verməyin. Əgər biz başqa tayfanın hücumuna məruz qalsaq, lazımi anda gizlincə sərkərdələrə fərqləndirmə nişanlarını və formalarını dəyişməyi və onlara hücum etmək üçün çevik metodlardan istifadə etməyi əmr edə bilərik.

Tay-tszun dedi:

-Nə üçün?

Li Tszin cavab verdi:

-Bu üsul «aldadıcı təəssürat yaratmaq üçün müxtəlif qaydaların təzahürü» adlanır. Əgər barbarlara xanlar kimi göz qabağına gəlməyi əmr etsək, xanlara isə barbarların geyimlərini geyindirsək, düşmən onlar arasındakı fərqləri bilməyəcək. O zaman heç kim bizim hücum və müdafiə hesablamalarımızdan baş açmayacaq. Müharibəni bacarıqla aparan kəs, hara gedirsə- etsin, birinci növbədə,qat-qat çox olmaq üçün qüvvə sərf edir.

Tay-tszun dedi:

-Bu bütünlüklə mənim fikirlərimə uyğundur. Siz gedib bizim sərhəddəki sərkərdələrimizə gizlicə əmr verə bilərsiniz ki, ancaq xanları və varvarları ayırd edərək, biz bilavasitə və çevik müharibə qaydalarını aydınlaşdıra bilərik.

Li Tszin iki dəfə təzim edərək dedi:

-Sizin fikirləriniz kamil müdrikin fikirləridir, Göylərdən gəlir! Siz biri haqqında eşidirsinz, ancaq onun haqqında bilirsiniz. Mən bütün bunları bütöv necə ifadə edə bilərəm?

* * *

Tay-tszun dedi:

-Çjuqe Lyan deyirdi: «Yaxşı təşkil olunmuş ordu, hətta bacarıqsız sərkərdənin komandanlığı altında darmadağın edilə bilməz. Nizam-intizam olmayan ordu, hətta bacarıqla sərkərdənin komandanlığı altında belə qələbə çala bilməz». Mən onun sözlərinin ali prinsiplər ifadə etmədiyinə şübhə edirəm.

Li Tszin dedi:

-Çjuqe Lyan bunu qoşunu ruhlandırmaq üçün deyib. Mən bilirəm Sun-tszı deyib ki: «Əgər təlim və məşqlər qurtarmayıbsa, komandir və qoşunların daimi öhdəlikləri yoxdur, onların döyüş sırası düz deyilsə, bu nizamsızlıq adlanır. Belə nizamsız ordunun qələbə çaldığı haqda ta qədimlərdən heç nə yazılmayıb!» «Təlim və məşqlər qurtarmayıb» sözlərinə gəldikdə isə, bu qədimlərin qaydalarından məhrum olmuş təlim və nəzarətdən danışır. «Komandir və qoşunların daimi öhdəlikləri yoxdur» dedikdə o, hakimiyyət hüququ verilmiş sərkərdələrin və onların tabeçiliyində olanların öz vəzifələrində uzun müddət qalmadıqlarını nəzərdə tutur. «Qələbəni uzaqlaşdıran nizamsız ordu»dan danışarkən o, bu ordunun düşmən tərəfindən tutulduğunu yox, özünü məhv etmə və məğlubiyyəti nəzərdə tutur. Buna görə Çju-qe Lyan deyirdi ki, əgər ordu yaxşı təşkil olunub və təlim keçibsə, hətta pis sərkərdə ilə də o məğlub olmaz. Əgər qoşunlar özləri nizamsızdırlarsa, onda sərkərdə müdrik olsa belə, onlar təhlükədə olacaqlar. Nə kimi şübhə ola bilər?

* * *

Tay-tszun dedi:

-Ordunun təlimi və hazırlığına həqiqətən laqeydlik göstərmək olmaz.

Li Tszin dedi:

-Hazırlıq qaydaya uyğun olanda, komandirlərin onlardan istifadə etdikdə zövq alırlar. Təlim qaydaya uyğun olmayanda, onda onlara nəzarət etsən və səhərdən axşama qədər söysən də, xeyri olmayacaq. Qədim qaydaları dərindən öyrənməyimə və onları bütün sxemlərlə müqayisə etməyimə səbəb, yaxşı idarə olunan ordunun nə demək olduğunu mümkün qədər başa düşmək istəyim olub.

Tay-tszun dedi:

-Zəhmət olmasa, qədimlərin hərbi intizamı idarə etmək qaydalarını seçin və mənim üçün onlara uyun sxem tərtib edin.

* * *

Tay-tszun dedi:

-Barbarların orduları hücum edərkən, yalnız özlərinin dözümlü atlarına güvənirlər. Onlar çevik qoşunlardırmı? Xan orduları, düşməni zəiflətmək üçün yalnız öz arbaletçilərinə güvənirlər. Onlar bilavasitə qoşunlardımı?

Li Tszin dedi:

-Sun-tszıya görə, «Müharibəni bacarıqla aparanlar qələbəni adamlara arxalanmaqda deyil, strateji qüvvədə axtarırlar. Buna görə onlar adamları vəzifələrə seçə bilər və strateji qüvvəni istifadə edə bilərlər». «Adamların seçilməsi» dedikdə, barbarların və xanların nisbi gücünə müvafiq olaraq döyüşə girmək başa düşülür. Barbarlar atları ilə güclüdürlər. Atlar– sürətli döyüşdə sərf edir. Xan qoşunları arbaletləri ilə güclüdür. Arbaletlər– uzun sürən döyüşdə sərfəlidir. Burada hər kəs təbii olaraq özünün strateji gücünə arxalanır, ancaq onları bilavasitə və çevik qoşunlar kimi fərqləndirmək olmaz.

Əvvəllər mən barbar və xan dəstələrinin fərqləndirə nişanı və formalarını necə dəyişməli olduqları haqda, bilavasitsə və çevikliyin bir-birini necə qarşılıqlı surətdə yetişdirmələri qaydası haqqında danışmışdım. Atların da bilavasitə taktikası var, arbaletlər də çevik istifadə edilir. Burada nə kimi sabitlik ola bilər?

Tay-tszun dedi:

-Bu üsulu bir daha ətraflı izah edin.

Li Tszin dedi:

-Əvvəlcə formanı göstərin və düşməni onu izləməyə məcbur edin. Sənət budur.

Tay-tszun dedi:

-İndi mən bunu başa düşürəm. Sun-tszı demişdi: «Ordu üçün forma almağın mənası– forması olmayana yaxınlaşmadadı».

Və «düşmənin formasına uyğun olaraq, biz öz qoşunlarımıza qələbəyə aparıb çıxaran üsulları zorla qəbul etdiririk, ancaq qoşunlar onları başa düşmək iqtidarında deyildir». Bu belədir!

Li Tszin dedi:

-Həqiqətən dərindir! Əlahəzrətin müdrik fikirləri artıq bunun yarısından çoxunu dərk etmişdir.

* * *

Tay-tszun dedi:

-Bu yaxınlarda tsi-dan (kidaney) və si xalqlarının qalıqları tamamilə tabe oldular. Mən müəyyən etdim ki, Sunmo və Jaole torpaqlarından iki tayfa başçısı Anbeyin protektoratı altında birləşəcəklər. Mən Syue Van-tseni qubernator təyin etmək istəyirəm. Siz nə fikirləşirsiniz?

Li Tszin dedi:

-Van-tse Aşina Şeer, Çjişi Sıli və ya Tsibi Xeli qədər münasib deyil. Onlar hamısı hərb işlərini yaxşı bilən barbarlardı. Bir dəfə mən onlarla Sunmo və Jaole vilayətlərindəki dağlar, çaylar və yollar, həmçinin onlarla xalqların yaşadıqları qərb vilayətlərindəki itaətkar və azğın barbarlar haqqında danışmışam. Onlara tamamilə etibar etmək olar. Mən onlara mövqeləri tutma qaydalarını öyrədirdim, onlar da bütün hallarda başlarını yellədərək mənim təlimatlarımı qəbul edirdilər. Ümid edirəm ki, onlara şübhəsiz etibar edəcəksiniz. Van-

tse kimi adamlar cəsurdurlar, ancaq bir qərara gəlmək qabiliyyətindən məhrumdurlar. Həm də ki, təkbaşına məsuliyyət daşımaq çətin olar».

Tay-tszun gülümsəyərək dedi:

-Siz bütün bu barbarlardan yaxşı istifadə etdiniz. Qədimlərdə belə deyirdilər:

«Man və diya hücum etmək üçün man və didən istifadə etmək– bu Orta dövlətin strateji gücüdür». Siz buna nail oldunuz.

II KİTAB

Tay-tszun dedi:

-Mən hərb sənətinə aid bütün kitablara baxmışam, ancaq onlardan heç biri Sun-tszıya üstün gəlmir. Sun-tszının on üç fəslindən heç biri «boş» və «dolu»nu üstələmir. Əgər müharibə apararkən boş və dolunun strateji gücünü qəbul etsən, həmişə qalib gələcəksən. Bizim indiki sərkərdələrimiz ancaq tamdan (doludan) qaçmaq və boşa hücum etmək haqqında danışa bilirlər. Düşmənə yaxınlaşdıqda isə çoxları boş və tamı tanıya bilmir. Ola bilsin bu ona görədir ki, onlar düşməni yaxına gəlməyə məcbur edə bilmirlər, əksinə, düşmən onları məcbur edir. Bu necə ola bilər? Zəhmət olmazsa, bunun əsaslarını bizim sərkərdələrlə müzakirə edin.

Li Tszin dedi:

-Əvvəlcə onlara bilavasitə (çjan) və çeviklərin (tsi) qarşılıqlı surətdə bir-birinə çevrilmələrini öyrədək, bundan sonra boş və tamın forması (sin) haqqında onlara danışmaq mümkün olacaq. Bir çox sərkərdələr çeviyi bilavasitəyə, bilavasitəni isə çeviyə necə çevirməyi bilmirlər, buna görə onlar boşun nə vaxt tam, tamın isə boş olduğunu bilə bilməzlər.

* * *

Tay-tszun dedi:

-Sun-tszıya görə: «Əldə edəcəyinlə itirəcəyinin ehtimalını bilmək üçün onların əleyhinə fikirləş. Onların hərəkət və dayanma formalarını bilmək üçün onları təhrik et. Hansı ərazinin etibarlı, hansının ölümcül olduğunu bilmək üçün, onların mövqeyini təyin et.

Düşmənin artığının və çatışmazlığının harada olduğunu bilmək üçün onları sına». Buna görə çevik və bilavasitə məndən aslıdır, tam və boş isə düşməndən. Bu belədirmi?

Li Tszin dedi:

-Çevik və bilavasitə– boşu və tamı düşmənə qoşmaq vasitəsidir. Əgər düşmən doludursa, mən bilavasitəlikdən istifadə etməliyəm. Əgər düşmən boşdursa, mən çevikliyi istifadə etməliyəm. Əgər sərkərdə çevik və bilavasitəni bilmirsə, düşmənin boş yaxud dolu olduğunu bilirsə belə, o, öz niyyətlərini necə həyata keçirə bilər? Mən ehtiramla sizin mandatı qəbul edirəm. Ancaq ilk öncə

mən bütün sərkərdələrə çevik və bilavasitəni öyrədəcəm, bündan sonra isə onlar boş və dolunu başa düşə bilərlər.

Tay-tszun dedi:

-Əgər biz çevikləri bilavasitə kimi istifadə ediriksə və düşmən onların çevik olduğunu başa düşsə, o zaman mən bilavasitə qoşunla ona hücum edəcəm. Əgər biz bilavasitəni çevik kimi istifadə etsək və düşmən bunun bilavasitə olduğunu başa düşsə, onda mən ona çevik qoşunla hücum edəcəm. Mən elə edəcəm ki, düşmənin strateji gücü daim boş olacaq, mənim strateji gücüm isə həmişə dolu olacaq. Əgər siz sərkərdələrə bu qaydaları öyrətsəniz, onların başa düşmələrini asanlaşdırmaq olar.

Li Tszin dedi:

-Minlərlə traktat, on minlərlə fəsil «başqalarını məcbur etmək, başqaları tərəfindən məcbur olunmamaq» sözündən çox söz işlətmir. Mən elə etməliyəm ki, bunu bütün sərkərdələr eşitsin.

Tay-tszun dedi:

-Mən Yo-çini general-qubernator-sərkərdə Ansiyə tabe olan baş nəzarətçi təyin etmişəm. Biz bu ərazidə xanları və barbar xalqlarını necə idarə və istifadə etməliyik?»

Li Tszin dedi:

-Göylər adamları yaradanda, «barbarlar» və «xanlar» arasında fərq yox idi. Ancaq onların torpaqları çox böyükdür, vəhşi və səhra təbiətdir, onlar yaşamaq üçün ox atmalı və ov etməlidirlər. Buna görə də onlar daima döyüşlərdə və müharibələrdə məşq edirlər. Əgər biz onlara qarşı alicənab davranırıqsa, onlara etibar edir, özümüzə tabe ediriksə və bütünlüklə geyim və ərzaqla təchiz ediriksə, o zaman onlar hamısı Xan adamları olacaq. Əgər əlahəzrət bu general-qubernatoru təyin edibsə, mən xanların bütün sərhəd qoşunlarını toplayıb, onları daxili ərazilərdə yerləşdirməyi xahiş edirəm. Bu onlar üçün vacib olan azuqənin (ərzaq) sayını xeyli azaldar ki, hərbi strateqlər bunu «qüvvə ilə idarə etmə qaydaları» adlandırırlar. Lakin siz barbarların adətlərini yaxşı bilən xan məmurlarını seçməlisiniz, həmçinin bütün ərazi boyu müdafiə istehkamlarını yerləşdirməlisiniz. Vilayəti uğurla idarə etmək üçün bu yetərli olacaq. Əgər biz hər hansı bir təhlükə ilə üzləşməli olsaq, xan qoşunları ora yollana bilər.

* * *

Tay-tszun dedi:

-Sun-tszı qüvvənin idarə edilməsi haqqında nə deyib?

Li Tszin dedi:

-«Yaxındakılarla uzaqdakını gözlə; dincəlmişlərlə yorğunu gözlə; toxlarla acı gözlə». Bu əsası əhatə edir. Müharibəni bacarıqla aparan kəs, bu üçü altıya qədər genişləndirir: «Mənfəətlə gələni tovla. Sakitlikdə narahatları gözlə. Ağırlarla yüngülləri gözlə. Ciddi intizamlılarla diqqətsizləri gözlə. Nizam-intizamla nizamsızları gözlə.

Müdafiə ilə hücumu gözlə. Əgər şərait bunların əksinədirsə, gücün kifayət etməyəcək (kifayət qədər qüvvən olmayacaq). Qüvvələrin sərf edilməsinin idarə edilməsi bacarığı olmadan orduya necə rəhbərlik etmək olar?»

Tay-tszun dedi:

-Bu gün Sun-tszını öyrənən adamlar yalnız sözləri yaddaşlarında təkrarlayırlar. Onun mənasını az adam dərk edib genişləndirir. Qüvvələrin sərf edilməsinin idarə olunma qaydaları bütün sərkərdələrə öyrədilməlidir.

* * *

Tay-tszun dedi:

-Bizim yaşlı sərkərdələrimiz və təcrübəli qoşunlarımızın qüvvələri tükənib və demək olar ki, hamısı ölüb. Ordularımız yenidən toplanıb, buna görə də onların düşmənə qarşı döyüş sırasına düzülmə təcrübələri yoxdur. Əgər biz onları öyrətmək istəyiriksə, ən əsas nə olmalıdır?

Li Tszin dedi:

-Mən əsgərlərin fəaliyyətlərini üç mərhələyə bölməklə onlara təlim keçərdim. Adamlar ilk növbədə «beşin üsulu»na uyğun təşkil olunmalıdırlar. «Beşlik»lərin təşkil edilməsi qurtardıqdan sonra, hərbi təşkilatı ordu və polklarla təmin edin. Bu birinci mərhələdir.

Hərbi təşkilatın ordu və polklara bölünməsi prinsipi birdən ona qədər, ondan yüzə qədər təşkil etməkdədir. Bu da bir mərhələdir.

Onları tabe olan sərkərdələrin komandanlığına verin. Tabe olanlar polkun bütün dəstələrini birləşdirəcək. Onları bir yerə yığın və tərtib sxeminin köməyi ilə öyrədin. Bu daha bir mərhələdir.

Ali Sərkərdə hər üç mərhələdə hazırlığa nəzarət edir, sonra isə onların cəbhə boyu hərbi düzülmə nizamını və ümumi təşkiledilmələrini yoxlamaq və qiymətləndirmək üçün manevrlər edir. Sərkərdə onları *çevik və bilavasitələrə* bölür, qoşunları andla bir-birinə bağlayır və cəzalar tətbiq edir. Əlahəzrət onları yuxarıdan izləyə bilər və bütün vasitələr mümkün olacaq.

* * *

Tay-tszun dedi:

-«Beş üsul»un bir neçə məktəbi var. Ən əhəmiyyətlisi hansıdır?

Li Tszin dedi:

-«Tszonun «Baharlar və Payızlar» salnamələrinə şərh»ə görə: «Əvvəlcə cəng arabaları dəstələri, sonra «beşliklər» (ara verməklə)». Daha sonra «Sıma fa»da deyilib: «Beş adam «beşliyi» təşkil edir». «Vey Lyao-tszı»da «Beşliklər»in bağlanması üzrə əmrlər» adlı fəsil var. Xanın hərbi təşkilatında qeydlər və «beşliklər»in fərqlənmə nişanları üçün bir fut uzunluğunda taxta lövhəcik vardı. Sonrakı əsrlərdə qeydlər və fərqlənmə nişanları kağızda yazılırdı ki, bu da nizamı pozdu.

Mən onların qaydalarını öyrənib, götür-qoy etmişəm. «Beşlikdən» onlar iyirmi beşə qədər dəyişdilər. İyirmi beşdən, yetmiş iki piyada və yaraq-əsləhəli üç komandir olan yetmiş beşə dəyişirlər. Onlar cəng arabalarını qoyub süvari dəstədən istifadə edəndə, iyirmi beş piyada səkkiz atlıya bərabər idi. O vaxt «beşə uyğun gələn beş əsgər» təşkil edilməsi belə idi. Buna görə müxtəlif strateqlərin hərbi qaydaları arasında yalnız «beş qaydası» mühümdür. Ən kiçik qaydada– beş adam, ən böyük qaydada– iyirmi beş. Əgər axırıncını üç dəfə artırsaq, olacaq yetmiş beş. Əgər onları beş dəfə götürsək, 375 alınacaq. Üç yüz adam– bilavasitə qoşunlardı, altmış– çevik. On beşi isə yaraq-əsləhəli komandirlərdi. Bu halda hər birində yüz əlli adam olmaqla iki bilavasitə, həmçinin otuz adamlı iki çevik qoşun yaranacaq ki, hərəsi bir cinahda olacaq. Bu, «Sıma fa»da nəzərdə tutulan «beş adam «beşliyi», on «beşlik» isə dəstəni təşkil edir» qaydasıdır ki, buna bu gün də əsaslanırlar. Məğz bundadır.

* * *

Tay-tszun dedi:

-Mən hərbi strategiyanı Li Tszi ilə müzakirə etdim. O, sizin dediklərinizin çoxu ilə razılaşdı, ancaq Li Tszi bunun yaranmasını kifayət qədər yaxşı başa düşmür. Sizin «altı rəngin düzülüşü»nü təyin etdiyiniz qayda nəyə əsaslanır?

Li Tszin dedi:

-Mən Çju-qe Lyanın «səkkiz hərbi qaydası»na istinad etmişəm. Böyük qaydalar özündə balacaları cəm edir; böyük düşərgələrdə xırdaları var. Bütün sonluqlar birləşdirilib, bütün ayrılıq və yarıqlar uyğun gəlir. Qədimdəkilərin sistemi buna bənzər idi, buna görə mən ona uyğun olaraq sxem təşkil etmişəm. Deməli belə, xarici tərəf kvadratşəkilli olmalıdır, daxili düzülüş isə dairəvi olmalıdır. O zaman onlar, düzgün adlandırıldığı kimi, «altı rəng» olurlar.

Tay-tszun dedi:

-«Xarici tərəf» - kvadratşəkilli, daxili isə– dairəvi» dedikdə nəyi nəzərdə tutursunuz?

Li Tszin dedi:

-Kvadrat düz olandan, dairə isə əyridən əmələ gəlir. Kvadrat düz getməyə, dairə isə dayanmadan dönməyə imkan verir. Buna görə, addımların sayı Torpaqla müəyyən edilib, dairənin hüdudu isə Səmaya uyğundu. Addımlar müəyyənləşib, dairə bitdikdə ordunun dəyişiklikləri səliqəsiz olmayacaq. «Səkkiz nizam», «altı rəngə» çevriləcək. Bu Çju-qe Lyanın köhnə qaydasıdır.

* * *

Tay-tszun dedi:

-Kvadrat çəkərək, addımları, dairəni müəyyənləşdirərək silahı qiymətləndirmək olar. Addımlara əsaslanaraq «ayaqlar» sənətini, silahın köməyilə «əllərin» sənətini öyrətmək olar. Bu əl və ayaqların məşqi üçün yaxşıdır və şübhəsiz düzgün sayılır.

Li Tszin dedi:

-U Tsi deyir: «Ölümcül ərazidə belə onları bölmək olmaz; hətta geri çəkilərkən belə, onlar pərən-pərən düşməyəcəklər». Addımların qaydası beladir. Əsgərlərə təlim keçilməsi şahmat taxtasında fiqurların yerləşdirilməsinə bənzəyir. Əgər meydanı ayıran xətlər yoxdursa, fiqurları necə hərəkət etdirmək olar? Sun-tszı deyirdi: «Ərazi ölçmə əmələ gətirir, ölçmə qüvvələrin qiymətləndirilməsini doğurur. Qüvvələrin qiymətləndirilməsi adamların sayının hesablanmasını doğurur. Adamların sayının hesablanması qüvvələrin müqayisə edilməsini doğurur. Qüvvələrin götür-qoy edilməsi qələbə doğurur. Buna görə, müzəffər ordu unsiya ilə müqayisədə tona bərabərdir, darmadağın edilmiş ordu isə– tona qarşı unsiya kimidir!» Bütün bunlar kvadrat və dairənin ölçülməsindən başlanır.

* * *

Tay-tszun dedi:

-Sun-tszının sözləri həqiqətən dərindir! Əgər ərazini yaxın və ya uzaq kimi, torpağın formasını isə enli və dar kimi müəyyən etməsələr, məhdudiyyətləri necə təyin etmək olar?

Li Tszin dedi:

-Adi sərkərdə çox vaxt məhdudiyyətlərin nə olduğunu bilmir. «Hərb sənətinə müvəffəq olanların strateji gücü kəskinləşdirilmiş, onların strategiyaları dəqiqdir.

Onların strateji gücü sona qədər çəkilmiş arbaletə, onların məhdudiyyətləri tətiyin basılmasına bənzəyir». Mən bu qaydalar üzrə məşq etmişəm. Belə ki, piyada qoşun dəstələri bir-birindən on addım məsafədə, müdafiə dəstələri (cəng arabaları)– piyada qoşunun əsas qüvvəsindən iyirmi addım məsafədə yerləşir.

Onların arasında bir döyüş dəstəsi yerləşir. İrəliləmə zamanı əlli addım bir ölçüdür. Şeypurun ilk səsləri ilə bütün dəstələr dağılışır və öz mövqelərini tutur, bu vaxt onlar bir-birindən on addımdan çox aralanmırlar. Dördüncü siqnalla onlar nizələrini dikəldərək otururlar. Sonra təbillər üç həmlə və üç qışqırıq üçün vurulur və hər dəfə onlar otuz addımdan əlli addıma qədər irəliləyirlər ki, düşmənin dəyişikliklərini izləsinlər. Süvari dəstəsi hər dəfə əlli addım irəliləməklə, içəridən çıxır. Ön tərəfdə– bilavasitə qoşunlardı, arxada– çevik. Düşməni müşahidə et, sonra yenə təbil çal, ön tərəfdəkilər çevik olur, arxadakılar isə– bilavasitə. Yenə düşməni irəliləməyə məcbur et, onun çatlarını müəyyənləşdir və onun boşluqlarına hücum et. «Altı rəng»in döyüş qaydası ümumilikdə belədir.

* * *

Tay-tszun dedi:

-Tsao Tsaonun «Sin şu» əsərində belə deyilir: «Sıralarını düşmənə qarşı düzəndə, birinci növbədə bayraqlarını yerləşdir və qoşunlarda onlara uyğun olaraq döyüş sıraları yarat. Qoşunların bir hissəsi hücuma məruz qalanda, köməyə gəlmək üçün hərəkət etməyənlərin başları vurulacaq». Bu nə taktikadı belə?

Li Tszin dedi:

-Düşmənə yaxınlaşmaq və bayraqları yerləşdirmək– düzgün deyil. Bu qayda yalnız əsgərlərə hərbi taktika təlim edilərkən tətbiq edilə bilər. Hərb sənətini gözəl bilən qədimlər, bilavasitəliyi öyrədirdilər, onlar çevikliyi öyrətmirdilər. Onlar qoşunları qoyun sürüsü kimi idarə edirdilər. Qoşunlar onlarla birlikdə hücum edir, onlarla birlikdə geri çəkilirdilər, ancaq onlar hara getdiklərini bilmirdilər. Tsao Tsao ötkəm idi və qələbə qazanmağı sevirdi. O dövr sərkərdələrinin hamısı çatışmazlıqlarının faş olunmasına cürət etməyərək «Sin şu»ya riayət edirdilər. Bundan əlavə, bayraqları döyüşə girməyə başlarkən təyin etmək gec deyilmi?

Mən sizin yaratdığınız «Döyüş intizamının pozulması» musiqi və rəqsini müşahidə etmişəm. Onlar irəlidə dörd bayraq qoyublar, arxada səkkiz bayrağı cəbhə boyu düzüblər. Sağ və sol cinahlar hər biri öz məhdudiyyətlərinə müvafiq olaraq sinc və təbilin səsinə uyğun qaçır və nizamla yeriyərək, dairə boyu hərəkət edirdilər. Bu– «səkkiz sıranın sxemidir», dörd baş və səkkiz quyruq sistemidir. Adamlar ancaq musiqi və rəqsin parıltısını görürlər; onlar hərbi əməliyyatların buna bənzədiyini necə bilsinlər?

Tay-tszun dedi:

-Qədim zamanda, Xan imperatoru Qao-tszu Çini istila edəndə, bir mahnı yazmışdı. Orada deyilirdi: «Mən dünyanın dörd hissəsini mühafizə etmək üçün güclü əsgərləri hardan tapa bilərəm?» Ola bilsin ki, hərbi strategiyanı fikirlərdə ötürmək olsun, ancaq sözlərdə ötürmək olmur. Mən «Döyüş intizamının pozulması»nı yaratdım, ancaq yalnız siz onların forma və mahiyyətini bilirsiniz. Gələcək nəsillər mənim onları bekarçılıqdan yazmadığımı başa düşəcəklərmi?

* * *

* * *

Tay-tszun dedi:

-Beş müxtəlif rəngli bayraq bilavasitə qoşunlar üçün beş istiqaməti müəyyən edirmi? Bayraqlar və kiçik bayraqlar çevik qoşunların düşmənin sıralarına soxulması üçün xidmət edirmi? Bölünmə və təzədən cərgəyə düzülmə– bu dəyişiklikdi; dəstələrin müvafiq sayını necə təyin etməli?

Li Tszin dedi:

-Mən qədimlərin qaydalarını öyrənmişəm və onlardan istifadə edirəm. Ümumilikdə, üç dəstə rastlaşanda onların bayraqları bir-

birinə tərəf əyilir, ancaq çarpazlaşmır. Beş dəstə birləşdiyi vaxt, onlardan ikisinin bayraqları çarpazlaşır. On dəstə birləşdikdə, beşinin bayrağı çarpazlaşır. Şeypur səsi gələndə beş çarpazlaşmış bayraq ayrılır və vahid dəstə dağılaraq on dəstə əmələ gətirir. Çarpazlaşmış iki bayraq ayrıldıqda, vahid dəstə yenə səpələnərək beş dəstə əmələ gətirir. Bir-birinə tərəf əyilmiş, ancaq çarpazlaşmamış iki bayraq, ayrılaraq vahid dəstədən üç dəstə əmələ gətirir.

Əsgərlər bölünüblərsə, onları birləşdirmək– çeviklikdir; birləşiblərsə, onları ayırmaq– bilavasitəlikdir. Əmrləri üç dəfə ver, onları beş dəfə izah et. Onlara üç dəfə bölünməyi, üç dəfə yenidən düzülməyi əmr et. Sonra onlara bilavasitə sıraya düzülməyi əmr et. Bundan sonra onlara «dörd baş və səkkiz quyruq»u öyrətmək olar. Bu, dəstələrin təlim qaydalarına uyğun olanıdır.

Tay-tszun onun mühakimələrini tərif etdi.

* * *

Tay-tszun dedi:

-Tsao Tsaonun döyüşən süvari dəstəsi, hücum edən süvari dəstəsi və dolaşan süvari dəstəsi vardı. Bizim indiki süvari dəstəsinin və ordunun hansı hissələrini onlara oxşatmaq olar?

Li Tszin dedi:

-«Sın şu»ya görə: «Döyüşən süvari dəstə qabaqda dayanır, hücum edən süvari dəstə ortada durur, dolaşan süvari dəstə arxada olur». Əgər belədirsə, onda onlar hər biri öz adına və təyinatına uyğun müəyyənləşdirilmişdir, buna görə də üç tipə ayrılıblar. Ümumiyyətlə, səkkiz atlı gücünə görə, cəng arabalarını müşayiət edən dörd piyadaya bərabər idilər. İyirmi dörd atlı gücünə görə yetmiş iki nəfər cəng arabasını müşayiət edən piyadaya bərabər idi. Qədim qayda-qanun belə idi.

Cəng arabalarını müşayiət edən piyadaları adətən bilavasitə üsullara; atlıları çevik üsullara öyrədirlər. Tsao Tsaoya görə, qabaqdakı, arxadakı və ortadakı süvari dəstə bir-birini qarşılıqlı tamamlayan üç hissəyə bölünürdü, ancaq o, iki cinah haqqında heç nə demir, buna görə də o, yalnız taktikanın bir sualını müzakirə edirdi. Sonrakı nəsillər üç bir-birini qarşılıqlı tamamlayan qüvvələrin məqsədini başa düşmədilər, buna görə də onlar hesab edirdilər ki, döyüşən süvari dəstə hücum edən süvari dəstənin qarşısında olmalıdır; bəs onda dolaşan süvari dəstədən necə istifadə etməli? Mən bu taktikaya yaxşı bələdəm. Əgər döyüş sıralarını cəbhə boyu əksinə düzsək, o zaman dolaşan süvari dəstə ön tərəfi tutacaq, döyüşən süvari dəstə arxa küncü, hücum edən süvari dəstə isə lazımi anda aralanmaq üçün dəyişikliklərə öz münasibətini bildirəcək. Tsao Tsaonun qaydaları belə idi.

Tay-tszun gülümsəyib dedi:

-Tsao Tsao nə qədər adam aldadıb!

• • •

Tay-tszun dedi:

-Cəng arabaları, piyada və süvari dəstələri– hər üçünün bir üsulu var. Onların istifadəsi insandan asılıdırmı?

Li Tszin dedi:

-«Baharlar və Payızlar salnaməsi»ndə danışılan «Yuy-li» döyüş qaydasına görə:

«Əvvəlcə cəng araba dəstələri, sonra «beşliklər» (ara verməklə)». Bu halda onların cəng arabaları və piyadaları var idi, ancaq süvari dəstələri yox idi. Sağ və sol cinahların müqaviməti haqqında söhbətlərdə yalnız müqavimət və müdafiə haqqında danışılır, vəssalam! Onlar qələbə qazanmaq üçün heç bir çevik strategiyadan istifadə etməyiblər.

Tszin hökmdarı Syun U barbar tayfaları olan diyə basqın edəndə, cəng arabalarını buraxdı və onların döyüşçülərini piyada qaydada düzülməyə məcbur etdi. Bu halda çoxsaylı süvari dəstə üstün olardı. O isə yalnız çevik qoşunların istifadəsinə diqqət ayırdı, ancaq müqavimət və müdafiə ilə qayğılanmadı.

Mən onların qaydalarını götür-qoy etmişəm. Ümumilikdə bir atlı gücünə görə üç piyadaya bərabərdir; cəng arabaları və piyadalar da belədir. Onlar qarışıq olanda, onları bir üsulla idarə edirlər; onların istifadəsi adamlardan asılıdır.

Mənim cəng arabalarımın həqiqətən haradan irəliləyəcəyini düşmən necə bilə bilər? Mənim süvari dəstəm həqiqətdə hardan peyda olacaq? Piyadalar hansı istiqamətdə hücuma keçəcək? «Yerin lap dərinliklərində gizlənmiş, Səmanın ən böyük ənginliklərindən get-gedə əksilən, onun biliyi ruhlar kimidir!» Bu sözlər yalnız əlahəzrətə aiddir. Mən necə bu biliyə malik ola bilərəm?

• • •

Tay-tszun dedi:

-Tay-qunun kitabında deyilir: «Altı yüz və ya altmış kvadrat addım ərazidə zodiakın on iki bürcünü göstərmək üçün bayraqlar müəyyənləşdir». Bu nə taktikadır belə?

Li Tszin dedi:

-Min iki yüz addım perimetrli kvadrat götürək. Ondakı hər bir hissə yüz addımlıq sahə tutacaq. Hər beş üfüqi addımdan bir adam qoy; hər dörd vertikal addımdan bir adam qoy. Beş tutulmuş sahələrdə iki min beş yüz adam yerləşəcək, dörd sahə isə boş qalacaq[19]. Bu, «nizamlı sıraya düzülmə» adlanır.

U-van Çjouya hücum edəndə, hər bir «pələng müdafiəçi» üç min adama komandanlıq edirdi. Hər bir sırada altı min döyüşçü var idi, bütün qoşunun sayı isə otuz min idi. Ərazinin çevrəsini cızmaq üçün Tay-qunun üsulu belə idi.

* * *

Tay-tszun dedi:

-Özünüzün «altı rəng sıranız» üçün ərazini necə təsvir edərdiniz?

Li Tszin dedi:

-Böyük manevrlər belədir. Min iki yüz addım ərazidə altı döyüş sırası cəbhə boyu düzülüb, hər biri dörd yüz addım sahəni tutur. Onlar hamı iki kolonnaya bölünüb, ortada uzunluğu min iki yüz addım olan açıq yer məşqlər üçün qalır. Bir dəfə mən otuz min adama təlim keçirdim, hər birləşmədə beş min adam vardı. Bir birləşmə düşərgədə idi; beşi kvadtrat, dairə şəkilli, əyilmiş, düz və bucaq şəklində düzülüşdə məşğul idilər. Biz dayanmazdan əvvəl birləşmələrin hər biri bütün beş dəyişiklikdən keçdi (cəmi iyirmi beş).

* * *

Tay-tszun dedi:

-«Beş mərhələnin döyüş qaydaları» nədir?

Li Tszin dedi:

-Əvvəlcə onlar işığın tərəflərinin rənglərindən ad aldılar, əslində isə ərazinin formasından yaranıblar– kvadrat, dairəvi, düz, əyilmiş və bucaq şəkilli. Əgər ordu əmin-amanlıq vaxtı bu beş yerdə təlim keçmirsə, o düşmənə necə yaxınlaşa bilər? «Hiyləgərlik– müharibənin Daosudur», buna görə də onları «beş mərhələ» adlandırmaqdan ötrü müraciət ediblər. Onları «in-yan» məktəbinin qarşılıqlı törəmə və hopdurma formaları haqqında ideyalarına müvafiq şəkildə təsvir edirdilər. Həqiqətdə isə ordunun forması, əraziyə uyğun şəkildə axan su kimidir. Bu ən əsasıdır.

* * *

Tay-tszun dedi:

-Li Tszi mühasirədə olan qoşunlar üçün kişi və qadın, kvadrat və dairəvi taktikadan danışırdı. Qədim zamanda bu mövcud idi ya yox?

Li Tszin dedi:

-«Kişi» və «qadın» üsulları başlanğıcını xalq ənənəsindən götürür. Həyatda onlar in və yana aiddirlər, vəssalam. Fan Linin[20] kitabına görə: «Əgər sən axırıncısan, in taktikasından istifadə et, əgər birincisən– yan taktikasından istifadə et. Düşmənin yan üsullarını tükəndirdikdə, öz in üsulunu son həddə qədər artır və onu tut». Strateqlərin fikrincə, in və yanın əlçatmaz müəmmalığı bundadır.

Fan Li həm də yazırdı: «Sağı qadın kimi, solu kişi kimi müəyyən et. Günəş doğanda və toran vaxtlar Səma Daosuna uyğun hərəkət et». Beləliklə, sol və sağ, gün doğan və toran vaxtlar zamana müvafiq fərqlənirlər. Onlar çevik və bilavasitənin dəyişmələrində kök salıblar.

Sol və sağ– insandakı in və yan, şəfəq və toranlar– Səmanın in və yanıdır. Çevik və bilavasitə– in və yanın Səmada və insanda qarşılıqlı dəyişməsidir. Əgər hər kimsə onları tutmaq isətəsə və dəyişmək istəməsə, onda in və yan tənəzzül edərdi. Tək bir kişi və qadın formasını necə saxlamaq olar? Buna görə, düşmən qarşısında peyda olanda çevikləri göstər, bilavasitələri göstərmə. Hücuma keçəndə düşmənə həmlə etmək üçün çevik qoşunlardan deyil, bilavasitələrdən istifadə et. Burada «bilavasitə və çeviklər bir-birinə keçir» nəzərdə tutulur.

«Ordu və pusqu» təkcə düzlərdə, dağlarda, otun içində, ağacların arasında olan qüvvələri bildirmir, çünki onları gizlətmək– pusqu yaratmaq vasitəsidir. Bizim bilavasitə qoşunlar dağa, çevik qoşunlar göy gurultusuna bənzəməlidir. Əgər, hətta düşmən düz bizim ön sıraların qarşısında dayanıbsa, heç kim bizim bilavasitə və çevik qoşunların harada olduğunu bilmək iqtidarında deyil. Bu halda mən hansı formada oluram?

* * *

Tay-tszun dedi:

-«Dörd heyvanın» döyüş sıraları da onları simvolizə edən notlara malikdirlər– «şan», «yuy», «vey» və «tszyao». Bu nə üçündür?

Li Tszin dedi:

-Bu– hiyləgərlik Daosudur.

Tay-tszun dedi:

-Onlarsız keçinmək olarmı?

Li Tszin dedi:

-Onları qoruyub saxlayaraq, onlarsız da keçinməyə qadir olacaqsan. Əgər onlarsız keçinirsənsə və onlardan istifadə etmirsənsə, aldadıcı hiylə daha çox olacaq.

Tay-tszun dedi:

-Siz nəyi nəzərdə tutursunuz?

Li Tszin dedi:

-Qədimdəkilər dörd heyvanın adına səmanın, torpağın, küləyin və buludların təyinatını birləşdirərək, həmçinin notlar artıraraq və «şan» və metalın, «yuy» və suyun, «vey» və odun, «tsyao» və ocağın tsikllərini əlaqələndirərək, dörd döyüş sırasının adını gizlədirdilər. Bu qədim hərb strateqlərinin müdrikliyi idi. Əgər onları qoruyub saxlasan, yalançılıq artmayacaq. Əgər onları tullasan, acgöz və axmaqları necə istifadə etmək olacaq?

Tay-tszun dedi:

-Siz bunu gizli saxlamalı və qırağa çıxmağa qoymamalısınız.

* * *

Tay-tszun dedi:

-Sərt cəzalar və qanunlar ona gətirib çıxarır ki, adamlar məndən qorxurlar, düşməndən isə yox. Mən bundan çox sıxılıram. Qədimlərdə imperator Xan Quan-u-di Van Manın tək öz qüvvəsi milyon nəfər olan ordusuna qarşı dayanmışdı. Ancaq o, adamları özünə yaxınlaşdırmaq üçün cəza və qanunlardan istifadə etmirdi. Necə oldu ki, o, qalib gəldi?

Li Tszin dedi:

-Ordunun qələbəsi və ya məğlubiyyəti– təsadüf məsələsi və saysız-hesabsız xüsusiyyətlərdir, onlar hansısa bir vəziyyətlə həll olunmur. Çen Şen və Quan U tsin ordusunu məğlub edəndə onların Tsindəkindən sərt cəza və qanunları ola bilərdimi? İmperator Quan-u-dinin qalxması, görünür, xalqın Van Mana qarşı nifrətinə uyğun gəlirdi. Bir də ki, Van Syun və Van İ hərb strategiyasını başa düşmürdülər və sadəcə ordularının sayı ilə qürrələnirdilər. Bu yolla onlar özlərini məhv etdilər»[21].

Sun-tszıya görə: «Əgər qoşunlar sənə bağlanmazdan əvvəl cəzaları təyin etsən, onlar itaət etməyəcəklər. Əgər qoşunlar sənə bağlandıqdan sonra cəzalar müəyyən olunmasa onları istifadə etmək olmaz». Bu onu göstərir ki, adətən, sərkərdə ilk növbədə əsgərlərə özünü istətməlidir və yalnız bundan sonra sərt cəzalar tətbiq edə bilər. Əgər onların hissləri oyanmayıbsa, bir çoxları yalnız sərt cəzalar tətbiq edildikdən sonra döyüşəcəklər.

* * *

Tay-tszun dedi:

-«Şan şu»da deyilib: «Qorxuducu qüvvə məhəbbəti üstələyəndə, işlərdə uğur qazanılacaq. Nə vaxt ki, məhəbbət qorxuducu qüvvəni üstələyir, uğur olmayacaq». Bu nə deməkdir?

Li Tszin dedi:

-Sevgi birinci olmalıdır, qorxuducu qüvvə ikinci. Bu başqa cürə ola bilməz. Əgər əvvəlcə qorxuducu qüvvə istifadə etsən, sonra sevgini, bu işlərə heç bir xeyir gətirməz. «Şan şu»da tam dəqiqliyi ilə işin sonu müzakirə edilir. Ancaq bu başlanğıcda tətbiq olunacaq üsul deyil. Buna görə Sun-tszının qaydası on min nəsil davamiyyəti boyunca kənar edilə bilməz.

* * *

Tay-tszun dedi:

-Siz Syao Syanı ram edəndə, bizim sərkərdələr öz komandir və əsgərlərini mükafatlandırmaq üçün xəyanətkar məmurların var-dövlətini ələ keçirmək istədilər. Siz razı olmadınız, çünki Xan hökmdarı Qao-tszu Kuay Tunu edam etmədi. Tszyan və Xan çaylarının bütün vilayətləri sizə təslim oldular. Qədimlərin dediyi sözu

xatırladım: «Mülki şəxs adamları cəlb edə və özünə bağlaya bilər, hərbiçi düşməni qorxuya sala bilər». Məgər bu sizə aid deyil?

Li Tszin dedi:

-Xan imperatoru Quan-u-di «qırmızıqaşlıları»[22] ram edəndə, o, üsyan edənlərin düşərgəsinə yoxlama səfəri etdi. Qiyamçılar dedilər: «Syao-van (imperator Quan-u-di) təmiz ürəyinin mərhəmətini başqalarına yönəldir». Güman ki, bu ona görə belə idi ki, hökmdar ilk öncə onların motivlərini və hisslərini tamahkarlıqdan məhrum kimi qiymətləndirdi. Məgər o, öncə görmə qabiliyyətinə malik deyildi?

Mən türkləri ram edəndə xanlar və barbarlardan ibarət qoşunlara başçılıq edirdim. Biz, hətta min lidən artıq məsafə qət etdiyimizdə belə, mən bir nəfər də olsun Yan Qanı öldürmədim və bir nəfər Çjun Tszın[23] boynunu vurmadım. Bu da öz növbəsində mənim şəfqətimin yayılması və xeyrin qorunub saxlanması halı oldu, vəssalam! Əlahəzrətin dedikləri son dərəcə güclüdür, bu məni özünə bərabər olmayan kimi göstərdi. Əgər bu mülki ilə hərbinin birləşməsi məsələsidirsə, mən nə cürətlə bu kimi keyfiyyətlərə malik ola bilərəm?

* * *

Tay-tszun dedi:

-Əvvəllər Tan Tszyan türklərin yanına elçi göndəriləndə, siz onlara hücum edib, darmadağın etmək üçün imkandan istifadə etdiniz. Adamlar danışırdılar ki, siz Tan Tszyanı «qayıtmaz casus» kimi istifalə etmisiniz. İndiyə qədər mənim bu barədə şübhələrim var. Siz nə deyirsiniz?

Li Tszin iki dəfə təzim edərək, cavab verdi:

- Tan Tszyan və mən eyni dərəcədə əlahəzrətə xidmət etmişik. Mən düşünürdüm ki, onları barışıq yolu ilə tabe etməyə inandırmaq üçün Tan Tszyanın təklifləri kifayət etməyəcək. Buna görə mən ordu ilə gedib onlara hücum etmək imkanını qaçırmadım. Böyük təhlükəni kənarlaşdırmaq naminə mən ədalət qayğılarını bir kənara qoydum. Adamlar Tan Tszyanı qayıtmaz casus hesab etsələr də, bu mənim məqsədim deyildi.

Sun-tszıya görə, casuslardan istifadə olunması axırıncı vasitədir. Bir dəfə mən bu məsələnin müzakirəsini hazırladım və sonda dedim:

«Su qayığı apara bilər, ancaq o qayığı çevirə də bilər. Bəziləri casusdan uğur qazanmaq üçün istifadə edir; başqaları casuslara arxalanaraq devrilmiş və ya darmadağın edilmiş olurlar».

Əgər bir nəfər saçlarını hörür və hökmdara xidmət edirsə, saray əhli qarşısında üzündə lazımi ifadə ilə dayanırsa, sadiq və təmizdirsə, etibarlı və tamamilə səmimidirsə, bu zaman, əgər başqası yaxşı casusluq edirsə belə, ixtilaf salmaq üçün ondan necə istifadə etmək olar? Tan Tszyanla bağlı hal – ikinci dərəcəlidir. Əlahəzrətin nə şübhələri var?

Tay-tszun dedi:

-Həqiqətən, «humanistlik və ədalət olmadan casuslardan istifadə etmək olmaz». Adi adam bunu necə edə bilər? Əgər böyük ədalət hissi olan Çjou-qun[24] qohumlarını məhv etdisə, o zaman bir elçi haqqında nə demək olar? Aydındır ki, şübhəli heç nə yoxdur.

* * *

Tay-tszun dedi:

-Ordu «ev yiyəsi» olmağı xoşlayır və «qonaq» olmağı sevmir. O, cəldliyi sevir, yubatmanı yox. Niyə?

Li Tszin dedi:

-Ordudan başqa çıxış yolu olmadıqda istifadə edirlər. Buna görə, «qonaq» olub uzun müddət döyüşməyin nə mənası var? Suntszı deyir: «Azuqəni uzağa apardıqda, sadə xalq müflis olur». Bu– «qonağın» əldən düşməsidir. O, həm də deyir: «Adamlar iki dəfə əsgərliyə çağrılmamalı, sursatlar üç dəfə daşınmamalıdır». Bu müharibəni uzatmağın fəlakətli təcrübəsindən irəli gəlir. Mən ev sahibinin və qonağın strateji qüvvəsini müqayisə və götür-qoy edəndə, qonağın ev sahibinə, sahibinsə qonağa çevrilmək taktikası meydana çıxır.

Tay-tszun soruşdu:

-Siz nəyi nəzərdə tutursunuz?

Li Tszin dedi:

-Düşmənin sursat və azuqəsini qarət edib ələ keçirdikdə, qonaqdan ev sahibinə çevrilirsən. «Əgər elə edə bilsən ki, toxlar ac olsunlar, dincələnlər isə yorulsunlar», bununla ev sahibini qonağa çevirərsən. Buna görə də orduya ev sahibi və ya qonaq, yavaş və iti olmaq əmr ounmayıb, o daim məhdudiyyətlərlə üzləşərək və bununla da forma alaraq sadəcə hərəkətə diqqət yetirir.

Tay-tszun dedi:

-Qədimlər buna bənzər hallarla rastlaşıbmı?

Li Tszin dedi:

-Qədim zamanda Yue iki qoşunla, biri soldan, o biri sağdan, U üzərinə hücum etdi. Şeypur və təbillər çalınıb, hücum əmri veriləndə, U, onlara qarşı durmaq üçün qoşunlarını iki yerə böldü. O zaman Yuenin orta ordusu gizlicə çayı keçdi. Təbilləri çalmayaraq o, qəfil həmlə etdi və Unun ordusunu darmadağın etdi. Qonağın ev sahibinə çevrilməsi halı budur.

Şi Le Tszi Çjanla döyüşərkən, Çjanın ordusu uzaqdan gəldi. Şi Le Kun Çanı ön qoşunlarla irəli göndərdi ki, Çjan ordusuna nəzarət etsinlər. Kun Çan geri çəkildi, Çjan isə onu təqib edərək, hücum etməyə başladı. Belə olduqda Şi Le hər iki tərəfdə pusquda gizlənmiş qoşunları döyüşə buraxdı. Çjin ordusu ağır məğlubiyyətə uğradı. Bu yorulmuş qoşunun dincəlmiş qoşuna çevrilməsinə misaldır. Qədim adamlarla belə hallar çox olurdu.

* * *

Tay-tszun dedi:

-Dəmir «kirpilər» və ov nizələrini Tay-qunmu hazırlayıb?

Li Tszin dedi:

-Bəli. Ancaq onlardan yalnız düşmənə müqavimət göstərmək üçün istifadə olunurdu! Ordu adamların itaət etməsini qiymətləndirir və onlara qarşı durmağı arzulamır. «Altı məxfi təlim»də Tay-qun silahlandırmanı müdafiə və düşmənin hücumunu dəf etmək üçün müzakirə edir, hücumda istifadə üçün yox.

III KİTAB

Tay-tszun dedi:

-Tay-qun iddia edirdi: «Piyada qoşunlar cəng arabaları və süvari dəstə ilə döyüşə girdikdə, təpələrin, qəbir kurqanlarının, yarğanların və dərələrin əlverişli vəziyyətlərindən istifadə etməlidir». Sun-tszı da demişdir: «Səma yarıqlarına bənzər ərazi, təpələr, qəbir kurqanları və köhnə istehkamlar ordu tərəfindən tutulmamalıdır». Bu haqda nə deyərsiniz?

Li Tszin dedi:

-Müharibənin uğurla aparılması ürəklərin birliyindən asılıdır. Ürəklərin birliyi əlamətlərin qadağan olunmasında və şübhələrin aradan qaldırılmasındadır. Əgər sərkərdənin şübhələndiyi və qorxduğu bir şey olarsa, onun hissləri sarsılmış olacaq. Hisslər sarsıldıqda isə, düşmən hücum etmək üçün çatlardan istifadə edəcək. Buna görə düşərgənin mühafizəsində, yaxud ərazinin müdafiə edilməsində hər şey insanın səylərindən asılıdır! Sıldırım yamaclar, dərin dərələr, yarğanlar, hündür divarlı keçidlər, «təbii zindanlar» kimi ərazilər və kol basmış torpaqlar insanın işi üçün yaramır. Buna görə hərbi strateqlər düşmənə vəziyyətdən yararlanmağa imkan verməmək üçün, ora qoşun yeritməkdən çəkinirlər. Təpələr, qəbir kurqanları və köhnə istehkamlar– ayrılmış ərazi deyil və təhlükə doğurmur. Əgər biz onları ələ keçirmişiksə, bu mənfəət olacaq, buna görə də dönüb getmək və onları qoyub qalmaq necə düz ola bilər? Tay-qunun dediyi hərbi işlərin əsil mahiyyətidir.

Tay-tszun dedi:

-Mən düşünürdüm ki, güc vasitələri arasında ordudan dəhşətlisi yoxdur. Əgər ordunu insan işləri üçün faydalı şəkildə toplasan, bəd əlamətlərdən qaçmaq xatirinə necə şübhə etmək olar? Əgər gələcəkdə sərkərdələrdən hər hansı biri in və yan, yaxud nəhs nişanələr üzündən lazımi tədbirlər görməsə, siz onun ipini çəkməli və öyrətməlisiniz.

Li Tszin razılıq əlaməti olaraq iki dəfə təzim etdi və dedi:

-«Vey Lyao-tszı»da deyilənləri xatırlayıram: «Sarı İmperator onların yaxşılarını mühafizə edirdi, lakin zalımları cəzalandırırdı. Bu

cəzalara və məziyyətlərə aiddir, əlverişli fəsil və günlərin seçilməsinə yox». Buna görə «Hiyləgərlik Daosunun» köməyilə qoşunu onlara əməl etməyə məcbur etmək lazımdır. Ancaq qoşuna bu haqda bilməyə imkan vermək olmaz. Sonrakı sərkərdələr sirli üsullar içində dolaşıb qalmışdılar və buna görə də çox vaxt məğlub olurdular. Onları xəbərdar etməmək olmaz. Əlahəzrətin müdrik nəsihətlərini bütün sərkərdələr arasında yaymaq lazımdır.

* * *

Tay-tszun dedi:

-Ordu aralanıb yenidən birləşəndə, hər bir halda vacibdir ki, hərəkətlər düzgün olsun. Qədimdəkilərin işləri haqda yazılara görə, kim bu işə müvəffəq olub?

Li Tszin dedi:

-Fu Tszyan milyon nəfərlik orduya komandanlıq edirdi və Fey çayı yaxınlığında məğlub edildi. Ordunun birləşə bilməsi, ancaq bölünməyə qadir olmaması görün nəyə gətirib çıxarır. U Xan Qun-sun Şunu[25] sakitləşdirən zaman, qoşunu köməkçisi Lyu Şanla göndərdi. Onlar iyirmi li məsafədə düşərgə saldılar. Qun-sun Şu qabağa gedərək, U Xana hücum etdi. Lyu Şan U Xanla birləşmək üçün irəliləyərək hücum etdikdə, Qun-sun Şu ağır məğlubiyyətə uğradı. Əgər ordu ayrıla, sonra yenidən birləşə bilirsə, belə nəticə qazanmaq olar. Tay-qun dedi: «Ayrılmaq istəyən, ancaq bunu bacarmayan qoşun– tələyə salınmış ordudur; yenidən birləşmək istəyən, ancaq bacarmayan qoşun– tənha ordudur».

Tay-tszun dedi:

-Hə. Fu Tszyan ilk dəfə Van Manı əldə edəndə, Van Man müharibəni necə aparmağı bilirdi və sonra orta düzəngahı tutdu. Van Man öldükdə, Fu Tszyan sarsıdıcı məğlubiyyətə uğradı[26]. Bu, «tələyə düşmüş ordunun»mu məğlubiyyəti idi? İmperator Quan-u-di U Xanı təyin edəndə, ordu uzaqdan idarə edilmirdi və Xan şahlığı Şu torpağını ram edə bildi. Məgər bu ordunun «tənha qoşun» adlandırılan vəziyyətə düşmədiyini bildirmir? On min nəsil üçün güzgü ola biləcək nailiyyətlər və itkilər haqqında tarixi qeydlər kifayət qədərdir.

* * *

Tay-tszun dedi:

-Hesab edirəm ki, hərbi təlimlərin min fəsli və on min cümlə bir fikri üstələmir: «səhvlər etməyə məcbur etmək üçün, müxtəlif üsullardan istifadə et»[27].

Xeyli susduqdan sonra, Li tszin dedi:

-Doğrudur. Bu belədir. Adətən, müharibədə, əgər düşmən səhv etmirsə, bizim ordu onu necə məğlub edə bilər?

Bunu şahmatdakı vəziyyətlə– iki rəqib eyni qüvvəyə malik olduqda– müqayisə etmək olar. Biri səhvə yol verdiyində, onu heç nə xilas edə bilməz. Buna görə, qədimlərdə də, indi də, qələbə və

məğlubiyyət bircə səhvdən irəli gəlir. Səhvlər xeyli olduğunda nədən danışasan?

* * *

Tay-tszun dedi:

-Hücum və müdafiə həqiqətənmi birdilər? Sun-tszı deyirdi: «Kimsə məharətlə hücum etdiyi vaxt, düşmən haradan müdafiə olunacağını bilmir. Bir kimsə bacarıqla müdafiə olunduqda, düşmən haradan hücum edəcəyini bilmir». O, düşmənin mənim üzərimə, mənim də düşmən üzərinə hücum etdiyim vəziyyətdən danışmır. Əgər biz müdafiə mövqeyi tutmuşuqsa, düşmən də müdafiə mövqeyindədirsə, əgər hücumda da, müdafiədə də bizim qüvvələrimiz bərabərdirsə, hansı taktikanı seçmək lazımdır?

Li Tszin dedi:

-Qarşılıqlı hücum və ya qarşılıqlı müdafiə halları əvvəlki əsrlərdə çox olub. Onlar hamısı bunu deyir: «Kifayət qədər güc olmadıqda, müdafiə olunurlar. Qüvvə artıq olanda hücum edirlər». Deməli, onlar çatışmazlığı zəiflik, artığı isə– qüvvə adlandırırdılar. Görünür, onlar hücum etmək və müdafiə olunmaq qaydalarını başa düşmürdülər. Sun-tszının dediyi bir fikri xatırlayıram: «Qələbə çala bilməyən müdafiə olunur, qələbə çalmağı bacaran, hücum edir». Bu o deməkdir ki, əgər düşməni fəth etmək olmazsa, mən müvəqqəti müdafiə mövqeyi tutmalıyam. Düşməni fəth edə biləcəyimizi gözləyib, buna nail olduqda, onun üzərinə hücum edəcəyik. Bu, zəiflik və güc haqqında qərar deyil. Sonrakı nəsillər onun sözlərinin mənasını başa düşməyiblər. Buna görə də, onlar hücum etməli olduqları vaxt müdafiə olunurlar, müdafiə olunmalı olduqda isə hücum edirlər. Bu iki şeyin öz vaxtı və öz qaydaları var.

* * *

Tay-tszun dedi:

-Görürəm ki, artıq və çatışmazlıq anlayışları nəsilləri güc və zəifliyi başa düşməməyə gətirib çıxarıb. Ola bilsin onlar müdafiə strategiyasının mahiyyətinin düşmənə çatışmazlığı göstərməkdə olduğunu bilmirdilər. Hücum strategiyasının mahiyyəti, düşmənə artığı göstərməkdədir. Əgər düşmənə çatışmazlıqları göstərsən, o irəli gedəcək və hücum edəcək. Bu halda «düşmən haradan hücum etməyi bilmir». Əgər düşmənə artığı göstərsən, o müdafiə mövqeyi tutacaq. Bu halda «düşmən harada müdafiə olunacağını bilmir». Hücum və müdafiə– bir dənədir, ancaq düşmən və mən onu ikiyə bölürük. Əgər mən müvəffəqiyyət qazansam düşmən darmadağın ediləcək. Əgər düşmən uğur qazansa, mən məqsədlərimə nail ola bilməyəcəm. Nailiyyət və ya itki, uğur yaxud uğursuzluq– bizim və düşmənin məqsədlərimiz müxtəlifdir, ancaq hücum və müdafiə– birdir! Əgər onların bir şey olduğunu başa düşürsənsə, o zaman yüz döyüşdə yüz qələbə qazanarsan. Buna görə deyiblər: «Əgər özünü

və düşməni bilirsənsə, yüz döyüşdə belə təhlükədə qalmazsan». Bu belə birliyi başa düşmək deməkdir, elə deyilmi?

Li Tszin iki dəfə təzim etdi və dedi:

-Həqiqətən kamil müdrikin qaydaları əladır. Hücum– müdafiənin strategiyasıdır, müdafiə– hücumun strategiyasıdır. Hər ikisi qələbəyə yönəlib, vəssalam! Əgər hücum zamanı müdafiəni, müdafiə zamanı hücumu başa düşmürsənsə, bunun əvəzinə isə nəinki onları iki ayrı-ayrı işə bölürsən, hətta onlara cavabdehliyi ayrı-ayrı komandirlərə tapşırırsansa, bu zaman dodaqların Sun-tszı və U-tszının sözlərini təkrarlayırsa belə, qəlbində hücum və müdafiənin bərabərliyinin ağlasığmazlığı haqda fikirlər yoxdur. O zaman əslində nə baş verdiyini necə bilmək olar?

* * *

Tay-tszun dedi:

-«Sıma fa»da deyilir ki, «dövlət böyük olsa belə, müharibəni sevənlər mütləq həlak olacaqlar» və «əgər Çində əmin-amanlıq hökm sürürsə belə, müharibə haqqında unudanlar mütləq təhlükə qarşısında qalacaqlar». Bu da hücum və müdafiənin yollarından biridirmi?

Li Tszin dedi:

-Əgər bir kəsin dövləti və ailəsi varsa, hücum və müdafiəni necə müzakirə etməmək olar? Hücum vaxtı yalnız şəhərlərin alınması və döyüş sıralarına hücumla kifayətlənmirlər. Mütləq ağıllara hücum sənətini bilmək lazımdır. Müdafiə divarların tikilməsi və möhkəm sıraların yaradılması ilə bitmir. Döyüş ruhunu saxlamaq və düşmənlə görüşə hazır olmaq vacibdir. Sözün geniş mənasında bu idarəetmənin Daosu deməkdir. Məhdud mənada bu sərkərdənin qaydaları deməkdir. Ağıllara hücum etmək– «onları bilmək» adlandırılandır. Tsinin (döyüş ruhunun) saxlanması– «özünü bilmək» kimi başa düşüləndir.

Tay-tszun dedi:

-Ədalətlidir! Mən döyüşə başlamaq istərkən, rəqibin ağlını qiymətləndirirdim və onu öz ağlımla müqayisə edirdim ki, kimin daha yaxşı hazırlıqlı olduğunu müəyyən edim. Ancaq onda mən düşməni bilə bilirdim. Rəqibin tsisini qiymətləndirmək üçün mən onu öz döyüş ruhumuzla müqayisə edərək, kimin daha yaxşı idarə olunduğunu müəyyən edirdim. Ancaq belə olduqda mən özümü tanıya bilirdim. Buna görə, «onları və özünü bilmək»– bu hərb strateqlərinin çox böyük mahiyyətidir. İndiki sərkərdələr, əgər düşməni tanımırlarsa belə, özlərini tanımalıdırlar, belə olduqda onlar üstünlüyü necə itirə bilərlər?

Li Tszin dedi:

- Sun-tszının «əvvəlcə özünü məğlubedilməz et» dediyi– «özünü tanımaqdır».

«Düşməni məğlub etmək mümkün ola biləcəyinə qədər gözləmək»– «onu tanımaqdır». Bundan əlavə, o, deyirdi ki, «məğlubedilməz olmaq özündən asılıdır, qələbə çalmaq– düşməndən». Mən bu xəbərdarlığa laqeydlik göstərməyə heç vaxt cürət etməmişəm.

* * *

Tay-tszun dedi:

-Sun-tszı, köməyilə üç ordunun tsisini məhv etməyin mümkün olduğu strategiyalar haqqında danışırdı: «Səhər onların ruhu alovlanır; gündüz onların ruhu solur; alaqaranlıqda onların ruhu tükənir. Müharibəni məharətlə aparan kəs, alovlanan tsidən qaçır və zərbəni tsi solğun və ya taqətdən düşmüş olanda endirir». Bu necədir?

Li Tszin dedi:

-Həyata və təbii xarakterə malik olan hər bir adam, təbillər döyüşə girməyə səsləyəndə, gizli niyyəti olmadan öldürsə, onu belə olmağa vadar edən tsidir. Buna görə, müharibə aparmaq qaydaları birinci növbədə öz komandirlərini və qoşunu öyrənməyi, onların ruhunu qələbəyə həvəsləndirməyi, və yalnız bundan sonra düşmənə hücum etməyi tələb edir. U Tsinin dörd həyat nöqtəsi içərisində tsi nöqtəsi– ən əsasıdır.

Başqa Dao yoxdur. Əgər öz adamlarını coşdurmağı bacarırsansa, heç kim onların coşğunluğuna qarşı dayana bilməz. Sun-tszının səhər alovlanan tsi dediyi ancaq bu saatlarla məhdudlaşmır. O, müqayisə üçün başlanğıc və sonu istifadə etmişdi. Ümumiyyətlə, əgər təbil üç dəfə çalınıbsa, düşmənin döyüş ruhu solmayıbsa və yox olmayıbsa, onu solğun olmağa və tükənməyə necə məcbur etmək olar? Ola bilər ki, mətni öyrənənlər, sadəcə, boş sözlər danışırlar və düşmən onları çaşdırıb. Əgər onlara tsinin aradan qaldırılması prinsiplərini öyrətsən, onlara ordu etibar etmək olacaq.

* * *

Tay-tszun dedi:

- Bir dəfə siz dediniz ki, sərkərdə Li Tszi hərb strategiyası sahəsində çox istedadlıdır. Onu məhdudiyyətsiz istifadə etmək olarmı, ya yox? Əgər mən daha ona rəhbərlik etməyəcəmsə, qorxuram ki, ondan istifadə etmək mümkün olmasın. Gələcəkdə vəliəhd onu necə istiqamətləndirməlidir?

Li tszin dedi:

- Əgər mən əlahəzrətin adından plan tərtib etsəydim, Li Tszinin yerini dəyişdirməkdən və vəliəhdin ondan yenə istifadə etməsi üçün şərait yaratmaqdan yaxşı heç nə ola bilməzdi. O zaman

o, əlbəttə ki, çox razı olacaq və vəliəhdə əvəzini vermək istəyəcək. Prinsipcə, bunun nə ziyanı var?

Tay-tszun dedi:

- Çox gözəl! Mənim bu haqda heç bir şübhəm yoxdur.

* * *

Tay-tszun dedi:

-Əgər mən Li Şi-tszi və Çjansun U-tsziyə ikilikdə idarəetməni əmr etsəm, bu haqda fikriniz nədir?

Li Tszin dedi:

-Li Tszi sədaqətli və ədalətlidir. Mən zəmanət verə bilərəm ki, o, öz vəzifələrini yerinə yetirəcək. Çjansun U-tszi sizin əmrlərinizə riayət edib və böyük xidmətləri olub. O, qohum olduğu üçün əlahəzrət onu nazir təyin etdi. Zahirdə o, başqa məmurlara hörmətlə yanaşsa da, əslində o, ləyaqətlilərə paxıllıq edir. buna görə, Yuy-çjin Tszin-de[28] onun ayıblarını üzünə dedi və işlərdən uzaqlaşdı. Köhnə dostlarını unutduğu üçün Xou Tszyun-tszinin[29] ondan zəhləsi gedirdi, nə oldu? O, qiyam qaldırdı və sizə qarşı çıxdı. Bütün bunlar U-tsziyə görə baş verdi. Siz soruşdunuz, mən də bunun müzakirəsindən yayınmağa cürət etmədim.

Tay-tszun dedi:

-Bu söhbəti uzatmayın. Bunu necə düzəltmək haqqında fikirləşərəm.

* * *

Tay-tszun dedi:

-Xan imperatoru Qao-tszu öz sərkərdələrinə komandanlıq edə bilirdi, lakin sonralar Xan Sin və Pen Yue edam olundular, Syao Xe isə həbsxanaya atıldı[30]. Bunun üçün hansı əsaslar var idi ki?

Li Tszin dedi:

-Güman edirəm ki, nə Lyu Ban, nə Syan Yuy sərkərdələrə komandanlıq etməyə qadir hökmdarlar deyildilər. Tsin dövləti süqut etdikdə, Çjan Lyan əvvəlcə öz Xan dövlətinin intiqamını almaq istədi, Çen Pin və Xan Sin hər ikisi, Syan Yuy onları xidmətə götürmək istəməyəndə hiddətləndilər. Buna görə də, onlar Xan dövlətinin strateji qüdrətindən istifadə etdilər. Syao Xe, Tsao Tsan, Fan Kuay və Quan İn– onlar hamısı qaçaraq həyatlarını xilas etdilər. Xan hökmdarı Qao-tszu onlara arxalanaraq Çini istila etdi. Əgər o, altı dövlətin gələcək nəsillərinə yenidən taxta oturmağa icazə versəydi, hamısı öz əvvəlki şahlıqlarını seçərdilər. O zaman o, sərkərdələrə komandanlıq edə bilsəydi belə, Xan dövləti kimdən istifadə edə bilərdi? Mən demişdim ki, Xan dövləti Çini Çjan Lyanın Qao-tszudan yemək çubuqlarını aldığına görə və Syao Xenin su daşımalarını idarə etməsi sayəsində əldə etmişdi. Belə çıxır ki, Xan Sini və Pen Yueni edam etmələri və Fan Tszenin Syan Yue tərəfindən istifadə edilmədiyi– eyni şeydir. Buna görə mən Lyu Banı və Syan Yunu sərkərdələrə komandanlıq etməyə qadir olmayan hökmdarlar adlandırıram.

* * *

Tay-tszun dedi:

-Geçikmiş Xanın imperatoru, sülaləni bərpa etmiş Quan-u-di özünün əməkdar sərkərdələrini onlara dövlət işlərini tapşırmadan əldə saxlaya bildi. Sərkərdələrə komandanlıq edərkən bu yaxşıdırmı?

Li Tszin dedi:

-İmperator Quan-u-di Erkən Xan dövrünün şöhrətindən faydalandısa da və əvvəlcə asanlıqla uğur əldə etdisə də, ancaq Van Manın strateji gücü Syan Yudakından az deyildi, sərkərdələr Kou Syun və Den Yuy isə Syao Xe və Tsao Tsanı üstələmirdilər. O, tək özü təmiz ürəyini göstərə, istedadlı məmurlardan istifadə edə və ona sədaqətli olanları və yaxşıları tamamilə qoruyub saxlaya bildi. Buna görə də o, Qao-tszudan çox hörmətlidir. Beləliklə, əgər biz sərkərdələrə komandanlıq etmək bacarığını müzakirə etsəydik, mən deyərdim ki, imperator Quan-u-di buna nail olmuşdu.

* * *

Tay-tszun dedi:

-Qədimlərdə, ordunu yola salanda və sərkərdə təyin edəndə, hökmdar üç gün oruc tutmaqla hazırlıq ayinini yerinə yetirərmiş. Sonra o, «yue» baltasını sərkərdəyə verərək deyərdi: «Bundan yuxarıdakı Səmaya qədər– hər şey ordunun sərkərdəsi tərəfindən idarə olunur». Daha sonra o, «fu» baltasını sərkərdəyə verər və deyərdi: «Bundan aşağıdakı Torpağa qədər– hər şey ordu sərkərdəsi tərəfindən idarə olunur». Sonra hökmdar sərkərdənin cəng arabasının təkərinin topunu itələyib deyərdi: «Hücum və geriçəkilmə vaxtında olmalıdı. Yürüşdə olarkən bütün ordu hökmdarın deyil, sərkərdənin əmrlərinə tabe olur». Görürəm ki, uzun zamandı bu mərasimə laqeyd yanaşırlar. Bu gün mən sizinlə birlikdə sərkərdənin təyin olunması və yola salınması mərasimini tətbiq etmək istərdim. Siz nə deyirsiniz?

Li Tszin dedi:

-Kamil müdriklərin bu mərasimi, həmçinin də məbəddə oruc tutmalarını ruhlardan qorxuducu qüvvə və ruh yüksəkliyi almaları üçün etdiklərini deməyə cürət edirəm. «Fu» və «yue» baltalarının təqdim edilməsi, həmçinin cəng arabasının təkərinin topunun itələnməsi hakimiyyət verilməsi vasitələri idi. Bu gün əlahəzrət nə zaman qoşun göndərsə, siz, sözsüz, bunu fikirləşir və yüksək rütbəli məmurlarla müzakirə edirsiniz, bu barədə məbəddə elan edirsiniz, və bundan sonra qoşunları yola salırsınız. Bu ruhların dəvətidir. Siz sərkərdəni nə vaxt təyin etsəniz, həmişə ona işləri şəraitin tələb edəcəyi kimi idarə etməyi əmr etmisiniz. Bu ona böyük hakimiyyət verilməsidir. Oruc saxlamaq və təkər topunu itələməkdən fərq nədədir? Bu qədim mərasimlə tam harmoniyadadır, onların mənası eynidir. Nə isə yeni bir məsələni həll etmək üçün məsləhətləşməyə lüzum yoxdur.

Hökmdar dedi:

-Çox gözəl!– sonra yanındakı məmurlara bu iki üsulu gələcək nəsillər üçün nümunə kimi yazmağı əmr etdi.

* * *

Tay-tszun dedi:

-İn və yanın falabaxma praktikasını rədd etmək olarmı?

Li Tszin dedi:

-Olmaz. Müharibə– hiyləgərlik Daosudur. Buna görə əgər biz in və yanın falabaxma praktikasına inanırıqsa, o zaman axmaq və acgözlərə təsir edə bilərik. Onu rədd etmək olmaz!

Tay-tszun dedi:

-Bir dəfə demişdiniz ki, əlverişli fəsil və günlərin seçilməsi– bilikli sərkərdələr üçün deyil. Yalnız cahil sərkərdələr buna tərəfdardılar, buna görə də, bu seçimi rədd etmək daha yaxşı olardı.

Li Tszin dedi:

-Tiran Çjou, çjay-tszı kimi qeyd olunmuş gündə həlak oldu; U-vanın həmin gündə işi gətirdi. Əlverişli fəsil və günlərə görə, çjay-tszı– birinci gündü. Şan dövlətində hərc-mərclik idi. Çjou isə yaxşı idarə olunurdu. Çiçəklənmə və tənəzzül bu halda müxtəlifdir. Bundan başqa, Sun imperatoru U-di öz qoşunlarını «ölümə gedən gün» toplamışdı. Ordudakı bütün komandirlər bunu yolverilməz hesab edirdilər, ancaq imperator dedi: «Mən irəli gedəcəm və düşmən həlak olacaq». Həqiqətən də o, düşmənə qalib gəldi. Bu hallara istinad edərkən aydın olur ki, seçimi rədd etmək olar.

Lakin, Tyan Tanı Yan mühasirəyə aldığı vaxt, Tan bir nəfərə ruh obrazında göz qabağına gəlməyi əmr etdi. O, təzim edərək ona müraciət etdi və ruh dedi ki, Yanı məhv etmək olar. Sonra Tan hücuma başlamaq üçün alovlanan heyvanlardan istifalə etdi və Yana hücum edərək onları darmadağın etdi. Hərb mütəfəkkirlərinin hiyləgərlik Daosu bundadır. Əlverişli fəsil və günlərin seçimi bununla oxşardır.

* * *

Tay-tszun dedi:

-Tyan Tan taleyini sirli olana etibar etdi və Yanı məhv etdi, Tay-qun isə boymadərən gövdəsi və tısbağa qını yandırdı, ancaq yenə də tiran Çjounu məhv etmək üçün hücum etdi. Bu necə olur, axı, bu iki hərəkətələr bir-birinə ziddir?

Li Tszin dedi:

-Ağlasığmaz məqsədlər eyni idi. Biri qaydaların əksinə hərəkət etdi və düşməni ələ keçirdi, o birisi– qaydalara uyğun hərəkət etdi və öz hesabını həyata keçirdi.

Qədimlərdə, Tay-qun U-vana kömək etdiyi vaxtda, onlar Mueyə gəlib çatdılar və burada ildırım və yağışa düşdülər. Bayraqlar və təbillər sınmış və ya məhv olmuşdu. San İ-şen hücumdan əvvəl müsbət fikir üçün fala baxmaq istədi. Bu elə bir haldır ki, ordudakı tərəddüd və qorxu üzündən o düşünürdü ki, ruhlardan soruşmaq

üçün onlar falabaxmaya inanmalıdırlar. Ancaq Tay-qun əmin idi ki, çürümüş ot və qurumuş sümüklərdən nəyisə soruşmağına dəyməz. Bundan başqa, tabeçilikdə olan öz hökmdarına hücum etdiyi halda məgər belə bir imkan yenə də olacaqmı? Mən hesab edirəm ki, San İ-şen öz məqsədlərini başlanğıcda göstərdi, Tay-qun isə onlara sonra nail oldu. Əgər hətta birisi falabaxma praktikasına zidd idisə, o birisi ona əməl edirdisə, bunun səbəbləri eyni idi. Əvvəllər mən bu praktikanı rədd etməyin lazım olmadığını deyəndə, bunu işlər özünü göstərənə qədər döyüş ruhu çox mühüm həddini qoruyub saxlamaq üçün edirdim. Bu işlər uğurlu olacaqmı, bu ancaq insan səyindən asılıdır, vəssalam!

* * *

Tay-tszun dedi:

-Hal-hazırda cəmi üç yaxşı sərkərdə var– Li Tszi, Li Dao-tszun və Syue Van-tse. Li Dao-tszunun qohumundan başqa kim böyük məsuliyyəti öz üzərinə götürə bilər?

Li Tszin dedi:

-Əlahəzrət bir dəfə demişdi ki, müharibə apararkən, Van-tsenin böyük qələbə çalmasa da, mütləq ciddi məğlubiyyətə düçar olacağı halda, Li Tszi və Li Dao-tszun böyük qələbələr qazanmayacaq, ancaq sarsıdıcı məğlubiyyətə də düçar olmayacaqlar. Öz cahilliyimlə sizin müdrik sözləriniz haqqında düşündüm. Böyük qələbələr axtarmayan, ancaq ciddi məğlubiyyətə də uğramayan ordu, itaətkar və nizamlıdır. Böyük qələbə qazanmağı bacaran və ya dəhşətli məğlubiyyətə düçar ola bilən ordu, uğur əldə etmək üçün müvəffəqiyyətə ümid edir. Buna görə, Sun U deyirdi: «Hərb işini gözəl bilən kəs, elə vəziyyət yaradır ki, onu darmadağın edə bilməsinlər, eyni zamanda o, düşməni məhv etmək üçün istənilən imkanı əldən buraxmır». Bu onu göstərir ki, məhdudiyyət və intizam bizdən asılıdır.

* * *

Tay-tszun dedi:

-İki ordu yaxınlaşdığı vaxt, əgər biz döyüşə girmək istəmiriksə, buna necə nail olmalı?

Li Tszin dedi:

-Qədimlərdə Tszin ordusu Tsin üzərinə hücum etdi, döyüşə girdi, sonra isə geri çəkildi. «Sıma fa»da deyilir: «Qaçan düşməni çox uzaq təqib etmə və geri çəkilən orduya yaxınlaşma». Mən geri çəkilənləri «yüyəndə olanlar» adlandırıram. Əgər bizim ordumuz itaətkar və intizamlıdırsa, düşmən ordusunun sıraları və «beşlikləri» də yaxşı idarə olunurlarsa, hər hansı bir tərəf necə asanlıqla döyüşə girə bilər? Buna görə, hər ikisi irəlilədiyi vaxt toqquşurlar, sonra isə təqib olunmadan geri çəkilirlər. Hər iki tərəf özünü itki və məğlubiyyətdən qoruyur. Sun-tszı deyirdi: «Sahmanlı döyüş sıralarına hücum etmə, sıxlaşdırılmış sıraların yolunu kəsmə». Hər iki tərəfin strateji gücü bərabərdirsə, əgər hər kimsə laqeydliklə hərəkət

etsə, o düşmənə üstünlükdən istifadə etmək imkanı verə bilər və mütləq dağıdıcı məğlubiyyətə uğrayar. Strateji prinsiplər bunu müəyyənləşdirir. Buna görə ordu düşməli olmadığı və döyüşməyə məcbur olduğu vəziyyətlərlə üzləşir. Döyüşə girməmək– bu bizdən asılıdır, döyüşə başlamaq zərurəti düşməndən asılıdır.

* * *

Tay-tszun dedi:

-«Döyüşə girməmək– bu bizdən asılıdır» dedikdə siz nəyi nəzərdə tutursunuz?

Li Tszin dedi:

-Sun U deyirdi: «Əgər döyüşə girmək istəmirsənsə, yerdə bir xətt çək və onu müdafiə et. Onlar bizi döyüşə girməyə məcbur edə bilməzlər, çünki biz onların hərəkət etmələrini pozuruq». Əgər düşmənin bacarıqlı adamları varsa, toqquşma və geri çəkilmə arasındakı fasiləni onsuz da hesablamaq olmaz. Buna görə mən deyirdim ki, döyüşə girməmək bizdən asılıdır. Döyüşə girmənin düşməndən asılı olduğuna gəldikdə, Sun U deyirdi ki, «düşməni məharətlə hərəkətə gətirən kəs, sıralarını elə yerləşdirir ki, düşmən cavab verməlidir. O, düşmənə onun tuta biləcəyini verir. Mənfəətlə düşməni hərəkət etdirir, özünün əsas qüvvələri ilə onu gözləyir». Əgər düşmənin istedadlı komandirləri yoxdursa, onlar mütləq irəli gedəcək və döyüşəcəklər. O zaman mən tutduğum mövqenin üstünlüyündən istifadə edəcək və onları məhv edəcəm. Buna görə mən dedim ki, döyüşə girmək düşməndən asılıdır.

Tay-tszun dedi:

-Həqiqətən çox gözəldir! İtaətkar və intizamlı ordu– müvafiq strategiyaları yerinə yetirdiyi zaman– çiçəklənir, ancaq, əgər onun bu strategiyaları yoxdursa, o məhv olacaq. Zəhmət olmasa, əsrlər boyu məhdudiyyətlər və intizamda müvəffəqiyyət qazananlar haqqında əsərləri toplayın və yazın, onlara sxemlər əlavə edin və mənə təqdim edin. Gələcək nəsillərə ötürmək üçün mən ən əhəmiyyətli olanlarını seçəcəm.

Li Tszin dedi:

-Mən artıq Sarı İmperator və Tay-qunun sıraya düzülmə və «Sıma fa» və Çjuqe Lyanın bilavasitə və çeviklər üçün strategiyaları ilə birlikdə iki sxem təqdim etmişəm. Onlar çox müfəssəldirlər. Bir çox tanınmış sərkərdələr onlardan bir və ya ikisini istifadə etmiş və uğur qazanmışlar. Ancaq saray tarixçiləri hərb işlərini az bilirdilər, buna görə onlar bu sərkərdələrin nailiyyətlərinin mahiyyətini düzgün yaza bilmirdilər. Əlahəzrətin əmrini qəbul etməməyə cürətim çatarmı? Mən sizin üçün toplu və təsvirləri tərtib edərəm.

* * *

Tay-tszun dedi:

-Hərb strategiyasında ən mühüm olan nədir? Li Tszin dedi:

-Bir dəfə mən öyrənənlər üçün asan olsun deyə, onu üç mərhələyə böldüm. Birincisi «Dao», ikincisi– «Səma və Yer», vəüçüncüsü– «Komandanlıq etmə qaydaları».

«Dao»ya gəldikdə, bu ən vacib və ağlasığmaz olanıdır. «İ tszin» bunu «hər şeyi görən və hər şeyi bilən, öldürmədən mənəvi və döyüşkən olan» adlandırır. «Səma» mərhələsində müzakirə edilən, in və yandır; «Yer» mərhələsində müzakirə edilən– dar və yüngüldür. Müharibəni bacarıqla aparan kəs inin köməkliyi ilə yanı qaldıra bilər, darın köməyilə yüngülə hücum edə bilər.

Bu, Men-tszının «Səma fəsilləri və Yerin mənfəəti» adlandırdıqlarıdır. «Komandanlıq etmək qaydaları» adamlardan necə istifadə etməyi və silahın xeyrini müzakirə edir. «Üç strategiya» bunu nəzərdə tutur və lazımi komandirləri olanın tərəqqi edəcəyini israr edir. «Quan-tszı» isə silahın möhkəm və iti olmalı olduğunu iddia edir.

* * *

Tay-tszun dedi:

-Bəli. Mən demişəm ki, döyüşsüz adamları tabe olmağa məcbur edə bilən ordu– ən yaxşı ordudur; yüz döyüşdə yüz qələbə çalan ordu– adi ordudur; müdafiə üçün dərin xəndək və hündür istehkamlardan istifadə edən ordu– ən pis ordudur. Əgər biz bunu müqayisə üçün əsas götürsək, o zaman bütün üç ordu Sun-tszının əsərlərində tamamilə göstərilmişdir.

Li Tszin dedi:

-Əgər biz strateqlərin əsərlərinə diqqətlə baxsaq və onların işlərini bərpa etsək, onları da müqayisə edə bilərik. Misal üçün, Çjan Lyan, Fan Li və Sun U hər şeydən üz döndərərək təkəbbürlə tərkidünyalığa çəkildilər. Onların hara getdiyini heç kim bilmir. Əgər onlar Daonu dərk etməsəydilər, belə edə bilərdilərmi? Yue I[31], Quan Çjun və Çjuqe Lyan həmişə döyüşdə qalib gəlirdilər və müdafiədə yenilməz idilər. Əgər onlar Səmanın fəsillərini və Yerin xeyrini öyrənib, dərk etməsəydilər, necə uğurlar əldə edə bilərdilər? Daha sonra Van Manın Tsini qoruyub saxlaması və An Tszinin Seni müdafiə etməsi gəlir. Əgər onlar görkəmli sərkərdələrdən və seçilmiş bacarıqlı adamlardan istifadə etməsəydilər, bunun öhdəsindən necə gələ bilərdilər? Buna görə, hərb strategiyası aşağıdakından ortadakına, ortadakından yüksəkdəkinə doğru öyrənilməlidir ki, təlimin dərinliyi tədricən başa düşülsün. Əgər belə etməsən, bu sadəcə boş sözlərə arxalanmaqdır. Ancaq onları yadda saxlamaq və təkrarlamaq uğur qazanmaq üçün kifayət etməz.

* * *

Tay-tszun dedi:

-Daoslar sərkərdə olmuş ailənin üç nəslindən qaçırlar. Hərbi təlimləri ehtiyatsız ötürmək olmaz, ancaq ötürməmək də olmaz. Lütfən, bu cəhətə də diqqət yetirin.

QEYDLƏR

1. «Sin Tan şu» («Tanın yeni tarixi»)– Sun sülaləsi dövründə tərtib olunmuş Tan sülaləsinin ikinci «normativ» tarixi.

2. Konfusian konsepsiyasına görə, həyatın ali mənası qədimlərin dediklərinin və kanonlarda həkk olunanların məhiyyətinə varmaq və nəticə kimi şərhin tərtib edilməsidir.

3. Bay Tszi– «Döyüşən şahlıqlar» dövrünün məşhur tsinli sərkərdəsi. Xan Sin – Xan sülaləsinin yaradılmasında əhəmiyyətli rol oynamış məşhur sərkərdə və strateq. Vey Tsi – Xan dövlətinin barbarlarla mübarizədə şöhrət qazanmış ali baş komandanı. Xo Tsyuy-bin– Xan imperatoru U-dinin ən gözəl qoşun başçılarından biri. Qədim hərbi əsərlərə qarşı etinasız olmasına baxmayaraq, onun xidmətləri qeyd edilib.

4. Li Lin (m.ö. 74-cü ilə yaxın vəfat edib)– uğursuz Xan sərkərdəsi. Az saylı qüvvə ilə syun (xunlar) ərazilərinin içərilərinə soxularaq, igidliklə döyüşmüşdür, ancaq sonda əsir götürülmüşdür. Tarixçi Sıma Tsyan («Şi tszi», «Tarixi qeydlər»in müəllifi) onu müdafiəyə qalxmış, buna görə də cəzalandırılmışdır (axtalanmışdır).

5. 626-cı ildə, Tay-tszun taxta çıxdıqdan az sonra, türklər qəfil hücum etmiş, Vey çayını keçmiş və paytaxta yaxınlaşmışlar. Tay-tszun onları məğlub edə bilmədi və fidyə verməyə məcbur oldu.

6. Traktatın adı elə buradan götürülüb– Knyaz Vey (Vey-qun).

7. Koreya yarımadasında aralarında düşmənçilik olan üç şahlıq vardı: Koquryö– şimalda, Silla– şərqdə və Pekçyö– cənub-qərbdə. Xan sülaləsi dövründən başlayaraq, çinlilər Koreya üzərində süzerenitet tətbiq etmək istəyirdilər. Tan sülaləsi Koquryö və Pekçyö alyansı ilə mübarizədə Sillaya dəstək olurdu. Nəhayət, 668-cı ildə Çin ordusu Koquryönü darmadağın etdikdə, Silla bütün yarımadada hegemon dövlət oldu və Tan dövlətinə müqavimət göstərməyə başladı.

8. Qərbi Tszinin IV əsrdə yaşamış məşhur qoşun başçısı.

9. Çjuqe Lyanın qarışıq qoşunların cəbhə boyu düzülməsi üçün tərtib etdiyi məşhur diaqram.

10. Bu cür cəng arabalarında batan silahları bərkidirdilər.

11. Li Tszyan-çen, Tay-tszunun böyük qardaşı və taxt-tacın varisi. Tay-tszun öz atasını devirməmişdən qabaq öldürülmüşdür.

12.Tsao Tsao-Vey şahlığının Üçşahlıq dövründəki sərkərdəsi. «Sin şu» kitabı qalmamışdır. O, həmçinin Sun-tszıya yazılan birinci məşhur şərhin müəllifidir.

13. «Şimali və cənubi sülalələr» dövrünün əvvəlində yaşamış Fu Tszyan Fey çayı yaxınlığındakı döyüşdə, milyon saylı orduya başçılıq etmsinə baxmayaraq, məğlub edildi.

14. 360 ieroqlifdən ibarət müəmmalı mətn. Bu mətn Sarı İmperatora və onun naziri Fen Xouya aid edilir. Ancaq bu mətn, şübhəsiz, «Sun-tszı»dan sonra meydana gəlmişdir, çünki bu əsərdən iqtibaslar verilir.

15. «Tsi»- «çevik» ieroqlifinin başqa, daha az yayılmış oxunuşu olan «tszi» - «qalıq, artıq»a əsaslanan söz oyunudur.

16. Qədimlərdə mövcud olmuş (və ya o dövrə aid edilən) kənd əməyinin təşkilinin əfsanəvi sistemi.

17. «Sıma fa» baharda və payızda keçirilən təntənəli ov mövsümünün xatırlanması ilə başlanır.

18. «Çjou li»də hökmdarın günahkarı cəzalandırmaq ixtiyarı olduğunu göstərən doqquz səbəb sadalanır. Onlar «Sıma fa»nın birinci fəslindəki «doqquz qadağaya» tam oxşardır.

19. Əgər kvadratı doqquz yerə bölsək, o zaman qoşunlar ortanı və qıraqları tutacaq. U-vanın düzülüşü belə idi. Burada hər bir «dəstə»dəki adamların sayı beş min idi.

20. Fan Li– «Baharlar və Payızlar» dövrünün mütəfəkkiri və siyasi xadimi. O, in və yanın çevrilməsinin daimi silsiləsinə əsaslanan hərbi nəzəriyyəni işləyib hazırlamışdı. Onun əsərləri– əgər onlar olubsa– heç biri bu günümüzə qədər qorunub saxlanmamışdır, ancaq bu dövrün digər mətnlərində onlardan fraqmentlərə rast gəlinir.

21. İmperator Quan-u-di Van Manı məhv etdi və Xan sülaləsini bərpa etdi. Sonrakı dövr Şərqi yaxud Gecikmiş Xan dövrü adlanırdı.

22. «Qızılqaşlılar» Van Mana (miladın 8-23-cü illərində hakimiyyətdə olub) qarşı mübarizədə iştirak ediblər. Döyüşdə digərlərindən fərqlənmək üçün onlar qaşlarını qırmızı rənglə boyayırdılar.

23. Yan Qan və Çjun Tszya– «Baharlar və Payızlar» dövrünün iki döyüşçüsü. Tarixi salnamələr onları hərbi intizamı pozanlar kimi xatırlayır. Birinci bağışlanmışdı, baxmayaraq ki, onun faytonçusu edam edilmişdi, ikincinin isə boynu vurulmuşdu.

24.Çjou-qun, U-vanın oğlunun taxta çıxmasına qarşı çıxan öz qardaşlarına qarşı döyüşdə orduya başçılıq edirdi.

25. Van Man vaxtında Qun-sun Şu qubernator və sərkərdə idi. Xan sülaləsinin bərpa edilməsindən əvvəlki qarışıq vaxtda özünü imperator elan etmişdi. U Xanı Qun-sun Şuya qarşı yürüşə göndərərək, imperator Quan-u-di onu birbaşa döyüşdən yayınmaq haqqında xəbərdar etdi.

26. Ölümündən əvvəl Van Man Fu Tszyanı Tszin üzərinə yürüşdən çəkindirdi. Fu Tszyan onun məsləhətini eşitmədi və Fey çayı yaxınlığında məğlub edildi.

27. Sun-tszının tezisi.

28. Yuy-çji Tszin-de– Tan hakimiyyətinin başlanğıc dövrünün çox gözəl sərkərdəsi və dövlət xadimi.

29.Xou Tszyun-tszi– Li Tszinlə bərabər yürüşlərdə iştirak etmiş yüksək rütbəli əyan və sərkərdə. Saray intriqalarında günahlandırılmış və edam edilmişdir.

30. Yue İ– Yan şahlığının sərkərdəsi, Tsiyə qarşı birləşmiş qüvvələrə komandanlıq etmişdir. Sonralar Tyan Tyan tərəfindən casuslardan müdrikcəsinə istifadə nəticəsində tutulmuşdur.

Fəlsəfəsevər fikir adamlarının nəzərinə

"Zəkioğlu" nəşriyyatı öz fəaliyyətinə dünya fəlsəfəsinin ən görkəmli nümayəndələrinin əsərlərinin nəşri ilə başlamışdır. 100 cildlik "Fikir antologiyası" seriyasından böyük filosofların aşağıdakı əsərlərinin nəşri planlaşdırılır.

İ.Kant,	"Prolegomenlər"
Şopenhauer,	"Dünya iradə və təsəvvür kimi";
G. lö Bon,	"Sosializmin psixologiyası";
O.Haksli,	"Yeni cəsur dünya";
Makiavelli,	"Hökmdar"
C.Coys,	"Dublinlilər";
F.Nitsşe,	"Zərdüşt belə buyurdu";
J.Tard,	"Təlqin qanunları";
O. Şpenqler,	"Avropanın qürubu";
Heydər Camal,	"Peyğəmbərlərin inqilabı";
Konfusi,	"Lunyuy"(Kəlamlar)

və başqaları

U-tszin, Hərb sənəti (Qədim Çinin yeddi hərb qanunu).
Bakı, "ZƏKIOĞLU" nəşriyyatı, 2009. 620 səh.

Nəşriyyat direktoru: **İlknur**
Nəşriyyat redaktoru: **Nurlan Umud**

Korrektə edən: ***Gilan***
Dizayner ***Elnur Səxavətoğlu***
Bilgisayar tərtibatçısı ***Rövşanə Nizamiqızı***

Yığılmağa verilmişdir: *22.09. 2009*
Çapa imzalanmışdır: *02. 10. 2009*
Kağız formatı: *70x100 1/16*
Şərti çap vərəqi: *38,7 ç. v..*
Sayı: *500 nüsxə*
Sifariş: *599*

Qiyməti razılaşma yolu ilə

"Zəkioğlu" nəşriyyatı
Bakı, Neftçilər prospekti, 145/181

Kitab «Nurlan» mətbəəsində hazır diapozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap olunmuşdur

Ar 2009
2168

Dövlət xaricdən, ordu saraydan idarə olunmaz



U-tszinin «Hərb sənəti» («Qədim Çinin yeddi hərb qanunu») kitabı min illər boyu davam edən iğtişaşlar və müharibələrdən, dövlətlərin yaranmasından və süqutundan keçərək bizə gəlib çatan nadir, bəlkə də yeganə strateji düşüncəyə aid dərslikdir. Taktika və strategiya məsələlərindən, ordunun və dövlətin idarə olunmasından bəhs edən bu əsər böyük hərbi vəzifələrə keçmək üçün imperator imtahanlarının materialı olmuşdur.

974